# “FİKİR” antologiyası

ÜÇÜNCÜ KİTAB

"FİKİR"
antologiyası

## Ekspert qrupu:

*Adil Əsədov*
*Əli Abbasov*
*Əlisa Nicat*
*Erkin Qədirov*
*Qardaşxan Əzizxanlı*
*Səxavət Zəkioğlu*

3330

**Daniel Yergin**

# NEFT FƏLSƏFƏSİ



## I CİLD

"Zəkioğlu" nəşriyyatı
Bakı - 2006

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Azərbaycan türkcəsinə uyğunlaşdırdı: Əvəz Zeynallı**

Kitab Azərbaycan türkcəsinə "Türkiyə İş Bankı Mədəniyyət Yayımları" seriyasında MİNPA Mətbəəçilik Ticarət və Limited Şirkətində Kamran Tuncayın tərcüməsi ilə nəşr olunmuş və 1999-cü ildə çapdan çıxmış nümunəsindən uyğunlaşdırılmışdır

İSBN 13-978-9952-8080-2-5
İSBN 10 9952-8080-2-X

©"Zəkioğlu" nəşriyyatı, 2006

# İçindəkilər

Tərcüməçidən ........ I
Ön söz ........ 3
**Birinci bölüm: Qurucular** ........ 14

**1**

Düşüncələrimizdəki neft anlayışı. Başlanğıc ........ 15
"Əzablarımızı sakitləşdirmək" üçün ........ 17
İlim-ilim itən professor ........ 19
Qiymət və yenilik ........ 23
"Polkovnik" ........ 32
Çağın işığı ........ 38
İlk partlayış ........ 41
Qafamızdakı Neft ........ 74
Gurultulu hay-küylər ........ 48

**2**

"Planımız". Con D.Rokfeller və Amerikan neftinin birləşməsi ........ 54
"Son dərəcə metodlu" ........ 55
Böyük oyun ........ 58
"Haydı, planımızı həyata keçirək" ........ 64
Savaş, ya da barış ........ 70
Yeni təhdidlər ........ 73
Əmanət- Tröst ........ 76
"Hiyləgər qoca bayquş" ........ 84
Görməyə dəyər möcüzə ........ 91
"Satın ala biləcəyimizin hamısını alaq" ........ 94
Sənayenin qurucusu ........ 100

## 3


Rəqabətə açıq ticarət ........ 104
Ceviz pulu ........ 107
Rus neftinin inkişaf və tərəqqisi ........ 110
Standard Oila qarşı üsyan ........ 116
Sədəf tüccarının oğlu ........ 120
1892-ci il inqilabı ........ 126
Bələdiyyə Məclis üzvü ........ 138
Ölümünə mübarizə ........ 141
Kraliyyət Hollandiya Nefti ........ 145
Hollandiyadan qaynaqlanan əngəllər ........ 152


## 4


Yeni bir yüzül ........ 157
İtirilən və qazanılan bazarlar ........ 157
Yeni Şirkətlər ........ 163
Patillo Higginsin röyası ........ 167
Əsrin Böyük Müqaviləsi ........ 177
"İcazənizlə" deməyə razılaşmayan körfəz ........ 181
Sun Şirkəti "neftdən necə istifadə edəcəyimizi bilməliyik" deyir ........ 193
"Sərt sifətli Joe" və Texaco ........ 195
"Necə nəzarət edə bilərik?" ........ 200


## 5


Əjdahanın qətli ........ 202
Holdinqli Şirkət ........ 204
Neft ehtiraslı xələf ........ 208
Fırtınalar qoparan hadisə ........ 213
Rokfellerin "qadın silahdaşı" ........ 216
Tröst-çatladan ........ 227
Məhkəmə ........ 232
Buraxılma ........ 236
Texnologiyanın liberallaşdırılması ........ 239
Qazananlar ........ 243


## 6


Neft savaşları. Hollandiya Kraliyyət Şirkətinin yüksəlişi, «İmperial Rusiya» şirkətinin çöküşü ........ 245
Vəhşi meşələr ........ 248
Shellin doğuluşu ........ 252
Başı dərddə olan Hollandiya Kraliyyət Şirkəti ........ 254
Bezikdirici adam ........ 257
Birləşməyə doğru atılan ilk addım ........ 262
İngilis-Hollandiya əməkdaşlığı - "Asiya" Şirkəti ........ 265
Deterdingin qələbəsi ........ 269
"Qrup" - Samuel boyun əyir ........ 274
"Haydı Amerikaya!" ........ 281
Rusiya qarışır ........ 284
Rusiyaya qayıdış ........ 291


## 7


Əcəm ölkəsində "Zövqi-səfa" ........ 296
"Ən üst səviyyədə bir kapitalist" ........ 297
Rusiya ilə İngiltərə qarşı-qarşıya ........ 299
İlk təşəbbüs ........ 304
"Hər kisənin bir limiti var" ........ 307
Vətənpərvərlər birliyi ........ 310
Atəş məbədi: Məscidi Süleyman ........ 315
Tehranda üsyan ........ 318
Zamanla yarış ........ 321
"Böyük bir şirkət - Anqlo-Pers" ........ 325

## 8

Taleyin hökm etdiyi təhlükəli dalış ....331
"Neftin xaç atası" ....333
"Made in Germany" ....335
Çörçill müdaxilə edir ....339
Sürət ....344
Admiral cevizin qabığını sındırır ....349
Shelldən gələn təhlükə ....352
Anqlo-Persə yardım ....356
Bir neft qələbəsi ....360

**İkinci bölüm: Qlobal Mübarizə** ....370

## 9

Qələbənin qanı: Birinci Dünya Müharibəsi ....371
Taksilərdən təşkil olunan ordu ....374
Savaşda daxildən partlayan mühərriklər ....378
Havada və dənizdə savaş ....382
Anqlo-Pers Shellə qarşı ....386
Neftdə qıtlıq ....394
Enerji çarı ....399
Sərt və əsrarəngiz adam ....404
Bakı ....410
Qələbəyə doğru ....412

## 10

Orta Şərq qapısının açılması. Türkiyə Neft Şirkəti ....415
Cənab "beş faiz" ....418
Savaşda "birinci kateqoriya" hədəf ....425
Clemenceau və başqalı ....428
Birləşməkmi? ....432
Çörçill işə qarışır ....436
Neft qıtlığı və açıq qapı ....440
Patron Valter Teagle ....448
İraqın Faysalı ....457
Memar ....461
Qırmızı xəttə doğru ....465

## 11

Qıtlıqdan bolluğa. Benzin dövrü ....470
Səyahət əsri ....472
Benzinin cazibəsi ....474
"Teapot" fırtınası ....480
Polkovnik və qiymətli azadlıq sənədləri – bonolar ....492
Geofizik və bəxt ....497
Nüfuzlu iş adamı ....502
Dəniz qabarmağa başlayır ....509
Doğulmaqda olan rəqabət ....512
Bu Allahın cəzalarına bax! ....518

## 12

Yeni istehsal uğrunda savaş ....523
Meksikanın qızıla bərabər yolu ....523
General Gomezin Venesuella adlı "təsərrüfat"ı ....532
Bolşeviklərlə duel ....541
Birləşmiş cəbhə naminə ....548
Qiymət savaşı ....552

## 13

Neft seli ....557
Qara Div ....563
Neft yatağında anarxiya ....568
İslahatçı ....577
Hökümət hərəkətə keçir ....583
Sabitlik ....592

## 14


Dostlar və düşmənlər.....596
Britaniya hökümətinin əli.....600
Neft sənayesindəki problem.....604
Bağlı qapılar arxasında anlaşılmazlıq.....608
Nasionalizm (Milliləşmə).....616
Şahın yeni şərtləri.....618
Meksika müharibəsi.....624
Yeni Sezar qədər cansız.....638


## 15


Ərəb imtiyazları. Frank Holmesin yaratdığı dünya.....642
Bəhreyn və Nyu York Şeyxləri.....646
İbn Səud.....650
Ovsunkarın şəyirdliyi.....657
Müzakirələr.....664
Küveyt.....672
Tam yerində bölgə.....685
Mavi xətt müqaviləsi.....688
Kəşf.....690

**Üçüncü bölüm:** Savaş və strategiya.....696


## 16


Yaponiyanı savaşa aparan yol.....697
Yaponlara inanmalıyıqmı?.....698
Asiyada yeni düzən.....701
Qarantin.....705
Yaponiya irəliləyir. Amerika kəsintiyə gedirdi (Birinci raund).....712
Səssiz keçən danışıqlar.....718
Yamamotonun oynadığı qumar - "Mütləq öləcəyəm".....721
Embarqo.....725
Buna dayana bilmərik.....733
Zaman və silah-sursat gündən-günə azalır.....736
Pearl Harbor.....744
Ən böyük yanlış.....748


## 17


Almaniyanın savaş formulu.....752
Kimyəvi sellüziya.....755
Savaşa hazırlıq.....761
Rusiya savaşı: "Generalların savaşın iqtisadi tərəflərini bilməzlər".....767
Blau əməliyyatı.....773
Rommel və qərargah rəisinin intiqamı.....777
Diqtə və fəlakət.....789
Əsas strateji hədəf.....796
Bulge meydan savaşı - Avropanın ən böyük neft stansiyası.....801
Tanrıların alatoranlığı.....804


## 18


Yaponiyanın güclü topuğu.....806
Qələbədən baş gicəllənməsi.....813
İndi dövran böyüklərindir.....816
Marus müharibəsi: sinir savaşı.....820
Eskadrilyanı xilas etməyin bir mənası qalmadı.....825
İmperator Ordusunun sonu.....831
Sonuna qədər müharibəmi?.....834
Təcili yardım maşını.....842

# Tərcüməçidən

İşlərin və problemlərin ağır olan vaxtında daha bir böyük əsəri Azərbaycan Oxucusuna təqdim etməyin qürurunu yaşayıram. Bu əsər dünyanın son 100 ildə taleyini həll edən, iki böyük dünya müharibəsinin və on milyonlarla insanın ölümünə, eyni zamanda rifahının və güzəranının inkişafına səbəb olan neft haqqındadır. Bütün ötən yüzilliklər boyu insanlığın qət etdiyi məsafə neftin tapılması, işlənməsi və gündəlik yaşama daxil olmasıyla demək olar ki, son mərhələsinə girdi. Artıq neft və ondan əldə edilən məhsullar olmadan nə həyatımızı, nə güzəranımızı, nə istirahətimizi, nə də ümumiyyətlə, hər hansı arzumuzu həyata keçirmək mümkün deyil. Bu əsər neft haqqında dünyanın ən yaxşı araşdırmalarını aparan və bu sahədə avtoritet kimi qəbul olunan Daniel Yerginin "Neft fəlsəfəsi" əsəridir. Adolf Hitlerin "Mənim Savaşım" (Mein Kampf) əsərindən sonra bu böyük əsərin Azərbaycan Oxucusuna təqdim olunması, bu sahədə olan və belə demək mümkündürsə, tüğyan edən boşluğun az da olsa doldurulmasına xidmət edəcək. Bu baxımdan, əslində bir neft ölkəsi olan Azərbaycanda, xüsusilə neft kontraktlarının imzalanmasından sonra, bu əsərin və bu kimi digər böyük əsərlərin tərcümə olunub, Oxucu və mütəxəssislərə təqdim olunması birbaşa dövlətin və neft şirkətlərinin işi olsa da, təəssüf ki, bir çox sahələrdə olduğu kimi, bu sahədə də onların ciddi iş və təşəbbüsləri nəzərə çarpmır. Elə Adolf Hitler məsələsində olduğu kimi, deyəsən, təbii sərvətimiz olan və bizə çox zaman bəlalar gətirən neft və onun dəhşətli tarixi haqqında da oxumağımızı, öyrənməyimizi





istəməyənlər var. Yoxsa Anqolanın, ya da İraqın vəhşi bir qəbiləsinə - maraqları tələb edəndə oxuma-yazma öyrədən, ya da dövlətlərin güclü və qüdrətli olmaması üçün əlindən gələni edib, ölkədaxili qüvvələri bir-birinə salışdırmağa milyonlarla dollar xərcləyən neft şirkətləri niyə bu kimi əsərləri tərcümə etdirməkdə maraqlı olmasınlar ki? Qəribə sualdır, deyilmi?

Amma Daniel Yerginin "Neft fəlsəfəsi" əsərini oxuyanda diqqətli Oxucu bu sualın cavabını tapa bilir. Neft böyük güclərin və böyük imperiyaların gücünün əsas qaynağıdır. Bu, hələ ilk illərdən, neftin "Qaya yağı" kimi tanınan və bilinən dövrlərindən belədir. Bunu bilən və əldə edən qüvvələr tarixin dəyişilməz və basılmaz güclərinə çevriliblər. İstər Birinci, istərsə də İkinci dünya müharibələrində də belə olub. Qoca dünya müharibəsi bir fransız generalın hələ yeni tanınan və Parisin küçələrində boy göstərən 200 taksiyə əsgər dolduraraq ön cəbhəyə daşıması ilə seyrini dəyişdirə bilərmi? Bilər təbii ki! Bu, hələ o zaman tanınmayan və dünyanın bəzi ölkələrində heç ciddi də qəbul olunmayan neft idi - dünyanın önəmli mərkəzlərində çox vaxt gərəksizliyindən çaylara axıdılan, okeanlara tökülən neft.

Neft kəşf olunduğu zamandan etibarən gücün və qüdrətin simvolu olub. Kitabı diqqətlə oxuyan Azərbaycan Oxucusu bir çox məğlubiyyətlərimizin səbəblərini aydın görəcək. Yox, onlar əvvəldən tanıdığımız, uzun illərdir bizə təqdim olunan səbəblər deyil. İndiyəqədərki nağıllar da deyil. Onlar dünya tarixinin dəyişməz və əvəzolunmaz işləyiş mexanizmlərinin yaradılması və hərəkətə keçirilmə tarixidir. Bunlar okeanlara və sulara hakim olmanın gətirdiyi strateji üstünlüklərdir ki, Şah İsmayıl babamız istisna olmaqla, tarixdə bir böyüyümüz heç bir

zaman bu faktorları ağlının ucundan belə keçirmədi. Biz sadəcə o tarixin və mexanizmin içində yer almamışıq. Ala bilməmişik. Bir az tarixi şərtlər, bir az da babalarımızın bəsirətsizliyi...

Bu kitabda kimlər, nələr yoxdur ki? Neftin qaya yağından sızdığını görüb, onu parça-palaza bükərək, toplamaq, sonra da sıxaraq yanacaq əldə etməkdən tutmuş Hitlerin və Stalinin bitməz-tükənməz ehtiraslarına, iki dünya müharibəsi arasında süni neft istehsalından əldə olunan neftin, savaşlarda oynadığı roldan tutmuş Rokfellər və Rotşildlərin sonu gəlməz "neft savaşları"a, irilən şirkətlərin tükənməz sərvətlər əldə etməsindən tutmuş dövlətlərin qanlı savaşlarla nəticələnəcək müdaxilələrinə, Mussolininin neft haqqındakı təxəyyüllərindən Səddamın neft xülyalarına qədər hər şey... Dünyanın neft istehsalının 90 faizindən çoxunu əlində tutan, amma evinə qonaq gələn dostunun yediyi yemək-içməyi faktura şəklində onun ünvanına göndərib, qonaq saxladığı üçün evində qonaq saxladığı dostundan pul tələb edən, amma inşa etdirdiyi Çikaqo Universitetini 5 ildən bir ziyarət edib, tələbələrin onu tanımasından belə əsəbiləşən Rokfellərlə də eninə-boyuna tanış olmaq imkanı var Daniel Yerginin "Neft"ində. Gülbekyanın hansı yollarla zəngin olduğundan Nobellərin həzin yüksəlişlərinə, Rokfellerin Amerikan mətbuatı, cəmiyyəti və prezidenti ilə illərlə davam edən ölüm-dirim savaşlarına qədər hər şey "Neft"də var və Azərbaycan insanı bu kitabı oxuyanda qətiyyən təəssüflənməyəcək.

Kitabın daşıdığı əhəmiyyət böyükdür. Neft tarixini öyrənməyimiz və gərəkən dərsləri çıxarmağımız baxımından, həm də bir dərs vəsaiti sayıla biləcək bu əsərdə bizə toxunan və qərəzli not daşıyan məqamlar da yox deyil. Əslində müəllifin ara-sıra rast gəldiyimiz o məqamları bizə





ondan xəbər verir ki, Daniel Yergin ya ermənipərəstdir, türk düşmənidir, ya da Azərbaycan və onun tarixi haqqında çox bilgisizdir. O qədər subyektiv olmağa mövzunun özü də imkan tanımır. Amma bir azca imkan oldumu, müəllifin qərəzi dərhal özünü büruzə verir və insan bu qədər böyük bir əsərin belə notlar daşımasına təəssüf etməyə bilmir.

Məsələn, əsərin inqilab illərinin Bakısından bəhs edən və Bakıdakı tətilləri anladan bölümündə müəllif yazır:

**"...Xəbər Bakıya çatan kimi neft fəhlələri yenidən tətilə getdilər. Tətilin üsyana yol açacağından qorxan hökumət, müsəlman tatarlara silah verdi. Tatarlar, içərisində neft sənayesinin liderləri də olan xristian erməniləri kütləvi şəkildə qətl eləməyə başladılar. O gündən sonra ağızdan-ağıza dolaşan bir əfsanəyə görə, ən zəngin neftçilərdən Adamov adlı bir erməni yaralı olduğu halda, evinin eyvanına çıxıb, orada mövqe tutdu və oğlunun köməkliyi ilə mühasirəyə müqavimət göstərib, tam 3 gün müdafiə olundu. Bu müddətdə evi atəşə verilir, özüylə bərabər 40 adamı ya yandırılır, ya da parçalanaraq öldürülürdü.**

**Tətillər və açıqca baş verən üsyan hərəkətləri 1905-ci ilin sentyabr və oktyabr aylarında başdan-başa bütün imperiyanı bürümüşdü. Qafqazda baş verən hadisələr sosializm səbəbindən deyil, irqi və etnik münaqişələr səbəbindən qızışdırılır və idarə olunurdu. Tatarlar başdan-başa bütün Bakı və ətrafında neft sənayesinə qarşı yeni-yeni hücumlar təşkil edir, ermənilərin sığındıqları yerlərdəki binaları yandırır, əllərinə keçən hər şeyi talan edirdilər. O cəhənnəmdən sağ-salamat xilas olmağa nail olan biri bu hadisələri bu sözlərlə xatırlayır: "Hər tərəf tam bir cəhənnəm kimi görünürdü. Yanan neft buruqlarından və neft quyularından çıxan alovlar bu cəhənnəmin üzərindən keçib, üfüqlərə yüksələn**

**dəhşətverici duman örtüyünün içində itib-batırdı. Bütün bunlardan sonra həyatımda ilk dəfə dünyanın sonunun gəldiyini zənn edirdim. Alovlar içərisindən canını götürüb xilas olanlar bu dəfə də elə o tatarlar tərəfindən vurulurdular... Bu mənzərənin Pompeyin son günlərinə oxşadığını düşündüm."**

Göründüyü kimi Daniel Yergin fakt bilgisizliyindən, ya da qeyd olunan qədərilə ermənipərəst olduğundan, hadisəni belə təsvir edib. Onun yazdıqlarını oxuyan Bakı talanlarının sahiblərini və səbəblərini dünyanın indi axtardığı yerdə axtarar. Deməli, biz sadəcə bu gün yox, 50 ildir, 100 ildir səhv edə-edə gəlirik. Həmin o "cəhənnəm"dən xilas olunan bir ermənini yazdığı gündəlikləri oxuyan Yerginə nə yazıqlar ki, həqiqətləri oxuda bilməmişik.

Başqa bir mövzuda da müəllifin bilgisiz olduğu görünür. İranın tarixindən danışarkən, Qacarlar haqqındakı fikirləri və israrla bu xanədan haqqında formalaşdırmaq istədiyi, ya da malik olduğu məlumat onu göstərir ki, Daniel Yergin bilərək məsələləri başqa istiqamətə yozudur:

**"...Əcəmistan Asiya və Qərb arasında ticarətə çox əlverişli bir körpü halında idi. Bu torpaqlardan dalğa-dalğa bir çox ordular, bir çox millətlər gəlib keçmişdilər və bəzən də burada yerləşmişdilər. Bunlardan bəziləri Qərbdən əsib gələn Böyük İsgəndər və Şərqdən gələn Çingiz xan və monqollar idi. XVIII əsrin axırlarında hakimiyyət "Qacarlar" adlanan həris və acgöz bir xanədanın əlinə keçdi. Qacarlar bir-biriləri ilə savaşan kiçik qəbilələr və acgöz şahzadələri məğlub edərək, yeni bir xanədan qurmuşdular. Qacar şahları beləcə, narahat bir vəziyyətdə 150 ildən çox hökmranlıqlarını davam etdirdilər. XIX əsrdə istila edilməyə vərdiş etmiş bu ölkə, bir daha özünü kənardan gələn başqa növ bir təzyiqin qarşısında gördü. Rusiya və İngiltərə Qacar**





**şahlarının işğalı altındakı İranda hegemonluğu ələ keçirmək üçün bir-biriləri ilə diplomatik və ticari bir yarışmaya girmişdilər. Qacar şahları vəziyyətdən çıxmaq üçün bu iki super gücü bir-birilərinə qarşı qoymağa çalışdılar."**

Qacarlara kinin və nifrətin səbəbi elə Daniel Yerginin öz diliylə ifadə olunur. Rusiya və İngiltərənin İranda hegemonluğu ələ keçirmək uğrunda başlanan yarışma! Bu da yetərli deyil. Onu əsəbiləşdirən və heç olmasa, qəlbimizə bir az sərinlik gətirən əsas kritik məqam isə budur: Qacar şahları vəziyyətdən çıxmaq üçün bu iki super gücü bir-birinə qarşı qoymaq istəyirmiş. "Yanlış da bir naxışdır" deyib babalarımız. Bu qərəzin içində nə yaxşı ki, babalarımızın böyük işlər gördüyünü, ən azı görmək istədiyini öyrənmiş oluruq. Amma maraqlıdır ki, Qacarlar Rusiya və İngiltərə kimi iki başat gücü bir-birinə salışdırmaq üçün hansı böyük işlər görüblər, ya da görmək istəyiblər ki, Qərb analitiklərinin belə qəzəbinə düçar olublar?! Maraqlı sualdır və yəqin ki, Azərbaycan tarixçiləri bu və digər əsrarəngiz sualların cavabını verə biləcək, bu araşdırmaların nəticələrini millətə təqdim edəcəklər!

Əsər Azərbaycanla, Bakı ilə bağlı maraqlı və diqqətçəkici faktlarla da zəngindir. İnqilaböncəsi Azərbaycanda inkişafın və tərəqqinin dərəcəsini əks etdirən maraqlı bir bölüm var. İranda neft axtaran və bunun üçün əlindən gələni edən araşdırmaçının hekayətinin nəqlində ilginc bir məsələyə toxunulur:

**"...Bu dəfə də Reynolds, polşalı, kanadalı və bakılı azərilərdən təşkil olunan qrupla parçaları montaj etmə və onu işə salma proseduası ilə məşğul olmalı idi. Bütün bunlar işləri gözlərində böyüdürdü. Xüsusilə azərilər üçün belə idi. Çünki onların gözlərində tək təkərli əl arabasının ortaya çıxışı belə heyranlıqla qarşılanan böyük bir kəşf idi!"**

Qəribədir ki, zamanın və dövrün "ayağı çarıqlı" və "dizinə qədər palçıqlı" fəhləsi müəllifin bir cümləlik də olsa, diqqətindən qaçmır, "tək təkərli əl arabasının ortaya çıxmasını" belə heyranlıqla qarşılayan azəri tipini canlandırmağı unutmur, amma şərqdən dünyaya ilk operanı verən, dram əsərlərini bəxş edənləri, lap elə neftçi-messenat Hacı Zeynalabidin Tağıyev və onun kimilərini unudur. Təbii ki, etirazımız hansı tonla səslənir səslənsin, bir gerçək var: Özü yıxılan ağlamaz!

Daniel Yerginin müəllifi olduğu "Neft fəlsəfəsi" əsərində toxunulan mövzudankənar və məqsədli sapmalar istisna olunmaqla, qalan bütün məqamlarda bu kitab Azərbaycan Oxucusu üçün maraqlı olacaq. Nə olursa olsun, yazarın niyyəti, bizə bəslədiyi münasibət hansı kəskin həddə çatır çatsın Daniel Yerginin bu əsəri böyükdür, nəhəngdir, oxunmalıdır və mütləq mənimsənilib dərslər çıxarılmalıdır. Böyük hadisələrin toqquşduğu məkanları, dünyanı idarə edən kişilərin çırpıntılarını, yaşam tərzlərini, dəyişən dünyanın barreli 2 sentdən başlayıb, 100 dollara yaxınlaşan neft selini müşahidə etmək böyük dövlətlərin vətəndaşlarına xasdır. Biz də elə olmalı və böyük dövlətin böyük vətəndaşı kimi hiss etməliyik özümüzü.

Biz zənn etdiyimiz kimi gücsüz və zəif təməllər üzərində bərqərar olmamışıq. Sadəcə lazımi qədər və lazımi enerji ilə çalışmağı özümüzə adət etməmişik. Bizim neftimizdən istifadən edən və dünyanın aparıcı şirkətləri sırasında özünə yer edən və indi dünyanın ən sanballı mükafatını təsis edib, dünya gündəmini müəyyənləşdirən Nobellərin fərsiz qardaşları Bakıya qoz ağacı almağa gələndə, ona cəmi 20 min rubl pul etibar etmişdilər. O 20 min rublla Rusiyanın nəhayətsiz çöllərində iflas hədəsi altında yaşayan və tüfəng qundağı istehsal edib satmaqla gününü gün edən Nobellər





dünyanın ən sayqın ailə-imperiyasına çevrilə bildilər. Həmin Bakı nefti idi səhər yeməyini dünyanın bir, günorta yeməyini başqa, axşam yeməyini isə digər şəhərində yeməyi planlaşdıran Adolf Hitlerin gecələr yuxusuna haram qatan. Kitabda yer alan dünyanı bölüşdürməyə və yenidən yaratmağa iddialı olan Hitlerin planlarından və böyük strategiyalarından birinə nəzər salmaq kifayətdir:

**"...Hitlerin Rusiyanı istila etməsinin əsas məqsədi Bakı və Qazaxıstan neft yataqları idi. Bir tarixçinin yazdığına görə, "iqtisadi sahədə Hitlerin ən böyük ehtirası neftdi." ...Hitlerin qənaətinə görə, Qafqazın nefti - Ukraynanın verimli və bərəkətli "quru torpaqları" da daxil olmaqla - alman imperiyasının tərkibinə daxil edilərsə, o zaman qurduğu Yeni Düzən də təhlükəsiz olar."**

Bu qədər bəsit. Biz dünya tarixində o qədər önəmli rol oynamışıq ki, təəssüf ki, nə indikilər, nə də keçmişdəkilər bu həqiqətləri olduğu kimi millətə çatdırıb, bu millətin övladlarını o ruhda tərbiyə etməyiblər. Böyük və dünya məsələlərinin baş cərgəsində yer almağımızın özümüz tərəfindən dərk olunmamasının əsas səbəblərindən birini Adolf Hitlerin "Mənim Savaşım" əsərinin tərcüməsi zamanı yaşanan proseslərdə gördüm.

Bizim oxumağımızı istəmirlər!

Bizim öz dilimizdə kütləvi olaraq böyük əsərlərlə tanış olmağımızı istəmirlər!

Adam düşündükcə dəhşətə gəlir. Bizə o şeyləri vermək istəmirlər ki, onu tələb etmək yalnız kölə və qullar üçün bəlkə məqbul sayılmaya bilər. Bu əsərdəki həqiqətləri oxuyanda, dünyanın bütün böyük işlərinin içində olduğumuz, amma adam yerinə qoyulmamağımızın şahidi olanda, insanın ağlını itirməsi gəlir. Bu, nə həzin və dəhşətli ömürdür belə yazılıb bu millətin taleyinə!

Kitabın birinci cildi bütünlüklə baş redaktoru olduğum "Xural" qəzetində yayınlanıb. İlk günlərdən alternativ fikirlər olsa da, kitabın adının Türkiyə türkcəsində qalmasına qərar verdim. Amma kitab çapa hazırlanarkən, dəyərli dostlarımın da təlqinləri ilə öz türkcəmizdə, öz anlayışımızda qəbul olunan və hamının tərəfindən başa düşülən adı seçdim: "Neft fəlsəfəsi." Əlavə olaraq da, məsləhət bildim ki, kitabın alt başlığı "Qaya yağı" olsun. Çünki neftin ilk isimlərindən biri də "Qaya yağı" olub. Həm yandırılan başqa yanacaq növlərindən fərqləndirmək üçün, həm də ilkin amerikalıların nefti qayalardan sızan sızıntıların arasından tapdıqları üçün ona uzun müddət "Qaya yağı", yəni "qayalardan alınan yağ" mənasına gələn ad veriblər. Kitabda "Qaya yağı" çox işlədildiyi üçün həm də təxminən kitabın adı da bir növ elə neftdən çox, "Qaya yağı" adlandırılmalıdır və zənnimcə, neftin bu yeni adı azərbaycanlılara da xoş gələcək.

Bu kitabın nəşr olunması prosesinə 2002-ci ildə başlamışam. O zamandan bu tərəfə bir çox neft işində çalışan, neft işi ilə məşğul olan şirkətlərə və məmur qismində fəaliyyət göstərən tanışlara müraciət etmişəm. Amma heç kim Daniel Yerginin "Neft fəlsəfəsi" kitabının maliyyələşdirilməsi istiqamətində addım atmadı. Bu onun, o da digərinin, digəri də bir başqasının üzərinə atdı. Mən özüm də maraqlı olmadım. Nədən ki, başçılıq etdikləri, adıyla pul qazandıqları sahənin böyük kitablarını gərək bunların özləri axtarıb tapa, hələ bir az da yalvaraydılar. Yox, bizim Rokfellerlər kimi millətə, dövlətə, elmə yananımız, müasir Hacı Zeynalabdin Tağıyevlər də nəsibimiz olmadığı üçün mən bu tale ilə barışdım. Əcnəbi şirkətlərə isə müraciət etməyi ağlımdan belə keçirmədim. Onlar bu əsərləri bizdən yaxşı bilirlər və çoxdan oxuyublar. Səmimi





olsaydılar, bizi ən azından, ağacın başından endirib təhsil verdikləri afrikalılarla bir gözdə belə görsəydilər, indi çoxdan çox işlərin həllində, çox kitabların tərcüməsində rol almışdılar. Yox, xarici neft şirkətləri Azərbaycan insanının inkişafında, intellektual potensialının artırılmasında maraqlı olmadılar. İndi də deyillər. Onlar bizim və millətimizin gələcəyi istiqamətində addım atmırlar. Onlar müqavilədə nəzərdə tutulduğu müddətdə neftimizi sorub aparmaq, neft qurtarandan sonra isə mədənlərimizi viran qoymaq arzusunu daşıyırlar və bu, belə də olacaq.

Bütün sadaladıqlarım və yazdıqlarımdan sonra, "Zəkioğlu" nəşriyyatına təşəkkür edirəm. Bu nəşriyyatının marağı olmasaydı, Daniel Yerginin dünyaca məşhur olan "Neft fəlsəfəsi" kitabı Azərbaycan türkcəsində bu tezliklə nəşr olunmazdı. Bu böyük kitabın I cildinin işıq üzü görməsində təbii ki, müstəsna şəkildə "Zəkioğlu" nəşriyyatının rolu var. Əminəm ki, II cild də onun sayəsində Azərbaycan Oxucularına təqdim olunacaq. Tanrı millətimizi "Zəkioğlu" nəşriyyatı kimi belə kitabsevərlərdən xali etməsin.

Bundan başqa, həyatımın hər önəmli mərhələsində yanımda olduğu kimi, bu kitabın tərcümə olunmasında, yazılmasında, hazırlanmasında, işıq üzü görməsində bir an belə məni tərk etməyən həyatımın yoldaşı Məlahət Zeynallıya, "Xural"ın Qızıl Kollektivinin möhtəşəm üzvləri Yasəmən Arifə, Rəşad Vaqifoğluna, Nizami Həsənliyə, Kamran Zamanlıya və başqa səmimi və ürəyi böyük arxadaşlarıma təşəkkür edirəm. Onların yardımı və mənəvi dəstəyi olmasaydı, bu böyük işin öhdəsindən gəlmək mənim üçün həqiqətən çətin olardı.

Beləcə, Adolf Hitlerin "Mənim Savaşım" (Mein Kampf) əsərinin tərcüməsindən sonra Daniel Yerginin "Neft

fəlsəfəsi" əsərinin tərcüməsinin də Azərbaycan kitab məkanında böyük hadisəyə çevriləcəyindən əminəm. Bu işin davam etməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm. Yaxın aylarda kitabın II cildini, sonra da Henri Kissencerin "Diplomatiya" adlı şah əsərini Azərbaycan Oxucusuna təqdim etməyə çalışacağam.

Tanrı bizi utandırmasın!

*Əvəz Zeynallı*



**DANİEL YERGİN**

# NEFT FƏLSƏFƏSİ

# ÖN SÖZ

***Bu əsərimi Angela, Aleksandr və Rebekaya ithaf edirəm***

Uinston Çörçill haradasa bir gecənin içində fikrini dəyişdirdi. 1911-ci ilin yazına qədər İngiltərənin Daxili İşlər naziri olan gənc Çörçill, "İqtisadçılar" deyə bilinən və əslində İngiltərə-Almaniya arasındakı dəniz qüvvələri yarışında irəli keçmək uğrunda bəzi nüfuzlu şəxslərin qızışdırdığı - həddən ziyadə hərbi xərcləri tənqid edən kabinet üzvlərindən biri idi. Get-gedə böyüyən bu yarışma, iki millət arasındakı düşmənçiliyi artıran ən güclü səbəblərdən biri olmuşdu. Amma Çörçill Almaniya ilə başlaya biləcək bir savaşdan qaçınıla biləcəyini israr edir və Almaniyanın niyyətinin, illah da təcavüzkarlıq olmadığını irəli sürərək onu müdafiə edirdi. Çörçillin fikrincə, pul çox sayda savaş gəmisini satın almaq üçün yox, ölkənin sosial proqramlarını həyata keçirmək üçün xərclənməliydi.

Ancaq 1911-ci il iyul ayının 1-də Kayzer Vilhelm alman donanmasının "Panter" adlı gəmisini Mərakeşin Atlantik okeanı sahilində yerləşən Aqadir limanına göndərirdi. Kayzer Vilhelm bunu Fransanın Afrikadakı nüfuzunu yoxlamaq və Almaniyanın buradakı vəziyyəti üçün strategiya müəyyənləşdirmək məqsədilə etmişdi. "Panter" kiçik bir savaş gəmisi, Aqadir isə ikinci dərəcədə əhəmiyyətə malik olan bir liman şəhəriydi. Buna baxmayaraq, gəminin buraya gəlişi ciddi bir beynəlxalq böhrana yol açdı. Alman ordusunun özünə gəlib toparlanması, bu ölkənin avropalı qoşunları arasında onsuz da xeyli narahatçılıq yaratmışdı. İndi bir də "Panter" gəmisini göndərməklə, Almaniyanın "günəşdə bir yer qapmaq" cəhdində olduğunu, Fransa və İngiltərənin dünya səthindəki siyasətlərinə





açıqca meydan oxuduğunu düşünürdülər. Bu hadisədən keçən bir neçə həftə, Avropa savaş qorxusuyla çalxalandı. Ancaq iyulun sonlarına qədər bu qorxu keçmiş, gərginlik azalmışdı və Çörçillin deyimi ilə "zorba artıq yuxarıya doğru dırmaşmır, aşağıya doğru enirdi." Bu sözlərinə baxmayaraq, yaşanan böhran Çörçillin dünyagörüşünü dəyişdirmişdi. Almaniyanın niyyətləri haqqında əvvəlki dəyərləndirməsinin əksinə olaraq, artıq bu ölkənin hegemoniya həvəsində olduğuna, bu hegemoniyaya nail olmaq üçün hərbi gücündən istifadə etməkdə tərəddüd göstərməyəcəyinə inanmağa başlamışdı. Artıq savaşın həqiqətən də qaçınılmaz və başlamasının da sadəcə bir zaman məsələsi olduğu qənaətinə varmışdı.

"Aqadir hadisəsi" baş verən kimi Çörçill Donanma naziri təyin edildi. O, İngiltərəni artıq qaçınılmaz hesab etdiyi hesablaşma günü üçün hərbi baxımdan hazırlamağa və bu yolda əlindən gələn hər şeyi etməyə and içdi. Əsas vəzifəsinin - İngiltərənin imperialist qüdrətinin simvolu və əsas varlığı olan Kraliyyət Donanmasını, açıq dənizlərdə onunla kəllə-kəlləyə gəlməyə qərar verən Almaniya ilə mübarizə edə biləcək gücə çatdırmaq olduğunu bilirdi. Bunun belə olacağına inanırdı. Qarşılaşdığı problemlər içərisində ən önəmli və əhatəli olanlardan biri, ilk baxışda o qədər də əhəmiyyətli görünməyən texniki bir mövzuydu. Əslində bütün XX əsr boyu böyük mənalar daşıyan problem bu idi; o günə qədər ingilis donanmasının istifadə etdiyi ənənəvi enerji mənbəyi olan kömürdən neftə keçərək, kömür yerinə neftdən istifadə edilməliydimi? Edilə bilərdimi? Əcəba, bu, necə olardı? Bir çoxu belə bir dönüşün bütün mənalarda bir dəlilik, çılğınlıq olacağı qənaətində idi. Onlar başqa cür düşünürdülər. Onlara görə, donanma o günə qədər rahat və təhlükəsiz şəkildə istifadə etdiyi Galler kömürünün istifadəsinə davam etməliydi.

Kömür yerinə "Pers ölkəsi"ndən (İranın o zamankı adı), çox uzaqlardan gələn, heç də təhlükəsiz olmayan neft ehtiyatlarından istifadə etmək tam bir çılğınlıq idi. Çörçillin dediyi kimi, donanmanı bir daha geri dönməmək şərtilə neftə bağlamaq, əslində "dərdlər dənizinə qarşı silahlanmaq" (Şekspirin Hamlet oyunundan) kimi bir şey idi. Ancaq neftin əhəmiyyəti, daha çox sürət və insan əməyindən daha səmərəli istifadə etmək və s. strateji faydaları o dərəcədə açıq-aydın idi ki, Çörçill çox tərəddüd etmədi. İngiltərənin "dəniz qüvvələrindəki üstünlüyünü neftə bağlaması" qərarını verdi və bu səbəblə də özünü bütün enerji və coşğusuyla bu məqsədini həyata keçirməyə həsr etdi.

Onsuz da başqa bir alternativ yox idi. Çörçillin ifadə etdiyi kimi "bu riskli işdən əldə ediləcək tək mükafat üstünlük əldə etməkdi."

Bu fikri ilə Çörçill, Birinci Dünya Müharibəsi ərəfəsində hakim olan bir həqiqəti də vurğulayırdı. Bu həqiqət təkcə o günləri izləyən odlu-alovlu zamanlarda yox, daha sonra da illər boyu keçərli olacaqdı. Neft, artıq bütün XX əsr boyunca üstünlük və ağalığın simvoluna çevriləcəkdi. Elə bu kitabın əsas mövzusu da budur:

Üstünlük üçün aparılan çatışmanın hekayəsi.

1990-cı illərin əvvəllərində, Çörçillin neftə bağlanmasından təxminən 80 il sonra, iki dünya müharibəsi və uzun müddət davam edən soyuq müharibənin sonunda insanların yeni və daha sülhsevər bir zəmanənin başlandığına inandığı anda neft yenidən, bir daha bütün dünyanın gündəminə gəlir və çəkişmələrin əsas nöqtəsinə çevrilirdi. 2 avqust 1990-cı ildə, XX əsrin bir başqa diktatoru, İraq prezidenti Səddam Hüseyn qonşusu Küveyt ölkəsini işğal edirdi. Məqsədi sadəcə bir krallığı ələ keçirmək yox, eyni zamanda ölkənin sərvətlərinə də sahib olmaqdı. Bu, Səddam Hüseyn üçün çox möhtəşəm bir





mükafat sayılırdı. Müvəffəq olması halında İraq, dünyanın ən öndə gələn neft gücü olmaqdan əlavə, həm ərəb dünyasının, həm də yer kürəsinin ən böyük neft ehtiyatlarına sahib olan Körfəzin tək hakiminə çevriləcəkdi. İraqın qazanacağı bu yeni güc, sərvət və neft sahəsindəki hegemonluğu dünyanın geri qalan bütün ölkələrini Səddam Hüseynin heç nədən doymaq bilməyən iddialarına kölə edəcəkdi. İraq, Küveytin sərvətlərindən istifadə edərək, özünü görkəmli bir dövlətə çevirəcək, hətta daha da irəli gedəcək və bəlkə də bir super güc olacaqdı. Bu isə beynəlxalq qüvvələr sistemində şübhəsiz ki, dramatik dəyişikliklərə səbəb olacaqdı. Kəsəsi, tarixin bu gedişində üstünlük və hakimiyyət bir daha mükafatın özü kimi bir şey olurdu. Elə idi.

Ancaq ortadakı mükafat başa düşüldüyü kimi həddən ziyadə böyük idi. Bu səbəblə də Səddam Hüseynin təxminlərinin əksinə, dünyanın qalan ölkələri Küveytin bir "oldu-bitdi"yə gətirilməsinə laqeyd qala bilməzdilər. Küveytin işğalının dünyadakı təsiri böyük olmuşdu. Göstərilən reaksiya da o nisbətdə böyük idi. Belə ki, bu reaksiya Hitlerin Reynlandı silahlandırmasında, ya da Mussolininin Həbəşistana hücumunda müşahidə edilən passiv bir reaksiyaya bənzəmirdi. Birləşmiş Millətlər İraqa dərhal embarqo qoydu və Qərb dünyası ilə Ərəb dünyasının bir çox ölkələri İraqın qonşusu Səudiyyə Ərəbistanını müdafiə etmək və Səddam Hüseynin ehtiraslarına sipər çəkmək üçün dramatik bir hərbi ittifaq formalaşdırdılar. Bu dövlətlərdən ABŞ və SSRİ arasındakı əməkdaşlıq o günə qədər oxşarı olmayan bir yaxınlaşma idi. Bundan başqa, hərbi hissələr bölgəyə yayılma və müdaxilə mənasında görünməmiş sürət və qərarlılıqla hərəkət etdilər. Son bir neçə ildir ki, neftin artıq əvvəlki əhəmiyyətini itirdiyini söyləmək dəbə minmişdi. Məsələn, İraqın işğalından

sadəcə bir neçə ay əvvəl, 1990-ci ilin yazında Amerikanın üst səviyyəli, səlahiyyətli zabitlər heyətinə neftin strateji əhəmiyyətini itirdiyinə dair məlumatlar verilmişdi. Ancaq Küveytin işğalı bu söz-söhbəti silib-süpürdü. 1991-ci ilin əvvəllərində İraqın Küveytdən öz xoşuna çəkilməsinə istiqamətlənən cəhdlər uğursuzluğa düçar olunca, ABŞ-ın liderliyində 36 ölkə bir koalisiya təşkil edərək, beş həftə davam edən hava və 100 saatlıq quru müharibəsi nəticəsində İraqın dağıdıcı gücünü yox edib, bu dövlətin Küveytdən çəkilməsini təmin etdilər. Beləliklə, XX əsrin axırında neft, bir daha təhlükəsizliyin, rifahın və şübhəsiz ki, həm də mədəniyyətin və müasirliyin mərkəzi olduğunu sübut etdi.

Neftin müasir mənada tarixi inkişafı XIX əsrin ikinci yarısında başlasa da, tam mənada təsir etdiyi və dəyişdirdiyi yüzillik XX əsr olmuşdur. Neftin bu həzin hekayəsi əslində üç böyük mərhələdən ibarətdir.

Bunlardan birincisi, kapitalizm və müasir tələblərə cavab verən iş şəraitinin yaranışı və inkişafıdır. Neft get-gedə dünyanın ən böyük və geniş yayılmış iş sahəsinə çevrilirdi. XIX əsrin son illərində törəyib artan böyük sənaye sahələri arasında neft, bu sənaye sahələrinin ən böyüyü olmuşdu. Belə ki, hələ əsr bitmədən neft sənayesinə tamamən hakim olan "Standart Oil" dünyanın çoxmillətli şirkətləri arasında ilk qurulanlardan biri idi və çox keçmədən də ən böyüyü oldu. XX əsrdə neftin əhatə dairəsi son dərəcə genişləndi. Bu da onun macəraçı neft axtaranlardan ağzı söz tuta bilən təşəbbüskar - iş adamlarına, böyük sahibkarlardan çoxmillətli şirkət bürokratiyasına və dövlət şirkətlərinə qədər hər sahədə yayılmasına yol açdı. Bu inqilabda böyük şirkət strategiyaları, texniki dəyişiklik, bazarlamadakı inkişaf və şübhəsiz ki, həm milli, həm də beynəlxalq iqtisadiyyat şəbəkələri tək-tək layiq olduqları yeri tutdular. Bütün keçmişi boyunca neft, daim bazarlıqlara





səbəb olmuş və həyati əhəmiyyətli qərarların alınmasında əsaslı rol oynamışdır. Bəzən böyük hesablaşmalar, bəzən isə haradasa xırda təsadüflər nəticəsində böyük anlaşmalar bağlanırdı (insanlar, şirkətlər və millətlər arasında). Neftdən başqa heç bir şey "risk" və "mükafat" sözlərinin mənasını - həm şans, həm də taleyin böyük təsirini - beləcə dərininə və tam mənası ilə tərif edə bilməz.

XXI əsrə baxanda elə zənn etmək olar ki, üstünlük anlayışı bir neft barrelindən meydana gəldiyi kimi, bir kompüter texnikasından da meydana gələ bilər. Ancaq yenə də neft, sənayedəki görkəmli yerini qorumaqda davam edəcək. Unutmamalıyıq ki, "Fortune-500" dərgisinin rekordmen olaraq müəyyən etdiyi 20 şirkətdən 7-si neft şirkətidir. Enerji mənbəyi olaraq yerini tutacaq başqa bir alternativ tapılana qədər, neft, dünya iqtisadiyyatındakı əlçatmazünyetməz təsirini daim qoruyub saxlayacaqdır. Böyük miqdarda bazar qiymətləri iqtisadi böyüməyə maneə təşkil edə bilər və ya tam tam tərsinə, inflyasiya sürətlə artar və yenidən durğunluq dövrü başlaya bilər. Bunların hamısı mümkündür. Amma bu gün neft, bais olduğu hadisələr səbəbilə iş həyatıyla əlaqədar bütün yayım və nəşrlərdə sistemli şəkildə yer alan, bununla da kifayətlənməyib, dünya mətbuatının ən ön səhifəsində özündən söz etdirən tək iqtisadi əhəmiyyəti olan maldır. Keçmişdə olduğu kimi, neft, bu gün də - adamlar, şirkətlər və bütün dünya millətləri üçün - sərvət adlanan zənginliyin mütləq və mübahisəsiz yeganə generatorudur. Qısası, çox zəngin və nüfuzlu bir iş adamının deyimi ilə "neft puldur."

İkinci görüşə görə, neft, milli strategiyalarla və dünya siyasəti ilə çox sıx qucaqlaşmış bir mal hesab edilirdi. Birinci Dünya Müharibəsinin gedişində, daxildə istifadə edilən "motorlu maşınlar", atların və kömürlə işləyən lokomotivlərin yerini tutanda, neft milli gücün simvoluna

çevrildi və əhəmiyyəti bir daha sübuta yetirildi. Həm Uzaq Şərqdə, həm də Avropada İkinci Dünya Müharibəsinin başlaması və gedişində neft, ən təsirli və başlıca səbəb oldu. Yaponlar Pearl Harbora, Şərqi Hind Adalarındakı neft mənbələrinə - oradakı neft yataqlarını ələ keçirən ordularını qorumaq məqsədilə hücum etdilər. Hitlerin SSRİ-ni işğal etmək planında da ən vacib strateji hədəf Qafqazdakı neft yataqlarını ələ keçirməkdi. Ancaq vaxt gələcəkdi ki, Amerikanın neft sahəsində üstünlük və qərarlılığı ortaya çıxacaq və hələ müharibə qurtarmadan Almaniya və Yaponiyanın neft tankerləri büsbütün boşalacaqdı.

Soyuq müharibə illərində beynəlxalq şirkətlər və inkişaf etməkdə olan ölkələr arasında neftə nəzarəti ələ keçirmək uğrunda aparılan soyuq çatışmalar qorxunc bir dramın formalaşmasına təsir etmişdi. Bu, müstəmləkəçilikdən qurtuluş və milliyyətçilik hərəkatlarının gətirdiyi bir hadisəydi. 1956-cı ildə baş verən Süveyş böhranı - ki həqiqətdə bu, vəhşi imperialist avropalı güclərin apardığı siyasətin artıq dalana dirəndiyinin bir əlaməti idi - başqa səbəblərlə bərabər, əsaslı olaraq neft uğrunda bir vuruşma idi. "Neft gücü"nün ən nüfuzlu və bariz nümunəsi 1970-ci illərə rastlayır. Bu illərdə o günə qədər beynəlxalq siyasətdə aktiv rol oynamayan dövlətlər belə böyük sərvət və prestijin simvoluna çevrilən "neft"ə doğru bir-biri ilə sanki qaça-qaça yarışa girdilər. Bu vəziyyət sənayenin inkişaf etməsinə səbəb olmuş və eyni zamanda neftə indekslənmiş millətlərin bir-birinə qarşı "dərin bir etimadsızlıq" göstərməsinə gətirib çıxarmışdı. Nəticə etibarilə neft, 1990-cı illərin soyuq müharibə sonrası ilk böhranlı zamanlarında belə - hətta Küveytin işğalından sonra da - şah damarı statusunda idi.

Ancaq neftə təkcə xeyir verən bir məhsul gözü ilə





baxmaq doğru olmaz. Çünki hadisələrin gedişi neftin zaman-zaman bir çılğının əlində qızıla çevrildiyini də sübut etmişdir. Məsələn, götürək İran şahını. İran şahı həyatının ən böyük ehtirası olan neft zənginliyinə qovuşmuşdu. Elə bu da onun axırına çıxdı. Eyni şey Meksika haqqında da söylənilə bilər. Hərçənd neft Meksikanın iqtisadiyyatının inkişafına və yüksəlməsinə səbəb olmuşdur, ancaq yalnız yenidən yıxmaq və dağıtmaq üçün. Sovet İttifaqı isə dünyanın ən böyük ixracatçı ölkələri arasında ikinci olmasına baxmayaraq, neftdən əldə etdiyi qazancın hamısını 1970-1980-ci illərdə hərbi silahlanma üçün və mənasız şəkildə, hətta zaman-zaman təhlükəli və dağıdıcı hesab edilən bir sürü beynəlxalq macəraçılıq uğrunda qurban verdi. ABŞ-a gəlincə, bir zamanlar dünyanın ən böyük istehsalçısı olan bu ölkə bu gün neft istehsalının (tələbatının) yarısını idxal etmək məcburiyyətində qaldığı üçün, ölkənin strateji vəziyyəti gedərək zəifləyir və onsuz da dərd mənbəyi olan büdcə kəsiri daha da böyüyür. Bu da şübhəsiz ki, supergüc olan Amerika üçün çox təhlükəli bir haldır.

Soyuq müharibə sona çatan kimi beynəlxalq və milli aspektlərdə yeni bir dünya düzəlib formalaşmağa başladı. Bu günlərə qədər baş verən bütün çatışmaların əsasını təşkil edən ideologiyalar - belə çıxır ki, artıq yerini iqtisadi yarışmalara, regional müharibələrə və etnik rəqabətə təhvil verəcəkdir. Bu rəqabət və çatışmalar müasir silahlanmanın da inkişafı ilə cəsarətlənərək qızışdırılır. Ancaq beynəlxalq sistemdəki bu yeniliklərin necə olmasından asılı olmayaraq, neft, hər zaman strateji mal olaraq qalmağa davam edəcək və beynəlxalq münasibətləri tənzimləyən siyasi addımlar üçün təhlükəliliyini həmişə qoruyub saxlayacaq.

Neft tarixinin üçüncü tezisi də cəmiyyətin "hidrokarbon cəmiyyəti"nə necə çevrildiyini və bizlərin antroloqlar demiş, bir-bir necə "Hidrokarbon Adam" olduğumuzu

açıqlayır. İlk inkişaf etdiyi illərdə neft işi ilə məşğul olmaq sənayeləşən bir dünyanın doğuluşuna səbəb olmuşdu. Buna səbəb qurama adı ilə "kerosin" olan, yəni "qaz yağı" deyilən və "yeni işıq" mənasını verən, gündüzü uzadıb gecəni gecikdirən, bu səbəblə də iş saatlarını artıran bir məhsuldu. XIX əsrin sonunda ABŞ-ın ən zəngin adamı olan Con Rokfeller bu zənginliyini "qaz yağı" sataşına borclu idi. O günlərdə benzinə faydasız bir əlavə məhsul gözüylə baxılır, nadir hallarda olsa da, alıcı tapan kimi, çox ucuza qalonu sadəcə 2 sentə satılırdı. Heç satılmadığı günlər də olurdu. Onda yerli xalq gecələr nefti çaylara tökürdülər.

Elektrik lampasının kəşfi ilə birliklə neftin dəbdən düşdüyünə inanılarkən, yeni bir çağ başladı. Bu, mühərrik dövrü idi. Beləliklə, neft sənayesi yeni bir bazar tapır və yeni bir mədəniyyət doğulurdu.

XX əsrdə neftin təbii qazla birlikdə, sənaye dünyasının əsas enerji mənbəyi olan "Yanacaqlar Kralı Kömür"ü taxtından endirdiyini müşahidə edirik. Bundan başqa, neft, müharibə sonrasında inkişaf edən böyük "şəhərləşmə" hərəkatının da səbəbi hesab edilir. "Şəhərləşmə hərəkatı"nın istər müasir görüntü, istərsə də müasir yaşantımız baxımından, bir çox dəyişikliklərə səbəb olduğu məlumdur. Bu gün neftə o dərəcədə bağlanmışıq və o, həyatımıza o dərəcədə daxil olub ki, artıq onu həyatımızın təbii bir parçası hesab edirik və onun fövqəladə əhəmiyyəti üzərində heç düşünmürük də... Bizə oturmağımız üçün yer göstərən, necə yaşamağımıza təsir etmək gücü olan, işimizə necə gedəcəyimizi, necə səyahət edəcəyimizi müəyyən edən, hətta kiminləsə sevgi macərası yaşamağımızı və hətta bunu belə harada edəcəyimizə qərar verən yalnız və yalnız neftdir. Neft, həqiqətən də şəhərləşmiş dünyanın həyat verən qanı rolunu oynayır. Neft və təbii qaz, kənd





təsərrüfatının üstündə durduğu kübrə sənayesinin də əsas nüvəsini təşkil edir. Neftin sayəsində dünyanın günü-gündən böyüyən və öz-özünü yedirib-doyura bilməyən metropol şəhərlərinə ərzaq daşına bilir. Bundan başqa, neft, çağdaş mədəniyyətin təməl daşları olan kimyəvi maddələri təmin edir. Unutmayaq ki, bir gün dünyadakı neft quyuları birdən-birə quruyarsa, "müasir" dediyimiz bu mədəniyyət bir gün belə yaşaya bilməz və dağılmağa məhkum olar.

XX əsrin böyük bir hissəsində neftə bağlanan etimad və etibar hissi günü-gündən artmışdır. Neft artıq bütün dünyada insanın irəliləyiş simvolu olaraq başa düşülürdü. Ancaq bu gün vəziyyətin dəyişdiyinin şahidi oluruq. Ekologiya və ətraf mühitin qorunması şüurunun doğuluşu ilə bərabər, sənayeli cəmiyyətin prinsipləri vaxt keçdikcə ziddiyyətli mübahisələrə səbəb olur və neft sənayesi bütün parametrləri ilə mühakimə edilən, tənqid olunan və etiraza səbəb olan fəaliyyətlər siyahısında ilk yeri tutur. Bu gün dünyanın hər yerində neft, kömür və təbii qaz kimi fosil mənbəli yanacaq maddələrinin istifadəsini azaltma cəhdləri müşahidə olunur və bu cəhətlər bütün dünyada get-gedə artır. Bu cəhdlərin hamısı şübhəsiz ki, keçərli səbəblərə əsaslanır: fosil tərkibli yanacaqlar istifadə edildikdə his-pas və hava kirliliyinin çoxalması, asitli qazların havaya qarışması, ozon təbəqəsinin incəlməsi və iqlim dəyişikliklərinin baş verməsi nəticəsində formalaşan mühit və s. Dünya iqtisadiyyatının bu dərəcədə bel sütunu kimi tanınan neft, bu gün artıq ətraf mühiti çirkləndirməkdə ittiham olunur və ona göstərdiyi mənfi təsirə görə günahlandırılır. Bu günə qədər sahib olduğu texnoloji üstünlük və göstərdiyi igidliklər müqabilində, eyni zamanda müasir dünyanın formalaşmasında oynadığı rola görə həmişə özüylə qürur duyan neft, artıq özünü müdafiəyə

keçib. İndi neft, bugünkü və gələcək nəsillər üçün artıq təhdidə çevrilib və günahlandırılır.

Amma günümüzün müasir "Hidrokarbon Adamı" avtomobillərini çox sevir və heç də ondan imtina etmək niyyəti yoxdur: lüks evindən və həyatını asanlaşdıran sevimli əşyalarından da nəyisə güzəştə getmək fikrində deyil. Belə başa düşülür ki, hər sahədə inkişaf edən dünya vətəndaşları, mühitin yaratdığı problemlər nə olursa olsun, özlərini neft gücüylə işləyən bir iqtisadiyyatın faydalarından məhrum etmək istəmirlər. Həm də dünya neft istehlakını aşağı salmaq üçün ediləcək cəhdlər, gələcək illərdə gözlənilən fövqəladə əhali artımı nəticəsində uğursuzluğa düçar olacaqdır. 1990-cı illərdə dünya əhalisinin 1 milyard nəfər çoxalması təxmin edilir. Bu, qarşımızdakı 10 il içərisində, əhalinin 1990-cı illərə nisbətən, 20 faiz daha çoxalması mənasına gəlir. Deməli, gələcək 10 il içərisində dünyada bu günkünə nisbətən 20 faiz çox insan yaşayacaq və dünyada yaşayan bu insanlar "istehlak" haqlarını tələb edəcəklər. Belə ki, 1990-cı illərin qorxunc və həllini tapmayan çatışmalarından biri üçün indidən lazım olan şəraitin hazırlandığı müşahidə olunur. Çatışacaq tərəflərdən biri ətraf mühitin qorunmasına daha çox diqqət yetirilməsini və bu sahədə görüləcək tədbirlərin daha da artırılmasını tələb edir. O biri tərəf isə iqtisadi inkişafa təkan verilməsini istəyən, "Hidrokarbon toplum"un mənfəətlərinin qorunması və enerji təhlükəsizliyinin lazımlılığına inanan qrupdur.

Kitabda göstərilməyə çalışılan hekayənin 3 ayrı qəhrəmanı bu 3 tezis olacaqdır. Bu həzin hekayə hamımızın həyatına təsir edən hadisələri epik bir dillə və tarixi xronologiya baxımından ardıcıllıqla verəcək.



# BİRİNCİ BÖLÜM

## QURUCULAR

# 1

# DÜŞÜNCƏLƏRİMİZDƏKİ NEFT ANLAYIŞI

## Başlanğıc

Ortadakı problem 526 dollar 8 sentin hələ ödənilməməsiydi.

1850-ci illərdə professorlara verilən maaş qaneedici deyildi. Bu səbəblə məşhur bir kimyagərin oğlu olan və özü də Jalə Universitetində hörmətli bir kimya professoru işləyən Benyamin Siliman 526.08 dollar maaşla bir araşdırma proyektində işləmək üçün ikinci bir işə girdi. 1854-cü ildə bir qrup iş adamı tərəfindən işə alınan Siliman, layihəni tamamilə başa vurmasına baxmayaraq, ona vəd edilən pulu hələ ala bilməmişdi. Getdikcə hirslənən Siliman, pulunun hara getdiyini araşdırmağa başladı və yatırıma pul qoyan qrupun liderini hədəfə götürdü. Xüsusilə də Nyu-Yorkda vəkil işləyən Corc Bissel və Nyu Havekdə bank müdiri olan Ceyms Tovsendə qarşı daha aqressiv idi. Tovsend arxa planda qalmağa çalışdı. Çünki müdiri olduğu bankın müştərilərinin belə bir macərada barmağı olduğu cəmiyyətə məlum olarsa, heç də yaxşı qarşılanmayacağını bilirdi və bundan qorxurdu.

Əslində Bissel, Tovsend və qrupun başqa üzvləri o günlərdə "qaya yağı" adı ilə məlum olan bir maddənin gələcək günlərə aid görkəmli xəyalını qururdular. Bu maddəyə "qaya yağı" deyilməsinin səbəbi, onu bitki yağlarından və heyvanlardan əldə edilən yağlardan fərqləndirmək





idi. Ancaq Bissel, Tovsend və qrupun o biri üzvləri "qaya yağı"nın çaylardan püskürüb çıxdığını və ya Pensilvaniya əyalətinin şimal-qərbində təcrid edilmiş kimi saxlanılan Oil Creek bölgəsi ətrafında yerləşən duz quyularından sızmış olduğunu və axtarılmalı yerin buralardan biri olacağını bilirdilər. Oil Creek bölgəsinin arxasında yerləşən bir yerdə çox primitiv üsullarla bu tünd rəngli və qəribə qoxulu maddədən əvvəlcə bir neçə barrel çıxarıldı. İki cür üsuldan istifadə edilirdi. Biri bu maddəni çaylardan və qayaların səthindən sıyıraraq çıxarma üsulu, o biri isə neft bulaşmış sulara bez parçaları və qalın palazlar ataraq bunları neftlə hopdurmaq və sonra da onları sıxıb maddəni təmin etmək üsulu. Bu üsullarla əldə edilən çox az miqdarda məhlul dərman istehsalında istifadə edilirdi.

Bu qrup, qaya yağını getdikcə daha böyük miqdarda əldə edib işləmək qənaətinə gəldi. Onların fikrincə, böyük miqdarda əldə ediləcək qaya yağı, lampalarda istifadə ediləcək mayeyə çevrilə bilərdi. Qrup, bu yeni aydınlıq və işıq verən maddənin 1850-ci illərdə bazarda özünə yer edən "kömür yağı" ilə güclü bir şəkildə rəqabət aparacağına inanırdı. Qısaca, bu qənaətə gəldilər ki, qaya yağı lazım olduğu miqdarda əldə ediləcəyi təqdirdə, XIX əsrin ortasında yaşayan insanın çox ehtiyac duyduğu ucuz və yüksək keyfiyyətli enerji nəhayət, təmin ediləcək və bazarda özünə yer tapacaqdı. Bu yoldan istifadə edərək, Şimali Amerikada və Avropadakı şəhər və təsərrüfatları işığa qovuşduracaqlarına bütün varlıqları ilə inanırdılar. Qrupun diqqət yetirdiyi, eyni dərəcədə əhəmiyyət verdiyi başqa bir mövzu da bu idi: yeni-yeni inkişaf etməkdə olan texnika dövründə əcəba, bu qaya yağı "mexanizmlərin hərəkət edən parçaları üçün" istifadəyə yararlı ola bilərdimi? Beləliklə, xəyallar dünyası quran bütün təşəbbüskarlar kimi, onlar da

nəticədə çox zəngin olacaqlarına inanırdılar. Təbii ki, onlara inanmayanlar və onlara rişxənd edənlər də vardı. Amma bu adamlar yollarından geri çəkilmədilər və səbr edərək, insanlıq tarixində tər-təzə bir çağın öndərliyini üstünə alıb onu müvəffəqiyyətlə sona çatdırmağı bacardılar. Bu yeni dövrün adı "Neft dövrü" idi.

### "Əzablarımızı sakitləşdirmək" üçün

Neft macərası əslində bir-birinin ardınca baş verən təsadüfi hadisələr qədər, tək bir adamın səbr və iradəsindən də doğulmuşdu - bu adam neft sənayesinin yaradılmasında hamıdan çox payı olan Corc Bisseldən başqa biri deyildi. Uzun bir qülləni xatırladan sifəti və geniş alnı ilə Bissel, ətrafındakı adamlara və mühitinə intellektual güc ifadə edən bir məna verirdi. Açıq gözlü və fürsətdən istifadə edən, onları yerində dəyərləndirən bir adam olduğu bütün hərəkətlərindən məlum olurdu. Bu keyfiyyətlərini yaşadığı təcrübələrdən əldə etmişdi. Həyatdakı mövcudluğunu qorumaq üçün 12 yaşından işləməyə başlamışdı. Sonra müəllimlik etmiş, məqalələr yazmışdı. Dartmounth Kollecində təhsil almışdı. Məzun olduqdan sonra bir müddət latınca və yunanca ixtisası üzrə professor işləyən Bissel, nəhayət, Vaşinqtonda jurnalist fəaliyyətinə başlamışdı. Bir də baxdı ki, artıq Nyu Orleandadır. Əvvəlcə Nyu Orleanda bir litseyin müdiri oldu, sonra dövlət məktəblərində müfəttiş işlədi. Vəkil olmaq istəyir, buna görə də boş vaxtlarında hüquqla məşğul olurdu. Bildiyi xarici dillərə bir neçəsini də əlavə etmək üçün davamlı öz üzərində çalışırdı. Beləliklə, yavaş-yavaş fransız, ispan və portuqal dillərini əla səviyyədə öyrənmişdi. İbrani və Sanskrit, qədim və yeni



3330



yunan, latın və alman dillərini isə ancaq oxuyub-yaza biləcək səviyyədə öyrəndi. 1853-cü ildə xəstələndi və ölkənin şimalına qayıtmaq məcburiyyətində qaldı. Geri qayıdanda Pensilvaniyadan keçərkən, təsadüfən primitiv üsullarla neft toplandığını, yəni qayaların səthindən neft yığıldığını və qaya yağına batırılmış palazları gördü. Bu hadisədən çox keçməmiş Nyu Hampshirenin Hannover şəhərində yaşayan anasına baş çəkməyə getdi və orada məzun olduğu Dartmounth Kollecinə də dəydi. Burada bir professorun otağında oturarkən, şüşənin içinə doldurulmuş bir maddə diqqətini cəlb etdi. Bu, onun artıq yaxşı tanıdığı Pensilvaniya "qaya yağı" idi. Bu nümunələri ora bir neçə həftə əvvəl Qərbi Pensilvaniyada doktorluq üzrə praktikada olan başqa bir məzun gətirmişdi. Bu təsadüf nəticəsində Bissel öyrənmişdi ki, "qaya yağı" ağrıkəsici dərman kimi yerlilər tərəfindən istifadə olunur. Bundan başqa, bu xəstəliklər arasında baş ağrısı, diş ağrısı, karlıq, mədə xəstəlikləri, bağırsaq qurdları və başqaları vardı. "Qaya yağı" həm də at və qatırların belindəki yaraların müalicəsində istifadə edilirdi. Bu bölgədə qaya yağına "Seneqa yağı" da deyilirdi. Buna səbəb buralarda yaşayan qırmızı dərililərin şefi olan Red Caket idi. Bunu onun şərəfində adlandırırdılar. Çünki bu qırmızı dərili adam dərmanın faydalarını ağ adamlara da söyləmişdi. "Seneqa yağı"nın ticarəti ilə məşğul olan bir tacir, dərmanın fövqəladə gücünü o günlərdə bu şeir ilə reklam edirdi:

*Təbiətin gizli çeşməsindən çıxan bu şəfa mənbəyi*
*İnsana sağlamlığın sirrini və həyatı verir.*
*Dərinliklərdən axan bu sehrli su*
*Bütün ağrıları və əzabları sakitləşdirir.*



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bissel bu yapışqana oxşayan qara rəngli mayenin yanacaq cinsindən olduğunu bilirdi. Buna görə də "qaya yağı"nın nümunəsini Dartmounth Kollecində gördüyü an, onun dərman kimi yox, işıqverici və aydınladıcı kimi istifadə edilə biləcəyini başa düşmüşdü. Buna heç şübhəsi qalmamışdı. Şübhəsiz, qəbul etdiyi başqa bir şey də vardı. Bu maddə ən azından, öz cibinin də "əzab"larını sakitləşdirəcəkdi. Artıq səfalət içərisində keçirdiyi günləri geridə qala bilərdi və bu maddə üstündə çalışsa, nəticədə çox zəngin ola bilərdi. Bu hadisədən keçən 6 il içərisində Bissel həmişə bu qənaətinə inandı, təxminlərinə etibar etdi və bu maddənin yol göstərən işığından uzaqlaşmadı. Təxminləri və taleyi bu müddət ərzində əzab-əziyyətli imtahanlara məruz qaldı. Bu müddət ərzində tez-tez xəyal qırıqlığına düçar oldu və bu da çox zaman ümidlərinin üzərinə bir "kölgə" saldı.

### İlim-ilim itən professor

Əcəba, "qaya yağı" həqiqətən aydınladıcı kimi istifadə edilə bilərdimi? Bissel danışdıqları ilə başqa sərmayədarların da marağına səbəb olmuşdu. Buna görə də, 1854-cü ilin axırlarında bir qrup sərmayədar Jalə Universitetində professor olan Silimana müraciət edərək, ona bu yağın aydınladıcı və yağlayıcı keyfiyyətlərini araşdırmağı tapşırdı. Bir az da əhəmiyyətli olanı o idi ki, Silimandan bu layihə üçün çox qiymətli sayıla biləcək təsdiq və dəstək istədilər. Əgər Siliman bu proyekti dəstəkləsə, bütün var-yoxlarını satıb layihənin gələcək inkişafı naminə lazım olan sərmayəni təmin edəcəklərinə əmin idilər. Məqsədlərini həyata keçirmək üçün Silimandan daha uyğun bir





başqasını tapa bilməzdilər. Nəticədə Siliman var gücüylə işə girişdi və "yaxşı və şən bir simaya sahib olan" bu adam beləliklə, XIX əsr elminin ən böyük və ən şərəfli adları arasında yerini aldı. Amerikalı kimya sənayesi qurucularından birinin oğlu olan Siliman, dövrünün ən seçkin elm adamlarından biri idi. Bundan başqa, fizika və kimyaya aid ən əhəmiyyətli məktəb dərsliklərinin yazarıydı. XIX əsrin ortalarında, Amerikanın elm paytaxtı sayılan Jalə Universitetində ata-oğul Silimanlar bu paytaxtın nüvəsini təşkil edirdilər.

Ancaq Siliman nəzəriyyə ilə maraqlanmayan, qəti şəkildə praktikaya əhəmiyyət verən bir xaraktera malik idi. İş həyatına da buna görə atılmışdı. Bununla bərabər, etibar qazanmaq və elm əldə etməklə birlikdə, əlavə bir gəlirə də ehtiyacı vardı. Elm adamlarının maaşlarının az olması və Siliman ailəsinin get-gedə böyüməsi səbəbilə, işlərindən kənarda müşavirlik etməyi adət halına gətirmişdi. Müxtəlif peşələrdən olan bir çox müştərisi vardı və onlara geoloji və kimyəvi sahələrdə müşavirlik edirdi. Praktikaya olan müsbət münasibəti onu vaxt keçdikcə spekulativ macəralara doğrudan müdaxilə etməyə vadar etdi. Bu işlər ona uğur qazandırırdı. Siliman bu uğurlardan özü demiş, "elm üçün lazım olan imkanı bol-bol" qazanacaqdı. Amma qayınlarından biri heç də belə düşünmürdü və bu işlərə olduqca şübhəli yanaşırdı. Onun qənaətinə görə, Benyamin Siliman "mütəmadi olaraq bir şeylərin arxasınca gedirdi, amma bu şey nə yazıq ki, elm deyildi."

Siliman qaya yağının analizinə girişərkən, müştərilərinə onların istədikləri səviyyədə bir raport verəcəyinə söz verdi. Hələ araşdırmasının lap əvvəlində onlara "nəticə gözləntilərə cavab verəcək və bu maddənin həqiqi dəyəri ortaya çıxarılacaq" dedi. Bundan 3 ay sonra, araşdırmanın

başa çatmasına yaxın həyəcan və coşqusu bir az da artmış halda raportunda bunları yazdı: "Qaya yağı məhsulunda, bu məhsulun istifadəsi haqqında gözlənilməz dərəcədə uğur əldə edildi." Araşdırma işinə sərmaye qoyanlar böyük həyəcanla son raportun hazırlanmasını gözləyirdilər ki, ortaya ciddi bir maneə çıxdı. Sərmayədarlar Silimana bu araşdırma işinə görə 526.08 dollar (indinin pulu ilə təxminən 5.000 dollar) ödəyəcəklərini qəbul etmişdilər. Ancaq Siliman bu pulun 100 dollarının nəğd olaraq dərhal ödənməsini və bu miqdarın avans şəklində Nyu York City-dəki bank hesabına köçürülməsini istəyir və israr edirdi. Silimanın göndərdiyi faktura onların təxmin etdiklərindən qat-qat çox idi. Bunu bəhanə edərək, istənilən avansı ödəmədilər. Siliman bu hadisəyə əsəbiləşmişdi. O, bu layihəyə sırf intellektual məqsədlə girişmişdi və pula da dəhşətli dərəcədə ehtiyacı vardı. Ona görə də bu pulun ödənəcəyi vaxta qədər araşdırmaları dayandırdığını bildirdi. Dediyi kimi də etdi. Şikayətini gələcək zamanlarda sübut etmək məqsədilə raportu gizlicə qoruyub saxlamaq üçün bir dostuna verdi. Raport, lazım olan qədər pul ödənməyincə dostunda qalacaqdı. Sonra da onu rahatlıqla tapa bilməyəcəkləri bir yerə - Cənuba doğru səyahətə çıxdı.

Sərmayədarlar bu vəziyyətdə çarəsiz qalmışdılar. Əlavə sərmayə tapmaq üçün son raportun mütləq əldə edilməsi lazım idi. Pul tapmaq üçün sağa-sola vurnuxurdular, ancaq bir nəticə olmadı. Nəhayət, ortaqlardan biri "indiyə qədərki həyatımızın ən çətin günlərini yaşayırıq" deməklə bərabər, öz imkanları ilə lazımi qədər pul tapa bildi. Beləliklə, 16 aprel 1855-ci ildə, son dərəcə əhəmiyyət kəsb edən raport, sərmayədarların əlinə keçir və gecikmədən naşirlərə çatdırılırdı. Nəticədə, Silimanın tələb etdiyi astronomik maaş qarşısında çaşqınlıqlarını hələ qoruyub saxlayan





sərmayədarlar, hər şeyə baxmayaraq, qoyduqları puldan qat-qat artdığını geri alırdılar. Silimanın raportu tarixçilərdən birinin söylədiyi kimi, "neftçilikdə əsaslı dönüş nöqtəsi" olmuşdur. "Qaya yağı"nın bir çox yeni sahələrdə istifadə edilə biləcəyi və bunun potensial gələcəyinin var olduğuna Siliman heç bir şübhə etmirdi. Bu sırada müştərilərinə yeni bir açıqlama göndərdi. Burada qaya yağının müxtəlif dərəcələrdə qaynadıla biləcəyini və beləliklə, karbon və hidrogendən təşəkkül tapan daha bir neçə funksiya halında artırılacağının mümkünlüyünü bildirdi. Bunlardan biri yüksək keyfiyyətə malik aydınladıcı - yağ olacaqdı. Müştərilərinə göndərdiyi bir yazıda Siliman bunları söyləyirdi: "Bəylər, başa düşdüyüm qədərilə şirkətinizdəki xammaddənin elə bir keyfiyyəti var ki, sadə və bahalı olmayan bəzi əməliyyatlarla bu xammaddədən son dərəcə qiymətli məhsullar emal etmək mümkündür." Və müştərilərlə arasındakı münasibətləri nəhayət, normallaşdığından, daxili rahatlıqla özünü - onu qarşıda gözləyən yeni layihələrin həyata keçirilməsinə həsr elədi.

Digər tərəfdən, Silimanın fövqəladə inandırıcılığı sayəsində reklam rolunu oynayan bəyanatı ilə yeni qüvvə toplamış və bu səbəblə ürəklənmiş qrup üzvləri, heç bir əngəllə qarşılaşmadan, başqa sərmayədarlardan lazım olan pulu artıqlaması ilə təmin edə bildilər. Birbaşa Silimanın özü artıq "Pensilvaniya Qaya Yağı Şirkəti" adlanan bu şirkətdən 200 hissə sənədi alaraq, bu iş sahəsinin hörmətini artırdı. Ancaq qarşılarında il yarım çəkəcək və çətinliklərlə dolu olacaq bir zaman kəsiyi onları gözləyirdi. Təhlükələrlə dolu olan bu il yarımlıq müddət başa çatmadan, sərmayədarlar yeni bir addım üçün hazır olmadıqlarını düşünürdülər.

Silimanın araşdırmaları nəticəsində, artıq ən azı bir

mövzudakı şübhələrə cavab tapılmışdı və qaya yağından qaneedici keyfiyyətdə bir aydınladıcı maye çıxa biləcəyinə inanmağa başlamışdılar. Amma indi də başqa bir mövzu ağıllarda qarışıqlıq yaratmağa başlamışdı. Əcəba, kifayət qədər qaya yağı var idimi? Bəzilərinin qənaətinə görə, mövcud qaya yağı yer altındakı kömür yataqlarından gələn "sızıntılardan" ibarət idi. Bu adamların düşüncələrinə görə, qaya parçalarının üzərində yığılmış yağ parçalarını qaşıyıb bir yerə toplamaqla və ya qaya yağına batırılmış parça-palazları əllə sıxıb yağ çıxarmaq kimi ciddiyyətdən uzaq üsullarla bu iş bir nəticə verməzdi və bir sənaye qurula bilməzdi. Ancaq nəticədə bu kritik mövzu da öz həllini tapdı. Kifayət qədər və əldə oluna bilən növdən qaya yağı ehtiyatının mövcudluğu sübut edildi və layihəni dəstəkləyici əlavə qaynaqlar təmin olundu.

## Qiymət və yenilik

Qaya yağının keyfiyyətləri və tərkibi hələ bilinmirdi və bu səbəblə də yağ, öz əsrarəngizliyini qoruyub saxlayırdı. Bütün ümidlər də bu əsrarəngiz məqamlara indekslənmişdi. Bunun səbəbi şübhəsiz ki, qaya yağına duyulan böyük ehtiyac idi. Dünya əhalisinin gedərək çoxalması və sənaye inqilabı nəticəsində iqtisadi inkişafın yayılması səbəbləri ilə süni işıqlandırmaya qarşı hiss olunan tələb, gündən-günə artmaqdaydı. Artıq bəsit bir lampa fitilinin heyvani və ya bitkilərdən hazırlanan yağa batırılması ilə əldə olunan aydınlatma üsulu, artan tələbi qarşılamaqda aciz idi. İnsanların əksəriyyəti yüzillərdən bəri bu ucuz metodun məsrəflərini belə çətinliklə qarşılayırdı. Hətta bir çoxları bunu belə əldə edə bilmirdi. Pulu çox olanlar, balina balığının başında - bir növ yağ (ispermeçet yağı) olan





maddədən aydınlatma vasitəsi kimi istifadə edirdilər. Bu maddə, aydınlatma vasitələri içində əsrlərdən bəri ən üstün keyfiyyətli standart olaraq qəbul edilmişdi. Ancaq tələbin artmasına baxmayaraq, Atlantik okeanındakı balinaların sayı azalmağa başlayırdı. Beləliklə, balina ovuna çıxan gəmilər sahildən gedərək daha uzaqlara üzmək məcburiyyətində qalırdı. Artıq yalnız Ümid burnu ətrafında və Sakit okeanın çox uzaq bölgələrində yetərli ov vardı. Qiymətlər hər gün bir az daha qalxırdı. Bu səbəblə, balina ovçuları üçün sözün bütün mənalarında bir "qızıl dövr" başlamışdı. Ancaq istehlakçılar üçün eyni şey söylənə bilməzdi. Çünki onlar qalon başına 2.50 dollar ödəmək məcburiyyətindəydilər və bu da onlara çox baha başa gəlirdi. Üstəgəl, hadisələrin gedişatı bu qiymətlərin daha da artacağını göstərirdi. Bu arada bəzi ucuz başa gələn mallar və işıqlandırıcı mayelər kəşf olunmuş və təkmilləşdirilmişdi. Amma bunların hamısı da ikinci dərəcəli keyfiyyətə malikdi. İçlərindən ən yaxşı satılanı terebentindən çıxarılan neft yağı idi. Ancaq yaxşı işıq verən neft yağının bu üstünlüyünün müqabilində, çox ciddi bir çatışmazlığı da vardı. Neft yağı yüksək dərəcələrdə alovlanma və yanma xüsusiyyətinə sahibdi. Bəlkə bundan daha ciddi və sevimsiz olan başqa bir xüsusiyyəti də vardı - ev içində partlama ehtimalı böyükdü. Başqa bir aydınladıcı da kömürdən əldə olunan "hava qazı" idi. "Hava qazı", əvvəlcə şəhər bölgələrində küçə və prospektlərə borularla nəql olunur, daha sonra sayları gedərək artan orta sinif və yüksək təbəqə ailələrinin evlərinə verilirdi. Amma şəhər qazı çox bahalı idi və insanlar artıq daha etibarlı və nisbətən daha ucuz bir aydınladıcıya şiddətlə ehtiyac hiss edirdilər. Bundan başqa, yeni bir yağlayıcı növünə də ehtiyac vardı. Sənayenin inkişafı nəticəsində enerji ilə işləyən dəzgahlar və buxar makinaları

ortaya çıxmış və bunların yağlanması üçün donuz yağı, yaxşı bir yağlama vasitəsi olma xüsusiyyətini itirmişdi.

1840-cı illərin axırlarında və 1850-ci illərin əvvəllərində iş yerləri bu ehtiyacı artıq hiss etməyə başladılar. Yeri gəlmişkən, kömürdən və digər hidrokarbonlardan aydınladıcı və yağlayıcı maddələr əldə etmə işi də bu illərə rast gəlir. Həm İngiltərədə, həm də Amerikada bir çox iş adamı gələcəkdə neft sənayesinin də yararlanacağı neftayırma texnologiyasını bu illərdə inkişaf etdirdilər. Marşallığa qədər yüksələn və bir ingilis donanma admiralı olan Tomas Cockrane - Bayronun "Don Juan" əsərini onun təsiri altında yazdığı söylənilir - asfalt mövzusuna özünü o qədər qapdırmışdı ki, bütün gücünü layihəni təkmilləşdirməyə həsr etdi və Trinidadda çox böyük bir qatran quyusu satın aldı. Tomas Cockrane və kanadalı Dr.Abraham Gesner asfalt məsələsində bir müddət əməkdaşlıq etdilər. Gesner gəncliyində Antillərə at ixracı işinə girmək istəmiş, amma bu təşəbbüsü bir nəticə verməmişdi.

Bunun səbəbi isə ixracat üçün istifadə etdiyi gəmilərin düz iki dəfə batması idi. Buna görə də ixracat işindən vaz keçərək Londona yerləşdi və Guys Hositalda tibbdən dərs deməyə başladı. Qısa müdətdən sonra Kanadaya qayıtdı və bir daha peşəsini dəyişib Nyu Brunswickdə bölgə geoloqu işlədi. Bu müddətdə Gesner, asfaltdan və ya asfalta oxşar maddələrdən yağ əldə etmə və bunu da keyfiyyətli bir aydınladıcı yağ kimi ayırma metodunu kəşf etmişdi. Əldə etdiyi bu yağa "kerosene" adını verdi ki, bu da yunanca "kerso" və "elain" sözcüklərinin birləşməsindən yaranmışdı. "Kerso" yunancadan "mum", "elain" isə "yağ" mənasını daşıyırdı. Gesner "elaion" sözcüyünü qısaldaraq "ene" etdi və beləliklə, kəşf etdiyi məhlulun qədimdən bəri bilinən "camphene" (neft yağı) kəlməsiylə





eyni cür tələffüz edilməsini təmin etdi. 1854-cü ildə Amerika Birləşmiş Ştatları dövlətinə müraciət edərək, "Kerosene" (kerosin) adını verəcəyi və işıqlandırmada, ya da yağlama və ya başqa məqsədlərlə istifadə edilə biləcək yeni hidrokarbon bir maye emalı üçün patent haqqı istədi.

Beləliklə, Gesnerin sayəsində Nyu York şəhərində qaz yağı sənayesi artıq qurulmuşdu. Hələ 1859-cu ilə qədər gün də beş min qalon qaz yağı istehsal olunmuşdu. Bostonda da oxşar bir iş yeri açılmışdı. Bundan başqa, şotlandiyalı kimyagər Ceyms Young Britaniyada daim kömürdən xammaddə kimi istifadə edən bir başqa ayırma müəssisəsinin öndərliyini üstələnmişdi. Fransa da boş durmamış, shale rock (şistli qaya) ilə işlədilən başqa bir ayırma müəssisəsi yaratmışdı. Belə ki, 1859-cu ilə qədər Amerikada var olan təxminən 34 şirkət, ildə 5 milyon dollar qiymətində "kerosin" və ya daha yayılmış adla "coal oils" (kömür yağları) istehsal edirdi. Məşhur bir ticarət dərgisinin yazarının sözləri ilə, kömür yağı işinin bu dərəcədə sürətlə böyüməsi, "bu işin çox sürətli inkişaf edən bir enerji olduğunun və Amerikan düşüncə sisteminin sürətlə böyüyən bütün enerjilər kimi bunu da tezliklə mənimsəyəcəyinin və ayrıca, bunun həm də yaxşı qazanc gətirən bir iş olduğunun dəqiq göstəricisi idi." Qaz yağının çox kiçik bir hissəsi Pensilvaniyada ənənəvi metodlarla toplanan qaya yağından əldə edilir, o da öz növbəsində Nyu Yorkun ayırma müəssisələrinə göndərilirdi.

Qaz yağı artıq insanlıq üçün əsrarəngizliyini itirmişdi. Zaman-zaman Orta Şərqin müxtəlif yerlərində yaşayan insanlar "bitumen" adlanan yarı qatı və çamurlu bir maddənin çatlaqlar arasından sızdığını müşahidə edirdilər. Bu tip sızmalar hələ bizim eradan əvvəl 3000-ci illərdə Mesopotomiyada da müşahidə edilmişdi. Sızıntı mənbələrinin ən məşhuru Babil şəhərindən çox da uzaq olmayan Fərat

çayı yaxınlığında yerləşən Hit bölgəsi idi (müasir Bağdadın yerləşdiyi yer). Bizim eradan əvvəl birinci yüzillikdə yunan tarixçisi Diodor qədim "bitumen" sənayesindən fəxarətlə bəhs edir və bunları yazırdı: "Babil ölkəsində indiyə kimi görünmüş möcüzələr arasında, burada tapılmış böyük miqdarda asfalt qədər maraqlı hadisəyə hələ rast gəlinməmişdir." Bu asfalt sızıntılarının bir hissəsi neftlə çıxan təbii qazla birlikdə yandığı üçün Orta Şərqdə atəşpərəstlik yayılmış və buna uyğun mühit formalaşmışdı.

Qədim Orta Şərqdə "bitumen" ticari mal hesab edilir və inşaatlarda palçıq kimi istifadə olunurdu. Fələstinin Eriha şəhəri və Mesopotomiyanın Babil şəhər divarları bu palçıqla hörülmüşdü. Böyük ehtimalla Nuhun gəmisi və Musa peyğəmbərin səbəti də zamanın texnoloji imkanları nəzərə alınaraq, sukeçirməz olmaq üçün "bitumen"lə örtülmüşdü. Bitumendən yol salmaq üçün də istifadə edilirdi. İşıqlandırma məqsədi ilə istifadə edilsə də, bu sahədəki istifadəsi məhdud olmuş və lazımi səviyyəyə çatmamışdır. Bitumendən, dövrünə görə dərman kimi də istifadə edilmişdir. Bizim eranın birinci əsrində yaşamış romalı təbiətşünas Phinynin aptekçilik baxımından bitumenin dəyərini anladan tərifi 1850-ci illərdə ABŞ-dakı təcrübələrə uyğun gəlir. Phinynin gəldiyi nəticələrə görə, bitumen qanın laxtalanmasına kömək edir, yaranı yaxşılaşdırır, göz xəstəliklərini müalicə edir, cild xəstəliklərində dərman kimi istifadə edilir, diş ağrısını sakitləşdirir, öskürəyi səngidir, nəfəs darlığını genişləndirir, yorulmuş əzələlərin özünə gəlib möhkəmlənməsinə kömək edir, revmatizmanı və istiliyi müalicə edir və aşağı salırdı. Başqa bir xüsusiyyəti də "gözlər üçün maneəyə çevrilən kirpikləri düz saxlaması" idi.

Bu yağın başqa bir əhəmiyyəti də müharibə meydanlarında görünür. Sızıntılardan əldə edilən bu məhlul yandırıldığında, savaş meydanlarındakı nəticəyə təsir





edirdi. "İlliada" adlı əsərindlə Homer, "Truvalıların sürətlə gedən gəmiyə yorulmadan atəş açdığını, atəşdən həmən sonra gəminin burnunda böyük alovlar başladığını və atəşi söndürməyin mümkün olmadığını" bildirir. Pers Kralı Cyrus Babil şəhərini tutmağa hazırlıq görəndə, küçə döyüşlərnin doğura biləcəyi təhlükələrə qarşı xəbərdar edilmişdi. Bu xəbərdarlıqlara Cyrus, küçə döyüşləri olarsa şəhəri yandıracağı cavabını verdi və bunları söylədi: "Bizim əlimizdə kifayət qədər zift var. Zift, alovları sürətlə ətrafa yayacaqdır. Beləliklə, evlərin damlarına çıxmış adamlar ya olduqları yerləri tezliklə tərk edəcək, ya da öləcəklər." VII əsrdən etibarən bizanslılar "Oleum Incendiarum" - yəni "Yunan Atəşi" dedikləri bir maddədən istifadə etməyə başladılar. Neft və kirəc qarışığı olan bu maddə nəmləndiriləndə od alırdı. Yunan atəşinin tərkibi bir dövlət sirri kimi gizli saxlanıldı. Bizanslılar yunan atəşini onlara hücum edən gəmilərə qarşı silah kimi istifadə etdilər. Oxdan istifadə etdikləri döyüşlərdə oxların ucuna yerləşdirdilər və o şəkildə döyüşdülər. Bundan başqa, ibtidai əl bombalarının istehsalında işlətdilər. Bu maddəyə yüzilliklər boyu barıtdan daha müdhiş silah gözü ilə baxıldı. Orta Şərqdə neftin çox əski zamanlara qədər gedən və müxtəlif hadisələrlə dolu olan bir keçmişinin olduğunu müşahidə edirik. Uzun illər boyu Qərb, neftin istifadəsi haqqındakı məlumatlardan bilinməyən səbəblərlə məhrum qaldı. Böyük ehtimalla bunun əsas səbəbi, bitumenin məlum olan yataqları və istifadəsi haqqındakı məlumatların Roma İmperiyasının sərhədlərindən kənarda yerləşməsi idi. Bir başqa səbəb də Qərbə doğru yönələn bir keçid yolunun olmaması idi. Orta əsrlərdən başlayaraq, Avropanın bir çox bölgəsində zaman-zaman neft sızıntıları müşahidə edilmiş və bu mövzuda rəylər bildirilmişdi. Bavariya, Siciliya, Po Vadisi, Alsak, Hannover və Qalitsiya

bu ölkələrdən sadəcə bəziləridir. Daha da önəmlisi o idi ki, neftayırma texnologiyası artıq ərəblər vasitəsilə Avropaya sızmışdı. Ancaq çox vaxt neft sadəcə, hər dərdə dərman tibbi bir məhlul olaraq qəbul edilir və istifadəsi tibb sahəsiylə məhdudlaşırdı. Neftin şəfaverici mahiyyəti alim papazlar tərəfindən və o zamanın həkimlərinin əliylə elmi araşdırmalara məruz qalır və möhkəmləndirilirdi. Tibb sahəsində məhdud istifadəsinə baxmayaraq, Bisselin xəyal qurmağa başladığı gündən və Benyaminin göndərdiyi raportlardan çox əvvəl, Qalitsiyada (ki o zamanlar Qalitsiya Polşa, Avstriya və Rusiyanın arasında bölüşdürülüb onların tərkibinə qatılmışdı) və Rumıniyanın kəndlərində yaşayan kəndlilər, əlləriylə quyular qazır və xam neft çıxarmağa çalışırdılar. Günlərin bir günündə Lvov bölgəsində yaşayan bir əczaçı su təsislərində işləyən bir suçunun da köməkliyi ilə qaz yağını yanacaq kimi işlədə bilən əlverişli və ucuz bir lampa icad etdi. 1854-cü ildə neft artıq Vyanada əsas ticari mal durumundaydı. 1859-cu ildə Qalitsiya get-gedə böyüyən bir qaz yağı mərkəzinə çevrilmişdi. Burada neft işi ilə məşğul olan 150-dən çox kənd vardı. 1859-cu ildə bütün Avropada cəmi neftin xammaddə kimi istehsalı 36 min barrel təxmin edilirdi və bunun da əksəriyyəti Qalitsiya və Rumıniyada çıxarılırdı. Bu dövrdə Şərqi Avropa neft sənayesinin məhrum qaldığı və hər şeydən çox ehtiyacında olduğu tək şey neftayırma texnologiyasının olmaması idi.

1850-ci illərdə Amerikada qaz yağının genişlənib yayılmasında iki maneə vardı. Əldə nə kifayət qədər qaz yağı, nə də bu qaz yağının istifadə edilməsi üçün ucuz bir lampa növü vardı. Mövcud lampalar qısa zamanda hislənir və yanan yağın heç də xoş olmayan qoxu çıxarmasına səbəb olurdu. Bir gün Nyu Yorklu bir qaz yağı satıcısı Vyanada Qalitsiya qaz yağını yandıra bilən yeni bir





lampanın icad edildiyini öyrəndi. Əldə etdiyi məlumatlara görə, bir əczaçı və bir suçu şüşədən bir lampa istehsal edərək, his problemini kökündən həll etmişdilər. Beləliklə, Nyu Yorklu satıcı lampa idxalına başladı və çox keçmədən yeni bir bazar, yəni idxal edilmiş lampa bazarı formalaşdı. Daha sonra bu lampanın təkrar-təkrar təkmilləşdirilməsinə baxmayaraq, Vyanada istehsal edilən bu lampa Amerikan qaz yağı istehsalının əsas mənbəyi olmuşdu. Zaman ötdü və daha da təkmilləşdirilən Amerikan qaz yağı lampaları yenidən dünyanın dörd yanına ixrac edilməyə başlandı.

Buna görə də Bissel macərasının başladığı ana qədər nisbətən aşağı keyfiyyətli bir yağ olan qaz yağının bəzi evlərdə onsuz da istifadə edildiyini söyləmək mümkündür. Ayırma texnologiyası kömür yağından istifadə edərək, nefti qaz yağına çevirmiş və beləcə də ticari sahədə yerləşmişdi. Bundan başqa, qaz yağını istənildiyi səviyyədə yandıran ucuz bir lampa da vardı. Bissel və "Pensilvaniya Qaya yağı Şirkəti"ndəki sərmayədarlar, dostlarının etmək istədiyini, bu xammaddə mənbəyinin yeni bir iş sahəsini kəşf etmək istəyirdilər. İş dönüb-dolanıb bunun mahiyyətinə gəlirdi. Qənaətlərincə, kifayət qədər bol miqdarda qaya yağı tapdıqları təqdirdə onu daha ucuza satacaqdılar. Beləliklə, çox bahalı olan və ya daha az qaneedici məhsullar vasitəsilə aydınladıcı yağ bazarını ələ almaq mümkün olacaqdı.

Onlara görə bu, neft üçün torpaq qazmaqla başa gələn iş deyildi. Ancaq bəlkə bunun da bir alternativi vardı. Bildiklərinə görə, Çində 1.500 ildən də çox əvvəllər, "duz çıxarma", torpağın dərininə enmək üsulu ilə inkişaf etdirilmiş üç min feet dərinliyi olan quyular vasitəsilə çıxarılmışdı. Min illər əvvəl Çində həyata keçirilən bu üsul 1830-cu ildə Avropaya gəldi və "kopya" edildi. Bunun

həyata keçirilməsi Amerikanın duz quyularındakı işləri də asanlaşdırırdı. Bu arada, Corc Bissel hələ də işlərini yoluna qoymağa çalışırdı. Elə bu günlərdən birində, 1856-cı ilin isti bir yay səhəri Nyu Yorkda, yandırıcı günəşdən qaçıb Broadwaydakı bir əczanəyə sığındığı bir vaxtda pəncərədən bayıra baxarkən, qaya yağından hazırlanan bir dərmanın reklamı gözlərinə sataşdı. Reklam - quyu qazmaqda istifadə olunan və duz qazıb-çıxarmada texniki kömək edən bəzi pilləkənəbənzər dəzgahı göstərirdi. Bissel o an bunları düşündü: Patentli dərman istehsalında istifadə olunan qaya yağı, duz çıxarma qazmalarında yan məhsul rolunu oynayırdı. Təsadüfən gördüyü və əvvəllər də Qərbi Pensilvaniya və ona tanış olan kollecdən tanıdığı həqiqətlərdəki əskik olan hissə artıq tamamlanmışdı. Əcəba, "duz çıxarma" işindəki bu qazıntı texnologiyası neft çıxarma işində də istifadə edilə bilərdimi? Bu sualın cavabı "bəli" olarsa, bu texniki üsul ona böyük bir sərvət qazandıracaqdı.

Əvvəlcə Bissel və sonra da "Pensilvaniya Qaya yağı Şirkəti"nin digər üzvləri duz çıxarma texnologiyasını birbaşa neftçıxarmada təcrübədən keçirməyə qərar verdilər. Qazıntı işlərini qaya yağı əvəzinə neft üçün edəcəkdilər. Bu işdə tək deyildilər. ABŞ-dan, Kanadanın Ontario şəhərindən daha bir çox adam bu fikri mənimsəyib eyni məqsəd uğrunda təcrübələrə başlamışdı. Bissel və qrupu bununla da kifayətlənmədi və hərəkətə keçdi. Professor Silimanın raportu onlardaydı və bu raportun sayəsində sərmayə də onlarda hesab edilirdi. Bunlara baxmayaraq, yenə də əvvəlcə ciddiyə alınmadılar. Ceyms Townsend adlı bir bankir bu işdən bəhs edib müzakirəyə başladığı zaman, Nyu Havenli bir çoxu bu fikrə qarşı çıxdı və "pompalayaraq su çıxarıldığı kimi, pompalayaraq neft çıxarılacaq, eləmi? Nə axmaq fikir. Sən həqiqətən çıldırmısan" dedilər.





Ancaq qrup üzvləri bu işi davam etdirmək qərarında idilər və neftin əhəmiyyətinə və bu fürsətin ələ düşdüyünə inanırdılar. Yenə də tərəddüdlü idilər. Bu çılğın proyekti kimə əmanət etsinlər? Cavab tapa bilmirdilər!

## "Polkovnik"

Bu işi aparmaq üçün namizədləri Edwin L.Drake adlı bir adam idi. Namizədliyə seçilməsi tamamən təsadüf idi. Görünüşdə diqqət çəkən heç bir fövqəladə xüsusiyyəti və ya diqqətəlayiq bir mahiyyəti yox idi. Sabit bir işi olmayan, amma hər işdən bir az anlayan Drake, bir zamanlar dəmir yollarında konduktor işləmiş, sonradan xəstələnməsi ilə əlaqədar olaraq işləyə bilməmiş və işdən ayrılmışdı. O zaman qızı ilə birlikdə Nyu Havendə köhnə bir otel olan Tontine Otelində yaşayırdı. Təsadüfən Nyu Havenli bankir Ceyms Townsend də eyni oteldə qalırdı. Bu otel, salonunda kişi müştərilərin yığışıb gündəlik hadisələri və xəbərləri müzakirə etdikləri, havadan-sudan boş-boş danışdıqları bir otel idi. Buna görə də dostcanlı, şən və çox danışan bir insan olan, heç biri işi olmayan 36 yaşındakı Drake üçün burada ideal bir atmosfer var idi. Drake axşamlar otel yoldaşlarına öz rəngarəng həyatından hekayələr söyləyər, onları əyləndirərdi. Çox canlı bir xəyal gücünə sahib olan Drake, hekayələrində dramatik, şişirdilmiş mövzular seçər və bunların hamısında özünü hekayənin mərkəzi və baş qəhrəmanı olaraq göstərərdi. Tez-tez Townsendlə görüşüb qaya yağı macərasından danışardılar. Hətta nəticədə Townsend Drakeni şirkətinin hissə sənədlərindən bir miqdar almağa belə inandıra bildi. Bir müddət sonra isə bu proyektdə çalışmaq üçün ona təklif

təqdim etdi. Drake o günlərdə işsizdi və bu səbəblə də hər iş üçün uyğundu. Dəmir yolundakı konduktorluğu hələ davam edirdi və imtiyazlı olduğu üçün dəmir yollarında pulsuz gediş-gəliş imkanı vardı. Maliyyə baxımından imkansız olan bir macəraçı üçün bu belə böyük avantaj idi. Bundan başqa, Drakenin son dərəcə gözəl bir xüsusiyyəti də vardı - nizam-intizamlılığı. Drake istədiyi vaxt işində çox diqqətli və israrlı ola bilirdi.

Drakeni Pensilvaniyaya yola salanda Townsend ona, irəlidə çox qiymətli ola biləcək bir ərməğan verdi. Bu şey Drake hələ Pensilvaniyaya varmadan bankirin ora göndərdiyi bəzi məktublardı. Orada şərtlərin nə cür olduğunu bilməyən, bundan narahat olan və oradakı adamlara təsir etmək istəyən bankir, bu məktubları "Polkovnik E.L.Drake" ünvanına göndərirdi. Əslində, Drakenin polkovniklikle uzaqdan-yaxından bir əlaqəsi yoxdu. Bu rütbə uydurma idi. Ancaq bu strategiya tutdu və 1857-ci ilin dekabr ayında bir çamur bataqlığını keçərək gəldiyi yerdə "Polkovnik" çox isti bir qonaqpərvərliklə qarşılandı. Həftədə iki dəfə səfər edən poçt vaqonunun arxa hissəsində yolçuluq edib gəldiyi bu kiçik və füqəra Titusville kəndində sadəcə 125 nəfər yaşayırdı. Pensilvaniyanın Şimal-qərbindəki təpələrin qoynuna sıxışmış kənd sakinlərinin əksəriyyəti ağac işi ilə məşğul olur və bu işlə məşğul olan şirkətin kənddəki dükanına mütəmadi borclu qalırdılar. Ətrafdakı ağaclar kəsilib satıldığından, xalq, bir gün kəsiləcək ağac qalmayanda kəndin ölüb gedəcəyini və o zaman bütün bölgənin Qırmızıdərililərin əlinə keçəcəyindən qorxurdu.

Drakenin görəcəyi ilk iş, gələcəyin neft torpaqları hesab etdiyi və fermer təsərrüfatı yerləşən bu əraziyə yeni bir ad verməkdi. Bunu dərhal gerçəkləşdirdi. Daha sonra Nyu





Havenə qayıdanda ikinci böyük addımını atdı. Neftçıxarma işinə girişməyə qəti qərar verdi. Bu qərarını aşağıdakı sözlərlə ifadə etmişdi: "Qərarımı vermişdim. Duzlu su çıxarmada istifadə edilən qazıntı üsulunu neftə də şamil edərək bol miqdarda neft çıxarılacağına inanırdım. Bu arada ikinci bir qərar da vermişdim. Bu işi görəcək adam mən olacaqdım. Ancaq çox keçmədən başa düşdüm ki, bu mövzunu müzakirə etdiyim adamların heç biri mənimlə razılaşmır. Hamısı bir ağızdan mövcud neft ehtiyatlarının çox böyük kömür yataqlarından gələn sadə axıntılar olduğunda israr edirdilər."

Amma Drake bu iddialardan çəkinmədi və qərarını dəyişdirmədi. 1858-ci ilin yazında işinə davam etmək üçün Titusville kəndinə qayıtdı. Artıq neftə sərmayə qoyan qrup üzvləri "Seneka Neft Şirkəti" adını verdikləri yeni bir şirkət qurmuş və başına da təmsilçi kimi Drakeni təyin etmişdilər. Drake ilk işlərin başlayacağı yer kimi Titusville kəndindən təxminən iki mil uzaqlıqdakı Oil Creek (Neft Dərəsi) bölgəsini seçdi. Bura içində neft yatağı olan bir fermer təsərrüfatı idi və buradan gündə ənənəvi üsullarla 3-6 barrel neft çıxarılırdı. Bu mərhələdən bir neçə ay sonra yenidən Titusvilleyə qayıdan Drake, Townsendə yazdığı məktubda bunları deyirdi: "Bundan sonra qazıntı işlərini əllə aparmaqdan imtina edirəm. Çünki qazıntının ən ucuz üsul olduğunu başa düşdüm." Drake Nyu Havenli bankirdən dərhal daha çox pul göndərməsini istədi və bunun üçün haradasa yalvardı. "Əgər hər hansı nəticə əldə etmək istəyiriksə, mütləq pula ehtiyacımız var... Lütfən, qərarınızı mənə dərhal bildirin. Əlimizdə çox az pul qaldı." Olduqca uzun sürən gecikmədən sonra Townsend nəhayət, gözlənilən pulu göndərmişdi. Bu, 1.000 dollar pul idi. Bu pulla Drake işi davam etdirmək üçün iki ədəd "duz

çıxarıcı" dəzgah aldı və işə qoşdu. Ancaq fəhlələrinin pis bir "şöhrət"i vardı. Viski ölüsüydülər, tez-tez həddən çox içib sərxoş olurdular. İşə götürəcəyi adamlar haqqında çox diqqətli olan Drake bu fəhlələrə mükafat vəd etdi. Qazılan hər feet məsafə, qazıntı müvəffəqiyyətlə başa çatarsa, 1 dollar mükafatlandırılacaqdı. Buna baxmayaraq, işə götürdüyü ilk iki fəhlə işdən qaçıb qeyb oldular. Əslində, bu adamlar üzünə söyləməyə cəsarət etməsələr də, Drakenin dəli olduğunu zənn etmişdilər. Titusvilledə keçirdiyi bir illik müddətdə Drakenin əlində müvəffəqiyyət adına heç bir şey yox idi. Qarşıdan da amansız qara qış gəlirdi. Nəticədə Drake özünü qazıntı texnologiyasına enerji verən buxar makinasının qurulmasına həsr etdi. Nyu Havendəki sərmayədarlara gəlincə, onların edə biləcəkləri tək şey hirslənmək və gözləməkdən ibarət idi.

Nəhayət, 1859-cu ilin yazında Drake axtardığı qazmaçını tapdı. Bu, William A.Smit adlı, "Bill Əmi" deyə çağırılan və işə gələrkən iki oğlunu da yanında gətirən bir dəmirçi idi. Bu adam əvvəllər duz çıxaranlarla işləmişdi və onlara lazım olan alətləri də düzəltdiyi üçün bu işdə nə edilməsini bilirdi. Beləliklə, kiçik bir komanda formalaşmışdı və onlar dəzgahlarını qurub işə girişməyə hazır idilər. Təxminlərə görə, bir neçə yüz "feet" torpağın dərinliyinə enmək lazım gələcəkdi. Ancaq iş yavaş gedirdi. İrəliləyiş olmadığını görən Nyu Havenli sərmayədarlar səbirsizlənməyə başladılar. Ancaq Drake planından sapmadı və qərarını dəyişdirmədi. Aradan keçən zaman içərisində təşəbbüskarların hamısı bu proyektə olan inamlarını büsbütün itirdilər. Bu adamlar içində inamını itirməyən tək bir adam vardı - o da Townsend idi. Belə ki, əlində bir quruş belə qalmayanda Townsend gələn fakturaları bilavasitə öz cibindən ödəməyə başladı. Nəticədə çarəsizlik





içində qalan Townsend Drakeyə son bir pul həvaləsi göndərib işə son verməsini, əməliyyata aid fakturaları ödəyib dərhal Nyu Havenə qayıtması təlimatını verdi. Təqvimlər 1859-cu ilin avqust ayının son günlərini göstərirdi.

1859-cu il avqust ayının 27-də, bir şənbə günü günortadan sonra 69 feet dərinliyində olan bir quyuda qazıntı aparıldığı vaxt, anidən qazma alətinin bir çatlağa girdiyini və dərhal sonra təkrar bir az daha dərinliyə endiyini hiss etdilər. Çaşqınlığa düşən komanda, artıq həftə sonunun geri qalan qismində işləməməyə qərar verdilər. Səhərisi günü - ki bu gün bazar günü idi - "Bill Əmi" quyunu görmək məqsədilə quyunun olduğu yerə gəldi. Əyilib borunun içərisindən aşağıya baxdı. Gördüyü şey suyun üstündə üzən tünd rəngli bir maye idi. Mayedən nümunə götürmək üçün quyunun içinə tənəkədən bir vedrə salladılar. Bill Əmi çaşıb qalmışdı. Çıxarılan mayeni araşdırarkən keçirdiyi həyəcan üzündən rahatlıqla oxunurdu. Bazar ertəsi Drake quyunun olduğu yerə gələndə ilginc bir mənzərəylə qarşılaşdı. Bill Əmi və oğlanları quyunun başında durmuş və yanlarındakı çox sayda boçka, ləyən və barrel kimi qabları neftlə doldurmaqla məşğul idilər. Qısa müddətdə çaşğınlığı atan Drake tez bir əl pompasını quyuya bağlayıb pompalamağa başladı. Etdiyi şey layihəni məsxərəyə qoyanların məsxərə mövzusuna çevirdikləri işin ta... özüydü. Mayenin pompalanması çox qəribə bir təsadüf nəticəsində Townsendin göndərdiyi pul haqqında xəbərdarlıq və işi bağlama əmrinin Drakeyə gəlib çatması ilə eyni günə rast gəlirdi. Əgər bu əmr, bir həftə əvvəl gəlmiş olsaydı, böyük bir ehtimalla bu gün artıq iş yeri qapadılmış olacaqdı. Ancaq artıq bu mümkün deyildi. Haqlı olduğunun qarşılığını almış və tam zamanında nefti çıxarmağa nail olmuşdu. Oil Creekdə yaşayan bütün

kəndlilər vaxt itirmədən Titusvilleyə axın etməyə başladılar. Bir tərəfdən də dayanmadan bağırırdılar: "Yankee neft tapdı!" Xəbər böyük bir yanğının ətrafa yayılması kimi bütün bölgəyə yayıldı və yer qapıb neft çıxarmaq üçün məlum bölgəyə çılğın bir hücum başladı.

Ancaq neft üçün aparılan qazıntı işlərində əldə edilən müvəffəqiyyətin maliyyə müvəffəqiyyətini qarantiləmədiyi anlaşıldı. Belə bir vəziyyət şübhəsiz ki, gələcəkdə bir çox problemlərə yol açacaqdı. Məsələn, axıb gedən neftlə Drake və "Bill Əmi" necə başa çıxacaqdılar? Əvvəlcə, bölgədə tapdıqları bütün viski boçkalarını satın alıb onları bir-bir neftlə doldurdular. Dolduracaq başqa boçka qalmayınca, bu dəfə taxtadan çəllək düzəldib problemi həll etmək istədilər. Ancaq böyük bir bədbəxtçilik nəticəsində gecənin birində istifadə etdikləri fənərdən sıçrayan bir qığılcım anidən neftdəki təbii qazı yandırdı və neftin yığılıb saxlandığı bölgə bütünlüklə havaya uçdu və qızğın alovlar içərisində yanıb kül oldu. Buna baxmayaraq, qonşu bölgələrdə yeni-yeni quyular qazılır, gedərək daha çox "qaya yağı" çıxarılırdı. Belə vəziyyət neftə olan tələbatın çox aşılması, nəticədə qiymətlərin tez-tez dəyişilməsi ilə müşayiət olunurdu. Neftçıxarmada tətbiq edilən qazma üsullarının inkişaf etməsilə artıq "qaya yağı" sıxıntısı ortadan qalxmışdı. İndi lazım olan tək şey viski boçkaları idi. İndi də o tapılmırdı. Çox keçmədən viski boçkalarının maliyyəti o qədər yüksəldi ki, bir viski boçkasının qiyməti içindəki neftin qiymətindən iki dəfə yuxarı oldu.





## Çağın işığı

Pensilvaniya qaya yağının işlənmiş qaz yağı halında bazara çıxarılması çox vaxt almadı. Qaz yağının sahib olduğu keyfiyyətlər tez başa düşülmüşdü. Drakenin kəşfindən heç bir il keçməmiş neft mövzusunda Amerikanın ilk əl kitabını yazan bir yazar kitabda bunları söyləyirdi: "Bir aydınladıcı olaraq neftin forması yoxdur. Bu maddə əslində, "Çağın işığı"dır." Yazar ayrıca bu tərifi də əlavə edirdi: "Nefti yanar halda görməyənlər narahat olmasınlar. Onun işığı ay işığı deyil. Bu işıq olsa-olsa, gün işığına bənzədilə bilər. Çünki gün işığı təmiz, güclü və parlaq bir işıqdır. Neftin saçdığı işıqda qaranlığa yer yoxdur. "Qaya yağı" çox mükəmməl, çox incə bir işıq saçar. Dünyanın ən parlaq, eyni zamanda ən ucuz olan bu işığı, ancaq Krallara və Kral ailələrinə yaraşan, respublikaçılar və demokratlara isə heç yaraşmayan bir işıqdır."

İşin ilk təşəbbüskarlarından olan Corc Bissel kəndə ilk gələnlərdən və ən tələskən davrananlardan biri idi. Oil Creek bölgəsində yüz minlərlə dollar xərcləyərək çılğınca alış-veriş edir, fermer təsərrüfatlarını kirayə götürür, əraziləri satın alırdı. Həyat yoldaşına yazdığı məktubda bunları söyləyirdi: "Burada misli görünməmiş bir həyəcan yaşayırıq. Bölgə əhalisinin hamısı yarıçaşqın vəziyyətdədir. Həyatımda heç belə həyəcan görmədim. Bütün Qərb bölgəsinin sakinləri buraya yığışırlar. Bu bölgənin neft ehtimal edilən yerlərində torpaq satın ala bilmək üçün astronomik qiymətlər təklif edilir." Bu nöqtəyə gələ bilmək üçün Bissel həyatının düz 6 ilini vermişdi və yaşadığı macəralarda qarşılaşdığı eniş-yoxuşlar ona bu sözləri söyləmək haqqını verirdi: "Sağlamlığım olduqca yaxşıdır,

ancaq çox yoruldum. Yolumuz çox çətin manеələrlə doludur. Amma əmin olduğum bir şey var - gələcəyimiz çox parlaq və təhlükəsiz olacaqdır. Bundan heç şübhəm yoxdur... Böyük bir sərvət qazanacağımız anlaşılır."

Bissel görüşlərində haqlıydı, həqiqətən də çox zəngin oldu. Pul hədiyyə edən bir çox xeyirxah dostları kimi, o da Dartmounhda bir gimnastika salonunun yaradılması üçün lazım olan pulu bağışladı. Dartmounhu seçməsinin səbəbi bu layihəsində ona ilham verən "qaya yağı" şüşəsini ilk dəfə burada görməsi idi. Tələbəlik illərində Bissel "bowling" idman növünə heyran idi. Bu fanatik bağlılıq bəzi vaxtlarda problemlər yaradır və Bisselin cəzalandırılmasına səbəb olurdu. Öz deyimi ilə, "bu nizam-intizam cəzalarının xatirəsinə" Bissel gimnastika sahəsində altı ədəd "bowling" salonu qurulmasını istədi və bunda israr etdi. Həyatının irəlidəki illərində Bisselin ad-sanının qitənin bir ucundan o biri ucuna qədər yaşayan bütün neftçilər tərəfindən tanındığı bir həqiqətdir. Bu işdə maddi baxımdan ən böyük yardımı göstərən bankir Townsendə gəlincə, nə yazıq ki, o, haqqı olan şan-şöhrətə qovuşa bilmədi. "Bu işin bütün planını mən hazırladım, mənim təkliflərim həyata keçdi" deyir və incik bir ifadə ilə əlavə edirdi: "Lazım olan pul mənim tərəfimdən verildi və aid olduğu yerə göndərildi. Söyləyəcəyim bu sözlər eqoist olduğum üçün deyil, həqiqəti ifadə etdiyi üçün söylənmişdir. Neft çıxarmaq üçün etdiklərimi etməmiş olsaydım, bu gün neft, qətiyyən çıxarılmayacaqdı." Və yenə də sözlərinə əlavə edirdi: "Yaşadığım əzab-əziyyətləri bir sərvət uğrunda olsa belə, bir daha yeniləmək istəmərəm."

Drakeyə gəlincə, onun da işləri yaxşı getmədi. Əvvəlcə neft alıcısı oldu, sonra neft hissələrində ixtisaslaşan bir Wallstreet firmasına şərik oldu. Tədbirsiz, yaxşı bir iş





adamı keyfiyyətlərindən uzaq idi. Mövzu ticarət olunca, həqiqi qumarbaz kimi hərəkət edən biri idi. 1866-ci ildə bütün sərvətini itirmişdi. Qısa müddət sonra yarıkötürüm oldu və həyatının geri qalan illərini acı çəkərək yaşadı və səfalət içində öldü. Bir dostuna yazdığı məktubda aşağıdakıları söyləyirdi: "Əgər içinizdə hələ də bir insanlıq qırıntısı qalıbsa, mənim və ailəm üçün ən kiçicik bir mərhəmət duyğunuz varsa, mənə pul göndərin. Acınacaqlı dərəcədə pula ehtiyacım var və xəstəyəm." Nəhayət, 1873-cü ildə Pensilvaniya Əyalət hökuməti keçmiş xidmətlərini nəzərə alaraq ona ömürlük maaş bağladı. Kiçik bir maaş idi. Bunun sayəsində Drake həyatının son illərində fiziki ağrılardan olmasa da, maddi baxımdan az da olsa rahatlığa qovuşdu.

Həyatının son illərində Drake neft tarixində layiq olduğu yeri tuta bilmək üçün son cəhdlərə əl atdı. Bu mövzuda belə deyirdi: "İddia edirəm - neftçıxarmada istifadə olunan neft kəmərinin yaradıcısı mənəm. Onu ilk dəfə həyata tətbiq edən də mənəm. Əgər mən bu kəşfi etməsəydim, torpaq su ilə dolu olduğu zamanlarda insanlar torpaqların dərinliyində qazıntı işləri apara bilməyəcəkdi. Yenə iddia edirəm ki, Amerikada neft çıxarmaq üçün ilk dəfə qazılan ilk neft quyusu qazıntısını da mən apardım. Hətta bu quyunu sizə göstərə də bilərəm." Bu iddialarını əsaslandırmaq üçün əlavə edirdi: "Əgər mən bunları etməsəydim, bu iş bu günə qədər görülməyəcəkdi."

## İlk partlayış

Həqiqətən də ayırma işləri, qazyağı ilə keçirilən təcrübələr, uyğun olan lampanın seçimi kimi yeni törəyən sənaye sahələri - bir dənəsi xaric - tamamlanmış, yerli-yerinə oturmuşdu. Əskik olan tək şey, Drakenin qazıntı müddətində dərk edib sübut etdiyi, yeni inkişaf edən sənayenin son ehtiyacı olan - əl altında lazım olan qədər ehtiyatı təmin etmək işi idi. Bu da təmin olunsa, artıq insan oğlu gecənin gəlişini gecikdirmə qabiliyyətinə sahib olacaqdı. Drakenin kəşfi dünya əhalisinə hərəkət və güc verəcək, millətlərin və imperiyaların yüksəliş və çöküşlərində ən önəmli rol oynayacaq, bununla da kifayətlənməyib, insanın yaşadığı və məruz qaldığı təkamül dövründə təsiredici status qazanacaqdı. Şübhəsiz ki, bu söylənənlər hələ baş verməmişdi, ancaq baş verəcəkdi.

Bu hadisələrin baş verdiyi günlərdə elə bir şey oldu ki, meydana gələn hadisə qızıla hücum edilən günləri xatırlatdı. Oil Creek bölgəsinin dar vadisində birdən-birə bütün evlər tutuldu və heç 1860-cı ilin noyabr ayı gəlmədən, yəni Drakenin kəşfindən 15 ay sonra, təqribən 75 quyu istehsala keçdi. Torpaqda yara izinə oxşayan quru çuxurlar əmələ gəldi. 1860-cı ilə qədər bir yazarın dediyi kimi "Titusville artıq spekulyasiyaya susamış əcnəbilərin görüş yeri"nə çevrilmişdi. Eyni yazar bunları da söyləyirdi: "Bu insanlar bir-biri ilə qiymət mövzusunda mərcə girir, hissə sənədləri alır, torpaq alıb-satır, quyuların dərinliyi, görünüşü və ya istehsal gücü və s. kimi mövzularda mübahisə edirdilər. Bölgəni bu gün tərk edib gedən biri elə günü sabah qarşısına çıxan ilk adama bu mövzudan danışır, məsələn, quyunun gündə 50 barrel təmiz neft verdiyini





söyləyirdi... Bu söylənənlərin təsiri ilə ertəsi gün bölgəyə yeni bir insan axını başlayır və bunların sayı bəlkə də gedənlərdən çox olurdu... Hərəkət halındakı arı yuvasında belə bu dərəcədə coşğunluq görünməmiş, bu qədər gurultu eşidilməmişdi."

Oil Creek bölgəsinin Allegheny çayına yaxın dağ ətəyində, adını Senekalı Qırmızıdərili bir şefdən alan Cornplanter adında kiçik bir şəhər vardı. Zamanın axışı içərisində şəhərin adı dəyişdirilmiş və Oil City (Neft Şəhəri) adını almışdı. Neft şəhəri get-gedə Titusville kəndi ilə bərabər, bu gün "Neft Bölgələri" deyə bilinən ərazini formalaşdırdı və bu bölgənin ən böyük mərkəzinə çevrildi. Xam nefti qaz yağına çevirən ayırma texnologiyasını qurmaq ucuza başa gəldiyindən, 1860-cı ilə qədər "Neft Bölgələri"ndə ən az 15 ayırma müəssisəsi fəaliyyət göstərirdi. Bundan başqa, Pittsburgh bölgəsində 5 ayırma müəssisəsi daha qurulmuşdu. 1860-cı ildə bölgədə səyahət edən kömür yağı ayırma təsislərində işləyən biri bu rəqabəti öz gözləri ilə görəndən sonra demişdi: "Əgər bu işdəki müvəffəqiyyət beləcə davam edərsə, bu, kömür mədənçiliyinin sonu deməkdir." Həqiqətən də zamanla bu sözlərin doğruluğu sübuta yetirildi. 1860-ci ilin sonuna varmadan kömür yağı ilə məşğul olan ayırma müəssisələri ya işi buraxmağa məcbur oldular, ya da sürətlə peşələrini dəyişdirib xam neftin ayırma fabriklərini qurmağa yönəldilər.

O günə qədər qazılan quyular az miqdarda neft istehsal etdiyi üçün pompalanması lazım bilinirdi. Bu hal 1861-ci ilin aprel ayına qədər davam etdi. Apreldə bir günün içində hər şey dəyişdi. Növbəti bir qazıntıda qazmaçılar ilk dəfə olaraq neft püskürən bir quyuya rast gəldilər. Quyu inanılmaz bir sürətlə neft püskürür və gündə 3 min barrel neft verirdi. Bir gün quyudan gələn neft havayla tutuşub od

aldı və böyük bir partlayış baş verdi. Nəticə ağır oldu: 19 nəfər öldü. Bu yanğın 3 gün davam etdi. Bu vəziyyət dünyaya bir mesaj verir və yeni meydana gələn sənaye sahəsi üçün bol miqdarda xammaddə təmin edilə biləcəyini xəbər verirdi. Ancaq bu xəbərin ən azından bir müddət hamı tərəfindən eşidilməsini bu sıralarda olan daha vacib bir hadisə əngəllədi. Cənubun Konfederasiyaya bağlı silahlı qüvvələri Sumter Qalasına hücum edərək, vətəndaş müharibəsinə başladılar.

Qərbi Pensilvaniyada neft istehsalı o qədər sürətlə inkişaf edirdi ki, 1860-cı ildə 450.000 barrel olan istehsal 1862-ci ildə 3 milyon barrelə çatmışdı. Ancaq bu işin bazarlanması yavaş gedirdi və həcm etibarilə sürətlə genişləyən neft istehsalı qarşısında bazarlama işi ona cavab verəcək səviyyədə deyildi. Nəticədə qiymətlər düşməyə başladı. 1861-ci il yanvar ayında bir barreli 10 dollar olan neft, iyun ayına qədər 50 sentə düşdü. Sonra daha da düşərək 1861-ci ilin sonunda 10 sent oldu. Bu, bir çox istehsalçı üçün məhv olmaq mənasına gəlirdi. Qiymətlərin belə ucuzlaşması Pensilvaniya neftinə yol açdı və neft bazarında onun tez və qəti qələbəsini təmin etdi. İstehlakçı kütlələri barxasınca sürüklədi və kömür yağı ilə başqa aydınladıcı yağları sıxışdırıb bazardan çıxardı. Qısa zamanda iqtisadi tarazlıq düzəldi və 1862-ci ilin sonunda qiymətlər barrel başına 4 dollara yüksəldi. 1863-cü ilin sentyabrında isə bir barrel neftin qiyməti artıb 7.25 dollara çatmışdı. Qiymətlərdəki bu ağlasığmaz dalğalanmalara baxmayaraq, "bir gün içində zəngin olmaq" hekayətləri - kütlələri "Neft Bölgələri"nə çəkib aparmaqda davam edirdi. Aradan iki il keçməmişdi ki, sonradan hər yerdə məşhur olan bir quyu, xərclənən hər bir dollar müqabilində 15.000 dollar qazanc gətirməyə başladı.





Amerikan Vətəndaş müharibəsi "Neft Bölgələri"ndə baş verən çılğın neft sıçrayışına mənfi yöndə təsir etmək bir yana, tam tərsinə, savaş texnologiyasının inkişafında neftin istifadəsinə güclü təkan verdi. Bunun səbəbləri aşağıdakılardır: Savaş səbəbiylə Cənubdan gələn neft nəqli dayanmışdı. Bu da ucuz aydınladıcı olan "camphene" (neft yağı) ehtiyacını şiddətlə artırmışdı və aradakı boşluq tez-tələsik Pensilvaniya yağından əldə edilən qaz yağı ilə dolduruldu. Beləliklə, Şimalda çox sürətlə inkişaf edən yeni bazarlar formalaşdı. Cənub, Federasiyanın tərkibindən çıxdığını edən edəndən sonra Şimal, Amerikanın ən böyük ixrac maddələrindən biri olan pambığın gətirdiyi gəlirdən məhrum qaldı. Bu gəlir boşluğu Avropaya göndərilən neftin miqdarının artırılması yoluyla dolduruldu və beləliklə, yeni bir gəlir mənbəyi yaradıldı.

Bütün çalxantı və problemlərinə baxmayaraq, savaş bitdi və yüz minlərlə keçmiş döyüşçü "Neft Bölgələri"nə axın etməyə başladı. Bu əsgərlər özlərinə yeni bir həyat qurmaq və yeni inkişaf edən bu macəraçı şəraitdə böyük sərvət qazanmaq məqsədində idilər. Bu spekulativ partlayış, qiymətlərin mütəmadi oynaması və barrel başına 13,75 dollara qədər yüksəlməsi səbəbiylə get-gedə qızışırdı. Bu qarmaqarışıqlığın təsiri bütün Şərq bölgələrində hiss edilir, yeni yaranmış yüzlərlə neft şirkəti qiymətlərdəki eniş-çıxışlarla çalxalanırdı. Elə bir zaman gəldi ki, bu yeni şirkətlər Nyu Yorkun maliyyə mərkəzi sayılan hissəsində özlərinə çalışacaq ofis də tapa bilmədilər. Hissə sənədləri fövqəladə sürətlə artır və satılırdı. Belə ki, bir gün yeni şirkətlərdən biri sahib olduğu hissə sənədlərinin hamısını sadəcə 4 saat içərisində əldən çıxardı. Bu vəziyyətdən heyrətlənən bir ingilis bankiri çaşqınlığını bu sözlərlə ifadə edirdi: "Yüz minlərlə insan

görürsünüz. Bunların hamısı neftdən gələn gəliri bankların verdiyi kiçik faizlərdən üstün tuturlar." Vaşinqton D.C.-də əsən çılğın havadan Nyu York da nəsibini almışdı. Neft torpaqlarına böyük sərmayə yatıran və sonradan ABŞ prezidenti olan Ceyms Garfield, neft araşdırma sənədi satıcısı olan birinə, bu mövzunu Konqres üzvü olan başqa konqresmenlərlə də müzakirə etdiyini və hər kəsin "bu işin içində olduğunu, keçici xəstəliyi xatırladan bu axımdan Konqresin də şiddətlə təsirləndiyini" söylədi.

Çılğıncasına davam edən bu macəra bəlkə də ən yaxşı şəkildə Titusvilledən 15 mil uzaqlıqda yerləşən Pithole Creek yaxınlığındakı Pithole qəsəbəsinə aid söylənən rəvayətlə açıqlana bilər. Bu qəsəbədə ilk quyu 1865-ci ilin yanvar ayında, sıx meşəlik yerləşən bir ərazidə qazılmışdı. Hələ iyun ayı gəlmədən 4 quyudan bir yerdə, həm də gündə iki min barrel neft fışqırmağa başladı. Bu, "Neft Bölgələri"nin verdiyi bütün istehsalın üçdə biri qədərdi. Artıq yolları dolduran insanlar və neft dolu vaqonlarla bütün mənalarda bir qarmaqarışıqlıq müşahidə edilirdi. O günlərdə bölgəni gəzən biri eynilə bunları söyləmişdi: "Bütün bölgə böyük ordu hissələrinin məskunlaşdığı zaman hiss edilən qoxu kimi qoxur." Ərazi macərası heç bir sədd tanımırdı. Bir neçə ay əvvəl həqiqətən heç bir qiyməti olmayan bir fermer təsərrüfatı bir neçə ay sonra, 1865-ci ilin iyulunda 1.3 milyon dollara, sentyabr ayında isə təkrar, bu dəfə 2 milyon dollara yenidən satılırdı. Eyni ilin eyni ayında Pithole Creek civarında istehsal gündə 6 min barreli keçmişdi. Bu, "Neft Bölgələri"ndə olan neft istehsalının üçdə ikisiydi. Və eyni ilin sentyabr ayına qədər hələ balta görməyən meşələrdə, bir zamanlar yeri belə bilinməyən torpaqlarda artıq 15 min insanın yaşadığı bir qəsəbə doğulmuşdu. "Nyu York Herald" qəzetinin





yazdığına görə, Pithole qəsəbəsinin ən öndə gələn işi "içki içmək və kirayə" işləriydi. "Nation" qəzeti isə bu mənzərəni belə ifadə edirdi: "Bu qəsəbədə ucuz növdən içilən içkinin bütün dünyada eyni böyüklükdəki qəsəbələrdən hər hansı birində içilən içkidən daha çox olduğu rahatlıqla ifadə edilə bilər." Bütün bunlara baxmayaraq, Pithole qəsəbəsi sahib olduğu iki bank, iki teleqrafxana, bir qəzet, bir su şəbəkəsi, yanğınsöndürmə təşkilatı, silsilə pansionat və iş sahələri ilə, üçü dövrün böyük şəhər standartlarına uyğun 15-dən çox oteli və gündə beş mindən çox məktub daşıyan poçtuyla çoxdan hörmətəlayiq bir şəhərə çevrilmişdi.

Ancaq bir neçə ay sonra birdən-birə elə başladığı sürətlə də istehsal düşməyə başladı. Bu, Pithole xalqı üçün bir fəlakət, yəni müqəddəs kitabda yazılan vəba xəstəliyi kimi bir şeydi. 1866-cı ilin yanvar ayında, neftin kəşf edildiyi gündən sadəcə bir il sonra, minlərlə qəsəbə sakini yeni ümidlər və fürsətlər həvəsiylə qəsəbədən qaçar oldular. Bir gecədə vəhşi meşəliklərin içindən doğulmuş qəsəbə artıq tamamən tərk edilmişdi. Atəşə verilən binalar kül olub getmiş, geridə qalan xırım-xırda şeylər ya başqa yerlərdə istifadə edilmək üçün parçalanmış, ya da ətraf təpələrdə yaşayan kəndlilər tərəfindən mənimsənilmişdi. Beləcə, Pithole yenidən səssizlik və vəhşətə bürünürdü. 1865-ci ildə Pitholedə 2 milyon dollara satılan bir ərazi parçası, 1887-ci ildə 4.37 dollar olmuşdu. O da açıq artırmayla satılırdı.

Pithole söndükdən sonra, spekulativ bir partlayış bu dəfə başqa bir yerdə baş verir və bütün qonşu bölgələri bağrına toplayırdı. "Neft Bölgələri"nin istehsalı 1866-cı ildə 3.6 milyon barrelə sıçradı. Artıq məlum olmuşdu ki, neft coşğusu heç bir sərhəd tanımayacaqdı və get-gedə mütləq mənada aydınlatma və yağlama mənbəyi kimi istifadə edilməkdən başqa, eyni zamanda kütləvi mədəniyyətin bir

parçası olacaqdı. İndi amerikalılar "Amerikan Neft Polkası" və "Neft Fırtınası Dördnala" melodiyaları altında rəqs edir, "Məşhur Neft Firmaları" və "Qafamızdakı Neft" mahnılarını dillər əzbərinə çevirirdilər.

### Qafamızdakı Neft

Çeşid-çeşid yağlar var
Balıq yağı, kastor, ayçiçək kimi "dadlı"
Xəstəyə şəfa verən
Və də edən "qanadlı"
Bizimki qəribə yağ
Əldə etdik quyudan
İnsanları coşdurur
Şərqimizlə içimizi oynadan
Qafamızdakı neft...
Qafamızdakı neft...

Bir qonşumuz var
Adı Bəy Smit.
Boşluğa güllə atardı
Yırtıq paltarda yatardı
Tez topladı özünü
Bu yoxsul cavan...

Bir də indi görün onu
Necə də dəyişdi sonu.
Artıq çox şıx geyinir
İdman edib öyünür...
Almas, övlad hamısı onda
Qələbəsi mahnımızda
Qafamızdakı neft...
Qafamızdakı neft...





### Gurultulu hay-küylər

Neft əldə etmə yarışını başqa bir yarış da izləyirdi. İmkanların əl verdiyi ölçüdə nefti tez və çox miqdarda istehsal etmək yarışı, "Flaş məhsul" əldə etmək cəhdləri ümumi neft ehtiyatlarına xələl gətirir, qaz təzyiqinin vaxtından əvvəl tükənməsinə yol açır, beləliklə, rezervlərin təmir olunmasını çətinləşdirirdi. Amma buna baxmayaraq, bu üsul standart kimi qəbul olunmuşdu və bəzi səbəbləri vardı. Bunlardan biri coğrafi məlumatsızlıq idi. Digəri vəd edilən böyük və tələsik mükafatlar, üçüncüsü isə, kirələmə sisteminin mahiyyəti üzrə istehsalı mümkün qədər tez əldə edənə əlavə mükafatın ödənməsiydi.

Ancaq Amerikan neft istehsalı və bilavasitə neft sənayesinin formalaşmasındakı ən böyük təsiri ingilis adətənənə hüququna əsaslanan bir doktrina olan "ələ keçirmə" qanunu oynadı. Bu qanuna görə, əgər bir ov heyvanı və ya quş bir ərazidən başqa əraziyə keçərsə, bu ərazinin sahibi ov heyvanını öldürə bilərdi. Çünki bu, onun torpaqları idi. Buna oxşar başqa bir qanuna görə də torpaq sahibləri sahib olduqları ərazinin altında hər hansı bir xəzinənin olduğunu təsbit etsələr, onu çıxarmaq hüquqları vardı. Bir ingilis hakiminin mühakiməsinə görə, "ərzin bu gizli damarları içindən nələrin keçdiyindən heç kim əmin ola bilməzdi."

Neft istehsalında "ələ keçirmə" qanunu ərazi sahibləri tərəfindən elə belə də başa düşüldü. Onlara görə ərazilərində neft çıxarsa, bu neftin hamısına özləri sahib olmalıydılar. Bu, quyunu bərabər nisbətdə qazmadıqları və ətraf quyuların və qonşu istehsalçıların verimini aşağı saldıqları zaman da keçərli olurdu.

Bu səbəblə bir-birinə yaxın olan quyuların sahibləri, mümkün olduğu qədər çox neft çıxarmaq üçün bir-biriləri ilə amansız bir rəqabət içindəydilər. Məqsədləri nefti onlardan əvvəl başqalarının çıxarmasını əngəlləmək idi. Ancaq istehsala bu dərəcə sürət verilməsi həm istehsalda, həm də qiymətlər üzərində qeyri-sabitliyə yol açdı. Şübhəsiz ki, neft ov heyvanları ilə bir tutula bilməzdi. Buna görə də, "ələ keçirmə" qanunu xeyli zərər-ziyana səbəb oldu. Quyulardakı istehsala mənfi yöndə təsir etdi. Buna baxmayaraq, bu qanun bəzi müsbət şeylərə də yol açdı. "Ələ keçirmə" qanunu sayəsində bir çox insan bu sənayedə özlərinə yer tapdı və qanun olmasaydı, əsla öyrənə bilməyəcəkləri bəzi lazımi şeyləri öyrəndilər. Bir başqa avantaj da o idi ki, istehsala daha çox və sürətlə nail olma yarışı, daha geniş bazarların qurulmasına və inkişafına kömək edirdi.

"Ələ keçirmə" qanununun və sərvət əldə etmə yarışının get- gedə çoxaldığı bu qarışıqlıqda "Neft Bölgəsi"ndə içindən çıxılmaz bir mənzərə vardı. Üst-üstə qalanmış insan kütlələri, irili-xırdalı klublar, gecəqondu tipli binalar, hamısı bir otaqda olmaqla dörd, beş, altı, hətta yeddi çarpayılı (həm də samanla doldurulmuş) otellər, inşaat ləvazimatları, ehtiyat bazaları və hamısı ümid və söyləntilərlə enerjilərinə enerji qatan adamlar, neftin yaydığı üfunətli qoxu - hamısı birlikdə bu mənzərədə yer alırdı. Bundan başqa, qaçınılması mümkün olmayan bir bataqlıq və palçıq həqiqəti də vardı. O günlərdə yaşayan iki ayrı yazarın müşahidələrinə görə, "Oil Creek palçığı" özünəməxsus şöhrət qazanmışdı. Bu şöhrət palçığı, onu görən və onun içindən keçib özünə yol açanların xatirələrində hər zaman təzəliyini qoruyacaqdı. Hər yanı bürümüş, ölçüyəgəlməz dərəcədə sıxıntı verən bu palçıq, yağışlı havalarda küçələri keçilməz edir, qəsəbələrin ana yollarını tutaraq, göl kimi görüntü yaradırdı.





Bu gurultunu, hay-küyü və tələsik pul qazanmaq hikkəsiylə gələn "fırıldaqçıları" görüb, neft çıxmamışdan əvvəlki sakit Pensilvaniya təpələrini və kəndlərini xatırlayıb, həsrətini çəkənlər də az deyildi. Bu adamlar insan təbiətinin bu dərəcə dəyişkən olduğunu və sərvət qazanmaq naminə qürurlarını itirə biləcəklərini heyrətlə qarşılayır, bunun necə və niyə olduğunu bir-birilərindən soruşub dururdular. Bölgədə yaşayan bir yazar 1865-ci ildə bunları yazmışdı: "Neft və ərazi sahibi olmaq bölgədə artıq bir xəstəliyə çevrildi. Bu, həm də keçici xəstəlik idi. Bu xəstəlik hər sinifdən, hər yaşdan və hər cür şərtlər altında yaşayan bütün insanları yoluxdururdu. Bu insanlar 6 ay əvvəlki vəziyyətlərindən çox fərqli haldadırlar. Danışıqları, baxışları, davranışları tamamilə dəyişib. Başa düşdükləri tək şey "ərazi", "kirələmə", "saziş", "uyuşmazlıq", "anlaşma", "faiz" kimi mövzulardır. Bunlardan başqa heç bir şeyi qavraya bilmirlər. Hər künc-bucaqda qəribə sifətli insanlara rast gəlirik. Bölgə xalqının əsil sakinləri buraları tərk edib Nyu Yorka və ya Filadelfiyaya getdilər. Həmyerlilərimizin yarısından çoxu indi oralarda yaşayır. Məhkəmə binamız durğunluq içindədir. Barılarımız belə aşınmış, sosial mühitimiz dağılmış, məbədlərimiz unudulub getmişdir. Sərvət qazanmaq uğrunda üzərimizə edilən bu total hücumdan sonra, son 50 ildə formalaşan bütün adət-ənənələrimiz, fikirlərimiz, dərnəklərimiz kəllə-mayallaq oldu. Bəzi kasıblar zəngin olur, zənginlərsə daha çox zənginləşir. Kasıb və zəngin olan bəzi adamlar isə qoyduqları bütün sərmayəni bir an içində itirib müflisləşirlər. Bax, belə yaşayırıq."

Eyni yazar son olaraq bunları söyləyirdi: "Belə görünür ki, tez-gec qaynamaqda olan bu qazanın üstündəki damcılar çox yaxınlarda partlayacaqdır."

Damcılar həqiqətən də partladı. Bu partlama spekulyasiya və çılğın bir axışla inkişaf edən həddindən çox

istehsalın qaçınılmaz təsiri altında baş verdi. 1866 və 1867-ci illərdə neft sənayesi depressiya keçirirdi. Qiymətlər barrel başına 2.40 dollara düşmüşdü. Bəziləri artıq qazıntı işlərini tərk edirdilər, bəziləri isə davam etdi və zamanla Oil Creek bölgəsində yeni quyular açıldı. Bu sənaye sahəsindən artıq yeni bəzi gözləntilər ortaya çıxmışdı. Bunlar yeniliklər və təşkilatçılıqda bəzi düzəltmələr idi.

İlk neft kəşfindən sonra bəzi adamlar yük arabalarının atlarını qamçılayaraq, boş barrel yükləri ilə bərabər neft bölgələrinə axın edib, neft daşımaçılığına başladılar. Funksiyaları baxımından bunlar sadəcə nəqliyyat vasitəsi olmaqdan daha çox məna daşıyırdılar. Bu işin inhisarı onların əllərində idi. Ona görə də lazım olduğundan çox qiymət tələb edirdilər. Belə ki, bir barrel neftin palçıqlı yollarla keçib bir neçə mil uzaqlıqda yerləşən dəmiryolu stansiyasına daşınması, eyni barreli Pensilvaniyadan Nyu Yorka qatarla daşımaqdan daha bahalıya başa gəlirdi. Araba sürücülərinin nəqliyyatdakı təzyiqləri o dərəcədə cansıxıcı idi ki, son nəticədə bir alternativ tapıldı və nəqliyyat işinin boru xəttiylə aparılmasına qərar verildi. 1863 və 1865-ci illər arasında cəmiyyətdən gələn bütün istehza və lağmatalara baxmayaraq, taxtadan düzəldilmiş boru xətlərinin neft daşımaçılığında daha səmərəli və ucuz olacağı artıq anlaşılmışdı. Vəziyyətlərinin və mövqelərinin dəyişdiyini görən araba sürücüləri buna təhdidlər və hədə-qorxular gələrək, silahlı basqınlar edərək, dağıntı və sabotajlar törədərək cavab verdilər. Fəqət çox gec qalmışdılar. 1866-cı ildə "Neft Bölgələri"ndəki bütün quyulara boru xətləri döşənmişdi. Çıxan neftin dəmiryoluna bağlı olan daha geniş bir boru xəttinə bağlantısı təmin edilmişdi.

Neftayırma müəssisələri neft satın almaq istəyirdilər. Ancaq bu da bir xeyli qarışıqlıqdan sonra gerçəkləşdi. Əvvəllər neft satın alma işi at üstündə gəlib quyu-quyu





dolaşan, qaşla-göz arasında alım-satım işini bitirən alıcılarla edilirdi. Ancaq sənayenin böyüməsi ilə daha sistemli bazarlama işi quruldu. Artıq alıcılar və satıcılar qeyri-rəsmi olaraq bir araya gəlib qiymət üzərində anlaşır və beləcə alış-veriş edirdilər. Bu üsul Titusvilledə bir oteldə və ya dəmiryoluna yaxın bir quyu kənarında əldə edilən bazarlıqdan sonra mənimsənirdi. 1870-ci illərin əvvəllərindən etibarən neft alqı-satqı işləri rəsmi əsaslara bağlandı və ilk dəfə Oil City, Titusville, "Neft Bölgələri" və Nyu Yorkda həyata keçirildi. Neft alqı-satqısı üç ayrı sistemdə həyata keçirilirdi.

Birincisi, "srpot" satışlar adlanan sistem idi. Bu sistemdə neft dərhal alınır, ödəmə də dərhal verilirdi.

İkincisi, "normal" satışlar idi. Bu sistemdə əməliyyatlar 10 gün içərisində mütləq bitirilməli idi.

Üçüncüsü, gələcəyə aid satışlarda tətbiq olunan sistem idi. Bu sonuncu sistem müəyyən miqdarda neftin müəyyən qiymətə müəyyən bir vaxt ərzində satılmasını tənzimləyirdi. Gələcəyə aid qiymətlər spekulyasiyaya son dərəcə əlverişli idi. Buna görə də vaxt keçdikcə neft "günün ən önəmli spekulativ malı"na çevrildi. Alıcının seçə biləcəyi iki yol vardı: Ya nefti dərhal almaq və kontraktda yazılan qiyməti dərhal ödəmək və ya nefti sonradan almaq və bunu edərkən kontraktdakı göstərilən qiymətlə alınan vaxtdakı "normal" qiymətlər arasındakı - əgər varsa - fərqi satıcıya ödəmək, ya da lazım olduğunda onu geri almaq. Sadəcə bu əməliyyatları etməklə hələ nefti almadan alıcılar xeyli qazanc əldə edirdilər. Təbii ki, bəzən də qorxunc bir zərəri gözə almaları lazım idi.

1871-ci ildə hələ "Titusville Neft Alım-Satım Şirkəti" qurulmadan öncə, neft çox böyük bir iş olma yolunda xeyli məsafə qət etmiş, milyonlarla insanın həyatını və yaşantısını dəyişdirən bir sənaye sahəsi olmuşdu. Bununla

bərabər, 1860-dan 1871-ə qədərki son 10 il içərisində baş verən hadisələr, o cümlədən Drakenin ağıllara durğunluq verən təcrübələrinin gətirdiyi başdöndürücü hadisələr unudulmamalıdır.

Drakenin təcrübəsi Amerikan qafasının gələcəkdə yaxşı qazanc gətirəcəyinə inandığı hər hansı bir sənaye sahəsində nə cür enerjili hərəkət edilə biləcəyinin və sonsuza qədər yaşayacağının sübutu sayılmalıdır. Corc Bisselin instinkti, Edwin Drakenin kəşfi və hər ikisinin birlikdə göstərdikləri səbr və iradə, çalxantılı bir dövrün başlamasına səbəb olmuşdur. Bu çağa və bu dövrə "zəka və yenilik", "bazarlıq və fırıldaqçılıq", "qazanılan və itirilən sərvətlər", "heç bir zaman qazanılmayan sərvətlər", "yorucu çalışmalar" və "əzablı xəyal qırıqlıqları" və son olaraq da "misli-bərabəri olmayan bir böyümə çağı" və ya "dövrü" deyilə bilər.

Bütün bunlara nəzər salanda, əcəba, neftin gələcəyindən nə gözlənə bilərdi? Olub-keçənlərə təkrar-təkrar nəzər salıb Qərbi Pensilvaniyada bu dərəcə maraqlı hadisələr baş verdiyini yenidən düşünənlər gələcəkdə daha yaxşı fürsətlərin ortaya çıxacağını təxmin edirdilər. Bu adamlar neft sənayesinin gələcəyinin son dərəcə böyük və çox parlaq olduğunu düşünməyə başladılar. Bu, "Neft Bölgələri"ndə yaşayanlardan çox azının düşünə biləcəyi qədər böyük və parlaq bir gələcək olacaqdı. Ancaq başqa bir tərəfdən də yan-yörələrində cərəyan edən qarmaqarışıqlıq və nizamsızlıqdan baş verən dalğalanmalar nəticəsində təcrid edilir, rədd edilir və üstəlik həqarətə məruz qalırdılar. Bunlara baxmayaraq, yenə də bu təşəbbüskarlar mənimsədikləri ideyalara, neft işinin necə təşkil ediləcəyi və inkişafı haqqında çox qüvvəli və inandıqları fikirlərə bağlı idilər. Sahib olduqları bu fikirləri əsas götürüb, işə başladılar.





# 2

# "PLANIMIZ"

## Con D.Rokfeller və Amerikan neftinin birləşməsi

1865-ci ilin fevral ayında, Klivlend, Ohioda qəribə bir auksion təşkil edilmişdi. Şəhər o il ən ehtişamlı günlərini yaşayır, həm Amerikan vətəndaş müharibəsindən, həm də neft macərasından böyük qazanc əldə edərək çıxdığı üçün rifah içərisində Amerikanın böyük sənaye inkişafının inqilabi dövrünün səfasını çəkirdi. Şəhərin ən böyük və müvəffəqiyyətli neftayırma müəssisələrindən biri hesab edilən müəssisənin üst səviyyəli iki şəriki, hər zamankı kimi böyümə sürəti haqqında mübahisə edir və hər zamankı anlaşılmazlıqlardan birini yaşayırdılar. Şəriklərindən daha tədbirli olan birisi, Maurice Clark o biri şərikini ortaqlığı pozmaqla təhdid etdi. Amma bu dəfə digər şərik olan Con D.Rokfeller dostunu heyrətlər içində qoyaraq, ayrılma təklifini qəbul etdi. Nəticədə bu iki dost özəl bir auksion (açıq artırma) keçirməyə qərar verdilər. Açıq artırmanı elə oradaca, dərhal, ofisdəcə edəcəkdilər. Razılaşdılar.

Açıq artırma 500 dollarla başlasa da, miqdar tezliklə yüksəldi. Maurice Clark qısa zamanda 72.000 dollara çıxdı. Rokfeller isə sərinqanlı hərəkət edirdi. Clarkın 72.000 dollarına müqabil 72.500 dollar verdi. Bundan sonra Clark əllərini yuxarıya qaldırıb təslim olduğunu bildirərək, "mən artıq yoxam. Daha çox pul verə bilmərəm. Bu iş sənin olsun" dedi. Rokfeller elə oradaca çek yazmağı təklif etsə də, Clark bu təklifi rədd etdi. Onun üçün problem yox idi. Pulu sonra da ala bilərdi. Yenə elə oradaca bir-birinin əlini sıxıb, ortaqlıqdan ayrıldılar.

50 ildən sonra Rokfeller o günlərə aid düşüncələrini bu sözlərlə açıqlayırdı: "Mən yaşadığım o günə bütün həyatım boyunca qazandığım müvəffəqiyyətlərin ilk günü gözüylə baxıram."

Bax, bu "əlsıxma" vəhşi Pensilvaniya meşələrində yaşanmış qarmaqarışıqlığa nizam-intizam gətirən modern neft sənayesinin başlamasının ilk əlaməti sayıla bilər. Bu başlanğıc zamanla Standard Oil adını alacaq və dünya neft ticarəti üzərində mütləq bir hegemoniya quracaqdı. Standard Oil bu ticarətin əfəndisi olaraq dünyanın ən ucqar köşələrinə "Yeni İşıq" adlanan ucuz aydınlatma üsulunu daşıyan dünya çapında kompleks bir sənayeyə çevriləcəkdi. Əvvəllər şirkət XIX əsr kapitalizminin amansız metodları və sədd çəkilməsi mümkün olmayan ehtiraslarına uyğun şəkildə idarə edilirdi. Ancaq hər şeyə baxmayaraq, yenə də dünyada ilk və ən böyük çoxmillətli şirkət idi. Bu baxımdan da yeni bir cığır açmışdı.

## "Son dərəcə metodlu"

Standard Oilun beyin adamı 1865-ci ildə Klivlenddəki açıq artırmanı qazanan gənc idi. Onda hələ 25 yaşı vardı. Con D.Rokfeller adlı bu adam ətrafına antipatik bir görüntü yayırdı. Uzun boyu, zəif vücuduyla ətrafındakılarla danışmağı sevməyən, insanlardan uzaq qaçan bir adam təsiri bağışlayırdı. Hər zamankı səssizliyi və uzunsov sifətindəki sivri çənəsiylə, soyuq və insanı dəlib keçən baxışlarıyla çevrəsini narahat edir və qorxudurdu. Baxışları ilə sanki insanların içini oxuyurdu.

Rokfeller təkbaşına neft sənayesini formalaşdıran ən əhəmiyyətli adamdır. Amerika sənayesinin inkişafındakı tarixi yeri və müasir mənada şirkətləşmədə oynadığı rol





etibarilə də haqqında eyni şeyləri söyləmək mümkündür. Ancaq bu ikinci xüsusiyyətləri müzakirə və mübahisə oluna bilər.

İdarəetmə və təşkilatçılıq baxımından bəzilərinə görə bir dahi olduğu iddia edilir və ona heyranlıq duyulur. Ancaq həmən bu Rokfeller, eyni zamanda ən çox nifrət edilən və amerikalı iş adamları arasında ən çox söyülən iş adamlarının birincilik ünvanına sahibdir. Ona yönələn bu nifrətin iki səbəbi var. Həm çox amansızdır, həm də çox bacarıqlı. Neft sənayesindəki misilsiz nüfuzu və kapitalizmin inkişafındakı özəl yeri sonsuza qədər bir miras kimi ondan sonrakı və gələcək nəsillər tərəfindən hiss ediləcəkdir. Rokfeller xeyirxahlığı ilə də hər kəsi heyran etdiyi üçün, bu yöndəki şöhrəti də hər zaman davam edəcəkdir. Rokfeller bu aydınlıqla dolu imici qədər, eyni zamanda olduqca qaranlıq və kölgəli olan digər imici ilə də sonsuza qədər daim xatırlanacaqdır.

Rokfeller 1839-cu ildə Nyu York əyalətinin ucqar bir köşəsində dünyaya gəldi və yüz ilə yaxın, 1937-ci ilə qədər yaşadı. Atası Uilyam Rokfeller ağac və duz ticarəti ilə məşğul olurdu. Sonradan ailəsiylə birlikdə Ohioya köçmüşdü. Ohioya yerləşdikdən sonra adını "Dr.Uilyam Rokfeller" olaraq dəyişib, bitki tərkibli və patentli dərman alverilə məşğul oldu. Ata Rokfeller tez-tez ailəni tərk edir, uzun müddət ortalıqda görünmürdü. Bəzilərinin söylədiyinə görə, Kanadada ikinci arvad almışdı və orada da bir ailəsi vardı.

Oğul Rokfellerin xarakteri uşaqlıqdan məlum idi. Dindar, başını dik tutub yeriyən, səbrli, çox diqqətli, detallara əhəmiyyət verən, hesab işlərindən - xüsusilə pul ilə bağlı olanlardan başı çıxan və hər şeyə maraqlı birisiydi. 7 yaşında müvəffəqiyyətlə nəticələnən ilk macərasını belə

həyata keçirmişdi. Bu, hindi satışıyla əlaqədar idi. Daha çox kiçik yaşlardan atası həm ona, həm də digər qardaşlarına ticarəti öyrətməyə başladı. Bir rəvayətə görə, ata Rokfeller "uşaqlara ticarət öyrədirəm" deyə hər yerdə öyünür, "onları incidir, fürsət düşdükcə şilləyirəm. Onları adam etmək istəyirəm" deyirdi. Orta məktəbdə gənc Rokfellerin ən yaxşı oxuduğu dərs riyaziyyat idi. Məktəb müdiriyyəti toplayıb-çıxma qabiliyyətinə xüsusi əhəmiyyət verirdi. Bu mövzuda isə Rokfeller ən öndə gəlir, rəqib tanımırdı.

"Böyük işlər" görmək arzusuyla Rokfeller 16 yaşında bir nəqliyyat firmasında işləmək məqsədi ilə Klivlendə gəldi. 1859-cu ildə artıq öz işini qurmuşdu. Bu ildə də ticarətlə məşğul olmaq üçün Maurice Clarkla şərik oldu. Vətəndaş müharibəsi başlanmışdı. Bu səbəblə də Qərb, ticarət üçün əlverişli cazibə mərkəzinə çevrilmişdi. Ona görə də "tələb" artmışdı. Rokfellerin firması bu vəziyyətdən yararlanaraq rifah içində irəliləməyə başladı. Xeyli keçəcək və bir gün Maurice Clark təcrübələrinə əsaslanıb, Rokfellerin "son dərəcə metodlu insan" olduğunu söyləyəcəkdi. Rokfellerin "öz-özünə danışmaq" kimi bir xasiyyəti vardı. Öz-özünə danışır, öz-özünə mırıldanır, dualar oxuyur, tələyə düşməməsi üçün öz-özünü xəbərdar edirdi. Praktik olduğu qədər də dürüst bir insan idi. Firması böyüdükcə Rokfeller bu xasiyyətinə get-gedə daha çox bağlanırdı. Firma Ohioda buğda, Miçiqanda duz və Illinoisdə donuz əti ticarətiylə məşğul idi. Polkovnik Drakenin firmaları da başqaları kimi Pensilvaniya neft ticarətinə girişmiş və bu işdən pul qazanmağa başlamışdı.

1863-cü ildə Klivlenddə yeni dəmir yolu çəkilmişdi. Bu səbəblə şəhərin iş adamları xəyallarını bir daha neft mövzusuna və tələsik zəngin olma hekayələrinə çevirmişdilər.





Klivlendə gedən dəmir yolu relsləri istiqamətində az qala hər stansiyada yeni-yeni neftayırma müəssisələri açılırdı. Bu müəssisələrin bir çoxu sərmayə baxımından əlacsız vəziyyətdə idilər. Tək bir neftayırma zavodu bunlardan fərqli idi.

Bu, Rokfeller və Clarkın zavodları idi. Əvvəlcə Rokfeller neftayırma işinin istehsalda sadəcə əlavə bir iş olacağını düşünürdü. Bir il içərisində neftayırma işinin qazanc gətirdiyini görərək bu fikrini dəyişdirdi. Günlər keçir və təqvimlər 1865-ci ili göstərirdi. Açıq artırma məsələsi çoxdan geridə qalmış və Rokfeller Clarkdan ayrılmışdı. Artıq orta dərəcəli zəngin və gənc bir adamdı. Klivlenddə yerləşən 30 neftayırma zavodunun ən böyüyünün sahibi, tək hakimi və əfəndisiydi.

## Böyük oyun

Rokfeller neftayırma sahəsindəki ilk qələbəsini çox uyğun bir zamanda həyata keçirdi. 1865-ci ildə Vətəndaş müharibəsi bitmişdi. Savaşın bitməsi ilə Amerika Birləşmiş Ştatlarında böyük bir iqtisadi böyümə və sürətli inkişaf başladı. Çox hərarətli spekulyasiya və şiddətli rəqabətlə birlikdə, böyük ortaqlıqların qurulması və inhisarlaşma dövrü də başlamışdı. Texnologiyanın inkişafına paralel olaraq böyük həcmdə və tamamən fərqli məhsullar istehsal edən yeni sənaye sahələri törədi. Bunların arasında polad sənayesi, ət, qablama-quraşdırma, nəqliyyat kimi bir-biri ilə heç bir əlaqəsi olmayan sənaye sahələri vardır. Başqa tərəfdən, bazarlar da sürətlə böyüməyə başladı. Bu böyümədə iki vacib amil vardı: ölkəyə daxil olan köç axını və Qərbin yaşamaq üçün istifadəyə verilməsi. Həqiqətən də, XIX əsrin son 35 ili içərisində Amerika tarixində o zamana

qədər rastlanmamış dərəcədə iş mərkəzi qurulmuşdu. Artıq Amerikada "həyata keçirilə bilən hər iş həyata keçirilir" deyilə bilərdi. Bax, gənc adamların enerjisini, ehtirasını və beynini buraya çəkən incə məqam bu idi. Bu çəkimə qarşı qoymaq mümkün deyildi. Bir işi bacarmaq və qurmaq cəhdi: pulu həm pul olduğu üçün, həm də müvəffəqiyyətin sübutu olaraq qazanma ehtirası - Rokfellerin "böyük oyun" dediyi bax bu idi və insanlar bu axıma doğru gedir və özlərindən keçirdilər. Adətən qaçaraq gedirdilər...

Digər tərəfdən, qaz yağı və yağlayıcı bazarları da böyümüşdü. Amma böyümə ayırıcı müəssisələrin ehtiyaclarına cavab verəcək qədər deyildi. Eyni müştərilər üçün bir-biriləri ilə yarışan çox sayda şirkətlər var idi. Ayırma müəssisəsinə malik olmaq üçün çox böyük sərmayə və ya bacarıq lazım deyildi. Rokfellerin sonralar söylədiyinə görə, "bu işə hər məsləkdən, hər peşədən insan" girmişdi. Hətta Rokfeller və dostlarının işlərini bəyəndiyi bir fırın sahibi bir gün bir çılğınlıq etmiş və qosqoca fırnısını aşağı keyfiyyətli bir ayırma müəssisəsini satın almaq üçün satışa çıxarmışdı. Nəticədə bu hadisədən kədərlənən Rokfeller və dostları fırınçını öz işinə qaytarmaq üçün ona pul verib kömək etmişdilər.

Vaxt ötdükcə Rokfeller özünü işini gücləndirməyə həsr etdi və bunu da əlindəki təsislərini genişləndirərək, keyfiyyəti yaxşılaşdıraraq və nailiyyəti də hər zaman nəzarət altında saxlayaraq etdi. Müxtəlif funksiyaları təşkilatın içində mərkəzləşdirərək, inteqrasiyaya doğru ilk addımı atdı. İnteqrasiyadan iki məqsəd güdürdü. Bütün əməliyyatları bazarların oynaqlığına qarşı qorumaq və bu yarışmada mövqelərini daha da möhkəmlətmək. Öz barrellərini özlərinin istehsal etməsi üçün Rokfeller yeni ərazilər satın aldı və o ərazilərdə meşələr saldı. Eyni zamanda yalnız





özlərinin istifadə edəcəkləri tanker maşınları, Nyu Yorkda özlərinə məxsus depolar, Hudson çayı üstündə neft daşıyacaq gəmilər satın aldılar. Rokfeller hələ işin başında özü üçün bir prinsip müəyyənləşdirdi və bu prinsipinə də sonuna qədər müqəddəs bir şey kimi sadiq qaldı. Bu, firma üçün güclü nəğd pul ehtiyatı yaratmaq və hər zaman üçün əl altında bol miqdarda pul saxlamaq prinsipi idi. Baxmayaraq ki, 1860-cı illərdə belə lazım olan qədər finans mənbəyinə malik idi. Bunları etməkdə məqsədi də dəmir yolları və başqa böyük şirkətlərin uğradığı aqibətə uğramamaq və şirkətinin sərmayədarlara, bankirlərə və spekulyatorlara möhtac olmasının qarşısını almaq idi. Şirkət nəğd pul sayəsində həm rəqiblərini yerdən-yerə vuran şiddətli qarışıqlıqlardan daim uzaq qaldı, həm də bu tip vəziyyətlərdə hətta özünə qazanc da təmin etdi.

Rokfellerin böyük qabiliyyətlərindən biri də şirkətinin və ümumən sənayenin hara getdiyini doğru təxmin edə bilmək qabiliyyəti idi. Bunlarla bərabər, eyni zamanda öz şirkətinin işlərini də günü-gününə, bütün incəliklərinə qədər nəzarətdə saxlayırdı. "İşə mühasibatçı olaraq başladığım üçün rəqəmlərə və həqiqətlərə nə qədər kiçik olursa-olsun böyük hörmət göstərməyi öyrənmişəm" deyirdi. İşindəki hər cür detalla və işinin hər yönü ilə mütləq maraqlanır, bunların içinə girərdi. Bu işlər nə qədər cansıxıcı olur-olsun, bu prinsipindən əsla vaz keçmirdi. "Neft Bölgələri"ndə, palçıqlı tarlalarda dolaşıb neft satın alarkən geyindiyi çox köhnə bir paltarını daim qoruyub mühafizə etmişdi. Bütün bunların nəticəsində tək mərkəzdən idarə edilən bu firma 1860-cı illərin ikinci yarısına gəlmədən dünyanın bəlkə də ən böyük neftayırma şirkəti olacaqdı.

1867-ci ildə Rokfeller gənc bir adamla şərik oldu. Henry Flaqler adlı bir şərikin Standard Oilun

qurulmasındakı rolu haradasa Rokfellerinkindən böyükdür. 14 yaşında işləməyə başlayan Flaqler hələ 25 yaşına gəlmədən Ohiodakı viski emalından özünə xırda bir sərvət də qazanmışdı. Ancaq 1858-ci ildə alkoqollu içkilərə yaxşı münasibət göstərilməməsi səbəbi ilə bu işdəki ailə hissələrini satdı. O da özününkülər idi. Papaz olan atasının hissələri idi. Daha sonra Miçiqanda duz emalına başladı. Fəqət vəziyyətin son dərəcədə qarışıq və istehsalın həddən artıq çox olması səbəbi ilə müflisləşdi. Bu hadisə onun kimi pulu çox asan qazanmış biri üçün ciddi bir təcrübə idi.

Əslində Flaqler anadangəlmə optimist idi. Keçmişdən aldığı dərslərdən nəticə çıxararaq, yeni bir həmləyə qərar verdi. Yaşadığı müflisləşmə hadisəsi ona yeni bir inanc gətirmişdi. Artıq istehsalçılar arasında "iş birliyi və əməkdaşlığın necə qiymətli olduğunu başa düşmüş və bunu şüurlu olaraq mənimsəmişdi. Həyatının irəlidəki illərində "Nəhayətsiz yarış" deyə qiymətləndirdiyi hadisəyə qarşı isə eyni dərəcədə dərin bir nifrət hiss edirdi. Gəldiyi qənaətə görə, əməkdaşlıq və birləşmə təhlükələrlə dolu olan kapitalizm dünyasında mövcud olan riskləri ən aşağı səviyyəyə endirmək üçün mütləq lazım idi. Təcrübələr nəticəsində öyrəndiyi bir şey daha vardı. Sonradan söylədiyi kimi, "öncə başını suyun üstünə çıxar, ondan sonra ölkənin böyüyəcəyi haqqında bəhsə gir" deyirdi. Yeri gəlmişkən, Flaqler vətəndaş müharibəsindən sonra Amerikanın inkişaf göstəricilərinə görə bəhsə girməyə hazır və istəkli idi.

Zamanla Flaqler Rokfellerin ən yaxın məsləkdaşı və ən yaxın dostu oldu. İnsanlardan uzaq yaşayan Rokfeller üçün günlərin bir günündə ata sözləri kimi bir söz söylədi: "İşə görə qurulan dostluq, dostluğa görə qurulan bir işdən daha əhəmiyyətlidir." Enerjili və mübariz xarakteri ilə Flaqler asıq üzlü, həddindən artıq təmkinli Rokfeller üçün





tam biçilmiş bir şərik idi. Rokfeller "bu dərəcədə işgüzar və aparıcı gücə sahib" bir şərikə qovuşmaqdan xoşbəxtlik hissi keçirirdi. Ancaq tənqidçilərdən bəziləri Flaqler üçün fərqli şeylər söyləyirdilər: "Axmaq, təmkinsiz, öz mənfəətlərini düşünən, vicdan sahibi olmayan biri."

İllər keçəndən və Rokfellerlə ortalığından çox böyük sərvət qazanandan sonra Flagler ikinci bir qələbənin arxasınca getdi: Florida əyalətinin inkişaf etdirilməsi. Xəyallarında "Amerikan Rivierasi" dediyi röyasını həyata keçirmək üçün Floridanın şərq sahillərindən Keys bölgəsinə qədər uzanan dəmir yolları döşədi. Həm Miamini, həm də Qərbi Palm Beachı qurdu və çiçəkləndirdi.

Şübhəsiz ki, bu işlərin görülməsi vaxt aldı və irəlidəki illərdə həyata keçirildi. Əvvəlki quruculuq illərində Rokfeller və Flagler bir-birinə çox yaxın idilər və o şəraitdə çalışırdılar. Eyni ofisi paylaşır, arxa-arxaya yerləşdirilmiş masalarda kürəkləri bir-birinə söykənmiş vəziyyətdə otu-rur, müştərilərin və neft satın aldıqları adamlara yazdıqları məktubların qaralamalarını davamlı olaraq önə-arxaya bir-birilərinə ötürür, istədikləri nəticəni əldə edənə qədər beləcə işləyirdilər. Dostluqları davam edirdi və davamlı sabit müzakirə etdikləri tək mövzu "iş" idi. Ofisdə olanda da, Union Klubda yemək yeyərək ofisin yaxınlığında yerləşən evlərinə gedəndə də daim işdən danışırdılar. Rokfeller belə deyirdi: "İş çox olduğuna görə, danışıqlarımızın sıx-sıx kəsildiyi ofis atmosferindən uzaqlaşdığımız bu istirahət saatlarında, düşünmə və planlaşdırma işlərini yerinə yetirirdik."

Standard Oilun müvəffəqiyyət baxımından can damarı nəqliyyat işi idi. Bu, artıq sübut olunmuşdu və bu işi də Flagler öz öhdəsinə götürmüşdü. Nəqliyyat işi sistemli idarə olunarsa, bütün rəqiblərə qarşı daha müvəffəqiyyətli

olunacağına, mütləq güc qazanacaqlarına inanırdılar. Hadisələr də bunu sübut edirdi. Bu prinsiplərə uyğun hərəkət edən şirkətin vəziyyəti daha da yaxşılaşdı. Onsuz da böyük gücə sahib idi. Bu gücünə yenidən güc qatmışdı.

Şübhəsiz ki, Flagler neft sahəsində bir mütəxəssis idi. Mövzu neft olanda Flagler bir az da aqressiv olurdu. Ancaq qəbul etmək lazımdır ki, əgər Flaglerin bu iki xüsusiyyəti olmasaydı, neft dünyası bu gün bütün dünyanın tanıdığı "Standard Oil Şirkəti Krallığı" deyilən bir səltənətin varlığından bixəbər olardı.

Dəmir yolları idarəsi, Rokfellerin təsislərinin böyüklüyünü, nüfuzunu və mükəmməl iqtisadi göstəricilərini nəzərə alaraq, bu şirkətə daşıma qiymətlərində endirim tətbiq etmişdi. Beləliklə, rəqiblərinin ödədiyi daşıma qiymətlərindən daha ucuz qiymət ödəyən şirkətin nəqliyyat xərcləri də xeyli azalmışdı. Bu hal qiymət və qazanc baxımından şirkətə əlavə gəlirlər gətirirdi. İrəlidəki illərdə Rokfellerə tətbiq edilən bu ucuz tarif böyük münaqişələrə yol açmışdı. Bir çoxları bunu rəqiblərinin qiymətləri aşağı salması üçün şirkətin etdiyini, dəmir yolları idarəsinin məcbur etdiyini iddia etdi. Onlara görə, bu, ədalətsizlik idi. Ancaq yük daşımalarında dəmir yolları idarələri bir-biriləri ilə böyük rəqabət içərisində olduqlarından, nə şəkildə olur-olsun, qiymətlərin endirilməci kampaniyası yayılaraq bütün ölkəni bürüdü. Xüsusilə böyük həcmdə sistemli daşıma qarantiyası verən hər bir şəxs üçün dəmir yolları böyük güzəştlər etməyə başladı. Nəticə etibarilə Standard Oil təşkilatının əzəmətli gücünü arxasına alan Flagler, bir daha mümkün olan ən sərfəli bazarlığı gerçəkləşdirmiş oldu.

Amma Standart Oil yalnız qiymətləri aşağı salmaqla kifayətlənmədi. Rəqiblərinin zəifləmiş vəziyyətlərindən də qazanc əldəetmə yoluna getdi. Bu qazanc belə təmin





olunurdu. Məsələn, şirkətin rəqibi olan bir yükgöndərən şirkət neftini qatarla Nyu Yorka göndərir. Əgər o, dəmir yollarına barrel başına 1 dollar ödəyəcək olsa, dəmir yolları dərhal bu pulun 25 sentini geri ödəyirdi. Amma yükünü göndərən şirkətə yox, onun rəqibinə, yəni Standart Oil şirkətinə! Şübhəsiz ki, bu hal neftini onsuz da ucuz əldə edən şirkət üçün rəqiblərinə qarşı fövqəladə əlavə üstünlüklər gətirirdi. Bu əməliyyatın nəticəsi o oldu ki, şirkətin rəqibi olan başqa şirkətlərin özləri də fərqində olmadan Standart Oilu bəsləməyə başladılar. Ancaq şirkət bu dezavantajlardan faydalandığına görə və buna oxşar başqa işlərlə məşğul olduğu üçün artıq ictimaiyyətin antipatiyasını öz üzərinə cəmləşdirirdi.

### "Haydı, planımızı həyata keçirək"

Neft bazarı fövqəladə bir sürətlə inkişaf edərkən, neft axtaran bazarların da sayı o nisbətdə çoxalırdı.

Bu vəziyyət böyük qiymət dalğalanmalarına və tez-tez baş verən iqtisadi böhranlara yol açırdı. 1860-cı illərdə həddindən çox istehsal səbəbilə qiymətlər yenidən düşməyə başladı və yeni-yeni inkişaf edən sənaye depressiyaya girdi. Bunun səbəbi çox açıqdı - quyuların və neftin lap çox olması. Böhrandan neftayırma zavodları qədər istehsalçılar da ziyan gördülər. 1865-1870-ci illərdə qaz yağının pərakəndə satış qiyməti yarıdan çox aşağı düşmüşdü. Təxminlərə görə, zavodların qaz yağı istehsalı bazarların tələbindən üç dəfə artıq idi.

Rokfeller tələbdən çox istehsalın olduğunu və bunun mahiyyətini başa düşməkdə gecikmədi. Bu əlverişsiz şərtlər altında, neftayırıcılardan çoxunun maddi ziyana

uğradığı bu sırada bütün enerjisini sənayeni birləşdirməyə və öz nəzarəti altına götürməyə yönəltdi. Flaglerlə birlikdə arzuladığı tək şey daha çox kapitala sahib olmaqdı. Ancaq bunu nəzarəti əldən vermədən həyata keçirmək istəyirdilər. Bunu gerçəkləşdirmək üçün incə bir texnikadan istifadə etdilər. Şərikliyi anonim şirkətə çevirdilər. Beləliklə, 1870-ci ilin yanvar ayının 10-da Rokfeller və Flagler başda olmaqla 5 nəfərin də iştirakı ilə birlikdə Standard Oil Company quruldu. Şirkətin adı seçilərkən, istehlakçılara güvən vermək məqsədi əsas götürülmüşdü. "Standart keyfiyyətli məhsul" imicini daşıyan ad bu səbəblə seçilmişdi. O günlərdə bazarda satılan qaz yağı məhsulları müxtəlif idi və bir-birindən fərqlənirdi. Buna görə də çox diqqətli olmaq lazım idi. Çünki qaz yağının tərkibində çox miqdarda benzin vardı və bu səbəblə də tez alışırdı. Bu cür qaz yağını yandırmağa çalışan birisi bəlkə də həyatının son anını yaşaya bilərdi. Həqiqətən də, bu cür hadisələr çox yaşanmışdı. Rokfeller mövcud ehtiyatının dörddə birini, artıq Amerikadakı bütün neftayırma sənayesinin onda birini öz nəzarətinə götürüb mühafizə edirdi. Yenə də bu, sadəcə başlanğıc sayılırdı. Rokfeller illər keçəndən sonra keçmişə nəzər salarkən bunları söyləyirdi: "Bu işin bu qədər böyüyəcəyini kim bilə bilərdi?"

Yeni qurulmuş və daha çox kapitalla təchiz edilmiş Standard Oil bir daha gücünü dəmir yollarında qiymətlərin aşağı salınmasına yönəltdi. Buna keçmişdəkindən daha çox əhəmiyyət verməyə başladı. Məqsəd rəqiblərdən daha üstün vəziyyətə gəlməkdi. Bir tərəfdən də iş şərtlərinin ümumi vəziyyəti get-gedə pozulmağa başlayırdı. Belə ki, təqvimlər hələ 1871-ci ili göstərmədən neftayırma sənayesi büsbütün panika yaşayırdı. Gəlirlər birdən yox olur, zavodların çoxu getdikcə zərər görürdülər. Ən güclü





şirkətin sahibi olan Rokfeller belə bundan narahat olmağa başladı. Bu müddət ərzində Rokfeller Klivlenddə ən öndə gedən iş adamı olmuşdu. Eyni zamanda Euclid Avenue Baptist Church adlı yerli kilsənin aparıcı elitasına daxil idi. 1864-cü ildə Laura Celestia Spelmanla evlənmişdi. Bu gənc qız məktəbi bitirəndə yazdığı məzuniyyət məqaləsində eynən bunları yazmışdı: "Öz qayığımın kürəklərini özüm çəkərəm. Qadın düşüncədə, hərəkətdə, iradədə müstəqil və azad olmalıdır. Amma nə yazıq ki, azad deyildir. Bu, zəmanəmizin qarşı-qarşıya qoyduğu ən böyük problemlərdən biridir." Laura Rokfellerlə evləndikdən sonra öz qayığının kürəklərini özü çəkə bilməsə də, ərinin ən yaxın sirdaşı olmağı bacardı. Rokfellerin iş məktublarını belə nəzərdən keçirdiyi olurdu. Yataq otaqlarına girdikləri günlərdən birində Rokfeller qadınına bir mövzuda söz vermişdi: Əgər bir gün işindəki vəziyyətlə bağlı hər hansı bir narahatçılıq keçirərsə, bunu ilk olaraq qadınına söyləyəcəkdi. İndi təqvim 1872-ci ili göstərirdi. Neftayırma sənayesinin böhranlı günləri idi. Belə günlərin birində Rokfeller qadınının narahat olduğunu hiss edərək, ona bunları söylədi: "Bunu bil ki, biz neftə qoyduğumuz sərmayədən kənarda da müstəqil və zənginik."

Rokfellerin bütün neftayırma zavodlarını bir çatı altında, nəhəng bir təşkilatda birləşdirmə fikri bax, bu kədərli günlərdə baş verdi. Daha sonra söylədiyi kimi "canını qurtarmaq" üçün mütləq bir iş görmək lazım idi. Həqiqi bir birləşmə, bir neft quyusu və ya dərnəyin təkbaşına edə biləcəklərindən daha vacib idi. O, belə düşünürdü. Artıq istehsalı dayandırmaq, qiymətlərdəki çılğınca dalğalanmalara son vermək və əsas da sənayeni xilas etmək lazım idi. Rokfeller və dostlarının "planımız" deyə söz etdikləri məqam bu idi. Ancaq əslində, plan Rokfellerə

məxsus idi və onu icra edən də özü idi. Çox sonralar Rokfeller bu mövzuda bunları söyləmişdi: "Fikir mənim idi və bəzilərinin etirazına baxmayaraq, dəstəkləndi. Əvvəlcə etiraz edənlər sonradan bu işin əhəmiyyətini, mütəmadi olaraq böyüdüyünü görərək yumşaldılar və bizə qatıldılar."

Standard Oil birləşmə mövzusunda kampaniyalara başladı. Bu da işləri asanlaşdırdı və şirkətin sərmayəsini artırdı. Fəqət hadisələr tərs istiqamətdə inkişaf edirdi. 1872-ci ilin fevral ayında beyni qarışan pensilvaniyalı bir dəmir yolu sahibi birdən-birə qiymətləri artırdı. Neft bölgələrindən Nyu Yorka qədər ödənən xam neftin daşınma qiymətlərini birdən-birə iki qatına çıxardı. Söylən-tilərə görə, qiymət artımı ad-sanı bilinməyən "South Improvement Company" adlı bir təşkilatdan qaynaqlanırdı. Bu əsrarəngiz şirkət kimin nəyi idi? Arxasında kimlər dururdu? Beyinləri bu suallar alt-üst edərkən, neft bölgələrindəki müstəqil istehsalçılar və neftayırma zavodlarının sahibləri yerlərində qurcuxa-qurcuxa böyük panika içərisindəydilər.

"South Improvement Company" (Cənub bölgəsini İnkişaf Şirkəti) neft sənayesinə stabillik qazandırmaq üçün məşğul olan başqa bir təşkilat idi. Bu təşkilat irəlidəki illərdə inhisarlaşma mövzusunda və ona nəzarət edilmə cəhdlərində adətən simvola çevrildi. Bu işlərlə əlaqədar Rokfellerin adı tez-tez hallansa da və o, bu layihənin ən öndə gedən icraçısı olsa da, əslində, ideya dəmir yollarından gəlmişdi. Bunun səbəbi savaşdan sonra dəmir yollarında ağır bir qiymət siyasətinin tətbiqi idi. Bu layihənin məqsədi o idi ki, dəmir yolları və neftayırma zavodları nəhəng təşkilatlar formasında birləşdirilsin və bazarlar bölüşdürülsün. Beləcə, neftayırma sahibləri güzəştli daşıma





qiymətləri ilə kifayətlənməyəcək, geri ödənən pullardan (üzv olmayan neftayırma zavodlarının sahiblərinin ödədikləri pullardan) da pay alacaqdılar. Rokfellerin tərcümeyi-halını yazanlardan biri bu sözləri söyləmişdi: "Bu cür plan o zamana qədərki bütün planların içində ən amansız və öldürücü olanı, eyni zamanda Amerika sənayeçiləri tərəfindən ən çox qəbul edilən və mənimsəniləni olmuşdur."

Əsrarəngiz tutumunu davam etdirən Cənubi İnkişaf Şirkəti "Neft Bölgələri"ndə yaşayan xalq tərəfindən xoş qarşılanmamış, hətta onları kifayət qədər hirsləndirmişdi. Mətbuat bu hadisəni başqa cür qəbul etdi. Pittsburqhda çıxan bir qəzet "bu şirkət bütün "Neft Bölgəsi"ndə olsa-olsa tək bir alıcı tapa bilər" deyə yazmağına baxmayaraq, Titusville qəzeti bu şirkətin "Titusvilleni qurutmaq üçün" qurulduğunu iddia edirdi. Qəzetə görə şirkət bir təhdid ünsürü idi. Fevralın sonlarında Cənubi İnkişaf Şirkətinə etiraz etmək məqsədilə gözü dönmüş 3 min nəfərlik bir qrup əllərində plakatlar Titusville Opera Binasına hücum etdilər. Gələcəkdə "Neft Savaşları" adlanacaq bu hərəkat, bu şəkildə başlamış oldu. Dəmir yollarına, Rokfellerə və neftayırma təsislərinin hamısına artıq düşmən gözüylə baxırdılar.

Bütün istehsalçılar qəsəbə-qəsəbə dolaşıb "Canavarlar", "40 Quldurlar" deyə bağıraraq hayqırmağa başladılar. Artıq istehsalçılar inhisarçılara qarşı birləşmişdilər və birləşmiş halda neftayırma təsislərinə və dəmir yollarına qarşı boykota başladılar. Bu boykotun təsiri oldu. Məsələn, Klivlenddəki Standart Oil təsislərinə bir anda çox az xam neft daxil oldu və nəticədə 200 fəhlə işlədən şirkət fəhlələrin sayını 70 nəfərə qədər azaltdı. Ancaq Rokfeller gördüyü işlərin doğruluğundan əmin idi. "Neft Savaşları" əsnasında həyat yoldaşına bunları yazırdı: "Qəzetlərdə

məqalə yazıb tənqid etmək asan bir işdir, amma bizim görəcək başqa işlərimiz var. Doğru olanı etməyə və qəzetlərin yazdıqlarından hirslənməməyə, üzülməməyə söz vermişik." Yenə neft savaşlarının başqa bir mərhələsində qadınına yazdığı məktubda həyatı boyunca sadiq qaldığı prinsiplərdən birini yazı ilə ifadə edir və "bizim iş müqavilələrimizi dəyişdirmək cəmiyyətin işi deyil" deyirdi.

Rokfellerin bu sözlərinə baxmayaraq, 1872-ci ilin aprel ayında onun özü də daxil olmaqla neftayırma zavodları və dəmir yolları Cənubu İnkişaf Şirkətini gözdən çıxardılar və bu şirkəti batırmağa qərar verdilər. "Neft Savaşları" istehsalçıların qələbəsilə başa çatmışdı. Gələcək illərdə Rokfeller "bilirdik ki, şirkət əvvəl-axır batacaq. O zaman biz də planlarımızı həyata keçirəcəkdik" demişdi. Əslində Rokfeller Cənubu İnkişaf Şirkətinin batmasını belə gözləməmiş, çox əvvəllərdən hərəkətə keçmişdi. 1872-ci ilin yazında o, artıq Klivlend zavodlarının əksəriyyətini və Nyu York zavodlarının da bəzilərini nəzarət altına almışdı. Bu vəziyyət onu dünyanın ən böyük neftayırma müəssisələri qrupunun əfəndisinə çevirirdi. Artıq dünyanın bütün neft sənayesini ələ keçirməyə və ona hökm etməyə hazır idi...

1870-ci ilin diqqəti çəkən xüsusiyyəti o idi ki, bu il istehsal durmadan artırdı. İstehsalçılar məhsulun istehsalını məhdudlaşdırmağa nə qədər cəhd etsələr də, müvəffəq ola bilmədilər. İstehsal o qədər çox idi ki, neft bazaları dolubdaşır, torpaqlar neft içində üzürdü. Bunun nəticəsində qiymətlər sürətlə aşağı düşməyə başladı. Artıq neft saxlayacaq yer qalmamışdı. Xam nefti çaylara və tarlalara boşaldırdılar. Elə bir zaman gəldi ki, barrel başına qiymət 48 sentə qədər düşdü. Bu qiymət evdar qadınların içmə suyuna ödədikləri qiymətdən 3 sent az idi. Bu arada





istehsalın azaldılması üçün təkrar-təkrar cəhdlər edilsə də, buna nail olunmadı. Ardıcıl olaraq qazıntı işləri aparılır və yeni-yeni neft yataqları kəşf olunurdu. Buna görə də iqtisadiyyat heç cür stabillik qazana bilmirdi. Təsiredici məhdudlaşdırma cəhdlərini əngəlləyən başqa bir faktor da ortalıqda olan istehsalçı sayının lazım olandan daha çox olmasıydı. Təxminlərə görə, XIX əsrin son 25 ili içərisində neft bölgələrində istehsalçı firma sayısı artıb 16 minə çatmışdı. Bu istehsalçıların çoxu macərapərəstlər, digərləri isə fermer təsərrüfatı ilə məşğul olanlardı. Bir çoxları da keçmişləri hansı peşədən olur-olsun, həddən ziyadə fərdi, "uzağı görmə" qabiliyyəti olmayan, xalqın rifahını düşünməyən adamlardı. Bu qrupda yer alanlar onlara təqdim olunan planlar yaxşı belə olsa, əməkdaşlığa həvəsli deyildilər. Nizam-intizama ciddi riayət olunmasını tələb edən Rokfeller isə istehsalçılar arasında baş verən qarmaqarışıqlıq və bölünməyə pis baxırdı. Bu mövzuda sonralar acı bir narazılıqla bunları söyləmişdi: "O günlərdə neft bölgələri tam bir quyu qazma düşərgəsiydi." Bunları söyləyərkən şübhəsiz ki, neftayırma təsislərini hədəfə götürmüşdü.

## Savaş, ya da barış

Rokfellerin böyük bir cəsarətlə girişdiyi savaş planı öz sözləri ilə belə ifadə edilmişdi: "Qazanc gətirməyən siyasəti bıçaqla kəsən kimi kəsmək və sona çatdırmaq." Bundan başqa, nəzarəti altında olan "neft işini təhlükəsiz və qazanclı vəziyyətə gətirmək." Bu savaşda Rokfeller həm bir strateq, həm də ordu idarə edən bir ali baş komandan kimi hərəkət etdi. Əmrində olan işçilərdən böyük bir gizlilik və çox çalışmaqla bərabər, icraatda da təcrübələrindən

maksimum istifadə etməyi tələb etdi. Bu şərtlərdə qardaşı Williamın digər fabriklərlə olan əlaqələri "savaş və barış" deyə adlandırmasına çaşmamaq lazım idi.

İşə hər bölgədə əhəmiyyətli zavodları və ən vacib firmaları satın almaqla başladılar. Rokfeller və dostları rəqibləri ilə münasibətlərdə hörmət, nəzakət və həvəsləndirmə əsaslarına görə hərəkət etdilər. Öz şirkətlərinin o biri şirkətlərlə qarşılaşdırıldığında nə qədər çox qazanc gətirdiyini ətrafdakılara hiss etdirmək istəyirdilər. Çünki digər şirkətlərin bir çoxu ağır günlər keçirir, varlıqlarını davam etdirmək üçün mübarizə aparırdılar. Rəqib tərəfi öz tərəfinə dostanə bir şəkildə çəkmək üçün bilavasitə Rokfellerin özü dəridən-qabıqdan çıxır, bu yolda yüksək səviyyədə olan inandırma qabiliyyətini səfərbər edirdi. Düşüncələrinə görə, bu siyasət işə yaramasa da, heç olmasa çətin bir rəqibi diz üstə qoyacaq, ya da ən azından "başını ağrıdacaq" və ya "bir xeyli tərlədəcəkdilər." Ayrıca, bu vəziyyətdəki firmanın bazardakı qiymətləri aşağı düşəcək, beləliklə, rəqibin "zərərdə" çalışması təmin ediləcəkdi. Bununla da kifayətlənməyən Standart Oil, bazardakı bütün barrelləri toplayaraq bir növ süni "barrel qıtlığı" yaradıb rəqiblərini baş əyməyə məcbur etmişdi. Bu istiqamətdə başqa bir mübarizə üsulları da vardı. Tərəflərinə çəkmək istədikləri rəqibləri yola gəlməyincə, Henry Flaqler adamlarına belə bir təlimat verirdi: "Baxsanız ki, adam lazımi qədər tər tökməyib, daha çox tərlətmək üçün üstünə yorğan atın. Ona bir qəpik qazandırmaqdansa, ovuc-ovuc pul itirməyi seçərəm." Şirkət mənsubları böyük bir gizlilik içərisində hərəkət edərək, kənar dünyaya qarşı müstəqil görünmək istəyən, fəqət əslində şirkətin bir parçası olan firmalarla işə girişdilər. Bir çox neftayırma zavodları qiymətləri aşağı salan, onlara təzyiq edən yerli rəqiblərin, əslində gündən-





günə böyüməkdə olan Rokfeller imperiyasının adamları olduğunu heç bir zaman başa düşmədilər. Kampaniyanın aparıldığı müddətdə, hər mərhələdə şirkət mənsubları şifrələrlə xəbərləşdilər. Standart Oil "Morose" şifrə adından istifadə edirdi. Gələcək günlərdə Rokfeller nə zaman bu dərəcə gizli hərəkət etdiyini müdafiə etmək məcburiyyətində qalsa da, gizli hərəkət etdiyini hər zaman qəbul etmiş, heç bir zaman heç bir şeyi açıq söyləməkdən çəkinməmişdir. Bir dəfə belə demişdi: "Hamısı doğrudur. Amma sizdən soruşuram, bir müttəfiq orduların komandanının savaşa girməyə qərar verdiyi zaman hücum tarixini düşmənə bildirdiyi görülmüş şeydirmi? Ola bilərmi?"

1879-cu ildə savaş artıq tamamilə sona yetmişdi və bu savaşdan Standart Oil müzəffər olaraq çıxmışdı. Artıq Amerikanın neftayırma müəssisələrinin 90 faizi nəzarət altındaydı. Boru kəmərləri və neft bölgələri də əlində idi. Bundan başqa, nəqliyyatçılıqda da artıq hakimdi. Həqiqət budur ki, Rokfeller qazandığı qələbələri emosional qarşılamamış və əsla kin güdməmişdir. Belə ki, hətta bir müddət sonra uduzan rəqiblərdən bəziləri Standart Oilda vəzifə belə aldılar. İdarə Heyətinə daxil oldular və kampaniyanın irəlidəki mərhələlərində şirkətin sadiq müttəfiqləri kimi hərəkət etdilər. Buna baxmarayaq, 1870-ci illərin sonuna doğru şirkət komandanı tam mənasında ələ keçdiyi zaman belə, arada bir olsa da, gözlənilməz müqavimətlər hiss olunurdu.

## Yeni təhdidlər

1870-ci illərin axırlarında Rokfellerin artıq işləri öz nəzarətinə götürdüyünə inandığı bir zamanda Pensilvaniya firmaları Standart Oil şirkətinin onları artıq boğmaqda olan təzyiqlərdən xilas olmaq üçün son bir cəhddə bulundular. Çox cəsarətli bir düşüncəni həyata keçirmək istəyirdilər. Məqsədləri uzun mənzilli boru kəməri döşəmək idi. Bu fikir dünyada ilk dəfə həyata keçiriləcək bir hadisənin başlanğıcı idi və əvvəllər heç bir zaman buna bənzər bir layihə təcrübədən keçirilməmişdi. "Tidewater" adı verilən bu layihənin texniki baxımdan mümkünlüyü haqqında da heç bir qarantiya yox idi. Layihə neftin, neft bölgələrindən Şərqə doğru 110 mil məsafədə nəqlini, oradan Pensilvaniya və Reading dəmir yollarına bağlanmasını nəzərdə tuturdu. Nəticədə işə başlanıldı. Boru kəməri inşaatı böyük bir gizlilik içərisində aparılırdı. Bəzi maneçiliklər də olurdu. Boru kəmərinin yola əngəl olacağı bəhanəsilə şirkət binasının istifadəsi üçün uydurma ərazi araşdırması belə edildi. Boru xəttinin istifadəyə veriləcəyindən son dəqiqəyə qədər şübhələnənlər olmuşdu. Bütün şübhə və tərəddüdlərə baxmayaraq, boru kəməri həyata keçirildi və açıldı. 1879-cu ilin may ayında artıq boru kəmərinin içindən neft axırdı. Bu hadisə həqiqətən xəfifə alınmayacaq hadisə idi və çox böyük bir texnoloji mərhələ sayılırdı. Bu boru xəttinin döşənməsi, ancaq 4 il sonra həyata keçirilən Brooklyn Körpüsüylə müqayisə ediləcək qədər böyük bir müvəffəqiyyət sayıla bilər. Ayrıca, boru xəttinin həyata keçirilməsi ilə neft tarixində də yeni bir səhifə açılmış olurdu. Zamanla boru xətti uzun məsafəli nəqliyyatda da önəmli yer tutacaq və dəmir yolunun ən böyük rəqibi olacaqdı.





Tidewaterin bu açıq-aşkar müvəffəqiyyəti və nəqliyyatçılıq baxımından ifadə etdiyi inqilab qarşısında Standart Oil şirkəti təkcə böyük bir çaşqınlığa uğramaqla qalmır, eyni zamanda bu sektorun üzərində sahib olduğu nəzarəti də bir daha təhlükəyə atmış olurdu. Artıq bu şirkətə bir alternativ tapılmış və bunu da istehsalçılar etmişdi. Tidewater şirkəti dərhal hərəkətə keçdi və qısa müddət ərzində neft bölgələrindən Klivlendə, Nyu Yorka, Filadelfiyaya və Buffaloya qədər uzanan tam dörd neft xətti qurdu. İki il içində Standart Oil Tidewater şirkəti içində azlıqda qalan bir hissədar vəziyyətinə düşmüşdü. Bundan başqa, rəqabətə davam gətirmək üçün neft nəqlini yeni boru xətti şirkətiylə aparmaq üçün bir də müqavilə imzalamışdı. Ancaq Tidewater şikrəti əməliyyatları aparmaq baxımından bir dərəcəyə qədər müstəqil olmaq istədi. *Neftayırma zavodları məsələsində* birləşmə təmin olunduqdan sonra həyata keçirilən bu boru kəməri ilə Standart Oil şirkəti neft sənayesində də inteqrasiyanı təmin etmiş olurdu. Qısaca söyləmək mümkünsə, Tidewaterdən başqa, neft bölgələrinə girən və çıxan boru xəttinin haradasa hər santimetri Standart Oil şirkətinin nəzarətinə keçmişdi.

Artıq bu nəhəng təşəkkülü yerində tutmağın, ona "dur" deməyin bir tək yolu qalırdı. O da işə siyasəti və məhkəmələri qarışdırmaq idi. 1870-ci illərin sonlarında neft bölgələri istehsalçıları Pensilvaniyada fərqli qiymət tariflərini irəli sürərək, Standart Oil əleyhinə silsilə məhkəmə qalmaqallarına baş vurdular. Neft işini o günə qədər görünməmiş şəkildə nəzarət altına almaqla ittiham etdikləri şirkəti, "avtoritar" olmaqla günahlandırdılar və şirkət mənsublarından "bir dəstə quldur" deyə bəhs etməyə başladılar. Bəziləri daha da irəli gedərək, şirkətin ən üst səviyyəli səlahiyyətlilərinin bir cinayətkar şəbəkənin içində

olduqları səbəbiylə cəzalandırılmalarını tələb etdilər. O sıralarda Nyu Yorkda dəmir yollarıyla əlaqədar olan bəzi məhkəmə işlərində Standart Oilun tətbiq etdiyi endirimli nəqliyyat sistemi gündəmin baş mövzusu idi. Beləliklə, Pensilvaniya və Nyu York kimi iki böyük əyalətdə birdən davam etdirilən istintaq işləri Standart Oilun bütün fəaliyyətlərini, qurulduğu gündən bu yana, ilk dəfə ictimaiyyətə açıqca bəyan edirdi. Bu arada şübhəsiz ki, şirkətin haralara qədər uzandığı, nə dərəcə nüfuzlu olduğu və nəqliyyat işlərini necə həyata keçirdiyi kimi zəif olduğu yönləri də üzə çıxırdı.

Bu arada Pensilvaniyada böyük jüri Rokfeller, Flaqler və bu ikisinin işlə əlaqədar olan bir neçə yaxınını inhisarçılıq etmək və rəqiblərinə zərər verməkdə günahkar qismində görmüşdü. Ayrıca, Rokfelleri Pensilvaniyaya sürgünə göndərmək haqqında düşünülür və bu mövzuda ciddi fəaliyyət göstərilirdi. Vəziyyət o qədər ciddi idi ki, Rokfeller Nyu York valisinə müraciət edib haqqında çıxacaq qərarı təsdiq etməməsi üçün ondan söz almaq ehtiyacı hiss etdi. Nəticədə düşmənlərinin bu cəhdləri müvəffəqiyyətsizliyə uğradı.

Fəqət ortaya çıxan bəzi həqiqətlər və zamanla yığılıb qalaqlanan problemlər ictimayyətə təsir edir və şirkət mütəmadi mənfi yöndə xal itirirdi. Şirkətin ətrafındakı sehrli pərdə qaldırılmış və həqiqət olduğu kimi meydana çıxmışdı. Şübhəsiz ki, ictimayyət gördüklərindən məmnun qalmayacaq və əsəbiləşəcəkdi. Standard Oila qarşı irəli sürülən bütün ittihamları yazılı olaraq ilk dəfə qələmə alan adam Henry Demarest Lloyd adında bir yazar idi. Bu yazar "Çikaqo Tribune"də silsilə yayınladığı bir yazı seriyasında bütün ittihamları küll halında cəmiyyətə təqdim etdi. Sonra bu yazıları "Böyük bir inhisarın hekayəsi"





başlığı altında 1881-ci ildə "Atlantic Monthly"də yayınlanan başqa bir silsilə yazıyla davam etdirdi. Bu yazı o qədər diqqət və maraqla qarşılandı ki, tam yeddi dəfə təkrar nəşr edildi. Yazar Lloydun bu məqalədəki iddiasına görə, Staydard Oil şirkəti Pensilvaniya əyalətinə "əyalət qanunlarını düzəltmək"dən başqa hər cür pisliyi etmişdi. Qəribədir ki, məqalədəki bütün ittihamlara baxmayaraq, Standard Oil şirkətinin işi bu iddialardan təsirlənmədi və kiçicik də olsa pozulmadı. Ancaq Lloydun yazdığı və Standard Oilun işlərinin necə idarə edildiyini ifşa edən məqalələr seriyası nə ilk, nə də sonuncu oldu. İrəlidəki illərdə bu mövzuda bir çox yazılar yazıldı. Artıq D.Rokfellerin cəmiyyətə təqdim etdiyi sehrli imic, yəni görünməz adam olmaq məharəti sona çatmışdı. Belə ki, artıq neft bölgələrində yaşayan analar dəcəllik edən sözəbaxmaz uşaqlarını yola gətirmək üçün, "sözümə baxmasan səni Rokfellerə verərəm" deyirdilər.

## Əmanət - Tröst

Bir tərəfdən məhkəmə və cəmiyyət problemləri ilə məşğul olarkən, digər tərəfdən isə Rokfellerin qurduğu imperiyada soylu bir daxili nizam-intizam və nəzarəti ələ keçirmək cəhətləri göstərilirdi. Və bu cəhdlərdə də müvəffəq olunmuşdu. Ölkəni hörümçək toru kimi bürüyən və müxtəlif neftayırma zavodlarını simvolizə edən bir dərnəyin var olduğunu göstərən açıq bir hüquqi zəmin mövcud deyildi. Buna görə də, irəlidə bir gün Rokfeller məhkəmədə verdiyi andlı bir ifadədə insanların gözünün içinə baxa-baxa çəkinmədən və yalan yerə and içmədən də, mövzu bəhsi olan bütün şirkətlərin sahiblərinin Standard Oil olmadığını və nəzarəti də Standard Oilun etmədiyini

söyləyəcəkdi. Əslində, bu şirkətlərin əksəriyyətinə özü nəzarət edirdi. Rokfellerin qrupundan olan bir hissə sahibi günlərin bir günündə Nyu York əyalətinin Qanun Təmsilçiləri Komissiyasında, ölkədə mövcud olan neftayırma zavodlarının 90 faizinin vəziyyətindən və aralarındakı münasibətlərdən "məmnun olduqlarını, uyum içində bir arada çalışdıqlarını" söyləyəcəkdi. Bir başqa hissədar da eyni komissiyaya öz firmasının Standard Oilla heç bir bağlantısının olmadığını ifadə edəcək və Standard Oilla olan yeganə şəxsi əlaqələrinin "qazanc bölünəndə cığallıq etmək"dən ibarət olduğu haqqında təminat verəcəkdi. Əslində təşkilatçılığın əsas hədəfi də bu idi. Öz firmaları adından başqa firmalarda hissə sahibi olanlar Standard Oilun özü deyil, Standard Oilda hissəsi olan adamlardı. O günlərdə təşkilatların başqa təşkilatlarda hissə sahibi olmaq hüquqları yox idi. Hissələrin "əmanətə" alınması Ohio Standard Oil şirkəti adına yox, o təşkilatın hissədarlarının adına yazılırdı. "Tröst" kəlməsinin hüquqi mənası zamanla aydınlaşdırılıb formaya salındı və 1882-ci ilin yanvar ayının 2-də Standard Oil Tröst anlaşmasının imzalanmasıyla rəsmiyyət qazandı. Bu anlaşma 1870-lərin sonu və 1880-lərin ilk illərində baş verən bir çox məhkəmə hadisələri və siyasi hücumlara cavab mahiyyəti daşıyırdı. Başqa bir səbəb daha vardı. Artıq Rokfeller və şərikləri yavaş-yavaş ölüm və miras mövzuları haqqında da düşünməyə başlamışdılar və içlərindən biri ölərsə, nə kimi problemlərin ortaya çıxacağını şüurlu şəkildə dərk edib ortaq qərara gəlmişdilər. Mövcud sistemə görə, şəriklərdən biri ölsə, ortaya bir sürü qarmaqarışıqlıq, dəyərlər üstündə vuruş, məhkəmə çəkişmələri və nəticəsi bitməyən əzablar çıxacaqdı. Bu inanc və ortaq bir qərarla bir tröst qurmağa qərar verdilər. Tröst qurmaqla bütün bu ehtimallara





hazırlıq işləri tamamlanacaq, sahibkarlıq məsələsi real həllini tapacaqdı. Beləliklə, irəlidə mübahisə doğuracaq hər hansı bir problem olmayacaqdı.

Bu tröstün hazırlanma mərhələsində böyük ehtiyatlılıq nümayiş etdirildi. "Boru kəmərinin hər bir hissəsi bir-bir ölçüldü və kərpiclə hörülmüş bütün sahələr ən kiçik parçasına qədər dəyərləndirildi". Bir mütəvəlli heyət quruldu və Standard Oilun nəzarətində olan bütün ləvazimat bazaları bu quruma verildi. Zamanla hissələr də bu quruma həvalə edildi. Cəmi 700.000 olan hissələrin ən böyük payı 191.700 hissəylə Rokfellerə aid idi. Ondan sonra Flagler gəlirdi və ən çox hissəyə malik ikinci hissədar o idi. 60.000 hissəsi vardı. Mütəvəlli heyət üzvləri onlara əmanət edilən hissələri Standart Oil Tröstə bağlı 41 hissə sahibi adına ayrı-ayrı fərdi şirkətlərdə mühafizə edirdilər. Tam sahib olduqları 14 şirkətin və qismən sahib olduqları 26 şirkətin nəzarəti də onlara verilmişdi. Heyətin məsul olduğu bir çox işlər vardı. İdarəçilərin və məmurların seçimi də onlara aid idi. Bu səlahiyyətlərdən istifadə edərək lazım olduğunda bilavasitə özlərini də seçmə haqqına sahibdilər. Bu tröst o günə qədər qurulan böyük "tröst"lər içərisində birinci idi və hüquqi baxımdan fövqəladə sağlam idi. Amma bu hüquqiliyə baxmayaraq, əvvəllər ərlərini itirmiş dul qadınları və onların yetim qalan uşaqlarını qoruyan bir müəssisə kimi tanınan "tröst" kəlməsi, qısa müddətdən sonra zillət və nifrətlə yad olunan sözə çevrildi. Hər əyalətdə Standard Oilun müəssisələrinə nəzarət etmək adıyla müxtəlif təşkilatlar quruldu. Bu fəaliyyətlərin hamısını koordinasiya edən və rasional vəziyyətə salan mərkəzi bir ofisin qurulması isə yalnız tröst anlaşması ilə mümkün ola bilərdi. İşin genişlənməsi və iş həcminin böyüməsi ilə bu, daha aktuallıq qazanan məsələ

idi. Tröst həm də Rokfeller və dostları üçün "hüquqi qalxan" rolunu oynamağa başlamışdı. Rokfeller və iş yoldaşları bundan, artıq həqiqətən böyüyüb bütün dünyanı bürüyən müəssisələrinin effektli şəkildə işlədilməsində istifadə edəcəkdilər.

Ortada həll edilməli olan bir problem də qalmışdı. Bu da yaradılmış yeni təşkilatın necə idarə edilməsi ilə bağlı idi. Bu qədər çoxsaylı müstəqil təşəbbüskar və bu qədər növbənöv məhsul istehsal edən bu qədər çoxsaylı iş yeri necə birləşdiriləcək və yeni bir tröstə bağlanacaqdı? Bəhs edilən müxtəlif məhsullar arasında qaz yağı və mazotdan başqa, 300 adda müxtəlif məhsullar vardı. Bu mövzular üzərində uzun-uzun düşünüldükdən sonra bir qərara gəlindi. Bir idari və koordinasiya sisteminin qurulması və bu sistemin də bir komissiyaya bağlanması qərarlaşdırıldı. Mövcud komissiyaların sayı xeyli çox idi. Bunlardan bir neçəsi aşağıdakılar idi: Daxili Ticarət Komissiyası, İxracat Komissiyası, Emal Komissiyası, Boru Kəməri Komissiyası, Yağlama Komissiyası, Çəllək və Başlıq Qoyma Komissiyası və bir az sonra formalaşdırılan İstehsal Komissiyası. Bu komissiyalara hər gün dünyanın dörd bir tərəfindən gündəlik raportlar axırdı. Bu komissiyaların hamısının üstündə olan başqa bir komissiya daha vardı. Ən üst səviyyəli idarəçilərdən formalaşan və İcra Komissiyası kimi tanınan bu komissiyanın əsas vəzifəsi şirkətin bütün siyasətini və təlimatları təsbit etməkdi. İcra Komissiyası heç bir zaman tələb, təklif və tövsiyə halında əmr vermirdi. Bunlarla bərabər, hər kəs komissiyanın avtoritet və nəzarətini qəbul edir, bundan əsla tərəddüdə düşmürdü. Yazdığı bir məktubda Rokfeller mərkəz təşkilatı ilə əyalət təşkilatları arasındakı əlaqənin hansı formada olmalı olduğunu uyğun bir dillə və əmr vermədən bu sözlərlə





qeyd edirdi: "Bu mövzuda əyalətdə olan siz hörmətli bəylər şübhəsiz ki, bizdən daha sərrast qərar verəcəksiniz. Ancaq nəzarətdə saxlaya bilməyəcəyimiz mövzularda çox dərinə getməsək olarmı?"

1870-ci illərdə Standard Oilun ana strategiyası 1880-ci illərdə daha konkretləşmiş halda həyata keçirilməyə başlandı. Bu, istehsalı aşağı qiymətlə, düşük maliyyətlə etmə strategiyası idi. Bu strategiya şübhəsiz ki, bir çox yeniliklər tələb edirdi. İşlətmədə səmərəlilik, qiymətlərdə hakimiyyət, hesab və həcm işlərində qabiliyyət, texnologiyaya qarşı maraq və özündən böyük bazarlara qarşı tükənməz maraq, araşdırma istəyi kimi şeylər vardı... Səmərəliliyi təmin etmək üçün ilk mərhələdə neftayırma zavodları birləşdirildi. Əldə olunan müvəffəqiyyət çox böyük idi. O qədər böyük idi ki, 1880-ci illərin ortalarında Standard Oila aid olan təkcə 3 neftayırma zavodu dünyanın toplam qaz yağı tələbatının dörddə birindən çoxunu istehsal edirdi. Bu 3 neftayırma zavodu - Klivlend, Filadelfiya və Nyu Yerseydəki Bayonne zavodları idi. Qiymət təsbitləri son dərəcə dəqiqliklə hesablanır, bəzən rəqəmlərdəki mində birlik xırda-xuruşlar belə hesaba əlavə edilirdi. Buna görə də qiymətlər eyni səviyyədə qalır, çox böyük dalğalanmalar müşahidə olunmurdu. Bu mövzuda Rokfellerin söylədiyi bu sözləri xatırlamağa dəyər: "İş həyatımda hər şeyi incəliklərinə qədər saymağı özümə prinsip qəbul etmişəm." Şirkətin son dərəcə inkişaf etmiş bir xəbərləşmə sistemi vardı. Bu sistemdən istifadə olunaraq "Neft Bölgələri"ndə, Klivlenddə, Nyu York və Filadelfiyada, bundan başqa, Antwerp və Avropanın hər yerindəki qiymət fərqləri doğru şəkildə təsbit olunub araşdırılırdı. Şirkət xəbər alma və casusluq sahəsində də təsirli və fövqəladə yaxşı işləyən bir sistemə sahibdi. Bu sistem sayəsində

bütün bazar şərtləri və rəqiblər haqqındakı məlumatları günü-gününə təqib etmək imkanı vardı. Ölkədə fəaliyyət göstərən neft alıcılarının hamısı üçün ayrı-ayrı kataloqlar tutulmuşdu. Bu kataloqlarda müstəqil neft alverçilərinin yüklədikləri barrellərin haradasa hamısının bir-bir haraya getdiyi, ya da göndərildiyi yer alırdı.

Rokfellerin neft sahəsindəki idarəçiliyinin bircə səbəbi var. O, neft işinə həqiqətən inanmışdı və bu inancı heç bir zaman sarsılmamışdı. Onun qənaətlərinə görə, xam neftin qiymətlərindəki hər hansı bir qiymət enməsi heç bir şəkildə narahatçılığa səbəb olmamalıydı. Tam əksinə, bu düşmə daha çox xam neft satın almaq üçün fürsət sayılmalıydı. 1884-cü ildə Rokfeller şirkətə verdiyi bir təlimatda deyirdi: "Ümid edirəm ki, əgər xam neftin qiymətlərində yenidən bir düşmə olarsa, İdarə Heyətimiz ortaya bəzi statistik göstəricilər və məlumatlar çıxararaq xam neft alımımızı əngəlləməyə çalışmaz. Bazarlama işi sıfırdan aşağı olub iflasa doğru gedəndə belə, bəzilərinin əksinə, işlərimizi dayandırmamalı, sinirlərimizə hakim olmalıyıq." Bu sözləri söylədiklən sonra da belə deyirdi: "Əgər satınalmadan çəkinsək şübhəsiz ki, böyük səhvə yol vermiş olarıq."

Standard Oilun İdarə Heyəti bu adamlardan ibarət idi: Rokfeller, qardaşı William, Henry Flagler və bunlardan başqa, iki nəfər daha bütün hissələrin yeddisindən dördünü əllərində tuturdular. Bunlardan başqa, yüksək səviyyəli idarəetməyə qarışan, buraya qədər uzanan təxminən 12 nəfər daha vardı ki, bunların hamısı həqiqətən özlərini bu işə həsr etmiş, səbirlə işləyən, keçmiş illərdə müvəffəqiyyətli təşəbbüskarlar kimi özlərini sübut etmiş - bir vaxtlar Rokfellerin rəqibi olmuş - adamlardı. Gələcək günlərin birində Rokfeller bu adamları qəsd edərək belə söyləmişdi:





"Bu dərəcə qüvvətli, güclü adamları özünüz kimi düşünməyə, fikrinizi onlara qəbul etdirməyə çalışmayın. Bu, zənn edildiyi kimi asan iş deyil." Bu cür adamların toplaşdığı qruplaşmada müraciət olunacaq tək və ən yaxşı üsul konsensus tipli idarəetmə üsulu idi (bir fikri müzakirəyə açmaq və nəticədə ittifaqla qərar vermək üsulu). Bu konsensuslarda bütün alternativ yollar və qərarlar tək-tək ortaya çıxarılıb müzakirə edilir, təkrar-təkrar mübahisələr aparılır, ancaq hərəkətə keçmək məsələsi dərhal olunmurdu. Hərəkət sonraya saxlanılırdı. Hərəkətə keçmə işi Rokfellerin istədiyi kimi, ancaq problemlər təkrar-təkrar müzakirə edildikdən, ağla gələn bütün ehtimallar ayrı-ayrı düşünülüb nəticədə sağlam olan hansı iş isə o yöndə qərar verildikdən sonra başlayırdı.

Bu keçirilən və arxada qalan illərə nəzər salan Rokfeller belə deyirdi: "İş sahəsi hansı olursa olsun, o işin nə dərəcədə sürətlə həyata keçirilməsinə qərar vermək vacib məsələdir. Bu problem hər iş sahəsi üçün keçərlidir. Bizə gəlincə, o günlərdə biz cəld hərəkət etməliydik. Dincəlməyə vaxt tapmırdıq. Önümüzə yeni-yeni fürsətlər çıxır, işimiz çoxalırdı. Və biz bütün bunların öhdəsindən gəlməyə məcburduq. İnsanın əsəblərini tarıma çəkən bu mövzuları bol-bol ələ aldıq və müzakirə etdik. Bunu anlatmaq həqiqətən çətindir. Bəzi mövzularda işi nə qədər tez başlamaq və ya bitirmək lazım olduğu haqqında fikir ayrılıqlarımız olurdu. Aramızdakılardan bəziləri işi dərhal bitirmək və böyük məsrəflər etmək təklifləri verirdilər. Digərləri isə daha ehtiyatlı və səbirli yanaşma tərəfdarları idi. Yenə də həmişə orta yolu tapa bilirdik. Nə olursa olsun bir yolunu tapır, işi nə tələskənlərin istədiyi qədər tez bitirir, nə də mühafizəkarların dilədiyi kimi diqqətli və yavaş davranırdıq. İşlərin hər birini ayrı-ayrılıqda dəyərləndirir, bu

iki fikir arasında orta bir yol təqib edərək həll etməyə çalışırdıq." Bu fikirlərinə davam edən Rokfeller deyirdi: "Nəticədə aldığımız qərar mütləq ittifaqla olurdu." Rəhbər vəzifədə olan idarəçilər axtarıldıqları zaman daim gecə və gündüz qatarlarda, Klivlendlə Nyu York, Pittsburghla Buffalo və Baltimore ilə Filadelfiya arasında işlə məşğul olurdular. 1885-ci ildə tröst yeni binaya köçdü. Bura Aşağı Manhattanda, Broadway 26 ünvanında, 9 mərtəbəli bir ofis binasıydı. Bu bina çox keçmədi ki, yalnız bu sənaye sahəsinə məxsus oldu. Artıq İdarə Heyəti də daxil olmaqla bütün təşkilat buradan idarə olunurdu. İdarə Heyəti üzvlərindən hansı şəhərdə olurdusa, o gün təşkilatı o təmsil edirdi. Rəhbər vəzifəli şəxslər günorta yeməyini hər gün binanın yuxarı mərtəbəsində yerləşən, onlara ayrılmış xüsusi yeməkxanada yeyirdilər. Yemək əsnasında həyati əhəmiyyət daşıyan məlumatları bir-birinə ötürürdülər. Fikirlər araşdırılır və konsensusa varılırdı. Həqiqət bu idi ki, əvvəlcə onun rəqibi olanlar, indi Rokfellerin liderliyində birləşmişdilər. Bu adamlar öz aralarında, fəaliyyyəti və əhatə dairəsi baxımından misilsiz bir təşkilat və ağıllara durğunluq gətirən sürətlə inkişaf edən bir şirkət formalaşdırmışdılar. Broadway 26 adresindəki yemək stolu arxasında toplanan bu adamlar hər mənada fövqəladə qabiliyyətə malik olan insanlardı. Bir dəfə Nyu York Mərkəzi dəmir yolunda işləyən bir səlahiyyətli William Vanderbilt, Nyu Yorkdakı Dövlət Qanun təmsilçisi ilə söhbətlərinin birində bu adamlar haqqında aşağıdakıları söyləmişdi: "Bu adamlar məndən çox daha ağıllıdırlar. Çox təşəbbüskar və zəkidirlər. Bu günə qədər həyatımda işlərində bu dərəcə müvəffəqiyyət qazanan və qabiliyyətli olan belə insan qrupu ilə qarşılaşmadım."





## "Hiyləgər qoca bayquş"

Bütün bunlara baxmayaraq, yenə də bu adamların içində ən ağıllı olanı Cohn D.Rokfeller idi. Tröstün qurulduğu günlərdə 40 yaşlı Rokfeller, hələ o yaşdaykən Amerikanın ən zəngin altı adamından biriydi. Şirkətin yol göstərən lokomotivi, özünü bu şirkətin böyüməsinə həsr etmiş və bu yolda bildiyindən geri çəkilməyən, birləşməni təmin edən, nəzarətsiz yarışmanın artıq ortadan qalxdığına inanan və bunu aşağılayan, məqsədlərində haqlı olduğuna inamı olan bir adam idi. Qəribə bir şəkildə və qəsdən özünü "əlçatmaz" nöqtədə tuturdu. Ömrünün irəlidəki illərində əzbər bildiyi bir dördlüyü dodaqlarından əskik etməz, davamlı mırıldanardı:

*Meşə ağacında hiyləgər qoca bir bayquş yaşayırdı,*
*Get-gedə daha çox görür, daha az danışırdı.*
*Daha az danışdıqca daha çox şey eşidərdi,*
*Niyə hamımız bu qoca bayquş kimi olmayaq?*

İş həyatının ilk günlərində qərarlaşdırdığı kimi, gizlilik siyasəti aparar, həqiqətləri "imkanların əl verdiyi ölçüdə az göstərməyə" çalışardı. Araşdırmaçı idi və hər şeydən şübhələnirdi. İnsanlarla münasibətlərinə məsafə qoyardı. Bu uzaqlığı, soyuqluğu ilə və insanı dəlmə-deşik edən buz kimi baxışlarıyla narahat bir imic yayırdı. Bir dəfə Rokfeller Pittsburghda bir neftayırma təsislərinin rəhbər qrupuyla tanış olub onlarla toplantı keçirmişdi. Toplantıdan sonra qrupdan bir neçə nəfər birlikdə yeməyə çıxdılar. Söhbət dönüb dolaşıb asıq üzlü, insanlarla danışmağı sevməyən, onlara təhdidedici nəzərlərlə baxan klivlendli

Rokfellerə gəldi. İçlərindən biri Rokfeller üçün "əcəba, neçə yaşı var?" deyə soruşdu. İştirakçılardan hər biri bir təxmin söyləyib başqa-başqa cavablar verməyə başladılar. Nəticədə bunlardan biri belə söylədi: "Diqqət edin. Hamını danışdırır, amma özü danışmır. Heç bir şey söyləmir, sadəcə oturub danışanları dinləyir. Amma heyrətverici odur ki, xatırlamadığı heç bir şey yoxdur. Danışmağa başladığı zaman hər şeyi yerli yerinə qoymağı bacarır... Məncə bu adam 140 yaşında olmalıdır, çünki hər halda doğulduğu zaman zatən 100 yaşındaydı."

Bu hadisədən illər sonra Rokfellerlə işləmiş bir iş yoldaşı onun haqında bu sözləri söyləmişdi: "Həyatım boyu tanıdığım insanlar arasında hissilikdən ən uzaq olanı odur." Amma şübhəsiz ki, bu maskanın arxasında həqiqi bir "adam" gizlənmişdi. 1870-1880-ci illər "planımızın" meyvə verməyə başladığı illərdi. Birləşmə, inteqrasiya və mətbuat tərəfindən edilən hücumların ən yoğun olduğu günlərdə Rokfellerin belə dediyi söylənilir: "Qazandığım bu boyda sərvətin bütünü o zaman yaşadığım qayğı və narahatçılıqları təzmin və təmir etməyə kifayət etmədi." Həyat yoldaşı da bu mövzuda onunla şərik olduğunu ifadə edir və o günləri "əzab dolu günlər" adlandırırdı. Özü ifadə edirdi ki: "o günlərdə yuxuma haram qatılmayan tək bir gecəm yoxdu."

Rahatlamaq və yüngülləmək istədiyi zaman bunu fərqli formalarda edərdi. Günün gec saatlarında keçirdikləri iş toplantılarında özü arxası üstə yaslanır, iş yoldaşlarına isə davam etmələrini söylər və müzakirələrə beləcə arxası üstə yata-yata qatılardı. Hər zaman ofisində əzələni dincəldən adi bir alət olurdu. Atlara - xüsusən sürətli qaçanlarına - xüsusi bir düşkünlüyü olduğu üçün bəzən axşamlar gec saatlarda at qoşulmuş faytonuyla gəzintiyə çıxardı. Bu





gəzinti bir saata qədər davam edərdi. Atla oynayar, onu "şahə qaldırmağı" sevərdi. Bu gəzintilərdən sonra axşam yeməyi yeyər, dincəldiyini düşünər, özünü yenilənmiş hiss edərdi. Bu şəkildə keçirdiyi günlərin birində "axşamlar poçt qutusunu açıb içindən məktubları çıxaracaq zamanı belə tapa bildim" dediyi rəvayət edilir.

İş həyatından başqa, Klivlenddəki vaxtını Baptist kilsəsinin işlərinə ayırmışdı. Rəhbərliyində təmsil olunduğu "Bazar məktəbi"ndə oxuyan şagirdlərin xatirələrində unudulmaz izlər qoymuşdu. Bu şagirdlərdən biri, bir zaman uşaqlarının yoldaşı olan bir qız uzun illər sonra Rokfelleri bu sözlərlə xatırlayırdı: "Cənab Rokfelleri Bazar məktəbinin ayinlərini idarə edərkən xatırlayıram. Uzun sivri burnu, biz şagirdlərə istiqamətlənən uzun çənəsi, ifadəsi heç dəyişməyən açıq rəngli mavi gözləri hələ də gözümün önündədir. Hər zaman çox ehtiyatlı və düşünərək danışdığından söhbətləri çox yavaş olur, həddindən artıq vaxt aparırdı. Amma heç kim onun bu durumundan zövq almadığını söyləyə bilməz. Yox, bu halından çox rahat olduğu açıq-aşkar hiss olunurdu. Bu sofu görünüş, sanki onun hobbisi idi. "O da olmasaydı, başqa heç bir hobbisi yoxdur" deyilə bilərdi."

Klivlenddən başqa Forest Hill malikanəsində yaşamağı sevərdi: bunun üçün malikanənin ən xırda işləri ilə məşğul olurdu. Bu işlər özəl parıltılı qırmızı kərpicdən tikilmiş evciklər, ağacəkmə, meşələr içindən keçən yeni yol çəkilişi ilə maraqlanmaq kimi işlər idi. Daha sonra Nyu Yorkun şimal hissəsində Pocantico təpələrində tikdirdiyi görkəmli yeni malikanəsinə daşındığı zaman bu hobbisini daha da genişləndirərək davam etdi. Ərazini tənzimləmək, dekorasiyanın təbiət mənzərələrini tam görəcək şəkildə nizamlanması kimi məşğuliyyətləri vardı. Bundan başqa, əlində

bayraq və dirək yeni yolların qurulması və çəkilməsi işində yorulub əldən düşənə qədər işləyirdi. Ərazi tənziminə böyük marağı vardı. Belə işlərlə məşğul olarkən onu iş həyatında bu dərəcədə müvəffəqiyyətli edən qabiliyyətlərindən istifadə edirdi.

Amerikanın ən zəngin adamı olmaq yolundaykən belə, maraqlıdır ki, sadəlik və tutumlu olmağından geri çəkilməmişdi. Ailəsindən gələn bütün etirazlara baxmayaraq, paltarlarını tez-tez yenisi ilə dəyişməyə həvəs göstərməz, şalvarlarını arxa hissəsi parıldayana qədər geyinər, paltarları tamamən köhnəlib geyinilməyəcək hala gəlmədən təzəsini almazdı. Ən sevdiyi qida maddələri "süd və çörək" idi. Rəvayətlərə görə, bir dəfə Klivlenddəykən, oranın məşhur bir iş adamını həyat yoldaşıyla birlikdə yaz aylarını keçirmək üçün Forest Hilldəki malikanəsinə dəvət etmiş imiş. Altı həftə burada qalıb gözəl bir tətil keçirən məşhur ikili evlərinə qayıtdıqdan sonra qəribə bir sürprizlə qarşılaşmışdılar. Onları bir faktura gözləyirmiş və bu faktura Rokfeller tərəfindən qonaq edildikləri altı gözəl həftənin qarşılığı olaraq göndərilibmiş.

Özünəməxsus, zarafata qədər varan bir ironiya anlayışı vardı: fəqət bu xüsusiyyətini çox yaxın olduğu adamlarla birlikdə olduğu zamanlarda biruzə verirdi. Bir dəfə dostu Henry Flaglerlə belə zarafatlaşdığı söylənilir: "Bir gün diş həkiminə getdim. Diş həkiminin stolunda oturmaq bərbad bir şeymiş. İnan, sənə məktub yazmaq, hətta sənin məktublarını oxumaq belə bundan daha bərbad ola bilməz. Nə edim ki, getmək məcburiyyətindəydim." Axşam yeməklərində ailəsi ilə birlikdə olduğu zaman onları əyləndirməkdən xoşlanır, mahnılar oxuyur, burnunun üstünə biskvit qoyub ağzıyla tutar, hətta bəzən burnunun üstünə boşqab belə qoyub oyunlar oynayardı. Sevdiyi şeylərdən biri də uşaqları və uşaqlarının dostlarıyla birlikdə "buzz" dedikləri oyunu oynamaq idi. Oyunun qaydalarına görə, içərilərindən biri saymağa başlayır, içində "yeddi" rəqəmi olan saya gəlib çatanda yeddi yerinə "buzz" deyirdi. Əgər bunu edə bilmirsə, oyundan çıxarılırdı. Yaxşı bir riyaziyyatçı olmağına baxmayaraq, Rokfeller bu oyunda hər zaman uduzur, ancaq 71 sayına qədər gələ bilirdi. Uşaqlar bu oyunu çox sevər və Rokfellerlə birlikdə gözəl saatlar keçirərdilər.





Pul qazanmağa başlayandan qısa bir müddət sonra Rokfeller bağlı olduğu kilsəyə kiçik ianələr şəklində yardım etməyə başlamışdı. İllər keçdikcə bağışların miqdarı da artırdı. İçində topladığı sərvətin böyük bir qismini "hədiyyə etmək" kimi bir arzu oyanmışdı və bu duyğu getdikcə çoxalırdı. Xeyirxahlıq işində də eynilə iş həyatında olduğu kimi eyni kriteriyalara əsaslanır, eyni riyazi hesablamaları aparır və ehtiyatlılıq nümayiş etdirirdi. Hədiyyələr sürətlə yayıldı və elə bir gün gəldi ki, müxtəlif elm sahələrinə, tibb və təhsil müəssisələrinə qədər uzanaraq bu sahələri də əhatə etdi. Ancaq XIX əsrdə göstərdiyi xeyirxahlıq işləri daha çox Baptist kilsəsinə oldu və bu kilsə ilə məhdud qaldı. Rokfeller artıq bu kilsənin böyük sponsoru və ən güclü himayədarına çevrilmişdi.

1880-ci illərin axırlarında özünü büsbütün böyük bir protestant universitetinin yaradılmasına həsr etdi və bu yolda Çikaqo Universitetinin qurulması üçün lazımi maliyyə dəstəyini əsirgəmədi. Bununla da kifayətlənmədi. Universitetin təşkil olunması üçün təşkilatçılıq işini də öz üzərinə götürdü. Hər zaman universitetin ən böyük maliyyə dəstəkçisi olaraq qaldı. Gələcək illərdə də daim universitetə özündən sonra ən böyük bağışlamalar edənlərdən qat-qat çox bağışlarda bulundu. Universitetin qurulub inkişaf etməsi mərhələsində böyük diqqət və ehtiyatlılıq

nümayiş etdirdiyi halda, qurulduqdan sonra universitetin akademik işlərinə heç bir şəkildə qarışmadı. Yalnız universitetin mütləq öz büdcəsinin sərhədləri içərisində qalmasını tələb edir və bu mövzuda israr edirdi. Universitetin binalarından heç birisinə həyatda olduğu müddətdə öz adının verilməsinə razı olmadı..Qurulduqdan sonrakı ilk 10 il içərisində Universiteti sadəcə iki dəfə ziyarət etdi. İlk ziyarəti universitetin 5-ci ildönümü olan 1896-cı ildə oldu. Bu ziyarəti zamanı, rəvayətə görə, İdarə Heyətində təmsil olunan bir universitet səlahiyyətlisinə bunları söyləmişdi: "Mənim bu işə etibarım var. Bu, mənim ömrüm boyu qoyduğum ən böyük sərmayədir. Madam ki, Ulu Tanrı mənə pul verdi, onu necə ola bilər ki, Çikaqo Universitetindən əsirgəyim?" Bu söhbət gedə-gedə bir tərəfdən də bir qrup tələbənin səsləri eşidilir, gənc tələbələr Rokfellerə serenada həsr edərək bu şərqini oxuyurdular:

Con D.Rokfeller,
Bu müdhiş adam
Bütün xırda-xuruş pullarını bizə,
Çikaqo Universitetinə
verdi...

Ancaq 1910-cu ildə Rokfellerin Universitetə verdiyi "xırda-xuruş" pulun miqdarı bütün başqa ianələrdən gələn 7 milyon dollar qarşılığında, 35 milyon dolları keçmişdi. Etdiyi bütün hədiyyələrin ümumi miqdarı isə 550 milyon dollar idi.

İş yerində tətbiq etdiyi adətlərini özəl həyatına da daşımışdı. O illər "Qızıl Dövr" deyə adlandırılan dövrün təxminən ilk onilliyinə düşürdü. Bu illərdə "quldur baronlar" ağlagəlməz sərvətlər toplayıb çox rahat və dəbdəbəli





həyat tərzi keçirirdilər. Bu günlərdə belə Rokfeller və ailəsi Nyu Yorkdakı evlərinin və Pocanticodakı malikanələrinin həqiqətən görkəmli olmasına baxmayaraq, daim ehtişamlı, göstərişli və dövrün gətirdiyi zövqsüzlüklə dolu olan yaşam tərzindən mümkün qədər uzaqda qalmağa cəhd etmişdilər. Özü və həyat yoldaşı öz bildikləri çərçivəsində uşaqlarına doğru-dürüstlük aşılamış, beləliklə, onları gələcəkdə varislik yoluyla malik olacaqları zənginliyin təhlükələrindən qorumağa çalışmışdılar. Məsələn, paylaşma hissinin nə olduğunu öyrənmələri üçün evə, uşaqların hamısı üçün bir ədəd 3 təkərli velosiped alınmışdı. Nyu Yorkda yaşadıqları zaman bütün zəngin ailələrin uşaqları məktəbə dəbdəbəli at arabaları ilə və xidmətçilərin müşayiətilə getdikləri halda, Rokfellerin oğlu məktəbə piyada gedirdi. Cib xərcliyini atasının mülklərindəki başqa fəhlələrlə bərabər şəraitdə işləyərək qazanırdı.

1888-ci ildə Rokfeller, ailəsini və iki protestant rahibi özüylə götürərək 3 ay müddətinə Avropaya getdi. Avropada fransızca bilmədiyi halda, getdiyi hər yerdə önünə gələn fakturaları, fakturalardakı hər məsrəfi böyük bir diqqətlə nəzərdən keçirirdi. Məsələn, bir dəfə yeməkxanada yemək yedikdən sonra gətirilən fakturada "poulet" sözcüyünü görmüş bu sözün nə olduğunu bilmədiyindən oğlu Condan "Poulet nə deməkdir" deyə soruşmuş, ondan "toyuq" cavabını aldıqdan sonra rahat olmuşdu. Hesabı ödədiyi zaman hər yeməyin adını bir-bir soruşur, nə olduqlarını anlamaq istəyirdi. Oğlu Con sonrakı illərdə bu mövzuda belə söyləmişdi: "Atam heç bir zaman bir fakturanı üzərindəki rəqəmi bir-bir araşdırmadan, doğruluğundan əmin olmadan ödəməzdi. Xırda detallara bu qədər diqqət yetirməsi bəlkə bəzi çevrələr tərəfindən xəsislik kimi qiymətləndirilirdi, ancaq atamın düşüncələrinə görə bu, xəsislik yox, bir həyat prinsipi idi."

## Görməyə dəyər möcüzə

Rokfellerin qurub misli-bərabəri olmayan bir rifaha çatdırdığı şirkət, 1880-lərdə və 1890-cı illərin əvvəllərində genişləməyə davam edirdi. Elmi araşdırmaların istiqaməti artıq neftçiliyə də yönəlmişdi. Neftayırmadan yerli bazarlamaçıya qədər həm məhsulun keyfiyyətinə, həm də əməliyyatların ehtiyatlılıq və təmizliyinə mümkün olduğu qədər diqqət göstərilirdi. Bazarlama sisteminin böyüdülməsi və məhsulun ən son istehlakçıya qədər çatdırılması hədəfə alınmışdı və bu məqsəd şirkətin bir əmri olaraq qüsursuz həyata keçirilirdi. Şirkətin nəhəngliyinə cavab verəcək yeni bazarlara ehtiyac vardı və bu səbəblə də bir az aqressiv davranaraq "hər torpaqda, sonuna qədər" bazar axtarmaq yoluna getdilər. Rokfellerin dediyi kimi "daha çox bazara ehtiyac"ları vardı. Bunun səbəbi neftdən daha çox qaz yağı kimi istifadə olunmasının hər gün bir az daha artması və ağılalmaz səviyyəyə çatması idi.

Neft və qaz yağı lampasının o günlərdəki Amerikan həyat tərzini və amerikalıların saat anlayışını dəyişdirdiyini söyləmək yanlış olmaz. İstər şərqin qəsəbə və şəhərlərində, istərsə də Qərbi Amerikanın fermer təsərrüfatlarında yaşasınlar, istehlakçılar qaz yağını əsasən ya bölgələrdəki baqqaldan, ya da əczaxanadan alırdılar.

Qaz yağını buralara topdançı verirdi. Topdançılardan da əksəriyyəti qaz yağını Standard Oildan alırdı. Hələ 1864-cü ildə Nyu Yorklu bir əczaçı bu yeni aydınladıcı yağın xüsusiyyətlərini bu sözlərlə anlatmışdı: "Qaz yağı müəyyən mənada kənd yerlərində yaşayan insanların həyatını uzatdı. Balina yağının yetərli olmaması səbəbilə günəş batar-batmaz erkəndən yatmağa və həyatlarının





haradasa yarısını yataqda keçirməyə alışmış insanlar, artıq gecənin gec saatlarına qədər oxuyub əylənirdilər. Bu hal xüsusilə qış mövsümünə aid idi."

Qaz yağının praktikada necə istifadə ediləcəyi və dünyada nə qədər tezliklə yayıldığı haqqındakı ilk məlumatlar 1869-cu ildə Uncle Toms Cabin (Tom əminin klubu) kitabının yazarı Harriet Beecher Stowe tərəfindən yazıldı. Əslində Beecher, özü kimi yazar olan və American Womans Nome of Principles of Demestic Scinece (Amerikan qadınının evi) kitabını yazan bacısına, bu kitabın yazılmasında kömək etdiyi üçün mövzu haqqında fikir sahibiydi. Bu iki yazar oxucularına hansı tip lampa almağı tövsiyə edərkən bunları yazırdılar: "Yaxşı növ qaz yağının verdiyi işıq tamamən qaneedicidir." Amma yenə də aşağı keyfiyyətli və pis qaz yağılardan istifadə edən oxucuları xəbərdar edib "bu qorxunc partlayışlar tamamən aşağı keyfiyyətli pis qaz yağılarından törəyir" demişdilər. 1870-lərin ortalarında məlum olan məlumatlara görə, bir il içərisində meydana gələn ölüm hadisələrinin 5-6 mini bu tip qəzalardan olmuşdu. Bu sahədəki normativ aktlar həm yavaş, həm də təhlükəli şəkildə işlədiyindən, Rokfeller sabitlik və keyfiyyətə nəzarət üzərində diqqətlə dururdu. Şirkətinə Standard adını verməyinin də səbəbi bu idi.

Daha böyük şəhərlərdə isə kömür, xam neftin başqa bir forması olan naftadan alınan "şəhər qazı" ilə rəqabət edirdi. Amma qaz yağı şəhər qazına nisbətən qiymət baxımından sərfəli idi. O günlərdəki bir qəzetin yazdığına görə, 1885-ci ildə Nyu Yorkda yaşayan bir ailə illik qaz yağı ehtiyacını sadəcə 10 dollara qarşılarkən, "maddi vəziyyəti yaxşı olan ailələr bu pulu bir aylıq aydınlatma məsrəfi olaraq xərcləyirdi." Əyalətlərdə bu cür yarışmalar yox idi. Bir tələbənin yazdığına görə "1876-cı ildə Filadelfiyanın

100-cü ildönümündəki mərasimlər əsnasında qəsəbənin yaxşı işləyən və qazanc gətirən bir dükanına girəcək olsanız, orada saysız-hesabsız lampa və lampa şüşələri görərdiniz." Bundan başqa, buralarda "qaz yağı məhsulları və bunlardan istifadə edən cihazlardan da bol miqdarda vardı. Bu mənzərə həqiqətən görülməyə dəyər bir möcüzəydi."

O günlərdə netayırma zavodlarında istehsal edilən məhsullar içərisində qaz yağı şübhəsiz ki, ən vacib olanıydı, amma yeganə məhsul deyildi. Başqa məhsullar da vardı. Bunlar arasında bu məhsullar sayıla bilər: Nafta, əridici maddə kimi istifadə olunan və ya binaları tək-tək aydınlatma üçün qaz yağına çevrilmiş formada benzin, mazot, vaqon mühərrikləri və dəmir yolu arabalarında, kənd təsərrüfatı alətlərində və daha sonra velosipedlərdə, bunların oynaq hissələrində istifadə olunan yağlayıcılar. Və bunlardan ayrı olaraq ticarət sahəsində "vazelin" adlanan *və əczaçılıqda istifadə edilən neft jölesi və parafin də vardı.* Parafin mum istehsalında və qida maddələrinin qorunub-saxlanılmasında işə yaradığı kimi, "parafinli geyim" deyilən və davamlı tikiş tikən xanımların çox etibar etdiyi bir məmulun istehsalında da işə yarayırdı.

Standard Oil şirkəti istehlakçıya qovuşma cəhdlərində, yəni işin bazarlamasında da nəzarəti ələ keçirmişdi. 1880-ci illərdə şirkətin bazarlamadakı nəzarət nəsbəti, təxminən neftayırma sahəsindəki nəzarətə bərabər səviyyəyə gəlib çatmışdı. Yəni 80% civarındaydı. Bunu da qeyd etmək lazımdır ki, Standard Oil bazarlamadakı bu nəhəng payı ala bilmək üçün amansız metodlardan istifadə edirdi. Məsələn, satıcılar "yumruqlarını sıxıb" həm rəqiblərini, həm də rəqib məhsulu daşımaq cürətində olan pərakəndəçiləri ürkütmək üçün hər cür yola baş vururdular. Bu arada bazarlamanın səmərəliliyini artırmaq və maliyyəti





düşürmək üçün silsilə halında endirimə getdilər. Köhnəlmiş və çatlarından sızıntılar axan çirkin və bahalı barrellərdən də yaxalarını qurtarmağın yollarını axtarmağa başladılar. Yeni üsul tapdılar. Artıq uzun məsafələrə qaz yağını barrellərdə yox, dəmir yollarında olan tankerlərdə daşıyacaqdılar. Standard Oil qaz yağını küçələrdə barrellərdə satırdı. Onu da dəyişdi. Atlı arabaların üstünə yüklənmiş depolardan istifadə etməyə başladı. Beləliklə, istehlakçılar 1 litrlə 25 litr arasında istədikləri miqdarda qaz yağı satın ala bildilər. Günümüzdə belə neft ölçüsü kimi istifadə olunan taxta barrellər isə ölkənin iç bölgələrinə göndərilib o bölgələrdə unudulmağa tərk edildi.

**"Satın ala biləcəyimizin hamısını alaq"**

O günlərə qədər Standard şirkəti işin ən vacib olan neft istehsalı işindən uzaq qalmağa müvəffəq olmuşdu. Neft istehsalı işi çox risqli, çox dəyişkən və çox spekulativ bir iş idi. Ayrıca, bir gün neft quyularının quruya biləcəyi ehtimalı da düşünülürdü. Belə bir vəziyyətdə bir quyunun nə zaman quruyacağını kim bilərdi? Bu ehtimalları nəzərə alan Standard Oil şirkəti, neft istehsalı işinə qarışmamağa, bu risqi istehsalçılara buraxıb, özü, məqbul olan neftayırma, nəqliyyat və bazarlama işlərinə davam etmə qərarı aldı. Şirkətin İdarə Heyətindən bir üzvün 1885-ci ildə Rokfellerə yazdığı məktubda bu sətirlər yer almışdı: "Bizim işimiz emal etməkdir. Qənaətimcə emalçı və ya tacir olan birinin spekulyasiya ilə dolu olan işlərə qarışıb bunun stresini yaşaması axmaqlıqdır."

Bütün dünyanı hörümçək toru kimi bürüyən şöbələrinə baxmayaraq, yenə də şüur altında Standard Oil şirkəti ehtiyatlı hərəkət edirdi. Neft nə zamansa bitə bilərdi.

Torpaqdan gələn bu Tanrı ərməğanının bir gün gəldiyi kimi də ortalıqdan qeyb olacağı düşünülürdü. "Çox istehsal", quyuların istehsal gücünü tükəndirmişdi. Bundan ən böyük zərər görən Pensilvaniya nefti oldu. İnsanlar "Pensilvaniyanın müxtəlif bölgələrində ortaya çıxan bu halın bəlkə də bütün neft bölgələrində olacağı" ehtimalını düşünməyə başladılar. Pitholidə müşahidə edilən yüksəliş və tənəzzül bəlkə də olacaqlara xəbərdarlıq idi? Belə bir hal olarsa əcəba, bu sənaye 10 il daha yaşarmı, yaşamazmı deyə düşündülər. Neft olmasa bütün bu işlər, neftayırma müəssisələri, boru kəmərləri, depo və ehtiyat bazaları, bazarlama sistemləri boşamı çıxacaqdı? Çəkilən zəhmətlər hədər yerəmi gedəcəkdi? Bir çox mütəxəssis neft bölgələrinin yaxınlarda tükənəcəyinə diqqət çəkdilər. 1885-ci ildə Pensilvaniyada dövlət geoloqu olan birisi maraqlı tərəflərə xəbərdarlıq edərək bunları söyləyirdi: "İndiyə qədər müşahidə edilən və ağıllara durğunluq gətirən neft istehsalı müvəqqətidir və məhv olmaqda olan bir hadisədir. Bu hadisə gənclərin gələcəkdə görəcəyi kimi bir gün təbii sonuna çatacaqdır."

Eyni il içərisində Con Archbold adında Standard Oilun səlahiyyətlilərindən birinə, yenə Standard Oilda işləyən bir neft mütəxəssisi Amerikan neft istehsalında bir tənəzzülün qaçınılmaz olduğu xəbərini verirdi. Mütəxəssislərin görüşlərinə görə, başqa yerdə çox böyük neft yataqları tapılacaq və bu, mütləq baş verəcəkdi. Archbold bu sözlərə inandı və vaxt itirmədən Standard Oildakı hissələrini ziyanına, bir dollarlıq hissəni 75-80 sentə satdı. Yenə bu arada Oklahomada neft olduğuna dair işarətlər gəldiyini eşidən Archbold bu sözlərlə reaksiya verdi: "Ağlınızımı qaçırdınız? Missisippinin qərbində çıxan neftin hər qalonunu durmadan içərəm."





Amma elə bu günlərdə Pensilvaniyadan başqa bir yerdə, həm də dramatik şəkildə birdən-birə neft tapıldı. Burası Ohionun şimal-qərbiydi və eyni bölgədə, Findlay civarında əvvəlcə də asanlıqla partlayan növdən təbii qaz çıxdığı məlum idi. O zaman böyük əks-səda doğuran bu qaz yatağına Lima Indiana Fields (Lima Indiana neft bölgəsi) adı verilmişdi. Yeni kəşf edilən bu yataqlar fövqəladə səmərəli idi. O qədər səmərəli idi ki, 1890-cı ildə Amerikanın istehsal etdiyi neftin üçdə biri artıq bu bölgədən çıxarılırdı.

Artıq Rokfeller üçün ciddi düşünmək zamanı gəlmişdi və nəticədə həyatının ən böyük strateji qərarını aldı və doğrudan neft istehsalına girməyə qərar verdi. Bərabər çalışdığı məsləkdaşlarının neft istehsalçılarına antipatiya bəslədiyini bilirdi və özü də onlarla eyni hissləri bölüşürdü. İstehsalçıların macərapərəst olduqlarını, etibar ediləcək adamlar olmadıqlarını, sırf qızıla hücum dövründə olduğu kimi pul qazanmaq hikkəsiylə yaşadıqlarını bilirdi. Ancaq bütün bu mənfiliklərə baxmayaraq, Limada çox böyük fürsətlərin də olduğunun fərqində idi. Beləliklə, xam nefti də böyük çapda nəzarətinə götürəcək, şirkətdə həyata keçirdiyi sağlam inzibati mexanizmi neft istehsalına da tətbiq edəcək, istehsal və inventarizasiyanı bazarın tələblərinə uyğun tarazlayacaqdı. Qısaca, neft istehsalına girməklə şirkətini bazarlamanın dalğalanmalarından, eniş-çıxışlarından və hər şeydən çox neft quyularının qazma sistemindəki nizamsızlıqlardan uzaq tutmaq istədi. Şirkətini qəti qərarlarla bu yönə doğru istiqamətləndirdi.

Pensilvaniyada neftin tükəndiyi artıq bilindiyindən, bu əlamət şirkət üçün bir xəbərdarlıq sayıldı və cəsarətli addımlar atmağa qərarlar verildi. Artıq Lima neft baxımından yeni bir gələcək vəd edir və neft sənayesinin

Pensilvaniya kənarında da inkişaf edə biləcəyi qənaətini oyandırırdı. Ortada yalnız iki böyük maneə vardı. Biri neftin özü idi. Çünki Lima nefti keyfiyyət baxımından Pensilvaniya neftindən çox fərqliydi. Dayanılmaz dərəcədə pis, çürük yumurta qoxusu kimi qoxan bir şeydi. Hətta buna görə də bəziləri Lima neftinə "pis maye, iyrənc qoxulu maye" deyirdi. Üstəlik o günlərdə bu qoxudan təmizləmə texnologiyası da bilinmədiyindən Ohio nefti özünə bazar tapmaqda çətinlik çəkdi. Və bazar sayı məhdud qaldı.

İkinci əngəl isə birbaşa Brodway 26-dan, Rokfellerin özündən daha tədbirli olan iş yoldaşlarından gəlirdi. Bunlar bu işin çox riskli olduğunu düşündülər. Buna baxmayaraq, Rokfeller başlanğıc olaraq şirkətin ala biləcəyi qədər çox neft satın alması və bu neftin dünyanın hər tərəfinə səpələnmiş ehtiyat bazalarında saxlanılması fikrini irəli sürdü və bunda israr etdi. Ohio torpaqlarından fışqıran neft, qiymətlərin aşağı düşməsinə səbəb olacaq qədər çox idi. O qədər çox idi ki, 1886-cı ildə barreli 40 sentə satılan neft, 1887-ci ildə 15 sentə qədər düşmüşdü. Bu arada Rokfellerin iş yoldaşları o anda işə yaramayan nefti indidən satın almaq fikri ilə razı deyildilər. Rokfeller bunlar haqqında sonradan belə söyləmişdi: "İdarə Heyətindəki mühafizəkarlar dəhşət içində əl qaldırır, fikirlərimizə etiraz edir, bu mövzuda azlıqda qalan bizlərlə amansız şəkildə mübarizə aparırdılar." Nəticədə qazanan Rokfeller oldu və Standard Oil tam 40 milyon barrel Lima neftini alıb bazalarına doldurdu. Daha sonra 1888-1889-cu illərdə Herman Frasch adlı bir alman kimyagəri Lima neftindəki çürük yumurta qoxusuna çarə tapdı və beləliklə, bu problem də həll edildi. Alman kimyagərinin kəşfində xam neft mis oksidi ilə reaksiyaya girir və bu yolla neftin tərkibindəki





sulfat təmizlənir, bu da çürük yumurta qoxusu problemini həll edirdi. Qoxusu təmizlənən Lima nefti bu yolla qəbul edilən bir qaz yağı mənbəyi oldu. Rokfeller Lima nefti üzərində oynadığı qumardan bir dəfə daha qələbə ilə çıxırdı. Yeri gəlmişkən, Fraschın işə girişməsi ilə Lima neftinin qiyməti birdən-birə iki dəfə yüksəldi və bir barrelin qiyməti 15 sentdən 30 sentə qalxdı və yüksəlməyə davam etdi. Barrel başına 15 sent ödəyən Standard Oil bu işdən yenə qazanclı çıxdı.

Bu dəfə Rokfeller şirkətini başqa bir sahədə sıxışdırmağa başladı. İstehsalda lazım olan ləvazimatlardan mümkün qədər çox satın almaq. Yeni inkişaf etməkdə olan sənayenin ən başıpozuq, ən nizamsız sinfi istehsalçılar idi. Bu keyfiyyətləri sahib olduqları idarə üsullarında da, iş prinsiplərində də eyni idi. Rokfeller şirkətin işləyiş mexanizminə daha sistemli, daha tutarlı bir mahiyyət qazandırmaq üçün vəziyyətin uyğun olduğunu düşündü. İş yoldaşları əvvəlcə olduğu kimi indi də qərarsız idilər. Və hətta bu fikrə qarşı çıxdılar. Fəqət Rokfeller israrlı idi, qərarından dönmədi. Satılmaq üçün çıxarılan ləvazimatlardan "ala bildiyimiz qədər çox alınacaq" əmrini verdi. İstehsal əvvəlki illərdəki qədər olmasa da, 1891-ci ildə Standard Oil təkbaşına Amerikada çıxarılan bütün neftin dörddə birini çıxarırdı.

Şirkətin bundan sonrakı icraatı İndianada, Miçiqan gölünün sahilində nəhayətsiz qum yığınlarının arasında sıxılıb qalmış Whiting deyilən yerdə dünyanın ən gözəl neftayırma zavodunu qurmaq oldu. Burada Limanın xam nefti işlənəcəkdi. Bu layihədə də yenə Standard Oilun hər zaman prinsip götürdüyü gizlilik siyasətindən istifadə edildi və bütün təşkilatda başdan sona mənimsənildi. Hərçənd hər kəs Standardın ayırıcı müəssisə inşa etdiyini

bilirdi. Amma hansını? "Çikaqo Tribune" qəzetinin bir müxbiri proyektin başında duran, ağzını qıfıl açmayan Marshalldan bir şeylər öyrənmək istəsə də, öyrənə bilmədi. Müxbirin yazdığına görə Marshall "Whitingdə olub bitənlərdən tamamən xəbərsiz olduğunu israr edir. Beş milyon dollarlıq bir zavod da inşa edə bilərlər, donuz əti paketləmə fabriki də tikə bilərlər deyirdi." Marshall başqa bir şey söyləmirdi. İnşaatın donuz əti paketləmə fabriki olduğunu zənn etmədiyini, amma yenə də bundan əmin olmadığını sözlərini əlavə edirdi.

Üstündə durulmalı başqa bir mövzu da qiymət problemi idi. İllər boyu neft bölgələrində və Nyu Yorkda müxtəlif neft dəyiş-düyüşündə neft sertifikatı ticarəti hakim olmuşdu. 1889-cu ildə Standard Oil şirkətinin satın almadakı qolu Yoseph Seep Acentası nefti hamı kimi açıq bazardan, lazımi sertifikatı göstərərək satın alırdı. Birbaşa quyunun başından neft alımında isə ödənilən qiymət o günkü dəyiş-düyüşlərin ən yüksək və ən aşağı qiymət ortalaması ilə olurdu. Bu etibarla Seep, satın alma işini birbaşa, vasitəsiz olaraq istehsalçının özü ilə aparmaq yolunu seçdi. Başqaları da vaxt keçdikcə bu yola müraciət etdilər. 1890-cı illərə yaxınlaşanda dəyiş-düyüş əsasına görə aparılan alım-satım işləri bir xeyli azalmışdı.

Nəticədə 1895-ci ilin yanvar ayında Yoseph Steel yaydığı tarixi bir bəyanatla neft dəyiş-düyüşü dövrünü kökündən qapatdı. "Neft istehsalçılarının diqqətinə" deyə başlayan bəyanatda "dəyiş-düyüşə əsaslanan alış-verişlərin məhsulun dəyərini göstərməyə etibarlı olmaqdan çıxdığını" elan edirdi. Bəyanata görə "bu gündən etibarən hər satın almada ödənəcək qiymət dünya bazarlarının müəyyənləşdirdiyi qiymət qədər olacaqdı. Ancaq bu qiymətin neft dəyiş-düyüş sertifikatında göstərilən qiymət qədər





olması da şərt deyildi." Seep "bu ofisdən hər gün bəyanat yayacağını" da əlavə edirdi. Artıq neft alqı-satqısının 80-90%-nin qiymətini Seep və Standard Oil şirkəti müəyyənləşdirirdi. Həm də təsiredici formada. Amma yenə də qərar verilərkən istehsal və tələbat qaydasına uyğun hərəkət edilirdi. Rokfellerin iş yoldaşlarından biri qiymət müəyyənləşdirmə üsulları haqqında bunları söyləmişdi: "Bizə gələn xəbərlər çox sağlam və etibarlıdır. Bunları dəyərləndirərək ən uyğun olanı üzərində fikir birliyinə gələr, ən uyğun qiymət hansıdırsa cari qiymət olaraq onu da qəbul edərik. Neftin gündəlik qiymətini müəyyənləşdirmədə istifadə etdiyimiz üsul budur."

### Sənayenin qurucusu

Standard Oilun həyata keçirdiyi əməliyyatlar hansı tərəfdən baxılır baxılsın, rəqibləri baxımından qorxunc qarşılanır və onları hirsləndirirdi. Amma yenə də hər şeyə baxmayaraq, Standard Oilun ayırma müəssisələrinin tam inhisarçı olduğundan bəhs etmək doğru olmaz. Neftin 15-20%-i rəqiblər tərəfindən satılırdı və bu nisbət Standard Oil idarəçiləri tərəfindən etirazla qarşılanmırdı. Bazardakı tutarlı mövqeyinin qorunması üçün bazarların ən azı 85%-nin öz əllərində olması kifayət edirdi. Ərazi planlaması və ağac yetişdirmədəki yardımlarından danışılarkən Rokfeller yaşlı zamanlarında belə demişdi: "Həm uşaq yetişdirmədə, həm də başqa sahələrdə işləri böyük çapda tutmağın faydaları özünü göstərir." Bu "başqa sahələr" siyahısında Standard Oil birmənalı şəkildə ondan öndə gedirdi. Rokfeller piramida şəklində işləyən bir neft şirkəti qurmuşdu. Uzun illər sonra Standard Oilun Ohiodakı şöbəsində çalışan işçilərdən biri - ki, gənc bir vəkil kimi Rokfellerlə

işləmişdi - Rokfellerin həyata keçirdiyi böyük islahatlardan söz edərkən belə demişdi: "Hissləri ilə iş yeri və kapitalın yalnız və yalnız mərkəzi nəzarətlə idarə edilə biləcəyi qənaətinə gəlmişdi. Mərkəzdən idarə edilmədə tək məqsəd, məhsulun istehsalçıdan istehlakçıya qədər sistemli bir axışla təmin edilməsi idi. Bu sistemli, iqtisadi baxımdan səmərəli axışa biz bu gün "uzununa birləşmə" deyirik. Mən Rokfellerin bu ifadəni istifadə edib etmədiyini bilmirəm. Ancaq onun bu fikri ifadə edən mənanı bildiyindən əminəm."

Bəzi şərhçilər isə Rokfellerin bu böyük işləri qarşısında daim çaşqın vəziyyətə düşürdülər. Amerika hökumətinin etibarlı bir orqanı olan "Mineral Resources" 1882-ci ildə belə yazırdı: "Şirkətin böyük işin öhdəsindən gəldiyi şübhəsizdir. Bundan başqa, neftayırma işinin lazımsız detallardan təmizlənməsi, ayrı bir iş halına gətirilməsi şirkətin sayəsində olmuşdur. Nəqliyyat işinin sadələşdirilməsi də onun sayəsindədir. Ancaq bütün bu işlərə nə qədər pislik qarışdığını soruşsanız, bu mövzuda dəqiq bir şey söylənə bilməz."

Başqalarının, yəni Standard Oilun rəqiblərinin və xalqın olduqca böyük bir hissəsinin fikirləri isə, müzakirə edilməyəcək qədər mənfi idi. Bir çox istehsalçı və müstəqil neftayırma zavodları Standard Oilun "ruh və bədən" olaraq bütün rəqiblərini pəncələri içinə almaq üçün bir "antipod"a çevrildiyinə inanırdılar. Neft sənayesinin doğuluşundan bəri Rokfellerin nəhayətsiz ticari təzyiqlərindən "yaxşıca tərləyən" aldadılmış və gizlilikdən bezmiş olanlar isə, onun ikiüzlülüklə Tanrıya yalvaran, bunu edərkən insanların yaşamlarını pul və şöhrət naminə məhv edən qansız bir canavar olduğunu söyləyirdilər.

Rokfellerin bəzi iş yoldaşları bu tənqidlərdən narahat





olurdular. Bunlardan biri 1887-ci ildə Rokfellerə yazırdı: "Ticarət tarixində görünməmiş müvəffəqiyyət qazandıq. Adımız bütün dünyada məşhur oldu. İctimaiyyətdəki yerimiz isə heç də yaxşı deyil. Adımız bütün pisliklərin, amansızlıqların, zülmün və rəhmsizliyin təmsilçiləri kimi xatırlanır. Məncə bu, haqsızlıqdır. Bunu yazmaqdan əzab çəkirəm, çünki bütün həyatım boyu ticari işlərimdə şərəfli bir yer tutmağın həsrətini çəkdim."

Rokfellerin özü bu tənqidlərdən çox narahat olmurdu. O, sadəcə kapitalizm ruhu ilə hərəkət edirdi. Standard Oilu müdafiə etmək üçün protestant din adamlarını hərəkətə keçirməyi belə düşündü. Çox vaxt tənqidləri qulaqardına vururdu. Eşitməməzlik edirdi. Qurduğu şirkətin insanlığın inkişaf etməsi, qarmaqarışıqlıq və anarxiya yerinə sabitliyin bərqərar olması, cəmiyyətdə böyük irəliləyişlərə nail olması və qaranlıqlar dünyasına "yeni işıq" ərməğanı gətirməsi yolunda vasitəçi olduğundan tamamilə əmin idi və buna bütün səmimiyyəti ilə inanırdı. Bu inamını sonuna qədər qorudu da. Onun qənaətincə şirkət, kapital, təşkilatçılıq və texnologiya ilə təhciz olunmuş və bir dünya bazarının yaradılması üçün lazım olan çox böyük risklər üstlənmişdi. İdarə Heyətindəki iş yoldaşlarına "kasıb insanlara ucuz işıq verək, bəylər" dediyi söylənilir. Ona görə Standard Oilun qazandığı müvəffəqiyyət gələcəyə doğru atılmış cəsur bir addım mahiyyətində idi. Şirkətdəki aktiv idarəedici vəzifəsindən ayrılıb bir küncə çəkildikdən sonra bir gün belə söyləmişdi: "Artıq bir daha getməmək üzrə birləşmə günü gəldi. Fərdiyyətçilik getdi və artıq geri gəlməyəcək." Bu sözlərinə bunları da əlavə edirdi: "Bu ölkədə gəlmiş getmiş bütün təşkilatlar içərisində Standard Oil ən böyüklərindən biri və bəlkə də ən böyüyüdür."

"Qızıl Dövr" adlı kitablarında Mark Twain və Charles Dudley Wagner, vətəndaş müharibəsindən sonrakı illərə

toxunarkən dövrün xarakterini "nəhəng planların həyata keçirildiyi, hər gün min macəranın var olduğu və... bir anda milyonlarla sərvət qazanma ehtirasının təşfiq edildiyi dövr" olaraq dəyərləndirirdilər. Bir çox əlamətləri ilə Rokfeller dövrün həqiqi simvolu olmuşdu. Standard Oil, "öldürmək üçün adam kəsən" amansız bir rəqib və qurucusu da dünyanın ən zəngin adamı idi. Yalnız bu nöqtə unudulmamalıdır: Neft kralları arasındakı soyğunçu bir çoxu, sahib olduqları sərvəti macərapərəstlik, fırıldaqçılıq və birbaşa hiylə yoluyla əldə etdikləri halda, Rokfeller bu şəkildə hərəkət etməmişdi. O, sərvətini öz əlləri ilə qazandı. Bunun üçün gənc, vəhşi, gələcəyi müəmmalı və təhlükələrlə dolu bir *sənaye sahəsini seçərək, yorulmadan, bezmədən* bu sahəni öz məntiqinə görə yeniləşdirdi. Bu sənaye sahəsini çox yaxşı təşkil edilmiş bir vəziyyətə gətirən, dünyanın işığa olan ehtiyac və aclığını artıqlamasıyla ödəyən, onu tamamilə doyduran odur.

"Planımız" adlandırılan layihə Rokfellerin ən sərhədsiz xəyallarını belə aşıb keçdi. Həm də müvəffəqiyyətlə. Ancaq bu müvəffəqiyyət uzunömürlü olmadı. Çünki Amerikan ictimaiyyəti və siyasətçiləri artıq birləşmə və inhisarçılığa baş qaldırmağa, kibirlilik və iş əxlaqına uymayan davranış olaraq gördükləri bu tutuma qarşı çıxmağa başlamışdılar.

Bu müvəffəqiyyətsizliyə başqa bir şey də səbəbiyyət verirdi: Rokfellerin əlinin çata bilmədiyi qədər uzaqlarda yeni - yeni adamlar və şirkətlər fəaliyyətə keçmişdi. Yeni formalaşan bu şirkətlər Bakı, Sumatra, Burma və daha sonra da İran kimi çox uzaq yerlərdə qurulur, özlərini çətin və inadkar rəqiblər olaraq sübut etdirirdilər. Bunlardan bəziləri təkcə varlıqlarını davam etdirməklə kifayətlənmirdilər. Böyüyüb kök salırdılar həm də.





# 3

## RƏQABƏTƏ AÇIQ TİCARƏT

Dünyanın geri qalan qismi Amerikadan gələcək "yeni işığı" gözləyirdi. Ancaq Avropaya gətirilən ilk neft məhsulları heç də asan olmadı. Gəmi heyəti daşınan malın qaz yağı olduğunu bilən kimi partlayış və ya yanğın ehtimalının olacağını düşünərək qorxur, işi qəbul etmək istəmirdilər. Nəhayət, 1861-ci ildə Pensilvaniyadakı bir nəqliyyatçı bu problemə maraqlı bir çözüm yolu tapdı. İşçi kimi götürdüyü dənizçiləri əvvəlcə içirdib sərxoş edir, sonra da zor gücünə gəmiyə gətirirdi. Sərxoş dənizçilərin idarə etdiyi gəmi yükü sağ-salamat Londana çatdıra bildi. Beləliklə, dünyada ticarət qapısı açılmış və Amerikan nefti dünyanın hər yerində özünə yeni bazarlar tapmışdı. Artıq bütün dünyada insanlar qaz yağından istifadə etmək istəyirdi. Bu səbəblə ta başından bəri, neftin beynəlxalq bir iş olduğunu söyləmək yanlış olmaz. Əgər Amerikan neft sənayesi dünyanın başqa yerlərində bazarlar tapmasaydı, heç bir zaman bu günkü qədər böyüyə bilməz və bu günkü vəziyyətə gəlməzdi. Avropanın Amerikan neftinə olan tələbatı sürətlə artır və bunda da bəzi faktorlar təsiredici rol oynayırdı. Sənayeləşmə, iqtisadi böyümə, şəhərləşmə və Avropa qitəsini haradasa bir nəsil dəyişimi müddətində təsirləyən qatı və maye yağ əksikliyi bunlardan başlıcalarıdır. Bazarların çoxunun bu dərəcə sürətli inkişaf etməsində Avropada işləyən Amerika konsullarının rolu unudulmamalıdır. Bu konsullar "Yankee icadı" (Amerikanın şimal-şərqində yaşayanlara verilən ad) adlandırılan nefti, gələcəkdə

müştəri olması ehtimal olunan adamlara mənimsətmək üçün əllərindən gələni edir, hətta bəzən qiymətini ciblərindən ödəyib nefti satın alır və müştərilərə paylayırdı.

Artıq bu maddəyə tələbat dünya çapında idi. Bunun nə demək olduğunu düşünək. İşıqlandırmada bütün dünya tərəfindən qəbul edilən bu maddə əsasən, Amerikada və sadəcə Pennsilvaniya əyalətində çıxarılırdı. Yeri gəlmişkən, sonrakı illərdə xam maddə istehsalını əlində tutan bölgələrdən heç biri Pensilvaniya səviyyəsinə çata bilmədilər. Bu arada ixracatçılıq işi inkişaf etməyə başlamışdı. Hətta ixracat işinin həm yeni inkişafda olan Amerikanın yeni neft sənayesi baxımından, həm də milli iqtisadiyyat yönündən hardasa bir gecədə son dərəcə önəm qazanmışdı. 1870 və 1880-ci illərdə Amerikadan çıxarılan neft xeyli artmışdı. Bu ölkədən çıxarılan neftin yarıdan çoxu qaz yağı ixracatı kimi xaricə göndərilirdi. Qaz yağı Birləşmiş Ştatların ixrac malları arasında dəyər baxımından ən öndə gələnlər içində dördüncü yerdə idi. Məmul olan əşyalar arasında isə birinci yeri tuturdu. Bu maddənin sürüldüyü ən böyük bazar isə Avropa qitəsiydi.

1870-lərin sonunda bu sənaye sahəsində hegemonluq artıq sadəcə Pensilvaniyada yox, tək bir şirkətin əlindəydi və bu şirkət də Standard Oildan başqası deyildi. Bu illərdə ixrac edilən qaz yağının ən az 90 faizi Standard Oil şirkəti tərəfindən istehsal edilir və bazarlanırdı. Tətbiq olunan ixracat sistemində Standard Oilun rolu, ixracatın başladığı hər hansı bir Amerikan limanında bitirdi və Standard Oil bundan məmnun idi. Sağlam əsaslara dayandığını bilir və özünə inanırdı. Bu səbəblə də artıq Amerikan prinsiplərinə əsaslanıb dünyanı fəth etməyə hazırlaşırdı. Həqiqətən də Con D.Rokfeller sözünün üstündə dayanmış, "planımız" dediyi layihəni bütün dünyaya tətbiq etməyə müvəffəq





olmuşdu. Bundan başqa, şirkət istehsal etdiyi məmulatlardan böyük qürur duyurdu. Standard Oilun xarici ölkələrdə işləyən təmsilçilərindən biri belə deyirdi: "Neft, vahid mənbədən idarə olunan gəlmiş-getmiş bütün sənaye sahələri içərisində, mədəni olan və olmayan ölkələrə, ən ucqar yer və bucaqlara qədər sızmış, özünü qəbul etdirmişdir. Başqa sənaye sahələrindən heç biri bu mövzuda onun qədər müvəffəq olmamışdır."

Amma bütün bunlara baxmayaraq, potensial yabançı rəqabət təhlükə siqnalı verirdi. Və... Broadway prospekti-26 ünvanında oturanlar buna əhəmiyyət vermədilər. Onlara görə bu cür bir rəqabət, ancaq yeni xammaddə qaynaqlarının tapılması və həmin maddələrin daha ucuz və bol olması şəraitində mümkün ola bilərdi. 1874-cü ildə yayımlanan Pensilvaniya geoloji raportu, böyük bir qürurla, bu əyalətdə istehsal olunan neftin dünya bazarlarına necə hakim olmasından yazırdı. Burada üstündə çox da diqqətlə dayanmadan "başqa ölkələrdə aparılan qazıntılar nəticəsində, oralardan neft çıxarmı, əcəba?" mövzusuna da toxunulurdu. Geoloji raport bunu uzaq bir ehtimal kimi dəyərləndirir, "bu bizi olsa-olsa çox irəlidə maraqlandıra bilər" deyirdi. Raportu yazanlar Amerikanın hakim rolundan o dərəcə əmin idilər ki, mövzunu o gün üçün daha çox eşələmək, araşdırmaq ehtiyacını hiss etmədilər. Ancaq səhv edirdilər.

## Ceviz pulu

"Yeni işıq" istəyən bazarlar içərisində ən ümid verən ölkə, sənayeləşməyə təzə başlayan və süni işığın onun üçün xüsusi əhəmiyyət daşıdığı qosqoca rus imperiyası idi. Ölkənin paytaxtı Sankt-Peterburq şəhəri çox şimalda yerləşirdi. Qış aylarında axşam tez gəlir, şəhər sadəcə 6 saat gün işığı görürdü. Buna görə də Amerikan qaz yağının Rusiya və Sankt-Peterburqa girməsi erkən bir tarixdə, 1862-ci ildə oldu və girər-girməz də dərhal geniş çevrələrcə qəbul olundu. O günə qədər Peterburq don yağı ilə keçinirdi. Amerikan qaz yağının gəlişindən sonra Peterburq xalqı qaz yağı lampasından istifadə etməyə başladı. O qədər ki, 1863-cü ilin dekabr ayında Amerikanın Sankt-Peterburq konsulu "Peterburqun gələcək illərdə Amerikadan get-gedə artan miqyasda qaz yağı tələb edəcəyini, bunun dəqiq olduğunu və bütün hesabların buna görə tutulmasını" məmnuniyyətlə bildirirdi. Nə yazıq ki, bunları söyləyərkən imperiyanın uzaq və girilməsi mümkün olmayan künc-bucağında baş verəcək dəyişiklikləri diqqətə almamışdı. Bu dəyişikliklər yalnız rus bazarını Amerikan neftinin üzünə bağlamaqla kifayətlənmədi, ayrıca Rokfellerin dünya çapındakı planlarını da alt-üst etdi.

Abşeron yarımadasında bəzi neft sızıntılarının olduğu rəvayətləri yüz illərdən bəri söylənilirdi. Bu yarımada Qafqaz dağlarının bir parçası olaraq Xəzər dənizinin sahillərinə qədər uzanır. XIII əsrdə Marko Polo Bakı yaxınlarında yağ çıxan bir mənbədən söz edildiyini eşitdiyini bəhs edir. Bu yağın yeməkdə istifadəyə uyğun olmadığını, ancaq "yandırma işində" işə yaradığını, dəvələrdəki uyuz xəstəliyini müalicə etdiyini yazır. Bakı, eyni zamanda





Zərdüşt məzhəbindən olanların tapındıqları "əbədi atəş sütunu" torpaqları idi. Əslində "sütun" deyilən şey, neft qalıqlarını əhatə edən və kirəc daşının yarıqlarından sızıb çıxan və asanlıqla alışan qazın səbəb olduğu bir reallıqdan ibarət idi.

Bakı XIX əsrin ilk illərindən etibarən Rusiya imperiyasına bağlanmış bir xanlığın parçası idi. O zamana qədər burada ibtidai də olsa, bir neft sənayesi doğulmuş və inkişaf etməyə başlamışdı. 1829-cu ilə qədər əllə qazılan quyuların sayı 82 idi. Amma səmərəlilik çox az idi. Gərək bölgənin geridə qalması və yeniliklərdən uzaq olması üzündən, gərəksə xırda neft sənayesini dövlət inhisarına götürüb idarə edən yıxıcı, zalım və qabiliyyətsiz Çarlıq inzibatçılığı səbəbilə neft sənayesinin inkişafı təhlükəli şəkildə məhdudlaşdırılmışdı. Amma 1870-ci illərin əvvəllərində rus hökuməti inhisar sistemini ortadan qaldırıb bölgəni özəl təşəbbüsə və rəqabətə açdı. Nəticədə özəl təşəbbüs partlayışı oldu. Əl ilə qazılan neft quyusu dövrü artıq qapanmışdı. İlk quyular 1871-72-ci illərdə qazıldı və 1873-cü ilə qədər 20-dən çox neftayırma zavodu fəaliyyətə başladı.

Qısa müddət sonra Robert Nobel adlı bir kimyagər Bakıya gələcəkdi. Robert, məşhur isveçli mucid Immanuel Nobelin oğlu idi. Immanuel 1837-ci ildə Rusiyaya köçmən olaraq gəlmiş və gələr-gəlməz hərbi idarə tərəfindən sualtı mədənçilikdəki kəşflərinə görə hörmət və ehtiramla qəbul edilmişdi. Daha sonra əhəmiyyətli böyüklükdə bir sənaye şirkəti quran Immanuelin bu cəhdi rus hökumətinin qərarsızlığı, fikir dəyişdirib yerli sənayedən yabançı sənayeyə keçməsi ucbatından boşa getdi. Zamanla Nobel qardaşlarından biri olan Ludwig atasının qurduğu və artıq xarabalıqdan başqa bir şey olmayan qalıntılar üzərində yeni və geniş əhatəli, silah emal edən bir şirkət qurdu. Ayrıca

Ludwig "Nobel təkərləyi" dediyi və xarab vəziyyətdəki Rusiya torpaqlarına çox uyğun gələn təkərlək icad etdi. Qardaşlardan bir başqası Alfred adlı gənc isə həm kimya, həm də maliyyə sahələrində çox qabiliyyətli idi. Bu qabiliyyəti sayəsində Sankt-Peterburqdakı müəlliminin də təşfiqi ilə nitroqliserin üzərində çalışmalar aparmış və nəticədə bütün dünyada tanınan və özünün də Parisdən idarə etdiyi böyük bir dinamit imperiyası qurmuşdu. Uşaqlardan ən böyük olan Robert isə şans baxımından qardaşları kimi deyildi. Bir çox işlə məşğul olmuş, amma müvəffəqiyyət qazanmadığı üçün istəməyə-istəməyə qardaşı Ludwiglə çalışmağa başlamışdı.

Ludwig silah emalı üçün rus hökuməti ilə önəmli bir saziş imzalamışdı. Silahların istehsalı üçün ağaca ehtiyac olduğundan, lazımi materialları daxildən təmin etmək məqsədilə qardaşı Roberti rus cevizi, qoz ağacı axtarmaq üçün cənuba, Qafqaza göndərdi. 1873-cü ilin mart ayında Robert Bakıya gəldi. Bakı o zamanlar Şərq və Qərb arasında böyük bir ticarət mərkəzi olduğu halda, minarələri, İran şahlarına aid köhnə muzeyləri, tatar, iranlı və ermənilərdən ibarət əhalisi ilə hələ də bir Asiya ölkəsi sayılırdı. Buna baxmayaraq, son zamanlarda neft sənayesində əldə olunan nailiyyətlər buraya böyük dəyişikliklər gətirmişdi. Robert Bakıya ayaq basdığı ilk gündən etibarən bu şəraitin təsirinə düşdü və o da başqaları kimi neft xəstəliyinə yoluxdu. Nəticədə atası ilə məsləhətləşmədən qardaşların ən böyüyü olduğu və bunun bəzi imtiyazlar gətirdiyinə inanaraq, Ludwigin ona qoz ağacı satın almaq üçün verdiyi 25 min rublu, yəni "ceviz pulu"nu neft üçün xərcləyir və ceviz ağacı əvəzinə bir zavod satın alırdı. Robertin bu hərəkəti ilə Nobellər praktiki olaraq neft işinə girmiş oldular.





## Rus neftinin inkişaf və tərəqqisi

Ludwigin pulu ilə neftayırma zavodu satın alan Robert, gecikmədən bu zavodu modernləşdirmək və daha səmərəli vəziyyətə gətirmək üçün fəaliyyətə başladı. Qardaşının da göndərdiyi əlavə pul dəstəyi ilə çox keçmədən özünü Bakının ən qabiliyyətli sahibkarı kimi sübut edib təsdiqlədi. 1876-cı ilin oktyabr ayında Nobellərin ilk "işıqlandırma yağ" partiyası Sankt-Peterburqa göndərilirdi. Elə o il olanları öz gözləriylə görmək üçün Ludwig də Bakıya gəldi. İmperiyanın idarə sistemi haqqında olduqca məlumatlı olan Ludwig, Çarın qardaşı və Qafqaz canişini, eyni zamanda, bölgə valisinin gözünə girmək üçün gecikmədi. Ludwig sənaye sahəsində böyük bir lider idi və Rokfelleri nümunə götürüb bir plan tutub həyata keçirəcək səviyyədə idi. Buna görə də oturub neftçiliyin hər yönünü tək-tək araşdırmağa başladı. Neftçilik sahəsində Amerikanın təcrübələrini və onun haqqında öyrənilməli şeylərin hamısını öyrəndi. Elm, yenilik, iş planlaması qavramlarını səmərəlilik və qazanc anlayışı ilə bir araya gətirdi. Bütün bu macəraya öz şəxsi öndərliyi və diqqətini də əlavə etdi. Beləliklə, çox qısa bir zaman içərisində rus nefti Amerikan neftinə gəlib çatmış və hətta qısa bir müddətə onu ötüb keçmişdi. Nəticədə Ludwig Nobel adlı bu isveçli "Bakının neft kralı" olmuşdu.

Şəhərlərarası nəqliyyat və yükdaşıma o günlərdə ciddi bir problem olmuşdu. Neft öncə taxta barrellər içərisində Bakıdan göndərilir, uzun və əziyyətli bir yolçuluqdan sonra Həştərxana çatdırılırdı. Oradan Volqa çayına qədər məşəqqətli daşınma prosesi keçir, nəticədə bir neçə qatar dəyişikliyindən sonra təkrar daşınmaq üçün eyni dəmiryol

stansiyasına gətirilirdi. Buna görə də neft daşınması çox bahalıya başa gəlirdi. Barellər də bahalıydı. Bölgədə kifayət qədər ağac olmadığı üçün barrel istehsalında istifadə olunan taxtanın imperiyanın ucqar və uzaq regionlarından gətirilməsi lazım idi. Ya da Amerikan barreli təmin olunmalıydı. Ludwig bu mövzu haqqında da düşündü və barrel problemini də həll etdi. Bu, bütün ətrafda əks-səda doğurdu. Ludwigin barrel probleminə tapdığı həll yolu, nefti gəminin içində düzəldiləcək böyük çənlərdə "böyük partiya"larla daşıma yolu idi.

Bu fikir əvvəlcə çox normal və rəğbətlə qarşılansa da, praktikada tarazlıq və təhlükəsizlik baxımından xeyli problem yaratdı. "Böyük partiya" neft daşıyarkən param-parça olan bir gəminin kapitanı bu haqda aşağıdakıları söyləyirdi: "Parçalanma bu səbəbdən meydana gələ bilər: Mənə görə neftin hərəkət sürəti, suyun hərəkət sürətindən daha çoxdur. Pis və fırtınalı havalarda gəmi irəliyə doğru sürükləndiyindən, neft hərəkətə gəlir və gəmini dalğalara doğru itələyir." Ludwig tarazlama probleminin də həlli yolunu tapdı və bu işi tankerlər vasitəsi ilə davam etməyə qərar verdi. Dünya neft sənayesinin ilk tankerini sifariş edirdi. Bu tanker "Zoroaster" adlanırdı. 1878-ci ildə tanker Xəzər dənizində istifadəyə verildi. Beləliklə, 1890-ların ortalarına gəlindiyində artıq Ludwig Atlantikada özünü sübut etmiş və neft daşımaçılığında böyük bir inqilabı həyata keçirmişdi. Bununla bərabər, Bakıdakı neftayırma zavodunu elmi yöndən dünyanın ən mükəmməl zavoduna çevirmək üçün mütəmadi səylər göstərirdi. Yeri gəlmişkən, dünyada komandasına professional bir neft geoloqu daxil edən ilk şirkət onun şirkətidir.

Ludwigin qurduğu böyük və tam birləşmiş neft şirkəti qısa zamanda rus neft ticarətini əlinə keçirmişdi. Nobel





qardaşlarının qurduğu "Petroleum Producing Comrany" (Neft istehal şirkəti) bütün imperiyaya səpələnmiş neft quyuları, boru xəttləri, neftayırma zavodları, tankerləri, ehtiyat depoları və özünə aid olan dəmir yolları, pərakəndə satış şəbəkəsiylə bunu sübüt edirdi. Şirkətin bir də çoxmillətli fəhlə təşkilatı vardı. Bu təşkilat birmənalı olaraq Rusiyadakı bütün fəhlə təşkilatları arasında ən yaxşı işləyən qurum idi. Bu təşkilatın üzvləri özləri ilə qürur duyurdular və özlərini "soylular" adıyla təqdim edirdilər. Ludwig Nobelin qurduğu neft krallığı ilk 10 il içərisində fövqəladə sürətlə inkişaf etməkdə idi. Bu inkişaf bu sözlərlə tərif edilirdi: "Bütün XIX əsr boyunca iş təşəbbüsü sahəsində qazanılan ən böyük qələbələrdən biri."

1874-cü ildə 600 min barrelə çatmayan rus xamneft istehsalı, bundan sonrakı 10 il müddətində 10.8 milyon barreli keçmişdi. Bu isə Amerikan istehsalının təxminən üçdə biri deməkdi. 1880-ci illərin əvvəllərində Bakının yeni sənaye mərkəzi olan və "Black Town" (Qara şəhər) adlandırılan bölgəsində təxminən 200 neftayırma zavodu fəaliyyət göstərirdi ki, bu da ehtiyaca cavab verən bir miqdardı. Zavodların ətrafa yaydığı qara rəngli buludlar və qoxulu neft dumanı səbəbilə o günlərdə "Qara şəhər"də yerləşən bir qəsəbəni "soba bacası"na bənzədir, qəsəbə həyatını isə "soba bacasına tıxanmış olmaq" sözləriylə ifadə edirdilər. Bax, Nobel qardaşlarının hakim olduğu və get-gedə genişləyən sənaye bu idi. Şirkətləri artıq bütün Rusiyada istehsal edilən qaz yağının yarısına hakim olduğundan, Nobel qardaşları öz hissədarlarına qələbə qazanmışcasına "artıq Amerikan qazyağının Rusiya bazarlarından tamamilə çıxardıldığını" söyləyirdilər.

Ancaq zamanla qardaşlar arasında münaqişələr başladı. Robert, Ludwigin ehtiyat bazalarını onun əlindən almasından məmnun deyildi. Buna görə də hirslənib İsveçə

qayıtdı. Ludwigə gəlincə, o, tam mənasında bir qurucu idi və durmadan böyüyüb genişlənmə ehtirası ilə alışıb yanırdı. Ludwigin bu cəhdləri Nobel qardaşlarının mütəmadi olaraq yeni sərmayə istədiyini və sərmayəyə qarşı ac olduqlarının bir sübutu idi. Qardaşlardan Alfred, içlərinin ən tədbirli olanı idi. Bir vaxtlar atasının həddindən çox yayılma və həddindən çox borclanma səbəbindən necə müflis olduğunu çox yaxşı xatırlayırdı. Ona görə də qardaşını bu ifratçılıqlarına görə danlayır və bunları söyləyirdi: "Səni ən çox bu ana mövzuda tənqid edirəm: layihəni əvvəlcədən qurub elan edir, haradan nə çıxır, nə çıxacaq, onun haqqında fikirləşmirsən. Hər şeyi sonraya buraxırsan." Alfred yeni kapital əldə etmək üçün Ludwigə şirkət hissələri ilə birjada spekulyasiya etmək nəsihətini verdi. Ancaq Ludwig qardaşına "bazarda spekulyasiya etmək pis peşədir. Spekulyasiyayla məşğul olmaq, işi - işdən başı çıxmayan əllərə təslim etməkdir" sözlərilə cavab verdi. Aralarındakı fikir fərqliliyinə baxmayaraq, Alfred yenə də qardaşına həyati əhəmiyyətli köməklər etdi. Bunu həm öz pulunu ortaya qoyaraq, həm də başqa yerlərdən borc pul taparaq təmin etdi. Bunların içində Lion Kredit Bankından alınan böyük miqdarda kredit də vardı. Bu pulun təminatı çıxarılacaq neftin göstərilməsi idi. Gələcəkdə çıxarılacaq neft təminat göstərilərək bankdan borc pul götürülürdü. Bu baxımdan, bir ilk hadisə həyata keçirilirdi. Bu, əhəmiyyətli hadisə idi.

Nobel qardaşlarının rus imperiyası sərhədləri daxilində neft sənayesinə hakim olduqları doğrudur, ancaq bu sərhədlərdən kənarda rus nefti heç bir əhəmiyyət daşımırdı. Ölkənin coğrafiyası nefti imperiya sərhədləri içərisinə həbs etmişdi. Məsələn, Baltik sahillərindəki bir limana yetişmək üçün "fasilələrlə 2.000 mil məsafəlik dəniz və bütün Qərbi Rusiya boyunca quru yollarından keçmək lazımdı." İşləri





daha da çətinləşdirən çətin qış şərtləri idi. Oktyabr-mart ayları arasında qaz yağının Xəzər dənizində daşınması uzun zəhmət tələb edirdi. Buna görə də zavodların çoxu ilin yarısını işləmir, işləri rəsmən dayandırırdı. Neft bölgələrinin bəzilərinə heç girmək mümkün olmurdu. Məsələn, Tiflisə 8.000 mil uzaqlıqda yerləşən Amerikadan qaz yağı idxal etmək, 341 mil qərbdə yerləşən Bakıdan idxal etməkdən ucuza başa gəlirdi.

Bundan başqa, Rusiyada bazarlama etmək bəzi məhdudlaşdırmalara bağlıydı. Əhalinin əksəriyyətini təşkil edən kəndlər üçün işıqlandırma böyük bir ehtiyac deyildi, ən azından pul verib satın ala biləcəkləri bir şey deyildi. Bu səbəblə Bakıdakı istehsalçılar istehsalın get-gedə çoxalmasını görüb, gözlərini ehtirasla imperiyanın sərhədlərindən kənara çevirməyə məcbur oldular. Nobellərin hakim olduğu şimal yoluna alternativ axtaran yeni istehsalçılardan ikisi - Bunge və Palashkovsky hökumətin icazəsi ilə yeni bir dəmiryolu xəttinin inşasına girişdilər. Bu dəmiryolu Bakıdan başlayıb qərb yolu ilə Xəzər üzərindən Batumiyə qədər uzanacaqdı. Batumi, Türkiyə ilə aparılan müharibə nəticəsində Rusiyaya birləşdirilmişdi. Qara dənizin sahilində yerləşən bir liman şəhəri idi. Ancaq inşaatın yarısında neftin qiyməti düşdü və Bunge ilə Palashkovskynin pulu qurtardı. Pulsuz qaldılar. Vəziyyətləri həqiqətən acınacaqlı və ümidsiz idi.

Ancaq yenə də bir yol tapıldı. Bu dəfə dəstək, gördüyü savaşlar, hökumətlər və sənayelər arasında Avropanın yeni dəmir yollarından bir çoxuna maliyyə yardımı göstərən bir ailənin fransız kökənli qolundan gəlirdi. Bu ailənin Adriatikdə, Fiumedə bir neftayırma zavodu vardı. Zavodda ucuz qiymətli rus xammadəsi emal etmək istəyirdilər. Bunge və Palashkovskynin başladıqları dəmir yolunun tamamlanması üçün lazım olan borc pulu verdilər.

Qarşılığında da Rusiyadakı neft müəssisələri üzərində ipoteka qoydular. Bundan başqa, rus neftinin cazib qiymətlərlə Avropaya nəql edilməsi üçün lazımi düzənləmələr də gerçəkləşdirildi. Bu ailə məşhur Rotşild ailəsi idi.

O günlərdə Rusiyada yəhudi irqindən olanlara qarşı qızğın bir düşmənçilik hökm sürürdü. 1882-ci ildə imperatorun qərarı ilə musəvilərin imperiya sərhədləri içərisində müəyyənləşdiriləndən daha çox torpaq alması və ya kirayələməsi qadağan olunmuşdu. Rotşildlər isə dünyadakı ən məşhur musəvi ailəsi idi. Fəqət mövzu onlar olduğu üçün Rotşildlər olayında imperatorun qərarı diqqətə alınmadı. Rotşildlərə görə, rus nefti parisli Rotşildlərin layihəsiydi. Xüsusilə də Baron Alphonsenin. Çünki Baron, Fransanın 1871-ci ildə Prussiyaya məğlubiyyətindən sonra ortaya çıxan təmir borclarının ödənməsini təmin edən şəxs idi. Baron Alphonseyə bütün Avropanın ən məlumatlı və ən güclü adamlarından biri gözüylə baxılırdı və o, qitənin ən gözəl bığlarına sahib kişisi hesab edilirdi. Kiçik qardaşı Baron Edmond isə musəvilərin Fələstinə yerləşməsi üçün maliyyə dəstəyi göstərmişdi. Rotşildin verdiyi kreditlərin sayəsində Bakı dəmir yolu 1883-cü ildə tamamlandı və bunun nəticəsində Batumi haradasa bir gecənin içində dünyanın ən əhəmiyyətli neft limanlarından biri oldu. 1886-cı ildə Rotşildlər Xəzər dənizi və Qara dəniz Neft şirkətini qurdular və şirkətə rus dilində sözlərin baş hərfləriylə "Bnito" adını verdilər. Depolama və bazarlama müəssisələrini isə Batumidə qurdular. Çox keçmədən Nobel qardaşları da onlara uyacaqdı. Beləliklə, Bakı-Batumi dəmir yolu rus neftinə Qərbin qapılarını açmış oldu. Bu, eyni zamanda dünya neft bazarları arasında çətin bir 30 illik savaşın da başlanğıcı idi.





## Standard Oila qarşı üsyan

Rotşildlərin səhnəyə çıxmasıyla Nobel qardaşları birdən-birə böyük bir rəqiblə qarşı-qarşıya gəlirdilər. Bu rəqib qısa bir müddət ərzində Rusiyanın ən böyük ikinci neft qrupunu qurmuşdu. Hərçənd ki, bu iki qrup zaman-zaman bir araya gəlib birləşmə mövzusunu müzakirə edirdilər, fəqət "dostca niyyətlər" ifadəsindən başqa aralarında heç bir ortaq nöqtə tapa bilmədiklərindən bir-birlərinin atəşli rəqibi olmaqda davam edirdilər. Neftçilər arasında niyyətləri tamamən düşməncə olanlar da vardı. Standard Oil rus neft sənayesini görməzlikdən gələ bilməzdi. Çünki artıq rus qaz yağı Avropanın bir çox ölkəsində Amerikanın aydınlatma yağlarıyla yarışacaq səviyyəyə gəlmişdi. Standard Oil görməməzlik etmədi. Tam əksinə, əcnəbi bazarlar və yeni rəqiblər haqqında gizli məlumatlar toplamaq cəhdlərini yoğunlaşdırdı. Bunun sayəsində Broadway prospekti - 26 ünvanında yerləşən Standard Oil qərargahına Amerikanın dünya ölkələrindəki konsulluqlarından belə xəbər raportları axmağa başladı. Gələn məlumatlar cansıxıcı idi. Məlum olurdu ki, Standard Oil, əlində tutduğu neft hakimiyyətinə daha çox etibar edə bilməyəcəkdi.

Standard Oilun İdarə Heyəti təxminlərlə düşündü ki, çar hökuməti Ludwig Nobel müəssisələrinin hamısını satın almağa heç bir zaman icazə verməyəcək. Amma ən azından Nobel hissələrindən yüklü bir miqdarda satın ala bilərdilər. Bu arada möhtəşəm Ludwigi də eynilə Amerikadakı ən yaxşı rəqiblərinə tətbiq etdikləri kimi, öz İdarə Heyətlərinin tərkibinə qatacaqdılar.

1885-ci ildə Standard Oilun ən üst səviyyəli diplomatı

sayılan W.N.Libby adında biri Sankt-Peterburqda Nobel qardaşları ilə bu mövzuda bir görüş keçirdi. Ancaq Ludwig Nobel təkliflə maraqlanmadı. Layihəyə "bəli" deməkdənsə, öz bazarlama şəbəkəsini daha da qüvvətləndirməyi və Avropada satış təşkilatı qurmaq yolunu seçərək çalışmalarını bu istiqamətə yönəltdi. Əslində başqa bir alternativi də yox idi. Rus neft istehsalının inanılmayacaq sürətlə artıb-çoxalması, Nobel və Rusiyada fəaliyyət göstərən digər neft istehsalçılarını imperiyadan kənarda yeni bazarlar axtarmağa sövq etdi. Bakı şəhərində heyrətverici neft fışqıran yataqlar kəşf olunmuş, bunlara "Kormilitza" (İslaq dadı), "Qızıl bazar" və "Şeytan bazarı" kimi adlar verilmişdi. Bunlardan "Drujba" (Dostluq) adındakı neft yatağı 5 ay müddətə gündə 43 min barrel neft vermişdi. Çıxan neftin çoxu ziyan olub gedirdi. 1886-cı ildə yataq sayı 11-i keçmişdi. Sonradan yeni istismara verilmiş torpaqlarda bir-birinin ardınca yeni-yeni yataqlar ortaya çıxdı. Bütün Rusiyada istehsal olunan toplam neft miqdarı 1879-1888-ci illər arasında 10 dəfə artmış, 23 milyon barrelə çatmışdı. Bu, Amerikadakı istehsalın beşdə dördündən çox idi. 1880-ci illərdə neft istehsalı həddindən çox olduğundan, onun yeni bazarlarda özünə yer tapması artıq məcburiyyət olmuşdu.

Başqa bir tərəfdən, Standard Oil, Nobelin Avropada yeritdiyi bu yeni satış kampaniyasından narahat olmuş, Bakıda get-gedə çoxalan istehsal qarşısında da panikaya qapılmışdı. Buna görə də mənasız mübahisələrdənsə bəzi önləyici tədbirlər görməyə qərar verdi. İlk olaraq 1885-ci ilin noyabrında Amerikada rəqiblərinə hücum edəndəki kimi qiymətləri aşağı saldı. Avropa ölkələrində yerləşən təmsilçiləri vasitəsilə Rusiya qaz yağının keyfiyyəti və təhlükəliliyi haqqında şübhə doğurucu şayiələr yaydı. Sabotaj





və rüşvət yollarından belə istifadə etdilər. Ancaq Standard Oilun apardığı bu hücumlara baxmayaraq, Nobel və Rotşildlər şiddətlə mübarizəyə davam edib sonunda müvəffəq oldular. Standard Oilun iradəedicilərinə artıq hər şey aydın olmuşdu. Edəcək bir şey qalmamışdı. "Rus rəqabəti" deyə qiymətləndirdikləri bölgə, dünya xəritəsinin üzərində getdikcə genişlənirdi. Onlar isə sadəcə bu hadisəyə tamaşa etməklə kifayətlənməyə məcbur idilər.

Nyu York şəhəri, Broadway prospekti - 26 ünvanındakı bəzi Standard Oilun İdarə Heyəti üzvləri, şirkətin xarici ölkələrdə özünə aid bazarlama şirkətləri qurmasını tələb edirdilər. Və buna görə də şirkətə təzyiq göstərirdilər. Yerli bazarlara nisbətən xarici bazarlar daha sərfəli idi. Və bu üsulla rəqiblərlə daha təsirli bir şəkildə yarışacaqlarına inanırdılar. Nefti tankerlərlə nəql etmə üsulu artıq inkişaf etmişdi. Bu sahədə böyük partiyalarla nəql etmə daha sərfəli olacaq deyə düşünürdülər. Hətta Con D.Rokfellerin, İdarə Heyətinin gec qərar verməsinə hirslənərək, 1885-ci ildə bu tənqidi sətirləri qələmə aldığı söylənir:

*"Nə qocalmışıq, nə də yatırıq*
*Taleyimizə inandığımız bir ürəklə*
*Qalxıb hərəkətə keçək*
*Müvəffəq olaq,*
*Arayıb axtaraq,*
*Çalışmağı və gözləməyi öyrənək".*

1888-ci ildə Rotşildlər yeni bir addım atdılar və İngiltərədə özlərinə aid idxalat və bazarlama şirkəti qurdular. Bu mövzuda Nobel qardaşları da onları təqib etdilər və eyni şeyi təkrarladılar. Nəticədə Standard Oil sanki elektrik çaprmış kimi bir sürətlə hərəkətə keçərək xarici

ölkələrdə ilk şərikli şirkətini qurdu. "Anglo American Oil Comrany" adlı bu şirkətin quruluşu Rotşildlərin Britaniyada qurduqları yeni təşəbbüsün rəsmən açılışından tam 24 gün sonra gerçəkləşdi. Standard Oil ayrıca, Avropa qitəsində daha başqa yeni ortaqlıqlar açmağa davam etdi. Bu yeni açılan ortaqlıqların mülkiyyəti bölgənin irəlidə gedən bazarlamaçıları ilə paylaşdırılırdı. Bu minvalla Standard Oil artıq həqiqi bir "çoxmillətli" şirkətə çevrilmişdi.

Ancaq Standard bu yolla da rəqiblərini dayandıra bilmədi. Məsələn, Rotşildlər Rusiyanın xırda istehsalçılarına davamlı olaraq borc pul verir, qarşılığında isə onların əldə etdiyi istehsal üzərində haqq sahibi olurdular. İstehsal olunan maddəni daha ucuz qiymətlərə əldə edirdilər. Bu arada Bakı-Batumi dəmir yolu böyük çətinliklərlə qarşılaşmışdı və bundan çox böyük sıxıntı çəkirdi. Bunun səbəbi çox yüksəklikdə olan təpənin 78 mil məsafəlik qismində keçişin fövqəladə çətinliklə başa gəlməsi idi. Bu maneə səbəbi ilə hər yükləmədə sadəcə yükləniləcək malın yarısına yer olurdu. Ancaq 1889-cu ildə Nobel qardaşları dağların içindən keçilərək inşa edilən 42 mil uzunluğundakı bir boru xəttini tamamladılar. Açılan tunel vəziyyəti bir o qədər də dəyişdirmədi. Bu tunel bircə səbəbdən faydalı oldu. O da o idi ki, qardaşlardan Alfredin sahib olduğu dinamit miqdarının 400 tonu istifadə edilmişdi. Yeni açılan bu cığırla böyük irəliləyişlər də oldu. Standard Oilun bütün iplərini əlində tutan elçisi Libbynin sözləriylə "tam rəqabətə açıq olan və ticarət adlanan dünya ixracatı işində, aydınladıcı yağ baxımından Rusiyanın hissəsi 22 faizdən 29-a çıxmışdı. Amerikanın sahib olduğu hissə isə 1888-ci ilin 78 faizindən 1891-ci ildə 71 faizə qədər enmişdi."

Bakının ucsuz-bucaqsız yeni neft yataqlarından





gedərək artan miqdarda neft fışqırarkən, rus neft sənayesində də eyni templə bir dəyişim müşahidə olunurdu. Bitib tükənmək bilməyən əngəllərə səbrlə sinə gərən və iradəsindən əsla vaz keçməyən Ludwig Nobel fiziki baxımdan artıq tükənmişdi. Nəticədə Bakının neft kralı Ludwig Nobel 1888-ci ildə, 59 yaşında, fransız Rivierasinda tətilini keçirərkən, ürək tutmasından vəfat etdi.

Bu arada qəribə bir hadisə baş vermiş və Avropada çıxan qəzetlər yanlışlıqla Ludwigin yerinə Alfredin öldüyünü yazmışdılar. Özü həyatda ola-ola haqqında nəşr edilən ölüm elanlarından kədərlənən Alfred, sanki bütün həyatını dəyişdirdi. Mətbuat Alfredi savaş səbəbkarı, "dinamit kralı", insanları şikəst etmək və öldürmək müqabilində sərvət qazanmış "ölüm tüccarı" kimi qiymətləndirmişdi. Alfred bunlardan narahat idi. Buna görə də bu ölüm elanları, haqqında yazılan tərcümeyi-hallar və suçlamalar üzərində uzun-uzun düşündü. Və oturub vəsiyyətnaməsini dəyişdirdi. Yeni vəsiyyətnaməsində bütün varidatının, özünü insanlığın inkişafına həsr edən adamlara mükafat kimi verilməsini istəyir və beləliklə, Nobel adını da ölümsüzləşdirirdi.

## Sədəf tüccarının oğlu

Rusiyanın qaz yağı problemi davam edirdi. Batumidən çıxarılan qaz yağı getdikcə artan sürətlə inkişaf edirdi. Qaz yağı üçün yeni bazarlar axtarıb tapmaq artıq sərt bir ehtiyaca çevrilmişdi. Nobel qardaşları Rusiyadakı bazarın iplərini əllərində saxlayırdılar. Fəqət başqaları, xüsusilə Rotşildlər üçün problem hər il daha da böyüyür və qaz yağının nə şəkildə "bazarlanacağı" heç cür bilinmirdi. Buna baxmayaraq, Rotşildlər Standard Oilla döş-döşə gəlmək

və dünya bazarlarında özlərinə yol açmaq üçün bir çözüm tapmağa qərarlı idilər. Bu ümidlə gözlərini Şərqə, Asiyaya çevirərək, bu bölgələrə özəl bir maraq göstərməyə başladılar. Bu bölgələrin "yeni işıq" üçün yüzlərlə, milyonlarla potensial müştəriylə dolu olduğunu başa düşmüşdülər. Ancaq nefti onlara necə çatdıracaqdılar?

Rotşildlərin Parisdə yerləşmiş bir qolu bir adam tanıyırdı. Bu adam Londonda neft komisyonçuluğu edirdi. Adı Fred Lane idi. Rotşildlərin oradakı neft işləri ilə məşğul olurdu. Bu adamla məsləhətləşdilər və əməkdaşlığa başladılar. Hər zaman üçün arxa planda qalan bu adam, gələcəkdə neft sahəsində liderlik edənlərin ən əhəmiyyətlilərindən biri oldu. Lane iri cüssəli, kobud, ancaq çox ağıllı bir adamdı. Yeni münasibətlər qurmaqda, insanların mənfəətlərini normal məcrada bir-biri ilə uzlaşdırmaqda xüsusi bir qabiliyyəti vardı. Dostlarını və iş vasitəsilə tanıdığı adamları - ki, bu ikisi də ümumilikdə eyni şeydir - dəstəkləməyi sevir və bunu da qismən özünə məxsus olan sərmayə vasitəsilə etmək istəyirdi. "Mükəmməl arabulucu" olaraq "Kölgə adam" ləqəbi ilə tanınırdı. Fəqət bu ləqəb ona fırıldaqçılıq etdiyi üçün verilməmişdi. Çünki əsla fırıldaqçı adam deyildi. "Kölgə adam" adlandırılmasının səbəbi, müxtəlif iş müqavilələrində bir-birindən çox fərqli adamları eyni anda təmsil edə bilməsi idi. Eyni anda bir çox adamı təmsil edirdi. Əslində kimin üçün çalışdığını başa düşmək olmurdu.

Lane nəqletmə sahəsində həqiqi bir mütəxəssis idi. İndi bu mütəxəssisliyini Rotşildlər üçün səfərbər etmə zamanı gəlmişdi. Bunu da belə bacarmışdı: Rotşildlərin onu tanıdığı kimi, o da Marcus Samuel adında məşhur və əhəmiyyəti günü-gündən artan və yayılan bir tacir tanıyırdı. Rotşildləri Samuel ilə tanış etdi. Bu tanışlıq nəticəsində





böyük bir layihə həyata keçirildi. Bu layihə zamanla təkcə rus neftinin problemlərini həll etməklə kifayətlənmədi, eyni zamanda, müvəffəq olub irəlidə ciddi bir müqaviləyə çevrildi. Beləliklə, Rokfeller və Standard Oilun dünya qaz yağı ticarətində dəmir kimi möhkəm olan avtoriteti də zəifləməyə başladı.

1880-ci ilin axırlarında Samuel Londonda hörmətli, yüksək səviyyəli bir şəxsiyyət statusuna gəlmişdi. Bu, bir yəhudi üçün - həm də ataları İspaniya və Portuqaliyadan gəlmiş Sefardik ailələrindən yox, Londonun şərqində yaşayan, 1750-ci ildə Hollandiya və Bavariyadan gələn köçkünlərin nəvələrindən olan bir yəhudi üçün heç də əhəmiyyətsiz bir müvəffəqiyyət deyildi. Samuel, atası Marcus Samuel ilə eyni adı daşıyırdı. Bu da yəhudilərdə nadir rastlantı idi. Marcus Samuel ilk ticarətinə Londonun şərqindəki doklarda girişmiş və limana gələn gəmiçilərdən xırda-para hədiyyəlik əşyalar satın almaqla başlamışdı. 1851-ci il əhalinin siyahıya alınmasında peşəsi "sədəf tüccarı" kimi göstərilib. Üstü sədəf işləməli hədiyyəlik əşyalar satırdı. Bu əşyalar ən çox hələ Viktoriya dövründəki İngiltərəyə gəlib məskunlaşan gənc qız və xanımlar tərəfindən bəyənilib satın alınırdı. Bunlar "Brightondan hədiyyəlik əşya" adlanan bəzəkli qutular idi. 1860-cı illərə gəlindiyində Marcusların böyüyü artıq sərvət sahibi olmuşdu. Sədəf işləməli qutulara əlavə olaraq, bir neçə mal da idxal etməyə başlamışdı. Bunların arasında əldə düzəldilən işləməli əsalar, dəvəquşu tükü, baharat və s. müxtəlif əşyalar vardı. Fəaliyyətlərini bu işlə məhdudlaşdırmadılar. Eyni zamanda ixracatla da məşğul oldular. İxrac etdikləri mallar arasında ilk dəfə hazırlanan və Yaponiyaya göndərilən mexaniki dəzgahlar da vardı. Bunlardan əlavə, böyük oğul Samuel də İngiltərənin ən

irəlidə gedən ticarət firmaları ilə - ki, bunlar şotlandiyalılar tərəfindən idarə olunurdu - yaxın əməkdaşlıq şəbəkəsi qurmuşdu. Bu işdəki uğurları sayəsində Samuel gələcək həyatında çox böyük qazanclar əldə etdi. Bu ticarət firmaları, Kəlküttədə, Sinqapurda, Bangkok, Manila, Nong Kong və Uzaq Şərqin daha başqa yerlərində fəaliyyət göstərirdi.

Gənc Marcus 1853-cü ildə anadan olmuşdu. 1869-cu ildə, 16 yaşında Brüssel və Parisdə aldığı qısa təhsil həyatından sonra işləmək üçün atasının iş yerinə getdi. Elə bu vaxtlar Amerikada Samueldən 14 yaş böyük olan Con D.Rokfeller də təxminən 10 il davam edəcək "neft sənayesini birləşdirmə kampaniyası"na başlama hazırlığı içərisindəydi. Artıq yeni texnologiya bütün dünyada alış-veriş və beynəlxalq ticari həyatı radikal olaraq dəyişdirməyə başlamışdı. 1869-cu ildə açılan Süveyş kanalı Uzaq Şərqə qədər olan yolu 4 min mil qısaltmışdı. Yelkənli gəmilərin yerini buxarlı gəmilər almaqdaydı. İngiltərədən Pompeyə qədər uzanan teleqraf şəbəkəsi 1870-ci ildə tamamlanmışdı. Bundan qısa müddət sonra da Yaponiya, Çin, Sinqapur və Avstraliya kimi ölkələr də teleqraf şəbəkəsinə daxil edildilər. Beləliklə, ilk dəfə olaraq teleqraf telləri vasitəsilə bütün dünya qlobal xəbərləşmə toru ilə hörülmüş olurdu. Artıq aylarla sürən gözləmələr və nə baş verəcəyini bilmədən keçən dövrlər arxada qalmış və yerini axıcı, asan bir xəbərləşməyə buraxmışdı. Mal nəqli problemi də artıq həll edilmiş və spekulativ bir macəra olmaqdan çıxmışdı. Müqavilələrin detalları artıq aylar öncədən asanlıqla müəyyən edilən hala gətirilmişdi. Sadalanan bütün bu yeniliklər gənc Marcus Samuel üçün irəlidəki həyatında sərvətini qurarkən yararlandığı ünsürlər olmuşdu.

Atasının ölümündən sonra Marcus, qardaşı Samuellə şərik olub böyük bir ticarət əməliyyatına girişdi.





Bu təşəbbüslərinin ilk illərində Samuel Yaponiyada yaşadı. Samuel qardaşlarının iki ayrı firması vardı. Bunlardan biri Marcus Samuel və şərikinin adıyla Londonda, o biri isə Samuel Samuel və şərikinin adıyla Yokohamada fəaliyyət göstərirdi. Samuel Samuel sonradan firmasını Kobe şəhərinə köçürdü. Bu iki qardaş Yaponiyanın sənayeləşməsi üçün önəmli işlər görürdülər. Nəticədə Marcus 30 yaşını tamamlamadan Yaponiya ilə apardığı ticarət vasitəsilə sərvətinin ilk bölümünü qazanmış oldu. Daha sonra iki qardaş iş görmək məqsədilə bütün Uzaq Şərqi başdan-başa dolaşıb buralardakı ticari firmalarla əməkdaşlıq etdilər. Məlum olduğu kimi bu əməkdaşlıqların təməlləri daha əvvəldən ataları tərəfindən atılmışdı. O zamanlar Marcus və Samuel Samuel, Şərq ölkələri ilə ticarət əlaqəsi quran ilk ingilis yəhudiləri idilər və onlardan başqa bu işi görən başqa ingilis yəhudiləri yox idi.

Qardaşlardan Marcus Samuel hər zaman ticarəti şəxsən gerçəkləşdirən fikir adamıydı. Ondan iki yaş kiçik olan Samuel Samuel isə daim ona söylənəni hərfi-hərfinə yerinə yetirən və kənarda qalmağa məhkum olan biri idi. Böyük qardaş Marcus kiçik qardaşına nisbətən daha cazibədar idi. Ancaq illər keçdikcə bu cazibədarlığın yerini nədənsə insanlardan uzaqlaşma aldı. Sanki üzündə maska daşıyan birinə çevrildi. Qısa boylu sağlam gövdəsi, qalın qaşlarıyla birlikdə cazibədarlığını tamamən itirmişdi. Amma uzaqgörənlikdəki qabiliyyəti, macəraya olan düşkünlüyü, açıq ürəkliliyi, hərəkətə keçmədəki cəldliyi və istədiyi zaman beynindəki fikrə hər zaman üçün sadiq olması etibarilə diqqət çəkən bir insan olmuşdu. O qədər aşağı səslə danışırdı ki, bəzən ətrafdakılar onu eşitmirdi. Söylədiklərini eşitmək üçün cəhd edir, ətrafını sarırdılar. Bu qabiliyyəti sayəsində kredit almaq istədiyi zamanlar, yəni tam 20 il

bankirlərə deyil, Uzaq Şərqdəki şotlandiyalı tacirlərə inanmışdı. Marcusun fikirlərində sərvəti sərvət xətrinə qazanmaq, sərvət kolleksiyası toplamaq deyə bir şey yox idi. Bir məqam sahibi olmaq istəyirdi və bunun həsrəti içindəydi. Hər zaman kənara itələnmiş biri olaraq, yəni Londonun şərqində, bir künc-bucaqda dünyaya göz açmış bir yəhudi kimi, indi də Samuel adını ingilis aristokratiyasının ən üst mərtəbəsinə çıxarmaq və bu adın orada qəbul olunması üçün əlindən gələn hər şeyi etmək istəyirdi. Bu yolda bütün enerjisini səfərbər etmək qərarını vermişdi.

Samuel Samuelə gəlincə, qardaşı Marcusun tərsinə, son dərəcə istiqanlı, açıq ürəkli, topluluqdan xoşlanan birisi idi. İş mövzusunda daim gecikirdi. İçində batıb qaldığı axmaq-axmaq şeylərlə məşğul olur, belə şeylərə qarşı həvəs göstərirdi. Bu bilməcələr onu ən az yarım əsr, hətta daha uzun müddət məşğul etdi. Məsələn, gözəl günəşli günlərin birində bir qonağı gəlsə, ona bu sözləri söyləyərdi. "Yarış üçün gözəl bir gündür". "Nə yarışı" deyə soruşacaq qonağına böyük ehtimalla bu cavabı verərdi: "İnsan yarışı!" Ayrıca, bu sözləri qələbə qazanan adam ədası ilə söylərdi.

Marcus iş həyatında işlərini daha çox böyüdüb sonra da öhdəsindən gələ bilməyəcəyi bir vəziyyət yaratmaq istəmədi. Bütün işlərini ölkənin şərq ucunda yerləşən Houndsditch məhəlləsindəki kiçik bürosundan idarə edirdi. Büronun arxasında ambar kimi istifadə olunan yer tavana qədər əşya ilə dolu olardı. Bunların arasında yapon vazaları, idxal olunan mebellər və ipək qumaşlar, dəniz qabıqları və tüklər, hədiyyəlik əşyalar və xatirəlik mallar vardı. Tez xarab olan malları ambara qoymazdı. O dəqiqə xırıd edirdi. Personal olaraq çox az adam çalışdırırdı. Hətta daha açıq söyləmək lazımdırsa, heç personal çalışdırmadığı bilinir. Sərmayəyə gəlincə, çox az sərmayəsi var idi.





Bu mövzuda daha çox Uzaq Şərqdəki ticarət firmalarının verdiyi kreditlərə etibar edirdi. Bu ticarət firmalarını, eyni zamanda, xarici ölkələrdəki təmsilçiləri kimi istifadə edir, beləliklə, təşkilati və idari xərclərdən həm xilas olur, həm də qənaət edirdi. Gəmi kirayələmə işində Lane və Macandrew nəqliyyat-komisyonçuluq firmasıyla əməkdaşlıq edirdi. Firmanın baş şəriki Fred Lane, onu şirkətə aid dar bir pasajın içində, cansıxıcı ofisində asanlıqla tapıb işlərini yoluna qoya bilirdi.

## 1892-ci il inqilabı

İş həyatında topladığı təcrübələr Marcus Samueli - önünə çıxan hər fürsəti dəyərləndirməyə hazırlamışdı. Rotşildlə olan işgüzar əlaqəsi də bu prinsipə uyğun inkişaf etmiş və insanı heyrətə salan nəticə doğurmuşdu. Bu layihədə işin əsasını Lane ilə birlikdə qoymaq üçün Marcus cəld hərəkət etdi. Bu iki nəfər 1890-cı ildə gələcək planlarını həyata keçirmək məqsədi ilə Qafqaza səfərə çıxdılar. Bax, Marcusun vacib müşahidələri bu səfər zamanı baş verdi. Səfər zamanı gözlənilməz şəkildə bir gün gözünə böyük cüssəli və ibtidai formada istehsal olunan bir tanker ilişmişdi. Gəmilərin su üstündə üzən bir şüşəyə bənzəməsindən dolayı, bu böyük cüssəli tankerlər məqsədin həyata keçirilməsi baxımından çox səmərəli ola bilərdi. Marcusun gəldiyi qənaət bu idi. Bu hadisədən sonra M.Samuel Yaponiya və Uzaq Şərq ölkələrinə gedərək, oraları da gəzdi və beynində formalaşdırdığı yeni layihəyə qatılmaq üçün hər zaman əməkdaşlıq etdiyi şotlandiyalı ticarət firmalarını işə cəlb etməyin yollarını axtarmağa başladı. Onlar olmadan bu işə davam edə bilməyəcəkdi. Bunu yaxşı

bilirdi. Bu dəfə onlardan gözlədiyi şey sadəcə əməkdaşlıq etmək deyildi. Hələlik düşüncə mərhələsində olan bu layihəni maliyyə baxımından da dəstəkləmək lazım idi. Nəticədə şotlandiyalı ticarət firmaları yekdilliklə layihəni dəstəkləmə və onun həyata keçirilməsində iştirak etmə qərarı aldılar.

Bu firmalarla birlikdə Marcus Samuel fürsəti fövtə verməyərək, araşdırmalar apardı və müvəffəq olunması üçün ehtiyac duyulan şeyləri diqqətlə müəyyənləşdirdi. Bunu edərkən, göstərdiyi diqqət ən tez hərəkət edən bir tacirin belə normalda göstərə bilməyəcəyi qədər böyükdü. Ancaq bütün bu tədbirlərə baxmayaraq, layihənin daşıdığı risqlərin və oynanan qumarın nə dərəcədə böyük olduğunun fərqində idi. İnandığı və yaxşı bildiyi bir başqa mövzu da bu idi: Özü və şərikləri Standard Oildan daha aşağı qiymətlə mal satmadıqları müddətcə və ya heç olmasa, müəyyən tədbirlərlə Standard Oilun onlardan daha aşağı qiymətlə mal satmalarının qarşısını ala bilmədikcə, bazara çıxmağın heç bir mənası və faydası olmazdı. Buna inandı və hərəkətlərini də ona görə düzənlədi. Bu nəticəyə varmaq məqsədi ilə başlanacaq kampaniyada, kampaniyanın aparıldığı bütün bazarlarda, qiymətlərin eyni anda və eyni miqdarda tətbiq olunmasına qərar verildi. Əgər belə olmasaydı, Standard Oil, Samuel qrupunun ona rəqib olaraq varlığını ortaya qoyduğu bazarlarda qiymətləri süni şəkildə nizamlayacaq və qiymət endiriminə gedəcəkdi. Samuel qrupunun olmadığı bazarlarda isə qiymətləri bacardıqca qaldıracaqdılar. Alınan digər bir qərar da sürət və gizlilik haqqındaydı. Sürətli hərəkət etmənin və mümkün olduğu qədər gizlilik qaydalarına riayət etməyin mütləq şəkildə lazım olduğuna inandılar. Marcus Samuel, qarşısında amansız bir rəqib olduğunu bilir və onunla savaşa hazırlanırdı.





Ancaq Samuel bu savaşda necə hərəkət etməliydi? Bunun izahı hələ bilinmirdi. Əvvəlcə işə lazım olacaq ehtiyacların uzun və caydırıcı bir siyahısını tutmaqla başladı. Hər şeydən əvvəl, qaz yağını əvvəlkilərdən fərqli olaraq, daşımaq üçün tankerlərə ehtiyac vardı. Yer və ağırlıq baxımından qənaət etməklə və həcmdə qazanmaqla, qalon başına düşən nəqliyyat xərclərinin böyük çapda azalacağı məlum idi. Bunu bildiyi üçün nəqliyyat xərcləri məsələsində mütləq hər şeyə hakim olmağın lazımlılığına inandı və bir zamanlar Rokfellerin dəmir yollarında etdiklərini etmək istədi. O günlərdə istifadə olunan tanker tipiylə bu iş əsla görülə bilməzdi. Yeni, daha böyük, texnoloji cəhətdən daha irəli olan tankerlərə ehtiyac olduğuna inandı və bu xüsusiyyətlərə malik olan gəmilərin inşası üçün sifariş verdi. Batumidən böyük miqdarda qaz yağı gəlməsini gözləyir və bunu qarantiyalamaq istəyirdi. Ayrıca, qaz yağının yetərli miqdarda olmasını və qiymətinin də tənəkəylə nəql edilməmiş olması səbəbilə az olmasını istəyirdi. Başqa bir arzusu da Süveyş Kanalına girmək, beləliklə də, yolçuluğu dörd min mil qısaltmaq, dolayısı ilə qiymətləri daha aşağıya çəkməkdi. Bu yolla Standard Oil şirkətinə qarşı avantajlı durumunu daha da sağlamlaşdırmış olacaqdı. Çünki o günlərdə Standard Oil nefti Uzaq Şərqə çatdırmaq üçün yelkənli gəmilərdən istifadə edir, bu gəmilər Ümid Burnundan keçərək seyr edirdilər. Ancaq M.Samuel bu məqsədinə asanlıqla çatmadı. Təhlükəsizlik səbəbiylə tankerlərin Süveyş Kanalından keçməsi qadağan edilmişdi. Standard Oilun tankerlərinə də daha əvvəldən Süveyşdən keçmə izni verilməmiş və tankerlər geri qaytarılmışdı. Ancaq bu da Samueli dayandıra bilmədi. Qapını mütləq, zorla da olsa, açmaq istəyirdi. Bu arada ehtiyacı olan digər bir şey də, böyük depolama tankerləri

idi. Bunları Asiyanın məlum olan önəmli limanlarının hamısında istifadə etmək istəyirdi. Bundan başqa, qaz yağını ən ucqar bölgələrə qədər daşıya biləcək tanker maşınlarına və tanker vaqonlarına da ehtiyac vardı. Nəticədə Samuel və şərikləri bir araya gəlib depolar qurmaq və buralarda toplu halda gələn böyük miqdardakı qaz yağını bölüb, ayrı-ayrı qab və balonlara dolduraraq bölgədə topdan və pərakəndə ticarətə başlamağa qərar verdilər. Üzərində durduqları çox əhəmiyyətli bir nöqtə də bazarların koordinasiya edilməsi, mühəndislik işləri və siyasətlə məşğul olmaq kimi fəaliyyətləri də əhatə edən bu çox çətin işin mümkün mərtəbə gizli saxlanılması şərtiydi!

Rotşildlər və Bnito ilə həqiqi bir müqavilə imzalamaq və müqaviləni hazırlamaq yolunda Samuel xeyli çətinliklərlə üzləşdi. Rotşildlər bu mövzuda fərqli düşünürdülər. Tərəddüd içərisindəydilər. Standard Oilla rəqabətə girmək istəyib istəmədiklərindən tam əmin deyildilər. Məsələn, Rotşildlərin neft sahəsində öndə gedən adamlardan biri olan M.Aron Standard Oilun hər zaman "güclü şirkət" olduğu, onun xəfifə alınmaması görüşündəydi. Buna baxmayaraq, 1891-ci ilin əvvəllərində, çox uzun sürən müzakirələr nəticəsində və qiymətlərin də düşməsi səbəbilə Samuel Rotşildlərlə müqavilə imzalamağa müvəffəq oldu. Müqavilə Samuelə 9 illik bir müddət üçün, 1900-cu ilə qədər, Bnitonun qaz yağını Süveyş Kanalının şərqində sata bilmək üçün tam səlahiyyət verirdi. Bu müqavilə onun başdan bəri istədiyi, sonunda mütləq qazanacağını bildiyi, bundan əmin olduğu və bir çox yerlərdə uğrunda son sürətlə mübarizə apardığı şeydi.

Sifariş verdiyi tankerlər çox əhəmiyyətli bir texnoloji inkişafın simvollarıydı. Qiymətləri daha da endirə bilmək üçün bu tankerlər buxarla təmizlənə bilən formada istehsal





olunmuşdu. Əvvəlcə, buxar təmizlənməsindən keçən tankerlər, daha sonra dönüş üçün yenidən Şərqdən gələn malla yüklənib yola çıxacaqdı. Yüklənən mallar arasında qida maddələri də vardı. Bu qida maddələri neft qoxusunun təsir etmədiyi maddələrdən idi. Bu tankerlər Süveyş Kanalı şirkətinin qoyduğu təhlükəsizlik şərtlərinə də cavab verirdi. O günə qədər tankerlərdə baş verən bəzi partlayışlar insanlarda bir qorxu yaratdığından, bəzi təhlükəsizlik tədbirlərinin alınması artıq mütləq tələb edilirdi. Samuelin təmin etdiyi və icraata qoyduğu təhlükəsizlik tədbirləri bu ehtiyacı tamamilə ödəyirdi. Amerika Birləşmiş Ştatlarının Şərq sahilləri ilə Avropa qitəsi arasında seyr edən Standa rd Oil şirkətinin sahib olduğu tankerlərin əksinə, Samuelin tankerləri bambaşqa bir texnologiya ilə təchiz olunmuşdu. Bu tankerlərdə, bəzi özəl tankerlər kimi bir çox yeni təhlükəsizlik tərtibatı vardı. Bu tanklar müxtəlif dərəcə istidə qaz yağının genişləməsinə imkan verəcək tərzdə istehsal olunduğundan, yanğın və partlayış risqini də ən aşağı səviyyəyə endirmişdi.

Ancaq çox keçmədən rəqiblər səslərini qaldırmağa başladılar. Bunlar Samuelə aid olan tankerlərin Süveyş Kanalına girməsinə izin verilməməsini tələb edirdilər. 1891-ci ilin yaz aylarında artıq mətbuat bu mövzunu dillər əzbəri etmiş, qaranlıq bəzi söyləntilərdən bəhs edər olmuşdu. Rəvayətə görə, "İbrani təsiri" altına düşmüş bir qrup "güclü maliyyəçi və tacir" Süveyş Kanalından tankerlər keçirmək həvəsindəydilər və buna can atırdılar. Bundan başqa, Londonda yerləşən, nüfuzlu adamların təşkil etdiyi bir advokat firmasından da söz edilir və bu firmanın vəkillərindən Russell və Arnholz adlı iki nəfərin, Samuelə Süveyş kanalından giriş izni verilməməsi mövzusunda qüvvətli bir lobbi formalaşdırdıqları və kompaniya

başladıqları söylənilirdi. Kompaniya fəaliyyətləri arasında bilavasitə Xarici İşlər naziri ilə aparılan uzun yazışmalar da vardı. Adı çəkilən vəkillik firması Süveyş Kanalının təhlükəsizliyi mövzusunda həqiqətən çox, amma lap çox narahatçılıq keçirirdi. "Gəmilərə nə olacaq", "isti keçən günlərdə nələr baş verə bilər", "qum fırtınası olduğu günlərdə nələr ola bilər" kimi suallar davamlı olaraq beyinləri qurcalayırdı. Üstündə durub narahatçılıq keçirəcək o qədər çox problem vardı ki, haradan başlayacaqlarına qərar verməkdə çətinlik çəkirdilər. Xarici İşlər naziri İngiltərənin hansı maraqlarına xidmət etdiyini soruşanda da kim olduqlarını tamamilə açıqlamaq istəmədilər. Ancaq təmsil etdikləri adamın adını gizlətmələrinə baxmayaraq, müdafiə etdiklərinin Standard Oil olduğu hamıya məlum idi. Aradan çox keçmədi ki, Russell və Arnholz yeni bir təhlükənin varlığını irəli sürərək, İngiltərə hökumətinə xəbərdarlıq etdi. İrəli sürdükləri tezislərə görə, ingilis tacirlərə tankerlərini kanaldan keçirmə izni verildiyi təqdirdə, rus nəqliyyat agentlikləri də mütləq eyni haqqları tələb edəcək və bu haqqı alacaqdılar. Onlara görə, belə bir hal gerçəkləşərsə rus dəniz zabitləri və dənizçiləri bir kərə kanala girdilərmi, gəmiləri də insanlarla dolu olduğundan, kanalda ağıla gələn və gələcək hər cür pisliyi törədəcəkdilər. Bu halda, "kanalın dəniz qüvvələrini blokadaya almaq" və "kanalda nə qədər gəmi varsa hamısını məhv etmək" kimi hər cür pislik nəzərə alınmalıydı.

Ancaq bütün bunlara baxmayaraq, Samuelin Rotşildlər ailəsi içində, həm də çox nüfuzlu olan fransız bankı nəzdində çox nüfuzlu müttəfiqləri vardı. Bunlardan Rotşild ailəsinə mənsub olub İngiltərədə yaşayan və 1875-ci ildə Benyamin Disraelinin Süveyş kanalı hissələrini satın alarkən ona maliyyə dəstəyi vermiş olan ingiltərəli





Rotşildlər də vardı. Bundan başqa, artıq Xarici İşlər nazirliyinin özü də İngiltərəyə məxsus olan tankerlərin kanaldan keçişini görmüş, bunun İngiltərənin mənafeyinə son dərəcə uyğun olduğunu anlamış olaraq, bir ovuc advokatdan ibarət olan firmanın ona söz diqtə etməsinə izin verə bilməzdi. Nəticədə, dəniz sığortasına baxan qurum Samuelə məxsus olan yeni tankerlərin doğru istehsal edildiyini və təhlükəsizlik qaydalarına uyğun olduğunu qəbul etdi və tankerləri gəmi dəftərlərinə qeydiyyata saldı.

Aradan keçən zaman içində M.Samuel və şəriki başqa bir kompaniya daha başladılar. Bu yeni kompaniya, bütün Asiya boyu hər yerdə neft depoları qurmağı planlaşdırırdı. Bunun üçün Samuel qardaşları lazım olan yerləri tapmaq və depoların tikintisini nəzarətə götürmək və dağıtım sistemlərinin qurulmasında ticari firmalarla bir yerdə əməkdaşlıq etmək üçün yaxın qohumları Mark və İosif Abrahamı bu işə təyin etdilər. İosif Hindistana, Mark da Uzaq Şərqə göndərildi. Mark həftədə sadəcə 5 pound maaş alırdı. Mükafatı da o idi ki, mütəmadi işlərində qüsur axtarılır, tənqid olunur və hər cür həqarətə məruz qalırdı. Əmiləri Marka ən çox iki mövzuda təzyiq göstərirdilər. Xərcləri az etməsini və işləri sürətləndirməsini tələb edirdilər. Amma bu iki hədəf bir-biri ilə əsla uyuşmurdu. Qardaşoğulları bütün vaxtlarını uzun-uzadı müzakirələrdə, konsul səviyyəli məmurlar, limanda işləyən yüksək rütbəli işçilər, tacirlər və asiyalı səlahiyyət sahibləri ilə keçirilən iclaslarda keçirdikləri halda, əmilərindən heç bir anlayış görmürdülər. Bir gün xərclərə qənaət etmək məqsədi ilə özünə işlənmiş bir yapon faytonu aldı. Bu hərəkəti belə əmilərinin müqaviməti ilə qarşılandı. Ayrıca, sanki işləri bilərəkdən çətinləşdirmək istəyirdilər. Sanki Markın işləri azmış kimi ona əlavə bir iş də yüklədilər. Boş qaldığı

zamanlarda bu işlə məşğul olmasını istəyərək, Yaponiyadan xaricə ixrac etməyə çalışdıqları kömürü satma vəzifəsini ona tapşırdılar. Bütün bu işlərin öhdəsindən gələn Mark, yenə də hər şeyə baxmayaraq, bütün Uzaq Şərqdə lazımi yerləri satın almağa və depolama tankerlərini yerbəyer etməyə müvəffəq oldu. Satın aldığı yeni yerlər arasında Sinqapur sahillərində yerləşən Freshwater adasındakı bəzi yerlər də vardı. Bu yer daim işlərə əngəl olan liman məmurlarının səlahiyyət xaricində idi. Bu səbəblə də çox əhəmiyyət kəsb edirdi.

1892-ci il 5 yanvar tarixində artıq Londonun nüfuzlu vəkillərinin bütün müqavimətlərinə baxmayaraq, Süveyş Kanalından tankerlərin keçməsi üçün rəsmi icazə verildi. Ancaq bir şərtlə: Tankerlər mütləq M.Samuelin yeni layihəsinə uyğun olaraq inşa edilmiş olmalıydı. Rəsmi icazənin verildiyindən dörd gün sonra "Economist" qəzeti sütunlarında bu sözlərə yer vermişdi: "Bu yeni layihə özünəməxsus bir cürət və böyüklük simvoludur. Layihəyə qarşı çıxanların iddiaları doğru olsa belə, layihə həqiqətən sırf ibrani ruhunun bir parçası olsa belə, yenə də bizi maraqlandırmaz. Bu iddia göründüyü qədəriylə doğru olsa belə, onun əleyhinə istifadə olunmamalıdır. Əgər sadəlik deyilən şey müvəffəqiyyətin ünsürlərindən biri isə, bu layihənin qətiyyətlə vədlərlə dolu olduğu söylənə bilər. Çünki neft karqolarını, istehsalı xeyli bahalıya başa gələn, idarə edilməsi bahalı olan, asanlıqla xarab olan və sızıntı buraxan əşyalar içində göndərmək əvəzinə, bu layihənin memarları artıq əmtəəni tanker daşıyan buxarlı gəmilər vasitəsilə Süveyş Kanalı yoluyla daşımağı qarşılarına məqsəd qoyublar. Bundan başqa, bu nefti ehtiyacın çox olduğu yerlərdə ehtiyat bazalarının içinə doldurub, lazım olanda oradan boşaltmaq istəyirdilər. İstehlakçılar da bu





bazarlardan ehtiyacları qədər miqdarda dərhal neft götürə biləcəkdilər."

O günə qədər Mark Uzaq Şərqdə xeyli uğur qazanmışdı. Məsələn, Hong Kongda mükəmməl bir yer satın almışdı. Ayrıca Şanxayda da yer satın almağa çalışır və bu işdə tələskən hərəkət edirdi. Şanxaydakı yeri mütləq çinlilərin yeni ili gəlmədən almaq istəyirdi və buna özünə görə səbəbləri vardı. Mark, bu səbəbi aşağıdakı kimi ifadə etmişdi: "Çinlilərin adətlərinə görə, ötən ilə aid olan bütün borclar yeni il gəlmədən ödənməli və yeni ilə borcsuz girilməlidir. Üstəlik pula da ehtiyacları olduğundan, əllərindəki malı yeni il gəlmədən əldən çıxarmaq istəyirdilər. Bu səbəblə yeni il gəlmədən edilən alış-verişlərdə satıcı daim malı ucuz satar." Uzaq Şərqin başqa bir çox limanlarına da mütəmadi olaraq gedib-gələn Mark, 1892-ci ildə, mart ayında Sinqapura getdi. Burada, hər zaman olduğu kimi, onu əmilərindən gələn danlaqlar dolu bir məktub gözləyirdi. Əmiləri Markdan daha tez hərəkət etməsini, çox daha tez hərəkət etməsini tələb edir, bu barədə israr edirdilər. Onlara görə görə həyəcan siqnalı çalınmağa başlamışdı. Standard Oilun nə zaman və necə hücuma keçəcəyini heç kim bilə bilməzdi.

Bu arada Samuel qardaşlarının sifariş etdikləri ilk müasir tanker Qərbi Hartlespoolda inşa edilirdi. Bir azdan tamamlanacaqdı. Tankerə, bir vaxtlar dəniz qabığı ticarəti etmiş qoca Marcusun şərəfinə "Murex" adı verildi. Murex elə dəniz qabığına da oxşayırdı. Samuel qardaşları keçmişdən bəri sahib olduqları tankerlərin hamısına ayrı-ayrı dəniz qabığı adı verməyi ənənə halına gətirmişdilər.

1892-ci il iyul ayının 22-də Murex Qərbi Hartlespooldan Batumiya hərəkət etdi.

Batumidən, daşımaqda olduğu neft tankerlərinə

Britonun qazyağını doldurub 23 avqustda Süveyş Kanalını keçərək Şərqə doğru yol aldı. Daşıdığı malın bir hissəsini Sinqapurdakı Freshwater adasında boşaltdı. Daşıdığı yük artıq xeyli yüngülləşmişdi. Buna görə də yolunun üstündə olan, aşılması çətin bir çox maneələri aşa bildi və Markın Bangkokda qurduğu yeni təsislərə doğru yola düşdü. Beləcə, artıq qarşısına qoyduğu vəzifəni yerinə yetirmişdi.

Samuel qrupunun bu dərəcə sürətlə hərəkət etməsi Standard Oil təmsilçilərini qəfil ovlamış və nəticəni öyrəndiklərində böyük bir çaşqınlığa uğratmışdı. Vaxt itirmədən Uzaq Şərqə getməyə və sezdikləri təhlükələri yerində dəyərləndirməyə qərar verdilər. Gerçəkdən ətrafda bir təhlükə əlamətləri görünürdü. Yeri gəlmişkən, o günlərdə "Economist" qəzetinin yazdığı kimi "bu işin təşəbbüskarları əgər çox ümid verən gözləntilərini həyata keçirə bilsələr, bu, Şərqdə davam edən kasayla neft daşımaçılığının bitmiş olduğu mənasına gələcəkdi." Bütün tələsik hərəkətlərinə baxmayaraq, Standard Oil qrupunun təmsilçiləri yenə də gecikmiş, onlar işə başladıqları zaman bir də görmüşdülər ki, Samuelə aid olan qazyağı hər yeri başına götürüb və hər yerdə satılmağa başlayıb.

Bu vəziyyətdə Standard Oila edəcək heç bir şey qalmırdı. Artıq qiymətləri bu bazarda aşağı salıb o biri bazarda yuxarı qaldırmaları və beləliklə, tarazlıq qurmaları mümkün deyildi.

Həyata keçirilən iş həqiqətən parlaq bir müvəffəqiyyət idi və mükəmməl idarəetmə ilə tətbiq olunmuşdu. Ancaq bütün işlər görülərkən, Samuel qrupu və Uzaq Şərqdəki ticarət firmaları çox əhəmiyyətli olan və bütün uğurları hardasa məhv edə biləcək bir detalı nəzərdən qaçırmışdılar. İlk təşəbbüslərində qazyağını topdan olaraq müxtəlif





bölgələrə daşıyacaqlarını və müştərilərin özlərinə aid qablarla növbədə dayanıb gözləyəcəklərini və qazyağını bu şəkildə satın alacaqlarını düşünmüşdülər. Təxmin etdiklərinə görə, müştərilər Standard Oilun köhnə tənəkə qablarından istifadə edəcəkdilər. Halbuki iş belə olmadı. O günlərdə mavi rəngli, Standard Oila aid bu tənəkə qablar bütün Uzaq Şərqdə başdan-başa fərqli məqsədlərlə istifadə edilirdi. Yerli iqtisadiyyatda çox rəğbət edilən mala çevrilmişdi. Tavan inşaatından tutmuş, quş qəfəslərinə, nəşə qutusu istehsalına, çay dəmliyindən yumurta çalma alətinə qədər hər cür əşyanın istehsalında istifadə edilirdi. Bu dərəcə qiymətli sayılan tənəkə qablardan Uzaq Şərq insanı durduğu yerdə imtina etməyə hazır deyildi. Elə bir niyyəti də yoxdu. Bu hal bütün layihəni ciddi şəkildə təhdid edirdi və işin qəribəsi o idi ki, bu təhdid Standard Oil və ya Süveyş Kanalı kimi böyük səbəblərdən baş vermirdi. Təhdid doğrudan-doğruya Asiya xalqının adətlərindən və təbii seçimindən gəlirdi. Vəziyyət o dərəcə gərginləşdi ki, hər limanda bir krizis başladı. Qazyağı satılmadan yerindəcə qaldı və Houndsditch adresinə bir-birini təqib edən pessimist notlu teleqraflar yağmağa başladı.

Bu böhrana dərhal və açıq ürəkliliklə cavab verən adam yenə Marcus oldu. Marcus bu hadisədəki hərəkətləriylə təşəbbüskarlıq sahəsində həqiqi bir dahi olduğunu sübut etdi. Gördüyü iş bundan ibarətdi: Ucuza kirayələdiyi bir gəmini tənəkə lövhələrlə dolduraraq vaxt itirmədən Uzaq Şərqə aparmaq və Asiyadakı şəriklərinə bunlardan istifadə edərək qazyağı üçün tənəkə qab emal etmələri təlimatını vermək. Bunun necə həyata keçiriləcəyini heç kim bilmirdi. Fəqət o, buna əhəmiyyət vermədi. Tənəkə istehsalı üçün lazım olan texnologiya və təsislərin mövcud olmadığı halda, buna da aldırmadı və bu işin öhdəsindən gəlinə

biləcəyi mövzusunda Asiyadakı şəriklərini inandırdı. Məsələn, Sinqapurdakı bir təmsilçi Samuelin Yaponiyadakı şəriklərindən "Qabın qulpları necə yapışdırılır" deyə soruşanda, dərhal bunun necə yapışdırılacağı təlimatı verilirdi. "Nə rəng olmasını istəyirsiniz" sualına isə Mark dərhal bu cavabı verdi: "Qırmızı rəng olsun."

Çox keçmədən artıq Uzaq Şərqdəki ticarət firmalarının hamısı yerləşdikləri bölgələrdə tənəkə qab emal edən yerli fabriklər qurdular və bütün Asiya bir başından o biri başına qədər Samuelin istehsalı olan parıltılı və parlaq, fabrikdən yeni çıxmış rəngli qablarla dolmağa başladı. Az sonra bu qablar Standard şirkətinin mavi rəngli, dünyanın təxminən yarısında istifadə edilən yumru-yumru qabların yerini tutaraq, onlarla rəqabət edəcək səviyyəyə gəldi. Bəlkə də müştərilərin bəziləri Samuelin istehsalı olan, qazyağını qazyağından çox, içində olduğu işinə yarayan qırmızı tənəkə qablar üçün satın alırdılar. Səbəbi nə olursa olsun, qısa zamanda qırmızı rəngli damlar və qırmızı quş qəfəsləri mavi olanların yerini tutmağa başladılar. Eyni şəkildə, qırmızı rəngli nəşə qutuları, çay dəmlikləri və yumurta qarışdırma alətləri mavilərlə yer dəyişdirdi və hər yer başdan-başa qırmızıya büründü.

Beləliklə, bir iş daha uğurla baş çatırdı. Samuelin bir işi daha yerinə yetirilmiş və rekord sayılacaq bir müddətdə tamamlanmışdı. 1893-cü ildə Samuel tam 5 gəmi daha sifariş vermişdi. Gəmilərin hamısına dəniz qabığı adı verilirdi: Conch, Clam, Flax, Cowrie kimi. 1895-ci ilin axırında Süveyş Kanalından keçən gəmilərin sayı 69-a çatmışdı və 4 dənəsi istisna olmaqla, bu gəmilərin hamısı Samuel şirkətinə aid olan və ya Samuel şirkəti tərəfindən kirayəyə götürülmüş gəmilər idi. 1902-ci ilə qədər Süveyş Kanalından keçirilən bütün neft miqdarının 90 faizi Samuel şirkətinə və ya onun qrupuna aid idi.





### Bələdiyyə Məclis üzvü

Marcus Samuel təkcə iş həyatında böyük uğurlar qazanmamışdı. Qazandığı başqa bir uğur da ingilis yaşam tərzində əldə etdiyi mövqedi. 1891-ci ildə, dünya çapındakı missiyasına başlamadan əvvəl, başqa bir layihə üçün də özünə vaxt ayırmış və London şəhər bələdiyyə məclisi üzvlüyü üçün keçirilən seçkilərdə iştirak edərək, Bələdiyyə Məclisinə üzv seçilmişdi. Bu vəzifə ona daha çox fəxri üzvlük kimi verilmişdi, amma buna baxmayaraq, o, bu vəzifəni ciddi qəbul etmiş və böyük bir zövqlə yerinə yetirmişdi. Ancaq 1893-cü ildə, vəzifə müddətinin tamamlanmasından bir il sonra həyatında meydana gələn bəxtsiz bir hadisə onu - həm iş həyatında, həm də sosial yaşamında - hər şeyin boş və dəyərsiz olduğuna inandırdı. Çünki Samuel artıq ciddi bir xəstəliyə yaxalanmışdı. Şəxsi həkimi xəstəliyə xərçəng diaqnozu qoymuş və ən çox altı ay ömrü qaldığını bildirmişdi. Sonradan bu diaqnozun yanlış olduğunu zaman göstərəcək və Samuel altı ay yox, tam 34 il daha yaşayacaqdı. Doktorunun verdiyi bu səhv qərardan sonra Samuel daha da hərəkətlənmiş və işlərini bir az daha yoluna qoymaq və toparlanmaq üçün qollarını çirməmişdi. Bu toparlanma yeni bir işin qurulmasıyla nəticələndi və Tanker Sindikatı (Həmkarlar Təşkilatı) quruldu. Sindikatın təşkilatçıları Samuel qardaşları, Fred Lane və Uzaq Şərqdəki ticarət firmaları idi. Aralarında imzaladıqları müqaviləyə görə, bütün dünyada əldə etdikləri bütün qazanc və zərərlər bərabər paylaşdırılırdı. Standard Oil ilə, Standardın seçdiyi hər hansı bir bazarda yarışa bilmək, uğur qazanmaq və lazım olanda meydana gələcək zərərə qatlana bilmək üçün belə hərəkət etmələri vacibdi. Doğru qərar verdikləri qısa zamanda anlaşıldı və Tanker

Sindikatı az keçmədən böyüyüb böyük uğurlar qazandı.

Marcus Samuelin sərvəti gündən-günə ildırım sürətilə çoxalır, böyüyürdü. Bu böyümə təkcə neft və tankerlərdən irəli gəlmir, eyni zamanda, Uzaq Şərq və xüsusilə Yaponiya ilə uzun zamandan bəri davam edən ticari münasibətlərdən də qaynaqlanırdı. 1894-95-ci illərdə Yaponiyanın Çin ilə apardığı müharibədə Samuel qardaşları Yaponiyaya silah və cəbbəxana satan əsas firmaydı və pul da daha çox buradan gəlirdi. Nəticədə Murex gəmisinin Süveyş Kanalından ilk keçişini təqib edən bir neçə il içərisində, bir zamanlar Londonun şərqində yaşayan bir yəhudi olan Marcus Samuel artıq çox zəngin bir adam olmuşdu. İndi hər səhər Hyde-Parkda at gəzintilərinə çıxırdı. Londonun ətrafında Mote adını verdiyi görkəmli bir villaya sahibdi. Bu evin 500 dönümlük ərazisində bir də ceyran parkı vardı. Oğlanlarından biri Efonda oxuyur, o biri də Efona yenicə daxil olmuşdu. İndi Marcus çox əzəmətli bir sərvətə malik idi.

Bütün bu müvəffəqiyyətlərinə baxmayaraq, bir iş adamı kimi Samuelin ciddi sayıla biləcək bir qüsuru vardı. Bu da təşkilatçılıq və idarəetmə mövzusundakı nöqsanıydı. Rəqibi olan Rokfellerin əksinə, Samuel təşkilatçılıq və idarəetmə qabiliyyətindən məhrum idi. Düzənli və sistemli həyat tərzinə Rokfellerin təbii meylinin əvəzinə, Samuel hazırlıqlı yaşamağı sevmir, hər şeyi o an içindən gəldiyi kimi, hazırlıqsız görməyi istəyirdi. Onun qənaətincə, təşkilatçılıq deyilən şey düşüncədən, düşünmə işi bitdikdən sonra edilməliydi. Buna bel bağlayaraq hər şeyi ağlına necə gəldi elə həyata keçirir və heyrətdir ki, bu da onun mütəmadi olaraq davam etməkdə olan uğurlarını daha da cazibədar göstərirdi. Məşğul olduğu işlər arasında bir də neft işinin bir parçası hesab etdiyi başqa bir iş daha vardı: Böyük buxarlı gəmi işlətməçiliyi. Bu işi, ofisində oturub, belə bir təşkilatı həqiqi mənada idarə edə biləcək məlumat





və təcrübəyə sahib hər hansı bir mütəxəssis saxlamadan tək başına yerinə yetirirdi. Bütün bu işlər üçün yalnız Fred Laneyə etibar edirdi. Donanmanın bütün gündəlik işləri, içində tək bir masa, iki stul, divardan asılmış bir dünya xəritəsi və iki katibədən başqa heç bir şey olmayan Houndsditch səmtindəki kiçik bir otaqdan idarə edilirdi.

Bunları Rokfellerin əlçatmazlığı, maskalı təsir bağışlayan sir-sifəti, sakit və tədbirli davranışları, 1400-cü otaqdakı bəylərin fikir birliyi içərisində verdiyi qərarlar, şiddətli müzakirələr, çatışmalar, hiddət və suçlamalarla müqayisə edək. Rokfellerin qrupunda son qərar verilməzdən əvvəl, bütün bu mərhələlər bir-bir yaşanırdı. Samuelin ofisində isə hər şey başqa cürdü. Məsələn, bir sənəd, ya da məlumat tələb olunduqda, bunu ofisə gətirmək üçün bir katib çağırılır, bu katib, məlumatı, ya da sənədi Samuelə gətirənə qədər baxın, otaqda nələr olurdu. Orada çalışan bir işçinin söylədiyinə görə, "iki qardaş yerlərindən qalxıb pəncərəyə doğru gedir, arxaları qapıya çevrili halda orada dayanır, bir-birilərinə yaxınlaşır, qollarını bir-birinin çiyinlərinə dolayıb başlarını əyərək, yavaş səslə bir-biri ilə danışır və sonra birdən-birə yenə bir fikir ayrılığına düşərək bir-birindən ayrılır, dalaşmağa başlayırdılar. Bu qovğalarda mister Sam yüksək və hirsli səslə bağırır, mister Marcus isə yavaş səslə danışırdı. Ancq hər ikisi də bir-birini "dəli", "abdal", "gerizəkalı" kimi sözlərlə söyüb həqarət edirdilər. Sonra birdən-birə, hansı səbəblə olduğu məlum olmadan barışır və fikir birliyinə varırdılar. Daim tez və qəti olaraq bir-biriləriylə son müzakirələr aparırdılar. Bu da bitdikdən sonra Marcus qardaşına "Sam, onunla telefonda danış" təlimatını verir və telefon danışığının davam etdiyi müddətdə qardaşının başının üstündən ayrılmaz, danışıq bitənə qədər onu gözləyərdi. Samuelin iş sistemi belə idi.

## Ölümünə mübarizə

“Neft Savaşları” kimi adlandırılan mübarizə dövrünün formalaşmasında bir çox faktor rol oynamışdı. Rus neft istehsalının sürətlə artması, Standard Oilun mövqeyində baş verən böyük yüksəliş, istehsalın nəticəsində depolara yığılıb saxlayan neftin bu dərəcədə artdığı illərdə əvvəllər qurulan və yeni qurulmuş bazarları ələ keçirmək uğrunda aparılan mübarizə bu faktorlardan bəziləridir. 1890-cı illərdə bu mübarizəyə qatılmış olan dörd rəqib - Standard Oil, Rotşildlər, Nobellər və Rusiyadakı başqa neft istehsalçıları arasında davamlı və amansız bir çəkişmə hökm sürürdü. Bu çəkişmənin gedişi olduqca qəribə idi.

Bir də baxırdın ki, elə indicə bazarları ələ keçirmək ağır şəkildə savaşan, qiymətləri aşağı salan, bir-birlərinə kəf gələrək nefti o birilərindən daha ucuza satmağa cəhd edən bu dörd rəqib, elə beş dəqiqə sonra bir-biriləri ilə yaxınlaşmağa başlayar, dünya bazarlarını öz aralarında paylaşmaq üçün araya adamlar salıb razılaşma arayışı içinə girərdilər. Dərhal, bir dəqiqə keçməmiş bu dəfə birləşmə və haqq əldə etmənin arxasınca düşərdilər. Bəzi zamanlar bu üçünün hamısı birdən, eyni zamanda, böyük bir şübhə və etimadsızlıq atmosferində iş görərlər, ancaq heç bir şəkildə nəzakət qaydalarını aşmazdılar. Hər dəfəsində də Standard Oilun ən çətin rəqiblərini comərdcə udmağa hazır olan fövqəladə təşkilatçılıq bacarığı işə müdaxilə edir və ya Standard idarəedicilərinin sözləriylə, rəqibləri özünə qarışdırmağa və assimilyasiya etməyə çalışırdı.

1892-ci və 1893-cü illərdə Nobellər, Rotşildlər və Standard Oil dünyadakı bütün neft istehsalını feli olaraq tək bir sistem içinə soxmaq, beləliklə, dünyanı öz





aralarında paylaşmaq arzusuyla bir-birinə yaxınlaşdılar və bu məqsədlərini haradasa gerçəkləşdirdilər. Arada aparılan danışıqlarda Rotşildlərin mənafeyini qorumaqla vəzifələndirilmiş təmsilçi M.Aron belə söyləmişdi: "Çox şükür, böhran artıq sona yetdi. Çünki bu qədər uzun zamandan bəri sürüb gələn bu ölümünə mübarizədən Amerika və Rusiyada yaşayan hər kəs bezməyə başlamışdı." Rotşildlərin Fransada yaşayan qolunun başqanı olan Baron Alphonse isə problemləri həll etmək, bir nəticəyə varmaq mövzusunda bilavasitə özü çox istəkliydi. Ancaq mətbuatın yazacaqlarından elə ölümünə qorxurdu ki, Standard Oilun Nyu Yorka dəvətini qəbul edə bilmədi. Baxmayaraq ki, bir növ təzyiq edilərək, israrla olunmuşdu bu dəvət. O sıralarda Çikaqoda Dünya Fuarı keçirilir, fuarı görmək üçün dünyanın hər yerindən bir çox əcnəbi Amerikaya axın edirdi. Bundan faydalanan Standard Oil səlahiyyətlisi Libby, Baron Alphonsu Amerikaya gəlməklə çox diqqət çəkməyəcəyi haqda inandırdı. Rotşild qrupu narahat olmaya bilərdi. Bu cəhdlərə inanan Baron Nyu Yorka getdi və Broadway - 26 ünvanında Standard Oil rəhbərləriylə bir toplantı keçirdi. Toplantı bitdikdən sonra Standard Oil idarəçilərindən biri Rokfellerə verdiyi raportda Baronun son dərəcə nəzakətli bir adam olduğunu, ingilis dilini fövqəladə yaxşı bildiyini söyləyir və bunu əlavə edirdi: "Rotşildlər Rusiyada neftin nəzarətə götürülməsinə istiqamətlənən fəaliyyətə dərhal başlayacaq və ilk addımı atacaqlar. Onların bu işi uğurla başa vurmaq üçün lazımi qabiliyyətə sahib olduqlarından tamamən əminəm." Ancaq Standard Oil səliyyətlisinin diqqətindən qaçan bir şey vardı. Baron bunları söyləyərkən bir şərt də irəli sürmüş, nəzakətli, ancaq qətiyyətli sözlərlə Standard Oilun Amerikada müstəqil olaraq neft istehsalı ilə məşğul

olanların da müqaviləyə daxil edilməsini israr etmişdi. Rotşildlər Nobelləri də yanlarına alıb böyük cəhdlər göstərərək, bütün Rusiya istehsalçılarını ortaq cəbhə qurmağa razılaşdırdılar. Ortaq cəbhə Standard Oilla imzalanacaq böyük razılaşmada bir başlanğıc olacaqdı. Rotşildlər nəticə almaq üçün nə qədər böyük cəhdlər göstərsələr də, bu cəhdləri təkcə rəqiblərincə deyil, o günlərdə Bakıda tüğyan edən yoluxucu xəstəlik üzündən əngəlləndi və nəticə istədikləri qədər sürətli alınmadı. Artıq Standard Oil Amerika neftinin 85-90 faizini nəzarətə götürmüşdü. Buna baxmayaraq, qalan 10 faizi, - ki bu əhəmiyyətli miqdar idi - heç cür tamamlaya bilmir, müstəqil fəaliyyət göstərən amerikalı neftçiləri və istehsalçıları heç cür layihəyə qoşmağı bacara bilmirdi. Buna görə də Baron Alphonse ilə bağlamağı düşündükləri müqavilə heç cür həyata keçmədi.

Bunlara rəğmən, 1894-cı ilin payızında Standard Oil yenidən dünya çapında qiymət endirmə kampaniyasına başladı. Rotşildlər Standard Oilla edəcəkləri bazarlıqda Samueli bazarlıq şərtlərini yaxşılaşdırmada istifadə edəcəkləri bir vasitə olaraq görür və bu səbəblə də onunla bağladıqları müqavilənin izahı və şərhi mövzusunda çox sərt davranırdılar. Nəticədə Samuel çox dözə bilmədi. Acıacı və yüksək səslə şikayət etdi ki, bunu Standard Oil belə eşitdi. Standard Oil, şikayətçi Samuelin Rotşildlərlə arasındakı bağların zəiflədiyini düşünərək, onunla anlaşmaq üçün müzakirələrə başladı. Amerikadakı rəqiblərinə hər zaman etdiyi təkliflərə çox bənzəyən bir təklifi, daha böyük miqyasda ona da etdi. Adı çəkilən rəqiblər artaq qovğanı buraxmış, Standard Oilun qardaşı olmuşdular. Standard Oil Samuelə çox böyük pullar ödəyəcəyini, şirkətinin Standard Oilun bir parçası olacağını, özünün də





Standard Oila müdir olaraq təyin ediləcəyini və əgər istərsə, öz vətəndaşlıq hüquqlarını qorumaqda, sərbəst olacağını söyləmişdi. Bütünüylə ələ alındığında təklif kifayət qədər çəkici və cazibədar idi. Fəqət Samuel bu təklifi rədd etdi. Şirkətinin müstəqilliyini qorumaq istəyirdi. Bayrağının M.Samuel və şirkətinin adını yaşatmaq üçün gəmi dirəklərində dalğalanmasını arzulayırdı. Bəlkə də hamısından əhəmiyyətlisi, hər şeyin ingilisvarı qalmasını istəyirdi. Düşüncələrinə görə, o günə qədər əldə etdiyi uğurlar ingilis qayda-qanunlarına əsasən təmin olunmuş və İngiltərəyə aid olan bir müvəffəqiyyət idi. Samuel bunların eynilə qorunmasında israr edir, bir Amerikan şirkəti olan topluluqla birləşmək istəmirdi.

Belə olan halda, Standard Oil vaxt itirmədən bir daha rus istehsalçıları ilə təmasa keçdi və 14 mart 1895-ci ildə Rotşildlərlə və Nobel qardaşları ilə uzun zamandır həsrətini çəkdiyi böyük ittifaq müqaviləsini imzaladı. Müqavilə "Amerika Birləşmiş Ştatları Neft Sənayesi Adına" və "Rusiya Neft Sənayesi Adına" imzalanmışdı. Müqaviləyə görə dünya neft ixracat satışlarından gələn bütün gəlirin 75 faizi amerikalıların, 25 faizi isə rusların olacaqdı. Fəqət nədənsə bu müqavilə heç bir zaman qüvvəyə minmədi. Görüntüyə görə, bunun həqiqi səbəbi Rusiya hökumətinin müqaviməti idi. Beləliklə, bir dəfə daha gözlənilən və həsrəti çəkilən böyük ittifaq hələ qüvvəyə minmədən çökürdü. Bu çöküşdən sonra Standard Oil yenidən qiymətləri endirmə kampaniyasına başladı.

Standard Oilun rus neft istehsalçıları ilə böyük ittifaqa girərək, dünya neft bazarı və beynəlxalq rəqibləri üzərində yenidən nəzarəti ələ keçirməsi mümkün olmamışdı. Fəqət bunun da bir alternativi vardı. Standard Oil rəhbərlərinə görə, bu, rusları öz oyunları ilə məğlub edib diz üstə

qoymaqdı. Əslində bu mövzuda ruslar daha avantajlı vəziyyətdə idilər. Həqiqət belə idi: Batumi Sinqapurdan 11.500 mil uzaqlıqda, Filadelfiya isə Sinqapurdan 15.000 mil məsafədəydi və şübhəsiz ki, bu, ruslar üçün ciddi bir avantaj sayılırdı. Ancaq Standard Oil vəziyyəti tərsinə çevirərək, lehinə istifadə etmək istədi. Plana görə, Asiya bazarına və hətta Asiyaya çox daha yaxın olan yerlərdəki xam neftə çatdığı və onu ələ keçirdiyi təqdirdə, vəziyyət onların xeyrinə dəyişəcəkdi. Bu səbəblə, Standard Oil diqqətini Şərqi Hind Adalarının Hollandiya hakimiyyətindəki Sumatra bölgəsinə çevirdi. Malaka yoluyla Sinqapura yetişmək buxarlı gəmiylə sadəcə bir neçə saat vaxt alırdı. Bu işdə Standard Oil gözlərini uzun mübarizə illərindən sonra, balta girməmiş Sumatra meşələrindən özünə qazanclı bir peşəni dişi-dırnağıyla yaratmış bir Hollandiya şirkətinə dikmişdi. Bu şirkət o sıralar "Tac Neft" adını verdiyi öz neft məhsuluyla bütün Asiya bazarlarında nüfuzunu artırmaq yolundaydı. Beləliklə, neft istehsalında ən böyük olanlar arasında üçüncü yerdə gələn bir bölgənin də qapıları açılırdı. Bu şirkətə "Kraliyyət Hollandiya Nefti" (Royal Dutch) adı verilmişdi.

## Kraliyyət Hollandiya Nefti

Hollandiyaya aid olan Şərqi Hind Adalarında yüzillərdən bəri neft sızıntısı müşahidə edilirdi. Yerli xalq bu sızıntıdan faydalanaraq "torpaq yağı" deyə adlandırdıqları bu maddədən dərman hazırlanmasında istifadə edirdi. "Əzələ tutulmalarına" qarşı yaxşı təsir göstərdiyinə görə inandıqları bu maddəni, eyni zamanda başqa ənənəvi tibbi məqsədlərlə də istifadə edirdilər. 1867-ci ilə qədər Adalar





dənizində ən az 52 sızıntı hadisəsi qeydə alınmışdı. Ancaq bu sızıntılar çox sürməmiş, getdikcə təsirini itirmişdi. Amerikan qazyağı isə eyni illərdə inkişaf edərək, bütün dünyanın qəlbini qazanmışdı.

1880-ci ildə bir gün Aeilko Zijlker adlı Şərqi Sumar Tütün Şirkətinin müdiri olan bir nəfər Sumar sahillərinin bataqlıq bölgəsində bir tütün tarlasında gəzintiə çıxmışdı. Groningenin fermer ailələrinin birinin kiçik oğlu olan Zijlker illər öncə başına gələn uğursuz bir eşq macərasından sonra, təxminən 20 il əvvəl Şərqi Hind Adalarına gəlmiş, buranın sakit və yalnız həyatına sığınmaq istəmişdi. Tarla ətrafında dolanarkən anidən böyük bir fırtına qopdu. Zijlker gecəni bir təhər keçirmək üçün qaranlıq və istifadə edilməyən bir tütün komasına sığınmağa məcbur oldu. Yanında yerli xalqın "Mandur" dediyi yerli bir nəzarətçi vardı. Ətraf zil qaranlıq idi. Ona görə də bir az işıq olsun deyə, bu adam əlindəki məşəli yandırdı. Məşəlin saçdığı parlaq alov təpədən-dırnağa suyun içində olan Zijlkerin diqqətini özünə çəkdi. Gördüyü alovun haradan gəldiyini başa düşməmişdi. Elə bilmişdi ki, yanan taxta parçalarıdır. "Mandur" dedikləri bu adam məşəli haradan əldə etmişdi, əcəba? Bunu Mandurdan soruşdu. O da əlindəki məşəlin mədəndən çıxarılan "bal mumu" ilə suvandığını söylədi. İnsanların xatırlaya bilmədikləri qədər uzaq illərdən bu yana, yerdi xalq bu "bal mumunu" kiçik hovuzlardakı suların üzündən yığır və sonra da gəmi istehsalı da daxil olmaqla, müxtəlif sahələrdə istifadə edirdilər.

Zijlker səhərisi günü Manduru da yanına alıb hovuzlardan birinin yanına getdi. Orada ilk hiss etdiyi şey burnuna dəyən bir qoxu oldu. Bu qoxu bir neçə il əvvəl adalara gətirilmiş idxal qazyağının qoxusunu xatırladırdı. Hollandiyalı Zijlker bu çamurlu maddədən kiçik bir

miqdar götürüb tədqiq edilmək üçün Batarviaya göndərdi. Gələn cavab ümidverici idi. Çünki aparılan analizlər ortaya qoymuşdu ki, bu maddənin 59-62 faizi qazyağından ibarətdir. Nəticədən məmnun qalan Zijlker bu işi inkişaf etdirməyə qərar verdi və özünü bütün qəlbiylə bu macəraya həsr etdi. Beyninə yerləşdirdiyi bu fikir düz 10 ilə yaxın müddətdə Zijlkeri məşğul etdi. Özünü bütün varlığıyla bu işə ayırmışdı.

Bundan sonrakı ilk işi Langkatdakı yerli Sultandan bu işə dəstək istəmək oldu və bunu bacardı. Sultan Telaga Said deyilən ərazini ona bağışladı. Bu, Sumatranın şimal-şərqində, Malaka sahillərində yerləşən Balaban çayının 6 mil uzaqlığındakı balta girməmiş bir əraziydi. İlk quyunun qazılıb uğur qazanması illər aldı və ancaq 1885-ci ildə gerçəkləşdi. Qazıntı texnologiyasının çox ibtidai olması və əraziyə uyğun olmaması səbəbi ilə iş çox gecikir, vaxt uzanırdı. Bu hal sonrakı bir neçə il içində də eynilə davam etdi. Zijlkerin bu iş üçün mütəmadi pula ehtiyacı olurdu. Nəticədə bu pulu bilavasitə öz ölkəsində, Hollandiyada böyük etibar qazanaraq təmin etdi. Pul Şərqi Hind Adalarında yerləşən Mərkəzi Bankın keçmiş sədrindən və eyni ölkənin keçmiş valisindən gəlmişdi. Ayrıca, bu güclü dəstəkçilərin cəhdlərinin nəticəsi kimi, bilavasitə Hollandiya Kralı III William "Royal" (Kraliyyət) ünvanının bu macərapərəst təşəbbüs adına istifadəsinə icazə verdi. Və bunu sənədlə təsdiq etdi. Normalda bu sənəd özünü təsdiq edən və təcrübəsi olan şirtəklərə verilirdi. Ona görə də bu fakt çox əhəmiyyətli idi. Verilən sənədin qiyməti çox böyük idi və əbədiyyətə qədər davam edəcəkdi. 1890-cı ildə fəaliyyətə başlayan Hollandiya Kraliyyət Şirkəti ilk partiya malını dənizlərin o tərəfinə göndərdikdən sonra, o dərəcədə rəğbət qazandı ki, dərhal mal dövriyyəsi 4,5 dəfə artdı.





Nəticədə Zijlker qələbə qazanmışdı. Son on il içərisində sərf etdiyi bütün cəhdlərin səmərəsini görürdü. Yazdığı bir məktubda fikirlərini bu sözlərlə dilə gətirmişdi: "Bükə bilmədiyiniz əli qırın. Keçmişdəki bütün axtarışlarımda daim prinsipim bu olub: Mənim yanımda olmayan mənə qarşıdır və mən də qarşımda olan adama buna uyğun olaraq hərəkət edirəm. Bu prinpisin mənə düşmənlər qazandırdığını çox yaxşı bilirəm. Fəqət bunu da bilirəm ki, əgər bu şəkildə hərəkət etməsəydim, bu işdə əsla müvəffəq ola bilməzdim." Bu sözlər Zijlkerin baş daşına yazılsaydı, daha yerində olardı. Çünki 1890-cı ilin payızında Uzaq Şərqə gələn hollandiyalı, şirkətin fəaliyyətə başlamasından bir neçə ay sonra Sinqapura gəldiyində heç gözlənilmədən öldü. Xəyallarında qurduğu və addımladığı məqsədi həyata keçirmişdi. Məzarının üstünə xüsusi təntənə nümayiş etdirməyən, sadə bir abidə qoyulmuş, yatdığı yer bu abidə ilə göstərilmişdi.

Zijlkerdən sonra Sumarnın qonaqpərvər olmayan bataqlıq dolu meşələrində liderlik Jean Barpiste August Kesslerə keçdi. 1853-cü ildə anadan olan Kessler, Şərqi Hind Adalarının Hollandiyaya aid hissəsində özünə uğurlu bir ticarət həyatı qurmuşdu. Ancaq sonradan iş həyatında ciddi tərsliklərlə qarşılaşdı və qəlbi qırıldı. Bunun nəticəsində səhhəti pozuldu və təkrar Hollandiyaya qayıtdı. Elə Hollandiya Kraliyyət Şirkətinin ona hər şeyi yenidən başlamaq fürsəti verib iş təklif etməsi də bu illərə təsadüf edir. Kessler bu təklifi qəbul etdi. Bu adam həqiqətən doğuşdan lider idi və dəmir kimi bir iradəyə sahib idi. Həm özünün, həm də ətrafındakıların bütün enerjisini lazım olanda tək bir hədəf doğrultusunda istiqamətləndirmə qabiliyyəti vardı.

1891-ci ildə əsas işləri öhdəsinə götürəndə bütün

sənayeni qarmaqarışıqlıq içərisində gördü. Avropa və Amerikadan idxal edilən ləvazimat da daxil olmaqla hər şey, maliyyə vəziyyəti də həmçinin tamamilə nizamsızlıq içərisində idi. Həyat yoldaşına yazdığı məktubda bu mövzuda bunları söyləyirdi: "Düşünmədən edilən hərəkətlər səbəbi ilə böyük miqdarda pullar zay olub." İş şəraiti də bərbad idi. Aramsız yağan yağışlardan sonra fəhlələr bəzən bellərinə qədər suyun içində çalışmağa məcbur olurdular. Bölgədə yeməyə düyü də tapılmırdı. Çinlilərdən ibarət 8 nəfərlik bir fəhlə qrupu, bir neçə çuval düyü tapmaq məqsədi ilə 15 mil uzaqlıqda yerləşən bir kəndə gedirdilər. Yol boyu palçığa bataraq, hətta bəzən üzərək yolu başa vururdular. Bütün bunlar azmış kimi, bir tərəfdən də Hollandiyadan qarşısıalınmaz təzyiqlər vardı. Onun qarşısında durmaq lazımdı. Bu təzyiqlər işlərin tezləşdirilməsi, proqrama uyğun çalışılması və sərmayədarların məmnun edilməsi yönündəydi. Bütün bu çətinliklərlə mübarizə aparmaq və gecəni gündüzə qatıb işləyən, çox vaxtlar da xəstələnən narahat Kessler, yenə də hər şeyə baxmayaraq, işin tempini tuta bildi.

1892-ci ildə balta görməyən və girməyən meşəliklərdə yerləşən neft quyularını Balaban çayı ətrafındakı neftayırma müəssisəsi ilə bağlayan 6 mil uzunluğundakı boru xətti nəhayət, tamamlanmışdı. Fevralın 28-də qrupun hamısı bir yerə toplanıb həyəcanlı və əsəbi halda neftin neftayırma zavoduna nəqlinin baş tutmasını gözləyirdilər. Bunun nə qədər vaxt alacağını əvvəlcədən hesablamışdılar. Əllərində saat, dəqiqələri sayırdılar. Vaxt gəldi və nə yazıq ki, keçdi. Gözlədikləri neft çıxmamışdı. Narahatçılıqla gözləyən bütün seyrçiləri dərin bir ümidsizlik bürümüşdü. Kesslerə gəlincə, o, məğlubiyyətin astanasında olduğunu sezmiş və qorxusundan arxasını çevirmişdi. Elə o an





gözlənilməz hadisə baş verdi və birdən orada olanların hamısı donub qaldılar. "Çox güclü bir fırtınanın kükrəməsi" kimi bir səs eşidildi. Bu, neftin gəldiyinin elanı idi. Gələn neft Hollandiya Kraliyyət Şirkətinin neftayırma zavodunun depolarına böyük bir sürətlə və "inanılmaz bir güclə" axmağa başladı. Oradakı qələbəlik indi artıq sevinc şərqiləri söyləyirdi. Hollandiya bayrağı havada dalğalanır, Kessler və qrupu Hollandiya Kraliyyət Neftinin gələcəyinin şərəfinə qədəh qaldırırdılar.

Artıq şirkət felən işə başlamışdı. 1892-ci ilin aprelində - ki, bu tarixdə Marcus Samuel ilk gəmisini Süveyş kanalından keçirərək göndərmə hazırlığı görürdü - Kessler, "Hollandiya Kraliyyət Neft" adıyla qeydiyyatdan keçirilmiş şirkətin qaz yağını artıq bazara çıxarmışdı. Bunlara baxmayaraq, hər şeyin rəvan getdiyini söyləmək doğru olmazdı. Daim çoxalan ehtiyaclar səbəbilə Hollandiya Kraliyyət Şirkətinin maddi qaynaqları tükənmiş, hətta şirkətin mövcudluğu belə lazım olan sərmayənin təmin edilə bilməməsi səbəbilə təhlükəyə girmişdi. Kessler, yeni qaynaq axtarışları həvəsi ilə Hollandiya və Malayziyaya getdi. Aylıq qaz yağı satışı 20 min barreli keçmişdi, amma şirkət hələ də zərərdə işləyirdi.

Nəhayət, Kessler sərmayə tapdı və 1893-cü ildə Telaga Saidə qayıtdı. Burada gördükləri onu dəhşətə gətirdi. Şirkətin bütün əməliyyatları acınacaqlı vəziyyətdəydi. Kessler bu vəziyyəti belə ifadə etmişdi: "İşə dördəllə sarılmamaq, cəhalət, laqeydlik, baxımsızlıq, nizamsızlıq və sıxıntı hər yerdə açıqca özünü göstərir. Bax, bu şərtlər altında da işlərimizi genişləndirmək istəyirik. Təbii ki, işin iki ucunu bir araya gətirmək istəyiriksə." Bu məqsədlə şirkəti mümkün olduğu qədər böyük güclə işlətməyə başladı və mövcud təhlükəni bu acınacaqlı sözlərlə ifadə etdi:

"Yerində saymaq, işi buraxıb getmək deməkdir."

Qarşılarında aşılmalı olan çoxlu maneələr vardı. Bunlardan biri, Sumatranın başqa yerlərindən gələn və sayı təxminən 300-ə yaxınlaşan quldur dəstəsi idi. Bunlar əvvəlcə şirkətlə neftayırma zavodları arasındakı bağlantını müvəqqəti olaraq kəsdilər, sonra da bölgədəki binalardan bəzilərini atəşə verdilər. Atəşə vermə hadisəsində ilk dəfə 10 il əvvəl Zijlkerin gözünə sataşan ənənəvi neft məşəllərindən istifadə etdilər. Bütün bu çətinliklərə baxmayaraq, Kessler yenə də usanmadı və işləri tamamlamaq üçün komandasını bütün gücüylə səfərbər etdi. Həyat yoldaşına yazdığı məktubda yazırdı: "İşlər tərs gedərsə, işimi və şərəfli adımı itirərəm. Bəlkə də fədakarlıqlarım və fövqəladə çalışmalarımın qarşılığında tapacağım yeni bazarlara girişim əngəllənəcək. Tanrı məni bütün bu acılardan qorusun."

Kessler qərarında səbr göstərdi və müvəffəq oldu. İki il içərisində istehsalı 6 dəfə qaldırdı və nəhayət, "Hollandiya Kraliyyət Neft" Şirkətini qazanca keçirdi. Hətta hissədarlara qazanc payı ödəyəcək duruma gəlmişdi. "Hollandiya Kraliyyət Neft" mövcudiyyətini davam etdirmək üçün Uzaq Şərqdə vasitəsiz olaraq öz bazarlama şəbəkəsini qurmalı idi. Bu, onun fəaliyyəti üçün şərtdi. Həm də tankerlərdən istifadə etməyə və bazarların yaxınında öz ehtiyat bazarlarını hazırlamağa başlamışdı. Amma onları bir təhlükə də gözləyirdi. Samuelin Tanker Sindikatının çox sürətli hərəkət edərək onları qabaqlamasından, oyuna gətirməsindən qorxurdular. Vaxtında edilən bir müdaxilə ilə Hollandiya hökuməti, tanker sindikatının Şərqi Hind Adaları limanlarına daxil olmasını qadağan etdi. İzahı da vardı. Tanker Sindikatı yerli sənaye üçün bir terror ünsürü olmamalıydı.





"Hollandiya Kraliyyət Neft"in işləri heyrətverici bir sürətlə inkişaf edirdi. İstehsal 1895-1897-ci illər arasında 5 dəfə artmışdı. Ancaq Kessler və şirkət qazanılan uğurun çox şişirdilməməsi, bu mövzuda yersiz gurultu və hay-küyə yol verilməməsini istədilər. Kessler dostlarını xəbərdar edərək "Hollandiya Kraliyyət Neft Şirkəti"nə yeni ianə və bağışlamalar edilənə qədər "kasıbmışıq kimi hərəkət etməliyik" demişdi. Sonra da digər avropalı və amerikalı şirkətlərin maraqlarını Şərqi Hind Adalarına və ya "Hollandiya Kraliyyət Şirkəti"nə çəkmək istədiyini söyləmişdi. Əsil qorxduğu və qorxusu Standart Oil idi. Bilirdi ki, Standart Oilu hirsləndirərsə, Standart Oil əsil silahını, yəni qiymət endirimini işə salacaq və "Hollandiya Kraliyyət Şirkəti"ni küncə sıxışdıracaqdı.

## Hollandiyadan qaynaqlanan əngəllər

Ancaq "Hollandiya Kraliyyət Neft" uzun zaman rəqiblərinin diqqətindən qaça bilməzdi. Çox sürətli böyüməsi Asiyadakı o biri istehsalçıların da böyüməsi ilə üst-üstə düşüncə, rus istehsalçılarının səbəb olduğu üzüntüyə bərabər yeni bir başağrısı yaradırdı. Bu səbəblə də Standart Oil mümkün olan bütün ehtimalları bir-bir araşdırdı. Vaxt itirmədən Sumatrada bir imtiyaz əldə etmək üçün müzakirələrə başladı. Ancaq yerlilər arasında üsyan başlaması səbəbi ilə, bu fikirdən tələm-tələsik imtina etdi. Çindən, Saxalindən Kaliforniyaya qədər Sakit okeanın hər küncbucağında istehsal şansı axtarmağa başladı.

1897-ci ildə "Hollandiya Kraliyyət Neft"in doğurduğu təhlükələrə qarşı nə kimi tədbirlər görülə biləcəyini araşdırmaq məqsədilə Standart Oil şirkəti Asiyaya iki nümayəndəsini göndərdi. Nümayəndələr Şərqi Hind Adalarında

fəaliyyət göstərən "Hollandiya Kraliyyət Neft"in yeni müdiri ilə görüşdülər. Sonra şirkətin təsislərini gözdilər. Bununla kifayətlənmədilər. Hollandiya hökumətinin bölgədəki məmurlarını tapdılar və onlarla da görüşdülər. Bölgədə Vətən həsrəti çəkərək işləyən amerikalı işçilərdən məlumat topladılar. Nümayəndələr tez-tez Broadway - 26 ilə əlaqə saxlayır, balta girməyən meşəliklərdə buxarlı dəzgahlar quraşdıraraq girişiləcək "bu cür qarışıq işlərə" yanaşılmaması üçün səlahiyyət sahiblərini xəbərdar edirdilər. Görüləcək ən yaxşı bircə iş vardı. O da mövcud istehsalı satın alaraq etibarlı bir Hollandiya şirkəti ilə ortaqlıq qurmaq idi. İzah kimi Hollandiya Koloniya hökumətinin istifadə etdiyi metodları yerlilərə başa salmaqda gec qaldığını söyləyirdilər. Bir başqa səbəb də vardı: "Siz təşkilatı idarə edəcək qabiliyyətə malik kifayət qədər amerikalını burada saxlamağa hər zaman çətinlik çəkəcəksiniz." Standart Oilun hədəfinin uğur qazanmış şirkətləri bir araya gətirmək olduğu israrla vurğulandı. Bu şirkətlər arasında hər şeydən əvvəl "Hollandiya Kraliyyət Neft Şirkəti" gəlməliydi.

Hollandiya Şirkəti Standart Oilu dəhşətverici bir rəqib, qorxulu bir röya kimi görürdü. Standart Oil isə "Hollandiya Kraliyyət Şirkəti"nin igidliyinə böyük ehtiram bəsləyirdi. Standart Oilun adamları Kesslerin liderliyindən, izlədiyi müsbət yönümlü iqtisadi siyasətindən, yeni bazarlama sistemindən tam mənada məmnun idilər və heyranvericiliklə təsirlənmişdilər. Yazdıqları raportda belə deyirdilər: "Neft işinin gəlmiş-keçmiş bütün tarixi boyunca "Hollandiya Kraliyyət Şirkəti"nin göstərdiyi uğur və sürətli inkişaf, başqa heç bir hadisədə bu dərəcədə bariz görünməmişdir." Yeri gəlmişkən, Standart Oil nümayəndələri Sumatradakı "Hollandiya Kraliyyət Şirkəti"nin





müdiriylə görüşüb ayrılarkən, hardasa heyfslənirdi. İçlərindən biri o an bu sözləri söyləmişdi: "Nə yazıq, sizin və bizim kimi belə böyük problemləri olan iki şirkət birləşə bilmir."

İşlər bir az da qarışmışdı. Bu hadisədən az sonra Samuelə aid sindikatın da "Hollandiya Kraliyyət Şirkəti"ni izlədiyi və müşahidə etdiyi ortaya çıxdı. Hər iki qrup arasında 1896-cı ildə və 1897-ci ilin əvvəllərində şiddətli mübahisələr baş verirdi. Ancaq hədəfləri bir-birindən çox fərqliydi. "Hollandiya Kraliyyət Neft" Asiyada ortaq bir bazarlama sistemi qurulmasını istəyirdi. Marcus və Samuel Samuel isə bundan daha böyük şeylərin arxasınca düşmüşdülər. Məqsədləri "Hollandiya Kraliyyət Neft Şirkəti"ni satın almaqdı. Aradakı müzakirə və mübahisələrdə hər iki tərəf bir ağızdan təmin olunacaq maraqlardan bəhs edir, ancaq hər şey sözdən ibarət qalırdı. Sam, Hague şəhərində hollandiyalı müdirlərlə keçirdiyi və daha çox sükutla ötüşən buz kimi soyuq ab-havanın hakim olduğu toplantını qardaşı Marcusa bu sözlərlə nəql edirdi: "Hollandiyalıların etdiyi sadəcə oturmaq və heç bir şey söyləməməkdir. Bu sükut istədiklərini əldə edənə qədər də davam edəcək. Amma şübhəsiz ki, istədiklərini əldə edə bilməyəcəklər." Vaxt keçir, heç bir irəliləyiş olmurdu. Aralarındakı rəqabətə baxmayaraq, Marcus və Kessler bir-biriləri ilə dostanə əlaqələri qoruyub saxlaya bilirdilər. 1891-ci ilin sentyabr ayında Kesslerə yazdığı məktubda Marcus incə bir dillə belə deyirdi: "Mənə elə gəlir ki, günlərin bir günü şərtlərdə razılaşacağıq. Bunun belə də olması lazımdır. Çünki razılaşa bilməsək, hər iki tərəf də bir-birinə qarşı dağıdıcı bir yarışa girişəcək."

Standart Oil isə arada keçən müzakirələrdən xəbərdardı. Hər iki şirkətin gec-tez birləşib, onun əleyhinə güclü

bir ittifaqa girəcəyindən qorxurdu. O günlərdə Standart Oilun rəhbərlərindən biri düşüncələrini belə ifadə etmişdi: "Hər keçən gün vəziyyəti daha da ağırlaşdırır və hər şeyə hakim olma imkanlarımızı təhlükəyə aparır. Əgər dərhal hərəkətə keçib nəzarəti ələ götürməsək, hegemoniya ruslara, Rotşildlərə və ya bir başqa şirkətə keçəcək." Standart Oil, daha əvvəl də Ludwig Nobel və Marcus Samuelin şirkətlərini ələ keçirmək istəmiş, ancaq bacara bilməmişdi. İndi 1897-ci ilin yazında Standart Oilun baş xarici nümayəndəsi olan W.H.Libby, Kessler və "Hollandiya Kraliyyət Şirkəti"nə rəsmi təklif təqdim edirdi. Təklifə görə, "Hollandiya Kraliyyət Şirkəti"nin sərmayəsi dörd dəfə artırılacaq, bütün əlavə hissələr Standart Oila veriləcəkdi. Libby, Standart Oilun "Hollandiya Kraliyyət Şirkəti"ni "öz əlinə almaqla heç bir niyyəti olmadığını" dönə-dönə vurğuladı. Hədəflərinin çox səmimi olduğu haqqında Kesslerə təminat verir, "istədikləri şeyin sadəcə yaxşı bir sərmayə yatırımı" olduğunu israrla söyləyirdi. Kessler, Libbynin sözlərinə və təkliflərinin səmimiyyətinə aldanmamışdı. Kesslerin israrla təkrarladığı nəsihətlərə razılıq verən "Hollandiya Kraliyyət Neft Şirkəti"nin İdarə Heyəti bu təklifi rədd etdi.

Planları alt-üst olan Standart Oil, bu dəfə Şərqi Hind Adalarının Hollandiyaya aid hissəsindən yeni bir imtiyaz əldə etmək üçün yeni görüşmələrə başladı. Ancaq həm Hollandiya hökumət nümayəndələri, həm də "Hollandiya Kraliyyət Şirkəti"nin özü vəziyyətə müdaxilə etdilər və Standart Oilun imtiyaz əldə etmək cəhdlərini puça çıxardılar. Amerikalı bir nümayəndə "Hollandiyadan gələn maneçiliklərin amerikalılar baxımından dünyada həll edilməsi ən çətin problem olduğunu" bəyan edərək, sözlərinə bunları əlavə edirdi: "Bunun səbəbi odur ki,





amerikalılar hər zaman tələskəndir. Ancaq hollandiyalılar isə heç bir zaman heç yerə tələsmirlər." Bunlara baxmayaraq, "Hollandiya Kraliyyət Şirkəti" özünü təhlükəsizlik şəraitində hiss etmirdi. Şirkətin müdirləri və İdarə Heyəti Standart Oilun Amerikada necə işlədiyini, rəqiblərini faş etmədən onları narahat edərək, hissələrini necə satın alıb, sonradan təsirsiz hala gətirdiyini, zərərsizləşdirdiyini bilirdi. Belə bir tələyə düşməmək üçün əvvəlcədən hazırlıqlı olmağı qərarlaşdırdılar və bu məqsədlə "alternativli hissə" adlanan özəl bir hissə sənədi növü müəyyənləşdirdilər. İdarə Heyətinin nəzarət mexanizmi bu hissə sahiblərinin əlində olacaqdı. Alternativli hissə sahibi ola bilmək də çətinləşdirildi. Bunun üçün bu seçkin topluluğa, ancaq dəvətlə daxil ola bilmək əsası gətirildi. O günlərdə Standart Oilun rəhbərlərindən biri ümidsizlik içərisində "Hollandiya Kraliyyət Şirkəti"nin bir Amerikan şirkəti olan Standart Oilla heç bir zaman birləşməyəcəyini söyləyirdi. "Hollandiya Kraliyyət Şirkəti" baxımından yolları sonuna qədər bağlayan şey təkcə "hissi, emosional bir əngəl" deyildi. İşin içində praktiki baxımdan da bir problem vardı. Bunun həqiqi izahı belə idi: "Hollandiya Kraliyyət Neft Şirkəti"nin hissədarları, şirkətin qazancından 15% pay götürməyi böyük şey hesab edir və bundan ləzzət alırdılar.

# 4

# YENİ BİR YÜZİL

Bəzi müstəqil istehsalçılar öz aralarında Standart Oil Şirkətini "Köhnə ev" deyə adlandırırdılar. Bu şirkət qurulduqdan sonra böyük və əhəmiyyətli fəaliyyət göstərmiş, kölgəsini hər yerdə hiss etdirmişdi. Artıq Amerikadakı mövcud olan neft ərazisinin hər santimetrinə hakimdi. Əcnəbi rəqibləri xarici ölkələrdə "Köhnə ev"ə meydan oxuyurdular. Ancaq Birləşmiş Ştatların hər yerində açıq təslimçilik sezilirdi. Görüntüyə görə Standart Oilun hər şeyə sahib olması və hər şeyi kontrol altında tutması qaçılmaz idi. Yenə də 1890-cı illərdə və yeni əsrin ilk 10 ili içərisində baş verən hadisələr "Köhnə ev"in üstünlüyünü təhdid edirdi. Neft sənayesinin əsasını təşkil edən bazarlar şiddətlə sarsılır və dağılma təhlükəsi daşıyırdılar. Tam bu əsnada Birləşmiş Ştatların istehsal xəritəsində də dramatik dəyişikliklər müşahidə olundu. Yeni törəyən bəzi əhəmiyyətli amerikalı rəqiblər Standart Oilun hegemonluğuna boyun əymək istəmirdilər. Artıq Standart Oil da bilirdi ki, dünya sürətlə böyüyür. Bu böyümə sadəcə dünya üçün deyil, Birləşmiş Ştatlar üçün də xarakterikdi.

## İtirilən və qazanılan bazarlar

XIX əsrin axırlarında süni elektrikə olan ehtiyac, əsasən, qaz yağı, havaqazı və mumla qarşılanırdı. Havaqazı bölgədəki qaz idarəsindən, kömür, neft və ya birbaşa təbii qazdan istehsal vasitəsilə əldə edilir, sonradan lazımi yerlərə nəql edilirdi. Bu üç qaynağın üçü də bir-birinin eyni





olan ciddi bəzi problemlər yaradırdı. Hər üçü də kirliliyə səbəb olur, tüstü-duman çıxarır, oksigen istehlak edirdi. Bundan başqa, hər zaman üçün yanğın təhlükəsi də vardı. Yanğın təhlükəsi səbəbilə bir çox binalar işıqlandırılmır, tamamən qaranlıqlar içərisində saxlanılırdı. Bu binalar arasında Gore Hall və Harward Kollecinin kitabxanası da vardı.

Qazyağı, havaqazı və mumun hegemonluğu uzun müddət davam edə bilməzdi. Bir çox kəşflərin mucidi və kəşfləri arasında mimioqraf, fonoqraf, radio daşları və kino olan Thomas Alva Edison 1877-ci ildən bəri elektriklə işıqlandırma mövzusuna girişmişdi. İki il içində işığa davam gətirən akkor elektrik ampulunu icad etmiş və inkişafına nail olmuşdu. İcad etməyi bir xobbi kimi yox, iş olaraq qəbul edirdi. Yazdığı bir məktubda belə deyirdi: "Ticari dəyər daşıyan şeylər üzərində çalışmalara davam etməliyik. Bu laboratoriya onun üçün inşa edildi. Bütün həyatını bir arının dərisini araşdırmaqla keçirən və qara çörəklə bir bakal pivəsini tapdığından bəxtiyar olan ixtiyar alman professoruna oxşamamalıyıq." Edison etdiyi kəşfləri ticarət dünyasına açmağa başladı və bu işlərlə məşğul olarkən elektrik istehsalı sənayesini yaratdı. Elektrikin qiymətini müəyyənləşdirmək mövzusunda belə diqqətlə çalışdı. Bundakı məqsədi elektrik qiymətini şəhər qazı qiyməti ilə eyni səviyyəyə, yəni 2,25 dollara gətirməkdi. Bunu edərkən, elektrikin şəhər qazıyla rəqabət edəcəyini düşünürdü. Sərhədləri son zamanlarda Wall Streeti də içinə alan Aşağı Manhattanda bu məqsədlə bir göstəri-layihə mərkəzi qurdu. Bir gün, 1882-ci ildə sahib olduğu bankın müdiri olan dostunun ofisində ayaqüstə duraraq, bir düyməyə basdı və bir an içərisində istehsal müəssisəsini çalışdırmağa başladı. Bununla sadəcə yeni bir sənaye

sahəsinə qapı açmış olmurdu, eyni zamanda bütün dünyanı dəyişdirəcək bir kəşfə də qapı açmış olurdu. Elektrik bir çox müsbət keyfiyyətlər daşıyır, yüksək keyfiyyətli işıq verir, istehsalçının çox da diqqətli olmasını lazım bilmirdi. Tapıla bildiyi yerlərdə ona qarşı müqavimət göstərmək mümkün deyildi. 1885-ci ilə qədər 25.000 elektrik ampulu istifadəyə verilmiş, bu rəqəm 1902-ci ilə qədər 18 milyona çatmışdı. Artıq yeni işıq qaz yağından yox, elektrikdən əldə edilirdi. Təbii qazın satıldığı sənaye bazarları artıq isitmə və bişirmə vasitələrinə çevrilir, Amerikan neft sənayesinin mərkəzi sayılan qaz yağı istifadəsi get-gedə Amerikanın əyalətləri ilə məhdudlaşırdı.

Yeni kəşf edilən və sürətlə inkişaf tapan elektrik texnologiyası qısa müddətə Avropaya da yayıldı. 1882-ci ildə Londonun Holborn Viaduct stansiyasında elektriklə işıqlandırma sistemi inşa edildi. Elektrik enerjisi və elektriklə işlədilən sənaye sahələri Berlində o qədər sürətlə yayıldı və mənimsəndi ki, şəhər qısa zamanda ad dəyişdirərək "Elektropolis" adıyla tanındı. Londonda isə elektrikin yayılması bu dərəcədə sürətli olmadı və ancaq bəzi təhlükəli mərhələlərdən sonra həyata keçirildi. XX əsrin əvvəllərində Londona elektrik tam 65 dəyişik elektrik idarəsindən verilirdi. "Elektrikdən istifadə etməyə maddi imkanı olanlar səhər yeməyində yedikləri çörəyi bir elektrik idarəsinin verdiyi elektriklə qızardır, ofislərini ayrı bir idarənin verdiyi enerji ilə işıqlandırır, yaxınlıqda yerləşən bir dostunu ziyarətə gedərkən, başqa bir idarənin enerjisindən istifadə edirdi."

Elektrikdən istifadə edə bilənlər üçün bu enerji həqiqi bir nemət idi. Ancaq sürətli inkişafı baxımından neft sənayesi və xüsusilə "Köhnə ev" üçün böyük təhlükə törənə bilərdi. Bu səbəblə də Standart Oil çox keçmədən, ən böyük





bazarı olan işıqlandırma bazarını itirəcək olarsa, qaz yağı istehsalındakı nəhəng yatırımlarını, neftayırma zavodlarını, neft kəmərlərini, ehtiyat təsislərini və yayım təşkilatları ilə birlikdə onu necə bir gələcəyin gözlədiyini düşünməyə başladı.

Bazarlardan biri ortadan silinən kimi, dərhal ardınca yeni bir sənaye sahəsi törəyirdi. Bu, "atsız araba", ya da başqa bir adı ilə avtomobil sənayesi idi. Bu maşınların bəziləri daxildən alışıb işləyən mühərriklərin təmin etdiyi enerji ilə çalışırdı. Bu maşınlar qaz yağının zəncirvari partlayışları ilə güc toplayır, ancaq gurultulu, sağlamlığa pis təsir göstərən və etibarlı olmadığı üçün nəqliyyat sahəsində o qədər də qəbul olunmurdu. Ancaq 1895-ci ildəki Paris-Bordeaux-Paris yarışmasından sonra mühərriklə işləyən nəqliyyat vasitələri etimad qazanmağa başladı. Bu yarışmada saatda 15 mil kimi fövqəladə bir sürət rekordu qırılmışdı. Bundan sonrakı ildə Rhode Islandın Narragansett bölgəsində dünyanın ilk avtomobil yarışması keçirildi. Maşınlar o qədər yavaş irəliləyir və bu hal o qədər cansıxıcı olurdu ki, ilk dəfə olaraq insanların etirazları ilə qarşılaşırdı. Bəziləri "at bundan daha yaxşıdır. Get, bir at gətir!" deyə bağırırdılar.

Bütün bu mənfi reaksiyalara baxmayaraq, həm Amerikada, həm də Avropada "atsız araba" getdikcə rəğbət qazanır, təşəbbüskar mucidlərin beyinlərini məşğul edirdi. Bu təşəbbüskarlardan birinin adı Henry Ford idi. O, Detroitdəki Edison İşıqlandırma Şirkətinin baş mühəndisi vəzifəsində işləyirdi. Ford işindən istefa verdi və özünü sonradan öz adını verdiyi qaz yağı enerjisiylə işləyən bir nəqliyyat vasitəsinin hazırlanma, emal və satış işlərinə həsr etdi. Henry Ford istehsal etdiyi ilk maşını bir adama satmışdı. Bu adam da avtomobili bir başqasına, A.W.Hall

adlı birisinə satmışdı. Hall sonralar bu mövzuda Forda "Atsız araba əfsanəsi"nə heyran olduğunu söyləyəcəkdi. Hall gələcək illərdə bütün sürücülərin qəlblərində özünə xüsusi bir yer edəcəkdi. Və bu adam tarixə düşən ilk "istifadə olunmuş avtomobilin alıcısı" idi.

1905-ci ildə artıq benzin enerjisi ilə avtomobil istehsal edilmiş və bu, buxar və elektriklə işləyən nəqliyyat vasitələrini mütləq məğlubiyyətə düçar etmişdi. Bu da bu sahədə fəaliyyət göstərən bütün rəqiblər üzərində tam bir hegemoniyaya gətirib çıxarmışdı. Yenə də bəzilərində avtomobillərin sağlam olmadığı və etimada layiq görülmədiyi barədə tərəddüdlər vardı. Ancaq 1906-cı ildə baş verən San Francisco zəlzələsi ilə bu şübhə və tərəddüdlərin hamısı - bir daha gündəmə gəlməmək şərti ilə - unuduldu və bir kənara buraxıldı. Zəlzələdə 200 ədəd özəl avtomobil qurtarma çalışmalarına qatılmaq üçün xidmətə məcbur edildi və bunlar da yanacaq kimi Standart Oilun bağışladığı 15 min qalon benzin istifadə etdilər. Zəlzələ vaxtı 3 avtomobili 24 saat fasiləsiz istifadə edən San Francisconun o günkü yanğınsöndürmə şefinin müavini sonradan bu haqda bunları söyləmişdi: "Zəlzələ fəlakəti olmamışdan avtomobil haqqında olduqca şübhəli idim. Heç bir etibarım yox idi. İndi isə bütün qəlbimlə ona minnətdaram." Elə o il məşhur yazarlardan biri öz qəzetində "avtomobilin artıq bir zarafat və məsxərə mövzusu olmaqdan çıxdığını" yazır, "bunun yerinə at gətir" deyə bağıranların qızışdırıcılıqlarının gedərək azalmaqda olduğunu söyləyirdi. Bundan da əhəmiyyətli şeylər olurdu. Artıq avtomobil bir növ etibar simvolu olmuşdu. Günün məhşur yazarlarından biri yazırdı: "Artıq avtomobil müasir dövr üçün tapınacaq bir şey, bir ilahdır. Motorlu avtomobili olan biri buna mindiyi zaman sadəcə gəzintinin verdiyi ləzzətin fərqinə varmır,





eyni zamanda, küçədə yeriyən xalqın da heyran qaldığı birinə çevrilir və ...qadınlar tərəfindən də bir Tanrı kimi sevilir." Avtomobil sənayesinin böyüyüb inkişaf etməsi ağıllara durğunluq verəcək bir sürətlə baş verdi. Avtomobil alanların qeydiyyatına baxıldığında bu, açıqca görünür. 1900-cü ildə Amerikada 8.000 adam avtomobil alarkən, 1912-ci ildə bunların sayı 902.000-ə çatırdı. 10 il içərisində avtomobil praktik bir fantaziya olmaqdan çıxmış, insan oğlunun görünüşünü və alışqanlıqlarını təsiri altına alan və onu dəyişdirən bir şey olmuşdu. Və bütün bunlar neftin sayəsində baş vermişdi.

O günə qədər benzin, neftayırma prosesinin əhəmiyyətsiz bir hissəsi olmaqdan başqa bir şey deyildi. Bir az kimyaçılar tərəfindən dəyərli bilinir, sobalarda yanacaq kimi istifadə olunur, bunlardan başqa sahələrdə elə bir fayda daşımırdı. 1892-ci ildə bir qalon benzinini 2 sentə satmağa müvəffəq olan bir istehsalçı, bu uğura görə özünü təbrik etmişdi. Bu hal mühərriklə işləyən avtomobilin ortaya çıxmasıyla dəyişdi. Artıq benzin, qiyməti hər gün artan dəyərli bir məhsula çevrilmişdi. Bu sıralarda benzindən başqa, ikinci böyük bir bazar da inkişaf etməyə başlamışdı. Bu, fabrik qazanlarında, qatar və gəmilərdə getdikcə daha çox ehtiyac duyulan mazot bazarı idi. Neftin gələcəkdəki taleyi haqqında düşünülən pessimist düşüncələr sakitcə həllini tapmış, ancaq bu dəfə də başqa bir pessimist problem ortaya çıxmışdı. İnkişaf etmə perspektivi çox yüksək olan bu əlverişli bazarlar necə bəslənəcəkdi? Pensilvaniya bölgəsi istehsalda açıqca enişə keçmişdi. Ohiodakı Lima neft bölgəsi və Indianadan gələn neft isə kifayət etmirdi. Əcəba, yeni neft yataqları tapılacaqdımı? Tapılacaqsa, haradan tapılacaq və kimlərin nəzarətinə keçəcəkdi?

## Yeni Şirkətlər

Standart Oilun neft istehsalındakı hegemonluğu hələ XIX əsrin axırlarından aşınmağa başlamışdı. İstehsalçılar və neft işi ilə məşğul olanlar müstəqillik istəyirdilər. Bunlardan bəziləri uğur qazana bildilər. 1890-cı illərin əvvəllərində Pensilvaniyada bir neftçi qrupu neftayırma zavodlarının sahibləri ilə bir qrup formalaşdırdılar. Qurduqları şirkətin adı "İstehsalçılar və Neftayırma təsisləri sahiblərinin Neft Şirkəti" idi. Bu adamlar neftlərini "Neft Bölgələri"ndən çıxarıb, rəqabətə uyğun bir qiymətlə dəniz sahillərinə çatdırmadıqca "Köhnə ev"ə qarşı heç bir şanslarının olmadığının fərqindəydilər. Bu səbəblə öz neft kəmərlərini inşa etməyə başladılar. Bir yandan dəmiryolçuların silahlı hücumlarına müqavimət göstərməyə çalışarkən, bir yandan da, lokomotivlərdən üstlərinə tökülən buxar, qaynar su və yanar kömürdən qorunmağa çalışırdılar. Standart Oilun "dəmir yumruqlu əlləri" bir daha hərəkətə keçmişdi. Amma hər şeyə baxmayaraq, boru xətti qurulmuş, Standard Oil kəmərin qarşısını saxlaya bilməmişdi.

1895-ci ildə müxtəlif müstəqil şirkətlər birləşib dənizlərin o tayında yerləşən ölkələrdə və Şərq Sahilində bazarlama təşkilatlarını qurmaq üçün "Saf Neft Şirkəti" adıyla bir şirkət qurdular. Saf Neft bir tröst (əmanətçi şirkət) olaraq qurulmuş, üzvlərinə "Müstəqillik Müdafiəçiləri" adı verilmişdi. Standard Oil, adəti üzrə inadla Saf Neftə aid müəssisələrin bütün şöbələrini satın almaq və şirkətin nəzarətini ələ keçirmək istəyirdi. Ancaq bu istiqamətdə bəzi irəliləyişlərə baxmayaraq, uğur qazana bilmədi. Aradan keçən bir neçə il müddətində Saf Neft





bütün mənalarda birləşməni bacarmış, əhəmiyyətli ixracat bazarlarına sahib olan bir şirkətə çevrilmişdi. Standard Oilla müqayisədə, onun nəhəng, fil boyda cüssəsi qarşısında çox kiçik görünən Saf Neft, müstəqil istehsalçıları və neftayırma təsisləri ilə birlikdə arzuladığı xəyalını həyata keçirmişdi. Standard Oila uğurla müqavimət göstərmiş və özünü onun təsir dairəsindən kənara çıxarmağı bacarmışdı. Standard Oil, istəkləri xaricində baş verən bu hadisəyə özünü heç cür alışdıra bilmirdi. Amma ölkəsində inkişafda olan böyük və əbədi rəqabətə artıq alışmaq məcburiyyətində idi.

Ancaq Saf Neftin mövcudluğu bütünlüklə Pensilvaniya bölgəsinə bağlıydı. Bundan başqa, qanunlar neftlə məşğul olma işlərinin Birləşmiş Ştatların Şərqində olmasını əmr edir və başqa bölgələrdə neft axtarışlarına qadağa qoyurdu. Bunun gətirdiyi bədbinlik, yeni neft istehsalının ortaya çıxması ilə daha da tündləşirdi. Hərçənd ki, o əsnalarda qitənin Qərbində - Kolorado və Kansasda yeni neft yataqları kəşf edilirdi.

Bunlardan başqa, Qərbdə yerləşən Kaliforniyanın Qayalıq Dağlarının civarında da neft yataqları tapılmışdı. Torpaqda görünən asfalt sızıntıları və qətran qalıqları bəzilərində, burada neft ehtimalının olması qənaətini yaradırdı. 1860-cı illərdə Los Ancelesin şimalında yeni bir "neftə hücum" hadisəsi yaşandı. Jalə Universitetinin qiymətli professorlarından Benyamin Siliman (Corc Bissel və Polkovnik Drakeyə 1850-ci illərdə neft araşdırma icazəsi verən alim) həmişə öz işindən başqa işlərdə də işləməyi sevdiyindən, Kaliforniyanın neft şirkətlərinin bəzilərində müşavir vəzifəsinə dəvət olundu. İşləmək həvəsi və həyəcanı heç bir zaman tükənməyən bu adam yazdığı bir məktubda "bir neft təsərrüfatının dəyəri, o təsərrüfatdan

çıxarılan ən super keyfiyyətli neftin gətirdiyi inanılmaz sərvətdən irəli gəlir" deyə yazarkən, başqa bir məktubunda da bu cür yazırdı: "Burada çıxarılmağa əlverişli olan bol miqdarda neft var." Ancaq Silimanın analizlərinin bu dərəcə yüksək qaz yağı potensialı göstərməsinin şübhəsiz, bir səbəbi vardı: Analiz etdiyi nümunə, Cənubi Kaliforniyadakı bir dükanın rəflərindən götürülmüş birinci kateqoriya işlənib hazırlanmış Pensilvaniya qaz yağısı ilə zənginləşdirilmişdi və Siliman, bu nümunəni əsas götürərək qərar vermişdi. Ancaq 1860-cı illərin axırlarında Los Ancelesdə partlayan neft bazası Kaliforniyanın gözləntilərinə ciddi bir zərbə endirəcəkdi. Bu hadisədən sonra professor Silimanın onsuz da sarsılan etibarı daha çox sarsılacaq, bu alimin özünü aşağılanmış, təhqir olunmuş hiss etməsinə səbəb olacaqdı. Yeri gəlmişkən, hiss etdiyi aşağılanma və təhqir olunma hissi o dərəcədə şiddətli idi və o qədər ağır nəticələrə səbəb oldu ki, bir zamanlar Amerikan elminin ən öndə gələn simalarından biri olduğu halda, nəticədə Jalə Universitetinin kimya professorluğu vəzifəsindən istefa vermək məcburiyyətində qaldı.

Ancaq aradan sadəcə 10 il keçəndən sonra Siliman yenidən etibar qazanacaq, yenidən vəzifəyə çağrılacaqdı. Vaxtilə "neft çıxacaq" deyə tariflədiyi bölgələrdə, yəni Ventura Bölgəsi və o zamanlar sadəcə 8 min əhalisi olan Los Ancelesin şimalında yerləşən San Fernando Vadisinin şimal tərəfində az miqdarda da olsa, neft çıxarılmağa başlandı. O günlərdə ətrafda bir qorxu hissi baş qaldırmış, bölgəyə kənardan ucuz və keyfiyyətsiz neft gətiriləcəyi xəbərləri yayılmışdı. Bu qorxu, idxal olunan neftə tətbiq olunan gömrük vergisinin ləğv olunmasından qaynaqlanırdı. Gömrük vergisinin ləğv olunması ilə Kaliforniyanın yerli neft sənayesinin nəfəsinin kəsiləcəyi zənn edilirdi.





Ancaq cəld tərpənilərək edilən bir siyasi manevr nəticəsində, idxal neft üzərindəki gömrük vergisi azaldılmaq bir tərəfə, əksinə, iki qatına çıxarıldı. 1890-cı illərin əvvəllərində ilk böyük miqdarda neft əvvəlcə Los Anceles bölgəsindən çıxarılmış, bunu Kaliforniyadan və San Juaqin Vadisindən çıxarılan daha böyük miqyaslı partiyalar davam etdirilmişdi. Kaliforniyadakı neft istehsalı həqiqətən dramatik inkişaf yolu keçərək, 1893-cü ilin 470.000 barrelindən 1903-cü ilin 24 milyon barrelinə gəlib çatdı. Bunu təqib edən 12 il ərzində Kaliforniya, neft çıxarmada birinciliyə yüksəldi. 1910-cu illərə yaxınlaşanda Amerikanın neft istehsalı 73 milyon barrelə çatırdı və bu, bütün neft istehsal edən ölkələrin hamısından daha böyük istehsal idi və bütün dünyanın çıxardığı neftin 22 faizi deməkdi.

Kaliforniya neft istehsalında artıq hakim olan şirkət "Unocol" deyə tanınan Union Oil Şirkəti idi. Bu şirkət 1890-cı ildən bəri Standard Oil xaric, bütün böyük və birləşmiş şirkətlər arasında müstəqilliyini qoruyub saxlayan yeganə şirkət idi. Union Oil və Uniondan kiçik olan bəzi Kaliforniya şirkətləri, digər şirkətlərin etdiklərinin əksinə, işin daha rəvan getməsi üçün professional geoloqlardan kömək istəmişdi. Əslində bu, ölkənin başqa yerlərindəki şirkətlərin davranışları ilə müqayisə edildiyində, onların etdiklərinin tamamilə tərsi idi. Həqiqət budur ki, Birləşmiş Ştatlarda neft geoloqluğu peşəsi ilk dəfə olaraq Kaliforniyada əhəmiyyət qazandı. 1900-1911-ci illər arasında Kaliforniya şirkətlərində işləyən geoloq və geoloq mühəndislərinin sayı 40-a çatmışdı. Bu, bəlkə də Birləşmiş Ştatların bütün əyalətlərində çalışan bütün geoloqların sayından çox idi. Bəlkə hətta dünyanın hər hansı yerində bu işdə işləyənlərin də sayını aşıb keçirdi. Union Oil Şirkəti bütün yollardan istifadə edərək, Standard Oilun pəncəsinə

keçməməyə çalışsa da, Standard Oil bir yolunu tapıb Qərb bölgəsindəki neft bazarlamaçılığı və dağıtımına əl qoymağa nail oldu və 1907-ci ildə "Kaliforniya Standard Oil" adı altında istehsala başladı. Kaliforniya, əsrin dönüş nöqtəsində ən böyük neft əyaləti olaraq meydana gəlsə və inkişaf etsə də, ölkənin başqa əyalətlərindən uzaq qalmış və yalnızlığa məhkum olunmuşdu. Bundan başqa, əksər bazarlar da Birləşmiş Ştatların vətəndaşlarının əksəriyyətinin yaşadıqları Şərqi Qayalıq Dağlar bölgəsində deyil, Asiya tərəfində idi. İş görmək və iş sahəsi baxımından yanaşılarsa, Kaliforniyaya başlı-başına ayrı bir ölkə demək mümkündü. Birləşmiş Ştatların başqa əyalətlərində get-gedə hiss olunan neft ehtiyacı və ehtirasına bir həll yolu axtarmaq artıq şərtdi. Ancaq bu həll yolu başqa bir yerdə axtarılmamalıydı və nəticədə də bu cür oldu.

## Patillo Higginsin röyası

Patillo Higgins adlı adam bir qolu olan bir makinist idi. Odun ticarəti ilə məşğul olmuşdu. Təhsilini öz-özünə almışdı. Son günlərdə beynini bir məsələyə istiqamətləndirmiş, hey düşünür... düşünürdü... Texasın cənubşərqində, Meksika körfəzi ilə birləşən Sabine gölünün üzərində yerləşən Port Artura 19 mil uzaqlıqdakı kiçik Beaumont qəsəbəsinə yaxın, düzənlik sahil ərazisinin üstündə yüksələn bir təpənin ətəklərində neft olduğuna inanmışdı və öz içində bunun xəyallarını qurmuşdu. Bu fikir onun ağlına ilk dəfə Protestant Bazar Məktəbindəki dərslərə qatılmaq üçün yol gedəndə, arabir təpədə gəzintiyə çıxan zamanlarda gəlmişdi. Gəzinti əsnasında 6-ya qədər kiçik çaya rast gəlmiş və bunların içində qaz damlacıqları olduğunu müşahidə etmişdi. Elə o yerdəcə torpağın içinə





bir dəyənək sancaraq, uçuşan qazları yandırdı. Bunu seyr edən ətrafdakı uşaqlar, gördükləri mənzərədən xoşhal olmuş halda əylənir və gülüşürdülər. Higginsə gəlincə, o, baş verən hadisədən çaşıb qalmış, fikri-zikri alt-üst olmuşdu. Vəhşi öküzlərin meydan suladığı Spindletop adlanan bu təpə, rəvayətə görə adını içinə qapalı geometrik nəsnə kimi böyüyən yerli bir ağacdan almışdı. Higgins təpəyə "Böyük Təpə" adını verdi. Təpə nə olursa olsun, beynindən çıxmır, bu mövzunu heç cür ağlından silə bilmirdi. İrəlidəki günlərdə o bölgənin neft sahəsi olduğuna inanmasının əsas səbəbi kimi çaylardan tapıb götürdüyü kiçik qaya parçalarını göstərəcək, onda formalaşan bu inancın bu qaya parçalarından qaynaqlandığını söyləyəcəkdi. Qayaların baş verən bu hadisə ilə nə əlaqəsi olduğunu isə nə o gün, nə də sonralar heç bir zaman açıqlaya bilmədi. Ancaq həqiqət bu idi ki, qayaların bu hadisə ilə əlaqəsi vardı.

Artıq "Böyük Təpə"də neft olduğuna tamamən inanan Higgins, özünü geologiyaya həsr etdi və geologiyadan bəhs edən bir kitab satın alaraq, həvəslə oxumağa başladı. 1892-ci ildə də "Glady Şəhər Neft - Qaz və İstehsalat Şirkəti"ni yaratdı. Glady, Protestant Məktəbində bərabər olduğu kiçik bir qızın adı idi və Higgins, şirkətini bu qızın adı ilə xatırlamaq istəmişdi. Özünü tanıtmaq məqsədi ilə yazılan reklam məktublarında şirkət, çox çarpıcı başlıqlardan istifadə edərək, iki dəst neft tankerinin, bir dəst dumanı çıxan bacanın və bir neçə kirəmit binanın şəkillərini göndərsə də, heç bir xeyri olmadı. Şirkətin bütün əziyyətləri boşuna getdi. Higgins, bu sahədə irəlidəki günlərdə yenidən bir neçə cəhdlər etsə də, əməyi puç oldu.

Bu zaman başqa bir yerdə, Texasda kiçik miqyasda neft istehsalı başlamaq üzrəydi. Korsikana adlı bu kiçik

qəsəbədə şəhərin öndə gələn şəxsləri, su qıtlığının şəhərin ticari inkişafını əngəllədiyi səbəbi ilə, su quyuları qazmaq üçün yeni bir şirkət yaratdılar. Bu yeni şirkət 1893-cü ildə su əldə etmək üçün qazıntılara başladı. Amma su üçün qazıntı apardıqları yerdə, neft tapdılar. Sonrakı günlərdə də bir çox qazıntılar aparıldı. Artıq Texas neft sənayesi doğulmuşdu, sadəcə onun böyüməyi qalırdı. Korsikanada qazıntı üsulu kimi yeni və daha əlverişli bir metoddan istifadə edilməyə başlanıldı. Bu, "burğu üsulu ilə qazıntı" adlanan və su quyusu texnikasından nümunə götürülərək, neft axtarma fəaliyyətlərinə tətbiq olunan metod idi. Bu üsuldan istifadə olunmasına baxmayaraq, Korsikana, istehsalda sürətli addımlar ata bilmir, çıxan neft qaneedici olmurdu. Məsələn, 1900-cü ilə qədər əldə edilən neft istehsalı, gündə 2.300 barreli keçə bilmədi. Bu zaman Beaumontda Patillo Higgins hələ də inandığı xəyalından əl çəkə bilmir, Spindletop neft potensialını inkişaf etdirmə təşəbbüslərini davam etdirirdi. Bir gün Beaumonta gələn bir qatardan bir çox geoloqun düşdüyü müşahidə edildi. Bunlar layihənin imkanlarını araşdırdıqdan sonra Higginsə beynindəki düşüncənin sərsəm olduğunu bildirdilər. Texas Geologiya Dərnəyinin bir üzvü daha da irəli getdi və 1898-ci ildə bir məqalə yayınladı. O, bu yazıda "Higginsin xəyalı" dediyi layihəyə bel bağlamamaları üçün xalqa xəbərdarlıq edir, bu xəyali layihəyə sərmayə qoymamaq üçün nəsihət verirdi. Amma Higgins yorulmadan cəhdlərinə davam edirdi. Bu əsnada Higgins, yaxınlıqdakı təpədən təbii qazı beş qalonluq bir neçə qaz yağı tənəkəsinin içinə doldurdu və bu tənəkələri evinə daşıdı. Sonra bu qazı lampaya doldurub yandırdı. Onun bu hərəkətləri qəsəbə sakinləri tərəfindən "olmayan bir şeyin xəyalını qurmaq" kimi qiymətləndirilir və hamı Higginsə dəli gözüylə





baxırdı. Ancaq bu, Higginsi inandığı yoldan çəkindirməyə kifayət etməyəcəkdi.

Əlacsızlıq içərisində qalaraq son bir təşəbbüs göstərdi. Bir dərgiyə elan verdi və qazıntını aparacaq başqa birini axtarmağa başladı. Bu elana sadəcə bir nəfərdən, adı Anthony F.Lucas olan bir gəmi kapitanından cavab gəlmişdi. Avstriya - Macarıstan imperiyasının Dalmation sahillərində doğulan və mühəndis kimi yetişən Lucas, sonradan Avstriya Dəniz Donanmasında fəaliyyət göstərmiş, daha sonra da köçkün olaraq Birləşmiş Ştatlara gəlmişdi. "Duz qüllələri" deyə bilinən və bir növ geoloji əsər olan bu qüllələrdə duz axtarma fəaliyyətlərində iştirak etmiş və bu sahədə xeyli təcrübə toplamışdı. Və "Böyük Təpə" də əslində tam bir duz qülləsi idi.

Higginslə anlaşan Kapitan Lucas, 1899-cu ildə qazıntı işlərinə başladı. İlk cəhdləri uğurlu alınmadı. Professional geoloqlar layihəni lağa qoyurdular. Kapitan Lucasa vaxtını və pulunu boş yerə xərclədiyini söyləyirdilər. Duz qülləsi olan bir geoloji məkanın neft mənasına gəlmədiyi və bu yerdən neft çıxma şansının sıfır olduğu qənaətindəydilər. Onları bunun tərsinə inandırmaq üçün Kapitan Lucasın göstərdiyi bütün təşəbbüslər əbəs idi. Professional geoloqların, "xəyalım" dediyi bu layihəyə inanmamaları kapitanı bədbinliyə sürüklədi. İnancı sarsılmağa başladı. Həm də pulu haradasa tükənmişdi. Əgər işə davam edəcəksə, yeni fondlar tapmalı idi. Hərçənd kömək ediləcəyi haqda Standard Oildan bir ümid verilmişdi, amma nəticədə bu da olmadı və Lucas, əli hər şeydən üzülmüş halda rədd edildi.

Lucas son çarə olaraq Pittsburgha getdi və ölkənin ən məşhur neft çıxarma firması olan Guffrey və Galeyə müraciət etdi. Bu şirkət artıq onun son ümidi idi. 1890-cı

illərdə Ceyms Guffreylə Galey, qitənin ortasında yerləşən Kansasda dünyanın ilk böyük neft yatağını kəşf edib inkişaf etdirmiş, sonradan bunu Standarda satmışdılar. İçlərində həqiqi neft axtaran və araşdıran Galey idi. Sonrakı illərdə bir iş yoldaşının söylədiyi kimi "Neft Con Galeyi, sanki ovsunlamışdı." Bundan başqa, Galey neft axtarma işlərində heyranedici bir qabiliyyətə sahib idi. Ehtiyatlı çalışmasına və dövrün geoloji nəzəriyyələrini tətbiq etməsinə baxmayaraq, yenə də müasirləri neft tapa bilməyəcəyinə, onu sadəcə qoxlamaqla qalacağına iddia edirdilər. Amma Lucas səssizcə və soyuqqanlılıqla durub dincəlmədən neft axtarmağa davam edirdi. Bu xəzinənin axtarılma işi onun nöqteyi nəzərində xəzinənin özündən daha əhəmiyyətli idi. Söhbətlərinin birində bir gün, neft tapılıb tapılmayacağını ən dəqiq söyləyəcək adamın "Doktor Delgi" olduğunu söyləmişdi.

Guffrey və Galey firmasının o biri şəriki olan Ceyms Guffrey, daha maraqlı bir sima idi. Bir dəfə Demokratik Partiyanın sədri olduğu günlərdə iclasa Buffalo Billin paltarlarını geyinib gəlmişdi. Sonralar Amerikanı ziyarət edən bir ingilis Guffreyi qəsd edərək, ona "əksəriyyət tərəfindən müdafiə olunan amerikalının tipik bir nümunəsi" deyəcəkdi. Amerikada çıxan modern bir neft jurnalı isə bu adamdan bəhs edərkən, daha fərqli bir dildən istifadə edir və onu bu sözlərlə dəyərləndirirdi: "Ta başından bəri işlərini "get, iş gör" prinsipi ilə idarə edən adam. Nə əvvəllər, nə də indi ekspress qatar və ya təyyarə ilə səfər etmənin mümkün olduğu yerlərdə əsla bir yük qatarına belə minməyəcək bir şəxsiyyət." Guffrey bir hərəkət adamı idi. Lokomotiv gücü təmin edən, müqavilələri bağlayan bir adam idi. Lucasla olan işlərində çətin bir bazarlıq edərək, nəticəsi Lucasın əleyhinə işləyən bir müqavilə imzalamışdı.





Guffreylə Galeyin verdiyi maliyyə dəstəyinin qarşılığında Lucas qazancın sadəcə səkkizdən birini alacaqdı. Higgins isə Guffreyin təəssüflə bildirdiyinə görə, heç bir pay almırdı. Əgər emosional olar və arzu edərsə, öz hissəsini Higginslə paylaşmaqda sərbəst idi (!).

Müqavilə imzalandıqdan sonra Con Galey Beuamonta gedərək ərazini araşdırdı. Qazıntı yeri kimi Patillo Higginsin müəyyənləşdirdiyi və içindən qaynayan qaz çıxan kiçik çaylara yaxın bir yer seçərək işə başladı. Bu yeri işarətləmək üçün əvvəlcə torpağı basdırdığı taxta parçaları ilə ayırdı. O günlərdə Kapitan Lucas qazıntıya fəhlə axtarmaq üçün uzağa getmişdi və orada yox idi. Bir gün heç gözlənilməyən bir anda Galeyin xanım Lucasa dediyi bu sözlər diqqət çəkdi: "Kapitanınıza söyləyin, ilk quyunu burada, tam bu dediyim yerdə qazsın. Bakıdan sonra ən böyük neft quyusuna burada rast gələcək. Bunu dəqiq bildiyimi də ona söyləyin."

Qazıntı işlərinə 1900-cü ilin payızında başlandı və bir vaxtlar Korsikanada sınaqdan çıxarılan texnikaların eynisi, yəni "burğu texnikası ilə quyu qazma" üsulu tətbiq edildi. Beaumont qəsəbəsinin yerli sakinləri Lucas və qrupunun, xüsusilə də Patillo Higginsin tamamilə dəli olduqlarına inanır, gördükləri işin sözünü belə etməyin mənasızlığını söyləyirdilər. Görülən işləri seyr etməyə, nə olub bitdiyini görməyə sadəcə çevrənin dovşan ovuna çıxan uşaqları gəlirdi. Qazıntını aparanlar, yüzlərlə metr qumun dərinliyinə enməyə çalışır, əvvəlcə uğursuzluqla nəticələnmiş təşəbbüslərinin bu dəfə nəticə verməsini istəyirdilər. Nəhayət, təxminən 880 feet dərinlikdə neftə rast gəlindi. Böyük bir həyəcana qapılan kapitan, baş qazmaçı Al Hamillə dönərək, rast gəldikləri bu neftin, quyunun içindəki sərvətin miqdarının nə qədər ola biləcəyini

soruşdu. Al Hamill gündə rahatca 50 barrel neft çıxacağını bildirdi. Bu rəqəmi söyləyərkən, ağlında, gündə 22 barrel neft verən Korsikana quyuları vardı.

Yeni il tətilində qazmaçılar işə ara verib, 1901-ci il - yeni il gününə qədər fasilə verdilər. Yeni ilin ilk günündə yenidən yorucu işlərinin başında idilər. Təqvim yanvar ayının 10-nu göstərəndə, yaddaşlarından əsla silinməyəcək bir hadisə baş verdi. Quyudan bayıra böyük bir təzyiqlə palçıq fışqırmağa başladı. Saniyələrlə hesablanacaq bir zaman ərzində, qazıntıda istifadə olunan boru 6 ton neftlə birlikdə torpağı deşərək, yuxarı doğru uzanıb göylərə ucaldı. Daha sonra hər yer yenidən səssizləşdi. Fışqırma zamanı həyatlarını itirməkdən qorxaraq, canlarını qurtarmaq üçün ora-bura qaçışan qazmaçılar gördükləri şeyin nə olduğundan əmin deyildilər. Hətta gördüklərindən belə şübhəli idilər. Quyunun yanına qayıtdıqları zaman orada qorxunc bir çamur yığını, pislik və palçıq gördülər. 15 santimetr həcmində bir palçıq təbəqəsi torpağın üzərini örtmüşdü. Ətrafı təmizləməyə başladıqlarında quyudan yenidən palçıq püskürməyə başladı. Əvvəlcə top atəşinə oxşayan bir səs eşidilir, sonra daimi, gurultulu bir kükrəmə ətrafa yayılırdı. Əvvəlcə qaz, sonra da neft fışqırmağa başladı. Yaşıl rəngli və ağır çəkili neft, şiddəti get-gedə artan bir təzyiqlə püskürərək, ətrafdakı qayaları havaya, yüzlərlə metr uzağa tullayırdı. Sürətlə yuxarı püskürən, sonra enən vulkanın ən aşağı səviyyəsi, qurulan taxta qurğuların iki qatı qədər yüksəklikdə dövr edirdi.

Xəbər ətrafa yayılanda Kapitan Lucas orada deyildi, qəsəbəyə getmişdi. Xəbəri eşidən kimi at arabasına minərək, sürətlə təpəyə doğru yol aldı. Atın bağrını çatladacaq dərəcədə sürətlə gedir, onu daha sürətli getməsi üçün qamçılayırdı. Təpəyə çatar-çatmaz arabadan düşdü. Ayaq üstə dura bilmirdi. Torpaq bütünlüklə çamur idi.





Bir yandan yıxılır, yuvarlanır, bir yandan da ayağa qalxmağa çalışırdı. Birtəhər ayağa qalxıb həyəcandan nəfəsi kəsilə-kəsilə, hay-küy içərisində səsini eşitdirməyə çalışaraq, Al Hamillə bunları söylədi: "Al! Al! Bu nədir?" Al Hamill isə ona bu cavabı verdi: "Neftdir kapitan! Son damlasına qədər neftdir!"

Lucas bu sözlərin qarşısında nitqi tutulmuş halda "Tanrıya şükür! Tanrıya şükür!" sözcüklərindən başqa bir şey deyə bilmədi.

İndi Spindletop ərazisində Lucas-1 adlanan quyudan gündə sadəcə 50 barrel yox, 75.000 barrel neft çıxırdı. Bu hadisənin yaratdığı coşqu və kükrəmə duyğusu şübhəsiz, Beaumontdan belə hər yanda yayılmışdı. Bəziləri artıq dünyanın sonunun gəldiyini düşünməyə başlamışdı. Bu, neft qaynaqları ilə məşhur olan Bakı istisna olmaqla, daha əvvəl dünyanın heç bir yerində görünməmiş bir hadisə idi. Bu böyük hadisədən "Böyük Amerika fışqırması" deyə bəhs edilirdi. Xəbərin başdan-başa bütün Amerikaya yayılması, çox az zaman aldı və dərhal sonra da bütün dünyaya yayıldı. Texas neftinə hücum başlamaq üzrəydi.

Bu hadisəni təqib edən günlərdə həqiqətən çox parlaq hadisələr yaşandı. Ərazi kirələmə sahəsində dərhal çılğın bir yarışma başladı. Kirə qiymətləri yüksəlib astronomik səviyyəyə çıxdı. Bu işlərlə məşğul olanların arasında ticari məqsədli adamlarla birlikdə, fırıldaqçılar da meydan sulayırdı. Məsələn, peşəsi zibil yığmaq olan bir qadın sahib olduğu donuz otlağını 35.000 dollara satdığı zaman, bundan çox məmnun olmuş, sevincdən nə edəcəyini bilməyəcək dərəcədə çaşmışdı. Aradan çox qısa müddət keçdikdən sonra sadəcə iki il əvvəl kvadrat metri 10 dollara satılan ərazinin qiyməti 900.000 dollara yüksəlmişdi. Bu arada bir çox satış həyata keçirilir, eyni ərazi üst-üstə bir neçə dəfə satılırdı. Satışlar kiçik, səhvlərlə dolu

xəritələrə baxılaraq satılırdı. Bəzən satılan yerlərə anlaşılması mümkün olmayan yeni adlar qoyulurdu. Şəhər bütün mənalarda görülən işləri müşahidə etməyə gələn tamaşaçılarla, torpaqdan qismət axtaran fərdlərlə, müqavilə bağlayan və neft sahəsində işləyən fəhlələrlə bir növ istila olunmuşdu. Gələn hər qatardan Higginsin "bir anda zəngin olma" xəyalının bu torpağa çəkib gətirdiyi adamlar enirdi. Bunlar bütün xəyallarının qara rəngli neftdən asılı olduğuna inanırdılar. Təkcə bir bazar günündə Beaumonta gələn səyahət qatarından 1.500 adamın düşdüyü müşahidə olunur, bu adamlar çamur, palçıq və neft yığıntılarının içindən keçərək, dünyanın bu yeni möcüzəsini görmək istəyirdilər. Bir rəvayətə görə, təpədə, çadırlarda yaşayan insan sayı 16.000 nəfəri keçmişdi. Bir neçə ay ərzində Beaumont qəsəbəsinin əhalisi balon kimi şişərək, 10.000 nəfərdən 15.000 nəfərə çatmışdı.

Beaumontda hərəkətli bir yaşam başlamış, hər tərəf çadırlarla, gecəqondularla, klublar, qumarxana və fahişəxanalarla dolmuşdu. Yeni qurulan bu yerlər, qəsəbənin arzular içində alışıb-yanan xalqının müxtəlif ehtiyaclarını qarşılamaq üçün qurulmuşdu. Aparılan sorğulara görə, ilk aylarda bütün Texasda istehlak olunan viskinin yarısı, sadəcə Beaumontda içilmişdi. Döyüşmək, dava çıxarmaq sevilən vaxt keçirmə vasitəsi olmuşdu. Hər gecə ən az 3 və ya 4 adam ölür, bu say bəzən daha da yüksəlirdi. Bir dəfə, tək bir döyüş gecəsinin qurbanı olaraq bölgədəki çaydan boğazları kəsilib suya atılan 16 cəsəd çıxarılmışdı. Barlarda ən rəğbətlə qarşılanan əyləncə forması müxtəlif mərcləşmələrə girməkdi. Bunlardan ən məşhuru da çınqıraqlı ilanın qəfəsdəki quşu nə qədər müddət ərzində yeyəcəyi haqqında mərcləşmə idi. Amma bəlkə də daha çox yayılan əyləncə, qəsəbəyə sızan həyat qadınları idi. Hazel Hoke, Myrtle Bellvue və Jessie Georg adlı





"madamlar" Beaumontda, sanki bir əfsanə kimiydilər. Kirli su dolu hamam vannasında çimə bilmə xoşbəxtliyinə nail olmaq üçün insanların bərbər dükanlarının qarşısında bir saat növbədə dayanmaları və dörddə bir dollar ödəmələri lazım idi. Məşğul olacaqları neft işi tapılmadığı müddətcə insanlar başqa işlərlə vaxt keçirmək istəmirdilər. Buna görə də bölgə xalqı daha çox hava tualetlərindən bəhrələnmək üçün upuzun uzanan insan növbəsinin əvvəlinə girmək, yəni növbəsini qısaltmaq üçün bir dollara qədər əlavə pul ödəyirdilər. Bunu ödəyənlər uzun növbələrdə ayaq üstə gözləyəcək zamanları olmayan adamlardı.

Təbii ki, itirənlərin sayı qazananların sayından daha çox olurdu. Pulun sürətli əl dəyişdirməsini qarantiyaya almaq üçün ətrafda bitib-tükənməz oyunlar oynanır, saxtakarlıqlar və hiyləgərliklər cövlan edirdi. Əllərində qiymətli, amma şübhəli hissə sənədi saxlayan o qədər çox insan vardı və bunlar o dərəcə məşğul adamlardı ki, qısa zamanda "Spindletop" qəsəbəsinin adı "Spindletop"a (fırıldaqçılar qəsəbəsi) çevrildi. Hər tərəfdə bir çox sərsəriliklər baş alıb gedirdi. Məsələn, adı Madam la Monte olan bir falçı, heç nədən qorxub çəkinmədən, müştərilərinə yeni neft yataqlarının harada olduğunu söyləyə bilirdi. Bəzən hətta bundan da irəli gedən hadisələr yaşanırdı. Qəsəbədə yaşayan gənc bir oğlan uşağının "rentgen gözlərə" sahib olduğuna, bu gözlərlə sadəcə torpağın dərinliklərinə baxaraq, neftin harada olduğunu bildiyinə, gördüyünə belə inanırdılar. Bu dərəcə doğru danışdığına inandıqları bir dəliqanlının sözlərinə əsaslanan bir şirkət, minlərlə hissə sənədi aldı.

Bir neçə ay kimi qısa bir zaman ərzində bölgədə tam 214 quyu açıldı. Bunlar ən az 100 müxtəlif şirkətə aid quyular idi. Hətta biri də "Gənc Xanımlar Neft Şirkəti" deyə adlanan bir şirkətindi. Bu şirkətlərdən bəziləri qazıntı işlərini son dərəcə kiçik sahələrdə - haradasa bir poçt markası

böyüklüyündə və ancaq üzərində taxta pilləkənlər qurulacaq miqyasdakı yerlərdə aparırdılar. Spindletop quyularının get-gedə inkişaf edib artması, daha çox gəlir gətirməyə paralel olaraq fışqıran neft miqdarının da gündən-günə artmasına səbəb olurdu. O qədər ki, 1901-ci il yazının ortalarında neft qiymətləri böyük sürətlə aşağı düşəcək və barrel başına 3 sentə qədər enəcəkdi. O günlərdə bir bardaq su 5 sentə satıldığına görə, su ilə müqayisə edildiyində neftin qiymətinin nə qədər aşağı düşdüyü aydın olur. Beləcə, Patillo Higginsin "Böyük Təpə" haqqındakı təxminləri nəticədə özünü doğrultmuşdu.

## Əsrin Böyük Müqaviləsi

Spindletopda ən böyük istehsalçı olan Ceyms Guffeyin neft üçün hamıdan çox yeni bazarlara ehtiyacı vardı. Ancaq Standard Oil tərəfindən qapılıb udulmağa da heç niyyəti yox idi. Buna görə də başqa müştərilər axtarmağa başladı. Axtardığı yaxşı müştərini tapmaq çox vaxt aparmadı. Yeni müştəri, o günlərdə London şəhər Bələdiyyə Məclisinin üzvü olan və Bələdiyyə Başqanlığı növbəsi gəlib çatan Sir Marcus Samuel idi. Cənab Samuel Spindletopdan gələn xəbərlərdən ən çox təsirlənənlərdən biri idi. Ona görə də müştəriliyə razı olmuşdu. Marcus Samuel son günlərdə sürətlə böyüyən şirkətini, sırf sahib olduğu tankerləri kimi ikinci dəfə vaftiz edərək, adını dəyişdirmişdi. Ölən atasının ilk peşə kimi Dəniz Qabığı ticarəti ilə məşğul olması səbəbilə, atasının xatirəsinə hörmət əlaməti olaraq, şirkətinə "Shell Transport" (Dəniz Qabığı nəqliyyatı) adını vermişdi. Nəticədə Samuel və şirkəti Texas düzənliyindən axıb gələn neftin, Shellin rus istehsalına bağlı qalmamasını





təmin edəcək bir yoldan axıb gəldiyini gözləri ilə görür, həm də Avropaya birbaşa ixrac ediləcək nefti əldə edirdi. Texas neft istehsalının, Samuelin bütün rəqiblərinin üzərindəki nəzarəti daha da gücləndirdiyi artıq təbii idi. Marcus Samuelin gücünü artıran başqa bir faktor da, aydınladıcı olaraq alındığında, aşağı keyfiyyətli sayılan Texas xam neftinin, yanacaq kimi gəmilərdə istifadəyə çox əlverişli olması idi. Samuelin "ehtiras" kimi də qiymətləndirilə biləcək və hər an baş-beynini qurcalayan arzularından biri də kömürlə işləyən gəmiləri, neftlə - öz nefti ilə - işləyən gəmilərə çevirməkdi. 1901-ci ildə böyük bir iftixarla, şirkətinin "okeanda sərf olunan maye yanacağın öncülü olduğunu" rahatca iddia və elan etdi.

Spindletopla əlaqədar xəbərlər Londona çatan kimi Shell Şirkəti birdən-birə çılğınca təşəbbüslər göstərmiş, hər şeydən əvvəl, vaxt itirmədən Beaumontun harada yerləşdiyini öyrənmək istəmişdi. Onun yerini tapmaq üçün ofisdəki atlasa baxılsa da, Beaumontu atlasda tapmaq mümkün olmadı. Belə olan halda, Guffeylə təmasa keçməyə çalışdılar. Shellin əməkdaşları o günə qədər Guffeyin adını da eşitmədiklərini söyləyirdilər. Guffey də sırf onlar kimi hərəkət etdi və şəxsən özünün Shell adını o günə qədər heç eşitmədiyini söylədi. London bu sözlərdən incimiş, əsəbiləşmişdi. Amma buna baxmayaraq, Shell, Guffeyə teleqraf dalınca teleqraf, məktub dalınca məktub göndərərək, Shell Şirkətinin "nəhəng" bir şirkət olduğunu, dünyanın ən böyük neft şirkətləri arasında ikinci yerdə gəldiyini və Standard Oil Şirkətinin "ən təhlükəli rəqibi" kimi fəaliyyət göstərdiyini iddia etməyə girişdi. Elə bu zaman Standard Oil tankerlərinin düzənli olaraq Port Artur limanından Spindletopa aid olan malları alıb apardığı xəbəri Shellin narahatçılığını daha da artırdı və şirkətin

daha süratli qərar verib, hərəkətə keçməsini şərtləndirdi. Yaxın günlərdə Samuel, öz qaynını əvvəlcə Yeni Dünyaya, Nyu Yorka, sonra da Pittsburqh və nəhayət, Beaumonta göndərəcəkdi. Məqsəd qısa müddət əvvəl tanımadığını söylədiyi Guffeydən bir müqavilə qoparmaqdı. Təcili müzakirələrə başlanıldı. Shell, öz-özünə heç bir geopolitik dəyərləndirmə etməmişdi. İmzalanan müqaviləni nəzərdən keçirmək üçün amerikalı bir vəkil tutmaq əziyyətinə belə qatlanmadı. Müzakirələrin bu mərhələsində Samuelin qaynı danışıqları kəsmiş və Shellin digər ölkələrdəki fəaliyyətləri haqqında Guffeyə məlumat vermək və onu inandırmaq üçün bir dünya xəritəsi satın almağa getmişdi. Guffeylə aparılan müzakirələr sona çatdıqdan sonra Samuelin qaynı çox həyati bir mövzuda - istehsal tələbinin azalma ehtimalının olmadığı haqqında - Samueli inandıra bilməyəcəyindən əmin olaraq, könül rahatlığı içərisində Londona qayıtdı. Qorxduğu yeganə şey həddindən artıq istehsal idi.

1901-ci ilin iyun ayında, Spindletopdakı neft partlayışından 6 ay sonra iki şirkət danışıqları tamamlayaraq, bir müqavilə imzaladılar. Müqavilənin şərtlərinə görə, qarşıdakı 10 il içərisində Shell Şirkəti Guffeyin istehsal etdiyi neftin ən az yarısını alacaq və bunun qarşılığında hər barrel başına 25 sent ödəyəcəkdi. Müqaviləyə görə, ən az 15 milyon barrel neft çıxarılacağı təxmin edilirdi. Shell istədiyi təqdirdə, daha çox neft almaqda sərbəst idi. Bu müqavilə hər iki tərəfdə "Yeni Əsrin Müqaviləsi" olaraq qəbul edildi. Bu arada Marcus Samuel, digər bir böyük layihə gözü ilə baxdığı yeni bir həmləni həyata keçirmək üçün hazırlıq işləri aparırdı. "Yeni Texas Ticarət" adını verdiyi layihə üçün 4 yeni tanker sifariş etmişdi.

"Spindletop irəlidəki günlərdə neft sənayesini yenidən qurdu" deyilsə, daha doğru olar. Bura nəhəng tutumu ilə





Amerikan istehsalını Pensilvaniya və Appalachiadan qoparıb, cənub-qərbə doğru apardı. Spindletopun icraatından biri də XX əsrin ən öndə gələn bazarlarından biri olan və Marcus Samuelin əsasını qoyduğu bir bazarı - mazot bazarını - açmış olması idi. Bunun həyata keçirilməsi isə, planlaşdırılaraq olmamışdı. Daha çox sadə bir təsadüf, səhv nəticəsində olmuşdu. Texas nefti son dərəcə aşağı keyfiyyətli idi və buna görə də mövcud üsulların tətbiqi ilə qaz yağına çevrilə bilmirdi. Bu səbəblə də adətən işıqlandırma sahəsində yox, isitmə, enerji və nəqliyyat sahələrində istifadə olunurdu. O günlərdə Texasda fəaliyyət göstərən çox sayda sənaye sahəsi, istifadə etdikləri yanacağı dərhal kömürdən neftə çevirdilər. "Santa Fe" dəmir yolu 1901-ci ildə neftlə işləyən bir lokomotivə sahibkən, 1905-ci ildə 227 lokomotiv sahibi oldu. Spindletop bölgəsinin səbəb olduğu bütün bu yanacaq inqilabı, sənaye cəmiyyətində də böyük bir inkişafın mövcudluğunu simvolizə edirdi.

Spindletop, bir baxımdan cənub-qərbi neft sənayesinin həm də təlim mərkəzi olmuşdu. Buradakı kənd təsərrüfatı işçiləri, əlavə olaraq şəhərdən gələn gənclər və kənd təsərrüfatı ilə məşğul olanlar, bu peşənin sirrlərini bu şəhərdə öyrəndilər. Spindletop təpəsində yeni bir danışıq dili belə ortaya çıxmışdı. Bəzi sözcüklərin tələffüzü dəyişmişdi. "Qazma qurğusu" sözü əvvəlcə "sondajçı" sözcüyünə, usta sözü "çətin boyun", "usta köməkçisi" isə "işçi" sözcüklərinə çevrildi.

Vaxtilə bahalı mallar satan satıcının yeni adı "kasıb uşaq", gəlirini yanında işlətdiyi insanlara könül rahatlığı ilə paylaşdıran kefi yerində adamlarınkı isə "ərazi sahibi" olmuşdu. Ərazi sahibinin evi, mehmanxanaları, ən çox sevdiyi barının işlədəni, hətta lazım olan yerdə ən bəyəndiyi "madamı" belə yeni adlarla çağırılırdı.

Bir neçə il içərisində Spindletopda müşahidə olunan bu neftə hücum, bütün çılğınlıqları, dəlilikləri və əks-sədaları ilə birlikdə cənub-qərbi Amerikanın müxtəlif yerlərində, xüsusilə də Luisiana və Texasın Gulf sahilindəki duz təpəcikləri ilə dolu olan bölgələrində təkrar-təkrar yaşandı. Körfəz sahillərində ortaya çıxan neft hadisəsinin bir başqa forması da çox keçmədən Oklahomada müşahidə olundu. Oklahomada 1901-ci ildə başlayan və bir-birini təqib edərək, ortaya çıxan bir sıra yeni neft sahəsinin kəşf olunması, 1905-ci ilə qədər Tulsa yaxınlarında yerləşən böyük Glenn Pool Vadisini də əhatə etmişdi. Çox keçmədən, bunu Luisianada yaranan yeni neft sahələrinin kəşfləri izlədi. Bu arada oralarda neftin varlığından xəbəri olmayan Şimali Texas kəndliləri, su çıxarmaq məqsədi ilə torpağı qazanda zaman-zaman su yerinə neft çıxdığını görürdülər. Bu, əslində bir başlanğıcdı və çox keçmədən Şimali Texasda bir neft partlaması oldu. Buna baxmayaraq, yenə də bölgədə ən hegemon neft istehsalçısı olaraq Texas yox, Oklahoma göstərilirdi. Yeri gəlmişkən, 1906-cı ildə bütün bölgədə çıxarılan neftin yarısından çoxunu Oklahoma tək başına istehsal edirdi. Amma Texas 1928-ci ildə keyfiyyətdə birincilik ünvanını bir daha qazanacaq və bu üstünlüyü bütün Amerikada bu günə qədər qoruyub saxlamağa davam edəcəkdi.

## "İcazənizlə" deməyə razılaşmayan körfəz

Lucası dəstəkləyən və neft sənayesinin inkişafında əməyi olan Ceyms Guffey birdən-birə "sərvət" sözünün milli simvolu olmuş, gəzən söz-söhbətə görə ikinci Rokfeller olma yolunu tutmuşdu. Bu, ən azından görünüşdə belə idi. Bəlkə də Guffeyin özü də bir müddət





buna inanmışdı. Nə də olsa, dünyanın ən böyük neft müqaviləsini həyata keçirmiş, Shell Şirkətinin Marcus Samueli ilə 20 davam edəcək bir müqavilə imzalamağı bacarmışdı. Ancaq 1902-ci ilin ortalarında, Spindletop tətilindən sonrakı il yarım içində Guffey və şirkəti çox sıxıntılı vəziyyətə düşdülər. Həddindən çox istehsal səbəbi ilə və haradasa poçt markası böyüklüyündəki ərazilər üzərində quraşdırılmış bir yığın taxta pilləkənlərin də maneçiliyi ilə Spindletopda torpaq altından təzyiqlə fışqıran neft sona çatmış, bu səbəblə Böyük Təpədəki istehsal dayandırılmışdı. Ancaq "Guffey Neft"in əsil dərdi, bilavasitə Guffeyin hərəkətlərindən qaynaqlanırdı. Unutmaq olmaz ki, Ceyms Guffey çox qabiliyyətli neftçi olmaqla yanaşı, əsla yaxşı bir inzibatçı-idarəçi deyildi. Bir idarəçi olaraq ifadə etdiyi dəyər, ancaq aşağı keyfiyyətli neftin dəyəri qədərdi.

Bu vəziyyət Guffey və Kapitan Lucası dəstəkləmək üçün ilk sərmayəni qoyan Pittsburghlu iki bankiri - Andrew W. və Richard Mellonu son dərəcə narahat etdi. Ataları hakim Thomas Mellon, Andrew hələ 26 yaşında olarkən, ailənin banklarını ona vermişdi. Thomas və qardaşı, "Mellon və Oğlanları" adlı banklarını qısa zaman ərzində ölkənin ən böyük banklarından birinə çevirmişdilər. Onların bankları XIX əsrdə Amerika sənayesinin inkişafının mərkəzi olmuşdu. İki qardaşın da Guffeyin şəriki Con Galeyə xüsusi simpatiyası vardı və ona hörmət edirdilər. Galeyin atası ilə öz ataları hakim Mellon, onlar hələ çox uşaq ikən İrlandiyadan Amerikaya eyni gəmi ilə gəlmişdilər. Con Galeyin böyük bir neft kəşfiyyatçısı olduğunu bilirdilər. Galeyin maliyyə baxımından diqqətsiz olmasına üzülür, ancaq yenə də onun qabiliyyətlərini qəbul edirdilər. 1900-cü ildə Galeyin şəriki Guffey, Spindletopda aparılacaq bir neft axtarışına görə, 300 min dollar sərmaye

qoymağa Mellonları inandırdı. Bundan başqa, Mellonlar Spindletopun yenidən istehsala başlamasında istifadə olunmaq üçün bir neçə milyon dollar daha verməyi qəbul etdilər. Bu müqavilədən sadəcə bir neçə ay sonra, 1902-ci ildə Spindletopdakı təzyiq hadisəsinin baş verməsi Mellon qardaşlarını qorxuya saldı. Verdikləri pulları Guffeyin itirəcəyindən və bununla da kifayətlənməyərək, onların vasitəsilə digər sərmayədarlardan alınan pulları da batıracağından qorxurdular.

Nəticədə bir yolunu tapdılar. Düşüncələrinə görə bu yol yaxın qohumları William C.Mellon idi. Bankir qardaşlar Mellonlardan sadəcə 10 yaş kiçik olan William etibarlı adam idi. Hələ 19 yaşındaykən, Pittsburgh yaxınlığında yerləşən Ekonomika qəsəbəsində bir neftçilik işi olduğunu eşitmiş, neft qoxusu və işin həyəcanı ilə sanki ovsunlanmışdı. Bu səbəblə də özünü bu işə həsr etmişdi. Qarşısındakı bir neçə ilini Appalachi bölgəsini başdan ayağa gəzərək, neft axtarmaq və neft kəşf etməklə keçirdi. Bir dəfə kilsəyə aid olan bir məzarlıqda gündə 1000 barrel neft verən bir quyu belə tapmışdı. Ancaq kilsə quyunun orada qalmasını istəmədi. Bir yolunu tapıb, quyunu bağlatdırdı.

William, sanki qumar xəstəliyinə tutulmuşdu və bunu özü də bilirdi. "Neft Qumarı" deyilə biləcək bu xəstəliyi neftçilərin çoxu bu sözlərlə ifadə edirdi: "Neft işi yoluxucu qumar oyununa oxşayır. Qumarda olduğu kimi, neftçilikdə də əsas olan həyəcandır. Bir neftçi üçün neftin yaratdığı həyəcan, əldə etdiyi neft damlacıqlarına nisbətən, çox daha dəyərlidir... Heç birimiz işi buraxmağı, quyunun təmin etdiyi pulu alaraq, çıxıb getməyi, evlərimizə qayıtmağı istəmədik. Uğurlu olsun və ya olmasın, hər quyu bizdə yeni bir quyu açmaq həvəsi oyandırırdı." Əmisi Andrew isə eyni qənaəti paylaşmırdı.





Onun fikirlərinə görə, ciddi bir sənaye bu şəkildə idarə edilməməliydi. Ona görə də dərhal bu fikri Williama söylədi. Andrew əmi məqsədin birləşməyə gedilməsinin, işlərin hər mərhələsinin yaxından nəzarətə götürülməsinin tərəfdarı idi. Andrew, "neftlə həqiqi iş görmənin, ondan pul qazanmağın yeganə yolu, onu bir bütün olaraq ələ alıb, başdan sona qədər araşdırmaq, bu şəkildə inkişaf etdirməkdir, torpaqdan xam maddə çıxarmaq, onu emal etmək, sonra bazarlamasını təşkil etməkdir" deyirdi. Onun qənaətincə, bundan başqa bir yol yox idi. Başqa cür hərəkət etmək, bütün işləri Standard Oilun insafına tərk etmək demək olacaqdı.

William, əmisinin verdiyi nəsihətlərə əməl etdi və Standard Oildan, Pensilvaniya dəmir yollarından gələn etirazları diqqətə almayaraq, birlikdə çalışan bir neft şirkəti qurdu. Şirkət istehsalını Qərbi Pensilvaniyada, neftayırma işlərini isə ölkənin hər iki ucunda həyata keçirirdi. Neft, bu bölgələrin hamısından şirkətə aid neft kəmərləri vasitəsilə nəql olunur, daha sonra Filadelfiyadan Avropaya satılırdı. 1893-cü ilə yaxınlaşanda Mellon Şirkəti Amerikanın bütün neft ixracatının 10 faizini tək başına həyata keçirirdi. Bundan başqa, əlavə olaraq da 1 milyon barrel artıq neft ehtiyatı vardı. Çox keçmədən Standard Oil, Mellonlara şirkətlərini ona satmaq haqqında təklif etdi. Mellonlar xarakter etibarilə emosionallıqdan uzaq idilər. Əvvəlcə bir işi qurar, sonra da başqa bir işə yönələrdilər. Standardın təklifinin tam zamanında olduğunu qəbul edərək, neft şirkətlərini satmağa razı oldular. Bu satışdan kifayət qədər qaneedici pul qazanacaqlarını düşünürdülər. Düşündükləri kimi də oldu və şirkətin satılmasıyla Mellonların əlinə heç də az hesab olunmayacaq qədər pul keçdi. Daha sonra William,

neftçiliyi həmişəlik buraxdığını söylədi və özünü də buna inandıraraq, bu dəfə tramvay işinə başladı. Amma yanılmışdı. Məğlub olduğunu başa düşmək üçün aradan 7 il vaxt keçməsi lazım gələcəkdi. 7 il sonra, 27 yaşı tamam olanda etdiyi səhvi başa düşdü. Əmilərinin əmr və iradələrinə baxmayaraq, vəziyyəti qiymətləndirmək, ailəyə aid olan sərmayəni araşdırmaq üçün Spindletopa getdi. Apardığı araşdırmalardan sonra əmilərinə göndərdiyi raportda, Guffey işin başında olduğu müddətcə pullarını heç bir zaman geri ala bilməyəcəklərini xəbər verdi.

İşlər belə olunca, 7 il əvvəl olduğu kimi, bu dəfə də Mellonlar yeni müəssisəni satın almaq üçün Standard Oila təkliflə müraciət etdilər. Standard təklifi qəbul etmədi və mənfi cavab verdi. Səbəb kimi Texasın şirkət və xüsusilə, Con D.Rokfeller əleyhinə başlatdığı hüquqi suçlamalar kampaniyası göstərildi.

İşlərin bu cür seyr etməsi və təklifin rədd edilməsi William Mellonu sarsıtdı. Bir şeylər etməyin lazımlılığına inanır, ancaq yol tapa bilmirdi. Nəticədə bu işin tək bir çarəsi olduğuna inandı. "İndiyə qədər başıma gələn ən pis işlərdən bir azacıq da olsa, yaxşı olan bir həll yolu tapdım. Bu, yaxşı inzibatçılıq, çox çalışmaq və xam neft əldə etməkdən keçər" dedi. Qarşısına çıxan ilk əngəl, qabiliyyətsiz, amma qırılması çətin bir ceviz olaraq gördüyü Ceyms Guffey oldu. Nəticədə Mellon, iç-içə girmiş və hər ikisi də 1901-ci ildə qurulmuş Guffey Neft və Körfəz Neftayırma şirkətlərinin rəhbərliyini üstünə götürdü. Bu hərəkət Guffeyi dərindən sarsıtmışdı. Hər şeyə baxmayaraq, mətbuat onu Amerikanın mövcud olan ən böyük neftçisi olaraq tanıtmışdı. Mellon, zaman-zaman bu ən böyük neftçiyə sərt davranmaq zərurəti hiss edirdi.

"Əsas problem xam nefti pula çevirmək problemidir" deyən Mellon, Guffey Neft Şirkətinin Shelllə bağladığı





müqaviləyə yenidən baxılması gərəkdiyinə inanırdı. Məlum olduğu kimi, müqavilə 20 illik müddətə bağlanmışdı və Amerika şirkəti 20 il boyunca öz neftinin yarısını - barrel başına 25 sentə Shellə satmağa məcbur edilmişdi. Bu müqavilə, istehsalın həddi-hüdudu olmadığı zamanlarda qələmə alınmışdı. Onda neftin qarşısını saxlamaq mümkün deyildi. O zaman şirkətin pula ehtiyacı vardı. Buna görə də neftin barreli 10, hətta 3 sentə belə satılanda, nə olursa olsun, yaxşı qazanc hesab edilirdi. Baxmayaraq ki, müqavilənin müddəti 20 il idi, ancaq dünya son iki il içərisində bir xeyli dəyişmişdi. 1902-ci ilin ikinci yarısından və 1903-cü ilin başlanğıcından Spindletopdakı neft istehsalı inanılmayacaq dərəcədə azalmışdı. Buna görə də neftin qiymətləri birdən-birə yüksəlmiş, bir barrel neft 35 sentə qalxmışdı. Bu səbəblə də müqavilə qaydalarına riayət etmək üçün Guffey Neft, çox vaxt üçüncü şəxslərdən neft satın alır və sonra da o nefti öz zərəri bahasına Shellə satmaq məcburiyyətində qalırdı. Bəlkə də Guffey, bütün bu olanlardan sonra hələ də müqavilənin əsrin ən böyük hadisəsi olduğuna inanmaqda davam edirdi. Mellonun düşüncələri isə tamamən fərqli idi. Müqavilənin pis bir anlaşma olduğuna, ondan dərhal xilas olmanın vacibliyinə inanırdı.

Digər tərəfdən, Marcus Samuel müqaviləyə çox inanırdı. Buna görə də Texasdan bəd xəbər, yəni Guffey Neft istehsalının azaldığı xəbərləri gələndə, dərd-qəmdən şok keçirdi. Guffey nə qədər əzab çəkir çəksin, bu, Shelli maraqlandırmır, o, sadəcə müqavilə şərtlərinin yerinə yetirilməsini, əgər bu olmasa, şirkətin böyük miqdarda təzminat ödəməsini tələb edirdi.

Ağır şərtləri mümkün qədər normallaşdırmaq istəyən Samuel, Texas Neft Şirkətinin istehsal olunan nefti nəql etmək məqsədi ilə aldığı dörd ədəd yeni tankerə, Texasdan

qoyun-keçi sürüləri yüklənilərək, Londonun şərqinə göndərilməsini və bu nəqliyyat yolçuluğu üçün lazımi işlərin görülməsini əmr etdi. Ancaq bu, neft daşımaçılığının yenidən başladığı zamana qədər davam edəcək müvəqqəti bir tədbir idi.

Mellon, düşünüb daşınıb problemi məhkəmə yolu ilə həll etmək istəsə də, amerikalı bir hüquq məsləhətçisi ilə məsləhətləşdikdən sonra, bu fikirdən imtina etdi. Amerikalı məsləhətçi məhkəmə salonlarında sürdürüləcək bir savaşın hansı nəticələr verəcəyindən əmin olmadığını, bu savaşın onun lehinə nəticələnəcəyinə heç də qarantiya vermədiyini deyirdi. Sözlərinə dəstək kimi hər şeydən əvvəl, müqavilənin naşılıqla və mütəxəssis olmayan insanlar tərəfindən hazırlandığını göstərirdi.

Mövzunu yerində araşdırmaq məqsədi ilə bilavasitə Mellonun özü Londona, şəhərə gedib Mote malikanəsində yaşayan Samueli ziyarət etdi və onunla danışdı. 1903-cü il avqustun 18-də Samuel gündəliyinə bu qeydləri yazmışdı: "Cənab Mellon malikanənin içində yerləşən parka heyran qaldı." Səhərisi günü gündəliyinin o biri səhifəsində bunları yazırdı: "Vacib bir məsələnin həlli ilə bağlı səhər satt 9.20 qatarı ilə Londona gəldim... Çox dolu bir gün keçirdim. Guffey şirkəti ilə aramızda hər hansı hüquqi problem yaşanmaması üçün Mellonla razılaşıb, ixtilafın həlli məqsədilə müvəqqəti bir müqavilə (modus vivendi) imzalamaq istədim, ancaq bacara bilmədim. Nəticədə vəkillərlə məsləhətləşdim." Nazik, cəlbedici hərəkətləri ilə yumşaq xasiyyətli bir adam olan Mellon, eyni zamanda çox inadkar və sərt xarakterli adam idi. Nəticədə sentyabr ayı hələ başlamadan, hər iki tərəf yeni bir müqaviləyə - modus vivendiyə qovuşdu. Marcus Samuelin xəyallarında bu dərəcədə həyati əhəmiyyətə malik olan "əsrin





müqaviləsi" bu dəfə başqa, yeni bir müqaviləyə çevrilir, ancaq neft haqqında Shell şirkətinə həmən-həmən heç bir qarantiya vermirdi. Guffey Neft və Mellonlar nəticədə Shellin qollarına keçirdiyi qandallarından tamamilə xilas olmuşdular.

Bu arada William Mellon, yeni bir strategiya üzərində baş sındırırdı. Bu, neft sənayesinə bütün 20 əsr boyunca hakim olacaq, bu sənayenin mərkəzini təşkil edəcək bir strategiya idi. Bu strategiyaya görə, sənaye, ayrı-ayrı fəaliyyət göstərən bütün sahələri bir çatı altında toplayıb, uyumlu, birləşmiş bir neft şirkəti quracaqdı. Mellonun strategiyası niyyət baxımından Standard Oilun strategiyasından fərqli idi. Mellonun müşahidələrinə görə, Standardın gücünü hiss etdirməsi, mövqeyini qoruyub saxlaması və daha da yaxşılaşdırması, xam neftin təxminən yeganə tək alıcısı olmasından və neft nəqliyyatının nəzarətini əlində tutmasından qaynaqlanırdı. Mellon bu müşahidəsində yanılmamışdı. "Qiymətləri təyin edən Standard Oildur" deyirdi. İstehsalçıların haradasa hamısı şirkətə bağlıydı. İstehsalçılar bu düzənləmədən yaxşıca qazanc əldə etsələr də, özlərini "bu şirkətin insafına tərk etmiş"dilər. Mellon Texasda yeni-yeni neft yataqları kəşf edib inkişaf etdirirdi. Bu işlərinin həcmi artdıqca, günlərin bir günündə Standardın neft kəmərləri sistemini buraya da gətirəcəyindən şübhəliydi. Belə olan halda, Mellonun fəaliyyətləri Standardın istehsal sistemlərinin təsirinə girəcəkdi. Onun isə arxasınca qaçdığı ideal bu deyildi. Mellonun yüksəlmə ehtirası daha geniş hədəfləri əhatə edir, Standardın əlavəsi olmaqdan daha uzaqları nişan alırdı. Vaxtilə əmisinin ona verdiyi dərs və nəsihətləri bir əks-səda kimi yenidən xatırlayan Mellon, nəticədə bu qərara gəldi: "Qarşındakı rəqiblə yarışa girməyin tək yolu

hər şeydən əvvəl, neft istehsal edəcək, həqiqətən neft istehsal edəcək vahid bir şirkət qurmaqla mümkün ola bilər. İndi başa düşdüm ki, belə bir işin təməli mütləq istehsal olmalıdır. Bir şirkətin hər hansı bir şəxsə "icazənizlə" demədən, müsaidə istəmədən işləməsi üçün sadəcə bir yolu vardır: İstehsal." Mellonların hər hansı bir şəxsə, xüsusilə Standarda "icazənizlə" deməyə heç niyyətləri yox idi.

Mellonun qarşısında duran ən böyük problemlərdən biri şirkətin Port Arturdakı yeni neft ayırma zavodlarının iş gücü baxımından bütün Texas əyalətinin istehsalına bərabər olması idi. Bundan başqa, şirkət, hələ də çoxu itkiyə gedən aşağı keyfiyyətli neftə bağlı çalışırdı və bu da başqa bir problem yaradırdı. Ancaq bir il sonra - 1905-ci ildə - Oklahomada Glenn Poolun kəşfi ilə daha üstün keyfiyyətli neft əldə etmək mümkün oldu. Problemlərdən xilas olmanın yolu tapılmışdı. Bu iş, "bazarlamağa əlverişli Pensilvaniya keyfiyyətinə, amma Texasda çıxarılan neft qədər çox neft çıxarmaqla" mümkün olacaqdı. Bir şərtlə ki, şirkət daha sürətli hərəkət etməliydi. Bu arada Standard Oil da boş durmur, boru xətti şəbəkəsini Kansas, Independence bölgələrindən limana doğru uzatmağa çalışırdı. Bu mövzuda Mellon əmilərinə xəbərdarlıq etmək niyyətilə "Oklahoma adlandırılan bu neft bölgəsinə sızmadıqca, şirkətimiz bütünüylə iflas edər" dedi. Port Arturdan Tulsaya uzanan 450 mil uzunluqdakı boru xəttinin yol inşaatını sürətləndirmək üçün dörd ayrı qrupa birdən tapşırıq verildi. Bunlardan biri Tulsanın cənubundan, o biri Port Arturun şimalından, son ikisi də orta yerdən başlayıb, hər iki uca doğru hərəkət edəcəkdi. Bu, sanki zamana qarşı bir yarışdı və rəqib də Standard Oil idi. 1907-ci ilin oktyabr ayında Glenn Pool Vadisindən boşalıb gələn neft, boru kəmərindən keçib, Port Artur neft





ayırma təsislərinə doğru axmağa başlamışdı. Beləliklə, Mellonlar neft sənayesinin baş aktyorları olaraq aid olduqları yerə əməlli-başlı yerləşdilər.

Boru kəməri inşaatının, o biri şirkətlərin də qatılımı ilə davam etdirilməsi düşünülsə də, Mellonlar bu çox xarab, tökülüb-qalan təsisə boş yerə pul xərcləmək istəmədilər. William Mellon Guffey Neft və Körfəz Neftayırma Şirkətinin yenidən təmir edilməsini təklif edərək, bu işin mühəndisliyini öhdəsinə götürdü. Nəticədə "Körfəz Neft Korporasiyası" adlı yeni bir şirkət yarandı. Andrew Mellon şirkətin sahibi, Richard B.Mellon mühasibəçisi, William da ikinci başqan oldular. Guffeyi hər şeydən kənarlaşdırmışdılar. Gələcək günlərin birində Guffey bu mövzudan bəhs edərkən, acı-acı şikayət edərək, "qapıları üzümə bağladılar" deyəcəkdi.

Bəs Spindletopun neft sahəsində indiyə qədər irəlidə gedənləri? Bunlardan kapitan Antony Lucas öz düşdüyü vəziyyətini sonradan belə şərh etmişdi: "Cənab Guffey və Mellon qrupu artıq pul cəhətdən çox zəngin olmuşdular. Mənimsə heç nəyim yox idi. Bu səbəblə, onların təkliflərini qəbul edib, öz hissəmi yaxşı qiymətə onlara satdım." Daha sonra Vaşinqton D.C.-yə yerləşərək, bir müddət məsləhətçi-mühəndis və geoloq kimi fəaliyyət göstərdi. Spindletopdakı böyük kəşfin üzərindən tam üç il keçmişdi. Bir daha Beaumonta qayıdıb Böyük Təpəni görmək, yeni bir dəyərləndirmə etmək istəyirdi. Təpənin yerləşdiyi yer bir vaxtlar həddindən çox neft verən, amma indi taxta qırıntıları ilə dolu olan, fəqət tükənmiş, neftdən məhrum bir əraziyə çevrilmişdi. Bu torpaqları başdan-başa bir daha dolanıb, vəziyyəti yaxşıca müşahidə etdikdən sonra, bir məzar başdaşına yazılmalı olan bu sözləri söylədi: "İnəyi çox amansız sağmaqla kifayətlənməyiblər, həm də sağımı çox ağılsız həyata keçiriblər."

İkinci öndər Patillo Higginsə gəlincə, o, bir elə də emosional adam olmaması səbəbi ilə onu kənarlaşdıran kapitan Lucası məhkəməyə verib, əleyhinə dava açdı. Bu arada Higgins, "Neft Şirkəti" adıyla bir şirkət qursa da, şirkəti davam etdirə bilmədi və qısa zamanda ortaqlarına verdi. Bu dəfə Higgins, "Standard Neft Şirkəti" adı altında yeni, vahid bir şirkət qurmaq sevdasına qapılsa da, xalq artıq Spindletop adından bezmişdi. Bu səbəblə də təşəbbüsü uğursuz nəticələndi. Amma Higgins yenə də hər şeyə baxmayaraq, bu illər ərzində xeyli pul qazandı. Bir dəfə Beaumont qəsəbəsindən 32 vətəndaş Higginsi tərifləmiş, imzaladıqları açıq məktubda "Spindletopun kəşf edilməsinin və inkişafının bütün şərəfi yalnız ona aiddir. O, buna haqq qazanmışdır" sözlərinin yer aldığı bir deklorasiya yayınlamışdılar. Bu, Higginsin hər şeyə baxmayaraq, o qədər də düşüncəsiz və çılğınca hərəkət etmədiyini göstərir.

Ceyms Guffey və Con Galeyə gəlincə, bu ikisi heç bir zaman əllərində pul saxlamağı bacarmadılar. Galeyin yaxın qohumu olan bir gənc, irəlidə onlar üçün bu sözləri söyləyəcəkdi: "Hər ikisini də yaşları ötdükcə, gedərək ağırlaşan çətin günlər gözləyirdi və yeni bir qayıdış, yeni bir həmlə etmək ümidi gündən-günə zəiflədi və əlçatmaz oldu. Əslində çox böyük sərvətlər qazanmaq üçün əllərinə saysız-hesabsız fürsətlər də keçdi. Amma onlar bəlkə də qumardakı kimi "kozır"la oynamağı və vaxtında oynamağı heç bir zaman bilmədikləri üçün bu fürsətləri qaçırdılar. Guffeylə Galey bir-birlərinin şəriki olaraq Spindletopda belə bir fürsəti yaxaladılar, ancaq dəyərləndirə bilmədilər. Sonrakı illərdə həyatlarının geri qalan hissəsini orda-burda xırda-para layihələr üzərində işləyərək keçirdilər."





Neft kəşfində öndər olaraq tanınan Guffey, 90 illik həyatının son 10-15 ilini borc içində keçirdi. Pittsburghun 5-ci prospektində yerləşən iqamətgahı ölümünə qədər onun xidmətinə verilmişdi. Borclu olduğu alacaqlıları nəzakət göstərərək, keçmiş xidmətlərinin xatirəsinə burada yaşamasına icazə verdilər. Əsil neft tapan Galey isə Spindletop müqaviləsinin şərtlərinə görə, Guffeyin ona borclu olduğu 366.000 dolların, ancaq bir neçə quruşunu ala bildi. Həyatının sonuna doğru Kansasa gedərək, bölgənin dəyişik yerlərini gəzdi və yeni bir iş müqaviləsi qoparmağa çalışdı. Bu gəzintidə ona bir vaxtlar Spindletopda qazmaçılıq edən Al Hamill yoldaşlıq edirdi. Bir gün eşikdə olduqları zaman birdən-birə çox şiddətli bir qar fırtınası qopmuş, haraya sığınacaqlarını bilməmişdilər. Gəzintini kəsib evə yollanmağa qərar verdilər. Elə bu zaman Galey, yoldaşı Al Hamillə acı bir etiraf etdi. Bütün həyatı boyu heç bir zaman bu günkü qədər kasıb olmadığını söylədi: "Əcəba, Hamill borcunun qarşılığında xanım Galeyin imzaladığı bir çeki qəbul edərdimi?" Bu sualı eşidən Hamill, Galeydən bir qəpik də pul almadı. Tam tərsinə, otel xərclərini də ödəyərək, o qarlı gündə onu qatara mindirib evə göndərdi. Bu, bir vaxtlar "neftin yerini onun qoxusundan tapan adam" deyə ad-san qazanmış Con Galeyin yeni bir neft müqaviləsi imzalamaq üçün cəhd göstərdiyi son çırpınışı idi. Aradan çox keçmədi ki, öldü.

Neft sənayesində öndərlik edənlərdən William Mellon isə, zamanla dünyanın ən öndə gələn neft şirkətlərindən birinə çevrilən "Körfəz Neft Şirkəti"nin başqanı və İdarə Heyətinin sədri olaraq uzun illər vəzifəsinin başında oldu. 1940-cı ildə, ölümündən qısa bir müddət əvvəl söylədiyi bu sözlər diqqətə dəyərdi: "Körfəz Şirkəti o dərəcədə böyüdü ki, artıq izini itirdim."

## Sun Şirkəti "neftdən necə istifadə edəcəyimizi bilməliyik" deyir

İllər əvvəl kapitan Lucasın neft kəşfini eşidib, qatara minərək, Texasın Beaumont qəsəbəsinə qaçışan minlərlə adamın arasında Robert Pew adlı birisi də vardı. Spindletopda baş verən neft hadisəsini ilk olaraq 6 gün əvvəl əmisi J.N.Pewdən eşitmiş, buraya da onun təlimatı ilə gəlmişdi. Robert Pew, qarşısındakı imkanların sadəcə neftdən gəlməyəcəyini, nəqliyyatın Meksika Körfəzi yolu ilə keçirilməsinin də əlavə imkanlar təmin edəcəyini görməkdə gecikmədi. Baxmayaraq ki, Texasa aid olan heç bir şeydən xoşlanmır, Texasın havasını, qəsəbəsini, insanlarını, ətrafdakı hay-küyü və gurultunu heç sevmirdi. Buna görə də xəstələnib evə qayıtmaq məcburiyyətində qaldı. Bu dəfə eyni vəzifəni qardaşı J.Edgar Pew yüklənəcəkdi. Yola çıxarkən, çantasına qardaşının və əmisinin tövsiyəsi ilə Beaumontun qaynayan atmosferində şəxsi təhlükəsizliyini qorumaq üçün işinə yarayacaq bir tapança qoymağı da unutmamışdı...

Pew ailəsi Beaumontun yabançısı idi, amma neftin yabançısı deyildi. O günə qədər bəlkə də 25 il ərzində hidrokarbon işində çalışmışdılar. 1876-cı ildə J.N.Pew Qərbi Pensilvaniyada bir şəriki ilə bərabər təbii qaz işinə başlasa da, çox keçmədən bunun boşa gedən bir məhsul olduğu düşüncəsi ilə payını şərikinə satıb, işdən əlini çəkmişdi. 1883-cü ildə emal yolu ilə əldə edilən şəhər qazı alternativi kimi böyük bir şəhərə - Pittsburgha - təbii qaz verən ilk şirkət statusuna gəlmişdilər. Bu, onların çox böyük bir iş qurduqları mənasına gəlirdi. Ancaq Standard, indi də gözlərini qaza çevirmiş, 1886-cı ildə bir Qaz Tröstü qurmuşdu. Nəticədə J.N.Pew də 1890-cı illərdə





Mellonların neft sahəsindəki ilk təşəbbüslərində təqib etdikləri yolun eynisini təqib edərək, qaz işini Standarda transfer etdi.

1886-cı ildə Pew başqa bir təşəbbüslə çıxış etdi. Lima yataqlarından neft istehsal etməyə başladı. Qurduğu yeni şirkətə fəza ilə əlaqədar bir ad vermək istəyirdi. Göy üzündəki bütün fəza cisimləri arasında ən əhəmiyyətlisinin Günəş olması səbəbi ilə şirkətinə Günəş mənasına gələn "Sun" adını verdi. Baxmayaraq ki, Sun Şirkəti sonrakı 15 ildə sənayedə günəş kimi parlaq olmağı bacara bilmədi. Amma Standard Oilun kölgəsi altında da olsa, sayqın bir neft işinin çatısını qura bildi.

J.Edgar Pew 1901-ci ildə Beaumonta gələndə, gördüyü ilk iş Sun Neft Şirkəti üçün çalışma icazəsi almaq oldu. Ancaq həm özü, həm də ailəsi keçmişdəki təcrübələrinə əsaslanaraq, problemlərin sadəcə istehsalla həll edilə bilməyəcəyinin fərqində idilər. Bu haqda J.Edgar daha sonra bunları söyləyəcəkdi: "Barreli 5 sentdən milyonlarla barrel neft satın almaq mümkündür, amma əsil problem o nefti daha sonra neyləyəcəyimizi bilməkdir." Bunun fərqində olan Sun Şirkəti bölgədə yeni depolar qurdu. Bundan başqa, gəmiylə daşınılıb gətirilən Texas qaynaqlı xam maddəni qəbul etmək üçün Filadelfiya kənarında, Marcus Hookda bir də neft ayırma təsisləri inşa etdi. Bir tərəfdən də uzun vədəli bazarlar qurmaq istədiyindən, bunun təşəbbüskarlığını üstləndi. Spindletop bölgəsinə gəlincə, hər kəsin artıq açıqca gördüyü kimi bura istehsalda eniş mərhələsini yaşayırdı. Bu eniş mərhələsi burada yaşanarkən, Sun Şirkəti Texasın başqa yerlərində inkişaf edib böyüməkdəydi. İstehsalını həyata keçirir, bölgədə özünə aid bir ana kəmər xətti quraşdırırdı. 1904-cü ildə Sun Şirkəti Körfəz tərəfinin neft ticarətində öndə gələn bir ovuc şirkət içində lider olmuşdu.

## "Sərt sifətli Joe" və Texaco

Spindletopdakı girdabdan daha böyük bir neft şirkətinin doğulması, sanki bölgənin alın yazısında vardı. Bu şirkət, Texas neft işinin inkişafında ən başda gələn öncüllərdən biri olan Jozef Cullinanın özünün əl əməyi nəticəsində yaranmışdı. Cullinan, Standardın boru xətti şəbəkəsində gələcəyi çox parlaq olan karyerasından 1895-ci ildə Pensilvaniyada özünə aid, neft işində istifadə olunan alətlər istehsal edən bir şirkət qurmaq üçün ayrılmışdı. Təcavüzkarlığa qədər irəli gedən bezdirici xarakteri, bir işin illah da yerinə yetirilməsi üçün göstərdiyi inad və israrı səbəbi ilə ətrafda ona "Sərt sifətli Joe" deyirdilər. Bu keyfiyyətlərinə görə, əmri altında işləyən adamlar Joenu görəndə, neft ərazisində istifadə olunan əlcək və heyvanların sərt dərisini xatırlayırdılar.

1897-ci ildə Cullinan, neft sahəsində əldə olunan son nailiyyətlər haqqında rahiblərə məlumat vermək üçün qısa bir müddətə Texasın Corsicana şəhərinə dəvət olundu. Buraya gəlişindən sonra sadəcə məlumat verməklə kifayətlənmədi, eyni zamanda bu şəhərə köçərək Corsicananın neft sahəsində ən sözü keçən şəxsiyyəti oldu. Kapitan Lucasın Spindletop neft partlayışından dərhal sonra Beaumonta gəlmiş, vəziyyəti araşdırmağa başlamışdı. Bunun bambaşqa, o birilərdən büsbütün fərqli bir iş olduğunu, bundan başqa, bu işin Corsicanadakı işdən böyük çapda görüldüyünü gecikmədən başa düşdü. İlk iş olaraq Beaumontda xam neft alqı-satqısı ilə məşğul olacaq Texas Fuel Şirkətini qurdu. Bu işi üstlənəndə alət ekspertliyi haqqındakı məlumatlarından yaxşıca faydalandı. Keçmişdə depo təsisləri inşa edən Cullinanın bu sahədəki təcrübəsi və təsislərin oraya sadəcə 20 mil məsafədə





yerləşməsi, Texas Fuel Şirkətinə gələcəkdəki rəqiblərinə nisbətən bəzi üstünlüklər gətirirdi.

Çox keçmədi ki, Cullinan, keçmiş siyasətçilərin qurduqları Sindikatın Spindletop adına edilib gizlədilmiş qiymətli kirayə müqavilələrinin də nəzarətini ələ aldı. Sindikat 140 kilo ağırlığında olan keçmiş bir vali və islahatlar tərəfdarı kimi tanınan James Hogg adlı bir adam tərəfindən idarə olunurdu. Bu adam inzibatçılıqda olduğu qədər, iş sahəsində də çox sərt idi. "Hogg" sözü "donuz" mənasını verir - buna görə də Cənab Hogg bir dəfə özü üçün "mənim adım Hoggdur. Təbiətim də tipik donuzunkuna bənzəyir" demişdi. Hogg qrupu müqavilə sahəsindəki ən əhəmiyyətli və kritik müqavilələri Ceyms Guffeylə bağlamışdı. Ceyms Guffeyin inzibatçılıq baxımından bəzi uğursuzluqları olsa da, Demokratik Partiyanın sədrliyini etmiş birindən gözlənən, ona yaraşan sağlam bir siyasi instinktə sahib idi. Sonrakı günlərdə bu müqavilələri satmasının qarşılığında aldığı pulların, siyasi karyerasının sığorta qiyməti olduğunu söyləmişdi: "O günlərdə Texasda şimaldan gələnlərə bir elə də hörmət etmirdilər. Vali Hoggun bölgədə nüfuzlu və hörmətli adam olduğunu bildiyim üçün onu öz tərəfimə çəkmək istədim. Çünki xərcləyəcəyim pulun çox böyük miqdarda olacağını bilirdim."

Hoggun özünəməxsus başqa bir xüsusiyyəti də vardı. O, Texasda Standard Oilin ən böyük müxalifi idi. Hogg Nyu York valisi olduğu zamanlarda Rokfellerin şəhər məhkəməsinə çıxmasının qarşısını almaq üçün bütün tədbirləri görmüşdü. Hətta Rokfeller məhkəmə dosyasını Nyu Yorkdan kənar bir yerə nəql etdirmək belə istəmişdi. Yeri gəlmişkən, Hogg, bu işə əl atmaqla, Standardın hər yeni rəqiblə üz-üzə gəldiyi zaman istifadə etdiyi alışılmış taktikalarını bir dərəcəyə qədər zərərsizləşdirə bilmişdi.

İş müqavilələrinin daha da genişləndirilməsi üçün lazım

olan sərmayə - Amerika Birləşmiş Ştatlarının Dəri Tröstünün can damarı olan, Dəri İşlətmələri sahibi, Nyu York sakini Lewis H.Laphamdan və Çikaqo sakini, maraqlı şəxsiyyətə malik olan, maliyyəçi John W.Gatesdən təmin olundu. Lapham hər fürsətdə hər şeyə görə mərcləşməyi sevən birisi olduğundan, ətrafda "milyonluq-mərc Gates" kimi tanınırdı. Sərmayənin "yabançı mənbə"dən gəlməsi və zamanla üstünlüyü ələ alacağı şübhəsi Texaslı şəriklərini narahat etdiyi üçün Cullinan, onlara təskinlik verərək "Tammary xalqı yaxında cənubluların simasında öz oxşarlarını tapacaq" dedi. Bu təxminləri zamanla doğruluğunu bir dərəcəyə qədər sübut edəcəkdi.

Geniş təcrübəsi və təbii liderlik qabiliyyəti ilə Cullinan, qısa zaman içərisində Beaumontda neft sahəsinin ən parlaq və ən öndə gələn adamı olmuşdu. 1902-ci ilin sentyabr ayında Spindletopda cəhənnəmi xatırladan böyük bir yanğın çıxdı. Bütün qəsəbə başdan-başa alovlara büründü. Cullinan, bu yanğının söndürülməsi üçün bütün imkanlarını səfərbər etdi. Özü də tam bir həftə - bir dəqiqə durub dincəlmədən, yanğın söndürülənə qədər bu çalışmalarda iştirak etdi. Yanğın söndürüldüyündə, artıq yorğunluqdan bezmiş, pərişan olmuşdu. Gözləri qaz dumanından koralmış, hətta bir neçə gün görmə qabiliyyətini itirmişdi. Ancaq gözləri sarıqlı olduğu və yatağa həbs olunduğu günlərdə belə konfrans keçirməkdən, təlimat verməkdən geri qalmadı. Onunla işləyənlər arasında 1893-cü ildə Patillo Higginsin uğursuzluqla nəticələnən ilk təşəbbüsündə qazmaçılıq edən, indi isə baş qazmaçı olan Walter B.Sharp da vardı. Bir başqası da Noward Hugher Sr. adlı təcrübəli bir qazmaçı idi. 1902-ci ilin yazında Cullinan müxtəlif təmayüllü və sayı çox olan işlərinin birləşdirilməsi və beləliklə, əlində tutduğu şəxsi və avtokratik nəzarətin bir az da qüvvətlənməsini istədi.





Bir neft şirkətinin necə idarə olunacağını bilməyən Ceyms Guffeyin əksinə, Cullinan bu işi çox yaxşı bilirdi. Bu səbəblə "Guffey Körfəzi" Şirkətinin tərsinə, Texas Şirkəti işin başından bəri qazancla işləyirdi. İş qurulduqdan sonrakı birinci il müddətində, neftin barrelini ortalama 15 sentdən satmağa nail ola bilmişdi. İstehsalın həddindən artıq çox olduğu vaxtlarda barrel başına 12 sentdən neft alıb depoladığı nəzərə alınarsa, şirkətin nə dərəcədə yaxşı qazanc götürdüyü ortaya çıxar. Mellonlar Guffeylə aralarındakı problemlərin həllinə çalışdıqları günlərdə, Körfəz Şirkətinin Cullinanın Texas Şirkəti ilə birləşmə işi tamamlanmaq üzrəydi. Ancaq daha kiçik neft şirkətləri yeni qurulacaq bir neft tröstünü gözlərində çox böyüdüb, Texas hüquq qaydaları baxımından günün ən önəmli mövzusuna çevirmişdilər. Buna görə də bu birləşmə alınmamışdı. Hətta bu müzakirələr əsnasında hər iki tərəfi təmsil edən lobbiçilərin Austindəki bir mehmanxanada hamının gözlərinin qarşısında yumruq-yumruğa döyüşdükləri belə olmuşdu. Nəticədə Texas qanunları birləşməyə qarşı çıxdı və beləliklə, birləşmə fürsəti də ortadan qalxdı.

Belə olan halda Cullinan, diqqətini başqa bir səmtə, Texas Neft Şirkətinin genişlədirilməsi məqsədinə yönəltdi. Bunun həyata keçirilməsi üçün ilk olaraq Oklahomadakı Gleen Pooldan Texasdakı Port Artura qədər uzanan öz boru kəmərini qurdu. 1906-cı ildə də şirkətinə ticarət ünvanı olaraq seçdiyi Texaco adını verdi və bu adı qeydiyyatdan keçirdi. Bu, qırmızı bir ulduz üzərinə Texaco adının simvolu olaraq qabardılmış "T" hərfi ilə simvolizə edildi. Daha sonra benzin emalına girişdi. Quruluşundan 6 il sonra - 1907-ci ildə Dallas Dövlət Sərgisində bir-birindən fərqli olan tam 42 məhsulu nümayiş etdirməyi bacardı. 1913-cü ildə artıq benzin istehsalı ən əhəmiyyətli məhsul olaraq aydınladıcı yağların yerini almış və öndə gələn

məhsul olmuşdu. Bundan çox əvvəllər isə Cullinanın gələcək üçün etdiyi təxminlərin hamısı doğrulanmış, həqiqətə çevrilmişdi. Cullinan bu təxminlərində "bir gün - bəlkə də çox yaxınlarda - mərkəz təşkilatımızın Beaumontdan Houstona köçürülməsini istəyəcəyik. Mənə elə gəlir ki, Houston cənub-qərb neftçiliyinin gələcəkdəki mərkəzi olma yolundadır" demişdi. Bu sözləri söylədikdən qısa müddət sonra da Houston yazının nəmli istisinə cəsurca sinə gərərək, işin ən əhəmiyyətli qismini, eyni zamanda Nyu Yorkdan da idarə oluna biləcək tərzdə Houstona nəql etdi.

Sərt sifətli Joenun inzibatçılıqda göstərdiyi sərt davranış sərmayədarlarda get-gedə mənfi təsir yaratmağa başladı və Texasla Nyu York arasında ilk dəfə olaraq bəzi mübahisələrə yol açdı. Bu mübahisələrin yaxın gələcəkdə şirkətə inikası qaçınılmazdı. Vəziyyətdən şikayətçi olanlardan birinin Laphama yazdığı bir yazıdakı şikayəti bu sözlərlə ifadə olunurdu: "Cullinan özünün hər şeyi bildiyini, hər şeyə burnunu soxmaq səlahiyyəti olduğunu zənn edir. Bizə - şirkətin burada, Nyu Yorkda çalışan əməkdaşlarına isə köpəyin quyruğu kimi baxır. Həm də çox kiçik bir quyruq..." Nəticədə hissədarların öndə gələnləri Cullinanın əlqolunu bağlayıb, onu təsirsiz hala gətirmək istəyincə, Cullinan da öz növbəsində onlara üsyan edərək, nəzarəti yenidən ələ keçirmək üçün hissədarlarla amansız bir mübarizəyə başladı. Yerindən qoparılıb başqa bir bölgəyə aparılan bir Pensilvaniyalı bu savaşı bölgələrarası mübarizəyə, Texas-Şərq münaqişəsinə çevirmək istədi. Hissədarlara bəyanladığı bir yazıda şirkətin "keçmişdəki idarə tərzi, müəssisələşməyə bağlı hərəkətləri və fəaliyyətlərinin, Texas adı və Texas idealları ilə bir arada inkişaf etdiyini" elan etdi. Eyni zamanda elanına "şirkətin mərkəzi təşkilatlarının və inzibati mərkəzlərinin Texasda





yerləşməsini, davamlı olaraq Texasda qalması gərəkdiyini" əlavə etdi. Ancaq işin özündə şübhəsiz ki, savaşın səbəbi bu deyildi. Əsas səbəb Cullinanın tək adam olmaq ehtirası idi.

Axırda mübarizə Nyu Yorkun qələbəsi ilə nəticələndi. Bu savaşda Cullinan böyük məğlubiyyətə uğramışdı. Artıq özünü filosofluğa vurmaqdan başqa bir yolu qalmamışdı. Bu haqda keçmiş bir Pensilvaniyalı tanışına yazdığı məktubda sərt sifətli Joe bunları söyləyirdi: "Yaşadığımız hadisə tam bir yataqxanalı məktəb dalaşıydı. Bu dalaşda şübhəsiz ki, bəzi mebellər qırıldı, ancaq nəticədə bizim tərəf uduzdu. Buna görə də yaxında özümə yeni bir iş axtaracağam." Dediyi kimi də etdi və neftçilikdə bir çox yeni uğurlar qazandı. Ancaq o gündən sonra neft arama və istehsal etmə işinə bağlı qalıb, neft ayırma və bazarlama işlərini başqalarına həvalə etdi.

## "Necə nəzarət edə bilərik?"

Bu arada körfəzin sahili və qitənin orta yerində yeni-yeni neft yataqlarının tapılması, Standard Oilun görünüşdə sarsılmaz kimi görünən mövqeyini zəiflədirdi. Bu yeni neft bazarları, sürətlə törəyən mazot və benzin bazarları ilə bir yerə yığışanda sayıları bir ordu qədər olan yeni rəqiblərə qapılarını açırdı. Həm də bu rəqiblər William Mellonun deyimi ilə nə Standarda, nə də başqa birisinə "icazənizlə" deyəcək adamlar deyildi. Baxmayaraq ki, Standardın satışları mütləq surətdə və heç bir tərəddüdə meydan verməyəcək şəkildə böyüməyə davam edirdi. Bu dövrdə yeni əsrin simvolu sayılan benzinin satışı da 1900-1911-ci illər arasında 3 dəfədən artıq olmuş və 1911-ci ildə ilk dəfə olaraq qaz yağı satışını geridə qoymuşdu. Bundan başqa, Standard, inkişaf etmiş texnoloji

dəyişikliklərə də ayaq uydururdu. Wright qardaşlarının istehsal etdiyi təyyarə 1903-cü ildə North Carolinaya bağlı Kitty Hawk qəsəbəsindən ilk havaya qalxışında mühərrikində Standard Oilun yanacağını - istehsal etdiyi benzini və mühərrik yağlarını istifadə etmişdi. Kitty Hawk qumsallığına taxta barrellər və mavi rəngli tənəkə qablar içində gətirilən bu benzin və mühərrik yağlarını oraya daşıyan da Standard Oilun işçiləri idi. Bütün bu həqiqətlərə baxmayaraq, bunu da qəbul etmək lazımdır ki, bütünüylə ələ alındığında Birləşmiş Ştatlarda istehsal edilən neft məhsullarının bazar-birja hissələri Standard Oil baxımından düşməkdəydi və şirkətin bu mövzudakı əzici üstünlüyü yavaş-yavaş öz təsirini itirirdi. Bundan başqa, 1880-ci ildə 90 faiz olan neftayırma müəssisələrinin, 1911-ci ildə 60-65 faizə düşdüyü müşahidə olunurdu.

Körfəz sahilindəki neft partlaması nəticəsində "Köhnə ev" - Standard Oil, Birləşmiş Ştatlar xam neft istehsalındakı nüfuzunun nə qədər olduğunu artıq anlamışdı. Müşahidə olunan başqa bir gerçək də vardı. Qiymətləri "müəyyənləşdirmək" səlahiyyəti və gücü onun əlindən çıxırdı. Bu azmış kimi, başqa ölkələrdə yeni-yeni xam neft qaynaqlarının tapılması da şirkətin beynəlxalq bazarlardakı gücünü azaldırdı. Kənardan baxanlara Standard Oilun mövqeyi əlçatmaz dərəcədə parlaq görünsə də, "Köhnə ev"in nöqteyi-nəzərindən vəziyyət heç də belə deyildi. Bu barədə Standardın direktorlarından biri H.H.Rogers bir gün təəssüflə bunları söyləyəcəkdi: "Bir vəziyyətə baxın - Rusiyaya və Texasa baxın! Arada bitib tükənməyəcək qədər ucsuz-bucaqsız neft var. Bu durumu necə nəzarət altında saxlaya bilərik? Sanki bir şey Standard Oil Şirkətinin yaxasından yapışıb və onu buraxmır, dartışdırır." Daha sonra falçılıq edirmiş kimi bu sözləri əlavə edirdi: "Bu, hər nə isə bizi aşan bir şey olmalıdır!"





# 5

# ƏJDAHANIN QƏTLİ

"Köhnə ev" artıq mühasirəyə alınmışdı. Həm Amerikadakı, həm də dünyanın dörd bir yanındakı rəqiblərini yola gətirməyi bacara bilməmişdi. Bu da kifayət etmirmiş kimi bütün Amerikada Standarda və Standardın amansız iş üslubuna qarşı siyasi və hüquqi bir savaş elan olunmuşdu. Baxmayaraq ki, bu, gözlənilməz bir şey deyildi. Neft Tröstünü qurmaqda günahlandırılan Standard və onun şöbələri daha əvvəl də bir çox dəfə bu hərəkətlərinə görə tənqid olunmuşdu. Standardın neft inzibatçıları isə bu cür tənqidlərin nə üçün edildiyini həqiqətən heç bir zaman başa düşmədilər. Bu tənqidlərin başqalarına edilən adi gözü götürməzlik, təşkilatsız olanların bir qısqanclıq nümayişi və xüsusi bir yaltaqlanma növü olduğunu zənn edirdilər. Onlara görə, Standard Oil öz mənafeyini qorumağa və şirkəti get-gedə zənginləşdirməyə istiqamətlənən amansız çalışmaları ilə sadəcə sürətlə gedən rəqabətə nəzarət etməklə kifayətlənmir, eyni zamanda Rokfellerin özünün də söylədiyi kimi, Amerikan millətinin o zamana qədər gördüyü ən böyük inkişaf nümunəsi sayılırdı.

Ancaq xalqın böyük əksəriyyəti vəziyyəti heç də belə qiymətləndirmirdi. Standardı tənqid edənlər şirkəti güclü, qarmaqarışıq, amansız, heç bir maneə tanımayan, tam mənada hər yana yayılan, amma çox müəmmalı bir təşəbbüs olaraq görürdülər. Onların nəzərində Standard, bir ovuc özünü bəyənmiş müdir xaric, heç kimə hesab vermə məcburiyyəti olmayan, yoluna əngəl olmaq istəyən hamını

və hər şeyi amansızcasına məhv etməyə çalışan bir şirkət idi. Bu görüş bir az da dövrün gözləntisi istiqamətində inkişaf etmişdi. Şübhəsiz ki, Standardın bu dərəcədə inkişafı birdən-birə ortaya çıxmamışdı. Bu inkişaf XIX əsrin son 20-30 ili içində Amerikan iqtisadiyyatının sürətlə sənayeləşməsinin nəticəsində ortaya çıxmış və olduqca qısa müddət ərzində bir çox kiçik firmaları, "tröst" adlandırılan nəhəng sənaye quruluşlarının hakimiyyəti altında fəaliyyət göstərən böyük bir şirkətə çevirmişdi. Daha əvvəl kiçik firmalar kimi bəhs etdiyimiz bu birimlərin hər biri müəyyən bir sənaye sahəsinin hər iki yanında fəaliyyət göstərmişdilər. Bunlardan bir çoxunun da bir-biri ilə adətən iç-içə imiş kimi sərmayədarları və müdirləri vardı. Kiçik firmaların böyük firmaya çevrilmə hadisəsi çox qısa zamanda tamamlandığından, bu vəziyyətdən çox sayda amerikalı dərin bir qorxuya qapılmışdı. XIX əsrin XX əsrə yaxınlaşdığı əsnada qorxuya qapılan bu amerikalılar, yenidən rəqabətin canlandırılması, rüşvətin nəzarət altına alınması və başdan-başa bütün ölkədə qocaman əjdahalar kimi sərbəstcə dolaşan tröstlərin əhliləşdirilməsi üçün gözlərini bir daha hökumətə dikdilər və hökumətdən onların qarşısının alınmasını gözlədilər. Onlara görə, bütün bu əjdahaların içində ən dəhşətlisi və ən qorxulusu Standard Oil Şirkəti idi.





## Holdinqli Şirkət

Standard əleyhinə təkrarlanan və yenilənən ittihamlar əvvəlcə əyalətlərdən və xüsusilə Ohio və Texasdan başladılan inhisarçılığa qarşı açılan məhkəmələrdən başladı. Hətta Kansas əyalətinin valisi bölgədə Standardın neftayırma zavodları ilə rəqabət aparacaq qabiliyyətdə olan və dövlətə aid neftayırma zavodlarının qurulması üçün bir plan belə hazırlamışdı. Valinin planına görə, neftayırma zavodlarında çalışacaq adamlar bölgədəki həbsxanalardan seçilən məhkumlar olacaqdı. Kansas ətrafında ən az daha 7 əyalətdə və həm də Oklahoma bölgəsində bu və ya digər şəkildə qanuni təşəbbüslər həyata keçirildi. Ancaq Standard öz iş prinsiplərində xalqdan gələn bu müqavimətin səbəblərini tam olaraq başa düşməkdə gecikirdi. 1888-ci ildə şirkətin rəhbərlərindən biri Rokfellerə yazdığı bir məktubda eynilə bunları söyləmişdi: "Son günlərdə müşahidə olunan bu antitröst hay-küy zənnimcə, çılğınlıqdan başqa bir şey deyil. Mənim düşüncəmə görə, bu hücuma qarşı fövqəladə vüqarlı davranmalıyıq və sualları həqiqətə uyğun, amma təməldəki hadisələri açıqlamayan mənasız cavablarla sovuşdurmalıyıq." Beləliklə, şirkət hər şeyi mümkün olduğu qədər gizli saxlamağa davam edəcəkdi. Günlərin bir günündə Rokfeller Ohio məhkəmələrindən birində şahid qismində ifadə verərkən, o dərəcə sakit davrandı ki, bir gün sonrakı qəzetlər hadisəni şərh edərkən, "Con D.Rokfellerin ağzı sanki bir tıxacla qapalı idi və o, lal kimi hərəkət edirdi" deyə manşet atdılar.

Standard zaman keçdikcə lazım olan bütün imkanlarını davam edən savaş üçün səfərbər etməyə qərar verdi. İlk

mərhələdə hüquq müşaviri olaraq ölkənin ən yaxşı və ən bahalı hüquqçu dühasını işə saldı. Ayrıca, siyasi arenada da mexanizmə təsir etmək üçün təşəbbüslər göstərdi və get-gedə zamanın nəbzini tutan siyasi fəaliyyət göstərməyi, mükəmməl dərəcədə mənimsəyən bir sənət halına gətirdi. Yeri gəlmişkən, Ohiodakı bir siyasi partiyaya ianə göndərəndə, hədiyyəni bildirən məktuba bu sözləri əlavə etməyi də unutmadı: "Silahdaşlarımız Respublikaçı Partiyadan haqlı olaraq layiq olduqları münasibəti görmədikləri qənaətindədirlər. Ancaq irəlidə sizdən daha yaxşı şeylər gözləyirik." Amma Standard Oil yenə də siyasi fəaliyyətlərə maddi yardım göstərməyə davam etdi. Ohiodan seçilən və Respublikaçı Senator olan bir siyasətçini çox yaxşı şərtlərlə - 1900-cü ildə, illik 44.500 dollar maaşla vəkil kimi işə götürdü. Üstəgəl, o zamanlar "Amerikanın ən öndə gələn Demokratik Lideri" deyə məşhur olan çox güclü bir Senatora da davamlı olaraq kredit verirdi. Hörmətli Senator bu pulla Dallas ətrafında 6 min hektarlıq torpaq satın almış və orada fermer təsərrüfatı yaratmışdı. Standard işlərinin rəvan getməsi üçün bir reklam agetliyinə də müraciət etmişdi. Reklamçıların vəzifəsi qəzetlərdə Standarda ayırdıqları yerdə reklam yerləşdirmək, Standard lehinə dostanə xəbərlər, yazılar və məqalələr yayınlatmaq idi. O günlərdə "Kor Aslanlar" deyə tanınan bəzi şirkətlər vardı ki, Standard Oil bunlarla da məşğul olacaq zaman tapmışdı. "Kor Aslanlar" adlı bu şirkətlər ətraf aləmə qarşı tamamilə müstəqil bazarlamaçı kimi görünsələr də, əslində heç də müstəqil deyildilər. Yeri gəlmişkən, 1901-ci ildə Misuridə "Respublikaçı Neft" adında bir şirkət qurulmuş və Misuridə bazarlama işlərinə başlamışdı. "Respublikaçı Neft" şirkəti elanlarında başlıq kimi "Tröstə xeyr", "İnhisarçılığa qarşıyıq", "Tam mənada





müstəqillik" kimi çarpıcı şüuarlardan istifadə edirdilər. Ancaq bir tərəfdən də gizli-gizli Nyu York 85 ünvanına, yəni Broadvay 26-nın arxa qapısına çuğulluq etməkdən də əl çəkmirdilər.

Standard Oila qarşı aparılan hücumlarda bəzi əyalətlər zaman-zaman müvəqqəti qələbələr qazansa da, bunların heç biri davamlı olmamış, uğurları nəticə verməmişdi. Məsələn, bir nümunə kimi Standard Oilun başından keçən bu hadisə ibrətamizdir: Bir dəfə Standard Oil Şirkətinin Texasdakı şöbələrinin hamısı birdən Texasdan qovulmuş, mallarına əl qoyulmuş və nəzarətə götürülmüşdü. Bundan sonra etiraz edənlər Austindəki Driskill Otelində toplanaraq Standarda aid nə qədər mal varsa, satışa çıxarılmasını tələb etdilər. Və həqiqətən də Standardın bütün mallarını satdılar. Amma satış yenə Standard Oilun agentliklərindən birinə edilmişdi!

Qanuni ittihamların arası kəsilmirdi. Bu, Standard Oil şirkətini istər istəməz daha başqa və fərqli dəyişikliklər etməyə məcbur etdi. 1892-ci ildə Ohio məhkəməsinin verdiyi qərarla Standard Oilun Tröstləri ləğv edildi və hissələr 20 ayrı-ayrı şirkətə transfer edildi. Ancaq hissələrə nəzarət yenə keçmiş hissədarlarda qalırdı. Şirkətlər birləşib "Standard Oil Maraqları" adı altında qruplaşdılar. Bu yeni tənzimləmədən sonra Broadway - 26 ünvanındakı İdarə Heyəti yerini "Standard Oil Maraqları"nı qoruyan müxtəlif qurucu firma rəhbərlərinə verdi və toplantılar bu sədrlər tərəfindən həyata keçirilməyə başlandı. Artıq göndərilən məktublar İdarə Heyətinin adresinə göndərilmirdi. Zərfin üzərinə "yuxarı mərtəbədəki bəylərə" cümləsi yazılırdı. Bu qədər sadə.

Ancaq bu bəylər "Standard Oil Maraqları"nın yenidən təşkilatlanmasından razı qalmamışdılar. Onlar davam

etməkdə olan təzyiqlərə qarşı və şirkətin daha sağlam hüquqi əsaslara söykənməsi üçün başqa qoruyucu tədbirlər görmək qənaətinə gəldilər. Bu sualların Nyu Jerseydə cavablandırılacağına inanırdılar. Çünki bu əyalət son illərdə qanunlarında etdiyi dəyişikliklərlə holdinqlərin, yəni başqa şirkətlərdə hissə sahibi ola biləcək şirkətlərin qurulmasına icazə verirdi. Bu cür qərar verməklə Nyu Jerseyin Birləşmiş Ştatların ənənəvi iş hüququna mütləq surətdə tərs düşən hərəkət etdiyi də ayrıca qeyd olunmalıdır. Nyu Jersey bununla da kifayətlənməyib, yeni ortaya çıxan bu tip təşkilatlanmalara qonaqsevər bir iş mühiti yaratmağa da çalışırdı. Bu səbəblərdən bəhrələnərək 1899-cu ildə "Standard Oil Maraqları"nın sahibləri bütün əməliyyatlarının mərkəzi olaraq "Nyu Jersey Standard Oil"u qurdular. Nyu Jersey Standard Oilun işə başlayanda sadəcə 10 milyon dollar olan sərmayəsi, tezliklə 110 milyon dollara çıxarıldı və şirkətə daha 41 şirkətdə hissə sahibi olmaq haqqı verildi. Bu 41 şirkət həm də daha başqa şirkətlərə və başqa şirkətlər də digər başqa şirkətlərə nəzarət edirdi.

Bu illər ərzində Standard Oilun öz içində, amma başqa cür əhəmiyyətli bir dəyişmə daha oldu. Con D.Rokfeller artıq sayılıb qurtara bilməyəcək qədər böyük və nəhəng bir sərvət sahibi olmuşdu. Amma yorğun idi və çəkilməyi planlaşdırırdı. Hələ 50 yaşlı, gənc sayıla biləcək biri olduğu halda, uzun illər davam edən iş gərginliyi, edilən hücumlar sağlamlığına pis təsir etmişdi. Yeri gəlmişkən, 1890-cı ildən sonra çoxdan bəri şikayət etdiyi sindirim problemləri və yorğunluq əlamətləri özünü büruzə verirdi. Tez-tez həkim nəzarətindən keçməyə başlamışdı. Rokfeller bu haqda danışanda Tanrının onu cəzalandırdığını söyləyərdi. Üstəlik, gecə yatarkən baş ucunda tapança





saxlamaq vərdişi də vardı. 1893-cü ildə streslə bağlı bir xəstəliyə tutuldu. Tibbdəki adı "alopecia" olan bu xəstəlik səbəbi ilə həm fiziki baxımdan çox əziyyət çəkdi, həm də başının tükü bütünlüklə töküldü. Son çarə olaraq iki yola baş vurdu: bəzən keçəl başını bir bərə ilə örtür, bəzən də parik taxırdı. Əvvəlcə arıq və zəif sayıla biləcək vücudu, indi həddindən artıq şişmanlamışdı. Başından min cür qeylü-qal əskik olmurdu. İş həyatında bir-birinin ardınca üzləşdiyi depresiya dövrü və həm ölkə daxilində, həm də ölkə xaricində getdikcə artan şiddətli rəqabət səbəbi ilə kənara çəkilmək qərarını müvəqqəti bir müddətə təxirə saldı. Ancaq artıq işi ilə şəxsi həyatı arasına bir məsafə qoymuşdu və bunu qorumağa diqqət edirdi. Nəhayət, 1897-ci ildə mütləq şəkildə, hələ 60 yaşı tamam olmadan kənara çəkildi və şirkətinin inzibati liderliyini müdirlərdən biri olan John D.Archbolda həvalə etdi.

## Neft ehtiraslı xələf

John D.Archboldun xələf olacağı çoxdan gözlənilirdi. Həqiqətən də bu adam Standardın təcrübəli və ən üst səviyyəli rəhbərlərinin hamısından daha qabiliyyətli və peşəsinin hər baxımdan mütəxəssisi idi. Son 20 il içində Amerikan neft sənayesində təsadüf olunan ən güclü şəxsiyyətlərdən biri olmuşdu. Vəzifəsini təhvil aldıqdan sonrakı 20 il içərisində isə ən güclü şəxsiyyət oldu. Archboldun peşə həyatı uzun illər davam etdi.

Qısa boylu, həqiqi yaşından gənc görsənən birisiydi. Çox əzmli idi və əsla yorulmaq bilməyən bir şəxsiyyəti vardı. Daim "irəli getmək" istəyən, özünü bütün mənalarda seçdiyi hədəfinə həsr edən, bu yolda lazım olan hər şeyi və haqlı bildiyi hər hərəkəti sınaqdan çıxaran biri idi. 1860-cı

ildə prezident seçkiləri kampaniyası əsnasında hələ uşaq olmasına baxmayaraq, üzərində namizədlərin şəkli olan döş nişanı satışı ilə məşğul olmuşdu. Eyni işi qardaşı da işlərin çox yaxşı getdiyi bir bölgədə gördüyü halda, John ondan daha çox döş nişanı satmağa nail olmuşdu. 15 yaşına gələndə, bağlı olduğu Metodist Papazın təqdirini alandan sonra (Papaz, "Tanrı onun getməyini istəyir" demişdi) Archbold tək başına Salem-Ohiodan qatara minib Titusvilleyə hərəkət etdi. Əsas məqsədi savab qazanmaq-filan deyildi. Titusvilledə özünə neft vasitəsilə böyük bir sərvət qazanmaq istəyirdi. İşə xırda bir nəqliyyat işçisi olaraq başladı. Çox az maaşla çalışdığından, puluyla olsa da, yatacaq bir yer tapa bilmir, ofisdəki masanın altına sərdiyi yataqda gecələyirdi. Zamanla neft satışı ilə məşğul olub, vasitəçi-komisyonçu oldu. Çox hərəkətli bir gəncdi. "Neft ehtirası" adlanan duyğuya bax, o günlərdə qapıldı və bütün həyatı boyunca bu duyğunu qorudu. "Neft ehtirası" deyilən bu duyğu, o günlərdə böyük qarışıqlıqlar içində olan "Neft Bölgələri" üçün çox gərəkli idi. Gənc neft komisyonçusunu çoxdan tanıyan bir qonşusu onun haqqında sonradan belə söyləmişdi: "Onun hər gün gördüyü gündəlik "tur işi" heç də asan bir iş deyildi. Titusvillenin ara küçələri daim neftə bulaşmış və ən azı yarım metr dərinliyində palçıqla örtülü olurdu. Creek həndəvərindəki vəziyyət də eyni dərəcədə bərbad idi. Buralarda palçıq bəzən insanın düz baldırlarına qədər çıxdığı halda, John Archbold buna heç əhəmiyyət verməz, fit çala-çala palçığı yarıb keçərdi. Xüsusilə, neft alacaqsa, ya da bir bazarlığa girişəcəksə, daha da nəşəli olurdu..."

Archbold işdən başqa bir şey bilməzdi. Heç bir əyləncəsi yox idi. Zamanla böhranlı vəziyyətlərdə gərginliyi yumşaltmaq üçün zarafat etməyi öyrəndi ki, bu, irəlidə





qarşılaşdığı çatışmalar və mübahisələrdə çox xeyirli oldu. Çox illər sonra, artıq formalaşmış yaşında ondan Standard Oilun hər zaman öz mənafeləri üçünmü savaşdığı soruşulanda, buna soyuq bir cavabla qarşılıq vermiş və "hər zaman hər şeyi xeyirxah məqsədlər naminə etdiyimiz söylənə bilməz" demişdi. Nə qədər cansıxıcı olursa olsun, zamanla öyrəndiyi başqa bir şey də, bütün hadisələri bir perspektiv üçün dəyərləndirməkdi. Başqalarına, xüsusilə Con D. Rokfellerə necə yararlı ola, özünü onlara necə sübut edə biləcəyi haqqında uzun-uzun düşünür, təxminlər edirdi. Hələ 1871-ci ildə Titusvilledə, bir otelə qeyd olunduğu zaman Rokfellerin gözünə çarpmışdı. Rokfeller otel dəftərinə imza atarkən, öz imzasının üstündə bir başqa imza görmüş, bu imza onun diqqətini çəkmişdi. Bu, gənc neft komisyonçu və neftayırmaçısı John D.Archboldun imzası idi və o, imzasını bu şəkildə atmışdı: "John D.Archbold, barreli 4 dollardan." Neft heç bir yerdə bu qiymətin həndəvərinə belə yaxınlaşmırdı. Belə bir zamanda bu dərəcədə özünə inamla olunan bu cür reklam Rokfellerə ləzzət eləmişdi - bunu dəftərinə qeyd kimi yazdı.

Fəal bir adam olan Archbold, zamanla Titusville Neft Mübadilə Şirkətinə katib təyin olundu. Cənub İnkişaf Şirkəti hadisəsi əsnasında və 1872-ci il Neft Savaşları zamanı Rokfeller və dəmir yolları neft istehsalı üzərindəki nəzarəti öz inhisarlarına götürməyə cəhd etdiyi vaxt, Archbold, Neft Bölgələrində buna qarşı çıxan liderlərdən biri olaraq ortaya çıxdı və özünü göstərdi. Rokfelleri ən sərt şəkildə, amansız ifadələrdən istifadə edərək tənqid etdi. Ancaq Rokefeller, bu tənqidlərdə Neft Bölgələrinin ana problemlərini təsbit etmiş, özünü bütün mənalarda işə həsr edən, lazım olanda təcavüzkar və amansız ola bilən, amma hər zaman üçün yola gələn və yumşaq qalacaq bir

şəxsiyyətin varlığını sezmişdi. Yeri gəlmişkən, yola gəlimlilik haqqında doğru düşündüyü 1875-ci ildəki bir hadisə ilə sübut olundu. Rokfeller Archboldu özlərinə qatılmağa çağıranda, Archbold bütün olan hadisələri arxada qoyub, çağrını etirazsız qəbul etdi. Ondan ilk tələb olunan şey Oil Creekdə olan bütün neftayırma müəssisələrinin hamısını büsbütün ələ keçirmək və bunu gizlincə gerçəkləşdirmək idi. Verilən bu vəzifəni mütləq qərarlılıqla üstləndi və bir neçə ay kimi qısa bir müddətdə 27 neftayırma zavodunu satın almağı və ya kirayələməyi bacardı. Amma bunun əvəzini də fiziki baxımdan ciddi bir çöküntüyə uğrayaraq ödədi.

Archbold sürətli addımlarla Standard Oil Şirkətinin zirvəsinə doğru irəliləyirdi. Məsləkdaşlarından biri sonrakı illərdə onun üçün bu sözləri söyləmişdi: "Bir şeyə qərar verdiyini qara gözlərinin qığılcım saçan baxışlarından dərhal anlayardıq. Daha sonra da yenidən gülümsəməyə başlardı." Rokfellerlə arasında ciddi bir əngəl vardı və "bəxtsiz zəif yerim" kimi qiymətləndirdiyi bu əngəli aradan götürməyin vacibliyinə inanırdı. "Bəxtsiz zəif yerim" dediyi şey, içkiyə olan hədsiz aludəçiliyi idi. Bundan xilas olması üçün Rokfeller işə müdaxilə etdi. Ona içkini buraxması üçün and içdirdi və andının üstündə dayanması üçün israr etdi. Archbold Rokfellerin istədiyini etdi. Artıq Archbold tam 50 yaşındaykən, arxasında neft sənayesində keçirdiyi 30 ildən çox bir zaman qoyaraq, Standard Oilun bir nömrəli adamı olmuşdu. Rokfeller isə Broadvay - 26 ünvanıyla əlaqəsini kəsməsə belə, şirkətini həvalə etdiyi gündən etibarən özünü malikanələrinin baxımına, xeyirxah işlərə, qolf oyununa və davamlı olaraq hər gün bir az daha artan pulunun idarəsinə verdi. 1893-1901-ci illərdə Standard Oilun ödədiyi hissə dəyəri 250 milyon dollardan çox idi.





Bunun yarısından çoxu sadəcə 6 adama getmişdi. Pulun cəminin xalis dörddə biri isə Rokfellerə ödənmişdi. Standard Oilun ortaya tökdüyü dağ böyüklükdəki banknot yığını o dərəcədə görkəmli idi ki, Rokefeller bunu bu sözlərlə ifadə etmişdi: "Həqiqətən div boyda böyük bir bank. Bir sənayenin içində qurulan və bu sənayeni bütün rəqiblərinə baxmayaraq, maliyyələşdirən bir bank."

Bu arada, gündəlik məsuliyyətlərdən qurtulan Rokfeller, bu yeni düzən içində əvvəlki sağlığına yenidən qovuşacaqdı. 1909-cu ildə həkimi bir təxmin irəli sürərək, ona 100 yaşına qədər yaşayacağını söylərkən, bu təxminini 3 ayrı səbəbə bağlayırdı. Həkimin dediyinə görə, Rokfeller çox sadə olan 3 qaydaya həmişə riayət etmişdi. Bunlardan birincisi, kədərli şeylərdən daim uzaq olmaq, ikincisi, açıq havada kifayət qədər gəzinti və hərəkət etmək, üçüncüsü də süfrədən hər zaman bir az ac qalxmaq kimi sadə tədbirlər idi. Rokfeller şirkətdə olub bitənlərlə əlaqəsini kəsmir, amma şirkətin idarə olunmasına heç bir zaman aktiv olaraq qarışmırdı. Buna heç Archbold da razı olmazdı.

Hər şənbə sabahı Archbold Rokfellerin ziyarətinə gedər və şirkət işlərini, ən böyük hissədar olan Rokfellerlə oturub danışardı. Rokfeller əlini bütün işlərdən çəkməsinə baxmayaraq, əslində haqsız olaraq "sədr" ünvanını həmişə özündə saxlamışdı. Əslində bu barədə də Standardın "tam gizlilik" prinsipinə riayət olunmuş və Rokfellerin işdən əl çəkdiyi mütləq formada gizlədilmişdi. İşi başqasına həvalə etdiyi bilinmədiyi üçün Standardın gördüyü hər işdən yenə o məsul tutulurdu. Rokfellerin adı artıq Standardla bərabərləşmişdi. Bütün tənqidlərin, əsəbiliklərin və hücumların hədəf nöqtəsi o idi. Əcəba, Rokfeller sədrliyi nə səbəblə əlindən verməmişdi? Məsləkdaşlarına nisbətən, onun adı bu imperiyanı bir bütün olaraq qoruyub saxlamaq və

parçalanıb dağılmasının qarşısını almaq üçün şərtdi və bundan başqa, bu, bir qorxu faktoru kimi həm də lazımlı idi. Bəziləri isə bunu, ən böyük hissədar olduğu üçün Rokfellerə bəslənən hörmət və ehtiram əlaməti olaraq qiymətləndirirdilər. Səbəb nə olursa olsun, yeni əsr başladıqdan dərhal sonra şirkətin üst səviyyəli rəhbərlərindən bir başqası, H.H.Rogers gizlicə başqa bir görüşü ortaya atır və belə deyirdi: "Sədrlikdə qalmasının vacibliyini ona biz söylədik. Məhkəmələrdə əleyhimizə açılan bir çox davalar vardı və heç biri nəticələnməmişdi. Rokfellerə, əgər bir gün içimizdən birisi həbs olunarsa, onun da sədr olaraq bizimlə birlikdə həbsə girəcəyini söylədik və ondan bunu tələb etdik."

### Fırtınalar qoparan hadisə

Standarda istiqamətlənən ittihamlar XIX əsrin axırlarında bir xeyli şiddətləndi. O günlərdə Amerikada "irəliçilik" dedikləri yeni və güclü bir reform ruhu doğulmuş və bu cərəyan get-gedə yüksəlməyə başlamışdı. İrəliçilik cərəyanındakı ana hədəf - siyasi islahatların həyata keçirilməsi, istehlakçının qorunması, sosial ədalətin bərpası, daha yaxşı yaşam şərtlərinin yaradılması və böyük işlərin nəzarət altına alınması və tənzimlənməsi kimi anlayışlar idi. Böyük işlərin nəzarətini tələb edən cərəyan o günlərdə Amerikanı başdan-başa saran şirkətlər birləşməsinin dalğasında vacib bir problem kimi yaranmış və tröst sayında sürətli bir artıma səbəb olmuşdu. Amerikanın ilk tröstü olan Standard Oil Tröstünün quruluş tarixi 1882-ci ildir. Ancaq birləşmə hərəkatının həqiqətən sürətlənməsi 1890-cı illərə təsadüf edir. Aparılan statistikaya görə, 1898-ci ildən əvvəl toplam kapitalları 1.2 milyard dollar olan 82





tröst qurulmuşdu. *1898-1904-cü illərdə isə daha 234 tröst* quruldu və bunlar 6 milyard dollar əlavə sərmayə ilə çalışdı. Bəzilərinə görə, tröst və ya monopoliya - kapitalizmin ən bariz icraatı mənasına gəlirdi. Digərləri isə, tröstü başqa gözlə görür və sistemin lazımlı bir parçası, bir partlaması olaraq onu müdafiə edirdilər. Bunlara görə, mövcud sistem yalnız kəndliləri və fəhlələri yox, orta sinifləri və təşəbbüskar iş adamlarını da təhdid edirdi. Bu adamlar iqtisadi baxımdan, özlərini bütün hüquqlardan məhrum olmuş kimi görməli, hər şeydən qorxmalı idilər. 1899-cu ildə tröst qanunu bu sözlərlə tərif olunmuşdu: "Bütün ölkənin qarşı-qarşıya olduğu ən böyük əxlaqi, sosial və siyasi savaş." 1900-cü ilin prezident seçkiləri kampaniyasında gündəmdə olan ən əhəmiyyətli mövzulardan biri tröst mövzusu idi. Yeri gəlmişkən, prezidentlik yarışında qələbə qazandıqdan dərhal sonra prezident William Mc Kinley, katibinə "tröst mövzusu ciddi və təcili bir problem kimi dərhal ələ alınmalıdır" demişdi.

Tröst mövzusunu ilk dəfə ələ alanlardan biri olan Henry Demarest Lloyd, Standard Oila sərt hücumlar edir, tənqidlərini yazıyla da ifadə edirdi. 1894-cü ildəki Wealth Against Commonwealth (Sərvət Dövlətə Qarşı) adlı kitabı bunun bir nümunəsidir. Bu yazarın xəbərdarlığından sonra cəsarətli bir qrup jurnalist, cəmiyyətin yaxşı və pis yönlərini araşdırıb, yazılı olaraq elan etmək istiqamətində fəaliyyətə başladılar. Yeni bir irəliçi hərəkat cığırı açan bu yazarlar, gələcəkdə "muckraker"lər (haqsızlığı ortaya çıxaranlar) kimi xatırlanacaq və bu irəliçi hərəkatın mərkəzində yer alacaqdılar. Bir tarixçinin söylədiyi kimi: "Amerikan İrəliçilik Hərəkatının tənqid vasitəsilə nail olduğu ən əsas icraat, işlərin ortaya çıxarılıb təsbit olunması olmuşdur."

Haqsızlığı tapıb ortaya çıxarmaq işinə "Mc Clure" jurnalı özünü bütünlüklə həsr etdi. Ölkənin öndə gələn mətbu orqanlarından biri olan bu jurnalın tirajı yüz minlərlə ölçülürdü. Jurnalın sahibi isə öz başının ağası olan, dərin və əhatəli düşünən, xəyal gücü qüvvətli olan Samuel Mc Clure idi. Özünəməxsus xasiyyətləri vardı. Paris və Londona etdiyi bir səfərində qalstuk kolleksiyası yaratmaq məqsədi ilə, bir səfərdə tam min ədəd qalstuk almışdı. Nyu Yorka qayıdışında ətrafına qabiliyyətli bir yazarlar qrupu topladı. Bu yazarlar yazacaq çox maraqlı və sensasion mövzular axtarırdılar. 1899-cu ildə bunlardan birinə yazdığı bir məktubda Mc Clure bu sətirlərə yer verirdi: "Çox maraqlı bir mövzu tapdım. Bu, tröst mövzusudur. Fırtınalar qoparacaq bir hadisədir. Xalqın bilmək istədiyi bir mövzunu bütün tərəfləri ilə oxucuya təqdim edən bir jurnal şübhəsiz ki, böyük bir tiraj partlaması edəcəkdir."

Jurnalın redaktorları bu mövzunu ələ aldıqları zaman, şirkət birləşməsini açıqlamaq üçün ağırlığını müəyyən bir tröst üzərində yoğunlaşdırmağı qərarlaşdırdılar. Ancaq bu, hansı tröst olmalıydı? Əvvəlcə Şəkər Tröstü, sonra da malqara Tröstü üstündə dayansalar da, sonradan hər ikisindən imtina etdilər. Bundan sonra yazarlardan biri Kaliforniyadakı neft kəşfindən bəhs etməyə başladı. Jurnalın baş redaktoru Tarbell buna etiraz etdi və bu haqdakı fikirlərini belə ifadə etdi: "Planımız mövzuya hücum olmalıdır. Buna istiqamətlənən yeni bir plan hazırlamalıyıq. Sadəcə sənayelərin və ticari inkişafın böyüklüklərini, ölkənin bir çox yerinə gətirdiyi dəyişiklikləri göstərmək kifayət deyildir. Elə bir plan hazırlamalıyıq ki, oxucular sənaye liderlərinin birləşməsini və bu qaynaqları nəzarət altına almalarını təmin edən böyük prinsipləri açıqca görə bilsinlər."





## Rokfellerin "qadın silahdaşı"

İda Minerva Tarbell bu sözləri söylədiyi vaxtdan çox əvvəllər özünü Amerikanın ilk böyük jurnalisti olaraq təsdiq etmişdi. Uzun boylu, ciddi, sakit və avtoritar görünüşlü bir qadın idi. Allegheny Kollecini bitirdikdən sonra Parisə getmiş, fransız inqilabının liderlərindən olan və həyatını gilyotində tamamlayan Madam Rolandın bioqrafiyasını qələmə almışdı. Tarbell özünü peşəsinə həsr etmiş və bu səbəblə də heç evlənməmişdi. Ancaq həyatının daha sonrakı illərində ailə həyatı və qadınların üzləşdiyi problemlər haqqındakı bir çox mövzularda qələmini sınamışdı. XX əsrin əvvəllərində 40 yaşı vardı və hələ o zaman belə Napoleon və Linkolnun bioqrafiyalarını uğurlu və peşəkarlıqla qələmə alan və buna görə də tanınan bir yazardı. Davranışları və gürünüşü ilə həqiqi yaşından yaşlı görünürdü. Mc Curedə ədəbiyyatdan köşə yazan başqa bir qadın Tarbell haqqında belə söyləyirdi: "Həyatı boyunca özünü insanlardan uzaq tutdu. Onu yaxşı tanımayan və ona səthi baxan birisi üçün Tarbell sadə bir qadın və heç bir kaprizi olmayan biriydi." Mc Clure tröstlər mövzusunu işləməyə qərar verdiyi gündən etibarən bu mövzunu həmişə gündəmdə saxlayırdı. Tarbell də bu haqda öz araşdırmalarını aparmağa başladı. Amma bu davada qarşısında bir əngəl vardı - Tröstlərin Anası olan əngəl. Amma Tarbell yorulmadan araşdırmalarına davam etdi. Mc Clurenin təsdiq qərarını almaq üçün İtaliyaya getdi və istədiyinə nail oldu. Beləliklə, Tarbell əvvəl-axır gəlib Standarda dirənəcək araşdırmalarına başladı.

Həyat sürprizlərlə doludur və bəzən insanın taleyində oyun oynayar. Tarbellin araşdırmalarının nəticəsində

yazdığı kitab da "Neft Bölgələri"ni fəth edən qalib adamlara qarşı oynadığı bir oyun, son intiqam oldu. Çünki İda, "Neft Bölgələri"nin qarmaqarışıq atmosferində böyümüşdü. Atası Frank Tarbell, Drakenin kəşfindən dərhal sonra tanker istehsalçısı olaraq işə götürülmüş, 1860-cı illərdə vəziyyətini yaxşıca düzəltmiş, özünə gəlmiş, bir müddət sonra isə yaşamaq üçün dəbdəbəli Pithole qəsəbəsinə yerləşmişdi. Bir gün gözlənilmədən oradakı neft yataqlarının quruması və neft fışqıran kiçik şəhərin məhv olması səbəbi ilə Frank Tarbell 60 min dollara yeni tikilən qəsəbənin ən böyük otelini 600 dollara satın aldı. Oteli tamamilə sökdü. Fransız üsulunda tikilən pəncərələri, gözəl qapıları və bəzəkli əşyaları, taxta və dəmir tutacaqları - hər şeyi bir vaqona yükləyib 10 mil uzaqlıqda yerləşən Titusvilleyə daşıdı. Bu materiallardan istifadə edərək, Titusvilledə ailəsi üçün gözəl bir ev tikdi. Bax, kiçik İda uşaqlığını qarmaqarışıqlığın ortasında olan belə bir atmosferin qalıqları içərisində keçirmişdi (Təsadüfi deyil ki, irəlidəki yaşamında Pitholenin həzin hekayəsini yazmaq, əsərinə də "Neft tarixində heç bir şey Pithole qədər dramatik ola bilməz" adını vermək istədi).

1872-ci ildə Frank Tarbell, Neft Savaşlarında Cənubu İnkişaf Şirkəti ilə mübarizə aparmaq niyyətilə müstəqil neft istehsalçıları ilə ittifaq yaratdı. Daha sonra da "Neft Bölgələri"ndə yaşayan bir çoxları kimi, o da iş həyatını Standardın inkişafına qarşı davamlı mübarizələrdə və mübarizənin gətirdiyi əzab-əziyyətlərdə keçirdi. Sonrakı illərdə İda Tarbellin qardaşı William, Müstəqil Saf Neft Şirkətinin qabaqcıl rəhbərlərindən biri oldu və şirkətin Almaniyadakı bazarlama işlərinə rəhbərlik etdi. İda Tarbell həm atasından, həm də qardaşından bu işin etibarlı iş olmadığını təhlükələr içərisində öyrənmişdi.





Qardaşı Williamın söylədiyinə görə, bu iş bir növ "qumar oynamaq"dı. 1896-cı ildə yazdığı bir məktubda William belə demişdi: "Çox vaxt başqa bir işlə məşğul olmağı arzulayıram. Əgər bir gün zəngin olsam, bilinsin ki, pulumun çoxunu daha etibarlı bir işə yatıraram." İda atasının çəkdiyi əzab-əziyyətləri və maddi sıxıntıları unutmamışdı. Girovluqdakı evləri, uğursuzluq duyğularının gətirdiyi əziklik, ətrafdakıların şər şəbəkəsi qarşısındakı açıq-aşkar çarəsizlikləri, Standardla anlaşmaq və anlaşa bilməməyin gətirdiyi ümidsizliklər və gördükləri fərqli münasibət hələ xatirindəydi.

Artıq xeyli yaşlanmış atası, qızının Mc Clure jurnalında Standard haqqında araşdırmaya girişdiyini öyrənəndə, ona "bu işdən əl çək, İda. Bu araşdırma dərgini məhv edər" demişdi.

Bir axşam Alexander Graham Bellin Vaşinqtonda verdiyi bir axşam yeməyində Rokfellerə bağlı banklardan birinin 2-ci başqanı İdanı bir kənara çəkərək, Mc Clure jurnalının maddi vəziyyətinin necə olduğunu soruşdu. Əslində gördüyü iş, Mc Clure haqqında ona xəbərdarlıq edən atasının dediyi kimi, İdanı incə tərzdə qorxutmaq idi. Bu suala İdanın cavabı çox sərt oldu: "Üzr istəyirəm, amma bu, mənim üçün heç fərq etməz."

Artıq onu heç bir şey dayandıra bilmirdi. Yorulmaq bilmirdi. Bütün enerjisini - son qətrəsinə qədər bu işə həsr etmişdi. Bir araşdırmaçı kimi eyni zamanda həm də bir növ xəfiyyəçilik vəzifəsini yerinə yetirirdi. Özünü tamamən araşdırmaya həsr etdi və çox sensasional bir hekayənin izində olduğu inancını heç bir zaman itirmədi. Araşdırmalarında daha doğru nəticələr əldə etmək üçün, assistantlıq edən yaxın bir adamını, keçmişi xatırlayan adamları axtarıb tapması üçün Klivlendin köhnə küçələrinə göndərdi.

Oradan göndərdiyi məktubda assistant bunları yazırdı: "Con D.Rokfeller adlanan bu adam, Amerikanın ən əcaib, ən susqun, ən müəmmalı və ən ilginc şəxsiyyətidir. Bu ölkədə yaşayan insanlar onun haqqında heç bir şey bilmirlər. Rokfeller haqqında aparılacaq parlaq və uğurlu bir araşdırma Mc Clure jurnalına çox böyük nailiyyətlər qazandıracaqdır." Tarbell, bu sözlərdən sonra bu qumarı oynayıb, ən böyük kozırı qazanmağa qərar verdi.

Ancaq doğrudan-doğruya Standarda yetişməyin və onun sirrlərini açmağın əcəba, yolu nəydi? Bu haqda heç gözlənilməz bir yerdən yardım əli uzadıldı. O günlərdə Standarda John Archbolddan sonra gələn ən təcrübəli və güclü adam, eyni zamanda öz sahəsində tanınmış bir macərapərəst H.H.Rogers idi. Standardın boru kəmərləri və təbii qaz işlərinə rəhbərlik edirdi. Ancaq Rogersin işdən başqa şəxsi maraq sahələri də vardı. Təxminən 10 il əvvəl Mark Tvenin qarmaqarışıq olmuş və ərəb saçına dönmüş iflas həddindəki maliyyə hesablarını boynuna götürmüş və onları nizamlamışdı. Beləliklə, H.H.Rogersin Amerikan ədəbiyyat tarixinə öz çapında böyük xidmət göstərdiyi söylənə bilər. Rogers, Tvenin maliyyə hesablarını nizamladıqdan sonra məşhur yazıçının pulunu o qədər gözəl şəkildə idarə etdi və o qədər lazımlı sahələrə yatırdı ki, artıq Mark Tven "acından günorta qalxmaqdan" canını qurtardı. Bu haqda Rogers belə deyirdi: "Öz sıxıntılarımdan bezəndə bir dostumun problemlərini həll etməyə çalışıram. Bu, məni dincəldir." Rogers Mark Tvenin kitablarını çox sevər, zaman-zaman uca səslə həyat yoldaşına və uşaqlarına oxuyardı. Zamanla hər ikisi də çox səmimi iki dost oldular. Mark Tven bilyard oynamaqdan zövq alır, bu oyunu Rogersin hədiyyə etdiyi bilyard masasında oynayardı. Ancaq işə gələndə, Rogers çox sərt davranar,





emosionallığa heç yer verməzdi. Hər nə olsa da, bir vaxtlar Standard Oilun araşdırmasını aparan komissiyaya klassik bəyanat verərək, "bu işə sağlamlığımızı qazanmaq üçün girmədik, pul qazanmaq üçün girdik" deyən adam o idi.

"Who`s who" adlı və Amerikadakı məşhur adamları tanıdan kitab onu qısaca "Kapitalist" olaraq göstərmişdi. Ancaq başqaları onu Wall Streetdəki macəraları səbəbi ilə "Zəbani Rogers" deyə xatırlayardılar. Rokfellerin onu dəstəkləmədiyini bilir, bunun səbəbinin də öz deyişi ilə "doğuşdan qumarbaz" olduğundan qaynaqlandığını zənn edirdi. Həqiqətən də həftə sonları, birjanın qapandığı günlərdə Rogers heç cür yerində dayana bilməz, hərəkətə keçmək üçün qarşısı alınmaz bir istək hiss edər, nəticədə də poker oyununa dalardı və bu alışqanlığını da dəyişdirmək həvəsində deyildi.

Mark Tvenin israrıyla Rogers, kar və kor Helen Kellerin təhsil xərclərini ödəməyi öhdəsinə götürdü və onun Radeliffeyə getməsini təmin etdi. Tven şəxsən Rogersə hər zaman minnətdarlıq edər, ona yeri gələndə "indiyə qədərki ən yaxşı dostum" deyər, "tanıdığım ən yaxşı insan" sözlərini də əlavə edərdi. Zaman-zaman naşirlik edən Tven, bir dəfə Henry Demarest Lloydun Standarda hücum dolu "Sərvət Dövlətə Qarşı" başlıqlı kitabını yayınlaması üçün yaxşı bir təklif almışdı. Ancaq Tven bu təklifi rədd etdi və həyat yoldaşına yazdığı bir məktubda hisslərini bu sözcüklərlə anlatdı: "Onlara bunu söyləmək istərdim: dünyada dəyər verdiyim tək adam, umurumda olan tək adam, məni və yaxınlarımı aclıqdan və xəcalətdən xilas etmək üçün öz alın tərini və qanını xərcləyən adam - düşmənimiz olan Standard Oilun bir mənsubudur... Amma bu sözləri söyləmədim. Onlara heç bir kitab yayınlamaq istəmədiyimi, naşirlik işini buraxdığımı söylədim."

Mark Tven Rogersin Broadway - 26 ünvanında yerləşən ofisinə istədiyi zaman sərbəstcə girib-çıxar, bəzən də "yuxarıdakı bəylərlə" onların özəl yeməkxanalarında günorta yeməyi yeyərdi. Bir gün Rogers Mark Tvenlə danışarkən, Mc Clure jurnalının Standardın keçmişini araşdıran bir kitab yazma hazırlığı içərisində olduğunu sözarası söylədi və ondan bu işin nə yerdə olduğunu öyrənməsini xahiş etdi. Tven eyni zamanda Mc Clurenin də dostu idi və naşirin kim olduğunu onlardan soruşdu. Hadisələr bir-birini qovaladı və nəticədə Tven İda Tarbelli Rogerslə görüşdürdü. İdanın istədiyi bağlantı beləcə, qurulmuşdu.

İda ilə Rogersin tanışlığı 1902-ci ilin yanvar ayına təsadüf edir. İda Standard Oilun bu güclü adamı ilə üz-üzə gəlib danışmaqdan olduqca narahat idi, amma Rogers onu isti qonaqsevərliklə qarşıladı. İda o anda Rogersin "Wall Streetdəki ən yaraşıqlı və ən seçkin şəxsiyyət" olduğuna qərar verdi. Danışıq yumşaq bir ab-hava içərisində sürüb getdi. Özəl həyatlarından danışdılar bir-birinə. Tarbell hələ uşaq ikən Rogersin də "Neft Bölgələri"ndə eyni qəsəbədə yaşadığı, o zaman kiçik bir neftayırma müəssisəsi işlətdiyi ortaya çıxdı. Rogers qadına necə kirayəlik evdə yaşadığını və bunu etməkdəki məqsədinin də Standard Oildan hissə qoparmaq olduğunu söylədi. Halbuki o günlərdə kirayədə yaşadığını söyləmək, iş həyatında uğursuzluğunu etiraf etmək sayılırdı. Tarbellin atasını xatırladığını, iş yerindəki "Tarbell Tanker Dükanı" lövhəsini belə yadında saxladığını sözlərinə əlavə etdi. Söylədiyinə görə, həyatında heç bir zaman o günlərdəki qədər xoşbəxt olmamışdı. Bunları söyləyərkən, bəlkə də səmimi idi və ya kim bilir, bəlkə də ev tapşırığını yerinə yetirən yaxşı bir psixoloq kimi hərəkət edirdi. Səbəb nə





olursa olsun, İda Tarbelli cazibəsi ilə təsir altına aldığı şübhəsizdi. Aradan illər keçməsinə baxmayaraq, İda hər o günü xatırlayanda Rogersdən səmimiyyətlə "bayrağını Wall Streetdə dalğalandıran ən mükəmməl quldur" deyə söz edəcəkdi.

Tanış olduqları zamandan sonrakı iki ildə İda və Rogers mütəmadi olaraq bir araya gəldilər. Şirkət siyasəti ziyarətçilərin bir-biri ilə qarşılaşmasını qadağan etmişdi. Buna görə də İda şirkətə bir qapıdan girir, başqa bir qapıdan çıxırdı. Hətta zaman-zaman ona Broadway - 26-da, bir masada oturub işləmək imtiyazı belə tanınırdı. Rogersə keçmişdə Standardla bağlı hadisələrin dosyesini gətirir, Rogers də bunlarla əlaqədar sənədləri, rəqəmləri, hadisələrin əsas səbəblərini, açıqlama və şərhləri tapıb İdaya verirdi. İdaya qarşı qəribə bir şəkildə açıq və səmimi hərəkət edirdi. Yeri gəlmişkən, bir qış günü İda cəsarət edib ondan Standardın necə olur ki, "qanunları öz mənafeyinə görə tənzimləyə bildiyini" soruşa bilmişdi. Rogers bu suala belə cavab verdi: "Ah, şübhəsiz ki, bunu edirik. Siyasətçilər buraya gəlib kampaniyalarına yardım göstərməyimizi xahiş edirlər. Biz də hər birinə şəxsən kömək edirik... Əlimizi cibimizə atıb, kampaniyada istifadə olunmaq üçün kifayət edəcək qədər pul ödəyirik. İrəliki fəaliyyətlərimizdə maraqlarımıza cavab verməyən bir faktura gəldiyində, kampaniyanın müdirinə yaxınlaşıb "belə-belə bir faktura gəldi, ödəmək istəmirik, sizdən bizim maraqlarımızı qorumanızı gözləyirik" deyirik. Onsuz da hamı bu cür edir."

Əcəba, niyə bu qədər açıq danışırdı? Bəzilərinə görə bu o günlərdə arasının yaxşı olmadığı Rokfellerdən bir qisasalma üsulu idi. Guya ki, ona müqavimət göstərirdi. Bu haqda özünün gətirdiyi açıqlama həqiqətə daha yaxın

idi. Tarbellə yazacağı kitabın "Standard Oil Şirkəti haqqında sonuncu əsər olacağını" söyləmişdi. Necə olur-olsun bu kitabı yazmaqda qərarlı olduğu üçün şirkətin vəziyyətini "həqiqətə uyğun" əks etdirməyi ondan xahiş etmişdi. Bunun üçün əlindən gələn köməkliyi göstərəcəyini bildirmişdi. Hətta onu Henry Flagerlə belə tanış elədi. Ancaq Flager o günlərdə Floridadakı böyük əraziləri ilə məşğul idi. Tarbellə görüşəndə onu xəyal qırıqlığına düçar etmiş, heç nə danışmamışdı. Sofuluq etmiş və "Tanrı istədi, zəngin olduq" cümləsindən başqa bir söz belə söyləməmişdi. Bununla kifayətlənməyən Rogers bilavasitə Rokfellerin özü ilə də görüş təşkil edə biləcəyini eyham etməsinə baxmayaraq, bunu edə bilmədi. Rogers bunun səbəbini heç bir zaman açıqlamadı.

Tarbellin uzun vədədəki planı başqa cür idi. Bir məsləkdaşına söylədiyi kimi "Standard Şirkətinin keçmişi haqqında hekayə tipli sənədli əsər" yazmaq istəyirdi. "Yazacağım sənədli əsərin mütləq əks görüşü əks etdirməsi şərt deyil. Çalışa bildiyim qədər dramatik üslubda və həqiqəti olduğu kimi göstərən, bu böyük monopolist şirkətin fəaliyyətini tam gözlər önünə sərən bir şey olmasını istəyirəm" deyirdi. Bu əsərin yazılmasında göstərdiyi köməyə və rəhbərliyində təmsil olduğu şirkətə görə qürur duyan Rogers də eyni cür fikirləşirdi.

Tarbellin başlanğıcdakı niyyəti nə olursa-olsun Mc Clure jurnalında 1902-ci ilin noyabr ayından dərc olunmağa başlayan yazılar silsiləsi bomba kimi partladı. Ayda bir dəfə çıxan yazılarında şirkətin yeni dəzgahların alımında və etdiyi manevrlərindəki fırıldaqlarını, rüşvət və amansız rəqabət üsullarını naxış kimi ustalıqla işləyir, bu dikbaşlı şirkətin özünə bağladığı o biri şirkətlərlə apardığı sonu görünməyən savaşı, onları necə incitdiyini bütün





çılpaqlığı ilə gözlər önünə sərirdi. Artıq yazdığı məqalələr millətin içində ağızdan-ağıza dolaşır, yeni-yeni sənədli əsərlər ortaya çıxırdı. Yazısının ilk hissələrinin dərcindən bir neçə ay sonra ailəsini görmək üçün Titusvilleyə gələndə "gördüyüm işin xalq arasında xeyli dəstəkləndiyini görməkdən məmnunam, bu, çox ilginc bir şeydir. Bəzi dostlarımın kəhanətlərinin əksinə, nə qaçırıldım, nə də yazdıqlarıma görə məhkəmələrə çəkildim. İnsanlar mənimlə sərbəstcə danışmaq istəyirlər" deyirdi. Bütün olanlara baxmayaraq, məqalələrin dərci gedə-gedə Rogers hələ də ona qarşı həlim davranmağa, onu nəzakətlə qəbul etməyə davam edirdi. Dostluqları Tarbellin Standardın casusluq şəbəkəsinin necə çalışdığını açıqlayan yazısı çıxdığı günə qədər davam etdi. Tarbell bu yazıda ən kiçik müstəqil pərakəndə satıcılara belə necə təzyiq olunduğuna israrla toxunur, yazının əsas gücünü bunların üstünə yönəldirdi. Rogers hirsindən çılğına dönmüşdü. Aralarındakı əlaqəni dərhal kəsdi və onu bir daha görmək istəmədi. Ancaq Tarbell yazdıqlarından heç də peşiman deyildi. Daha sonra Tarbell bu mövzuda belə söyləyəcəkdi: "Bu xəbərçilik və çuğulluq sisteminin ortaya çıxması məni iyrəndirmişdi... Çünki məncə bu, şirkət rəhbərliyində fəaliyyət göstərən onlarla dühə və qabiliyyətli insanla heç bir şəkildə uyğunlaşmayan diksindirici bir şeydir. Standardla bağlı heç bir şey məndə bu hadisənin daddırdığı duyğunu oyandırmamışdı." Tarbellin bəhs etdiyi duyğu yazarın Standarda aid gələcək çalışmalarında müəyyənləşdirici faktor oldu.

Tarbellin yazıları fasiləsiz olaraq 24 ay davam etdi və 1904-cü ilin noyabr ayında kitab şəklində nəşr olundu. Kitabın adı "Standard Neft Şirkətinin Keçmişi" idi və sonunda 64 ədəd əlavə vardı. Bu əsər - işin mənbəyinə

enməkdə qarşıya çıxan bütün əngəllərə baxmayaraq - şəffaflıq və cəsarət ifadə edən, şirkətin bütün tarixini böyük bir ustalıqla işləyən qiymətli və həqiqətən dəyərli bir əsərdir. Səthi oxunduğunda hisslər çərçivəli görüntü təsiri bağışlasa da, hər sətirin altında get-gedə qızışan bir hirs və əsəb gizlənir. Rokfellerə istiqamətlənən təsirli ittiham və insan boğazlayan tröstün həzin hekayəsi ilk baxışdan səthi görünən əsərin sətirlərinin arasında gizlənmişdi. Xristian adət-ənənələrinə sıx bağlılığı iddia olunan Rokfeller, Tarbellin kitabında əxlaqla heç bir əlaqəsi olmayan, əxlaq normalarını büsbütün ayaqlar altına atan bir adam olaraq təqdim olunur. Yazar kitabında ondan bu cür bəhs edir: "Cənab Rokfeller oynadığı hər oyunda sistemli şəkildə hiyləli zərdən istifadə edir. Bundan başqa, 1872-ci ildən bəri rəqibləri ilə girişdiyi yarışların birində belə ədalətli şəkildə yarışmamışdır."

Kitabın nəşr olunması başlı başına bir hadisə idi. Qəzetlərin biri kitab üçün "bu sahədə bu ölkədə yazılan kitablar arasında ən diqqətə şayan olanı" deyə yazırdı. Samuel Mc Clure Tarbellə bu sözləri demişdi: "Siz bu gün Amerikanın ən məşhur qadınısınız... Dünyanın dörd bir tərəfində insanlar sizdən o dərəcə ehtiramla bəhs edirlər ki, sizdən mən belə bir növ qorxan kimiyəm." Sonrakı günlərdə Avropaya gedəndə Avropa qəzetləri belə "gördüyü işlərdən davamlı bəhs edildiyi"ni yazırdılar. Standard Oilun Nyu Jersey qolu belə - ki, kitabı təbii olaraq yaxşı qarşılamamışdı - uzun illər boyunca, 1950-ci illərə qədər "Amerikan iş həyatı və iş tarixi haqqında bu qədər çox satılan və mahiyyətinin ictimaiyyət tərəfindən bu dərəcədə mənimsənildiyi bir kitab belə yazılmadığını" qəbul etmək məcburiyyətində qalmışdı. Ziddiyyətli məqamlarının olmasına baxmayaraq, bu kitabın Birləşmiş Ştatlarda iş





həyatından bəhs edən gəlmiş-keçmiş ən təsirli əsər olduğu söylənə bilər. Tarbell bir açıqlamasında belə demişdi: "Onların böyüklüyünə və sahib olduqları sərvətə qarşı hər hansı bir pis niyyətim yox idi, necə idarə olunduqlarına da etiraz etmirdim. Standardın birləşmə yoluna gedərək əllərindən gəldiyi qədər böyüməsini və zənginləşməsini istərdim, amma hər şeyi hüquqi yollardan təmin etmək şərti ilə. Ancaq onlar heç bir zaman ədalətli olmadılar. Buna görə də gözümdəki böyüklükləri qeyb olub getdi."

İda Tarbellin yazdığı həyat hekayəsi bu kitabla bitmədi. 1905-ci ildə də son bir həmlə edərək Rokfellerin şəxsiyyətini yerdən-yerə vuran, onun portretini amansızcasına təsvir edən hikkə dolu bir yazı daha yazdı. Tarbellin bioqrafiyasını yazan bir şəxs bu haqda belə söyləmişdi: "Tarbell yazdığı bu son əsərində Rokfelleri yalançılıqda, boş-boş işlər görməkdə və atasının ilan kimi zəhərli bir neftçi olması səbəbi ilə ittiham etmişdir." Həqiqətən də, bu ikinci kitabda yazar Rokfellerin fiziki görünüşünü, xəstəliyinin səbəb olduğu keçəlliyini işləmiş, bunları əxlaqi zəiflik kimi göstərmişdir. Bu yazdıqları bəlkə də "Neft Bölgələri"nin vəfalı bir övladının son intiqamı idi. Yeri gəlmişkən, məqalələrinin son hissəsini bitirmək üzrə olanda, bir vaxtlar Rokfellerlə toqquşan və məğlub olan müstəqil neftçilərdən biri - atası Titusvilledə ölüm döşəyində can verirdi. Məqaləni bitirər-bitirməz atasının yanına qaçdı.

Əcəba, Rokfellerin reaksiyası necə oldu? Məqalələr bir-bir dərc olunduqca, ziyarətinə gələn bir qonşusu evinə uğrayıb Rokfellerin "qadın silahdaşı" dediyi İda Tarbellin söhbətini açar, onun bu yazılara münasibətini öyrənməyə çalışardı. Rokfeller bu haqda belə söyləmişdi: "Bunu bil ki, zaman dəyişdi. Artıq heç bir şey sənin və mənim uşaqlığımızda olduğu kimi deyil. Dünya sosialistlər və

anarxistlərlə doldu. Hər hansı bir sahədə diqqəti çəkəcək qədər uğur qazanan insanın dərhal təpəsinə minib, onu əzməyə çalışırlar."

Bu söhbətdən sonra Rokfellerin bu hərəkətini şərh edən qonşusu onu "ova çıxan bir ovçuya" oxşadacaq və "bu ovçunun arabir başından aldığı zərbədən ən xırdaca bir narahatçılıq belə keçirməyəcəyini" söyləyəcəkdi. Bundan başqa, Rokfellerin ziyandan çox xeyirli bir işlə məşğul olduğunu və buna inandığını da sözlərinə əlavə edəcəkdi. Rokfeller yeri gələndə və məcbur qalıb İda Tarbelldən bəhs edəndə də - onu hər yerdə topa tutan bu qadın haqqında "Xanım Tar Barrel" (Xanım Qətranlı Çəllək) ifadəsini işlədəcəkdi.

### Tröst-çatladan

Tarbell əsla və əsla bir sosialist deyildi. Standarda ciddi hücumlar edirdi. Bu şirkətin böyük gücünə qarşı başqa şirkətlərin birləşib mübarizə aparması üçün çağırışlar edirdi, o qədər. 1901-ci ildə William Mc Kinleyə edilən sui-qəsddən sonra prezident seçilən Teodor Ruzveltə görə, bu güc sadəcə hökumət ola bilərdi.

Ruzvelt irəliçi, islahatçı hərəkatı bütün varlığı ilə dəstəkləyirdi. O günə qədər Ağ Evə sahib olan prezidentlərin ən gənci olaraq hər zaman enerji və coşğu ilə dolu idi. Xalq ona "şalvarlı dretnot", ya da "əsrin quyruqlu ulduzu" deyirdi. Bir jurnalist ondan götürdüyü müsahibədən sonra belə demişdi: "Onunla görüşüb danışan şəxs evə gedəndə, sanki Ruzveltin şəxsiyyətini və xarakterini də özüylə bərabər aparır." Ruzvelt islahat hərəkatlarının hər növünə eyni ehtirasla bağlıydı və hansı sahədə olursa-olsun hər islahatı dəstəkləyirdi. Rus-yapon müharibəsində vasitəçilik





etməkdən, imlanın sadələşdirilməsi reformasına qədər hər cür reformist hərəkatı dəstəkləyirdi. Vasitəçilik missiyasını uğurla yerinə yetirdiyinə görə, 1906-cı ildə Nobel Sülh Mükafatına layiq görülmüşdü. İmla mövzusunda da eyni il Dövlət Mətbuat Komitəsini tez-tez işlədilən 300 kəlməni sadələşdirməklə vəzifələndirdi və xalq arasında işlədilən "düşmə" sözünün keçmiş zamanını ifadə edən "dropped" kəlməsini sadələşdirib "dropt" sözü kimi qəbul etdirdi. Ali Məhkəmə qanuni sənədlərdə bu cür sadələşdirməni qəbul etməsə də, Ruzvelt bu qərarı vecinə də almadı və öz şəxsi məktublarında davamlı olaraq bu bəsitləşdirilmiş imladan istifadə etdi.

Məsələn, götürək "haqsızlığı tapıb ortaya çıxaran" mənasına gələn "muckraker" kəlməsini. Ruzvelt bu kəlməni ilk istifadə edən adamdır və reformist hərəkata qatılan jurnalistləri qəsd edərək söyləmişdir. Bu kəlməni seçməsində xüsusi bir marağı vardı. Jurnalistlərin siyasətçilərə və böyük şirkətlərə yönələn hücumlarının hədsiz dərəcədə çox və mənfi təmayüllü olduğunu və "pislik və aşağılıq" mövzularının əsas mövzu kimi qabardıldığını görüb, bundan qorxmuşdu. Qorxurdu ki, bu tip yazılar üsyan qığılcımlarını daha da alovlandırar, insanları sosializm və anarxiyaya təşfiq edər. Amma yenə də jurnalistlərin görüşünü qulaqardına vurmayıb gündəmə gətirdi. Bununla kifayətlənməyib dəmir yolları nizamnaməsi və dəhşət saçan ət paketləmə sənayesi və qida təhlükəsizliyinin qorunması məsələləri ilə də məşğul olmağa qərar verdi. Çalışma proqramının tam ortasında böyük şirkətlərin gücünü nəzarət altına götürməyə də girişdi və bu sahədəki fəaliyyətləri ona "tröst çatladan" ləqəbini qazandırdı. Ruzvelt özü şəxsən tröstlərə qarşı deyildi. Əslində tröstləri iqtisadi inkişafın normal və qaçınılmaz bir parçası olaraq görürdü.

Amma zaman gəldi ki, tröstlərin qanuni yollarla geri çəkilmələrinin mümkün olmadığını, bunun yazda Missis-sippinin sel daşqınlarının qarşısını almaq qədər çətin olduğunu söylədi. Prezidentə görə, "birləşmələrin qarşısını almaq mümkün olmasa da, ən azından nizamnamələrlə və xalqın nəzarəti altında onları nizam-intizama dəvət edib, nəzarət altına almaq olardı." Onun qənaətincə, radikalizmin və üsyanların qarşısını almaq və Amerikan sistemini qorumaq üçün bu reform şərtdi. Ruzvelt "yaxşı" tröstlərlə "pis" tröstləri bir-birindən ayırırdı. Parçalanması və dağıdılması lazım olanlar sadəcə pis tröstlərdi. Ruzvelt bunu özünün əsas məqsədi elan etdi və prezident olduğu müddətdə Ruzvelt iqtidarı ən az 45 anti-tröst təşkilatının fəaliyyətə başlaması üçün lazımi şəraiti yaratdı.

Tröstlərin Anası yaxınlaşmaqda olan savaşlarda səhnənin mərkəzində yer alacaqdı. Standard Oil Ruzveltin ən çox hücum etdiyi hədəflərindən biri olmuşdu. "Əlində hər cür qanuni imkanı olan bir prezident" - yəni Ruzvelt üçün Standard Oil başı əzilməyə ən uyğun olan əjdaha idi. Üzərinə atılıb parçalanacaq ən əlverişli düşməndi. Amma bütün bunlara baxmayaraq, 1904-cü ilin seçki kampaniyasında Ruzvelt bu böyük şirkətdən dəstək istəmişdi. Standardın rəhbərləri dəstək vermək üçün Ruzveltlə əlaqə yaratmağa çalışdılar. Bir gün Konqresin üzvü olan və həm də Standardın əlavə şirkətlərindən birinin rəhbərliyini edən bir dostu Archbolda - Ruzvelti qəsd edərək, Standardın onlara müxalif olduğunu zənn etdiyini söyləmişdi. Archbold cavabında "tam tərsinə" dedi və əlavə etdi: "mən hər zaman prezident Ruzveltə heyranlıqla baxmışam. Onun yazdığı kitabların hamısını bir-bir oxuyar və kitabxanamın ən görkəmli yerində cildlənmiş şəkildə mühafizə edərəm."





Bu sözlər Konqres üzvünə yaxşı bir ideya vermişdi. Prezident kreslosunda oturan, həm də Ruzvelt kimi çox əsər yazan bir yazarın təbii olaraq bir çox pərəstişkarının olacağını düşündü. Ruzveltə Archboldun ona duyduğu heyranlıqdan bəhs edəcək və bunu bəhanə edərək, hər ikisini tanış edəcəkdi. Bu barədə Archbolda yazdığı məktubda Konqres üzvü müzəffər bir əda ilə "kitab heyranlığı metodunun tam hədəfini tapdığını" söylədi. "Ancaq sizə xəbərdarlıq edirəm, Ruzveltlə görüşə gəlmədən hafizənizi yeniləmək üçün kitabları bir daha nəzərdən keçirib, heç olmasa əsas başlıqlarını oxuyun" deyə xatırlatdı. Archbold görüşə getdi, ancaq populizmi onu giriş qapısından o tərəfə keçməyə qoymadı. İllər sonra Archbold bu haqda bunları söyləyəcəkdi: "Cənab Ruzveltin 1904-cü ildə seçilməsindən sonra ondan gördüyümüz pis münasibəti başqa heç bir yerdə görməmişdik."

Seçki günündən əvvəl Respublikaçıların seçki kampaniyasına Demokratlar tərəfindən böyük ianələr verilmişdi. Archbold və H.H.Rogers də bu ianəçilər arasındaydı və ikisi birlikdə 100 min dollar hədiyyə etmişdilər. Ancaq Ruzvelt bu pulu qəbul etmədi və geri qaytardı. Xalqa etdiyi müraciətlərin birində bunu açıqca elan da etdi. Hər amerikalıya artıq şüara çevrilmiş bir cümləni təkrarlayıb "ədalətli reaksiya və dəstək" gözlədiyini söylədi. Pulun həqiqətən qaytarılıb-qaytarılmadığı isə başqa mövzunun söhbətidir. Dövrün baş prokuroru general Philander Knox Ruzveltdən sonra prezident olan William Howard Tafta belə bir hadisə danışmışdı: 1904-cü ilin oktyabr ayında bir gün Ruzveltin ofisinə gələndə, onun katibinə bir məktub yazdırdığının şahidi olur. Məktubda pulun Standard Oil Şirkətinə qaytarılması əmr edilirdi. Bunu eşidən Knox heyrətlənmiş və "amma hörmətli prezident, bu necə ola

bilər, pul xərcləndi. Heç nə qaytarıla bilməz, çünki yoxdur" demişdi. Ruzvelt cavabında deyir: "elə olsa da məktub yazılmalı və göndərilməlidir. Heç olmasa bu məktub öz dəftərxanalarında qeydiyyata alınmalı və onlara təsir etməlidir."

1904-cü ildə Ruzveltin seçilməsindən dərhal sonra prezident aparatı Standard Oil və neft sənayesi əleyhinə bir araşdırma başladı. Nəticədə tröstün nəqliyyat sahəsindəki nəzarət sistemi ağır formada tənqid olundu və bu hadisə şirkətin birbaşa Ruzvelt tərəfindən boykot edilməsi ilə nəticələndi. Eyni zamanda bu hadisə xalqa şişirdilmiş şəkildə elan olunmağa başladı. Standarda təzyiqlər o dərəcədə artdı ki, Archbold və H.H.Rogers dözə bilməyib, 1906-cı ilin mart ayında Vaşinqtona Ruzveltlə görüşməyə getdilər. Məqsəd prezidentdən şirkətin girişdiyi qanuni araşdırmanı dayandırmağı xahiş etməkdi. Archbold Ruzveltlə görüşdən sonra Standardda müdir olan dostu Henry Flaqlerə yazdığı məktubda belə deyirdi: "ona dəfələrlə və təkrar-təkrar araşdırıldığımızı, haqqımızda dəfələrlə raportlar hazırlandığını, ancaq bütün bunlara o biri şirkətlərin dözə biləcəyi qədər dözə biləcəyimizi söylədik. Söylədiklərimizin hamısını səbrlə dinlədi və elə zənn edirəm ki, bir xeyli də təsirləndi... Söylədiklərimizin prezident nəzdində işə yarayacağını təxmin edirəm."





## Məhkəmə

Bu sözləri ilə Archbold həm iş yoldaşlarını, həm də özünü aldatmışdı. Çünki 1906-cı ilin noyabr ayında qorxulan an gəldi. Ruzvelt hökuməti St.Louis federal məhkəməsində Standardı məhkəməyə verdi. Şirkəti 1890-cı il Sherman anti-tröst qanununun əksinə fəaliyyət göstərməkdə ittiham edirdilər. Standard qanunu pozur, bölücülük edirmiş! Məhkəmə prosesi davam etdikcə Ruzvelt xalqın hisslərini daha da qızışdırır, kütlələri qıcıqlandıracaq hərəkətlər edir və müsahibələr verərək "son altı ildir ki, iş həyatında ədaləti təmin etmək üçün gördüyüm hər tədbirə bu adamlar qarşı çıxdılar" deyə açıqca bəyan edirdi. Şəxsi söhbətlərində isə baş prokuror Standard rəhbərlərini qəsd edərək "ölkədəki ən böyük qatillər" demişdi. Müharibə nazirliyi də rəsmən Standarddan neft məhsulları almayacağını elan etdi. Bunlardan geri qalmayan və o günlərdə demokratların prezidentliyə namizədi olan William Jennings Bryan belə ölkəyə ediləcək ən böyük yaxşılığın Rokfelleri həbs etmək olacağını bildirir və bu haqda müsahibələr verirdi.

Standard Oil nəhayət, bir ölüm-qalım savaşının içində olduğunu başa düşmüşdü. Medalın bir də o biri üzü vardı və indi medal o biri üzünə çevrilmişdi. Bu dəfə şirkəti tərlədən hökumət idi. Şirkət rəhbərlərindən birinin Rokfellerə yazdığı məktubda söylədiyi kimi "Ruzvelt hökuməti şirkəti və şirkətlə əlaqəsi olan hər kəsi məhvetmə kampaniyasına başlamışdı və məqsədinə nail olmaq üçün əlində olan bütün imkanlarını səfərbər etmişdi." Özünü müdafiə etmək üçün Standard Oil Şirkəti ölkənin ən böyük hüquq dühalarını, Amerikan ədalətinin xidmətindəki ən seçkin

hüquqçuları vəkil tutdu. Hökuməti isə 20 il sonra dövlət başçısı olan Frank Kellogg müdafiə edirdi. 20 ildən çox davam edən məhkəmə prosesi nəticəsində 444 şahid dinlənildi və məhkəməyə 1371 sənəd təqdim edildi. Sənədlər cildlər halında 14.495 səhifə idi və 21 qovluqda saxlanılırdı. Dövrün məhkəmə sədri gələcəkdə bu işi "vərdiş olunmamış dərəcədə iri həcmli... sayıla bilməyəcək qədər çox, qarmaqarışıq və müxtəlif iş anlaşmalarını ehtiva edən, təxminən 40 il keçmişə qədər uzanan bir məhkəmə işi" deyə qiymətləndirmişdi.

Bu arada Standard əleyhinə yeni-yeni məhkəmə işləri açılırdı. Vaxtaşırı mövzuya münasibət bildirən Archbold Ruzvelt hökumətinin şirkətə yönəltdiyi qorxunc hücumu ciddiyə almamağa çalışarkən, bir gün qələbəlik bir topluluğun iştirak etdiyi bir ziyafətdə zarafatla belə dedi: "44 illik qısa ömrümdə həmişə neft və neft məhsullarını ticari sahəyə gətirməməyə çalışdım və bunun üçün çox əziyyətlər çəkdim. Neft və neft məhsullarını Birləşmiş Ştatlarda, Kolumbiya bölgəsində və əcnəbi ölkələrdə ticarətdən həmişə uzaq tutmağa çalışdım. Dostlarım, bu etirafı sizlərə məhrəm olaraq söyləyirəm. Əminəm və ürəkdən inanıram ki, bu sirrimi gizlin tutacaqsınız. Məni bu sözlərimə görə ədalət mühakiməsinə verməyəcəyinizə inanıram." Ancaq hər şeyi zarafata salmasına baxmayaraq, həm özü, həm də iş yoldaşları şübhəli bir gözləyiş içində idilər. 1907-ci ildə yazdığı özəl məktublarının birində belə deyirdi: "Federal hökumətlər və orqanlar əleyhimizə mümkün olan hər şeyi etmək üçün əllərindən gələni əsirgəmirlər. Hakimləri birbaşa prezident təyin edir və bunlar eyni zamanda bu cür işlərdə qərar verəcək jüridirlər... Amma yenə də bizi yeyə biləcəklərini təxmin etmirəm, olsa-olsa xalqı üstümüzə qaldırıb bizi linc etdirərlər. Biz





hissədarlarımızı qorumaq üçün nə lazımdırsa, hamısını edirik. Amma bundan daha irəli bir şey söyləmək nə mənim üçün, nə də hər hansı bir başqası üçün mümkünsüz görünür."

Eyni il içərisində davam edən başqa bir məhkəmə prosesində Kenesau Mountain Landis adlı bir federal hakim Standard əleyhinə və onun qanunlara zidd hərəkət etdiyi səbəbilə böyük bir təzminat davası açılmasına qərar verdi - hansı ki, bu hakim sonradan bir beyzbol komandasının baş məşqçisi olmuşdu. Bundan başqa, həm də Standardın vəkillərini "hazırlıqlı şəkildə cürətkar və ədəbsiz" olmaqla ittiham edərək qınadı və verilən cəzanın "kifayət etmədiyini" iddia etdi. Hakimin qərarını alanda Rokfeller dostları ilə qolf oynayırdı. Zərfi açdı, içindən çıxanı oxudu və kağızı cibinə qoydu. Dostları böyük bir səssizlik içində gözlərkən, bu sözlərlə sakitliyi pozdu: "Nə fikirləşirsiniz bəylər, davam edəkmi?" Dostlarından biri özünü saxlaya bilməyib məhkəmə qərarının mahiyyətinin nə olduğunu soruşduqda bu cavabı verdi: "ən böyük cəza. Deyəsən, 29 milyon dollar." Dərhal da birdən ağlına gəlmiş kimi əlavə etdi: "hakim Landis bu təzminat ödənməmişdən çox-çox əvvəl bu dünyadan köçmüş olacaq." Bu, onun ilk kəskin rəyi, yeganə reaksiyası idi. Sonra yenə qolf oyununa qayıdıb davam etdi və ilk baxışda sakit olmaqla həyatının ən yaxşı oyunlarından birini nümayiş etdirdi. Həqiqətən də hakim Landisin qərarı sonradan ləğv ediləcəkdi.

Amma 1909-cu ildə tröstçülüyə qarşı keçirilən ana məhkəmə iclasında Federal Məhkəmə hökumətin lehinə qərar verəcək və Standard şirkətinin ləğv olunmasına hökm edəcəkdi. Qərar elan olunanda artıq dövlət başçısı olmayan və bu sırada böyük ov ovlamaq həvəsilə getdiyi Afrikadakı səyahətdən qayıdan Teodor Ruzvelt Nil çayının

sahillərində ona çatan bu xəbərdən böyük sevinc hissi keçirmişdi. "Bu qərarın ölkəmizin vüqarını qorumaq yolunda qazanılan ən önəmli qələbə" olduğunu söylədi. Standard Oil da öz növbəsində vaxt keçirmədən Ali Məhkəməyə müraciət etdi. Hakimlərdən ikisinin ard-arda ölümü səbəbilə məhkəmədə işə iki dəfə baxıldı. Həm sənaye, həm də maliyyə dairələri böyük həyəcan və tərəddüdlər içində qərarı gözlədilər. Nəhayət, 1911-ci ilin may ayında çox yorucu keçən bir gün sonunda mırıldanaraq danışan məhkəmə sədri Edward White qərarı elan etdi: "398 saylı məhkəmənin verdiyi qərara görə, məhkəmə Standardın əleyhinə nəticələnmişdir. ...Elan edirəm." Bu sözlərlə havasız, insanı yatırdan və narahat edən atmosferdəki məhkəmə salonu sanki birdənbirə həyat qazanmışdı. İnsanlar hakimi eşitmək üçün qulaqlarını şəklədilər. Senator və Konqres üzvləri vaxt itirmədən ticarət palatasına üz tutdular. Baş hakim Whitenin çıxışı 49 dəqiqə davam etdi, ancaq o dərəcə alçaq səslə danışırdı ki, bir neçə dəfə salonda oturan yardımçı hakim əyilib baş hakimə səsini yüksəltməsini xahiş etdi. Köməkçi hakim bu tarixi əhəmiyyət daşıyan sözlərin, ancaq yüksək səslə danışılarsa eşidiləcəyini xatırlatmaq məcburiyyətində qaldı. Baş hakim yeni bir prinsipin tətbiqini tələb edirdi - Sherman qanununa görə "ticarətdə əngəlləmə" qaydası "məntiq qaydası" əsas götürülərək dəyərləndirilməliydi. Başqa sözlə "əngəlləmə", ancaq məntiqsiz olduğu və dövlət zərərinə işlədildiyi zaman cəzalandırılacaqdı. Şübhəsiz, bu məhkəmə işində də "əngəlləmə" dövlət əleyhinə işlədilmişdi. Baş hakim bunu da əlavə etdi: "bu mövzuyla əlaqəsi olmayanlar belə qeyd olunan dövrü (1870-ci ildən bəri) araşdırdıqlarında, ticari inkişaf sahəsində özünü dahi hesab edən bir şirkətin başqa





bütün şirkətləri sıradan çıxarmağa, ticari fəaliyyət hüququndan məhrum etməyə niyyətli və qərarlı olduğunu, beləliklə, hədəfində tutduğu üstünlüyü qazanmaq istədiyi nəticəsinə gələcəkdir." Hakim Federal Məhkəmə qərarını dəstəkləyirdi. Standard Oil özünü buraxmağa məhkum edilmişdi.

Broadway - 26-dakı rəhbərlər dərin kədər içərisində William Rokfellerin otağına toplaşıb qərarın elanını gözləyirdilər. Dəqiqələr keçir, kimsə bir şey söyləmirdi. Archbold kədərli halda başını önünə əyib oturur, söyləyəcək bir şey tapmağa çalışırdı. Xəbər gəlib çatanda hamısı şok oldular. Heç biri məhkəmə qərarının bu dərəcə pərişanedici olacağını gözləmirdi. Özünü buraxmaq üçün Standarda 6 ay möhlət tanınmışdı. Deməli, "planımız" dedikləri şey ədalətin əliylə yıxılmağa məhkum olmuşdu. Bütün otağı bir ölüm səssizliyi bürüdü. Archbold hirsindən çox illər əvvəl kiçik bir uşaq ikən neft almaq üçün getdiyi Titusvillenin palçıqlı yollarında addımlayarkən etdiyi kimi fit çalmağa başladı. Bir az dayandı və təxminən bir dəqiqə fikirləşdikdən sonra "görürsünüz bəylər, həyat bir-birini qovalayan bəlalardan ibarətdir" dedi və yenə fit çalmağa başladı.

## Buraxılma

Qərardan dərhal sonra Standardın müdirləri həyati bir problemlə qarşı-qarşıya gəldilər. Bəli, məhkəmə buraxılma qərarı vermişdi. Ancaq bu dərəcə böyük, iç-içə girən bir imperiya necə bölüşdürüləcəkdi? İşlərin əhatəsi bir kəlmə ilə ifadə etsək, böyük və nəhəngdi. Pensilvaniya, Ohio və İndianadan çıxarılan bütün neftin beşdə dördündən çoxunun nəqliyyat işini də şirkət həyata keçirirdi. Birləşmiş

Ştatların hər tərəfindən gələn xam neftin təmizlənməsi və işlənməsi işini də şirkət görürdü. Bütün əsas texniki vasitələrin yarısından çoxu Standardın idi. Çıxarılan bütün qaz yağının beşdə dördünün bazarlaması şirkət tərəfindən həyata keçirilir, ixrac edilən bütün qaz yağının beşdə dördü Standardın məsuliyyət sahəsinə girirdi. Dəmir yollarının istifadə etdiyi mühərrik yağlarının onda doqquzunu Standard satırdı. Bundan başqa, şirkət müxtəlif əlavə məhsullar da satırdı. Məsələn, 700 müxtəlif növdə satdığı 300 milyon şam buna nümunə kimi göstərilə bilər. Şirkətin özünə aid 78 buxarlı və 19 yelkənli gəmidən ibarət bir dəniz donanması belə vardı. Bütün bunlar necə bölüşdürüləcəkdi? Broadvay- 26 ünvanı sakitliyini davam etdirir, ətrafda bir çox şayiə və rəvayət dolaşırdı. Nəticədə 1911-ci ilin iyul ayının axırlarında şirkət özünü buraxmaq haqqında planlarını açıqladı.

Standard Oil artıq bir neçə birimə bölünmüşdü. Bunlardan ən böyüyü əvvəlcə holdinq şirkəti olan Standard Oil Nyu Jersey idi və xalis dəyərin təxminən yarısı ona aid idi. Bu şirkətin yeni adı Exxon oldu və axıra qədər öndərliyini davam etdirdi. Ondan sonra ikinci böyük şirkət xalis dəyərin 9 faizinə sahib olan Nyu York Standard Oil şirkəti idi. Bu şirkət də özünə Mobil adını götürdü. Kaliforniya Standard Oil şirkəti isə Chevron adını götürdü. Ohio Standard Oil əvvəlcə Sohio oldu, sonra da BP-nin Amerikan qoluna çevrildi. İndiana Standard Oil Amoco, Kontinental Oil Conoco, Atlantik isə əvvəlcə ARCO, sonra da Sun adını aldılar. Standard Oil rəhbərlərindən birinin kədərlə söylədiyi kimi "bəzən bir şirkətin rəhbərliyini" ofisdəki uşaqlara həvalə edirdilər. Bu yeni birimlər bir-birilərindən ayrı fəaliyyət göstərən, inzibati baxımdan bir-birilərinin bazarlarına təcavüz etməyən və





ümumən bir-birilərinə hörmət göstərən şirkətlər oldular. Ticari münasibətlərini də eynilə davam etdirdilər. Hər biri özünə aid olan torpaqlarda normal tələblərlə qarşılaşdılar. Aralarında böyük bir rəqabət də yox idi. Bu durğun sayıla biləcək mühit davam edərkən, hüquqilik sərhəddi bir dəfə tapdalandı və bu da Broadvay - 26-dan qaynaqlandı. Broadvay- 26-nın ticari ünvan və nüfuzundan sui-istifadə etdiyi məlum oldu. Bu səbəblə də yeni şirkətlərin hər biri satışlarını köhnə ticari adları altında həyata keçirirdi - Polarine, Perfection Oil, Red Crown qazolin kimi... Buna görə də bir şirkətin başqa bir şirkətə aid torpaqlarda fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış olurdu.

İctimaiyyət və Amerikan siyasi sistemi nəqliyyatçılıq, neftayırmaçılıq və neft bazarlama sahələrinə rəqabətin yenidən gətirilməsini zəruri hesab etdilər. Ancaq "əjdaha" adlandırılan Standard Oil artıq öldüyünə görə, onun üzvlükdən ayrılmasının böyük mükafatlar gətirəcəyini hesab edirdilər. Dünya Standard Oilun ayaqlaşa bilməyəcəyi qədər böyük sürətlə inkişaf edirdi. Standardın nəzarət sistemləri artıq - xüsusilə bu torpaqda yaşayanlar üçün - çox qatı idi və elastikliyini itirmişdi. Şirkətin buraxılma qərarının qüvvəyə minməsi ilə özlərini daha çox göstərəcəkləri qənaətini daşıyırdılar. İndiana Standardın müdirliyinə təyin olunacaq birisi bu mövzuda "çoxdan bəri onlara bir fürsət verilməsini gözləyən gənclərin nəhayət bu fürsəti yaxaladıqlarını" söyləyirdi. Yeni yaranan bir çox şirkətin rəhbərləri başqa bir haldan da məmnun idilər. Əvvəllər 5 min dolları keçən böyük xərclər üçün Broadvay - 26-ya müraciət edib təsdiq qərarı almaq lazım olarkən, indi bundan xilas olmuşdular. Sərbəstcə hərəkət edirdilər. Eyni şəkildə buraxılma qərarından əvvəl 50 dolları keçən hər xəstəxana hədiyyəsi üçün də təsdiq qərarı aldıqları halda, artıq bundan da canlarını qurtarmışdılar.

## Texnologiyanın liberallaşdırılması

Buraxılma hadisəsinin başqa bir təsiri də texnoloji inkişafın Broadvay - 26-nın qatı pəncərəsindən gözlənilmədən bir anda xilas olub liberallaşmasında oldu. Bu arada xüsusilə Standard İndiana neftayırma təsislərində gözlənilməz inkişaf baş verdi. Şirkət bunu böhran keçirən və hələ formalaşmamış avtomatik sənayeyə dəstək vermək və beləliklə, gələcəkdə Birləşmiş Ştatların ən əhəmiyyətli neft bazarına çevriləcək sənayeni qorumaq məqsədi ilə etmişdi.

O günkü neftayırma üsulları ilə bir barrel xam neftdən normalda 15-18, ən çox 20 faiz təbii benzin istehsal edilə bilirdi. Benzinin lazımsız məhsul olaraq görüldüyü, partlayıcılıq və yandırıcılığı səbəbilə bazar tapmadığı günlərdə bunun elə bir əhəmiyyəti də yoxdu. Amma benzinlə işləyən mühərrikli maşın sayının sürətlə artması nəticəsində vəziyyət dəyişdi və neft işi ilə məşğul olan adamlar benzinə olan tələbatın yaxın zamanlarda böyük artım göstərəcəyini başa düşdülər.

Problemi bütün çılpaqlığı ilə qavrayanlar arasında İndiana Standardın emal şöbəsinin müdiri William Burton da vardı. Burton Amerikan sənayesində söz sahibi olan çox az adamlardan biri idi və Con Hopkins universitetində doktorluq müdafiə etmiş bir kimyagərdi. Standarda 1889-cu ildə qatılmış, Lima neftinin tərkibində olan "sansar qoxusu" problemini həll etmək ona tapşırılmışdı. 1909-cu ildə, buraxılma qərarından iki il əvvəl gələcəkdə ortaya çıxacaq benzin qıtlığını hiss edərək, kiçik bir qrup yaratmış və o qrupu araşdırma aparmağa sövq etmişdi. Qrupun başına özü kimi Con Hopkinsdən məzun olan bir





doktor-kimyagəri təyin etmişdi. Bunları edərkən çox önəmli bir qərar daha vermişdi. Araşdırma işini Broadvay - 26-ya xəbər vermədən, hətta İndiana şirkətinin Çikaqodakı müdir yardımçılarının belə xəbəri olmadan həyata keçirəcəkdi. Öncə birlikdə işlədiyi elm adamlarına ağla gələ biləcək hər yeniliyi laboratoriyada təcrübədən çıxarmağı tapşırdı. Məqsəd tələbi nisbətən aşağı olan məhsulların hidrokarbon molekullarını "parçalayaraq" kiçik molekullara çevirmək, sonra da bunları avtomobil yanacağı olaraq bazara çıxarmaqdı.

Bu iş şübhəsiz ki, dolambaclı yollarla dolu idi, amma nəticədə araşdırmaçılar bir yolunu tapıb "termal qırma" üsulunu sınaqdan keçirdilər. Bu üsulda nisbətən aşağı dəyərli bir məhsul, məsələn qaz yağı, əvvəlcə yüksək təzyiqə, sonra da 650 dərəcəyə, hətta daha yüksək dərəcədə istiliyə məruz qoyulurdu. Bu, o zamana qədər heç təcrübədən çıxarılmamış bir üsul idi. Elm adamları haqlı olaraq qorxur, tədbirli hərəkət edirdilər. Çünki bu kimi şərtlər altında neftin hansı şəkil alacağına dair əldə bir elə də məlumat yox idi. Bu işin tapşırıldığı neftayırma müəssisələri böyük qorxuya qapılmışdılar. Tərəddüdlü hərəkətlər edirdilər.

Laboratoriya təcrübələri irəlilədikcə işlə məşğul olanlar qorxudan öhdələrinə düşən vəzifəni icra etmədikləri üçün elm adamlarının özləri qaynayan kimyəvi dəzgahların ətrafında dolanıb həyatlarını təhlükəyə ataraq, sızıntı buraxan dəlikləri tuturdular. Bütün bu mənfi şərtlərə baxmayaraq, yenə də Burtonun fikri köməyə gəldi. Öncə qaz yağından "sintetik benzin" deyilən maddə istehsal etdi. Bu maddə bir barrel xam neftdən alınan benzinin keyfiyyətini iki qat artırır, 45 faizə çatdırırdı. Neftçilik sahəsində təhsilini davam etdirən bir tələbə bu haqda belə

yazacaqdı: ""Termal qırma" adlanan bu üsul müasir dövrün ən böyük kəşflərindən biri olacaqdır. "Termal qırma" nəticəsində kimya elmi inqilab etdi və neft sənayesi bu inqilabı yaşayan ilk böyük sənaye oldu."

"Termal qırma" kəşfi şübhəsiz ki, böyük uğur idi, amma hər şey də bununla həll olunmurdu. İndi əsl problem bu kəşfi ticarət aləminə gətirməkdi. Bu arada Burton termal qırma işlərində lazım olan 100 ədəd texniki vasitə almaq üçün Nyu York Citynin Standard Oil mərkəzinə müraciət edib, bir milyon dollar istəsə də, Broadvay-26 bu müraciəti heç bir açıqlama vermədən rədd etdi. Mərkəzin qənaətincə bu layihə başdan-ayağa dəlilik idi. Standard müdirlərindən biri dostuna "Burton bütün İndiana əyalətini havaya uçurub Miçiqan çölünə atmaq istəyir" demişdi. Buna baxmayaraq, buraxılma qərarından dərhal sonra artıq müstəqil çalışan İndiana Standardın müdirləri fikirlərini dəyişdirəcək, Burtonla daha isti münasibətlər qurduqdan sonra onu daha yaxşı tanıyıb etimad göstərdikləri üçün bu layihəyə yaşıl işıq yandıracaqdılar. Amma yenə də müdirlərdən biri bu mövzuda zarafatından geri qalmayıb Burtona "sən bizi məhv edəcəksən" demişdi.

Nəticədə çox yerində bir zamanlama ilə "işə davam" komandası verildi. Avtomobil istehsalının fövqəladə sürətlə artması səbəbilə, dünya benzin qıtlığı çəkirdi. Belə ki, 1910-cu ildə ilk dəfə olaraq benzin satışı qazyağı satışını geridə buraxdı. Tələb təxmin olunmayacaq bir sürətlə artırdı. Dövr benzin dövrü idi. Ancaq gedərək artan yanacaq qıtlığı problemi, hələ iməkləmə dövründə olan avtomobil sənayesi üçün böyük təhlükə törətməyə başlamışdı. 1911-ci ilin oktyabr ayında 9.5 sent olan benzinin qiyməti, 1913-cü ilin yanvar ayında 17 sentə qədər





yüksəlmişdi. Paris və Londondakı mühərrikli avtomobil sürücüləri qalon başına 50 sentə çatan qiymətlər ödəyir, bu qiymət Avropanın başqa yerlərində daha da yüksəyə, bir dollara qədər qalxırdı.

Amma 1913-cü ildə, Standard Oilun buraxılma qərarından sonrakı bir il içərisində Burtonun müəssisəsi fəaliyyətə başlamışdı. İndiana bunu yeni bir məhsul kəşfi olaraq dünyaya elan etdi. Bu məhsul "mühərrik yanacağı" - termal qırma vasitəsilə əldə olunmuş benzin adı ilə bazara çıxarıldı. Gələcəkdə yaşadıqları çətin günlərə toxunan Burton "öhdəmizə fövqəladə bərbad, təhlükələrlə dolu bir iş götürmüşdük, amma bəxtimiz gətirdi. Heç olmasa bu macəranın başında büdrəmədik" deyəcəkdi. Burtonun gətirdiyi "termal qırma" üsulu neftayırma sahəsinin səmərəliliyinə o zamana qədər neft sənayesinin görmədiyi bir şey gətirmişdi: Elastiklik. Artıq istehsal olunan məhsul, xam neftin müxtəlif ünsürləri - iş prosesində seçilən istilik dərəcələrinə bağlı olmurdu. Artıq molekullar əllə idarə edilə bilir, tələbin böyük olduğu məhsullarda səmərəlilik artırdı. Bundan başqa, "termal qırma" yoluyla əldə olunan benzin, təbii benzindən daha qiymətli idi və daha böyük güc ifadə etdiyindən, yüksək gərginlikli mühərriklər üçün xüsusilə uyğundu.

Bu yolla əldə olunan uğur İndiana Standardda bir növ çılğın bir rüzgar əsdirdi. Patent hüququ üçün icazə verilib-verilməməsi belə şirkət daxilində gərgin müzakirələrə səbəb oldu. Bəzilərinə görə, icazə vermək sadəcə rəqiblərin vəziyyətini gücləndirmək deməkdi. Nəticədə, 1914-cü ildə İndiana Şirkəti öz bazarları xaricindəki şirkətlərə lisenziya verməyə başlasa da, araya bir şərt qoydu. Əldə olunacaq gəlirin "simvolik olaraq" gizlədilməsini tələb etdi. Ancaq 1914-1919-cu illərdə 14 şirkətdən birdən-birə axıb gələn gəlir o qədər böyük oldu ki, İndiana Şirkəti bütün

şirkətlərə bu lisenziyanı eyni şərtlər altında verdi. Bunların arasında yeganə şirkət - Nyu Jersey Standard şirkəti - daha böyük pay qoparmaq istədiyindən, şərtləri qəbul etməyərək etiraz etdi. Layihənin əsil müəllifi olan İndiana Standard isə daha imtiyazlı statusa haqqı olduğunu düşünməklə bərabər, heç bir etiraz etmədi. Nəticədə 1915-ci ildə Nyu Jersey Standard diz çökərək İndiananın şərtlərini qəbul etdi və lisenziya aldı. Bu hadisədən illər sonra bir rəvayət çıxdı. Ki, o günlərdə Yersey Standard sədri əsəbiləşərək hər ay xeyli hissə çeklərini imlazalayırmış. Bu hissələrin hamısı da şübhəsiz ki, İndiana Standarda gedirdi.

## Qazananlar

Yeni bir əsr başlayarkən, neft sənayesində də yeni bir cığır açılırdı. Bu cığırın ortaya çıxması bir neçə təsadüfə bağlı idi: avtomobil sənayesinin inkişafı, Texas, Oklahoma, Kaliforniya və Kansas əyalətlərində yeni neft yataqlarının kəşfi, yeni rəqiblər və neftayırma sənayesində əldə olunan texnoloji irəliləyişlər. Bu reallıqlara Standard Oilun bölünməsinin göstərdiyi uzun vədəli təsirləri və sənayenin yenidən inşasını da əlavə etmək yerində olar.

Buraxılma qərarından əvvəlki günlərdə Con D.Rokfellerin məsləhətçilərindən biri qiymətlərin çox yüksək nöqtəyə qalxdığını və yaxınlarda aşağı düşəcəyini təxmin edərək, Rokfellerə Standard Oilun hissələrinin bir hissəsini satmağı təklif etmişdi. Rokfeller bu təklifi qəbul etmədi və zamanla haqlı olduğu sübut edildi. Çünki buraxılmadan sonra ortaya çıxan şirkətlərin hissələri yenə də günün dəyərindən daha aşağı qiymətlə Nyu York Jersey Standardın hissədarlarının arasında bölüşdürüldü. Əjdaha





parçalanmışdı, amma onun parçaları zamanla əjdahanın bölünməmiş bütünlüyündən daha çox dəyər qazanacaqdı. Standard Oilun buraxılmasından sonrakı bir il içərisində ondan törəyib formalaşan şirkətlərin hissə dəyəri ümumən iki qat, İndiana Standard şirkətinin hissə dəyəri isə üç qat yüksəlmişdi. Bu bölünmədən sonra heç kim hissə sənədlərinin sadəcə dörddə birinə sahib olan Rokfeller qədər faydalanmamış, onun qədər zənginliyinə zənginlik qatmamışdı. Buraxılmadan sonra müxtəlif hissələrin qiymətlərində artım olduğu üçün Rokfellerin şəxsi qazancı 900 milyon dollara (bu günün qiymətləri ilə 9 milyard dollar) çatmışdı.

1912-ci ildə Teodor Ruzvelt 4 illik ayrılıqdan sonra yenidən prezident seçkilərinə qatılıb kampaniyada yer alanda, Standard Oilu bir daha mübarizəsinə hədəf götürürdü. Kampaniyası boyunca ağzından od-alov püskürərək bu sözləri dilindən əskik etmədi: "Neft qiymətləri cənab Rokfeller və silahdaşlarının sərvətlərini iki qat artırmaq üçün 100 faizi aşan nisbətdə yüksəldi. Wall Street birjasının Tanrıya yalvarışla "Uca Tanrım, nə olur, bizə bir buraxılma qərarı da nəsib et" duasına heyrətlənməmək lazımdır."

# 6

# NEFT SAVAŞLARI

## Hollandiya Kraliyyət Şirkətinin yüksəlişi, "İmperial Rusiya" şirkətinin çöküşü

1896-cı ilin payızında Uzaq Şərq həyatının çətin günlərinin sınağından çıxaraq yetişmiş, neft çevrələrində çox az tanınan cavan bir adam Britaniyadan yola çıxaraq Borneonun şərq sahilindəki Kutei adlanan vəhşi və tərk edilmiş meşələrə yollanmışdı. Oraya getmək üçün Sinqapurdan keçməli idi. Onun Sinqapura gəlişi Standard Oilun Sinqapur təmsilçisinin diqqətini çəkmiş və heç vaxt itirmədən Nyu Yorka raport edilmişdi. Raportda bu adam üçün bu məlumatlar yer alırdı: "Adı cənab Abraham olan və Samuel Sindikatından cənab Samuelin yaxın qohumu olduğu söylənən birisi Londondan gəldi və dərhal Kuteiyə hərəkət etdi. Söylənənlərə görə Kuteidə Samuel mənsublarına aid böyük neft ehtiyatı var. Cənab Abrahamın Sinqapurda və Penangda neft ehtiyatı işini başladan sanballı biri olduğunu, hər iki yerdə də fabriklər inşa etdirdiyini bildiyim üçün Kuteiyə etdiyi səyahətin xüsusi bir məna daşıdığını təxmin edirəm. Diqqətinizə təqdim edirəm." Standard agentinin düşüncəsi doğru idi, bu səyahət həqiqətən məqsədli səyahət idi. Mark Abraham Kuteiyə əmiləri tərəfindən müəyyən bir məqsədlə, Samuel şirkətinin o anda çox ehtiyacı olan neft ehtiyatları ilə məşğul olmaq üçün göndərilirdi. Samuel şirkətinin mövqeyini qorumaq və bəlkə də mövcudiyyətini davam





etdirmək üçün Kuteidəki bu neft ehtiyatına təcili ehtiyacı vardı.

Bu yeni təşəbbüsdə Marcus Samuel neft sənayesində şərt olan bir qaydanın təsiri altında hərəkət edirdi. Neftçiliklə məşğul olan insanların həmişə bir tarazlığa ehtiyacları vardı. Bu işin bir hissəsinə qoyulan sərmayə, onları işin başqa bir hissəsinə də sərmayə yatırmağa məcbur edər. Mövcud olan müəssisənin yaşamasını təmin etməsi üçün bu, mütləq vacibdir. Neftin dəyər qazanmasını istəyən hər bir istehsalçının mütləq bazarlara ehtiyacı vardır. Bu haqda Marcus Samuel bir dəfə belə söyləmişdi: "Nefti sadəcə istehsal etmək, əslində ən az dəyər ifadə edən və ən az maraqlı olan mərhələdir. Onun dəyər qazanması və qiymətə minməsi üçün mütləq bazarlar tapmaq lazımdır və bu, əsas şərtdir." Neftayırma sahəsi ilə məşğul olanlara gəlincə, onların həm daha çox neftə, həm də bazarlara ehtiyacları vardı. İstifadə olunmayan bir neftayırma zavodu metal parçalarının və istifadə olunmuş köhnə boruların qiymətindən artıq bir dəyər daşımaz. Bazar sistemi ilə çalışanlar isə bazarlara çıxarılacaq neft tələb edərlər... Bu sistem təmin olunmadıqca bazar sistemi maddi itkidən başqa heç bir şey qazana bilməz. Bu ehtiyacların dərəcəsi müxtəlif zamanlarda dəyişikliklər göstərir, ancaq hər zaman üçün mövcud olmaları lazımdır.

1890-cı illərin axırlarında artıq tankerlərə və depolama təsislərinə çox böyük sərmayələr qoyan Marcus Samuel də şübhəsiz, hər neft işi ilə məşğul olan adam kimi təhlükəsizliyini təmin edəcək miqdarda neft satışına ehtiyac hiss etmişdi. Hər tacir kimi o da bu mövzuda çox həssas idi. Rus neftinə görə Rotşildlərlə bağladığı müqavilənin müddəti 1900-cü ilin oktyabr ayında bitirdi. Bu müqavilənin yenilənəcəyindən necə əmin ola bilərdi? Nə olursa-

olsun Rotşildlərlə olan münasibətləri ziddiyyətlərlə dolu idi və bank işi ilə məşğul olan bu ailə hər an çevrilib Standard Oilla müqavilə bağlaya bilərdi. Bütün bu səbəblər bir yana buraxılsa belə təkcə rus neftinə arxalanmaq doğru deyildi, çünki təhlükəli idi. Rusiyada maaş və qiymətlərdə baş verən keyfi dəyişikliklər Samuelin şikayət etdiyi kimi, iqtisadiyyatı həmişə təhlükəli həddə saxlayırdı. Bu da neft ticarətini macərapərəst bir iş halına gətirir və "rus neft işindəkiləri güclü amerikalı rəqibləri qarşısında çox çətin vəziyyətə salırdı." Təhlükə sadəcə bundan ibarət də deyildi. Şərqi Hind Adalarından gələn neftin getdikcə daha böyük partiyalar halında və daha kəsə yollarla, daha az yol xərci ilə gəlməsi, Samuelin Uzaq Şərqdəki rəqibliyini təhlükə altında qoyurdu. Bundan başqa, hər zaman üçün bir də Standard Oil təhlükəsi vardı. Bu şirkət istənilən vaxt bütün qaynaqlarını Shell şirkətini məvh etməyə istiqamətləndirə bilərdi. Bütün bu səbəbləri nəzərə alan Samuel, şirkətinin mövcudluğunu davam etdirməsi üçün bazarlarını və qoyduğu sərmayələri qorumaq məcburiyyətində olduğunu və buna görə də öz istehsalına, yəni öz xam maddəsinə ehtiyacı olduğunu çox yaxşı bilirdi. Buna görə də nəyin bahasına olursa-olsun neft axtarıb tapmaq üçün hər şeyə hazır idi.





## Vəhşi meşələr

1895-ci ildə Samuel, yaşlı və bütün baş-beyni mədənçiliklə məşğul olan hollandiyalı bir neft mühəndisinin təşəbbüsləri nəticəsində Şərqi Borneodakı Kutei bölgəsində neft axtarma icazəsi ala bilmişdi. Bu hollandiyalı uşaqlığından sonrakı bütün həyatını Şərqi Hind Adalarının vəhşi meşələrində keçirmiş təcrübəli bir adamdı. Neft axtarma icazəsi sahil boyu uzanan 50 mildən çox bir ərazi üçün verilmiş və quruya, vəhşi meşələrə qədər uzanan torpaqları əhatə edirdi. Mark Abrahamın getmək istədiyi yer bax bu vəhşi və işlənməmiş torpaqlar idi. Abrahamlar neft qazmaçılığı və neftayırma işlərində tamamən təcrübəsizdilər. Mark isə daha əvvəl Uzaq Şərqdə depolama tankerləri inşaatında təşkilatçı olaraq işlədiyi üçün təcrübəsi bu sahədəydi və başqa işləri, yəni qazmaçılıq və neftayırma işlərini heç bilmirdi. İndi isə əmiləri onu bu yeni və daha çətin olan işin dalınca göndərmişdilər.

Mark Abrahamın bu iş üçün uyğunsuz olması Marcus Samuelin eynilə əvvəlcə düşdüyü vəziyyətə oxşayırdı. Amma konkret Abraham hadisəsində vəziyyət daha geniş miqyaslı idi. İşi ələ alıb başlama metoduna, təşkilatçılığa, sistemli analiz və planlaşdırmaya yanaşmada göstərdiyi antipatiya, sağlam bir idarəetmə və rəqabət aparmadakı qabiliyyətsizliyi Abrahamın Borneo meşələrindəki işini daha da çətinləşdirirdi. Gəmilər davamlı olaraq uyğunsuz zamanda gəlir, yanlış mal gətirir, yüklər üstünə heç bir işarət qoyulmadan çatdırılırdı. Gəmidən çıxan sahilə atılır, fəhlələr bütün işlərini bir yana buraxıb atılan şeyləri toplamağa, nizamlayıb bir yerə düzməyə məcbur edilirdi. Beləcə, günlərin bir günündə ortaya çıxdı ki, sahilə atılan

nə qədər ləvazimat varsa, hamısı adam boyu qədər olan otlar içərisində pas atıb və çürüməyə başlayıb.

Bu sadalananlar olmasaydı da, işin Londondan idarə edilməsi səbəbindən onsuz da arada problemlər olacaq və iş son dərəcə çətin gedəcəkdi. Hər şeydən əvvəl, Borneo ətraf aləmdən, dünyadan, hətta Sumatradan belə təcrid olunmuş vəziyyətdə idi. Hər hansı bir alət və ya ədviyyatın alına biləcəyi ən yaxın yer min mil uzaqlıqdakı Sinqapurda yerləşirdi. Sinqapurla saxlanan tək nəqliyyat yolu dəniz yolu idi və bəzi gəmilərdən istifadə olunurdu. Bu gəmilər də həftədə bir və ya iki həftədən bir ya keçir, ya da keçmirdilər. İcazənin verildiyi müxtəlif yerlərdə işləyən fəhlələr bir-birilərindən çox uzaq yerlərdə və tropik meşələrlə davamlı mübarizə apara-apara işləyirdilər. Bu fəhlələr böyük əziyyətlə meşənin içindən neft tapılan Black Spot (Qara Nöqtə) adlı yerə qədər 4 mil uzunluğunda bir yol açmışdılar. Amma ağacların sürətlə böyümələri səbəbilə bu keçid yolu iki həftə içində yenidən bağlanmışdı. Artıq layihənin həyata keçirilməsi fəhlə kimi Çindən gətirilən "Kulilər"in (rəncbərlərin) ümidinə qalmışdı. Yerli fəhlələr işləməyə həvəsli deyildilər. Zamanla bölgədə işləyən fəhlələrin hamısı xəstələndilər. Abrahamın özü belə bəzən gecələr oturub ölkəsinə raport hazırlayarkən qızdırma xəstəliyindən dəli kimi qıvrılırdı. Burada çinli fəhlələr, avropalı inzibatçılar və kanadalı qazmaçılar işləyirdilər. İşləyənlərin hamısının içində ölüm faizi çox yüksək idi. Bunların bəziləri heç quruya çıxmadan, gəmi səyahətində ölürdü. Ev, körpü, ya da alaçıq tikməq üçün ələ alınan hər taxta parçası dərhal çürüyürdü. Onların həmişəlik yoldaşı "isti, buxarlı, çürüdücü, məhvedici bir tropikal yağış idi."

Beləliklə, bir daha Londondakı Samuellərlə Borneodakı





Mark Abraham, əvvəlki dövrlərdə Uzaq Şərqdəki depolama tanker inşaatında etdikləri fırtınalı, təhqiredici və ittihamedici xəbərləşmə və məktublaşmalara başladılar. Zavallı Mark Abraham nə edirsə-etsin, nə qədər fövqəladə güclə işləyir-işləsin, heç cür əmilərinin gözünə girə bilmirdi. Əmiləri heç cür tropik meşənin obyektiv reallıqlarını başa düşmək istəmirdilər. Bir gün Marcus Samuel Borneoda avropalılar üçün tikilən evləri nəzərdə tutaraq, bunların lüks villalar olduğunu söyləyərkən, Abraham hiddətlə ona "sənin dediyin lüks villalar o dərəcə çürük çıxdı ki, "ən yüngül əsən külək", ya da şiddətli yağış dərhal evlərin damını uçurtmağa kifayət etdi. Oraya ilk dəfə gedəndə yaşadığımız evlərdə isə, ancaq donuzlar yaşaya bilər" demişdi.

Bütün bu neqativ hadisələrə baxmayaraq, 1897-ci ilin fevralında ilk dəfə neftə rast gəlindi. İlk neft fontanı isə 1898-ci ildə oldu. Ancaq neftin tapılması ilə iş bitmirdi. Onun bazara çıxarılması üçün cəhdlər lazım idi. Bundan başqa, Borneo xam nefti kimyəvi baxımdan çox az qaz yağı əldə olunacaq keyfiyyətdəydi. Bu neft kimyəvi proseslərdən keçirilmədən sadəcə mazot kimi istifadə oluna bilərdi. Nisbətən ağır olan Borneo neftinin bu xüsusiyyəti Samuelə gələcəkdə görəcəyi işlər üçün düşündüyü layihənin həyata keçirilməsinə əsas verdi. Onun qənaətincə, "Borneo nefti ən rasional şəkildə mazot olaraq böyük rol oynamağa namizəd" idi. İndi - 20-ci əsrin əvvəllərində əhəmiyyətli təxminlər edir və haqlı olaraq neftin çox parlaq gələcəyinin bir aydınlatma mənbəyi olaraq yox, bir güc mənbəyi olaraq təsirli olacağı ehtimalını irəli sürürdü. Marcus Samuel indi kömür əvəzinə neftdən istifadə olunmasının alovlu tərəfdarlarından biri olmuşdu.

Bu tarixi inkişaf mərhələsinin başlanğıcı 1870-ci illərə təsadüf edir. Rusların "ostatki" dediyi, qaz yağının

kimyəvi proseslərdən keçərək işlənməsindən meydana gələn əlavə məhsul ilk dəfə uğurla məhz bu tarixdə Xəzər dənizində səyahət edən gəmilərdə yanacaq kimi istifadə olunmağa başladı. Ehtiyaclar yeniliklərin yaranmasına səbəb olurdu. Ehtiyacı olduğuna görə Rusiya İngiltərədən neft idxal etmək məcburiyyətində qalmışdı, amma bu, çox baha başa gəlirdi. Bundan başqa, imperiyanın bir çox bölgəsində taxta çox azdı və ona olan ehtiyac böyükdü. Buna görə də yeni Trans-Sibir dəmir yolu yanacaq kimi istifadə etdiyi kömür və ya odundan imtina edib, neftdən istifadə etməyə başladı. Neft yanacağını Vladivostok yolu ilə Samuelin şirkətlərindən alırdı. Rus hökumətinin özü də 1890-cı illərdə iqtisadi inkişafın bütün sahələrdə sürətlənməsi məqsədi və hədəfi ilə yanacaq kimi neftdən istifadəni təşviq edirdi. Britaniyada da zaman-zaman dəmir yollarında kömür əvəzinə neftdən istifadə olunurdu. Bu, böyük şəhərlərdə istilik təmin etmək üçün və ya kral ailəsi fərdlərinin səyahət etdikləri vaxt təhlükəsizliklərini təmin etmək məqsədi ilə edilirdi. Amma yenə də adətən bazarlara daha çox kömür çıxarılır, kömür bazardakı sağlam yerini qorumaqda davam edirdi. Həqiqətən də Şimali Amerikada və Avropada ağır sənayenin bu dərəcədə inkişafının səbəbi, əslində kömürdür. Dünyanın bütün ticari və dəniz donanmalarında da yanacaq kimi kömürdən istifadə olunurdu. Samuel xəyallarındakı bazarlama planlarını həyata keçirmək yolunda ən böyük müqaviməti kraliyyət donanmasından görəcəkdi. Amma 10 ildən çox bir müddətdə neftə keçməsi üçün kraliyyət donanmasının qapısını çox döymüş, təəssüf ki, heç bir nəticə əldə edə bilməmişdi.





## Shellin doğuluşu

Bütün bunlara baxmayaraq, Marcus Samuel özünü ovunduracaq bir şeylər axtarıb tapırdı. Borneoda göstərdiyi çətin və əzablı təşəbbüslər nəticəsində o da hamının etibarını qazanmış, bu statusa çatmaq yolunda əməlli-başlı məsafə qət etmişdi. Şəhərin mülki işlərlə məşğul olan hakim vəzifəsinə təyin olunmuşdu. Londonda bütün zamanların ən qədim ticarət birlikləri içərisində ən hörmətlisi sayılan Eynəkçilər Şirkətinin sədri olmuşdu. Üstəlik dünyanın ən güclü qayığı adını alan qayığı ilə zadəganlıq ünvanı da qazanmışdı. Bu gəmi Süveyş Kanalının girişində dənizin dibinə batan bir savaş gəmisini çıxardığı üçün ad-san qazanmışdı. 1897-ci ildə Samuel işinin təşkilatçılığında əhəmiyyətli bir addım atdı. Bu, qorunmağa istiqamətlənən bir addım idi. Arzuladığı şey Uzaq Şərqdə Tanker Sindikatını formalaşdıran müxtəlif ticarət birimlərinin sədaqətini qazanmaq və onu qarantiyaya almaq idi. Bu məqsədlə hamısını yeni yaratdığı şirkətə hissədar etdi. Bu şirkət neftdən gələn bütün gəlirini, tanker donanmalarını, bundan başqa, müxtəlif ticari vahidlərə aid olan müəssisələri səhmdar cəmiyyət çətiri altında toplayırdı. Bu yeni şirkətə Shell Nəqliyyat və Ticarət Şirkəti adı verildi.

Bu arada Samuel Borneo müəssisəsinin reklamını hədəf almışdı və bunu Borneodakı həqiqətləri, yəni tropik meşədə aparılan son dərəcə çətin və əsəbiləşdirici, eyni zamanda ləng gedən işləri yaxşı kimi qələmə verib, bir az da şişirdərək edirdi. Rotşildlərlə aralarında olan müqavilənin yenilənməsi üçün belə etməsi lazım idi. Borneoda - Kuteidə yerləşən və ona aid olan ərazidən çox yaxınlarda yeni neft yataqlarının tapılacağını göstərib, müqaviləni yeniləmək

arzusundaydı. Bu strategiyası həqiqətən də alındı. Nəticədə Rotşildlər müqaviləni yeniləməyə inandırıldılar və yeni müqaviləyə görə, Shellə rus nefti verməyə razılaşdılar. Bunu da əlavə etmək lazımdır ki, yenilənmiş müqavilədə Shell baxımından keçmişə görə daha yaxşı şərtlər yer alırdı. Ancaq Shell kənardan nə qədər qüvvətli görünsə də, əslində maliyyə baxımından təhlükəli dərəcədə sarsılmış vəziyyətdə idi.

Bunun səbəbi Marcus Samuelin xərcləri həddən artıq göstərməsi idi. Özünü elə təqdim edirdi ki, guya bazarları getdikcə artırdı. Bu hərəkət şübhəsiz ki, bir gün anidən, birdən-birə endiriləcək bir zərbə ilə yıxılmağa məhkum idi.

XIX əsrin axırlarının ən xarakterik cəhəti bu illərdə bütün dünyada baş verən neft partlayışıdır. Bu illərdə tələb sürətlə artmış, istehsal azalmış, qiymətlər yüksəlmişdi. 1899-cu ildə Cənubi Afrikadakı Boer müharibəsindən sonra qiymətlər daha da qalxmışdı. Ancaq 1900-cü ilin payız mövsümündə neft qiymətləri bölgələrə görə fərqlilik göstərməyə başladı. Məhsul mövsümünün ağır şərtlərdə keçməsi, onun nəticəsində ortaya çıxan qıtlıq və aclıq rus imperiyasında iqtisadi böhranların ortaya çıxmasına səbəb oldu. Bu arada evlərdə istifadə olunan neftə tələbatın azaldığı müşahidə olundu. Rus neftayırmaçıları bu dəfə bacardıqca qaz yağı istehsalına və ixracına istiqamət götürdülər. Bu vəziyyət zamanla bazarda qaz yağının hədsiz dərəcədə bolluğuna yol açdı. Nəticədə qiymətlər qarışıb baş-ayaq oldu. Bu zaman Çində bir savaş vardı. Shellin ən yaxşı bazarlarından biri olan bu ölkədə əcnəbilərə qarşı başlanan Boxer üsyanı Çini yerlə-yeksan etmiş, bütün Çin iqtisadiyyatı iflic olmuşdu. Bütün bu səbəblərdən Shell artıq ən böyük bazarından məhrum olur, bəlalar bununla da kifayətlənmir və nə qədər müəssisəsi varsa, hamısını bir-bir talan edirdi...





Bunlar və bir çox başqa mənfi hadisələr ən böyük təsirini ən emosional adam olan Samuelin üzərində göstərirdi. Qiymətlər aşağı düşdüyü zaman Shellin tankerləri bahalı növ neftlə dolu idi. Shell nəqliyyatçılıq işlərini yerinə yetirən donanmasını böyütməyə davam edərkən, paralel olaraq yol xərcləri də düşməyə başladı. Sanki işləri daha da bərbad edirmiş kimi Borneoda da istehsal səviyyəsi düşməyə başlamış, gözləniləndən daha aşağı göstəricilər əldə olunmuşdu. İstehsal çox yavaşlamışdı. Onsuz da yaxşı təşkil olunmamış neftayırma zavodu bərbad vəziyyətdə işləyirdi. Yanğınlar, partlayışlar, texniki nasazlıqlar və qəzalar səbəbilə fabrikin işləri davamlı olaraq fasilələr yaradır və insanların ölümünə bais olurdu. Gələn bəd xəbərlərin çoxluğuna baxmayaraq, Samuel hər zaman vüqarını və soyuqqanlılığını qorumuş, çətin günlərdə bir iş adamından gözlənən davranışları nümayiş etdirmişdir. Hər zaman olduğu kimi yenə hər səhər ən çox sevdiyi atı Dükə minib Hayde Parka gəzintiyə çıxardı. Zaman-zaman Samuelə at üstündə rast gələn başqa bir ingilis neftçi belə bir müşahidə etmişdi: Samuel atını da sırf işlərini idarə etdiyi kimi idarə edirdi. Hər zaman atın üstündə sanki atdan yıxılacaqmış kimi oturur, amma heç bir zaman yıxılmırdı.

## Başı dərddə olan Hollandiya Kraliyyət Şirkəti

Bu arada Shellin rəqibi "Hollandiya Kraliyyət" Sumatradakı istehsalında dramatik yüksəlişinə davam etmiş, sonra da tankerlərə və depolama təsislərinə sərmayə yatırmağa başlamışdı. İş sahəsində onu gözləyən böyük uğurları qeyd etmək üçün 31 dekabr 1897-ci ildə, Yeni il axşamında şirkətin Sumatradakı neftayırma fabriklərinin

sahəsində bir şənlik mərasimi planlandı və hazırlıqlar görüldü. Gecə möhtəşəm keçir, cürbəcür fişənglər havaya atılır, gecənin əhəmiyyətini vurğulamaq üçün bayram havasında bir mərasim keçirilirdi. Bu mərasim "Langkat Sultanı" adlı yeni tankerin şərəfinə həsr olunmuşdu. Sultanın özü də bilavasitə qəbulda iştirak edirdi. Ancaq bütün bu şənliklər ortaya atılan və gecə boyu qulaqdan-qulağa fısıldanan söz-söhbətlərlə kölgələndi. Söyləntiyə görə, neft tankerlərində önəmli miqdarda su tapılmışdı. Bu da quyularda yanlış bir şeylərin baş verdiyini göstərirdi. Bu söyləntini tamamilə yalanlamaq mümkün olmadı.

Əslində söylənənlər doğru idi. Kraliyyət şirkətinin neft quyuları neft yerinə duzlu su verməyə başlamışdı. Artıq o ucsuz-bucaqsız ərazi əhəmiyyətini itirirdi. 1898-ci ilin iyul ayında artıq işlərin belə olduğu söylənti olmaqdan çıxmış, rəsmən açıqlanmışdı. Amsterdam birjasının neft hissəsi böyük panikaya qapılmışdı və çaşqınlıq içindəydi. Kraliyyət neft hissələrinin dəyəri aşağı düşmüşdü. Bu arada Standard Oil Kraliyyət neftini ucuz qiymətə satın almadığı üçün heyfsilənirdi. Samuel də sonradan hissələri ucuz qiymətə satın almadığı üçün çox peşimançılıq hissi keçirmişdi.

Hollandiya Kraliyyət Şirkəti işlərin bu cür tərs getməsindən yorulub-bezməmiş, əlacsızlıq içində qalsa da, neft çıxarma təşəbbüslərini davam etdirmişdi. Sumatrada 110 dəfə neft üçün qazıntı aparmış və 110 dəfə də uğursuzluğa düçar olmuşdu. Şirkət yenə də işlərini davam etdirməkdən əl çəkmirdi. Bir gün Sumatrada, öz ərazisi olan yerdən təxminən 80 mil uzaqlıqda yerləşən Perlak adlı kiçik bir prinslikdə müşahidə olunan sızıntıdan cəsarətlənmiş, bu dəfə də axtarışlarına burada davam etmişdi. O zaman Perlak yerli xalqın üsyan qaldırdığı bir





sərhəd bölgəsi idi. Bölgənin rəhbəri olan və sərvətini qara bibər ticarətindən qazanan birisi, neftdən də gəlir əldə etmək, beləliklə, sərvətini daha da artırmaq istəyirdi. Nəticədə Perlaka bir araşdırma səyahəti təşkil olundu. Bu səyahətə Huqo Loudon adlı texniki və inzibati mövzularda çox qabiliyyətli bir gənc mühəndis rəhbərlik edirdi. Loudon həm də Macarıstanda ərazi dəyiş-düyüşündə rol oynamış və Transvaal dəmir yolu inşaatında işləmişdi. Buna görə də bu mövzularda böyük təcrübə sahibi idi. Bir xüsusiyyəti də vardı ki, bu xüsusiyyəti ona bəzi üstünlüklər qazandırırdı. Bu da onun Şərqi Hind Adalarının keçmiş valilərindən birinin oğlu olmasından irəli gəlirdi. Bu səbəblə də diplomatik sahədə fövqəladə qabiliyyət qazanmışdı. Loudonun sahib olduğu bu keyfiyyətlərə Perlakda həqiqətən də ehtiyac vardı. Yeri gəlmişkən, Loudon Perlak Racası nəzdində Kraliyyət Neft Şirkətinin lehinə böyük uğurlar qazandı və bununla da kifayətlənməyib, Racaya müqəddəs savaş elan edən yerli üsyanların liderlərinə qarşı da uğurlar əldə etdi.

Loudon başçılıq etdiyi qrupa bir neçə professional geoloq da götürmüşdü. Geoloqların da yardımı ilə 22 dekabr 1899-cu ildə qazıntılar başladı. Geoloqların ustalığı dərhal özünü göstərdi və 6 gün kimi qısa bir müddətdən sonra ilk dəfə olaraq neftə rast gəlindi. Beləliklə, "Kraliyyət Neft" düz XX əsrin başlanğıcında növbəti dəfə işində uğur qazanırdı. Artıq Hind Adalarının başqa yerlərində də neft tapıb işləri inkişaf etdirmək məqsədində idi. Bunun üçün də yenidən qabiliyyətli geoloqlara müraciət etdi. Qısa zamanda əhəmiyyətli miqdarda yüksək keyfiyyətli neft çıxarılmış, bunun da yardımı ilə Hollandiya Kraliyyət Şirkəti Avropanın yeni tumurcuqlanmaqda olan benzin bazarlarını fəth etməyə hazır duruma gəlmişdi.

## Bezikdirici adam

1900-cü ilin noyabr ayında Kraliyyət Hollandiya Şirkətinin mövcudluğunun qorunmasında hamıdan çox rolu olan Jean Baptiste August Kessler adlı birisi Uzaq Şərqdən Hagueyə göndərdiyi bir teleqrafda "əsəb sistemlərinin çox pozulduğunu" bildirirdi. Bu adam işin çoxluğundan yorulmuşdu. Ona görə də bezmiş halda Hollandiyaya, evinə getmək üzərə yola çıxdı. Təəssüf ki, sadəcə Neapola qədər gedə bilmiş, 1900-cü ilin dekabr ayında ürək tutmasından ölmüşdü. Ertəsi gün Henri Deterding adlı 34 yaşında dinamik bir adam "müvəqqəti" olaraq bu işə təyin olundu. Bu "müvəqqətilik" müddəti çox uzun, 35 il qədər davam edəcək və bu arada Deterding də bütün neft dünyasına hakim olacaqdı.

Henri Wilhelm Avqust Deterding 1866-cı ildə Amsterdamda anadan olmuşdu. Kapitan olan atası, Henri hələ 6 yaşında ikən ölmüşdü. Ailənin bütün gəliri Henrinin böyük qardaşlarının təhsilinə sərf olunduğundan, Henri, ailəsinin yanında gedərək artan səfalətlə mübarizənin bütün ağırlığını öz üzərində hiss edirdi. Məktəbdə özəl keyfiyyətləri səbəbi ilə müəlliminin diqqətini çəkmişdi. O da sırf Rokfellerdə olduğu kimi riyazi əməlləri başında sürətlə həll edir və bu işdəki uğuru ilə diqqət çəkirdi. Məktəbi bitirdiyində dənizə atılıb, əvvəlcə xəyallarında qurduğu şəkildə atası kimi kapitan olacağı yerdə, Amsterdamda qalıb darıxdırıcı bank dünyasına atıldı. Çox keçmədən mühasibə və maliyyə mövzularını öyrənərək, bu sahədə mütəxəssis oldu. Özünə xobbi kimi şirkətlərin hesab dəftərlərini araşdırmağı seçdi. Həmişə beyni hansı şirkətlərin hesablarını yaxşı tutduğu, hansı şirkətlərin tutmadığı, şirkətlər hansı





strategiyanı tətbiq edərsə hesablarını düzəldə biləcəyi mövzularında işləyirdi. Elə bu yolla iş yoldaşlarının "Kəskin Göz" dediyi duruma gələcəkdi. Çox illər sonra işə yeni başlayan gənclərin qarşısında etdiyi çıxışda onlara çox təsir edən bu nəsihəti verəcəkdi: "İşinizdə irəliləyə bilməyiniz üçün rəqəmləri dəyərləndirmə haqqında özünüzü yetişdirməlisiniz. Yaxşı bir hakim necə ki, qarşısına gələn adamı sürətlə və kəskin gözlə nəzərdən keçirir və elə qərar verirsə, siz də rəqəmləri bu cür sürətlə və kəskin gözlə dəyərləndirməlisiniz."

Deterding uzun illər işlədiyi bank sistemində haqqı olan qədər irəli gedə bilmədi. Yüksəlməyi uzanınca, digər bütün hollandiyalı gənclərin etdiyi kimi özünə yeni bir gələcək axtarmaq üçün Şərqi Hind Adasına yollandı. Bu dəfə də məşhur və keçmişdə bank işi ilə məşğul olan Hollandiya Ticarət Dərnəyində işləməyə başladı. Bu dərnəyin əsl adı Nederlandsche Handel-Maatschappiyidir. Əvvəlcə işə dərnəyin Medandakı, sonra da Malayanın qərb sahillərində yerləşən Penangdakı ofisini idarə etməyə başladı və bu zaman pulun necə qazanılacağını öyrəndi. Bir dəfə "pul ümumən, işin başlayacağı yerlərdə havanı qoxlamaq, qoxusunu almaqla qazanılır. İşə yeni başlayan birində əgər bu qoxu alma qabiliyyəti yoxdursa, deməli, onun böyük nisbətdə pul qazanmaq şansı da yoxdur. Elə yeni yollar kəşf etdim ki, bunların sayəsində bank kassaları pulla doldu" demişdi. Deterding Uzaq Şərqin müxtəlif şəhərlərində təkcə faizlər arasındakı fərqləri araşdırma yolu ilə xeyli miqdarda böyük sayılacaq pul qazana bilmişdi.

"Ətrafın havasını qoxlamaq" Deterdingi neftlə məşğul olmağa da məcbur etmiş və bunun sayəsində ilk təşəbbüsdəcə banka yatıracaq xeyli pul tapa bilmişdi. 1890-cı illərin əvvəllərində "Kraliyyət Neft" kapital sarıdan korluq

çəkirdi. Kessler pul üçün müraciət etdiyi hər yerdən rədd cavabı almışdı. Buna görə də nəhayət, Deterdingə müraciət etdi. Bu iki adam Amsterdamdakı uşaqlıq illərindən bəri tanış idilər. Kesslerin tələbinin qarşılığında Deterding dahiyanə bir çıxış yolu təklif etdi. Lazım olan sərmayəni verəcək, amma təminat olaraq inventarda görünən bütün qaz yağı ehtiyatını alacaqdı. Beləliklə, Hollandiya Kraliyyət mövcudluğunu qoruyub saxlamış, Hollandiya Ticarət Dərnəyi də pul qazanmağın yeni bir yolunu tapmışdı. Kesslerə gəlincə, o, bu müqavilədən çox duyğulanmış, Deterdingə olan minnətdarlıq hissi daha da möhkəmlənmişdi.

Bu hadisədən bir müddət sonra Kessler bütün Uzaq Şərqdə Hollandiya Kraliyyət Şirkətinə aid olacaq bir ticari təşkilat qurmaq istədi və Deterdingə məktub yazaraq təşkilatı kimin idarə edəcəyi haqda onun da düşüncəsini soruşdu. Kessler cavabında axtarılan insan tipini bu sözlərlə tərif etdi: "Birinci kateqoriya bir iş adamı... Hərəkətverici gücə sahib, təcrübəli və iş həyatını qavrayan biri..." Bu tərifə Deterdingdən daha yaxşı kim uyğun gələ bilərdi ki? Yeri gəlmişkən, 1895-ci ildə Kessler işi öhdəsinə götürməsi üçün Deterdingə təklif etdi və bank həyatından canı boğazına yığılan Deterding də bu təklifi qəbul etdi. Vaxt keçirmədən, bir az da təzyiq vasitəsilə başdan-başa bütün Uzaq Şərqdə bazarlama şəbəkəsi qurmağa başladı. Bu işdə iki ayrı məqsədi vardı: "Kraliyyət Neft"i rəqibləri ilə bərabər səviyyəyə gətirmək və şirkəti bu rəqiblərdən təcrid etmək. Ən böyük məqsədi sonradan özünün də söyləyəcəyi kimi "neftçilikdə beynəlmiləl bir adam" olmaqdı.

Henri Deterding qısa boylu dinamik bir adamdı və həmişə açıq olan, heç bir zaman qırpmadığı gözləri ilə





insanların üzərində dərin təsir buraxırdı. Güldüyü zaman bütün dişləri görünürdü. İşgüzar və coşqu dolu bir adam kimi idmanla məşğul olmanın çox faydalı olduğuna inanır və gündəlik idman məşğuliyyətlərini heç nəzərdən qaçırmırdı. Bunu həm öz sağlamlığı üçün, həm də iş problemlərinə həll yolu tapmaq vasitəsi olaraq edərdi. Yaşamının sonrakı illərində Avropada ikən artıq 60 yaşın "kölgəli sahili"ndə olduğu halda, hər səhər işə getməzdən əvvəl - yaz olsun-qış olsun - əvvəlcə üzməyə gedər, sonra da 45 dəqiqə at gəzintisinə çıxardı. Münasibətdə olduğu hər kəsin üzərində çox güclü təsir buraxardı. İnsanlar onu "inanılmaz maqnetik gücə" və "haradasa narahatedici bir çəkiciliyə" sahib insan kimi qiymətləndirirdilər. Bu keyfiyyətlərindən öz məqsədlərini həyata keçirmədə və kampaniyalarına qoşulmasını istədiyi adamları inandırmaqda istifadə edirdi. Ancaq Marcus Samuelin əksinə olaraq, təşəbbüslərini müəyyən statusa qovuşdurmaq, özünə bir mövqe əldə etmək üçün çırpınmırdı. Onun əsil məqsədini "Kraliyyət Neft"in tarix yazarı olan və uzun illər Deterdingin şəxsi katibliyi işini aparmış F.C.Gerretson bu sözlərlə ifadə etmişdi: "Deterdingin hədəfi çox yüksək, fövqəladə məqsədlərə indekslənməmişdi. Cəmiyyətin xeyrinə fəaliyyət göstərmək, yeni bir iqtisadi sistem yaratmaq, yeni və güclü bir ticari müəssisə qurmaq kimi bir niyyəti yox idi. Məqsədi hər hansı bir tacirin məqsədinin eynisi idi. Böyük, ya da kiçik olsun, son dərəcə real olan bir məqsədi vardı: Pul qazanmaq." Pul qazanmaqdan başqa nə edirsə-etsin, "qəlbən və ruhən" hər zaman üçün tacir olaraq qalmışdı.

Zamanla Deterding özü haqqında zarafatla "Yüksək Dərəcəli Simpleton" (simpleton - hərfi mənası "yüksək dərəcədə bəsit" deməkdir) deyəcəkdi. Şübhəsiz ki, bu deyimi özünü aşağılamaq üçün söyləmirdi. "Simpleton" sözünü

iş həyatının rəhbəri - hər problemi ən sadə şəkildə çevirib, əsil mahiyyətinə qaytaran adam - mənasında sərf etmişdi. Özü bu haqda belə söyləmişdi: "Dəyəri olan hər şeyə sadəlik hakimdir. Şəxsən mən nə zaman bir iş təklifi alıramsa, təklif üzərində ciddi-ciddi düşünürəm. Əgər o işi sadələşdirə biləcəyimi zənn edirəmsə, girişərəm. Yox, əksinə olarsa, işin ümidsiz nəticələnəcəyini hesablayar və rədd edərəm."

"Kraliyyət Neft"lə işlədiyi ilk illərdə Deterdingin beynində "bəsit" bir fikir hakim idi: Yeni inkişaf edən neft şirkətləri arasında birləşmə və bütünləşmə. Onun qənaətincə, "Kraliyyət Neft"i Standarddan qorumanın yeganə yolu bu idi. Ana fikir olaraq bir Hollandiya atalar sözü olan "Eendracht maakt macht" (birlikdən güc doğular) məsəlindən təsirlənmişdi. Əməkdaşlığı həm də ona görə istəyirdi ki, bu, sənayeyə tutarlılıq gətirəcək bir yol idi. Sırf Rokfeller kimi, o da qiymət dalğalanmalarından çox narahat idi. Ancaq başqa bir mövzuda Rokfellerdən və Standarddan fərqli fikirləşirdi. Onların əksinə qiymət endirimlərinin bir rəqabət vasitəsi kimi istifadə olunmasının əleyhinə idi. Bunun əvəzinə, savaş halındakı şirkətlər arasında qiymət müəyyənləşdirilməsi və ona riayət olunması, bu haqda sülh müqavilələrinin imzalanması tərəfdarı idi. Bunun zamanla istehlakçının da lehinə olacağını iddia edir və iddiasını bu arqumentlə əsaslandırırdı: Bu prinsipi həyata keçirməklə qiymətlər daha tutarlı və etibarlı olacaq, beləliklə, daha çox sərmayə yatırılması təşfiq olunacaq, bu da səmərəliliyi artıracaqdı. Ancaq çox bəsit olan bu fikri Deterdingdən qaynaqlanmayan başqa bir fikir izləyəcəkdi. Hər hansı bir birləşmə hadisəsində "Kraliyyət Neft"ə mütləq ən öndə yer verilməsi şərti qoyulurdu. Nəticədə Deterdingin fikirləri başqa tərəflərcə





bir elə də xoşniyyətli olaraq qəbul olunmadı. Nobellər isə irəlidə Deterdingi bir uzlaşma mücəssəməsi kimi yox, "işigücü insanları boğazlamaq və sonra da onların cəsədlərini toplamaq" olan çox dəhşətli bir məxluq olaraq görəcək və təqdim edəcəkdi.

## Birləşməyə doğru atılan ilk addım

Shell və Kraliyyət Hollandiya şirkətləri rus və Uzaq Şərq neft ticarətinin nəzarətini birlikdə həyata keçirirdilər. Bu iki şirkət arasında keçmişdən bəri davam edən "yorucu rəqabət"dən faydalanmaq istəyən Deterding, bu fürsətdən böyük rəqibi Marcus Samuellə birləşməyə nail olmaq üçün başlanğıc nöqtəsi kimi istifadə etdi. Sonradan həyata keçən dünya çapındakı şirkətin əsas xarakterini hər ikisi də çox qabiliyyətli və cəsur, hər ikisi də fövqəladə eqoist olan bu iki adam müəyyən edəcəkdi. Ancaq bunlardan Marcus Samuel tərifdən daha çox xoşlanan, emosionallığa daha çox yer verən və bir mövqe əldə etməyə daha meylli olanıydı. Henri Deterdingin hərəkətləri isə hər şeydən çox pulun və qaba gücün təsiri ilə müəyyənləşirdi. Ortada qərar verilməsi lazım olan əsas bir problem vardı: Yeni formalaşacaq birləşmədə bu iki adamdan hansı başa keçəcəkdi? Bu haqda Marcus Samuel də, Deterding də son dərəcə iddialı idilər. Marcus Samuel şübhəsiz, bu məqama gəlməli olan adamın özü olmalı olduğunu düşünürdü. Çünki nə də olsa, Shell şirkətinin nəzərə çarpacaq dərəcədə bir üstünlüyü vardı və fəaliyyətləri çox uzaqlara qədər uzanırdı. Ancaq Deterding də heç bir zaman ikinci dərəcəli rol oynamaq niyyətində deyildi və bunu özü də söyləyirdi.

Bu iki adam bir-biriləri ilə birbaşa apardıqları müzakirələrdə heç bir şeyə nail olmayacaqlarını başa

düşmüşdülər. Hər ikisinin də bir vasitəçiyə ehtiyacı olduğu artıq qaçınılmaz idi. Ancaq bu vasitəçi kim olmalıydı? Mövzu neft mövzusu olduğu zaman "par excellence" vasitəçi kimi tanınan neft komisyonçusu Fred Lanedən daha yaxşı bir vasitəçi ola bilərdimi? Bundan başqa, "kölgə Lane" deyə tanınan bu adam Rotşildlərin də yaxını idi və onların Londondakı neft müəssisələrinin təmsilçisi idi. Samuelin də həm dostu, həm məsləhətçisi, həm də sirdaşıydı. Samuel təxminən 10 il əvvəl yaşanan neft inqilabında çox etibar etdiyi bu adamı təşkil etdiyi fırıldaqlarda özünün köməkçisi olaraq istifadə etmişdi. Lane və Deterding isə son zamanlarda tanış olmalarına baxmayaraq, dərhal qaynayıb-qarışmış, üstəgəl də çox yaxın dost olmuşdular. Lane ilk təşəbbüs olaraq Uzaq Şərqdə Hollandiya Kraliyyətlə Shell arasında davam etməkdə olan qiymət savaşında qarşılıqlı görüşmələr yolu ilə atəşkəs yaratmağa yönəldi. Onun qənaətincə, bu, ancaq çox zərərli olan və onun deyimi ilə Samuel və Deterding arasındakı "battledore" (raket oyunlarının bir növü) və "shuttlecock" (raket oyunlarının bir başqa növü) qarşılıqlı suçlama oyunlarına son verməklə təmin oluna bilərdi. Göstərdiyi təşəbbüslər nəticə verdi və qarşılıqlı danışıqların başlaması üçün lazım olan atmosfer yaradıldı. Bütün bunlara baxmayaraq, kənardan baxıldığında məqsəd baxımından iki lider arasında çox önəmli bir fərqlilik müşahidə olunurdu. Samuel iki şirkət arasında bəsit bir bazarlama düzənləməsi ilə kifayətlənmək istəyirdi. Deterding isə xaricə açılacaq "vahid idarəetmə" tərəfdarı idi. Bunlardan sonra Lane Deterdinglə görüşüb Samuelin təklifini qəbul etməsini, "vahid idarəetmə"nin illər keçdikcə onsuz da qaçınılmaz olacağını, bu gün üçünsə Samuelin "vahid idarəetmə"yə qarşı olduğunu və güzəştə





getməyəcəyini söylədi. Vəziyyət get-gedə daha da qarışırdı. Xüsusilə 1901-ci ilin oktyabr ayının ortalarında Marcus Samuelin gəmiylə Nyu Yorka, oradan da Broadvay - 26 adresindəki "Hörmətli Cənabları" ziyarətə getməsi ortalığı əməlli-başlı qarışdırdı. Ziyarətin Standard Oilla bir anlaşma əldə etmək məqsədi daşıdığı şübhəsizdi. Bu ara Con Archbold Rokfellerə məktub yazır və Marcus Samuelin ziyarətini bu sözlərlə izah edirdi: "Cənab Marcus Samuel ziyarətimizə gəldi. Bu şirkət heç şübhəsiz ki, bütün dünyada - biz xaric - neftayırma sahəsində və neft bazarlamasında ən böyük agentlikdir. Buraya bizimlə bir müqavilə bağlamaq məsələsini müzakirə etmək üçün gəlmişdir. Belə başa düşürəm ki, şirkətlərinin malı olan bəzi müəssisələrin böyük bir qismini bizə satmaq istəyir." Ancaq bu sözlərə və aparılan bir çox əhatəli danışıqlara baxmayaraq, tərəflər razılaşa bilmədilər. Shellin nə dərəcə qiymətləndirildiyi haqqında görüş birliyinə gəlinə bilmədi. Samuel müəssisələrinə qiymət qoymuş və bunu da Standarda bildirmişdi. Ancaq Standard verilən bu qiymətlərin həqiqətəuyğun olduğundan şübhəliydi. Digər tərəfdən, Samuelə də boş bir təşəbbüskar demək doğru olmazdı. Kim nə deyir-desin, bu mövqeyə durduğu yerdə gəlib çatmamışdı. Londona qayıdanda ətrafındakılara sanki qələbə qazanıbmış kimi görüntü verirdi. Hamıda Shellə qarşı maraq yaratmağa və əslində başı dərddə olan bu şirkəti yaxşı vəziyyətdəymiş kimi təqdim etməyə nail olmuşdu.

## İngilis-Hollandiya əməkdaşlığı - "Asiya" Şirkəti

Samuel hələ Nyu Yorkda ikən Lane can-başla çalışıb Hollandiya Kraliyyətlə Shell arasında bir anlaşma zəmini tapmağa çalışmış, bunun üçün də beynində bir plan hazırlamışdı. Amma həll olunması vacib olan əsil problem həll olunmamış şəkildə ortadaca dururdu. Bağlanacaq müqavilə bəsit bir bazarlama düzənləməsi ilə məhdudmu qalacaq, yoxsa xaricə də açılacaq bir əməkdaşlığamı istiqamətlənəcəkdi? 1901-ci il noyabr ayının 4-də Lane bu mövzunu müzakirə etmək və konkret bir qərara bağlamaq üçün Samueli görməyə getdi. Lanenin üzərində diqqətlə dayandığı və israrla təkid etdiyi mövzu Samuelə bu görüşü qəbul etdirməkdi: Bəsit bir bazarlama düzənləməsi bazara bol miqdarda neftin axdığı və qiymətləri həddindən artıq aşağı saldığı bu şərtlər altında yetərsiz qalacaq və heç bir məna ifadə etməyəcəkdi. Bundan başqa, istehsal üzərində nəzarət də lazım idi. Bu faktorun da nəzərə alınmasıyla nəticə açıqlığa qovuşduruldu və "mütləq bir birləşməyə getməkdən başqa heç bir çıxış yolu qalmadığı" qərarına varıldı. Bu qərarı Samuel də qəbul etmişdi və o andan etibarən bir "zərafət" təmsilçisiymiş kimi davranmağa, ətrafının onu məğlubiyyətə düçar etdiyi və müqaviləni "lütfən" qəbul etdirdiyi aurasına girdi. İndi istehsalı məhdudlaşdıracaq yeni bir təşkilatlanmaya getmək lazım olacaqdı. Hər iki tərəfin də talelərini müəyyənləşdirən bu müqavilə ilə gələcəkdə Hollandiya Kraliyyət və Shell Qrupunun arasında yaradılacaq böyük bir şirkətin ilk addımları atılmış olurdu.

Deterding tələsir, müqavilənin bir an öncə tamamlanmasını istəyirdi. Standard Oilun Shelllə anlaşıb onu





aldadacağından qorxurdu. Yeri gəlmişkən, çox keçmədi ki, qorxularında yanılmadığı ortaya çıxdı. 1901-ci ilin Yeni İl bayramından iki gün əvvəl, öncə tərəddüdlü görünən Standard Oil fikrini dəyişdirib Shellə 40 milyon dollarlıq fövqəladə böyük bir təklif etdi. 1901-ci ilin 40 milyon dolları bu günün 500 milyon dollarına bərabərdi və çox böyük pul idi. Samuelin ailəsi onu bu təklifi qəbul etməyə məcbur etsə də, Samuel dərhal qərar vermədi. Yeni İl tətilində qarşısında olan alternativləri dəyərləndirmək üçün malikanəsinə - Moteyə getdi. Orada qaldığı müddətdə həyatının ən çətin qərarlarından biri olan bu mövzu haqqında uzun-uzun düşündü. Əcəba, hansı yolu seçməliydi? Xəyal edilə bilməyəcək böyüklükdə pulu qəbul edib təxmin belə etmədiyi nəhənglikdəki sərvətə qovuşub, Standard Oil imperiyasının içində ən öndə gələn seçilmiş şəxsiyyətlərdən birimi olmalıydı, yoxsa Deterding və Hollandiya Kraliyyətlə bəxtini sınayıb tale birliyinəmi getməliydi? Bu məsələnin üstündə dayanmaq və sözündən dönmək üçün ortada bir çox əsaslı səbəblər vardı. Ancaq Yeni İl tətilindən dərhal sonra aldığı təcili bir teleqraf onu anidən düşüncələrindən sıyırıb real həyata qaytaracaqdı. Teleqrafı Lane göndərmişdi və Londona qayıtmasını tələb edirdi. Qarşılaşdıqlarında Lane bəzi ana nöqtələrdə Deterdingin güzəştə getdiyini söylədi. Bu səbəblə də 1901-ci ilin dekabr ayının 27-də Samuel və Hollandiya Kraliyyət arasında tələsik bir müqavilə layihəsi imzalandı. Layihə gecə hərəkət edən bir gəmiylə əldən Deterdingə göndərildi. Həmin gecə Samuel Nyu Yorka göndərdiyi bir teleqrafla Standardın təklifini rədd etdiyini və müzakirələri kəsdiyini üzüntüləri ilə birlikdə bəyan edirdi.

Samuelin əsil istədiyi bərabərlik idi. Standard isə pul xərcləmək baxımından çox əliaçıq olmasına baxmayaraq, hər zamankı kimi nəzarət məsələsinə gəlincə, israrlı

hərəkət edirdi. Bu mövzuda da eyni israrı və inadı göstərdi. Marcus Samuel Standardla anlaşsaydı, "nəzarət" ingilis tərəfindən Amerikan tərəfinə keçəcəkdi. Bu isə Samuelin əsla qəbul etməyəcəyi bir şeydi. Onda vətənpərvərlik hissləri həqiqətən çox qüvvətli idi. Bu cür vəziyyətdə müqavilə layihəsi imzalandığı halda, Deterding yenə də tam bir anlaşma əldə edə bilməməsindən dolayı narahatdı və müqavilənin rəsmi şəkildə bağlanmasını istəyirdi. Hər zaman olduğu kimi nə istədiyini bilərək və mütləq məqsədinə çatmaq niyyətilə Şərqi Hind Adalarındakı Hollandiya əsilli o biri istehsalçıları bir araya gətirib, yeni bir anlaşma ilə birləşdirməyi, sürücü kreslosuna da Hollandiya Kraliyyət Şirkətini oturtmağı bacardı. Artıq çatmaq istədiyi məqsədin yarısını əldə etmiş və Şərqi Hind Adalarının Hollandiyaya aid olan hissəsindən çıxarılan neft məhsulunun təsirli bir şəkildə nəzarətini ələ keçirmişdi. Ancaq Shell ilə bağlayacaqları satış müqaviləsi əcəba, hansı nəticəni verəcəkdi? Hərçənd Deterding daha əvvəl Samuellə işləri "birlikdə idarə etmək" haqqında müqavilə imzalamışdı, amma artıq Standard səhnədən çəkildiyinə görə, Shellin mövqeyi zəifləmiş olmurdumu? Bunu nəzərə alan Deterding çox keçmədən düşüncələrini praktik və özünə də cazibədar gələn bir fikir üzərində yoğunlaşdırmağa başladı. Rəhbərliyi sadəcə bir nəfər ələ almalı və bu da Henri Deterding olmalıydı. Qərarını verdi və Samuelə ultimatum göndərdi. Təşkilatlanma haqqındakı təklifini qəbul etmədiyi təqdirdə (ki, bu təklif Shellin və Samuelin idarəetmədəki nəzarətini məhdudlaşdırırdı), artıq başqa müzakirəyə girməyəcəyini, bunun üçün Kanalı belə aşmaq əziyyətinə qatlaşmayacağını açıq-aşkar bildirdi. Hollandiyalı ultimatumunda bu sözlərə də yer verir, "hər ikimizin də itirəcək bir dəqiqəmiz belə yoxdur" deyirdi. Nəticədə dediyini etdi. Yeni şirkətin başına Samuel gətiriləcək,





ancaq idarəetmə və inzibati rəhbərlik Deterdingdə olacaqdı. Gündəlik işlərin məsuliyyətini də Deterding öhdəsinə götürürdü. Artıq Deterding bundan artığını da istəyə bilməzdi. Çox keçmədən çox əhəmiyyətli, açar qismində iki sənəd imzalandı. Bunlardan biri Hollandiya Hindistan İstehsalat Komitəsinin, o biri də sonradan ad dəyişdirib "İngilis-Hollandiya Neft Şirkəti" olan "Shell Nəqliyyat-Hollandiya Kraliyyət Neft Şirkəti"nin quruluşuna aid sənədlər idi.

Çox keçmədən 3-cü bir şirkət, yəni Rotşild, Samuel və Shellə isti münasibət bəsləmədiyinə baxmayaraq, kənarda qalmaq istəməyib, bu birliyə qatılma qərarı aldı. Samuel bu məsələyə həvəssiz yanaşırdı. Amma Rotşild şirkətin qatılmasını istədiyinə görə, Deterding nəyin bahasına olursa-olsun, bunun belə olmalı olduğuna Samueli inandırdı və razı saldı. "Bu məsələdə bir gecikmə bizim üçün təhlükəli ola bilər. Əgər bu şansı əlimizdən qaçırsaq, onu artıq bir daha yaxalaya bilmərik. Zatən bir zaman Rotşildlərlə birlikdə işlədik və hamı da bunu bilir. Bir yerdə yenə işləsək, o zaman bütün gələcək bizimdir. Onların adı olmasa, uğur qazana bilmərik" deyirdi. Nəticədə Samuel qatılma təklifini qəbul etdi.

Samuel artıq keçmişdən dərs almışa oxşayırdı və təkliflərə o qədər də qarşı çıxmırdı. 1902-ci ildə Deterding və Rotşildlə son dərəcə əhəmiyyətli bir müqavilə bağlanması tələb olunduğunda, etiraz etmədi və müqaviləni imzaladı. Bu müqavilə ilə İngilis-Hollandiya Şirkəti ortadan qalxır, yeni və daha böyük bir şirkət olaraq Asiya Neft Şirkəti doğulurdu. Artıq Samuel bu cür bir birləşmənin daha yaxşı nəticələr verəcəyi haqqında hissədarlarına vədlər verir və həqiqətən bu birləşmə ilə "bütün təşkilatın" təhlükələrlə dolu olan rus neft bazarlarına bağlılıqdan xilas olunacağını söyləyirdi. Bütün gücüylə və uca bir səslə

"hollandiyalı dostlarımızla uzun zamandır davam edən savaşımız sona çatdı. Bu, yalnız sülhlə yox, eyni zamanda hücuma istiqamətlənmiş birləşmə ilə əldə olunan bir nəticədir. Bütün maraqlı tərəflərin səmimiyyətlə bayram edəcəyi bir hadisədir" deyirdi.

## Deterdingin qələbəsi

Əsil adı İngilis-Hollandiya (British Dutch) olan, amma sonradan Asiya Şirkəti adlanan bu şirkətlər, birləşməyə doğru atılan ilk böyük addımın təmsilçiləridir. Bu dərəcədə əhəmiyyətli olmasına baxmayaraq, bu müqavilə hələ də rəsmi şəkil almamışdı. Digər tərəfdən, Shellin maliyyə vəziyyəti və bazarlardakı mövqeyi də davamlı olaraq pozulmaqda və məhvolma nöqtəsinə gəlməkdəydi. İş o yerə çatmışdı ki, Deterding müqaviləni pozub çəkilmək istədiyini söyləyərək, təhdid belə etmişdi. Artıq Samuelə - olacaqları həzm edib, hər şeyin uğursuzluqla sona çatmasını gözləməkdən başqa bir yol qalmamışdı.

İşə bax ki, 1902-ci ilin sentyabr ayının 29-da şirkətin sədri olan Samuel Londonun Bələdiyyə sədri seçildi. Bu hadisə nəzərə alındığında, artıq şirkətin işlərinin uğursuz getməsi son dərəcə xırda bir şey olurdu. Samuel hələ Bələdiyyə sədri olmamışdan əvvəl avqust ayının sonunda Deterdingi Moteyə dəvət etdi. Hollandiyalı ingilis tərzində tikilmiş bu kənd evini çox bəyənmiş və təsirlənmişdi. O zamana qədər bu dərəcədə gözəl bir ev görməmişdi. Özü də bir gün bu cür bir evə sahib olma qərarı verdi. Samuel isə əhəmiyyətini qoruyan problemlərin varlığını qəbul edir, bu məsələdə səmimi davranırdı. Deterding Shellin zəif olduğunun fərqindəydi, amma xəyallarını qurduğu dünya





çapındakı nəhəng layihəsini həyata keçirmək üçün "Hollandiya bayrağının" kifayət etmədiyini də eyni dəqiqliklə bilirdi. Daha güclü olan bir "bayrağa" mütləq ehtiyac vardı və bu bayraq "Union Jack" adlandırılan ingilis bayrağı idi. Bu düşüncələr içərisində Asiya Neft Şirkəti vasitəsilə Shellin gələcəyini düzəldəcəyini söylədi və bu məsələdə bütün gücüylə çalışacağı haqda Samuelə təminat verdi.

Yeni şirkətin işlərini idarə edə bilmək üçün Deterding özünə Londonda bir yer tapıb, oraya yerləşdi. Onsuz da 1897-ci ildən bəri teleqraf adresi olaraq "London-Celibacy" ünvanından istifadə edirdi. Londondakı Asiya ofislərindən də Hollandiya Kraliyyət və Shellin birləşmiş mal qaynaqlarını, bundan başqa, Rotşildlərin rus neft ixracatının böyük bir qismini və Hollandiyaya aid olan Şərqi Hind Adalarındakı müstəqil istehsalçıların səmərəliliyinə nəzarət edib, onları tarazlaşdırırdı. İndi artıq böyük çapda neft alqı-satqısı ilə məşğul olur, bu işdə böyük ustalıq və nailiyyətlər göstərirdi. Hollandiya Hindistan İstehsalat Şirkətinin Komissiya sədri olmasından faydalanaraq, bu bölgədəki istehsalı məhdudlaşdırdı və kvota sisteminə keçdi.

Deterding bütün enerjisini yeni yaradılan Asiya Şirkətinə istiqamətləndirdiyi sırada, Marcus Samuel də neft işi ilə heç bir əlaqəsi olmayan başqa bir işə - 10 noyabr 1902-ci ildə seçildiyi London Bələdiyyə sədrliyi vəzifəsinə rəsmən başlayırdı. Heç şübhəsiz ki, Bələdiyyə sədri seçildiyi gün onun həyatının ən önəmli günüydü. Bu mövqeyə gəlməklə londonlu bir tacirə verilə biləcək ən böyük şərəf ona verilirdi. Marcus Samuel üçün bunun əsil önəmi, bu şərəfə layiq görülən adamın Şərq Sahillərindən gələn bir yəhudi, bir sədəf tacirinin oğlu olmasından irəli gəlirdi. Gözlənən böyük gün gələndə yüzlərlə avtomobil kolon

halında mərasimə qatılır, ailəsi ilə birlikdə bir çox seçkin adam da mərasim yerində iştirak edirdi. Samuel və ailəsi bu cür mərasimlərdən sıxılırdılar. Ancaq mərasimə qatılanların Samuelin doğum yeri olan yəhudi məhəlləsi Portsokendən keçməsinə görə də qürur duyurdular. Bu böyük gün Guildhallda verilən görkəmli bir ziyafətlə sona çatdı. Masaları dolduran bir çox seçkin xadim Marcus Samueli salamlayırdı. Qonaqlar arasında yer alan Deterding özünü bu hadisədən uzaq tutmağa cəhd edirdi. Bir kənara çəkilib, qəribə bir mərasimi seyr edər kimi olub-bitənlərə tamaşa edirdi. Bir iş yoldaşına yazdığı məktubda mərasimi bu sözlərlə təsvir etmişdi: "Bu cür bir mərasimə ikinci dəfə qatılsam, heç kim mənə frak geyindirə bilməz." Yerli xalqın qənaətinə görə, Bələdiyyə sədrinin təqdimat mərasimi çox mükəmməldi. Ancaq bir hollandiyalı gözüylə Deterding mərasimi daha çox sirkə oxşatmışdı.

O gündən etibarən Samuel vəzifəsinin tələbilə vaxtını mərasimlərdə, bir-birini təqib edən qəbullarda, ard-arda nitqlər irad etdiyi toplantılarda keçirməyə başladı. Diqqətini yenidən neftə ayırdığı vaxt, artıq aradan bir ay keçmişdi. Neft işi ilə məşğul olmağa başladıqdan sonra da Bələdiyyə sədrliyi vəzifəsini yerinə yetirməyə məcbur olduğundan, rəsmi səfərlərə gedir, dövrünün görkəmli xadimlərinin ziyarətlərini qəbul edirdi. Vəzifələrinin arasında biri daha vardı: Bələdiyyə binasında dəli kimi qeydiyyata alınan xəstələrlə şəxsən görüşlərdə iştirak edirdi. Bunu bilənlərdən bəziləri sədrin neftçilərdən daha çox dəlilərlə məşğul olduğunu söyləyərək, onu tənqid etməyə başlamışdılar. Samuel Bələdiyyə sədrliyinin vəzifə səlahiyyətlərindən çox razı idi, ancaq bu məsuliyyətin gətirdiyi ifrat yorğunluq sağlamlığına təsir göstərməyə başlamışdı. Bələdiyyə sədri olduğu bir il içərisində davamlı





olaraq sağlamlıq problemləri ilə qarşılaşdı, baş ağrıları keçirdi və hamısından betər də ağzında nə qədər dişi varsa, hamısını çəkdirmək məcburiyyətində qaldı.

Çəkdiyi sıxıntılar yalnız sağlamlığında qarşılaşdığı problemlərdən ibarət deyildi. 1902-ci ilin dekabr ayının son şənbə günü, səhər erkəndən şəhərdəki malikanəsi Motedən ayrılıb ilk qatarla Canterbury Baş Yepiskopunun cənazə mərasiminə qatılmaq üçün Londona getdi. Şəhərin polisləri ilə günorta yeməyi yedi. Eyni günün axşamı da məcburi olaraq teatra getdi. Bazar günü səhər saatlarında Lord Kitchenerin sərgilədiyi Boer savaşına aid silahları nəzərdən keçirdi. Bazar ertəsi səhəri şəhərin işləri ilə maraqlandı və yalnız ondan sonra onu gözləyən Fred Lanedən gələn bir məktuba baxa bildi. Məktub onu çox narahat edən xəbərlərlə doluydu. Samuelin çox qədim dostu və şəriki olan Lane, Shellin idarə heyətindən istefa verdiyini yazırdı. Yazdığına görə, bunun səbəbi təkcə Asiya Şirkətinin müdir müavinliyi vəzifəsinin çox yorucu olmasından irəli gəlmirdi. Lane Marcus Samuelin şirkəti idarəetmə tərzindən şikayətçi idi və onu ağır şəkildə tənqid edirdi: "Siz bu cür bir işin başında ola bilməyəcək qədər məşğul bir insansınız və hər zaman da beləydiniz. Görünən odur ki, edəcək bircə iş qaldı. Sərmayəni batırıb dünyanı yerindən oynatmaq və sonra da oturub Tanrıya dua edərək, hər şeyi ondan gözləmək. İş həyatında bu mentalitetlə işləyən, hər şeyi bəxtin ümidinə buraxan bir halla bu günə qədər heç qarşılaşmamışdım... Bu cür bir iş heç bir zaman boş vaxtlarda bir göz qırpımıyla və ya zaman-zaman uğur qazanılan parlaq missiyalarla idarə oluna bilməz. Bu iş həmişəlikdir və daimi maraqlanmaqla idarə oluna bilər" deyirdi. Məktubunun davamında isə bu cür təxminlər irəli sürürdü: "Çox radikal islahatlar aparmadıqca, şirkət sabun

köpüyü kimi partlamağa məhkumdur. İşlərin bu cür gedişi ilə heç bir şey şirkəti xilas edə bilməz." Bu məktubdan sonra Samuel və Lane görüşüb vəziyyəti müzakirə etdilər. Sonrakı günlərdə də mövzuyla bağlı məktublaşmalarını davam etdirdilər. Ancaq məktublarında həmişə bir-birilərini günahlandırır, get-gedə daha əsəbi üsluba keçirdilər. Aradakı inciklik aradan qaldırıla bilmədi və nəticədə Lane İdarə Heyətindən ayrıldı. Bu ayrılıq hər ikisi tərəfindən də sonsuza qədər davam edən ağır bir xəyanət kimi qiymətləndirildi.

Aradan keçən zaman içərisində Asiya şirkətinin quruluşu fəaliyyəti və tikintisi hələ də davam edirdi. Son müqavilənin hələlik imzalanmaması səbəbilə tərəflər arasında şirkətin nəzarəti və təqib olunacaq siyasət mövzularında ziddiyyətlər, anlaşılmazlıqlar olurdu. Hollandiya Kraliyyət Şirkətinin yazarlarından biri Deterdingin hər kəsdən sadəcə "dürüst və ədalətli" hərəkət gözlədiyini yazırdı. Samuelin bioqrafiyasını yazan yazar isə tamamilə fərqli düşünürdü. Ona görə Deterding öz dediyinin həyata keçirilməsində israrlıydı. Bu israr onu məntiqsiz bir əsəbiliyə və kinə sürükləmiş, bir növ çılğına çevirmişdi. Hər şeyə baxmayaraq, yenə də oyunun bütün "kozır"ları Deterdingin əlindəydi və o da bunu bildiyi üçün anlaşma yoluna getməkdə istəksiz görünürdü. Yeri gəlmişkən, məqamı gələndə bir gün "özümü 10 Bələdiyyə sədri ilə döş-döşə gələcək qədər formada və gücdə hiss edirəm" deyəcəkdi.

Nəticədə, 1903-cü ilin may ayında artıq qurulması tamamlanan və hər iki tərəfin də sahib olduğu üçüncü şirkət olan Asiya Şirkəti ilə 10 ədəd müqavilə imzalandı. Yeni şirkətin əsas vəzifəsi Şərqi Hind Adalarında istehsalı tənzimləmək, Uzaq Şərqdə satış işini öhdəsinə götürmək və bundan başqa, Avropada Şərqi Hind Adalarından





gələn benzin və qaz yağının satışına nəzarət etməkdi. Ancaq Deterdingin nəzərlərində, qazandıqları qələbə, İdarə Heyətində qalib ədasıyla açıqladığı kimi, müqavilənin hər sətirində Hollandiya Kraliyyətin parlaması və açıqca üstünlük qazanması idi. Ən böyük uğur da Asiya Şirkətinin idarə müdirinin, yəni özünün, eyni zamanda həm də Hollandiya Kraliyyətin idarə müdiri təyin olunması idi. Samuel idari müdirlik müddətinin 3 il zamanla məhdudlaşdırılmasında israr etsə də, Deterding qərarlı hərəkət etdi və bu müddətin "21 ildən bir gün belə az olmamasında" dirəndi. Şübhəsiz ki, bu, təyinatın həmişəlik olacağı mənasına gəlirdi. Nəticədə qazanan onun özü olmuşdu.

Asiya Şirkəti İdarə Heyətinin ilk toplantısı 1903-cü ilin iyul ayında keçirildi. Sədrlik kreslosunda yenə Marcus Samuel əyləşmişdi. Çıxışını heç bir qeydə baxmadan edən Deterding, hansı dəqiqə hansı gəminin harada olduğunu, haraya getdiyini, yükünün nə qədər olduğunu və hansı limanda nə qədər qiymət veriləcəyini mükəmməl və səhvsiz olaraq məruzə etdi. Bu, Marcus Samuelin özünə də həddindən artıq təsir etmişdi.

## "Qrup" - Samuel boyun əyir

Deterding özünü bütün enerjisiylə yeni müəssisənin işlərinə həsr etmişdi. Hollandiya Kraliyyətin sahibi bir gün ona xəbərdarlıq edib, həddindən artıq çalışdığını, özünü yorduğunu söyləyəndə, Deterding ona belə cavab vermişdi: "Hamı bilməlidir ki, neft işində qarşımıza çıxan hər fürsəti qiymətləndirməliyik. Əks təqdirdə bu fürsətlər bir daha geri gəlməmək üzərə bizdən qaçaq düşər." Deterding iş həyatında heç bir zaman bir qumarbaz olmadı. Amma buna baxmayaraq, hesab-kitablı olsa da, risqə getməkdən

çəkinməyən bir xarakteri vardı. Davamlı olaraq işləyir, durub-dincəlmədən çalışırdı. O əsnada Şərqi Hind Adalarından çıxarılan neft, xüsusilə benzin istehsalına uyğun olduğu üçün Kraliyyət Hollandiya bu bölgədəki müstəqil istehsalçıların əksəriyyətini öz bayrağı altında toplamaq istədi və buna nail oldu. Avtomobil də artıq yayılmağa başlamış, İngiltərə və Avropa qitəsinin müxtəlif ölkələrində ən çox rastlanan, yolları dolduran nəqliyyat vasitəsinə çevrilmişdi. Bu arada Asiya Şirkəti böyüməyə davam etdi və Deterdingin qamçılayıcı iradəsi ilə qısa zamanda getgedə inkişaf edən Avropa benzin bazarında əhəmiyyətli bir hissə qazandı.

İşlər Kraliyyət Hollandiya baxımından hər gün bir az daha yaxşılığa doğru getdiyi halda, Shell baxımından sistematik olaraq bir az daha pisliyə gedirdi. Spindletopdan çıxarılan Texas nefti artıq məhsul vermirdi. Bundan başqa, İngiltərə dəniz donanması Samuelin kraliyyət donanmasında yanacaq kimi kömürdən mazota keçilməsi təklifini ciddiyə almadan rədd etmişdi. Bu, Samuelin həsrətlə gözlədiyi bazarın gerçəkləşməyəcəyi mənasına gəlirdi. Hollandiya Kraliyyətin, Borneo xammaddəsinin mazot kimi istifadəyə əlverişli olduğunu kəşf etməsi də o dövrə təsadüf edir. Bu da şübhəsiz ki, mazot istehsalını öz inhisarına almağı gözləyən Samuelin ümidlərini bir daha qırırdı. Standard Oil isə çox uzun illər qiymət mövzusunun başını qatdığı savaşın içində çırpınıb qaldı. Bu arada keçmiş dost, yeni düşmən olan Fred Lane böyük kədər içərisində Shell Şirkəti ilə razılaşıb, Asiya Şirkətinin köməkçi idarə müdiri olmuşdu. Shelldəki mövqeyindən istifadə edərək, öz xəyal qırıqlığının əvəzini çıxmaq istəyirdi. Deterding isə ikili standardlar tətbiq edir, hər iki tərəfə də, sanki onların tərəfindəymiş kimi münasibət göstərirdi.





Əslində Hollandiya Kraliyyətin tərəfində idi və onu bərbad vəziyyətdə olan Shelldən üstün etmək üçün çalışırdı. Artıq axsamağa başlayan və yaxınlarda diz çökəcəyə oxşayan Sell hissədarlarına min bir çətinliklə qazanc payı olaraq 5 faiz ödəyə bildiyi halda, Hollandiya Kraliyyət hissədarlarına 50-65 faiz, 1905-ci ildə isə 73 faiz kimi çox böyük, doyurucu hissə ödəyirdi.

Belə bir vəziyyətdə Shell nə edə bilərdi? Artıq Marcus Samuel üçün ayrılıq saatının gəldiyi aydınlaşırdı. Nəhayət, 1906-cı ilin qışında ən qabiliyyətli adamı olan Robert Waley Cohen adlı gənc məmur ona bəd bir xəbər gətirdi. Cohen artıq birləşmiş və koordinasiya edilmiş bir bazarlama şirkətinin kifayət etmədiyini söyləyirdi. Mövcudluğunu qoruya bilmək üçün Shellin atacağı yeganə addım, mümkün olan ən yaxşı şərtləri təmin edərək Hollandiya Kraliyyətlə tam bir birləşməyə getməkdi. Bu fikir Samueli dərddən dəli edirdi. Hər şeyə baxmayaraq, bu böyük və qlobal neft şirkətini öz əlləri ilə, heç kimsədən yardım almadan özü yaratmışdı. Ancaq başqa bir yol qalmamışdı. Nəticədə qaçınılmaz olanı etdi və birləşmə haqqındakı arzusunu Deterdingə açıqladı. Deterding təklifi qəbul etdi. Bu cür bir birləşmənin öz tərəfindən də arzu edildiyini söylədi. Ancaq ortada bir problem vardı. Birləşmə hansı əsaslarda aparılacaqdı? Aralarında keçmişdən imzaladıqları "İngiltərə-Hollandiya" müqaviləsində pay bölgüsü 50:50 nisbətində idi. Samuel bunu bilirdi. Bu müqavilədə də eyni pay bölgüsünün qalmasını tələb edəndə, Deterding buna şiddətlə etiraz etdi. Samuel donub qalmışdı. Deterding "İngiltərə-Hollandiya" müqaviləsinin arxada qaldığını, aradan keçən zaman içərisində hər iki şirkətin mövqelərinin dramatik şəkildə dəyişdiyini söyləyirdi. Onun qənaətincə birləşmənin şərtləri dəyişdirilməli və

Hollandiya Kraliyyət 60 faiz, Shell isə 40 faiz pay almalıydı. "Amma biz bu birləşməylə Shellin mal varlığını və müəssisələrini bir əcnəbinin əllərinə vermiş oluruq!" deyə əks-reaksiya göstərən Samuel, danışıqları yarımçıq kəsdi. Təklif olunan pay bölgüsünü heç bir şəkildə hissədarlarına açıqlamayacağını düşünmüşdü.

Vəziyyət beləcə ortada qaldı və bir neçə ay hər şey unuduldu. Ancaq Shellin vəziyyəti heç cür yaxşılığa doğru getmədiyi üçün Samuel mövzunu bir daha gündəmə gətirməyə, Deterdinglə təkrar danışıqlar aparmağa məcbur oldu. "Rəhbərliyi Kraliyyət Hollandiyaya verməyə hazıram, amma yeganə şərtim var. Siz cənab Deterding, mənə Shellin mal varlığını Hollandiya Kraliyyətin yaxşı idarə edəcəyinə dair qarantiya verəcəksiniz" dedi.

Deterding sadəcə bir mövzuda qarantiya verə bilərdi. Kraliyyət Hollandiya Shell şirkətinin hissələrinin dörddə birini satın alacaq, beləliklə, hissədar olacaqdı. Hissədar olan kimi də təbii olaraq, Shellin mənafeyini səmimiyyətlə qoruyacaqdı. Samuel yaxşıca düşünmək üçün möhdət istəsə də, Deterding bunu qəbul etmədi və "indi comərdəm, kefim yaxşıdır. Sizə bu təklifi mən etdim, amma əgər siz bu otaqdan təklifimi qəbul etmədən çıxsanız, təklifimi geri götürəcəyəm" dedi. Samuel başqa çıxış yolu qalmadığını başa düşərək, təklifi qəbul etdi. Samuelin Deterdinglə apardığı mübarizə təxminən 5 ilə qədər davam etmiş, sonunda bitmişdi. Qazanan tərəf Deterding olmuşdu.

Birliyin təməlləri 1907-ci ildə atıldı və bu birlikdən "Hollandiya Kraliyyət/Shell Qrupu birliyi" doğuldu. Dörd il əvvəl də "İngiltərə-Hollandiya" adlanan birinci birləşmiş bazarlama şirkəti qurulmuşdu və bu şirkətdə daha üstün mövqeli hesab olunan şirkətin adı əvvələ alınmışdı. İndi isə yeni nizamlama ilə birlikdə "Hollandiya Kraliyyət" adı





əvvələ keçirdi. Beləliklə, adların yazılış sırası şirkətlərdən hansının daha güclü olduğunu müəyyənləşdirmiş oldu. Bu ad sıralamasındakı dəyişikliyi Deterding qəsdən etmişdi. Nə də olsa, qələbəni qazanan tərəf onun özü idi. İllər keçdikcə yeni şirkət sadəcə "Qrup" adıyla çağırılmağa başlandı. Neft istehsalı və neftayırmaçılığı ilə bağlı olan hər cür mal varlığı bir Hollandiya şirkəti olan Bataafsche Neft Şirkətinin tərkibində birləşdirildi. Nəqliyyat və depolama işləri isə Anqlo-Sakson Neft Şirkəti adındakı bir ingilis şirkətinə verildi. Hollandiya Kraliyyət və Shell şirkətlərinin hərəsi bir holdinq oldular. Ancaq bu nizamlamada Hollandiya Kraliyyət Holdinq 60, Shell Holdinq isə 40 faiz hissə sahibi oldular. "İdarə Müdirləri Komitəsi" hüquqi baxımdan müəyyən bir statusdan çıxarıldı. Komitə artıq iki ayrı holdinqin idarə heyətlərində fəal olaraq çalışan üzvlərlə təmsil olunmağa başladı. Kraliyyət Hollandiya Samuelin istədiyi xoşniyyət simvolu olaraq Shell hissələrinin dörddə birini satın alsa da, daha sonrakı illərdə bunları satma yoluna getdi. Deterding simvolik olaraq tək bir hissəni belə özünə ayırıb satmadı.

Deterdingin fəaliyyət göstərdiyi yer Londonda yerləşirdi. Buradakı ofisi zamanla Hollandiya Kraliyyət/Shell Şirkətinin maliyyə və ticari çalışma mərkəzi oldu. Norfolkda kənd evi tərzində bir malikanə satın alıb, keçmişdən həsrətini çəkdiyi, qibtə etdiyi ingilis əsilzadələrinin həyat tərzinə uyğun bir həyat sürdü. İşin texniki tərəfi, yəni istehsal və neftayırmaçılıq Haguedə toplandı. Hadisələr sürətlə bir-birini təqib etdikcə, tərəflər arasında keçmişdən mövcud olan şirkət quruluşu fərqlilikləri də yavaş-yavaş ortadan qalxdı və tərəflər qazancın hansı tərəfdən gəldiyinə əhəmiyyət verməməyə başladılar. Vacib olan bu qazancın 60/40 nisbətində bölüşdürülməsi idi.

Əslində bütün işləri çox önəmli mövqedə olan 3 adam həyata keçirirdi. Bunların birincisi, şübhəsiz ki, Deterding idi. İkinci adam Hugo London adlı bir zamanlar Sumatradakı neft kəşfi ilə Kraliyyət Nefti batmaqdan xilas edən hollandiyalı bir mühəndis idi. London Sumatradakı ilk quyular neft verməyən vaxtlarda Sumatrada yeni quyular kəşf etməyi bacarmışdı. Üçüncü önəmli adam isə gənc Robert Waley Cohendi. Anqlo-yəhudi əsilli bir ailədən gələn Waley Cohen Cambridge Universitetinin kimya fakültəsindən məzun olduqdan sonra 1901-ci ildə Marcus Samuellə işləməyə başlamış, daha sonra da Shell mənsubu olaraq Asiya şirkətinə keçmişdi. Birləşmədən sonrakı günlərdə tərəflərin bir araya gətirilməsi və aradakı soyuqluğun ortadan qaldırılmasında ən böyük payı olan adamdı. Deterding holdinqlərin işlə əlaqədar problemlərindən məsul olduğu üçün vaxtını daha çox səyahətlərdə və danışıqların aparılmasında keçirirdi. London isə işin texniki tərəflərindən məsuliyyət daşıyırdı. Waley Cohen, Deterdingin ticari işlər üzrə müaviniydi və Deterding olmayanda qərar vermək, danışıqlara qatılıb nəticəyə nail olmaq kimi səlahiyyətləri vardı. Cohen həm də Deterdingin kefinin olmadığı, bəxtinə inanmadığı vaxtlarda ona mənəvi dayaq olan adam idi.

Samuel, Deterdingin onu məğlubiyyətə uğradıb, nəzarəti əlinə aldığı ilk günlərdə çox pərişan olmuş və bütün həyatının tam bir uğursuzluqla keçdiyini düşünmüşdü. Onun prizmasından bu birləşmə heç bir halda şan və şərəf gətirmirdi. Bir gün jurnalistlərə verdiyi bir müsahibədə "xəyal qırıqlığına uğramış bir adamam" demişdi. Birləşmə tamamlandıqdan sonra incikliyini unutmaq üçün 650 tonluq özəl gəmisiylə gəzintilərə çıxaraq vaxt keçirməyə başladı və mehrini dənizə saldı. Ancaq inciklik hissini tez





məğlub edəcəkdi. Bu çox zəngin və nüfuzlu iş adamları bir-biriləri ilə yaxşı yola getmək üçün əllərindən gələni edirdilər. Deterding işlərin gedişi haqqında Samuellə məsləhətləşir, bundan başqa, gündən-günə onu bir az daha zənginləşdirirdi. Samuelin ölümündən sonra Deterding onu hər dəfə xatırlayanda, hörmət əlaməti olaraq "bizim başqanımız" deyərdi. Deterdingin göstərdiyi bu ehtiramın müqabilində, Samuel də çox keçmədən Deterdingin nələr etməyə qadir olduğunu başa düşdü. Samuel 1908-ci ildə Shellin hissədarları ilə keçirdiyi bir iclasda Henri Deterdingin "həqiqi bir dahi" olduğunu söyləmişdi. Samuel rəhbərliyi Deterdingə həvalə etməsinə baxmayaraq, Shell Nəqliyyatçılıq və Ticarət Şirkətinin sədrliyi vəzifəsini 10 ildən artıq daşımış, "Qrup" işlərinin bir çoxunda əlindən gələni etmişdi. Samuel əvvəlkindən zəngin olmuş, xeyirxah işlərinin sayını artırmağa davam etmişdi. Hadisələr yeniləndikcə qəzetlərin manşetlərindən düşməmişdi. Qəzetlərdə mütəmadi adından bəhs edilən və karikaturaları çəkilən adam olmuşdu. Dənizçilikdə istifadə olunmaq üçün sevdiyi mazot mövzusunu da heç bir zaman gündəmindən endirməmişdi. Həmişə bu istiqamətdə təşəbbüs göstərmiş və dediyindən dönməmişdi. Rəhbərlik etdiyi illərdə Deterdinglə qibtə ediləcək münasibətlər sistemini həmişə qorumağı bacarmışdı. Ancaq aralarındakı münasibətlərin təbiəti haqqında heç bir şübhəyə yer yox idi: Artıq patron Deterding idi.

## "Haydı Amerikaya!"

1907-ci ildə birləşmə tamamlanmışdı. Bu, dünya neft bazarına bundan belə iki ayrı nəhəngin hakim olacağı mənasına gəlirdi. Bunlardan biri keçmişdən bəri hər zaman öz nəhəngliyini qoruyub saxlayan Standard Oil, o biri də yeni-yeni nəhəngləşməkdə olan Hollandiya Kraliyyət/Shell qrupu idi. 1910-cu ildə Deterding böyük bir qürurla bu sözləri söyləyəcəkdi: "Əgər Standard bundan 3 il əvvəl bizi bazardan silsəydi, bu gün uğur qazanmışdı. Amma artıq vəziyyət dəyişdi." Bu sözlərə baxmayaraq iki tərəf arasında hələ də sərt və amansız bir rəqabət davam edirdi. Eyni il içərisində Deterding razılaşmaq ümidi ilə Broadvay - 26 adresinə bir nəzakət ziyarəti etdi. Ancaq gözlədiyinin əksinə olaraq özünə bir təklif edildi. Broadvay - 26 Hollandiya Kraliyyət/Shelli 100 milyon dollara satın almaq istəyirdi. Bu təklif qarşısında buz kimi donan Deterding cavab olaraq bunları söyləyəcəkdi: "Bunu üzüntü içərisində söyləmək məcburiyyətindəyəm ki, bu şəhərə etdiyim ziyarət tamamilə boş yerə olmuşdur. Bunu eynilə tarixə köçürməyə məcburam." Başa düşüldüyü kimi Deterding olunan təklifi aşağılayıcı qəbul etmiş, özünə həqarət bilmişdi. Bunu bu sözlərindən başa düşmək mümkündür: "Əməkdaşlıq etmək haqqında təklif etməklə bizim rəhbərlik və sədrimizlə görüşülməyə belə ehtiyac olmadığı ortaya çıxmışdır. Buna görə də mövzunu neft ticarətində sizdən sonra dünyanın ən əhəmiyyətli rəhbərliyinə və sədrimizə təqdim etməyi lazımsız hesab edirik."

Bu reaksiyadan sonra Standard Oil Deterdingə lazım olan cavabı verməkdə gecikmədi və dərhal qiymətləri aşağı salma kampaniyasına başladı. Bunu etməklə neft





savaşlarında yeni bir mərhələyə qapısını açırdı. Bu kifayət etmirmiş kimi üstəlik, Cənubi Sumatrada yeni neft qaynaqları axtaracaq Hollandiya əsilli və özünə bağlı bir şirkət də yaratdı. Artıq "Qrup"a başqa heç bir çıxış yolu qalmırdı. Ediləcək şey cavab verib qarşı hücuma keçməkdi. Bunun isə bircə cavabı vardı: "Amerikaya getmək!" Bu deyim Hollandiya Kraliyyət/Shell siyasətinin yeni şüarına çevrildi. "Qrup"un düşüncəsinə görə Amerikada uğur qazana bilməsələr, bu, Standardın qiymətləri aşağı salma siyasətinin mənfi yöndə əks olunan nəticələrindən qaynaqlanacaqdı. Unutmaq olmazdı ki, Standard bir zamanlar qazyağı satışında olduğu kimi, artıq qalan benzinini də aşağı qiymətlərlə Avropa bazarlarında sata biləcək gücdə idi. Aradakı ziyanı Amerikada daha yuxarı qiymət tətbiq etməklə aradan qaldırması, bu yolla da nəticə etibarilə yenə qazanclı çıxması mümkün idi. Şübhəsiz ki, bu vəziyyət Standarda "Qrup"un sahib olmadığı sabit bir güc təmin edirdi. Beləliklə, Avropa və Asiyada davam edən bazarlama savaşlarının səbəb olduğu maddi zərərlər Amerikadan qazanılan böyük qazanclarla tənzimlənirdi.

Deterding *çalışmalarını əsas etibarilə iki ayrı istiqamətdə* aparırdı. Birincisi, 1912-ci ildə Qərb sahillərində başlatdığı işlərdi. 1912-ci ildə Deterding Sumatra benzininin istifadə olunacağı bir bazarlama əməliyyatını həyata keçirdi. Ondan bir il sonra da Kaliforniyada birbaşa neft istehsalına başladı. İkinci istiqamətdəki təşəbbüsləri ilə "Qrup"u Amerika qitəsinin ortalarına doğru aparmağa cəhd etdi. Oklahomada olub-bitənlərə dərhal qatılmağa can atırdı. Buna görə də vaxt itirmədən Birləşmiş Ştatlara bir təmsilçi göndərdi. Bu təmsilçi 1890-cı illərin əvvəllərində Uzaq Şərqdə Shellin ilk depolama şəbəkəsini yaradan və 1890-cı illərin sonlarındakı Borneo talanında

eyni şeyləri təkrarlayan adamdı. Bu adam Marcus Samuelin yaxın qohumu Mark Abraham idi. Mark "Qrup" nəfinə Misirdə apardığı neft araşdırma səyahətindən təzəcə qayıtmışdı.

Oklahomaya getmək şübhəsiz ki, Borneoya getməkdən daha asandı. Amma 1912-ci ilin iyul ayında Nyu Yorkdan Tulsaya yola çıxan Abraham orada nələrlə qarşılaşacağını bilmirdi. Bu səbəblə də götürdüyü xırım-xırda şeylərdən başqa, orada tapa bilməməsi ehtimalına qarşı özünün yazı makinasını da yanında götürmüşdü. 2500 dollar pulu vardı və bu bu pulunu kiçik, ancaq hay-küylü qəsəbədə etibarlı bir bank tapmamaq ehtimalını nəzərə alaraq üstündəki kəmərinin içinə yerləşdirmişdi. Hara gedirdisə yanında daşıyırdı. Şərtlər baxımından bu dərəcədə komfortdan kənar olan bu qəsəbəni hər şeyə baxmayaraq özü üçün indidən "Dünyanın Neft Mərkəzi" olaraq elan etmişdi. Mark Abraham Tulsaya gəldiyi andan etibarən bir neçə kiçik neft şirkətini bir araya toplamağa çalışdı və çox keçmədən "Roxana Neft" adlı yeni bir şirkət qurdu. Çoxdan bəri müdafiəyə istiqamətlənmiş bir genişlənmənin hədəfində olan Abraham, bax indi bu böyük hədəfinə çatmış, Standardın ölkəsinə aid olan torpaqlara ayaq basmışdı. Vəzifəsini yerinə yetirib Londona qayıdanda bu müvəffəqiyyətdən fövqəladə məmnun qalan Deterding Huqo Londona yazdığı həyəcan dolu bir məktubda sevincini bu sözlərlə ifadə edirdi: "Çox şükür, nəhayət Amerikadayıq!"





## Rusiya qarışır

Shell və Hollandiya Kraliyyətin birləşməsində Samuel oyuna gətirildiyi qənaətindəydi. Amma bu düşüncəsində yanılmışdı. Yeri gəlmişkən, Shellin rus neftinə bağlılığı nəzərə alındığında hadisələr çox keçmədən bu birləşmənin ağıllı bir hərəkət olduğunu sübut etdi. Rusiyanın sənaye sahəsi 1892-1903-cü illərdə güclü maliyyə naziri Kont Sergey Vittenin həyata keçirdiyi siyasət nəticəsində fövqəladə inkişaf etmişdi. Riyaziyyatçı olaraq yetişən Vitte Çar Rusiyasında bir elə rastlanmayan formada və öz qabiliyyəti sayəsində aşağı səviyyəli bir dəmir yolu müdiri ikən, rus iqtisadiyyatının hakimi səviyyəsinə yüksəlmişdi. Nəticədə maliyyə naziri olan Vitte Rusiyanın, xüsusilə də neft sənayesinin - bol miqdarda əcnəbi sərmayə ilə bəslənərsə, daha sürətlə sənayeləşəcəyini anlamışdı. Mühafizəkarlar Vittenin bu proqramına qarşı çıxdılar. Bunlardan biri olan hərb naziri "neft sahəsindəki inkişafın ifrat dərəcədə olmasından və xüsusilə də əcnəbi kapitalistlərin, əcnəbi sərmayənin və yəhudilərin bu işə qarışmalarından" bəhs edərək şikayət edirdi. Ancaq Vitte hər şeyə baxmayaraq proqramına sadiq qaldı və inkişaf strategiyasına davam etdi.

Vitte, üzvləri arasında çox az qabiliyyətli adamların fəaliyyət göstərdiyi bir hökumətdə fövqəladə qabiliyyətdə bir adam olaraq dərhal diqqəti cəlb etdi. Rusiyada bütün sistem başdan sona qədər çürümüş və iylənmişdi. Mühakiməsiz qərar vermək və natamamlıq kimi keyfiyyətlər hər kəsimə hakim olmuşdu. Axmaqlıq və bacarıqsızlığın əsil simvolu da Çarın özüydü. Çar II Nikolay bir avtokratda təhlükəli sayılan bir xüsusiyyətə, yəni axmaqlıqdan xoşallanmaq xüsusiyyətinə sahibdi. Bundan başqa,

özü və ətrafındakılar onu mistisizmə, yəni həqiqətdən kənar hadisələrə meyllənmişdilər. Bu adamlar müxtəlif təriqətlərə daxil olur, Vittenin dediyi kimi ətraflarına "xaricdən idxal edilmiş, özlərini peyğəmbər kimi göstərən mediumları və Rusiyada yetişmiş dəliləri" toplayaraq bütün asudə vaxtlarını bunlarla keçirirdilər. Çar heç cür "Bizansvarı vərdişlərindən imtina edə bilmirdi" və yenə Vittenin söylədiyi kimi "Metternixin və ya Taleyranın qabiliyyətinə sahib olmadığı bir yana, bir bataqlığa saplandığı, ya da tez-tez öz xalqını qan gölündə çimizdirdiyi" də olurdu. Belə olan halda Vitteyə də sadəcə dua edib Tanrıdan onları "qorxaqlıq, korluq, hiyləgərlik və axmaqlıq tələsinə düşməkdən qoruması üçün" yalvarmaq qalırdı. Çar II Nikolay çoxmillətli imperiyası daxilində rus əsilli olmayan nə qədər milli azlıq varsa, hamısını xor görür və ölkəsində yaşamalarını istəmirdi. Yeri gəlmişkən, bunların ölkə sərhədlərindən kənara çıxarılması haqqında qanun layihəsini də təsdiq etmişdi. Bu hərəkətləri sonradan azlıqların dövlətə qarşı üsyan qaldırmalarına səbəb olmuşdu. Nəhayət, 1903-cü ildə daxili işlər naziri Vittenin yanına gəlib II Nikolay hökmdarlığının hələ o zamanlardan inanılmaz uğursuzluq nümunəsi olduğunu söyləyəcəkdi. Nazirin bəyanına görə, bir neçə hadisə istisna olunmaqla, ölkənin bütün xalqları bezmişdi və hamısı narahatdı.

Rus neft sənayesinin əsil yuvası sayılan Qafqaz çox pis idarə olunan bir yerdi. Bu bölgənin yaşama və çalışma şərtləri qəbul edilə bilməyəcək qədər bərbaddı. Fəhlələrin əksəriyyəti Bakıda, ailələrindən uzaqda işlədilirdilər. Batumidəki fəhlələr gündə ənənəvi olaraq 14 saat işləyir, üstəgəl həm də məcburi olaraq əlavə daha 2 saat çalışırdılar.





Bakı artıq "Xəzər üzərində qaynayan qaynar bir inqilab yuvası"na çevrilmişdi. Əhalisinin dörddə birini tatarların təşkil etdiyi bu şəhərdə, şəhərin tatarlar yaşayan hissəsində böyük yeraltı təşkilatlar yaradılmış, "Nina" kod adıyla böyük bir nəşriyyat fəaliyyət göstərməyə başlamışdı. Bu gizli, böyük nəşriyyat əməliyyatlarının aparıldığı şəhərdə Vladimir İliç Leninin çıxardığı inqilabçı "İskra" qəzeti Avropadan İran yoluyla qaçaq olaraq "Nina"ya gətirilir və ölkə daxilində paylanmaq üçün burada yenidən nəşr olunurdu. Mütəmadi olaraq Çar polisinin həmişə təqib etməsinə, bütün çaşdırmalarına baxmayaraq yenə də "Nina" nəşriyyatı inqilabla bağlı ləvazimatın gətirildiyi ən sağlam sığınacaq yeri olma xüsusiyyətini qoruyub saxladı. Bu yeraltı fəaliyyətlərə neft sənayesi də bilmədən cinayət iştirakçılığı etmişdir. Gizli idarə olunan və bütün ölkədə paylanan təbliğat nəşrlərində neftin "milli paylanma sistemi" ən mükəmməl yayım vasitəsi olmuşdur. Bakı və buradakı neft sənayesi, eyni zamanda bolşevik lideri olaraq ortalığa çıxacaq bir qrup lider üçün həm də bir təhsil-təlim mərkəzi rolunu oynamışdır. Bunların arasında gələcəkdə SSRİ dövlət başçısı olan Mixail Kalinin və Sovetlər Birliyinin gələcək marşalı olan Kliment Voroşilov da vardı. Bunların arasında gələcəkdə hamısından daha vacib və əhəmiyyətli vəzifə daşıyan gənc bir gürcü də vardı: Bir zamanlar ilahiyyət fakultəsinin tələbəsi olan bir çəkməçi oğlu İosif Çuqaşvili. Əsil adı İosif olan bu gənc yeraltı fəaliyyətlərində "çətin adam" mənasına gələn "Koba" adından istifadə edirdi. "Koba" - hamımızın xatırladığı İosif Stalin adını illər sonra daşımağa başladı.

1901-1902-ci illərdə Stalin Batumidəki ən önəmli sosialist təşkilatçı olmuşdu. Yerli neft sənayesində keçirilən ümumi tətil və nümayişlərdə, eyni zamanda

Rotşildlərin iş yerlərində uzun zamandan bəri davam edən tətillərin planlaşdırıcısı, beyin adamı olmuşdu. Bu tətildən sonra Stalin digər tətilçilərlə bərabər həyatında ilk dəfə olaraq həbs olundu. Daha sonra 7 dəfə daha həbs olundu. Həbslərdən sonra hər zaman göndərildiyi sürgündən qaçır, amma nəticədə özünü yenə Çarın həbsxanalarında görürdü. 1903-cü ildə Bakıda fəhlələrin elan etdiyi tətil get-gedə bütün Rusiyanı bürüyən ümumi tətilə çevrildi. Artıq Rusiya tam bir anarxiya, rus hökuməti də böyük bir böhranın içindəydi. Bu şərtlər altında normal olaraq Marcus Samuel, Rotşild və digər neftçilər, neft təmin edəcək mənbə kimi Rusiyaya arxalanmaqda səhv etdiklərini başa düşür və bundan narahat olurdular.

Çarlıq rejimi sürətli bir dəyişiklik həsrətindəydi və bu həsrətini də bütün avtokratik rejimlərin etdiyi kimi başqa bir ölkəyə savaş elan etmək macərasıyla qarşılamağa çalışdı. Beləcə, xalqı yenidən bir yerə toplamağı və hökmdarlarına yenidən prestij qazandırmağı umurdular. Ancaq bunun üçün bəzən başqalarının da düşdüyü xətaya düşərək, özünə düşmən kimi yanlış bir ölkəni, yəni Yaponiyanı seçdi. Mancuriya və Koreyada, xüsusilə Yalu Vadisində Yaponiya ilə Rusiya arasında hegemonluğun ələ keçirilməsi üçün davam edən rəqabət 1911-ci ildən bəri iki ölkə arasında bir savaş ehtimalına yol açmışdı. Təxminən 10 il əvvəl Yaponiyaya etdiyi bir səyahətdə sui-qəsd təşəbbüsünə məruz qalan və yaralanan Çar, yaponlara heç hörmət etmir, hətta rəsmi sənədlərdə onlardan bəhs edərkən "meymun" sözündən istifadə edirdi. Çıxış yolu tapmaq üçün yaponlar tərəfindən edilən hər cür təşəbbüs mütləq rədd edilirdi. Kont Vitte aradakı anlaşılmazlığa son vermək istəsə də, təşəbbüsləri heç bir nəticə vermədi. Vittenin 1903-cü ildə maliyyə naziri vəzifəsindən çıxarılmasından





sonra yaponlar bir müharibənin artıq qaçınılmaz olduğunu əməlli-başlı başa düşdülər. Savaş Çarın və ətrafının işinə yarayırdı. Daxili işlər naziri də "Rusiyanın daxili vəziyyəti məcburi tədbirlərin görülməsinə möhtacdır" demiş və arxasından da bunları əlavə etmişdi: "Ölkədə inqilab ab-havası var. Bu ab-havanı dayandırmaq üçün uğur qazanacağımız kiçik bir savaşa ehtiyacımız var." Artıq savaşın qaçınılmazlığı və bunun bir an məsələsi olduğu gün kimi aydındı.

Rus-yapon müharibəsi 1904-cü ilin yanvar ayında başladı. Savaşa ilk başlayan tərəf Yaponiya oldu və etdiyi sürpriz və uğurlu hücumla Port Arturdakı rus donanmasını məğlub etdi. O gündən sonra rus hərbi qüvvələri bir hərbi məğlubiyyətdən digərinə uğradılar və bu macəra bütün rus dəniz donanmasının Tuşima müharibəsində bütünlüklə dənizin dibinə gömülməsi ilə nəticələndi. Beləliklə, müharibə inqilab rüzgarlarını yatışdırmaq bir yana, tam tərsinə, onu daha da alovlandırdı. 1904-cü ilin dekabr ayında Bakıdakı neft mədənlərində işləyən fəhlələr təkrar tətilə başladılar və ilk kütləvi iş sözləşməsini əldə etməyə nail oldular. Müharibə bitdikdən dərhal sonra bir neçə gün keçmədi ki, inqilabçılar bu dəfə bir bəyanat yayınlayaraq "Qafqaz fəhlələri, intiqam saatı gəldi" deyəcəkdilər. Bu bəyanat Stalin tərəfindən qələmə alınmışdı. Bir gün sonra Sankt Peterburqda Çarlarına şikayət ərizəsi vermək üçün Qış Sarayına doğru irəliləyən bir qrup fəhləyə polis atəş açdı. Bax o gün "Qanlı Bazar" deyə xatırlanan 1905-ci il üsyanının başlanğıcı oldu - Lenin bu gündən "Böyük Məşq günü" deyə bəhs edərdi.

Xəbər Bakıya çatan kimi, neft fəhlələri yenidən tətilə getdilər. Tətilin üsyana yol açacağından qorxan hökumət, müsəlman tatarlara silah verdi. Tatarlar, içərisində neft sənayesinin liderləri də olan xristian ermeniləri kütləvi

şəkildə qətl etməyə başladılar. O gündən sonra ağızdan-ağıza dolaşan bir əfsanəyə görə, ən zəngin neftçilərdən Adamov adlı bir erməni yaralı olduğu halda evinin eyvanına çıxıb, orada mövqe tutdu və oğlunun köməkliyi ilə mühasirəyə müqavimət göstərib, tam 3 gün müdafiə olundu. Bu müddətdə evi atəşə verilir, özüylə bərabər 40 adamı ya yandırılır, ya da parçalanaraq öldürülürdü.

Tətillər və açıqca baş verən üsyan hərəkətləri 1905-ci ilin sentyabr və oktyabr aylarında başdan-başa bütün imperiyanı bürümüşdü. Qafqazda baş verən hadisələr sosializm səbəbindən deyil, irqi və etnik münaqişələr səbəbindən qızışdırılır və idarə olunurdu. Tatarlar başdan-başa bütün Bakı və ətrafında neft sənayesinə qarşı yeni-yeni hücumlar təşkil edir, ermənilərin sığındıqları yerlərdəki binaları yandırır, əllərinə keçən hər şeyi talan edirdilər. O cəhənnəmdən sağ-salamat xilas olmağa nail olan biri bu hadisələri bu sözlərlə xatırlayır: "Hər tərəf tam bir cəhənnəm kimi görünürdü. Yanan neft buruqlarından və neft quyularından çıxan alovlar bu cəhənnəmin üzərindən keçib, üfüqlərə yüksələn dəhşətverici duman örtüyünün içində itib-batırdı. Bütün bunlardan sonra həyatımda ilk dəfə dünyanın sonunun gəldiyini zənn edirdim. Alovlar içərisindən canını götürüb xilas olanlar bu dəfə də elə o tatarlar tərəfindən vurulurdular... Bu mənzərənin Pompeyin son günlərinə oxşadığını düşündüm. Tüfəng güllələrinin və tapança mərmilərinin havada çıxardığı səs, mənzərəni Pompeyindəkindən daha betər edirdi. Bundan başqa, yanğınlardan partlayan neft barrellərindən çıxan səs, qatillərin kəskin hayqırtıları və can verən qurbanların çığır-bağırları ətrafdakı mənzərəyə daha da dəhşət verirdi. Duman o qədər qalınlaşmışdı ki, günortadan sonra saat 14.00-da günəşi görmək mümkün olmamışdı. Dərhal sonra da həqiqətən son günlərin gəldiyini sübut etmək istərcəsinə





qorxunc bir göy gurultusu eşidildi və bütün bölgə başdan-başa şiddətlə sarsıldı."

Bakıdakı hadisələr bütün dünyada əks-səda doğurmuşdu. Artıq bütün dünya ilk dəfə olaraq qorxunc bir üsyan səbəbilə neft daşınmasının dayandığına, bunun da böyük bir sərmayəni bir heçə döndərməyinə, ən azı bu sərmayəni təhlükəyə məruz qoymağına şahid olmuşdu. Bu zaman Standard, Rusiyadakı qarmaqarışıqlıqdan faydalanıb, vaxt itirmədən dərhal hərəkətə keçdi. İlk olaraq daha əvvəl rus neftinə qapdırdığı Uzaq Şərqdəki bazarları geri almağa başladı və bunu uğurla həyata keçirdi. Buradakı məqsədi Amerikan qazyağına bazar axtarıb tapmaqdı. Rus sənayesinin vəziyyətinə gəlincə, vəziyyət həqiqətən ürküdücü idi. Ölkədəki bütün neft quyularının üçdə ikisi tamamilə məhv olmuş, ixracat iflic vəziyyətinə düşmüşdü.

1905-ci ilin axırlarında artıq inqilab məğlubiyyətlə nəticələnmişdi. Bu arada rus-yapon müharibəsi də başa çatmış, nəticələri prezident Teodor Ruzvelt tərəfindən Portsmouth, Nyu Hampshiredə savaşan tərəflərin iradəsinə uyğun şəkildə qərara bağlanmışdı. 1905-ci ildə Çar, iradəsinə və xarakterinə büsbütün uyğun olmamasına baxmayaraq, içində Duma adlı parlamentin də yer aldığı Konstitusion sistemin qurulmasına icazə verdi. İnqilabın sona çatmasına baxmayaraq, neft bölgəsindəki qarışıqlıqlar hələ bitməmişdi. Bakıdakı neft fəhlələri parlament üzvü olaraq Dumaya bolşevik nümayəndələri seçmişdilər. Bundan başqa, Nobelin Batumidəki təmsilçisi də küçədə öldürülmüşdü. 1907-ci ildə bir daha tətil dalğası bütün Bakını bürüdü və ümumi tətilə çevrilmə təhlükəsi meydana çıxdı. Bu zaman Çar, çox axmaqca davranaraq, bəlkə də gələcəkdə özünü və xanədanını xilas edəcək Konstitusiyanı ortadan qaldırmağa çalışırdı. İşlər bununla bitmədi. Bolşeviklər fəhlələr arasında "sonsuz etimadsızlıq yaratmaq",

neftçiləri idarə etmək və təşkilatlandırmaq, öz deyişləri ilə etimadsızlıqları daha da "qızışdırmaq" məqsədilə 1907-ci ildə bir daha Stalini Bakıya göndərdilər. Bakıda keçirdiyi illər Stalinin fəhlə sinfinin gündəlik problemləri ilə həqiqətən məşğul olduğu az sayda illərdən bir neçəsidir. 1910-cu ildə Stalin başqa bir tətilin hazırlıqlarını apardığı əsnada bir daha həbs olunur və sonra da Rusiyanın şimalındakı tərk olunmuş torpaqlara sürgünə göndərilirdi. Stalin inqilabçı-üsyançı xarakterini və nifaq salmadakı ustalığını, ehtiraslı və ironik təbiətini Bakıdaykən bəsləmiş və inkişaf etdirmişdir. Bu xüsusiyyətlərindən gələcəkdə çox faydalanacaqdı.

### Rusiyaya qayıdış

Rus neftinin geriləməsinə səbəb olan faktorlar sadəcə siyasi qeyri-stabillik, irq problemləri və tətillərin doğurduğu gərginliklər deyildi. Rusiyanın keçmişdə sahib olduğu üstün vəziyyət nefti nisbətən ucuz qiymətə satmasından qaynaqlanırdı. Ancaq yeni şərait bambaşqaydı. Qazıntı işlərinin nizamsız və başdan sovdu aparılması səbəbindən istehsal həcmi azalmış, Bakı ətrafındakı neft yataqlarında təmir olunması mümkün olmayan dağıntılar baş vermişdi. Nəticədə bu bölgədə onsuz da azalmaqda olan neft, daha böyük sürətlə tamamən tükənməyə başladı. Bütün bunlar istehsal xərclərində dramatik artışlar yaratdı. Bundan başqa, siyasi istiqrarsızlıq yeni inkişaf etməkdə olan və çox zəruri böyük yatırım fəaliyyətlərini təşfiqedici mahiyyətdə deyildi. Bir ara rus hökuməti çox yanlış bir qərarla sırf maliyyə nazirliyinin doymaq bilməyən iştahasını təmin etmək üçün daxili nəqliyyat vergisini artırdı. Bunun nəticəsində dünya bazarlarında rus neftinin qiymətləri də artdı və bu bazarlarda rus nefti





rəqabətə əlverişsiz vəziyyətə düşdü. Artıq daha əvvəl sərfəli olan qiymətlər indi səmərəsiz olmuşdu. Get-gedə rus nefti yavaş-yavaş əlavə məhsul kimi işlənəcək, sadəcə daha yaxşı növ neft tapılmadığı zaman axtarılacaqdı.

Bu ara Avropa neft sənayesinin ümumi dinamikasında da bəzi dəyişikliklər müşahidə olundu. Artıq Rumıniyada da çox əhəmiyyətli və yeni neft yataqları tapılmışdı. Bu ölkədə, Karpat dağlarının ətəyində çoxdan bəri aparılan əl qazması nəticəsində çox az miqdarda olsa da, neftə rast gəlinmişdi. 1890-cı illərdə Macarıstan və Avstriya banklarının müasir texnologiya ilə birlikdə etdiyi sərmayə dəstəyi ilə Rumıniyanın neft istehsalı nəzərə çarpacaq dərəcədə artım göstərdi. Ancaq XX əsrin əvvəllərində Rumıniyaya Standard Oil, Deutsche Bank və Hollandiya Krallıyyətin də müdaxiləsi ilə vəziyyət bir daha dəyişdi. Bu üç qrup Rumıniyanın neft sənayesini nəzarətə götürməyə başladılar və bunun da təsiri çox böyük oldu. XX əsrin ilk on ili içərisində Rumıniyada neft istehsalı 7 dəfə artdı. Çox keçmədən Deutsche Bank Rumıniya istehsalının da verdiyi üstünlükdən istifadə edərək, 1906-cı ildə Nobellər və Rotşildlərlə birləşərək, qısa adı "EPU" olan (Eurorean Petroleum Union) "Avropa Neft Birliyi"ni qurdu. Bu birləşmədən keçən iki il ərzində EPU Standard Oilun Avropadakı təmsilçiləri ilə əlaqəyə girərək, bazarların müəyyən şərtlər altında bölüşdürülməsini qərara bağlayan müqavilələr imzaladı. Müqavilələrə görə, bazarların 20-25 faizi EPU-nun olur, geri qalanı isə Standarda tərk edilirdi. Bu, şübhəsiz ki, Standardı məmnun edirdi. Qısa müddət sonra İngiltərə ilə də oxşar bir bazar-bölüşdürmə müqaviləsi imzalandı.

Məlum olduğu kimi, Bakı nefti bəzi qarışıqlıqlar səbəbilə tənəzzül dövrü keçirirdi. Ancaq elə o illərdə Rusiyada yeni-yeni quyular açılmağa başlandı. Yeni açılan bu

quyular çox inkişaf etmiş texnologiyanın, istehsal metodlarının və üstəgəl, sərmayə təmin edib macəraparəst neft ehtirası ilə alışıb-yanan London Birjasının da dəstəyilə sürətlə inkişaf etdi. Yataqlardan biri Qara dəniz sahilindən 50 mil uzaqlıqda yerləşən Maikop idi. Digəri isə Batuminin şimal-şərqində yerləşən Gürcüstanın Qroznı neft yataqları idi. Ancaq istehsalın yenidən artmasına baxmayaraq, Rotşildlər artıq bu macəradan xəcalət çəkərcəsinə geri çəkilmək istəyirdilər. O günlərdə Rusiyaya hakim olan anti-semitizm və yabançılara bəslənən düşmənçilik gedərək artan siyasi qarışıqlıqlarla bərabər, onları dərindən narahat etmişdi. Tətillərin nə vaxt başlayacağını, talançılıq, cinayət və üsyan hərəkətlərinin hansı mərhələdə olduğunu, heç formalaşmadan - ilk əldən öyrənir, rahatsız olurdular.

İşlərini satışa çıxarmaq üçün bir çox səbəbləri vardı. Bir şey aydın idi ki, "qazanc" artıq ya çox azalmışdı, ya da heç yox idi. Rotşildlərin neft gəlirləri Rusiyanın neft istehsalına bağlı idi və beynəlxalq platformada coğrafi heç bir tarazlığa sahib deyildilər. Artıq bu sual hamını narahat edirdi: İşlər belədirsə, niyə bu işi buraxıb, dünya miqyasında yayılan başqa bir təşkilatla birləşərək, təhlükəsizliklərini təmin etməsinlər ki?

Bu məqsədlə 1911-ci ildə Rus Neft Təşkilatının hamısının bir bütün olaraq satışı üçün Hollandiya Kraliyyət/Shelllə müzakirəyə girişdilər. Razılaşmaq elə də asan olmadı. Bu satış əməliyyatında Rotşildləri hər yerdə hazır olan Fred Lane təmsil edirdi. Rotşild zənginliklərinin dərdli başçısı olan adama yazdığı məktubda "Kölgə" Lane bu sözlərə yer vermişdi: "Sizi inandırıram ki, Deterdingə bir şey etdirmək heç də zənn etdiyiniz kimi asan deyildir. Onun xasiyyəti, hadisələri mümkün olduğu ölçüdə axışına





buraxmaq, həll etməmək, bu arada da sırf bayquş kimi oturub olub-bitəni dəyərləndirmək, "əcəba, düzmü etdi, yanlışmı etdi", yoxsa "əcəba, daha yaxşısını edə bilərdimi" deyə düşünməkdi. Sözün qısası, harada olduğumuzu müqavilə rəsmən "imzalanmadan" əsla bilə bilməzsiniz." Kölgə Lanenin bu sözlərinə baxmayaraq, müqavilə 1912-ci ildə imzalandı. Hollandiya Kraliyyət/Shell Müştərək Təşkilatı Rotşildlərə olan borcunu hissə sənədi şəklində ödədilər və beləliklə, Rotşildlər istər Hollandiya Kraliyyətdə, istərsə də Shelldə ən böyük hissədar oldular. Bunu etməklə Rotşildlər təhlükəli və güvəncəsiz Rusiya neftindəki mövcudluqlarını, sürətlə böyüyən, payları bölünmüş bir beynəlxalq miqyaslı şirkət içində, sağlam, təhlükəsiz, gələcəyi parlaq holdinqlərə çevirirdilər.

Rus neftinin təhlükəli vəziyyətdə olduğu və Shellin də rus neftinə bağlı olması Marcus Samueli hər zaman əsəbiləşdirirdi. Bu səbəblə əsr bitib yeni əsr başlayarkən, əsəbiliyi bütün hərəkətlərindən ortada olan Marcus Samuel, Shellin rus neftindən asılılığını kəsmək üçün əllərindən gələni etmişdi. Bundan təxminən 10 il sonra da Deterding, böyük manevrlər edərək, Hollandiya Kraliyyət/Shell müştərəkliyinin görkəmli bir şəkildə rus neftinə daxil olmasını təmin edirdi. Bunun nəticəsində Qrup, Nobel Şirkətindən sonra rus neftinin istehsal, neftayırmaçılıq və bazarlama əməliyyatlarında ən böyük təşkilat oldu. Bir gün Nobelin təmsilçilərindən biri Deterdingdən rus neftinə qatılmasının səbəbini soruşmuşdu. Deterding bu suala belə cavab vermişdi: "Məqsədimiz pul qazanmaqdı." Təxminən bir gecə içində sanki sehirli çubuqla Qrup, Rusiyanın ən böyük iqtisadi gücü olur, təxminlərə görə hər bölgədə bütün rus istehsalının ən az beşdə birini əlində tuturdu. Bundan başqa, Rotşildlərin neft varlığını

özünə birləşdirməklə Qrup, Şərqi Hind Adalarından 25, Rumıniyadan 17, Rusiyadan 29 faizlik hissələri ilə dünya çapında sabit bir istehsalda əsas yerə sahib olurdu. Rus nefti ilə əlaqənin önəmli bəzi risqlər gətirdiyi inkar olunmasa da, bu əlavə istehsalı dünya miqyasında öz sisteminə birləşdirməklə daha əlverişli mövqe qazanırdı. Risqlərə gəlincə, onu zaman göstərəcəkdi.

Ümumi görünüşüylə rus neft sənayesi, xüsusilə Bakı həndəvərində birinci dünya müharibəsinin başlanmasından əvvəlki 10 il içərisində süqut etmişdi. Tətbiq olunan texnologiya durğun, geri qalmış və Qərb standartlarının altında bir texnologiya idi. Artıq keçmiş möhtəşəm dövrü, dünya bazarında dinamik güc olduğu günləri arxada qalmışdı. 1904-1913-cü illər arasında Rusiyanın dünya neft ixracatındakı hissəsi yüzdə 31-dən yüzdə 9-a düşmüşdü. Artıq rus neft sənayesinə - o parlaq günlərində hər hansı bir şəkildə qatılanlar, o günlərə əzablı bir həsrətlə baxırdılar. Nobellər, Rotşildlər və Marcus Samuel baxımından rus nefti heybətli bir sərvət və güc mənbəyi olmuşdu. Ancaq bu həsrət sadəcə neftçilərin inhisarında da deyildi və bəzən neftçilərin rəqiblərinə də təsir edirdi. 1920-ci illərdə Stalin bolşevik taxtına çıxdığı gecə bu sözləri söyləmişdi: "Böyük fəhlə kütlələrinə liderlik etmənin nə mənaya gəldiyini ilk dəfə Bakıda anladım. Bakıda inqilabi hərəkata qoşulmaqla ikinci dəfə xaç suyuna salınmış oldum. Orada inqilabın bir yolçusu oldum."

1905-ci ildə başlayan inqilab dalğası Bakını 20 il müddətdə dünya neft bazarında artıq önəmsiz hala gətirsə də, Bakı yenə də Avropanın yaxın ətrafı üçün ən əhəmiyyətli neft mənbəyi olma mövqeyini qorumuşdur. Bu səbəblə Bakı inqilaba baxmayaraq, hələ də davam edən qlobal toqquşmalarda ən böyük və ən qiymətli mükafatlardan biri olmağa davam edirdi.





# 7

# ƏCƏM ÖLKƏSİNDƏ "ZÖVQİ-SƏFA"

1900-cü ilin axırlarında Antoine Kitabgi adında boyca xırım-xırda, general rütbəli bir hörmətli cənab Parisə gəlmişdi. Bəzilərinin qənaətincə Amerikan, bəzilərincə isə Gürcüstan əsilli olduğu söylənilən Kitabgi Əcəm hökumətində gömrük xidmətləri rəisi də daxil olmaqla, müxtəlif vəzifələrdə təmsil olunmuşdu. Bir ingilis diplomatının sözləri ilə "Qərblə bağlı mövzularda çox yaxşı yetişmiş, müqavilə bağlamağı və ticari təşəbbüsləri bacaran bir şəxs idi." Zatən daşıdığı vəzifə də bu qabiliyyətləri tələb edirdi. Kitabginin Parisə gəlmə səbəbi burada bir Əcəm sərgisinin açılışı kimi göstərilsə də, əslində həqiqət bambaşqa idi. İşin özündə Kitabgi bir satıcı idi - məqsədi də Avropada Əcəm ölkəsinin neft işini öhdəsinə götürəcək və bu barədə razılaşmağa meylli bir sərmayədar tapmaqdı. Bu məqsədlə apardığı işlərdə Kitabginin öz mənfəətlərini də düşündüyü və bu müqavilədən böyük məbləğdə bir təzminat alacağı da şübhəsizdi. Ancaq Kitabginin başqa bir məqsədi də siyasi və iqtisadi baxımdan əhəmiyyətli olan və həllini gözləyən bir çox problemlə qarşı-qarşıya qalan Əcəm hökumətinin maraqlarını qorumaqdı. Hərçənd Əcəm hökumətinin maliyyə vəziyyəti həmişə bir xeyli qarışıq olsa da, bir məqam apaçıq ortadaydı. Hökumət tamamilə pulsuz qalmışdı və xəzinəsi pul ehtiyacı içərisində qıvrılırdı. Əcəba, niyə? Dövrün baş naziri bunun cavabını verdi: "Şah həzrətlərinin sovurqanlığı səbəbindən."

General Kitabginin cəhdləri, nəticədə öz meyvəsini

verdi və tarixi böyüklük kimi qiymətləndirilə biləcək bir iş müqaviləsi imzalandı. Bu müqavilə sadəcə bir neçə il üçün imzalanmış və əslində gələcəyi pambıq ipliyinə bağlı bir razılaşma idi. Ancaq bu müqavilə Orta Şərqdə neft dövrünü başladan, bu bölgədə beynəlxalq platformada siyasi və iqtisadi mexanizmi hərəkətə keçirən bir müqavilədir. Bu müqavilə sayəsində Əcəmistan və ya 1935-ci ildən sonrakı yeni adıyla İran, əski Əcəm və Parfiya imperiyalarından bəri dünya səhnəsində görmədiyi bir ün və əhəmiyyətə qovuşmuşdu.

## "Ən üst səviyyədə bir kapitalist"

Parisdə keçirdiyi günlərdə Kitabgi, təqaüdə çıxmış bir ingilis diplomatdan yardım istədi. İngilis diplomat apardığı araşdırmalar nəticəsində Kitabgiyə təqdim etdiyi raportda bunları qeyd edirdi: "Neft haqqında ən üst səviyyəli bir kapitalistlə görüşdüm. Mövzunu müzakirə etməyi qəbul edir." Adı keçən kapitalist 1849-cu ildə İngiltərənin Devon bölgəsində anadan olmuş Knox D`Arcy adında bir adam idi. D`Arcy Avstraliyaya köçüb gəlmişdi və orada kiçik bir qəsəbədə vəkilliklə məşğul olurdu. Bir hobbisi vardı - qarşısıalınmaz at yarışı ehtirası. Xarakter etibarilə D`Arcy bəxtini sınaqdan çıxarmağı sevən birisi idi. Bu səbəblə yeni bir macəraya atıldı və bir təşkilat quraraq, illərdən bəri mövcud olan, ancaq işlədilməyən bir qızıl yatağını yenidən fəaliyyətə keçirmək təşəbbüslərinə girişdi. Aparılan araşdırmalar mədənin qızıl ehtiyatının çox zəngin olduğunu ortaya çıxardı. Ötən zaman ərzində D`Arcy İngiltərəyə çox zəngin adam olaraq qayıtdı və orada fövqəladə zəngin adamların yaşadığı həyatı yaşamağa başladı. İlk həyat yoldaşı öldüyü üçün Nina





Boucicault adlı dövrünün çox məşhur və verdiyi dəvətlərlə məşhurlaşan bir qadını ilə ikinci evlilik qurdu. Bu cütlüyün verdiyi dəvətlərə Enrico Caruco belə qatılır və şərqilər söyləyirdi. Londondakı evinin xaricində D`Arcynin daha iki malikanəsi vardı. Ayrıca Epsom at yarışlarında yalnız özünə məxsus bir lojası da vardı ki, bu loja kraliyyətə məxsus olan lojaların eynisi idi. D`Arcynin sərmayədar və macərapərəst olduğu söylənə bilər, ancaq yaxşı bir inzibatçı olmadığı da məlumdur. Bu səbəblə də bir müddətdən sonra sərmayə qoymaq üçün yeni bir iş sahəsi axtarmağa başladı. Əcəm ölkəsi neftinin gələcəyi ona parlaq göründüyü üçün və iş sahəsində bəxtini yenidən sınamaq istədiyindən, sərmayəsini də bu sahəyə yatırmaq istədi. Bu qərarı verən D`Arcy Orta Şərq neft sənayesinin qurucusu olaraq tarixə keçdi.

İranda yüz illərdən bəri neft sızıntısı müşahidə olunmuşdu. Sızıntı kimi toplanan neft, gəmi inşaatında istifadə olunurdu. 1882-1889-cu illərdə bu günkü Röyter Agentliyinin qurucusu olan Baron Julius da İranla iki müqavilə imzalamağa nail oldu. Bu müqavilələr başqa bir çox mövzularla bərabər, İran neftinin inkişaf etdirilməsini də əhatə edirdi. Bu müqavilələrin ikisi də həm İran daxilində, həm də Rusiya imperiyasında böyük etirazlara səbəb oldu. Bu müqavilə ilə neft axtarıb tapmaq üçün aparılan təhlükəli və uğursuz işlər böyük zərərlərə səbəb olmuşdu. Nəticədə hər iki müqavilə də yenilənmədi və onlara son verildi. Bu dəfə 1890-cı illərdə bir fransız geoloqu İranda əhatəli bir araşdırma aparacaq və bu ölkədə çox böyük miqdarda neft ehtiyatlarının olduğunu sübut edən raportlar yayınlayacaqdı. Fransız geoloqun çalışmaları tərəflərcə və xüsusilə də general Kitabgi tərəfindən bilinirdi. Buna görə də Kitabgi vaxt itirmədən D`Arcyni inandırmağa çalışdı və

milyonerə çox parlaq bir təklif etdi. Ona "qiyməti ölçüyə gəlməz dərəcədə böyük bir xəzinə" vəd edirdi. Bu vədlər qarşısında kim laqeyd qala bilərdi? Ancaq əvvəlcə müqavilənin həyata keçirilməsi lazım idi.

1901-ci il mart ayının 25-də D`Arcynin bir təmsilçisi Parisdən yola çıxıb Bakı yoluyla aprelin 16-da Tehrana gəlirdi. İranın paytaxtı olan bu şəhərdə əlaqədar orqanlarla müzakirələrə başlasa da, bu müzakirələr həm yavaş, həm də fasilələrlə davam edirdi. O dərəcədə ki, D`Arcynin təmsilçisi vaxtını daha çox İran xalçaları və suvenirləri satın almaqla keçirirdi. Macəra xəstəsi Antoine Kitabgiyə gəlincə, o da boş durmurdu. O günlərdə İngiltərənin İran səfiri olan Ser Artur Hardinge Kitabgini qəsd edərək bunları yazmışdı: "Kitabgi Şahın nə qədər naziri varsa, hamısının və bundan başqa, bütün əyanların, səhər-səhər Şahın siqarasını və qəhvəsini verən özəl xidmətçilərinə qədər - hər kəsin dəstəyini qazanmışdı."

## Rusiya ilə İngiltərə qarşı-qarşıya

İran tarixi çox uzun bir keçmişə dayanır. Böyük Sirus imperiyası və I Dara zamanında, bizim eradan əvvəl V əsrə qədər Hindistandan başlayıb bu günün müasir Yunanıstanına və Liviyaya qədər uzanan bu ölkə, keçmişdəki kimliyi ilə nə qədər öyünsə, haqqı vardır. Sonradan bu torpaqlarda indi İran kimi qəbul olunan Pers imperiyası quruldu və qısa müddətdə Roma imperiyasının Şərqdəki ən mübahisəsiz və ən böyük rəqibi oldu. Əcəmistan Asiya və Qərb arasında ticarətə çox əlverişli bir körpü halında idi. Bu torpaqlardan dalğa-dalğa bir çox ordular, bir çox millətlər gəlib keçmişdilər və bəzən də burada yerləşmişdilər. Bunlardan bəziləri Qərbdən əsib gələn Böyük





İsgəndər və Şərqdən gələn Çingiz xan və monqollar idi. XVIII əsrin axırlarında hakimiyyət "Qacarlar" adlanan həris və acgöz bir xanədanın əlinə keçdi. Qacarlar bir-biriləri ilə savaşan kiçik qəbilələr və acgöz şahzadələri məğlub edərək, yeni bir xanədan qurmuşdular. Qacar şahları beləcə narahat bir vəziyyətdə 150 ildən çox hökmdarlıqlarını davam etdirdilər. XIX əsrdə istila edilməyə vərdiş etmiş bu ölkə, bir daha özünü kənardan gələn başqa növ bir təzyiqin qarşısında gördü. Rusiya və İngiltərə Qacar şahlarının işğalı altındakı İranda hegemonluğu ələ keçirmək üçün bir-biriləri ilə diplomatik və ticari bir yarışmaya girmişdilər. Qacar şahları vəziyyətdən çıxmaq üçün bu iki super gücü bir-birilərinə qarşı qoymağa çalışdılar.

İngiltərə və Rusiya arasındakı rəqabət İranı super güc diplomatiyasında ən əhəmiyyətli gündəm mövzusuna gətirmişdi. Dövrün Hindistan valisi Lord Gürzon İranı, "üzərində dünya hakimiyyəti üçün oyun oynanan bir şahmat taxtası" olaraq qiymətləndirmişdi. 1860-cı illərdən başlayaraq Rusiya Orta Asiyada amansız bir genişləmə və ilhaq siyasətinə başladı. Rusların hədəfi Orta Asiyanı da ötüb keçmək, qonşu ölkələri öz hegemonluğunun altına alaraq, özünə bu isti iqlimdə bir liman təmin etməkdi. İngiltərənin maraqları baxımından isə, Rusiyanın davam etdirdiyi genişləmə siyasəti Hindistan və Hindistana gedən yollar üçün doğrudan-doğruya bir təhlükə deməkdi. İranın Rusiyanın irəliləməsini təşfiq edəcəyi mənasına gələn hər bir hərəkət, ingilis bir diplomatın 1871-ci ildə söylədiyi kimi, "Hindistanın sığortası üzərinə veriləcək bir növ güzəşt" sayılırdı. Artıq Rusiya bölgənin hər yanında hərəkətə keçmişdi. 1885-ci ildə özüylə İngiltərə arasında haradasa savaşa səbəb olan qonşusu Əfqanıstana hücum etdi.

Əsr bitib yerini yeni bir əsrə tərk etdiyi zaman, Rusiya

İran üzərində təzyiqlərini yoğunlaşdırdı. Bu yeni zorlama qarşısında ingilislər İranı toxunulmazlıq statusunda tutmaq istədilər və bu məqsədlə İrana, Rusiya və Hindistan arasında bir neytrallıq vermənin yolunu axtarmağa başladılar. Ancaq yeni əsrin əvvəllərində İranın artıq rus hegemonluğuna girməsi səbəbilə İngiltərənin bölgədəki vəziyyəti çox kritik olmuşdu. Rusiya İran körfəzində bir dəniz donanması yaratmaq həvəsinə düşmüşdü. İran iqtisadiyyatı isə haradasa tamamilə rus iqtisadiyyatına bağlanmışdı. İngiltərənin İran səfiri Hardingenin deyimi ilə Şah Müzəffər Əl-Din "böyük insan görünüşündə olan kiçik bir uşaqdı." İran monarxiyası isə səfirin sözləri ilə "köhnəlmiş, uzun illər laqeyd yanaşılmış, xaricdən gələn ən sərt faktor hansı isə onun təsiri ilə dərhal yıxılmağa hazır olan bir bina idi. Aşınmış və müdafiəsiz diktatorlar ən yüksək səslə külək hansı səmtdən əsərsə, o səmtə də səs verirdilər." Hardinge bu ən sərt xarici faktorun böyük ehtimalla Rusiya olacağından qorxurdu. Çünki "Şah və onun nazirləri öz hüdudsuz sovurqanlıqları və çılğınlıqları səbəbilə artıq tamamən Rusiyanın "qulu" olmuşdular." Ruslar isə Rusiya-İran münasibətlərinin iqtisadi tərəfini veclərinə də almırdılar. Bir rus məmurun deyimi ilə "7-8 milyon tənbəl, arın-arxayın adamla ticarətə girişmənin nə faydası ola bilərdi ki?" Rusların əsil məqsədləri İran üzərində öz siyasi hegemonluqlarını qurmaq və digər super gücləri sıxışdırıb çıxarmaqdı. Hardingeyə görə, ingilis siyasətinin "ən önəmli hədəfi isə" bu tip diksindirici hücuma qarşı müqavimət göstərməkdi.

Bax bu məqamda D`Arcy və D`Arcynin neft layihəsinin işə yarayacağı düşünüldü. İngiltərənin neft haqqında bağlayacağı bir müqavilə ilə Rusiyaya qarşı əməlli-başlı tarazlıq qurula bilərdi. Bu düşüncə içərisində İngiltərə





təşəbbüsə dəstək verdi. Müqavilənin müzakirəsinin başladığını eşidən rus səfirinin reaksiyası isə sərt oldu. Səfir son dərəcə əsəbiləşərək, tərəflərin işini sabotaj etməyə çalışdı. Bu təşəbbüsündə bir dərəcəyə qədər uğur qazanmış və görüşmələri yavaşlada bilmişdi. Ancaq sonrakı günlərdə D`Arcynin Tehrandakı təmsilçisi masaya 5 min pound daha tullayınca, vəziyyət dəyişdi. Təmsilçisi D`Arcyyə göndərdiyi raportda bunları bildirirdi: "Şah pulun nəğd olaraq dərhal ödənməsini tələb etdi və pulun bir hissəsini almadan da müqaviləni imzalamadı." Ödənən bu əlavə pul öz sehrini göstərmişdi. 28 may 1901-ci ildə Şah Müzəffər Əl-Din tarixi müqaviləni imzaladı. Razılaşma Şaha 20 min pound nəğd, 20 min pound dəyərində də hissə verir, bundan başqa, "illik təmiz qazanc" qarantiya edirdi. Bu son deyim kifayət qədər açıq olmadığından, açıqlanması gərəkirdi. Ancaq irəliki zamanlarda bu ifadənin çox ziddiyyətli və çəkişməli olacağı meydana çıxacaqdı. Bütün bunların qarşılığında D`Arcy altı il qüvvədə olacaq və ölkənin dörddə üçünü əhatə edəcək bir müqavilə əldə edirdi.

D`Arcynin təklif etdiyi müqavilə əvvəlcə Rusiyaya ən yaxın olan beş şimal əyalətini müqavilə xaricində buraxmışdı. Bunu "Rusiyanı şübhələndirməmək" üçün etmişdilər. Ancaq İngiltərə ilə Rusiya arasındakı rəqabət davam edirdi. Ruslar indi də Bakıdan İran körfəzinə qədər uzanacaq bir boru xətti inşa etmək niyyətinə düşmüşdülər. Boru xətti Rusiyanın Hindistan bazarına və Asiyaya ixrac etdiyi neftin miqdarını artıracaqdı. Ancaq bundan da önəmlisi, Rusiyanın İranda, başdan-başa körfəz bölgəsində və Hind Okeanı sahillərindəki strateji nüfuzunu və gücünü gözlər önünə sərəcəkdi. İngiltərə həm Tehranda, həm də Sankt Peterburqda layihəyə şiddətlə qarşı çıxdı.

İngiltərənin Tehran səfiri əlaqədar orqan və şəxsləri xəbərdar etdi. İngilislər boru xəttinin tikintisi üçün bağlanacaq hər hansı bir müqavilənin - boru xətti heç bir zaman gerçəkləşməsə belə - "Cənubi İrana işçilərin, mühəndislərin, kazak əsilli qoruyucuların soxulması üçün bəhanə verəcəyi, bunun da üstü qapalı bir işğal mənasına gələcəyi" görüşündəydi. Nəticədə İngiltərənin etirazı qəbul olundu və boru xətti tikintisindən imtina edildi.

D`Arcynin Tehrandakı təmsilçisi aparılan bazarlıqdan və əldə olunan razılaşmadan çox məmnun qalmışdı. Bu razılaşma sadəcə D`Arcynin işinə yaramaqla qalmır, İngiltərə dövləti baxımından da ticari və siyasi üstünlüklər gətirirdi. Ölkənin İrandakı mövqeyi güclənirdi. İngiltərə Xarici İşlər Nazirliyi bu razılaşmada birbaşa məsuliyyət üstlənməyi rədd etməklə bərabər, D`Arcynin çalışmalarını da diqqətdən kənarda saxlamırdı. Ancaq Hardinge müqavilə imzalanarkən, orada iştirak edən adam kimi vəziyyətdən o qədər də başı bağlı deyildi. İranı bütün siyasi sistemiylə, insanlarıyla, coğrafi və lojistik təlatümləriylə və heç şübhəsiz, keçmişdə imzaladığı müqavilələrə yanaşdığı vəfasız davranışlarıyla çox yaxşı tanıyırdı. Buna görə də ətrafını xəbərdar etdi və tədbirlər təklif elədi. "Neft olsun və ya olmasın, İran torpağı uzun illərdən bu yana ümid bağlanaraq girişilmiş layihələrdə ticari və siyasi yenidən doğuşlara səhnə olan bir torpaqdır. Bu torpaqlardan gələcək gözləmək sadəcə vaxt itkisi olur" deyirdi.

Belə olan halda D`Arcyni bu dərəcədə risqli bir işə - ucqar və sistemi oturuşmamış bu torpaqlarda bu qədər nəhənglikdə neft axtarma macərasına təşfiq edən şey nə idi? Bunun cavabı şübhəsiz ki, bu cür ifadə edilə bilər: misli-bərabəri olmayan bir sərvətə qovuşmaq üçün qarşısıalınmaz bir ehtiras və ikinci bir Rokfeller olma





şansı. Bundan başqa, bu, D`Arcynin oynadığı ilk qumar da deyildi. Daha əvvəl bir dəfə də Avstraliyanın qızıl mədənlərinin üzərində qumar oynamış və çox da uğur qazanmışdı. Ancaq qarşısında onu gözləyən şeylərin tam olaraq hamısından xəbərdar olsaydı, şübhəsiz ki, bu macəradan imtina edərdi. Bu dəfə oynadığı qumar oyunu əvvəlcə Avstraliya qızıl mədənlərində oynadığı oyundan daha böyük miqyaslı idi və təxmin edilən saydan daha yüklü və amansız oyunçuların rol aldığı bir macəraydı. Bundan başqa, siyasi və ictimai əks-sədalarıyla da Avstraliya hadisəsi ilə müqayisədə daha mürəkkəb və qarmaqarışıqdı. Qısa söyləmək mümkünsə, bu işi ağıla və məntiqə uyğun bir təşəbbüs hesab etmək olmazdı. Çəkiləcək xərclər üçün göstərilən təxmin raportları belə sağlam deyildi və həqiqətdə olduğundan daha kiçik rəqəmlərlə ifadə edilmişdi. İşin əvvəlində D`Arcyyə verilən məlumatda iki neft quyusu açmağın 10 min pounda başa gələcəyi söylənsə də, iki il ərzində iki quyunun maliyyəti 200 min poundu aşmış, D`Arcynin cibləri bomboş boşalmışdı.

## İlk təşəbbüs

D`Arcynin heç bir təşkilatı, heç bir şirkəti yox idi. Sadəcə iş yazışmalarını tənzimləyən bir katibi vardı. İranda işlərin yerində icra olunması, bir yerdə mərkəzləşməsi üçün Kraliyyət Mühəndislik Kollecinin məzunu olan və bir zamanlar Sumatrada qazıntı işlərində çalışan Corc Reynolds adlı bir adam tapdılar. Neft axtarılacaq ilk bölgə kimi İranın şimal-qərbində dağlar içində yerləşən və haradasa əlçatmaz bir bölgə - Şah Surkh bölgəsi seçilmişdi. Bura indi İran-İraq sərhəddi olan, Bağdada Tehrandan daha yaxın, İran Körfəzinə 300 mil uzaqlıqdakı bir yerdir.

Bu bölgə düşmənçilik hissləri bəsləyən insanlarla doluydu və bütün ölkədəki yolların uzunluğu 800 mil uzunluqda idi. Bölgənin böyük hissəsi döyüşçü dəstələrin nəzarətində idi və bu dəstələr İranın imzaladığı müqavilələr bir tərəfə, Tehran hakimiyyətinin özünü belə tanımırdılar. Başıpozuqluq o həddə çatmışdı ki, İran ordusundakı komandirlər əmrləri altındakı əsgərləri bağban və ya qara fəhlə kimi bölgədəki ərazi sahiblərinə kirayəyə verir, əvəzində aldıqları pulu olduğu kimi ciblərinə qoyurdular.

Bölgə xalqı texniki məlumatlardan tamamilə məhrumdu. Əslində bölgə mədəniyyətində Qərb mədəniyyətinə və əcnəbilərə qarşı bəslənən düşmənçilik hissləri daha şiddətli idi. Qərbdən gələn bütün fikir və texnologiyalara tamamən qapalıydılar. İngilis səfiri şiə məzhəbinin ifratçılığa meyl edən dini hisslərini, istər xristian, istər müsəlman olsun siyasi avtoritetə qarşı barışmazlığını, kənar dünyadan gələn hər cür cərəyana qarşı göstərdiyi şiddətli müqaviməti xatirələrində detallı bir şəkildə işləmişdi. Onun yazdığına görə, "şiələrin ilk dörd xəlifəyə bəslədikləri nifrət o dərəcədə şiddətli idi ki, - bu gün də elədir - bu məzhəbə bağlı olub ifratçılığa meyl edənlərdən bəziləri cənnətə girişlərini sürətləndirmək üçün zaman-zaman bu xəlifələrin - xüsusilə də Məkkədə şiələrin bütün nifrətini üzərində toplamış xəlifə Ömərin - məzarlarına çirkin hücumlar etmişdilər. Bu halın qarşısı "Ketman" doktrinası ilə alındı... "Ketman" doktrinası həqiqətən müqəddəs bir məqsəd naminə yaxşı bir müsəlmanın tərs bir hadisəni görməzlikdən gəlməsinə, hətta yalan söyləməsinə rəvac verir." Bunları xatirələrində yazan Hardinge, yazının sonunda şiə-sünni qarşıdurmasına və şiələrin İran siyasi sistemindəki nüfuzuna bu qədər çox yer verdiyi üçün üzr istəyir. "Bu mövzunun üzərində bəlkə bir az çox durdum, amma işə yaradı. Zənn edirəm





ki, hələ də yarayır, çünki bu yazı İran siyasəti və düşüncə tərzində əhəmiyyətli bir rol oynadı" demişdi.

Corc Reynolds və qrupunu gözləyən iş böyük cəsarət istəyirdi. Lazım olan ləvazimatın hər parçası bir-bir Körfəzdən Bəsrəyə gətiriləcək, sonra gəmilərlə 300 mil məsafə qət edilərək Tigrisdən Bağdada göndəriləcəkdi. Daha sonra insanlara və qatırlara yüklənərək, Mesopotomiya Vadisi üzərindən dağlar arasından keçiriləcəkdi. Ləvazimat lazım olan yerə çatdırıldıqdan sonra işlər yenə də bitmirdi. Bu dəfə də Reynolds, polşalı, kanadalı və bakılı azərilərdən təşkil olunan qrupla parçaları montaj etmə və onu işə salma prosedurası ilə məşğul olmalı idi. Bütün bunlar işləri gözlərində böyüdürdü. Xüsusilə azərilər üçün belə idi. Çünki onların gözlərində tək təkərli əl arabasının ortaya çıxışı belə heyranlıqla qarşılanan böyük bir kəşf idi!

Londonda olan D`Arcy işlərin kifayət qədər sürətli getməməsindən şikayətçi idi. "Gecikməyimiz çox ciddidir. Xahiş edirəm, işləri sürətləndirin" deyə 1902-ci ilin aprelində Corc Reynoldsa teleqraf göndərdi. Ancaq hansı tədbir görülürsə-görülsün, hər gün bir səbəbdən gecikmə baş verirdi və bu, qaçınılmazdı. İşin qazıntı mərhələsinə ancaq 6 ay sonra, 1902-ci ilin axırlarında başlanıldı. Əşyalar qırılır, min cür əyər-əskiklər ortaya çıxır, ağcaqanadlar adamın canını boğazına yığırdı. Bir tərəfdən də hər zaman qida və ehtiyat materiallar problemi vardı. Kəsəsi, ümumi iş şəraiti son dərəcə bərbad və bezdirici idi. Çox vaxt işçi çadırlarında istiliyin dərəcəsi 50 dərəcəyə qədər qalxırdı.

Bir də siyasətin gətirdiyi problemlər vardı... Bu iş yerində xüsusi olaraq bir də "islam mətbəxi" hazırlamaq lazımdı. Çünki bölgənin öndə gələn şəxsiyyətləri tez-tez ziyarətə gələrək, Reynoldsun sözlərinə görə "onlardan

ciddi məbləğ hesab olunacaq ərməğanlar umurdular." Bu ərməğanlar, xüsusilə şirkətə aid olan hissə sənədləri idi. Reynolds hər şeydən əvvəl, birinci dərəcə super bir diplomat olmaq məcburiyyətindəydi. Çünki bölgədəki müxtəlif qəbilələr arasındakı mənasız qan davaları ilə, açıq-aşkar nəzərə çarpan müharibə təhlükələri ilə qarşılaşmaması üçün buna ehtiyacı vardı. Yanındakı kiçik mühafizə qrupu şiələrin törədəcəkləri təhlükələrə qarşı hər an hazır vəziyyətdəydilər. Reynoldsun köməkçisi D`Arcyyə göndərdiyi xəbərdarlıqda bunları söyləyir: "Şimaldakı mollalar xalqı bacardıqları qədər əcnəbilərin üstünə salmaq üçün qızışdırırlar. İndi əsil qovğa dövlət işlərində nəzarəti əlində saxlamaq istəyən Şahla mollalar arasında başladı."

### "Hər kisənin bir limiti var"

Bu dərəcə əlverişsiz şərtlər altında belə, işlər davam etdi və 1903-cü ilin oktyabr ayında - qazıntı işlərinin başladığı tarixdən 11 ay sonra - ilk neft sızıntısına rastlanmağa başladı. Ancaq D`Arcy özünü təxmin etdiyindən daha çətin, daha bahalı və ağır şərtlərin içində gördü. Artıq təşəbbüsün hər mərhələsində maliyyə mübarizəsi aparırdı. 1903-cü ildəki raportunda tərəddüdünü bu cür ifadə edirdi: "Hər kəsin bir limiti var. Mən öz kisəmin limitini yaxşı bilirəm." Ancaq xərcləri artdıqca vəziyyətdən çıxa bilməyəcəyini, ona görə də dəstəyə ehtiyacı olduğunu başa düşürdü. Yoxsa bağladığı müqavilə heç bir şeyə yaramayacaqdı.

D`Arcy kredit almaq üçün İngiltərə Dəniz Donanmasına müraciət elədi. Kredit götürmək fikri ona aid deyildi. Bu fikir birinci dünya müharibəsindən əvvəl ingilis neft





siyasətinə möhürünü vurmuş Tomas Bouerton Redvooddan gəlmişdi. Redvood əsrin ilk 20 ilində beynəlxalq neft proseslərinin içərisində fövqəladə nüfuza malik bir şəxsiyyət idi. Çox səliqəli geyim-gecimi ilə və yaxasına taxdığı yaxalığıyla Redvood tez-tez dövrün çox yaraşıqlı, öndə gələn bir aktyoru ilə qarışdırılır, bundan da ləzzət alırdı. Redvood neft işinin müxtəlif sahələrində bir çox işlərlə məşğul olmuşdu. Kimyagər olaraq yetişdirildiyi üçün, neftayırma işində sonradan çox qiymətli olduğu ortaya çıxan bir patent almışdı. 1896-cı ildə dərc olunan "A Treatise on Petroleum" (Neft haqqında) adlı kitabı üst-üstə bir neçə dəfə yayınlanmış, gələcək 20 illik müddətdə əhəmiyyətli bir əsər olaraq yerini qorumuşdur. Ötən əsrin qovuşuğunda Redvood neft sahəsində İngiltərənin ən öndə gələn neft mütəxəssisi olmuşdu. Qurduğu məsləhətləşmə firması İngiltərədəki neft şirkətlərinin haradasa hamısının gəlib-getdiyi yer idi. D`Arcy də bu adamların arasındaydı. Bundan başqa, Redvood həm də İngiltərə hökumətinə kənardan görüş bildirən bir neft mütəxəssisi idi. Redvood Kraliyyət Donanmasında kömür yerinə mazot istifadə edilməsinin tərəfdarı idi, həm də Standard Oila və Shellə etibarı yoxdu. İngilislərin nəzarəti altında olan ingilis qaynaqlarındakı neft ehtiyatlarının ingilislər tərəfindən çıxarılmasını istəyirdi.

Kraliyyət Donanmasında bir Fuel Oil Komissiyası vardı və Redvood bu komissiyanın üzvüydü. Redvood D`Arcynin bağladığı müqavilənin mahiyyətini və D`Arcynin üzləşdiyi çətinlikləri bilirdi. Əslində Redvoodun D`Arcynin atdığı hər addımdan xəbəri vardı. Çünki ona hər mərhələdə məsləhət vermişdi və indi də onu Fuel Oil Komissiyasının qarşısına çıxarırdı. Komissiyanın sədri D`Arcyyə kredit üçün müraciət etməsini təklif etdi. D`Arcy müraciət ərizəsində qarşı-qarşıya qaldığı maliyyə

çətinliklərinin qısaca xülasəsini verir, qazıntı işlərinə başladığı gündən o günə qədər 160.000 pound xərcləndiyini bildirir və indən sonra ən az 120.000 pounda ehtiyac olduğunu söyləyirdi. Kredit üçün etdiyi müraciətin təsdiqlənəcəyi bildirildiyində, ona bir muştuluq da verilirdi. Donanmanın mazotdan istifadə edəcəyini təklif edən bir müqavilə layihəsi də hazırlamalıydı. Bu müqavilə həm donanma, həm də Xarici İşlər Nazirliyi tərəfindən dəstəklənsə də, Maliyyə Naziri Austen Çemberlin tərəfindən rədd edildi. Çemberlin Nümayəndələr Palatasının bu cür bir kredit təklifini qəbul etməsinin mümkünsüz olduğu görüşündəydi.

D`Arcy indi əlacsız vəziyyətdə qalmışdı. Kreditin rədd edilməsindən sonra yazdığı bir məktubda bunları deyirdi: "Artıq bankı daha artıq susdura bilmərəm, bunun üçün əlimdən gələni etdim. Mütləq bir çıxış yolu tapmaq lazımdır." 1903-cü ilin sonuna qədər Lıoyds Bankından çəkdiyi əlavə pul qarşılığında təminat olaraq banka Avstraliyadakı qızıl yataqları hissəsindən bir qismini verməyə məcbur edildi. Ancaq 1904-cü ilin yanvar ayının ortalarında yenidən bir ümid işığı göründü. Şah Surkhdakı ikinci quyu məhsul verməyə başlamışdı. Sevinc içindəki D`Arcy bu hadisəni bu sözlərlə qarşılayırdı: "İrandan çox möhtəşəm bir xəbər var." Öz şəxsi düşüncələrini də səmimi olaraq əks etdirib əlavə etmişdi: "Bu, mənim üçün qurtuluş deməkdir." Ancaq neft tapılsın, ya da tapılmasın, işin davam etməsi üçün daha on minlərlə, bəlkə də yüz minlərlə pounda ehtiyac vardı və nə yazıq ki, D`Arcynin əlində bunu qarşılayacaq qədər pul yox idi.

Yeni sərmayədarlar axtarışına çıxan D`Arcy, İosif Lyons və şəriklərindən kredit almağa çalışsa da, buna nail ola bilmədi. Standard Oila da müraciət etdi. Bir neçə ay da beləcə süründürüləndən sonra, bu dəfə Baron Alphonse də





Rotşildi görmək üçün Cannesə getdi. Ancaq Rotşildlər "Asiya Neft" adı altında birləşmiş Shell və Hollandiya Kraliyyətin işləri ilə kifayət qədər məşğul olduqlarını, bundan artığını qaldırmağa gücləri çatmayacağı səbəbini irəli sürərək, kredit vermədilər. İşlər də bir az tərs getməyə başlamışdı elə bil. Quyular getdikcə daha az məhsul verməyə başlamışdılar. Nəticədə Boverton quyularda istehsalın tamamən dayandığını bildirdi. Artıq quyuların heç bir zaman çəkilmiş xərcləri qaytarmayacağı və bunların bağlanmasının lazım olduğu ortaya çıxmışdı. Çəkilən xərclər cəhənnəm, bu qədər təşəbbüs və sərf olunan əmək də uçub getmiş, bütün ümidlər İranın cənub-qərbində yerləşən quyulara qalmışdı. 1904-cü ilin aprel ayında D`Arcynin banka olan borcu daha da artdı. Bank təminat olaraq bu dəfə müqavilənin özünü tələb edirdi. Beləliklə, İran macərası başladığı tarixdən 3 il belə keçməmiş, uçurumun kənarına gəlmiş, çöküş mərhələsinə girmişdi.

## Vətənpərvərlər birliyi

İngilis hökumətində D`Arcynin müqaviləni əcnəbilərə satmağa məcbur olmasından və ya onu tamamilə əldən çıxarmasından qorxan insanlar vardı. Bunları maraqlandıran əsas şey böyük strategiya və ali siyasət problemləri və Super Güclərə nisbətdə İngiltərənin hansı vəziyyətdə olduğu məsələsiydi. Xarici İşlər Nazirliyi baxımından isə üzərində durulması vacib olan problem, Rusiyanın genişləmə siyasəti və Hindistanın təhlükəsizliyi idi. 1903-cü ilin may ayında Xarici İşlər Naziri Lord Landsdovne Lordlar Palatasında ayağa qalxıb, tarixi bir çıxış elədi. Bu çıxışının əsas məqamları bunlar idi: "İngiltərə hökuməti İran Körfəzində özündən başqa heç bir gücün dənizdə baza

yaratmasına və ya liman qurmasına icazə verməyəcək və bu cür bir hadisə baş verəcəksə, onu öz maraqlarına yönəldilmiş mənfur bir hərəkət sayacaqdır. Bu baxımdan, bu tip təşəbbüslərə əlimizdəki bütün imkanları səfərbər edərək əngəl olmalıyıq." Bu bəyanatdan hədsiz sevincə qapılan Hindistan Baş Valisi Lord Gürzon, haqqında söhbət gedən deklorasiyadan "Bizim Orta Şərqdəki Monroe Doktrinamız" deyə bəhs edər. Hərbi Dəniz Donanmasının komandanlığı isə bəyanatı daha konkret əlamətlərlə şərh edərək, bunun İngiltərənin dəniz donanması baxımından mazot alımında təhlükəsiz bir təminat mənasına gəldiyini açıqladı. Kraliyyət Donanmasının döyünən ürəyi sayılan savaş gəmiləri o günə qədər yanacaq kimi kömürdən istifadə etmişdi. Fuel Oil sadəcə kiçik pərvanəli gəmilərdə istifadə olunurdu. Bu kiçik gəmilərin mazota bağlılıqları belə əlaqədar çevrələrdə tərəddüdə yol açır, "əcəba, dünyada İngiltərənin ən böyük gücü olan donanmanın ehtiyaclarını qarşılayacaq miqdarda mazot varmı, yoxmu" sualını meydana çıxarırdı. Dəniz Donanmasının mənsubları içində donanmada kömür yerinə neftdən istifadə olunmasının tərəfdarı olanlar belə, neftin bir müddət daha sadəcə "əlavə yanacaq" olaraq saxlanılmasını, "yeganə yanacaq" kimi istifadənin isə daha böyük və daha etibarlı qaynaqlar tapılana qədər ertələnməsini istəyirdilər. Ümumi qənaətə görə, bu qaynaq İrandı və buna görə də D`Arcynin planı dəstəklənməliydi.

İndi vəziyyət dəyişmişdi. Artıq Xarici İşlər Nazirliyi Maliyyə Nazirliyinin D`Arcynin kredit müraciətindəki hərəkətlərini həddindən artıq qısa vədəli hesab edirdi. Nazir Lord Landsdovne də vaxt itirmədən tərəddüdlər içərisində bu sözləri söyləyirdi: "İrandakı bütün neft qaynaqlarının və sözügedən müqavilənin rusların nəzarətinə





keçmə təhlükəsi vardır." İngiltərənin Tehran səfiri Harding də bu görüşü təsdiqləyərək, rusların böyük ehtimalla müqavilənin nəzarətini ələ ala biləcəyi və ona əsaslanaraq genişləməsini daha da intensivləşdirəcəyi haqqında əlaqədar orqanları xəbərdar edir və bunun qorxunc nəticələr doğura biləcəyini söyləyirdi. Müqavilə ilk forması ilə nəzarətin böyük hissəsini İngiltərəyə verirdi. İndi Harding müqavilənin eynilə qorunmasını, nəyin bahasına olursa-olsun, böyük nəzarətin mütləq İngiltərədə qalma tezisini müdafiə edirdi.

Şübhə və tərəddüdlərin tək səbəbi ruslar deyildi. D`Arcynin Cannesə getməsi, orada Rotşildlərlə görüşməsi də təhlükə hesab olunurdu. Birdən müqavilə fransızların əlinə keçsəydi? Bax bu tərəddüdlər içərisində İngiltərə Hərbi Dəniz Donanmasının komandanlığı ikinci dəfə hərəkətə keçərək, Fuel Oil Komissiyası ilə əlaqə yaratdı. Komissiya sədri təcili olaraq D`Arcyni axtarıb, ondan bir xahiş etdi. Komissiya sədri D`Arcydən, əcnəbilərə aid təsislər haqqında hər hansı bir bazarlığa girişməkdən əvvəl, Kraliyyət Donanmasının bu işin həlli yolunu tapmaq üçün milli bir birlik yaratmasına icazə verməsini istədi. Bundan başqa, pul məsələsində də ondan başqa bir şey tələb olunmayacağını, sadəcə 50 min pound sərmayə istənəcəyinə söz verilmişdi. Strathcona nəhayət, təklifi qəbul etdi və səbəb olaraq, ticari qazanc güdmədiyini, sadəcə "imperiyaya "kömək"" etdiyini vurğuladı.

İndi artıq komandanlığın qarşısında bir hədəf vardı. Amma bir şey aydın deyildi, bazarlığı kiminlə aparacaqdı? Bunun "Burma Neft (Burma Oil)" olmasına qərar verildi. Uzaq Şərqdəki ticarət evlərinin bir uzantısı olan bu firma 1886-cı ildə Glasgovda şotlandiyalı tacirlər tərəfindən qurulmuşdu. Burmalı kəndlilərin topladığı işlənməmiş

neft qalıqlarını Rangoondakı neftayırma müəssisəsində ticari məhsula çevirir, sonra da onu Hindistandakı bazarlarında satardı. 1904-cü ildə komandanlıq bu firmayla müvəqqəti bir müqavilə imzaladı. Dəniz Donanması bunu Burmanın 1885-ci ildə Hindistana birləşdirildiyini bildiyi və bu baxımdan da şirkətə etibarlı bir qaynaq gözüylə baxıldığına görə imzalamışdı. Ancaq "Burma Neft"in şotlandiyalı müdirləri bu haqda da tərəddüd içərisindəydilər. Burmadakı neft mənbələrinin kifayət etməyəcəyindən, İranda neftin inkişaf edib Hind bazarlarına çıxarıla bilməyəcəyindən, bol miqdarda ucuz qazyağı istehsalını təmin edə bilməyəcəklərindən qorxurdular. Bu tərəddüdlər içərisində komandanlığın irad etdiyi çıxışları dinləməyə etiraz etmirdilər.

Neft üzrə məsləhətçi olan Boverton Redvood bu işdə vasitəçilik missiyası üstləndi. Redvood həm D`Arcynin, həm də "Burma Neft"in məsləhətçisi idi. Buna görə də "Burma Neft"in müdirlərinə İranın zəngin neft yataqlarına sahib olduğunu, bunun yaxında sübut olunacağını, dolayısı ilə iki şirkət arasında gerçəkləşdiriləcək bir evliliyin hər iki tərəf üçün də çox faydalı olacağını söylədi. Bir tərəfdə də komandanlıq İran müqaviləsinin "ingilislərin əlində olmasının vacibliyini, bunun xüsusilə ingilis donanmasının gələcəkdəki neft ehtiyacının qarşılanması üçün şərt olduğunu" vurğulayırdı. Ancaq şotlandiyalı tacirlər ehtiyatı əldən vermir, öz düşüncələrinə görə, həm hər hansı bir şəkildə öhdəçilik götürmədən müzakirələri aparır, həm də bir elə də tələsmirdilər. Soruşmaq istədikləri bir neçə praktik sual vardı, o qədər. Bunlardan ən əhəmiyyətlisi "əcəba, İran İngiltərənin himayəsində sayıla bilərmi" sualıydı. Bu sualın cavabını Xarici İşlər Nazirliyi Hərbi Dəniz Donanmasının təzyiqləri ilə cavablandırdı və İranın öz





himayələrində olduğu haqqında təminat verdi. Bir başqa tərəfdən, D`Arcy tələsir, müzakirələrin sürətləndirilməsini istəyirdi. Bu yolda hər şeyə hazırdı. Hətta Burmanın sədr müavinini, Epsom yarışlarını seyr etməsi üçün öz şəxsi lojasına belə dəvət etmişdi. Burada göstərilən xidmətlər, təqdim olunan ağır və bahalı yeyəcək və içəcəklər sədr müavininin mədəsini xarab etdiyindən, düz bir həftə içində dörd dəfə xəstələnib kusduğu söylənilirdi. Rəvayətə görə, sədr müavini o gündən sonra D`Arcynin at yarışına tamaşa etmək təkliflərinin heç birini qəbul etməmişdi.

Bu arada komandanlıq D`Arcynin köməyinə çatması üçün "Burma Neft"ə göstərdiyi təzyiqi artırırdı. Əslində "Burma Neft" də iki baxımdan komandanlığa möhtacdı. Bunlardan biri tam o zamanlara təsadüf edən və bütün incəliklərinə qədər müzakirə olunan mazot müqavilələri, digəri isə Hindistandakı bazarlarının qorunmasında onlara donanmanın yardım etməsi idi. Nəhayət, 1905-ci ildə müqavilənin Tehranda Şah tərəfindən imzalanmasından tam 4 il sonra D`Arcy ilə "Burma Neft" arasında bir müqavilə imzalandı. Bu müqaviləyə görə "Anlaşma Sindikatı" deyilən bir birlik yaradılır, D`Arcynin müəssisələri tam bağımlı şirkətə çevrilir və yeni şirkətin başına da D`Arcy gətirilirdi. Bu razılaşma praktikada "Burma Neft"i çox özəl bir sərmayədara çevirirdi, çünki həm yeni qurulan təsisə təzə kapital verəcəkdi, həm də idarəetmə və təcrübə baxımından şirkətə yardımçı olacaqdı. Əlində başqa bir alternativ olmadığından, D`Arcy bu təklifi qəbul etmək məcburiyyətindəydi. Vacib olan girişdiyi macərada vəziyyətdən çıxış yolu tapmaqdı və qənaətincə, buna da nail olmuşdu. Heç olmasa, indi neft axtarma fəaliyyətlərini davam etdirə bilərdi. Bir tərəfdən də bəlkə bu razılaşma ilə itirdiyi pullarını geri qaytara biləcəyini düşünürdü.

Razılaşmanın həyata keçirilməsində rol oynayan vasitəçilər də vəziyyətdən məmnun idilər. Bir "Burma Neft" yazarının sözləri ilə "bu razılaşmada D`Arcynin arzuları Xarici İşlər Nazirliyinin və komandanlığın arzuları ilə tam bir paralellik göstərmişdi." Xatırlanacağı kimi, müqavilə imzalanmadan əvvəl Xarici İşlər Nazirliyi Hindistana uzanan yollar, komandanlıq da etibarlı mazot təmini mövzularında bir xeyli narahat idilər. Beləliklə, İranda "qazanc" və "siyasət" bir-birindən ayrılmaz şəkildə bir-biri ilə iç-içə girmişdi.

## Atəş məbədi: Məscidi Süleyman

"Anlaşma Birliyi"nin qurulmasından sonra neft arama fəaliyyətlərinin yeri dəyişdi və İranın cənub-qərbinə yönəldi. Quyu açma işləri Corc Reynoldsun nəzarətində Şah Surkh Vadisində aparılırdı. Çalışmaq üçün qurulmuş kamplar bağlanmışdı və bəziləri 40 ton ağırlığındakı vasitələrlə yenidən sökülmüş halda təkrar yüklənib geriyə - Bağdada daşınırdı. Bağdada gedərkən, Tigrisdən yenidən Bəsrəyə gəlməsi, sonra da oradan gəmilərə yüklənərək, İranın Məhəmmerad sahəsinə aparılması lazım idi. Bu əşyalar ən sonunda çay yolu ilə və ya sayıları 900-ü keçən qatırların üstündə yeni müəyyən olunan və neft olduğu məlum olan bölgələrə göndərilirdi. İlk qazıntı işləri Shardində başlamışdı.

Ancaq başqa yerlərdə də daha çox neft potensialı olduğuna dair əlamətlərə rastlanmışdı. Bura Meydani Naftan (Naftan Meydanı) adlanan yerdəki "Neft Vadisi" idi. Neftin tam olaraq mövcud olduğu və artıq müəyyənləşdiyi yer isə, adını yaxınlıqdakı bir məbəddən alan Məscidi Süleyman idi. Reynolds yolu belə olmayan bu bölgəyə ilk





gedişində bir xeyli dolambaclı yerlərdən keçmək məcburiyyətində qalmışdı. 1903-cü ilin noyabr ayının axırlarında Reynolds İngiltərəyə qayıtmaq qərarını vermiş, bunun üçün lazım olan işləri görmək üçün Küveytə getmişdi. D`Arcynin İran macərasında başına gələnləri və qarşılaşdığı maliyyə problemlərini bildiyindən, əhvalı çox pozulmuşdu. Buna görə də dərhal əşyalarını toplayıb yola çıxmaq qərarını vermişdi. Elə o əsnada Küveytdə Louis Dane adında bir ingilis məmurla tanış oldu. Reynolds bu adamla tanış olandan sonra, onun israrlı təkidi və Lord Gürzonun da dəstəyi ilə Meydani Naftaya getdi. Dane ona "bəlkə də milli baxımdan çox böyük fayda gətirəcəyi bu cür əhəmiyyətli bir işdən imtina etməyin yazıq olacağını" təlqin etmişdi. Reynolds bu quş uçmayan bölgəyə 1904-cü ilin fevral ayında ayaq basdı. Dərhal yazdığı raportda qayaların neftlə dolu olduğunu bildirirdi. İndi - 1906-cı ildə Məscidi Süleymana bu dəfəki qayıdışında əvvəlkindən daha bariz görünən bəzi neft əlamətlərinə rast gəlmişdi. Boverton Redvood Reynoldsun raportunu oxuyanda çox sevinmiş, bu raportun o günə qədərkilər arasında ən əhəmiyyətli və gələcək üçün ən çox şey vəd edən məlumatlar ehtiva etdiyini söyləmişdi.

Məscidi Süleymanda işlər çox çətin və yorucu gedirdi. Reynoldsun Glasgovdakı burmalı idarəçilərə zarafatla söylədiyi kimi "həyat sadəcə zövqi-səfadan ibarət deyildi." Suların mikroblu olması, hətta Reynoldsun dediyi kimi "içində hər cür zibilliyin tüğyan etdiyi" səbəbilə tez-tez yoluxucu xəstəliklər müşahidə olunur, işlərdə fasilələr verilirdi. Reynolds bir raportunda beləcə də deyir: "buralarda istifadə olunan qida maddələri adamı xəstə edir. Buna görə də sağlamlığını qorumaq istəyən adamın ağzında mütləq təbii və ya süni dişlərin olması şərtdir."

Rəhbərlik bu problemi diqqətə almışdı. Bir gün müəyyən bir vəzifə daşıyıb, sonradan bölgəyə göndərilən birisinin diş ağrısı başladığında, adam günlərlə dözülməz ağrılar yaşamışdı. Ən yaxın diş həkimi 1.500 mil uzaqlıqda yerləşən Karaçidəydi. Amma nə yazıq ki, bunu bilmək dişi ağrıyan adamın işinə yaramamışdı. Seks ehtiraslarını təmin etmək üçün fəhlələr işlədikləri yerə daha yaxın, Bəsrədən 150 mil uzaqlıqdakı bir yerə gedir, sonra da nəzakət xatirinə "diş həkiminin yanına" getdiklərini söyləyirdilər.

Bölgədə hər şeyi nizamlayan, başını-gözünü toplayan adam Corc Reynolds idi. 1901-ci ilin sentyabr ayında İrana ilk gəldiyi zaman 50 yaşlarında olan Reynolds, bu fövqəladə çətin vəzifənin, bitib-tükənmək bilməyən mənfi şərtlər altında öhdəsindən layiqincə gələ bilmişdi. Bölgədə həm mühəndis, həm geoloq, inzibatçı, bölgə təmsilçisi, diplomat, linqvist, həm də antropoloq olaraq fəaliyyət göstərir, bu işlərin hamısını hər gün bir yerdə yerinə yetirirdi. Əlavə olaraq, o günkü şərtlərdə çox işə yarayan bir qabiliyyəti daha vardı: dəzgahların hissələri qırılanda, ya da itəndə təmirçi rolunu da üstlənirdi. Az danışan, çətin və tutarlı bir insandı. İşi buraxmaq və dayandırmaq üçün ortada - xəstəliklərdən qəsb hadisələrinə, texniki nasazlıqlar, qorxunc isti və amansız küləklərdən bitib-tükənməz xəyal qırıqlıqlarına qədər - bir yığın səbəblər olduğu halda, işlər Reynoldsun əzm və inadkar səbri sayəsində davam edə bilmişdi. Bölgədə mühafizəçi olaraq çalışan mühafizə qrupunun çavuşu Vilson, Reynoldsu bu sözlərlə xarakterizə edər: "Müzakirələrdə vüqarlı, hərəkətlərində sürətli və çevik, neft axtarma işində əzmli və bildiyini edən, sağlam ingilis meşəsi kimi bir adam."

Reynolds eyni zamanda başqalarını işlətməyi də bilirdi. Adamlarının "əyyaşlar" kimi yox, "normal məxluqlar"





kimi hərəkət etmələrini istəyərdi. Onlara qətiyyətlə iranlı qadınların "ölçünü qaçıran" qadınlar olduğunu söyləyər, nə demək istədiyini başa düşmələrini gözləyərdi. Ancaq onu həyatından bezdirən və canını boğazına yığan nə çöllərdi, nə də bölgədəki qövmlər. Onun əsil bəlası bir gün sözündən dönəcəyindən qorxduğu "Burma Neft"di. Glasgovdakı səlahiyyətlilərsə Reynoldsun nə dərəcədə çətin və əlverişsiz şərtlər altında fəaliyyət göstərdiyini başa düşməkdən uzaq idilər. Ona sualı sual dalınca yağdırır, qərarlarını şübhəylə qarşılayıb, qarşı çıxırdılar. Reynolds bunlara əsəbiləşir, çox da nəzakətli olmayan acı bir istehzayla reaksiya göstərirdi. Şotlandiyaya göndərdiyi həftəlik raportlarda bunları mütəmadi izah edirdi. Glasgovda birlikdə işlədiyi adama "baş ağrısından əziyyət çəkən əhli-kef bir Zərdüştü və ya spirtli içkilərə aludə olan bir qazmaçını necə idarə edəcəyimi öyrətməklə məni güldürürsünüz" dediyi söylənir. Ancaq bu nifrət eynilə qarşı tərəfdə də vardı. Yeri gəlmişkən, glasgovlu rəhbərlərdən biri Reynoldsu nəzərdə tutaraq, "bu adamı anlatmaq üçün istifadə etmək istədiyim kəlmələri yazı makinam yaza bilməz" demişdi.

## Tehranda üsyan

Reynoldsun uğur qazanmasını çətinləşdirən faktorlar sadəcə fiziki çətinliklərdən və o ucqar bölgəyə qapanıb qalmasından irəli gəlmirdi. Şah hökumətinin artıq tam bir tənəzzül içərisində olması və əcnəbilərə verilən imtiyazlar, siyasi sahədə əməlli-başlı problemə çevrilmişdi. Şah rejiminə qarşı mübarizə aparan mühafizəkar və ipə-sapa yatmayan qüvvələr zülmə qarşı girişilən mübarizədə liderliyi ələ almışdılar. Bunlar tacirlərlə və liberal islahatlar

tələb edən qüvvələrlə birləşdilər. 1906-cı ilin iyul ayında hökumət xalqın iztirabının əsas mənbəyi olaraq "kraliyyət xanədanının ifrat lüksünü, dini qrupları və əcnəbiləri göstərən" tanınmış bir xadimi həbs etdi. Üsyançılar Tehranda minlərlə iranlını həbsxanaya atdılar, mollalara atəş açdılar. Bazarlar bağlandı. Paytaxtı başdan-başa ümumi tətil dalğası bürüdü. Sayları 14 min olduğu təxmin edilən, əksəriyyəti bazarlardan gələn böyük bir qələbəlik ingilis səfirliyinin bağçasına sığınmaq məcburiyyətində qaldı. Nəticədə Şah rejimi süquta uğrayır, yeni bir Konstitusiya hazırlanır və yeni bir məclis qurulurdu. Məclisin gündəliyindəki ilk məsələ əcnəbilərə tanınan imtiyazlar haqqında istintaqın başlanması oldu. Ancaq bütün bunlara baxmayaraq, yeni qurulan siyasi sistemin tutarlı olmadığı və paytaxtdan kənarda avtoritetinin çox zəif olduğu zamanla ortaya çıxmağa başladı.

Bunlardan daha çox əzab-əziyyət verən başqa bir baş ağrısı da yerli idarəetmə qurumları idi. Neftin yeni qazıntı sahəsi İranın ən güclü qəbiləsinin yaşadığı və İranın söz keçirə bilmədiyi Bəxtiyarilərə aid olan qış yaylaqlarıydı. Köçkün olan Bəxtiyarilər qoyun və keçi sürüləri saxlayar və onlardan qidalanar, keçi tükündən qurulmuş çadırlarda yaşayardılar. 1905-ci ildə Reynolds Bəxtiyarilərin bəziləri ilə bir müqavilə imzaladı. Müqavilənin şərtlərinə görə, Bəxtiyarilər yüksək maaş və "qazanc"dan hissə almaq qarşılığında, qazıntı aparılacaq torpaqlarda mühafizə dəstələri saxlayacaq və asayişi qoruyacaqdılar. Amma işin əslində məsələ elə Bəxtiyarilərdən qorunmaq idi. Bu müqavilə bitib-tükənmək bilməyən gərginlik və Bəxtiyarilərin qəsbkar olmaları səbəbilə qısa zamanda pozuldu. Reynolds bu Bəxtiyari liderlərindən biri haqqında bu sözləri söyləmişdi:"Necə bir bülbül yumurtası ilk yumurtlandığında





musiqiyə öyrəşmiş halda doğulursa, bu adam da doğuşdan intriqant olaraq doğulmuşdur." Problemlər ortaya çıxan zaman dərhal Reynoldsa bildirilmişdi. Ona görə də olub-bitənlərdən xəbəri vardı, ancaq əlindən şikayət etməkdən başqa bir şey gəlmirdi. "Bütün olanların arxasında Bəxtiyarilər durur" deməkdən başqa nə edə bilərdi ki?

Yerli qəbilələrdən gələn zərər və təhdid təhlükəsi get-gedə sürətlənir, bu da bütün müəssisələrin və oradakı işlərin təhlükəsizliyinə yeni-yeni maneələr doğururdu. D`Arcy Xarici İşlər Nazirliyindən təhlükəsizlik tədbirləri görməyi tələb etmək məcburiyyətində qaldı və gözlənilən tədbirlər nəhayət, görüldü. Bu barədə Xarici İşlər Nazirliyi qürurla bu görüşü bildirmişdi: "Təhlükəsizlik tədbirlərinin görülməsi üçün mühafizə dəstəsinin göndərilməsi, majesterləri hökumətinin İranın cənub-qərbində bir ingilis müəssisəsinin mövcudluğuna yetirdiyi diqqətdən doğulur." Ancaq göndərilən mühafizə dəstəsi sadəcə iki zabit və iyirmi hindli süvaridən təşkil olunduğu üçün ona da çox etibar oluna bilməzdi. Başqa tərəfdən, aradan keçən zaman içərisində İngiltərə ilə Rusiya arasındakı münasibətlər yumşalma mərhələsini yaşayırdı. 1907-ci ildə Anqlo-Rus müqaviləsi imzalandı. Bu iki ölkə, aralarındakı görüş ayrılıqlarını bir bir yana buraxıb, İranı o günkü nüfuzlu güc mərkəzləri arasında paylaşdırmağı qərarlaşdırdılar. Bunu etmək üçün hər iki tərəfin əlində kifayət qədər səbəb vardı. Rusiya, rus-yapon müharibəsində düçar olduğu sarsıdıcı məğlubiyyətdən və 1905-ci il inqilabının verdiyi sıxıntılardan dolayı çox zəifləmişdi. Buna görə də Sankt Peterburq artıq Londonla imzalanan bir müqavilənin böyük xeyir verəcəyi qənaətindəydi. Öz hesablarına görə, ingilislər də bu müqavilədən udacaqdılar. Rusların Hindistana doğru "spontan yayılma" məqsədlərindən

qorxduqları bəs deyilmiş kimi, indi də almanlar Orta Şərqə doğru can atırdılar və bu da ingilisləri möhkəm narahat etməyə başlamışdı. 1907-ci ildə bağlanan müqavilənin şərtlərinə görə, Şimali İran Rusiya hegemonluğuna, Cənub-Şərqi İran da İngiltərəyə keçir, Orta İran isə tərəfsiz bölgə elan olunurdu. Qəribə bir təsadüf nəticəsində neytral sayılan bölgə qazıntının aparıldığı yerə təsadüf etdi. İranın bu cür tələm-tələsik və mütləq xəttlər müəyyənləşdirilərək bölünməsi, Tehrandakı ingilis səfirinin müşahidə etdiyi kimi "onsuz da mövcud olan əcnəbi düşmənçiliyini büsbütün qızışdıracaqdı." İranın bölünməsi hadisəsi, eyni zamanda İngiltərə, Rusiya, Fransa dövlətlərinin üçlü Antanta bloku qurmasıyla nəticələnmişdi. Bu Üçlü Birlik aradan 7 il keçdikdən sonra Almaniya, Avstriya-Macarıstan və Osmanlı imperiyaları ilə müharibəyə başlayacaqdı.

## Zamanla yarış

Qazıntı yeri olan Məscidi-Süleyman bu oyunda atılan son "zər" kimiydi. Məscidi-Süleymanda aparılan qazıntı işləri Reynolds və qrupuna lojistik baxımdan da çox böyük çətinliklər yaradırdı. Bunların ən böyüyü yol problemi idi. Bölgədə heç yol yoxdu. Ətraf mühitdəki bu qədər təhlükə içində tam altı aylıq çəkilən zəhməti silib-süpürüb kül edən bir yağış vardı və bir dəfə şiddətli yağışın yol açdığı sel fəlakəti yaşanmışdı. Nəhayət ki, axırda yol çəkildi, dəzgahlar işə düşdü və 1908-ci ilin yanvar ayında bu fəaliyyət bölgəsində ilk qazıntı işləri başladı.

Ancaq "Anlaşma Birliyi" baxımından vaxt daha sürətli ötüşürdü. "Burma Neft" işin yavaş getməsindən və böyük pullar xərclənməsindən fövqəladə narahat idi. Sindikatın





ikinci başqanı "bütün cəhdlərin" heç bir işə yaramaması və "boşa çıxması" ehtimalının böyük olduğundan bəhs edirdi. Bütün bunlardan sonra "Burma Neft" layihəyə tam mənasında bağlı qaldığını, ancaq şotlandiyalı patronlarının xəbərdarlığından narahat olan D`Arcyyə pulun tükəndiyini və bilavasitə özünün lazım olan əlavə fondun heç olmasa yarısını təmin etməyincə, işin dayandırılacağını bildirdi. D`Arcy cavabında "20 min pound və ya hər hansı miqdarda pul qoymağın şübhəsiz ki, mümkün olmadığını" söyləyərək, "nə edəcəyimi bilmirəm" dedi. Ancaq bu arada Burmanın işdən imtina etmək üçün bəhanə axtardığını da sərt bir şəkildə bildirməkdən çəkinmədi. Burma təmsilçiləri Reynoldsun bu reaksiyasına cavab olaraq, ona son tarix kimi 30 aprelə qədər vaxt verdiklərini bildirməklə münasibət bildirdilər. Ancaq D`Arcy vecinə də almadı və son tarix olaraq verilən gün gəlib keçdi. D`Arcy bilərəkdən işi gecikdirir, İrandakı Reynoldsa vaxt qazandırmaq istəyirdi. İndi Burma ilə D`Arcynin iş münasibətlərində böyük bir uçurum yaranmışdı.

D`Arcydən heç bir xəbər gəlmədiyinə görə, "Burma Neft" öz bildiyi kimi hərəkət edərək, 14 may 1908-ci ildə Glasgovdan Reynoldsa bir məktub göndərərək, layihəyə son vermək niyyətində olduğunu, bu səbəblə əşyalarını toplamaq üçün hazırlaşmasını bildirdi. Məktubda həm də Məscidi-Süleymandakı iki quyuda çalışmaların davam etməsinin vacibliyi, quyuların ən çox 1600 feet dərinliyə qədər qazılması üçün qəti təlimat yer alırdı. Əgər bu dərinlikdə də neft tapılmasa, Reynolds "işləri buraxacaq, hər şeyi bağlayacaq və iş yerindəki təsislərin mümkün nisbətdə çoxunu götürüb Məhəmmerad yoluyla geri qayıdacaqdı." Məhəmmerada çatdıqdan sonra alətləri Burmaya verməsi əmr edilirdi. Başa düşüldüyü kimi "Anlaşma Birliyi"nin də sonu gəlmişdi. Deməli, illər öncə hələ

D`Arcynin işi üstlənməsindən əvvəl layihə şəklində olan "ölçüyə gəlməz qiymətdəki zənginliklər" artıq yox olacaqdı. Reynoldsa bir teleqraf göndərildi. Teleqrafda bildirilirdi ki, poçt vasitəsilə çox əhəmiyyətli bir direktiv göndərilib. Reynoldsdan onu almaq üçün hazırlıqlı olması tələb olunurdu. Ancaq dünyanın o tərəfində poçtların nizamsız işləməsi səbəbilə məktub İrana, ancaq iki həftə sonra gəlib çatacaqdı. Dikbaşlı Reynoldsun istədiyi də elə bu gecikməydi.

Məktub hələ yoldaykən, bir gün gözlənilmədən bir anda qazıntı məhəlləsində ani bir həyəcan yaşandı və bu həyəcan getdikcə böyüməyə başladı. Quyuların birindən təbii qaz qoxusu gəlirdi. Daha sonra kiçicik bir sızıntı müşahidə olunsa da, dərhal gözdən itdi. Bundan sonrakı bir neçə gün içərisində sanki balıq tutmaq istəyən kimi, 45 dərəcə istinin altında bu qazın haradan çıxdığını axtarmağa davam etdilər. Qazıntının sərt qayalıqlarda aparıldığı bir anda, parlaq günəş şüaları altında birdən-birə bir dəlikdən buxarlı qazın havaya uçduğu göründü. 1908-ci il may ayının 25-i gecəsi idi. Havanın çox isti olması səbəbilə hindli süvari mühafizə dəstəsinin rəisi ingilis baş leytenantı çadırına girməmişdi. Eşikdəcə yatırdı. May ayının 26-da, sabaha doğru saat 04.00 radələrində ingilis baş leytenantı böyük bir gurultunun səsinə oyandı. Qazıntı yerinə qaçdı. Qazıntı aparılan quyunun üstündə bəlkə də 50 feet hündürlüyündə bir fontan püskürürdü. Qazmaçıların hamısı neftin içində itib-batmışdı. Neftlə birlikdə orada işləyən fəhlələrin nəfəsini kəsən və təhlükə törədən qaz da fışqırırdı.

Nəhayət, İranda neftə rast gəlinmişdi. Bu, tarix olaraq Şahın imtiyazlar haqqında müqaviləyə imza atdığı gündən təxminən 7 il sonraya təsadüf edir. Bu hadisəni İngiltərəyə xəbər verən ilk raport böyük bir ehtimalla baş leytenant





Vilsonun raportudur. Əfsanə kimi ağızlarda dolaşan bir rəvayətə görə, Vilson raportunu şifrəli göndərmiş və bunları yazmışdı: "Bax. İncil, 104-cü fəsil, 15-ci sətir, 3-cü cümlə." Bu hissəyə baxılanda İncildə bu sözlərin yer aldığı görünür: "...torpaq içindən yağ çıxsın və insanların üzü gülsün deyə..." Bu böyük hadisə D`Arcyyə bir axşam yeməyində qeyri-rəsmi olaraq bildirildi. D`Arcy xəbərdən böyük sevinc hissi keçirməsinə baxmayaraq, sevincini cilovlaya bilmişdi. İnadla "hadisə təsdiqlənmədən heç kimə heç nə söyləməyəcəyəm" deyirdi. Gözlənən təsdiq xəbəri qısa zamanda gəlmiş və üstündən bir neçə gün keçmədən, birinci quyuda neft çıxarılarkən, ikinci quyuda da neftə rast gəlinmişdi. Hadisənin üstündən üç həftə keçmişdi ki, Reynolds "Burma Neft"dən 14 may tarixində "işi bağlamaq" haqqındakı əmri aldı. Bu, 50 il əvvəl Polkovnik Drakenin aldığı "Titusvilledə işləri bağlamağı" əmr edən məktuba oxşayırdı. O məktub da indiki kimi neftə rast gəlindiyi bir zamanda gəlmişdi. Ancaq indiki vəziyyətdə Reynolds patronlardan gələn məktubu almamışdan, özü Glasgova bir teleqraf göndərmişdi. Teleqrafda ironiya ilə bunları yazırdı: "Mənə göndərildiyini yazdığınız təlimatları dəyişdirməyiniz lazımdır. Bölgədə neft çıxdığı üçün təlimatı yerinə yetirməyim mümkün deyildir." Yeri gəlmişkən, Glasgovdan gələn məktub Reynoldsun təxminlərində yanılmadığını və haqlı olduğunu sübut etmişdi.

Məscidi-Süleymanda neft tapılmasından sonra Reynolds daha bir neçə il baş mühəndis olaraq bölgədə qaldı. Ancaq neft kəşfinə baxmayaraq, "Burma Neft"lə araları get-gedə daha da pozulurdu. Bu arada D`Arcy Reynoldsu qorumağa çalışır, Burma rəhbərlərinə Reynoldsun "axmaq bir hərəkətlə razılaşmanı pozacaq bir adam olmadığını" israrla təkrarlayırdı. Ancaq D`Arcynin verdiyi dəstək Glasgovda Reynoldsa göstərilən köklü düşmən-

çiliyin qarşısını almağa kifayət etmədi və Reynolds 1911-ci ilin yanvar ayında heç bir açıqlamaya ehtiyac duyulmadan işdən qovuldu. Arnold Vilson xatirələrində Reynoldsun göstərdiyi xidmətləri bu sözlərlə anladır: "O, bölgədəki qorxunc istiyə və soyuğa, xəyal qırıqlıqları və uğura dözüb dayana bilən, qarşılaşdığı hər iranlıdan, hindlidən və avropalıdan bir şeylər öyrənməsini bilən birisiydi. Bunun bircə istisnası dar dünya görüşləriylə qocaman bir şirkəti haradasa məhvə sürükləyən şotlandiyalı iş adamları idi... G.B.Reynoldsun İngiltərə imperiyasına, İngiltərə sənayesinə və İrana göstərdiyi xidmətlər heç bir zaman qiymətləndirilməmişdir. Öz korluqları səbəbilə bəzi xoşagəlməz nəticələrə qatlanmaq məcburiyyətində qalan bəzi adamlar, Reynoldsun sayəsində bu vəziyyətdən xilas olub çox zəngin oldular, hələ sağlıqlarında böyük şərəf və etibar qazandılar." Reynolds işdən qovulandan sonra "Burma Neft" rəhbərliyi istəməyərək də olsa, ona çəkdiyi zəhmətlərin qarşılığında 1000 dollar pul verdi.

### "Böyük bir şirkət - Anqlo-Pers"

19 aprel 1909-cu ildə Şotlandiya bankının Glasgovdakı şöbəsi alovlu bir sərmayədar kütləsinin basqınına uğramışdı. Bankın məmurları o günə qədər belə bir mənzərə ilə heç qarşılaşmamışdı. "Beynimizdəki neft" rüzgarı bu asıq suratlı şotland sənaye şəhərini bürümüşdü. Xalq kassaların qarşısında on-on toplanıb, müraciət forması almaq üçün özünü əldən salırdı. O gün qələbəlik o qədər çoxaldı ki, binaya girmək belə mümkün olmadı. Yeni qurulan "Anqlo-Pers Neft Şirkəti" xalqa açılır və o gün şirkət xalqa hissə sənədlərini təqdim edirdi.

İranda çox zəngin neft yataqlarının olduğundan artıq





bir neçə ay idi ki, hamı xəbərdardı. Bu işlə əlaqəsi olan hər kəs müqaviləyə canlılıq qazandırmaq üçün şirkəti yenidən nizamlamağın vaxtının gəldiyinə inanırdılar. Amma bir şey var ki, şirkətin yenidən qurulması işləri alınmırdı. Yeni forma tapmaq üçün keçirilən iclaslar vəkillərin davamlı münaqişə və müzakirələri səbəbilə alınmırdı və bu müzakirələrdən də qaçmaq haradasa mümkün deyildi. Bundan başqa, Hərbi Dəniz Donanması admirallığının da etirazları vardı. Belə ki, müqavilə layihəsində yer alan admirallığın İrandakı neft işlərində "Burma Neft"i təşfiq etdiyinin "xalqa açıqca bəyan edilməsini" əks etdirən maddənin qəbul olunmasını donanma rəhbərliyi istəmirdi. Nəticədə Burma Şirkətinin ikinci başqanı "admirallıq bizim gələcəkdəki ən yaxşı müştərimizdir, buna görə də maraqlarına toxunmağımız doğru olmaz" deyərək layihədəki maddəni xeyli yumşaltdı. Etirazlardan biri də heç gözlənilməyən tərəfdən - Xanım D`Arcydən gəlmişdi. Bir zamanlar teatrda aktrisalıq edən bu xanım toplantıya əriylə bir yerdə gəlmiş, ərinin adının şirkətin qurucularının sırasında yer almamasını dramatik üslubla qınamışdı. D`Arcynin özü bunu problemə çevirmədiyi halda, Xanım D`Arcy bu barədə inad göstərir, ərinin vəkilinə yazdığı məktubda bunları söyləyirdi: "Ərimin adı İrandakı neft hadisəsi ilə çox yaxından bağlantılı olduğu üçün bunu çox böyük yanlış kimi qəbul edirəm. Onun ad-sanının təqdiri üçün bu, sizə etdiyim son müraciətdir."

Təəssüf ki, Xanım D`Arcynin müraciəti qəbul edilmədi. Əslində "Burma Neft" hissələrinin əksəriyyətini almaqla, D`Arcy də nəticədə bu işdən əməlli-başlı qazanclı çıxmışdı. Ona bu günə qədər xərclədiyi və kisəsini bomboş qoyan neft arama məsrəfləri üçün təzminat şəklində bazar qiyməti olaraq 895.000 pound (30 milyon dollar və ya bu

günün pulu ilə 55 milyon dollar) dəyərində hissə sənədi verilmişdi. Bütün bunlara baxmayaraq, D`Arcy işin get-gedə nəzarətindən çıxdığını, əlindən sürüşüb getdiyini başa düşürdü. Nəticədə "Burma Neft"lə anlaşan D`Arcy, müqaviləni imzaladığı gün böyük kədər içərisində "sanki övladım haqqında bir müqavilə imzalayıram" deyirdi. Həqiqətən də ata ilə oğul arasındakı əlaqə tamamilə qopmamışdı. Nəhayət, yeni qurulan "Anqlo-Pers Şirkəti"nə müdir təyin olundu və hər zaman olduğu kimi böyük sədaqətlə xidmət elədi. "Hər zamankı kimi həyəcan doluyam" deyirdi. Hərçənd ki, artıq "ən yüksək səviyyəli kapitalist" olduğu günlərdəki nüfuzu arxada qalmışdı. Həyat yoldaşının qorxduğu şey də zamanla gerçəkləşəcək və hələ 1917-ci ildə, ölümündən çox əvvəl Villiam Knox D`Arcy adı unudulub gedəcəkdi. Sadəcə "Anqlo-Pers Şirkəti" bir neft axtarma fonduna "D`Arcy" adını verəcəkdi, o qədər. Əslində bu vəfa borcu D`Arcynin etdiklərinin yanında çox kiçik bir təsəlli idi.

Bu arada İngiltərənin himayəsi altında olan torpaqlarda indilik az da olsa neft çıxaran əhəmiyyətli neft yataqlarına rastlanmışdı. "Anqlo-Pers Şirkəti" də çox sürətli inkişaf etmiş və əhəmiyyətli bir şirkətə çevrilmişdi. Hələ 1910-cu ilin axırlarında bu şirkətdə işləyən fəhlə sayısı 2500-ü keçirdi. Ancaq şirkət işlərinin İrandakı təşkilati məsələləri o qədər yaxşı getmirdi və bir xeyli mürəkkəb problemlərlə qarşı-qarşıya idi. Əməliyyatlara şirkət və siyasi avtoritetlər də müdaxilə etdiyindən, daha çox hər şey Bizansvarı görüntü daşıyırdı. O günlərdə bölgədə konsul kimi fəaliyyət göstərən Arnold Vilson şirkətin yerli işlərində praktiki olaraq məsləhətçilik vəzifəsini aparırdı. Ancaq bu işin daimi qaygı tələb edən yorucu bir fəaliyyət növü olduğunu qısa zamanda başa düşmüşdü. "Bu neft





şirkətinin işləri üzərində düz 15 gün düşündüm. Bu müddətdə nə demək istədiklərini hər zaman söyləməyən ingilislərin və söylədiklərini hər zaman nəzərdə tutduqları şəkildə söyləməyən iranlıların görüşlərini ölçüb-biçdim. İngilislərin "anlaşma" sözü ilə nəzərdə tutduqları şey ingiliscə yazılmış bir sənəddir. Bir məhkəmə orqanının qarşısında vəkillərin hücumuna dözüb dayana bilən bir sənəd. İranlıların başa düşdükləri mənada isə sənəd, hər iki tərəfin niyyətlərini əks etdirən, içində əhəmiyyətli miqdarda illik ödənəcək pul mövzusuna yer verilən bir bəyanatdır" demişdi.

Çox keçmədən bölgədə ən az 10 kvadrat mil ərazisi olan yeni neft sahələri tapılmışdı. Ancaq bu da xam neftin necə çıxarılacağı və sonradan nə şəkildə işlənəcəyi kimi yeni-yeni problemlər ortaya çıxarırdı. Bu arada il yarımlıq bir çalışmayla təpələrlə çölü bir-birinə bağlayan 138 mil uzunluqda bir boru kəməri də çəkilmişdi. Boru kəmərinin keçdiyi yerlər zopalar və bezdən düzəldilmiş bayraqlarla işarətlənmişdi. Boru kəmərinin tikintisində düz 6 min qatırdan istifadə olundu. Abadan şəhəri neft ayırma müəssisələrinin tikiləcəyi yer olaraq seçildi. Abadan Dəclə, Fərat və Karun çaylarının ucunda olan Şat-ül Ərəbdə bataqlıq və xurma ağacları ilə əhatə olunan uzun, dar bir ada idi. İnşaatda bir qayda olaraq Burma Rangoon neft ayırma müəssisələrindən gələn hindlilər işləyirdilər. Ancaq inşaat yaxşı inşa edilməmişdi. Yeri gəlmişkən, 1912-ci ilin iyul ayında hələ ilk təcrübədən çıxa bilməmiş, o gündən sonra da planlaşdırılan iş gücünün həcmində çalışa bilməmişdi. İstehsal etdiyi məhsullar da keyfiyyətsiz idi. Abadanda istehsal olunan neft sarımtıl rəngdə olub, lampa şüşələrində iz buraxırdı. 1913-cü ilin sentyabr ayında vəziyyətdən əsəbiləşən Burma rəhbərlərindən biri

dözə bilməyib "neftayırma zavodu işə başladığı ilk gündən bəri bədbəxtçiliyin birindən qurtarmamış, o biri çıxır" demişdi.

1912-ci ilin oktyabr ayında "Anqlo-Pers Neft Şirkəti" yeni bir həmlə edərək, özünə əlavə bazar qarantiləmək üçün "Hollandiya Kraliyyət/Shell Şirkəti"nin ticari qolu olan "Asiya Şirkəti" ilə bir müqavilə bağladı. Müqavilənin şərtlərinə görə, "Anqlo-Pers" xam nefti, benzin və qazyağının hamısını Asiya Şirkətinin vasitəsilə satacaq, ancaq mazot üzərindəki hüquqlarından özü istifadə edəcəkdi. Bunu, gələcəkdəki inkişaf mərhələsində bütün strategiyasını mazotun üzərində qurmaq məqsədilə etmişdi. Bu mərhələdə "Anqlo-Pers" nəhəng şirkətləri bir bazar savaşına sürükləyəcək və bunun məsrəflərinə qatlanacaq maddi gücə sahib deyildi. Öz adından Shell Şirkəti də yeni bir təhlükəylə qarşılaşmağı arzulamırdı. Robert Valey Cohenin Haguedəki həmkarlarına yazdığı kimi "görünüşə görə çox böyük neft ehtiyatına sahib olduğu anlaşılan bu insanların vəziyyəti Şərqdə olduqca ciddi bir problem" deməkdi.

Ancaq problem Anqlo-Persin özünün qısa bir zamanda dərin maliyyə sıxıntıları içərisinə düşməsi səbəbilə yenə də bitmədi. Beləliklə, İran qaynaqlı bu iş bir daha öz mövcudluğunu davam etdirməsi baxımından təhlükəli bir həddə gəlmişdi. 1912-ci ilin axırında iş görülməsi üçün lazım olan kapitalın hamısı tükənmişdi. "Burma Neft"in sahibi olan Con Cargill donub qalmış halda belə yazırdı: "Bu iranlılar nə qədər qarışıq və bəlalı işlərin içindədirlər! Onların mənə "boş ver, kədərlənmə" demələri asandır, ancaq mənim ad-sanım və etibarım var. Bunların hər ikisi də Anqlo-Pers Şirkətinin vəziyyəti ilə çox yaxından bağlıdır. Bu günkü qorxunc vəziyyətdə necə ola bilər ki,





müdhiş tərəddüdlü və kədərli olmadığımı söyləyim?"

Hər hansı bir irəliləyiş əldə etmək üçün şirkətin milyonlarla pounda ehtiyacı vardı. Ancaq görüntüdə bunu təmin edəcək bir qaynaq da yox idi. Yeni maddi dəstək təmin olunmadığı təqdirdə ya İrandakı işlər dayan-dırılacaq, ya da bütün hər şey Hollandiya Kraliyyət/Shell ortaqlığının əlinə keçəcəkdi. Bir neçə il əvvəl "Burma Neft" də bu vəziyyətə düşmüş, amma sonunda xilas ola bilmişdi. İndi isə Anqlo-Pers Şirkəti üçün bir xilaskar tapmaq lazım idi.

# 8

## TALEYİN HÖKM ETDİYİ TƏHLÜKƏLİ DALIŞ

1903-cü ilin iyul ayında, İranda üstləndiyi neft işinin yavaş getməsi və bahalıya başa gəlməsi səbəbilə Villiam Knox D`Arcynin kefi pozulmuşdu. D`Arcy böyük xəyal qırıqlığı içərisində yorulmuş və səhhətində problemlər ortaya çıxmışdı. Müalicə almaq məqsədilə Bohemyadakı Marienbad sanatoriyasına getmişdi. Orada Kraliyyət Donanmasının ikinci admiralı olan və uzun zamandan bəri "neft dəlisi" ləqəbiylə tanınan Admiral Con Fişerlə tanış olub yaxınlıq yaratdı. Səhhətinin düzəlməsində müalicənin olduğu qədər Admiral Fişerlə qurduğu yaxınlığın da rolu vardı. Tamamən təsadüf nəticəsində baş verən bu tanışlıq, nəticədə D`Arcynin girişdiyi neft macərasının istiqamət dəyişdirməsinə, neftçiliyin milli strategiyaların mərkəzinə doğru hərəkət etməsinə səbəb oldu.

Admiral Fişer bir çox illər əvvəl xroniki bir xəstəliyə yaxalandığı zaman bu xəstəxanada müalicə olunmuş və Marienbaddan yaxşılaşaraq ayrılmışdı. Buna görə də tez-tez Marienbada gəlirdi. Ancaq bu gəlişində D`Arcy kimi o da xəyal qırıqlığına uğramışdı və kefi yox idi. Bu da mazotla əlaqədar idi. Bir neçə gün əvvəl mazotun ingilis savaş gəmilərində istifadə olunması üçün ilk sınaq həyata keçirilmiş və uğursuzluqla nəticələnmişdi. Təcrübə əlahəzrətlərinin Hannibal adlı ingilis savaş gəmisi üzərində aparılmışdı. Gəmi Portsmouth limanından qalxdığında yanacaq kimi əla keyfiyyətli Galler kömürü istifadə





olunmuş və gəmi bacasından düzxətli ağ duman yüksəlmişdi. Bir işarəylə yanacaq dəyişdirilib neftə çevriləndə, bir neçə dəqiqə içərisində gəminin yoğun qara buludlarla sarıldığı müşahidə olunmuşdu. Çox sonra anlaşıldı ki, bu, qazançının səbəb olduğu bir xəta imiş. Ancaq bu yanlışa görə təcrübə fəlakətə çevrilmişdi. Bu, donanmada mazotdan istifadə tərəfdarı olan və hər ikisinin də sınaqda hazır iştirak etdiyi iki nəfər - Admiral Fişer və Shelldən Marcus Samuel - üçün ağır məğlubiyyət idi. Fişerin böyük ruh düşgünlüyü içərisində Marienbada gedib orada bir təsadüf nəticəsində D`Arcy ilə qarşılaşması bax o günlərə tuş gəlirdi.

Bu iki adamın tanışlıqlarından dərhal sonra ikisində də ortaq nöqtə olan neft ehtirasının kəşf olunması çox çəkmədi. D`Arcy dərhal həyəcanla İrandakı çalışmaları özündə əks etdirən xəritə və sənədləri gətizdirib Fişerə göstərdi. Fişer də öz növbəsində D`Arcynin anlatdıqlarından çox sevinmiş və həddindən ziyadə duyğulanmışdı. "Qızıl mədəni milyoneri" adını verdiyi D`Arcyni bir yazısında bu cür təsvir edir: "Elə indidən İranın yarısı sayılan cənub hissəsini NEFT üçün satın aldı... Bunun fövqəladə hadisəyə səbəb olacağı qənaətini daşıyır. Orada özünü təmsil edəcək və işlərini davam etdirəcək bir adam axtardığını söyləyir. Buna görə də indi mən Portsmoutha getməkdən imtina edib, İrana getməyi fikirləşirəm!" D`Arcy Fişerin bu sözlərini yardım vədi olaraq şərh etdi. Elə qısa zaman keçmədi ki, gözlədiyi yardım əvvəlcə pərdə arxasından, sonra da çox böyük miqdarda ictimaiyyətdən gəldi. Amma D`Arcynin ürəkdən arzuladığının əksinə, bu yardım ona yaxın olan yerlərdən gəlməmişdi.

### "Neftin xaç atası"

Marcus Samuelin sonrakı günlərdə "neftin xaç atası" olaraq abidələşdirmək istədiyi Con Arbuthnot Fişer 1904-cü ildə birinci admiral oldu. Bundan sonrakı 7 il ərzində "Cek" ləqəbiylə tanınan Fişer, Kraliyyət Donanmasına o günə qədər heç kimsənin olmadığı dərəcədə hakim olmuşdu. Seylanda səfalət içərisində yaşayan bir kəndli ailəsində dünyaya göz açan Fişer, 1854-cü ildə 13 yaşında olarkən, bir yelkənli gəmidə dənizçilik məktəbinin tələbəsi kimi ilk dəfə dənizə çıxmışdı. Nə doğuşdan, nə də daha sonra qazandığı hər hansı bir titulu olmadığı üçün, olmayan bu ünvanın təmin edəcəyi hər hansı bir üstünlüyü də yox idi. Ancaq parlaq zəkası, qərarlılığı və əzminin gətirdiyi bir üstünlüyə sahibdi. Müasiri olan bir yazıçının söylədiyi kimi Fişer "Makiavelli ilə saf bir uşağın qatışığıydı." Bir yerdə olduğu və müzakirəyə girişdiyi hər bir insanı dərhal öz təsiri altına salıb coşduran xarakteri ilə Fişer, həqiqətən də bir "enerji, həyəcan və inandırma qabiliyyətləri ilə bir güc qasırğası idi." Bir gün bilavasitə Kral VII Eduard Fişerlə çox gərgin keçən bir müzakirəyə girişmiş və müzakirə bitdikdən sonra ona "yumruqlarınızı sifətimə doğru silkələməkdən əl çəkməyinizi istərdim" demişdi.

Fişer ailəsinə, rəqsə və dini ayinlərə çox bağlıydı. Bunların xaricində bir sevdiyi işi daha vardı: Kraliyyət Donanması. Həyatını bütün mənalarda donanmanın yeniləşdirilməsinə həsr etmişdi. Bütün var qüvvəsiylə onu köklü şəkildə yerləşmiş ənənələrindən, durğunluq və biganəlikdən, hörümçək yuvasına oxşayan adətlərindən sıyırıb çıxarmağa çalışırdı. Hədəf kimi müəyyənləşdirdiyi məqsədlərə doğru sarsılmaz bir iradəylə addımlayır, onları bir-bir





həyata keçirirdi. Əmrində fəaliyyət göstərən bir zabit onun haqqında "Ceki qane edən yeganə şey "bütün sürətlə irəli!" əmridir" demişdi. Məqsədlərinə nail olma yolunda özü-özünə məsuliyyət yükləyən bu adam Kraliyyət Donanmasında texnoloji yenilik edilməsinin tərəfdarı idi. Sım-sıx sarıldığı "Qızıl Qayda" "heç bir zaman özümüzü kənarda saxlanacaq vəziyyətə qoymamalıyıq" prinsipi idi. Donanmadakı uğurları əvvəlcə torpedolar sahəsindəki təcrübələri ilə başlamış, bu sahədə olduqca etibar qazandıqdan sonra marağı sualtı gəmiçilik, destroyer, Kelvin kompasları, inkişaf etdirilmiş top atəşləri və nəhayət, dəniz havaçılığı ilə davam etdirilmişdi. Ən son məşğuliyyəti isə neftçilikdi. Hələ 1901-ci ildə bunları yazdığı məlumdur: "Fueloil bir gün dənizçilik strategiyasında inqilab yaradacaqdır. Bu, İngiltərə üçün "İngiltərə, oyan!" çağırışı olacaqdır." İngiltərə Dəniz Donanmasının mütləq kömürdən neftə keçməsini istəyirdi. Onun qənaətincə donanmanın neftə keçməsi, sürəti artıracaq, daha çox səmərəlilik və daha çox manevr etmə qabiliyyəti təmin edəcəkdi. Təəssüf ki, Fişer azlıqda qalırdı. O biri admirallar Galler kömürünə bağlı qalmağın daha təhlükəsiz olduğu inancıyla donanmanın kömürdən istifadə etməsinin davam etməsi üzərində israrla durdular.

Donanma komandanlığına təyin olunmasından sonra Fişer, Marienbadda D`Arcynin ona təqdim etdiyi layihəni yenidən gündəmə çıxardı. İngiltərənin nəzarətindəki böyük neft sahələrini öz gözləri ilə görməyə qəti qərar verdi. Bu məqsədlə nüfuzundan istifadə edərək, əvvəlcə İranla bağlanan müqaviləyə dəstək verdi, sonra da "Burma Neft"ə D`Arcynin imdadına çatması üçün təzyiq göstərməyə başladı. Bunu donanmadakı təsirindən istifadə etməklə həyata keçirirdi. Şübhəsiz ki, hədəfi hər zamankı

hədəfinin eynisi idi: Kraliyyət Donanmasını dövrün sənaye inkişafının tələblərinə çatdırmaq və başlayacaq hər hansı müharibə ehtimalına donanmanı hazır saxlamaq. Hamıdan əvvəl bu cür bir savaşda İngiltərənin qarşısındakı düşmənin Avropa qitəsində sənayenin inkişafı baxımından yüksəlməkdə olan Almaniya imperiyası olacağını başa düşmüşdü. Bundan başqa, onları gözləyən qaçınılmaz savaşda Almaniyanın da ən az onun qədər mazutun əhəmiyyətini başa düşdüyünü bilirdi və bundan əmin idi. Buna görə də başlayacaq müharibənin həm Kraliyyət Donanmasını, həm də İngiltərə hökumətini neft savaşlarına dartıb aparacağına şübhəsi yox idi.

## "Made in Germany"

Almaniya ilə İngiltərə arasında çox bariz, gözlə görünən və birbaşa anlaşılmazlıq yaradan heç bir problem yox idi. Ancaq yeni əsrin başlanğıcında bu iki ölkə arasındakı soyuqluq bəzi faktorlar səbəbilə get-gedə böyüməyə başladı. Bu faktorlardan biri də Kraliça Viktoriyanın nəvələrindən biri olan Kayzerin, əmisi İngiltərə Kralı VII Eduarda bəslədiyi açıq etimadsızlıq idi. Ancaq bu faktorlardan ən təsirlisi İngiltərə ilə Almaniya arasında yeni-yeni qızışmaqda olan dənizçilik yarışı idi. Hər iki ölkə öz donanmalarının böyüklük və texnoloji üstünlüyü üçün çətin bir yarışmaya girmişdilər. Bu yarışma iki ölkə arasındakı münasibətlərə hakim kəsilir, hər iki ölkə mətbuatının bütün diqqətini üzərinə çəkir, ictimaiyyətin davranış və müzakirələrini istiqamətləndirir, inkişaf etməkdə olan milliyyətçilik ehtirasını qızışdırır və insanların ən gizli tərəddüd və şübhələrini alovlandırırdı. Bu yarış hər iki ölkə münasibətlərinin hərəkət nöqtəsinə çevrilmişdi. Bir





tarixçinin yazdığı kimi "modern fikrin formalaşmasında ən təsirli faktor, ingilis-alman münaqişəsini hər şeydən çox qızışdıran dənizçilik mövzusuydu."

1890-cı illərin axırlarında alman hökuməti "Veltpolitik" dediyi hədəfinə doğru başlatdığı ilk böyük həmlənin açılış mərasimini keçirirdi. "Veltpolitik" - qlobal, siyasi, strateji və iqtisadi üstünlük qazanmaq üçün Almaniyanın bir dünya gücü olaraq və Berlinin təbirincə desək, "dünyanın siyasi azadlığı üçün" hərəkətə keçməsi mənasına gəlirdi. "Yeni Almaniya"nın özünü dünya səhnəsində qəbul etdirmək üçün müraciət etdiyi bu sərt, kobud, açıq-aşkar təcavüzkar metod, digər gücləri əsəbiləşdirməkdən və hiss etdikləri təlaşı artırmaqdan başqa bir işə yaramadı. Hətta Kayzerin öz yaxınlarından biri belə, Almaniyanın bu hərəkətlərini "sərt, çəkindirici, təhrikedici və təkəbbür dolu" olduğu üçün tənqid etmişdi. Bu, Kayzer Vilhelmin öz xarakterini əks etdirən və şöhrətini daha da bərbad istiqamətə çevirən bir davranışdı. Kayzer tez əsəbiləşən, qərarsız, düşünmədən mühakimə edən, xaraktersiz və dəyişkən təbiətli bir hökmdardı. Çox tanınmış bir alman yazar, Kayzerin yaşı irəlilədikcə müdrikləşən adamlardan olmadığını söyləmişdi.

Keçmiş Bismark imperiyasının qarmaqarışıq günlərində yaşayan bir çox almana görə, xəyallarındakı "dünya gücü" röyasının həyata keçməsinə əngəl olan maneçiliklər arasında ən böyüyü açıq dənizlərdəki ingilis üstünlüyü idi. Almaniyanın hədəfi, öz admirallarının birinin sözləriylə desək, "İngiltərənin dünya üzərindəki hegemonluğunu qırmaqdı." Onların qənaətincə bu, müstəmləkələri sərbəst buraxmaqdan keçirdi. Genişləmə ehtiyacında olan mərkəzi Avropa dövlətləri ehtiyac hiss etdikləri sahələri özlərinə təmin etməliydilər. Bunun

mənası isə hər şeydən əvvəl, İngiltərənin dəniz donanması ilə yarışacaq gücdə bir alman dəniz donanması yaratmaqdı. Kayzer millətinə "bu ingilis aslanının geri çəkilməsi üçün bizim düyünlənmiş yumruqlarımızı onun başının düz ortasına endirə biləcək vəziyyətə gəlməyimiz lazımdır" demişdi. Almanlar dənizlərdə hakimiyyət təşəbbüslərinə 1897-ci ildən başlamışdılar. Hədəflərinə çatmaq üçün 10 ildən də artıq bir müddətin lazım olduğunu düşünməklə bərabər, ingilislərin bu rəqabətin nəticəsində artan xərclərdən bezib-yorulacaqlarını da təxmin edirdilər. Bütün ümidlərini buna bağlamalarına baxmayaraq, bunun ingilislər üzərindəki təsiri heç də gözlədikləri kimi olmadı. Bu meydanoxuma onları həm qorxutmuş, həm də təşəbbüslərini həyata keçirmək üçün bütün güclərini səfərbər etdirmişdi. İngiltərə üçün ölkəsinin dünya üzərində oynadığı rol baxımından və ingilis imperiyasının təhlükəsizliyi nöqteyi-nəzərindən "dənizlərdə üstünlük" böyük əhəmiyyət daşıyırdı. İngiltərənin o günkü imkanları onsuz da inzibati cəhətdən, insan gücü və çəkilən xərclər baxımından imperiyanın yükləndiyi böyük məsuliyyət və yükü qaldıra biləcək səviyyədə deyildi. Ancaq buna baxmayaraq, bütün bu problemlər Almaniyanın səbəb olduğu yeni təhlükələrlə müqayisə edildiyində, daha az təhlükəli idi. Bir şey də vardı ki, İngiltərənin o günə qədər sahib olduğu "sənaye liderliyi" də əlindən getməyə başlamışdı. Sənayedə liderlik Amerikaya və daha da fəlakətlisi Almaniyaya doğru istiqamət götürməkdəydi. 1896-cı ildə dərc olunmuş "Made in Germany" (Almaniya malı) əsəri ən çox satılan kitablar siyahısında ilk yeri tuturdu. İngiltərə artıq bir Kabinet üzvünün təəssüflə söylədiyi kimi, dərdli bir Titan olmuşdu.

Admiral Fişer gələcəkdəki düşmənin yalnız Almaniya





olacağına ürəkdən inanırdı. Almaniyanın birdən-birə və gözlənilməz bir zamanda - məsələn, uzun bir həftə sonu tətilindən bəhrələnərək hücum edəcəyindən qorxduğu üçün, illər boyu hər həftə sonu tətilində yavərlərini növbətçi qoyardı. Yavərləri elə bu səbəbdən illər boyu həftə sonu tətilindən məhrum qaldılar. Fişerin təkidlərindən sonra ingilis hökuməti də donanmasını modernləşdirmək və "genişləndirilmiş gəmi inşası proqramı"na başlamaq surətilə Almaniyanın meydan oxumasına reaksiya vermişdi. Təqvimlər 1904-cü ili göstərəndə iki ölkə arasındakı dənizçilik rəqabəti zirvə nöqtəsinə çatmışdı. Bu rəqabəti qızışdıran faktorlar arasında bütün şiddətiylə davam edən "texnoloji inqilab" da vardı. "Texnoloji inqilab" hər iki ölkənin savaş gəmilərinin böyüklük və sürətində, toplarının uzaq mənzilli olması və hədəfi tapıb vurma xüsusiyyətlərinin inkişaf etdirilməsində, yeni torpedo və sualtı silah növlərinin istehsalında özünü göstərirdi.

Bu yarış hər iki ölkədə də sosial və iş şəraitinin pozulması, daxili münasibətlərdə gərginləşmə, maliyyə və büdcə tarazlığının alt-üst olması bahasına cərəyan edirdi. Bu arada İngiltərə "silahlanma və ya silahsızlanma" mövzusunda iki ayrı qütbə ayrılmış, tərəflər bu iki görüş üzərində klassik bir müzakirə-münaqişəyə girişmişdilər. İqtidardakı Liberal Partiyası - dəniz gücünün qüvvətləndirilməsini, donanma üçün ayrıca bir gəmi inşa büdcəsi tərtib olunmasını tələb edən "böyük donanma" tərəfdarları ilə, donanma xərclərinin məhdudlaşdırılıb, bundan qənaət edilən pulun donanma əvəzinə daxili sülhə istiqamətləndirilməsini tələb edən, bu pulu sosial inkişafa və rifaha yönəlik proqramlara sərf etmək tərəfdarı olan "iqtisadçılar" arasında qalmışdı. Liberal Partiyası çaşqınlıq içərisində nə edəcəyini bilmirdi. Aparılan müzakirə həqiqətən çox bezdirici idi.

"Deyli Ekspress" qəzeti böyük bir ciddiyyətlə bu dramatik sualın cavabını istəyirdi: "Yoxsa İngiltərə yaşlı adamlara qocalıq təqaüdü ödənilməsi naminə, dənizlərdəki hegemonluğunu düşmənəmi təslim edəcək?" 1908-ci ildən etibarən "iqtisadçılar"ın sədrliyinə David Lloyd Corc gətirildi. Yeni sədr əvvəllər Galler bölgəsində vəkilliklə məşğul olmuşdu. Baş nazir Herbert Asquithin Liberal Kabinetində nazir və bir müddət Uinston Spencer Çörçill dövründə baş nazir vəzifəsində işləmişdi (Çörçill hələ tələbəykən, adının çox uzun olması səbəbilə, geridə qalmamaq və işlərini sürətlə həll eləmək üçün adının Spenser hissəsindən imtina etmişdi. O günlərdə İngiltərə siyasətində bu tələskənliyinə görə ona "tələskən gənc adam" deyirdilər).

## Çörçill müdaxilə edir

Uinston Çörçill Marlborough Keşişinin yaxın qohumu (əmisi oğlu), parlaq, ancaq çox əsəbi xasiyyəti olan Lord Randolph Çörçill ilə gözəl amerikalı xanımı Jennie Jeromenin oğludur. Parlamentə 1901-ci ildə 26 yaşında olarkən, Mühafizəkar Partiyasından girmişdi. 3 il sonra sərbəst ticarət mövzusunda Mühafizəkar Partiyası ilə aralarında fikir ayrılıqları yarandığına görə, bu partiyadan ayrılıb Liberal Partiyasına daxil oldu. Siyasi partiya dəyişdirməsi, peşəsində irəliləməsinə mane olmadı. Yeri gəlmişkən, qısa bir müddət sonra Ticarət Heyəti sədrliyinə gətirildi və 1910-cu il təzə başlayanda da Daxili İşlər Naziri oldu. Çörçill həyatını siyasətə həsr etdi və böyük strategiyalar qurmaq üçün yaşadı. Evləndiyi gün mərasim başlamadan əvvəl kilsənin giriş qapısında gözlədiyi dəqiqələrdə belə siyasətdən danışıb, siyasi dedi-qodulardan





bəhs edirdi. "İqtisadçı"ların sədrlik kampaniyasında tərəddüd göstərmədən irəli atılmışdı. Fişerin "donanmanın genişlədilməsi proqramı"na qarşı çıxaraq, Lloyd Corcla bir yerdə İngiltərə ilə Almaniya arasında bir dənizçilik müqaviləsi bağlamağa nail oldu. Bunu, donanmanın büdcəsini azaldaraq, geri qalan pulu sosial islahatlara istifadə etmək məqsədilə etmişdi. Ancaq Çörçill bu hərəkətlərinə görə çox tənqid olundu. Hər şeyə baxmayaraq, yenə də yolundan dönmədi. O günlərdə ağızdan-ağıza dolaşan İngiltərə və Almaniya arasında bir savaşın qaçınılmaz olduğu iddialarına Çörçill "bunların hamısı cəfəng iddialardır" cavabını vermişdi.

Amma 1911-ci ilin iyul ayında savaş gəmisi "Panter" Almaniyanın Afrika günəşi altında bir yeri olduğunu israrla göstərmək məqsədilə Agadirin Mərakeş limanına doğru üzürdü. Bu "Panter" hadisəsi gözlənilməz əks-reaksiya verəcəkdi. Yeri gəlmişkən, bu hadisədən sonra həm İngiltərədə, həm digər Avropa ölkələrində, həm də xüsusilə Fransada Almaniyaya bəslənən antipatiya daha da artacaqdı. Çörçill görüşünü bir anda dəyişdirmişdi. O andan etibarən Almaniyanın təcavüzkarlığı haqqında heç bir şübhəsi qalmamışdı. Almaniyanın hədəfi genişləməkdi və alman donanmasının böyüdülməsindəki yeganə məqsəd də İngiltərəni qorxutmaqdı. Bu isə İngiltərə baxımından qarşılıq verilməsi vacib olan bir təhlükəydi. Çörçill olan bütün bu hadisələrdən Almaniyanın müharibəyə başlamaq niyyətində olduğunu anlamışdı. Bu halda İngiltərə üstünlüyünü qorumaq üçün olan-qalan qaynaqlarının hamısını səfərbər etməliydi. O zamanlar Çörçill hələ Daxili İşlər Naziriydi. Buna baxmayaraq, Kraliyyət Donanmasının nə dərəcə güclü olduğunu bilmək istəyir, bu mövzuyla maraqlanırdı. Donanmanın qəfil bir hücuma həqiqətən hazır olub-olmadığını əlaqədar orqanlardan

soruşub öyrənməyə başlamışdı. Agadir böhranının ən təlatümlü günlərində məsuliyyət daşıyan adamların Şotlandiyada ov tətilinə çıxmaları onu çox əsəbiləşdirmişdi. 1911-ci ilin sonunda, böhran ortadan qaldırıldıqdan sonra Çörçill də Baş nazir Asquithlə birlikdə Şotlandiyaya tətilə getmişdi. Bir gün birlikdə oynadıqları bir qolf oyunundan sonra evə qayıdarkən, heç gözləmədiyi halda Baş nazir Asquith Çörçilldən Donanma Nazirliyinə təyin olunmaq təklifinə münasibətini soruşdu. Kraliyyət Donanmasının ən üst səviyyəli mülki vəzifəsi olan bu məqama aldığı təklifə Çörçill bu cavabı verdi: "Bunu həqiqətən istərdim!"

Beləcə, İngiltərə Dəniz Donanması, o müdhiş enerjisini, uzaqgörənliyini, diqqətini və ölkənin dəniz rəqabətindəki gözlənilən qələbəsini göstərmə gücünə sahib olan bir nazirə qovuşurdu. Çörçill bunları söyləmişdi: "Əgər donanmamız bu dərəcədə güclü və üstün olmasaydı, bu yarışların və imperiyamızın bütün taleyi, bütün mövcudluğumuz, fədakarlıq və əməllə keçən bu yüzilliklər boyunca əldə edib topladığımız bu böyük xəzinəmiz hamısı birdən, bir anda məhv olub silinməyə məhkum olacaqdı." Birinci Dünya Müharibəsinin başlamasından əvvəlki 3 il içində özünə prinsip kimi qəbul etdiyi qayda kifayət qədər açıq idi. "Niyyətim Almaniyadan gələ biləcək bir təcavüzə qarşı, sanki bu təcavüz günü sabah baş verəcəkmiş kimi hazırlıqlı olmaqdı" demişdi. Bu kampaniyada Çörçillin müttəfiqi özündən haradasa iki dəfə yaşlı olan və donanmadan yenicə istefaya ayrılan admiral Fişer idi. Fişer 1907-ci ildə Biarritzdə tanış olduğu Çörçillə qarşı ilk gündən bəri heyranlıq duymuşdu. Bir-birilərinə o dərəcədə yaxın idilər ki, Çörçillin yaxınlarda evlənəcəyini böyük ehtimalla bilən yeganə adam Fişer idi. Bir ara Çörçillin donanma büdcəsini şiddətli tənqid etməsi ilə dostluqları pozulma





təhlükəsinə girsə də, sonradan Çörçillin Donanma Naziri olmasıyla bu dostluq təkrar, səmimiyyətlə davam etmişdi. Çörçill bu vəzifəyə təyin olunar-olunmaz vaxt itirmədən Fişeri axtarmış, ikisi birlikdə Reigatedəki kənd evinə gedib, orada bir neçə gün qaldıqdan sonra Çörçill yenidən Fişerin qəlbini qazana bilmişdi. O gündən sonra Fişer Çörçill üçün daim bir "tərbiyəçi" rolunu oynadı. Eyni zamanda get-gedə Çörçillin ən öndə gələn qeyri-rəsmi məsləhətçisi statusuna gəlmişdi. Çörçill Fişerə "donanmanın böyüdülməsi, yaxşılaşdırılması, müasirləşdirilməsi üçün 10 il müddətincə atılan ən önəmli addımlarda bu addımların hamısının əsas mənbəyi" gözüylə baxmışdır. Çörçillin nəzərlərində onu nəhayətsiz "xatırladıcı qeyd" bombardmanına tutan bu admiral "həqiqi bir bilgi və ilham vulkanıydı." Fişer Çörçillə müxtəlif mövzularda ən geniş məlumatları təqdim edən adam idi.

Fişerin qənaətincə, öyrənilməsi mütləq lazım olan əhəmiyyətli dərslərin başında neft mövzusu gəlirdi. Onun fikirlərinə görə, neft üstünlük strategiyasının bölünməz bir parçası idi və bu həqiqət yaxınlarda təsdiq olunacaqdı. Bunun inancında olaraq Çörçilli bu mövzuda maarifləndirməyə, ona majesterlərinin donanmasında kömür yerinə, neftdən istifadənin faydalarını öyrətməyə istiqamətləndi. Bir yandan da almanların neftlə işləyən nəhəng okean gəmiləri inşa etdiyinə dair raportlar aldığından, təlaşa qapılmışdı. Kraliyyət Donanmasını "neft deyilən uçurum"a yönəltmək və bunu mümkün olduğu qədər sürətlə həyata keçirmək üçün özündə yeni bir məsuliyyət hiss edər olmuşdu. Çörçillin bu mövzudakı maarifləndirilməsini sürətləndirmək məqsədilə admiral Fişer Shelldən Marcus Samuellə bir müqavilə bağladı. Bu iki adam ilk dəfə təxminən 10 il əvvəl "neftin potensial rolu" mövzusunda

keçirilən və neft avtoritetlərinin də qatıldığı bir toplantıda təsadüfən qarşılaşmışdılar. Ancaq əsas əlaqələri sonradan Samuelin Fişerə gizlicə sızdırdığı bir məlumata görə qurulmuşdu. Samuel bir alman dənizçilik müəssisəsinin 10 il müddətinə bir neft müqaviləsi bağladığını, bundan başqa, neft ehtiyatının bir qisminin də gizlicə alman donanmasında sınaqdan keçirmə mahiyyətində istifadə olunacağını öyrənmiş və bu məlumatı Fişerə çatdırmışdı. 1911-ci il noyabr ayının axırlarında Fişerə yazdığı bir məktubda Samuel bunları qeyd edirdi: "Görün, siz nə qədər haqlısınızmış və indi də nə qədər haqlısınız! İçdən partlamalı mühərrikin kəşfi dünyanın indiyə qədər şahidi olduğu ən böyük kəşf sayıla bilər, çünki mütləq bilirəm ki, bəlkə də bu sətirləri yazdığım an belə buxarlı mühərrikin yerini almışdır... Və bu yeralma hadisəsinin sırf olunan kəşf kimi faciəli bir sürətlə baş verəcəyindən əminəm. Sizin admirallıqda daimi vəzifə daşıyan adamların formalaşdırdığı mexanizmin içində olduğunuzu bilirəm və bu düşüncə məni dəli edir. Bu adamların indiyə qədər səbəb olduğu zərərlərin qarşısının alınması üçün çox qüvvətli və çox qabiliyyətli bir adamın artıq şərt olduğuna inanıram. Əgər bu adam Uinston Çörçill olarsa, ona bütün qəlbim və ruhumla yardım edəcəyəm."





**Sürət**

Bu məktubun yazılmasından qısa bir müddət sonra Fişer neft mövzusunun müzakirə edilməsi məqsədilə Marcus Samueli Çörçillə görüşdürməyin yollarını aradı və ikisi arasında bir görüş təşkil etdi. Ancaq Shell Nəqliyyat və Ticarət Şirkətinin sədri olan Samuellə görüş Çörçillə nədənsə bir elə də təsir etməmişdi. Bu da Fişeri yolundan döndərmədi və işin davam etməsi üçün Çörçillə yazdığı qısa bir xatırlatma məktubunda əvvəlcə Samuelin onda buraxdığı naxoş təsirə görə üzr istəyib, məqsədini bu sözlərlə dilə gətirdi: "O, xarici görünüş etibarilə çox parlaq olmaya bilər, ancaq işə səyyar satıcılıqla, bu gün şirkətinin adını daşıyan dəniz qabığı sataraq başladığını xatırlatmaq istəyirəm. Bir günün hansısa bir səyyar satıcısı olan bu adamın bu gün bankda özünün şəxsi olaraq 6 milyon sterlinq pulu var. Samuel çayın bardağa necə töküləcəyini bilməyə bilər, ancaq özü əslində yaxşı bir çaydandır." Sözlərinin sonunda Fişer hər şeyi açıb tökdü. İkisi arasındakı bu toplantını Çörçilli inandırmaq üçün təşkil etdiyini, neft ehtiyatının Kraliyyət Donanmasına gen-bol yetəcəyini, bu baxımdan neftdən istifadə üçün rahatlıqla və çəkinmədən hərəkətə keçə biləcəyini Çörçillə izah etdi. Ona neftin kömürdən daha sərfəli olduğunu başa salan uzun bir nitq irad etdikdən sonra bunları da söylədi: "Unutmayın ki, neft kömür kimi tez-tez xarab olmaz. Həm də neft su altındakı tankerlərdə belə böyük miqdarda depolanıb saxlanıla bilər. Beləliklə, yanğın nəticəsində və ya bir bombardman, ya da qəza səbəbilə xarab olmasının da qarşısı alınar. Bundan başqa, Süveyşin şərqində neft kömürdən daha ucuzdur!" Bütün bunları yazdıqdan sonra

Samuelin onu Shell şirkətinin İdarə Heyətinə çağırdığını, ancaq bu təklifi qəbul etmədiyini də məktubuna əlavə edərək, belə davam edirdi: "Mən yoxsul bir adamam və vəziyyətimdən də şikayət etmirəm! Ancaq zəngin olmaq istəsəydim, mütləq neft işinə atılardım. Yanacaqla işləyən mühərrikin tətbiqi nəticəsində yük daşıyan bir gəminin yanacaqdan 78 faiz qənaət edəcəyi, yük yerindən də 30 faiz yer qazanacağı, üstəgəl, nə qədər kömürçü və mühəndisdən də xilas olunacağı nəzərə alınarsa, qapımızda neftlə gələcək hansı böyük və möhtəşəm dəyişikliklərin bizi gözlədiyi asanca aydınlaşar." Admiral Fişer kömürdən neftə keçməyin çox vaxt apardığını görüb, bu vəziyyətdən məmnun qalmırdı. Bunun doğuracağı təhlükəli nəticələr haqqında Çörçilli tez-tez xəbərdar edirdi. Ona yazdığı bir yazıda bunları söyləməkdən belə çəkinməmişdi: "Günlərin bir günündə yanacaq kimi sadəcə neftdən istifadə edən müasir Amerika savaş gəmiləri dənizlərimizdə seyr edərsə və alman bayraqları daşıyan bir mühərrikli savaş gəmisi bizim "tısbağa yerişli gəmilərimizə" atəş açarsa, heç şübhəm yoxdur ki, ölkənizdəki qoca qarılar bu mənzərəni seyr etməkdən xoşlanacaqlar!"

Çörçill nazir təyin olunduğu zaman donanma yanacaq kimi sırf neftdən istifadə edən 56 ədəd destroyer və yalnız neftlə seyr etməsi mümkün olan 74 ədəd sualtı gəmi istehsal etmişdi. Bundan başqa, bütün gəmilərin kömür qazanlarına bir miqdar neft püskürdülmüşdü. Ancaq yenə də dəniz donanmasının ən əhəmiyyətli hissəsi olan, donanmanın əsil onurğa sütununu təşkil edən böyük savaş gəmilərində yanacaq olaraq hələ də kömürdən istifadə olunurdu. Çörçill və donanma rəhbərliyinin - hər ikisinin birlikdə arzuladığı şey, yeni bir savaş gəmisi yaratmaq, bu gəmiləri daha böyük silahlar və zirehli vasitələrlə təchiz





etməkdi. Bu da kifayət deyildi. İngilis savaş gəmilərinin düşmən gəmilərinin önünə keçməsi və bu gəmiləri mühasirəyə ala bilməsi üçün mütləq daha çox sürət qazanmasını istəyirdilər. Fişer Çörçillə tez-tez bunu xatırlatmışdı: "Dənizlərdə aparılan müharibə sağlam düşüncənin özüdür ki var. Ehtiyacımız olan şeyin birincisi SÜRƏT-dir və sürət müharibə etmək üçün əsas şərtdir. İstədiyimiz zaman, istədiyimiz yerdə, istədiyimiz şəkildə savaşmaq üçün yüksək sürət lazımdır." O günün ingilis savaş gəmilərinin sürəti 21 dəniz milinə qədər idi. Ancaq Çörçillin müşahidələrinə görə, "çox daha böyük sürətə" ehtiyac vardı. "Daha böyük sürət" dəniz savaşına yeni bir ünsür qazandıracaqdı. Çörçillin əmriylə aparılan bir araşdırmada Hərb Akademiyası, 25 dəniz mili sürətində yeni inşa ediləcək "sürətli gəmilərin" yeni-yeni törəməkdə olan alman donanmasının gəmilərini ötüb keçəcəyini təxmin etmişdi. Qısası, Kraliyyət Donanmasının əlavə olaraq 4 dəniz milinə daha ehtiyacı vardı və bu da neftdən yanacaq kimi istifadə etməyə keçid etmədən heç bir şəkildə həyata keçirilə bilməzdi.

Nəhayət, Fişerin Çörçillə verdiyi təlim-tərbiyə tamamlandı. Artıq Çörçill neftin yalnız sürəti artırmaqla kifayətlənməyəcəyinə, eyni zamanda standart səviyyədən aşağı olan sürəti də istənilən səviyyəyə qaldıracağına inanırdı. Neftin gətirəcəyi üstünlük bununla da qalmırdı. Donanmanın keçirəcəyi əməliyyatlar və insan gücü baxımından da üstünlüklər vardı. Neft hərəkət baxımından daha böyük əməliyyatları mümkün edir, kömürün tərsinə, heç olmasa, sakit dənizlərdə seyr halındaykən yeni yanacaq doldurulmasına imkan verir və bunu gəmidəki insan gücünün dörddə birini bu işə səfərbər etmədən etmək mümkün olurdu. Neftdən istifadəyə keçməklə kömürdən

istifadə zamanı qarşılaşılan stres, vaxt itkisi, yorğunluq və narahatlıq kimi faktorlar da ən aşağı səviyyəyə enirdi. Bundan əlavə, yanacaq işində də o qədər çoxsaylı kömürçüyə artıq ehtiyac qalmırdı. Çünki neftdən istifadə çox sayda qazançının lazım olmadığını ortaya qoyur, eyni iş daha az sayda adam tərəfindən yerinə yetirilirdi. Sürət baxımından olduğu qədər əməliyyatlar baxımından da neftin gətirəcəyi üstünlüklər, əsil ən kritik zamanlarda, yəni savaş sırasında çox təsirli formada yararlı olacaqdı. Bu haqda Çörçill belə yazırdı: "Kömür yandırılan bir gəmidə kömür tükəndiyi zaman, yenidən kürəklə kömür atılması üçün çox sayda insana ehtiyac vardır. Bunlar lazım olanda silahlarını tərk edib kömürü uzaq, əlverişsiz yerlərdəki kömür ambarlarından götürüb qazanlara daha yaxın kömür saxlama yerlərinə və ya doğrudan-doğruya qazanlara daşımağın ardınca düşərlər. Bu, şübhəsiz ki, savaşın ən kritik dəqiqəsində gəminin savaş gücünü zəiflətmək deməkdir... bu baxımdan, neftdən istifadə etməyin hər tip gəmidə daha az sahədə, daha az məsrəflə, daha çox barıt və daha çox sürət təmin etdiyi bir həqiqətdir."

1912, 1913 və 1914-cü illərdə 3 ayrı dənizçilik proqramı tərtib olundu. Bu proqramlar sayəsində Kraliyyət Donanması güc və sürət mövzularında o günə qədərki tarixində heç bir zaman görmədiyi qədər çox üstünlüklər əldə etdi. Bu proqramlara daxil olan gəmilərin hamısı neftə bağlı olaraq istehsal olundu. İçlərində kömürə bağlı olan tək bir gəmi belə qalmadı. İstehsal olunanda kömürə bağlı olan gəmilər də bu proqramların nəticəsində neftə keçirildi. 1912-ci ilin aprel ayında həyati əhəmiyyətli bir qərar alınaraq, donanma büdcəsinə "Sürət üçün xərc" başlıqlı bir maddə əlavə olundu və bu maddəyə görə neftlə çalışan Queen Yelizaveta standartında 5 ədəd savaş gəmisindən





təşkil olunan bir "sürət gəmiləri" dəstəsi formalaşdırıldı. Çörçill xatirələrində bu hadisəni bu cür xatırlayır: "Taleyin müəyyənləşdirdiyi bu dalış nəticəsində həyatımızı bağladığımız donanmamızın ən super standartlara cavab verən gəmiləri artıq neftlə və yalnızca neftlə qidalanır."

Beləliklə, neft mövzusunda yeni bir dönəmə başlanılırdı. Ancaq bu da ciddi problemlərə səbəb olurdu: Neft haradan çıxarılacaqdı? Kifayət qədər neft vardımı? Tapılan neft yataqları hərbi və siyasi baxımdan təhlükəsizmi olacaqdı? Çörçill əslində böyük bir qumar oynamış və hələ neftin ehtiyat problemi öz həllini tapmadan neftə keçmək üçün əlaqədar orqanları bir növ məcbur etmişdi. Neftə keçmə tələskənliyini Çörçill irəlidəki günlərdə bu səbəblə izah edəcəkdi: "Neftə bağlı olaraq işləyən çox sayda gəmi istehsal etmişdik. Bu, dənizlərdəki üstünlüyümüzü neftə dayandırmaq mənasına gəlirdi. Bir başqa tərəfdən, sahib olduğumuz adalarda işə yarayacaq miqdarda neft yoxdu. Neft istədiyimizə görə, onu əldə etməyin iki yolu vardı: ya sülh şəraitində dəniz daşımaçılığına girişib, nefti ölkəyə o yollarla gətirmək, ya da müharibəyə başlayıb bu yolla nefti uzaq ölkələrdən əldə etmək. Digər tərəfdən, öz torpaqlarımızın altındakı mədənlərdə təhlükəsiz şəkildə yatan dünyanın ən yaxşı keyfiyyətinə malik, ən üst səviyyəli kömürünə sahib idik. Deməli, donanmanı bir daha geri qayıtmamaq üzrə neftə bağlamaqla "bir dərdlər dənizinə qarşı silahlanmış" olurduq (Şekspirin Hamletindən). Amma mütləq bunu da dəqiq bilirdim ki, bizi gözləyən çətinliklərə və risqlərə sinə gərmək şərtilə donanmanın bütün gücünü və təsirliliyini daha yüksək səviyyəyə çıxaracaqdıq. Bu, daha yaxşı gəmi, daha yaxşı gəmi kollektivi, daha yüksək iqtisadi səviyyə, daha güclü formada savaş gücü deməkdi. Bir cümləylə - bu həmlədə təşəbbüsün əsas mükafatı hegemonluq olmuşdu."

## Admiral cevizin qabığını sındırır

Kömürdən neftə keçmənin gətirdiyi problemləri araşdırmaq üçün Çörçill bir komissiya qurmuşdu. Komissiyanın vəzifəsi neftə olan tələbatın və istehsalın qiymətləndirilməsi, neftin təmin olunması və təhlükəsizliyi haqqında informasiyalar toplayıb, onları incələməkdi. Daha sonra eyni komissiya bu mövzuları daha ətraflı araşdırmaq üçün bir Kraliyyət Komissiyası qurulmasını təklif etdi. Çörçill bu ikinci komissiyanın başına təqaüddə olan admiral Fişeri gətirmək istəyirdi. Ancaq bunun qarşısını alan bir əngəl vardı - Cek Fişerin bilavasitə özü. Fişer bəzi təyinatları təsdiq etməməsi səbəbilə Çörçilldən incimişdi və barıt çəlləyini xatırladırdı. Çox əsəbi idi. 1912-ci ilin aprel ayında Neapoldan yazdığı bir məktubda Çörçillə bunları bildirmişdi: "Donanmaya xəyanət etdiniz. Bu, hər hansı bir mövzuda sizinlə apardığım və aparacağım son yazışmadır."

Əsəbi halda olan admiralı yenidən yola gətirmək üçün bir xeyli dil tökmək və iltifat etmək lazım olmuşdu. Çörçillin Baş nazir Asquithlə birlikdə admirallığa aid bir yatla çıxdığı Aralıq dənizi səyahəti nəticəsində və xüsusilə də yazdığı kövrək bir məktubla admiral nəhayət yola gəlmişdi. "Əziz dostum Fişer" deyə başladığı məktubuna Çörçill bu sözlərlə davam edirdi:

"Elə ümid edirəm ki, siz və mən çox-çox yaxşı iki dostuq və əminəm ki, qarşımızdakı problemlər, ancaq çox ağır bir dillə ifadə edilərsə başa düşüləcək dərəcədə ciddi problemlərdir.

Bu maye yanacaq problemi mütləq öz həllini tapmalıdır. Problemin özündə ehtiva etdiyi ciddi, qaçınılmaz





çətinliklər həqiqətən böyük bir adamın güclü iradəsinə və coşğunluğuna möhtacdır. Bunun üçün, yəni cevizin qabığının qırılması üçün sizə ehtiyacım var. Bu işi sizin qədər mükəmməl həyata keçirə biləcək başqa birisini tanımıram. Nəinki sizin kimi, hətta nə isə edə biləcək birisini tanımıram. Sizi cevizi sındıra biləcəyiniz bir vəzifəyə təyin edəcəyəm, təbii ki, əgər cevizi sındırmaq mümkündürsə. Bu, bütün həyatınızı və gücünüzü bu hədəfə ayırmağınız mənasına gəlir. Mən isə bunun əvəzinə sizə nə verməyimin lazım olduğunu bilmirəm. Əvvəlcə nefti axtarıb tapmağımız lazım olacaq. Neftin çox ucuza necə başa gələcəyini, ehtiyatlar halında necə saxlanacağını, nizamlı olaraq, eyni zamanda həm sülh, həm də müharibə şəraitində mütləq bir qarantiya ilə necə satın alınacağını göstərməyiniz lazımdır. Ondan sonra da şübhəsiz ki, neftin bu günkü gəmilər və gələcəkdəki gəmilərdə mümkün olan ən yaxşı metodla istifadə olunmasını təmin etməyiniz tələb olunacaq...

Bu müəmmanı həll etdikdən sonra qarşınızda sizi gözləyən və səssizliyə gömülmüş böyük bir dinləyici kütləsi görəcəksiniz. Ancaq Tanrıdan şan və şərəf diləmək şərtilə, sizin özünüz arzulamadıqca, özünüzü məşəqqətlərə atmadıqca, bu müəmma öz həllini tapmayacaqdır."

Çörçill hər yola müraciət etməklə bundan daha yaxşısını edə bilməzdi. Yeri gəlmişkən, Fişer heç vaxt itirmədən tərsliyi bir yana buraxıb, həyat yoldaşına yazdığı məktubda bu sözlərə yer vermişdi: "Bunu qəbul edirəm ki, onlar bu işin öhdəsindən məndən başqasının gələ bilməyəcəyinə yekdilliklə qərar verərkən, haqlıydılar." Nəticədə Fişer ona tapşırılan vəzifəni qəbul etdi və qısa bir müddət sonra da - hər hansı bir dedi-qoduya meydan verməmək üçün - əlində olan Shell Şirkətinin hissələrini ziyanına olsa da, satdı.

"Yanacaq və motorin haqqında Kraliyyət Komissiyası" adlı bir komissiya formalaşdırılmışdı. Komissiya seçkin adamlarla təmsil olunurdu və üzvlərdən biri də bu kimi toplantılarda hər zaman hazır olan və toplantılara yaxasındakı nişanıyla gələn məşhur neft mütəxəssisi Ser Tomas Boverton idi. Fişer özünü bu işə həsr etdi. Çox işlədiyini, həyatında o günə qədər işləmədiyi dərəcədə çox işlədiyini söylədi. O günlərdə neftlə təchiz olunmuş alman donanmasının seyr etməkdə olduğu xəbərləri yayılmışdı. Bu xəbəri eşitdikdən sonra Fişer daha da israrlı danışmağa başlayaraq, bunları söylədi: "almanlar dəzgahlarda nefti sınaqdan keçirərkən, tam 15 adamlarının ölümünə səbəb oldular. Biz isə tək bir adamımızı belə itirmədik. Ötən gün sərsəm bir ingilis siyasət adamı mənə, bunun bizim lehimizə olduğunu söyləyirdi."

Komissiya hazırladığı raportun birinci hissəsini 1912-ci ilin noyabr ayında, ondan sonrakı hissəsini isə 1913-cü ildə təqdim etdi. Raportda həm mazotun kömürdən fövqəladə üstünlükləri vurğulanır, həm də Kraliyyət Donanması baxımından nə dərəcədə həyati əhəmiyyət daşıdığı bildirilirdi. Raporta görə, bütün dünyada kifayət qədər neft ehtiyatları mövcud idi, ancaq nefti depolayıb saxlayacaq kifayət qədər təsis yox idi və bunun yetərli olması üçün bu təsislərin daha da inkişaf etdirilib böyüdülməsi lazımdı. Fişerə görə, "neft yalnız İngiltərədə deyildi." Komissiya iclasının sona çatmasından sonra Marcus Samuelin neftlə işləyən bir ingilis donanması görmək xəyalı həyata keçəcəyə bənzəyirdi. Ancaq cavab gözləyən bir sual qalmışdı. Əldə ediləcək qazancın meyvəsini kim alacaqdı? Buna veriləcək iki ehtimal olunan cavab, iki maddə vardı: Ya güclü və təhkim olunmuş mövqedəki Hollandiya Kraliyyət/Shell Qrupu və ya ondan daha kiçik və hələ də ora-bura döyükən Anqlo-Pers Neft Şirkəti.





**Shelldən gələn təhlükə**

Anqlo-Pers Şirkətinin ortaya çıxması Villiam Knox, D`Arcy, Corc Reynold və Burma Şirkətinin ortaq təşəbbüsləriylə gerçəkləşsə də, şirkətə əsil istiqamət verən adam Çarlz Greenwaydır. Bu adamın neftlə ilk tanışlığı Bombeydə şotland kökənli bir ticarət firmasında müdir olaraq çalışdığı günlərə rastlayar. "Burma Neft"ə bağlı olaraq çalışan şotlandiyalı tacirlər Greenwaydan, Anqlo-Pers Şirkətinin ilk başlanğıc mərhələsində onlara kömək göstərməsini xahiş etmişdilər. O da bu tələbi qəbul etmiş və bir il içində şirkətin idarə müdirliyinə gətirilmişdi. Ondan sonrakı 20 illik müddətdə Greenway bu şirkətin tam hakiminə çevrildi. İşə ilk başlayanda əmrində bir nəfər belə olmayan bu adam, təqaüdə çıxıb şirkətdəki vəzifəsindən ayrılanda birləşmiş bir neft şirkətinin başçısı statusundaydı və fəal olaraq vəzifəsinin tələbi üzrə bütün dünyanı gəzib dolaşırdı. Həyatının daha irəlidəki illərində "Şampan Çarli" ləqəbi ilə xatırlanmağa başladı. "Tozlu və monokl kimi eynəyi ilə" bir çox karikaturaları çəkildi. Ədа və davranışları baxımından "səliqəli, hətta həddindən artıq səliqəli" olan Greenway, tutduğunu qoparan adamdı və hər zaman üçün ağır müzakirələrə, qovğalara açıqdı, heç nədən çəkinmirdi. Ən əhəmiyyətli saydığı hədəflərə yetişmək mövzu bəhsi olduğunda, heç bir şəkildə boyun əyməyən, inadcıl bir xarakterə sahibdi. Anqlo-Pers Şirkətini dünya neftçiliyində böyük güc halına gətirmək istədiyi, Böyük İngiltərənin ən böyük şirkətinə çevirməyə çalışdığı və Kraliyyət Neft/Shell Şirkətinin istənməyən qucağına dəvət edildiyində, bu təzyiqlərə dirəndiyi zamanlarda da bu inadcıl xüsusiyyətlərini sıx-sıx büruzə vermişdi.

Məqsədinə çatmaq üçün nə lazımdırsa, onu da edərdi. Buna Hollandiya Kraliyyət/Shell Şirkətinə qarşı girişdiyi qan davasını xatırladan bitib-tükənməz mübarizə də daxildir. Bu yoldakı təşəbbüsləri zamanla həm yararlı bir taktikaya, həm də şəxsən formalaşmış sabit fikrə çevrilmişdi.

İngiltərənin içində yer aldığı "taleyin cızdığı təhlükəli dalış", Hollandiya Kraliyyət/Shell Şirkəti ilə Anqlo-Pers Şirkəti arasındakı rəqabəti qaçınılmaz olaraq daha da qamçılamış, daha çətin və daha amansız bir savaşa çevirmişdi. Bu savaşda Anqlo-Pers mütləq şəkildə perspektivsiz görünürdü. Şiddətli bir maliyyə böhranı yaşayırdı. Greenwayın nöqteyi-nəzərindən baxıldığında, onun da bir elə zamanı qalmamışdı. Bu baxımdan, eyni anda bir neçə hədəfə birdən nişan alması lazım idi. İranın neft qaynaqlarını inkişaf etdirmək üçün sərmayə axtarıb tapmaq, neft şirkətini yenidən qurmaq, etimadlı bazarlar təşkil etmək və Hollandiya Kraliyyət/Shell Şirkəti ilə bağladığı bazarlama müqaviləsinə baxmayaraq, bu şirkət tərəfindən "udulmağı" əngəlləmək kimi hədəflər - onun uğrunda mübarizə apardığı hədəflərdi. Anqlo-Pers Şirkətinin çox məhdud maliyyə gücüylə onun üçün haradasa Shell tərəfindən udulmaqdan başqa görünüşdə yeganə bir alternativ vardı: O da İngiltərə Admirallığı idi. Greenway Admirallığa 20 il müddətinə bir mazot müqaviləsi təklif etdi və sağlam bir əlaqə yaradılması üçün bütün gücüylə təşəbbüs göstərdi. Ümid edirdi ki, bu sağlam əlaqə yaransa, şirkət içində çırpındığı maliyyə böhranından xilas olacaq.

Greenway mütləq şəkildə bilirdi və təkrar-təkrar üzərində durduğu tezis o idi ki, - Fişer komissiyası qarşısındakı ifadədən və Whitehall nəzdində etdiyi açıqlamadan da başa düşüldüyü kimi - hökumət yardım





etmədikcə, Anqlo-Pers Şirkəti mütləq Shell Şirkətinin içində it-bata düşəcəkdi. Bu haqda əlaqədar orqanlara xəbərdarlıq edir və belə bir şey olarsa, Shellin inhisarçı şirkətə çevriləcəyini, bu vaziyyətdən yararlanaraq inhisarçı şirkət kimi qiymətləri "bədbəxt" adlandırdığı Kraliyyət Donanmasının belindən çıxaracağını bildirirdi. Bu arada Samuelin "yəhudiliyini" və Deterdingin "hollandiyalılığını" tez-tez dilə gətirib vurğulamaqdan da geri qalmırdı. Greenwaya görə, Shell Şirkəti Hollandiya Kraliyyətin təsiri altındaydı və Hollandiya hökuməti də alman təzyiqinə qarşı həddindən artıq zəif müqavimət göstərirdi. Shellin hakimiyyətinə girmək - Fişerin komissiyasına verdiyi izahatında da söylədiyi kimi - məntiqlə düşünüldüyündə Anqlo-Pers Şirkətinin "düppədüz alman hökumətinin hakimiyyəti altına girməsi deməkdi."

Greenway əvvəlcə şikayət edərək, özünün və silahdaşlarının İngiltərənin milli maraqlarına bu dərəcədə bağlı olduqları üçün, onların mükafatlandırılmasını tələb etdi. Arxasından da içini açaraq özünün və hamısı ingilis olan vətənpərvər silahdaşlarının yeganə məqsədlərinin Shellə gələcək iqtisadi yüksəlişlərin qarşısını saxlamaq olduğunu, Shellə birləşməkdənsə, iqtisadi mənfəətlərdən imtina edib müstəqil olmağı seçdiklərini bildirdi. Etdikləri bütün fədakarlıqlara görə yeganə bir şey istəyirdilər. İngiltərə hökumətindən onları düşündüyünü göstərən xırda bir qarşılıq, diqqət. "Hər cür şərtlər altında sərmayəmizin mütəvazi qarşılığının ödənəcəyini sənədləşdirən" bir qarantiya və ya yazılı müqavilə. Bu arada Greenway Anqlo-Pers Şirkətinin İngiltərənin strategiya və siyasətinin təbii və bölünməz bir parçası olduğunu, çox əhəmiyyətli bir milli dəyər daşıdığını təkrar-təkrar vurğulayır, şirkətdəki bütün müdirlərin də mövzuya bu gözlə baxdıqlarını söyləyirdi.

Greenwayın çatdırmaq istədiyi mesaj hədəfini tapmaqda gecikməyəcək və Kraliyyət Komissiyası qarşısındakı ifadəsindən sonra Fişerdən bir görüşmə tələbi gələcəkdi. Toplantı bitəndən və hamı dağılışandan sonra Fişer Greenwayı bir müddət yanında saxlayıb onunla Pall Mall xaricində özəl söhbətləşəcəkdi. Bu görüşdə Fişer israrla dərhal bir şeylər edilməsinin lazımlılığını söyləmişdi. Greenway bu tələbdən çox məmnun qalmışdı. Çünki ona məlum idi ki, Fişer Marcus Samuellə dost olmasına baxmayaraq, tam olaraq nə edilməsinin lazım olduğunu çox yaxşı bilirdi. Bir yazısında "Anqlo-Pers Şirkətinin nəzarətini əlimizdə tutmaq və hər zaman üçün tam mənasında onun "tipik bir ingilis şirkəti" kimliyində qalması üçün əlimizdən nə gəlirsə etməliyik" yazmışdı.

Greenwayın bu tezisi başqa yerlərdə də dəstək tapdı. Xarici İşlər Nazirliyi İngiltərənin İran Körfəzindəki mövqeyindən məsuliyyət daşıyırdı və bu səbəblə Greenwayın bu davadakı görüşlərini ümumi çərçivədə inandırıcı qəbul etmişdi. Xarici İşlər Nazirliyinin əhəmiyyət verdiyi və diqqət yetirdiyi mövzu Anqlo-Pers müqaviləsinin "İranda nə qədər neft sahəsi varsa, hamısını birdən qucaqlaması səbəbilə... bunları əcnəbi bir quruluşa heç bir şəkildə keçməyəcək olmasıydı." Nazir İngiltərənin İran Körfəzindəki siyasi üstünlüyünün daha çox "sahib olduqları ticari üstünlüyün bir nəticəsi" olduğu qənaətindəydi. Bundan başqa, Kraliyyət Donanması digər sahələrdə də bir çox ehtiyacların olduğuna inandırılmışdı. Xarici İşlər Naziri Ser Eduard Grey bu haqda görüş bildirərkən, bu sözləri söyləyəcəkdi: "Etməyimiz lazım olan şey, yalnız İngiltərə Donanmasına yetəcək miqdarda, məhdud bir neft sahəsini İngiltərənin nəzarətində saxlamaqdır. Görəcəyimiz iş bundan ibarətdir." Greenwayın





durub-dincəlmədən "Shell təhdidlərindən" bəhs etməsi, Anqlo-Pers Şirkətinin vətənpərvərlik cığallığı etməsi Xarici İşlər Nazirliyini zaman-zaman əsəbiləşdirir, hətta şübhələndirirdi. Nəticədə izlənəcək siyasət Xarici İşlər Nazirliyinin yuxarıdakı sözləri ilə müəyyənləşdirilir və bu siyasətdən heç bir zaman kənara çıxmamağa qərar verilirdi. 1912-ci ilin axırlarında Xarici İşlər Nazirliyi Donanmaya göndərdiyi bir yazıda "APOC-un müstəqilliyini qorumaqda sadəcə diplomatik yardımla yetinmənin kifayət etmədiyinin açıqca ortaya çıxdığı" bildirilirdi. "Anqlo-Pers Şirkətinin əsil hədəfində olduğu şeyin maddi yardım olduğu" da ayrıca vurğulanırdı.

## Anqlo-Persə yardım

Maddi yardım deyən kimi, bu yardımın donanmadan gələcəyi ağla gəlirdi. Bu səbəblə əvvəlcə admirallıq Anqlo-Pers Şirkəti ilə bu cür bir əlaqəyə girməkdən qaçınacaq və "həddindən artıq macəraçı riqs kəsb edən" bu işə bulaşmaqdan çəkinib-qorxacaqdı. Ancaq zamanla admirallığın məsələyə baxışı 3 ana faktora bağlı olaraq dəyişirdi. Bunlardan birincisi o idi ki, İran qaynaqlı neftin o biri qaynaqlardan gələn bütün digər neftlər arasında ən rahat tapılanı və ən təhlükəsiz olduğuna dair yayılmış bir qənaət mövcuddu və bu qənaət get-gedə daha da mənimsənilib qəbul olunurdu. Zamanla İran qaynaqlı neft xaricində başqa neftlərin rahat axtarılıb tapılma səviyyəsi və təhlükəsizliyi gedərək şübhəylə qarşılanırdı. İkinci faktor, mazot qiymətinin dramatik bir şəkildə artması, hətta 1913-cü ilin yanvar və iyul ayları arasında iki qatına çıxmış olmasıydı. Fueloilun qiymətlərindəki bu yüksəliş bütün

dünyada dənizçilik sahəsindəki neftə olan tələbatın getgedə artmasından irəli gəlirdi. Bu, donanma büdcəsi haqqında aralıqsız davam edən siyasi savaşın daha da qızışdığı günlərə təsadüf etmişdi və o günlərdə neftlə işləyən gəmi inşaatının da başlaması səbəbilə, xüsusilə daha çox əhəmiyyət kəsb edirdi.

Üçüncü faktor isə sırf Çörçillin özündən qaynaqlanırdı. Çörçill bir-birinin ardınca qərarlar alır, yüksək səviyyəli donanma zabitlərini həm sülh, həm də savaş dövrlərində neftin axtarılıb tapılma dərəcəsi, bunun üçün lazım olan ehtiyacların təsbit olunması və lojistik dəstək haqqında araşdırma aparmağa məcbur edirdi. 1903-cü ilin iyun ayında Çörçill Nazirlər Kabinetinə "Majesterlərinin donanması üçün Fueloil Təklifi" adlı bir sənəd təqdim etdi. Sənəd kifayət qədər neftin uyğun qiymətlər qarşılığında təmin olunmasını qarantiləyəcək uzun vədəli müqavilələr bağlanmasını ehtiva edirdi. Sənədə hakim olan ab-hava prinsip olaraq "yarışma halındakı müstəqil neft şirkətlərinin öz ayaqları üstündə dura bilməsi üçün lazımi dəstəyi vermək", beləliklə, "dünya çapında bir neft inhisarının qurulmasını əvvəlcə çətinləşdirib, sonra məhdudlaşdırmaq" və "donanmanı hər hansı konkret bir şirkətin asılılığına girməkdən qorumaqdı." Nəticədə Kabinet prinsip olaraq Çörçillin bəyanatını qəbul etdi və Baş nazir Asquithin Kral V Corca yazdığı kimi, hökumətin "etibarlı neft qaynaqları məsələsinə maraq göstərməsinin lazımlı olduğunu və bu sahədə nəzarəti əlində saxlamasının gərəkliliyini" bildirdi. Ancaq hökumət bunu tam olaraq necə yerinə yetirəcəkdi? Bu məsələnin müzakirə olunması üçün Greenwayın da qatıldığı bir toplantıda, uzun müzakirələr nəticəsində, o zamana qədər cavabını gözləyən sual həllini tapmağa başladı. Daha açıq bir deyimlə,





Anqlo-Pers Şirkətinə dəstək veriləcəkdi, ancaq bu dəstəyin legitimləşdirilməsi üçün bilavasitə hökumətin özü şirkətə hissədar olacaqdı.

17 iyul 1913-cü ildə Çörçill parlamentə xitabən bir çıxış elədi. Bu çıxış, Londonda nəşr olunan "The Times" jurnalının dəyərləndirməsinə görə, neftə göstərilən milli marağı avtoritar üslubla nümayiş etdirən bir çıxışdı. Bu çıxışında Çörçill bir addım da ataraq, ətrafına xəbərdarlıq edir və "əgər neft ala bilməsək, ətriyyat və başqa şeylər də ala bilmərik, pambıq da ala bilmərik və Britaniyanın iqtisadi enerjisinin qorunması üçün lazım olan o min bir növ malı da ala bilmərik" deyirdi. Çıxışında daha sonra bu sözlərə yer vermişdi: "Artıq "açıq bazar" "açıq maskaralıq" halına gəldi. Lazım olan miqdarda neft ehtiyatını uyğun qiymətlər qarşılığında qarantiləyərək satın almağımız üçün admirallığın, tələb etdiyi neftin əksəriyyətinin "sahibi və ya ən azından birbaşa qaynaqdan təqibçisi" olması lazımdır. Bu işə əvvəlcə rezervlər inşa edərək başlamalıyıq, sonra da bazarda necə ələ alınacağını öyrənməliyik. Bundan başqa, xam nefti işləməyi və həddindən artıq olduğu zaman, lazım olduğunda məhv etməyi öyrənməliyik. Bunların hamısını donanma etməlidir. Konkret tək bir keyfiyyətə, konkret tək bir əməliyyata, konkret tək bir ölkəyə, konkret tək bir yola və konkret tək bir neft yatağına bağlı qalmağımız qətiyyən olmaz. Neftdə rahatlığın və qarantiyanın təmin olunması, yalnız və yalnız müxtəlif variantlardan istifadə etməklə mümkündür."

Beləcə, Anqlo-Pers Şirkətiylə konkret heç bir müqavilə bağlanmamışdı. Amma yenə də Kabinet İrana bir nümayəndə heyəti göndərib, Anqlo-Persin götürdüyü öhdəliklərin nə qədərini yerinə yetirə biləcəyini tədqiq etmək istədi. Abadandakı yeni neftayırma zavodu o zamanlar

çox nəhəng problemlərlə qarşı-qarşıya qalmışdı. "Burma Neft"in müdirlərindən biri Abadanı "qırıntı yığını" olaraq tərif etmiş, onun bundan başqa bir işə yaramadığını söyləmişdi. Hətta zavodun istehsal edib böyük bir güvənlə "Admirallıq" adını verdiyi mazot belə, admirallığın keyfiyyət sınağından çıxa bilməmişdi. Ancaq tam nümayəndə heyətinin gəldiyi gecə şirkət tez-tələsik bəzi yeniliklər nümayiş etdirməyə başladı. Bunu qaşla-göz arasında Rangoondan gətirilən yeni bir neftayırma mütəxəssisi etmişdi. Yeri gəlmişkən, bu oyun baş tutmuşdu. Dənizçilik Kəşfiyyatının əski rəisi və nümayəndə heyətinin başçısı olan Admiral Edmond Slade bu haqda Çörçillə xüsusi olaraq bunları söyləyəcəkdi: "Bu, tamamən sağlam bir yatırım təsiri bağışlayır. Belə çıxır ki, çox böyük sərmayələr qoyulması ilə inanılmaz dərəcədə inkişaf etməsi mümkündür." Admiral Slade sözlərinə bu cür davam edirdi: "Neftin donanmada istifadə olunması haqqında şirkət bizə tam qarantiya verə biləcək vəziyyətdədir. Ancaq bu, bir şərtlə yerinə yetirilə bilər - şirkətə nəzarəti öz əlimizə almağımız şərtilə. Bu da çox uyğun bir qiymətə başa gələcək." Slade eyni zamanda 1914-cü ilin yanvar ayının axırlarında təqdim etdiyi rəsmi raportda "müqavilənin nəzarətinin başqa əllərə keçməsinə icazə verilərsə, bunun çox böyük milli fəlakət olacağını" ifadə edirdi. Slade bu raportunda Abadan mövzusuna da toxunmuş və Abadandan daha yumşaq və isti kəlmələrlə bəhs etməyi belə bacarmışdı.





## Bir neft qələbəsi

Admiral Sladenin raportu Anqlo-Pers Şirkəti üçün sanki göydən enmiş bir xilaskar oldu. Hərçənd bu aralarda şirkətin maliyyə vəziyyəti davamlı olaraq hər gün bir az daha pisliyə doğru gedir və həqiqətən çarəsizləşirdi. Bunlara baxmayaraq, Slade görülən işlərdən ağızdolusu danışmış və ən əhəmiyyətlisi də şirkətin Kraliyyət Donanması üçün etibarlı qaynaq olduğunu söyləmişdi. Bu halda Anqlo-Persin etməsi gərəkən bir iş vardı. Qarşısında açılan bu yolu zorlamaq və işi axıra çatdırmaq. Yeri gəlmişkən, Anqlo-Pers bunu etdi və 1914-cü il may ayının 20-də - Slade raportunun üzərindən 4 ay belə keçməmiş - şirkətlə İngiltərə hökuməti arasındakı bazarlıqlar nəticə verdi və bir müqavilə bağlandı. Ancaq bu müqaviləyə baxmayaraq, yenə də öz həllini gözləyən bir maneə qalmışdı. Maliyyə Nazirliyi hər hansı miqdarda pul ayrılması üçün bunun mütləq parlamentin təsdiqindən keçməsində israr edirdi.

17 iyun 1914-cü ildə Çörçill Nümayəndələr Palatasında bir daha ayağa qalxıb söz istəyir və tarixi bir təklif təqdim edirdi. Təklif etdiyi layihə iki ana ünsürdən ibarət idi. Birincisinə görə, hökumət Anqlo-Pers Şirkətinə 2.2 milyon pound dəyərində sərmayə verəcək, bunun qarşılığında şirkətin neft ehtiyatlarının 51 faizini alacaqdı. İkincisi, hökumət şirkətin İdarə Heyətində öz təmsilçisi kimi 2 müdir saxlayacaqdı. Bu müdirlər admirallığın yanacaq sözləşmələri üzərində və əhəmiyyətli siyasi mövzularda veto haqqına sahib olacaqdı, amma ticari fəaliyyətlərlə bağlı mövzularda veto haqqına sahib ola bilməyəcəkdilər. Əsas müqavilədən başqa, daha bir müqavilə hazırlanacaq, ancaq bu müqavilə gizli saxlanacaqdı. Bu ikinci

müqavilənin şərtlərinə görə, admiralhğa 20 illik müddət ərzində mazot təmin olunacaqdı. Göründüyü kimi, şərtlər çox cəlbedici idi və bundan başqa, həm də Kraliyyət Donanmasına şirkətin qazancından da bir miqdar pay ayrılırdı.

Bu iki müqaviləyə görə, Nümayəndələr Palatasında keçirilən müzakirələr çox dartışmalı olmuşdu. Müzakirələr zamanı Çörçillin hər hansı bir özəl məlumat tələb etməsi ehtimalına görə, Çarlz Greenway Maliyyə Nazirliyinin yüksək vəzifəli məmurları ilə birlikdə Nümayəndələr Palatasında rəsmi nümayəndələrə ayrılan lojada oturdulmuşdu. O gün orada hazır olan adamlardan biri də Samuel Samueldi. Nümayəndələr Palatasının Wandsworth üzvü kimi müzakirələrdə iştirak edən Samuel Samuel, illər boyu qardaşı Marcus Samuelə əlindən gələn köməyi edərək, Shell Şirkətinin yaradılmasına dəstək verən adamdı. Bu səbəblə də Çörçillin çıxışı zamanı davamlı qıvrıla-qıvrıla qalmış, yerində otura bilməmiş, narahatçılıq keçirmişdi.

Çörçill çıxışını bu sözlərlə davam edirdi: "Bu gün burada neftlə işləyən gəmi inşa etmək siyasətimizi və ya kömürlə çalışan gəmilərdə yanacaq olaraq neftdən istifadə olunmasını yox, bu siyasətin doğuracağı nəticələri müzakirə etmək üçün toplaşmışıq. Bu gün neft istehlakçısı nə yanacaqlar mövzusunda, nə də yanacaq mənbələri mövzusunda seçim etmək sərbəstliyinə sahib deyildir. Bir ətrafınıza, dünyada uzanıb gedən geniş neft yataqlarına baxın. Dünyanın əski və yeni olmaqla, hər iki tərəfində də div böyüklüyündə uzanan sadəcə iki ədəd şirkət görərsiniz. Bu şirkətlərdən biri Yeni Dünyadakı Standart Oildur. Əski Dünyadakı o biri böyük şirkət isə Shell və Hollandiya Kraliyyətdir. Bu gün bu ortaqlıq özünə bağlı olan bütün şirkətləri və şöbələriylə həmən-həmən bütün dünyanı





bürümüş, hətta haradasa Yeni Dünyaya qədər uzanıb getmişdir."

Çıxışın əvvəlində Samuel Samuel Çörçillin Hollandiya Kraliyyət/Shell Şirkətini qəsd edən kəlmələrinə etiraz etmək üçün 3 dəfə yerindən dik hoppanmışdı. Bu, Nümayəndələr Palatasının qaydalarının pozulması demək idi. Sözünün üçüncü dəfə kəsilməsindən sonra Çörçill Samuelə dönərək, buz kimi bir səslə "müdafiə olunmağa çalışmaqdan öncə, səslənən ittihamları dinləməyin daha doğru" olacağını söylədi. Bu xəbərdarlıqdan sonra əlacı kəsilən Samuel yerinə oturdu, amma heç cür əvvəlki təmkinini qoruyub saxlaya bilmədi.

Çörçill bu sözlərlə çıxışına davam edirdi: "İllər boyu Xarici İşlər Nazirliyi, Hərbi Dəniz Qüvvələri və Hindistan hökuməti İran bölgəsində İngiltərəyə aid olan müstəqil neft yataqlarının varlığını qorumağa, bu bölgənin inkişaf etməsi üçün əllərindən gələni etməyə və hamısından önəmlisi, Shell və ya başqa hər hansı bir şirkət tərəfindən ələ keçirilməsinin qarşısını almaq üçün mümkün olan hər şeyi etməyə cəhd göstərdilər və bunu siyasətlərinin bir parçası hesab etdilər. İndi madam ki, hökumət Anqlo-Pers Şirkətinə belə bir dəstək verir, o zaman şirkətin qazanclarında da mükafatlandırılmalı və uyğun hissəyə sahib olmalıdır." Çıxışının sonrakı hissəsində Çörçill bu sözlərə yer verirdi: "Bu möhtəşəm böyüklükdəki bölgələrin hər tərəfində güc və qüvvə İngiltərənin əlindədir. Biz bu güc və tərəqqini donanmamız və milli maraqlarımız naminə istifadə edərək göstərməliyik." Çörçill davam edərək deyirdi: "İndiyə qədər bu cür bir plana yönəldilən tənqidlərin hamısı sadəcə bir çeşmədən axıb gəlirdi." Bu sözlərdən sonra Çörçill bir qədər dayanmış və dərhal gözlənən hücumuna davam etmişdi. Hədəfi şübhəsiz ki,

"musluğun tam özüydü." "Bu musluq Hollandiya Kraliyyət/Shell Şirkəti və Marcus Samueldir". Arxasından da əlavə etdi: "Ancaq mən Shellə və ya Hollandiya Kraliyyət Şirkətinə hücum etmək istəmirəm."

Bu sözdən sonra arxa sıralarda əyləşən Samuel Samuelin "yaxşı ki, etmirsiniz" bağırtıları eşidildi.

Çörçillin bu tarixi çıxışı eyham və istehzalarla doluydu. Etdiyi təklif qəbul olunmasaydı, Anqlo-Pers Şirkəti Shellin bir parçası olacaq və onun içində əriyib gedəcəkdi. Çörçill çıxışında bunu da söyləmişdi: "Shell şirkəti ilə hər hansı bir qovğamız yoxdur. Shell hər zaman üçün bizə incə, düşüncəli, minnətdar yanaşmışdır. Dəniz Donanmamıza xidmət etmək eşqiylə dolu olmuşdur. İngilis donanmasının və İngiltərə imperiyasının maraqlarını hər zaman qorumağa hazır görünmüşdür. Amma bunların hamısını pulunu alaraq etmişdir. Aramızdakı yeganə problem də bu pul məsələsi idi. İndi artıq İran nefti əmrimiz altına girir, bundan sonra "daha az nazik", "daha az düşüncəli" bir münasibət görəcəyimizi zənn etmirəm. Hətta burada iştirak edən bu hörmətli bəylərin də bizə qarşı keçmişdəkindən daha az minnətdar, xalqa xidmət mövzusunda daha az istəkli və ya daha az vətənsevər hərəkət edəcəklərini qeyd etmək istəmirəm və buna inanmıram. Tam əksinə, inanıram ki, qiymət mövzusunda aramızda bu günə qədər mövcud olan xırda-para görüş ayrılığı - bu pis və səfil qiymət mövzusuna tez-tez toxunmaq məcburiyyətində qaldığım üçün üzgünəm - əgər ortadan qaldırılsaydı, əlaqələrimiz və münasibətlərimiz daha yaxşı... daha şirin olardı. Çünki o zaman bu münasibətlər ədalətsizliklə yoğrulmuş olmayacaqdı."

Bu sözlərdən sonra Samuel artıq dözə bilmədi və cavab vermək üçün əlinə düşən fürsəti fövtə vermədən bunları





söylədi: "İngiltərənin ən böyük ticari müəssisələrindən biri olan şirkətimizin ünvanına yönəldilən bu hücumları şiddətlə rədd edirəm. Bu hücumlar tam ədalətsizdir və heç bir haqlı səbəbi yoxdur." Bu sözləri söylədikdən sonra Samuel dayanmadan Shell Şirkətinin donanmaya etdiyi xidmətləri və dənizlərdə neftə keçid üçün göstərdiyi yardımları bir-bir sadalamağa başladı. Samuel həm də hökumətdən Shellin neft üçün tələb etdiyi və o günə qədər gizli saxlanılan qiymətlərin açıqlanmasını da istəyirdi. Qiymətlər açıqlandığı zaman şirkətin donanmanı heç bir şəkildə oyuna gətirmədiyi sübut olunacaqdı. Çıxış üçün söz alan bir başqası da Nümayəndələr Palatasının üzvü M.P.Watson Rutherford idi. Rutherford öz çıxışında Çörçillin etdiyi hücum mahiyyətli çıxışın gündəlikdə dayanan və komissiyanın önünə gətirilən problemlə heç bir əlaqəsinin olmadığını söyləyir və Çörçilli inhisarçılıq qayğılarını önə çəkdiyi, "yəhudilərə istiqamətlənən bəyanat verdiyi üçün" tənqid edirdi. Rutherfordun açıqlamasına görə, mazot qiymətlərinin artım səbəbi "hər hansı bir inhisarlaşma və ya hər hansı bir dairənin manevrindən" irəli gəlməmişdi. Həqiqi səbəb mazot sahəsində beynəlxalq bir bazar qurulmasından qaynaqlanmışdı. Bu beynəlxalq bazar, Rutherfordun tezisinə görə, benzin, qazyağı və yağlayıcı bazarlarına rəqib olan yeni bir bazardı və ortaya çıxışı da sadəcə 2-3 il əvvəl idi. Rutherford açıqlamasında "neft üçün yeni-yeni sahələrin tapıldığını, bu yeni bazarın da yeni neft sahələrinin nəticəsi kimi ortaya çıxdığını və bu səbəblə də dünyada bu maddəyə qarşı doğan tələbatdan dolayı, yeni bir qıtlığın yaşandığını" söyləyirdi. Sözlərinin davamında "qiymətlərin artmasının səbəbi budur. Qiymət artışında İbrani irqindən gələn - yəni kosmopolit olan - bəy əfəndilərin heç bir rolu yoxdur. Onlar heç bir şəkildə

baş-başa verib qiymətləri artırmağa cəhd etməyiblər və ya qiymətləri zorla artırmayıblar" deyirdi.

Çörçillin kiçik bir özəl şirkəti hökumət nəzarətinə götürüb dövlətləşdirmək təklifi o günə qədər misli-bərabəri olmayan bir hadisəydi. Bu tip hadisə bir dəfə də olmuşdu. Yarım əsr əvvəl Disraeli buna oxşar bir hadisəyə səbəb olmuşdu. Süveyş Kanalı hissələrinin İngiltərə hökuməti tərəfindən satın alınmasını təklif etmişdi. Ki, bu da strateji baxımdan uyğun səbəblərə dayanırdı. Yerli maraqlarını qorumaq istəyən bəzi parlament üzvləri də strateji səbəblərlə Şotlandiya daşından neft yağı və Galler kömüründən alınan və illər sonra "sintetik yanacaq" adını alan mayenin işlənib inkişaf etdirilməsini müdafiə edirdilər. Bu nümayəndələrin düşüncələrinə görə, hər iki metodla daha etibarlı neft əldə edilə bilərdi. Ancaq parlamentin daxilində və xaricində Çörçillin neft təklifinə qarşı olunan şiddətli tənqidlərə baxmayaraq, bu təklif 18 səs əleyhinə, 254 səs lehinə olmaqla qəbul edildi. Aradakı fərq o qədər böyükdü ki, Greenway belə çaşıb qalmış, səsvermədən sonra Çörçilldən bu suala cavab istəmişdi: "Necə oldu ki, Nümayəndələr Palatasını bu qədər böyük bir uğurla öz tərəfinizə çəkməyi bacardınız?"

Çörçill bu cür cavab verdi: "İşin çox önəmli məqamı monopolistlərə və tröstlərə etdiyim hücumlar idi."

Ancaq Çörçillin uğur qazanmasındakı səbəb təkcə bu deyildi. Əcnəbilərə və "kosmopolitlərə" etdiyi hücumlar da qazandığı uğurda böyük rol oynamışdı. Bundan başqa, Çörçill bu tarixi çıxışında bir az da hapa-gopa basmış, bu risqi gözə almışdı. Yeri gəlmişkən, ortada Shellin donanmaya pis xidmət etdiyinə dair heç bir sübut, sənəd yox idi. Əslində, illər əvvəl bilavasitə Marcus Samuelin özü hökumətə müraciət edərək, Shell Şirkətinin İdarə Heyətinə





bir müdir təyin etməsini belə istəmişdi. Ancaq Çörçill Bələdiyyə sədri olan Marcus Samuelə bəslədiyi nifrətin müqabilində, əslində əcnəbi olan Deterdingə qarşı tamamilə fərqli düşüncələrə sahibdi. Nədənsə, onun haqqında son dərəcə müsbət şeylər düşünürdü.

Deterding hadisəsində Çörçill Admiral Fişerin müəyyənləşdirdiyi yolla yürüyürdü. Çünki Fişer Çörçillə yazdığı bir məktubda onu bu sözlərlə tərif edirdi: "Deterding Napoleonla Kromvelin qarışığıdır. O, mənim bu günə qədər tanıdığım ən böyük adamdır. Cəsarəti baxımından Napoleona, işləri hərtərəfli qavraması baxımından da Kromvelə oxşayır!.. Onun nazıyla oynayın və əsla qorxutmayın! Bir savaş ehtimalında 64 ədəd neft tankerindən ibarət donanmasını əmrinizə verməsi üçün onunla bir müqavilə imzalayın. Shell Şirkətini də xor görməyin... Deterdingin oğlanlarından biri ya Rugbydə, ya da Etonda oxuyur. Bundan başqa, Norfolkda böyük bir ərazi satın aldı və indi də orada bir malikanə tikdirir. Onu mənimsədiyi bu torpaqlardan qoparmayın! Onu bu torpaqlara bağlayın!"

Çörçill Fişerin bu arzularını olduğu kimi yerinə yetirdi. İngiltərə ilə Anqlo-Pers arasında yeni bir müqavilə imzalanmasına baxmayaraq, yenə də donanma bütün ehtiyacını yalnızca Anqlo-Persdən qarşılamırdı. Yeri gəlmişkən, 1914-cü ilin yazında Çörçill Shellin donanmayla imzaladığı mazot müqaviləsinin şərtlərini Deterdinglə müzakirə etmək üçün şəxsi təşəbbüs göstərdi. Deterding isə şübhəsiz ki, Çörçillin göstərdiyi bu münasibətə laqeyd qalmamış, Fişerə bir məktub göndərmişdi. 31 iyul 1914-cü ildə Fişer, Çörçillə göndərdiyi məktublarının birində Deterdingin məktubuna toxunaraq yazırdı: "Deterdingdən bir az əvvəl son dərəcə vətənpərvər duyğularla dolu olan bir məktub aldım. Məktubu bir savaş ehtimalında

neftdən və ya tankerdən məhrum olunmayacağınızı bildirmək üçün yazıbmış. Ey gidi vəfalı Deterding! Bu hollandiyalılar almanlara o qədər nifrət edir ki! Məncə ilk fürsətdəcə Deterdingi şovalye etməlisiniz!"

Deterdingə gəlincə, o, praktik adamdı. Anqlo-Pers müqaviləsinin hansı məntiqə əsaslanaraq imzalandığını başa düşməkdə gecikməyəcəkdi. Ancaq hökumətin hərəkətlərindən bir şey başa düşməyib ağlı qarışanlar da vardı. Məsələn, Hindistanın baş valisi Lord Harding iki il Tehranda işləmiş, oradan ayrıldığında İran və İranla bağlı hər şey haqqında dərin bir şübhə duyğusunu da özüylə birlikdə gətirmişdi. Bu duyğu Hardingdə sonsuza qədər yaşayacaqdı. Onun və Hindistandakı yüksək vəzifəli məmurların qənaətlərinə görə, İngiltərə bol və təhlükəsiz kömür yataqlarına sahib idi - Tanrı İngiltərəyə bunu hədiyyə eləmişdi. Belə olan halda həm çox təhlükəli, həm də əcnəbi qaynaqlı olan neftə bağlanmaqdakı məntiq nə idi? Bu, tam mənasında ağılsız bir hərəkət olacaqdı. Hindistan Dövlət Naziri belə deyirdi: "Bu, ən yüksək keyfiyyətli üzüm yetişdirən və böyük bağlara sahib olan bir adamın, yaxşı içki kimi İsveç viskisinin təbliğatını aparmasına oxşayır. Sırf belədir..."

Həqiqətən də tənqidçilərin yapışdıqları arqument əsaslı sayıla bilərdi. "Madam ki, ən yaxşı keyfiyyətə sahib şərab istehsal edə bilirik, o halda niyə İsveç viskisi yaratmaq əziyyətinə qatlaşmalıyıq" deyə düşünülürdü. Bunun cavabı isə çox sadəydi. Bu qərarın verilməsinə təsir edən əsas faktor Anqlo-German dəniz rəqabətinin gətirdiyi texnoloji rəqabətdi. Almanlar dənizçilikdə bərabərlik tələb edərkən, ingilis donanması dənizlərdə sahib olduğu üstünlüyü qoruyub saxlamaq dərdindəydi. Neft də sürət və elastiklik baxımından, hər iki ölkə üçün həyati əhəmiyyət daşıyırdı. Nəticədə aparılan bazarlıqlardan sonra İngiltərə hökuməti





böyük miqdarda neft ehtiyatı əldə etdi. Anqlo-Pers Şirkəti də çox ehtiyacı olan təzə sərmayəyə və təhlükəsiz bir bazara qovuşdu. Bu müqavilənin bağlanması Anqlo-Pers Şirkətinin mövcud olma ehtiyacına bilavasitə, imperiyanın ehtiyaclarına isə dolayısı ilə cavab vermişdi. Beləliklə, 1914-cü ilin yaz mövsümünə qədər İngiltərə Donanması tam mənasında neftə indekslənmiş, ingilis hökuməti də Anqlo-Persin ana hissədarı rolunu üstlənmişdi. Bu minvalla neft ilk dəfə olaraq - amma qətiyyən son dəfə deyil - milli siyasətin bir aləti və ən öndə gələn strateji dəyər daşıyan malına çevrilmişdi.

Çörçill Donanma naziri olaraq tez-tez hədəfinin donanmanı, sanki günü sabah müharibə başlayacaqmış kimi savaşa hazırlamaq olduğunu söyləyərdi. 17 iyun 1914-cü ildə açılan parlament müzakirələrindən əvvəlki həftələrdə, Avropa savaşdan çox uzaq, hətta bir neçə ildir olmadığı qədər sülh içində yaşayırmış kimi görüntü daşıyırdı. Ortada Super Güclərin ehtiraslarını qamçılayacaq heç bir şey yox idi. Hətta iyun ayının axırlarında ingilis donanmasına məxsus olan gəmilərin alman limanlarına nəzakət ziyarəti belə olmuşdu. Gələcəkdə bu günləri xatırlayarkən, bir çoxları 1914-cü ilin o gözəlim bahar və yaz günlərinə nostalji hissləri ilə bir dövrün sonu, uşaqlığın sona çatması, görünməmiş, hətta təbii olmayan bir sükunət dövrü kimi baxacaqdı. Təəssüf ki, bu dövr uzun müddət davam etmədi. 28 iyun 1914-cü ildə - ingilis parlamentinin Çörçillin təklifini səsə qoymasından 11 gün sonra Avstriya Arşidükü Frans Ferdinandın Sarayevoda bir sui-qəsdə qurban getdiyi xəbəri gəldi. Anqlo-Pers Neft müqaviləsinin Kraliyyətin təsdiqindən keçməsi bir xeyli zaman alacaq, 10 avqust 1914-cü ilə qədər uzanacaqdı. Bir şey var ki, o günə qədər artıq dünya çoxdan dəyişmişdi. Rusiya iyul ayının 30-da səfərbərlik elan etdi. Avqustun 1-

də də Almaniya Rusiyaya qarşı müharibə elan etdi və ordularını səfərbərliyə çağırdı. Avqustun 4-də, səhər saat 11.00-da Çörçill, Belçikanın tərəfsizliyini qəbul etmədiyi və pozduğu üçün göndərdiyi son ultimatuma da qulaq asmayan Almaniyaya qarşı savaş elan etdiyini bildirən bu mesajı göndərirdi. Majesterlərinin bütün gəmilərinə göndərilən bu mesajda bir cümlə yer almışdı: "Almaniya ilə müharibə vəziyyətindəyik!"

Artıq Birinci Dünya Müharibəsi başlamışdı.



# İKİNCİ BÖLÜM

# QLOBAL MÜBARİZƏ

# 9

# QƏLƏBƏNİN QANI: BİRİNCİ DÜNYA MÜHARİBƏSİ

Əvvəllər savaşın qısa müddətli olacağı, bir-iki həftədə, olmasa ən çox bir-iki ayda sona çatacağı zənn edilmişdi. Amma ordular səngərlərə batıb qalmış və savaş da uzanıb getmişdi. XIX-cu əsrin sonu və XX-ci əsrin əvvəllərinin gətirdiyi o qədər yeniliklər də bu qarmaqarışıqlıqda öz yerini tutmuşdu. Nəticədə, savaş sona yetdiyində, insanlar bir yerə toplaşıb, savaşın niyə baş verdiyini və hansı səbəbdən qaynaqlandığını bir-birilərindən sorar olmuşdular. Cavabında bir çox səbəblər önə sürülürdü: Çaşqınlıqdan, kin-küdurətdən, axmaqlıqdan tutmuş, beynəlxalq rəqabətin və sənaye toplumunun əsəri olan gərginliyə qədər, hər cür səbəb savaşın səbəbi olaraq göstərilirdi. Digər səbəblər də vardı. Milliyyətçiliyin doğurduğu əsrlərlə kökü olan dinçilik, Avstriya-Macarıstan, rus və türk imperiyalarının elastikliklərini itirmələri, ənənəvi güclər tarazlığının çöküşü və son günlərdə parlayan alman hegemonluğunun ehtiras və təhlükəliliyinə qədər - hər faktora yer verilirdi.

Böyük müharibə məğlub olanlar qədər, qaliblər üçün də bir fəlakət olmuşdu. Savaşda 13 milyon insan həyatını itirmiş, bundan başqa, milyonlarla insan da yaralanmış və ya yer-yurdlarını itirmişdi. Bu müharibə Avropanın bir çox kəsimi baxımından və savaşa qatılan bütün ölkələrin iqtisadiyyatı yönündən də böyük bir faciədir. Birinci Dünya Müharibəsinin buraxdığı həzin təsirlər gələcəkdə, savaşın





qurtarmasından sonra da yeni üsyanlara yol açacaq növdən idi. Həqiqətən də savaşın yol açdığı ictimai fəlakət xəyal edilə bilməyəcək qədər böyük olmuşdu. XX-ci əsrin böyük bir tarixçisi və dövrümüzün yaşlı yazarlarından birinin savaş bitdikdən yarım əsr sonra, ixtiyarlıq günlərindən geriyə baxarkən söylədiyi kimi, Birinci Dünya Müharibəsi həqiqətən də "məmnuniyyətsizliklərimizin və ehtiyaclarımızın kənara çıxan fışqırtısıydı."

Bu savaş insanla texnikanın çarpışması idi və bu texnikaların hamısı da neftin gücüylə işləyirdi. Admiral Fişer və Uinston Çörçill bunu əvvəlcədən görüb təxmin etmişdilər. Ancaq neftlə işləyən texnikanın savaşda istifadə olunması, həm onların, həm də digər liderlərin bütün təxminlərini alt-üst etmişdi. Bunun səbəbləri vardı. Birinci Dünya Müharibəsində neft və daxildən partlamalı mühərriklər savaşın hər mərhələsini büsbütün dəyişdirmişdi. Hətta quruda, dənizdə və havadakı "hərəkət qabiliyyəti" anlayışı belə dəyişmişdi. Birinci Dünya Müharibəsindən 20 il əvvəlki zamanlarda quru müharibəsi sabit dəmir yollarına inanılaraq cərəyan edərdi və 1870-71-ci il Fransa-Prussiya müharibəsində olduğu kimi, hərbi birliklər və silah-sursat bu dəmir yolları şəbəkələriylə daşınırdı. Dəmir yollarından sonrakı və aralıdakı mövqelərdə isə, hərbi bölüklərin hərəkətləri fiziki dözümlülük, əzələ gücü və kişilərin güclü ayaqları və yük heyvanları diqqətə alınaraq müəyyənləşdirilir və hər şey buna görə planlaşdırılırdı. Nə qədər ağırlıq daşınacağı, haraya qədər daşınacağı kimi problemlərin cavabı daxildən partlamalı mühərriklərin ortaya çıxmasından sonra tamamilə fərqli çalarlar kəsb etməyə başladı.

Reallaşan bu dəyişikliyin böyüklüyü və dərəcəsi strategiya mütəxəssislərinin düşünə biləcəklərindən daha bö-

yük oldu. Savaşın başladığı ilk günlərdə hərbi planlamalarda yalnız atlar hesaba qatılır, hər 3 əsgərə bir at nəzərdə tutulurdu. Ancaq atlara bağlı qalmaq iaşə problemini daha da çətinləşdirir, işin içindən çıxmaq ağırlaşırdı. Çünki hər at bir insanın yediyinin 10 qat artığını tələb edər. Savaşın ilk günlərində, Marnedəki döyüşlərin birində bir alman generalının əsəbiləşərək, əmrindəki atların birinin belə onu müharibə meydanına aparacaq gücdə olmadığını, dərhal yorulub pəs etdiyini söylədiyi rəvayət edilir. Ancaq tükənib pəs edən sadəcə atlar deyildi. Savaş qurtaranda millətlərin hamısı birdən tükənmiş, pəs etmişdi. Neftlə işləyən texnikaya gəlincə, bu texnikalar hərəkət və iaşə problemlərini asanlaşdırsalar da, ortadakı yıxıntı və xarabalıqların qat-qat artmasına da əslində onlar səbəb olmuşdu.

Savaşın başlanğıcında quru savaşı baxımından, neftə çox ehtiyac duyulacağı, onun çox əhəmiyyət daşıyacağı bir elə də düşünülməmişdi. Alman Baş Qərargahının rəisi dəmir və kömür sahələrində, dəmir yolları daşımaçılıq şəbəkəsində üstünlük əldə etdiklərindən öyünür, planlaşdırma baxımından metodik olduğunu düşünərək, Qərbdə cərəyan edən savaşın qısa və az müddətli olacağını ehtimal edirdi. Savaşın ilk aylarında alman orduları, planlarında tərtib etdikləri kimi əməlli-başlı önə keçdilər. 1914-cü ilin sentyabr ayının əvvəllərində Almaniyanın, Parisin şimal-şərqindən Verduna qədər 125 mil məsafəlik bir savaş xətti vardı. Bu xətt Verdundan Alp dağlarına qədər uzanan başqa xəttlərlə birləşirdi. Bu iki xətdə iki milyon əsgər vardı. Bir ara alman ordusunun sağ qolu Parisin 40 mil yaxınlarına qədər irəliləmiş və bu cəbhə İşıqlar Şəhərinə doğru irəliləməyə davam etmişdi. Elə tam bu kritik məqamda daxildən partlamalı mühərriklər dövrəyə girəcək və strateji əhəmiyyətini heç gözlənilməz bir şəkildə isbat edəcəkdi.





## Taksilərdən təşkil olunan ordu

Fransız hökuməti 100 min mülki vətəndaşla birlikdə Parisi tərk etmişdi. Paytaxtın təslim olunması an məsələsiydi. Və görünən o idi ki, Fransa, yaxınlarda sülh danışıqları üçün müraciət edəcəkdi. Bəlkə də sülh müzakirələrini Bordeauxdan tələb edəcəkdi. Fransız ordusunun Komandanı general İosif Cesaire Joffre bütün qüvvələrini Parisin cənubuna və şərqinə doğru çəkməyi düşünməyə başlamışdı. Bu da şəhərin tam mənada qorumasız və mühafizəsiz buraxılması deməkdi. Ancaq general Joffrenin görüşlərinə qatılmayan birisi vardı: Paris hərbi komendantı general İosif Gallieni. Hərbi komendant bu haqda tamamilə fərqli düşünürdü. Hava kəşfiyyatı nəticəsində alman cəbhə xətlərini vurub, düşmənin irəliləməsinin qarşısını almaq üçün əldə son bir fürsətin olduğunu başa düşmüşdü. Ona yardım əlini uzatması üçün ingilis donanmasını inandırmaq istəsə də, bir nəticə əldə edə bilməmişdi. Çünki ingilislər onu ciddiyə almamışdılar. Uzun qəmgin saqqalı, düyməli qara çəkmələri, sarı rəngli tozluqları və üzərində əyrivarı duran uniformasıyla yaşlı general parıl-parıl parıldayan zabit görünüşü verməkdən çox uzaqdı. Dövrünün öndə gələn ingilis komandanlarından biri onu qəsd edərək "heç bir ingilis zabiti kənardan bu cür bir komiklə danışarkən görünməsini istəməzdi" söyləmişdi. Ancaq sentyabrın 4-də, gecə yarısı emosional və əsəbi telefon söhbətində necə oldusa general Joffreni qarşı hücuma keçməyə inandıra və razı sala bildi. General Gallieni gələcək günlərdə o gecədən bəhs edərkən, bu telefon söhbətini "cour de telerhone", yəni "telefon çevrilişi" kimi qiymətləndirəcəkdi.

1914-cü ilin 6 sentyabrında meşələr arasından və yetişmiş meyvə tarlalarından qovurucu isti altında keçən fransızlar nəhayət, hücuma keçmişdilər. Əvvəl-əvvəl yaxşıca nailiyyət də qazandılar. Ancaq fransızlar həqiqətən çox təhlükəli vəziyyətə düşmüşdülər. Son dərəcə ehtiyac duyduqları öz ehtiyat qüvvələri Parisin çox yaxınlığında olduğu halda, onları cəbhəyə daşıyacaq heç bir yol yox idi. Fransız dəmir yolu şəbəkəsi dağıdılmışdı. Bu yolla keçib gəlmələri mümkün deyildi. Piyada gəlsəydilər, gecikəcəkdilər. Hərbi vasitələrlə gəlsəydilər belə, bunların daşıya biləcəyi gülünc saydan daha çox adama ehtiyac vardı. O halda nə etməliydilər?

Ancaq general Gallieni elə də asanlıqla pəs etməyəcəkdi. Çuvala oxşayan yaraşıqsız uniforması içində, sanki hər an Parisdə, Parisin hər künc-bucağında dolaşıb dururdu. Qüvvələrini yenidən toplayıb təşkilatlandırmağa çalışırdı. Qəmgin görünüşünə baxmayaraq, Gallieni əsla komik adam deyildi. Əslində o, həm hərbi bir düha, həm də çətin məqamlarda çıxış yolu axtarıb tapmaq ustasıydı. Ehtiyacların həddindən artıq çox olduğu o günlərdə zərurət içində çırpınan qüvvələr arasında mühərrikli vasitə bağlantısı qurmağı və daxildən partlamalı mühərriklərdən faydalanmağı düşünən ilk insandır.

Gallieni bir neçə gün əvvəl şəhərin boşaldılma ehtimalını diqqətə alaraq, özünəməxsus nəqliyyat cəbbəxanasının qurulması və ehtiyat kimi rezervdə saxlanılması əmrini vermişdi. Həqiqətən də qurulan bu cəbbəxana, müəyyən sayda Paris taksilərindən təşkil olunmuşdu. 6 sentyabr səhəri Gallieni mövcud taksi rezervinin ehtiyacın çox altında olduğunu görərək, Parisdəki bütün taksilərin də bu dəstəyə qatılmasını, vaxt itirmədən nəqliyyat bölüyü halına gətirilməsini tələb etdi. Bir səhər çağı Əlillər Bulvarı





adlanan yerdəki bir litseydə qurulan qərargahında oturarkən, birdən təsirlənərək, yeni bir qərar verdi. Taksilərdən təşkil olunan bir konvoy təşkil etdi və bu konvoyla minlərlə əsgəri ön cəbhəyə daşımağı qərarlaşdırdı.

Dərhal şəhərdə mövcud olan 3 min taksinin axtarılıb tapılması və komandanlığın əmrinə verilməsini əmr etdi. Polislər və hərbçilər də dərhal taksiləri dayandırıb, sürücülərdən yol pullarını ödəyən müştərilərini oradaca düşürüb, qərargaha getmələrini tələb etdilər.

Bu ara sürücülərdən birisiylə, onu maşından düşürdən əsgər arasında belə bir dialoq baş verdi:

- Yaxşı, müştəri haqqını necə ödəyəcəksiniz? Taksimetrəyə görəmi, yoxsa müəyyən olunmuş sabit bir qiymətlə?
- Taksimetrəyə görə.
- O zaman məmnuniyyətlə!

Və sürücü bunu söylədikdən sonra tənbəllik etmədən taksimetrəsini birləşdirdi.

Axşam saat 22.00 radələrinə qədər, yəni Gallieni o əmri verdiyi vaxtdan sonrakı iki saat müddətində yüzlərlə taksi des İnvalides Bulvarına toplaşmışdı. Taksilərin ilk qrupu axşam qaranlığından faydalanaraq, Parisin şimal-şərqində kiçik bir kənd olan Tremblayles-Gonessəyə yollandılar. Bir gün sonra səhər vaxtı des İnvalides Bulvarında taksilərdən təşkil olunan ikinci bir ordu hazır vəziyyətə gətirildi. Bu ikinci qrup da böyük bir konvoy halında, Champs-Elyseesdən yuxarı doğru, Royale və Lafayettə yollarını təqib edərək, hərəkətə keçdi. Sonra da Gagnydən şəhər kənarına çıxaraq, şərqə doğru irəlilədi. 7 sentyabr günü taksilər qərarlaşdırılmış yerdə bir yerə toplaşdılar və yenidən təşkil olunub, qruplara ayrıldılar. Eyni gün tərəflər arasındakı çatışma və onun gətirdiyi savaş kritik

bir tarazlıq yaratmışdı. Alman ordularının baş komandanı Helmut von Moltke həyat yoldaşına yazdığı bir məktubda 7 sentyabr hadisələrindən bu sözlərlə bəhs edər: "Bu gün tale böyük bir qərar verəcək. Sel kimi qan axır!"

Axşamlar günəş batıb ətraf zil qaranlığa bürünəndə general Gallieninin şəxsi müşahidəsi altında əsgərlər bu taksilərə doldurulurdular. Bu vəziyyəti yarızarafat, yarı laqeydliklə qiymətləndirən Gallieni "heç olmasa, alışılmamış bir iş görürük" deyirdi. Əsgərlər taksilərə doldurulur, sonra basa basla əsgər dolu bu maşınlar taksimetrələrini açıb 25-50 taksilik konvoylar halında savaş meydanına yollanırdı.

Bir tarixçinin irəlidə yazdığı kimi "gələcəyin motorlu qüvvələrinin öncülləri" olan bu taksi sürücüləri, maşınlarını ancaq parisli taksi sürücülərinə yaraşan tərzdə sürür, zaman-zaman sürət artıraraq bir-birilərinə yetişir, zaman-zaman da bir-birilərinin qarşısına keçərək və ya geri qalaraq, yorulmadan və bezmədən irəliləyirdilər. Qaranlıq yollarda işıq nöqtələri saçan faraları ilə bu taksilər həqiqətən görülməyə dəyər mənzərə yaradırdılar.

Gallieni Paris taksiləriylə savaş cəbhəsinə minlərlə əsgər daşımağı bacarmışdı. Bu da şübhəsiz ki, savaşın taleyinin həll edilməsində öz təsirini göstərmişdi. 8 sentyabr səhəri doğulan günəş, fransız cəbhə xəttini bir gün əvvəlkindən daha qüvvətli, bu xətt üzərində savaşan fransız qüvvələrini də kefləri kökəlmiş, yeni həyəcan qazanmış formada görəcəkdi. Yeri gəlmişkən, bir gün sonra, sentyabrın 9-da almanlar məğlub oldu və geri çəkilməyə başladı. Alman ordularının geri çəkilməsi əsnasında vəziyyəti məktubla həyat yoldaşına bildirən Moltke bu haqda belə yazırdı: "İşlər yaxşı getmir. Parisin şərqindəki döyüşlər lehimizə nəticələnməyəcək. Savaşımızın amansız bir xəyal qırıqlığı





olduğu anlaşılır... Böyük ümidlərlə başlayan bu savaş nəticədə bizim əleyhimizə bitəcək."

Taksi sürücülərinə gəlincə, iki gün boyunca ac və yuxusuz qalan bu insanlar Parisə qayıdacaq, burada onları heyrətlə qarşılayan bir çox adamlar tərəfindən qayğı ilə əhatə olunub, haqları olan taksi pullarını da alacaqdılar. Onlar Parisin xilas olunmasına yardım etmişdilər. Bundan başqa, general Gallieninin bu kəşfi və yol göstəriciliyi ilə mühərrikli texnikanın gələcək üçün ifadə etdiyi məna da bu hərəkətlərlə sübut olunmuşdu.

Gələcək illərdə vəfakar Paris şəhəri des İnvalides Bulvarını kəsən geniş yolun adını dəyişdirib, buraya Marşal Gallieninin adını verdi.

## Savaşda daxildən partlayan mühərriklər

1914-cü il sentyabrın 6-8-də İngiltərənin də qatıldığı və ortaq həyata keçirilən fransız əks-hücumu mütləq nəticə doğuracaq mahiyyətdəydi. Marnedə aparılan savaşların ilki müharibənin axarını dəyişdirmişdi. Bu, həm də uzun planlamalara əsaslanaraq hazırlanmış və inkişaf etdirilmiş alman müdafiə sisteminin də sonu olmuşdur. Bu döyüşlər savaşın xarakterini də mütləq formada dəyişdirmiş və müharibənin qısa müddətli olacağı haqqındakı yayğın qənaəti kökündən məhv etmişdi. Almanlar geri çəkilmələrini dayandırıb, gözləmə mövqeyinə keçmişdilər. Onlara qarşı olan qüvvətlər isə hər iki tərəfdə də səngərlər qazaraq, uzun, qanlı və mənasız bir aşındırma savaşı olacağı artıq dəqiqləşmiş - statik bir müdafiə savaşı üçün - özlərini hazırlayıb, tutduqları yerlərə yaxşıca yerləşirdilər. Makinalı tüfəngin artıq kütləviləşməsi və tikanlı məftillər və sədlərin də dövrəyə girməsi səbəbilə müdafiə artıq həyati əhəmiyyət qazanmışdı. Bu da savaşın daha da hərəkətsiz,

durğun qalması nəticəsini doğurmuşdu. Bu vəziyyətə əsəbiləşən ingilis müharibə naziri Lord Kitçener özünü bu sözləri söyləməkdən saxlaya bilməmişdi: "Nə etməyin lazım olduğunu bilmirəm. Bu etdiklərimizə savaş deyilə bilməz."

Savaşın bu durğun gedişatını dayandırmağın bircə yolunun olduğu artıq apaçıq aydınlaşmışdı. Bu savaşda qələbə, ancaq əsgərləri hərəkətə keçirə biləcək bir növ mexaniki yenilik kəşf etmək və bunu tətbiq etməklə mümkün ola biləcəkdi. Beləliklə, savaşan qüvvələr müdafiələrini sadəcə ət, dəri və uniformaları ilə yox, bundan daha təhlükəsiz və sürətli olan mexaniki təchizatla etməliydilər. Məşhur hərb tarixçisi Basil Liddell Hartın ifadə etdiyi kimi, lazım olan "müəyyən bir xəstəliyə qarşı müəyyən bir müalicəedici tapa bilməkdi." Bu xəstəliyə diaqnozu ilk təyin edən və əlacı tapan adam Ernest Svinton adlı bir ingilis polkovnikidir. Svinton dövrünün tanınmış bir savaş romanı yazarıydı və əvvəllər də İngiltərə tərəfindən rus-yapon savaşının rəsmi tarixini yazmaq ona tapşırılmışdı. Bu əsəri yazdıqdan sonra, onun da verdiyi təcrübəylə, hələ o zamanlar gələcəyi görüb makinalı tüfəngin sahib olduğu potensial gücü təxmin edə bilmişdi. Sonrakı illərdə Amerika Birləşmiş Ştatlarında son zamanlarda istehsal olunan kənd təsərrüfatı traktorları üzərində aparılan müxtəlif hərbi təcrübələrlə də yaxından maraqlanmışdı. Savaşın ilk günlərində baş qərargah tərəfindən rəsmi "şahid" olaraq Fransaya göndərilən Svinton, "iki vur iki bərabərdi dörd" məntiqi ilə əlacı - çarəni tapmağı bacardı. Bu, daxildən partlamalı mühərrik gücüylə işləyən, qanadlar üzərində hərəkət edən, makinalı tüfənglərin güllələrini keçirməyən və tikanlı məftillərdən təsirlənməyən zirehli bir vasitə olmalıydı.

Ancaq ehtiyac duyulan şey, hər zaman istənən şey





olmur və rəğbətlə qarşılanmırdı. Yeri gəlmişkən, hətta bu vəziyyətdə belə, ingilis ordusunun səngərlərə təhkim edilmiş və oralarda gözləyən yüksək çinli zabitləri belə bu təklifi ciddiyə almayaraq, onu baltalamaq üçün əllərindən gələni etməyə başladılar. Həqiqətən də, əgər Çörçill işə əl qoyub, mövzunu nəzarətə götürməsə və dəstəkləməsəydi, bu təklif çoxdan ölüb getməyə məhkumdu.

Ancaq Donanma naziri hərbi yeniliklərə hörmət göstərən, onlara dəyər verən dövlət xadimi olduğu üçün mövzuya sahib çıxdı və hətta o günə qədər bu tip vasitələri niyə istehsal etmədikləri üçün ordu rəhbərliyini və Savaş Qərargahını danladı. Çörçill 1915-ci ilin yanvar ayında Baş nazirə bu sözləri söylədi: "Yaşadığımız bu müharibə, atəş meydanları haqqında indiyə qədər bildiyimiz bütün hərbi nəzəriyyələri yerlə-yeksan etmiş, bu nəzəriyyələrdə inqilabi dəyişikliklər yaratmışdır." Ordunun bütün bunlara baxmayaraq, yenə də müqavimət göstərməsinin qarşılığında Çörçill, donanmaya aid olan fondların tamamilə yeni olan bu hərbi vasitənin istehsalı üçün sərf olunmasına qərar verdi. Donanmanın etdiyi bu müvəqqəti yardımı əks etdirməsi üçün yeni istehsal olunan bu maşına "quru kruvazörü" və ya "quru gəmisi" adı verildi. Çörçillin özü isə bu hərbi vasitəyə "caterpillar" (tırtıl) adını verdi. Ancaq məxfiliyin təmin olunması üçün həm də kod adlar lazım idi ki, bu da bir çox təklif olunan fərqli sözlərin arasından seçildi. Bu adlardan ikisi "su xəzinəsi" mənasına gələn "cistern" və ya "rezervuar" sözcükləri idi. Bu vasitəyə bu iki kəlmə ad olaraq düşünülsə də, nəticədə "tank" sözcüyündə qərara gəlindi.

Tank ilk dəfə 1916-cı ildə mükəmməl formada Somme döyüşlərində istifadə olundu. 1917-ci ilin noyabr ayında isə daha mükəmməl formada Cambrai döyüşlərində istifadə olunmuş və burada önəmli performans göstərmişdir.

Ancaq tankın mütləq nəticəyə təsir göstərdiyi yer 1918-ci il avqustun 8-dəki Amiens döyüşləridir. Bu döyüşlərdə 456 tankdan ibarət bir ordu alman xəttini yararaq, içəri girməyi bacaracaqdı. O günlərdə baş komandan Paul von Hindenburqa vəkalət edən General Erix Ludendorf, irəlidəki günlərdə 8 avqust tarixini bu sözlərlə xatırlayacaqdı: "Savaş tarixində alman ordusu üçün qara gün." Artıq müdafiənin ön planda olduğu günlər geridə qalmışdı. 1918-ci ilin oktyabr ayında alman baş komandanı artıq qələbənin Almaniya üçün mümkün olmadığını elan edir və bunun birinci səbəbi olaraq da, tankların dövrəyə girdiyini göstərirdi.

Alman məğlubiyyətinin digər bir səbəbi də, maşın və iri avtobusların savaş nəqliyyatçılığında göstərdiyi yüksək səviyyədə uğurlardır. Belə ki, dəmir yolları nəqliyyatçılığında almanlar uğur qazanarkən, Müttəfiq Qüvvələr maşın və avtobusların istifadə olunduğu yerlərdə üstünlüyü ələ keçirmişdilər. 1914-cü ilin avqustunda Fransaya gedən ingilis kəşfiyyat qüvvələrinin əlində sadəcə 827 mühərrikli vasitə vardı və bunun 747-si özünə aid deyildi. Motosiklet sayı isə sadəcə 15 ədəd idi. Savaşın son aylarına gəldiyində isə ingilis ordusunun sahib olduğu mühərrikli vasitə sayısı 56.000 tank, 23.000 digər mühərrikli vasitələr, 34.000 motosiklet və velosipeddən ibarət idi. Bundan başqa, savaşa 1917-ci ilin aprel ayında qoşulan Birləşmiş Ştatlar da Fransaya 50.000 ədəd benzinlə çalışan vasitə gətirmişdi. Bu vasitələr bəzi hallarda savaşan qüvvələrin və silah-sursatın bir yerdən başqa bir yerə nizamlı şəkildə nəql olunması üçün lazım olan hərəkət qabiliyyətini təmin etmişdi. Bu da bir çox döyüşdə həyati əhəmiyyətli rol oynamışdı. Müharibədən sonra Müttəfiqlərin Almaniyanın üzərində qazandığı qələbəni, bir çox baxımlardan yük maşınlarının lokomotiv üzərində qazandığı qələbəyə oxşadırdılar.





## Havada və dənizdə savaş

Partlamalı mühərrikin yeni bir savaş arenasında - xüsusilə havadakı təsirləri, başqa arenalardan daha böyük və daha dramatik olmuşdu. Wright qardaşları 1903 Kitty Nawkda ilk uçuşlarını gerçəkləşdirmişdilər. Ancaq italyanların 1911-1912-ci illərdə Trablusşamda türklərlə savaşdıqları tarixə qədər, hərbi elitanın təyyarəyə olan münasibəti heç də yaxşı olmamış, daha çox ənənəvi şəkildə də qalmışdır. Bu mənfi münasibət fransız generalı Ferdinand Fockun təyyarələrin hərbi sahədə istifadəsi mövzusunda etdiyi xülasəylə daha açıq görünür. General Fock ordu içində havaçılığa yer vermir və "yaxşı bir idman növü olmaqla bərabər, təyyarənin ordu üçün dəyərsiz olduğunu" söyləyirdi. 1914-cü ildə müharibə başlayanda, ingilis hərbi elitasının "ticari iş" kimi baxdığı və qiymətləndirdiyi havaçılıq sənayesində olsa-olsa, uzaqbaşı 1000 nəfərə qədər adam çalışırdı. 1915-ci ilin yanvar ayında, yəni bu tarixdən bir ay sonra İngiltərədə inşa edilən təyyarə sayı sadəcə 250 ədəd idi. Bunun da 60 ədədi təcrübə məqsədi ilə istifadə olunurdu.

Bütün bu mənfiliklərə baxmayaraq, təyyarənin hərbi sahədə xidmətə girişi - təzyiqlə də olsa - gecikmədən gerçəkləşmiş və təsirinin nə qədər böyük potensiala malik olduğu tez aydınlaşmışdır. Havaçılıq sahəsindən yazan bir ingilis yazar 1915-ci ilin əvvəllərində təyyarəni qəsd edərək, bu müşahidələrini söyləyirdi: "Müharibə başlayandan bu tərəfə təyyarənin qazandığı uğurlar o qədər böyük və sürpriz oldu ki, xəyal gücü qüvvətli olmayanlar belə, həm donanma, həm də əməliyyatlar baxımından təyyarənin nə dərəcədə həyati əhəmiyyət daşıdığını və vaz

keçilməz olduğunu başa düşə bildilər. Təyyarə, müharibədən sonra bəlkə gündəlik həyatımızda belə nəqliyyat vasitəsi olaraq istifadə olunacaq." Təyyarə kimi yeni bir hava gücünün kəşfi və inkişaf etdirilməsi qısa zamanda sənaye cəhətdən bazisin olmasını zəruri edirdi. Avtomobil sənayesi - xüsusilə mühərrikdə - bu bazisin əsasını təşkil etdi. Müharibə yayıldıqca, sürətli atəşləmə üsulunun da tətbiq olunmasıyla, havaçılıq sahəsi də savaşa paralel olaraq, düzgün inkişaf yolu seyr etdi. Belə ki, 1915-ci ilin iyul ayında, savaş başladığından bəri, yəni bir ildən də az bir müddət əvvəl istifadə olunan vasitələrin hər biri, təyyarələrin dövrəyə girməsiylə bərbad olmuş və yerlərini təyyarəyə tərk etmişdilər.

Havaçılığın savaşda ilk önəmli istifadəsi kəşfiyyat və müşahidə sahələrində oldu. Havada aparılan savaş başlanğıcda silah və əl bombaları ilə bir-birilərinə atəş açan pilotlar arasında başladı. Daha sonra təyyarələrə makinalı tüfəng yerləşdirildi və pilotun qəza nəticəsində öz təyyarəsinin pərlərini yandırmasının, ya da güllələməsinin qarşısını almaq üçün yeni mexanizmlər işlənib hazırlandı. Beləliklə, savaş təyyarələri - bombardman təyyarələri meydana gəldi. 1916-cı ilə qədəm qoyanda artıq bombardman təyyarələri filolar halında uçmağa başlamış və havaçılıq savaşı taktikaları bir xeyli inkişaf etdirilmişdi. "Taktiki bombalama" adlanan bir bombalama üsulu - piyada savaşı ilə birlikdə tətbiqata qoyulmuş və ilk dəfə ingilislər tərəfindən həm türklərə, həm də almanlara qarşı istifadə olunmuşdu. Türklərə qarşı istifadə olunan bombaların təsiri məhvedici oldu. 1918-ci ilin martında ingilis cəbhəsini yarıb içəri girən almanlara qarşı, alman ordusunun hücumlarını dayandırmaq üçün tətbiq olunmuşdur. Strateji bombalamada öndərlik edən isə almanlar olmuşdur.





Almanlar əvvəlcə zeplinlər, sonra da bombardman təyyarələrdən istifadə edərək, birbaşa İngiltərəyə hücum edir və bunu edərkən, Britaniya adalarının toxunulmazlığını tapdalayırdılar. Beləliklə, Birinci Britaniya Savaşı başlayırdı. Bu hücumlara - ingilislər savaşın sona yetdiyi aylarda Almaniyanın daxilindəki hədəflərə etdikləri hava hücumları ilə qarşılıq verməyə başladılar.

Müharibə davamlı olaraq yeniliklər tələb edir, hər gün yeni-yeni kəşflər edilirdi. Savaşın son aylarına doğru, əvvəlkilərə nisbətən inkişaf etdirilmiş təyyarənin sürəti iki qatından da yuxarı çıxmış, saatda 120 mili aşmışdı. Bu təyyarələrin maksimum uçma məsafəsi isə təxminən 27.000 feet qədərdi. Topdan istehsal rəqəmləri isə eyni vəziyyəti, yəni sürətli inkişafı göstərirdi. Savaşın davam etdiyi müddətdə İngiltərə 55.000, Fransa 68.000, İtaliya 20.000 və Almaniya 48.000 ədəd təyyarə istehsal etdilər. Savaşın davam etdiyi il yarımlıq müddətdə Birləşmiş Ştatlar isə 15.000 təyyarə istehsal etmişdi. Müharibədən əvvəlki dövrdə xor baxılan və sadəcə "yaxşı bir idman növü" olaraq tanınan bu sənaye sahəsi, beləliklə, savaş müddətində özünü sübut edib, nə qədər yararlı olduğunu göstərmişdi. Deməli, İngiltərə Hava Qüvvətləri Baş Komandanının sadəcə Kraliyyət Hava Qüvvətləri üçün söylədiyi sözlər, əslində bütün hərbi havaçılıqda da tətbiq oluna bilərdi. Baş Komandan, Hava Qüvvələrində təyyarələrdən yararlanma səbəbi olaraq "savaşın ehtiyacları bunu bir gecə içində zərurətə çevirdi" demişdi.

Donanmalar arasındakı yarışmaya gəlincə, müharibədən əvvəlki illərdə İngiltərə ilə Almaniyanın münasibətlərini son dərəcə gərginləşdirən bu yarış, müharibə əsnasında tam tərsinə, durğunlaşmış, hərəkətsizləşmişdi. Savaşın qızışdığı günlərdə İngiltərə Böyük Filosu

Almaniyanın Açıq Dəniz Filosundan daha üstün vəziyyətdəydi. 1914-cü ilin dekabr ayında Falkland Adaları uğrunda gedən döyüşlərdə İngiltərə Kraliyyət Donanması bir alman donanmasını məğlubiyyətə uğratmış və qazandığı bu qələbəylə Almaniyanın dünya ticarət mərkəzlərinə sızmasının qarşısını almışdı. Dənizlərdə rəqabət mövzusu bu iki ölkənin - İngiltərə və Almaniyanın bir-biri ilə müharibəyə başlamalarına ən böyük səbəb olmuşdu. Bu, inkar olunmasa da, İngiltərə Böyük Filosu ilə Almaniya Açıq Dəniz Filosunun müharibə boyunca sadəcə bir dəfə - 31 may 1916-cı ildə, Jutland döyüşlərində - həqiqi mənada qarşı-qarşıya gəldiyi də bir gerçəkdir. Əfsanəni xatırladan bu qarşılaşmanın nəticəsi o gündən bu günə davamlı müzakirə mövzusu olmuşdur. Taktiki baxımdan düşünüldüyündə qalib gələn tərəf Almaniya idi, çünki ona qazılan quyudan qaçıb canını qurtarmağı bacarmışdı. Ancaq məsələyə strateji baxımdan yanaşıldığında qələbə İngiltərəyə aid idi, çünki savaşın geriyə qalan hissəsində Şimal Dənizinə hakim ola bilmiş və alman donanmasını öz hərbi bazalarına həbs etməyə nail olmuşdu.

Hadisələr sübut etdi ki, Çörçill və Fişer Kraliyyət Donanmasının neftdən istifadəyə keçməsi üçün etdikləri basqıda haqlı imişlər. Çünki neft İngiltərə donanmasına daha çox alternativ, daha böyük sürət, daha sürətli yanacaq təmin etmə üstünlükləri kimi bəzi üstünlüklər gətirmişdi. Alman Açıq Dəniz Filosu yanacaq kimi daha çox kömürdən istifadə edirdi. Almaniyadan kənarda isə kömür daşınmasını təmin edəcək hər hansı bir stansiya yox idi. Bu səbəblərlə - alternativ və elastiklik baxımından Almaniya çox məhdud imkanlara sahib idi. Həqiqət budur ki, Alman Açıq Dəniz Filosu sırf kömürə bağlı olması səbəbindən məğlubiyyətə uğramış və ətrafa ad-sanına





layiq olmayan görüntü vermişdir. Qəbul edilməlidir ki, Almaniya neft təmin etmə və neft ehtiyatı baxımından heç bir zaman İngiltərə ilə yarışa bilməmişdir. Almaniya, İngiltərənin əksinə olaraq, heç savaş müddətində belə neftə qovuşma imkanı əldə edə bilmədi.

**Anqlo-Pers Shellə qarşı**

İngiltərənin Anqlo-Pers Şirkətindən hissə alması, tam mənada müəyyən bir məqsədə istiqamətlənmişdi: Ehtiyacı olduğu miqdarda nefti qarantiyaya almaq. Ancaq savaş gözlənildiyindən çox-çox əvvəl baş verdi. Belə ki, hökumətlə şirkət arasındakı əlaqələrin müəyyənləşməsi bir tərəfə, heç neftin satın alınmasına belə başlanılmamışdı. Bir göz qırpımında savaş gəlib çatmışdı. Bundan başqa, İrandakı neft müəssisələri də daşıdıqları əhəmiyyət baxımından, o qədər də təsirə malik deyildi. 1914-cü ildə İran dünyada istehsal olunan neftin cəmi bir faizindən belə azını verirdi. Ancaq istehsal artdıqca, ölkənin strateji dəyəri də artıqlaması ilə artacaq, İngiltərə istər neftə, istərsə də şirkətə olan anlaşma və öhdəçiliklərinin qorunmasını öhdəsinə götürəcəkdi. Maraqlı orası idi ki, bunun həqiqətən də belə olduğunu göstərən hər hansı bir əlamət mövcud deyildi. Qəribə bir təsadüf idi ki, savaşın başlamasından hələ bir ay belə keçməmiş İngiltərənin İrandakı neft yataqları və neftayırma müəssisələrini müdafiə etməsindən peşmançılıq hissi keçirən adam, nefti ən çox müdafiə edən və Anqlo-Pers müqaviləsinin əsas səbəbkarı Çölçillin birbaşa özü olurdu. Sentyabrın 1-də Çörçill bunları söyləyirdi: "Bu məqsədə xidmət edəcək hər hansı hərbi qüvvə ayırma ehtimalımızın olmadığı ortaya çıxır. Bizə gərəkən nefti başqa yerlərdən satın almağımız lazım olacaq."

Bir başqa tərəfdən, Osmanlı imperiyasının qüvvələri də böyük təhlükə törədirdi. 1914-cü ilin payızında Türkiyənin Almaniyanın müttəfiqi olaraq savaşa girməsindən dərhal sonra, bu ölkənin hərbi qüvvələri İranın Abadan şəhərində yerləşən neftayırma zavodunu təhdid etməyə başladılar. İngilis əsgərləri bu qüvvələri geri püskürtdülər və sonra Bəsrəni ələ keçirməyə çalışdılar. Bəsrə İran neftinə Qərbdən gələn bütün strateji təşəbbüslərin qapısı idi. Bu səbəblə də o günlərdə çox böyük həyati əhəmiyyət daşıyan bir şəhərdi. Bəsrənin nəzarətini ələ keçirmək demək, İngiltərənin maraqlarının müdafiəçisi olan yerli hökmdarların - ki, bunlardan biri də Küveyt Əmiriydi - da təhlükəsizliyinin təmin olunması deməkdi. İngilislər nəzarət etdikləri sahələri get-gedə daha da genişləndirib, şimal-qərbə, mümkünsə Bağdada qədər uzatmaq istəyirdilər. Hakim olan düşüncələrdən biri o idi ki, bir daha neft yataqlarını ələ keçirmək və Almaniyanın İran üzərindəki dağıdıcı təsirini dayandırmaq lazımdır. Eyni zamanda Mesopotomiyanın, yəni bu günkü İraqın neft potensialının İngiltərə hərbi və siyasi planlamasındakı yeri də gedərək daha çox əhəmiyyət qazanırdı. 1917-ci ildə türklərin qarşısında alçaldıcı məğlubiyyətə uğradıqdan sonra nəhayət, ingilislər Bağdadı ələ keçirməyə nail oldular.

Müharibənin davam etdiyi müddətdə İrandakı neft istehsalı savaşdan bir elə də yıxıcı təsir görməmişdi. Ancaq bunun da istisnası vardı. 1915-ci ilin əvvəllərində bölgədəki yerli qəbilə mənsubları alman agentlər və türklər tərəfindən qızışdırılaraq, neft bölgələrindən Abadana uzanan boru xəttini dağıtdılar. Borunun təmir olunub, hər şeyin yoluna düşməsi üçün beş ay vaxt lazım oldu. Abadandan gələn neftin keyfiyyətindəki problemlərə və savaş zamanında rastlanan təchizat natamamlıqlarına baxmayaraq,





hərbçilərdən gələn tələbin də təsiriylə İranda get-gedə böyüyən bir sənaye sahəsi kök salmaqdaydı. 1912-1918-ci illər arasında İranda neft istehsalı on dəfədən çox artaraq, gündə 1.600 barreldən 18.000 barrelə qədər çıxmışdı. 1916-cı ilin axırlarında artıq Anqlo-Pers Şirkəti İngiltərə donanmasının bütün neft ehtiyacının beşdə birini tək başına qarşılayacaq vəziyyətə gəlmişdi. Bir vaxtlar - quruluşundan sonrakı ilk 10-15 il içində dəfələrlə müflisləşmək həddinə gəlib çatan bu şirkət, indi artıq böyük qazanclar əldə edərək inkişaf edirdi.

Anqlo-Pers baxımından dəyişən şey təkcə bundan ibarət deyildi. Qazanc əldə etməyə başlayan şirkət xarakter baxımından da dəyişirdi. İnzibati işlər müdiri Çarlz Greenway, təqib etdiyi açıq və qəti strategiya ilə Anqlo-Persi sadəcə xam neft istehsalçısı olmaqdan çıxarıb, birləşmiş bir neft şirkətinə çevirməyə çalışırdı. Onun deyişi ilə həyata keçirmək istədiyi şey "tam mənasında özünə yetərli olan bir təşkilat qurmaqdı." Bu təşkilat istehsal etdiyi mallarını "üçüncü bir tərəfin müdaxiləsi olmadan, özləri üçün qazanc gətirəcək yerlər haralardısa, oralara satacaqdı." Hələ dünya müharibəsinin ortalarından Greenway, hətta şirkətini savaş sonu rəqabət üçün istiqamətləndirməyə və hazırlamağa başlamışdı. Bu arada bir çox yeni təşəbbüsləri də vardı. Bunların arasında bəlkə də ən böyük uğuru - İngiltərə hökumətindən, Birləşmiş Krallığın ən böyük neft bazarlama şəbəkələrindən biri olan və "British Petrol" adıyla tanınan şirkəti satın aldığı zaman əldə etdi. Bu şirkət, adının British Petrol olmasına baxmayaraq, əslində Deutsche Banka aid idi. Deutsche Bankın British Petrol adını götürməsinin səbəbi, sahib olduğu Rumıniya neftini bu ölkəyə sata bilmək üçün şirkəti bir giriş qapısı olaraq istifadə etmək niyyətindən

irəli gəlirdi. Müharibə başlayandan sonra İngiltərə hökuməti almanların nəzarətində olan bu şirkəti öz nəzarətinə keçirmişdi. Beləliklə, British Petrolun sahibliyini də öz üzərinə götürən Anqlo-Pers Şirkəti, sadəcə böyük bir bazarlama sistemini ələ keçirməklə qalmadı, eyni zamanda gələcəkdə özü üçün son dərəcə faydalı olacaq bir ada da qovuşdu. Anqlo-Pers bu arada özünün tanker filosunu da yaratmışdı. Həyata keçirdiyi bütün bu yeniliklərlə Anqlo-Pers təməldən dəyişikliyə uğramışdı. 1916-1917-ci illərə qədər sahib olduğu sabit mal varlığının 80 faizindən çoxu İranda idi. Bu illəri təqib edən maliyyə ili içində mal varlığının sadəcə yarısı İranda saxlanılmış, geri qalanı isə tankerlərə və bazarlama sistemlərinə yatırılmışdı. Artıq müəssisə bütün mənalarda birləşmiş şirkətə çevrilmişdi.

Greenwayın başqa bir hədəfi də Anqlo-Persi İngiltərə imperiyasının neft çempionu etməkdi. Və bu məqsədə ən azı ilk hədəfində olduğu qədər böyük ehtirasla yaxınlaşırdı. Tez-tez dilə gətirib təkrarladığı kimi Anqlo-Persi "büsbütün ingilis olan... hər hansı əcnəbi ünsür qatışığı olmayan" bir şirkətə çevirməyi əsas məqsəd elan etmişdi. Bunu söylərkən, Hollandiya Kraliyyət/Shell Şirkətinə açıq eyham etdiyi şübhəsizdi. Greenway hər fürsətdə "Shelldən gələn təhlükə" mövzusunu təkrarlayır, Ser Marcus və yardımçılarını neftçilik sahəsində dünya miqyasında monopoliya yaratmaq planları hazırlamaqda günahlandırırdı. Greenway və tərəfdarları təkrar-təkrar və yorulub bezmədən Hollandiya Kraliyyət/Shell qarışığını ingilis maraqlarına sədaqətsizlikdə və "neft məhsullarını Almaniyaya sataraq, böyük qazanclar əldə etməkdə" və "ciddi bir milli təhlükə ünsürü təşkil etməkdə" ittiham edirdilər.





Bu ittihamların hamısı həm haqsız, həm də həqiqətə uyğun olmayan yalanlardı. Hətta vətəndaşlığını dəyişdirib İngiltərə vətəndaşlığını qəbul edən və müharibə illərini Londonda keçirən tacir Deterding, savaş illəri boyunca həm şəxsi mal varlığını, həm də şirkətinin mal varlığını Müttəfiqlərin əmrinə vermişdi. Marcus Samuelə gəlincə, o da tam mənasında alovlu bir ingilis vətənpərvəri idi və nə yazıq ki, bunun qiymətini də ağır bir şəkildə ödəmişdi. İki oğlundan biri - savaşdan əvvəl Londonun Şərq Yaxasında kasıb uşaqlar üçün yataqxana inşa etdirən böyük oğlu - Fransada savaşda həlak olmuşdu. Samuel və həyat yoldaşı oğullarının ölümündən sonra yazdıqları şerlərin bir hissəsini onun xatirəsinə hörmət əlaməti olaraq nəşr etdirdilər. İki kürəkənindən biri də, yenə müharibədə həlak olmuşdu. Samuelin o biri oğlu da müharibədən sonra "səngər xəstəliyi" adlandırıla biləcək - uzun zaman səngərdə qalmanın nəticəsində tutulan xəstəlikdən ölmüşdü.

Samuelin özünə gəlincə, o da son dərəcə cəsarət istəyən bir işə girişmiş, ancaq usta bir beynin planlaya biləcəyi və gələcəkdə ingilis savaş gücü baxımından son dərəcə əhəmiyyətli olduğu anlaşılan bir təşəbbüs irəli sürmüşdü. "Toluen" adlanan və TNT adlı partlayıcıların istehsalında istifadə olunan maddə, bir qayda olaraq kömürdən əldə olunurdu. Ancaq 1903-cü ildə, Cambridge Universiteti kimyagərlərindən biri, "toluen"in eyni zamanda Shellin Borneo xam neftindən də istənilən miqdarda əldə edilə biləcəyi kəşfini etdi. Bunu bilən Samuel, admirallığın diqqətini bu gerçəyə çəkmək istəsə də, admirallıq onun verdiyi raportu böyük şübhəylə qarşıladı və Borneo xam neftindən nümunə götürmə təklifini belə rədd etdi. 11 il sonra, müharibənin başlanğıcında təklif bir daha təkrarlanmış, ancaq yenə rədd edilmişdi. Samuel, almanların

TNT istehsalında Borneo xam neftindən istifadə etdiklərinə 100 faiz əmin idi və bunu sübut edən sənədləri admirallığa təqdim etmişdi. Ancaq yenə də admirallıq təklifə maraq göstərməməkdə israr etmişdi. Sonra birdənbirə mənzərə dəyişdi. 1914-cü ilin axırlarında İngiltərənin kömürə bağlı "toluen" istehsalı, ehtiyaclara cavab vermədi. İngiltərə haradasa partlayıcılarsız qalmaq təhlükəsi ilə üzləşmişdi. Neftdən "toluen" əldə etməyə məcbur olmuşdu, ancaq bunu həyata keçirəcək müəssisələri yox idi. Shell tərəfindən İngiltərədə qurulması mümkün olan "toluen" əldə etmə fabriki İngiltərədə qurulmalıykən, Hollandiyanın neytral bölgəsi olan Rotterdamda - Shell qrupunun hollandiyalı qolu tərəfindən qurulmuşdu. Bir şey də məlum olmuşdu: Alman şirkətləri də TNT istehsalında Rotterdam fabrikinin məhsullarından istifadə edir.

İş belə olan halda Samuel və silahdaşları böyük cəsarət tələb edən bir plan tərtib edərək, hərəkətə keçdilər. 1915-ci ilin yanvar ayının axırlarında, bir gecənin səhərə yaxınlaşan saatlarında Rotterdamdakı müəssisə sökülüb parçalara ayrıldı. Hər parça ayrı-ayrı nömrələnib, bir yerə yığıldı və sonra da daşınıb bir Hollandiya gəmisinə yükləndi. Bir neçə dəqiqədən sonra gəmi qaranlıqdakı ingilis destroyerləri ilə görüşmək üçün dənizə açıldı. Bu hərəkətdən alman xəfiyyələri xəbər tutmuş və bir boşaltma xəbəri onlara sızmışdı. Ancaq xəbərdə bir yanlışlıq vardı: çünki boşaltma əməliyyatı onların gözlədiyi tarixdən bir gün əvvəl artıq bitmişdi. Boşaltma əməliyyatının baş verdiyi gündən bir gün sonra, bəlkə də bir təsadüf nəticəsində, zavodun hissələrini daşıyan Hollandiya gəmisinə oxşayan başqa bir Hollandiya gəmisi almanlar tərəfindən Rotterdam limanının girişində tutulub saxlanılırdı. Aradan keçən qısa zaman içərisində "toluen" müəssisəsinin





ayrı-ayrı hissələri İngiltərəyə daşınmış, bir neçə həftə içərisində Somersetdə yenidən qurulmuşdu. Bu müəssisə Shellin irəlidə qurduğu ikinci bir şirkətlə birlikdə ingilis silahlı qüvvələrinin ehtiyacı olan TNT-lərin cəminin 80 faizini təmin etmişdir. Bu işdəki nailiyyətlərinə görədir ki, müharibədən sonra Samuelə zadəganlıq rütbəsi verilərək, mükafatlandırıldı.

Greenwayın Hollandiya Kraliyyət/Shell Şirkətinin vətənpərvərliyinə yönəltdiyi sərt ittihamlara baxmayaraq, bu şirkət müharibə müddətində Müttəfiqlərə bağlı qalmış, ittifaqın ayrılmaz bir parçası olmuşdur. Əslində savaş müddətində Shell Şirkəti, neft işində ehtiyat komandanlıq kimi davranaraq İngiltərə qüvvələrinə və bütün dünyada İngiltərənin müttəfiqi olan ölkələrə lazım olan qədər neft verib, bu işin təşkilatçılığını öz öhdəsinə götürmüşdü. Bundan başqa, ehtiyac hiss olunan malların Borneo, Sumatra və Amerika Birləşmiş Ştatlarından Fransadakı dəmir yollarına və hava limanlarına gətirilməsini təmin edərək, hər baxımdan yardımçı olmuşdu.

Beləliklə, İngiltərənin savaşda uğur qazanmasında, savaşa davam etməsində "Shell əsas - mərkəz rol oynadı" deyilə bilər. Hökumət mənsubları ən çox ehtiyac duyulduğu zamanlarda Shelldən imtina etmənin nə dərəcədə doğru olacağı xüsusunda tərəddüd etməyə başlamışdılar. Greenway və silahdaşlarının Qrupa yönəltdikləri bitməztükənməz ittihamlara artıq reaksiya vermirdilər. Həqiqətən də Greenway hücum-ittiham oyununu çox böyük miqyasda oynamış, ancaq bu, nəticə etibarilə hökumət mənsublarından bir çoxunun Anqlo-Pers Şirkətinin özünün əleyhinə çevrilməsinə səbəb olmuşdur. Artıq hökumət mənsubları Greenwayın vətənpərvərlik pərdəsi altında haqsız iddialar irəli sürməsindən şübhələnməyə

başlamışdılar. Bundan başqa, onun söylədiyi kimi İranın maraqlarını nəzərə almadan bir birləşmiş şirkət qurmaq strategiyasına da gözübağlı olaraq inanmır, mövzunun müzakirə olunmasını tələb edirdilər. Whitehallda keçirilən müzakirə və mübahisələr bitmək bilmir, hökumətin səlahiyyətli adamları son günlərdə 51 faizini satın aldıqları bu şirkətə qarşı hansı münasibəti bəslənilməsini və hədəflərinin nə olması haqqında müxtəlif fikirlər irəli sürürdülər. Maliyyə işlərinə baxan və içi şübhələrlə dolu olan bir məmurun ifadəsiylə, əcəba məqsəd sadəcə "donanma üçün neft təmin edə bilməkdən ibarətdimi?" Əcəba, "başqa məqsədlər də yox idimi?" Yoxsa həqiqi məqsəd əvvəlcə dövlətin nəzarətində böyük bir neft şirkəti qurmaq, sonra şirkəti milli bir neft şirkətinə çevirmək və nəhayət, bu yolla ölkənin ticari maraqlarını bütün dünyaya yayıb genişləndirməsi üçün şirkətə yardım etmək idimi? Bəziləri şirkətin ticari sahədəki şövq və ehtiraslarını İngiltərənin müharibədən sonrakı ehtiyaclarına bağlayır və "ölkənin gələcəkdə neftçilikdə müstəqilləşəcəyi günün həsrətini çəkirdilər." Onların qənaətlərinə görə, "bu gün İngiltərə kömür sahəsində necə müstəqildirsə, neft sahəsində də o cür müstəqil olmalıydı." Ancaq Donanma Nazirliyini Çörçilldən təhvil götürən Artur Balfour, hökumətin bu haqda məsuliyyət üstlənməsinə tərəddüdlə baxırdı. 1916-cı ilin avqustunda hökumətin "müasir həyatın əhəmiyyətli bir ehtiyacını yüklənən bu cür nəhəng bir əməliyyatın siyasətindən məsuliyyət daşıyacaq qədər təcrübəli olub-olmadığında qərarsız olduğunu" bildirirdi. Bu arada maraqlı orqanlar hökumətin təsdiqlədiyi müxtəlif qarışıq şirkət formalarını götürüb müzakirə edirdilər. Ki, bunlara Hollandiya Kraliyyət/Shell Qrupu içində ingilis maraqlarına Hollandiya maraqlarından daha





çox yer verəcək plan və layihələr də daxildir. Ancaq bu təkliflərin heç biri müharibə müddətincə heç bir işə yaramadı və nəticə vermədi. Bunlardan başqa da həll olunmalı daha təcili və məcburi mövzular, problemlər vardı.

## Neftdə qıtlıq

1915-ci ilin axırlarında savaşın tələb etdiyi neftin miqdarında bir qədər azalma olsa da, bu hal İngiltərədə heç bir narahatçılığa səbəb olmamışdı. Ancaq vəziyyət 1916-cı ilin əvvəllərində dəyişdi. 1916-cı ilin yanvar ayında Londonda çıxan "The Times" qəzeti ilk dəfə olaraq bir "neft qıtlığı"nın mövcudluğundan xəbər verirdi. Eyni ilin may ayında isə yenə "The Times" qəzeti bu dəfə "neftin maşınlarda iş üçün istifadəsinin nə mənaya gəldiyinin açıqca bəyan olunmasını" tələb edir, bundan başqa, "savaş xidmətləri ehtiyacının diqqətə alınaraq, neftin zövq üçün təşkil olunan gəzintilərdə istifadə olunmasından imtinanı" istəyirdi.

Yeni başlamaqda olan neft böhranının iki ayrı səbəbi vardı. Bunlardan birincisi, - alman sualtı gəmilərinin hücumları səbəbilə get-gedə böyüyən yükləmə tonnajlarındakı məhdudiyyətlər idi. Neftdən başqa, digər xammaddələrin hamısına və ayrıca, qida maddələrinə də tətbiq olunan bu qadağalar, ingilis adalarına gedən bütün bu tipli mallarda məhdudiyyətlərin tətbiq olunmasını da şərt qoşurdu. Daxili yanma mühərrikləri Almaniyaya dənizlərdəki texniki inkişaf baxımından böyük üstünlüklər gətirmişdi. Bu, dizellə işləyən sualtı gəmilər idi. Bu sualtı qayıqlar sayəsində Almaniya, İngiltərənin ona tətbiq etdiyi iqtisadi embarqoya və İngiltərənin dənizlərdəki total

üstünlüyünə öldürücü sualtı döyüşləri ilə cavab verirdi. Almaniyanın məqsədi, İngiltərəyə olduğu qədər Fransaya da göndərilən nefti yararsız hala gətirməkdi.

Böhranın ikinci səbəbi də neftə qarşı hər gün bir az da artan tələbdən irəli gəlirdi. Savaş meydanlarında və ölkədaxili sərhədlərdə savaş üçün lazım olan neftin mütləq təmin olunması lazım idi. Bu neft kasadlığı ilə qarşı-qarşıya gəlməkdən qorxan hökumət, nəhayət, nefti məhdud və qənaətlə istifadə etməyə qərar verdi. Ancaq bu sistemin gətirdiyi rahatlıq da müvəqqəti olmuşdu.

Məhdudlaşdırma siyasəti 1917-ci ilin əvvəllərində almanların müttəfiq gəmilərinə etdiyi sualtı hücumları intensivləşdirməsi ilə bir daha bütün şiddəti ilə özünü hiss etdirməyə başlamışdı. Əslində doğurduğu nəticə nəzərə alınaraq dəyərləndirildiyində, bu kampaniyanın Almaniya baxımından çox böyük miqyasda bir fiasko olduğu ortaya çıxır. Çünki bu kampaniya o günə qədər tərəfsizliyini qoruyan Birləşmiş Ştatların neytrallığını pozaraq, Almaniyaya müharibə elan etməsinə yol açmışdır. Bunlara baxmayaraq, yenə də alman sualtı hücumlarının təsiri böyük olmaqda davam edir və törətdiyi təxribatlar dərhal hiss olunurdu.

1917-ci ilin ilk yarısında itirilən gəmi tonnajı, 1916-cı ilin eyni müddəti içərisindəki tonnaj itkisinin iki qatı idi. May-sentyabr aylarında Nyu Jersey Standard Oil, aralarında yepyeni olan Con Archbold adlı tanker də daxil olmaqla 6 tankerini itirmişdi. Savaşın davam etdiyi müddətdə Shellin itirdiyi bir çox tanker arasında, 1892-ci ildə Marcus Samuelin Süveyş Kanalından keçirdiyi ilk təknə olan Mureks də unudulmamalıdır. Admirallıq öz siyasətinə uyğun olaraq mütləq 6 aya yetəcək miqdarda nefti ehtiyatda saxlamaq kimi prinsipə sahib olduğu halda,





1917-ci ilin may ayının axırlarında əlavə neft ehtiyatı nəzərdə tutulduğunun yarısından da aşağı düşmüşdü. Və hələ o zamandan neft ehtiyatındakı eniş, Kraliyyət Donanmasının hərəkət sərbəstliyini məhdudlaşdırmağa başlamışdı. Vəziyyət o qədər ciddi idi ki, Kraliyyət Donanmasının neftlə işləyən gəmi inşasını dayandırıb, keçmişdə olduğu kimi kömürə qayıtmasını istəyənlər belə olurdu.

1917-ci ildə yaşanan ciddi miqyaslı neft sıxıntısı, İngiltərəni bu haqda təşəbbüslərə rəsmən müdaxilə etməyə, rəvan və sistemli işləyən milli bir neft siyasəti formalaşdırmağa məcbur edən bir faktora çevrildi. Neft siyasətini koordinasiya edəcək, içində bir Neft Heyəti də olan müxtəlif komitələr və ofislər quruldu. Bunların əsas funksiyası həm savaşın daha yaxşı şərtlərdə davam etməsini təmin etmək, həm də savaşdan sonrakı illərdə İngiltərəni neft mövzusunda daha da inkişafına nail olmaqdı. Bu işlərin bir oxşarı da fransız hökuməti tərəfindən edildi və hökumət get-gedə böyüyən neft böhranı ilə məşğul olması üçün Comite General du Petrole (Neft Baş Komitəsi) adlı bir komissiya yaradaraq, başına bir senator olan Henri G.Berengeri təyin etdi. Ancaq hər iki ölkə də - İngiltərə və Fransa - böhranın qarşısını alacaq yeganə həll yolunun Amerikada olduğunun fərqindəydilər. Neft mövzusundakı açarın - yükləmədə və tankerlərdə olduğu artıq aydınlaşmışdı.

Londondan Amerikaya "çarəsizlik" ifadə edən teleqraflar göndərilirdi. Teleqraflarda bildirildiyinə görə, Birləşmiş Ştatlar daha çox tonnaj neft göndərilməsinə icazə vermədiyi müddətcə, Kraliyyət Donanması daha çox tonnajla hərəkət edə bilməyəcək və bu, "donanmanı hərəkət qabiliyyətindən məhrum" qalmağa məhkum edəcəkdi. 1917-ci ilin iyul ayında Amerikanın London səfiri üzüntü

içərisində vəziyyəti bu sözlərlə ifadə edirdi: "Almanlar uğur qazanır. Son günlərdə mazot daşıyan bir çox gəmiləri batırdılar. Batan gəmi sayısı o qədər çoxdur ki, bu ölkə çox yaxında son dərəcə təhlükəli bir vəziyyətə düşə bilər. Hətta böyük donanma hissəsinin belə kifayət qədər yanacaq əldə edə bilməməsi mövzu bəhsidir... Təhlükə çox böyük miqyasdadır..." İrəliki günlərdə, 1917-ci ilin payızında vəziyyət daha da ciddiləşmiş, İngiltərə neft istehsalında və axtarışında bir xeyli zorlanmışdı. Dövrün Müstəmləkələr Naziri olan Valter Long, oktyabr ayında bir yazıyla Nümayəndələr Palatasına xəbərdarlıq edir, vəziyyətin xülasəsini bu kəlmələrlə verirdi: "Bu anda bizim üçün neft, düşünülə biləcək hər hansı bir şeydən daha önəmlidir. Lazım olan bütün insan gücünə, savaş ləvazimatına və pula sahib ola bilərsiniz, ancaq bu gün istifadə etdiyiniz ən təsirli hərəkətverici güc olan neftiniz yoxdursa, əlinizdəki bütün üstünlüklər çox az dəyər ifadə edəcək və bu dəyər neftlə qarşılaşdığında heç bir məna ifadə etməyəcəkdir." Vəziyyətin ciddiyyəti qarşısında təcili qərarlar alındı və neftin əyləncə məqsədli gəzintilərdə istifadə olunması qadağan olundu.

Fransanın neft siyasəti də Almaniyanın "sualtı hücum kampaniyası" qarşısında sürətlə dağılmağa başlamışdı. 1917-ci ilin dekabr ayında Senator Berenger, Baş nazir Corc Clemenceauya neftin tükənməkdə olduğu və ölkənin 1918-ci ilin martında, yəni tam Fransanın gələcək yaz üçün planladığı hücum tarixində tamamən neftsiz qalacağı haqqında xəbərdarlıq edirdi. Neft ehtiyatı o qədər azaldı ki, almanlardan gələn öldürücü hücuma Fransa, sırf Verdündə uğradığı ağır məğlubiyyətdə olduğu kimi, 3 gündən artıq dayana bilmədi. Verdündə aparılan döyüşlərdə konvoy halında düzülmüş neft yüklü kamyonlar





cəbhəyə neft ehtiyatı yetişdirməyə və alman hücumunun qarşısını almağa məcbur edilmişdi. 1917-ci ilin dekabrın 15-də vəziyyət o dərəcədə ciddiləşdi ki, Clemenceau təcili şəkildə prezident Vilsona müraciət edərək, 100 min ton əlavə neftin təcili göndərilməsi xahişini etdi. Clemenceau, etdiyi müraciətində benzinin "gələcəkdəki savaşlarda qan qədər həyati əhəmiyyətli olduğunu" söyləyirdi. Bundan başqa, prezident Vilsona "benzin təminində bir uğursuzluğa uğradığımız təqdirdə, bu, ordularımızın dərhal iflic olmasına yol açacaqdır" demişdi. Üstəlik, bu məşum xəbəri verməkdən də geri qalmayaraq, "neftin nəqlində müşahidə olunacaq kiçicik bir azalma belə bizi, tərəf olduğumuz Müttəfiqlərin əleyhinə bir sülh-anlaşmaya məcbur edə bilər" deyirdi. Clemenceaudan gələn bu işarətlərə Vilsonun reaksiyası sürətlə özünü göstərdi və prezident vaxt itirmədən lazım olan miqdarda benzin göndərdi.

Ancaq bu da kifayət deyildi. Neft işində mütləq bu mövzuya xas olan tədbirlər almaq lazımdı. Neftdə yaşanan böhran hələ o günlərdə Birləşmiş Ştatlarla avropalı müttəfiqlərini neft təmin etmə fəaliyyətlərində daha ciddi təşəbbüslər göstərməyə və daha sıx əlaqələr qurmağa məcbur etmişdi. Nəhayət, 1918-ci ilin fevral ayında nefti qaynaqdan çıxaracaq, koordinasiya və kontrol edəcək, bundan başqa, tankerlə daşınmasını üstlənəcək bir Müttəfiqlərarası Neft Məclisi quruldı. Məclis üzvləri - Birləşmiş Ştatlar, İngiltərə, Fransa və İtaliyadan ibarət idi. Bu təşkilat müəyyən miqdarda neftin Müttəfiq millətlərə və bunlara aid olan hərbi qüvvələrə paylaşılmasında təsirli və faydalı olmuşdur. Standard Oil Nyu Jersey qolu və Hollandiya Kraliyyət/Shell şirkətləri beynəlxalq neft ticarətindəki hegemonluqlarının təbiəti gərəyi, bu sistemi işlədə bilməyi həqiqətən bacarmışdılar. Öz aralarında ən

böyük yardımı hansının etdiyi haqqında da hər zaman mübahisəyə girməkdən çəkinməmişdilər. Bu müştərək sistem sayəsində və almanların sualtı gəmilərinə əlavə olaraq dövriyyəyə buraxılan konvoyların da yardımı ilə savaşın geri qalan müddətində Müttəfiqlərin neft problemləri artıq öz həllini tapırdı.

## Enerji çarı

Müttəfiqlərarası Neft Məclisinin qurulmasındakı başqa bir məqsəd də, Amerikada ölkə daxilində yaşanan enerji problemlərinin həll olunmasıydı. Açıq söyləmək lazımdırsa, Amerikan nefti Avropa müharibəsinin gedişatı baxımından, artıq ölkə daxilində əsas maddə halına gəlmişdi. 1914-cü ildə Birləşmiş Ştatların istehsal etdiyi neft, tonnaj olaraq 266 milyon barrel idi. Başqa bir deyişlə, bütün dünyanın istehsal etdiyi neftin cəminin 65 faizi Amerikanın payına düşürdü. 1917-ci ilə gələn müddətə qədərki dövrdə istehsal tonnajı 335 milyon barrelə - dünya neft istehsalının 67 faizinə yüksəlmişdi. Kənara olunan ixracat Amerika Birləşmiş Ştatlarında istehsal olunan neftin cəminin dörddə biriydi və ixracatın böyük hissəsi Avropaya göndərilirdi. Rus neftindən yararlanma imkanlarına ölkədəki savaş və inqilab səbəbiylə son verildiyindən, artıq Yeni Dünya, neftdə Əski Dünya üçün bir növ ambar rolunu oynamağa başlamışdı. Bütün mənalarda diqqətə alınarsa, o günlərdə Birləşmiş Ştatların, Müttəfiqlərin savaş müddətində neft ehtiyaclarının 80 faizini qarşıladığı söylənilə bilər.

Ancaq Amerikanın savaşa qatılması Amerikan neft mənzərəsini bir xeyli qarışdırdı. Bunun səbəbi Amerikanın məqsədlərini gerçəkləşdirmək üçün yetərli neft ehtiyatına





möhtac olmasından irəli gəlirdi. Amerikanın hərbi qüvvələri, Müttəfiq Qüvvələr, Amerikan savaş sənayeləri və normal sivil istifadə üçün ölkənin neftə ehtiyacı vardı. Kifayət edəcək miqdarda neft necə təmin olunacaq, paylaşım təsirli formada necə həyata keçiriləcək və malın qarşılığı normal şəkildə necə təşkil olunub toplanacaqdı? Bütün bu problemlərlə məşğul olma vəzifəsi prezident Vilsonun 1917-ci ilin avqustunda, topyekun iqtisadi səfərbərliyin bir parçası olaraq qurduğu Yanacaq İdarəsinə verildi. Savaşan ölkələrin hamısı eyni paraleldə problemlərlə qarşı-qarşıya idilər. Bunlar ötən yarım əsrlik müddətdə modern savaşın ehtiyaclarını qarşılamaq üçün inkişaf etdirilmiş sənaye iqtisadiyyatlarının yenidən formalaşdırılması kimi problemlər idi. Hər ölkədə səfərbərliyin zəruri olduğu ehtiyaclar dövlətin iqtisadiyyatdakı rolunu genişləndirir və hökumətlə xüsusi iş sahələri arasında yeni-yeni bağların formalaşmasına səbəb olurdu. Birləşmiş Ştatlarla Amerikan neft sənayesi arasında da dövlət-xüsusi iş qolları ittifaqının nümunələrindən biri qurulmuşdu.

Yanacaq İdarəsinin Neft Şöbəsinin sədri olan adam Mark Requa adlı kaliforniyalı bir neft mühəndisi idi. Bu zat sonradan Amerikanın ilk enerji çarı olaraq tanınmışdır. Requanın ana vəzifəsi hökumətlə neft sənayesi arasında yepyeni və o günə qədər bənzərinə rastlanmamış bir çalışma əlaqəsi yaratmaqdı. Neft Şöbəsi, üzvləri böyük şirkətlərin liderlərindən təşkil olunan və sədri də Standard Oil Nyu Jersey qolunun başçısı Alfred Bedford olan Milli Neft Savaş Xidməti Təşkilatı ilə yaxından əməkdaşlıq edirdi. Elə Avropadakı savaşda Amerikan neftinin təşkilatçılığını idarə edən də bu qurum idi. Təşkilat, müxtəlif müttəfiq ölkələrin hökumətlərindən aldığı böyük

neft sifarişlərini Amerikan neftayırma zavodlarına çatdırmış və nəql işini həyata keçirmədə baş rolu üstlənmişdir. Əslində, Avropaya lazım olan miqdarda nefti göndərən də Amerika qaynaqlı bu təşkilatdı. İş çevrələri ilə hökumət arasında qurulan bu yaxın əməkdaşlıq modeli, 10 il əvvəl hökumətlə Standard Oil arasındakı savaşı xatırladan mübarizə ilə tam bir ziddiyyət təşkil edirdi. Artıq neft sənayesi bir vaxtlar nifrət olunan Standard Oil Nyu Jersey qolunun öncüllüyündə vahid orqanizm kimi hərəkət edirdi. Tröstlərlə mübarizə günləri də artıq geridə qalmışdı.

1917-ci ildə Amerikan neftinə olan fövqəladə tələb, neft ehtiyatlarını zorlamağa başlamışdı. Təkliflə tələb arasındakı boşluq, neft ehtiyatının istifadə olunmasıyla və Meksikadan daha çox neft itxal etməklə aradan qaldırılırdı. Bundan da önəmli bir hadisə yaşanmışdı. 1917-1918-ci ilin dondurucu soyuğu sənayenin getdiyi mənfi gedişlə də birləşincə, Amerikada neft qıtlığı yaranmağa başladı. Bu qıtlıq o dərəcədə ciddiydi ki, yerli idarəçilər öz səlahiyyət sahələrindən keçən kömür yüklü qatarları müsadirə edir, polislər kömürün oğurlanmasını əngəlləmək üçün sənaye baxımından əlverişli olan kömür yığınlarının olduğu yerlərdə keşik çəkirdilər. Yetimxanalar və ruhi xəstələrin qaldığı xəstəxanalar yanacaqsız qaldığından, buraların sakinləri soyuqdan donub ölürdülər. Zənginlər belə kömür ambarlarının boş olmasından və tir-tir titrəyib, soyuqdan dişlərinin bir-birinə dəyməsindən şikayət edirdilər. 1918-ci ilin yanvarında Yanacaq İdarəsi Missisippinin şərqindəki bütün fabriklərin bir həftə müddətinə bağlanması əmrini verdi. Bu məhdudlaşdırma, kömürsüzlük səbəbilə Şərq Sahillərindəki limanlarda hərəkətsiz qalmış, depoları Avropaya aparılacaq savaş ləvazimatları





ilə dolu yüzlərlə gəmiyə yanacaq təmin etmək üçün gətirilirdi. O gündən sonra kömür ehtiyatı yaratmaq üçün fabriklərin bazar ertəsi günləri bağlı qalması qərarlaşdırıldı. Vodrov Vilsonun siyasi məsləhətçisi və sirdaşı olan polkovnik Eduard Housenin müşahidəsinə görə, "Qiyamət qopmuşdu" və polkovnik "Həyatımda indiyə qədər bu dərəcədə şiddətli bir etiraz fırtınası görmədim" deyirdi.

Kömür qiymətlərində yaşanan qıtlıq neftə olan tələbatı həddindən ziyadə artırmış və bu səbəblə neft qiymətləri paralel bir artım göstərərək yüksəlmişdi. 1918-ci ilin əvvəllərində xam neftin ortalama qiyməti, 1914-cü ilin əvvəllərindəki qiymətlərin iki qatına qədər artmışdı. Neft əldə edə bilmək üçün neftayırmaçılar maraqlananlara mükafat və əlavə həvəsləndirici təkliflər edərkən, istehsalçılar isə qiymətlərin daha da artacağı ehtimalı və ümidi ilə neft yığıb toplamaqla məşğul olurdular. Vəziyyətin bu cür gedişi təbii olaraq hökuməti çətin vəziyyətə salmış, qorxuya səbəb olmuşdu. Nəticədə, 17 may 1918-ci ildə enerji çarı Requa neft sənayesinə xəbərdarlıq edərək, "xam neft qiymətində daha yüksək bir artımı haqlı göstərəcək bir "əsas" olmadığını" irəli sürərək, neft sənayesi üçün qiymət nəzarəti tətbiq olunmasını tələb etdi və bu nəzarətin "könüllü" şəxs və quruluşlar tərəfindən üstlənilməsini istədi. Requanın bu təklifi Standard Oilun Nyu Jersey şöbəsi tərəfindən müsbət qarşılandı. Ancaq istehsalçılar Standard kimi düşünmədiklərindən, təklifə müsbət yanaşmadılar. İş belə olan halda, Requa Tulsadan olan bir qrup istehsalçıya açıq-aşkar "könüllü" nəzarətin təmin olunmadığı təqdirdə, nəzarətin birbaşa hökumət tərəfindən həyata keçiriləcəyini bildirdi. Requanın bu mövzuda etdikləri sadəcə bununla da bitmədi. Enerji çarı istehsalçılara bir şeyi də xatırlatdı: Polad və qazma işləri nəticəsində

çıxarılan digər maddələrdən pay almaqda bir vaxtlar onlara yardım edən də hökumət olmuşdu (ölkədə çıxan dəmir və polad metallarının cəminin 1/12-i neft sənayesinə verilirdi). Xatırladılan digər bir məsələ də, hökumətin neft işçiləri üçün tanıdığı hərbi mükəlləfiyyətdən azad olmaq haqqındakı qanun layihəsiydi (draft exemption). Hökumətin "könüllü" nəzarət üçün önə sürdüyü bu arqumentlər qarşı tərəfi inandırmağa kifayət etmişdi. Yeri gəlmişkən, 1918-ci ilin avqustunda neft istehsal olunan hər bölgədə ən yüksək qiymətlər müəyyən edildi və o tarixdən savaşın bitəcəyi tarixə qədər qiymətlərin dondurulmasına qərar verildi.

Bütün bu tədbirlərə baxmayaraq, yenə də tələb təklifi çox üstələyirdi. Bunun səbəbi, sadəcə savaş deyildi, həm də son illərdə Amerikada avtomobil sayında müşahidə olunan fövqəladə artım idi. 1916-cı illə 1918-ci il arasında istifadə olunan avtomobil sayı təxminən iki dəfə artmışdı. Görünən o idi ki, yaxın gələcəkdə neftdə qıtlıq baş verəcəkdi. Bu cür bir vəziyyət, Avropada müharibənin davam etdirilməsinin təhlükəyə girməsi və Amerikada əsas fəaliyyətlərin məhdudlaşdırılması deməkdi. Bütün bu narahatçılıqlar içərisində bazar günləri benzindən istifadə olunmaması üçün "Benzinsiz Bazarlar" adlı kampaniya başladıldı. Kampaniya çağırış mahiyyətli idi. Kampaniyaya qatılmaq məcburi deyildi. "Benzinsiz Bazar" günlərində yükdaşıma xidmətləri, həkimlər, təcili yardım və cənazə maşınları bu kampaniyanın xaricində tutulmuşdu. Bu çağırış şübhəsiz ki, bəzi şübhələr oyandırdı və şikayətlərə səbəb oldu, amma əksəriyyət tərəfindən tərəddüdsüz həyata keçirildi. Hətta Ağ Ev belə bu çağırışa qoşulmuşdu. Prezident Vilsonun bir bazar günü "görünən budur ki, kilsəyə qədər piyada gedəcəyəm" dediyi söylənilir.





## Sərt və əsrarəngiz adam

Neft istehsalının natamamlığı səbəbindən mütəmadi olaraq yaşanan o qədər qorxu və təhlükələrə baxmayaraq, yenə də Müttəfiq dövlətlərin heç biri heç bir zaman uzun müddət davam edən əzici bir neft yoxluğu yaşamamışdır.

Almaniyada isə vəziyyət başqa cür idi. Müttəfiqlərin blokadası dənizlərin o tərəfindəki ölkələrdən Almaniyaya gələn nefti ölkəyə buraxmırdı. Buna görə də Almaniya əzici bir neft qıtlığı yaşadı və nəticədə Almaniya üçün neft təmin edə biləcəyi yeganə ölkə Rumıniya qaldı. Rumıniyanın istehsalı isə dünya miqyasında ehtiyac və istehsal nəzərə alınarsa, kifayət etmirdi. Buna baxmayaraq, yenə də Rumıniya - Rusiya xaric - bütün Avropa ölkələri arasında ən böyük istehsalçı olaraq qalırdı. Almaniya artıq bütünüylə Rumıniya neftindən asılı vəziyyətə düşmüşdü. Deutsche Bank və o biri alman firmaları hələ savaş başlamamışdan əvvəl Rumıniya neft sənayesinin böyük bir hissəsini alman iqtisadiyyatına bağlamışdı. Savaşın başlamasından ötən iki il içərisində Rumıniya müharibəyə qatılmadan tərəfsiz qalmış, tərəflərdən hansının qazanacağını gözləyib, daha çox müşahidəyə üstünlük vermişdi. Ancaq nəhayət, 1916-cı ilin avqustunda Şərq sərhədlərində Rusiyanın qazandığı nailiyyətlərdən birdən-birə silkələnən Rumıniya, Avstriya-Macarıstana qarşı müharibə elan elədi və bunu etməklə bu ölkəni birdən-birə Almaniya ilə müharibə vəziyyətinə gətirdi.

Almaniya üçün Şərq cəbhəsində qazanılacaq bir qələbənin mənası böyükdü və ölkənin həqiqətən bu qələbəyə ehtiyacı vardı. Almaniyanın müharibə strategiyasının beyni sayılan General Erix Ludendorf Rumıniya nefti

haqqında bunları söyləyirdi: "İndi artıq bütün çılpaqlığı ilə dərk edirəm ki, Rumıniyadan gələn neft və neft məhsulları olmasaydı, savaşa davam etmək nədir, mövcudluğumuzu davam etdirmək haqqından belə məhrum olacaqdıq." 1916-cı ilin sentyabrında alman və Avstriya qüvvələri Rumıniyaya hücum etdilər, amma rumınlar neftin bol olduğu Walachia Düzənliyini qoruyan dağ keçidlərinə sığınaraq müqavimət göstərməyi bacardılar. Oktyabr ayının ortalarında almanlar və avstriyalılar böyük miqdarda neft məhsullarını artıq ələ keçirmişdilər. Bunlara Müttəfiqlərə aid olan, amma Qara dənizdəki bir neft limanında saxlanan böyük bir benzin deposu da daxildi. Əslində bütün müəssisələri və neft ehtiyatlarını yerlə-yeksan etməyə istiqamətlənən bir plan hazırlansa da, müharibənin qarmaqarışıqlığı içərisində bu plan həyata keçirilə bilmədi. Və beləliklə, tam bu qələbədən sonra nəhayət, böyük mükafat - Rumıniya neft yataqları və neftayırma zavodları - haradasa Almaniyanın pəncələrinə keçmiş sayılırdı.

Bu yataq və neftayırma zavodları Almaniyaya verilməsə olmazdımı? Bu mövzu 31 oktyabr 1916-cı ildə Londonda, İngiltərə Savaş Konseyi Kabinetində təcili olaraq müzakirəyə çıxarıldı. Konseyin qərarı belə oldu: "Lazım olduğu təqdirdə, neft ehtiyatları və neft məhsullarının, üstəgəl neft quyularının sıradan çıxarılmasının qarantiya altına alınması üçün heç bir təşəbbüs əsirgənməməlidir!" Ancaq rumın hökuməti savaşın qazanılacağı haqqında hələ az da olsa ümidliydi. Ona görə də öz milli xəzinəsinin sıradan çıxarılması mövzusuna tərəddüdlü yanaşırdı. Nəticədə, 17 noyabr günü almanların dağlıq keçidlərdəki rumın mövqelərini yarıb, dağlıq əraziyə sızmaları və dağlar içindən keçərək, Walachia Düzənliyinə enmələri ilə bu ümid də məhv olub getdi.





Belə olan halda İngiltərə hökuməti problemə bilavasitə əl qoyaraq həll etmək istədi və bu məqsədlə millət vəkili, polkovnik Con Norton Griffithsə rumın neft sənayesinin sıradan çıxarılma işini təşkil etmək vəzifəsi tapşırıldı. Bir insanın normal bədən quruluşundan daha iri cüssəli olan Norton Griffiths, ona tapşırılan işin öhdəsindən gəlmək bacarığını ortaya qoymaqla İngiltərə imperiyasının böyük mühəndislərindən biri olduğunu sübut edəcəkdi.

Norton Griffiths dünyanın təxminən hər tərəfində inşaat layihələri həyata keçirib - Anqola, Çili və Avstraliyada dəmir yolları, Kanadada limanlar tikəcək, Bakıda su kəmərləri, Batterseada və Mançesterdə kanalizasiya şəbəkələri quracaqdı. Bu adam birinci Dünya Savaşının başladığı gecə Çikaqo üçün arzuladığı bir alt keçidin planını cizməklə məşğul idi. Yaraşıqlı, fiziki baxımdan avtoritar bir şəxsiyyətə sahib olan və çempion bir idmançı qədər gücə və dözümə sahib Norton Griffiths üçün "cazibədar bir dəliqanlı" və ya "inandırıcı bir şoumen" də deyilə bilər. Belə ki, kişilər tərəddüd etmədən onun layihələrinə sərmayə qoyur, qadınlarsa cazibədarlığının təsirinə düşürdülər. Griffiths zamanla "Eduard Çağı"nın ən çarpıcı kişilərindən biri olmuşdu. Alovlu bir xarakterə və imicə sahib, kin-küdurət saxlayan və zaman-zaman nəzarət edə bilmədiyi dərəcədə əsəblərini cilovlaya bilməyən birisi olaraq tanınırdı. Nizam-intizam və səliqə-səhman keyfiyyətlərindən məhrum olan Griffithsin bəzi layihələrinin tam bir maliyyə fiaskosuyla nəticələndiyi də olurdu. Amma yenə də parlamentin arxa kreslolarında oturan bir parlamentar olaraq bir xeyli məşhurlaşmışdı. Ona bir çox ayama qoşulmuşdu. Onların sırasında "Cəhənnəm odu Cek", Afrikada olarkən meymun yediyi üçün "Meymun adam" kimi ləqəblər də vardı. Bundan başqa, tam

mənasında bir imperialist olduğu üçün özünün də ən çox xoşladığı və qiymət verdiyi "İmperator Cek" ləqəbiylə də tanınırdı.

Norton Griffithsin Birinci Dünya Savaşındakı ilk böyük icraatı əvvəlcə Mançester kanalizasiyalarının inkişafı üçün hazırladığı texnikanı alman cəbhə xətləri və səngərlərinin altında tunel açmada tətbiq etmək oldu. Əvvəlcə yerin altında keçidlər açılır, sonra da alman cəbhə xətləri partlayıcı maddələr vasitəsilə havaya uçurulurdu. Griffithsin tətbiq etdiyi bu metod, Ypres bölgəsində təcrübədən çıxarılmışdı. Amma bir şey var ki, Griffiths şampan qutuları ilə dolu iki ton ağırlığındakı Roll-Royce avtomobilində yanı üstə uzanıb yatmaqla komandirlərdən bir çoxuna qarşı laqeyd hərəkətlərə yol verdiyi üçün cəbhəyə - geri çağırılırdı. Əslində isə Rumıniyadakı vəzifəsini ondan daha yaxşı şəkildə icra edəcək bir başqası yox idi. Bu səbəblə 18 noyabr 1916-cı ildə almanlar rumın xəttlərini yarıb içəri sızandan bir gün sonra "İmperator Cek" Rusiya yoluyla yanında özəl xidmətçisi ilə birlikdə Buxarestə ayaq basırdı. Almanlar irəliləməyə davam etdiyi üçün rumın hökuməti nəhayət, Müttəfiqlərin də təzyiqləri nəticəsində təxribat siyasətinə boyun əyməyə məcbur oldu.

Beləliklə, artıq sıradan çıxarma qrupları, "İmperator Cek"in başçılığında ön cəbhədə hərəkətə keçirdi. 26-27 noyabr tarixində ilk neft sahəsi yandırılıb alovlar içində yox oldu. Təxribat qrupları irəlidəki günlərdə də fəaliyyət göstərdikləri hər bölgədə eyni ümumi metodları tətbiq etdilər. Əvvəlcə neftayırma zavodlarına partlayıcı qurğular yerləşdirilirdi. Sonra depolardakı neft məhsulları zavodlara axıdılırdı. Neft məhsullarının axıntısı müddətində bir neçə inch, hətta bir neçə feet dərinliyində neft gölləri formalaşırdı. Daha sonra ətrafda hazır olan qrup





gətirilir və neft dolu bu hovuzların içinə atılırdı. Son mərhələdə kibritlə və ya yanan şamlardan istifadə edərək, bütün müəssisə atəşə verilirdi. Bütün bu işlərin baş verdiyi müddətdə Norton Griffithsin əleyhinə çıxan və ya onun yolu üstündə dayananın vay halına! Bu şəxs dərhal Griffithsin əzici şəxsiyyətinin qəzəbinə düçar olardı. Bu da kifayət etməsə, qarşısındakına qüvvətli bir təpik tullayar və ya cibindən tapançasını çıxarıb "mən səninlə eyni bərbad dili danışmaq istəmirəm" deyə hayqırardı.

Bu arada bölgədə nə qədər alət-ləvazimat varsa, hamısı birdən sıradan çıxarılır, inşaat qurğuları dinamitlənir; daş, dəmir parçası, palçıq, qırıq-qırıq zincirlər və başqa əşya qırıntıları kimi ələ nə keçirsə hamısı neft quyularına doldurulurdu. Boru xəttləri qəsdən dağıdılır, nəhəng depo tankerlərinə od vurulur, bu partlayışların nəticəsində ətrafa qorxunc səslər yayılırdı. Bəzi müəssisələrdə "İmperator Cek" od vurma işini bilavasitə özü yerinə yetirirdi və bunun üçün hətta israr edirdi. Bir gün dəzgahların arasında qazı yandırdıqdan sonra alovların arasında qalmış, saçını-başını yandırmışdı. Bu belə "İmperator Cek"i dayandırmağa kifayət etməyəcəkdi. Əlindəki nəhəng bir çəkiclə adamların önündə addımlayır, çəkici sağa-sola fırladaraq quyuların qurğularını və neft kəmərlərini sıradan çıxarırdı. Bu hərəkəti dəfələrlə təkrar etmişdi. Norton-Griffithsin təşkil etdiyi bu səhnə Rumıniyada unudulmaz əks-səda doğurmuş və yaddaşlara "sərt və amansız çəkicli adam" olaraq yerləşməsinə səbəb olmuşdu.

Neft vadiləri od tutub yanırdı. Göy üzünə qədər uzanan qızılı rəngli alovlar, qara, yoğun, boğucu dumanlarıyla göyü bürüyür, günəşin parlaqlığının qarşısını alırdı. Vadilərin o biri tərəfindən silah səsləri gəlir və get-gedə sıxlaşırdı. Od vurulub yandırılacaq son neft sahəsinin

Ploesti olması qərarlaşdırılmışdı. Bu iş tam zamanında tamamlanmışdı, çünki dekabrın 5-də, bütün təsislər alovlar içində yanıb kül olduqdan bir neçə saat sonra almanlar Ploesti qəsəbəsinə girdilər. Norton-Griffiths canını birtəhər qurtararaq, alman süvarilərinin gəlməsindən bir azca əvvəl avtomobilə minib qaçmağı bacardı. "Torpağı yararsız hala salmaq" ona vəzifə kimi tapşırılmışdı və o, bu vəzifənin öhdəsindən layiqincə gəlmişdi. Amma əslində Norton-Griffiths dağıdıcı yox, qurucu adam idi və buna görə də "sıradan çıxarma" işinin onun boynuna qoyulmasından xeyli narahatçılıq keçirmişdi. Yeri gəlmişkən, bu əməlinə görə hərbi medal və ordenlərlə mükafatlandırılmasına baxmayaraq, ömrünün sonrakı illərində heç də ona xas olmayan bir davranışla neft bölgələrinin sıradan çıxarılmasındakı işləklərindən danışmaq istəməmiş, bu mövzuda susqun qalmağı seçmişdir.

Müharibədən sonra General Ludendorf Norton-Griffithsi nəzərdə tutaraq, bu sözləri söyləyəcəkdi: "Heç şübhəsiz ki, onun törətdikləri ordumuzun və öz yurdumuzun neft ehtiyatını azaltmışdır." Alman Generalı daha sonra kin dolu ifadələrlə bunları da əlavə edirdi: "Savaşdakı nöqsanlarımızı qismən də olsa, ona borcluyuq." Müharibənin davam etdiyi müddətdə Norton-Griffithsin öncüllüyündə Rumıniyada 70 ədəd neftayırma zavodu və təxminən 800.000 ton xam neft və neft məhsulları məhv edilmişdi. Almanların neft bölgələrini yenidən tam işlək hala gətirmələri üçün aradan 5 ay zaman keçmişdi. Bütün bu işlərdən sonra da 1917-ci ilin bütün istehsalı 1914-cü ildə əldə edilən məhsulun ancaq üçdə biri qədər idi. Almanlar sistemli nizam-intizamla çalışaraq, özlərini Norton-Griffithsin həyata keçirdiyi təxribatın təmirinə həsr etmişdilər. Bunun nəticəsində 1918-ci ilin istehsalını





1914-cü ilin istehsalının 80 faizi həcminə gətirib çatdıra bildilər. O günlərdə Almaniyanın rumın neftinə şiddətlə ehtiyacı vardı. Hətta rumın nefti olmasaydı, Almaniya bəlkə də savaşa davam etmək imkanını itirəcəkdi. Gələcək illərdə İngiltərə İmperial Müdafiə Komissiyasının bir tarixçisinin müşahidələrinə görə, Almaniyanın rumın neft sənayesini və Rumıniyanın taxılını tam zamanında ələ keçirməsi, bu ölkə baxımından son dərəcə əhəmiyyətliydi. O qədər əhəmiyyətli idi ki, "qıtlıqla üzləşmə" ilə "tamamilə məhv olma" arasındakı incə fərqi müəyyənləşdirən də bu faktor olmuşdu. Amma müvəqqəti bir müddət üçün.

## Bakı

Almanlar rumın neft yataqlarını yenidən işlətməyə başladıqları zaman, General Ludendorf gözlərini daha böyük bir mükafata dikmişdi. Bu, get-gedə böyüməkdə və yüksəlməkdə olan neft ehtiyacına cavab verəcək və beləliklə, savaşın taleyini Almaniyanın lehinə çevirəcək bir mükafat idi. Bu mükafat Xəzər Dənizinin sahilində yerləşən Bakı şəhəriydi. 1917-ci ilin əvvəllərində Çar üsul-idarəsinin çökməsi, eyni ilin ortalarına doğru baş verən bolşevik üsyanları və Rusiya imperiyasının parçalanması, almanlarda Bakı neftinə yiyələnmək ümidi oyandırmışdı. 1918-ci ilin mart ayında imzalanan Brest-Litovsk müqaviləsi vasitəsilə Bakıya sızma və Bakı neftini ələ keçirmə yollarını aradılar. Brest-Litovsk müqaviləsi Almaniya ilə inqilab şəraitindəki Rusiya arasındakı düşmənçiliklərə son vermişdi. Ancaq Almaniya və Avstriyanın müttəfiqi olan türklər, müqavilə imzalanar-imzalanmaz Bakıya doğru irəliləməyə başlamışdılar. Uğur qazanacaqları təqdirdə türklərin neft yataqlarını sıradan

çıxaracaqlarından qorxuya düşən Almaniya, bolşeviklərlə bazarlığa girişdi və onlara bir miqdar neft verilməsi qarşılığında türkləri dayandıracağına söz verdi. Lenin hadisəni bu sözlərlə bildirir: "Təklifi çox normal və təbii qəbul etdik." Başqa tərəfdən, o günlərdə bolşeviklərin öndə gələnlərindən biri olaraq səhnəyə çıxan İosif Stalin, şəhəri nəzarətdə saxlayan bolşevik Bakı Kommunasına teleqraf çəkərək "tələb"ə uyulmasını və yerinə yetirilməsini əmr edirdi. Ancaq yerli bolşeviklər bu əmrə əməl edəcək psixologiyada olmadıqlarından, Stalinə bu cavabı verdilər: "Nə qələbədə, nə də məğlubiyyətdə alman quldurlarına alın tərimizlə istehsal etdiyimiz neftdən bir damla belə verməyəcəyik."

O biri tərəfdən, Bakı mükafatını alan türklər Berlindən gələn tələblərə məhəl qoymadılar və neft bölgələrinə doğru irəliləməkdə davam etdilər. İyul ayının axırlarında şəhəri mühasirəyə aldılar. Avqustun əvvəllərində də neft istehsal olunan torpaqların bəzilərini ələ keçirdilər. Bakıda yaşayan ermənilər və ruslar çoxdan bəri İngiltərədən yardım istəyirdilər. Nəticədə bu yardım 1918-ci il avqust ayının ortalarında gəldi və İngiltərə İran yoluyla irəliləyən kiçik bir hərbi qüvvəylə vəziyyətə müdaxilə etdi. Hərbi qüvvəyə Bakını qurtarmaq və Bakı neftini düşməndən uzaq tutmaq tapşırılmışdı. Hərbi birlik lazım olduğunda Rumıniyada sınaqdan çıxarılmış planın eynisini tətbiq etmək və "Bakı neftötürmə stansiyasını, boru kəmərini və neft ehtiyatlarını sıradan çıxarmaq" işini də yerinə yetirməliydi.

İngilislər Bakıda sadəcə bir ay qaldılar. Ancaq bu qədər qısa müddət belə, kritik bir zamanda almanları Bakı neftindən məhrum etməyə kifayət etmişdi. Alman General Ludendorf vəziyyəti bu sözlərlə qiymətləndirmişdi: "Bu, bizim üçün çox ağır bir zərbə oldu." Qarşıdakı günlərdə ingilislər geri çəkiləcək və şəhər türklərin əlinə keçəcəkdi. Şəhərdə fəaliyyət göstərən bolşeviklərdən 26-sı ucqar bir yerə - Xəzər Dənizinin 140 mil şərqində yerləşən bir çölə götürüldülər və orada edam edildilər. Aralarından bir neçəsi qaçmağa nail olmuşdu. Bunlardan biri də Anastas Mikoyan adlı gənc bir erməni idi. Anastas hansı yollarlasa çəmini tapıb Moskvaya getdi və baş verənləri Leninə danışdı. Ancaq türklərin Bakını almalarına qədər keçən müddət ərzində almanlara və almanların neft ehtiyatına əlavə yardımlar olunmamışdı. Gecikmişdilər.





## Qələbəyə doğru

O kritik vəziyyətdə Bakıdan məhrum olunmaq Almaniya üçün mütləq bir zərbəydi. Bakı neftinə tətbiq olunan təzyiq get-gedə böyüyüb şiddətlənirdi. 1918-ci ilin zavallı oktyabr ayında mənzərə həqiqətən ağır idi. Alman ordusu bütün ehtiyatını bitirmişdi və alman ali komanda heyəti qarşıdan gələn qış və yaz aylarında çox ciddi bir neft böhranıyla qarşılaşmağı gözləyirdi. Oktyabr ayında Berlində irəli sürülən təxminlərə görə, dəniz savaşına artıq ən çox 6 və ya 8 ay dayanıla bilərdi.

Neftlə işləyən savaş sənayeləri iki ay içində neftsiz qalacaq, altı ay içində də sənaye yağlayıcılarının bütün ehtiyatı tükənəcəkdi. Quruda aparılacaq əməliyyatlar isə, ancaq məhdud olaraq və müəyyən bir miqdara bağlanmaq şərtiylə davam etdirilə biləcəkdi. Hava savaşı və texnikayla idarə olunan quru savaşına gəlincə, bunlar da mütləq iki ay ərzində bitməyə məhkumdu.

Şübhəsiz ki, bunların hamısı sadəcə təxmin və ehtimallardı. Bu təxminlərin doğruluğunu sınaqdan

keçirmək, tükənmiş Almaniyanın bir ay içərisində təslim olması səbəbilə heç bir zaman mümkün olmamışdır. 11 noyabr 1918-ci il səhər saat 05.00 radələrində Marşal Fochun Comriegne Meşəsindəki avtomobilində razılaşma imzalandı və 8 saat sonra da qüvvəyə mindi. Artıq müharibə bitmişdi.

Müqavilənin imzalanmasından 10 gün sonra İngiltərə hökuməti Müttəfiqlərarası Neft Konseyinin şərəfinə Lancester Housedə bir axşam yeməyi verir və şərəf qonağı olaraq seçkin adam Lord Gürzonu sədr kimi qəbul edirdi. Lord Gürzon bir zamanlar Xarici İşlər Nazirliyində məşhur İran mütəxəssisi kimi fəaliyyət göstərmişdi. Hindistanda vali vəzifəsində çalışmış və bu statusla İranda strateji mövzularda D`Arcyyə dəstək vermişdi. Bundan başqa, Savaş Kabinetinin də üzvü idi. İndə də çox yaxın zamanlarda Xarici İşlər Naziri olması gözlənilirdi. Lord Gürzon yemək əsnasında bir ara ayağa qalxıb qonaqlara Fransada və Hollandiyada gördüyü ən çarpıcı şeyin "motorlu avtomobillərdən təşkil olunan görkəmli ordu" olduğunu söyləyirdi. Bunlardan sonra yüksək səslə bu sözləri söyləyəcəkdi: "Müttəfiq qüvvələr qələbəni bir neft dalğasının üzərində çaldılar."

Fransanın Baş Neft Komissiyasının sədri Senator Berenger isə bu yeməkdə daha coşğun tonda danışırdı. Fransızca etdiyi çıxışında "dünyanın qanı" olan neftin, eyni zamanda "qələbənin də qanı" olduğunu söyləyir və çıxışına bu cür davam edirdi: "Almaniya dəmir və polad sahəsindəki üstünlüyü ilə həddindən ziyadə lovğalandı, amma bizim neft sahəsindəki üstünlüyümüzü lazımi dərəcədə diqqətə almadı." Berenger bu sözlərdən sonra hələ bir kəhanət də edəcək, fransız dilində etdiyi çıxışını belə davam etdirəcəkdi: "Madam ki, neft, savaşın qanına





çevrilə bildi, o halda sülhün də qanına çevrilə biləcəkdir. Sülhün təmin olunduğu bu zamanlarda, bu anlarda sivil xalqlarımız, sənayemiz, ticarətimiz, kənd təsərrüfatı ilə məşğul olanlarımız - hamısı birdən bizdən neft, daha çox, həddindən artıq çox neft tələb edir, daha çox, həddindən artıq çox benzin tələb edir." Nəticədə çıxışını ingiliscə bitirdi və bunları söylədi: "Daha çox neft, sonsuza qədər daha... daha çox neft!"

# 10

# ORTA ŞƏRQ QAPISININ AÇILMASI

## Türkiyə Neft Şirkəti

Gürzon və Berengerin "Qələbənin Qanı" şərəfinə qədəh qaldırmalarından 10 gün sonra Fransanın Baş naziri Georgi Clemenceau İngiltərənin Baş naziri David Lloyd Corcu ziyarət etmək məqsədilə Londona getdi. Silahlar üç həftə idi ki, susmuşdu. Amma ortada savaş sonrasının gətirdiyi və dərhal ələ alınması vacib olan bir sürü problem vardı. Bunlar - sülhün necə bərqərar olunacağı, müharibədən sonra sürünərək addımlayan dünyanın necə yenidən qurulacağı kimi - hamısı təcili məşğul olunmağı gözləyən qaçınılmaz mövzulardı. Neft mövzusu artıq savaş sonrası siyasətin ayrılmaz bir parçası olmuşdu və bu siyasətlərlə iç-içə ələ alınırdı. O gün - Clemenceau və Lloyd Corc onları salamlayan və alqışlayan xalqın alqışları arasında London küçələrindən keçərkən, hər ikisinin də beynində bu mövzu dolaşırdı. İngiltərənin niyyəti - o günlərdə Mesopotomiya olaraq tanınan və artıq ölmüş sayılan Türk Osmanlı İmperiyasına aid olub, sonradan İraq kimi tanınacaq əyalətlər üzərində nüfuzunu qarantiyaya almaqdı. Bu bölgənin yüksək dərəcədə neft potensialına sahib olduğu düşüncəsi hakimdi və bu düşüncə perspektiv vəd edirdi. Ancaq Fransa da bu bölgənin başqa bir yerində - Bağdadın şimal-qərbindəki Mosul əyalətində hegemonluq iddiasındaydı.

Clemenceau və Lloyd Corc fransız səfarətinə gəldikdən sonra Fransanın Baş naziri Clemenceau bir sual yönəltdi: "Əcəba, İngiltərə tam olaraq nə istəyir?"





Lloyd Corc bu suala başqa bir sualla cavab verdi və İngiltərənin qonşu ölkə olan Suriya üzərindəki fransız nəzarətini tanıması şərtiylə, Fransanın Mosul üzərindəki iddiasından imtina edib-etməyəcəyini soruşdu.

Clemenceau bu suala müsbət cavab vermişdi. Mosulda istehsal olunan neftdən bir hissə verilməsi şərtiylə Fransanın buna etirazı olmayacaqdı.

Lloyd Corc da bu qərarı qəbul edirdi.

Ancaq hər iki baş nazir də aralarında razılaşdıqları bu razılaşmanı öz rəhbərlik etdikləri Xarici İşlər Nazirliklərinə bildirmədilər. Əslində, təbii ki, aralarında razılaşdıqları bu sözlü anlaşma heç bir şəkildə rəsmi anlaşma sayıla bilməzdi. Bu sözlü anlaşma daha çox Orta Şərqdə və başdan-başa bütün dünyada savaşdan sonra baş alıb gedən böyük və yorucu neft mübarizəsinin başlanğıc nöqtəsi sayıla bilər. Bu sözlü anlaşma həm fransızları qızışdırıb ingilislərin üzərinə salmış, həm də Amerikanın işə müdaxilə etməsinə səbəb olmuşdu. Artıq bundan belə yeni tapılan neft bölgələri üzərindəki rəqabət və mübarizələr, risqi üzərinə götürən təşəbbüskarlarla və sadəlövh iş adamlarıyla məhdudlaşdırılmayacaqdı. Birinci Böyük Dünya Müharibəsi neftin millətlərin strategiyasında əsas ünsür olduğu gerçəyini açıq-aşkar ortaya çıxarmışdı. Daha əvvəllər ortalıqda zar-zor görünən siyasətçilər və bürokratlar birdən-birə meydana çıxır, mübarizənin mərkəzinə doğru hoppana-hoppana yol alıb, məsafə qət edirdilər. Bunları yarışmağa vadar edən ortaq və sabit bir fikir vardı. Savaş sonrası dünyada iqtisadi rifah və milli güc əldə etmənin yolu daha çox neft əldə etməklə mümkün idi.

Neft uğrunda mübarizə güclü şəkildə tək bir bölgədə -

Mesopotomiyada cərəyan edirdi. Savaşdan əvvəlki 10 il içərisində də Mesopotomiya, neft haqqındakı intriqalarda, diplomatik və ticari rəqabətlərdə daim hərəkət mərkəzi olmuş, mübarizənin əsasını təşkil etmişdi. Bölgənin yüksək səviyyədə neft potensialına malik olduğu haqqında verilən raportlarla bu rəqabət daha da şiddətlənirdi. İllərdən bəri davam edib gələn bu çəkişmələr artıq məhv olma mərhələsində olan və borc içində qıvrılan türk imperiyası tərəfindən də yeni gəlir qaynaqları kimi istifadə olunmaq məqsədilə təşfiq edilirdi. Savaşdan əvvəlki illərdə səhnədə rol alan oyunçulardan biri də Orta Şərqə alman nüfuz və ehtiraslarını gətirmək istəyən Deutsche Bank öndərliyində qurulan bir alman qrupu idi. Qarşı tərəfdə isə rəqib bir qrup - Villiam Knox D`Arcynin rəhbərlik etdiyi, sonradan Anqlo-Pers Şirkətinə qatılan bir qrup vardı. Qrupun məqsədi İngiltərə hökuməti tərəfindən Almaniyaya qarşı bir müqavimət təşkil etməkdi.

Çox keçmədi ki, 1912-ci ildə İngiltərə hökuməti heç gözlənilmədən səhnədə yeni bir oyunçu kəşf etdi və bundan ciddi şəkildə narahatçılığa qapıldı. Yeni oyunçu Türkiyə Neft Şirkəti idi. Çox keçmədən anlaşılacaqdı ki, Deutsche Bank neftdəki bütün imtiyazlarını bu şirkətə həvalə edib. Yeni qurulan bu şirkətdə Deutsche Bank və Hollandiya Kraliyyət/Shell Şirkəti - hər biri dörddə bir hissəyə sahibdi. Şirkətin bütün mal varlığının yarısı olan ən böyük hissə isə adı Türk Milli Bankı olan, ancaq əslində sırf İngiltərənin iqtisadi-siyasi maraqlarının əleyhinə fəaliyyət göstərən və bu məqsədlə qurulan bir banka aid idi. Ancaq oyunçuların hamısı bundan ibarət deyildi. Bir oyunçu daha vardı... Bu, bəzilərinin fikirlərinə görə, "neft diplomatiyasının Taleyranı" olaraq xatırlanan və





heyranlıq duyulan, bəzilərinin isə həqarətlə baxdığı və dəyərsiz bildiyi Qalust Gülbekyan adlı bir erməni milyoneri idi. Türkiyə Neft Şirkətinin bütün təşkilati işlərini tənzimləyən adam Gülbekyan idi. Bir az da dərindən araşdırıldığında, Gülbekyanın Türk Milli Bankında 30 faiz hissəsinin olduğu və bunu gizlətdiyi ortaya çıxdı. Türk Milli Bankındakı 30 faizlik hissə, Türkiyə Neft Şirkətindəki 15 faizlik hissə mənasına gəlirdi.

### Cənab "beş faiz"

Qalust Gülbekyan neftlə məşğul olan və onu peşə bilən bir ailənin ikinci nəslinə mənsubdu. Zəngin bir erməni neftçi və bankiri olan atası, bütün sərvətini Osmanlı imperiyasına rus istehsalı qaz yağı idxal etməklə qazanmışdı. Bu fəaliyyətinə görə, Sultan tərəfindən mükafatlandırılaraq, Qara dəniz sahillərindəki bir şəhərə vali təyin olunmuşdu. Ailə əslində bu şəhərdə yaşadığı üçün qeydiyyatlara görə Qalust Gülbekyan pul qazanmaqla əlaqəli ilk təşəbbüsünü bu şəhərdə başlamışdı. Rəvayətə görə, hələ 7 yaşında olarkən, əlinə verilən gümüş bir Məcidiyyəni Qapalı Çarşıya aparmış və orada pula çevirib xərcləmişdi. Amma zənn edildiyi kimi alma şəkəri almaq üçün yox, qədim bir pulla dəyiş-düyüş edərək xərcləmişdi. Ömrünün qarşıdakı illərində dünyada bu gün ən böyük kolleksiyalar arasında sayılan bir qızıl pul kolleksiyasına sahib oldu. Bundan başqa, J.P.Morqanın görkəmli qədim yunan pulları kolleksiyasını da satın aldı və bundan böyük zövq duyduğunu hər zaman etiraf etdi.

Uşaqlıq illərində kiçik bir şagird ikən dostları arasında

sevilməyən birisiydi. Həyatı boyunca da özüylə bütün insanlıq arasında heç bir zaman böyük bir sevgi bağı olmamışdır. Gənc Qalust, məktəbdənkənar qalan asudə vaxtını Qapalı Çarşıda bazarlıqları dinləyərək, bəzən kiçik nisbətlərdə olsa da bunlara qatılaraq, "Şərq üsulu bazarlıq" deyilə biləcək sənəti öyrənərək keçirirdi.

İbtidai məktəbdən sonra fransızcasını daha yaxşı öyrənsin deyə əvvəlcə Marsilyadakı orta məktəbə, sonradan da Londondakı Kings Kollecinə göndərildi. Kollecdə mədən mühəndisliyi fakultəsində təhsil aldı və diplom işini də "yeni neft sənayesi texnologiyası" olaraq seçdi. 1887-ci ildə, 19 yaşında məzun olduğu məktəbdən mühəndislik sahəsində ən yüksək dərəcəli diploma layiq görülərək ayrıldı. King Kollecinin professorlarından biri, qabiliyyətləri açıq şəkildə görünən bu gənc erməni tələbənin Fransaya gedərək, fizika sahəsində ixtisasını davam etdirməsini təklif etsə də, atası bu təklifi qəbul etmədi. Onun fikrincə bu, "akademik bir axmaqlıq" deməkdi. Beləliklə, Qalust Fransanın yerinə, atası tərəfindən ailə gəlirlərinin çoxunun gəldiyi Bakıya göndərildi. Gənc Gülbekyan ilk dəfə gördüyü neft işinin işləyiş mexanizmindən çox təsirlənmiş, sanki ovsunlanmışdı. Hətta bir neft fışqırmasına da şahid olmuş, fışqırmadan sonra üst-başı islansa da, Qalust buna baxmayaraq, "fışqıran neft incə və nizamlı gəlirdi" deyərək, bu təcrübəni o qədər də cansıxıcı qarşılaşmamışdı. Nəhayət, Bakıdan ayrıldı. Təkrar gələcəyi haqqında söz versə də, bu neft ölkəsinə bir daha geri qayıtmadı.

Gülbekyan rus nefti haqqında çox bəyənilən və 1889-cu ildə məşhur bir fransız jurnalında dərc olunan bir sıra məqalələr yazmışdı. 1891-ci ildə bu məqalələri, ona böyük etibar qazandıran və hələ 21 yaşındaykən dünyanın





sayılıb-seçilən neft mütəxəssisinə çevirən bir kitab halında nəşr etdirdi. Bundan dərhal sonra Türk Sultanının əmrindəki iki məmur Gülbekyanın yanına gəldilər və ondan Mesopotomiyadakı neft ehtimalını araşdırmasını tələb etdilər. Gülbekyan bu bölgəyə getmədi - və heç bir zaman da getməyəcəkdi - ancaq Sultana təqdim olunmaq üçün ətraflı bir raport hazırladı. Bu raport başqa yazarların yazdıqları əsərlər və alman dəmir yolu mühəndisləri ilə aparılan söhbətlər əsas götürülərək hazırlanmışdı. Gülbekyan raportunda bölgədə çox böyük neft potensialının olduğunu ifadə etmişdi. Türk dövlət məmurları bu sözlərin doğru olduğuna inanmışdılar. Gülbekyanın özü də buna inanırdı. O gündən sonra Qalust Gülbekyanın ömür boyu davam edən Mesopotomiya ehtirası başladı və 60 ildən çox bir müddətdə yorulub-bezmədən fövqəladə bir təşəbbüs və inadla özünü bu mövzuya həsr etdi.

İstanbuldakı günlərini xalça satıcılığı kimi bir neçə kiçik ticari iş məşğulluğu ilə keçirən Gülbekyan, bunların heç birində uğur qazana bilmədi. Ancaq ticari təşəbbüslər irəli sürmək, bazarlıq etmək, intriqa və bəxşiş kimi Qapalı Çarşıya məxsus sənətlərin ustası olmuşdu. Bu sənətlərin bir başqası da xəbər toplamaq işi idi ki, Gülbekyan bu sahədə də bir xeyli uğur qazana bilmişdi.

Başqa xüsusiyyətləri də vardı. İşə olan həvəsi, uzaqgörənliyi və barışdırıcılığı bütün həyatı boyu davam etdi. Qalust bu xüsusiyyətlərini gündən-günə inkişaf etdirdi və həyata keçirdi. Məsuliyyət tələb edən xüsusi bir halla qarşılaşanda, prinsip olaraq, əgər o vəziyyəti nəzarət altına ala biləcəyini zənn edirdisə, o zaman vəziyyəti sabitləşdirməyə çalışırdı. Yox, nəzarət edə bilməyəcəyini anlayırdısa, qədim bir ərəb atalar sözünü dəstəvuz götürüb, "bükə bilməyəcəyin əli öp" fəlsəfəsinə riayət edərdi. İstanbulda

keçirdiyi illərdə xarakterində var olan səbir və əzm xüsusiyyətlərini də inkişaf etdirməyə çalışmışdı. Bəzilərinə görə, bu, onun sahib olduğu ən qiymətli keyfiyyətlərdəndi. Çox da hərəkətə meylli bir insan deyildi. Onu yaxından tanıyan birinin söylədiyi kimi "qraniti sıxıb hərəkətə gətirmək, cənab Gülbekyanı hərəkətə gətirməkdən daha asan idi."

Gülbekyanın diqqət çəkən bir xüsusiyyəti daha vardı. Qətiyyən heç bir halda, heç bir zaman, heç bir kimsəyə etibar etməzdi. Tam mənasında və bütünlüklə şübhəçi adamdı. Londonda yerləşən Milli Qalereyanın sənətşünaslıq üzrə tənqidçisi və müdiri olan, irəlidəki illərdə sənət kolleksiyasının hazırlanmasında ona hər cür yardımlarını əsirgəməyən Ser Kenneth Clark, Gülbekyanı nəzərdə tutaraq bunları söyləmişdi: "Ömrüm boyu bu qədər hər şeydən şübhələnən bir insanla qarşılaşmamışdım. Hər şeydən şübhələnməkdə bu qədər ifratçılığa varan birinə ilk dəfə idi ki, rast gəlirdim. Gülbekyan hər zaman yanında ona casusluq edəcək adamlar saxlayırdı." Bir sənət əsərini satın alacağı zaman, o əsəri ən az iki və ya üç sənətşünasa, ya da ekspertə göstərir, qiymətini müəyyənləşdirib, ancaq ondan sonra satın alırdı. Yaşı irəlilədikcə sağlamlığına getgedə daha çox diqqət edirdi və bunu sabit bir fikir halına gətirmişdi. Yeri gəlmişkən, 106 yaşına qədər sapsağlam bir ixtiyar dədəni özünə örnək almış, ondan daha uzun yaşamağı qarşısına məqsəd qoymuşdu. Sağlamlığına diqqət etmək və onu mütəmadi yoxlamaq üçün iki birbirindən ayrı həkim qrupu təşkil etmişdi. Məqsədi bir qrupu o biri qrupa qarşı casus kimi istifadə etməkdi.

Bu qədər şübhələnməkdə Gülbekyan bəlkə də haqlı idi. 1896-cı ildə Gülbekyan gəmiylə Misirə qaçdı. Misirdə olarkən, çox məşhur olan iki erməni ilə tanış oldu və onlar





tərəfindən bəyənilərək mənimsənildi. Bu iki erməni - bakılı bir neft milyoneri ilə Misir idarələrinin birində köməkçi vəzifəsində işləyən Nubar Paşaydı. Bu iki şəxslə olan tanışlığı Gülbekyana həm xam neft qapısını, həm də beynəlxalq finans qapılarını açdı. Yenə də bu tanışlığı sayəsində Londonda Bakı neftinin satış təmsilçiliyini qazandı.

Artıq Londondaydı və bundan yararlanaraq, Samuel qardaşları və Henri Deterdinglə tanış oldu və özünü onlara qəbul etdirib bir ittifaq qurdu. Gülbekyanın oğlu Nubar bu tanışlıq və ittifaq haqqında sonrakı illərdə bunları yazmışdı: "Atam və Deterding 20 ildən uzun müddətdə bir-birini çox yaxşı başa düşən çox yaxın iki dost oldular... Əcəba, bu 20 il müddətində Deterdingmi atamdan istifadə etmişdi, yoxsa atammı Deterdingdən? Bunu heç kim olduğu kimi bilə bilməz..." Ancaq cavab nə olursa-olsun, aralarındakı əlaqənin hər ikisi üçün də həm şəxsi baxımdan, həm də ümumi olaraq, Hollandiya Kraliyyət/Shell Qrupu baxımından son dərəcə səmərəli olduğu bir gerçəkdir. Gülbekyan Shellə yeni iş sahələri və gəlirli işlər gətirir, şirkətin maliyyə işlərini nizamlayırdı.

Londona gəldikdən sonra, hələ işin başında girişdiyi ilk öhdəçilik işləri arasında İran imtiyazı gəlir ki, bu da D'Arcyyə nəsib olmuşdu. O və Deterding, Erməni Kitabginin Parisdə təşkil etdiyi imtiyazın orijinal layihəsinə baxdıqdan sonra anlaşmanı rədd etmişdilər. Sonrakı günlərdə buna əsas kimi Gülbekyan bu səbəbləri göstərmişdi: "İmtiyaz çox vəhşi bir pişiyə oxşayırdı. Bizə o dərəcə spekulativ göründü ki, nəticədə bu imtiyazı, ancaq bir qumarbazın ala biləcəyinə qərar verdik." İmtiyaz əldən qaçırıldıqdan sonra Anqlo-Pers Şirkətinin necə sürətlə böyüməkdə olduğunu görərək, peşmançılıq hissi keçirəcək və ağlında öz-özü üçün yeni bir prinsipin çərçivəsini

quracaqdı: "Bir neft imtiyazı heç bir zaman rədd edilməməlidir." Yeri gəlmişkən, yaşamının geri qalan illərində bu prinsip Gülbekyan üçün yol göstərici bir müddəa oldu. Bu prinsipi qalan bütün prinsiplərinin ilki və ən öndə gələni olaraq, İranın qapı qonşusu Mesopotomiyada qarşılaşdığı bütün problemlərdə heyrətamiz bir sədaqətlə hər zaman tətbiq etdi. 1907-ci ildə Samuel qardaşlarını özünün rəhbərliyi altında İstanbulda bir büro açmağa inandıra bilmişdi. O günlərdə ermənilərə olan düşmən münasibət nisbətən səngimişdi və Gülbekyan da özünü bütün varlığı ilə işinə həsr etmişdi. Üzərinə götürdüyü saysız-hesabsız işlərə əlavə olaraq, birbaşa türk hökumətinin maliyyə müşaviri vəzifəsini də üstlənmişdi. Bundan başqa, Türkiyənin Paris və London səfirliklərinin maliyyə müşavirliyi işini də görürdü. Üstəgəl, Türk Milli Bankının ən böyük hissədarlarından biriydi. Bütün bunlara əsaslanaraq, rəqib ingilis və alman sərmayələrini və sonra da Hollandiya Kraliyyət/Shell sərmayəsini Türkiyə Neft Şirkətinə bağlamağa nail olmuşdu. Öz deyişi ilə, bu, elə də xəfifə alınacaq bir uğur deyildi və çox həssaslıq tələb edən "...və heç bir baxımdan zövqlü olmayan" bir iş idi.

1912-ci ildən, yəni Türkiyə Neft Şirkətinin qurulduğu gündən başlayaraq, İngiltərə hökuməti bütün istiqamətini bu şirkətin D`Arcyyə aid olan Anqlo-Pers Şirkəti ilə birləşməsinə və ikisinin bir müqavilə imzalamasına yönəltdi. Bu haqda hətta şirkətə əlindən gələn qədər təzyiqlər də göstərdi. Nəhayət, ingilis və alman hökumətləri bir birləşmə strategiyası üzərində qərara vardılar və bu strategiyanın həyata keçirilməsi üçün görüş birliyinə gəldilər. Hər iki hökumət bu mövzuda təzyiq göstərməyə qərar verdilər. 19 mart 1914-cü il tarixli "Xarici İşlər Nazirliyi





Anlaşması"na görə, bu birləşmiş qrupda İngiltərənin maraqları ön plana çəkilirdi. Yeni müqaviləyə görə, Anqlo-Pers Qrupu 50 faizə sahib olacaq, Deutsche Bank və Shell də konsorsiumdan hərəsi 25 faiz pay alacaqdı. Ancaq məsələ bununla kifayətlənmirdi. Arada Gülbekyan da vardı və onun da məmnun edilməsi lazım idi. Yeri gəlmişkən, müqavilənin şərtlərinə görə, Anqlo-Pers Qrupu və Shell Şirkəti ayrı-ayrı olmaqla hər ikisi də toplam hissələrinin 2.5 faizini "hədiyyə" adı altında erməni Gülbekyana verdilər. Bunun mənası bu idi: Gülbekyan hissələrin idarə olunmasında hər hansı səs haqqına sahib olmayacaq, amma bu cür birləşmənin bütün maddi gəlirlərindən yararlanacaqdı. Bax, "Cənab 5 faiz" bu cür doğulmuşdu və o gündən sonra Gülbekyan həmişə bu ləqəblə xatırlanacaqdı.

Beləliklə, 10 ildən bəri davam etməkdə olan rəqabət və çatışma bitmişdi. Amma bir şey vardı ki, tərəflər üzərlərinə çox mənalı və kritik, çox adamı bir neçə on illiklər boyu təhrik edib yaxasını buraxmayacaq bir öhdəçilik götürmüşdülər və bunun altından çıxmaq olduqca çətin bir iş idi. Tərəflər hamısı birdən müqavilənin müəyyən bir maddəsinə riayət edəcəklərini öhdələrinə götürmüşdülər. Bu, Azərbaycan türkcəsinə "özünü məhrum etmə" və ya "fədakarlıq" kimi tərcümə oluna biləcək "self-denying" maddəsiydi. Bu maddə tərəflərin Osmanlı İmperiyasının hər hansı bir yerində istehsal olunacaq neftdən heç bir şəkildə pay almamalarını müəyyən edən maddə idi - bir istisna ilə - istehsal "Türkiyə Neft Şirkəti" tərəfindən ediləcəyi halda bu maddə tətbiq olunmayacaq, tərəflər istehsal prosesinə qarışmaqda sərbəst olacaqdılar. "Fədakarlıq" maddəsinin tətbiq olunmadığı az sayıda bölgə arasında Misir, Küveyt və bir də Türkiyə-İran sərhəddindəki

"transfer olunmuş torpaqlar" sayıla bilər. Bu maddə Orta Şərqdə neft istehsalını inkişaf etdirmək üçün o gündən başlayaraq, bir çox illər davam edən insanüstü mübarizənin əsasını qoydu.

### Savaşda "birinci kateqoriya" hədəf

28 iyun 1914-cü ildə verilən diplomatik bir notayla Sədrəzəm, Mesopotomiya imtiyazının yeni qurulan Türkiyə Neft Şirkətinə veriləcəyini rəsmən vəd etmişdi. Nə yazıq ki, bu tarix Avstriya vəliəhdi Frans Ferdinandın Saray-Bosnada sui-qəsdə uğradığı tarixə rast gəldi və bu etibarla Birinci Dünya Müharibəsinin ilk gülləsinin də atıldığı tarix oldu. Hadisələrin bu şəkildə cərəyan etməsi çox əsas və əhəmiyyətli bir sualı cavabsız buraxmışdı. İmtiyaz həqiqətən verilmişdimi, yoxsa sadəcə veriləcəyinə dair bağlayıcı olmayan bir sözdən ibarət olaraq qalmışdı? Bu sualın cavabı verilsəydi, şübhəsiz ki, bir çox müzakirələrə səbəb olacaqdı. Ancaq o gün üçün savaş Mesopotomiyadakı Anqlo-German əməkdaşlığına son verməkdəydi və bu hal, açıqca müşahidə olunduğu kimi Türkiyə Neft Şirkətinə də təsir göstərirdi.

Yenə də hər şeyə baxmayaraq, Mesopotomiyanın neft potensialı unudulub yaddan çıxmadı. Bir ingilis səlahiyyətlisi ilə bir fransız səlahiyyətlisi 1915-ci ilin áxırlarında, 1916-cı ilin əvvəllərində bir araya gəlib, müharibədən sonra Mesopotomiyada qurulacaq düzənin planı üzərində razılığa gəldilər. Bu ikisinin adları ilə xatırlanan və Sykes-Picot deyə bilinən anlaşmaya görə, Mesopotomiyanın şimal-şərqindəki Mosul, - ki, neft bölgələri içində ən yüksək potensialı olan bölgədir - gələcəkdə fransızların nüfuz dairəsinə daxil olurdu. Mosulun "təslim olunması"





İngiltərə hökumətindəki bir çox səlahiyyət sahiblərini əsəbiləşdirir və o gündən başlayaraq, müqavilənin keçərsiz sayılması üçün əməlli-başlı təşəbbüslərə başlayırdılar. Bu mövzu 1917-ci ildə ingilis hərbi qüvvələrinin Bağdadı işğal etməsindən sonra daha da aktuallaşdı. 400 ildən çox idi ki, Mesopotomiya Osmanlı imperiyasının bir parçası olmuşdu. Bir vaxtlar Balkanlardan İran Körfəzinə qədər uzanan bu imperiya artıq bitmiş, müharibənin əsiri olmuşdu. İndi artıq xəritələrdə özünə harada gəldi yer ayrılan bir çox müstəqil və ya yarı müstəqil ölkə, nəticədə Osmanlı imperiyasına aid olan torpaqlara yerləşəcəkdi. Ancaq o gün üçün Mesopotomiya hələlik İngiltərənin nəzarəti altındaydı.

İngiltərənin mənafeləri baxımından, ölkədə neft ehtiyacını doğuran və Mesopotomiyanı yenidən səhnənin mərkəzinə gətirən faktor 1917 və 1918-ci illərdə müharibədə yaşanan neft böhranıdır. İngiltərə imperiyasının daxilində neft çıxarılması mümkün olmadığından, neftin Orta Şərqdən təmin olunması mövzusu böyük əhəmiyyət və aktuallıq kəsb etməyə başlamışdı. İngiltərə Savaş Kabinetinin fövqəladə səlahiyyətli və nüfuzlu naziri Ser Maurice Hankey, Xarici İşlər Naziri Artur Balfoura yazdığı məktubda görüşünü bu kəlmələrlə dilə gətirirdi: "Gələcəkdə formalaşacaq bir savaşda neft, bu günkü savaşda kömürün oynadığı rolu oynayacaqdır və ya ən azından kömürlə eyni paraleldə olacaqdır. Neft əldə edəcəyimiz və nəzarətimiz altında olan böyük potensial yerlər İran və Mesopotomiyadır. Bu səbəblə neft mənbəyi olan bu iki yer üzərindəki nəzarəti təmin etmək İngiltərənin savaşdan gözlədiyi birinci kateqoriya hədəf olmalıdır."

Ancaq ortada yeni doğulan bir "xalq diplomatiyası"

vardı və bu diplomatiya nəzərə alınmaya bilməzdi. 1918-ci ilin əvvəllərində bolşevizmin güclü çəkiciliyinin qarşılığında prezident Vodrov Vilson idealistik fikirlərini nümayiş etdirən "14 Prinsip"lə ortaya çıxır, savaşdan sonra millətlərin və xalqların öz müqəddəratını müəyyən etməsi çağırışını edirdi. Vilsonun Dövlət Naziri Robert Lansing, prezidentinin bu geniş ürəkliliyinin və dünya görüşünün qarşısında donub qalacaqdı. Lansing fərqli düşünürdü. Onun qənaətlərinə görə, "öz müqəddəratını müəyyən etmə" çağırışı bütün dünyada bir çox ölümlərə səbəb olacaqdı. Bu haqdakı düşüncələrini aşağıdakı sözlərlə ifadə etmişdi: "Cəmiyyətin və geniş ictimaiyyətin təmsilçisi olan bir adamın bu cür anarxik, yaxşı və ətraflı düşünmədən sərf edilmiş bəyanatlardan çəkinməsi lazım idi. Bu bəyanatın nəticələrindən özü də məsuliyyət daşıyır."

İngiltərə hökuməti də Visonun sanballı, ancaq qeyri-müəyyən qarşıladığı fikirləri qarşısında, ən az Lansing qədər çaşqınlığa uğrasa da, prezident Vilsonun çox populyar şəxsiyyətini diqqətə alaraq, savaş sonrası hədəflərini müəyyən edərkən, ona görə hərəkət edəcəkdi. Xarici İşlər Naziri Balfoura gəlincə, o, Mesopotomiyanı savaşın əsl hədəfi olaraq ifadə etmənin artıq dəbdə olmayan imperialist bir düşüncə tərzini əks etdirəcəyindən narahatçılıq keçirirdi. "Bundan qaçınılmalıdır" deyə fikirləşdiyi üçün 1918-ci ilin avqustunda müstəmləkələrin baş nazirlərinə İngiltərənin Mesopotomiyada "yol göstərən bir işıq" olacağını söyləməklə kifayətləndi. Bu cür düşünməsinin səbəbi olaraq da İngiltərənin, imperiyanın məhrum olduğu yeganə təbii qaynağı bu yolla ələ keçirəcəyini söylədi: "Nefti hansı sistemlə əldə edəcəyimiz mövzusu məni heç maraqlandırmır. Tamamən əmin olduğum yeganə həqiqət, bu neftə mütləq ehtiyacımızın olduğudur."





Bu məqsədin təmin olunmasını qarantiya altına almaq üçün, onsuz da Mesopotomiyanın başqa bir bölgəsində mövcud olan ingilis hərbi qüvvələri, Türkiyə ilə anlaşma imzalanmasından dərhal sonra Mosula gedərək, şəhəri işğal etdi.

### Clemenceau və baqqalı

Savaşın ilk həftələri içərisində Parisi xilas edən taksi ordusu başda olmaqla, yaşanan bir çox təcrübələr Fransanı da İngiltərə qədər neftin böyük strateji əhəmiyyət kəsb etdiyinə inandırmışdı. Birinci Dünya Savaşı başlamazdan əvvəl Corc Clemenceaunun "neftə ehtiyacım olduğu zaman, baqqalıma gedib alaram" dediyi söylənilir. Amma bir şey var ki, savaş başladıqdan sonra fikrini dəyişdirdi və savaş başa çatandan sonra isə Fransaya neft axtarıb tapmaq üçün yollar axtarmağa başladı. Ancaq bu dəfə müraciət edəcəyi yer baqqalı yox, ingilislərin də müraciət etdiyi yer olan Orta Şərq idi. 1 dekabr 1918-ci ildə Lloyd Corcun dəvəti ilə gəldiyi Londonda xalqın təzahüratı ilə altında etdikləri avtomobil gəzintisindən sonra Lloyd Corca Fransanın Mosul üzərindəki iddiasından imtina etdiyini bildirdi. Bu fədakarlığının qarşılığında Clemenceau Suriya üzərindəki himayədarlıq haqqı üçün İngiltərənin tam dəstəyini alır, İngiltərənin nəzarəti altına girəcək Mosuldan çıxarılacaq hər növ neft istehsalından bir hissə veriləcəyi haqqında İngiltərədən şifahi təminat alırdı.

Həqiqət budur ki, Londonda bu iki baş nazir arasında varılan bu müqavilə heç bir problemi həll etmədi. Tam tərsinə, iki ölkənin hökumətləri arasında sərt və qarşılıqlı ittihamlarla dolu olan və arxa planda qalan bir çox

müzakirələrə yol açdı. O dərəcədə ki, 1919-cu ilin yazında Paris sülh konfransında, Suriya və neftdən məsul olan Üç Böyüklər arasındakı iclasda Clemenceau və Lloyd Corc bir-birilərini qıracaq, Londonda razılaşdıqları müqavilədə nəyi "qərara bağladıqları" haqqında fərqli iddialar irəli sürəcək, dəfələrlə bir-birilərini ittiham edib, qarşı tərəfin pis niyyətli olduğunu söyləyəcəkdilər. Dəqiqələr keçdikcə, müzakirələr get-gedə "birinci kateqoriya it dalaşı" mahiyyətini alırdı. Əgər Vodrov Vilson araya girib, tərəfləri o dəqiqə sakitləşdirməsəydi, şübhəsiz, bu müzakirə açıqca yumruqlaşmaya qədər gedib çıxacaqdı.

Bu problem uzun zaman həll olunmamış qaldı, davam elədi və aradakı toqquşmanın onurğa sütunu təşkil etdi. Nəticədə mövzu 1920-ci ilin aprelində, Müttəfiqlər Ali Komitəsində ələ alınaraq, tərəflər arasında mövcud olan bir çox ciddi görüş ayrılıqlarının həllinə çalışıldı. Amerikanın artıq qatılmadığı bu müzakirələr Lloyd Corcla Fransanın yeni Baş naziri Aleksandr Millerand arasında aparılırdı. Bu iki baş nazir bu dəfə də San Remo Müqaviləsini əsas götürərək, bir razılaşma nöqtəsi əldə etməyə çalışdılar. Razılaşmaya görə, Fransa Mesopotomiya neftinin 25 faizinə sahib olacaqdı. Mesopotomiya o zamankı adıyla Millətlər Cəmiyyətinə (League of Nations) bağlı olaraq İngiltərənin protektoratlığını qəbul edirdi. Neft əlaqələrinin vasitəçiliyi isə yenə Türkiyə Neft Şirkətində qalırdı. Fransaya gəlincə, müqavilənin şərtlərinə görə, əvvəlcə almanların olan, amma müharibədən sonra İngiltərənin aldığı alman hissəsinə o sahib olurdu. Qarşılığında fransızlar Mosula olan iddialarından imtina edirdi. İngiltərə öz payına bu məsələlərdə çox qərarlı davranır, Mesopotomiyanın neft yataqlarını işlədəcək hər hansı bir şirkətin mütləq formada özünün nəzarətində





olacağını açıqlıqla ifadə edirdi. Artıq geridə cavabını gözləyən yeganə bir problem qalmışdı: Əcəba, Mesopotomiyada həqiqətən heç neft vardımı ki? Bax, bu sualın cavabını bilən yox idi.

Neftdə öz mövqelərini düzəltmək və möhkəmlətmək üçün fransızlar başqa bir yol axtarışına girişdilər. Dövlətə bağlı bir şirkət yaradacaq, sonra bu şirkəti özlərinin milli şirkətlərinə çevirəcəkdilər. Hollandiya Kraliyyət/Shell Şirkətindən Henri Deterdingin etdiyi ortaqlıq təklifini rədd etdilər. 1922-ci ildən baş nazir olan Raymond Poincare bu haqda çox israrlı idi. O, qurulacaq yeni şirkətin mütləq "tamamilə və yalnız Fransanın nəzarətində" olmasını istəyir və tələb edirdi. Bunu təmin etmək üçün 1923-cü ildə sənaye krallarından biri sayılan polkovnik Ernest Merciere müraciət etdi. Bu adam işin tələb etdiyi xüsusiyyətləri daşıyan birisi idi. Polkovnik Mercier həm bir texnokrat, həm də Rumıniya neft yataqlarını yaxınlaşmaqda olan almanlardan qorumağa yardım edən və bu zaman yaralanan bir savaş qəhrəmanı idi. Mahir bir texnik olmasıyla bərabər, özünü fransız iqtisadiyyatının müasirləşməsinə həsr edən bir texnokratdı. Hələ o illərdən Fransaya müasir elektrik sənayesini gətirən adamdı. İndi isə növbə neftə çatmışdı və ondan neft sahəsində də eyni işləri görməsi tələb olunurdu. Yeni şirkətə Compagnie Française des Petroles, qısaca CFP (Fransız Neft Şirkəti) adı veriləcəkdi. Bu şirkətin Fransanın "müstəqilliyini" simvolizə edən bir "vasitə" olması nəzərdə tutulurdu. Şirkətə təyin olunan iki müdirin təyin olunma işləri və digər əməkdaşların təsdiq olunması fransız hökuməti tərəfindən həyata keçiriləcək, ancaq şirkət özəl şirkət kimi işlədiləcəkdi.

Mercierin üstləndiyi iş onsuz da çox çətin işdi. Amma

buna baxmayaraq, fransız şirkətlərinin və banklarının bu yeni şirkətə sərmayə qoymaqda tərəddüd göstərməsi işi daha da çətinləşdirirdi. Bu yeni şirkət hökumətin dəstəyi ilə çalışacaq olsa da, yenə də sərmayədarlarda - bir zamanlar ingilis və amerikalı neft yatırımçılarının yeni neft macəralarında hiss etdikləri spekulyasiya və atəşli coşğu yoxdu. Göründüyü qədəriylə Mesopotomiya həddindən artıq risqli idi və Mercierin sonradan söylədiyi kimi "beynəlxalq problemlərlə ifrat dərəcədə yüklüydü." "İlk dəfə sərmayə qoyanların heç biri CFP-yə girə bilmək üçün yalvarıb-yaxarmırdı." Bütün bu mənfi şərtlərə baxmayaraq, yenə də Mercier, Fransa Neft Şirkətinin 1924-cü ildə işə başlaması üçün lazım olan sayda sərmayədarı, 90 ədəd bank və şirkət tapmağı bacardı. Bu yeni firma Türkiyə Neft Şirkətindəki fransız hissələrini də aldı.

Ancaq fransız hökuməti hədəflərinin və maraqlarının kifayət qədər qorunmadığı və həyata keçirilmədiyi qənaətindəydi. Buna görə də vəziyyətdən məmnun deyildi. 1928-ci ildə özəl bir Parlament Komissiyası İngiltərədən sonra Avropadakı ən böyük neft bazarı olan bu şirkətin gələcəyi haqqında bir raport tərtib etdi. Raportda iki baxımdan şirkətə etiraz vardı: həm "sərbəst bazar" olmasına, həm də dövlətin inhisarında fəaliyyət göstərməsinə. Raportda bunların əvəzinə, qarışıq bir sistem təklif olunurdu. Dövlətin müxtəlif özəl neftayırma şirkətlərinə bazar ayıracaq və bu yolla istehsalda müxtəlifliyə yer verəcək və fransız neftayırma şirkətlərinə yaşama haqqı tanıyacaq bir sistem. Bundan başqa, fransız neftayırmaçıları, əcnəbilərin rəqabətindən qorunacaq bəzi vergi və digər qanuni qoruyucu müddəaların tətbiq olunmasını təklif edirdilər. Nəhayət, 1928-ci ilin mart qanunu ilə fransız nefti üçün yeni bir "təşəkkül" qurulması





qərarlaşdırıldı və hədəflərinin ana xəttləri müəyyənləşdirildi. Buna görə, "Anqlo-Sakson" qaynaqlı neft tröstü sayısı azaldılır, bazara nizam gətirməyə və Fransanın Mesopotomiya neftindəki hissəsini inkişaf etdirməyə istiqamətlənən yerli bir neftayırma sənayesi qurulurdu. Yeni sistem altında CFP-nin fransız maraqlarını fəal olaraq qoruya bilməsi üçün dövlət, şirkətdən 25 faiz hissə alır, bu arada hökuməti təmsil edən idarə heyəti üzvlərinin üzv sayısı artırılırdı. Əcnəbilərə ayrılan hissə azaldılırdı. Beləliklə, bir fransız təmsilçisinin sözləriylə CFP, "hökumət hərəkatının sənaye qolu" olmağa hazır vəziyyətə gəlmişdi. Fransız hökuməti də indi ona yeni bir mövqe hazırlayırdı. Orta Şərqin neft mənbələrini ələ keçirmək savaşında öz rolunu üstlənməliydi - baş rol ələ keçirilməliydi. Bütün hazırlıqlar bunun üçün idi.

## Birləşməkmi?

Hadisələrin bu cür cərəyan etməsi İngiltərə hökuməti baxımından, o qədər də məmnunedici deyildi. Hökumət savaş sırasında başlatdığı Hollandiya-İngiltərə cari paylaşmasındakı 40/60 nisbətini pozma təşəbbüslərinə davam etməkdəydi. Bundan başqa, Hollandiya Kraliyyət/Shell müştərəkliyinin İngiltərənin nəzarətinə keçməsini istəyir, bunun üçün də şirkətdə hollandiyalı hissədarlardan çox, ingilis hissədarların əksəriyyət təşkil etməsi üçün əllərindən gələni edirdi. Marcus Samuelin qənaətincə bu yolda əldə ediləcək nəticə emosional baxımdan böyük əhəmiyyət daşıyır və bunun üçün də çox cəlbedici görünürdü. Ancaq Henri Deterding emosional baxımdan o qədər də maraqlı adam deyildi; onun maraq dairəsi

sadəcə və sadəcə işlə bağlıydı. Üsyan, diplomatik yarış və milliyyətçilik hərəkatlarının bu dərəcə bürüdüyü savaş sonu dünyasında İngiltərənin təmin edəcəyi qoruma və dəstək şübhəsiz, Hollandiyanın təmin edəcəyindən daha etibarlı olacaqdı. Bunun gətirdiyi fayda sadəcə bununla da kifayət etmirdi. Shell Hollandiya Şirkəti, əksəriyyət hissəyə sahib olmaqdan imtina etdiyi təqdirdə, əlavə mükafatlar alacaqdı. Bu mükafat Mesopotomiya nefti və Türkiyə Neft Şirkətidir. Shell Şirkəti ingilislərin nəzarəti altına girməklə Mesopotomiya neftindəki iddia və sahibliyini də qarantiya altına almış olurdu.

Shell Şirkətinin İngiltərənin nəzarəti altına girməsiylə, bu ölkənin neft sahəsindəki vəziyyəti dünya miqyasında düzəlirdi. Ancaq İngiltərə hökuməti şirkətə təyin olunacaq İdarə Heyəti üzvlərindən birini özü təyin etmək, İdarə Heyətinə daxil olacaq digər adamların da Anqlo-Persdə olduğu kimi özünün təsdiqindən keçməsini tələb edirdi. Deterding isə bu cür bir düzənləməni açıqca qəbul etmirdi. Səs çoxluğunun İngiltərədə olması bir şeydi, İngiltərə hökumətinin işə müdaxilə etməsi başqa bir şey. Əlində tutduğu ticari nəzarətdən imtina risqinə getmək istəmirdi. Bundan başqa, İngiltərə hökuməti ilə lazım olduğundan yaxın diplomatik əlaqəyə girmənin bəzi narahatçılıqlar yaradacağını da anlamağa başlamışdı. Xüsusilə, Şimali və Cənubi Amerikada torpaq almaq mövzusunda bəzi naqolaylıqlar çıxa bilərdi. Amerikada yanlış qəbul etmə vardı. Orada Hollandiya Kraliyyət/Shell Qrupunun İngiltərə hökumətinin bir qolu olduğu şübhəsi vardı və bu səbəblə də Qrup Amerikanın hücumlarına hədəf olmuşdu. Şirkətin mövqeyinin bu dərəcədə şiddətlə tənqid olunması Deterdingin, İngiltərənin nəzarətinə keçmədə göstərdiyi tərəddüdü büsbütün artırmışdı.





O qədər gecikməyə, xəyal qırıqlıqları və səbr daşırıcı hadisələrə baxmayaraq, Deterding və Shell Anqlo-Pers Şirkətiylə birləşməni tamamilə gözdən çıxarmamış, mövzuya göstərdikləri yaxın münasibəti və marağı qoruyub-saxlamışdılar. Anqlo-Persin gələcəkdə doğrudan-doğruya qorxuducu və vahiməli bir rəqib olacağını bildiklərindən, şirkət hələ bu səviyyəyə gəlməmişkən, onunla birləşmənin gətirəcəyi böyük yararların da fərqindəydilər. Shell baxımından isə vəziyyət başqa cürdü. Bu birləşmə Standardın Nyu Jersey qoluyla və o biri Amerikan şirkətləriylə arasındakı dünya miqyaslı rəqabətdə Shellə güc-qüvvə verəcəkdi. Bundan başqa, Anqlo-Pers İngiltərə bazarının açarı olan Kraliyyət Donanmasına neft verən şirkət olaraq seçimə dayanan tətbiqata da son verəcəkdi. Deterding sənayenin necə boş yerə, ziyana çalışdığını və işlərin lazımsız yerə təkrarlandığını görmüş, bundan çiyrənmişdi. Bu görüşünü vaxt itirmədən Standard Oil sədrinə bildirərkən, bunları söyləyirdi: "Dünya ifrat istehsaldan, ifrat neftayırmadan, ifrat daşımaçılıqdan və nəhayət, ən önəmlisi, ifrat pərakəndəçilikdən iztirab çəkməkdədir."

Hökumətin sahib olması səbəbilə Anqlo-Pers bir müddət idi ki, problemlərlə qarşı-qarşıyaydı. Xarici İşlər Nazirliyinin bir əməkdaşının söylədiyi kimi, bir çox ölkə, "şirkətin hər hərəkətinin" birbaşa "hökumətdən qaynaqlandığını", bunun həm şirkət, həm də hökumət qərarlarını ifadə etdiyini zənn edirdilər. Amerikanın qızışdırmalarına bir təpki olaraq Latın Amerikası ölkələri hökumət nəzarətində olan neft şirkətlərinə və xüsusilə də Anqlo-Persə imtiyaz verməyi qadağan etdilər. Bu şirkətin İngiltərə hökumətinə olan bağının Anqlo-Persin öz yurdu olan İran üçün təhlükəli ola biləcəyini düşünürdülər. Bir zamanlar hərbi komandankən, özünü ölkəsinin hökmdarı elan

edən Rza Şahın gözündə Anqlo-Pers elə indidən İngiltərə hökumətiylə çox sıx və isti əlaqədəydi. Şah bu görüşdə olduğuna görə, şirkətin və İngiltərənin mövqeyi əcəba, nə dərəcədə təhlükəsiz ola bilərdi? Anqlo-Persin ölkədəki ümumi vəziyyəti indidən kritikləşmişdi. Bir ingilis səlahiyyətlisi müşahidəsini bu kəlmələrlə dilə gətirmişdi: "Əldəki bütün gəlir, indiki halda yeganə bir qaynaqdan, İrandakı bir neçə min kvadrat metrlik bir bölgədən gəlir. Təbii fəlakətlər və ya düşmənçiliklə olunan bir hərəkət nəticəsində bu kiçik ərazidə olunan istehsal dayandırılarsa, bu, həqiqətən çox təhlükəli nəticələr verər."

Nəticədə ingilis hökumətinin bəzi səlahiyyətliləri Shelllə həyata keçiriləcək bir birləşmənin Anqlo-Persin maraqlarını dağıdacağı və beləliklə də risqi azaldacağı qənaətinə gəldilər. Bu həyata keçirildiyi təqdirdə, hökumət uzun zamandır istədiyi arzuya çatacaqdı: Shell üzərində nəzarətə qovuşacaqdı. Bir yerə qədər Shell də buna istəkliydi. 1923-cü ildə Shell mənsubu Robert Valey Cohenin söylədiyi kimi "bu nəzarət problemi əslində, mənasız və axmaqca bir şeydi və tamamən hissə dayanan bir mövzuydu." Robert Valey Cohen sözlərinə bunu da əlavə edirdi: "Əgər nəzarəti əldən verməklə təhlükəsizliyimizi qarantiya altına alır və gəlirimizi artıra bilirsək, bu həvalə işini kimə olsa edərik. Hətta Cənubi Amerikanın yerli qəbilələrinə belə. Bunu etməkdə içinizdən heç birinin tərəddüd göstərəcəyini zənn etmirəm."

Bu birləşmə mövzusuna siyasi zəminlərdən başlayaraq, bir çox baxımdan etirazlar olmuşdu. "Neft tröstlərinə" qarşı Amerikada olduğu kimi İngiltərədə də xalqdan gələn bir düşmənçilik vardı. Ancaq etirazın ən şiddətlisi donanmadan gəlmişdi. Donanma mütəmadi və davamlı olaraq Shellə müxalif tərəfdə olmuşdu. Bu cür hərəkət etməklə,





donanma başından bəri sarıldığı eyni məntiqə sadiq qalırdı. Bir səlahiyyətlinin söylədiyi kimi, "hökumət Anqlo-Persə pul qazanmaq üçün deyil, milli səbəblərlə, müstəqil bir şirkət qurmaq üçün yanaşmışdı." Admirallıq da Anqlo-Persdən bir xeyli aşağı qiymətlə neft satın almaq haqqından sonuna qədər istifadə edir, bu barədə diqqətini əsirgəmirdi. Xüsusilə, donanma büdcəsi davamlı olaraq məhdudlaşdırılma təhlükəsində olduğu üçün bu mövzuda israrlı davranırdı. Bu arada, Anqlo-Persin özü də birləşməyə qarşı şiddətlə etiraz etmişdi. Çarlz Greenvay bu şirkəti, nəticədə nifrət etdikləri Shellin bir parçası olsun deyə, bu dərəcə canla-başla çalışıb vahid bir şirkətə çevirməmişdi.

### Çörçill işə qarışır

Heç bir maneəylə qarşılaşmadan göstərilən bu etiraz axınından sonra Shell Anqlo-Persi necə alacaqdı? Şirkətin başındakı adam Robert Valey Cohen üstün zəkaya sahib birisiydi və bunun da bir yolunu tapacaqdı. Yaxşı təşkil olunmuş bir axşam yeməyində Çörçillə yaxınlaşıb çox maraqlı bir təklif etdi. Əcəba, keçmiş Baş nazir və Kabinetin keçmiş seçkin bir üzvü Shell adından bir layihəyə girişə bilərdimi? Ondan nə asılı olduğu sualına isə bu cavabı verirdi: "Anqlo-Pers və Burma Neftin hər ikisinin Shell ilə birləşməsi üçün lobbiçilik etmək." Shell hökumətin Anqlo-Persdəki hissələrini də satın ala biləcəyini sözlərinə əlavə etmişdi. Bu cür bir birləşməni Burma Neft də dəstəkləyərdi. Cohen üstünə basa-basa Çörçillin bu işi görməklə əslində, İngiltərə üçün çalışmış olacağını vurğulayır, bu inancına səbəb olaraq bu görüşü irəli sürürdü: "Uğurlu

olduğu təqdirdə, İngiltərə dünya çapında qurulan bir neft sistemi üzərində tam nəzarətə sahib olacaq, bütün neft hakimiyyəti İngiltərəyə keçəcəkdi."

Təklifin zamanlaması mükəmməl idi. Çünki 1923-cü il idi və 1923-cü ilin yazında "neft müdafiəçisi" Çörçill işsizdi. Dundee East bölgəsində parlament seçkilərində məğlubiyyətə uğramışdı. Bundan başqa, Chartvell malikanəsi adında yeni bir ev satın almışdı və məsrəflərini qarşılayıb iki ucunu bir araya gətirmək üçün durmadan yazı yazmaqdaydı. İqtisadi vəziyyəti o qədər çətin idi ki, həyat yoldaşına "acından ölmərik" dediyi rəvayət edilir. Çörçill ilə apardığı gərgin müzakirədən sonra Cohen belə deyəcəkdi: "Çörçill o dəqiqə vəziyyətin necə olduğunu bütünlüklə qavradı." Ancaq bu Cohenin görüşüydü və Çörçill ona sadəcə mövzu haqqında düşünəcəyini söyləmişdi. Bütün həyatını həsr etdiyi siyasi karyerasının ləkələnməsini təbii ki, istəməzdi. Bundan başqa, həyatını da qazanmağa məcbur idi. Təklifi qəbul etdiyi təqdirdə Böyük Savaş mövzusunda yazdığı "Dünyada Böhran" (The World Crisis) adlı kitabının dördüncü nəşrini bir tərəfə buraxması lazım olacaqdı. Bu səbəblə də şübhəsiz ki, ona bir miqdar maaş ödənməliydi. Cohen bu suala "şübhəsiz ödənəcək" cavabını verirdi.

Qısaca düşündükdən sonra Çörçill təklifi qəbul etdiyini bildirdi. Ancaq bu maaş mövzusu necə olacaqdı? Layihə müsbət sonluqla bitmədiyi təqdirdə Çörçill 10 min pound, müsbət sonluqla nəticələndiyi təqdirdə isə 50 min pound istəyirdi.

Cohen Çörçillin tələb etdiyi maaşın miqyası qarşısında heyrətə gəlsə də, axırda bu tələbi qəbul etdi. Çünki tələb olunan məbləğ Shell ilə Burma Neft arasında bölünəcək və bərabər olaraq ödənəcəkdi. Burma Neftin sədri maaş





tələbi ilə bağlı bunları söyləyirdi: "Maaş mövzusunda Çörçill ilə bazarlığa girməyimiz mümkün deyildi." Burma səlahiyyətliləri pulun hansı şəkildə ödənəcəyi mövzusunda tərəddüdlü idilər. Çünki bu qədər böyük pulu alan adamın adı dəftərdə açıqlanmayacaq olarsa, vergi müfəttişləri bu ödəməni təsdiq etməyəcəkdilər. Uzun görüşmələrdən sonra gizli bir hesab açılmasına qərar verildi. Beləliklə, Çörçill Burma Şirkəti üçün və 10 il əvvəl Donanma Naziri ikən, donanmanı neft çağı səviyyəsinə gətirmə savaşında küröyini yerə qoyub cəzalandırdığı şirkət olan Shell üçün işə başlayırdı. Shellə qarşı olduğu günlərdə Nümayəndələr Palatasında hökumətin Anqlo-Persdən hissə alma və şirkətin müstəqilliyini qarantiya altına almasının əsas səbəbi olaraq Shellin acgözlüyünü göstərmişdi. İndi isə bütün bu dediklərinin tərsini söyləyirdi. Hökuməti eyni hissələri - Anqlo-Pers hissələrini satmağa inandırmaq yolundaydı. Onun görüşlərinə görə, indiki şərtlər bu cür tələb edirdi. Ölkənin siyasi və strateji maraqları baxımından belə lazım idi. Bu hissələr Shell tərəfindən satın alınacaq, beləliklə, Hollandiya Kraliyyət/Shell Qrupundakı ağırlıq mərkəzi Hollandiyadan alınıb İngiltərənin əlinə veriləcəkdi.

Çörçill heç vaxt itirmədi. 1923-cü ilin avqust ayında dövrün Baş naziri Stanley Baldvini ziyarət etdi və təklifini bildirdi. Bu ziyarət haqqında həyat yoldaşına yazdığı məktubda belə deyirdi: "Baş nazir neft sahəsindəki nizamlama işlərinə tamamilə isti yanaşır. Söhbətin gedişindən belə başa düşdüm. Çıxışından anlaşıldığına görə, onun görüşləri Valey Cohenin görüşləri ilə üst-üstə düşürdü. Qarşımda sanki Valey Cohen varmış kimi bir hissə qapıldım. Əminəm ki, bu hiss müvəqqətidir. İndi məni düşündürən başqa bir mövzu var, öz vəziyyətim... Bunu

hər hansı bir tənqidə yer verməyəcək şəkildə tənzimləmək lazımdır." Çörçilllə söhbətindən sonra Baş nazir Baldvin, İngiltərə hökumətinin neft işindən əl çəkəcəyinə mütləq şəkildə inanmışdı. Belə ki, beynində hökumət hissələrinin satışından əldə ediləcək pulun miqdarını müəyyənləşdirən bir rəqəm belə vardı. Çörçillə "Zənn edirəm ki, 20 milyon pound çox yaxşı bir məbləğdir" demişdi. Bu, heç 10 il belə olmayan bir müddət öncə hökumətin ödədiyi qiymətin təxminən 10 misliydi ki, spekulativ sərmayə sayılan bu cür bir iş üçün mükəmməl sayıla bilərdi.

Ancaq işlər planlandığı kimi getmədi. Heç ilk addımı atmağa vaxt qalmadan, xaricdən müdaxilə oldu. 1923-cü ilin axırında Baldvin qəflətən növbədənkənar seçki qərarı aldı. Buna görə də Çörçill öhdəsinə götürdüyü vəzifəni tamamlaya bilmədi və aldığı avansı geri qaytardı. İstefadan sonra Çörçill bir daha sevdiyi və təbii peşəsi saydığı siyasətə qayıdırdı. Hakimiyyət yenidən Mühafizəkar bir azınlıq hökumətinə keçəcək, ancaq bu hökumət qısa müddət ərzində hakimiyyətdən gedəcəkdi. Azınlıq hökumətindən sonra bu dəfə hakimiyyətə İngiltərənin fəhlə hökumətini təşkil edən Fəhlə Partiyası gəldi. Bu partiya həm birləşməyə, həm də hökumət hissələrinin satılma layihəsinə qətiyyətlə qarşı çıxan bir tutum içərisindəydi. 1924-cü ilin payızında hakimiyyət bir daha əl dəyişdirdi və yenidən Mühafizəkarlara keçdi. Ancaq Mühafizəkar Partiya da günün şərtlərinin diqtəsinə boyun əyərək, hökumət hissələrinin satılmasına qarşı idi. Hökumətin maliyyə müşaviri, Anqlo-Persin sədri Carlz Greenwaya göndərdiyi bir yazıda bunları söyləyirdi: "Majesterləri hökuməti bu hissələri satmamaq siyasətinə bağlıdır və hissələrin satılmasına niyyətli deyildir." Xəzinə Maliyyə Nazirliyinə bağlıydı və yeni Maliyyə Naziri də Mühafizəkar Partiyasının ən son transferi olan Çörçilldən başqası deyildi.





## Neft qıtlığı və açıq qapı

Orta Şərq sadəcə Avropanın neft mövcudluğunun qaynaqlandığı yer olmaqla kifayətlənmirdi. Amerikan şirkətləri də son zamanlarda dünya miqyasında neft istehsalı üçün bir kampaniya başlatmışdı. Kampaniyanın Amerikanı Orta Şərqə dartıb gətirəcəyi qaçınılmazdı. Birinci Dünya Savaşının sonunda və 1920-ci illərin əvvəllərində Amerikan neft sənayesi və bir çox hökumət təmsilçisi neft qaynaqlarının yaxınlarda quruyacağı qorxusuna qapılmış və bu fikir onlarda sabit bir fikir halına gəlmişdi. Müharibə dövründə yaşanmış hadisələr - Benzinsiz bazar günləri - və neftin savaşda oynadığı rol diqqətə alındığında bu qorxunun yersiz olmadığı ortaya çıxır. 1919-cu ildə artıq təqaüdə çıxan bir məmur prezident Vilsona yazdığı məktubda Amerikanın qarşısındakı ən ciddi beynəlxalq problemin əcnəbi neft ehtiyatlarındakı çatışmamazlıq olduğunu söyləyirdi. Prezident Vilson da böyük təəssüf hissi keçirərək, bu görüşə qatılır və "nə ölkə içərisində, nə də ölkə xaricində kifayət qədər neft əldə etməyimizi qarantiləyəcək heç bir metodumuz yoxdur" deyirdi. Amerikan neft qaynaqlarındakı gözlənilən quruma və tükənmə hadisəsi, neftə olan tələbatla müqayisə olunacaq şəkildə ölçülürdü. Alınan nəticə ortada idi: 1911-1918-ci illər arasında Amerikan neft istehlakı 90 faiz artmışdı. Bundan başqa, bu artımın müharibədən sonra daha da sürətlənəcəyi məlum olmuşdu. Digər tərəfdən, amerikalılardakı avtomobil düşkünlüyü getdikcə artırdı. 1914-1920-ci illər arasında Amerikada qeydiyyatda olan mühərrikli avtomobil sayısı heyrətverici bir səviyyəyə çatmış - 1.8 milyondan 9.2 milyona fırıldamışdı. Neftsiz qalma qorxusu

get-gedə kütləviləşir və yerləşirdi. O dərəcədə ki, bir senator Amerikan Donanmasına müraciət edərək, neftdən kömürə qayıdılması çağrısı belə etdi.

Bu qorxunu paylaşanlar arasında mühəndislər və elmi-geologiya üzrə mütəxəssislər də vardı. Amerika Birləşmiş Ştatları Mədənçilik Bürosunun müdiri 1919-cu ildə etdiyi bir təxmində "qarşıdakı 2-5 il içində bu ölkədəki neft yataqlarının maksimum istehsal həyata keçirəcəyi, ondan sonra isə get-gedə artan sürətlə istehsalın aşağı düşəcəyini" söyləyirdi. Bundan başqa, Amerika Birləşmiş Ştatları Geologiya Araşdırmaları müdiri Corc Otis Smit də bir "benzin qıtlığı"nın ola biləcəyini bildirir, xalqa xəbərdarlıqlar edirdi. İşlər belə olduğu halda, nələr edilməliydi? Otis Smitin düşüncələrinə görə, yeganə çıxış yolu dənizlərin o tərəfindəki ölkələrə yollanmaqdı: "Hökumət, Amerikan iş həyatındakı hər kəsə ətrafını genişləndirib, neft istehsalıyla məşğul olan iş adamlarıyla əlaqə yaratmaq üçün mənəvi dəstək verməli, iş adamlarını dünyanın hər yerində neft istehsalıyla məşğul etmək üçün təşfiq etməliydi." İddiasında mütləq və sərt arqumentlər ortaya qoyurdu. Hamıya məlum olan Amerikan neft ehtiyatlarının düz 9 il 3 ay içərisində tükənəcəyini iddia edirdi.

Bütün bu hadisələr baş verərkən, bir tərəfdən də başqa bir mövzu gündəmə gətirilirdi. Colorado, Utah və Nevada dağlarında illərdir gizli qalan "Şist yağı" potensialından bəhs olunur, nəhayətsiz müzakirələr uzanıb gedirdi. 1919-cu ildə bir az da kəhanətə əsaslanan təxminlərə görə, "bir il içərisində böyük ehtimalla bu şistlərdən neft çıxarılacaq, bu neft də quyulardan əldə edilən neftə rəqib olacaqdı." Bu arada məşhur National Geographic dərgisi həyəcanlı bir üslubla "motorlu avtomobili olan heç kimin xəyal qırıqlığına uğramayacağını" yazır, səbəb kimi də şist yağının





"hamının tələblərini qarşılayacaq qədər bol benzin verəcəyi, bunun gələcək nəsillər boyunca, nəvələrinin nəvələrinə belə bəs edəcəyi" iddialarını irəli sürürdü. Atsız vasitələrin taxtlarından endiriləcəyi hədə-qorxusu artıq birmənalı keçərsiz olmuşdu. Ancaq nə yazıq ki, şist yağı təklifini edənlər bərbad şəkildə yanılmış, istehsal üçün lazım olan xərclər təxminini son dərəcə aşağı qiymətlə hesablamışdılar. İngiltərədə də oxşar bir istehsalın aşağı düşməsi hadisəsi gözlənilirdi. Ancaq bu ölkədə işlər beləcə də davam edərsə, yanacağın kömürdən əldə edilməsi nəzərdə tutulurdu. Lazımi araşdırmalar Anqlo-Pers Şirkəti tərəfindən də davam etdirilir, İngiltərə hökuməti Qüds ənginarı yetişdirmək üçün Dorset bölgəsində iki hektarlıq bir ərazi kirayəyə götürürdü. Ənginarın alkoqolla zəngin olduğu məlum idi. Hökumət də bu ərazini ənginarın ticari ehtiyacı qarşılayacaq və avtomobil yanacağı olaraq istifadəyə kifayət edəcək qədər alkoqol verəcəyi ümidi ilə icarəyə götürmüşdü.

Bir yandan neft qıtlığı gözlənilərkən, bir yandan da qiymətlər başını götürüb gedir, neft qıtlığı gözləntisini daha da qızışdırırdı. 1918-1920-ci illər arasında xam neftin qiyməti birdən-birə barrel başına 2 dollardan 3 dollara çıxaraq, 50 faizlik artım göstərdi. Bu da azmış kimi 1919-1920-ci il qış mövsümü mazot sahəsində də həqiqi bir enişə şahid olurdu. Ümumi qənaətə görə, Amerikanın özü də yaxın zamanlardan etibarən önəmli bir neft idxalatçısı durumuna gələcəkdi. Elə bu inanc və gözlənti Amerikanın İngiltərəylə arasındakı beynəlxalq rəqabətin dozasını şiddətləndirəcək və bu ölkəylə bəzi toqquşmalara yol açacaqdı. Amerikan neft sənayesi və Amerika hökuməti mütləq olaraq bir şeyə inanırdılar: İngiltərə, dünyanın geri qalan bütün neft qaynaqlarını Amerikanın hərəkətə

keçməsinə imkan vermədən satın almaq üçün real addımlar atmışdı və bu istiqamətdə özünün təcavüzkar siyasətindən istifadə edirdi. Bunun fərqində olan rəsmi Vaşinqton, özünü vaxt itirmədən neft şirkətlərinin imdadına yetirir, bu şirkətlərin kənardan neft əldə etməsindəki mübarizələrinə dəstək verirdi. Təqib olunan prinsip - "Açıq Qapı" prinsipiydi. Başqa sözlə, Amerikan sərmayəsinə və neftçiliyinə bərabər şans verilməsi prinsipiydi.

İngilislər bu kampaniya qarşısında sakit oturmadılar, qarşılıq verdilər. Verdikləri reaksiya müxtəlif duyğuların birləşimi idi - şübhəçilik, incimə, hirs və hörmətsizlik nümunələri... Amerikanın bütün dünyada istehsal olunan xam neftin üçdə ikisini təkbaşına istehsal etdiyini iddia edirdilər. Neft İdarə Heyətinin başçısı olan Con Cadman amerikalı bir dostuna yazdığı şübhə ifadələri ilə dolu məktubda bunları söyləyəcəkdi: "Sənin və ya Amerikadakı hər hansı bir neftçinin, gələcək 20, 30 il içərisində neft ehtiyatlarınızın tükənəcəyinə dair söylədikləriniz boş-boş sözlərə həqiqətən inandığınızı zənn etmirəm." Bir şey də vardı ki, Amerikanın özü də həm neft qıtlığı, həm də rəqabət qorxusu içindəydi. Bu iki qorxu Amerikan şirkətlərini dünya miqyasında neft axtarışına çıxmağa və mövcud olan bütün istehsalı satın almağa məcbur edirdi. Strategiyada ediləcək dəyişikliklərin, tankerlərdə, boru kəmərlərində və qazma texnikalarında ediləcək texnoloji dəyişikliklərlə dəstəklənməsi lazımdı. Texnoloji yenilik fiziki çətinliklərin və məsafə probleminin ortadan qaldırılmasında da yararlı olacaqdı. Müharibədən əvvəl bu iki problem qlobal araşdırmada və istehsal fəaliyyətində çətinliklər törətmişdi.

Artıq bütün Amerikanın gözü Orta Şərqə, xüsusilə də





ingilislərin protektoratlığında olan Mesopotomiyaya çevrilmişdi. Ancaq oradakı qapı da hələ aydın şəkildə açıq deyildi. Yeri gəlmişkən, Standard Oilun Nyu York təmsilçiliyi tərəfindən iki geoloq gizlincə Mesopotomiya torpaqlarına göndərildi, amma ingilis mülki müdafiə komissarlığı bu geoloqları dərhal həbs edib Bağdaddakı polis mərkəzinə apardı.

1920-ci ilin San Remo müqaviləsi və Mesopotomiya neftinin ingilislərlə fransızlar arasında bölüşdürüləcəyi xəbəri Vaşinqton və Amerikan neft sənayesində də eşidilmiş, böyük çaşqınlığa yol açmışdı. İki ölkə arasında bağlanan bu müqavilə Amerika mətbuatında fırtınalar qopardı. Şiddətlə lənətlənən müqavilə "modası ötmüş imperializm"in nişanəsi kimi şərh olundu və etirazla qarşılandı. Bu müqavilə müharibədən qalibiyyətlə çıxan Müttəfiq dövlətlərin öz aralarında qərarlaşdırdıqları "haqq və hüquqların bərabər paylaşdırılması" prinsipini çeynəmək kimi qiymətləndirilmiş və buna görə də çox çirkin bir tələ kimi şərh olunmuşdu. Nyu Jersey Şirkəti vəziyyətdən ciddi narahatçılıq keçirirdi. Biri İngiltərə ilə Fransa, digəri isə Shell və Anqlo-Pers arasında ikili bir ittifaq qurulmasından qorxurdu. Bu ittifaq qurularsa, şirkət istehsaldan kənarda qalacaq və bütün dünyada sahib olduğu bazarlardan uzaqlaşdırılacaqdı. Nyu Jersey Şirkəti bundan şübhələnirdi və bu narahatçılıqlarla da Dövlət Nazirliyi səviyyəsində işlərin bu cür gedişinə etirazını bildirdi. Nazirlik də bu mövzuda ən az Nyu Jersey qədər narahat idi və şiddətlə sözü edilən müqavilənin "Açıq Qapı" müqəddəs prinsipini pozduğu qənaətindəydi. Nəticədə Konqres 1920-ci ildə "Mədən Qaynaqlarını Kirayələmə Qanunu" adıyla bir qanun çıxardı. Qanun, dünyanın müxtəlif ölkələrindəki torpaqlarda amerikalılara

neft axtarışlarını qadağan edən halların qarşısını almaq üçün çıxarılmışdı və bu qanun qadağanı gətirən hökumətlərin mənsubları üçün keçərliydi. Qanunun çıxarılmasındakı məqsəd xüsusilə, Şərqi Hind Adalarında yaşayan hollandiyalıların və Mesopotomiyadakı ingilislərin qarşısını almaq üçündü.

Hadisələri şübhəylə izləyən müşahidəçilər reformist hərəkatların simvolu sayılan Vilson hökumətinin bu dəfəki mərhələdə neft şirkətlərinə və xüsusilə də Jerseyə çox böyük dəstək verməsindən heyrətə düşmüşdülər. Çünki Jersey, təxminən 10 il əvvəl Ali Məhkəmə tərəfindən məhkum edilən və "Əjdaha" adıyla tanınan Standard Oilun birinci varisiydi və bu həqiqət hələ də yaddaşlardaydı. İngiltərənin Vaşinqton səfiri də heyrətlər içərisində qalmışdı. Müharibədən əvvəlki illərdə Amerikan hökuməti neft şirkətlərinə qəti üz vermirdi. Hətta bu şirkətlərlə yaxın münasibətləri olan bir hökumət mənsubu necə dəhşətli qorxular yaşamışdı. Bütün bunların içərisində olan səfir bunu bildiyindən, indi nə cür olub da Vilson hökuməti ilə Standard Oilun müharibədən əvvəlki əlaqələri tamamən tərsinə çevirərək, yaxşı münasibətlərə başladıqlarını başa düşə bilmirdi. Həqiqət budur ki, bu müqaviləyə təsir edən faktorlar neft qıtlığı səviyyəsinin artması və İngiltərənin xəyanət edəcəyi mövzusundakı şübhələrdi. Bax, bu iki səbəb yeni ittifaqın daha da qüvvətlənməsi nəticəsini verdi. Müharibənin davam etdiyi müddətdə iş həyatı ilə hökumətin əməkdaşlığı da xeyli qüvvətlənmişdi. Məsələn, Standardın Nyu Jersey şöbəsi Müttəfiq dövlətlərinin savaş boyu istehlak etdiyi neftin cəminin dörddə birini təkbaşına istehsal edirdi. Qurumlar arasındakı bu əlaqənin dəyişimini zorlayan başqa səbəblər də vardı. İslahatçı və reformist hərəkatlar artıq gücünü itirməyə başlamışdı və





Amerikan iş adamı bir daha 1880 və 1890-cı illərdə olduğu kimi qəhrəman obrazındaydı. Bu səbəblə də hökumət iş adamına artıq köstək deyil, dəstək verməyə başlamışdı.

1921-ci ildə hakimiyyətə gələn yeni Respublika Partiyası mənsubu Varren Hardinge tam bir sahibkar tərəfdarıydı və Amerikanın neft mövcudluqlarını qoruyub, onları müdafiə etmədə özündən əvvəlki prezidentdən belə daha təsirli olduğu zamanla ortaya çıxacaqdı. Varren Hardinge, Mesopotomiya da daxil olmaqla, Meksikadan Şərqi Hind Adalarının hollandiyalılara aid hissəsinə qədər olan torpaqlarda Amerikan neft sənayesini qorumağı bacarmışdı. Bu arada Birləşmiş Ştatlarla İngiltərə arasındakı gərginlik də get-gedə artırdı. Sonra birdən-birə heç gözlənilməz qəribə bir hadisə oldu. İngiltərə qəflətən razılaşmış kimi hərəkətlərlə Mesopotomiyadakı işlərə qatılmaq üçün Amerikaya açıq siqnal verdi. Əcəba, bütün bunları İngiltərə niyə etmişdi? Hər şeydən əvvəl, Türkiyə Neft Şirkətinin statusunun qeyri-müəyyənlik içində olduğunun fərqində olduğu üçün. Türkiyə Neft Şirkətinin 1914-cü ildə qazandığı əcəba, həqiqətən bir imtiyazdımı? Yoxsa sadəcə imtiyaz üçün verilən bir quruca vəd? İlk səbəb budur. Bundan başqa, İngiltərənin Amerikayla əlaqədar gündəmində üstündə düşünməli daha bir çox iqtisadi və strateji tərəddüdləri vardı və bunun üçün də Amerikayla əməkdaşlıq etmək istəyirdi. Həm də Amerikada get-gedə böyüməkdə olan və o günlərdə zirvə nöqtəsinə çıxan bir ingilis düşmənçiliyi baş alıb gedirdi. London bunun fərqindəydi və vəziyyətin belə olmasından ciddi narahat idi. Hətta Amerikan Konqresində bir cəzalandırma vasitəsi olaraq Amerikan neftinin İngiltərəyə çıxarılmasına embarqo qoymaq təklifləri səslənmişdi və London bunlardan da xəbərdardı. Üstəgəl, Mesopotomiyadakı işlərdə Ameri-

kanın fəaliyyətinə qadağa qoymaq kimi bir səhvə qol qoyarsa, bunun İngiltərə-Amerika əlaqələrini büsbütün pisləşdirəcəyinin, hətta əvvəlkindən də bərbad hala salacağının fərqindəydi. Ancaq bunun əksini edər, Amerikanı da doğrudan doğruya işlərinə qarışdırarsa, qazanclı çıxacağı qənaətindəydi. Belə ki, İngiltərə, Mesopotomiyada inkişaf etməkdə olan və İngiltərənin dəstəklədiyi hökumətə gəlir təmin etmək məcburiyyətində olduğundan, bölgədəki neft qaynaqlarının mümkün olduğu qədər tez inkişaf etdirilməsini istəyirdi. Bu cür bir razılaşma İngiltərə xəzinəsini də rahatladacaqdı. Amerikan sərmayə və texnologiyasının bu işləri tezləşdirəcəyindən heç kimin şübhəsi yox idi. Nəticə etibarilə Shell, ən azından Amerikan müdaxiləsinin dünyanın bu qeyri-sabit bölgəsində çıxacaq hər hansı siyasi problemdə şirkətləri gücləndirəcəyinə inanırdı. Bu yerdə işə Qalust Gülbekyan da qarışır və Xarici İşlər Nazirliyi Daimi Məsləhətgüzarlığına - amerikalıları "içdə" tutmağın "kənarda" tutmaqdan daha yaxşı olacağını söyləyərək, tövsiyə verirdi. Onun düşüncələrinə görə, mövzu imtiyaz əldə etməkdirsə, "rəqabət aparmaq" və "meydan oxumağın" yeganə yolu bu idi. Daimi Məsləhətçi Gülbekyanın bu görüşünə qatılıb inanacaq və Anqlo-Pers və Hollandiya Kraliyyət/Shell Şirkətlərinə amerikalıları işə daxil etmək haqqında təxirəsalınmaz təlimatlar verəcəkdi. Bu hadisədən bir müddət ötəndən sonra Daimi Məsləhətçi, Gülbekyana məktub yazacaq və ermənin Amerikan müdaxiləsini təmin etməkdə vasitəçi rolu oynadığını ifadə edəcəkdi.





## Patron Valter Teagle

Ortada cavabını gözləyən bir sual qalmışdı. Birləşmiş Ştatlar hansı Amerikan şirkətlərini dəstəkləyəcəkdi? Bu dərəcədə ağır olan və diplomatik enerji tələb edən bir işin, sadəcə bir şirkətə - Standardın Jersey şöbəsinə həvalə olunması bir az qəribə olmazdımı? Bu mövzunun müzakirə olunması üçün içlərində Ticarət Naziri Herbert Hooverin də yer aldığı bəzi nüfuzlu adamlar, bir Amerikan Şirkətləri Birliyinin qurulmasını və bu birliyin Mesopotomiyada fəaliyyətə başlamasını təklif etdilər. Təklif edənlərdən biri olan Hoover, neft işini və risqlərini yaxşı bilən birisiydi. Hoover savaşdan əvvəl bu işdə çalışmış və hətta Peruda sahib olduğu neft şirkətlərindən bəzilərini Nyu Jerseydən Valter Teagleyə satmışdı. O zamanlar Valter Teagle, ölkənin gələcək prezidentini apardığı qeydlərində "qəribə görünüşlü adam" kimi təqdim etmiş, qumaş parçadan geyindiyi paltarı və ağ tennis ayaqqabıları ilə zarafat edib, onu məsxərəyə qoymuşdu. Amma indi 1921-ci ilin bu may günündəki iclasda Ticarət Naziri Hoover Dövlət Naziri Çarlz Evans Hugheslə bərabər, Valter Teaglenin də yer aldığı bir neftçi qrupuna səmimiyyətlə bəyan etmişdi ki, Amerika sadəcə bir şirkət üçün qapısını açmayacaq. Amerika qapılarını mütəşəkkil bir neftçi qrup üçün açacaqdı. Jersey Şirkəti bu açıqlamadan öz hesabını götürmüşdü. Yola yalnız başına davam etdiyi müddətcə, heç bir zaman hökumətin davamlı dəstəyini ala bilməyəcəkdi. Bu səbəblə lider vəziyyətindəki bir neçə önəmli şirkəti də əhatə edən bir konsorsium təşkil etdi. Nə qəribədir ki, çox yaxın keçmişdə bu eyni qrup, ticarəti məhdudlaşdırdığı izahı ilə hökumətin ciddi tənqidinə məruz

qalmışdı. İndi isə "Açıq Qapı" və əcnəbi neftə sahib olmadakı xidmətlərindən ötrü milli qəhrəman olaraq dəstəklənirdi.

Amerikalı neftçilərdən formalaşan bu qrupun qurulmasından sonra, Avropadakı neftçilərlə bir toqquşmanın qaçınılmaz olacağı düşüncəsi daşıyan Dövlət Nazirliyi, bütün bunlardan uzaq qalmaq üçün aradan çəkildi. Hadisələri çox yaxından müşahidə edib, anlaşma müzakirələrindən uzaq qalmağa çalışdı. Bir iş adamı olan, siyasətçi və ya diplomat olmayan Valter Teagle isə Amerikan Birliyinin sözçülüyünü edirdi. 1922-ci ilin iyul ayında Valter Teagle Mesopotomiyada kəşf olunacaq nə qədər neft yatağı varsa, bunların hamısının işlədilməsində Amerikanın da yardımını təmin etmək üçün keçirilən toplantını başlamaq niyyəti ilə gəmiylə Londona hərəkət etdi. Bunu edərkən, qət edəcəyi yolun nə qədər uzun və çətin olduğu haqqında heç bir fikri yox idi.

Nəticədə ortaya yeni bir mənzərə çıxmışdı. Bir tərəfdə sadəcə Standard Oilu yox, Amerikan şirkətlərinin bütün konsorsiumunu təmsil edən Teagle, o biri tərəfdə isə Henri Deterding, Çarlz Greenway və fransızları təmsil edən CFP üzvü polkovnik Ernest Mercier masanın ətrafında otururdular. Masaya yaxın bir yerdə də Qalust Gülbekyan vardı. Teagleyə müxalif olanların hamısı Mesopotomiya imtiyazını əlində tutan və ya ən azından tutduğunu zənn edən Türkiyə Neft Şirkətinin şərikləriydilər.

Bu iclasda səhnədə sanki bir dram oynanırdı və bu dramın baş rolunda da, bütün çıxışlarından Teaglenin baş düşməni olduğu aydın görünən Gülbekyan idi. Bu iki adam - Teagle ilə Gülbekyan arasındakı bənzərsizlik hər baxımdan aydın bir şəkildə özünü göstərirdi. Qısa boyu, cəlbedici olmayan hərəkətləri ilə Gülbekyan şübhəçi və





dialoq qurmağa əlverişli olmayan adam təsiri bağışlayırdı. Teagleyə gəlincə, o, ətrafında olanları dərhal təsiri altına alan birisiydi. Uzun boyu və 140 kilonu aşan çəkisi ilə birlikdə, çox cüssəli bir adamdı. Şokoladı çox sevər, haradasa ehtiras dərəcəsindəki bu vərdişiylə elə rahatca bacara bilməzdi. Dostca niyyətlər bəsləyən hər tipik amerikalı kimi mövzuya doğrudan və şəffaflıqla müdaxilə edən görüntü verirdi. Gülbekyan işlərini səssizcə və öz adından idarə edirdi. Amma Teagle dünyanın ən böyük neft şirkətini - Standard Oil Tröstündən sonra qurulan və bu şirkəti öz uğurları ilə qat-qat ötüb keçən bir şirkətlər qrupunu idarə edirdi: "Patron" ləqəbiylə tanınan Teagle, Nyu Jersey Standard Oila təkbaşına hakim olmuş, bütün neft dünyasında ən öndə gələn, tanınan bir şəxsiyyət olaraq ad-san qazanmışdı. Gülbekyan isə həmişə kölgədə qalmağı istəmiş və buna da nail olmuşdu.

Bütün bu ziddiyyətlərə baxmayaraq, bu iki adam arasında qəribə oxşarlıqlar da vardı. Teagle də Gülbekyan kimi anadan neftçi doğulmuşdu. Neft dünyasına ikinci nəsildən atılan Gülbekyan kimi, o da neft aləminə ata tərəfindən - ikinci nəsildən qatılmışdı. Ana tərəfindənsə üçüncü nəsil neftçiydi. Anasının atası olan Maurice Clark 1865-ci ildə kritik bir "auksionda" Con D.Rokfellerin şirkətini satın alıb, sonra özünə şərik etdiyi adamdır. Teaglenin atasına gəlincə, o, İngiltərənin Wiltshire bölgəsindəndi. Bu adam Klivlendin ən uğurlu və müstəqil neftayırmaçılarından biri idi. Standard Oil Tröstün haqsızlıqlarına və hücumlarına qarşı illərlə mübarizə aparmışdı. İda Tarbellin "tröstün keçmişi" mövzusunda yazdığı kitabda Standard Oila nifrət edən və ona qarşı savaşan qəhrəmanlardan biri olaraq göstərilir.

Gülbekyan və Teagle neft texnologiyasının ən yaxşı

tələbələrindəndi. Cornell Universitetində oxuduğu illərdə Teagle, təxminən hər tələbə fəaliyyətinin idarəçisi və ya təşkilatçısı rolunu üstlənirdi. Məzuniyyət mövzusunu - diplom işini "xam neftin desulfirizasiyası" mövzusunda götürmüş, mövzunu fövqəladə uğurlu işləyərək, sənaye kimyasında heç təsadüf olunmayan qiymət - 100 bal almışdı. O da Gülbekyan kimi müəllimi tərəfindən təhsilini davam etdirməyə təşfiq edilmiş, ancaq atasının şiddətli müqaviməti ilə qarşılaşmışdı. Göndərdiyi teleqrafda atası "dərhal evə qayıt" təlimatını vermiş, Teagle də bu təlimata riayət edərək, Klivlendə qayıtmışdı. Burada ailəyə aid bir neftayırma müəssisəsində saat başına 19 sent maaşla işləməyə başlayacaqdı. Daha sonra atası onu satıcılıq işinə göndərəcək, Teagle bu işdə də fəvqəladə uğurlar əldə edərək, inandırma qabiliyyəti ilə parlayacaqdı. Ancaq bu işdə də uzun müddət qalmadı və bu dəfə ailə peşələrinin müəssisəsini satmaq üçün evə çağırıldı. Atası bunu illər boyu nifrət etdiyi Standard Oila satırdı. Artıq atası daha ağır yük qaldıracaq, Standardla mübarizə aparacaq halda deyildi. Mübarizə aparmaqdansa, əlində olan malını satmağı üstün tuturdu. Digər tərəfdən, Standard Oil gənc Teagleyə göz qoymuş, sadəcə ailə peşəsini yox, o peşənin sahibinin oğlunu da satın almağı beyninə yerləşdirmişdi.

İndi artıq ailə peşəsi Standardın əlinə keçmiş, "Respublikaçı Neft" adını alaraq yenidən təşkilatlanmışdı. Gənc Teagle yeni qurulan şirkətin başına gətirilərək "patron" təyin olunmuşdu. Çox keçmədi ki, müxtəlif qabiliyyətləri ilə diqqəti özünə cəlb etməyə başladı. Neft işinin bütün mərhələlərində qurduğu hakimiyyəti; texniki, ticari və inzibati xırdalıqlardakı güclü yaddaşı; bitib-tükənmək bilməyən enerjisi və xarici görünüşünün sərgilədiyi cəlbediciliyin altında yatan və görünməyən boyunəyməz qərarlılığı





və avtoritar şəxsiyyətiylə dərhal diqqətləri özünə çəkə bilmişdi. Satıcılıqda keçirdiyi illər, ona Gülbekyanın Qapalı Çarşıda öyrəndiyi bir fəlsəfəni öyrətmişdi: "Həmişə ən yaxşı alış-veriş hansıdırsa, onun ardınca düş" prinsipi. "Respublikaçı Neft"də bərabər işlədiyi bir məsləkdaşı onun haqqında belə söyləyəcəkdi: "Hər şeydə mütləq bazarlığa girişirdi. Durmadan bazarlıq, sonra yenə bazarlıq, hər zaman bazarlıq edərdi. Əgər alış-verişi şirkət hesabına edərsə, lap həngamə qopardı. Məsələn, satın almaq istədiyi 5 sentlik bir puro isə, 5 sentin bir puro üçün çox olduğunu düşünür, onu 4 sentə almaq üçün bazarlıq edərdi."

Teagle sürətlə yüksəldi və 1908-ci ildə Standard Oilun əcnəbi ölkələrə satış komissiyasının sədrliyinə təyin olundu. Millətlərarası bazar qaydalarının yeni dinamizm və üsullarını Standardın digər yüksək vəzifəlilərindən daha yaxşı qavramışdı. İşlədiyi müddətcə Henri Deterdingi daha yaxşı başa düşə bilmək üçün əlindən gələni etmiş və Hollandiya Kraliyyət/Shell ittifaqıyla anlaşmaq istəmiş, bu yolda əməlli-başlı məsafə qət etmişdi. Bir dəfə Uzaq Şərqdə qarşılaşdıqları çox çətin bir problemin həlli üçün Şotlandiyada Deterdinglə iki gün kəklik ovuna çıxmış, iki gün də poker oynamış, nəticədə istədiyini almışdı. Bir-birilərinə qarşı bəslədikləri dostluq dərəcəsinə, qarşılıqlı hörmət və ehtirama baxmayaraq, heç bir zaman münasibətlərində hakim olan şübhəçiliyə qalib gələ bilmədilər.

Aralarındakı münasibətlərində bəxtin ümidinə buraxdıqları çox şey vardı. Qaba ifadə edilərsə, hər iki adam bir-birinə qarşı tam mənada şübhəylə yanaşır və bir-birinə etibar etmirdilər. Teaglenin bir dəfə söylədiyi kimi, "Deterding hər mövzuda tez-tez fikir dəyişdirən və sonra da bu haqda qarşısındakına məlumat verməyi unudan bir adamdı." Teagle ömrü boyu Hollandiya Kraliyyət/Shell

ortaqlığını qarşısındakı rəqiblər içərisində ən təhlükəlisi və öldürücüsü olaraq görmüşdür.

1909-cu ildə Teagle, böyük güc və nüfuz sahibi olan H.H.Rogersin boşalan kreslosuna oturdu və Standard Oilun ən güclü rəhbərlərindən birinə çevrildi. Unudulmamalıdır ki, H.H.Rogers, eyni zamanda İda Tarbellə içəridən məlumat ötürən mənbə idi. Teagle, H.H.Rogersdən boşalan vəzifəyə təyin olunanda hələ 31 yaşı vardı. Bu haqda şərh verən bir qəzet "o, bu vəzifəyə Con D.Rokfellerin yerini doldurmaq üçün gətirildi" deyə yazmış, üstəgəl, bir Mark Tven heyranı olan Rogersin tərsinə, Teaglenin ən çox sevdiyi yazıçıların Dun və Bradstreet olduqlarını əlavə etmişdi. Teagle Standard Oilda bir növ iflic idarəetmənin hakim olduğunu bilirdi. Bunun da adətən şirkətə yönələn etimadsızlıq və hüquqi hücumlardan qaynaqlandığını başa düşmüşdü. Digər səbəb kimi də şirkətin yeni inkişaf etməkdə olan qlobal yarışmaya ayaq uydura bilməməsini və əcnəbi qaynaqlardan özünə aid bir xam neft istehsalı təmin edə bilməməsini görürdü.

1917-ci ildə Teagle 39 yaşında olarkən, Standard Oil Şirkətinin Nyu Jersey şöbəsinin sədrliyinə gətirildi. Özü üçün yeni tip liderlik nümayiş etdirirdi. Əvvəlki neftçi nəslinin tərsinə, şirkətin əhəmiyyətli hissədarlarının arasına girməmiş, professional idarəçilik etmişdi. Teagle Nyu Jersey Şirkətində işə başlamaqla Amerikan iş həyatında və şirkətin təbiətində bir yeniliyin, dəyişikliyin simvoluna çevrildi. İrəlidəki illərdə Standardın bütün fəaliyyətlərini və strukturunu başdan sona yenidən quracaqdı. Teagle yeniliklər gətirməklə bərabər, şirkətin keçmişi ilə olan bağlarını davam etdirməyə də diqqət yetirmiş və bir növ bu bağların təmsilçiliyini etmişdir. Hər nə olsa da, bir zamanlar Rokfellerin ilk şəriki olan adamın





nəvəsiydi. Şirkətin keçmişlə olan bağlantısını davam etdirməkdə olduğunu hamının açıq-aşkar bilməsinin tərəfdarıydı. Sədr təyin olunan kimi dərhal bir vaxtlar Rokfellerə aid olan 44 nömrəli açılıb-örtülən yazı masasını öz ofisinə gətirtmiş və vaxt itirmədən can verməkdə olan şirkətə yenidən həyat qazandırmağa çalışmışdır. İlk mərhələdə ifrat məxfilik siyasətinin şirkətə nəyin hesabına başa gəldiyini, Standarda qarşı xalqın bəslədiyi antipatiyanı müşahidə etmiş və xalqla daha yaxşı əlaqələr yaratmaq üçün böyük təşəbbüslər göstərmişdir. "Lampa" adını verdiyi bir ev dərgisi çıxardı və bu dərginin fəxri redaktoru oldu. Mətbuatla əlaqələrində "açıq qapı" siyasəti aparırdı. Qəzet müxbirləri ilə görüşməyə hər zaman hazır idi. Mətbuatla əlaqələrində dostca və səmimi davranmağa, açıq və konkret danışmağa xüsusilə diqqət edirdi. Buna baxmayaraq, yenə də söylədiyi hər sözü diqqətli bir nəzarətdən keçirir, hər zaman ölçüb-biçərdi - bu dərəcə diqqətli idi. Keçmiş rəhbərliyin qurduğu rejimlə müqayisə edəndə, onun üslubunun nəzərə çarpacaq bir yenilik gətirdiyi şübhəsizdir.

Birinci Dünya Müharibəsi başa çatandan sonra Teagle, şirkətin böyük bir problemlə qarşı-qarşıya qaldığını fərq etdi. Bu, xam neftlə bağlı bir problemdi. Şirkəti xam neft istehsalına istiqamətləndirmək üçün sərf etdiyi cəhdlər, davamlı oturuşmuş mühafizəkar ənənələrin bu cür "risqli" fəaliyyətə qarşı göstərdikləri müqavimətlə əngəllənirdi. Bu əngəlləyici hərəkətlərdən biri də şirkətin keçmiş müdirlərinin birindən gəlmişdi. Bu təcrübəli keçmiş müdir xam neft istehsalına yönəlmə mövzusunda bunları söyləyirdi: "Vaxtımızı dünyanın hər tərəfində quru çuxurlar qazaqaza keçirən deyilik. Biz bazarlama şirkətiyik." Vəziyyət savaş sonrası dünyasında neft qıtlığının xroniki hal

alacağını göstərirdi və Teagle bundan qorxmağa başlamışdı. Şirkətin xam neft istehsalı, neftayırma müəssisələrində istehsal olunan neftin sadəcə 16 faiziydi və Teagle bunun şirkət üçün heç də yaxşı hal olmadığını bilirdi. Bu arada keçmiş rəqibi Deterding, bütün dünyada yeni-yeni neft qaynaqları tapıb, qlobal bir xam neft strategiyasına yönəlmişdi və Teaglenin bunların hamısından xəbəri vardı. Bunlardan başqa, İngiltərə hökumətinin Shell və Anqlo-Pers şirkətlərini birləşdirmək üçün müəyyən addımlar atdığından da xəbərdardı. O günə qədər heç yaşanmamış çox çətin bir qlobal yarışma şəraitinin gözləntisi içərisindəydi və Standard Oilun Nyu Jersey şöbəsinin bu cür bir yarışma üçün hələ hazır olmamasından qorxurdu. Vəziyyətdən xilas olmaq üçün şirkət daxilində özünə müxalif olanların bütün irad və etirazlarına baxmayaraq, şirkəti ölkə daxilində yeni təşəbbüslər irəli sürməyə və eyni zamanda əcnəbi neft istehsalı mövzusunda yeni bir müqavilə bağlamağa istiqamətləndirdi. 1920-ci ildə Standard Oil Şirkətinin 50-ci ildönümü münasibətilə keçirilən toplantılarda, izlədiyi strategiyanı səmimi şəkildə bu sözlərlə ifadə etmişdi: "Standard Oilun gündəlik siyasəti - hansı ölkədə olmasından asılı olmayaraq, istehsalın olduğu hər bölgəyə qarşı maraq göstərməkdir." Yeri gəlmişkən, strategiyasında açıqladığı prinsiplərə riayət edərək, Nyu Jersey Şirkəti, dünyanın neft olması ehtimal olunan hər bölgəsində həmişə hazır olmağa diqqət etmişdir.

Bu səbəblərlə də, 1922-ci ilin yaz aylarında Teagle Londonda Türkiyə Neft Şirkətinin ortaqlarıyla üz-üzə gəldi. Ancaq tərəflərin apardıqları gərgin müzakirələr nəticəsiz qaldığından, bir ay sonra Teagle, əliboş halda ölkəsinə geri qayıdırdı. Sonrakı günlərdə müzakirələrə yazışma yolu ilə davam edilsə də, nəticə olmadı və 1922-ci





ilin dekabr ayında işlərin bu cür gedişindən əsəbiləşən amerikalılar müzakirələrə son verib çəkilməyi ciddi-ciddi düşünməyə başladılar. Mesopotomiyanı və ya ingilis hakimiyyətinin o zaman verdiyi "İraq" adlı böyük bir bölgəni bir masada paylaşmanın asan bir iş olmadığı açıqca anlaşılmışdı.

Tərəflər fasiləsiz olaraq öz aralarında mübahisələr edir, İraq neftini kimin hansı nisbətdə alacağı mövzusunu müzakirə edirdilər. Bu vaxt əvvəlcə anlaşdıqları kimi, qərarlaşdırdıqları fədakarlıq prinsipinə riayət etməməyi və beləcə, Türkiyə Neft Şirkətinin vasitəçiliyi xaric, Osmanlı imperiyasının geri qalan torpaqlarında neft istehsalına qatılmamağı qərara aldılar və bu mövzuda toplantılar keçirdilər. Ən sərt müzakirələrə səhnə olan və bütün mövzular içərisində ən çəkişməli keçən maddə - gəlirlər problemiydi. Teagle və Anqlo-Pers şirkətindən Greenway, neftin iştirakçı hissədarlara müəyyən məbləğ qarşılığında satılması, bundan heç bir qazanc məqsədinin güdülməməsi tərəfdarıydılar. Bu yolla "qazanc" üstündə İraqla çıxa biləcək bir savaşın qarşısının alınacağına və sadəcə vergi ödəməklə işin yoluna qoyulacağına, üstəgəl, Amerikan şirkətlərinin İngiltərədə əlavə vergidən yaxa qurtaracaqlarına inanırdılar. Amma bir iş vardı ki, bu təklif İraqı məmnun etmədi. İraq əldə ediləcək qazancdan birbaşa özünə ayrılacaq bir hissə tələb edirdi. Təklifi şəxsi maraqlarına zidd görən şəxslərdən biri də Qalust Gülbekyandı. Gülbekyan payına düşən hissənin neft olaraq yox, pul kimi ödənməsini tələb edirdi.

Türkiyə sanki vəziyyəti daha da çıxılmaz hala salmaq üçün əlindən gələni edirdi. Sərhədləri artıq əməlli-başlı daralan Türkiyə, İraqla arasındakı sərhəd mövzusunda baş qaldırır və Türkiyə Neft Şirkətinin hüquqi əsasını

görməzlikdən gəlməyə cəhd edirdi. Bu faktorların və həqiqətlərinin hamısının bir yerə cəmlənməsiylə, dünyanın bu kəsiyində şirkətlərin qarşı-qarşıya gəldiyi risqlər daha da böyüyür və içindən çıxılmaz hala gəlirdi. Bu risqlərin təsirini azaltmaq üçün İngiltərə hökuməti bölgə üzərindəki sahib olduğu Millətlər Cəmiyyəti mandatından istifadə edərək, yeni imtiyazlar əldə etmək məqsədilə İraqa təsir göstərməyə başlasa da, bir nəticə ala bilmədi. Bu uğursuzluq İngiltərə hökumətinin İraqda qurduğu rejimlə arasının son dərəcə pis olmasından qaynaqlanırdı. Tərəflər "protektoratlıq" sözünün mənasının üzərində belə razılığa gələ bilmirdilər.

## İraqın Faysalı

London, müharibənin davam etdiyi müddətdə Məkkə Şərifi olan Hüseyndən istifadə edərək, Türkiyənin əleyhinə üsyanlar qaldırmışdı. Hüseyn ərəb dünyasının qızışdırılmasında və üsyana qaxmasında liderlik etməyə təşfiq edilmişdi. Hüseyn, ondan tələb olunanı yerinə yetirdi və 1916-cı ildən etibarən həyata keçirdiyi bu üsyanlarda bəzi ingilislərin yardımlarından istifadə etdi. Yardım əlini uzadanların ən məşhuru "Lawrence of Arabia" adıyla tanınan T.E.Lawrencedir. Bu xidmətləri qarşılığında Hüseyn və oğulları Osmanlı imperiyasının əsasən ərəblər yaşayan bölgələrində hökmdar statusuna gətirilirdi. Hüseynin üçüncü oğlu Faysal, çoxlarının da fikirləşdiyi kimi, uşaqların içində ən qabiliyyətli olanıydı. Lawrence Faysalla savaş dövründə tanış olmuşdu. Tanışlıqdan o qədər ovsunlanmışdı ki, Faysalı "son dərəcə mükəmməl adam" və bölgədəki üsyanların başında duracaq "ən uyğun insan" olaraq qiymətləndirmişdi. Savaş bitdikdən sonra





Faysal, Versal Konfrasında da romantik imic qazanmış, hətta xəyal gücündən məhrum Amerikanın Xarici İşlər Naziri Robert Lansingin belə heyranlığını qazanmışdı. Yazdığı bir yazıda Lansing Faysaldan söz edərkən, onun səs tonuna toxunaraq bunları söyləmişdi: "Faysalın səsi sanki tüstü qoxusunun parfümeriyasını xatırladır və insanın xəyalına müxtəlif rənglərlə bəzədilmiş çadırları, yaşıl çadraları, qızıl və ləl cəvahiratların bərq vurduğu parıltıları gətirir."

Beləliklə İngiltərə, Faysalı yeni törəyən Suriya millətinin taxtına oturdur, artıq tükənmiş sayılan Osmanlı imperiyasından qoparıb müstəqil dövlətlər şəklində yaradılan dövlətlərdən biri olan Suriyanın hökmdarına çevirirdi. Ancaq Faysalın bu statusu sadəcə bir neçə ay davam etdi. Savaşdan sonrakı müqavilələrin nəticələrinə görə Suriya Fransanın nəzarətinə keçdi və Faysal gözlənilmədən taxtdan endirilib, Dəməşqdən qovuldu. Faysalın bundan sonra xalqın gözünə ilk göründüyü yer Fələstində bir dəmir yol stansiyası idi. İngilislərin onun üçün təşkil etdiyi "xoş gəldiniz" mərasimindən sonra dəmir yol vağzalında, onu aparacaq qatarı gözləyərkən və çemodanının üstündə oturarkən, görünmüşdü.

Buna baxmayaraq, Faysalın bir kral kimi karyerası hələ bitməmişdi. İngiltərə, daha əvvəl Osmanlı imperiyasının 3 vilayətindən biri olan İraq üçün bir kral axtarırdı. İngiltərə üçün bu bölgədə siyasi sabitlik sadəcə neftdən gözlənilən gəlir üçün deyil, eyni zamanda İran Körfəzinin müdafiəsi baxımından və İngiltərədən Hindistana, Sinqapura və Avstraliyaya uzanan imperiyanın yeni hava yollarının təhlükəsizliyinə görə də lazımlı hala gəlmişdi. İngiltərə bölgəni birbaşa hegemonluğuna götürməkdən çəkinirdi. Bunu etməkdənsə, o günlərdə "Köçkünlər Ofisi"nin sədri

olan Çörçillin də tövsiyə etdiyi kimi, bir ərəb hökuməti qurub, başına Konstitusiyaya uyğun bir monarxiyalı hökmdar gətirmək və bu hökmdarı "Millətlər Cəmiyyəti" himayəsi altında İngiltərə tərəfindən "dəstəkləmək" daha uyğun olacaq və daha ucuza başa gələcəkdi. Beləliklə Çörçill, planlaşdırılan krallığa yeni namizəd olaraq, o günlərdə işsiz-gücsüz dolaşan Faysalı seçirdi. Sürgün çəkdiyi yerdən çağırılıb gətirilən Faysal, 1921-ci ilin avqust ayında Bağdadda İraqın kralı olaraq tac geyinirdi. İraq taxtı üçün əvvəlcə Faysalın qardaşı Abdulla düşünülmüşdü. Amma o, əvvəlcədən də ingilislərin İordaniya əmiri kimi qəbul etdikləri adam olduğu üçün, o zaman boş olan əmirliyə "kral" təyin olundu.

Kral olandan sonra Faysalın qarşısında görülməli çox işləri vardı. Hakimlik etdiyi millət qeyri-müəyyən, qarışıq müxtəlif qruplardan təşkil olunmuş bir kolleksiyaya oxşayırdı. Bu kolleksiyada şiə ərəblər, sünnü ərəblər, yəhudilər, kürdlər və yezidlər vardı. Hökm etdiyi torpaqlar isə, ərazisində sadəcə bir neçə əhəmiyyətli şəhəri olan, qalanı başdan-başa kəndlərdən ibarət, yerli şeyxlərin idarə etdiyi, ortaq siyasi və mədəni keçmişdən məhrum qalan, buna baxmayaraq, get-gedə güclənən bir ərəb milliyyətçiliyinin kök saldığı və cücərdiyi torpaqlardı. Siyasi qüvvə sünnü ərəblərdəydi, amma şiə ərəblərin sayı onlardan daha çox idi. Vəziyyəti daha da qarmaqarışıq edən bir faktor da vardı: Yəhudilər Bağdadda yaşayanlar içərisində ən böyük qrupu təşkil edirdilər. Onlardan sonra ərəblər və türklər gəlirdi. Dini və etnik baxımdan bir mozaika olan bu kütləyə İngiltərə bir Konstitusiya qəbul etdirmək və məsuliyyətli bir parlament yaratmaq istəyirdi. Faysal əslində yeni krallığın dəstəklənməsi üçün İngiltərəyə arxalanmaq istəyir, ancaq Londona həddindən artıq bağlı





görünməsinin mövqeyini ciddi şəkildə sarsıdacağını bildiyindən, bundan çəkinirdi. İngiltərə hökumətinə gəlincə, o, təkcə İraqdakı ərəb milliyyətçiliyi ilə deyil, oradakı neftçilərin də öhdəsindən gəlməyə çalışırdı. Çünki neftlə məşğul olan şirkətlər artıq İraq imtiyazının mövcud vəziyyəti haqqında onlara məlumat verilməsini istəyirdi. İngiltərənin özü də bu ölkədə neftçiliyin inkişaf etdirilməsinin tərəfdarıydı. Təxmin olunan neft gəlirlərinin yeni İraq hökumətinin xərclərini azaldacağına ümid edirdi. Çünki belə olacağı təqdirdə, tədricən İngiltərənin özünün də bu iş üçün çəkdiyi xərclər xeyli azalacaqdı.

Ancaq İraqda neft axtarma və inkişaf etdirmə fəaliyyətlərinin başladılması üçün hökumətin yeni və sağlam bir imtiyaz verməsi lazımdı. Bunun bir səbəbi də o idi ki, Vaşinqton, 1914-cü ildə Türkiyə Neft Şirkətinə verilən haqları tanımaqdan imtina edir, bu haqq və hüquqları keçərsiz sayırdı. Bu mövzuda aparılan uzun müddətli müzakirələri Amerikan hökuməti adından diqqətlə izləyib idarə edən adam, Xarici İşlər Nazirliyinin Yaxın Şərq departamentinin şöbə müdiri Allen Dalles idi. Bu səlahiyyətli adam 1924-cü ildə Teagleyə söylədi ki, Birləşmiş Ştatlar hökuməti Türkiyə Neft Şirkətinin üzərində haqq iddia etdiyi imtiyaz iddialarını tanımır. Bir başqa deyimlə, "əlimizdə Türkiyə Neft Şirkəti davasını tərsinə çevirmək, onu tanınmaz hala gətirmək üçün lazımi qədər məlumat var" demişdi. Bu arada bir-birinin ardınca gəlib-gedən İraq hökumətləri də zaman-zaman toplu qətliamlara çevrilən milliyyətçi duyğular və ölkə daxilindən gələn tənqidlərin də qorxusuyla, əcnəbilərin əlindəki bu imtiyazları yenidən nəzərdən keçirib təsdiqləməkdə istəksiz davranırdılar. Buna görə də Türkiyə Neft Şirkətiylə İraq hökuməti arasındakı müsbət istiqamətli müzakirələr yavaş, çətin və

davamlı olaraq əziyyətverici templə irəliləyirdi. Nəticədə, 14 mart 1925-ci ildə yeni bir imtiyaz müqaviləsi imzalandı. Yeni müqavilə "Qapını Açıq Saxlamaq" prinsipinə riayət edəcəyi mesajını verdiyi üçün Amerikan hökuməti tərəfindən də qəbul edildi. Gülbekyanın düşüncələrinə görə isə, bu yeni müqavilə sadəcə "gözə kül üfürməkdən" ibarət idi.

## Memar

Nəticədə bir istisnayla hər şey - Türkiyə ilə olan sərhəd mövzusu da daxil olmaqla - həll olunmuş kimi görünürdü. Ortadakı tək istisna Qalust Gülbekyandan, digər adıyla "Cənab beş faiz"dən gəlirdi. Müzakirələrin getdiyi müddətdə Gülbekyan, qəribə və yalnız bir adam təsiri bağışlayırdı. İclaslara qəsdən qatılmır, ancaq protokola düşən hər sözcüyü yüz ölçüb-bir biçərək nəzarətdən keçirir, teleqraf üstünə teleqraf göndərərək, cavab verməkdə israrlı davranırdı. Şəxsi münasibətlərində ətrafından təcrid edilmiş şəkildə yaşayırdı. Vaxtı gələndə beləcə də söyləmişdi ki, "neftə əsaslanan dostluqlar həddindən artıq sürüşkən" olurdu. Bu sözün doğruluğu uzun illər boyu yaxın əməkdaşlıq etdiyi Deterdinglə olan dostluğunun 1920-ci illərin ortasında birdən-birə pozulmasıyla sübut olunmuşdu. Gülbekyan bu barədə gələcək illərdə aşağıdakıları söyləyəcəkdi: "Deterdinglə ikimiz 20 ildən çox zaman içərisində hər kəsə nümunə olacaq şəkildə birlikdə işlədik. Ancaq neft işində tez-tez rast gəlindiyi kimi zamanla özünü büruzə verən şəxsi qısqanclıqlar və görüş ayrılıqları səbəbindən bir-birimizdən ayrıldıq." Bəzi rəvayətlərə görə, aralarındakı qovğanın səbəbi belorusiyalı Lidiya Pavlovna adlı, bir Çar generalının əski həyat yoldaşı olan bir xanımdı. Başlanğıcda bu iki kişi sırf neft mövzusunda etdikləri kimi,





Lidiya Pavlovna mövzusunda da əməkdaşlıq edərək, xanımın bütün xərclərini bir-birilərinə dəstək verərək qarşılayırdılar. Belə ki, bir dəfə Deterding bu xanımın cazibəsinin qarşısında duruş gətirə bilməyib, satın aldığı zümrüdlərin 300 min dollarlıq fakturasını ödəyə bilməmiş və Gülbekyan ona Hollandiya Kraliyyət/Shell Şirkətindən zaman tanıyaraq, yeni kredit təmin etmişdi. Ancaq günlərin bir günündə Deterding Lidiya Pavlovna ilə evlənəcək, bu xanımı ikinci Xanım Deterding edəcəkdi. Elə bu evlilik də iki kişinin arasını əməlli-başlı vuracaq, bir-birilərinə düşmən olmaları ilə nəticələnəcəkdi.

Deterding və Gülbekyan bir başqa mövzuda da - Gülbekyanın Hollandiya Kraliyyət/Shell Qrupu üçün satın aldığı Venesuela Neft Şirkətiylə əlaqədar işdə də razılaşa bilmirdilər. Bu şirkətdən gələn qazanc mövzusunda tərəflər çirkin bir anlaşılmazlığa düşmüşdülər. Hər ikisində çox dərinlərə işləyən mənfəət qayğıları da vardı. Ən azından, Qalustun oğlu Nubar Gülbekyan bu görüşdəydi. Nubar həm atasının, həm də Deterdingin şəxsi asistantlığını etmiş, bunu özü üçün üstünlük və şərəf bilmişdi. Deterdinglə bir yerdə işləməsi, onun atasıyla münasibətlərinin kəsilməsinə qədər davam etmişdi. Nubarın dediyinə görə, Deterdingin bezginlik səbəbi Gülbekyanın göstərdiyi "təhrikedici müdaxilədən" irəli gəlmiş, Gülbekyan isə "Deterdingin nümayiş etdirdiyi ağır və zəhmli münasibətlərdən" təngə gəlmişdi.

Gülbekyan, istər Deterdinglə birlikdə işlədiyi zaman, istərsə də ondan ayrıldıqdan sonra həmişə müxtəlif iş fəaliyyətlərinə əl atmış, özünə bir məşğuliyyət tapmışdı. Bunların arasında Sovet kürüsünü bazarlamaq üçün almaq istədiyi geniş imtiyaz təşəbbüslərini göstərmək olar. Bu fəaliyyətlərlə məşğul olduğu müddət ərzində həyat

yoldaşını "uşaqlarım" dediyi sənət xəzinəsiylə birlikdə "Paris Avenue D'Lena"da tikdirdiyi evdə yalnız qoydu. Özü isə növbəli olaraq Parisin Ritz səmtindəki evində və ya Londonun Ritz və Carlton otellərində qalırdı. Bu cür zamanlarda yanında "tibbi tövsiyə"yə görə, bir sürü qadınlar gecələyərdi. Bunlardan ən az birinin 18 yaşında və ya daha gənc olması şərtdi. Bu, Gülbekyanın seksual canlılığını gəncləşdirmə baxımından gərəkli görülmüşdü. Gündə bir və ya iki dəfə Boulogne Meşələrində və ya Hyde Parkda sağlamlıq gəzintilərinə çıxar, bu müddət ərzində Limuzini onu arxadan təqib edərdi. Günün geri qalan saatlarında isə həmişə insanlardan uzaq qalmağa, görünməməyə çalışar, özünü dünyəvi işlərə həsr edər, vaxtını sel kimi axıb gələn telefon danışıqları və teleqraflarla keçirərdi.

Gülbekyan-Deterding münasibətlərinin kəsilməsindən sonra, başda Standard olmaq üzərə Amerikan konsorsiumundakı şirkətlərin hamısı, bütün dünyada yeni neft yataqları tapmaq və inkişaf etdirmək haqqındakı razılaşmalara bağlı qalmaqda davam etdilər. Tərtib etdikləri planlaşdırmalarında İraqa çox geniş yer verilmişdi. Ancaq Gülbekyan qarşılarında əngəl olaraq qalırdı və heç cür yola gəlmirdi. Onun üçün əhəmiyyətli olan Türkiyə Neft Şirkətindən, amerikalıların verilməsinə etiraz etdiyi 5 faizlik payını nəğd olaraq almaqdı. Deterdinglə münasibətlərinin kəsilməsindən sonra bu haqda daha da sərtləşmiş, Deterding və Teagle də daxil olmaqla, hamının canını boğazına yığmışdı. Bir dəfə işlərin bu cür gedişinə dözməyən Teagle, Gülbekyanı nəzərdə tutaraq eynən beləcə demişdi: "Gülbekyan ən ağır vəziyyətlərin ən ağır ünsürüdür." Gülbekyan isə başqa cür düşünürdü. Onun qənaətincə, "amerikalının idarə etdiyi bir neft qrupu vahid məqsəd üçün çalışır və nəyin bahasına olursa olsun, onu





hüquqlarından məhrum etməyə cəhd edirdi." Gülbekyan bu sözlərinə baxmayaraq, öz mövqeyindən heç bir şübhəsi olmadan və tam təhlükəsizlikdə olduğunun fərqində olaraq yaşamışdı. Bu erməni xam neft yox, pul istəyirdi, o qədər! Bir gün qəzet müxbirlərindən birinə bu səpkili bir sual vermişdi: "Özünüzü mənim yerimə qoyun. Əlinizdə bir neft şirkətinin kiçik bir hissəsi olsa və sizə alacağınızın qarşılığında bir miqdar neft ödəniləcəyi təklif edilsə, bunu necə qarşılayardınız? Bu, xoşunuza gələrdimi?"

Nəticədə Gülbekyanla bacara bilməyəcəyini başa düşən Teagle, onunla üz-üzə gəlib danışmağa qərar verdi. Londonun Carlton Otelində görüşüb yemək yemək üçün vaxt təyin etdi. Bir çox mövzular ətrafında fikir mübadiləsi apardılar. Nəhayət, sıra əsil mövzuya gəldi və Teagle, Gülbekyanın tələb etdiyi pul mövzusuna toxunmaq istədi. Gülbekyana bunları söylədi: "Cənab Gülbekyan, siz ərazinin bu dərəcə yüksək qiymətə tab gətirməyəcəyini bilməyəcək qədər yaxşı bir neft tacirisiniz."

Bu kəlmələrin ağzından çıxmasıyla Gülbekyan qıpqırmızı qızardı və böyük əsəbilik içərisində yumruğunu masaya vurub, bağırmağa başladı: "Gənc adam! Gənc adam! Özünə gəl! Mənə əsla neft taciri demə! Mən əsla neft taciri deyiləm və sənin də bunu açıq-aydın başa düşəcəyini təmin edəcəyəm!"

Teagle quruyub qalmışdı. Çaşqınlıq içərisində bunları söylədi: "Sizi incitdimsə, üzr istəyirəm, cənab Gülbekyan! Ancaq neft taciri olmadığınıza görə, sizə necə xitab edəcəyimi və ya hansı kateqoriyada təsnifləndirəcəyimi həqiqətən bilmirəm."

Erməninin bu cavaba reaksiyası, əsəbilik içərisində sərf etdiyi bu sözlərdən məlum olur: "Mən sizə özümü hansı kateqoriyada gördüyümü söyləyim. Özümü memarlar

sinfində görürəm. O şirkətin və ya bu şirkətin layihəsini tutaram. Türkiyə Neft Şirkətinin layihəsini də mən tutdum və şirkətdə Deterding üçün bir otaq ayırdım. Fransız üçün də bir otaq ayırdım və sənin üçün də bir oda..." Hirsi yenə də soyumamışdı. Sözlərini belə bitirdi: "İndi üçünüz bir yerə yığışıb, birləşib, məni təcrid etməyə, kənarlaşdırmağa çalışırsınız."

## Qırmızı xəttə doğru

Aradan keçən zaman içərisində İraqda ticari miqdarda neft olub-olmadığını müəyyənləşdirmək məcburiyyəti yaranmışdı. Bu mövzudakı ilk təşəbbüs 1925-ci ilə - Anqlo-Pers, Hollandiya Kraliyyət və Amerikan şirkətlərini təmsilən İraqa gələn yığma bir geoloq qrupunun bölgəyə gəldiyi dövrə rast gəlir. Gülbekyanın bütün manecçiliklərinə baxmayaraq, geoloqlar getdikcə artan bir həvəslə araşdırmalarına davam edirdilər. Amerikalı geoloqlardan biri Nyu Yorka göndərdiyi raportda, dünyada heç bir bölgənin neft baxımından İraq qədər çox şey vəd etmədiyini bildirirdi.

Ancaq Gülbekyan müqavimət göstərməkdə dirənişlərini artırırdı. Niyə də müqavimət göstərməsin ki? Mesopotomiya və Mesopotomiyanın neft ehtiyatları mövzusunda Sultana ilk raportu təqdim etməsinin üstündən haradasa 35, Türkiyə Neft Şirkətinin əlini başına yığıb bir yerə cəmləşdirməsinin üstündən isə təxminən 15 il keçirdi. Birinci Dünya Müharibəsinin getdiyi zamanlarda bu darmadağın olmuş layihəni ayaq üstündə tutmaq üçün lazım olan bütün xərcləri öz cibindən xərcləmişdi. Bu qədər zaman keçməsinə baxmayaraq, səbr edib gözləmişdi. Bir az daha gözləsəydi nə olacaqdı, dünya dağılmazdı ki? Onsuz





da elə indinin özündən möhtəşəm bir sərvətə sahib idi. Çox zəngin bir adamdı. Bundan başqa, bunun da fərqindəydi: İraqda əldə olunacaq geoloji bir uğur, Teagle və digər amerikalıları sürətli və zəruri bir anlaşmaya məcbur edəcəyi üçün onun mövqeyi daha da sağlamlaşacaqdı.

Yeri gəlmişkən, geoloqlardan axıb gələn xəbər selinə qarşı göstərilən reaksiya Gülbekyanın haqlı olduğunu sübut etmişdi. Artıq bir çıxış yolu axtarıb tapmağın mütləq zəruri və qaçınılmaz olduğu ortadaydı. Teagle bunu dərk etməkdə gecikməmişdi. Nəticədə, 1927-ci ilin aprel ayında qazıntıya başlanıldı. Bu, iş cəbhəsində gecikmənin artıq mümkünsüz olduğu mənasına gəlirdi. Qazıntının başlandığı an, o günə qədər təxirə salınmış müzakirələrdə də canlanma müşahidə olundu və Teagle həvəssiz da olsa, Gülbekyana zəmin hazırlamağa başladı. Nəticədə, çox şükür, üfüqdə anlaşmaya oxşayan bir şey görünməyə başlamışdı.

Bu danışıqların gerçəkləşməsi heç də tez müddətə başa gəlmədi. Qazıntının aparıldığı yerlərdən biri, Kərkükün təxminən 6 mil uzaqlığında yerləşən, əvvəlcə daha çox kürdlərin yaşadığı Baba Gurgur bölgəsiydi. Burada minillər boyu torpaqda qazılmış iki quyu az miqdarda təbii qaz sızdırırdı. Xalq bunun, Babilistan Kralı Nebuşadnezzarın yəhudiləri yandırmaq məqsədilə atdığı "qaynayan alovdan ocaq" olduğuna inanmışdı. Bundan başqa, Plutarxın yazdığına görə, burası bölgə sakinlərinin Böyük İsgəndərə təsir göstərmək üçün neftlə islatdıqdan sonra atəşə verdikləri küçənin olduğu yer idi. Bax günlərin bir günündə, bu yerdə, 15 oktyabr 1927-ci ildə, səhərə yaxın - saat 03.00 radələrində, Baba Gurgur adlanan 1 saylı quyudan, qazılan dərinlik hələ 1500 feeti yenicə keçərkən, kükrəməni və tufanı xatırladan və çölü başdan-başa bürüyən qorxunc bir gurultu eşidiləcəkdi. Gurultudan sonra hündürlüyü

taxta pillələrdən 50 feet yuxarı çıxan və özüylə birlikdə quyunun dibindən böyük qayaları da qoparıb gətirən güclü bir fışqırma müşahidə olundu. Bölgə başdan-başa neftə büründü. Bütün çala-çuxurlar zəhərli qazlarla doldu. Bölgədə nə qədər kənd vardısa, hamısını təhlükə gözləyir, Kərkükün özü isə tam təhlükənin ortasında yer alırdı. Neft selinə nəzarət etmək məqsədilə tələsik axtarılıb tapılan 7 qəbilənin mənsublarına bənd qurma və divar çəkmə işi tapşırıldı. Nəhayət, səkkiz gün yarımdan sonra quyu nəzarət altına alına bildi. Dayandırıldığı günə qədər quyudan fışqıran neft, hər gün başına təxminən 95 min barrel idi.

Beləcə, uzun zamandır həllini gözləyən problem cavablandırılmış oldu. İraqda həqiqətən neft yataqları mövcud idi və potensial baxımdan bu yataqlar bölgədə aparılacaq hər miqyasda çalışmaya dəyəcək qədər güclüydü. İndi növbə təcili formada son bir nizamlamanın tərtib olunmasına gəlmişdi. Müzakirələr mütləq yekunlaşmalıydı. Nəhayət, 31 iyul 1928-ci ildə, ilk kəşfin edildiyi tarixdən 9 ay, Teaglenin müqavilə imzalamaq üçün Londona ilk gəlişindən təxminən 6 ay sonra "tam" bir müqavilə imzalandı. Müqavilənin şərtlərinə görə, Hollandiya Kraliyyət/Shell, Anqlo-Pers və Fransız şirkətlərinin hər biri neftin 23.75 faizini alır, Yaxın Şərqi Gəlişdirmə Şirkəti də eyni nisbətdə paya sahib olurdu. Bu axırıncı şirkət son günlərdə Amerikan şirkətlərinin mənfəətlərini qorumaq üçün qurulmuşdu. Tamamlanmayan tək halqa Gülbekyan idi. Müqavilənin şərtlərinə görə, Gülbekyanın 5 faiz payı ona neft şəklində ödənəcəkdi. Ancaq o istərsə, bu nefti dərhal fransızlara bazar qiymətinə sata biləcəkdi. Beləliklə, bu erməni xam neftini hər zaman istədiyi, alışıb yanaraq əldən getdiyi nəqd pula çevirə biləcəkdi.

Həllini gözləyən və gündəmdə qalan yeganə mövzu





"fədakarlıq" maddəsi idi. Bu mövzunun həll edilməsi məqsədilə bütün iştirakçılar bir araya gələrək, bölgədəki çalışmaları ortaq şəkildə və yalnızca öz aralarında idarə etməyə qərar verdilər. Özünün də gələcək illərdə açıqladığı kimi, son toplantılardan birində Gülbekyan böyük bir Orta Şərq xəritəsi gətirdi və əlinə qalın uclu qırmızı bir qələm alaraq, artıq ləğv edilmiş sayılan Osmanlı imperiyasının sərhədləri boyunca başdan-sona bir xətt çəkməyə başladı. Daha sonra Gülbekyan bunları söyləmişdi: "Bax, mənim 1914-cü ildə bildiyim əski Osmanlı imperiyası budur. Mənim bunu unutmamağım lazımdır. Mən orada doğuldum, orada yaşadım, orada xidmət etdim." Bəlkə də Gülbekyan oldu-bitdiyə gətirilərək artıq qərarlaşdırılmış sərhədlər haqqında içindən gələn bir neçə söz daha söyləyəcəkdi, kim bilir? Sərhədlər həqiqətən, əvvəlcədən müəyyənləşdirilmişdi. Bu tarixdən bir neçə ay əvvəl ingilislər Xarici İşlər Nazirliyinin xəritələri üzərində, fransızlar da Quai d`Orsay xəritələri üzərində eyni sərhədləri çəkmiş, beləliklə, sərhədlər müəyyənləşdirilmişdi. Sərhədlərin müəyyəşləşdiricisi hər kimsə, çox daha əhatəli olan bu neft müqaviləsinə o gündən sonra "Qırmızı Xətt Müqaviləsi" deyildi.

Zamanla - İran və Küveytə aid olanlar xaric - bütün böyük neft yataqları Qırmızı Xəttə daxil oldu. Ortaqlar bu ucsuz-bucaqsız torpaqlarda hər hansı bir neft əməliyyatına girməkdən çəkinirdilər. Bunu ancaq Türkiyə Neft Şirkətinin o biri üzvləri ilə əməkdaşlıq edərək həyata keçirməyə özlərini məcbur hiss etdilər. Bu minvalla, 1914-cü il Xarici İşlər Nazirliyi Müqaviləsinin "fədakarlıq" maddəsi, qəbul edilməsindən 14 il sonra, Qırmızı Xətt Müqaviləsi halında bir daha, təkrar doğulurdu. Bu müqavilə Orta Şərq neftini inkişaf etdirmə siyasətinin gələcəyə

istiqamətlənən proqram çərçivəsini müəyyənləşdirmişdi. Eyni zamanda bir çox illər boyu əzab verən anlaşılmazlıqların da əsas mənbəyi olmuşdu.

İllər sonra Türkiyə Neft Şirkəti bazarlığında Gülbekyanın Teagleyi məğlubiyyətə uğratdığının ağızdan-ağıza söyləndiyi günlərdə Valter Teagle bir daha geriyə baxıb, vəziyyəti dəyərləndirəcəkdi. Artıq arxada qalan o qədər çətin və yorucu müzakirələri düşünəcək, bunları söyləyəcəkdi: "Yanlış hərəkət etmişik! Bu, çox pis bir şey oldu! Öz-özümüzə, heç kimlə məsləhətləşmədən hərəkət etməklə 3 il gecikmişik!"

Qırmızı Xətt Müqaviləsi Gülbekyanın cinahından baxıldığında, böyük bir qələbə idi. O, bu müqavilə ilə 36 illik gərgin çalışmasının meyvələrini alır, inad və səbrinin qarşılığını görürdü. Bu, onun üçün formalaşma yaşına çatdığı gündən bəri həyatı boyunca gözlədiyi, həsrətini çəkdiyi bir anlaşma idi. Başqa bir tərəfdən də, çox-çox milyon dollarlardan daha qiymətliydi. Bu böyük hadisəni qeyd eləmək üçün o yaz bir gəmi kiralayır və qızı Ritayla birlikdə Aralıq dənizi sahillərində gəzintiyə çıxırdı. Mərakeş sahillərində gəzintiyə davam etdikləri günlərin birində gözünə o günə qədər heç görmədiyi tipdə bir gəmi ilişdi. Bacası gəminin arxa tərəfində, ən uc nöqtədə çıxıntı şəklində kənara uzanmış bu gəmi ona çox maraqlı gəlmiş, diqqətini çəkmişdi. Bunun nə olduğunu soruşanda, qızı Ritadan "bir neft tankeri" cavabını alırdı.

O zaman Gülbekyan 59 yaşındaydı və əsrin ən böyük neft müqavilələrindən birini yenicə gerçəkləşdirmiş, neftçilikdə günün Taleyranı olmuşdu. Amma bir şey var ki, o günə qədər həyatında heç neft tankeri görməmişdi.





# 11

# QITLIQDAN BOLLUĞA

## Benzin dövrü

1919-cu ildə Birləşmiş Ştatlar Ordusunda mayor olan Dvight D.Eyzenhauer cansıxıcı və çətin keçən sülh günlərindən bezmiş, ordudan ayrılıb əsgərlik günlərindən tanıdığı bir silahdaşının İndiana polisində işləməsi üçün etdiyi təklif üzərində düşünməyə başlamışdı. Ancaq sonradan öyrəndi ki, ordu, ölkəni başdan-sona dolaşacaq motorlu bir konvoya qatılmaq üçün bir zabit axtarır. Gəzinti, motorlu nəqliyyat vasitələrinin potensialını və gücünü gözlər önünə sərmək və daha yaxşı quru yollarına olan ehtiyacı dramatik formada göstərmək üçün tərtib olunmuşdu. Eyzenhauer üzərindəki yorğunluğu atmaq və ailəsi ilə birlikdə ölkənin qərbində ucuz bir tətilə çıxmaq üçün könüllü olaraq bu konvoya qatıldı. Sonradan söylədiyinə görə, "bir sahildən o biri sahilə" keçərək həyata keçirilən bu gəzinti, günün şərtləri nəzərə alındığında onun üçün həqiqi bir macəra sayılırdı. Sonrakı günlərdə bu gəzintini xatırlayarkən, "Amerikanın ən qaranlıq yerlərində avtomobil və tankerlərlə keçirdiyimiz bir gəzinti" demişdi.

Səyahət 1919-cu il iyul ayının 7-də, Zero Milestonenin gəzintinin uğurlu keçməsi üçün etdiyi duadan sonra başlamışdı. Ağ Evin bağçalarının cənubundan yola çıxıldı. Dəstədə 42 ədəd mühərrikli vasitə, xidməti işçiləri, müşahidə və başqa məsul şəxsləri daşıyan 5 ədəd avtomobil və motosiklet, təcili yardım maşını, tankerlər, səyyar mətbəx, səyyar təmir atelyesi və digər maşınlar olmaqla böyük bir

qrup təmsil olunurdu. Eyzenhauerin fikrincə, nəqliyyat vasitələri təcrübə və sürücülük baxımından, daxili yanma mühərriklərindən çox, at sürməyi bilən sürücülərin əlindəydi. İlk 3 gün konvoy, saatda ancaq 6 mil məsafə qət edirdi. Bu sürət Eyzenhaueri məmnun etməmiş, "bu kifayət deyil, ən yavaş qatar belə daha sürətli hərəkət edir" demişdi. Gəzinti protokolundan məlum olduğuna görə, dəstədə bir çox qırıqlar, qopmuş qayışlar, sınıq borular və digər xarab olmuş avtomobil hissələri yığılmağa başlamışdı. Yollara gəlincə, hər cür yol vardı. Eyzenhauerin dediyinə görə, "yaxşı yollardan tutmuş, yol belə deyilə bilməyəcək müxtəlif keyfiyyətdə yollar vardı." Eyzenhauer bu yollar haqqında belə demişdi: "Bəzi yerlərdə ağır yük daşıyan maşınlar yolun pis olması səbəbiylə palçığa batır, bu cür hallarda bizim polad tırtıllı traktorların köməkliyi ilə bunları bir-bir palçıqdan qırağa çıxarmağımız lazım olurdu. Elə olurdu ki, bəzi günlər 60, 70 və hətta 100 mil yol getməyi planlaşdırdığımız halda, sadəcə 3 və ya 4 mil yol qət edə bilirdik."

Vaşinqtondan iyulun 7-də hərəkət edən konvoy, ancaq sentyabr ayının 6-da San Fransiskoya gəlib çatmışdı. Şəhərə yetişən qafilənin sürücüləri əvvəlcə rəsmi mərasimlə qarşılandılar. Daha sonra Kaliforniya Valisi bir çıxış etdi və bu çıxışında konvoya qatılanları "ölümsüz 49-lar" adlandırdı. Eyzenhauer isə bu sıralarda gələcəyə istiqamətlənən düşüncələrlə yaşayırdı. Sonrakı illərdə o günləri xatırlayarkən, belə söyləmişdi: "Bu əski konvoy məni iki tərəfli, yaxşı inşa edilmiş avtomobil yolları haqqında düşündürməyə başlamışdı." Yeri gəlmişkən, aradan 35 il keçəndən sonra Eyzenhauer Amerika Birləşmiş Ştatlarının prezidenti kimi geniş tədbirlər planı halında ölkədaxili avtomobil yolları sisteminin inkişaf etdirilməsinin





öndərliyini etmişdi. Ancaq 1919-cu ildə Eyzenhauerin çox yavaş yürüməkdə olan "Amerikanın ən qaranlıq yerlərindən keçmə" vəzifəsi, yeni bir dövrün doğuşunu simvolizə edirdi: Bu dövr Amerikan xalqının mühərrikləşmə - motorizasiya dövrüdür.

## Səyahət əsri

Henri Deterding 1916-cı ildə Shell Şirkətinin Amerikadakı yüksək vəzifəli bir məmuruna yazdığı məktubda bunları deyirdi: "Yaşadığımız əsr bir səyahət əsridir. Savaşın yaratdığı qarışıqlıqlar, səyahətə hiss olunan ehtiyacı daha da artıracaqdır." Bu sözlər Birinci Dünya Müharibəsini təqib edən günlərdə dərhal sübut olunmuş və nəticə etibarilə sadəcə neft sənayesini dəyişdirməklə qalmayıb, Amerikan yaşam tərzini və sonra da qlobal həyat tərzini dəyişdirmişdir.

Dəyişim heyrətverici sürətlə baş vermişdir. Deterdingin bu təxmini etdiyi 1916-cı ildə Amerikada qeydiyyatda olan avtomobil sayı 3.4 milyon idi. 1920-ci illərdə isə sülh dövrünün gətirdiyi rifahla birlikdə, sırada gözləyən avtomobil sayısı daha sürətlə artırdı. Bu onilliyin sonuna gələnə qədər Amerikada qeydiyyatda olan avtomobil sayısı 23.1 milyonla partlayış eləmişdi. Bu avtomobillərin hər biri hər gələn yeni illə get-gedə daha uzun məsafə qət edirdilər - 1919-cu ildə avtomobil başına ortalama 4500 mil yol qət olunduğu halda, 1929-cu ildə bu məsafə ortalama 7500 milə çatmışdı. Bunu da əlavə etmək lazımdır ki, bu avtomobillərin hər biri benzinlə işləyirdi.

Artıq Amerikanın siması avtomobillərin işğalı ilə dəyişmişdi. Only Yesterday dərgisinin yazarı Levis Allen 1920-ci illərin yeni mənzərəsinin portretini çəkmiş, bunu

aşağıdakı sözlərlə ifadə etmişdi: "Bir zamanlar sadəcə "dəmir yollarına yaxın" olduqları üçün inkişaf edən və rifaha qovuşan kəndlər, indi iqtisadi vəziyyətin çətinliyi altında məhv olub gedir. Route-61 yolundakı kəndlər isə qarajlarla, benzin doldurma məntəqələri, sandviç bufetləri, toyuq-restoranları ilə, çay evləri, turist dinlənmə yerləri, istirahət bölgələri ilə inkişaf edib həyat qaynayır. Şəhər üçün işləyən tramvaylar isə çoxdan ortadan qalxdı. Dəmir yolu dəmir yolunun ardınca inşa edilir... Bu onilliyin başlanğıcında minlərlə şəhərdə dördyol dairələri, yol və ana prospektlərdə yol hərəkətinə nəzarət etmək üçün sadəcə bir yol polisi kifayət edirdi. Onilliyin sonunda isə inanılmaz fərq yaranmışdı: Qırmızı və yaşıl yol işıqları, sarı xəbərdarlıq işıqları, tək tərəfli prospektlər, avtobus dayanacaqları, hər gün bir az daha sıxlaşan avtomobil dayanacaqları və onun çoxalan qaydaları, hər şənbə və bazar günləri günortadan sonra Main Street həndəvərində yaranan parıltılı avtomobil tıxacları. Bütün bunlar buxar dövründən benzin dövrünə keçildiyinin bir əlamətiydi."

Avtomobil inqilabının Birləşmiş Ştatlar üzərindəki təsiri, digər bütün ölkələrdəkindən daha güclü olmuşdu. 1929-cu ildə dünyada mövcud olan avtomobil sayının cəminin 78 faizi Amerikadaydı. Eyni ildə Amerikadakı hər motorlu vasitəyə 5 nəfər düşürdü. İngiltərədə bu sayı avtomobil başına 30 nəfər, Fransada 33 nəfər, Almaniyada 102 nəfər, Yaponiyada 702 nəfər, Sovet İttifaqında isə 6130 nəfər idi. Amerika, mübahisəsiz ən öndə gedən benzin istehsalçısı idi.

Neft sənayesinin inkişafında yaşanan dəyişiklik də bundan daha az dramatik sayıla bilməz. 1919-cu ildə Amerikanın toplam neft tələbatı gündə 1.03 milyon barrel ikən, 1929-cu ildə bu, 2.58 milyon barrelə çıxmış, başqa bir





deyişlə, iki dəfə yarım artmışdı. Eyni müddət içərisində neftin ümumi enerji istehlakı içərisindəki payı 10 faizdən, 25 faizə çıxmışdı. Bunlar içərisində daha çox istehlak olunan benzindir. Bu illər içərisində benzin istehlakındakı artım dörd qat artmışdı. Benzin və mazot bir yerdə 1929-cu il neft istehlakı cəminin 85 faizini təşkil etmişdi. Qaz yağına gəlincə, o biriləri ilə müqayisə edildiyində, istehsal və istehlak baxımından, bir xeyli gözdən düşdüyü söylənə bilər. Bir zamanların "yeni işığı", artıq yerini "yeni yanacağ"a təslim edirdi.

## Benzinin cazibəsi

Amerikanın avtomatlaşdırılmış mədəniyyətə qovuşmasında həqiqətən, çox əhəmiyyətli başqa bir işkişaf meyli də ona paralellik etmişdir. Bu, yeni "yanacaq" və yeni yaşam tərzi ilə bərabər ortaya çıxan və mədəniyyətin yeni məbədi sayılan benzin doldurma məntəqələrinin doğuşu və inkişafıdır. 1920-ci illərdən əvvəl benzin, əsasən dükanlarda satılırdı. Dükan sahibləri mühərrik yanacağını piştaxtanın altına və ya dükanın arxasında bir yerə yerləşdirdikləri tənəkə qutularda və ya oxşar qablarda mühafizə edirdilər. Məhsulun üzərində hər hansı bir firmanın adı və ya işarəsi yer almazdı. Ona görə də avtomobil sürücüsü həqiqətən benzinmi, yoxsa aşağı keyfiyyətli bir mal və ya qazyağı qarışdırılmış başqa bir məhsulmu satın alır, əmin deyildi. Bir şey də vardı ki, bu cür bazarlama sistemi çox ləng və ağır işləyirdi. Avtomobil dövrünün iməkləmə günlərində bəzi pərakəndəçilər evdən-evə yanacaq daşıyan benzin vaqonları ilə işləməyi də sınaqdan keçirdilər. Vaqonların tez-tez partlaması və ona meylli olması səbəbindən, bu sistem baş tutmadı.

Nəhayət, bu dağıtım işlərinin ən məntiqli yolu tapıldı: Yanacaq məntəqəsi yaratmaq. İlk yanacaq doldurma məntəqəsi qurmağın şərəfi bir neçə müxtəlif öncüllük etmiş firmaların adı ilə bərabərləşsə də, National Petroleum News dərgisinə görə, bu fəxarətli kəşf 1907-ci ildə St.Luisdə qurulan Avtomobil Benzin Şirkətinə aiddir. Neft ticarəti mövzusunu işləyən və bu sahədən yazan dərgi, iç səhifələrindən birinə sıxışdırılmış kiçik bir yazıda "Avtomobil sürücüləri üçün yanacaq doldurma məntəqəsi" başlığı altında bu xəbəri yayınlamışdı: "Avtomobil sürücülərinin lazım olan benzini birbaşa alması üçün yeni bir sistem üzərində iş gedir. Bu istiqamətdəki sınaq işləri böyük uğurla St.Luisdə Avto-Benzin Şirkəti tərəfindən aparılır." Müxbirin yazdığı bu kəşfə diqqət yetirən bir neft sahibkarı isə yazını oxuyanda, özünü saxlaya bilməyib uğunmuş, "bu mənasız sərsəmləməni oxuyub qəhqəhəylə gülün!" demişdi. Dərgidəki xəbərin yazarına gəlincə, ilk yanacaq doldurma məntəqəsini görmək ona qismət olmasa da, Avtomobil Benzin Şirkətinin St.Luisdəki ikinci yanacaq doldurma məntəqəsini görə bilmişdi. Onun görüşlərinə görə, bu iş həqiqətən də mənasızdı. Yanacaq doldurma məntəqəsi dedikləri yerdə, iri tənəkə bir qab içərisində bir neçə barrel mühərrik yağı və taxta pilləkənlər üzərinə quraşdırılmış iki ədəd köhnəlmiş su depolarından düzəldilmiş benzin deposu vardı. Buraya doldurulan benzin, bildiyimiz su borusunun köməkliyi ilə və yalnızca yerin cazibə qanunundan faydalanaraq, maşınlara doldurulurdu. İlk qurulan benzin doldurma məntəqələrinin hamısı təxminən eyni vəziyyətdəydi; kiçik, uçuq-sökük, kirli, bir və ya iki ədəd depo ilə təchiz olunmuş, əsas yola çətinliklə çıxa bilməyi təmin edən dar keçidli xarab tikililər.





Benzin doldurma məntəqələrinin həqiqətən böyüyüb, nizamlı bir hal alması üçün 1920-ci illəri gözləmək lazım gəlmişdi. Artıq 1920-ci ildə 100.000 ədəd benzin doldurma məntəqəsi yaradılmışdı. Bunların yarısı baqqal dükanları, mağazalar və xırdavat alveri ilə məşğul olanlardı. Aradan 10 il keçəndən sonra isə artıq bu dükanların çox azında benzin satılırdı. 1929-cu ildə benzin satan pərakəndəçi firma sayısı təxminən 300.000-ə çatmışdı. Bunların da təxminən hamısı təbii qaz məntəqələri və ya qarajlardı. Yalnız benzin doldurma məntəqələri isə 1921-ci ildə 12.000 ikən, 1929-cu ildə 143.000 ədəd idi.

Yanacaq doldurma məntəqələri hər yerə yayılmışdı. Böyük şəhərlərin yol döngələrində, kiçik şəhərlərin ana prospektlərində, kəndlərin yolayrıcılarında artıq sıx-sıx benzin doldurma məntəqələrinə rast gəlinirdi. Bu məntəqələrə Rocky bölgəsinin şərqində "doldurma yerləri", Rocky bölgəsinin qərbində isə "servis stansiyası" deyilirdi. 1921-ci ildə Texasın Fort Worth səmtində səkkiz pompalı və küçədən üç ayrı girişi olan məşhur super məntəqənin açılmasıyla, bu kiçik məntəqələrin gələcəyi təhlükəyə girdi. Yeni açılan super yanacaq doldurma məntəqəsinə baxmayaraq, yenə də müasir "yanacaq doldurma məntəqəsi" anlayışının həqiqi banisi Kaliforniya və xüsusilə də Los Ancelesdir. Burada qurulan məntəqələr nəhəng işarəyazıları, istirahət mərkəzləri, gözəl və cazibədar qübbələri, mənzərəli görünüşləri, xüsusi düzəldilmiş girişləri ilə standart ölçüdə hazırlanmış benzin doldurma məntəqələri idi. Shell Şirkətinin liderlik etdiyi və "Barıt qutusu" adlanan standart benzin doldurma məntəqələri bütün ölkə miqyasında heyrətverici sürətlə inkişaf etdi. 1920-ci illərin sonlarında bu məntəqələr, artıq təkcə benzin satışından yox, həm də tires, battiries and accessories (təkər,

akkumulyator və ehtiyat hissələri) kəlmələrinin baş hərfləri ilə simvolizə olunmuş TBA-dan da pul qazanırdılar. "Standard of İndiana" isə məntəqələri neft məhsulları ilə bərabər, motor yağından mebel boyalarına, tikiş maşınları yağından elektrikli süpürgəyə qədər hər növ mal satan daha böyük ticarət mərkəzlərinə çevirmişdi. Daha sonra kəşf olunan yeni tip bir pompa, ölkə miqyasında günün modası olacaqdı. Pompa, benzini yuxarıda dayanan şüşə bir qabın içinə üfürür və benzinin axışı müştəri tərəfindən görünürdü. Məqsəd məhsulun təmizliyi haqqında müştəriyə təminat verməkdi.

Beləliklə, yanacaq doldurma məntəqələrinin kütləviləşməsi və rəqabətin də qızışması ilə məntəqələr - hərəsi özlərinə bir ad götürüb yeni dövrü simvolizə edən işarə və plakatlar asdılar. Texas "Ulduz", Shell "Dəniz qabığı", Sun "Parlayan Almaz", Ünyon "76", Phillip "66", Socony "Uçan At", Gulf "Portağal rəngli kürə", Standard of İndiana "Qızıl Tac", Sinclair "Brontosaurus" (coğrafiyada dinozavr növündən bir heyvan), Jersey Standard vətənpərvərliyi əks etdirən qırmızı-ağ-mavi rəngləri ad və ya simvol olaraq qəbul etdilər. Rəqabət, neft şirkətlərini milli şəxsiyyətlərinin qarantiyası olaraq bəzi ticari markalardan istifadə etməyə məcbur etmişdir. Bunlar dini şəkil və mərasimləri xatırladan ikonalar kimiydi. Sürücülərin çətinlik çəkməməsinə, özlərini təhlükəsizlikdə görmələrinə və o şirkətə aid imiş kimi hiss etmələrinə kömək edən bu işarətlər uzun yol yoldaşı kimi Amerikanı başdan-başa qət edən yollarda asılıb bələdçilik edirdilər.

Benzin doldurma məntəqələri, eyni zamanda bir mütəxəssisin də söylədiyi kimi "xəritəçilik" elminin inkişaf etməsinə və böyüməsinə, "Amerikanın köməyi" olan yol xəritələrinin ortaya çıxmasına da səbəb oldu. Xüsusilə,





avtomobillər üçün çıxarılan ilk yol xəritəsi böyük bir ehtimalla 1895-ci ildə Çikaqo Times Heraldda yayınlanan və qəzetin təşkil etdiyi 54 mil məsafəli avtomobil yarışması üçün hazırlanan xəritədir. Gulf Şirkəti 1914-cü ildə Pittsburgh şəhərində ilk benzin doldurma məntəqəsini açarkən, yerli bir reklamçı, onlara bu benzin doldurma məntəqəsinin yerləşdiyi yeri yol xəritəsi üzərində göstərən bir broşüra nəşr etməyi təklif etmiş və nəşr olunan broşüra avtomobil sürücüləri üçün böyük rahatlıqlar təmin etmişdi. 1920-ci illərdə amerikalıların öz maşınları ilə yollara tökülmələri, yol xəritələrinin də istifadəsini kütləviləşdirmiş və bu xəritələr avtomobillərin ayrılmaz parçalarına çevrilmişdilər.

Bu arada müştəriləri cəlb etmək üçün benzin doldurma məntəqələri yeni-yeni kəşflər edirdilər. 1920-ci ildə Shell Şirkətinin Kaliforniya şöbəsi əməkdaşlarına pulsuz uniforma paylamağa və bu uniformaları həftədə üç dəfə pulsuz təmizlətməyə başladılar. Məntəqədə işləyənlərin iş başında dərgi, qəzet oxumaları və müştəridən bəxşiş almaları qadağan olunmuşdu. Shell Şirkəti işçilərinə "təkərlərə hava vurma və radiatora su tökmə servisinin - xalqın onlardan gözlədiyi bir xidmət növü olduğunu, bu xidmətin Shell müştərisi olsun və ya olmasın, hər kəsə heç bir fərq qoymadan göstərilməsini" təlqin edirdi. İllər artıq 1927-ci ili göstərəndə, "məntəqə satıcıları" deyə tanınan işçilərin öz müştərilərinə "təkərlərinizi kontrol etməyimizi istəyirsinizmi?" deyə soruşmaları adət halını almışdı. İşçilərdən tələb olunan başqa bir yenilik müştəriyə xidmət edərkən, "öz şəxsi fikir və mühakimələrini" işlə qarışdırmamaqdı. Satıcılar - müştərilərin şərq və ya latın əsilli olmalarına fərq qoymadan, hamıya bərabər şəkildə xidmət etməli və danışanda jarqon dildən istifadə etməməliydilər.

Bu arada aparılan kütləvi reklamçılıq və tanıtım fəaliyyətlərinin nəticəsində yerli və milli miqyaslı yanacaq doldurma məntəqələri kütləviləşdi. Benzin satışını ən yüksək səviyyəyə çıxaran adam bir reklamçı olan Bruce Bartondur. Barton benzin satışını ən uzaq bölgələrə qədər aparmağa çalışmışdır. Son dərəcə avtoritar bir ifadəylə danışan Bruce Bartonun yazdığı The Man Nobody Knovs (Heç kimin tanımadığı adam) adlı əsəri, həm 1925-ci ildə, həm də 1926-cı ildə ölkənin ən çox satılan kitablarının siyahısında birinci olmuşdur. Bu kitab Bartona haradasa ölümsüz bir şöhrət qazandırmışdır. The Man Nobody Knovs kitabı İsadan bəhs edir və onun "Qüdsdəki axşam yeməyində sadəcə ən populyar qonaq olmaqla kifayətlənməyib", eyni zamanda "müasir iş həyatının qurucusu" və günün ən böyük reklamçısı olduğunu sübut edirdi. Təqvimlər 1928-ci ili göstərəndə Barton neftçilərə müraciət edərək, "benzin möcüzəsini əks etdirmə təşəbbüsündə" bulunmalarını istədi. Onları "benzin doldurma məntəqələrinin qapısının qarşısında bir saat dayanıb, qaz almağa gələn müştərilərlə danışmağa" çağırdı. Neftçilərin həftədə heç olmasa 1 dollarlıq benzinin - yaşam tərzlərində nələr edə biləcəyini, necə sehirli ola biləcəyini kəşf etmələrini istəyirdi.

Görüşlərini onlara bu sözlərlə izah edirdi: "Dostlarım, satmaqda olduğunuz şey, əbədi gənclik çeşməsindən gələn sehirli bir sirrdir. Sağlamlıqdır. Konfortdur. Uğur və nailiyyətdir. Siz isə satdığınızın bəsit və pis qoxulu, qalon başına bir neçə sent dəyərində bir şey olduğunu zənn edirsiniz. Nefti nifrət edilən məcburi bir məsrəf olaraq düşünür və bu kateqoriyaya aid edirsiniz... Ancaq bu, yanlışdır. Özünüzü - sizdən bu nefti satın alan kişi və ya qadın müştərinin yerinə qoyun. Sizin satdığınız benzinin





onların həyatında hansı möcüzələr yaratdığını görəcəksiniz."

Bu möcüzə, benzinin insanları istədikləri yerə götürə bilməsindən irəli gəlirdi. Artıq insanlar benzinin sayəsində istədikləri zaman istədikləri yerə gedə bilirdilər. Bu, həqiqi neftçilər üçün hərəkətverici bir mesaj təsiri yaradır, əlavə maliyyətlərdən, depolama qayğılarından, inventarlardan, bazar hissələrindən, kirli və ya yağlı uniformalardan qorxmurdular. Artıq bu onilliyin axırlarında benzinin pərakəndəçilərdə satışı kütləvi vərdişə çevrilmiş, müqəddəs bir iş olmasa belə, böyük və rəqabətə açıq bir iş sahəsi olmuşdu.

## "Teapot" fırtınası

Benzinin qiyməti artıq amerikalılardan çoxunun həyat tərzinə və gələcəyinə öz təsirini göstərirdi. Buna görə də 1920-ci illərdə benzin qiymətlərinin hər yüksəlişində, bunun gündəm mövzusuna çevrilməsi və gərgin müzakirələrə səbəb olması, sanki adət halını almışdı. Hər qiymət artımı dərhal mətbuat vasitəsilə xalqa elan olunur, valilər, senatorlar və hətta dövlət başçıları tərəfindən müzakirəyə çıxarılır, Amerika Birləşmiş Ştatları hökumətincə tədqiq edilirdi. Belə ki, 1923-cü ildə növbəti böyük bir qiymət artımında, Wisconsində senator Robert La Follette, başqa bir adı ilə Döyüşçü Bob, parlamentdə benzin qiymətlərinin qaldırılması mövzusunda ağır nitqlər irad etmiş, artıma səbəb olanlar üçün böyük cəzalar tələb etmişdi. La Follette və onun bağlı olduğu komissiya bu suçlamalarla xalqa xəbərdarlıq edir, "böyük neft şirkətlərindən sadəcə bir neçəsi, gələcək bir neçə il içərisində 1920-ci ilin yanvar ayından bəri etdikləri kimi, neft qiymətlərində manevr

etməyə beləcə davam edərlərsə, bu ölkə xalqının bir qalon benzin üçün ən az 1 dollar ödəməyə hazır olmalarını" söyləyirdi. Ancaq bu sözlərdən dərhal sonra benzin istehsalında ifrat artım müşahidə olundu, qiymətlər aşağı düşdü və Döyüşçü Bobun xəbərdarlığı əhəmiyyətsiz bir şey oldu. 1927-ci ilin aprel ayında benzinin pərakəndə satış qiyməti San Fransiskoda qalonu 13 sentə, Los Ancelesdə də 10.5 sentə qədər düşdü. Beləliklə, La Follettenin məşum kəhanəti gerçəkləşmədi.

Ancaq bunu da unutmamaq lazımdır ki, La Follette benzin qiymətlərindəki təxminlərində qeyri-dəqiq olsa da, başqa bir mövzuda tam hədəfdən vurmuşdu. Qiymət mövzusundakı hərəkətləri, bu haqda təhqiqatları məşğul olduğu mövzunun yanında sadəcə əlavə, yan mövzulardandı. Həqiqət budur ki, La Folletteyə Senatdakı Xaçlı səfərlərinin - Səlib yürüşünün öndərliyini edən şəxs və ölkə tarixində ən məşhur və ən əcaib skandalı ortaya çıxaran qrupun başçısı da deyilə bilər. Bu, Teapot Dome (Çaydanlıq Qübbəsi) skandalıdır.

Wyomingdə Teapot Dome adıyla tanınan və geoloji bir əsəri xatırladan formasına görə bu adı daşıyan bölgə, Birinci Dünya Savaşından əvvəl Taft və Vilson dönəmlərində "donanmanın neft ehtiyatı" olaraq ayrılmış üç neft yatağından (digər ikisi Kaliforniyadaydı) biridir. Xatırlanacağı kimi, o zamanlar Amerikan donanmasının kömürdən neftə keçirilməsi gündəmdəydi və bu mövzuda şiddətli müzakirələr aparılırdı. Teapot Dome donanma ehtiyatı olaraq ayrılmış yataqlardan biri idi. Amerikada davam edən bu müzakirələrin bir oxşarı da İngiltərədə, elə o günlərdə yaşanmış və Uinston Çörçill, Admiral Fişer və Marcus Samuel kimi şəxsləri uzun zaman məşğul etmişdi. Amerikalılar da ingilislər kimi neftin kömürdən





üstünlüyünü və səmərəliliyini qəbul edir, mövzu istehsalat olduğunda Amerikanın nə dərəcədə şanslı olduğunu da bilir, amma sırf ingilislərdə olduğu kimi "kritik bir anda" neftin tükənəcəyi ehtimalından qorxurdular. Yeri gəlmişkən, amerikalı bir donanma yetkilisi belə deyirdi: "Kritik bir anda neft tapmamaq demək, donanmanın hərəkət qabiliyyətinin məhdudlaşması və bütün millətin təhlükəsizliyinin məhv olması deməkdi." Aman, ən ehtiyac duyulduğu kritik bir anda, birdən neft tükənərsə?

Ancaq bütün bu ziddiyyətlərə baxmayaraq, neftin təmin etdiyi həyati əhəmiyyətə müqavimət göstərilə bilmədi və Amerikan donanmasını kömürdən neftə keçirməyə qərar verildi. Bu qərarın həyata keçirilmə tarixi İngiltərəylə eyni ilə - 1911-ci ilə təsadüf edir. Eyni il neftlə bağlı tərəddüdlərin ortadan qaldırılması məqsədilə Vaşinqton hökuməti, potensial istehsal bölgələrində donanma üçün neft ehtiyatı yaratmağa başladı. Məqsəd "gözlənilməz və təcili hallar üçün neft ehtiyatı saxlamaq" və bunu, ancaq savaş və böhran şəraitində istifadə etməkdi. Neft ehtiyatları bölgələrinin yaradılması işi bir elə də asan olmamış, Vaşinqtonda uzun mübarizələrin doğulmasına səbəb olmuşdu. Bundan başqa, bunların qismən də olsa, özəl şirkətlər tərəfindən işlədilməsi mövzusu da müzakirəyə açılmışdı. Müzakirə XX-ci əsr Amerikasında davam etməkdə olan dövlət siyasətinin tipik bir parçası kimi aparılırdı. Bir qrup amerikalı, dövlətə aid torpaqlardakı qaynaqların özəl şirkətlər tərəfindən işlədilməsi tərəfdarı ikən, digər bir amerikalı qrup qarşı görüşdəydi və qaynaqların işlədilməsinin federal hökumətin nəzarətində tutulması və qorunmasını tələb edirdilər.

1920-ci ildə dövlət başına Respublikaçı namizəd Varren G.Hardinge seçilmişdi. Hardingenin seçilmə

səbəblərindən biri "həqiqətən prezidentə" oxşamasıydı. İqtidara gəldikdən sonra o da, gözlənəni etdi və qaynaqlar haqqındakı müzakirələrdə mühafizəkar tərəflə islahatçı tərəf arasında uyum və tarazlıq saxlamağa çalışdı. Amma buna baxmayaraq, Daxili İşlər Naziri vəzifəsinə Nyu Mexico senatoru Albert B.Fallı təyin etməklə, bir növ özünü ələ vermiş, mühafizəkarların deyil, islahatçıların səfində olduğunu ortaya qoymuşdu. Falla gəlincə, uğurlu siyasətçi, eyni zamanda güclü bir təsərrüfatçı, bundan başqa, hüquqçu və mədənçiydi. Bir dərginin təqdim etdiyi kimi: "lider ruhlu, çox yontalanmamış, iki yumruğuyla birdən döyüşə hazır olan, qədim zamanlarda yaşayan Texaslı bir polis məmuruna - şərifə oxşayırdı." Rəvayətə görə, gənclik illərində sırf Zane Grey kimi yaxşı silah işlədir, atışlarını sürətli və dəqiq istifadə edərdi. Qara, geniş kənarlı panaması və atlara göstərdiyi marağıyla tipik bir Qərb kovboyu kimi idi. Fallı bu cür tanıyanlardan fərqli olaraq, mühafizəkarlar onu başqa cür, fərqli gözdə görürdülər. Dövrün öndə gələn mühafizəkar qanada mənsub olanlarından biri onu "araşdırmaçı mafiyası" kimi qiymətləndirmişdi. Bu zat Fallın Daxili İşlər Naziri olması xəbərini alanda bunları söyləmişdi: "Daxili İşlər Naziri olaraq bəlkə daha betər adam tapmaq mümkün ola bilərdi. Ancaq bu, o qədər də asan olmazdı."

Fallın islahatlarından biri donanmanın neft ehtiyatlarını Donanma Nazirliyindən alıb, Daxili İşlər Nazirliyinin tərkibinə verməsidir. İkinci mərhələdə isə, ehtiyatları özəl şirkətlərə kirayə vermək istəyirdi. Fallın fəaliyyət və icraatları diqqət çəkməyə başlamışdı. Yeri gəlmişkən, 1922-ci ilin baharında icarə müqaviləsinin imzalanmasından çox az əvvəl, günlərin bir günündə Standard Oil səlahiyyətlilərindən biri olan Valter Teagle, heç kimin





gözləmədiyi bir anda - Hardingin seçkiqabağı reklam kampaniyasını idarə edən və o günlərdə Amerika Birləşmiş Ştatları Nəqliyyat Komitəsinin sədri olan Albert Laskerin ofisində peyda oldu. Teagle, Laskerə bunları söylədi: "Aldığım məlumatlara görə, Daxili İşlər Nazirliyi Teapot Dome bölgəsini icarəyə vermək üçün müqavilə imzalamaq ərəfəsindədir. Bu da təxminən bütün sənaye sahələrində bilinir. Şəxsən mən Teapot Dome bölgəsi ilə maraqlanmıram. Bura Standard Oil Nyu Jersey şöbəsi üçün heç bir mənа ifadə etmir, ancaq inanıram ki, prezident bunu bilməlidir. Bu mövzuda burnuma çirkin qoxular gəlir."

Bir az tərəddüd içərisində olsa da, Lasker prezidentin yanına gedib, Teaglenin mesajını çatdırdı. Hardinge otağında dolaşmağa başlamış və demişdi: "Bu rəvayəti daha əvvəl də eşitmişdim. Ancaq əgər Albert Fall dürüst adam deyilsə, mən də Amerika Birləşmiş Ştatları üçün uyğun bir prezident deyiləm." Hər iki versiyanın da doğru olduğunu zaman göstərdi.

Nəticədə Fall, Teapot Domeni Harri Sinclairə icarəyə verdi. Bu müqavilə Sinclair baxımından, məmnuniyyətverici şərtlərdə bağlandı, çünki bu müqavilə ilə Sinclairə qarantiyalı bir bazar - Amerika Birləşmiş Ştatları boyda bir bazar - təmin olunmuş olurdu. Bundan başqa, Fall Eduard Dohenyyə də bundan daha geniş və zəngin bir ehtiyat olan Kaliforniya ehtiyatının Elk Hill bölgəsini icarəyə verdi. Həm Harri Sinclair, həm də Eduard Doheny Amerika neftçiləri arasında ən tanınmış şəxsiyyətlərdi. Hər ikisi də yaradıcı iş adamları idi və öz qabiliyyətlərindən istifadə edərək, köhnə Standard Oil xaric, ən böyük şirkətləri yaradan "iki yeni adamdı". Xalq bunlardan biri olan Dohenyyə əfsanəvi qəhrəman gözüylə baxırdı. İş həyatına ilk günlərdə mədənçi kimi başlamışdı.

Mədən ocağında quyuya düşüb, iki ayağı da qırılmışdı və yatağa yıxılıb xeyli xəstə yatmışdı; ancaq yataqda keçirdiyi günləri boş yerə verməyərək, hüquq kitabları oxumuş və özünü vəkil olmağa hazırlamışdı. Onun bıçaqla bir dağ aslanıyla döyüşdüyü də söylənən rəvayətlər arasındadır. 1920-ci illərdə artıq Doheny böyük bir sərvətə və Standard Oilun xırda şirkətlərinin hər birindən daha böyük xam neft istehsalçısı olan özünün şirkəti "Pan Amerikan"a qovuşmuşdu. Doheny iş həyatında hər iki partiyanın siyasətçilərinə nüfuz etməyə və onlarla dostluq qurmağa can atmış, bunu özünün əsas prinsipinə çevirmişdi.

Sinclair də eyni yolun yolçusu idi. Kansasda kiçik bir qəsəbə əczaçısının oğlu olan Sinclair özünü əczaçı olaraq yetişdirmişdi. Ancaq 20 yaşında olarkən, bir spekulyasiya nəticəsində ailə mülkü olan əczaxanası əldən getmişdi. Müflis oldu və əvvəlcə mədən təchizatı üçün lazım olan ağac materialları sataraq həyatını davam etdirdi. Daha sonra da Kansasın cənub-şərqində və Oklahomanın Osage bölgəsində kiçik miqyasda neft sahələrinin alqı-satqısına yönəldi. Sərmayədarların simpatiyasını qazandı və xırda miqyaslı neft şirkətləri yaradaraq, bunları icarəyə verməyə başladı. Çox üstün bir ticarət adamı və güclü, inandırma qabiliyyəti, özünə olan etibarı ilə heç kimsəyə və xüsusən də sərmayədarlara güzəştə getməyən bir adamdı. Məsləkdaşlarından birinin deyimi ilə "masanın baş tərəfi həmişə "onun oturduğu" yerdi." Əlində-ovcunda nəyi varsa, hamısını Oklahomadakı Glenn Poola yatırmış və nəticədə böyük bir sərvətə qovuşmuşdu. O günlərdə yeni kəşf edilən Oklahoma neft yataqlarına gedərək, neftin fışqırması və hələ boru kəmərlərinə bağlanmaması səbəbilə, üst-başı neftə bulaşmış halda barreli 10 sentdən, nə qədər neft tapdısa, satın aldı. Satın aldığı nefti polad tankerlərə





doldurub, boru kəmərlərinin tikintilərinin tamamlanmasını gözlədi və nəticədə neftin barrelini 1.20 dollardan satmağa nail oldu.

Birinci Dünya Müharibəsi başlayana qədər Sinclair bütün qitədə ən böyük müstəqil neft istehsalçısı olaraq qaldı. Ancaq satışını böyük, birləşmiş şirkətlərə etdiyi üçün istədiyi və arzuladığı hədəfə çata bilmirdi. Nəhayət, 50 milyon dollar sərmayə yatıraraq, 1916-cı ildə səssiz-səmirsiz öz birləşmiş neft şirkətini yaratdı. Şirkət qısa müddətdə ölkənin ən böyük 10 şirkətindən birinə çevrildi. Şirkət qısa zamanda mütləq söz sahibi olaraq ölkənin hər tərəfində yerləşən iş sahələrində mübarizə apararaq, hamıyla rəqabətə girəcək səviyyəyə gəldi. Günlər bir-birini təqib etdikcə, yeni-yeni xüsusiyyətlər qazanmış, istədiyi nə varsa ələ keçirmək üçün qarşısında heç bir əngəl tanımamağa başlamışdı. Bu dəfə istədiyi Teapot Dome bölgəsinin özü idi.

Daxili İşlər Nazirliyi 1922-ci ilin aprel ayında, ortada olan və gəzib dolaşan bütün söz-söhbətlərə baxmayaraq, Doheny və Sinclairlə bir müqavilə imzaladı. Mühafizəkarlardan birinin yaydığı rəvayətlərə görə, "Cənab Fall bəzi böyük şirkətlərlə qaranlıq əlaqələr içərisindəydi." Senator La Follette təhqiqata başladı və təhqiqat nəticəsində maraqlı şeylər ortaya çıxdı. Məlum oldu ki, neft ehtiyatlarının Donanma Nazirliyindən alınıb Daxili İşlər Nazirliyinin tərkibinə verilməsinin əleyhinə çıxan donanma mənsublarının bir çoxu uzaq və ucqar bölgələrdə yerləşən məntəqələrə sürgün edilərək uzaqlaşdırılmışlar. Bu həqiqət La Follettenin şübhələrini daha da artırdı. Ancaq bir il sonra - 1923-cü ilin martında Fall Daxili İşlər Naziri vəzifəsindən istefa verdi və bununla da onun haqqındakı bütün şübhələr öz təsdiqini tapmadı. Hər söylənən rəvayət,

elə rəvayət olaraq da qaldı. İstefa verdiyi zaman xalq içərisində hələ də tutarlı və ehtiramlı nüfuzu vardı. Ancaq bir tərəfdən də getdikcə halı şübhə oyandıran bir "xalq adamı"na oxşayırdı.

Hardinge hökuməti get-gedə bataqlığa batırdı. Hökumət müxtəlif skandallar və qanunsuz əməllərdə ittiham olunmağa başlamışdı. Birbaşa Hardingenin özü ittihamlara məruz qalır, şəxsi həyatı haqqındakı rəvayətlər ağızdan-ağıza dolaşırdı. Bu rəvayətlər qarşısında dərin kədərə qərq olan prezident, Kansas düzənliyində şəxsi avtomobili ilə gəzintiyə çıxarkən, "Düşmənlərimdən qorxmuram, onlarla hansı yollarlasa hesablaşa bilərəm. Əfsuslar olsun ki, mənə problem yaradanlar öz yaxın dostlarımdır" deyəcəkdi. Bu sözləri sərf etdikdən dərhal sonra da San Fransiskoda qəfildən öləcəkdi. Həkimin söylədiyinə görə, ölümün səbəbi "damar tıxanması", mətbuatın yazdıqlarına görə isə, "bir az dəhşət, bir az xəcalət və bir az da heyrətdən doğan bir xəstəlikdi!" Ölümündən sonra yerinə vitse-prezident Calvin Coolidge keçdi.

"Petrol" əsərinin ötən sayımızda yayınlanan 70-ci hissəsi yanlış olaraq "71" kimi göstərilib. Əslində ötən həftə 70-ci, bu həftə isə 71-ci hissənin tərcüməsi yayımlanır.

Bu arada Teapot Dome mövzusunu Senatdakı Dövlət Torpaqları Komissiyası müzakirəyə çıxarmış, təhqiqatlara başlamışdı. Ancaq ortada hələlik cinayəti sübut edən mütləq dəlillər yox idi və xalqın bir hissəsi bütün söylənənlərin ciddiyyətdən uzaq olduğu, bunların hamısının "bir bardaq suda yaradılan fırtınadan" başqa bir şey olmadığını söyləməyə başlamışdı. Bax, elə bu əsnada maraqlı bəzi söyləntilər ortalığı qarışdırdı. Teapot Domenin icarəyə verildiyi günlərdə Fallın Nyu Mexicodakı evində hərtərəfli və bahalı təmir işinə girişdiyi ortaya çıxdı. Bundan başqa,





cibliyindən çıxardığı yüz dollarlıq banknotlarla yaxınlıqdakı bir başqa evi də satın aldığı sübut olunmuşdu. Bu hadisələr bəzi sualların yaranmasına yol açdı. Necə olmuşdu ki, Fall birdən-birə bu qədər pulun içərisində üzməyə başlamışdı? Maliyyə vəziyyətindəki bu gözlənilməz dəyişiklik haqqında ondan soruşulduğunda və bu barədə ona təzyiq göstərildiyində Fall, Vaşinqton Postun redaktoru Ned Mc Leandan 100 min dollar borc pul götürdüyünü söylədi. Sinuzit xəstəliyindən səyahət edə bilməyəcək dərəcədə ağır vəziyyətdə olan Mc Leanla danışmaq üçün Palm Beachdakı evinə gedildi. Mc Lean borc pul verdiyini qəbul edir, ancaq Fallın bu pulu bir neçə gün sonra, çeki pozulmamış halda geri qaytardığını bildirirdi. Bunu izləyən günlərdə daha da cansıxıcı rəvayətlər gəzib-dolaşmağa başladı. Sinclairin katibi verdiyi ifadədə, bir dəfə patronunun ona - əgər istəyərsə, Falla 25-30 min dollar pul verməsini söylədiyini deyirdi. Yeri gəlmişkən, Fall bu pulu istəmişdi. İşlərin bu cür istiqamət götürməsindən Sinclair bilavasitə narahat olmuş, jurnalistlərdən qaçmaq üçün əvvəlcədən xəbər vermədən, tələsik Parisdən Versala getmişdi.

Əsil bomba isə daha sonra partlayacaqdı. 1924-cü il yanvar ayının 24-də Eduard Doheny Senata verdiyi ifadədə Falla 1000 dollar pul verdiyini, bu pulu birbaşa onun oğlunun nəğd halda "kiçik, qara bir çantanın içində" Fallın ofisinə apardığını söylədi. Doheny bu pulun heç bir halda rüşvət olmadığını, keçmiş bir dosta verilən borc pul olduğunu israrla vurğulayırdı. İllər əvvəl ikisi bir yerdə qızıl axtarmağa başlamış, silahdaş və yoldaş olmuşdular. Bu arada Doheny Senata Fall tərəfindən imzalandığını iddia etdiyi köhnə və yırtıq, eyni zamanda imza hissəsi natamam olan bir qeyd də təqdim etdi. "Doheny" imzası

olan hissənin həyat yoldaşı tərəfindən qəsdən silinib gizləndiyini, bunun Dohenynin öləcəyi təqdirdə, Fallı qeyri-bərabər şərtlərdə geri ödəməyə məcbur etməmək, narahat olmaqdan qurtarmaq üçün edildiyini söyləyirdi. Bu, yalnızca dostluqla düşüncəli olmağın qarışığı olan bir tədbirdi.

Fall isə ifadə verə bilməyəcək qədər xəstə olduğunu söylədi və bu, bəzi adamlara bir neçə il əvvəl baş verən başqa bir hadisəni xatırlatdı. Eyni Fall 1920-ci ildə Vodrov Vilsonun vəziyyətini müəyyənləşdirmək üçün Ağ Evə yollanan iki senatordan biriydi. Ağ Evə Vilsonun həqiqətən bir böhranlı vəziyyətdənmi narahat olduğunu, yoxsa söyləndiyi kimi ağlınımı itirdiyini təhqiq etmək üçün gedilmişdi. Elə 1920-ci ilin o xatırlanan günündə Fall, Birləşmiş Ştatlar prezidentinə "Hörmətli prezident, biz hamımız sizin üçün dua edirik" demiş və Vilsondan zorla eşidilən bir səslə bu cavabı almışdı: "Hansı istiqamətə doğru, Senator?" Xalq indi də Fallın xəstə olub-olmadığının təhqiq olunmasını istəyirdi. Bu qəribə hekayədəki həqiqətlər ortaya çıxdıqca, insanların etibarları da sağa-sola sovrulub gedirdi. Bu vaxt təhqiqat komissiyası Vaşinqton Postun redaktoru Mc Lean ilə Vaşinqton DC-dən olan bəzi adamlar arasında - Palm Beach-Vaşinqton xətti üzrə bəzi teleqraf dəyiş-düyüşünün aparıldığını da öyrənmişdi. Senatın Komissiyası qarşısında ifadə verənlər arasında keçmişdə Oklahomada qatar soyğunçuluğu etmiş birisi belə vardı. Bu arada Harri Sinclair Senatın sorğusuna cavab vermədiyindən, məhkəməyə həqarət etmək maddəsi üzrə mühakimə olunurdu. Vəziyyətdən çıxmaq üçün Burn Detekdivlik Bürosuna müraciət edib jüri üzvlərinin etibarlılıqlarını şübhə altına almaq istədi və əsas kimi Anqlo-Sakson hüququnun ənənəvi qaydalarına





uyğun olmadıqlarını irəli sürdü. 1924-cü ilə gələndə The Nyu Republicin yazdığı kimi, artıq bütün Vaşinqton "boğazına qədər neftə batmışdı..." Qəzet müxbirləri başqa mövzuda yazmırdılar, bundan başqa şeydən bəhs etmirdilər. Otellərdə, küçələrdə, yemək masalarında danışılan tək mövzu neftdi. Konqres bütün o biri işləri buraxmış, yalnız bir işlə məşğul olmağa başlamışdı.

1924-cü ildə, prezident seçkilərinin yaxın olduğu günlərdə Calvin Coolidge seçkiləri udmağa və Ağ Evə əməllibaşlı yerləşməyə qərarlı və niyyətliydi. Onun o mərhələdəki əsas neft siyasəti - mövzudan mümkün qədər məsafəli dayanmaq və beləliklə, Teapot Dome skandalının izlərini unutdurmaqdı. Bu arada Coolidgenin yardımına və müdafiəsinə respublikaçı bir Konqres üzvü yetişəcək və Coolidgenin Teapot Dome ilə olan əlaqəsinin bir neft lampası işığının cazibəsinə qapılmış olmasından irəli gəldiyini söyləyəcəkdi. Demokratlar Teapot skandalından həqiqi bir seçki kozırı olaraq istifadə etmək istəyirdilər. Ancaq Calvin Coolidgenin siyasi gücünü xəfifə almaqda səhv edirdilər. Digər tərəfdən, özlərinin də bəzi ittihamlarla yara ala biləcəkləri ehtimalını görməzlikdən gəlirdilər. Çünki nə də olsa, Doheny Vodrov Vilson kabinetinin ən azı 4 keçmiş üzvünə əlverişli şərtlərlə yeni işlər təmin edən bir Demokratdı. Bundan başqa, Vodrov Vilsonun kürəkəni və 1924-cü il seçkilərində Demokratların ilk sıradakı namizədi Villiam Mc Adooya 150.000 dollar qanuni məsləhətçi maaşı ödəmişdi. Amma xalq bu maaş məsələsini öyrəndi və buna görə də Mc Adoo seçilmək şansını itirərək, yerini başqa bir demokrat olan Con W.Davisə verdi. Hadisələr inkişaf etdikcə, rəvayətlər, söyləntilər, şayiələr artırdı. Bu arada Dohenynin Teapot Dome təhqiqat komissiyasının sədri olan Demokrat Senatorla Montanada

bir yerdə çıxış etdiyi və neft haqqında ona bir "təklif" etdiyi də ortaya çıxmışdı.

Teapot Dome mövzusunda çıxarılan fırtına get-gedə şiddətlənərkən, Coolidge də boş dayanmır, hücumlarını artırırdı. Hardingenin kadrlarını işdən uzaqlaşdırır, işlərin düz getmədiyini əsas götürərək, xəbərdarlığı xəbərdarlıq dalınca bildirir, bu vurhavurda biri Demokrat Partiyasından, digəri Respublikaçılardan olan iki özəl prokuroru komandasına daxil edirdi. Seçki kampaniyası dövründə özünü skandaldan uzaq tutmağa diqqət edəcək və buna görə də 1924-cü il prezident seçkilərində "Silent Cal" (Susqun Coolidge) adıyla xatırlanacaqdı. Mövzuları və skandalları görməzlikdən gələrək, cavab-reaksiya verməmə strategiyası tətbiq edirdi. Və o günə qədər heç bir mövzuda bu dərəcə susqun olmamışdı. Bu strategiyasında Coolidge uğur qazanmışdı. Bəlkə qəribədir, amma həqiqətən də bütün kampaniya boyunca Teapot Dome skandalı bir daha gündəmə gəlməmişdi.

Ancaq skandal unudulmayacaq və 10 il müddətində həmişə yaddaşlarda qalacaqdı. 1928-ci ildə Sinclairin qanunsuz bir şirkət olan Continental Trading vasitəsilə Falla bir neçə yüz min dollar pul göndərdiyi ortalığa çıxdı. Bu, Fallın iki keçmiş dostuna göstərdiyi xidmətlər qarşılığında ən azı 490.000 dollar aldığının sübutu mənasına gəlirdi. Nəhayət, 1931-ci ildə artıq tükənən adam olan acgöz Fall həbs olundu. Bu şəxs vəzifə başındaykən korrupsiya ilə məşğul olduğuna görə, məhkəmə tərəfindən qərar verilib həbs olunan ilk kabinet üzvüydü. Sinclairə gəlincə, o, həm məhkəməyə, həm də Senata həqarətə görə, altı ay yarım həbs cəzasına məhkum oldu. Həbsxanaya gedərkən, yolu üzərindəki Sinclair Birləşmiş Neft Şirkətinə baş çəkib, davam edən İdarə Heyətinin





iclasına qatıldı. İdarə Heyətindəki o biri müdirlər onu qarşılayıb, rəsmi bir davranışla "etimad" göstərdilər. Doheny isə günahsız çıxmış, heç bir zaman həbs olunmamışdı. Ancaq Senatorlardan biri bunu qəbul etməyəcək, Dohenyni qəsd edərək, "Birləşmiş Ştatlarda bir milyon dollara həbs cəzası vermək mümkün olmur" deyəcəkdi.

## Polkovnik və qiymətli azadlıq sənədləri - bonolar

Təhqiqatın növbəti mərhələlərində qanunsuz şirkət Continental Tradingin əslində, bir mexanizm olduğu məlum olmuş və bu, skandalın daha da böyüyərək, geniş əks-səda oyandırmasına səbəb olmuşdu. Bu mexanizmdə, öndə gələn bir qrup neftçiyə, öz şirkətlərinin istehsal etdiyi neft satışı üzərindən "Qiymətli Azadlıq Sənədləri" adı altında bir haqq ödənirdi. Harri Sinclair bu haqqın bir hissəsini "suspayı" olaraq Falla ödəmiş, yəni ona bono vermişdi. Pulun bir hissəsini də Milli Respublikaçı Komitə almışdı. Ancaq ölkəni heyrətə salan polkovnik Robert Stevart haqqında öyrəndikləri idi. Xalq Amerikanın ən seçkin, ən uğurlu və ən güclü neftçilərindən sayılan İndiana Standardın sədri polkovnik Robert Stevartın Azadlıq Sənədindən haqq alanlardan biri olduğunu öyrənəndə, həqiqətən şok keçirmişdi.

Geniş sifətli, iri cüssəli biri olan Stevart, bir zamanlar Teddy Ruzveltin təşkilatçılığını etdiyi Rough Riders (Sərt Sürücülər) qrupuna qatılmışdı. Digər böyük neft şirkəti sahiblərinin əksinə, həyatında bir gün belə neft sahəsinə çıxmamış, bu yöndə bir çalışması olmamışdı. Standarda qatıldığı ilk günlər şirkətdə vəkil vəzifəsində işləmiş, hüquq sahəsindəki məlumatlarını şirkətin ən üst səviyyəsinə qaldırmaq arzusunda olmuşdu. Əslində bunda təəccüblənəcək

bir şey də yoxdu. Çünki dağılmadan əvvəl və sonra neft sənayesi həmişə bəzi bəzi meydan oxumalara məruz qalırdı. Sinclair də 1907-ci ildən bəri İndiana Standardın sözü edilən hər hadisəsində həmişə işin mərkəzində olmuşdu. Avtoritar, əmr verməyi sevən, mübarizə əzmiylə şirkətə savaşma gücü aşılayan və 1920-ci illərdə ölkənin bir nömrəli benzin bazarlayıcısı olmuşdu. Xalq arasında "Polkovnik Bob" deyə tanınan bu adam sadəcə neft sənayesinin deyil, bütün Amerikan iş həyatının ən hörmətli və heyranlıq duyulan liderlərindən olmuşdu. Onun qədər seçkin birinin Teapot Dome pisliyinə bulaşdığına inanmaq çox çətindi. Amma uzun illər davam edən istintaq nəticəsində özünün bu işə qarışdığını, Continental Trading və Qiymətli Azadlıq Sənədləri - Bonoları ilə olan əlaqəsini etiraf edərək, özünün də 760.000 dollarlıq hissə aldığını qəbul etdi.

Stevartın "Teapot Dome" adlanan ərəb saçına oxşar bataqlığa hər gün bir az daha batdığı günlərdə, İndiana Standardın ən böyük hissədarı olan və o günədək şirkət idarəsinə qarışmayan bir adam, Stevarta "ona istiqamətlənən tənqidlərdə, özünü müdafiə edib, təmizə çıxarmasını" xahiş etdi. Ancaq Stevart buna məhəl qoymadı. Nəhayət, 1928-ci ildə şirkətin bu ən böyük hissədarı Stevarta - özünü müdafiə etmək üçün bütün imkanları verdiyini, ancaq onun buna məhəl qoymadığını, bunun üçün də artıq şirkətdən getməli olduğunu söylədi. Sözü edilən hissədar "Junior" ləqəbiylə tanınan, Con D.Rokfellerin yeganə oğlu idi.

Con D.Rokfeller Jr. qısa boylu, ciddi xarakterli birisiydi. Atasına bir növ Tanrı kimi baxır, onun idarəetmədə mövzusundakı görüşlərini candan mənimsəyib, tətbiq edirdi. Hələ çox gənc bir tələbə kimi Brovn





Universitetində oxuyarkən, tələbə yoldaşları onu kiçik əl kağızlarının kənarlarını qatlayıb, üst-üstə yığarkən görmüş, çox heyrət etmişdilər. Ancaq daha maraqlı olanı Juniorun anası tərəfindən "vəzifə" və "məsuliyyət" hissi ilə necə yetişdirildiyidir. Anası çox ciddi şəkildə ona bu iki anlayışın mənasını öyrətmişdi. Doğru və dürüst hərəkət etmək Juniorun prinsipiydi. Özü atasından müstəqil olaraq sistemli şəkildə hədiyyələr etmiş, ailə sərvətinin əhəmiyyətli bir hissəsini bu yolda xərcləmişdir. Təbii ki, bütün bunlardan sonra ailəyə yenə də böyük bir sərvət qalırdı. Məşğul olduğu digər işlərdən biri də müxtəlif vətəndaşlıq işləri və sosial mövzulardı. Hətta bir dəfə, fahişəlik mövzusunda Nyu York şəhərinin adından açılan və davam etdirilən bir istintaq işində məsuliyyət üstlənəcək qədər irəli getmişdi.

Gənc Rokfeller hətta atasının "xanım silahdaşı" deyə tanınan, "iftiraçı cəza məbədi" İda Tarbell ilə belə dialoqa girmişdi. 1919-cu ildə, bir konqresdə qarşılaşdığı bu qadına son dərəcə mədəni və tərbiyəli münasibət göstərmiş, haradasa bir centlmen kimi hərəkət etmişdi. Aradan bir neçə il keçdikdən sonra atası haqqında bir kitab yazmağı planlaşdırdığını, bu kitabda özünün atası ilə etdiyi söhbətləri əsas götürmək istədiyini söyləyərək, İda Tarbelldən, silsilə halındakı bu söhbətləri nəzərdən keçirməyi xahiş etdi. Hətta işini asanlaşdırmaq üçün lazım olan materialı Tarbellin Manhattan Gramercy Parkdakı evinə bilavasitə özü apardı. Yazıçı bu sənədləri diqqətlə nəzərdən keçirdikdən sonra ata Rokfellerin söhbətlərində tərəfli hərəkət etdiyini, ona qarşı irəli sürülən bütün ittihamları rədd etdiyini söylədi. "Junior" onun bu fikirlərinə inanmış kimi görünürdü. Bir məsləkdaşına yazdığı bir məktubda bu sözlərə yer verir: "Xanım Tarbell bioqrafiya qeydlərini

son günlərdə təkrar oxudu. Şübhəsiz ki, onun görüşləri daha qiymətlidir. Belə çıxır ki, bu kitabı bu günkü natamam şəkliylə və nataraz halıyla hələlik nəşr etdirməməyimiz daha yaxşı olacaq."

Aradan 4 il keçdi. 1924-cü ildə gənc Rokfeller, ona çox təsir edən və hərəkətə keçməsinə səbəb olan bir hadisəylə qarşılaşdı. Bu, İndiana Standard Şirkətinin korrupsiya iddialarına qarışmış olması hadisəsiydi. Ötən illərdə İda Tarbell keçmiş tröstlərdəki korrupsiya iddialarına görə, necə sarsılıb hərəkətə keçmişdisə, bu dəfə də "Junior" eynən Tarbell kimi, hətta ondan daha çox sarsılıb hərəkətə keçmişdi. O, insanpərvərliyi özünə peşə seçmişdi və əsla bir neftçi deyildi. O dərəcədə ki, Standard Oildan çıxan bütün kiçik şirkətlərin işlərinə qarışmamağı, problemlərindən uzaq durmağı məqbul hesab etmişdi. Ölkədəki bir çox adam üçün atası hələ də keçmişdə yaşayan "pis xarakterli" imicini daşıyırdı. İndi isə səhnəyə oğlu çıxırdı. Amma tamamən fərqli bir görünümdə, fərqli geyimlər içərisində və bir reformist olaraq. Bu islahat işığını İndiana Standardın ürəyinə qədər aparmağa qərarlıydı. Polkovnik Stevart hadisəsində, Senatın Komissiyasına verdiyi ifadədə vacib olanın - şirkətin və sənayenin dürüstlüyü olduğunu söylədi. Baxmayaraq ki, Rokfeller, şirkətdə hissələrin yalnız 15 faizini əlində tuturdu. Stevart özxoşuna istefa verməyi rədd etdi. Buna görə də Rokfeller onu sıradan çıxarmaq üçün hücuma keçdi. Polkovnik bu hücuma qarşı amansızlıqla cavab verdi: "Əgər Rokfellerlər müharibə istəyirlərsə, mən onlara necə müharibə aparılacağını göstərərəm..." Nailiyyətlərlə dolu olan bir iş həyatı vardı. Liderlik etdiyi son 10 il içərisində şirkətin qazancı 4 dəfə artmışdı. İndi də xeyirli bir məqsəd uğrunda sərf etmək üçün ekstra bir pay və işin özündən hissə istəmişdi.





Bəzilərinə görə, bu olub-bitənlər Şərqlə Qərb arasında neft hakimliyi üçün aparılan amansız bir savaşdı. Başqaları isə savaşın, bütün neft sənayesinin nəzarətini qarantiya altına almaq üçün Rokfellerlər tərəfindən çıxarıldığına inanırdı. Ancaq Rokfellerlər pay mövzusunda elə də problem çıxarmır, pul yox, qələbə istəyirdilər. Bu səbəblə də yaxşı təşkilatlanıb, təsirli bir kampaniya apara bilmişdilər. Nəticədə, 1929-cu ilin martında onlar qazandılar və hissədar səslərinin 60 faizini aldılar. Artıq Stevart sıradan çıxarılmışdı.

Bu mübarizədə Con D.Rokfeller Jr. işə birbaşa özü müdaxilə etmiş və açıqca müşahidə olunduğu kimi, atasının qurduğu Standard Neft Tröstünün davamı olan kiçik şirkətlərin problemlərinin həllində aktiv rol oynamışdı. Bunu qazanc əldə etmək kimi bəsit məqsəd naminə etməmişdi. Neft sənayesinin etibarını xilas etmək, bu sənayeni hökumətdən və ya dövlətdən gələ biləcək yeni hücumlardan qorumaq və nəhayət, Rokfeller adının vüqarlı böyüklüyünü qarantiya altına almaq üçün etmişdi. Bu hərəkətlərinə görə də bir xeyli tənqid olunmuşdu. Əsəbi bir Stevart tərəfdarı Rokfellerə yazdığı məktubda demişdi: "Əgər Standard Oil Şirkətinin ilk günlərinə aid olan atanızın performans qeydlərinə baxsanız, səhifələrin qara ləkələrlə dolu olduğunu, bunların Polkovnik Stevarta yönəltdiyiniz ittihamlardan 10 dəfə daha pis olduğunu görəcəksiniz. Dünya üzərində qoca Rokfellerin 50 il əvvəl işlədiyi günahları təmizləyəcək kifayət qədər sabun olmadığını hesab edirəm. Məncə başqalarının və özündən daha yaxşı olanların xarakterini ləkələməyə, ancaq əlləri təmiz olan insanlar cəsarət etməlidir."

Bir universitet professoru isə ayrı görüşdəydi. Yazılı olaraq bildirdiyi fikirlərinə görə, "xalqın mütləq dürüst iş

görmək mövzusunda maarifləndirilməci lazımdı və indi buna ən yaxşı şəkildə nail olunmuşdu. Görülən bu iş nə bir universitet vəqfinin, nə də bir araşdırmanın verdiyi dəstəklə başa çatdırıla bilərdi." Artıq Amerikan kapitalizmi və neft sənayesi keçmişdə olduğu kimi acgöz deyildi. Bundan sonra bir neçə talançının sərvəti yox, sənayenin gələcəyi nəzərə alınmalıydı və neft sənayesi cəmiyyətdə ehtiramlı bir yer əldə etməliydi. Yenə də bunu söyləmək yerinə düşər: Gənc Rokfellerin əlləri nə qədər təmiz qalsa da, Teapot Dome skandalının oyunçuları Fall və Dohenydən Sinclair və Stevarta qədər bir çoxları neft sənayesində mənfi imic qazanmışdılar. Bu baxımdan, onların - cəmiyyətdə keçmiş Standard Oil Tröstünün buraxdığı nöqtədən işə davam etdikləri qənaəti yerləşmişdi.

## Geofizik və bəxt

Avtomobil dövrünün başlanğıcında Amerikada "yeni yanacaq" ehtiyatının bitməkdə olduğuna inanan həddindən çox adam vardı. 1917-1920-ci illərdə kəşf olunan neft yataqları, ümumən yetərli deyildi və bu da xəyal qırıqlığına səbəb olurdu. Dövrün öndə gələn geoloqları Amerikada neft istehsalının tükənmə həddinə gəldiyini üzüntü içərisində ifadə edirdilər. Birinci Dünya Müharibəsinin axırlarında neft istehsalında edilən məcburi qənaət, ortaya bir də neftayırma problemini çıxarmışdı və bu sahədə də qıtlığın baş verə biləcəyi ehtimalı yaranmışdı. Neftayırma zavodlarından bəziləri xam neftin az olması səbəbilə tam güclərinin ancaq 50 faizini işləyə bilirdilər və ölkənin müxtəlif yerlərindəki yerli pərakəndəçilər də həmişə qazyağı və benzin sıxıntısı çəkirdilər. Həqiqətən də, neft





sıxıntısı sənayedə ən əsas mövzu olmuş, Standard Oil Nyu Jersey şöbəsindən Valter Teagle, bir dəfə problemə toxunarkən, xam neft ehtiyatları üzərindəki bədbinliyin neftçilikdə xroniki bir xəstəlik halına gəldiyinə diqqət çəkmişdi.

Ancaq təkərlər artıq fırlanmağa başlamışdı. Çılğın bir təşəbbüs burulğanı içərisində yeni neft yataqları axtarılır, qıtlıq gözləntisi içində olan xalq, bu qorxuyla qeyrətə gəlir, bundan başqa, qiymətlərin getdikcə artması bu təşəbbüsləri daha da qızışdırırdı. Xam neftdə baş verən qıtlıq nəticəsində neftayırmaçılar 1920-ci ilə qədər barreli 1.20 dollar olan Oklahoma xam neftini 3.30 dollara qədər qaldırmışdılar. Bu arada qazılan quyu sayısı rekord səviyyəyə çıxmışdı.

Neft axtarma texnologiyasında da dəyişiklik və inkişaf baş vermişdi. 1920-ci ilə qədər neft sənayesində tətbiq olunan geologiya "səthi geologiya" mahiyyəti daşıyırdı. Gələcəyə aid təxmin xəritələri və neft axtarışları müəyyən ərazi əsasına dayanaraq həyata keçirilirdi. 1920-ci ildə səthi geologiyadan istifadə etmək bir yana buraxılır, neft tapılan yerlərin müəyyən olunmasında daha elmi kəşflərə inanılırdı. Artıq neft axtarışında olanların, yerin altındakı maddələrin neft tərkibli olub-olmadığını təxmin etmələri üçün yerin altını "görə bilmələri" mütləq lazım idi və bunun üçün bir yol tapmaq artıq şərt olmuşdu. Bax, bu "görə bilmə" imkanını gedərək, inkişaf etməkdə olan geofizika elmi təmin etmişdi.

Birinci Dünya Müharibəsində tətbiq olunan texnoloji geofizika yeniliklərinin əksəriyyəti neft sahəsində də istifadə olunmuşdu. Bunlardan biri "Burmalı Tərəzi" alətidir. Bu alət torpağın səthində müəyyən nöqtələrdəki cazibə dəyişikliklərini ölçər və bu surətlə yer altındakı

maddələrin nələr olduğu haqqında müfəssəl məlumat verirdi. Müharibədən əvvəl bir macar fizikinin kəşf etdiyi bu alətdən ilk dəfə Birinci Dünya Müharibəsində almanlar Rumıniya neft yataqlarının yenidən istehsala başlamasında istifadə etmişdilər. Yeni kəşflərdən bir başqası da, dünyanın maqnit sahəsində yer alan bölgələrindəki düzxətli birləşmələrin dəyişmələrini ölçən maqnit aləti idi. Bu alət yer altında hansı maddələrin olduğu haqında sağlam məlumatlar verirdi.

Bunlar arasında sonradan ən güclü neft axtarma silahı olduğu sübut olunan alət isə seysmoqrafdır. Seysmoqraf ilk dəfə XIX-cu əsrin ortalarında zəlzələləri qeyd və analiz etmədə istifadə olunmuşdu. Birinci Dünya Müharibəsində seysmoqrafı almanlar gündəmə gətirdilər və düşmən topçu qüvvələrinin yerini müəyyənləşdirmədə istifadə etdilər. Daha sonra alət Şərqi Avropada neft sənayesində tətbiq olundu. Qırılma seysmologiyası isə Birləşmiş Ştatlarda ilk dəfə 1923-1924-cü illərdə bir alman şirkəti tərəfindən tanıdılmışdı. Bu metodlardan istifadə edilərək, əvvəlcə dinamitlər partladılırdı. Partlama nəticəsində ortaya çıxan enerji dalğaları yeraltı maddələrin arasından keçərək, qırıldıqdan sonra "geofon" adlanan dinləyici qulaqlıqları tərəfindən yer üstündəki stansiyalarda dinlənilirdi. Beləliklə, qırılma seysmologiyası böyük ehtimalla neftin mövcud olduğu yeraltı duz dağlarının müəyyən olunmasında faydalı olmuşdu. Təxminən qırılma texnologiyası ilə eyni günlərdə tanıdılan və çox keçmədən onun tamamlayıcısı olan "əks-səda seysmologiyası", yer altındakı qayalardan axıb gələn dalğaları qeyd edən metoddur. Bu metod hər cür yeraltı maddələrin forma və dərinliklərinin müəyyən olunmasını təmin edər. Beləcə, yerüstü tapıntılar nə olursa olsun, neft axtarmada yeni və qosqocaman bir





dünyanın qapıları açılmışdı. 1920-ci illərdə böyük neft yataqlarının çoxu hələ də səthi geoloji metodlarla axtarılıb tapılsa da, geofizik metodlar hər gün bir az daha önəm qazanmaqda və hətta ənənəvi metodlarla aparılan neft axtarışlarında belə tətbiq olunmağa başlamışdı. Artıq neftçilər demək olar ki, yerin altını "görə" bilirdilər, onun çarəsini tapmışdılar.

Yerin altını görəbilmə metodlarına əlavə olaraq, yerin üstünü görə bilmədə də bir xeyli yeniliklər icad olunmuşdu. Böyük Savaş müddətində Avropadakı müharibə aparan tərəflər, hərbi qüvvələrin yerini müəyyənləşdirmək üçün havadan nəzarət metodlarından istifadə edirdilər. Bu metod sürətlə neft sənayesində də sınaqdan çıxarılmış, beləcə, geniş yerüstü geoloji axtarışlar etmək mümkün olmuşdu. Bu metod mütləq havadan tətbiq olunurdu və yerdə olan heç kim heç bir şəkildə bu metodun tətbiqinə müdaxilə edə bilməzdi. Hələ 1919-cu ildə Union Neft Şirkəti, Amerika Kəşflər Komitəsində işləmək və Kaliforniya ərazisinin fotolarını çəkmək üçün, daha əvvəllər Fransada hava sahəsində çalışan iki təcrübəli leytenantı öz komandasına daxil etdi. Yeni kəşflər arasında bir yenilik də "mikropaleontologiya" adlanan mikroskopik tərkibləri analiz etmə metodu idi. Bu metodla fərqli səviyyələrdəki dərinliklərdən alınmış tərkiblərin analizini aparmaq mümkün olurdu. Bu texnika həm də yerin minlərlə feet dərinliyindəki təbəqələrin tipi və yaşı haqqında da bəzi dəyərli əlamətlər verirdi. Yeraltı və yerüstü texnoloji irəliləyişlərlə birlikdə, neftçıxarma texnologiyasının özündə də əhəmiyyətli bəzi inkişaflar nəzərə çarpırdı. Texnika qazıntının daha sürətli, daha elmi, daha dərinlərdə aparılmasına imkan verdiyi üçün, daha geniş miqyaslı neft çıxarılmasına nail olunmuşdu. 1918-ci ildə

qazılan quyuların dərinliyi ən çox 6 min feet idi. Bu, 1930-cu ildə 10 min feetə çatmışdı. Bu da xatırlanmalıdır ki, bütün bu tətbiqatlarda əsas rolu başqa bir faktor oynayırdı. Heç bir zaman analiz edilə bilməyən, ancaq göründüyü qədər neftçilik işində hər zaman var olan bu faktorun əsl adı bəxtdir. 1920-ci illərdə bəxtin çox əhəmiyyətli rol oynadığı şübhəsizdir. Belə olmasaydı, bu 10 il içərisində bu qədər çox Amerikan neftinin çıxarıldığı gerçəyi necə izah oluna bilərdi?.

Bu texnoloji kəşflərin ən əhəmiyyətlilərindən biri də Los Ancelesin cənubunda, Long Beach bölgəsinin arxa tərəfində 365 feet yüksəkliyində yerləşən Signal Hill Təpəsində aparılmışdı. Bu təpənin ən ucqar nöqtəsindən bir dəfə yerli Qızıldərililərin Catalina Adasında yaşayan soydaşlarına işarə verdikləri rəvayət olunur. Sonrakı illərdə bu təpə daşınmaz əmlak sahiblərinin gözündə daha da qiymətə minəcəkdi. 1921-ci ilin iyun ayında buradakı ərazinin yerləşməyə məxsus kiçik ərazi parçaları şəklində bölünməsi əməliyyatında Shellə aid bir neft quyusunda - 1 saylı Alamitosda birdən-birə bir partlayış oldu. Bu partlayış və neft kəşfi ölkədə sanki bir fırtına, bir panika yaratdı. Daha əvvəldən ev tikmək istəyənlərə satılan ərazilər yenidən satışa çıxarıldı, neft şirkətləri və əmlakçılar yeni müqavilələr imzalamaq üçün ərazi sahiblərinin arxasınca düşdülər, qısaca olaraq Signal Hill Təpəsində pul su kimi xərclənməyə başladı. Torpaq parçaları o qədər kiçik, taxtadan düzəldilmiş nərdivanlar bir-birinə o dərəcədə yaxın idi ki, bu nərdivanların ayaqları bir-birinə ilişirdi. Neft quyusu qazmaq istəyənlər bu işə çox həvəsli olduqlarından, ərazi sahiblərinə - tapacaqları neftdən 50 faiz verməyi hələ qazıntıya başlamadan qəbul edirdilər. Villov Street səmtindəki qəbiristanlıqda ailə məzarları





olanlar məzarların altında aparılan qazıntılara icazə vermək şərtilə hissə çeki alırdılar. Neft çıxacağına tam inananlar hələ qazıntısı aparılmayan bir neft quyusunun altıda biri üzərindən 500 minlik bir hissə almaqla zəngin olacağına həqiqətən inanırdılar. Signal Hill vaxt keçdikcə o qədər şöhrət qazandı ki, bu torpaqları satın alanların bəziləri, qoyduqları sərmayələrin özündən belə xeyli miqdarda pul qazandılar.

Signal Hill Təpəsi Los Anceles və ətrafında edilən bir çox böyük kəşflərin sadəcə biri, amma ən dramatik olanıdır. Bu kəşflər 1923-cü ildə Kaliforniyanı ölkənin bir nömrəli istehsalçısı və dünyada çıxarılan bütün neftin dörddə birini istehsal edən əyalətə çevirmişdi. Vəziyyətin bu cür olmasına baxmayaraq, yenə də neftin yaxın zamanlarda bitəcəyi qorxusu vardı. Neft sənayesinə aid bir araşdırmanın aparıldığı 1923-cü ildə Federal Ticarət Komitəsi xəbərdarlıq edir, neftdə sürətli bir enişin olduğu haqqında məlumat verirdi. Ancaq qəribədir ki, eyni ildə - son 10 il içərisində ilk dəfə olaraq, Amerikan xam neft istehsalı ölkədaxili tələbatı aşmışdı.

## Nüfuzlu iş adamı

Harri Doherty neft dünyasında qəribəliklər simvolu olaraq tanınmışdı. Geniş çərçivəli qocaman eynəkləri və sivri keçi saqqalı ilə maddiyyatçı bir iş adamından çox, "professor" rolu oynamaq üçün səhnəyə çıxan aktyora oxşayırdı. Bunlara baxmayaraq, 1920-ci illərdə, içində Şəhərçilik Xidmətləri Şirkətinin də yer aldığı nəhəng bir şirkətlər qrupuna nəzarət edən böyük iş adamlarından biriydi. Dövrün yazarlarından biri Dohertyni Horatio

Algerin hekayələrindəki "Xəbərçi Ned"ə oxşatmış, onun Wall Streetdəki ən yaxın oxşarı olduğunu söyləmişdi. Bu bənzətmə həqiqətən də yerindəydi. Doherty iş həyatına 9 yaşındaykən, Ohio, Columbus küçələrində qəzet sataraq başlamışdı. 12 yaşında olarkən də məktəbi tərk etmişdi. Bir dəfə etiraf etmişdi ki, "məktəbə getdiyi 10 gün olmamışdı ki, məktəbə - şeytana nifrət etdiyindən daha çox nifrət etməyə başlamışdı." Ancaq çox işləməsi, qərarlılığı, sonradan gecə məktəbinə yazılıb, mühəndislik təhsili almasıyla, tam 150 şirkətin idarəçisi olmağa nail olmuşdu. Qaz və elektrik təchizatı satan və şəhərlərin bir çox bölgəsinə məişət xidməti göstərən "Şəhərçilik Xidmətləri Şirkətləri" imperiyasının tək hakimi idi. Günlərin bir günündə şirkətlərindən birinin Kansasda təbii qaz qazıntısı apararkən, neftə rast gəlməsiylə qısa zaman ərzində neftçi də olmuşdu. Bir az eksantik xarakterli idi. Ona görə də bol-bol nöqtələri olan yazılar yazar, uğur qazandığı yolu göstərən cümlələr işlədərdi: "Heç bir zaman əmr verməyin. Əmr yerinə direktiv verin... İşinizi elə yerinə yetirin ki, sanki oyun oynayırsınız..."

"Həyatda əldə edəcəyiniz ən böyük "hissə" xoşbəxtlikdir" kimi romantik sözlər yazmağı sevərdi. Ən çox sevdiyi istirahət forması Nyu York şəhər trafiki içərisində maşın sürməkdi. Onun üçün təmiz hava bir coşğu, sağlamlıqsa bir ehtirasdı.

Çətin və səmərəli bir iş adamı olaraq, Doherty müxaliflərinə heç bir zaman bəhanə verməmişdi. Özünü neftçiliyin intellektual cinahında görən və bundan xoşlanan azad bir düşüncə adamıydı. Tipik bir filosof kimi fikirlərinin müdafiəsini edərkən, yapışqan və təcavüzkar olurdu. Qənaətinə görə, o günlər neftin istehsal forması yanlışdı və gələcək üçün təhlükə törədirdi. Bu səbəblə





istehsal üsulları mütləq dəyişməliydi. Xüsusən, bu mövzuda "qap-qaç doktrinası"ndan imtina olunmasını bezginlik gətirəcək dərəcədə inadcıl və israrlı şəkildə tələb edirdi.

"Qap-qaç doktrinası" yarandığı gündən bəri Qərbi Pensilvaniyada neft sənayesi əməliyyatlarında hakim olmuş, hətta məhkəmələr tərəfindən belə qəbul olunmuşdu. Bu doktrina köçəri ev heyvanlarıyla əlaqəli olan ingilis dövlət hüququna dayandırılmışdı. Öz ərazisindəki neftin, qonşusu tərəfindən zorla çəkilib aparıldığı səbəbilə məhkəməyə şikayət edən ərazi sahibinə hakimlər yeganə cavab verirdilər: "Sən də get, eynisini et." Bu doktrina səbəbindən Birləşmiş Ştatların hər tərəfindəki işlətməçilər nefti mümkün olduğu qədər sürətli, qonşusu gəlmədən çıxarmaq üçün həm öz torpaqları altından, həm də qonşusunun torpağının altından neft çıxarma yarışına girmişdilər. Bu doktrina istehsalçıların narazılıqlarını qızışdırmış və hər yeni yatağın kəşfindən sonra müşahidə olunan qiymət dalğalanmalarında qorxunc artımlara səbəb olmuşdu.

Doherty "qap-qaç doktrinası" səbəbindən, quyu sayında meydana çıxan böyük çoxalmanın və sürətli istehsal artımının, neft yatağının yeraltı təzyiqini həddindən artıq tükəndirdiyinə inanırdı. Onun qənaətincə, bu da mənfi nəticələrə səbəb olurdu. Qaz və ya su təzyiqi kifayət etmədiyi üçün, yer üstünə çıxmalı neftin çoxu yerin altındaca qalırdı. Yeri gəlmişkən, irəlidəki günlərdə neftin üzə çıxmasını, qabarmasını və ya çəkilməsini təmin edən faktorun bu təzyiq olduğu sübut olunacaqdı. Doherty neftin Birinci Dünya Müharibəsində nə dərəcədə rol oynadığını bilirdi və hər şeyin fərqindəydi. Buna görə də

bir başqa savaşda bu neftin Amerika üçün nə cür rol oynayacağını düşünür, bundan qorxurdu. Onun qənaətinə görə, gündəlik istehsal kifayət etmirdi və daha böyük neft ehtiyatları yaratmağa əngəl təşkil edirdi.

Nəhayət, Doherty bunun da yolunu tapdı. Neft bölgələri birləşdirilməliydi. Başqa bir deyişlə, tək-tək parçalar bir yerə toplanmalı və əldə edilən məhsul ərazi sahibləri arasında paylaşdırılmalıdır. Bu yolla neftin nəzarət altında və süratlə çıxarılması mümkün olacaqdı. Nəzarətli süratin həyata keçirilməsi isə, ən yaxşı halda çağdaş mühəndislik məlumatları ilə silahlanaraq edilməliydi. Doherty beləcə yeraltı təzyiqin qoruna biləcəyi görüşündəydi. Doherty və ondan sonra gələn bəziləri həmişə "qoruma" mövzusuna toxunmuşdular. Onların bu sözcükdən qəsd etdikləri "ən böyük istehsalı təmin edəcək, yer altında qapalı qalmayan və daha təsirli nəticə verəcək "bəzi ölçülü istehsal metodlarıdır."

Ancaq Dohertynin "qoruma" planı necə gerçəkləşəcəkdi? Bax, elə bu mövzuda da Doherty bir çıxış yolu tapacaq və neft dünyasındakıların əksəriyyətini heyrətə salacaqdı. Doherty bu işdə federal hökumətin liderlik etməsini, heç olmasa bu işi qəbul etməsini və təsdiq olunmasını təklif edirdi. Bundan başqa, təbii ki, ən üstün texnoloji metodlardan istifadə etmək üçün qanuni cəzalar tətbiq olunmalıydı.

1920-ci illərin böyük bir hissəsində Dohertynin görüşlərinə sadəcə kiçik bir neftçi azlığı qatılmış, amma Doherty, bu müddət içərisində böyük bir əksəriyyət tərəfindən qorxunc şəkildə tənqid olunmuş və istismar edilmişdir. Tənqid edənlərdən bəziləri Dohertynin irəli sürdüyü təklifləri World Almanac adlı sıradan bir müraciət kitabından götürdüyünü belə iddia etmişdilər. Neftçilər arasında Dohertynin istehsal texnologiyası dəyərləndirməsinə





bir çox adamlar qarşı çıxmış, işə federal hökuməti qarışdırmağın sənayeyə xəyanət olduğunu söyləmişdir. Daha böyük şirkətlər isə könüllü iş birliyi və öz-özlərini idarə etmə yoluyla istehsal mövzusuna bir az daha isti yanaşsalar da, ondan artığını edə bilməmişdilər. Müstəqil fəaliyyət göstərən neftçilərin əksəriyyəti "birləşdirilmiş yataqlar" və "nəzarətli istehsal" mövzularını, könüllü və ya könülsüz heç bir şəkildə qəbul etməmiş, güclü müqavimət göstərmişdilər. Onlar da öz hesablarına görə, qısa zaman ərzində zəngin olmaq istəyirdilər.

Ancaq Doherty savaşa davam edirdi. Mütəmadi olaraq toplantılar təşkil edir, müzakirələr keçirir, ucsuz-bucaqsız məktublar yazırdı. Digər neftçilərin qorxulu röyası olmuşdu. Fikirlərini zorla qəbul etdirmək üçün hər fürsətdən istifadə edirdi. Tam 3 dəfə Amerikan Neft Sənayesinə təkliflərini qəbul etdirəcək vəziyyətə gəlmiş, üçündə də nail ola bilməmiş, təklifləri rədd olunmuşdu. APİ, yəni Amerikan Neft Sənayesi toplantılarının birində fikirlərini təqdim etmək imkanı əlindən alınanda, Doherty özünə xüsusi bir salon kirayələmiş, fikirlərini bu yolla ictimaiyyətin diqqətinə çatdırmışdı. Bəziləri ona "bu çılğın adam" deyirdilər. Bunun qarşılığında o da neftçilərə - "üzərində geyim daşıyan bir barbar" deyirdi. Bütün bunların arasında, onun təkliflərinə maraq göstərən, onu dinləməyə hazır olan bir dostu vardı: Dövlət Başçısı Calvin Coolidge. 1924-cü ilin avqust ayında Doherty prezidentə uzun bir məktub yazdı və görüşlərini bu sözlərlə ifadə etdi: "Əgər yaxın gələcəkdə Amerikan milləti, qış yuxusundan oyanıb, neft istehsalı baxımından hamımızın iflasa uğradığımızı başa düşərsə və qoruma üsullarıyla istehsalı qorumaqda gec qaldığımızın fərqinə vararsa, heç şübhəm yoxdur ki, ittiham edəcəkləri adamlar neftçilərlə birlikdə, qoruma üsullarının tətbiq olunmasının vacib olduğu günlərdə bunu etməkdən

çəkinən dövlət adamları olacaqdır. Neftdə yaşanan qıtlıq, bizim hamımız baxımından sadəcə ciddi bir savaş hərcmərcliyi yox, başqalarının bizə savaş elan etməsi üçün də açıq bir dəvət olacaqdır."

Coolidge 1924-cü il seçkilərini qazanmış və Teapot Dome skandalını geridə qoymuşdu. Buna görə də artıq neft mövzusuyla məşğul ola bilərdi. Harri Dohertynin dediyi istiqamətdə, neft sənayesinin vəziyyətini araşdırmaq üçün Federal Neft Qoruma Komitəsini yaratdı. Dostu Dohertynin sözlərini təkrarlayan qənaət tərəfdarı prezident, vətəndaşlarına istehsalda zərərə yer verən üsulların Amerikan Dövlətləri üçün sənaye, hərbi və ümumi təhlükəsizlik baxımından təhlükə törətdiyini açıqlayacaqdı. Coolidge bir bəyanat daha səsləndirərək "bir millətin üstünlük səviyyəsi, onun sahib olduğu neft və neft məhsullarıyla müəyyən olunur" dedi.

Yeni yaradılan Federal Neft Qoruma Komitəsi neft məhsullarının fiziki xüsusiyyətləri üzərində daha irəli gedən araşdırmalar aparmağa yönəldi. Bu da Doherty üçün görüşlərini müdafiə etməkdə əlavə dəstək təmin elədi. Bir yandan Amerikan Neft Sənayesi "sənayedə israf" mövzusunun nəzərdən qaçırıla biləcəyini söyləyir, bir yandan da yeni yaradılan Qoruma Komitəsi bu mövzuda israr edərək, təbii qazın önəmli olduğunu və həqiqətən də nefti yuxarıya itələyən təzyiqi təmin etdiyi görüşünü müdafiə edirdi. Sistemsiz bir istehsal üsuluyla qazın itirilməsi, bu həyati əhəmiyyət daşıyan təzyiqin ziyana getməsi, dolayısı ilə böyük miqyasda neftin torpağın üstünə çıxmadan yer altına çəkilib getməsi deməkdi.

Araşdırmalar davam etdikcə, bu mövzuda bir az məlumatlı olan adamların hamısı yavaş-yavaş Dohertynin tərəfinə keçməyə başladılar. Bunların arasında Texasın ən böyük istehsalçı şirkətlərindən Jersey-Humblenin sahibi





olan Villiam Farish də vardı. O, 1925-ci ildə Dohertynin fikirlərini məsxərəyə qoyurdu, amma 1928-ci ildə bu fikirləri müdafiə edir, Dohertynin "daha yaxşı istehsal üsullarını" vaxtında dərk etməklə sənayeyə yardımçı olduğunu söyləyərək, ona təşəkkür edirdi. Vaxt ötdükcə Farish "yataqları birləşdirərək işlətmək" görüşünün alovlu müdafiəçisi olmuşdu. Onilliyin ikinci yarısında şərtlərdəki dəyişikliklərə uyğunlaşaraq, diqqətin aşağı qiymətli istehsala yönəldilməsini müdafiə etməyə başladı. Bunu gerçəkləşdirməyin ən yaxşı yollarından biri də istehsal yataqlarının birləşdirilməsiydi. Onun görüşlərinə görə, birləşmiş istehsalla daha kiçik quyulara ehtiyac duyulacaq, beləliklə, təbii yeraltı təzyiqlərdən daha çox istifadə olunacaqdı.

Texniki baxımdan Doherty neftin necə üzə çıxdığını, sürətli istehsalın ehtiyatları necə zədələdiyini soydaşlarından daha yaxşı başa düşmüşdü. Ancaq yeni neft yataqları kəşf etmək ehtimalına dırnaqarası baxmış və diqqətə almamışdı. 1924-cü ildə Coolidgeyə yazdığı bir məktubda yaxınlarda böyük bir neft sıxıntısı yaşanacağı haqqında israr etmişdir. Digər neftçilərsə Amerikan neftinin gələcəyini bu cür qaranlıq xəttlərlə dəyərləndirən Dohertyyə qarşı çıxdılar. Sənayeyə hökumətin də qarışması görüşünün ən alovlu müxaliflərindən, Sun Oil Şirkətinin rəhbəri J.Hovard Pev, 1925-ci ildə yarızarafatla neft ehtiyatlarının tükənməsindən əvvəl, torpaqdakı nitratların itməsi, ağac ehtiyatlarının azalması və dünyadakı bütün çayların tərs istiqamətdə axması gərəkdiyini söyləyəcəkdi. Pev həm də bu sözləri əlavə edirdi: "Atam neft sənayesinin liderlərindən biriydi. Kiçik uşaq olduğum günlərdən bəri periodik olaraq, neft qıtlığından bəhs edilərək, hər zaman narahatçılıqlar yaradıldı. Bunu bilirəm və uzun illər boyu bu tip hadisələrin şahid oldum. Hər dəfə də növbəti ildə istehsal əvvəlki illərə nisbətən daha çox oldu."

## Dəniz qabarmağa başlayır

Bu mövzuda təxmin edənlər içərisində - Pev, Dohertyyə nisbətən daha doğru proqnozlar verirdi. O, 1926-cı ilin yazında Oklahoma əyalətinin Böyük Seminole adlı neft yatağının kəşfinə şahid olmuşdu. Bu hadisədən sonra baş verən çılğınlıq dolu günlərdə neft yataqları dünyanın o günə qədər heç görmədiyi sürətlə inkişaf etməyə başladı. İnsanlar canlarını dişlərinə sıxıb, neft quyusu açmaq üçün rəqabət edirdilər. Hər tərəfdə böyük bir laqeydlik və israf baş alıb gedir, "qap-qaç doktrinası"ndan bir daha istifadə olunurdu. Neftdən törəyən qəsəbələrdə keçmişdən bəri yaşanan ənənəvi qarmaqarışıqlıqlar yenidən xortlamış, küçə və prospektlər alətlərlə, fəhlələrlə, qumarbazlarla, səyyar satıcılar və sərxoşlarla dolmuşdu. Tez-tələsik tikilmiş gecəqondu tipli evlər yağışdan sonrakı göbələklər kimi artıb çoxalmış, qaz qaçaqmalçılarının ətrafa yaydıqları iy-qoxu, eyni zamanda quyu və yataqlardan gələn neft qoxusu hər yanı bürümüşdü. Yeni yataqlar tapıldığı üçün qiymətlər aşağı düşmüşdü. Amma buna baxmayaraq, bu bir tək yataqdan 30 iyul 1927-ci ildəki böyük kəşfdən sadəcə 16 ay sonra, gündə 527.000 barrel neft fışqırırdı. Zamanla bu böyük kəşfin ardınca Oklahomadakı daha başqa böyük kəşflər gələcəkdi. Texas Oklahomayla yarışırdı və haradasa eyni səviyyəyə gəlmişdi. 1920-ci illərin axırlarında olunan bir sıra böyük kəşflərlə Qərbi Texas və Nyu Mexiconun geniş, günəşdən yanıb qovrulmuş, tozlu və bu ucqar bölgəsi Permian Basin, dünyanın ən zəngin neft bölgəsinə çevrilirdi.

Dənizləri bir daha, təkrar dalğalandıran başqa bir faktor da ortaya çıxmışdı. Texnologiya sadəcə daha çox





istehsalı həyata keçirməyə yaramırdı, eyni zamanda da istehlak ehtiyaclarına təsir göstərirdi. Molekulları dəyişdirmə yoluyla benzinin miqdarını artıran "qırma" texnikasının kütləviləşməsi, xam neftə olan tələbatı azaldırdı. Bir barrel işlənmiş neft, iki barrel işlənməmiş neft qədər benzin verirdi. Nəticədə ortaya çıxdı ki, işlənmiş neftin verdiyi benzin daha üstün keyfiyyətlidir. Bu səbəblə də işlənmiş neft işlənməmiş neftdən daha üstün tutulmağa başlandı. Beləliklə, benzinə olan tələbatın artmasına baxmayaraq, xam neftə olan tələbat eyni nisbətdə artmamış, sadəcə xam neft ehtiyatlarının artmasına yaramışdır.

Bu 10 illik dönəmin sonunda 1920-ci illərin qaranlıq proqnozları bir daha gerilərdə qalırdı. Çünki heç bitməyəcəkmiş kimi görünən bir neft seli ortalığı qarışdırmışdı. Amerikan istehlakçıları istehsal olunan neftin hamısını almaq imkanında deyildi. Ona görə də durub-dayanmadan torpaqdan fışqıran nefti, ölkənin hər tərəfinə daşıyaraq, oralarda hazırlanan nəhəng neft çənlərinə doldururdular. Bunlara baxmayaraq, yenə də neftçilər daha çox, daha çox neft istəyirdilər. Əlbəttə ki, bunun zədələyici təsirləri də olmamış deyildi. Çox və sürətli istehsal neft ehtiyatlarını sıradan çıxarır, qaynağın pozulmasıyla nəticələnirdi. Xam neftdəki ifrat istehsal, bazarı və sağlam planlaşdırmanı büsbütün alt-üst edir, gözlənilməz qiymət dalğalanmalarına səbəb olurdu.

Yenə də qəribədir ki, kəşflər bir-birini təqib etdi və misli-bərabəri olmayan bir qarmaqarışıqlığın hökm sürdüyü şəraitdə neft dünyası yavaş-yavaş Harri Dohertynin neft yoxluğuna çarə olaraq göstərdiyi təklifə - yəni qoruma və istehsalın nəzarətinə - yönəlməyə başladı. Bu, ani bir qıtlığa əngəl olmaq istəyindən deyil, həddindən artıq və sürətli istehsalın qiymət tənzimlənməsini də şiddətlə sarsıdan dağıdıcı təsirlərindən xilas olmaq üçün lazım idi.

Ancaq istehsala kim nəzarət edəcəkdi? Bu, könüllü olaraqmı, yoxsa hökumətin təzyiqləri altındamı ediləcəkdi? Federal hökumət tərəfindən, yoxsa əyalətlər tərəfindənmi ediləcəkdi? Ortada cavabını gözləyən bir çox suallar vardı. Şirkətlərin hər biri öz aralarında açıq diskussiyalar təşkil edib, bu məsələlər ətrafında müzakirə aparırdılar. Jersey Standard bu mövzuda iki görüşə sahib olan iki qrupa ayrılmışdı: Könüllü nəzarət tərəfdarı Teagle qrupu ilə Humblenin - hökumətin işə müdaxilə etməsinin tərəfdarı olan Farish qrupu. 1927-ci ildə Farish Teagleyə yazdığı məktubda görüşlərini bu sözlərlə müdafiə edirdi: "Neft sənayesi özünə yardım edə bilmir, çox aciz vəziyyətdədir. Hökumətdən yardım almalıyıq. Bu gün özümüzün görə bilmədiyimiz işləri görə bilmək üçün hökumətin yardımına və icazəsinə ehtiyacımız var. Bəlkə də bu gün bizim qaz israfı kimi gördüyümüz bəzi işləri hökumətin qadağan etməsi daha doğru olacaqdır." Bu məktuba Teagle, neft sənayesi ilə məşğul olan bəzi praktik adamların - bu işlərin könüllü edilməsi üçün bir proqram hazırlanması təklifiylə cavab verdi. Farishin bu cavaba reaksiyası belə oldu: "Bu gün neftçilər arasında bu cür bir proqramı hazırlayacaq qabiliyyətdə və ya bilgidə heç kim yoxdur. Nəticədə bu qənaətə gəldim: neft sənayesində - başqa heç bir sənayedə olmadığı qədər çox axmaq adam var."

Müstəqil istehsalçıların az bir qismi hökumət müdaxiləsinin hər formasına qarşıydılar. Bunlardan Tom Slick adlı bir istehsalçı, bir gün əsəbiləşmiş, qarşısındakı Oklahomadan olan istehsalçılara göy gurultusuna oxşayan bir səslə "mənə heç bir dövlət adamı öz işimi necə yerinə yetirəcəyimi söyləyə bilməz" deyə kükrəmişdi. APİ-nin çalışmalarından razı qalmayan kiçik istehsalçılar özlərinə aid olan bir təşkilat qurdular. "Amerika Müstəqil





Neft Dərnəyi" adlı bu dərnəklə hökumətin başqa növ müdaxiləsini - idxal olunan neftə gömrük vergisi qoymağı tələb edən bir kampaniyaya girişdilər. Əsas məqsəd böyük şirkətlərin idxal etdikləri Venesuella neftini sıradan çıxarmaqdı. Müstəqillər 1930-cu il Smoot-Havley Qanununa neft üçün gömrük vergisi əlavə edilməsini istəsələr də, neftdən başqa təxminən hər şeyin gömrük vergisinin artırılmasına izin verən bu rəzil qanun parçası, neft üzərindəki gömrük vergisinin artırılmasına icazə vermədi. Şərq Sahili təmsilçiləri və Amerikan Avtomobil Dərnəyi kimi nüfuzlu qurumlar mazot və benzin qiymətlərinin daha çox yüksəlməsini istəmədiklərindən, gömrük tarifinə qarşı çıxmışdılar. Bundan başqa, müstəqil neftçilər də lazım olmayan və gərəksiz lobbiçilik etməklə, əvvəlcə təklifi dəstəkləyənlərin, sonradan fikirlərini dəyişdirmələrinə nail ola bilmişdilər. Onların Senatdakı dəstəkləyicilərindən birinin sözləri ilə "zəli kimi əl çəkmirdilər, dayanmadan teleqraf çəkir, məktub göndərirdilər." Bu arada "istehsala nəzarət" problemi hələ də öz həllini tapmadan qalır, davamlı olaraq açıq müzakirələrə səhnə olur, bir tərəfdən də dəniz coşur, neft dalğası gedərək yüksəlirdi.

### Doğulmaqda olan rəqabət

Neft sənayesi Qərbi Pensilvaniya təpələrində doğulduğu ilk günlərdən başlayaraq, hər zaman üçün tələb və təklif mövzusunda xroniki natarazlıqlarla qarşılaşmışdır. Bunlara qarşı reaksiyasını bütünləşmə və inteqrasiyaya olan həvəsi və təmayülü ilə göstərmiş, neftə olan təklifi qarantiya altına almada, bazarlara sızmada, qiymətləri sabit saxlayıb, qazancı qoruma və genişlətmədə hər zaman

bu yolu seçmişdir. Neft sənayesində birləşmə və bütünləşmə rəqibləri və digər şirkətləri məhv etmək mənasına gəlirdi. İnteqrasiya isə sənayenin bəzi bölümlərini və ya hamısını yuxarıdan aşağıya - quyu başındakı araşdırma və istehsaldan, neftayırma işləri və pərakəndə satışlara qədər - boyunduruq altına almaq deməkdi. Möhtəşəm Standard Oil Tröstü bu inteqrasiyanı hər iki baxımdan da uğurla tətbiq etmiş, amma bir şey var ki, nəticədə Ali Məhkəmənin hücumuna məruz qalaraq, əriyib getmişdi. Ancaq indi, 1920-ci ilin dayanıqsız və qeyri-sabit təklif və tələb atmosferində Standard Oildan ayrılan şirkətlər və digər şirkətlər arasında bir vaxtlar var olan bəzi strategiyalar bir daha ortaya çıxır, bu şirkətləri bir-birinə qarşı çətin rəqibə çevirirdi. İndi rəqabət meydanında yeni bir mərhələ də törəmişdi. Neft şirkətləri bazarlama işləri ilə məşğul olur və ilk dəfə birbaşa avtomobil sürücülərinə pərakəndə avtomobil yanacağı satırdılar. Bu satışlar şirkətin adını daşıyan və bütün Amerikaya yayılan benzin doldurma məntəqələrində gerçəkləşdirilirdi. Demək ki, artıq neft savaşları sadəcə əcnəbi torpaqlarda neft uğrunda və bazar qazanmaq üçün getmirdi. Bu mübarizə həm də Amerikanın qəlbində - ana prospektlərdə bazar qazanmaq uğrunda daha şiddətli formada davam edirdi. Beləliklə, bir tərəfdən istehlakçılara xoş görünmək yoluyla, o biri tərəfdən bütünləşmə və inteqrasiyaya olan təbii təmayülüylə, Amerikan neft sənayesi müasir və bilinən xəttdəki yerinə doğru istiqamət götürmüşdü.

Standardın 1911-ci ildə dağılışından sonra Standard Oil Nyu Jersey şöbəsi, içində özünə aid bir damla neft olmayan qosqoca bir neftayırma zavodu ilə baş-başa qalmışdı. Neftayırma zavodu neftsizlikdən o biri neftayırma zavodlarına möhtac olmuş, istehsalçıların və bazar yerlərinin





eqoist davranışlarına məruz qalmışdı. Valter Teagle Nyu Jersey Standardın sağlam olan neft qaynaqlarını genişləndirmək qərarındaydı və bunun üçün bir strategiya tətbiq edirdi. Bu məqsədlə həm ölkə daxilindən, həm də əcnəbi qaynaqlardan neft əldə etmək istəyirdi. Hələ 1919-cu ildə Nyu Jersey, Texasın öndə gələn istehsalçı Humble Oil şirkətinin böyük kapital sıxıntısında olmasından yararlanaraq, sahib olduğu neftin yarısından çoxunu satın alırdı. Humble Şirkəti Jerseydən aldığı pulu yaxşı dəyərləndirdi və 1921-ci ilə qədər Texasın ən böyük istehsalçısına çevrildi. Əlbəttə ki, bunda Teaglenin rolu böyükdü. Standard Oil İndiana Şirkəti isə, işə neftayırmaçı olaraq atılmasına baxmayaraq, sonradan hərəkətə keçib, təcavüzkarlığa meylləndi və öz xam neftini qarantiya altına almaq üçün həm Cənub Qərbdən, həm də Vyomingdən qaynaq əldə etmə yoluna getdi. Beləliklə, sərmayesini öz neftayırma sistemi içərisində qorumaq istədi. Bu şirkət Meksikadakı ən böyük Amerikan şirkətlərindən biri olan Pan Amerikandan da neft almışdı. Aradan zaman keçdi və böyük xam neft istehsalçıları özlərinə neft tapa bilməyərək, təpəsi aşağı getməyə başladılar. Ohio Neft Şirkəti deyə tanınan, daha sonra adı Marathon olan şirkət, - 1911-ci il dağılmasından əvvəl Standard Oilun ən böyük istehsalçı şirkət olduğu halda, - indi ələ keçirmə yoluyla neftayırmaçılığa və bazarlamaçılığa istiqamətlənmiş və bunu tam zamanında etmişdi. Yeri gəlmişkən, 1926-1930-cu illər arasında şirkətin istehsalı iki dəfə artmışdı. Nəzarətinə götürdüyü digər torpaqlar arasında Texasın çox böyük Yates yataqlarının yarısı da vardı. Və əlbəttə ki, artıq bazara doğrudan da açılmaq istəyirdi.

Yeni doğulmaqda olan bu şirkətlərin biri də keçmişdə bərbər və bono (qiymətli kağız) satıcısı olan, neft

müqavilələri bağlamaqdan əməlli-başlı sərvət qazanan Frank Phillipsin şirkətidir. Bəlkə eyni zamanda həm də bankir olması səbəbilə sərmayədarların şübhələrini dağıda və beləliklə, Nyu York, Çikaqo və daha başqa böyük şəhərlərdə xeyli miqdarda pul qazana bilmişdi.

Neftin səbəb olduğu hay-küy və gurultudan bezmiş halda neft işini bir yana buraxıb, Amerikanın qərbində bir banklar zənciri qurmaq üzrəydi. Tam bu əsnada Birləşmiş Ştatların Birinci Dünya Müharibəsinə qatılmasıyla, neft qiymətləri birdən-birə kəllə-çarxa qalxmış, Frank Phillips də yenidən neft dünyasına qayıtmışdı. 1920-ci illərin ortalarına doğru o və qardaşı şirkətlərini ən böyük müstəqil şirkətlərdən birinə çevirmiş, onu Gulf və Texas Şirkətiylə eyni qrupa daxil etməyə nail olmuşdular.

1927-ci ilin noyabrında gedərək böyüməkdə olan neft artığını depolamaq üçün Phillips, Texas Panhandle bölgəsindəki ilk neftayırma müəssisəsini açacaq və yenə eyni ay içərisində Kansas, Vichitada ilk benzin doldurma məntəqəsini quracaqdı. Vichitada işlərin yaxşı getməsi üçün iş sahibləri hər müştəriyə 10 barrel pulsuz qaz təmin edən bir kupon verməyi planlaşdırmışdılar. Ancaq bunun üçün əvvəlcə Frank Phillipsdən icazə alınmalıydı. Patron bu təklifi məmnunluqla qarşılamış, "əlbəttə, bildiyiniz kimi edin, hər necə olsa da, qaz sudan daha ucuzdur, müştəriyə nə qədər istəsə verin" demişdi. Bu şirkət baş gicəlləndirici bir sürətlə neftayırmaçılığa və bazarlamaçılığa çevrildi. Xam neft istehsalçısı olaraq doğulduğu zamankı böyümə sürətindən daha böyük sürətlə inkişaf etdi. 1930-cu ilə gələndə - ilk benzin doldurma məntəqəsini açdıqdan sonrakı 3 il içərisində artıq Phillips 12 əyalətdə 6750 ədəd firmanı ya birbaşa inşa etdirmiş və ya öz adına keçirmişdi.

Bu arada şirkətlərarası rəqabət getdikcə sürətlənirdi.





Şirkətlərin hər biri digərindən geri qalmamaq üçün topdançılıq divarını dağıdıb, pərakəndəçi dünyasına qatılmaq və bu yolla öz qaz məntəqəsini və əlavə bazarlama müəssisələrini qurmaq istəyirdilər. Yeni xam maddə üçün lazım olan neftayırma zavodları artıq inşa edilmişdi. İndiki mərhələdə bazarlar açmaq və istehlakçılarla birbaşa ünsiyyət yaratmaq istəyirdilər. Bunlardan Gulf, 1926-1928-ci illər arası pərakəndəçi əməliyyatlarını sürətlə genişləndirmiş, orta şimal əyalətlərini ələ keçirmişdi. Firmalardan ən aqressiv olan ikisi - Texas Şirkəti və Shell - 1920-ci illərin axırlarında 48 əyalətin hər birində bazarlamaçılıq edəcək vəziyyətə gəlmişdi. Bu arada yeni törəyən rəqiblər keçmiş pərakəndəçilərin torpaqlarını işğal edir, onlar da "qazanc əldə etmə" vəziyyətlərini qorumaq üçün yeni bölgələrə yayılmaq məcburiyyətində qalırdılar.

Bu "işğallar" Ali Məhkəməyə vəzifəsini yerinə yetirmək imkanı vermirdi. Standard Oilun 1911-ci ildəki dağılmasından sonra, təxminən 10 il ölkədə bir növ kölgə tröst hakim olmuşdu. Tröstdən ayrılan müxtəlif şirkətlər bir müddət bağlanmış müqavilələr, şəxsi münasibətlər, vəfa duyğusu, ortaq maraqlar, eyni hissədara bağlı olmaq kimi səbəblərlə bir-birilərindən ayrıla bilməmişdilər. Bu şirkətlərin keçmişdəki bir-birilərinə olan bağlılıqları və Birinci Dünya Müharibəsindəki təqdirəlayiq şəkildə birlikdə çalışmaları xatırlanarsa, burada çox da heyrət ediləcək bir şey olmadığı görünür. Standardın dağılmasından sonra, ondan ayrılan neftayırma şirkətləri - Nyu Jersey, Nyu York Standard Oil, İndiana Standard Oil - müəyyən coğrafi bölgələrə yerləşdilər və 10 ildən artıq müddətdə bir-birilərinin sərhədlərinə olduqca hörmət göstərdilər.

Ancaq 1920-ci illərdə bir-birilərinin torpaqlarını işğal etməyə və işlərini pozmağa başladılar. Atlantic Refining

Şirkəti, Standardın həm Nyu Jersey, həm də Nyu Yorkdakı yerləşmiş bazarlarına əl atdı. 1924-cü ilin illik raportunda əsas olaraq da "bunu istəyərək deyil, özünü qorumaq üçün" etdiyini söylədi. Jersey Şirkətiylə o biri Şərq əsilli şirkətlər birlikdə hərəkət etməyə başladılar və Qərb kökənli bəzi şirkətlərlə əziyyətli və əks-sədası uzun müddət davam edən bir qiymət savaşına girdilər. Savaşdığı şirkətlərdən biri də İndiana Standard idi. Bu hadisə baş verəndə, İda Tarbelldən daha amansız bir tənqidçi mövzuya bu cür yanaşma sərgilədi: "Şübhəsiz ki, bu hadisə Standard Oil Şirkətinin öz içində xırdalanmaqda olduğunu göstərir. Sanki böyük parçalanmanın edə bilmədiyi şey indi baş verir. 30 ildən bəri, ilk dəfədir ki, ana şirkətin müəyyənləşdirdiyi neftin qiyməti, ölkənin qərbindəki gənc əqrəbaları tərəfindən rədd edilir. Belə bir hadisə indiyə qədər heç olmamışdı. Ana şirkətin bu günə qədərki fəaliyyətlərini başından bəri izləyən hər bir adamın buna inanması çox çətindir."

Standard Oil Qrupunu o dövrlər bir çox siyasətçi tənqid etsə də, 1920-ci illərin ortalarında "tam nəzarət" anlayışı artıq gedərək öz hökmünü itirirdi. Bunun yerinə törəyən şirkətlər özlərini böyük, tam birləşmiş şirkətlərə çevirir, "müstəqil" adlanan Texas və Gulf kimi şirkətlərlə birlikdə neft sənayesinə hakim olurdu. İndi artıq vahid bir əjdahanın yerinə, ortalıqda bir çox böyük şirkət görünürdü. Federal Ticarət Komissiyası 1927-ci ildə hazırladığı bir raportda "bir-birindən ayrılan Standard şirkətlərinin" 20 il əvvəl Standard Oilun neftayırma məhsulları üzərindəki 80 faizlik nəzarətinin qarşılığında, indi 45 faizə nəzarət etdiyini yazırdı. Artıq Standard Oildan törəyən şirkətlər arasındakı o ılıq hava yox olub getmişdi. Federal Ticarət Komissiyasının raportu həm də "bu şirkətlər arasında





xalqın yararına uyğun bir nəzarət-birliyi mövcud deyildir" deyərək, bu şirkətlərin qiymətləri davamlı olaraq sabit tutacaq halda olmadıqlarını da əlavə edirdi. Komissiya, raportda mövzunu bu şəkildə qiymətləndirmişdi: "Qiymətlər uzun zaman kəsikləri üçün, daha çox tələb və təklif şərtlərini nəzərə alaraq təsbit olunmuşdur... Böyük şirkətlərin, işlənmiş məhsulların qiymətlərini yüksəltmək və ya endirmək üçün aralarında hər hansı bir razılaşma, anlaşma və ya fəaliyyət mövcud deyildir."

## Bu Allahın cəzalarına bax!

Standard Oil Tröstünün çox sayda yeni və aqressiv şirkətlər halında parçalanması, oyundakı rəqabəti daha da qızışdırmışdı. Xam neft axtarışına, ya da benzin işlənməsi və bazarlamaçılığına əsaslanan bir çox yeni şirkətin səhnədə görünməsi də bu qığılcımı əlavə olaraq alovlandırırdı. Bu hadisələr inteqrasiyaya duyulan ehtiyacla bir araya gəldiyində, var olan güclü bütünləşmə axımını daha da qamçıladı. Sanki Rokfellerin şirkətlərində özünə qatma və birləşdirmə instinkti yenidən oyanmış, təkrar həyat qazanmışdı. Bu dəfə hər şey - artıq mümkün olmaması səbəbiylə - tam nəzarəti ələ keçirmək şəklində olmasa da, yarışma ovqatını qorumaq və inkişaf etdirmək istərcəsinə davam edirdi. Məsələn, Nyu York Standard, öndə gedən bir Kaliforniya istehsalçısı və neftayırmaçısını satın alıb, sonradan Vacuum Neft Şirkətiylə birləşdirmiş, nəticədə Socony-Vacuumu formalaşdırmış və Mobil şirkətini yaratmışdı. Kaliforniya Standard da öndə gedən başqa bir Kaliforniya istehsalçısını özünə qatmışdı.

Bu illərdə Shell aqressiv bir ələ keçirmə kampaniyası ilə sürətli bir böyümə nümayiş etdirmişdir. Ancaq amerikalı

sərmayədarları da öz sıralarına qoşaraq siyasət apardığı və 1916-cı ildə Deterdingin qoyduğu qaydaları təkrarladığı üçün bir elə əks-reaksiya ilə qarşılaşmırdı. Deterding o günlərdə bu mövzu ilə bağlı aşağıdakıları söyləmişdi: "Siyasi düşüncələr bir tərəfə, bir məmləkətdə yerli xalqın işə qarışmadığı bir iş yerinin yaxşı və səmərəli işlədiyini görmək insana əlbəttə, əzab-əziyyət verir. Bu, o iş yeri nə qədər yaxşı idarə olunursa olunsun və ya öz xalqının maraq və dəstəyini nə qədər cəlb edərsə etsin, insanın təbiətinə tərs düşər. Yerli xalqın şirkətin işlərindən kənarda saxlanılması, bu cür bir şirkətə qarşı qısqanclıq yaradır." Bir vaxtlar bunları söyləyən tacir ruhlu Deterding belə, Amerikada qızışan - yerli xalqı işlətməyə qatma yarışında indi geri qalmış sayılırdı. Onu əsəbiləşdirən və yerindən-yurdundan edən amerikalı sərmayə bankları idi. Shellin Amerikadakı şöbə sədrlərindən birinə bunları yazmışdı: "Həyatda qarşılaşdığım ən qəsbkar adamlar Amerikan bank işçiləridir... Tortu yeyən mütləq və mütləq bu adamlardır."

Diqqətəşayan qatılmalardan bir başqası da yağışdan sonra çıxan köbələklər kimi, birdən-birə törəyən şirkətlərdi. 1924-cü ildə Shell, Bakerfield - Kaliforniyada fəaliyyət göstərən böyük bir neft şirkətini, Belderidgeni satın alacaq vəziyyətə gəlmişdi. Satış qiyməti 8 milyon dollar idi. Ancaq sonradan Shell, bu qiyməti çox yüksək hesab etdi və satın almaqdan imtina etdi. Bundan 55 il sonra, 1979-cu ildə Belderidgeyə yenidən müştəri olan Shell, bu dəfə 3.6 milyard dollar ödəmək məcburiyyətində qalacaqdı. 1920-ci illərin əvvəllərində Shell şirkəti özünü Deterdingin xəbərdar etdiyi "qısqanclıq duyğusunun" əsirinə çevirir, Kaliforniya Union Neftin dörddə bir hissəsini satın alır və nəzarətin hamısını əlinə alaraq, şirkəti





həqiqətən Amerikada çox güclü şirkətə çevirirdi. Fəqət Kaliforniyadakı hissədarlar haqlı olaraq əks-reaksiya göstərir, "Kaliforniyanın yabançısı olan və heç tanınmayan adamlara" qarşı vətənpərvərlik duyğusuyla Amerikan Senatına, Federal Ticarət Komissiyasına və bir çox kabinet üzvünə təsir edir, bu işin Birləşmiş Ştatların maraqlarına tərs düşdüyü haqqında xəbərdarlıq edirdi. Nəticədə Shelli Union içindəki hissələrini satmağa məcbur etsələr də, Shellin bu mövzudakı xəyal qırıqlığı, iki illik olduğu ortaya çıxan bu sərmayələrdən aldığı 50 faizlik qazancla, bir dərəcəyə qədər əvəz-əvəz edilirdi.

Texas Şirkəti ilə Phillips də haradasa birləşmə nöqtəsinə gəlmişdi. Gulf və İndiana Standard da eyni vəziyyətdəydi. 1929-1933-cü illər arasında isə Nyu Jersey Standardla Kaliforniya Standard bir-biriləri ilə birləşdikləri halda nə kimi şərtlərin keçərli olacağını müzakirə edirdilər. Təşkil olunan görüşü "mətbuatdan gizlin saxlamaq" üçün Valter Teagle başqa bir addan istifadə edərək, Tahol Gölünə - qərarlaşdırılan görüş yerinə gedirdi. Buraya öz xüsusi avtomobilində getmişdi. Ancaq müzakirələr qismən Kaliforniya Standard Başqanı Kenneth Kingsbury və silahdaşlarının, ya da başqa bir deyişlə, Jersey mənsublarının onlara verdiyi ləqəblə "Kral Rex və Allahın bəlası tərəfdarlarının" müzakirələrdə həddindən artıq sərt üslubdan istifadə etmələri səbəbindən, heç bir nəticə vermədən yarıdaca kəsilirdi. Əslində bu işdə şəxslər bir yana, birləşmə haqqındakı uğursuzluğun daha önəmli bir səbəbi vardı: Jersey şirkətinin mühasibə sisteminin yetərsiz olması və Valter Teaglenin əsəbiləşməsinə və kədərlənməsinə səbəb olan Jersey hesablarının və qazancının kifayət qədər olmaması.

Əslində bütün sənayeni bir arada tutan şeyin, tək bir

mövzu olduğu bir gerçəkdir. 1920-ci illərin axırlarına doğru neft istehsalında elmi metodlara istiqamət götürülsə də, nizamlamanın doğrudan-doğruya federal hökumət tərəfindən həyata keçirilməsinə qarşı şiddətli bir müxalifət vardı. Bu arada neftin patronu Harri Doherty, neftçilərin böyük əksəriyyətinin onun nizamlama çağırışına qulaq asmadıqlarını görərək, əsəbiləşir, "Neft sənayesi uzun müddət davam edəcək bir böhranın astanasındadır... Bu böhranın nə qədər davam edəcəyini bilmirəm, ancaq bütün etibarımı ortaya qoyaraq, iddia edirəm ki, bir gün gələcək, neftçilərin hamısı birdən "keşkə federal qanuna riayət etsəydik" deyəcəkdir" sözləriylə düşüncələrini ifadə edirdi. Nə yazıq ki, bu mübarizəyə davam edəcək gücü qalmamışdı. Yetərincə istismar edildiyi, bunun acısını çəkdiyini düşünərək, bundan belə işi başqalarının aparmasına qərar verdi. 1929-cu ildə yazdığı xatirələrində bunları söyləmişdi: "Əgər yer üzündə məndən çox neftçiliyin pisliyinə bulaşmış birisi varsa, onunla tanış olmaq istərdim. Bəzən Tanrıya "keşkə məni heç neftçi etməsəydin", "keşkə neftçilikdə islahatlar aparmaq uğrunda heç döyüşə qalxmasaydım" deyirəm."

Dohertynin gələcək üçün etdiyi təxmin və proqnozlara elə inanan olmadı. Yeri gəlmişkən, bu onillik bitərkən, yeni qurulan birləşmiş nəhəng şirkətlər bu dəfə də öz üstün mövqelərini qoruyub saxlamağa çalışırdılar. Mövqelərini qorumağın və tələb-təklif tarazlığında uyğun bir tənzimləmə aparmağın gələcəkləri üçün faydalı olacağı qənaətindəydilər. Ancaq bunu mütləq hökumətin müdaxiləsi olmadan etmək istəyirdilər. Elə tam bu əsnada bütün layihələr iflas etməyə, məhv olmağa başladı. Əsəb növbələrinə səhnə olan hissə sənədi bazarı 1929-cu ilin oktyabr ayında misli-bərabəri olmayan bir enişlə işə qarışdı və ölkə





çapında işsizlik, səfalət, çətinlik və neft tələbinin artmasının sonu demək olan Böyük Depressiya yarandı. Amma 1930-cu ilin payızında, ölkə əhalisinin hissə sənədi bazarı depressiyasının artıq sadə bir "düzəltmə" olmadığı, əsil məqsədin ümumi iqtisadi böhran yaratmaq olduğuna qərar verildiyi günlərdə, bəxtə-bəxt yenidən bir zər atılır və o günə qədər 48 əyalətin heç birində müşahidə olunmayan ən böyük neft yatağı - The Black Giant (Qara Div) - kəşf olunurdu. Təkcə Qara Divin özü, başqa yataqlara ehtiyac qalmadan, bütün Amerikanın neftə olan tələbatının çox böyük bir hissəsini qarşılayacaq gücdəydi. İşlərin bu cür getməsi həm də o deməkdi ki, Harri Doherty təxmin və proqnozlarında yanılmayıbmış. Hadisələr onun doğru olduğunu sübut etmişdi.

# 12

# YENİ İSTEHSAL UĞRUNDA SAVAŞ

Neftin "güc", "qüvvə" olduğu ehtimalı hələ Birinci Dünya Müharibəsi dövründə savaş meydanlarında sübut olunmuşdu. Bu hadisə neft şirkətləriylə Amerika əyalətləri arasındakı münasibətlərdə yeni bir dövrün başlanğıcı olmuşdu. Bu münasibətlər heç şübhəsiz ki, tələb və təklifin ibtidai hərəkətlənmələri ilə tənzimlənirdi. Neftin kimdə olduğu, kimin neft istədiyi, bu neftin hansı dəyərdə olduğu davamlı soruşulurdu. Ancaq indi müzakirə mövzusuna çevrilən çox məsələlər vardı. Təkcə bazaryeri iqtisadiyyatı yox, başqa bir çox faktorlar da rol oynamağa başlamışdı. Neftin güc olduğu qəbul edilirdisə, o zaman hökmranlığın simvolu olduğu da qəbul edilməliydi. Bu isə qaçınılmaz olaraq neft şirkətlərinin hədəfləriylə əyalətlərin maraqları arasında bir maraq çatışması, beynəlxalq siyasətdə isə sonsuza qədər davam edəcək bir müəyyənləşdirici olduğu mənasına gəlirdi.

## Meksikanın qızıla bərabər yolu

XX-ci əsrin əvvəllərində, Amerika istisna olmaqla, Qərb yarımkürəsində neft araşdırmaları daha çox Meksikada aparılırdı.

Öndə gələn iki şirkət; sonradan Teapot Dome hadisəsinə adı qarışan Eduard L.Dohenynin liderlik etdiyi Pan Amerikan Neft Şirkəti ilə, adı Ser Veetman Pearson olan və sonradan Lord Covdray kimi tanınan bir ingilisin





öndərlik etdiyi Mexican Eagle (Meksika Qartalı) şirkətləri idi. Hələ o günlərdə Kaliforniyanın uğur qazanan neftçilərindən sayılan Doheny Meksikaya ilk dəfə 1900-cü ildə, Meksika Dövlət Dəmiryolları müdirinin çağrısından sonra, neft bölgələrində araşdırma aparmaq üçün getmişdi. O dövrdə bu bölgədə yanacaq kimi odundan istifadə olunurdu və odun qıtlığı vardı. Buna görə də dəmiryolları müdiri mümkün olduğu qədər sürətlə bölgədə neft tapılmasını istəyirdi.

Pearsonun hədəfləri isə daha çox gələcəyə hesablanmışdı. Özü XIX -cu əsrin böyük tikinti mühəndisləri içərisində ən böyüklərdən birisiydi. Qabiliyyətli və texnoloji baxımdan çox yaradıcı olan bu adam, həm də çox cəsur bir iş adamıydı. Riyaziyyat sahəsindəki qabiliyyəti, yavaş, təmkinli, ehtiyatlı və səbirli xarakteriylə sanki mühəndis olmaq üçün yaradılmışdı. Yuvarlaq, avtoritar görünməyən səciyyəvi xüsusiyyətləriylə və Tanrının bəxş etdiyi təbii hökmranlıq etmək qabiliyyətiylə diqqət çəkərdi. Kembric və Oksford universitetlərinin başqa təhsil sahələrində təhsilini davam etdirmək imkanları olsa da, bunlara baxmayaraq, Yorkshiredə məşğul olduqları ailə məsləyi olan mühəndislikdə qalmağa qərar verdi. Məsləyinin ilk günlərindən, ağır, kirli işinə görə əlləri kirləndiyində, onları ovxalayaraq yumağı, dırnaqlarını təmiz saxlamağı özünə adət etmiş və bu vərdişkarlığını ömür boyu davam etdirmişdir.

Xalqın "Pearson havası" dediyi böyük miqyasda uğur qazanma ustalığı hamının xoşuna gəlmişdi. Ancaq özü bunun təsirindən bir elə də əmin deyildi. Buna görə də qızına yazdığı bir məktubda bunları söyləmişdi: "Sərvət deyilən şey çox keçici və sürüşkən bir anlayışdır. Ən yaxşısı, qazana biləcəyimiz sərvəti müəyyənləşdirib,

cəsarətlə ona doğru irəliləməliyik." Oğluna isə daha detallı yazaraq, bunları bildirmişdi: "Məsləkdaşlarının görüşlərinə müxalifətçilik etmədə və lazım olanda onların qərarlarına məhəl qoymamaqda bir saniyə belə tərəddüd etmə. Başda duran adam avtoritar deyilsə, heç bir işdə davamlı uğur qazanıla bilməz. Ancaq əlbəttə ki, bunu edərkən, yumruğunu məxmərdən düzəldilmiş bir əlcəyin içində gizlədərək, edəcəksən." Bu prinsipinin doğruluğunu yaşadığı müddətdə bir neçə dəfə, təkrar-təkrar sübut etmişdi. Yeri gəlmişkən, XIX-cu əsrin axırlarında inşa edilən bir çox mühəndislik möcüzəsinin yaradıcısı odur. Bunların içərisində Thames çayının ətrafında tikilən Qara Divar Tuneli (Blackvall Tunnel) və Nyu York East River ətrafındakı Pensilvaniya Dəmiryolu üçün tikilmiş dörd tunel də vardı. Bundan başqa, Dover limanı da onun tərəfindən inşa edilmişdi. Nəticədə, onun yaratdığı mühəndislik imperiyasının sərhədlərinə Financial Times, The Economist və Penguen kitabxanalarından tutmuş, Londonda yerləşən Lazard sərmayə bankına və bir çox neft xidmət şirkətinə qədər bir çox şirkətlər daxil idi. Ancaq əldə etdiyi sərvətin böyük hissəsini Meksikada qazanmışdı.

"Pearson havası"nın sehri o dərəcədə təsirliydi ki, Meksikanın diktatoru olan dövlət başçısı Porfirio Diaz da bu sehrə qapılmış, böyük layihələrdən bir neçəsini gerçəkləşdirməsi üçün Pearsonu Meksikaya dəvət etmişdi. Bunlardan ilki Meksika Citydəki Grand Canal (Böyük Kanal) idi. Dərhal arxasından isə, Vera Cruz limanı və daha sonra da Atlantik okeanı ilə Sakit okeanı bir-birinə bağlayan Tehuantepec Dəmiryoludur. Meksikaya ayaq basdığı andan etibarən meksikalılarla və xüsusilə də, Diaz və onun ətrafıyla qaynayıb-qarışmağa təşəbbüs göstərmiş, bu arada bir çox mükafat və ərməğan almışdır. Bu





ərməğanlar arasında verilən 100.000 pound pul da vardı. O, meksikalı yüksək çinli məmurlara, amerikalı məmurların vərdiş etmədiyi imtiyazları verməyə hər zaman hazır idi. İngilis hökuməti ilə olan bağlantısı meksikalılara da təsir etmişdi. Pearson, bir neçə ildir üzvü olduğu parlamentdə "Meksika Təmsilçisi" olaraq tanınırdı. Pearson Meksikadakı mövqeyini qismən Diazın sərinqanlı siyasi hesablarına borcludur: "Tanrıdan nə qədər uzaq, Amerikaya isə nə qədər yaxınsan." Diaz və ətrafındakı siyasətçilər, amerikalıların öz iqtisadiyyatlarına tam mənada hakim olmasına icazə verə bilməzdilər. Diaz bu məqsədlə uzaq bir ölkədən dünyaca məşhur bir mühəndisi, ana layihələri ələ keçirməsi üçün ölkəsinə dəvət edir və sonra da Meksikada fəaliyyətlərini genişlətməsi üçün ona hər cür imkan yaradırdı.

1901-ci ildə Meksikaya gedərkən, Texasın sərhəd qəsəbəsi olan Laredoda qatara gecikdi və gecəni qəsəbədə gecələmək məcburiyyətində qaldı. Bax, elə o gün qəsəbənin, öz deyişiylə, "necə bir neft çılğınlığı" yaşadığına, bu çılğınlığın necə 3 ay əvvəl Spindletopda edilən kəşfdən sonra bütün əyaləti bürüdüyünə şahid olacaqdı. Yadına adamlarından birinin Meksikada neft sızıntısı olduğunu bildirən və xeyli əvvəl təqdim etdiyi raport düşdü. Qısa müddətdə Laredoda əlinin çatdığı və neft olduğu ehtimal olunan torpaqları araşdırıb, menecerinə torpaq alma işində sürətli hərəkət etməsi üçün teleqraf təkdi. Teleqrafda deyirdi: "Bir şeyi unutma ki, işimiz dövlət adamlarıyladır." Tehuantepec Dəmiryolu üçün ən uyğun yanacağın neft olduğuna qərar vermişdi. İşin başqa maraqlı bir tərəfi var ki, Pearson bütün bu işlərə sadəcə 9 saat müddətində - məcburi gözləmə müddətində qərar vermişdi. Neft axtarma bölgəsini - Tabasco bölgəsini də içinə alacaq

şəkildə genişləndirdi və özünə kömək etmək üçün sadəcə bir adamı, Spindletopda neft quyusu kəşf edən Kapitan Anthony Lucası Meksikaya çağırdı.

Bundan sonrakı illərdə çox böyük pullar xərclədi. Amma yenə də aradan keçən 10 illik müddət içərisində Meksika Qartalının irəlilədiyini göstərən heç bir işarə yoxdu. Bu haqda 1908-ci ildə oğluna yazdığı bir məktubda, əhvalı pozulmuş halda belə deyirdi: "Bu işi yüngül iş hesab etdiyim üçün girişdim. Ehtiva etdiyi bir çox problemi heç düşünmədən, sadəcə neftin sərvət demək olduğuna, çox çalışma və yüksək texnikanı tətbiq etməklə nəticə alınacağına inanaraq atıldım." Həyat yoldaşına yazdığı məktub isə, daha ağlamalıydı: "Özümü əski adamlarla müqayisə edirəm. Nə dərəcə qorxaq bir macərapərəst olduğumu düşünməkdən özümü saxlaya bilmirəm. Sanki uyuşmuşam və dəhşətli şəkildə qorxduğum iki şey var. Birincisi, öz mühakiməmə görə, qürurumun və idarəçiliyimin məhv olub külək kimi sovrulması təhlükəsi, ikincisi də yaşamıma yenidən başlama məcburiyyətim. Bu tərəddüdlər məni bəzən çox qorxaq adama çevirir. Bunun da fərqindəyəm ki, əgər bir gün bu neft işi tamamən bərbad olarsa, yenə də sakit bir həyat tərzi keçirməyə kifayət edəcək qədər pulum var... Amma yenə də uğura nail olana, özümü sübut edənə qədər əsəbi və kədərli olacağam."

Nəticədə, 1909-cu ildə neft haqqında sahib olduğu məlumatlarının "batil etiqadlara dayandığı" qənaətinə gələrək, o günə qədər birlikdə işlədiyi məşhur Tomas Boverton Redvood və onun firmasının geoloji müşavirlərini işdən çıxardı və onların yerinə əvvəlcə Birləşmiş Ştatların Geologiya Araşdırma Komitəsində işləyən amerikalıları işə götürdü. Yeni işə götürülənlər, onlardan





gözləněni etdi və 1910-cu ildə artıq Lord Covdray deyə tanınan Pearson, ən böyük neft yatağına rast gəlib məşhur Potrero del Llano-4 quyusuna nail oldu. Bu quyu, bir gündə çıxardığı 110.000 barrellə dünyanın ən böyük neft quyusu kimi qəbul edildi. Bütün bu kəşflər Meksikada bomba kimi partladı. Bu quyular sayəsində Meksika Qartalı bir gecənin içində dünyanın ən öndə gedən neft şirkətlərindən birinə çevrildi. İstehsal, əsasən Tampicodan bir elə uzaq olmayan "Qızıl Yol" bölgəsi boyunca intensivləşdirildi. "Qızıl Yol"da artıq 70-100 min barrel arası neft çıxarmaq təbii və mümkün sayılırdı.

Qısa zamanda Meksika, dünya neft bazarında öndə gələn bir gücə çevrilməyə başladı. Buradan çıxarılan xam neft, keyfiyyət etibarilə mazot kimi işlənməyə əlverişliydi. Sənaye bazarlarında, dəmiryollarında və daşınma bazarlarında birbaşa rəqabətə uyğun idi. 1913-cü ildə isə, artıq Meksika nefti Rusiyanın dəmiryollarında belə istifadə olunurdu. Birinci Dünya Müharibəsində Meksika, Amerika üçün əhəmiyyətli bir qaynaq rolunu oynadı. 1920-ci ildə də Amerikanın ölkədaxili neft tələbatının 20 faizini Meksika təmin edirdi. Təqvimlər 1921-ci ili göstərəndə, Meksika da böyük bir sürətlə heyrətamiz inkişaf dövrünə qədəm qoyurdu. İldə 193 milyon barrellik istehsalıyla Meksika, dünyanın ən böyük ikinci istehsalçısı olmuşdu.

Amma bir şey var ki, aradan keçən zaman içərisində Meksikanın siyasi çevrəsində dramatik bir dəyişiklik yaşanacaqdı. 1911-ci ildə 81 yaşındakı prezident Diaz, rəvayətə görə, iltihablanan bir diş ağrısı səbəbindən ağlını itirib taxtdan salınır, bu hadisənin arxasından da Meksika İnqilabı başlayırdı. Ölkədə baş verən qarmaqarışıqlıqlar səbəbilə əcnəbilərin qoyduqları sərmayələr azalmağa başladı. Hadisələrin bu şiddətli məqamında Jerseyin

Meksikadakı işlərindən məsul müdiri E.J.Sadler, şirkətin maaş fondunu gətirərkən, quldurlar tərəfindən ələ keçirildi. Amansızca döyüldükdən sonra isə öldüyü zənn edilərək, bir tərəfə atıldı. Ancaq Sadler necə oldusa ölmədi və kampa qədər gəlib çıxa bildi. O hadisədən sonra bir gün də olsun üzərində 25 dollardan artıq pul gəzdirmədi. Əgər quldurlarla bir də qarşılaşacaq olarsa, onlara vermək üçün köhnə qızıl bir qol saatından başqa da bir şey daşımadı. O gündən sonra artıq Meksikada qalmaq istəmədi. Meksika Qartalına aid olan neft müəssisələri üsyançıların əlinə keçdiyi üçün ifrat formada istismar olundu və burada işləyənlərin bir qismi öldürüldü. Birinci Dünya Müharibəsinin son ayı olan 1918-ci ilin oktyabr ayında, Covdray Henri Deterdingi təmsilən oraya gələn Qalust Gülbekyanla görüşdü. Gülbekyan Royal Dutch/Shell firmasının Meksika Qartalına aid neft ehtiyatının mühüm bir hissəsini satın almaq arzusunda olduğunu, rəhbərliyi də öz üzərinə götürmək istədiyini bildirir, bunun "Lord Covdrayı tam bir rahatlığa qovuşduracağını" söyləyirdi.

Meksikada yaşadığı 20 illik neft macərası Covdrayı sadəcə yormaqla kifayətlənməmiş, eyni zamanda daha çox risq üstlənmək şövqünü də qırmışdı. Bu ingilis kifayət qədər əziyyət çəkmişdi. Bir ingilis hökumət mənsubuna dediyi kimi, artıq "bu nəhəng işin maliyyə yükünü sonuna qədər tək başına çəkəcək gücdə deyildi." Gülbekyan ona bir təklif etmişdi. O da çox düşünmədən təklifi qəbul etmiş, beləliklə, tamamən rahat olmasa da, bu ağır işdən xilas olmanın verdiyi rahatlıq və cibinə girən pulun yetəri qədər çox olması səbəbilə kənara çəkilmişdi. Zamanlaması fövqəladəydi, çünki bu arada Meksika Qartalı Shellin özünə birləşdirdiyi şirkətlər arasında ən yaxşılarından biri deyildi. Bu, meydana gələn bir hadisəylə təsdiqlənmişdi.





Satışdan dərhal sonra Shellin Meksika Qartalından satın aldığı böyük istehsal quyularının içinə duzlu su dolmağa başladı. Bu, neft istehsalında eniş mənasına gələn çox pis bir xəbər idi. Çox keçmədi ki, o biri neft şirkətləri də eyni şeyi müşahidə etdilər. Bəlkə də daha çox kapital və daha yaxşı texnologiya, yeni-yeni axtarma təşəbbüsləri olsaydı, bu problemlər öz həllini tapardı. Ancaq nə yazıqlar ki, inqilabın gətirdiyi qarışıqlıqlar içərisində qalan əcnəbi şirkətlər sərmayə qoymağı dayandırmaq məcburiyyətində qalmışdılar. Bu şirkətlərin Meksikada keçirdiyi günlər getgedə azalırdı. Neft şirkətlərinin fəaliyyətlərinə əsl təsir göstərən səbəb, inqilabın gətirdiyi qanunsuzluq və fiziki təhlükələr deyildi. Bundan çox əvvəllər də meksikalı milliyyətçilər və inqilabçı-üsyançılarla əcnəbi sərmayədarlar arasında davam edən çətin qovğalar vardı və bu qovğaların nə qədər şiddətli olduğu sonradan sübuta yetirilmişdi.

Meksikada meydana gələn qarışıqlıqlar, hökumətlərlə neft şirkətləri arasında böyük və davamlı bir qovğanın əsaslarını qoyacaq və bütün dünyaya yayılacaqdı. Meksikada mövzu dönüb-dolaşıb yenə də iki məqama bağlanırdı: müqavilələrdə sabitlik və hökmranlıqla, sahiblik probleminə. Neftin gətirdiyi faydalar kimə aid olacaqdı? Bu mövzuda meksikalılar elastiki prinsip tətbiq etmək istəyirdilər. 1884-cü ilə qədər ölkənin torpaq altında qalan "yeraltı" qaynaqları əvvəlcə Krala, sonra da millətə aid olmuşdu. Porfirio Diaz rejimi bu qanuni ənənəni dəyişdirmiş, kəndlilərə və fermer təsərrüfatı sahibləri ilə torpaq üstündə ərazisi olanlara yeraltı qaynaqlar üzərində daha çox sahiblik haqqı vermişdi. Bunların müqabilində bu adamlar da bütün neft təsislərinin 90 faizini öz nəzarətinə götürən əcnəbi sərmayəyə qucaq açırdılar. İndi bir inqilab olmuşdu və bu inqilabın həqiqi məqsədlərindən biri, bu

qaynaqlar üzərindəki milli sahiblik prinsipini geri qaytarmaqdı. 1917-ci il Konstitusiyasının 27-ci maddəsində bu məqsəd həyata keçirilmiş və qəbul olunmuşdu. Baxmayaraq ki, Meksika, neftini geri alıb milliləşdirmişdi, ancaq əcnəbi sərmayə olmadan bu nefti inkişaf etdirib, bazarlaya bilmirdi. Xarici sərmayədarlar isə, etibarlı müqavilələr bağlanmadan və qazanc mövzusunu qarantiya altına almadan işi inkişaf etdirməyin və sərmayə qoymağın gətirəcəyi risqlərdən və xərclərdən çəkinirdilər.

Yeraltı qaynaqların milliləşdirilməsinə əlavə olaraq, iqtidardakı yeni Meksika rejimləri - məhdudiyyətlər və yeni vergilər kimi - başqa-başqa qərarlar alır, bu qərarlar da neft şirkətləri ilə aralarında sonu gəlməyən çatışmalara səbəb olurdu. Bu arada, Eduard Dohenynin sədrliyində bəzi neft şirkətləri Meksikadakı amerikalıların "həyati əhəmiyyətli" neft ehtiyatlarının qorunması üçün Vaşinqtona xəbərdarlıq edir və onu hərbi müdaxilə etməyə səsləyirdi. Meksikanın o günə qədər ödəməkdən imtina etdiyi borcları qaytarmaq üçün vergi gəlirlərini artırması, bu münaqişəni daha da qarmaqarışıq vəziyyətə salırdı. Öndə gələn Amerikan bankirləri Meksikanın borclarını istismar edib, öz mənafeyinə uyğun istifadə etməsindən, bunları ödəmək üçün neft gəlirlərindən yararlanmasından fövqəladə məmnun idilər. Buna görə də Amerikan neft şirkətlərinin yox, Meksikanın tərəfini tutur, bu şirkətlərin müdaxilə və cəzalandırma çağırışlarına şiddətlə qarşı çıxırdılar.

Meksika ilə Birləşmiş Ştatlar arasındakı münasibətlər, neft uğrunda münaqişəni daimi olaraq çox çətin tempdə saxlamaqda davam edirdi. Vaşinqton həmişə olduğu kimi, dəyişən Meksika rejimlərinin diplomatik tanınmasının qarşısını alırdı. Hətta bir dəfə iki ölkə sırf bu səbəbdən





savaşın kandarına qədər gəlib çıxmışdılar. Amerikalıların görüşlərinə görə, fiziki şəxslərə aid olanlar da daxil olmaqla, bir çox əhəmiyyət daşıyan hüquq və azadlıqlara təcavüz olunur, anlaşmalar və bazarlıqlar elə buna görə də pozulurdu. Vaşinqton cənuba - Meksikaya baxdığı zaman qeyri-sabitlik, etimadsızlıq, quldurluq, anarxiya, strateji qaynaqların təhlükəli şəkildə təhdid olunması və müqavilələrin pozulduğunu görürdü. Meksika isə Vaşinqtona və Amerikan neft şirkətlərinə baxanda, xarici təhlükə, yuxarıdan aşağıya baxmaq, aşağılanmaq, hökmranlıq hüquqlarının çiynənməsi və "Yankee imperializminin" nəhəng basqısı və gücünü görürdü. Neft şirkətlərinə gəlincə, onlar da öz hesablarınca, bu işdən qədərindən artıq qocunur, özlərini təhlükədə hiss edirdilər. Bütün bunlar sərmayənin azalmasına, fəaliyyət və personal mövzularında sürətli bir geriyə qayıdışın olduğuna dəlalət edirdi. Bunların təsiri qısa zaman ərzində özünü göstərdi. Səmərəlilik sürətlə aşağı düşdü və Meksika dünyanın neft gücü olmaqdan çıxdı.

## General Gomezin Venesuella adlı "təsərrüfat"ı

Dünyanın neft tələbatındakı gözləntiləri, neftin milli gücdə oynadığı və müharibə meydanlarında sübut olunan yeni yeri və əlbəttə ki, əldə ediləcək qazanclar Hollandiya Kraliyyət/Shell Şirkətinin 1920-ci ildə tərtib olunan raportunda adlandırılan "təzə istehsal savaşı"nı büsbütün qızışdırmışdı. Raportda "bu savaşa görə yeni neft yataqları əldə etmək cəhdlərindən məhrum edilməməliyik... ən xırda uğur şansının olduğu hər yerdə geoloqlarımız xidmətə hazırdır" deyə yazılırdı. Siyahının başında Venesuella gəlirdi ki, bunun səbəbi sadəcə Hollandiya Kraliyyət/Shell

deyildi. Əsil səbəb o idi ki, Meksikanın siyasi çevrəsində baş verən dəyişikliklər Venesuellaya böyük neft gücü olma imkanı vermişdi. Yüz illər əvvəldən Venesuellaya ilk gələn ispaniyalı işğalçılar, qırmızı dərili yerlilərin neft sızıntılarından istifadə edərək, özlərinə iri sal düzəltdiklərini və onları təmir etdiklərini müşahidə etmişdilər. Bax, bu dəfə də Meksikanın tərsinə, Venesuella onlara dostca bir siyasi atmosfer təqdim etməkdəydi. Bu, amansız, hiyləgər, həris bir diktator olan və tam 27 il öz şəxsi zənginliyi üçün Venesuellaya hökm edən General Juan Vicente Gomezin öz əlləri ilə meydana gətirdiyi imkandı.

Venesuella öz imkanları və az əhalisi ilə, səfalət içində yaşayan bir kənd təsərrüfatı ölkəsiydi. 1829-cu ildə İspaniyadan müstəqilliyini əldə edəndən sonra, bir çox bölgəsində yerli hərbi liderlər at oynadırdılar. 1890-cı illərin ortalarında qanunverici orqanda yer alan 184 üzvdən 112 üzvü özləri özlərinə "General" rütbəsi vermişdilər. 1908-ci ildə hakimiyyəti ələ keçirən Gomez, ölkədəki gücü mərkəzləşdirməyə və məmləkəti öz şəxsi təsərrüfatına çevirməyə yönəldi. Oxuma-yazmanı belə doğru-dürüst bilməyən bu adam ətrafı və ailəsi ilə birlikdə uzun illər hökmranlıq etmiş və bir hesaba görə, 97 qeyri-qanuni övlada sahib olmuşdur. Qardaşını özünə vitse prezident təyin etmiş, o da bu vəzifədə uzun illər - Gomezin oğlu tərəfindən öldürüldüyü günə qədər qalmışdı. Birinci Dünya Savaşından əvvəl Teddy Ruzvelti təqlid edərək, böyük heyvan ovçuluğu əbasına bürünəcəkdi. Müharibə başlayandan sonra isə, alman tərəfdarı olacaq, bu dəfə də Kayzerin gözünə girməyə cəhd edəcəkdi. Vodrov Vilson ölkəni xainlik və terror yoluyla pəncəsinə alan bu adamı, ürəyindən tikan çıxara bilməsə də, "alçaq" sözüylə xatırlayardı. Karakasdakı ingilis səfiri isə bu haqda daha açıq danışır,





Gomezi orta əsrlərdə ifadə olunan mənada "tam bir monarxist" olaraq dəyərləndirirdi. Oxuma-yazması hansı səviyyədə olursa-olsun, Gomez nə istədiyini bilirdi. Bunun da həm mütləq güc, həm də nəhayətsiz bir sərvət olduğuna şübhə edilə bilməz. "Zavallı ölkəsi" istər iqtisadi baxımdan irəli· getmək üçün, istərsə də, sırf özünün zəngin olması naminə "gəlir" ehtiyacı içərisindəydi. Bu iki məqsəd iç-içə girmişdi. "Gəlir" kəlməsi xarici sərmayə ilə eyni mənanı daşıyırdı. Neft isə Gomez üçün hər şeydən əvvəl fürsət deməkdi. Ancaq hiyləgərcəsinə bir sezgi ilə bu həqiqətin də fərqindəydi: Xarici sərmayəni ölkəyə cəlb etmək üçün stabil bir siyasi və iqtisadi çevrə yaratmaq lazımdı.

1913-cü ildə Hollandiya Kraliyyət/Shell Qrupu artıq Venesuellada Maracaibo Gölü yaxınlarında işə başlamışdı. 1914-cü ildə ticari sahədə istifadə olunmağa əlverişli olan ilk kiçik çaplı istehsal həyata keçirilirdi. 1919-cu ildə Venesuellaya göstərilən yaxşı münasibətlər seriyasına uyaraq, Jersey Standard da içlərində bir geoloq olan araşdırma qrupunu Maracaibo Gölünü araşdırmaq üçün bu ölkəyə göndərirdi. Bu geoloq, apardığı araşdırmadan sonra bölgə haqqında bunları söyləmişdi: "Burada bir neçə həftə qalacaq olan bir adam mütləq ya qızdırma xəstəliyinə tutulur, ya da qara ciyər və bağırsaq xəstəsi olur. Bu xəstəliklər nəticədə daha da pisləşməyə meyllidir." Eyni adam Venesuellaya sərmayə qoyulmamasını tövsiyə etmişdi. Ancaq eyni qrupun içərisində buraya gələnlərdən biri fərqli düşünürdü. Onun fikirlərinə görə, Venesuellada əsil keçərli olan qızdırma, qara ciyər və bağırsaq xəstəliklərindən çox, Hollandiya Kraliyyət/Shell Qrupunun öhdəlikləriydi. Bu adam yazdığı raportda bu görüşlərə yer vermişdi: "Hollandiya Kraliyyət/Shell Venesuellada milyonlarla dollar həcmində sərmayə yatırdı. Bu, ölkədə

bol miqdarda neft olduğu şübhəsini oyandırır." Latın Amerikasında istehsalın olmaması, Standard Oilun Latın Amerikasına etdiyi neft satışlarında birinci sırada dayanmasını təhlükəyə məruz qoyacaqdı.

İndi General Gomezin sahib olduğu Venesuelladan - "fermer təsərrüfatı"ndan imtiyaz almaq lazım idi ki, bu, heç də asan məsələ deyildi. Standardın təmsilçisi mövzunu müzakirə etmək üçün, bir sürü vasitəçini aşıb, Gomezlə qarşı-qarşıya gəldi və bu məsələni onunla müzakirə etməyə nail oldu. Gomez mövzuya normal yanaşmışdı. Bundan cəsarət alan təmsilçi, bir təkliflər paketi hazırladı. Amma elə təklifi təqdim edəcəyi gün, imtiyaz mövzusunda daha bir təklifin edildiyini öyrəndi. Təklifi edən Gomezin kürəkəni idi və nəticədə "təsadüfən" imtiyazı o qazanır, dərhal arxasından da bunu başqa bir şirkətə satırdı. Nəticədə Jersey, bir hissəsi o biri Amerikan şirkətlərindən, digər bir hissəsi də Julio Mendezdən olmaqla Maracaibo Gölünün ətəklərində 4200 hektar ərazinin sahibi olmuşdu. Julio Mendezdən torpaq alındığı söyləntisini bir çox adam qocaman bir zarafat olaraq qəbul etmiş, hətta bir Jersey mənsubu zarafatla şirkətin həm də bir gəmi satın aldığını, beləliklə, 4200 hektarlıq bataqlıq ərazinin dəyərsiz olduğu ortaya çıxarsa, heç olmasa, balıqçılıq edə biləcəyini söyləmişdi.

Venesuellada neft axtarmaq, quru ərazidə belə çətin və təhlükəli idi. Avtomobillə hərəkət etmək üçün heç bir yol yox idi. Öküz arabaları ilə belə keçməyə uyğun olan çox az yer vardı. Geoloqlar bir yerə getmək istədiklərində ya saldan istifadə edirdilər, ya da qatıra minərək gedirdilər. Ölkənin coğrafiyasını göstərən doğru-dürüst bir xəritə belə yoxdu. Bu zaman xəritələrdə göstərilən çayların da həqiqətdə mövcud olmadığı, mövcud olsa belə, bu tip





xəritələrdə göstərilənlərdən tamam fərqli, əslində başqa çay sistemlərinin qolu olduğu ortaya çıxırdı. Təxminən ölkəyə daxil olan hamı xəstəliyə yoluxurdu. Amerikalı bir geoloq "buradakı ağcaqanadlar indiyə qədər başqa yerlərdə gördüklərimin ən pisi və ən böyüyüdür" demişdi. Geoloqlar həm də yumurtasını insan dərisinin altına yerləşdirən başqa növ ağcaqanadla mübarizə aparmaq məcburiyyətində qalırdılar. Tibbi müalicə ya avtomobillə gedilə bilməyəcək yerdəydi, ya çox ibtidai idi və ya bəzən də heç yox idi. Bütün bunlardan əlavə, geoloqlar və geoloqlardan sonra işə girişən qazmaçılar davamlı olaraq düşmənçilik duyğuları ilə dolu olan yerli qırmızı dərililərlə məşğul olmaq məcburiyyətində qalmışdılar. Bunlardan Jersey şirkətinin mənsubu olan bir qazmaçı, bir gün oturduğu yerdə bir qırmızı dərilinin atdığı oxla həyatı ilə vidalaşmalı olmuşdu. O gündən sonra balta girməyən meşələrdə oxun uzana biləcəyi məsafədə nə qədər ağac varsa, hamısı birdən kəsilməyə başlandı. 1929-cu ildə artıq Shell Şirkəti, traktorlarını qorumaq üçün, onların yerləşdiyi qarajları, qırmızı dərililərin oxlarının dəlib keçə bilməyəcəyi özəl bir bezlə, bir neçə qat halında sarımaq taktikasından istifadə edirdilər.

Gomezin ölkəyə xarici sərmayə cəlb etmə arzusu, hökumətini bir Neft Qanunu çıxarmağa məcbur etmiş, bunun həyata keçirilməsi üçün də həm Karakasdakı Amerikan səfirindən, həm də Amerikan şirkətlərindən neft qanununun hazırlanması üçün yardım istənmişdi. Hazırlanan Neft Qanunu imtiyazlar, vergilər və gömrüklərdə tətbiq olunacaq şərtləri müəyyən edib göstərmişdi. Bundan başqa, artıq bir dəfə imtiyaz verildikdən sonra siyasi gələcək, eyni zamanda inzibati və maliyyə mövzularında sabitlik təmin olunmuşdu. Bu xüsusiyyətilə

Gomez hökmranlığındakı Venesuella, Meksikanın tam əksinə hərəkət etmiş, onun görmədiyi işləri görmüş, ölkəsində sabitlik yaratmağa nail olmuşdu. Ancaq 1922-ci ildə - Neft Qanununun çıxdığı ilə qədər, diqqətəşayan bir neft ehtiyatının olduğu hələ də şübhəli idi. Araşdırma ilginc və ümidvericiydi, o qədər. Digər tərəfdən, bu işə qoyulan sərmayə və sərf olunan əmək çox böyük rəqəmlərlə ifadə olunurdu. 1922-ci ildə Shellin sifarişi ilə 4 ildən bəridir ki, ölkənin xəritəsini çəkməklə məşğul olan amerikalı geoloqlar, Venesuellanın və Cənubi Amerika qitəsinin tamamının neft vəziyyəti haqqında ortaya heç də könülləri xoş etməyən ağrılı bir dəyərləndirmə qoyacaqdı. Buralarda neft yox idi və gördükləri şey su yığınından ibarətdi. Dəyərləndirmə, Amerikada istehsalı artırmaq üçün xərclənən 10 sentin belə "tropiklərdə bu məqsəd üçün xərclənən bir dollardan daha çox qazanc" gətirəcəyini sübut edirdi. Geoloqlar Amerikada neft yağı çıxarmağın belə Venesuellada və ya Latın Amerikasının bir başqa yerində neft çıxarmadan daha ucuza başa gələcəyini söyləyəcək qədər irəli getmişdilər.

Ancaq bu mövzuda bir az tələsik qərar vermişdilər. Eyni ilin dekabr ayında Maracaibodakı La Rosa yatağında, Shellə aid olan Barroso quyusu qəflətən fışqıracaq, qarşısıalınmaz axınla gündə təxminən 100 min barrel neft verəcəkdi. La Rosa yatağı əvvəllər neft istehsal olunacaq quyular arasında sayılmasa da, sınaqdan çıxarılmaq üçün ilk dəfə Shell meneceri Corc Reynolds tərəfindən seçilən quyu idi. Bu adam "sağlam ingilis meşəsi" deyə bilinən, təxminən 15 il əvvəl bütün maneəçiliklərə baxmayaraq, İranda Anqlo-Pers layihəsinin rəhbərliyini öhdəsinə götürüb, ilk nəticələrin alınmasını təmin edən adamın elə birbaşa özü idi. 15 il əvvəl göstərdiyi qərar və səbirlilik





*sayəsində Orta Şərqin qapısını neft istehsalına açan* şəxsdir bu adam. İndi də eyni şeyi Venesuellada həyata keçirirdi.

La Rosada yaşanan neft hadisəsi Venesuellanın dünya çapında bir istehsalçı ola biləcəyini sübut edirdi. Bu kəşf neft dünyasında bir çılğınlıq axımının başlanmasına səbəb oldu. Əksəriyyəti amerikalılardan, bir hissəsi də ingilislərdən təşkil olunan 100-dən çox qrup, ölkəyə axın etməyə, burada fəaliyyət göstərməyə başladılar. Bunların arasında ən böyük şirkətlərdən tutmuş, Vilyam F.Buckley kimi müstəqil neftçilərə qədər bir çox adam vardı. Vilyam F.Buckley gələcəkdə bir neft limanı inşa etmək istəyəcək və bunun üçün imtiyaz alacaqdı. Ölkədəki neft partlayışı General Gomez üçün zənginliyinə zənginlik əlavə etməkdə yaxşıca bir fürsət olmuşdu. Ailəsi və Gomecistas (Gomezçilər) adlanan ətrafı, vaxt itirmədən hökumətdən ən parlaq imtiyazları satın alır, sonra da bu imtiyazları yenidən böyük bir qazancla əcnəbi şirkətlərə satırdılar. Alınan və qazanılan pullardan General Gomezin də "payı"nı verməkdən çəkinmirdilər. Sonradan bu tip mövzuları rəsmiləşdirmək və qanunilәşdirmək üçün General və dostları öz layihələrini kağız üstündə şirkətləşdirdilər və "Compania Venezolena de Petroleo" adlı bir şirkət qurdular. Əslində bu şirkət "General Gomezin şirkəti" idi. Gomez və Gomecistasları əcnəbilərlə istədikləri kimi oyun oynayır, öz istədiklərini etdirirdilər. Şirkətlərin əlində heç bir alternativ yox idi. Başqa sözlə, sonradan - 1920-ci illərdə meydana gələn böyük Venesuella neft partlamasında, elə o gündən rol almaq istəsələr də, bunu edə bilmədilər.

İrəliləyiş canalıcı sürətlə davam edirdi. 1921-ci ildə Venesuellada sadəcə 1.4 milyon barrel neft istehsal olunarkən, 1929-cu ildə bu rəqəm 137 milyon barrelə gəlib

çatmış, beləliklə, Venesuella Amerikadan sonra dünyanın ən çox neft istehsal olunan ikinci ölkəsinə çevrilmişdi. Eyni il Venesuella, ixrac məhsullarından əldə olunan gəlirin və hökumətə aid vergi gəlirlərinin 76 faizini, sadəcə neft ixracatından əldə etmişdi. Ölkə elə o gündən də Hollandiya Kraliyyət/Shell Qrupunun ən böyük və yeganə neft təminedicisi olmuşdu. Venesuellanı əvvəlcə İran və daha sonra da Birləşmiş Ştatlar təqib etmişdi. Venesuella indi 10 ildən də az bir müddət ərzində tam mənasında bir neft ölkəsi olmuşdu. Və əcnəbi sərmayə ilə aparılan rəqabətdə yarışmanı qazanmışdı. Venesuellada neft axtarışlarının gerçəkləşdirilməsi və neftçiliyin inkişaf etdirilməsi üçün böyük miqyaslı sərmayə qoyulması lazım idi. Beləliklə, rol alan bir çox oyunçuya baxmayaraq, səhnədə həqiqətən rol alanlar az saylı, amma böyük bir neçə şirkətdən ibarət olmuşdu. 1920-ci illərdə istehsalın bolluğu dolaylı və dolaysız olaraq sadəcə 3 şirkətə - Hollandiya Kraliyyət/Shell, Gulf və Pan Amerikan şirkətlərinə borcludur. Bunlardan sonuncusu, Meksikada da öndə gələn istehsalçılardan biri olan Eduard Dohenynin şirkətidir. Bu şirkət 1925-ci ildə Standard of İndiana tərəfindən satın alınmışdı.

Venesuella neftinə bu qədər böyük həcmli xarici sərmayə yatırılmasının səbəbi, Gomezin nisbətən uyğun bir çevrə yaratmasıdır. Əgər Gomez bu çevrəni yaratmasaydı, yatırım da bu miqyasda olmazdı. Ancaq bu "stabillik" nə qədər davam edəcəkdi? Standard of İndianaya bağlı Lagonun bir təmsilçisi 1928-ci ildə Amerika Birləşmiş Ştatları Xarici İşlər Nazirliyinin yüksək çinli bir mənsubuna bunları söyləyirdi: "Prezident Gomez əbadiyyətə qədər yaşamayacaqdı və yeni gələcək bir hökumətin, bəlkə də daha radikal qərarlarla neft təsislərinə əl qoymaq və Meksikada





tətbiq olunan siyasətin bir qismini də burada həyata keçirmək təhlükəsi hər zaman mövcud idi." Beləliklə, təhlükəsizlik narahatçılığı içində olan Lago, Venesuella nefti üçün tikdirdiyi nəhəng ixracat neftayırma zavodunu Venesuellada yox, sahildən bir az aralıda yerləşən və bir Hollandiya adası olan Arubada inşa etdirmişdi. Shell də eyni hərəkəti təkrarlamış, neftayırma zavodunu başqa bir Hollandiya adası olan Curacaoda qurmuşdu.

Jersey şirkəti isə, Shell və o biri şirkətlərin əksinə olaraq, xərclədiyi böyük vəsaitlərə baxmayaraq, Venesuelladakı neft araşdırmalarında heç bir uğur qazana bilmədi. Şirkətin Nyu Yorkdakı Venesuelladan olan məsul müdirinə "istehsal verməyən istehsal müdiri" ləqəbi verilmişdi. Nəhayət, 1928-ci ildə Jersey, başqa şirkətlərin maraqlanmadıqları və nəzərdən kənarda saxladığı bir bölgədə yeni texnologiya tətbiq edir və ilk dəfə olaraq, heç də az sayılmayacaq miqdarda neft kəşf edirdi. Sualtı qazma texnologiyasının inkişaf etdirilməsi, Maracaibo həndəvərindəki zəngin neft qaynaqlarının qapılarını açmış, beləcə, göllərdən çox miqdarda neft çıxarmaq mümkün olmuşdu. Artıq heç kim "getsin, balıqçılıqla məşğul olsun" deyərək, Jerseyi məsxərəyə qoymurdu.

1932-ci ildə Böyük Böhranın bitməsindən sonra, idxal neft üçün təklif olunan yeni bir Amerikan vergisi Standard of İndiana Şirkətini xeyli narahat etmişdi. Bu vergi idxal olunan benzin üçün barrel başına 1.05 dollar, idxal malı xam neft və mazot barreli üçün də 21 sent nəzərdə tuturdu. Bu isə Venesuella neftinin Amerika Birləşmiş Ştatlarına buraxılmaması deməkdi. İndiana Şirkətinin neftini bazarlayacağı başqa bir bazarlama sistemi yox idi. Bundan başqa, böhran günlərinin ortalarında əlavə bir sərmayə ehtiyacının baş verməsi və Meksikadakı mal varlığının

milliləşdirilməsi məsələsi də vardı. Bütün bunlar bir yerə cəmləşəndə ortaya böyük - İndiana baxımından heç cür bacara və öhdəsindən gələ bilməyəcəyi dərəcədə böyük - risqlər çıxırdı. Bu həqiqətləri nəzərə alan İndiana Şirkəti, xaricdəki müəssisələrini - Venesuelladakılar da daxil olmaqla - Jersey Şirkətinə satdı. Jersey ödəməyi qismən hissə verərək etdi və beləliklə, bir müddət üçün İndiana Şirkəti, Standard of Nyu Jersey Şirkətinin ən böyük hissə sahibi durumuna gəldi.

## Bolşeviklərlə duel

Ancaq neftlə siyasət arasındakı çatışmanın ən dramatik şəkildə yer aldığı bölgə, Qərb Yarımkürəsi yox, Şərq Yarımkürəsi olmuşdu. Savaşdan əvvəl rus nefti dünya bazarının ən vacib elementlərindən biriydi. Ancaq indi, neftin Sovetlər Birliyinin yeni kommunist hökumətinin əlində olduğu bu günlərdə, Rusiya bu oyunu necə və kimin qaydaları ilə oynayacaqdı?

Hollandiya Kraliyyət/Shell Qrupunun varlığı, nefti Birinci Dünya Müharibəsindən əvvəl Rotşildlərin Rusiyadakı böyük neft yataqlarından satın alması səbəbiylə indi təhlükədəydi. Bolşevik inqilabından sonra bir çox qruplar rus neft yataqlarını ucuza endirib, sonra da satın almaq istəyirdilər. Rəvayətə görə, alıcılardan biri də yataqları mühacirət etmiş ruslardan satın almağa çalışan Gülbekyan idi. Gülbekyan həm də pul xəzinəsi olan bu mühacirlərdən, özləri ilə gətirdikləri sənət xəzinələrindən də satın almağı adət etmişdi.

Rotşildlərin tərsinə, Nobel ailəsi rus neftinə göstərdikləri münasibəti və marağı davam etdirirdi. Ancaq inqilab baş verən kimi Nobellər ölkədən qaçdılar. Bir hissəsi





kəndli paltarları geyinərək, digər bir hissəsi də xizəklərlə və ya piyada olaraq sərhəddi keçib, Finlandiyaya sığındılar. Onların təxminən 75 il boyunca Rusiyada davam etdirdikləri hegemonluq beləcə, sona çatdı. Nəticədə hamısı birdən Parisə getdilər və Meurice Otelində yerləşdilər. Burada toplaşıb neft imperiyalarından nə qədərini xilas edə biləcəklərini və necə xilas edə biləcəklərini müzakirə etdilər.

Nəhayət, çıxış yolunu tapdılar. Malı ucuza satacaqdılar. Deterdingə təklif etdilər ki, əllərində nə qədər rus neft müəssisəsi varsa, hamısını ona satmağa hazırdırlar. Ölkə hələ qarmaqarışıqlıq içindəydi və vətəndaş müharibəsinin nəticələrinin necə olacağı, müharibənin nə gətirəcəyi heç kimə məlum deyildi. Deterding olunan təklifi dərhal, bir növ qaparcasına qəbul elədi. Bu, onun üçün rus neftinə hakim olmaq deməkdi. İndi artıq görüləcək bir iş qalırdı - bolşeviklərin məğlub olmasını gözləmək. Deterding vaxt itirmədən Nobellərlə anlaşmaq üçün Anqlo-Pers təsisləri ilə Lord Covdray təsislərini də öz tərkibinə alacaq və özünün də rəhbərlik edəcəyi bir təşkilat formalaşdırdı. Bolşevik rejiminin uzun müddət davam etməyəcəyinə ürəkdən inanırdı. Gülbekyana 1920-ci ildə yazdığı bir məktubda deyirdi: "bolşeviklər təxminən 6 ay içərisində təkcə Qafqazdan deyil, bütün Rusiyanın hər tərəfindən qovulacaqlar." Bu inancına baxmayaraq, yenə də bir sığorta poliçəsi olaraq, İngiltərə Xarici İşlər Nazirliyindən siyasi dəstək qarantiyası istəmişdi. Nazirliyin bu tələbi rədd etməsindən sonra, bu dəfə də "davamlı bir hökumət iqtidar olub yerləşənə qədər" Nobellərin ölkədə heç olmasa, bir azınlıq hissəsinə sahib olmasında israr etdi. Nobellər isə bu ölkədəki işlərini tamamən bağlamaq istəyirdilər. Bu səbəblə və Deterdingin də güzəştə getməməsi nəticəsində, görüşlər hər hansı bir nəticə vermədən sona çatdı.

Ancaq ehtiyatda gözləyən bir müştəri daha vardı və doğrusu, bu müştəri sadəcə qaynaqları etibarilə yox, Amerikan hökumətinin siyasi dəstəyini də birlikdə gətirəcək milliyyəti səbəbi ilə Nobellər üçün daha yaxşı "kozır" idi. Bu, Standard Oilun Nyu Jersey qoluydu. Bax, hər zamankından çox fərqli və çox daha təhdidkar şərtlərin hakim olduğu o günlərdə, nəhayət, Amerikan və rus nefti arasında uzun zamandır gözlənilən bir ittifaq imkanı yaranırdı. Bu, Nobellərin 1890-cı illərdə həyata keçirmək istədikləri, ancaq buna nail olmadıqları bir ittifaq idi.

Öz adına bu işlə Jersey Şirkəti də maraqlanmışdı. Valter Teagle və məsləkdaşları bir zamanlar rus neftinin keçmiş Standard Oil Tröstü üzərindəki mənfi təsirlərini, tröstün bəşəri bir neft nizamı yaratmaq təşəbbüslərini necə baltaladığını çox yaxşı bilirdi. Aralıq dənizinin ətrafındakı bazarların Birləşmiş Ştatların ixrac etdiyi neftin əvəzinə, rus neftiylə bəslənməsinin daha ucuza başa gələcəyinin də fərqindəydi. Rusiyadan olunan ixracat Birinci Dünya Müharibəsi gedən zamanlarda dayandırılsa da, istehsalın kifayət edəcək formada yenidən nizamlanması və yeni texnologiyanın da tətbiq olunmasıyla Amerikan neftinin bir daha Avropa bazarlarından qovulacağına inanırdı. Standard Oilun rus nefti üzərində söz sahibi olması, onun qənaətincə, başqa bir rəqibin əlində olmasından nisbətən daha yaxşı idi. Teagle belə deyirdi: "Mənə elə gəlir ki, başqa yolumuz yoxdur. Risqi nəzərə alıb, sərmayəni indi qoymalıyıq. Əgər sərmayəni indi qoymasaq, Rusiyadakı istehsala əhəmiyyətli təsir göstərmək, nüfuz etmək şansımızı itirmiş olacağıq." Nobellər artıq heç bir zaman yenidən sahib ola bilməyəcəkləri neft yataqlarını satmağa çalışırdılar - buna baxmayaraq, Jersey və Nobellər





arasında gərgin müzakirələr gedirdi. Teaglenin sözünü etdiyi "risq", 1920-ci ilin aprel ayında bolşeviklərin Bakını yenidən ələ keçirib, neft yataqlarını milliləşdirməsiylə daha da "həqiqi" bir hal almışdı. Bu arada Bakıda iş görən ingilislər həbs olunur, "nobelçilər" olaraq tanınanlardan bəziləri casus olduqları iddiasıyla məhkəmələrə çəkilirdi. Ancaq bütün bunlara baxmayaraq, yenə də "birdən bolşeviklər məğlub oldular", "bəlkə də qaytardılar" ehtimalı və düşüncəsi o qədər hakimdi və insanlar bolşeviklərin məğlub olunacaqlarına o dərəcədə inanmışdılar ki, Jersey-Nobel müzakirələri heç bir maneəçiliklə qarşılaşmadan davam etdi. 1920-ci ilin iyul ayında - milliləşdirmə qərarından hələ 3 ay keçməmişdi ki, müqavilə tamamlanmışdı. Müqavilənin şərtlərinə görə, Standard Oil Nobellərin Rusiyadakı neft müəssisələrinin yarısının üzərində nəzarət haqqına sahib olur, bunun qarşılığında isə çox aşağı bir məbləğ ödəyirdi. Torpaqlar, ilk əvvəl tələb olunan qiymətin 6.5 milyon dollar endirimiylə və 7.5 milyonluq ödəmə vədiylə satılmışdı. Bu pul qarşılığında Standard, 40 faiz neftayırma zavodları, 60 faiz də rus daxili bazarı olmaqla, Rusiya neft istehsalının ən azı üçdə birini öz nəzarətinə götürürdü. Bütün bunlara baxmayaraq, qərb neft şirkətləri nəyə inanırlarsa inansınlar, "risq" həqiqətən çox böyük, üstəgəl də çox bariz, ortada idi. İndi gündəmdə "aman, birdən yeni bolşevik rejimi yıxılmaz, əksinə, yaşamağa davam edərsə" sualı dururdu. Kommunistlər gələr-gəlməz neft yataqlarını milliləşdirmişdilər. Bəlkə də bu yataqları özləri işlədəcəkdilər? Bəlkə beynəlxalq səviyyəli hərraca çıxacaqdılar? Kim bilirdi?!

O dövrlərdə və ondan sonrakı günlərdə kapitalistlərlə kommunistlər arasındakı söz duelində bolşeviklərin təmsilçiliyini Leonid Krasin adında qabiliyyətli və yaradıcı

Xarici Ticarət Komissarı edirdi. Uzun boylu, qələmlə çəkilmiş kimi müntəzəm xətləriylə və uzun sivri saqqalıyla kübar və inandırıcı bir havası vardı. Görünüşünə görə uyğun bir insana oxşayır, qərblilərin gözlədiyi qana susamış dəli görünümündən çox fərqli bir portret cizirdi. Arada bir xanımlara göz atmaqdan da geri qalmazdı. Bir ingilis xanımın səmimiyyətlə söylədiyi kimi, "Varlığının hər zərrəsində soylu bir ailədən gələn yaxşı yetişmiş bir insanın keyfiyyətləri vardı. Məlumatlı, soylu və həqiqi bir aristokratdı." Bütün silahdaşları kimi Krasin də kapitalistləri anlaya bilmişdi, çünki özü də bir kapitalist idi. Müharibədən əvvəl Bakı Elektrik Şirkətinin müdiri vəzifəsində işləmiş, burada hamının hörmət və ehtiramını qazanmış, daha sonra da böyük alman firması Siemensin Rusiya təmsilçiliyini etmişdi. Bu vəzifələri icra etdiyi sırada, eyni zamanda gizli olaraq bir başqa işdə daha çalışmış, Leninin təbiriylə desək, Bolşevik İnqilabının baş texnokratlığını və "Maliyyə Nazirliyi" vəzifəsini yerinə yetirmişdi. Özü haqqında tez-tez "Mən keçmişində heç bir kölgə olmayan bir adamam" deməkdən xüsusilə xoşlanırdı. Müharibə əsnasında Çar Rusiyasının rəsmi vəzifəsi olaraq, rus savaş iqtisadiyyatının baş memarlarından biri olmuş, bu da dostu olan inqilabçılarla münasibətlərini zaman-zaman çətinə salmışdır. Bir dəfə bolşevik tərəfdarlarından biri olan bir yoldaşıyla aralarında baş verən bir anlaşılmazlıq səbəbindən o dərəcədə narahat olmuşdu ki, tam bir həftə ət yeməmiş, sadəcə qısır südüylə bəslənmişdi. Ancaq bolşeviklər bu adama və onun idarəçilik qabiliyyətinə möhtacdılar. Hər nə olsa da, özü bolşevik iyerarxiyasında iş adamı olan yeganə şəxsdi. Bu səbəblə inqilabdan iki ayrı mənsəb qazanaraq çıxmışdı. Bunlar Xarici Ticarət Komissarlığı və Nəqliyyat Komissarlığı idi. Bu iki əhəmiyyətli vəzifəsi səbəbiylə əməlli-başlı qaranlıq bir mənzərəyə bürünmüşdü.





Standard-Nobel müzakirələrinin nəticəyə bağlandığı əsnada Krasin, bolevik hökuməti adından ticari münasibətləri müzakirə etmək üçün Londona getdi. 1920-ci il may ayının 31-da Baş Nazir David Lloyd Corcun dəvəti üzərinə baş nazirliyin yerləşdiyi Dovning Street 10 ünvanındaydı. Bu, həqiqətən də tarixi bir an sayılır, çünki ilk dəfə olaraq Sovetlər Birliyindən bir təmsilçi Qərbin super güclərindən olan bir hökumətin başçısı tərəfindən qəbul edilirdi. Görüşün səhnəyə bu cür çıxması, ingilislər arasında nifrətlə qarışıq böyük bir əks-sədanın meydana gəlməsinə səbəb olmuşdu. Bu qarşılaşmada Xarici İşlər Naziri divar önündə əlləri arxasında durub, qonaqla əl verib görüşməyi rədd edir və Lloyd Corc sərt bir tonla ona xəbərdarlıq edib "Gürzon, bir centlemen kimi hərəkət et!" deyincəyə qədər, bu vəziyyətdəcə qalırdı.

O gündən sonrakı günlərdə Anqlo-Sovet müzakirələri çətinliklə də olsa, davam etmişdi. Bir ara birbaşa Leninin özü Londonda müzakirələrdə olan Krasinə göndərdiyi gizli bir mesajda belə deyirdi: "Lloyd Corc adlanan bu donuz adam, ən xırda bir vicdan ağrısı və utanc hissi keçirmədən insanları aldada bilir. Onun söylədiyi heç bir sözə inanmayın və siz də onu, onun sizi aldatdığının 3 qat daha artığı qədər aldadın." Müzakirələrin davam etdiyi zaman içərisində Krasin, ticarətə maraq göstərən iş adamlarının iştahalarını oyandırmağa nail olmuşdu. Ancaq yenə də zəif tərəf sayılırdı, çünki Sovetlər Birliyi gedərək iqtisadi fəlakətə doğru sürüklənir, sənaye baxımından geri, istehsalda yetərsiz, inflyasiya altında əzilən, ciddi sərmayə sıxıntısı çəkən bir ölkə olma yoluna qədəm qoyurdu. Getgedə qıtlığa çevrilməkdə olan qida çatışmazlığı ilə qarşıqarşıyaydı. İnkişaf etmək, istehsala başlamaq və təbii qaynaqlarını sata bilmək üçün mütləq xarici sərmayəyə ehtiyacı vardı. Bu hədəflərə nail olmağa təşəbbüs göstərərkən,

sadəcə bir ehtiyaca cavab verirdi, o qədər. 1920-ci ilin bir noyabr günündə Moskva yeni bir siyasət həyata keçirəcəyini elan etdi. Xarici sərmayədarlara imtiyaz təklif olunacaqdı.

Sonra 1921-ci ilin martında Lenin daha da irəli gedir, Yeni İqtisadi Siyasət deyə bilinən yeni siyasəti elan edirdi. Bu yeni siyasət, ölkədaxili bazarlamada çox daha əhatəli bir sistem təklif edən, xüsusi müəssisələrin təkrar işlətməyə başlamasına istiqamətlənən, Sovetlərin xarici ticarət anlayışını və imtiyaz satma təmayülünü genişlədən bir siyasətdi. Əslində bu, Leninin duyğu və düşüncələrinin dəyişdiyini göstərən bir siyasət deyildi. Lenin çox təcili və zəruri bir ehtiyaca cavab verirdi, o qədər.

Lenin bir açıqlamasında "xaricdən təchizat və texniki yardım almadan öz qüvvələrimizi yenidən səfərbər etməyimiz, darmadağın vəziyyətdəki iqtisadiyyatımızı toparlamağımız mümkün deyildir" deyirdi. Bu yardımı əldə etmək üçün "ən güclü imperialist şirkətlərə böyük imtiyazlar verməyə hazırdı." Bunun neftlə bağlı ilk iki nümunəsi - "Bakının dörddə biri, Qroznının dörddə biri" məsələsi idi. Artıq neft, bir daha Çar Rusiyasının dövründəki kimi ən keçərli ixrac maddəsi olmuşdu. Bir bolşevik qəzetinin yazdığı kimi, neft, bir növ "maye qızıl" sayılırdı.

Leninin Qərblə yaxınlaşmasına o biri yoldaşlar şiddətlə qarşı çıxdılar. Bunların arasında şübhəçiliyi ilə tanınan Stalin də vardı. Stalinin xəbərdarlığına görə, Sovetlər Birliyinə gələcək iş adamları "burjua dünyasının ən mahir casuslarıydı" və təmasların daha çox sıxlaşdırılması, Rusiyanın zəif tərəflərini gözlər önünə sərəcəkdi. Buna baxmayaraq, Leninin Yeni İqtisadi Siyasəti elan etməsindən bir həftə sonra Krasin bu siyasəti təsdiq edir, Londonda Anqlo-Sovet Müqaviləsi imzalanırdı. Bu müqavilə imzalandıqdan sonra, Krasin böyük bir ustalıqla





bir çox şirkətə yaxınlaşır, yeni neft imtiyazları təklif edirdi. Bu arada bir şirkəti o biri şirkətə qarşı çevirmək üçün dedi-qodular yaymağı da yadından çıxarmırdı.

Deterding Nobellə bir anlaşma imkanını qaçırdığı üçün xəyal qırıqlığına uğramamağa qərarlıydı. Bəli, onun qənaətinə görə, xəyal qırıqlığına uğramaq üçün elə bir səbəb də yox idi. O da Nobellər kimi Standard Oilun Rusiyaya girməsiylə xarici sərmayədarların hamısının sığortalanmış sayılacağını düşünürdü ki, bunlara Hollandiya Kraliyyət/Shell də daxildir. Əskidən Rotşildlərə aid olan təsislərin sahibliyini almaqdan məmnun halda Gülbekyana bunları söyləyirdi: "Rus masasında indidən yaxşı oturacaqlarımız var və yeyəcəyimizin ən böyük hissəsi də hələ Rusiyadakı masanın üzərində bizi gözləyir. Bu yeməyi bizim kimi münasibət göstərənlərlə bir yerdə yemək çox daha yaxşı olacaq." Ancaq Deterding öz təsisləri gözüylə baxdığı təsislərin bolşeviklər tərəfindən satılmasına passiv də olsa, göz yumaraq masadan kənarda qalmağa niyyətli deyildi. Bu mövzuda Valter Teagle də eyni görüşləri paylaşırdı.

## Birləşmiş cəbhə naminə

1922-ci ildə Jersey, Hollandiya Kraliyyət/Shell və Nobellər "Birləşmiş Cəbhə" adıyla bir blok formalaşdırmağa girişdilər. Məqsədləri Rusiyada onlara aid olan müəssisələri və davam etdirdikləri ticari fəaliyyəti rus təhdidinə qarşı qorumaqdı. Zamanla bloka 12 ədəd şirkət daha qoşuldu. Bloka üzv olan hər şirkət Sovetlər Birliyinə qarşı tək-tək deyil, bərabərcə savaşacaqlarına dair söz verdilər. Milliləşdirilmiş təsislər üzərindən təzminat tələbinə və bir-birilərindən xəbərsiz ruslarla hər hansı

əlaqə yaratmaqdan qaçınma qərarı aldılar. Amma həqiqət budur ki, "Tacir Qardaşlar" deyə bilinən bu birlik, nəinki Sovet İttifaqına, hətta bir-birilərinə belə inanmırdılar. Bu inamsızlıq səbəbiylə o boyda andiçmələrə və vədlərə baxmayaraq, "Birləşmə Cəbhə" bloku yarandığı gündən başlayaraq, hər zaman son dərəcə qeyri-sabit fəaliyyət göstərmiş, qeyri-sağlam bir zəmin üstündə bərqərar olmuşdu. Kapitalistləri və kapitalistlərin rəqabət niyyətlərini yaxşı bilən Leonid Krasin də böyük bir ustalıqla şirkətləri bir-birinə qarşı qoymağa başlamışdı.

O dövrdə dünyanın bir çox bazarında şirkətlər ucuz rus nefti üçün rəqabət aparır, bu rəqabətin dozası və basqısı da gedərək artırdı. 1920-ci ildən 1923-cü ilə qədər təsirsiz olan Sovet neft sənayesi o illərdə sürətlə özünü toparlamış, Qərb texnologiyasının da ölkəyə daxil olmasından rahatlayan Sovet Sosialist Ruspublikaları İttifaqı - SSRİ dünya bazarına ixracatçı olaraq girməyə nail olmuşdu. Jersey şirkətinin yüksək səviyyəli rəhbərləri çətin vəziyyətdə qalmışdılar və nə edəcəklərini bilmirdilər. Öz neftlərinin qiyməti nə olursa olsun, daha ucuz olan rus nefti satın almağa başlasınlarmı, yoxsa əxlaq və iş qaydalarına sadiq qalaraq, geriyəmi dursunlar? Qərar verə bilmirdilər. Teagle isə o sıralar Nobel müəssisəsinə sərmayə qoymaqdan peşimançılıq duymağa başlamışdı. "İndi əməlli-başlı başa düşdüm ki, qucağımızda bu xarakterdə xəstə bir uşaqla illər boyu oturub ona dayəlik etmək əvəzinə, eyni miqdar pulu daha başqa, dərhal səmərə verən bir işə yatırsaydıq, daha yaxşı olacaqmış" deyirdi.

Standardın Almaniya təmsilçisi Henrix Riedemann isə işlərə fərqli nəzərlərlə baxırdı. Onun qənaətincə, özəl şirkətlər hələ dövlətləşdirmə və milliləşdirmə əməllərinə qarşı, hüquqlarını müdafiə edəcək hala gəlməmişdi.





Bu haqda bunları söyləmişdi: "Bir hökumətin, Rusiyada olduğu kimi, sənaye təşəbbüsündə və iqtisadi işlərdə iştirakı alışılmamış bir şeydir və iş həyatının keçmişində belə bir şey yoxdur. Sovet ideologiyasına yardımı heç birimiz istəmərik, amma əgər başqaları buna qatılırsa, biz niyə qatılmayaq?" Həqiqətən də, Riedemannın söylədiyi kimi, o biri qərbli qruplar indidən qapıları aşındırmağa başlamışdılar. Bəziləri səssizcə, bəziləri isə daha israrlı şəkildə qapıları döyə-döyə durur, Bakıdan Qafqazlara, Sibir sahillərindəki Saxalin adasına qədər Sovetlər Birliyinin hər yanında imtiyaz istəyirdi. Qafqazlardakı müəssisələr, daha əvvəl Jersey, Shell və başqa şirkətlərin özlərinə aid olduğunu iddia etdikləri müəssisələrdi. Bir ara, sanki vəziyyəti daha da pisləşdirmək istəyirmiş kimi, bu təsislərdəki nefti Sovetlər Birliyi, öz malı kimi satmağa başladı.

Artıq Sovetləri oyundan kənar qoymağın yeganə bir yolu qalmışdı. Jersey və Shell bir araya gəlib rus nefti satın almaq üçün bir təşkilat formalaşdırmalıydılar. Teagle bu fikri bəyənməmişdi. "Bu cür düşünməklə geri qafalı kimi hərəkət etdiyimin fərqindəyəm. Amma siz nə deyirsiniz deyin, evinizi talayan və malınızı oğurlayan bir adamla dost olmağa çalışmağın nə xeyir gətirəcəyini başa düşə bilmirəm. Məncə, bu qərar doğru deyildir" deyirdi. Ancaq o biri Amerikan şirkətlərinin gedərək, Rusiyadan daha çox neft satın aldığı və bunu Jersey şirkətiylə yarışmaq naminə etdiyi müşahidə olunduqca, şirkət içində Rusiya ilə iş görməmək tərəfdarı olanların etirazı sona yetdi. 1924-cü ilin noyabr ayında Jersey və Shell müştərək bir satınalma təşkilatı qurdular və Sovetlərlə iş görmək imkanları axtarmağa başladılar. Məsələnin bu şəkildə həll olunmasından Teagle məmnun qalmamışdı. Bunun səbəbini vaxtının az, günlərin çox düşünməyə əlverişli

olmayacaq qədər qısa olmasında görürdü. Teagle, Riedemanna yazdığı məktubda bunları söyləyirdi: "Geriyə dönüb bu 6, 8 ay içərisində hansı işləri gördüyümüzə baxdığımda, Rusiyadan neft almaq kimi bu dərəcədə əhəmiyyətli bir işi necə olub da lazım olan diqqəti vermədən nəticəyə bağladığımızı görür və həqiqətən heyrətə gəlirəm. Görəcək o qədər çox işimizin olmasına və iş günümüzün bu dərəcədə dolu olmasına, bütün bunlara baxmayaraq, bəzi yanlışlıqlar etdiyimizə təəssüf edirəm. Əgər belə olmasaydı, mövzunu yaxşı bir məntiqlə düşünə bilmə şansımız olsaydı, zənn edirəm ki, sağlam bir nəticəyə vara bilərdik."

Teagle, Hollandiya Kraliyyət/Shell ilə əməkdaşlığa normal yanaşır, Sovetlər Birliyi ilə əməkdaşlığa isə razılıq vermirdi. Bu haqda Riedemanna aşağıdakıları yazmışdı: "Sovetlərə neft üçün bazar vermək demək, sadəcə oğurlanmış bir əşyanın alıcısı olmaq deyil, eyni zamanda oğrunun etdiyini onun üçün daha da qazanclı vəziyyətə gətirmək, onu yeridiyi pis yolda daha da ürəkləndirmək deməkdir." Riedemann isə baş idarəçi Teagleni sakitləşdirmək istəyərək, 1925-ci ildə, Yeni İl gecəsi ona bu cavabı göndərirdi: "İnsan deyilən məxluq qəribə bir varlıqdır. Bütün qarşılaşdığı bu qədər xəyal qırıqlıqlarına baxmayaraq, hər il yeni-yeni ümidlərlə təkrar işə başlayır. Biz də səninlə eyni işi görək!"

Çox keçmədən, Jersey ilə Shell Sovetlərlə neft satın almaq üçün ortaq bir düzənləmə etməyi zəruri gördülər. Düzənləmədə nəzərə alınırdı ki, satın alma qiymətinin 5 faizi daha əvvəlki neft sahiblərinə təzminat olaraq ödənmək üçün ayrılsın. Bu düzənləməni şəxsən həm Teagle, həm də Deterding şübhəylə qarşılamış, inanmamışdılar. Qeyd olunan müqavilə 1927-ci ilin əvvəllərində pozulanda, Deterding durumdan məmnun qalmış, Teagle isə bunları





yazmışdı: "Sovetlərlə anlaşma bazarlığından nəticə alınmadığına görə son dərəcə məmnunam. Bunu hiss edirəm ki, bu quldurlarla hər hansı bir iş görənlər gələcəkdə bundan peşimançılıq keçirəcəklər. Çünki bunların yeganə məqsədi bütün mədəniyyəti və mədəni dünyanı məhv etmək, əski qaba qüvvəni yenidən geri qaytarmaqdır."

Deterdingin Sovetlərə qarşı hesablarında bir az da şəxsi duyğularının rol oynadığı açıqdır. Belorusiyalı bir didərgin olan Lidiya Pavlovna ilə evləndikdən sonra antikommunist düşüncəyə daha sədaqətlə bağlanmış, fikirlərini daha açıq və cürətlə ifadə etməyə başlamışdı. Hətta Con D.Rokfeller Jr-yə teleqraf çəkərək, Standarddan meydana gələn şirkətlərin rus nefti almamalarını istəmişdi. Hollandiya əsilli bu adam Rokfellerə "yalvarmış", ondan "insanlıq adına" "bütün ağıllı adamların" "Sovetlərin pul qazanmasına yardımçı olmamaları" üçün çalışmasını xahiş etmişdi. Rokfellerə bu rejimin "İsaya qarşı" olduğunu söyləmişdi. Bu sözlərə əlavə edərək, Rokfellerə şirkətlərinin "qana bulaşmış qazanc" ...istəməmələrinin vacibliyin izah etməyə çalışmışdı: "Əgər şirkətləriniz dəstək verməzsə, Sovetlərin bu canicə sistemləri çox yaxınlarda sona çatacaqdır."

## Qiymət savaşı

Deterdingin arzu və tələblərinə baxmayaraq, Standard Oildan törəyən şirkətlərdən daha ikisi - Nyu York Standard və Vacuum - Sovetlər İttifaqı ilə əlaqə yaratmaq baxımından, öz bildiklərini etdilər. Bunlardan Nyu York Standard şirkəti, ruslar üçün Batumidə bir qazyağı fabrikası qurdular və bunun üçün böyük bir ərazini icarəyə götürdülər. Şirkətlərin hər ikisi də öz aralarında anlaşaraq,

xüsusilə, Hindistan və daha başqa Asiya bazarları üçün böyük miqdarda rus qazyağı satın aldılar. Socony də Hindistandakı bazarları üçün rus nefti istəyirdi. Shell şirkətinin Hindistandakı bazarlarını təmin etmək üçün neft alacağı əlavə qaynaqları olsa da, Socony şirkətinin başqa qaynaqları yox idi.

Bu şirkətlərin rus nefti alması Deterdingi çox əsəbiləşdirmişdi. Socony Şirkətinin başçısı C.F.Meyeri "şərəfsiz və ağılsız bir adam" olaraq qınayacaq qədər irəli getmişdi. Nəhayət, 1927-ci ildə öz sözləri ilə "Socony xəyanətinə" cavab olaraq Hindistanda amansız bir qiymət savaşına girişdi. Bununla da kifayətlənmədi. Savaşı bütün dünyanın hər yerində yerləşən başqa bazarlara da yaymaq istədi. Socony bu davranışa etiraz edəcək, o da öz hesabına öz bildiyi bazarlarda qiymət endiriminə gedəcəkdi. Bütün bunlardan sonra Deterding, yenə də əsəblərinə hakim ola bilmədi. Bu dəfə də "kommunist" nefti satın alan Standard of Nyu Yorka qarşı mətbuatda bir anti-kommunist kampaniya başlatdı və bu kampaniyanı sırf bir orkestr şefi - dirijor kimi idarə etdi. Standard Oildan törəyən şirkətlərə qarşı xalqda və Deterdingin beynində bunların Standard Tröstündən (Monopoliyasından) bir elə də fərqli olmadıqları qənaəti formalaşdı. Bu səbəblə də Deterding bunlara inanmamağa başladı və şübhəyə qapıldı. Buna görə də Standard Oil of Nyu Jersey də çox keçmədən istənməyən şirkətlər sırasına qatılırdı. Ancaq Jerseyin də "kommunist" neft alan şirkətlərlə bir yerdə ittiham olunması Valter Teagleni həddindən artıq narahat etmişdi. İşin maraqlı cəhəti orada idi ki, başından bəri Deterdingin istədiyi də bu idi. Bu haqda Deterding, Jersey rəhbərlərindən birinə məktub yazaraq, təhdidkar bir davranışla bunları söyləyirdi: "Biz indi o dərəcədə nəhəng hadisələrlə qarşı-qarşıyayıq





ki, sizinlə məşğul olacaq vaxtımız yoxdur. Bu cür problemləri Jersey şirkəti öz-özünə həll etməlidir." Yazısında istifadə etdiyi ifadəylə Jerseydən bir şey gözlədiyini, onun Socony şirkətini vaxt itirmədən düz yola qaytarmasını istədiyini heç bir şübhəyə yol verməyən üslubla açıq-aşkar bəyan edirdi: "Hər şeyə baxmayaraq, Jersey ən böyük Amerikan neft şirkətidir və gələcəyi çox parlaqdır. Onun yanında çox kiçik bir şirkət olan Nyu Yorka, onun Jersey Şirkətinin xidmətçisi olduğu, Jerseyin patronu olmadığı bildirilməlidir" deyirdi. Yeri gəlmişkən, Deterdingin planına uyğun olaraq, bu sözlər lazım olan təsiri göstərdi. Jersey vaxt itirmədən Rusiyadan neft aldıqlarına görə, o biri iki şirkəti ictimaiyyətin gözlərinin qarşısında tənqid etməyə başladı. Bu mövzudan Teagle özünə bir təsəlli payı çıxarmışdı. Düşüncələrini bu sözcüklərlə dilə gətirirdi: 'Avropanın başı işləyən insanları ilk dəfə bunun fərqinə vardılar ki, Standard Oil şirkətlərinin hamısı bir-birinin eynisi deyildir."

Jersey Şirkəti İngiltərə hökumətinin təzyiqi altında olan Deterdingin Sovet İttifaqı ilə imzalanan ortaq satın alma müqaviləsindən çıxmasına inanmırdı. Ancaq qiymət savaşının bu dərəcədə sürətli tepmlə davamı bunu mümkün etmədiyi üçün, yüksək çinli bir ingilis dövlət məmuru amerikalılara təminat verdi və belə bir şeyin mövzu bəhsi olmadığını söylədi. Bu məmur bir yazısında bunları yazırdı: "Cənab Henri Deterdingin taktikadan başı çıxmaz. Bacarıqsızlığı ucbatından hər zaman başına iş açar. Ruslar Shell və Jersey şirkətləriylə bağlanması nəzərdə tutulan ortaq satınalma müqaviləsinin müzakirə olunduğu zaman təzminat mövzusunun necə tənzimlənəcəyi haqqında sual soruşanda, Cənab Henri çılğına dönmüş, rusların üzünə qarşı - kimsəyə Sovet nefti satın aldırmayacağını, buna

əngəl olacağını söyləmişdi... Bu hərəkət məncə həm son dərəcə axmaqca bir hərəkətdi, həm də tam onun xarakterini əks etdirən bir davranışdı... Alıcıların Sovet nefti satın almalarını əngəlləmək mümkün deyildi. Bu, açıqca ortadaydı. Cənab Henrini bu dərəcə əsəbiləşdirən, Standard Oil Nyu Yorka yumruğunu endirdən və neft satışına icazə verməyəcəyi ifadəsinin, əslində qismən öz çarəsizliyindən irəli gəldiyi də apaçıq ortadaydı."

Bir gün tabeçiliyindəki hollandiyalı müdirlərin evində verilən bir axşam yeməyində Deterding, hadisələrin axışını bir də öz baxış bucağından anlatmışdı. Anlatdığı bunlardı: "Nisbətən sülh şəraitində keçən bir neçə ildən sonra birdən-birə özümüzü Burmanın hücumuna uğrayan gördük. O Burma ki, bu gün Nyu York Standard oradan Sovet nefti satın alır. Ən yaxşı müdafiənin hücum olduğuna inanaraq, bu meydan oxumaya müqavimət göstərmək istədim və elə o gündən bəri də rəqibimizin müdafiə xəttindəki zəif nöqtələri tapmaq üçün var gücümlə çalışdım. Buna inanıram ki, heç olmasa bu dəqiqə Hollandiya Kraliyyətin Sovet nefti ilə əlaqəli münasibəti bir daha açıqca ortadadır və bu, bizim fəaliyyətimizin nəticəsidir."

Hər şeyə baxmayaraq, zadəgan ruhlu iki Amerikan Şirkəti - Vacuum və Standard of Nyu York - yenə də Deterdingə boyun əymədilər. Vacuum Şirkətinin sədrinin açıqladığına görə, Vacuumun ixracat sistemi Hollandiya Kraliyyət/Shellin ixracat sistemiylə rəqabətdə idi. Vacuum ixracat sistemində ucuz neftdən bəhrələnirdi. Elə bu səbəbi irəli sürən Vacuum şirkətinin sahibi, Deterdingin əsil məqsədinin şirkəti bu neftdən məhrum etmək və beləliklə, ixraca əlverişli rus nefti üzərində monopoliya yaratmaq olduğunu söyləyirdi. Bundan başqa, şirkətin sədri bir müşahidə daha etmiş, iki şirkət Amerikan prinsiplərini çiynəməklə ittiham olunarkən, amerikalı iş adamlarının və





kənd təsərrüfatı ilə məşğul olanların durub-dincəlmədən Rusiyaya pambıq və daha başqa ixrac maddələri satdığını görmüşdü. Bunları görüncə, ortaya belə bir sual atmışdı: "Rusiyadan mal satın almaq Rusiyaya mal satmaqdan daha ədalətsiz bir hərəkətdirmi?" Bu sual uzun zaman yaddaşlardan silinməyəcək, illərlə soruşulmağa davam edəcəkdi.

1920-ci illərin axırlarında məlum olan böyük şirkətlər, artıq rus nefti mövzusundan bezmişdilər. Sərvətlərini yenidən ələ keçirmək və ya yatırımlarını azaltmaq artıq geridə qalmış, keçmişlərdə xatırlanan bir məqsədə çevrilmişdi. Bundan başqa, Baba Gurgur bölgəsindəki neft partlaması, bütün diqqətləri Orta Şərqin yeni neft yataqlarına çəkmişdi. Vəziyyəti dəyərləndirən Jersey rəhbərliyi orta bir yol izləmə qərarı verdi: Sovetlərlə birgə nəzarətə istiqamətlənməmək, amma boykota da getməmək. 1927-ci ilin payızında mövzunun xülasəsini verən Riedemann belə deyəcəkdi: "Mən şəxsən Rusiyanı torpağa basdırdım."

Baxmayaraq ki, Riedemann Rusiyanı basdırdığını söyləyirdi, ancaq hadisələrin seyri torpaq altındakı cəsədin çox canlı göründüyünü sübut edəcəkdi. Çünki ağzına kimi dolu və tox olan dünya bazarına gedərək daha çox neft girməyə başlamışdı. Deterdingin səbəb olduğu amansız qiymət savaşı, Hindistanda və daha başqa yerlərdə rus neftinə istiqamətlənirdi. Ancaq bu dəfə beynəlxalq neft oyununda rol alan hər kəs üçün bu savaş çox daha böyük və əhatəli nəticələrə səbəb olacaqdı.

# 13

## NEFT SELİ

Adı Columbus Joiner idi. Sonradan, bütün olan hadisələrin "atası" olduğu üçün, ata mənasını verən "Dad" sözcüyündən ötrü adı Columbus Dad kimi çıxsa da, əsil adı bu idi. 1930-cu ildə, 70 yaşında, revmotizma xəstəliyi səbəbiylə beli önə doğru əyilmişdi. Bu görünüşüylə sanki səkilərdə bir şeylər axtarırmış kimi addımlayırdı. Görünüş etibarilə taleyin zərbəsini yediyi halda, yenə də alın yazısının hökmünə boyun əymiş və hər zaman optimist qalmağa nail olmuş klassik bir tipin karikaturası kimiydi. Şirin dilli idi və inandırma qabiliyyəti vardı. Onun yaşındakı bir adamda nadir rast gəlinən ipək yumşaqlığı kimi bir cildi vardı ki, özü bunu çox kök yeməsinə bağlayırdı. Aldığı təhsilə gəlincə, məktəbə sadəcə altı həftə davam etmiş, ancaq sonradan Alabamadakı ailəsinə aid təsərrüfatda xüsusi təhsil alaraq, oxuma-yazmanı öyrənmişdi. İncili oxuyacaq qədər oxumaq, Qədim Axiti kopya edəcək dərəcədə də yazı öyrənmişdi. Gələcək üçün ümid vəd edən olaylardan səmərəli istifadə etməyi, kiçik çapda cəlbedici nəticələr törədən hadisələr çıxarmağı bacarırdı. Lazım olduğu zaman ovsunlayıcı və zərif bir üslubla eşq məktubları yazmaqda da ustaydı. Bu məktubları, qəzetdə zəngin bir kişinin ölüm elanını oxuduğu zaman, ölənin dul qalan arvadına yazardı. Şübhəsiz ki, əsil maraqlandığı şey bu dul qadınların qəlbləri yox, pul kisələriydi.

Cənab Joiner 1920-ci illərin saysız neft ovçularından sadəcə biridir. Bu tarixin son 10 ili içərisində neft





ehtiyatları və neft bazarlıqları günün alovlu macərapərəst ab-havası içində insanları çılğıncasına qızışdırıb, özünə doğru çəkirdi. Və bu qumar vərdişkarlığı hamı üçün dayanılmaz ehtirasa çevrilmişdi. Yale Universitetinin 1923-cü ildə məzun olacaq son kurs tələbələrinə bir neft mütəxəssisi olaraq belə bir sual vermişdi: "İş həyatına 100 dollar sərmayə ilə başlayan və sonradan bu sərmayəni 50 min dollara qədər çıxaran iş adamına necə baxırsınız? Ona görə də artıq işə bizimlə bir yerdə başlamağınız və biz nailiyyətdən nailiyyətə irəlilədikcə yanımızda olma zamanınız gəlmişdir." İş adamlarından bəziləri isə satış işini 100 faiz həyata keçirmək istəyir, lazım olanda ehtimal olunan sərmayədarları neft tarlalarında piknik gəzintisinə çağırıb "yüngül piknik yeməyi və isti hava"ya qonaq edirdi. Bəziləri də təşfiq əməliyyatlarını poçt vasitəsilə göndərir, bir çox şey vəd verən saysız-hesabsız məktublar yollayır, qarşılığında nəğd pul həvaləsi və çeklərlə doldurulmuş çuval-çuval cavablar alırdılar: Heç bir sual-cavab ehtiva etməyən cavablar... Təşəbbüskarlardan birinin, Dr.Fridrix Cookun iddiasına görə, Admiral Pearyni Şimal Qütbü yarışında məğlub etmişdi. Bir ay ərzində tam 300 min məktub almış, bunlardan da bir il içərisində 2 milyon dollar pul qazanmışdı. Və bu hal federal orqanlar tərəfindən həbs olunana qədər beləcə davam etmişdi. General Lee mövzusuna gəlincə, onun tərbiyəsizliyi ilə çox az adam yarışa bilərdi. Vəziyyət belə idi: iki iş adamı bir yolunu tapıb General Robert E.Leenin nəvələrindən birinin - Robert A.Leenin damarını tutur və onu ölkənin dörd bir yanındakı sərmayədarlara bu sözləri söyləməyə inandırırdı: "Fredericksburg və ya Şanşölye ünvanı qazanmaqdansa, sizin lideriniz olub, sizi və daha minlərlə adamı maliyyə müstəqilliyinə qovuşdurmağı seçirəm."

O biriləri ilə müqayisə olunduğunda Dad Joinerin sadəcə kiçik miqyaslı bir iş adamı olduğu ortaya çıxır. Ancaq bir xüsusiyyəti vardı. Ağılsız olan bəzi adamların dollarlarını almaqdansa, özü pul yığıb, neft axtarışına çıxmaq istəyirdi. Buna görə də Dallasda fəaliyyət göstərməyə başladı. Bir çox iş adamları ilə birlikdə St.Luisin pivəçi ailəsi Buşların tikdirdiyi Adolphus Otelinin foyesində dolanmağa başladı. Bir ara gözləri - dağlıq-təpəlik bir ərazi olan, şam ağacları və Birinci Dünya Müharibəsinin sonundakı depressiyalardan payını almış, qumla zəngin Şərqi Texas ərazisinə düşmüşdü. Bölgənin ən önəmli iki böyük qəsəbəsi - Overton və Hendersonda səkisi olan bir küçə belə yox idi. Bölgənin taleyin silləsini yeyən xalqı üçün Dad Joiner görkəmli və ümidverici bir xəyal kimiydi. Quraqlıqdan çat-çat olan qısır torpaqların altında "kainatdakı bütün kralların belə həsəd aparacağı" qocaman bir neft dənizinin yatdığını vəd edən bir xəyal.

Joinerin Şərqi Texas planından xəbəri olan geoloqların əksəriyyəti Joineri məsxərəyə qoydular. Onu ələ salmadıqları zaman da üzünə güldülər. Onların gəldiyi qənaət o idi ki, Şərqi Texasda neft yoxdur. Ancaq Joiner, burada neft olduğuna inandırılmışdı. Onu buna "Doc Lloyd" adındakı əsrarəngiz, öz-özünü yetişdirmiş, öz qabiliyyətinə inanan, 140 kiloqram çəkisi olan, Sombrerolara və maraqlı çəkmələrə marağı olan bir adam inandırmışdı. Bəzi adamlar bu şəxsin veterinar, bəziləri isə onun əczaçı olduğunu, hətta bir vaxtlar ölkə miqyasında Dr.Alozzo Durhamın "Böyük Dərman Kampaniyası"nı təşkil etdiyini, bu zaman neftdən hazırlanan bəzi dərman patentlərini satdığını söyləyirdi. "Lloyd" bu adamın həqiqi adı deyildi. Adının dəyişdirilməsinin səbəbi bir gün ölkənin hər yanındakı qəzetlərdə şəkillərinin dərc olunmasıyla anlaşıldı. Məlum oldu ki,





Lloyd bir çox qadınla intim münasibətlərdə olmuş, bunların bəzilərindən uşağı olmuş, sonradan onları tərk etmişdi. Buna görə də Şərqi Texasa gedən qatarlar, itən ərlərinin tapılması üçün hər şeyi edən tərk edilmiş qadınların hücumuna məruz qalır, Lloyd da bundan xilas olmaq üçün başqa bir addan istifadə edirdi.

Dr.Lloyd Dad, Joinerə Şərqi Texas bölgəsinin geoloji xəritəsini göstərən bəzi məlumatlar vermişdi. Ancaq bu məlumatlar yalnız yetərsiz deyildi, eyni zamanda başdan sona qədər yanlış, uydurma, qondarma kağız-kuğuzdan ibarətdi. Lloyda "trendologiya" demək daha doğru olur. Daha açıq bir deyişlə etdiyi bu idi: Amerikanın böyük neft yataqlarını göstərən bir xəritə çəkir, bunların hamısından çıxan və Şərqi Texasa doğru gedən "trend", yəni meyllilik xətlərini göstərirdi. Amma buna baxmayaraq, yenə də Dr.Lloyd unudulmayacaq bir iş görmüş, bu sahədə fövqəladə uğurlu nəticələr əldə etmişdi. Hər kəs bu təşəbbüsə lağ edib, məsxərəyə qoyarkən, ona gülünc bir şey kimi baxarkən, Joiner haranı qazmaq lazımdır, tam dəqiqliklə söyləmişdir.

Qazıntı işlərinə girişmədən əvvəl Joiner əlindəki axmaqlar siyahısında yer alan hər bir axmağa bir məktub göndərdi. Buna Dr.Lloydun Şərqi Texas geologiyasının tərifini verən uydurma açıqlamasını əlavə etməyi də unutmadı. İlk təcrübəni Rusk bölgəsində yerləşən Daisy Bradfordun təsərrüfatında sınaqdan çıxarmaq istəyirdi. Bir yolunu tapdı və bunun üçün lazım olan pulu topladı. İşin lazım olan tempdə davam etməsi üçün inandırma qabiliyyətini səfərbər etməsi və bunu xüsusilə, qadınlar üzərində həyata keçirməsi lazım idi. Hiyləgər neftçi yeri və zamanı gələndə bu haqda bunları söyləmişdi: "Hər qadının boynunun arxasında müəyyən bir nöqtə vardır. Mən bu

nöqtəyə toxunar-toxunmaz, avtomatik olaraq mənə çek yazmağa başlayarlar. Bəlkə də mən qadınların boynunun arxasında yerləşən bu nöqtəni tam doğru müəyyənləşdirən və ondan doğru istifadə edən dünyadakı tək kişiyəm." Bu sözlərə belə bir fikir də əlavə etmişdi: "Təbii ki, çeklər də hər zaman istənildiyi məbləğdə olmur." Joiner şübhəsiz ki, bu sözləri öyünmək üçün söyləmişdi. Əslində söylədiyi qədər də çox pul gəlmirdi.

Neftçiliklə professional şəkildə məşğul olan adamların bir çoxu üçün Dad Joiner konkret olaraq gözlə görülməyən, neftlə əlaqələri pambıq ipliyinə bağlı olan minlərlə təşəbbüskarlardan biri idi - hər biri beynində özünəməxsus düşüncə daşıyan, zəngin olma xəyalı quran, nitq qabiliyyətinə malik olan adamlardan sadəcə biri. 1927-ci ildən başlayaraq, 3 il müddətində neftçi liderlər qıtlıq, neft fışqırması və qanunlar kimi mövzuları müzakirə edərkən, bu haqda alovlu diskussiyalar apararkən, kasıbların ən kasıbı olan Joiner və hər cür nizam-intizamdan məhrum dəstəsi, Şərqi Texasın sıx şam meşəliklərində paslanmış, üçüncü dərəcəli qrupla durub-dincəlmədən, işgəncə çəkərcəsinə, bəzən də qəzaya uğrayaraq, qazıntı işləri aparırdı. Bu əsnada ən xırda məbləğdə belə pul köməyi yox idi. İşçilərinə ödədiyi ödəmələri qismən "kraliyyət sertifikatı" deyə bilinən və müəyyən böyüklükdəki torpaq hissələri ilə ödəyirdi. Verəcək heç bir parası qalmadığı zaman işçilər tarlalarına qayıdar və ya ağla-xəyala gəlməyən qəribə işlərlə məşğul olar, amma axırda yenə də təkrar qayıdıb qazıntı işlərinə gələrdilər. Dad Joiner neft tapma ehtimalı qarşısında o dərəcədə böyük endirimlə satılmış, o qədər çox sertifikat vermişdi ki, zaman keçdikcə bunlar bölgədə keçərli paylara çevrilmişdi. Bu arada Texacodan gələn bir geoloq o günlərdə dəbdə olan zarafatından geri qalmamış, bunları söyləmişdi: "Əgər siz bu dəlikdən neft çıxarsanız, mən də o neftin hər barrelini bircə-bircə içməyə hazıram." Bunlara baxmayaraq, fasiləsiz davam edən bütün cəsarətqırıcı davranışlar qarşısında Joiner və kiçik qrupu bezmir, inanclarını qoruyurdular.





Ancaq taleyin çarxı fırlanır, Dad Joinerin şansı gücünü göstərməyə başlayırdı. 1930-cu ilin sentyabrında Joinerin bəxti üzünə gülməyə başlamış, Daisy Bradforddakı 3 saylı quyu pozitiv nəticə vermişdi. Dad Joiner hadisəni seyr edən seyrçilərə o an qarşı çıxmış, bir az da tərəddüdlə "bunun neft quyusu olduğu hələ dəqiq deyil" demişdi. Bu xəbər qısa zamanda qulaqdan qulağa yayılır, təxminən bir gecə içərisində quyunun sağ tərəfində gecəqondu tipli bir qəsəbə törəyirdi. Hadisədən ümidlənənlər burada toplanıb gözləməyə başladılar. Kəndə - gələcəkdə kahin kimi qəbul olunacaq - Dad Joinerə hörmət əlaməti olaraq Joinerville adı verildi. Hadisənin axarında bir şey əldə etmək üçün bölgəyə minlərlə insan hücum etdi. Havada sanki həqiqətən dini bir hadisənin gözləntisi kimi bir şeylər vardı. Vəd olunmuş bir möcüzənin gerçəkləşməsi kimi bir duyğu bütün bölgəni bürümüşdü. Oradakı insanlar mütləq bir şeylərin olacağından əmin idilər və hadisə meydana gələndə orada olmaq, hadisəni seyr etmək istəyirdilər. Ölkədə iqtisadi böhranın hakim olduğu o ilk günlərdə normalda 16-17 sentə satılan hamburger Joinervilledə 25 sentdən satılırdı. Bu, irəlidə olacaqların kiçik bir əlamətləri idi.

Bu hadisədən bir ay sonra, 1930-cu ilin oktyabr ayının 3-də, gecə saat 20.00-da quyudan birdən-birə böyük bir gurultu eşidildi. Qazıntı işlərinə baxan fəhlə orada toplanan qələbəliyə təlaşla hayqırmağa başlamışdı: "Alovu söndürün! Siqaretlərinizi söndürün! Tez söndürün!" Sanki torpaq titrəyirdi. Birdən taxta qüllənin üzərindən bir

su və neft sütunu yüksəldi. Orada olanlar çılğına dönmüşdülər. Hamısı göy üzünə diqqət kəsilir, neft fışqırıb üzərlərinə sıçradıqca, yüksək səslə hayqırıb, sevinc şənlikləri edirdilər. Həqiqətən bir möcüzə olmuşdu. Deməli, Dad Joiner gələcəyi oxuyan bir kahin imiş. Qazıntıda işləyənlərdən biri o dərəcədə sevincə qapıldı ki, cibindəki tapançasını çıxarıb, göy üzündəki neft möcüzəsinə atəş açmağa başladı. Hadisə üç adamın bu kişinin üzərinə atılıb tapançasını əlindən almasıyla qapandı. Əgər o anda bir qığılcım belə sıçrasaydı, uçan vəziyyətdə olan neft qazı quyunu havaya sovuracaq, ətrafda kim varsa, hamısının ölümünə səbəb olacaqdı.

## Qara Div

Səhəri gün çıxan "Henderson Daily Nevs" qəzeti Joinerin "Neft Fontanı"nı manşet xəbər olaraq yayınlamışdı. Sənaye liderlərinin hadisəyə göstərdikləri ilk reaksiya isə şübhəçilik və etimadsızlıqdı. Ancaq aradan üç ay daha keçdi və bölgədə iki quyu daha neft fışqırmağa başladı. Beləliklə, bu şübhəçilik və etimadsızlıq duyğusu yerini heyrət və coşğuya tərk etdi. Sonrakı günlərdə Şərqi Texas neft ehtiyatlarının 45 mil uzunluqda, 5-10 mil genişlikdə, 140.000 hektar yeri əhatə edən bir ərazi olduğu sübut olundu. Bu neft yatağına "Qara Div" adı verildi. O günə qədər Amerikada bununla müqayisə oluna biləcək heç bir kəşf olunmamışdı. Qarşıdakı günlərdə yaşanan daha başqa neft fontanları ilə birlikdə, bütün başqa yataqların hamısı bir yerdə Qara Divin möhtəşəmliyinin qarşısında, bir oyunun bər-bəzəkli məşqinə çıxan aktyorlar kimi aciz qalırdılar. Bunlara Pensilvaniya, Spindletop, Lushing,





Böyük Seminole və Oklahoma City və Kaliforniya Signalda nə qədər neft yatağı varsa, hamısı daxildir. 1931-ci ilin əvvəllərində ölkədə Böyük Böhranın pəncəsinə düşən kədərli adamlar qıvrana-qıvrana yaşayarkən, Şərqi Texas xalqı sevincdən coşur, çılğınca bir həyat tərzi keçirirdi. Hər tərəfdən axın edən insanlar çadırdan qurulan şəhərləri və komaların bürüdüyü qəsəbələri daha da qələbəlik edirdi. Sağlam dəyərlərə bağlı və qənaətkar olmağa vərdiş edən bu prinsip sahibi bölgə, artıq hər cür pisliyə açıq olan məsxərə dolu bir gecəqondu qəsəbəsinə çevrilmiş kimiydi. Dad Joinerin Daisy Bradforddakı 4 saylı quyusunun neft fışqırmasından 3 ay sonra, 1931-ci ilin aprel ayının sonlarında bölgədə istehsal olunan neft gündə 340.000 barrelə çatmışdı və hər saatbaşı yeni bir quyudan neft fışqırırdı.

Bu dərəcədə sürətli və əhatəli yeni bir istehsal qarşısında qaçınılmaz olan nəticə özünü göstərdi və qiymətlər əvvəlcə yavaş-yavaş, sonra da daha böyük sürətlə düşməyə başladı. 1926-cı ildə Texasda neftin qiyməti 1.85 dollar olarkən, 1930-cu ildə bu, ortalama 1 dollardan satılmağa başladı və 1931-ci ilin may ayının sonuna qədər də barreli 15 sentə, hətta bəzən 6 sentə qədər düşdü. Neftin barrelinin hətta böyük üzüntüylə bəzi yerlərdə 2 sentə qədər endiyi müşahidə olundu. Bunlara baxmayaraq, yenə də qazıntı işlərinə ara vermədən davam edilirdi. 1931-ci ilin iyun ayında artıq Şərqi Texasda neft istehsalı gündə 500.000 barrelə çatmışdı.

Sürətli və asan yoldan qazanc təmin etmək istəyənlər bölgəyə qaçışaraq bir sıra "çaydanlıq" adı verilən kiçik həcmli "Şərq Benzini" istehsal edən mini neftayırma müəssisələri yaratdılar. Bu arada bir tərəfdən də endirimli qiymətlərlə "Şərq Benzini" satan mini yanacaq doldurma məntəqələri törəmişdi. Bu qədər çox təchizatla hər kəsin

para əldə etmək savaşına qatılması, "Şərq Benzini" satan yanacaq doldurma məntəqələrinin müştərilərə bəzi imtiyazlar tanıması, normal olaraq gözlənən bir nəticə idi. Yeri gəlmişkən, bu yanacaq doldurma məntəqələri hər satışda müştəriyə mükafat olaraq bir qutu pomidor verir və ya onu pulsuz toyuq ziyafətinə qonaq edirdi.

Təəssüf ki, Dad Joiner heç cür bu coşğulara qatıla bilmirdi. Daisy Bradforddakı 3-cü quyusunun kəşfi və onu təqib edən Qara Div quyusu heç şübhəsiz ki, uğurun əlamətləri idi, ancaq bunu da anlayırdı ki, bu işdəki təşəbbüslərində bir az artıq və çox xərcləmişdi. Satdığı "hissə sənədləri" var olan "hissə" sayından çoxdu, lap çoxdu. Bəzi torpaq parçaları üst-üstə bir neçə dəfə ayrı-ayrı adamlara satılmışdı. Hətta bir dəfəsində eyni yerin üst-üstə 11 dəfə satıldığı müşahidə olunmuşdu. Dad Joiner hüquqən kritik bir məqamla qarşılaşmışdı və özü də bunun fərqindəydi.

Günlərin bir günündə bölgədə yayınlanan bir qəzet Şərqi Texasın yenidən doğulmasına səbəb olan bu adamın imdadına çatacaq, onu müdafiə edəcəkdi. "Şərqi Texas kahini" deyə bəhs etdiyi Joiner üçün köşə yazarı bu sözləri yazırdı: "Joiner "Müqəddəs Torpaqlara" aparılan ikinci bir Musamı olmalıdır? Musa peyğəmbər kimi buraya qədər gətirilib "süd və balı" görməsinə icazə verilən və sonra da saray uşaqlarının ofislərində oturub, ayaqlarını dincə qoyan zülley vəkillər tərəfindən buraya daxil olmasına qadağamı qoyulacaqdı? Unudulmamalıdır ki, adı keçən şux geyimli vəkillər bu cür lüks həyat tərzi sürərkən, bizim yaşlı "ata" palçıqlar içərisində, pislik və bataqlıq dolu çuxurlarda çabalayır, çoxdan antikvar olan geyimləri üzərində tər yerinə qan axırdı." Vəziyyət Joiner üçün elə bil ki, yaxşı getmirdi. Həqiqət bu idi ki, sahibi olduğunu söylədiyi beş min hektar torpaqdan sadəcə iki min "hektar" torpaq hüquqən onun idi.





Ancaq Joiner bir yolunu tapmışdı və bu yol həsir şapka geyinib, qalstuk taxan iri cüssəli birindən keçirdi. Haroldson Lafayette Hunt adlı, Joinerin hər zaman "Boy" (Uşaq) deyə çağırdığı, ancaq bir qayda olaraq "H.L" deyə söz edilən bu adam, əslində pambıq yetişdirən bir kəndli olduğu halda, bu işdə uğur qazana bilməmişdi. Ancaq bir-biri ilə əlaqəsi olan ayrı bir sahədə üstün qabiliyyətləri vardı və bunu icraatları ilə də sübut etmişdi. Bu iki sahənin birincisi qumar, ikincisi isə, Rokfeller və Deterdingdə olduğu kimi qarmaqarışıq və mürəkkəb riyazi məsələləri sürətli və doğru olaraq həll etmə qabiliyyəti idi. Təxminən 10 il əvvəl Arkansasın neft kəşf olunmuş El Dorado şəhərində bir qumar salonu açmış, ancaq Ku Klux Klan adlı bir irqçi təşkilatın salonu yandıracağı hədə-qorxusundan sonra onu bağlamışdı. Daha sonra neftçiliklə məşğul olmağa başlamış, həm Arkansasda, həm də Luisianada bir çox uğurlara imza atmışdı. O sıralarda praktik olsun deyə iki qadınla evliydi və hər ikisindən də ayrı-ayrı uşaqları vardı. Joinerin quyusu hələ kəşf olunmamışdan əvvəl bunun xəbərini almış, çevrəni və Joineri tanımaq, hadisələrin seyrini müşahidə etmək üçün bölgədə boy göstərməyə başlamışdı.

İlk kəşfdən sonra, hələ neft yatağının həqiqi böyüklüyünü göstərən digər quyuların qazılmasından əvvəl Joiner üzüntülü bir mərhələ yaşamaqdaydı. Sanki üzərinə yüksəlməkdə olan bir fırtına gəlirdi. "Boy", tam bu mərhələdə özünü göstərmək istədi. O günlərdə yenidən El Doradoda kişi paltarı satan bir mağazada çalışmaqda olduğu üçün, ilk əvvəl heç bir yerə getmədən Joinerlə bir görüş təyin etdi. Baker otelinin 1553 nömrəli salonunda keçirilən və heç bitməyəcəkmiş kimi uzanan uzlaşma müzakirələrindən sonra Joineri inandıra bildi. Hələ xeyli əvvəldən

Hunt, Joinerdən xəbərsiz Deep Rock quyusundakı proseslər haqqında gizlincə raportlar alırdı. Joinerin quyusundan təxminən bir mil uzaqlıqda yerləşən bu quyu, anlaşıldığına görə çox ümidverici idi və aparılan müzakirələr nəticəsində, çox yaxında ikinci böyük bir partlamanın baş verəcəyini anlamışdı. Joiner, bu quyunun təsadüfi bir quyu olmadığını, yatağın çox böyük bir yataq ola biləcəyini təxmin etmişdi. Hunt bu məlumatları Joinerdən gizlin saxladı. Tam tərsinə, hər fürsətdə Deep Rock quyusunun, quru bir quyu ola biləcəyini təkrarlamaqdan yorulmadı. Arası kəsilmədən 36 saat davam edən 1553 nömrəli otaqdakı müzakirələrin sonunda Dad Joiner taleyinə boyun əydi. Və 27 noyabr 1930-cu ilin Şükran Günündə, gecə yarısı, səhər saat 02.00 radələrində bütün hüquqlarının "Boy"a keçdiyini təsdiq edən müqaviləyə imzasını atdı. Bu müqaviləni təntənəli şəkildə qeyd etmək üçün Hunt, mərasimdə hazır olanları bir boşqab kraker və pendirə qonaq etdi.

Hunt, ilk olaraq Joinerə istiqamətlənən ittihamları çürütməyə başladı və məhkəmə işlərinin əksəriyyətini həll edərək, qısa müddətdə Şərqi Texasın ən böyük müstəqil neftçisi oldu. Joinerlə bağladığı müqavilə ona, öz deyimi ilə "qanadlarının üstündə uçmaq" gücü vermişdi. İşinə davam edərkən, bir tərəfdən də nəhəng bir sərvət toplayırdı. Sonrakı illərdə "sağ qanad" tərəfdarı olaraq şöhrət qazanacaq, bundan başqa, "sağlam qida" mövzusuna meyl edəcək, ağ un və ağ şəkərə düşmən kəsiləcəkdi.

Müqavilənin şərtlərinə görə Hunt, Dad Joinerə 1.33 milyon dollar ödədi. Bunun 30.000 dolları nəğd, geri qalanı isə istehsal əldə olunduqdan sonra ödənmişdi. Günlərin bir günündə Joiner, Huntun Deep Rock haqqında gizli məlumatları ona ötürən baş qazmaçıya 20.000 dollar





ödədiyini öyrənir, bundan hirslənərək Huntu fırıldaqçılıq və dələduzluğa görə məhkəməyə verirdi. Ancaq Hunt israrla bu "ixtiyar" adama qarşı hiylə işlətmədiyini vurğuladı və "biz onunla ticarət etdik" dedi. Vəziyyəti bir daha nəzərdən keçirən Joiner isə iddiasını geri götürüb məhkəmədən imtina etdi. Artıq Huntdan aldığı pulları yeni yataqlar axtarmaq, Şərqi Texasda ikinci bir "Qara Div" tapmaq və bir də katibəsi ilə və daha başqa qadınlarla romantik saatlar keçirmək üçün xərcləyirdi. Joiner 86 yaşında öldü və bu yaşında da hələ neft axtarışında idi. Bu axtarış öldüyü günə qədər davam etmişdi. Ölümündən sonra sahib olduğu mal varlığının miqdarı elə də çox deyildi: Bütün qalan sərvəti bir avtomobil, bir də bir evdən ibarət idi.

### Neft yatağında anarxiya

Şərqi Texasdakı xam neft partlaması, qısa zamanda bütün ölkədəki qiymətləri aşağı salmışdı. Qiymət enişinin davam etməsi, bütün istehsalçıları - ən böyüklər də daxil olmaqla - sanki məhv etmişdi. Ancaq bütün ümidlər hələ itirilməmişdi. Ortada bir gözlənti vardı. Əvvəlki böyük kəşflərdə olduğu kimi, sürətli və çox istehsal səbəbindən yeraltı təzyiqin gec-tez düşməsi, bunun da istehsalın səmərəliliyini azaltması, beləliklə, qiymətlərin yenidən "normal"a dönməsi gözlənilirdi. Ancaq bir şey unudulmamalıdır ki, möhtəşəm xüsusiyyətləri ilə Şərqi Texas, bütünlüklə özünəməxsus şərtləri olan bir yerdi. Bu yerdə istehsalın nə zaman aşağı düşməyə başlayacağını kim biləbilərdi ki? Və o gün gəldiyində, kim hələ də öz işinin başında olacaqdı, kim bilir? Əslində, Şərqi Texasda - və

başqa yerlərdə - yaşanan bu "yarışmalı istehsal qaçhaqaçı", bütün neft sənayesi üçün həm də bir "yarışmalı intihar"dı deməkdi.

Artıq istehsalın nəzarət altına alınması və qiymətlərdəki sabitliyin təmin olunması üçün mütləq bir sistem yaratmaq məcburi olmuşdu. Bu, Şərqi Texas yataqlarının yerli istehsalçılardan və torpaq sahiblərindən, bundan başqa, ucuz xam neftdən xoşu gələn kiçik neftayırmaçılardan gələn böyük müxalifətçiliyi qarşısında, bir növ intihara sürüklənmək deməkdi. Vəziyyət son dərəcə qarışıqdı. Torpaq sahibləri bu torpaqlara sadəcə, qisimlər, parçalar şəklində sahib idilər. Həm də istehsalın böyük müstəqil neftçilərdən gəlməsi, vəziyyəti daha da mürəkkəbləşdirirdi. Böyük istehsalçıların işə astagəlliklə yanaşmaları nəticəsində, kiçik istehsalçılar Şərqi Texas yatağının böyük bir hissəsinin ya sahibi idilər, ya da bu torpaqların nəzarətini əllərində saxlayırdılar. Ən sürətli istehsal edəcək adamlar da böyük bir ehtimalla bu şəxslərdi. Müstəqillər baxımından, hərəkət sərbəstliklərinə gətiriləcək xırda bir məhdudlaşdırma, nifrət etdikləri böyük şirkətlərə qarşı sahib olduqları cüzi üstünlüklərə endirilən "öldürücü bir təhlükə" mənasındaydı.

Böyük istehsalçılarla müstəqillər arasındakı çəkişmədə - əlaqəsiz kimi görünsə də - nəzarət, 1891-ci ildə Vali Jim Hogg tərəfindən xalq nəzarətini təmin etmək məqsədilə qurulan Texas Dəmiryolları Qurumunun əlindəydi. Ancaq 1930-cu illərdə komitə, siyasi mövzuların bazarlıq edildiyi bir mərkəzə çevrilmişdi. Texniki baxımdan natamam olan və o günlərdə səlahiyyətləri ciddi şəkildə məhdudlaşdırılmasına baxmayaraq, yenə də neft sahəsində böyük nüfuzu olan bir təşkilat gözündə görülürdü. Bu qurumun Oklahomadakı alternativi olan Ticarət Komitəsinə 1915-ci ildən





bəri neft istehsalını bazar ehtiyaclarına görə nizamlamaq səlahiyyəti verilmişdi. Texas Dəmiryolları Qurumuna isə eyni güc və səlahiyyət verilməmişdi. Texas Qurumunun vəzifəsi, neft istehsalını "fiziki israf"ın qarşısını alacaq şəkildə nizamlamaqdı. Ancaq müstəqillərin təzyiq altına alınmasını qətiyyətlə yasaqlamışdı. Bu isə Ticarət Qurumunun istehsalı aşağıya çəkə bilməyəcəyi deməkdi. Bu da səmərəliliyin tələbi qarşılamağa kifayət edəcək səviyyəyə endirilməsi səbəbiylə, insanların istehsalı azaltmağa səlahiyyətli olmadığı mənasına gəlirdi.

Dəmiryol Qurumunun etmək istədiyi isə tam mənasında bu idi. Ancaq bunu edə bilməsi üçün əsil səbəbi gizlətməsi, sanki fiziki israfı qoruyurmuş kimi görünməsi lazımdı. Təşkilat hədsiz istehsalın potensial neft səmərəliliyini bir daha geri qayıtmamaq üzərə dayandıracağı iddiası ilə yola çıxdı. Daha açıq məna ilə bunu söyləyirdi: Əgər qiymətlər ifrat dərəcədə aşağı düşsə, gündə sadəcə bir neçə barrel neft verən yüzlərlə quyu neft istehsal edə bilməyəcəkdi və buna görə də bağlanacaqdı. Bu isə tam "fiziki israf" sayılırdı. Ancaq federal məhkəmələr qurumun istehsalı dayandırma fəaliyyətini təkrar-təkrar yoxlamaqda dirəndi. Hətta bir dəfə məhkəmənin həqarətinə belə məruz qaldı. Bütün təşəbbüsləri Şərqi Texasdan qaynaqlanan və durub-dayanmaq bilməyən istehsalla baltalanırdı.

Qiymətlər maliyyə xərclərindən belə aşağı səviyyəyə düşmüşdü. Görünən o idi ki, xilas yolu da yoxdur. Bu da bütün Amerikan neft sənayesini qorxutmuş, keflərinə soğan doğramışdı. Vəziyyətin belə olduğunu 1931-ci ilin yaz fəslinin son günlərində Amerikaya gələn London Shell Şirkəti müdiri Fridrix Godber də bütün çılpaqlığı ilə müşahidə etmişdi. Godberin Amerikaya göndəriliş səbəblərindən biri Shellin Amerikada tətbiq etmək istədiyi

iqtisadi və endirim siyasətinin Avropadakı mərkəzlərinin istədiyi doğrultuda həyata keçirilib-keçirilmədiyinə nəzarət etməkdi. Godber nəzarətini bitirdikdən sonra tərtib etdiyi raportda Amerikadakı vəziyyəti bu cür qiymətləndirmişdi: Ofislər çox möhtəşəm, şirkət avtomobilləri isə həddindən çox və həddindən artıq əzəmətli idi. Bunları söylədikdən sonra böyük məmnuniyyətlə Deterdingə və o biri səlahiyyət sahiblərinə "böyük iqtisadi səmərə əldə olunduğunu" bildirirdi.

Böyük Amerikan şirkətlərinin yüksək çinli səlahiyyət sahibləri ilə keçirdiyi toplantılarda həmişə kədərli simalarla qarşılaşmış, bu hal diqqətini özünə cəlb etmişdi. Raportunda İndiana Standard Şirkətinin sahibini nəzərdə tutaraq yazırdı: "Başqan çox üzüntülü idi. Sanki panikaya qapılmışdı. Əsəbi ruh halı içərisində olduğu çox açıqca bilinirdi." Godber Nyu Jersey Şirkətindən Valter Teagle ilə də qarşılaşmış, onun haqqında da bunları yazmışdı: "Nyu Jersey Şirkəti bir bütün olaraq ələ alındığında, qətiyyətli bir siyasətdən məhrum görünür. Teagle isə çox pessimistdir. Oturub qiymətlərin endirilməsini gözləməkdən başqa görüləcək bir işin olmadığını düşünür. Bundan başqa, digər şirkətlərin əksəriyyətindən əməkdaşlıq təklifləri gəlmədiyinə görə, bu işin, ancaq böyük şirkətlər böyük itkilərə məruz qalana qədər davam edəcəyinə inanır." Godber, xülasə olaraq raportunda bunları söyləmişdi: "Neft sənayesinin problemlərinin əksəriyyəti, hamı tərəfindən məlum olan səbəblərdən qaynaqlanır. Xalqın bunların üzərində ya çox az nəzarəti vardır və ya heç yoxdur. Bu vəziyyət, israfı və ifrat qazmaçılıq işlərini qadağan edən qanunların qüvvəyə minməsinə icazə verən qanunların çıxacağı günə qədər davam edəcək. Bu qanunlar bəlkə də çox əvvəllər qəbul olunmalıydı. Təəssüflər ki, xalq, xüsusilə də Texasda tamamilə əks istiqamətdə şərtləndirilmişdir."





Bu arada, Texasda istehsal yüksəlməyə davam edir və qonşu əyalət Oklahomada sıçrama baş verirdi. 1931-ci ilin avqust ayının əvvəllərində federal hakimlərin Oklahoma qanunlarının Konstitusiyaya uyğunluğunu araşdırdığı əsnada, Vali "Yonca Bill" Murray, əyalətdə fövqəladə hal və hərbi vəziyyət elan elədi və hərbi idarənin ana neft yataqlarını nəzarətə götürmə əmrini verdi. Xalqa elan etdi ki, neftin qiyməti bir dollara yüksələnə qədər bu yataqları qapalı saxlayacaq.

İndi artıq "barreli bir dollar" çılğınlıqları bütün neft bölgələrini bürümüşdü.

1931-ci ilin avqust ayına qədər həm Şərqi Texas, həm də neft bazarı tam bir anarxiya dövrü yaşadı. Artıq Şərqi Texasda gündəlik istehsal bütün Amerikanın gündəlik tələbatının təxminən yarısı olan bir milyon barreli keçmişdi. Xam neftin qiyməti isə barreli 13 sentə qədər düşmüşdü. Texasda, quyuların başında və Amerikanın bir çox yerlərində neft qiyməti inanılmayacaq qədər aşağı düşmüş, barreli ortalama 80 sentə başa gələn istehsal xərclərinin belə aşağı həddinə düşmüşdü. Vəziyyətin belə olmasından Texasda və ölkənin başqa yerlərindəki istehsalçılar təsirlənmiş və artıq məhv olmaq səviyyəsinə gəlmişdilər. Şərqi Texas istehsalçıları çıxış yolu olaraq, "qiymətləri qaldırar" düşüncəsiylə quyuların könüllü bağlanması çağrısını etdilər. Nə qəribədir ki, tam bu çağrının edildiyi günün sabahısı günü istehsal daha da artmışdı. Havada tam bir şiddət qorxusu hakimdi. Quyuların və boru xətlərinin dinamitlə uçurulacağı haqqında şayiələr ağızdan-ağıza yayılmağa başladı. Texas iqtisadiyyatı və bəlkə də bütün qanun və qaydalar tam bir iflasın kandarına gəlmişdi.

Texas Valisi olan Ross Sterling, Humble Oil Şirkətinin qurucusu və əski başqanı olaraq, bir müddətdir ki, vəziyyətdən çıxmaq üçün düşüncələrə dalmışdı. Ancaq

artıq düşünmənin kifayət etmədiyini, hərəkətə keçmək zamanının gəldiyini başa düşmüşdü. İlk hərəkət olaraq Şərqi Texasa qarşı savaş elan etdi. 17 avqust 1931-ci ildə Şərqi Texasın "üsyan" və "açıq-açığına baş qaldırma" şəraitində olduğu haqqında xəbərdarlıq etdi və Şərqi Texasın üzərinə bir neçə min Texas kəndlisindən ibarət atlı Milli Mühafizə qüvvələri göndərdi. Son günlərdə yağan yağışlar yolları tutmuşdu və motosikletlə getməyə imkan yox idi. Ona görə də Milli Mühafizlər buraya atlara minərək gəlmişdilər. Özlərinə baza kimi - daha sonra "Paylaşdırma Təpəsi" deyə adlandırılacaq bir "Təpə"ni seçdilər və atları ilə bütün bölgəni dolaşaraq, bir neçə gün içində istehsalı dayandırdılar. Neft yataqlarındakı fəaliyyətin dayanması ilə bütün bölgəni dərin bir sakitlik bürüdü. Hətta neft qazları nəticəsində büzüşən böcəklərlə özlərinə hər gün ziyafət təşkil etməyə vərdiş etmiş toyuqlar belə yeyəcəklərini başqa yerlərdə axtarmaq məcburiyyətində qalmışdılar. Neft istehsalının yan məhsullarında da bir durğunluq müşahidə olunurdu. Milli Mühafizə dəstəsinə başçılıq edən general, fahişələrin çox rəğbət etdiyi bir geyim olan "çimərlik pijamalarının" geyinilməsini qadağan etmiş, bu da bu fahişə qadınları fəaliyyətini dayandırmaq mərhələsinə gətirmişdi.

Neft quyularının bağlanması həqiqətən işə yaramışdı. Neft yataqlarındakı qiymət, barrel başına ən az 13 sentə çıxmışdı. Texas Dəmiryolu Təşkilatı davamlı olaraq əmr və təlimatlar verir və bu əmrlər dövlətin hüquq-mühafizə orqanları tərəfindən dərhal həyata keçirilirdi. 1932-ci ilin aprel ayında qiymətlər möcüzə sayılacaq bir səviyyəyə - 98 sentə çatmışdı. 1932-ci il ərzində Dəmiryolu Təşkilatı Şərqi Texas üçün ayrı-ayrı 19 əmr yayınlamışdı. Ancaq bu əmrlərin hamısı sonradan hüquqi qurumlar tərəfindən





keçərsiz sayılmışdı. Buna baxmayaraq, bazar öz davranışını və tempini dəyişdirmədi və qiymətlər yüksəlməyə başladı. Qiymətlərin bu tempi müstəqilləri və siyasətçiləri bu qiymətlərə uymağa istiqamətləndirdi və ölkə xaricində qiymət endiriminə gedilməsinin və qiymətlərin bərabər tətbiq olunmasının faydasına inandırdı. Noyabr ayında Vali Sterling, nəhayət, Texas Qurumuna "iqtisadi israfla" mübarizə aparması üçün lazım olan səlahiyyəti verdi. Bunu etmək üçün əvvəlcə səlahiyyətlilərlə özəl bir toplantı keçirməsi və bazara bərabər qiymət tətbiq olunması, yəni "prorationing" üçün qanun çıxarması lazım gəlmişdi. Yeni çıxarılan qanun, Şərqi Texasın neft ehtiyatlarına sahib olan dinamik güclər tərəfindən anlayışla qarşılanmışdı. Çünki bu bölgədə istehsal, o günə qədər başqa bölgələrdəki istehsalın əksinə olaraq, təzyiqi qazdan deyil, alışılmışın tərsinə, sudan alırdı. İstehsalın çox tələsik, mürəkkəb şəkildə həyata keçirilməsi, bu "su gücünü" zədələyə bilər və bütün əldə olunacaq səmərənin zamansız və formalaşmadan əldə olunması nəticəsini verə bilərdi. Yeni çıxarılan qanun bax, bunun qarşısını almışdı.

Yeni çıxarılan qanunla "prorationing" əməliyyatı, ilk olaraq Texasda tətbiq olunmağa başladı. Ancaq Texas Dəmiryolu Təşkilatına - məhsulun nəzarəti üçün verilmiş yeni səlahiyyətlərə baxmayaraq, yenə də işlər yaxşı getmirdi. Yeri gəlmişkən, 1933-cü ilin yazındakı şərtlər, ən azı 1931-ci ilin yazındakı şərtlər qədər idi, hətta ondan daha da pisdi. Bunun səbəbi vardı. Qurum Şərqi Texasın kvotasını çox yüksək, yeni mühəndislik bilgisinin "maksimum səviyyə" üçün etdiyi təklifin iki qatı qədər yüksək tutmuşdu. Bu kifayət etmirmiş kimi, bir tərəfdən də verilən icazənin çox üstündə, qanundankənar yüz minlərlə barrel neft istehsal olunurdu. İfrat dərəcədəki bu neftə ilk

dəfə Şərqi Texas yataqlarında bilinən adıyla "hot oil" (isti neft) deyildi. Bunun da bir tarixçəsi vardı. Bir rəvayətə görə, havanın sərin olduğu bir gecə, vəzifəsi neftin icazə verildiyindən çox istehsal olunub-olunmadığına nəzarət etmək olan bir əsgər, bir neft operatorunun limitdən daha artıq neft istehsal etdiyindən şübhələnir və adamdan suallar soruşmaya başlayır. Ancaq hava çox soyuq olduğuna görə, nəzarətçi əsgər titrəyirmiş. Bunu müşahidə edən ağıllı operator isə, nəzarətçiyə - içi şübhəli neftlə dolu bir barreli göstərərək, kürəyini ona dayamasını təklif edir və belə davam edir: "İçində canınızı qızdıracaq dərəcədə isti neft var."

Bu barrellərdəki neft, sadəcə nəzarətçiləri yox, bütün neft sənayesini yandırıb, atəşlərə verəcək qədər "isti" hadisələrin baş verməsinə səbəb olacaqdı. "İsti neft" qaçaqmalçılıq yoluyla Texasdan kənarlara daşınır, sərhəddən keçirilib başqa əyalətlərə nəql edilirdi. Eyni şey "prorationing" sisteminin tətbiq olunmaqda olduğu Oklahomada da təkrarlanırdı. Bir yandan istehsal həcminin yüksək tutulması, o biri yandan da "isti neft" səbəbindən, Şərqi Texasda nəzarət işi yenidən tam bir qarmaqarışıqlığa döndü və nəzarət etmək imkanları bir daha büsbütün ortadan qaldırıldı. Texas Şirkəti əvvəlcə elan etdiyi "barreli 75 sentdən" olan qiyməti, barreli 10 sentə qədər endirmək məcburiyyətində qaldı. İstehsalın bu dərəcədə həcmli və bazarın da bu dərəcədə qarmaqarışıq olması səbəbindən, bir gün gəldi ki, "isti neft operatorları" neftlərini satacaq bazar tapmaz oldular. Barreli 2 sentdən belə neftlərini sata bilmirdilər. Bu anormal axışı nizam-intizama salmaq üçün bəzi boru kəmərləri əsrarəngiz şəkildə dinamitlənməyə başlandı.

Vəziyyətin bu gedişindən kefi pozulan adamlardan biri





də Humble Şirkətinin sədri Villiam Farishdir. Farish, Teagleyə yazdığı bir məktubda bildirirdi ki, qiymətlərin bu dərəcədə düşməsinin gətirdiyi "şok" və "acı" bəlkə də müstəqilləri hərəkətə keçirəcək. O, ümid edirdi ki, bəlkə də müstəqillər uzun vədədə başa düşəcəklər ki, onların maraqları istehsalın nəzarət altına götürülməsindədir. Məktubun irəlidəki sətirlərində bir görüşü daha dilə gətirir, bəlkə də bu məqamın artıq gəldiyini, işə çəki-düzən verməyin yeganə yolunun "dişini dırnağına sıxıb" savaşmaq olduğunu yazırdı. Neft, barreli 10 sentdən satılmalıydı və bu limitə nail olunmuşdu. Ancaq neft sənayesi yenə də çətin vəziyyətdəydi və kənardan yardıma ehtiyacı vardı. Əyalət hökumətlərindən gələn yardım kifayət etmirdi. Daha başqa bir mənbədən, Vaşinqtondan da təcili yardımın gəlməsi şərtdi. Bu arada, Texas istehsalçılarından bəziləri federal hökumətə ərizə ilə müraciət edib, təcili yardımın davam etdiyi müddət ərzində Texas neftinin federal hökumət tərəfindən nəzarətə götürülməsini tələb etdilər. Belə olmadığı təqdirdə, geridə yeganə bir yol qaldığını, bunun da sadəcə müstəqillərin iflası demək olmadığı, bundan başqa, bütün neft sənayesinin bir bütün halında çökməsi mənasına gələcəyini söylədilər.

Tam bu mərhələdə də Vaşinqtonda hakimiyyət dəyişir, prezidentliyə Franklin D.Ruzvelt gəlirdi və dərhal da "Yeni Paylaşım" (Nyu Deal) qanununu çıxarırdı. Bu qanun aktiv, depressiya və böhranla mübarizəni nəzərdə tutan, iqtisadiyyata yenidən canlılıq qazandırmağa istiqamətlənən, lazım olan anda neftçiliyin hər sahəsinə canla-başla müdaxilə olunmasını lazım bilən bir qanun idi. Neft qiymətləri ifrat dərəcədə aşağı idi və federal hökumət Vaşinqtonda nələr olub-bitdiyini həddindən artıq maraqla gözləyirdi. Federal hökumət nefti bu vəziyyətdən xilas etmək üçün nə etmək lazımdırsa, onu etməyə hazır idi.

## İslahatçı

Ruzvelt 4 mart 1933-cü ildə prezidentlik vəzifəsinə gətirildi. Vəzifəyə gəldikdən sonra, siyasi baxımdan aşınmağa çox müsaid olan və hələ də "Teapot Dome Skandalı"nın əks-sədalarını öz üzərində daşıyan Daxili İşlər Nazirliyinə Harold L.İckesi təyin etdi. Kabinetin ilk toplantısında başqa bir kabinet üzvü tərəfindən "hiyləgər, sarışın bir bəy əfəndi" olaraq dəyərləndirilən İckes, Çikaqolu bir vəkil idi və illər boyu irəliçi Respublikaçı Partiyada və İrəliçi Partiyada lider olaraq fəaliyyət göstərmişdi. 1912-ci ildə Teodor Ruzveltin seçki kampaniyasını idarə etmiş, 1932-ci ildə isə Franklin Ruzveltin "Milli İrəliçilər Cəmiyyəti" təşkilatının Qərb şöbəsinin sədrliyi vəzifəsini yerinə yetirmişdi. İndi də Ruzveltin prezident seçilməsindəki rolunun mükafatı olaraq, könlündə yatan Daxili İşlər Nazirliyi vəzifəsini istəyirdi. Məqsədə çatmaq üçün əvvəlcə islahatçı liderin öndə gələn adamlarını öz kampaniyasında çalışdırdı və nəticədə də arzusuna qovuşub, Daxili İşlər Nazirliyi vəzifəsini qazandı. Gələcək fəaliyyəti dövründə yeri gələndə Ruzvelt, İckesi nazir təyin etmə səbəbini söylədi: "Sifətindəki cizgiləri" bəyənmişdi! Ruzvelt həm də islahatçı qanada mənsub olan bir qərbli hava daşıyan Respublikaçı nazir istəyirdi və bu keyfiyyətləri İckesdə tapmışdı. Onda bəyəndiyi digər xüsusiyyətlər də vardı. Bunların sırasında İckesin liberalizmə olan səmimi bağlılığı, güclü ehtiraslara sahib olması, polemikadakı iynələyici üstünlüyü, həqiqi və ya xəyal məhsulu olan hər cür şübhəçiliyi, qanunların çeynəndiyi zaman göstərdiyi ifrat duyarlılıq, hüquqlarını qoruma ehtirası, tapşırılan vəzifəyə olan dərin bağlılığı və çox güclü bir əxlaq anlayışı kimi səciyyəvi cəhətlər vardı.





İckes yoxsul bir ailə çevrəsində sərt xarakterli, Kalvin məzhəbinə bağlı bir ana tərəfindən yetişdirilmişdi. Uşaqlıq dövründə bazar günləri xaric, fit çalmaq haqqına belə sahib deyildi. Fit çalma yasağı sadəcə bazar günləri, o da ancaq anasına - bazar günü bir papazın da fit çaldığını sübut edəndən sonra qaldırıldı. İckes məktəbdə fəvqəladə uğurlu və yaxşı oxuyan bir şagird idi. Belə ki, bir gün latın dili müəllimi xəstələnəndə onun yerinə dərs keçmişdi. Litseydə sinif nümayəndəsi olduğu müddətdə, irəlidə sənət halına gətirəcəyi bir sahədə özünü yetişdirməyə başlamışdı. Bu, bəzi ali prinsiplərin tələbi ilə anidən istefa vermək sənətiydi. İstefa etmək və sonra da istefasının qəbul edilməməsiylə yenidən vəzifəsinə qayıtmaq sənəti. Litseydə oxuduğu müddətdə də sinif nümayəndəliyindən istefa verir, amma bu istefası sinif yoldaşları tərəfindən qəbul edilmirdi. Bu tarixdən təxminən 15, 20 il sonra Franklin Ruzvelt də eyni şeyləri etdi, onun istefasını qəbul etmədi. İckes Ruzveltə bir neçə dəfə istefasını təqdim etmiş, hər dəfə də ondan yeganə bir cavab almışdı: "Sizə ehtiyac var... İstefanız qəbul edilməmişdir."

Bitib-tükənmək bilməyən "islahatçı enerjiylə dolu" gənc bir advokat olaraq, İckes Çikaqoda bir çox kampaniyaya qatılmışdı. Təbiətin müqavimətinə baxmayaraq, inhisara, sosial ədalətsizliyə qarşı kampaniyalarda öndə getmişdi. Bundan başqa, yurddaşlıq hüquqlarını müdafiə etmək, qadınların sindikatlaşması və gündə 10 saat çalışma kampaniyaları kimi sosial fəaliyyətlərdə də aktiv rol oynamışdı. Hətta bir dəfə xalq daşımaçılığı kampaniyasını aparan Straphanger Cəmiyyətinin katibliyini belə üstlənmişdi. Zamanla özünü güclü bir siyasi menecer olaraq yetişdirmiş, amma nədənsə müdafiə etdiyi islahatçılar həmişə məğlubiyyətə uğramışdı. Buna görə də özündən bəhs edəndə, zarafatla buna toxunur, "həmişə məğlub olacaq adamları

seçən ehtiyatsız bir qabiliyyət!" olduğunu söyləyərdi. Ancaq 1932-ci ildə bu cür olmadı və vəziyyət dəyişdi. Bu dəfə kampaniyasını apardığı şəxs seçkiləri udmuşdu. Bu şəxs Franklin Ruzvelt idi. Daxili İşlər Naziri olduqdan sonra hər zaman prinsip və vəzifəsinə bağlı qalmış, amma bununla bərabər, gücünü göstərməyi də bacarmış və lazımdırsa, "xeyr" deyə bilən "güclü dövlət adamı" olmasını bilmişdir. Daxili İşlər Nazirliyindən başqa, neft qurumları və yeni qurulan əhəmiyyətli bir nazirlik olan tikinti nazirliyinin də rəhbərliyi ona həvalə olundu.

Bu vəzifələrə təyin olunduqdan sonra özünü bütün gücüylə bu üç işin son dərəcə çətin və mürəkkəb detallarına həsr elədi. Gələcəkdə yazdığı xatirələrində o günləri qəsd edərək, bunları deyirdi: "Daxili İşlər Nazirliyinin ləkəli bir keçmişi vardı. Bunu heç bir zaman unutmadım. Hər gün gələn tonlarla sənəd, müqavilə və məktub kimi kağızları özümü yorub-bitirənə qədər araşdırar, şəxsən oxumadığım heç bir sənədi imzalamaz, geri qaytarardım. Bunu "bir gün əleyhimə çevrilər, yeni bir Teapot skandalına səbəb olar" qorxusu içində etdim." İckesin deyişi ilə "neftə bulaşmış Albert B.Fall" nəhayət, 1931-ci ildə həbs olunmuşdu. Ancaq buna baxmayaraq, hər zaman İckesin düşüncələrində var olmuşdur. İckes xatirələrində bunları yazmışdı: "Zaman-zaman "əcəba, Albert Fallın xəyaləti əlində kiçik, qara bir çantayla bu insanı vahiməyə salan künc-bucaqların birindən, birdən-birə çıxa bilərmi?" deyə düşünürdüm." Teapot Dome hadisəsinin hüquqən də sübut olunması, İckesdə neft sənayesinin yaxınlarda aşınıb yox olacağı qorxusu yaratmış, üstəgəl, bu sənaye sahəsinə qarşı etimadsızlıq hiss etməsinə səbəb olmuşdur. Daxili İşlər Nazirliyinin etibarını cəmiyyətin gözlərində qaldırmağa, onun sarsılan nüfuzunu bərpa etməyə qərarlıydı.





O dərəcədə ki, yeni-yeni bölgə miqyaslı skandalların və hiylələrin bir daha təkrar olunmamasını təminat altına almaq üçün özünə xas olan bir təhqiqat bürosu qurmuşdu. Bu büro, standart əməliyyat bacarığı olan "viretap" metodundan, yəni başqalarına aid olan məlumatı telefon və ya teleqraf yoluyla oğurlamaq texnikasından istifadə etmişdi.

İckesin öz ofisindəki vəziyyəti, zamanla daha başqa səbəblərlə bir xeyli sarsıntılı olmuş, təhlükəyə məruz qalmışdı. Vəziyyət beləydi: İckes uzun illərdən bəri son dərəcə narahat bir evlilik yaşamışdı. Nazir təyin olunduqdan dərhal sonra isə, özündən çox gənc bir qadınla romantik münasibətlər yaratmışdı. Daxili İşlər Nazirliyində həm bu xanım üçün, həm də xanımın "nişanlısı" üçün iş təşkil etmiş, ancaq xanımı Vaşinqtonda, "nişanlısı"nı isə özünə belə sərf etdiyi üçün Midvest bölgəsində işə götürmüşdü. Çox keçmədi ki, bəzi imzasız məktublar almağa başladı. Məktublarda bu hadisənin mətbuata açıqlanacağı hədə-qorxuları yer alırdı. Daha sonra həqiqətən, bu hadisənin bəzi hissələri mətbuatda yayınlandı. Vəziyyətin belə cərəyan etməsi, şübhəsiz ki, Ağ Evi də ən azından bir dərəcəyə qədər bu işə bulaşdırmışdı. Nəticədə işin istintaqını aparan İckesin təhqiqat qrupu məktubu yazan adamın kimliyini müəyyənləşdirdi. Bu adam hər kəsin asanlıqla təxmin edəcəyi kimi xanımın nişanlısı idi. 1934-cü ilə qədər davam edən bu romantik macəra, elə o ildə də sona çatdı. Bir il keçmədi ki, İckesin həyat yoldaşı bir avtomobil qəzasında öldü. Bundan üç il sonra isə, İckes ikinci dəfə özündən 40 yaş gənc olan bir xanımla evləndi. Bu xanım, İckesin bir müddət əvvəl intihar edən ögey oğlunun arvadının bacısı idi. İckes evlənmədən əvvəl Ruzveltdən icazə almışdı. Prezident aradakı yaş fərqinin üstündə

dayanmamış, özünün ata-anasının da aralarında bu qədər böyük yaş fərqinin olduğunu söyləmişdi.

İckes, nazir təyin olunan andan başlayaraq, neft işiylə əlaqədar olaraq, bir çox adamın tənqid bombardmanına düçar olmuş, çox keçmədən, bu işin nə dərəcədə "tikanlı" olduğunu ilk əldən dərk eləmişdi. 1 mart 1933-cü ildə Ruzveltə bir məktub yazıb, neft sənayesinin "keyfini necə xarab etdiyini" ona izah edirdi. Böyük şirkətlərlə müstəqillər arasındakı qiymət savaşını, ifrat istehsal və israf mözularındakı çəkişməni qəbul edir, sözlərinə bu görüşləri əlavə edirdi: "Ancaq bunu bilirik ki, Şərqi Texas yataqlarında neftin barreli 10 sentdən satılmaqdadır. Yenə bilirik ki, bu hal neft dünyası və ölkə zərərinə nəticələr verəcək, bizi bir çox təhlükələrlə qarşı-qarşıya gətirəcəkdir."

Bu ara neftçilər və əyalət neftçilərindən seçilən təmsilçilər səslərini yüksəldərək, Vaşinqtona qədər yürüş edilməsi çağrısını edirdilər. Müstəqillərin çox böyük bir hissəsi, Amerikan Müstəqilləri Neft Dərnəyinin Prezidenti olan sədrlərinin sözləriylə "Daxili İşlər Nazirliyinə məhdudiyyətsiz səlahiyyət verilməsini təklif edən qanun"u dəstəkləyirdilər. Ancaq hərəkətə keçmək mövzusunda əksəriyyət ittifaq halında olmalarına baxmayaraq, nə etmək lazım olduğuna qərar verə bilmirdi.

5 may 1933-cü il tarixində Nazirlər Kabinetinin iclasına getdiyi zaman əlinə bir teleqraf verilir və bu teleqrafda bildirilirdi ki, Şərqi Texasda neftin qiymətləri dörd sentə qədər düşüb. Həmin günün axşamı bir teleqraf daha aldı. Texas Valisindən gələn bu teleqrafda "vəziyyətin əyalət tərəfindən nəzarət edilə bilməyəcək dərəcədə cığırdan çıxdığı" bildirilirdi. Bundan üç gün sonra İckes bir xəbərdarlıq edir, "neft işinin tamamən bitmək üzrə olduğunu" söyləyərək, "heç bir şey etməməkdə, heç bir tədbir





görməməkdə davam ediləcək olarsa, bu sənaye sahəsinin tamamən çökəcəyini, bunun da ölkənin neft rezervləri baxımından çox böyük bir itki olacağını" xəbər verirdi. Bundan başqa, özünün və Yeni Neft Qanununun işə dərhal müdaxilə edib, bir şeylər etməyə istəkli və hazır olduqlarını da əlavə edirdi.

Neft sənayesindəki böhranı xilas etmək təşəbbüsü əvvəlcə Milli Sənayeni İnkişaf Qanununun (National İndustrial Recovery Act) və bu qanunun gətirdiyi Milli İnkişaf İdarəsinin (National Recovery Administration) himayələrində başladı. Fəhlə ilə hökumət arasındakı əməkdaşlığı nəzərdə tutan bu sistem, iqtisadi toparlanmağı hərəkətə keçirməyi, rəqabəti ən aşağı səviyyəyə çəkməyi, fəhlənin mövqeyini gücləndirməyi və bunu edərkən də anti-tröst (anti-inhisar) qanunları az da olsa cilalayıb, ön plana çıxarmağı hədəfdə tuturdu.

Bu sistemdə neft, o biri sənayelərdə olduğunun əksinə olaraq, NRA-nın yox, Harold İckesə tam dəstək verən Daxili İşlər Nazirliyinin nəzarətində olacaqdı.

İda Tarbell və Teodor Ruzveltin ənənə halında davam etdirdikləri anti-tröst təbliğatın təsiri altında İckes kampaniyalarının əksəriyyəti "mənfəətçiliyə qarşı" təşəbbüslərə çevrilmişdi. O günə qədər heç bir zaman iş həyatının müdafiəçisi və ya tərəfdarı olmayan bu adam indi, bir zamanlar həddindən artıq məğrur olan iş adamlarının Böyük Böhran tərəfindən necə əzilib sarsıldıqlarını, federal hökumətdən necə yardım dilədiklərini görür, bu da ona bir növ vəhşi bir zövq verir, əyləndirirdi. Bir gün Birləşmiş Ştatların Ticarət Palatasındakı bir yeməyə qatıldıqdan sonra bu mövzudakı görüşlərini bu sözlərlə izah etmişdi: "İş dünyasının bu böyük və uca simalarından nə qədər çox iş adamı dizləri və əlləri üzərinə qapanmış halda

Vaşinqtondan mədət umur, özlərinin görə bilmədikləri işləri öz adlarına idarə etmək üçün hökumətə yalvarırlar" demişdi.

Siyasi təcrübələri və imici baxımından, İckes, həyatı boyu neftçiliyə simpatiya ilə yanaşmamışdır. Amma buna baxmayaraq, yenə də neft sənayesinin imdadına yetişən, onu içində çırpındığı ağır vəziyyətdən xilas edən və nəhayət, gələcəyini qarantiya altına alan da İckes olmuşdur: "Neftə mütləq olaraq və büsbütün bağlı olmağımız şübhəgötürməz bir həqiqətdir. Daş dövründən bürünc dövrünə, bürünc dövründən dəmir dövrünə, dəmir dövründən sənaye dövrünə keçdik. İndi də neft dövrünə ayaq basmışıq. Neft olmasaydı, bu günkü formada bildiyimiz, bizə məlum olan Amerikan mədəniyyəti də olmazdı."

## Hökumət hərəkətə keçir

İckes işə qiymət faktorunu ələ alaraq başladı. Onun qənaətincə, digər malların qiymətlərində olduğu kimi, neftin də qiymətləri ifrat dərəcədə aşağı idi. İqtisadiyyata yenidən satınalma gücü qazandırmaq üçün bütün xam maddə qiymətlərinin yüksəldilməsi lazımdı. Artıq neftçilər, digər xam maddə istehsalçıları kimi məhsullarını maliyyətindən də aşağı qiymətə satmaqda davam etməməliydi. Neft, barreli 10 sentdən satılmağa davam etdikcə, böhranın keçilməsi də mümkünsüz idi. Qiymətlərin yenidən yüksəldilməci üçün istehsalın nəzarət altına alınması lazımdı. İstehsalın nəzarət altına götürülməsi üçün İckes "isti neftçi" adlanan və özünün "şeytani hiyləgərliyə sahib" olaraq qiymətləndirdiyi istehsalçılara qarşı amansız bir kampaniya başladı. Bir-birindən fərqli minlərlə müxtəlif yataqdan qaynaqlanan "isti neft" sızıntıları ifrat istehsal





meydana gətirirdi - 1933-cü ildəki təxminlərə görə, gündə yarım milyon barrelə çatacaq qədər ifrat bir istehsal. Qaçaq istehsal olunan "isti neft", gizlincə yabanı otlarla sarılmış tankerlər və gizli boru kəmərlərindən kənara verilir, qanunsuz tikilən boru kəmərləri və kamyonlar şəbəkəsi vasitəsilə daşınır, gecə düşən kimi əyalətin sərhədlərindən aşırılıb, başqa əyalətlərə qaçırılırdı. Qanunsuz olan bu yolların hər birində bütün maneələr rüşvət və para gücüylə keçilə bilirdi. İşlərin bu şəkildə davam etdirilməsi, zamanla böyük və qazanclı yeni bir iş sahəsinin meydana çıxmasına səbəb olmuşdu. Əslində hər qiymət sabitləşdirmə hadisəsi, neftçiləri daha çox "isti neft" istehsal etməyə təşfiq edir, bu bazarları neft selinə boğduğu üçün qiymətləri daha da aşağı salırdı.

"Prorationing" əməliyyatında ən böyük mənfilik qaçaq neftdən gəlir, bu da hər cür qiymət sabitləşdirmə təşəbbüsünü heçə endirirdi. "Prorationing" sistemini dayandırmağın tək yolu, çalışıb sistemə canla-başla düzən gətirmək, polis qüvvətlərinə müraciət etmək və bu böyük sızıntını tıxamaq idi. Buna da qərar verildi. Ancaq bu, sadəcə Texas, Oklahoma və digər əyalətlərin qatılımları ilə həll olunacaq bir problem deyildi. Burada "polis" rolunu mütləq federal hökumət öz üzərinə götürməli idi. Ancaq hansı səbəb əsas gətirilməliydi? Bu problem federal hökumətin əyalətlərarası ticarəti nizamlamaq məqsədi ilə polis gücündən istifadə etmək səlahiyyəti alması ilə həll olundu. Nəticədə, 1933-cü ildə tez-tələsik qanunlaşan bir qərarla Dövlət Başçısına, dövlətin icazə verdiyi miqdardan daha artıq "isti neft" istehsal etməyi qadağan etmə və bu neftin əyalətlərarası ticarətə daxil olmasını yasaqlama səlahiyyəti verildi. Neft sənayesinin içində yer aldığı ağır şərtlərdən, bilavasitə Ruzveltin özü də üzüntü hissi keçirmişdi.

Nəhayət, 14 iyul 1933-cü ildə onun imzasını daşıyan bir İcra Əmri yayınlandı. İckes, adı keçən İcra Əmrindən xatirələrində bu cür bəhs edir: "İcra Əmri əyalət qanununu tapdalamaq yoluyla əldə olunmuş hər hansı bir neft və ya neft məhsulunun bir əyalətdən başqa əyalətə daşınmasının və ya xarici ticarət dövriyyəsinə daxil olmasının qarşısının alınmasına istiqamətlənmişdi. İcra Əmri mənə geniş səlahiyyətlər verirdi. Mən sadəcə əmrləri vermə səlahiyyəti yox, həm də onları həyata keçirmə səlahiyyəti alırdım."

İcra Əmrini ələ keçirən İckes, vaxt itirmədən Şərqi Texas neft bölgəsinə federal nəzarətçilər göndərdi. Bunların müxtəlif vəzifələri vardı:

- neftayırma müəssisələrinin apardığı qeydləri incələmək;
- neft sayğaclarını nəzərdən keçirib yoxlamaq;
- tankerlərə nəzarət etmək;

hətta o günə qədər andiçmə yoluyla bəyan edilmiş sənədlərin doğruluğunu araşdırıb, nəzarət etmək üçün

- boru xətti qazmaq.

İckes bu mövzuda çox sərt davranmış, hətta "isti neftçilər" adlanan şəxslərin həbs olunub, ədalət mühakiməsinə təslim olunmasına qədər israrlı olmuşdur. Səbirsizlik göstərən bir parlament üzvünə "mən bu mövzuda yerlə göyü bir-birinə qatar, yerindən oynadaram" dediyi söylənilir. Federal hökumətin nəzarətçilərinin təşəbbüsləri nəticəsində "isti neft" satışını qadağan etməyə nail oldular. Bu arada Texas Əyaləti bir polisə səlahiyyət verə bilməyəcək dərəcədə iflas etmişdi.

Milli Sənayeni İnkişaf Qanununun (National İndustrial Recovery Act) tələbi ilə çıxarılan Neft Qanunu (Oil Code) İckesə hər əyalət üçün aylıq kvota müəyyənləşdirmək səlahiyyəti kimi fövqəladə səlahiyyətlər vermişdi. Bir neçə il





öncəsinə qədər bu cür bir hökumət müdaxiləsi, dünyanın hər yerində, neftçilər arasında bir üsyan dalğasının ilk qığılcımlarını alovlandıra biləcəyi halda, indi artıq sənayenin bir çox təbəqəsi tərəfindən məmnunluqla qarşılanır, xilaskar addım olaraq qəbul olunurdu. İndi bu işin başında İckes vardı və öhdəsinə götürdüyü işi parlaq bir uğurla davam etdirirdi. İckes 1933-cü il sentyabr ayının 2-də ölkənin neft istehsalını gündə 300 min barrelə endirmək məqsədilə, ölkədə nə qədər neft istehsal edən əyalət varsa, hər birinin valisinə ayrı-ayrı teleqraf çəkərək, hər əyalətin istehsal həcmini bildirdi. Bu, həqiqətən tarixi bir qərar idi. Bu qərar sənayenin işləyiş mexanizmində təməl siyasəti dəyişdirmişdi. Artıq "həddindən artıq istehsal" günləri geridə qalmışdı. "Prorationing" əməliyyatlarının təsiri altında formalaşan "qap-qaç" ənənəsi, neftin ifrat istehsal səbəbindən yox olub bitmə təhlükəsini yaratmışdı. Bu kritik dönəmdə, orta əsrlər İngiltərəsində dağ keçiləri və ev heyvanları üçün keçərli olan bu "qap-qaç ənənəsi", artıq bu ölkədə keçərli ola bilməzdi və xalq da bunun fərqindəydi.

Qiymətlərin nizamlanması və sabitliyi, başqa bir yolla, bilavasitə hökumətin təsbitləri ilə də təmin oluna bilərdi. Qiymətlərin aşağı düşməsindən həddindən artıq ziyan görənlərin əksəriyyəti, qiymətlərin federal hökumət tərəfindən müəyyənləşdirilməsini şiddətlə dəstəkləyirdilər. Bunlardan biri, "Standard of Californiya Şirkəti"nin bir təmsilçisi 1933-cü ildə bunları söyləyirdi: "Əgər bizim qiymətlərimizi müəyyənləşdirməsəniz, bu gündən başlayıb qiyamət gününə qədər qanun çıxarmaqda davam edər və yenə də heç bir şeyə nail ola bilməzsiniz." Bu dəstəklələrə baxmayaraq, qərarlara müxalifətçilik edənlər də vardı. Müxalifətdə olanlara görə, hökumət qiymətləri

müəyyənləşdirməyə başlayarsa, neft sənayesinə də bir dövlət işi kimi yanaşacaqdı. Onlar hökumətin bu dəfə qazancları da müəyyənləşdirəcəyindən qorxurdular. Bu mövzuda İckes şəxsən işə əl qoyub, bir müddət üçün neft qiymətlərini özü müəyyənləşdirmək istəsə də, müxalifətlə qarşılaşdı. Əslində həqiqətən də qiymətlərin təsbit olunması ifrat istehsala qarşı olan həvəsi yenidən qızışdıra bilər və ifrat istehsalı yenidən canlandıra bilərdi. Qiymət təsbiti mövzusu, istehsalın məhdudlaşdırılması mövzusu ilə müqayisə edildiyində, ondan daha çətin, daha mürəkkəb və heç şübhəsiz ki, daha çəkişməyə açıq olduğu meydana çıxırdı. Seçilməli bir metod vardı ki, bu da heç şübhəsiz, "istehsalın məhdudlaşdırılması" metoduydu. Bu səlahiyyətin birbaşa Vaşinqtona həvalə olunmasına cəhd olunsa da, bu mümkün olmadı və iş əyalət səviyyəsində tutuldu. Beləliklə, daha az qarmaqarışıqlıq yaradacağı, cari istehsal dünyasına daha yaxın olacağı və gözlərdən daha uzaq qalacağı düşünülmüşdü.

1934-cü ilin axırlarına doğru federal hökumət-əyalət ortaqlığının formalaşdırdığı yeni sistem bir xeyli rəğbət qazanmışdı. Hətta Ruzveltin cangüdənlərindən biri dekabr ayında prezidentə bu sözü söyləmişdi: "Şərqi Texasda "isti neft" mövzusunda bir xeyli uğurlar qazandığımız gün kimi ortadadır." Amma nə yazıq ki, bu sözlərin söyləndiyi anın üstündən heç bir ay keçmədi ki, 1935-ci ilin yanvar ayında Ali Məhkəmə yeni sistemə öldürücü bir zərbə endirdi. Məhkəmə Sənaye İnkişaf Qanununun qaçaq nefti qadağan edən maddəsini geri çevirərək, yepyeni bir böhrana yol açırdı. Bu isə, qaçaq neftə nəzarət qoyulmadıqca, bütün neft sənayesinin məhvə məhkum olması deməkdi. Bunun qarşısının alınması və icazə veriləndən ifrat dərəcədə çox miqdarda neft istehsalının əyalətlərarası





ticarətdən kənarda qoyulması üçün dərhal və təcili olaraq yeni qanun layihəsi hazırlandı və qanun halına gətirildi. Bu qanuna - qanunu həyata keçirən adamın, Texas Senatoru Tom Connalynin adıyla "Connaly Qaçaq Neft Qanunu" deyildi. Daha sonra - bu dəfə 1935-ci ildə Ali Məhkəmə bir daha, əvvəlkindən də ağır ikinci bir zərbə endirir, Milli Sənaye İnkişaf Qanununun əksər hissəsini Konstitusiyaya zidd elan edirdi. Bu son vəziyyətin neftlə bir əlaqəsi yox idi. Bu, daha çox NRA Qanununu tapdalamaq hesabına Nyu Yorkda həyata keçirilmiş "xəstə toyuq satıcılığı" dəstəsinə qarşı alınmış bir tədbir olmaqla bərabər, istər-istəməz həm də neft mövzusunu əhatə edirdi. Buna baxmayaraq, NRA-nın ləğvi, digər bəzi faktorların da işə qarışmasıyla İckesin sahib olduğu bəzi səlahiyyətləri də geri alacaqdı. Əyalətlər üçün təsbit olunmuş məcburi kvota müəyyənləşdirmə səlahiyyəti də geri alınan səlahiyyətlərdən biriydi.

Yenə də bir və ya iki il öncəsi ilə müqayisədə, geri alınan bu səlahiyyətlərin doğurduğu nəticələr o dərəcədə dağıdıcı olmadı. Çünki aradan keçən bu müddət ərzində neft sənayesinin təkmilləşməsi üçün lazım olan çərçivə yaradılmış və yerinə oturdulmuşdu. Bundan başqa, həm də bir müqavilə imzalanmışdı. Bu çərçivə və anlaşma NRA-nın hökmsüz sayılmasına baxmayaraq, mövcudluqlarını davam etdirmişlər. Yeni sistem, federal hökumət-əyalət əməkdaşlığının davam etməsi ilə nəticələnmişdi. Yeni dəyişiklikləri ilə "Connaly Qaçaq Neft Qanunu" ifrat neft istehsalının aşağı səviyyədə saxlanılması üçün kifayət sayda polis gücünü nəzərdə tuturdu. Bundan əlavə, federal hökumət, xüsusilə də "Bureau of Mines", yəni Mədən Bürosu hər il bir növbəti mərhələ üçün periodik olaraq tələb təxmin raportları hazırlayırdı. Əvvəlcə bu tələb təxmin

raportları hazırlanır, sonra da bunlara görə, hər əyalətə bu tələbin bir hissəsi "təhsis" edilirdi. Rəsmi olmayan, ancaq könüllü bir "kvota" sayıla biləcək bir sistemlə hər əyalət, öz tələbinə uyğun olan bir hissə ala bilirdi. NRA-nın ləğv olunmasından sonra əyalətlərdən bu səviyyəni qəbul etmə məcburiyyəti qaldırıldı. Bu arada, müstəqilliyini elan edərcəsinə professionallaşıb, texniki üstünlüklər qazanan Texas Dəmiryolu Komitəsi, zaman-zaman ona ayrılan "kvota"nı az da olsa, aşıb keçirdi. Yenə də bunlara baxmayaraq, ümumən, əyalətlərin federal təxminlərə uyduqları, bu təxminlərə uyma məcburiyyəti qaldırıldığı halda belə, riayətsizlik etmədikləri söylənə bilər.

Bu şərtlər altında müəyyən bir əyalət, təbii olaraq ona tanınan kvotanı artıqlamasıyla aşa bilirdi. Ancaq bu cür hərəkət etməklə federal hökumətin və digər əyalətlərin əkstəsir göstərməsinə səbəb olur və bundan başqa, o biri əyalətləri də özü kimi ifrat istehsala meyllləndirirdi. Beləliklə, yeni bir ifrat istehsala və dolayısı ilə yeni bir qiymət endiriminə səbəb olurdu. Bu cür vəziyyətin qarşısının alınması üçün hər bir əyalət, federal hökumətin təsbit etdiyi kvotaya uymağı qəbul edir, daha sonra istehsalı, təxmin tələbində öhdəsinə düşən payı tamamlayacaq şəkildə tənzimləyirdi. Neftin barrelinin 10 sentdən satıldığı günlərin acı xəyalı hələ yaddaşlardan silinmədiyindən, istər istehsalçılar, istərsə də əsas gəlirlərini neftdən əldə edən hökumətlər üçün o günlərin bir daha təkrarlanmamasına cəhd edilirdi. Ümumi qənaətə görə, əvvəl-axır yenidən böyük neft yataqları kəşf olunacaqdı. 1930-cu illərdə bir neft mütəxəssisinin yazdığı kimi "Şərqi Texas bölgəsində yaşanan hadisələrin bir daha təkrarlanmayacağını söyləmək üçün insanın kahin olması lazımdı."

Əyalətlərarası Neft Müqaviləsinin qüvvəyə minməsiylə, 1935-ci ildə əyalətlərin neftdəki rolu daha da rəsmi şəklə





bağlandı. Neft istehsal edən əyalətlər arasında keçərli olan və Texas Dəmiryolu Komitəsi sədrinin "bu sözləşmə" deyə bəhs etdiyi "Neft Müqaviləsi" zaman-zaman Oklahoma və Texas arasında ciddi toqquşmalara yol açmışdır.

Oklahoma inhisarçı təşkilata oxşar bir quruluş tərəfdarı idi. Bu təşkilata iki baxımdan tam səlahiyyət verilməsini tələb edirdi:

1. Hər əyalətin təxmini neft tələbini müəyyənləşdirən Mədən Bürosu məlumatlarının əyalətlərdə tətbiq olunma səlahiyyəti;

2. Kvotalara riayət olunmanı təmin etmək üçün qanuni səlahiyyət.

Texas isə bu cür yaradılacaq bir təşkilata tamam qarşı idi. Öz hökmranlığını başqa əllərə qapdırmaq istəmirdi. Nəticədə qazanan Texas oldu və Əyalətlərarası Neft Qanunu bəzi adamların istədikləri inhisarçı təşkilatdan belə daha əhəmiyyətsiz bir şey oldu. Amma yenə də bu qanun əyalətlər arasında məlumat və planların transferində, cəzaların müəyyənləşməsində və istehsalda qoruma və məhdudlaşdırmaların koordinasiyasında köməkçi oldu.

Əsas sayıla biləcək və əgər var olmasaydı, sistemin əsla işləməyəcəyi struktur bloklarından bir başqası da əcnəbi neft idxalını nəzarət altında saxlayan gömrük tarifəsidir. Əgər bu gömrük tarifələri olmasaydı, aşağı keyfiyyətli idxal neft Amerikan bazarına sızar və bu hal yerli istehsal üzərindəki hər hansı bir məhdudlaşdırmanı təsirsiz buraxaraq, nizamlayıcı sistemin kənarına çıxar və yeni bir "qaçaq neft" cərəyanı yaradardı. 1930-cu ildə çıxarılan Smooth-Havley Qanununun anormallığı oradaydı ki, qanuna neftlə bağlı nizamlayıcı bir maddə qoyulmamışdı. Buna görə də gömrük tarifəsinin yaratdığı narahatçılıqlar get-gedə artmağa başladı. 1931-ci ildə neft idxal edən bəzi böyük şirkətlər müstəqillərin tənqid dolu şimşəklərini

üzərlərinə çəkməmək üçün "könüllü" olaraq idxalatlarını azaltmağa başladılar. Çünki müstəqillər "aşağı qiymət" suçunu istehsalda tətbiq etdikləri ibtidai metodlarına yox, böyük şirkətlərə və əcnəbi firmalara yükləyirdilər. Ancaq idxalata gətirilən bütün məhdudlaşdırıcı tədbirlərə baxmayaraq, nəticə alınmırdı.

1932-ci ildə neft sənayesində və neft istehsal edən əyalətlərdə yaşanan sıxıntı artıq öz zirvə nöqtəsinə çatmış, mütləq surətdə yeni bir gömrük tarifəsinə ehtiyac yaranmışdı. Nəticədə bir layihə hazırlandı, Konqresdən keçirildi və imzalanıb qanunlaşdırıldı. Qanun xam neft və mazota barrel başına 21 sent, benzinə isə 1.05 dollar gömrük vergisi gətirirdi. Müəyyənləşdirilən bu gömrük vergisi başqa bir problemin də həllinə əsaslı köməklik göstərmiş, böhran illərinin tam ortasında hökumət üçün yaxşı bir gəlir qaynağı təşkil etmişdir. Bu vergi tam zamanında tətbiq olunmuşdu. Gömrük vergisinin tətbiq olunmasıyla əcnəbi neftin ölkəyə axımını dayandıran bir divar çəkilmiş olurdu ki, bu da "prorationing" sisteminin işlərliyi baxımından son dərəcədə əhəmiyyətliydi. 1933-cü ildə İckeslə öndə gələn idxalat şirkətləri arasında imzalanan və idxalatın həcmini müəyyənləşdirən "könüllü anlaşma", nəticədə gözləniləni vermişdi. 1920-ci illərin sonu, 1930-cu illərin əvvəllərində ölkəyə girən idxal neft, ölkə tələbatının 9-12 faizini təşkil edirdi. (Ancaq təbii ki, gömrük tarifəsində göstərilən say və miqdarlar bir elə də dəqiq deyildi. Birləşmiş Ştatların ayrıca bir neft ixracatçısı olduğu və Amerikan neft ixracatının ölkəyə girən neft idxalından iki dəfə artıq olduğu gizlədilmişdi.) Gömrük tarifinin qanunlaşmasından sonra neft idxalatı ölkə tələbatının sadəcə 5 faizini qarşılayacaq səviyyəyə düşdü.

Amerikaya ən böyük xam neft ixracatı edən ölkə Venesuella idi. Venesuella tək başına Amerikanın idxal





etdiyi xam neftin yarısından çoxunu təmin edirdi. Bundan başqa, Venesuellanın istehsal etdiyi neftin cəminin 55 faizi xam neft və neft məmulları şəklində Amerikaya gedirdi. 1920-ci illərdə iflas həddinə gələn Venesuella sənayesi, indi çox ciddi bir toparlanma mərhələsinə girmiş, venesuellalı neftçilərin və onların ailələrinin doldurduğu gəmilər bir daha ölkələrinə geri qayıdırdı. Venesuellada fəaliyyətdə olan əcnəbi şirkətlər də boş dayanmırdılar. Onlar da öz növbəsində ixrac olunan neft məhsullarını Avropa bazarlarına çıxarmaq üçün təşəbbüs göstərirdilər. Beləliklə, Venesuella artıq Avropanın ən böyük neft təminatçısı olmuş və ixracatda Birləşmiş Ştatlarla başa- baş duruma gəlmişdi. 1930-cu illərin ortalarında Venesuella bir daha əski günlərdəki yüksək istehsal səviyyəsinə yetişmişdi. Yerli Amerikan neftçiliyi baxımından isə, gömrük tarifəsi qoruyucu bir funksiya rolunu oynamış, məhdudlaşdırma sisteminin kənarında nə qalıbsa, hamısı bu divarın gerisinə aid olduqları üçün, lazım olduqları yeri tutmuşdular.

## Sabitlik

Məhdudlaşdırmada bir sistemin yaranması və təmin olunması mövzusu hər nə qədər məntiqli və hətta qaçınılmaz görünsə də, bu sistem narahat və nizamsız şərtlər altında inkişaf etmişdi. Mövzuyla bağlı müzakirələr yorucu və ittihamedici olmuş, hər mərhələdə kin və əlacsızlıqla dolu səhnələr yaşanmışdı. Bundan başqa, bu sistemin doğuşu bir bütün halında olmamış, qisim-qisim, acılarla dolu və hadisələrin inkişafına uyaraq formalaşmışdı. Şərqi Texasın işə qarışması və neftin bir barrelinin 10 sentdən satılması sənayeni bərbad etməyə kifayət etmiş, nəticədə istehsalçı əyalətlərin bu yöndə hərəkət etməsinə yol

açmışdı. Neft sənayesində əldə olunan böyük nailiyyətlər və 1920-ci illərin ortalarında başladılan neft sənayesi dinamizmi bu hərəkətlərin ortaya çıxmasını asanlaşdırmışdır. Ancaq bu da kifayət etməmiş, hadisənin baş verməsi üçün Böyük Böhranın və Yeni Paylaşım hərəkatının formalaşması lazım olmuşdu. Hadisənin gerçəkləşməsinə səbəb olan faktorlardan bir başqası da Texas və Oklahoma neftçilərinin gözlənilməz şəkildə anlaşmaları, Austin və Oklahoma Citynin böyük siyasətçilərinin və İckes ilə Vaşinqtonda Yeni Müqaviləyə imza atan o biri liberalların razılaşmalarıdır. Bütün bu adamlar təbii olaraq bir-birilərinə qarşı şübhələnir və bir-birilərinə inanmırdılar. Amma neft axtarmanın özünəməxsusluğu və neft yataqlarının işlənilməsində son dərəcə primitiv və ənənəvi metodlara müraciət olunması səbəbilə - əgər bu birlikdə işləmək məsələsi baş tutmasaydı - neft sənayesi bu gün mütləq iflas etməyə məkhum olacaqdı. 1933-cü ildə ölkəni başına götürmüş terror hərəkətləri artıq arxada qalmışdı. Yeri gəlmişkən, Texas Dəmiryol Komitəsi sədrinin 1937-ci ildə böyük bir qürurla Ruzveltə yazdığı kimi "artıq günümüzdə federàl hökumətlə neft istehsalçısı əyalətlər arasında neft yataqlarının mühafizəsi üçün tam bir əməkdaşlıq və koordinasiya təsis edilmişdir." Başqan bunları yazarkən, bəlkə bir az şişirtmişdi, amma vəziyyət söylədiyinə çox yaxındı.

Bu "düzənləyici sistem" son forması etibarilə böyümə mərhələsində bir çox qarışıqlıqlara hədəf və səbəb olsa da, əslində çox güclü bir məntiq ehtiva edirdi. İstehsal mövzusunu, hətta bir dərəcəyə qədər neft ehtiyatlarının "sahibliyi" məsələsinin tərifini yenidən verirdi. İstehsala həm texnoloji, həm də hüquqi və iqtisadi baxımdan tamamilə yepyeni bir yaxınlaşma gətirir, bundan başqa, Amerikan neft sənayesinə yeni bir istiqamət qazandırırdı. Aradan bir çox illər keçdikdən sonra, eyni şeyi bu dəfə daha böyük





miqyasda həyata keçirmək istəyənlər, o günün "düzənləyici sistemi"ni özlərinə istiqamətləndirici bir model kimi götürmüşdülər.

Düzənləyici sistemdə versiyalara əsaslanan çalışma metodları hakimdi. Məsələn, bunlardan biri bu versiyadır: Neftə duyulan tələb mütləq qiymət hərəkətləri ilə düz mütənasibdir deyə bir şey yoxdur. Tələb tək başına mütaliə edilməlidir. Xüsusilə, böhran illərində xalqın əksəriyyəti bu versiyanı ağla uyğun və üzərində düşünməyə dəyər bilmişdir.

İkinci versiya isə bu idi: Hər əyalətin bazarda özünə xas olan "təbii" bir payı vardır. Paylar dramatik bir dəyişikliyə məruz qalarsa, bütün sistem küll halında təhlükəyə girər. Yeri gəlmişkən, 1930-cu illərin sonunda İllinoisdə əhəmiyyətli neft kəşfləri olunandan sonra bu əyalət ölkənin ən böyük dördüncü istehsalçısı olduğu zaman ortaya çıxan tablo bununla eynidir. İllinois Əyalətlərarası Neft Müqaviləsinin üzvü deyildi. Yeni bir istehsalçı idi, bazara girmək istəyirdi. Buna görə də özünə uyğun bir pay əldə etmək üçün öz metodlarından istifadə istifadə edirdi. Vəziyyət belə olunca, İllinois xam neftinə yol açmaq üçün Texas və Oklahoma öz istehsallarını önəmli miqdarda kəsmək məcburiyyətində qaldılar. Şübhəsiz ki, bunu istəyərək etmirdilər. Bu arada bir çox şikayətlər olur, bütün sistemdən imtina olunması üçün çağrılar edilirdi. Məsələn, Texas "prorationing"dən imtina etmək və öz yoluyla getmək hədə-qorxusunu sovurmuşdu. Ancaq yenə də düzənləyici sistem dirənməkdə israr etmiş, İllinoisdən gələn yeni neftin səbəb olduğu "soyqırıma" belə dayanmağı bacarmışdı.

Bu sistemdə qiymətlər hökumət tərəfindən müəyyənləşmədi. Sistemin müdafiəçiləri istər Austində, istər Vaşinqtonda olsun, bu mövzuda həddindən çox israrlı hərəkət etdilər. Ancaq istehsal səviyyələri bazar tələbatını qarşılayacaq şəkildə müəyyənləşdiyi üçün, xam neft istehsalının

da sabit bir qiymətlə bazarlanacaq səviyyədə müəyyənləşməsi yoluna gedilmişdir. 1934-1940-cı illər arasında Birləşmiş Ştatlarda ortalama neft qiyməti barrel başına 1 dollarla 1.18 dollar arasında dəyişirdi. Nəticədə "barreli bir dollar" çağrıları həyata keçmişdi. Yeni sistem ondan gözləniləni vermişdi. Artıq neft seli dayanmışdı. Bütün bunlar olarkən, xam neftin artıq qalanını idarəetmə sistemindən tutmuş, hökumət-neft şirkətləri arasındakı əlaqələrə qədər hər şey sonsuza qədər və əsaslı formada dəyişmişdi.





# 14

# DOSTLAR VƏ DÜŞMƏNLƏR

MALCOLM və HİLLCART firması Glasgovun 75 mil şimalında, Şotlandiyanın qərb sahilində, Fort Villiams qəsəbəsində fəaliyyət göstərən bir əmlak firmasıydı. Ovçuluq və balıqçılığa uyğun torpaqlarda kiralama işləri ilə məşğul olurdu. 1928-ci ilin yaz mövsümünün əvvəllərində kirayəyə verməyi planlaşdırdığı Achnacarry Şatosu adlanan mülkün cazibədar xüsusiyyətlərini müəyyənləşdirən və açıqlayan bir də siyahı hazırlamışdı. Bu mülk qəsəbədən 12 mil qədər uzaqlıqda, İnverness-shire deyilən yerdə yerləşirdi. Dünyanın hər tərəfindəki əmlakçılar kimi Malcolm və Hillcart da mülkü tərifləmək üçün ən gözəl kəlmələrdən istifadə etməkdən çəkinməmiş, "bu şato Arkaig çayı sahillərində bölgəyə gözəllik qatan biro malikanə olub, Şotlandiya dağlarındakı tarixi yerlərin ən maraqlısıdır" demişdilər. Şatonun bütün gözəlliklərini diqqətə çatdırmaq üçün bu sözləri də əlavə etmişdilər: "Şatonun ətrafını bürüyən mənzərə bütün Şotlandiyada mislibərabərinə rast gəlinməyən gözəllikdədir." Həqiqətən də burası - 50 min hektarı aşan ərazisi ilə - quş və balıq ovçuluğuna fövqəladə əlverişliydi. Bir ovçu burada 90-a qədər keçi, 160 cins ov quşu və 2000 balıq ovlamaq üçün icazə ala bilirdi. Malikanəyə gəlincə, XIX-cu əsrin əvvəllərində "Şotlandiya Baron stilində" inşa edilən bu bina, sonradan elektrik təsisatı, isti su və mərkəzi qızdırma sistemi ilə müasirləşdirilmiş, 9 yataq otağı, bundan əlavə, həm də əlavə otaqları olan bir binaydı. Bu otaqlardan başqa,

qaraja əlavə kimi tikilmiş 4 otağı daha vardı. 1928-ci ilin avqust ayında kirayə verilmək istənən bu malikanə üçün 3000 pound kirayə haqqı tələb olunurdu. Bu kirayə haqqını ödəyəcək kirayəçi öz xidmətçilərini gətirəcək, sadəcə gözətçi qadın ev sahibi tərəfindən təmin olunacaqdı.

Əski dostların vaxt keçirməsi üçün bu cür istirahət və rahatlıqverici bir atmosferdən daha mükəmməl bir yer tapıla bilərdimi? Henri Deterding də bu cür düşündüyü üçün malikanəni bir ay müddətinə kirayələdi. Ona istirahət yoldaşlığını Nyu Jersey Standard Oil başqanı Valter Teagle edirdi. Şübhəsiz ki, burada heyrət ediləcək bir şey də yox idi. Onsuz da bu iki şəxs illər boyu bərabərcə ova çıxmağa adət etmişdilər. Fürsət düşdükcə, birlikdə ova çıxırdılar. Ancaq bu yaz vəziyyət bir az başqa cürdü. Əski dostların siyahısı bir az uzun tutulmuşdu. Qonaqlardan bəziləri bu adamlardı: Heinrich Riedemann - Jerseyin təmsilçisi, Villiam Mellon - Gulf Şirkətinin təmsilçisi və Polkovnik Robert Stevart - Standard of İndiana Şirkətinin təmsilçisi. Bu seçkin adamlar yanlarında katibələrini, çap maşınkalarını və məsləhətçilərini də gətirmişdilər. Bu adamlar 7 mil uzaqlıqda, xüsusi olaraq kirayəyə götürülmüş ayrı bir kənd evində istirahət edirdilər.

Dostlar arasındakı bu gizli görüşmə mətbuatdan gizli tutulmaq istənmiş və buna böyük diqqət edilmişdi. Ancaq bütün cəhdlərə baxmayaraq, necə oldusa xəbər mətbuata sızdırıldı və çox keçmədi ki, Londonun mətbuat nümayəndələri şimaldakı malikanəyə axın etdilər. Ancaq onlara tək bir şey söyləndi ki, neftçilər sırf quş ovu və balıq tutmaq üçün bir araya gəliblər. Bir şey vardı ki, mətbuat bu açıqlamalara inanmamışdı. "Madam ki, məqsəd quş ovlamaq və balıq tutmaq idi, o halda niyə bu qədər gizliliyə ehtiyac duyuldu?" deyə düşünülürdü. Bu haqda "Deil Express" belə yazmışdı: "Quş ovu kələfin ucunu göstərmir!"





Neftçilərin çayırlarda gəzərkən nə söylədikləri, axşamları içki masasında söhbətləşərkən nə danışdıqları haqqında heç kim, hətta uşaqlar belə bir kəlmə də olsun danışmırdılar. Deterding, istirahət üçün yola çıxarkən, "şeytanlar" deyə çağırdığı iki kiçik qardaşı qızlarını da özüylə birlikdə gətirmişdi. Bu uşaqlar idmanla maraqlanmadıqları və danışılanlardan da sıxıldıqları üçün bir gün dəcəllik edib, Riedemannın yatağının içinə şəkər tozu tökdülər və pijamalarını düyünləyib, adamı çətin vəziyyətə saldılar. Şübhəsiz ki, üz-gözündən zəhrimar tökülən alman neftçi bundan çox əsəbiləşmişdi. Quş ovçuluğu isə, Teaglenin sonradan söylədiyi kimi çox da ümid etdikləri kimi getməmişdi. Ancaq bu, heç də əhəmiyyətli deyildi. Əsil istədikləri şey, sıxıntı içərisində çırpınan neft sənayesini qarşı-qarşıya olduğu ifrat istehsal və ifrat genişlik bəlasından qurtaracaq çıxış yolu tapmaqdı. Neft savaşlarında yeni bir atəşkəs əldə etməkdən daha çox, Avropa və Asiya üçün rəsmi bir razılaşma yaratmaq istəyirdilər - yəni sistem gətirəcək, bazarları böləcək, sənayeyə sabitlik təmin edəcək və səmərəliliyi müdafiə edəcək bir razılaşma. Bax, Achnacarry toplantısı bu cür bir sülh konfransıydı.

Bütün bunlar 1929-cu il hissə sənədi bazarının iflasından və Böyük Böhranın başlanmasından bir il əvvəl baş vermişdi. Bu tarix Dad Joinèrin Şərqi Texasdakı neft kəşfindən iki il əvvəlki tarixə rast gələr. Ancaq hələ o zamanlardan Amerikadan, Venesuelladan, Rumıniya və Sovet Rusiyasından gələn qorxunc neft seli bütün dünya bazarlarını bürüməyə başlamış, qiymətləri aşağı salma və "yıxıcı rəqabət" yolunu açmışdı. Xüsusilə Rusiyadan axıb gələn neft, neftçiləri Achnacarrydə toplanmağa məcbur etmişdi. Rus nefti satın aldığı üçün bir zamanlar Deterdingin Nyu York Standard Oila qarşı tətbiq etdiyi embarqo və bunun nəticəsində ortaya çıxan bəlalı neft

savaşı, indi bütün dünyanı bürümüş, bir çox bazarlara sıçramışdı. Bu savaş nəzarətdən çıxmış, qlobal bir çatışmaya çevrilmişdi. Artıq qiymətlərdə qeyri-sabit dalğalanmalar baş alıb gedir, neft şirkətlərinin heç biri özünü heç bir bazarda təhlükəsiz hiss etmirdi.

Bu səbəblə Achnacarry toplantısı, zamanın içində yer aldığı vəziyyəti əks etdirmişdi. Avropada və Amerikada günün keçərli dəyər və hədəfləri - sənaye rasionalizmi, səmərəlilik və təkrardan qaçma olmuşdu. Bu dəyər və hədəflər həm iş adamları və hökumət mənsublarınca, həm də iqtisadçılar və yayımçılar tərəfindən ən keçərli sənəd sayılırdı. Şirkət birləşmələri, əməkdaşlıqlar, inhisarlar, bazarlama anlaşmaları və dərnəklər bu məqsədlərin həyata keçirilməsində müraciət olunan müxtəlif vasitələrdi və 1920-ci illərdə, hətta 1930-cu illərdə böhranın gəlməsiylə beynəlxalq iş mexanizmini formalaşdırmışdı. Əməkdaşlıq zamanı "səmərəliliyin" təmin olunmasıyla qazanc əldə olunması və qiymətlərin nəzarət altına alınması mümkün oldu. Rokfellerli və Henri Flaglerli günlərdəki kimi, o günlərdə də ortada "sərhədsiz bir rəqabət" təhlükəsi vardı və bu təhlükənin mütləq başını əzmək lazım idi. Ancaq bir şey də vardı ki, artıq "ticari rəqabəti" - tam nəzarət etmək yoluyla, "beynəlmiləl inhisar" vasitəsilə ortadan qaldırmaq yolu qalmamışdı. Ortada, digər bütün firmaları bu cür bir təşəbbüsə "məcbur edəcək" qədər güclü bir firma mövcud deyildi. Siyasi gerçəklərə gəlincə, onlar da buna izin vermirdi. Bütün bu səbəblərə görədir ki, Achnacarry Konfransında tam bir "qalibiyyət" əldə edilə bilməmiş, bir razılaşma ilə kifayətlənilmişdir.





## Britaniya hökumətinin əli

Achnacarry Konfransı sadəcə neft şirkətlərinin yaratdığı bir hadisə deyildi. Səhnənin gerisində müşahidəçilərin əksəriyyətinin gözündən bilərəkdən qaçırılmış Britaniya hökuməti dayanırdı. Bu hökumət öz iqtisadi və siyasi məqsədlərinə nail olma yolunda çalışır, neft şirkətlərini davamlı olaraq əməkdaşlığa məcbur edirdi.

Bu müxtəlif hədəflərin qovuşduğu nöqtədə Anqlo-Pers Şirkətinə Çarlz Greenvayın xələfi olaraq gələn Ser Con Cadman vardı. 1928-ci ildə artıq Cadman nüfuzunun ən zirvə nöqtəsinə çatmış, Deterding və Teagle ilə eyni paraleldə fəaliyyət göstərməyə başlamışdı. Amma onlarla müqayisədə bir də üstünlüyü vardı. Britaniya hökumətinin gözündə misli-bərabəri olmayan bir etibara sahibdi. Mədən mühəndisləri ilə dolu olan bir ailədə dünyaya göz açdığı üçün karyerasına da kömür mədəni menecerliyi ilə başlamışdı və yeraltı təbii fəlakətlərdə mədən fəhlələrini xilas etdiyi üçün mükafatlar almışdı. Zamanla Brimingham Universitetində mədənçilik sahəsində professor olmuşdu. Professorluq etdiyi müddətdə "neft mühəndisliyi" mövzusunda yeni bir kəşflə Universitetin akademik çevrəsini sarsıtdığı və heyrətləndirdiyi rəvayət olunur. Cadmanın kəşfi o dərəcədə həqiqətdən uzaq və xəyal məhsulu kimi görünürdü ki, bir akademik müxalifi kəşfin "şarlatanca həyata keçirilən bir reklam" və "içindən çıxılmaz bir labirint" olduğunu söyləyəcək qədər irəli getmişdi. Birinci Dünya Savaşı başlayanda, Cadman, neft texnologiyasının ən irəlidə gedən neft mütəxəssisləri arasındaydı. Müharibənin davam etdiyi müddətdə Neft Komitəsinin sədri kimi həm siyasət, həm də insanları idarəetmədə fövqəladə

nailiyyətlər əldə etmişdi. 1921-ci ildə Anqlo-Pers şirkətinə texniki məsləhətçi təyin olundu. Bundan altı il sonra da hökumətin namizədi kimi namizədliyi irəli sürülərək, şirkətin başqanı seçildi.

O günə gələnə qədər neft istehsalı bütün dünyada sürətlə artmaqdaydı. Bu ara Cadmanın şirkətinin toplam istehsalı da həm İranda, həm də İraqda artıb dörd qatına qədər çıxmışdı. Cadman o günlərdə bunu söyləmişdi: "Yeni bazarlar axtarıb tapmaq artıq məcburiyyətə çevrildi." Anqlo-Persin qarşısında duran və seçim edəcəyi iki yol vardı: bu yeni bazarlara girmək üçün lazım olan qədər böyük sərmayə yatırmaq və qaçınılmaz rəqabəti də nəzərə alaraq, gücü yetdikcə savaşmaq və ya qurulu düzənli şirkətlərlə ortaq anlaşmalara girib, bazarları bu şirkətlərlə paylaşmaq.

Cadman bu yollardan ikincisini seçərək, Shell və Burma ilə Hindistandakı bazarlar və müəssisələr üçün anlaşma yoluna getdi. Shell Şirkətiylə olduğu kimi Burmayla da anlaşmanın səbəbi, bu şirkətin Britaniya hökumətindən sonra Anqlo-Persin ən böyük şəriki olmasıdır. İkinci hədəf isə Afrikaydı. Bura üçün də Cadman Anqlo-Pers ilə Hollandiya Kraliyyət/Shell şirkətlərinin aralarında "ittifaq" qurub bazarları yarı-yarıya bölüşmələrini təklif etdi. Ancaq bunun həyata keçirilməsi üçün də ən böyük iştirakçı olan Britaniya hökumətinin icazə verməsi lazım idi və Cadman hələ 1928-ci ildə bu icazəni almaq üçün hərəkətə keçmişdi. Bir şey vardı ki, hökumət bu icazəni vermə haqqında çox tərəddüdlü hərəkət edirdi. Admirallıq qurumu hər zamankı məlum narahatçılığını bildirir, Shellin Anqlo-Persi udacağı ehtimalını heç bir zaman nəzərdən qaçırmırdı. Belə bir vəziyyətdə Shellin hökumətin siyasətinə zidd hərəkətlər edəcəyindən şübhələnilirdi. Xarici İşlər Nazirliyi və Maliyyə Nazirliyi bunun Birləşmiş





Ştatları küsdürəcəyindən çəkinirdilər. Bu cür bir birləşmənin Amerika Birləşmiş Ştatlarını - Amerikan cəmiyyətinin içində yer aldığı bu narahatçılıqda - narahat edəcəyi ehtimalı vardı. İki şirkətin Standard Oil şirkətinə qarşı birləşməsi Amerikan maraqlarına tərs gələ bilərdi. Çünki Standard Oil Şirkəti Amerikan maraqlarını təmsil edirdi. Ona görə də qorxurdular ki, Amerika bu səbəblə onları günahlandırsın. Bu günahlandırma asanlıqla İngiltərə hökumətinə qədər uzana bilər və bu da son dərəcə naxoş siyasi nəticələrə yol aça bilərdi. Bu məntiq, zəncirləmə olaraq daha da irəli götürülür, ortaya çıxacaq gərginliyin hökumətə təzyiq göstərib, Anqlo-Persdəki holdinqlərini satmağa məcbur edəcəyi və bunun da Kraliyyət Donanması üçün fəlakət olacağı, Maliyyə üçün isə heç də yaxşı olmayacağı görüşü müdafiə olunurdu.

Bu vəziyyətdə - o günlərdə Maliyyə Naziri olan Uinston Çörçillin bir daha həyati əhəmiyyətli rol oynaması və işə əl qoyması lazımdı. Əvvəllər Çörçill təklif olunan Afrika "birləşməsinə" bir çox baxımdan şübhələrlə yanaşmışdır. "Ser Henri Deterdingin Standardla "savaş" halında olduğu bir zamanda Britaniya hökumətinin bu qovğaya çəkilməsi, məncə zamanlama baxımından uyğunsuzdur" deyirdi. Ancaq zamanla mövzu üzərində düşündükcə, birləşmənin həyata keçiriləcək ən yaxşı şey olduğu qənaətinə gəldi. Bundan başqa, birləşmə həm də ən ucuz metoddu. İmperiyanı Müdafiə Komissiyasına söylədiyi kimi, onun qənaətincə "təklif olunan iş nizamlamasının yeganə alternativi Anqlo-Pers şirkətinin Afrikadakı bazarı əldə etmək üçün savaşmasıydı." Şübhəsiz ki, bunun üçün daha artıq pula ehtiyac duyulacaq və bunun üçün də onun - ən böyük hissədar olan əlahəzrətləri hökumətinin adına - parlamentə müraciət etməsi lazım olacaqdı. Eyni şeyi əvvəlki

zamanlarda bir daha 1914-cü ildə, hökuməti Anqlo-Persdən hissə almağa inandırdığı zaman etmişdi. İndi eyni hekayənin həm də bu dəfə çox toqquşmalı keçəcəyi üçün bir daha təkrarlanmasını istəmirdi. Bu səbəblə də Britaniya hökumətinin neft mövzusundakı birbaşa mənfəətlərinin gözardı edilməsinin ən yaxşı variant olacağı qərarına vardı.

Beləliklə, hökumət Afrika mövzusunda Shell ilə "ittifaq"a getməsi üçün Cadmanı qüvvətlə dəstəkləməyə qərar verdi. İttifaqın necə olacağı haqqında Maliyyə Nazirliyi və Admirallıq Anqlo-Pers Şirkətinə 1928-ci ilin fevral ayında bir brifinq verdi. Brifinq "bu cür bir siyasətin uzun vədədə öldürücü rəqabətə yox, istehlakçının xeyrinə olacağını" bildirirdi. Brifinqdə bundan başqa "belə bir tənzimləmənin əlavə faydalar da saxlayacağına" toxunulur, "daha başqa təşkilatlarla da, xüsusilə Nyu Jersey Standardla "oxşar ittifaqlar" qurulmasına yol açacağı" bildirilirdi.

Bu maddələrin sonuncusu, hökumətin də təsdiqlədiyi Afrika nizamlaması xaric, memorandumda yer alan ən önəmli maddədir. Bu maddə hökumətə - Anqlo-Persə Standard Oilla müzakirələr aparmaq və amerikalılarla oxşar bazar münasibətlərinə girmə səlahiyyəti verdiyini göstərirdi. Bunlardan gözlənən məqsəd digər şirkətlərin "qısqanclıqlarının qarşısını almaq" və Anqlo-Persin "qovğaya meylli olmadığını" sübut etməkdi. Çünki Britaniya hökuməti, Amerikan anti-tröst ənənəsiylə əngəllənmədiyi müddətcə həmişə "birləşmə" tərəfdarıydı. O günlərdə zamanın məşhur bir ingilis bürokratının yazdığı kimi "təcrübələr - neft maraqlarının birləşdirilməsinin istehlakçının ziyanına olmadığını göstərmişdi." Beləliklə, Cadman Anqlo-Persin təmsilçisi olmaqla bərabər, həm də hökumətin təmsilçisi kimi Amerikan şirkətləriylə bir anlaşma təşəbbüsünə girişdi. Artıq Shell ilə aralarında Afrika





anlaşması tamamlanmışdı. İndi sıra bu anlaşmanın həyata keçirilməsinə gəlmişdi. Bu məqsədlə Jersey Şirkətinin başqanı, Teagleyə bir yazı ilə müraciət edib, şirkətlərini və bundan başqa, Hollandiya Kraliyyət/Shell Şirkətini maraqlandıran "ən vacib mövzuların" müzakirə olunacağı "kiçik" bir ofis üçün təklif etməsini istədi. Bax, bu hadisələr, irəlidə Deterdingin Teagle, Cadman və digər neftçiləri 1928-ci ilin avqustunda Şotlandiya dağlarındakı Achnacarry Şatosundakı ovçuluq mərasimlərinə çağırmasının ilk qaranquşları idi.

## Neft sənayesindəki problem

Arkaig çayının sahillərində iki həftə ərzində davam edən müzakirələr nəticəsində, ortaya 17 səhifəlik bir sənəd çıxmışdı. İmzaya hazır olan, amma hələ imzalanmayan sənədin adı "Pool Association" olmaqla bərabər, sonradan daha çox Achnacarry və ya "As-İs" Müqaviləsi deyə xatırlanmışdır. Bu müqavilə ifrat istehsal, ifrat istehsalın "qurucu yox, dağıdıcı rəqabətə" olan təsiri və bunun səbəb olduğu yüksək iş maliyyəti, onun problemləri və "neft sənayesinin" qarşı-qarşıya olduğu ümumi problemlərin xülasəsini verirdi. Bunun fərqinə varılaraq, iqtisadiyyatın islahı, israfın qarşısının alınması, istifadə olunan müəssisələrdə təkrar emalın doğurduğu bahalılığın ortadan qaldırılması qərarları alınırdı.

Ancaq bu sənədin can damarı, əslində "As-İs" (bu səbəblə) anlayışına dayandırılmışdı. Hər şirkətə müxtəlif bazarlarda müəyyən bir kvota verilirdi. Kvota, şirkətin 1928-ci ilə olan pay miqdarına görə, bütün satışların müəyyən bir faizi deməkdi. Bu qaydaya görə, bir şirkətin gündəlik həcmini artıra bilməsi, ancaq tələbatın artmasıyla

mümkündü. Buna baxmayaraq, şirkət hər zaman üçün eyni faiz payını qoruyacaqdı. Bir başqa problem də şirkətlərin qiymətləri aşağı endirmək məcburiyyətindən və bunu öhdələrinə götürmələrindən doğulmuşdu. Bundan başqa, şirkətlər təsisləri aralarında paylaşaraq istifadə etməyə və yeni neftayırma zavodları, eyni zamanda başqa təsislər qurmaqda çox ehtiyatlı olmağa məcbur edilirdilər. Məqsəd səmərəliliyi artırmaq olduğuna görə, bazarlar ehtiyaclarını ən yaxın coğrafi bölgədən təmin etmək məcburiyyətində qoyulurdu. Satış qiymətləri hələ də bilinən ənənəvi formulaya - Amerikan Körfəz Sahili qiyməti, üstəgəl bu sahildən bazara qədər olan nəqliyyat xərci - əsaslandığı üçün bu, əlavə qazanc mənasına gəlirdi. Müqavilənin bu maddəsi vahid satış qiymətinin müəyyənləşməsi baxımından, həqiqətən də lazımlıydı. Beləliklə, "As-İs" Müqaviləsinin tərəf müqabili olanlar, artıq qiymət rəqabətindən və qiymət qovğalarından narahat olmayacaqdılar.

Bir neçə ay sonra neft sənayesinin liderləri istehsalı da nəzarət altına götürməyə qərar verdilər. Achnacarry sisteminə daxil olan neftçilərə, onlar üçün müəyyənləşmiş kvotadan daha çox neft istehsal etmə səlahiyyəti tanınmışdı. Ancaq bu səlahiyyət sadəcə əlavə çıxarılan nefti digər neftçilərə sata bildikləri müddətcə keçərli olacaqdı. Sata bilmədikləri təqdirdə bu səlahiyyətdən məhrum edilirdilər. Müqaviləni qüvvəyə mindirmək və ona nəzarət etmək üçün hər şirkətdən bir təmsilçinin qatılmasıyla bir "Dərnək" quruldu. Dərnəyə, tələbat və nəqliyyat üçün lazım olan statistik incələmələrini aparmaq və gündəlik kvotaları müəyyənləşdirmək səlahiyyətləri verilmişdi.

Avropa neft ticarətinin əhəmiyyətli bir istehsalçısı bu müqaviləyə imza atmamışdı. Yoxluğu dərhal fərq edilən





bu istehsalçı Sovet İttifaqı idi. "As-İs" sisteminin uğur qazanması isə, ancaq Sovet İttifaqının sistemin içinə çəkilməsi ilə mümkün olacaqdı və bunu təmin etmək lazımdı. Çünki 1928-ci ildə "Rus Neft Məhsulları Şirkəti" artıq İngiltərəyə ən böyük ixracat edən şirkətlər içərisində dördüncü yerə çıxmışdı. Sovet İttifaqı bir daha müharibədən əvvəlki istehsal həcminə gəlib çatmışdı və neft, Sovet İttifaqının yeganə valyuta mənbəyi idi. Sovet İttifaqı ilə əməkdaşlıq mövzusuna hər zaman müqavimət göstərən Deterding və Teaglenin əksinə, nə qəribədir ki, öndə gələn şirkətlər ruslara müsbət yanaşmış və 1929-cu ilin fevral ayında onlarla bir müqavilə bağlamışdılar. Bağlanan bu müqavilə Sovet İttifaqına Britaniya bazarında qarantiyalı bir pay təmin etmişdir. Beləliklə, Rusiyanın da sistemin içərisinə çəkilməsiylə, dünya neft bazarlarının bölünməsinə qatılmayan sadəcə tək, amma çox əhəmiyyətli bir istisna qalırdı. Çox böyük olan və müqavilənin, anti-tröst qanunları çeynəyər qorxusuyla bilərəkdən içinə almadığı bu istisna Amerika Birləşmiş Ştatlarının daxili bazarıydı.

Şotlandiya dağlarının təcrid olunmuş gözəlliyində qələmə alınan Achnacarry Müqaviləsi, əsrin sonunda, Rokfeller və Archbold, Deterding və Samuel, Nobellər və Rotşildlərin canla-başla çalışıb dünya neft bazarında böyük bir razılaşma əldə etmə təşəbbüslərinin uğursuzluqla nəticələnməsi üzərinə bir daha gündəmə gəldi. O sıralar neft şirkətləri, öz aralarındakı anlaşma mövzusunda, ancaq Achnacarry toplantısının gizli qərarlarını tətbiq edirdilər və uğur da qazanırdılar. "As-İs" Müqaviləsinə daxil olan şirkətlər, neftçilikdə inkişaf edən şirkət olmaqdan uzaqdılar. Bundan başqa, müqaviləyə daxil olmayan bir çox "yan oyunçu" da böyük şirkətlərin bazar payına hörmət göstərməməkdə israr edirdilər. Həqiqət budur ki,

bu anlaşma "As-İs" Müqaviləsinə üzv olmayanların işlərinə daha çox yaramışdır. Qiymət təsbitində də fərqli kriteriyalar vardı. Böyük şirkətlərin təsbitindən çox az qiymətlər qoyur, bununla da bazar payını ələ keçirirdilər. Müqavilənin üzvü olan şirkətlər böyük qiymət endiriminə gedərək, rəqabətə girib üzv olmayan şirkətləri bazardan çəkilməyə zorladığı zamanlarda isə, kiçik şirkətlər başqa bazarlara istiqamətlənirdilər.

Amerikadan kənarda istehsal olunan, bütün neftin təxminən üçdə biri qədər olan Amerikan neft ixracatı üzərində nəzarəti ələ keçirməksə, xüsusilə çətin bir işdi. Bu səbəblə Teaglenin Achnacarrydən qayıtmasından dərhal sonra 17 Amerikan şirkəti bir araya gələrək, neft ixracatlarını nizamlaması və aralarında kvota müəyyənləşdirməsi üçün bir "Neft İxracat Dərnəyi" qurdular. Bunu 1918-ci ildə çıxarılan "Vebb-Pomerene Qanunu"na əsaslanaraq etmişdilər. Adı keçən qanun, bu şirkətlərə anti-tröst qanunların ölkə daxilində etməyə icazə vermədiyi şeyi ölkə xaricində etməyə icazə verirdi. Başqa bir ifadəylə, birləşmə fəaliyyətlərinin mütləq Amerikadan kənarda həyata keçirilməsi şərtilə, neft şirkətlərinə bir araya gəlmə icazəsi verilirdi. Ancaq bütün təşəbbüslərə baxmayaraq, dərnəyin "avropalı qrup"la davam etdirdiyi müzakirələr, Amerikan şirkətləri ilə Avropa şirkətləri arasında istehsalın necə bölüşdürüləcəyi mövzusu səbəbindən uğur qazanmadı. Zatən dərnək də "kritik sayı" kimi qəbul edilən saya heç bir zaman nail ola bilməmiş və Amerikan ixracatının ən çox 45 faizini nəzarət altına götürə bilmişdi. Bundan başqa, qiymətlər və kvotalar mövzusunda nəticə verəcək bir müqavilə bağlamaq üçün 17 şirkət lazım olandan da artıqdı. Amerikan neft ixracatının bir monopoliyaya bağlanmasında yaşanılan bu uğursuzluq, gələcək zamanlarda





Achnacarry Müqaviləsinin şərtlərinə görə, girişilən təşəbbüsləri bir xeyli qızışdırmışdır.

Dünyanın dörd bir yanında "As-İs" çərçivəsinin kənarında qalan bir çox istehsalçı və bir çox da istehsal vardı. Hollandiya Kraliyyət/Shell şirkətinin müdiri olan J.B.Kessler, Teagleyə yazdığı bir raportda bu sözlərə yer vermişdi: "Qarşımızdakı rəqəmlər onu göstərir ki, dünya istehsal potensialının böyük bir hissəsinə bizim və ya sizin, ya da bir neçə böyük neft şirkətinin nəzarətində olmayan şirkətlər nəzarət edir. Bu da göstərir ki, dünyanın neft istehsalında bu gün mövcud olan tarazlığın sadəcə sizin və ya sadəcə bizim tərəfimizdən qorunması, əsla mümkün deyildir." Kessler bu təxmini etməkdə haqlıydı. Bunun doğruluğu çox keçmədən sübut olunmuşdu. Birləşmiş Ştatlarda olunan kəşflər Şərqi Texasda böyük bir istehsal partlamasına yol açırdı. Neft, dünya bazarına Rumıniya kimi daha başqa qaynaqlardan da gəlirdi. Nəzarət olunması mümkün olmayan istehsal axışı qarışıqlığında Achnacarry Müqaviləsi də silinib getmişdi. Bu mərhələdən sonra neft şirkətləri bir daha bir-birilərinin bazarlarına girməyə, təcavüz etməyə və hücum etməyə başladılar.

### Bağlı qapılar arxasında anlaşılmazlıq

Üç böyüklər - yəni Jersey, Shell və Anqlo-Pers şirkətləri - 1930-cu ildə yeni bir ittifaqda birləşmə təşəbbüslərinə girişdilər. Ancaq bu dəfə keçmişdəki kimi görkəmli yollara müraciət etməmişdilər. Etdikləri şey "As-İs" Müqaviləsini dəyişdirib, Avropa bazarları üçün yeni bir memorandum halına gətirməkdi. Bu dəfə qlobal bir nizamlamaya gedilməməsi, bunun əvəzinə müxtəlif Avropa bazarlarında

işlək haldakı şirkətlərlə yerli düzənləmələr apararaq, bazar paylarının "kənardakılarla" bölüşdürülməsi qərarlaşdırıldı. Ancaq bu dəfə də Amerikan, rus və Rumıniya neft həcminin gedərək daha da artması səbəbindən, bu sistem təsirsiz qalmağa məhkum oldu. Xüsusilə, Sovet İttifaqı daha çox qazanc əldə etmə fürsəti yaxalayan kimi neft qiymətlərini dərhal endirirdi. Normal ticarət qaydaları, sanki onları maraqlandırmırmış kimi davranırdılar. Rusiyada tətbiq olunan ticarət qaydalarını Kreml qoymuş və Rusiyanın sənayeləşmə dövründə ehtiyacı olan dəzgahların pulunu ödəyə bilmək üçün, hər nə şəkildə olursa-olsun mümkün olduğu qədər çox xarici valyuta toplanmasını əmr etmişdi. Bütün təşəbbüslərə baxmayaraq, o biri şirkətlər ruslarla "nizamlı" və davamlı bazar münasibətlərinə girə bilmirdilər.

Bu nöqsanlar səbəbilə 1931-ci ildə Jersey, qlobal ittifaqla heç bir nəticəyə varılmayacağının fərqində olaraq, ittifaqdan ayrılma qərarı aldı və şirkətin istehsal şöbəsinin sədri E.J.Sadler ayrılma qərarını məsləkdaşlarına bu sözlərlə açıqladı: "İxracat Dərnəyinin tənəzzül etməsi səbəbilə Hollandiya Kraliyyətlə aramızdakı "As-İs" Müqaviləsinin ləğv olunması lazımdır. İndiki halda Jersey şirkəti iqtisadi hərəkətlərində və çətin vəziyyətlərdə digər şirkətləri qorumaq üçün böyük fədakarlıq göstərməkdədir." Bu sözləri ilə başqan, Jerseyin artıq əməkdaşlıq təşəbbüslərindən imtina edib, bunun yerinə Shell Qrupu ilə savaşa girməsini təklif edirdi: "Bu gün Hollandiya Kraliyyət şirkəti Uzaq Şərqdə ən zəif vəziyyətdədir. Buna görə də Hollandiya Kraliyyətlə savaşmağa ən uyğun zaman bu gündür. Biz bu bölgədə heç bir zaman qazanc əldə etmədik. Bundan başqa, bir qiymət savaşına girsək belə, bu bizə bir şey gətirməz." 1932-ci ilin martında keçirilən çəkişməli bir toplantıda Deterding və





Hollandiya Kraliyyət/Shell koalisiyasının digər rəhbərləri, Rotşildlərin böyük maraqlarını Hollandiya Kraliyyət/Shell ilə əməkdaşlıqda görən M.Veillə, dünyanın içində çırpındığı qaranlıq vəziyyəti kifayət qədər açıqlıqla izah etdilər. Bu açıqlamalara əsaslanaraq, M.Veillin sonradan Baron Rotşildə söylədiyi kimi satışlar düşmüşdü: "Qiymətlər hər yerdə çox pis idi və bir neçə istisna xaricində, heç bir yerdə bazar qazanılmırdı."

1932-ci ilin noyabr ayında Ser Con Cadman Amerikan Neft Sənayesinə xitabən bir çıxış etdi. Nitqində "əməkdaşlıq" mövzusunun müdrikliyindən dəm vurur, onu göylərə çıxarır, "əməkdaşlıq çox sıx bir formada, hər ölkənin qanunlarına uyğun olaraq edilməlidir" deyirdi. Onun irəli sürdüyü fikirlərinə görə, "As-İs" tənzimləməsi çoxlarının inandıqlarının əksinə olaraq, əsla gizli, dünyanın böyük bir hissəsinə qapalı bir anlaşma deyildi. Bax, indinin özündə də, birbaşa özü - Anqlo-Pers başqanı Con Cadman olaraq Amerikan Neft Sənayesinin bütün üzvləri qarşısında "As-İs" prinsipinin Amerika xaric, beynəlxalq neft ticarətində əməkdaşlığın təməl daşı olduğunu bəyan edirdi.

Cadman, nitqini nümayəndələri xəbərdar edərək davam etdirir və belə deyirdi: "Eşikdə hələ yağış yağır." Bu sözləri ilə təhlükənin davam etməkdə olduğunu qeyd etmək və nəzərə çatdırmaq istəyirdi. O sözlərin söyləndiyi zamanda böyük böhranın ən dərinliklərindən gəlməkdə olan fəlakəti görən şirkətlər, bu sözlərdən sonra, fırtınadan qaçıb özlərinə bir sığınacaq axtarmaq təşəbbüslərinə başladılar və qiymətləri sürətlə sabitləşdirmək yarışına girişdilər. Bunun üçün "As-İs" razılaşmasının yeni bir forması sayıla biləcək dekabr 1932-ci il tarixli "Paylaşdırma Anlaşması Sədarətliyi" quruldu. Bu sədarət "yerli inhisarçı şirkətlərin və ya yerli müqavilələrin tətbiq olunacaqları qaydaları

müəyyənləşdirəcək və təmsilçilərə" bələdçilik funksiyası yerinə yetirəcəkdi. Sədarətə ilk daxil olan şirkətlər - Hollandiya Kraliyyət/Shell, Jersey, Anqlo-Pers, Socony, Körfəz, Atlantik, Texas və Sinclair şirkətləri idi. Bu yeni tənzimləmə - biri Nyu Yorkda neft təminindən məsul olan, digəri Londonda paylaşdırma vəzifəsini yerinə yetirən iki ayrı "As-İs" komitəsi tərəfindən yerinə yetirilirdi. Bundan başqa, Londonda müqavilələr nəticəsində meydana gələn statistikanı və koordinasiyanı yerinə yetirmək üçün mərkəzi bir "As-İs" katibliyi qurulmuşdu. Şirkətlərin hamısında olmasa da, ən azından bəzilərində "As-İs" departamentləri yaradılmışdı. Ancaq bunlara baxmayaraq, yenə də yeni tənzimləmədə bəzi yanlışlıqlara yol açan bir çox problem qalmışdı. Bunlar arasında xüsusilə, xroniki sayıla biləcək aldatmalar və "bakirə bazarlar" problemləri gəlirdi. "Bakirə bazarlar" anlayışından - o günə qədər ticarətlə məşğul olmayan, yalnız o günlərdə sərmayədarların ticarətə başlama qərarına gəldikləri bölgələr qəsd edilirdi.

Böyük Böhran günlərinin davam etdiyi müddətdə, neft sənayesində mövcud olan problemlər də eyni paraleldə get-gedə böyüyür, buna görə də şirkətlər bir daha "As-İs" sistemini islah etməyə qərar verirdilər. Bu dəfə həyata keçirmək istədikləri - daha yumşaq və elastiki əməkdaşlıq şərtləri ehtiva edən 1934-cü il "Prinsiplər Memorandumu" qərar layihəsi idi. Böhranın gətirdiyi darlıq son dərəcə ciddi bir mərhələdə idi. Buna görə də memorandum "rəqabətli məsrəflərdə qənaət" edilməsini təklif edirdi. Çəkilən xərclərdə diqqətli davranmaq artıq şərt idi. Bunun yerinə yetirilməsi üçün də reklam büdcəsini məhdudlaşdırıb, şirkətlər arasındakı rəqabətə dayanan fərqləri aşağı salmaq lazım idi. Bu arada, yollardakı işıqlı işarə və lövhələr də minimuma endirilirdi. Qəzetlərdə yayınlanan





"uyğun hüdudlar içində məhdudlaşdırmalar" və "yarışma sürücülərinə mükafat" kimi elanlar ya ən aşağı səviyyəyə salındı, ya da tamamən dayandırıldı. Mühərrikli avtomobil sürücülərinin son dərəcə əhəmiyyət verdiyi alışqan, dolmaqələm, təqvim kimi kiçik hədiyyə-promosyonlar ya bir xeyli azaldıldı, ya da bunlardan tamamən imtina olundu. Artıq hər şey nəzarətdən keçir, nəzarətsiz heç bir şey qalmırdı. Benzin doldurma məntəqələrindəki işıqlı işarətlərin sayı və tipi belə "lazımsız xərclərin qısılması məqsədilə" standart formaya gətirilirdi.

Bu anlaşmalar - miqyasları və təsir dairələri nə olursa olsun, mütləq qarışıqlıqlara səbəb olur, tərəflərin birində köklü və israrlı tənqidlərə yol açarkən, o birini özünümüdafiəyə məcbur edirdi. Xalqın əksəriyyəti hesab edirdi ki, bütün bu baş verənlər istehlakçı mənfəətinə qarşı yönəlmiş nəhəng bir saxtakarlığın əlamətləri idi. Xalq belə görürdü. Sənayenin hər növündə, beynəlxalq kartellərdə və xüsusilə də böyük neft şirkətlərində ciddi bir narahatçılıq hakimdi. Ancaq yenə də Birləşmiş Ştatlar istisna olmaqla, bu tənzimləmələr bir çox ölkələrin qanunlarına tərs düşən bir tərzdə yazılmamışdı. Tam tərsinə, hər dövrün ab-havasına, həm də hökumət siyasətinin təzyiqlərinə boyun əyərək, üstəgəl, iş dünyasının da arzuları istiqamətində bir əməkdaşlığa və kartelləşməyə məcbur olmuşdular.

Anlaşmalara tərəf olan şirkətlərdən hər birinin başqanı, şirkətinin dörd divarı arxasında digər şirkətlərdən bəhs edərkən, onları qəsd edərək "dostlar", "Londondakı dostlar...", "hələ dəqiq bir qərara gəlməyən dostlar..." deyə söz edərdilər. Ancaq bu cür bir dostluğun iş sahəsində də eynən var olduğunu söyləmək yanlış olardı. Çünki dostluq olduğu iddia olunan bu şey əsla bir "neftdə qardaşlıq" deyildi. Bu dostluq daha çox əlacsız qalan dünya

iqtisadiyyatında neft şirkətlərini bir araya gətirən məcburi ehtiyacın simvoluydu. Bu şirkətlərdən hər biri, əslində digərləri üçün təcavüzə hazır olan rəqiblərdən başqa bir şey deyildi. Bir tərəfdən əməkdaşlıq təşəbbüslərinə can atarkən, bir tərəfdən də israrla etimadsızlıqlarını, bezginlik və kökü dərinlərə enən rəqabət duyğularını davam etdirirdilər. Əməkdaşlıqdan bəhs edərkən belə, bir-birilərinə qarşı yeni hücum planları hazırlamaqdan əl çəkə bilmirdilər. Hələ Achnacarry Müqaviləsinin üstündən bir ay keçməmişdi ki, Shell şirkəti, Birləşmiş Ştatlardakı Şərq Körfəzi bazarına girərək, işlərini sürətlə inkişaf etdirməyə və genişləndirməyə başladı. Jersey şirkəti buna çox əsəbiləşdi. Şirkətin rəhbərlərindən biri Shellin bu hərəkətini "sadəcə ehtiras naminə edilmiş bir hərəkət" olaraq qiymətləndirdi və Shell şirkətini bu sözlərlə qınadı. Sonrakı illərdə - 1936-cı ildə Henri Deterding Jersey şirkətinin bütün Meksika təsislərini, Birləşmiş Ştatlarda və Avropada təsisləri olan müstəqil neftçi Villiam Davisə satmaq istədiyini, bunun üçün artıq müzakirələrə başladığını öyrəndi. Davis əslində "As-İs" Anlaşmasının həyata keçirilməsini çətinləşdirən "əlavə oyunçulardan" biriydi. Bunu öyrənən Deterding çox əsəbiləşdi və Jersey şirkətinə bunları yazdı: "Biz bir yerdə Davisin göstərdiyi fəaliyyətə qarşı müqavimət göstərməliyik. Düşmənimizə - bizə qarşı savaşda istifadə edəcəyi və savaşı onlar üçün daha əlverişli hala gətirəcəyi silahı satmaq, aramızda bağladığımız müqavilə ilə bir yerə sığmaz." Həqiqət budur ki, 1930-cu illərin davamı boyunca Jersey Şirkəti Shell Şirkəti ilə əməkdaşlıq müzakirələrini həmişə davam etdirmiş, Shell Şirkəti ilə daha yaxşı şərtlərdə anlaşa bilmək üçün xarici ölkələrdəki işini Socony ilə birləşdirməyə çalışmışdı.

Bütün bunlardan başqa, digər bir mövzuda da anlaşılmazlıq yaşanırdı. Üzərində anlaşılan mövzularda tətbiqata gedib-getməmə və əvvəlcə qərarlaşdırılmış məqamları qəbul edib-etməmə mövzularında anlaşılmazlıq hələ də davam edirdi. 1934-cü il "Prinsiplər Memorandum Layihəsi"nin bir maddəsi, üzv olmayan, amma kənar dan qatılan dinləyicilərə - üzv olanların ticarət nömrələrini nəzərdən keçirmə haqqı tanıyırdı. Jerseyin Asiyadakı Socony ilə bərabərcə qurduqları Standard-Vacuum Şirkəti rəhbərlərindən biri buna reaksiya verərək, 1934-cü ilin dekabr ayında "özünün və digər şirkətlərin bu hərəkətə yekdilliklə qarşı olduqlarını" söyləyəcəkdi. Bu mövzudakı görüşlərini belə ifadə etmişdi: "Etirazımız sadəcə bizim dəftərlərimizə kənardan gələn dinləyicilərin nəzər salmasına, orada tənqid olunacaq məqamlar axtarıb tapmalarına deyildir. Qənaətimizcə, əsil etiraz olunan xüsus, əlaqədar tərəflərin ticarətin həqiqi həcmi haqqında bir-birilərinə məlumat verəcək qədər etimad etməmələrindən qaynaqlanır. Bu, "As-İs" doktrinasının çox zəif bir təməldə oturduğu mənasına gəlir ki, bizim etiraz etdiyimiz əsil məqam da budur. "As-İs" doktrinasını, maraqlı tərəflərə aid olan özəl məlumatları nəyin bahasına olursa olsun dörd divar arasında tutmalı, kənara sızdırmamalıyıq." Amma bir şey də vardı ki, işlər bu şəxsi divarların arasındaykən belə, hər şey arzu olunduğu qədər də yaxşı getmirdi - 1934-cü ilin dekabr ayında Shell səlahiyyətlisi Fridrix Godber Uzaq Şərqdən yazdığı bir raportda bunları bildirirdi: "Ticarətlə bağlı rəqəmlər göstərir ki, Texas lazımsız yerə həddini aşıb. Beləliklə, bu il, onun payına düşən ticarət-kvotasından daha böyük kvotayla bağlanacaq." Raportda bundan başqa, Texasın bu səhv hərəkətinə, digər şirkətlərin "daha sərt qabaqlayıcı tədbirlər" alması tələb olunurdu. Anlaşmalara

baxmayaraq, şirkətlərin rəqabət ehtiraslarına əngəl oluna bilməyəcəyi açıq-aşkar ortadaydı.

Bunlardan başqa, ölkələr üçün müəyyən olunacaq neft miqdarı necə həyata keçiriləcəkdi? Məsələn, Böyük Britaniya üçün ayrılan kvota nəticədə, ayrılma işinin bir xeyli nataraz şəkildə edildiyini göstərirdi. Shell və Anqlo-Pers şirkətləri Britaniyada - Shell-Mex/BP adlı birləşmiş bir bazarlama sistemi qurmuşdular. Bu qrupla Jerseyə bağlı şirkətlər arasındakı satış nisbəti isə, bir neçə istisna xaric, başqaları ilə müqayisədə sabit qalmışdı. Ancaq yenə də neftin Britaniyaya müxtəlif qaynaqlardan gəlməsi səbəbilə bu iki qrupun toplam-market üzərindəki birləşmiş payı bir xeyli dalğalanma göstərirdi.

"As-İs" Anlaşmaları "Memorandum Layihəsi"nin ortaya girməsiylə 1934-cü ildən etibarən daha da təsiredici olmağa başladı. Layihənin nisbətən uğurlu olmasının əsas etibarilə üç səbəbi vardı: Birləşmiş Ştatlarda Harold İckes öndərliyindəki federal və dövlət avtoritetlərinin axır ki, nəzarəti ələ keçirməsi, Sovet İttifaqının sənayeləşmə mərhələsinin sürətləndirilməsi nəticəsində yerli neft tələbatını artırıb, ixrac üçün ayrılan neft miqdarını azaltması və böyük şirkətlərin Rumıniya istehsalına olunan təzyiqi nəzarətə götürmələri. Bütün bu müsbət hadisələrə baxmayaraq, yenə də ortada vəziyyəti düzəldəcək qədər vaxt qalmamışdı. 1938-ci ilin əvvəllərində Jersey Şirkəti "As-İs" Anlaşmalarının sona çatacağını şifahi olaraq bildirmişdi. Anlaşmanın geri qalan hissəsi də 1939-cu ilin sentyabr ayında İkinci Dünya Müharibəsinin başlamasıyla sona yetdi.





## Nasionalizm (Milliləşmə)

"As-İs" Anlaşmalarının bir boşluq içərisində inkişaf etmədiyi şübhəsizdir. Bu müqavilələr sadəcə neftin nəzarətsiz axışına və böyük böhrandan qorunmaq məqsədilə deyil, eyni zamanda Avropada və daha başqa yerlərdə doğulan güclü siyasi güclərdən müdafiə olunmaq üçün hazırlanmışdı. Bir tarixçinin yazdığı kimi "bütün Avropa qitəsində hökumətlərin yeritdiyi siyasətlə özəl əcnəbi neft şirkətləri həmişə bir-birilərinə ziddiyyət təşkil etmişdilər. Bundan başqa, bu ziddiyyətlər o zamana qədər görünməmiş formada təzahür edirdi. Bunların - özlərini qorumaq üçün ticarətin anormal şərtləri ilə necə yola gedəcəklərini müzakirə etmələrində heyrət olunacaq bir şey yoxdu."

1930-cu illərdə neft şirkətlərinə müxtəlif siyasi təzyiqlər göstərilmişdi: hökumətlərin idxal kvotaları müəyyənləşdirməsi, qiymətlərin təsbiti və əcnəbi neft dəyiş-düyüşünün məhdudlaşdırılması kimi. Bundan başqa, neft şirkətlərini - kənd təsərrüfatı məhsullarından əldə edilən alkoqolu mühərrik yanacağıyla əvəz etməyə və neft yerinə keçəcək daha başqa maddələrdən istifadə etməyə məcbur etmişdilər. Bir çox yeni vergilər qoymuş, ikili ticarət anlaşmalarına və daha böyük siyasi anlaşmalara uyğunlaşmaq üçün lazım olanda neft ixrac və idxalının ümumi istiqamətini dəyişdirməyə çalışmışdılar. Qazancdan gələn gəlirləri qısmağa çalışmış, iqtisadi baxımdan səmərəsiz olan yerli müəssisələrə sərmayə qoymağa məcbur eləmişdilər. Şirkətləri həddindən artıq nefti ehtiyatda saxlamağa məcbur etmişdilər. Böhranın nəticəsi olan "mütləqiyyət" və ikili anlaşmalar 1930-cu illərin qaydası halına gəlmişdi. Bunun nəticəsində də öndə gedən neft şirkətlərini nəzarət

altına almaq üçün əməlli-başlı təzyiq göstərilmişdi. Bunun səbəbi Londondakı Ticarət Komitəsi sədrinin bir xəbərdarlığı idi: "O günlərdə bütün xarici ölkələrdə bir təmayül vardı: özünə aid olmayan ölkələrin torpaqlarında özlərinə aid olan, öz mülkiyyətlərini simvolizə edən şirkətlərin qurulmasını məcbur etmək və ya bunu təşfiq etmək təmayülü."

Zamanla Avropa hökumətlərində əcnəbi şirkətləri milli inhisarçı şirkətlərə qatılmağa məcbur etmək və bazarları xarici və yerli şirkətlər arasında bölüşdürmək standart bir ənənəyə çevrildi. Ölkədən ölkəyə hökumətlər, xarici şirkətlərin bölgə miqyasında neftayırma təsisləri açmağa yardımçı olmaları üçün israr etməyə başladılar. Məsələn, fransız hökuməti 1928-ci il bəyannaməsinə əsaslanaraq, hər şirkət üçün bazarda müəyyən bir "pay" ayırmaq yolunu tutdu. Jersey rəhbərlərindən birinin ifadəsiylə: "Milli olan ticari bir şirkətlə əməkdaşlıq edilmədiyi təqdirdə - bu əməkdaşlıq dollar və ya prinsip baxımından hər cür fədakarlığı tələb etsə də - bunun maliyyəti, hökumətin təklif etdiyi əməkdaşlıq maliyyətindən çox daha yüksək olacaqdı. Bunun səbəbi vardı. Bu sahədə bir məcburiyyət vardı və əməkdaşlıq edilmədiyi təqdirdə bu məcburiyyət cəzaya çevrilirdi. Nasist Almaniyasında isə, bu ölkə savaşa hazırlanmaqda olduğundan, hər gün daha çox qərarnamə-nizamnamə çıxarılır, hər növ oyunbazlıqlar get-gedə artıb çoxalırdı. Bütün bunlardan başqa, 1930-cu illərin ikinci yarısında, böhranın ən çətin illəri geridə qalmışdı və öndə gedən böyük şirkətlərin birinci hədəfi özlərinin hökumət müdaxiləsinə qarşı müdafiəsini təşkil etməkdən ibarət olmuşdu." Jersey Şirkətinin sədr müavini Orville Harden 1935-ci ildə bunları söyləyirdi: "İndi artıq təxminən hər ölkədə hakim olan milliyyətçi siyasi cərəyanlarla qarşı-qarşıyayıq. Üstəlik, bunların əksəriyyətində sosialist





təmayüllər olduğu da şübhəsizdir. Bu problemlər həm hökumətlərdə, həm də bütün sənaye sahələrində mövcuddur. Bu problemlər gedərək ciddiyyət qazanır və hökumət də vaxtının çoxunu bunların həlli yolunu axtarmaqla keçirirdi."

Elə o il qəribə bir təsadüf nəticəsində neft dünyasının məşhur müşahidəçilərindən biri, Avropada dəbdə olan siyasi və iqtisadi milliyyətçiliyi görəcək və mövzunu bir o qədər də diqqətə almayaraq bu sözlərlə qiymətləndirəcəkdi: "Avropada neftlə bağlı olan əməliyyatların 90 faizi siyasi, 10 faizi isə neftin özü ilə bağlıdır." Bu sözlər əslində sadəcə Avropa üçün yox, dünyanın geri qalan yerləri üçün də eynilə keçərliydi.

## Şahın yeni şərtləri

Böyük Böhranın davam etdiyi günlərdə İran Şahı Rza Pəhləvi, bir müşahidəçinin sözləriylə "bu günlərdə neftin qızıl olmadığı" gerçəyini başa düşmüş, buna həddindən artıq əsəbiləşmişdi. Şahın ölkəsi artıq bir neft dövlətiydi və Anqlo-Pers Şirkətindən gələn neft vergiləri ölkənin ixracatdan qazandığının üçdə ikisini, hökumət gəlirlərinin isə əhəmiyyətli bir hissəsini təşkil edirdi. Ancaq Böyük Böhranla birlikdə Anqlo-Pers Şirkətindən gələn vergilərin miqdarı da azalmış, 1917-ci ildən bəri ən aşağı səviyyəyə düşmüşdü. Şah əsəbiləşmiş və hirsli halda vəziyyətin bu cür olmasından şirkəti məsul bilmiş, bu səbəblə də problemin həllini öz əllərinə almağa qərar vermişdi. 16 noyabr 1932-ci ildə, Nazirlər Kabinetinin növbəti toplantısında öz nazirlərini heyrətlər içərisində qoyaraq, böyük bir macəraпərəstliklə Anqlo-Pers Şirkətinin bütün imtiyazlarını ləğv etdiyini elan etdi. Bu elan, Şahın bu cür bəyanata

cəsarət etməyəcəyinə inanmış olan dinləyicilər üzərində göy gurultusu təsiri yaratdı. Bu hərəkətiylə Şah, Anqlo-Persin bilavasitə mövcudluğunu təhlükə altında qoyurdu.

Gözlənilməz bir bəyanat olmaqla bərabər, Şahın bu mövqeyi, əslində İranla Anqlo-Pers Neft Şirkəti arasında dörd ildir davam edən ziddiyyətlərin və gərginliklərin bir yerə toplanmasıydı. 1928-ci ildə Con Cadman müşahidə etmişdi ki, "imtiyaz sahibləri iqtisadi milliyyətçiliyin qabaran dalğası qarşısında milli mənafeləri və şəxsi yaxınlaşma kimlikləriylə düz mütənasib olaraq gələcəklərini təhlükəsiz görə bilərlər." Bir şey var ki, Cadmanın özü bu kimliyi yaratmaqda uğur qazana bilmədi. İşin özündə iranlılar, Villiam Knox D'Arcynin 1901-ci ildə aldığı imtiyazının milli hökmranlıqlarına xələl gətirdiyini iddia edirdilər. Bundan başqa, imtiyazdan daha çox, həddindən artıq çox pul tələb edirdilər. 1929-cu ildə Cadman, Şahın Ədliyyə Naziri Əbdül Hüseyn Timurtaşa bir müqavilə təklif elədi və bu anlaşmayla mövzunun qapanacağına inandı. Müqavilənin şərtlərinə görə, İran hökuməti həm əvvəlkindən çox pul alacaq, həm də şirkət hissələrindən 25 faizinə sahib olacaqdı. Bundan başqa, özünün də İdarə Heyətinin üzvü olaraq, təmsilçi kimi əlavə haqq alması və şirkətin ümumi qazancı üzərindən hissə alması da mümkün ola biləcəkdi. Ancaq təklif olunan bu anlaşma süründürməçiliklə üzləşir, heç cür nəticəyə bağlana bilmirdi. Hər iki tərəfdə də rüşvət və cinayət ittihamları irəli sürülürdü. Beləliklə, müzakirələr uzun müddət davam etdi. Müqavilənin imzalanmağa hazır olduğu an iranlılar yeni şərtlər irəli sürür, maddələrin dəyişdirilməsini tələb edir, həmişə də veriləndən artığını istəməkdə direniş göstərirdilər.

Anlaşmanın heç cür həyata keçirilməməsinin ən önəmli səbəbi İranda hakim olan avtoritarizmin quruluşundan və





ölkənin başında dayanan adamın xarakterindən qaynaqlanırdı. Bu adam Rza Xan idi. Rza Xan Kazak batalyonlarının komandanı olmasından istifadə edərək, özünü ölkənin qarşı qoyulmaz və mütləq liderinə çevirmişdi. Sərt, zəhmli, amansız, tox sözlü bir adamdı. Tehranda səfir olmuş bir ingilisin söylədiyi kimi "iranlıların həssaslığına xitab edən nizamlı və diqqətlə seçilmiş, fəqət o dərəcədə boş və mənasız olan komelementləri sıralamaqda heç vaxt itirməzdi." Rza Xan 1921-ci ildə Savaş Naziri, 1923-cü ildə də Baş Nazir olmuşdu. Özünü dövlət başçısı görmək xəyallarıyla yaşadığı günlər çox olmuş, amma nəhayət, bu niyyətindən vaz keçərək, 1925-ci ildə özünü yeni Pəhləvi xanədanının qurucusu Rza Şah Pəhləvi olaraq elan edib, başına tac qoymuşdu. O gündən sonra ölkəsini müasirləşdirmək təşəbbüslərinə girişsə də, səhv və mürəkkəb bir təmayülə yuvarlanmışdı. Timurtaşın bildirdiyinə görə, "Şahın ən böyük yanlışı hər kəsdən və hamıdan şübhələnməsi idi. Bütün ölkə boyu əlahəzrət Şahın etibar etdiyi bir adam belə yox idi və bu hal şübhəsiz ki, hər zaman sədaqətlə onun yanında dayanan yaxınlarını həddindən artıq kədərləndirirdi."

Şah öz təbəəsini xor görürdü. Bir gün onu ziyarətə gələn bir qonağına İran xalqını nəzərdə tutaraq "mühafizəkar və cahil" demişdi. Həll etmək istədiyi bir başqa mövzu da iqtidar baxımından parçalanmış ölkəsini bir araya gətirmək və nəzarəti öz əllərində mərkəzləşdirməkdi. Bu isə özünə rəqib olan digər güc mərkəzlərini ən az saya endirmək deməkdi. İşə xırda məmurlar, mühafizəkarlar və dindarların lideri olan mollalarla başladı. Bu adamlar Şahın müasir, dünyayla ayaqlaşan bir millət yaratmaq təşəbbüsündə ona şiddətlə əngəl törədən adamlardı. Onların gözündə Şah çox günah işlədən cəhənnəmlik bir cinayətkardı.

Nə olmasa da, qadınların məcburi çadra taxma qaydasını ləğv eləmişdi. Dövlətin səhiyyə xidmətini yaxşılaşdırmaq üçün ovuc-ovuc pul xərcləyir, bundan başqa, təhsilə qiymət verib, hər kəsə təhsil almaq imkanları təmin etməyə çalışırdı. Bütün tənqidlər onu yolundan döndərə bilmirdi. Hətta bir gün ailəsindəki qadınların dua etməyə gələrkən, geyindikləri geyimi tənqid edən, bunun nə dərəcədə doğru olduğunu soruşan bir Ayətullahı bilavasitə özünün döydüyünü hamı görmüşdü. Şahın davranışları mollaları qruplar halında susmağa məcbur etmişdi, amma hamısının içində ona qarşı kin baş qaldırmışdı. Bir əcnəbi ziyarətçinin müşahidə etdiyi kimi "Şahın ən böyük icraatı mollaların üstündə qazandığı qələbəydi."

Şahın görüşünə görə, Anqlo-Pers də sırf mollalar kimiydi. Onlar kimi müstəqil bir güc mərkəziydi. Şah bu güc və nüfuzun təsirini nəyin bahasına olursa olsun, ən aza endirmək qərarındaydı. Buna baxmayaraq, şirkətin ödədiyi vergilərə də ehtiraslarını qarşılamaq üçün ehtiyacı vardı. İrana verilən neft gəlirlərinin çox dramatik bir eniş göstərməsi nəticəsində, Şahdan da gördükləri dəstəklə, yerli mətbuat və siyasətçilər şirkətə yönəltdikləri hücum və tənqidləri get-gedə artırmağa başladılar. D'Arcynin aldığı ilk imtiyazının keçərli olub-olmamasından tutmuş Abadandakı neftayırma müəssisələrində dondurulmuş qida maddələrinin saxlanmasına qədər hər şeyi araşdırma yoluna getdilər. Dondurulmuş qidadan istifadə etmək din anlayışına tərs gəlirdi.

Bütün bunlardan əlavə, Şah, Anqlo-Persin ən böyük hissədarı olan İngiltərə hökumətinə başqa səbəblərdən dolayı da əsəbi idi. Şah Bəhreyn üzərində İranın hökmranlığını qəbul etdirmək istərkən, İngiltərə hökuməti Şaha aid olan bu adanı öz himayəsində tutub, burada hegemonluq





etməyə israr edirdi. Bundan başqa, İngiltərə İraqı diplomatik olaraq tanımışdı və Şah buna görə də İngiltərəyə qəzəbli idi. Onun düşüncələrinə görə, İraq ingilis imperializminin bir "icad"ından ibarətdi, o qədər. Anqlo-Pers Şirkətinin İdarə Heyəti durub-dincəlmədən eyni sözləri təkrarlamaqdan yorulmurdu. Şirkətin ticari bir firma olaraq işlədiyini, hökumətdən müstəqil olduğunu təkrarlasa da, heç bir iranlı bu iddiaya inanmaq istəmirdi. Bu cür bəyanları eşidən iranlılar İdarə Heyətinin - ingilis hökumətinin sözlərini təkrarladığını, bu cür davranmaqla, ingilis hökumətinin cinayət ortaqlığını paylaşdığını ifadə edirdilər.

1932-ci ilin noyabr ayında Şahın Anqlo-Pers müqaviləsini tək tərəfli olaraq ləğv etməsiylə problemlər zirvə nöqtəsinə çatdı. Şah bu hərəkətiylə, hərbi təhlükəsizliyini 1914-cü ildə Çörçill tərəfindən İran neftinə bağlayan İngiltərə hökumətinə rəsmən meydan oxuyurdu. İngiltərə Şahın bu hərəkəti qarşısında susqun qala bilməzdi. Ancaq nə edə də bilərdi ki? Bu suala cavab tapmaq üçün Millətlər Cəmiyyətinə müraciət olundu. Vəziyyət Cəmiyyət tərəfindən müzakirəyə çıxarıldı. Yekdilliklə qərara alındı ki, problem dondurulsun və münaqişə edən tərəflərə yeni bir düzənləmə üçün vaxt tanınsın. Bundan beş ay sonra, 1933-cü ilin aprel ayında bir çıxış yolu tapmaq üçün bilavasitə Cadmanın özü Tehrana yola düşdü. Şahla keçirdiyi ilk toplantıdan sonra Cadman bu sözləri söyləyəcəkdi: "Şübhəsiz ki, əlahəzrətlərinin istədiyi şey yalnız və yalnız puldur." Ancaq aprel ayının üçüncü ongünlüyündə müzakirələr yenidən düyünə düşdü. Bu dəfə Cadman son dərəcə əsəbi və hirsli halda Şahla yeni bir müzakirə aparmaq üçün Saraya gəldi. Mövzunun partlama nöqtəsinə gəldiyini, özünün səbrinin də artıq daşmaq üzrə olduğunu, bu

səbəblə də Tehrandan ayrılmağa hazırlaşdığını Şahın yaxşı-yaxşı dərk etməsini, bilməsini istəyirdi. Hətta yola düşmə hazırlıqlarının aparılması üçün təyyarəsinin pilotuna təlimat belə verdi. Təlimata görə, Cadmanla Şahın söhbət etdiyi zaman pilot bir sınaq uçuşu edəcək, təyyarəni Sarayın pəncərələrindən görülən formada uçuracaqdı.

Nəticədə pilot tələb olunanı yerinə yetirmiş, Rza Şah da bunun təsirinə düşərək, geri addım atmışdı. Artıq İran tələblərində daha yumşaq davranırdı. 1933-cü ilin aprel ayında yeni bir müqavilə bağlandı. Bu müqavilənin şərtlərinə görə, imtiyaz sahəsi dörddə üç nisbətində azaldı. Bundan başqa, bu müqavilə İrana - neft qiymətlərində dalğalanmalara qarşı ölkəni qoruyacaq qarantiya verirdi ki, bu da ton başına dörd şilinlik bir vergiydi. Bu vergi sabit olaraq ödənəcəkdi. Üstəgəl, şirkətin bütün dünyadakı qazancının minimum həddin üzərində qalan və hissə sahiblərinə paylanması artıq ənənə halına gələn hissəsindən 20 faizi də İrana verilirdi. Bunlara əlavə, bütün ödəmələrdən kənar, həm də ildə ən az 750.000 poundluq bir ödənişin gerçəkləşməsi də qarantiya altına alınmışdı. 1931 və 1932-ci illərə aid vergilər yeni qiymətləndirmə üzərindən hesablanacaq, iranlı fəhlələrin sayı artırılacaqdı. İmtiyazın müddəti də 1961-ci ildən 1993-cü ilə qədər uzadılırdı. Müqavilə imzalandıqdan sonra Cadmanın "küncə sıxışdırılıb gözəlcə soğan kimi soyulduq" dediyi rəvayət olunur. Hər şeyə baxmayaraq, yenə də bu müqavilə sayəsində Anqlo-Pers əhəmiyyətli mövqeyini qoruyub saxlaya bildi.





## Meksika müharibəsi

Neft şirkətlərinin milliləşdirilməsi təşəbbüsünə ən şiddətli meydan oxuma Qərb Yarımkürəsindən gəlmişdi. Burada, ən böyük neft istehsalçısı olaraq bilinən ölkələrdən birində, şirkətlər fəaliyyətlərinin hüquqiliyini tanımaq istəməyən alovlu milliyyətçilərə qarşı amansız bir mübarizəyə girdilər. Bura Meksiya idi və anlaşılmazlığa 1917-ci ildə qəbul olunan Meksika Konstitusiyasının 27-ci maddəsinin 4-cü bəndi səbəb olmuşdu. Bu maddəyə görə, "yeraltı" adlanan, yeraltı qaynaqların yerləşdiyi ərazi, sahibinə yox, Meksika dövlətinə aiddi. Şirkətlər 27-ci maddənin tətbiq olunmaması üçün Amerika və İngiltərənin də dəstəyini alaraq amansız bir mübarizə aparmışdılar. Onların iddialarına görə, idxal əməliyyatlarından əvvəl onlara keçən və böyük sərmayə yatırdıqları torpaqlar keçmişə yürüyən bir qanun maddəsi ilə Meksika dövləti tərəfindən mənimsənilə bilməzdi. Meksika isə yeraltı qaynaqların çox-çox əvvəldən bəri onun özünün olduğunu, şirkətlərin sahib olduğu şeyin isə torpaq deyil, sadəcə dövlət qərarları ilə verilən imtiyazlar olduğunu iddia edirdi. Bu ziddiyyətlərin nəticəsində tərəflərin gəldiyi nöqtə, əslində tam bir anlaşılmazlıqdı.

Ancaq 1920-ci illərin axırlarında Meksika hökuməti bu mövzuda o qədər də irəli getmədi, çəkindi. Neftin inkişaf etməsi və bazarlanması üçün şirkətlərə ehtiyacı vardı. Bundan başqa, ölkə bir "yenidənqurma" mərhələsi yaşadığından, xarici sərmayəyə də çox ehtiyac hiss olunurdu. Hökumət fərqindəydi ki, xarici sərmayəni cəlb etməyin yolu şirkətləri ölkədən sürgün eləməklə təmin oluna bilməzdi. Bunun çox pis bir reklam olacağını bilirdi.

Bu düşüncələr içərisində olduqca elastik, görünüşdə vəziyyətdən çıxış yolu təsiri yaradan bir formul tətbiq edərək, şirkətlərin çalışmasına icazə verdi. Ancaq yeraltı qaynaqlar üzərindəki iddialarından imtina etmədi. Bu, riayət olunması heç də asan olmayan "müvəqqəti" bir hal kimi nəzərdə tutulmuşdu. Bu, çox şiddətli əzab-əziyyətlərlə yoğrulmuş, zamanın və bir çox yorucu görüşmələrin məcbur etdiyi bir haldı. Aradakı gərginlik 1927-ci ildə Meksika və Amerikan hökumətlərini bütün diplomatik əlaqələri kəsəcək nöqtəyə gətirmiş, üsyan əsnasında Vodrov Vilson, hərbi kontingentin Meksikaya göndərilməsində olduğu kimi, ikinci bir Amerikan hərbi müdaxiləsinin ola biləcəyi ehtimalını bildirmişdi. Vəziyyətin ciddiyyəti başqan Plutarco Elias Calles tərəfindən də kifayət qədər diqqətə alınmış olmalıdır ki, neft bölgəsində hərbi komandan olan General Lazaro Cardenası yanına çağıraraq, bir Amerikan müdaxiləsi halında neft yataqlarını yandırmağı əmr etdi.

1927-ci ildən başlayaraq neft şirkətləriylə Meksika hökuməti arasında və üstəgəl, yuxarıda sözü edilən iki hökumət arasında bir az daha istiqrarlı və sakit münasibətlər yaranmağa başladı. Ancaq bu da 1930-cu illərin ortalarına qədər davam edə bildi və bu illərdə yumşalmış münasibətlər yenidən pozuldu. Vəziyyətin belə gərginləşməsinin səbəblərindən biri ölkənin içində yer aldığı çətin iqtisadi şərtlərdir. İstehsal xərclərinin artması, vergilərin yüksəlməsi və mövcud olan neft yataqlarının tükənməsi səbəbindən Meksika, dünya bazarındakı rəqabət qabiliyyətini xüsusilə, Venesuella qarşısında itirirdi. Hətta Meksikanın özündə belə daha ucuz olan Venesuella nefti olurdu ki, o da Tampicoda işlənib gəlirdi. Ölkədəki ən böyük xarici neft şirkəti, indi qismən Hollandiya





Kraliyyət/Shell koalisiyasının sahibliyində və idarəsində olan Covdrayın keçmiş Mexican Eeagle (Meksika Qartalı) Şirkətiydi. Meksika neft istehsalının 65 faizini bu qrup verirdi. Standard Oil of Nyu Jerseyin öndərliyində olmaqla, Amerikan Cities Service və Gulf şirkətləri də yerdə qalan 35 faiz paya sahibdi. Ölkədə hökm sürən etimadsız şərtlər qarşısında yeni yatırım risqi istəməyən şirkətlərin əksəriyyəti, əllərində nə varsa onunla kifayətlənməyi üstün tuturdular. Nəticədə ölkənin neft istehsalı dramatik şəkildə aşağı düşməyə başladı. 1920-ci illərin əvvəllərində dünyanın ikinci ən böyük istehsalçısı olan Meksika, artıq 10 il sonra gündə 499.000 barrel neft istehsalından, gündə 104.000 barrel istehsala düşmüşdü ki, bu da 80 faizlik bir eniş deməkdi. Daha çox gəlir əldə etmək üçün neftin parlaq bir yüksəliş göstərəcəyinə inanan və ondan çox şey gözləyən Meksika hökuməti şübhəsiz ki, bu gedişatdan sarsılmış və acı bir xəyal qırıqlığına uğramışdı. Hökumət, işlərin bu cür inkişafından beynəlxalq bazarın mənfi təsirlərini və xarici sərmayəyə mütləq formada normal yanaşmayan ölkə şərtlərini məsul tutmaq əvəzinə, sırf xarici şirkətləri məsul tutmağa başladı.

Meksikanın siyasi səhnəsi də dəyişməkdəydi. Üsyankarlıq atəşi və milliyyətçilik hərəkatı yenidən alovlanmağa başlamış, sindikatçılıq həm üzv sayısı, həm də güc-qüvvə olaraq güclənmişdi. Bu dəyişikliklər keçmişdə müharibə naziri olan və 1934-cü ilin axırında Meksikanın dövlət başçılığına gətirilən General Lazaro Cardenasın şəxsiyyəti ilə simvolizə olunurdu. İngilis nazirin söylədiyi kimi, "çarpıcı bir şəxsiyyətə malik idi. Sanki sifətinə uzun maska taxmışdı və Qırmızı dərililərinkinə oxşar anlaşılmaz, əsrarəngiz və sərt baxışları vardı." Atası şəfalı otlar satan Cardenas, ancaq 11 yaşına qədər məktəbə gedə bilmişdi.

Buna baxmayaraq, bütün həyatı boyunca doyulmaz bir oxumaq ehtirası ilə şeirdən coğrafiyaya qədər hər cür kitab oxumuşdu. Ancaq ən çox tarixi və xüsusilə də fransız inqilabına aid olan və adətən Meksikayla bağlı kitabları sevərdi. 18 yaşına gələnə qədər artıq bir çox işlərdə çalışmışdı... Vergi təhsildarlığı, mətbəədə usta köməkçiliyi, həbsxana qardianlığı etmişdi. 18 yaşında Meksika İnqilabında iştirak etmək üçün əsgərliyə yazıldı. İgidliyi, özünəməxsus təvazökarlığı və liderlik xüsusiyyətləri ilə diqqəti çəkdiyindən, hələ 25 yaşına gəlmədən general oldu və inqilabın "lideri" Plutarco Callesin himayəsinə götürüldü. 1920-ci illərdə yeni hərbi liderlər sağa doğru meylləndikləri halda, Cardenas sol qanadda qaldı. Öz məmləkəti olan Michoacan şəhərinin valisi kimi, enerjisinin çoxunu təhsili inkişaf etdirməyə və böyük əraziləri bölüb Qırmızı dərililəri torpaq sahibi etməyə həsr etmişdir. Öz şəxsi yaşamında ağır başlı idi. Din və əxlaq mövzularına sımsıx bağlıydı. Qadağaların müdafiəçisi və əyləncə həyatının müxalifi kimi tanınırdı.

Dövlət başçısı seçildikdən sonra Cardenas keçmiş məsləhətçisi General Callesi sürgünə göndərdi və bu hərəkətiylə öz təşəbbüsü ilə hərəkət edən bir adam olduğunu, bir kukla olmadığını göstərdi. Müəyyən bir qrupu başqa bir qrupun üstünə salmaqda usta olan Cardenas, üstünlüyünü sübut edərcəsinə, Meksikaya 1980-ci illərin sonlarına qədər hakim olan bir siyasi sistemi yaratmağa başladı. Bu sistemdə neft və milliyyətçilik paralel mövqedədirlər. Həqiqət budur ki, Cardenas o günə qədər gəlmiş keçmiş Meksika dövlət başçıları içərisində ən radikal olanıdır. 1938-ci ildə ingilis nazir Cardenas haqqında bunları söyləmişdir: "Sola olan təmayülü bu adamı kapitalizm düşməninə çevirmişdir. Amma buna baxmayaraq, hər cür





faktor nəzərə alındığında, Meksikada onun miqyasında başqa bir adamın olmadığını təəssüflə söyləyə bilərəm." Cardenas torpaq islahatları aparmış, təhsil və tikinti xidmətlərini son gücündə işlətmiş, bunun üçün əlindən nə gəlirsə onu etmişdir. Onun sədrliyi dövründə fəhlə sindikatları daha da güclənmişdir. Özünü hər zaman xalq kütlələri ilə bərabərləşdirmək istəyər, durub-dincəlmək bilmədən ölkəni başdan ayağa dolaşar, xəbər vermədən kəndlilərin arasına qarışıb, şikayətlərini öyrənmək istərdi.

Alovlu bir milliyyətçi və radikal bir siyasətçi olaraq Cardenas Meksikadakı xarici neft sənayesinə - iztirab verən, acı bir həqiqət kimi baxardı. 1920-ci illərin axırlarında neft bölgəsində hərbi komandanlıq etdiyi zamanlarda xarici şirkətlərə qarşı böyük bir nifrət bəsləməyə başlamışdı. Xaricilərin təkəbbürlü davranışlarından və Meksikaya "qələbəylə qazanılan toppaq" gözüylə baxmalarından - ən azından özü 1938-ci ildə yazdığı xatirələrdə belə yazmışdı - cana yığılmışdı. Dövlət başçısı olduqdan sonra artıq radikalizmə meyl eləməsi qaçınılmazdı. 1935-ci ilin əvvəllərində, Cardenasın prezident olmasından bir neçə ay sonra Covdrayın adamlarından olan və Meksika Şirkətində çalışan birisi şikayət edərək "siyasi baxımdan, ölkənin tamamən qırmızıya boyandığını" söyləyəcəkdi. Neft şirkətləri Cardenasdan əvvəlki Meksikada işlərin necə yürüdüldüyünü, ölkənin bir qara bazar, rüşvət, pul yedirtmə yeri olduğunu çox yaxşı bilirdilər, ancaq bu yeni gerçəyə qarşı nə edəcəklərini bilmir, hazırlıqsız yaxalanırdılar.

Meksika Qartalı isə ölkədə yeni inkişaf edən, radikalizm ruhuna uyğunlaşmağa çalışan öz yerli metodlarıyla, bütün inzibati nəzarətə sahib olan Hollandiya Kraliyyət/Shell arasında çarpaz atəşə məruz qalmış

kimiydi. Yerli menecerin söylədiyinə görə, "Henri Deterding Meksikanı həqiqi mənada anlaya bilməyən, onu sadəcə əmr verə biləcəyi bir müstəmləkə hökumətiymiş kimi girən biriydi." Əslində, bu adamın məqsədi Deterdingin imicini qaralamaqdan başqa bir şey deyildi. Ancaq bu məqsədində uğur qazana bilməmiş və tam tərsinə, Deterding onu "Yarı Bolşevik" olmaqda ittiham etmişdir. Yerli menecerə əsəbiləşərək, qızışıb bağırmaqdan başqa əlindən bir şey gəlməmiş, bu sözlərlə kifayətlənmişdir: "Bu beynəlxalq şirkətlər bir şeyi başa düşməlidirlər ki, bu günün dünyasında neft satın almaq istəyirlərsə, istənən qiyməti mütləq - qiymət nə qədər yüksək olursa olsun - ödəmələri lazım gələcək. Bu, həm özləri üçün, həm də hissədarları baxımından daha xeyirli olacaqdır."

Standard Oil Nyu Jersey də yeni siyasi reallıqlara uyğunlaşacaq psixologiyada deyildi. Birinci Dünya Savaşından əvvəl "Qızıl Yol"a bərabər səviyyədə nəhəng bir kəşf edən və Meksika neft sənayesinin böyüməsindən məsul olan məşhur amerikalı geoloq Everette De Golyer Meksika ilə qurulan münasibətlərini hələ də davam etdirirdi. İndi Amerikan şirkətləri daha önəmli mövqeyə sahib idilər və bu, onu kədərləndirirdi. Jersey Şirkətinin istehsalat departamentinin şefi olan Eugene Holmanı məxsusən "Meksika hökumətiylə bir ortaqlıq müqaviləsi bağlamağa məcbur etdi. Bu müqavilənin Meksika hökumətinin gözləntilərinə cavab verməsini, eyni zamanda Jersey Şirkətinin də həm yatırdığı sərmayəsini geri alacaq, həm də üstəgəl, sərmayə üzərindən bir pay da almasını təmin edəcək şərtləri əhatə etməsini istəyirdi." Ancaq Holman bu fikrə şiddətlə qarşı çıxdı. De Golyerə "digər bölgələrdə də nümunə təşkil etməsi etibarilə mövzunun onun üçün çox əhəmiyyətli olduğunu, qismi ortaqlığa razı





olmaqdansa, şirkətin Meksikada nəyi varsa, hamısını itirməyinin daha yaxşı olacağını" söylədi.

Bu arada xarici şirkətlərə olunan təzyiqlər gedərək artmaqdaydı. Latın Amerikasının çox yerində xarici neft şirkətləriylə gedərək çatışmaqda olan milliyyətçilik cərəyanları arasındakı ziddiyyətin ən bariz əks-sədası Meksikada yaşanan hadisələrdi. 1937-ci ildə Boliviyanın yeri sallanmaqda olan yeni hərbi hökuməti, cəmiyyətin dəstəyini qazanmaq üçün Standard Oilun yerli təmsilçiliyini vergi saxtakarlığına yol verməklə ittiham elədi və mal varlığına əl qoydu. Bu hərəkət Boliviyada xalqın təqdiri ilə qarşılandı və bütün Latın Amerikasının diqqətini çəkdi. Bu zaman Meksikada maaş problemi ön plana çıxmış, vergi və neft imtiyazları problemləri bir nömrəli problem olmaq əhəmiyyətini itirmişdi. 1937-ci ilin may ayında neft sənayesi fəhlələri sindikatı tətillərə başlamış, bunu dəstəkləmək məqsədilə digər sindikatlar da tətil hazırlıqlarına girişmişdi. Cardenas bu hadisələrin baş verdiyi zaman Meksikada yox idi. O, vaxtının çoxunu Yucatan və Acapulcoda keçirirdi. Yucatanda yerli Qırmızı dərililərə ərazi paylaşdırmasına nəzarət edir, kiçik bir liman olan Acapulcoda isə tikilməkdə olan bir otelin və çimərliyin inşasına göz-qulaq olurdu. Ancaq indi, topdansatış bəlasının bu dərəcədə təhlükəli olduğu o günlərdə işə müdaxilə etmək ehtiyacı hiss elədi. Onun qənaətincə, neft sənayesinin qapadılmasına yol açacaq bir ümumi tətilin keçirilməsinə icazə verilə bilməzdi. Ortalığı yatışdırmaq və sakitçiliyi bərpa etmək üçün prezident Cardenas şirkətlərin haqq-hesab dəftərlərini araşdırmaq, onların fəaliyyətlərini nəzarət altında saxlamaq məqsədilə bir komissiya təşkil elədi.

Qurulan komissiyanın gəldiyi yekun qənaət o idi ki, şirkətlərə - öz aralarında münasibət yaratmağa hər hansı

bir səbəb yox idi. Komissiyanın ən önəmli adamlarından biri olan professor Jesus Silva Herzoq, şirkətin işçilərini dəyərləndirmək məqsədilə bu sözcüklərdən istifadə edirdi: "Həqiqəti söyləmə vərdişkarlığına sahib olmayan ehtiramsız adamlar." Komissiyanın şirkətə bəslədiyi nifrət hissi birtərəfli deyildi. Əslində şirkət üzvləri də komissiyaya eyni dərəcədə nifrət edirdilər. İngiltərə səfirinin düşüncələrinə görə, "Silva Herzoq adı çıxmış və səmimi bir kommunist idi." Silva Herzoq komissiyası nəticədə bir raport hazırladı və neft şirkətlərinin Meksika iqtisadiyyatına təcavüz edərək, ağılalmaz qazanclar əldə etdiklərini, ölkənin daha əhatəli iqtisadi inkişaf yoluna qədəm qoyması üçün heç bir köməklik göstərmədiklərini açıqladı. Komissiya fəhlələr üçün ildə 26 milyon pezo (Meksikanın pul vahidi) kimi yüksək maaşlar ödənməsini tövsiyə etdi və bununla da kifayətlənməyərək, fəhlələrin lehinə yeni bəzi imtiyazlar təmin olunmasında israr etdi. Komissiya iş saatlarının həftədə 40 saat olması, 6 həftəyə qədər şirkət hesabına məzuniyyət, fəhlə təqaüdə çıxanda isə, 50 yaşında aldığı maaşın 85 faizi həcmində aylıq alması kimi sosial hüquqların tanınması üçün direniş göstərdi. Komissiyanın digər bir tövsiyəsi də, bütün xarici texnokratların iki il içərisində işdən çıxarılması, onların yerinə meksikalı mütəxəssislərin işə götürülməsi idi.

Bu tövsiyələrin qarşılığında şirkətlər, komissiyanın qərəzli bir davranışla dəftər və hesablarını yanlış formada şərh etdiklərini açıqladılar. Bundan başqa, qazanc bölümünü də yanlış əks etdirdiklərini söylədilər. Şirkətlərin iddiasına görə, 1935-37-ci illər arasında bütün şirkətlərin ortalama qazancları 23 milyon pezodan çox deyildi. Buna baxmayaraq, fəhlələrə veriləcək əlavə maaş artımı üçün tələb olunan rəqəm isə 26 milyon pezo idi. Şirkətlər eyni





zamanda daha bir bəyanat verir, komissiyanın tövsiyələrinə uymağa məcbur edildikləri təqdirdə, qapılarına qıfıl asacaqlarını bildirirdilər. Bunu söyləyərkən, əslində qumar oynayır və hökumətin bu risqi üstünə götürməyəcəyinə inanırdılar. Hökumətin bütün işlərə əl qoyacağı təqdirdə Meksikanın lazımi personalı iş görmə qabiliyyətini, nəqliyyat xərclərini və sərmayəni təmin edə bilməyəcəyinə, Meksikada bunların olmayacağına inanmışdılar.

Şirkətlər komissiyanın tövsiyələrinə qarşı idilər. Hökumətə gəlincə, hökumət sadəcə komissiya ilə eyni görüşü paylaşmaqla kifayətlənməyib, bəzi əlavə cəzaların da tətbiq olunmasını istəyirdi. "Meksika Qartalı" Şirkəti gələcəyin nələr gətirə biləcəyinin fərqində olaraq işçilərinin arvad-uşaqlarını şirkətdən uzaqlaşdırdı. İttihamlar və qarşılıqlı söz atışmaları get-gedə artarkən, ortadakı problemlər də gündən-günə qalaqlanırdı. Şirkətlər bütün dünyada fəaliyyətlərini təhlükə altında qoyan əsas təmayülün keçmiş bir modelinin təkrar xortlamasından qorxurdular. Cardenasın ilk günlərdən bəri neft sənayesi üzərində hökumət nəzarətinə niyyətləndiyini bilirdilər. Ancaq indi söhbət Cardenasın öz şəxsi etibar və gücündən gedirdi. Xarici şirkətlərin qarşısında təslim olub, geri addım atır kimi görünmək istəmirdi. Bundan başqa, solçu hərbi sindikatların onu məğlub etməsinə razı ola bilməzdi. Vəziyyət nə qədər təhlükəli olsa da, o, yenə də ölkəsinin başında olmalı, hakimiyyəti əlində tutmalıydı. Amma bir şey vardı ki, hadisələr və şərtlər onu öz istədikləri yerə sürükləyirdi. Günlərin bir günündə Cardenas bir dostuna bunları söyləyəcəkdi: "Mənə heç bir zaman həqiqəti söyləməyən məsləhətçilərin və səlahiyyət sahiblərinin əlindəyəm. Bunlar əksər vaxtlarda təlimatlarıma qulaq asmırlar." Bu sözləri də əlavə etməkdən özünü saxlaya bilmirdi: "İşin nə yerdə olduğunu, ancaq işə birbaşa

özümün müdaxilə etdiyim, şəxsən maraqlandığım zaman öyrənirəm."

Bir ingilis şirkəti olan "Meksika Qartalı"nın digər istehsalçılar arasında ən böyük istehsalı həyata keçirməsinə baxmayaraq, neft şirkətlərinə istiqamətlənən ümumi nifrət bu şirkətə yox, sırf emosional səbəblərlə Amerika Birləşmiş Ştatlarına yönəlmişdi. Bir ingilis diplomatı müşahidələrinə əsaslanaraq, bunları söyləmişdi: "Hansı sinifdən olursa olsun, bütün meksikalıların bir mövzuda yekdilliklə və tamamilə eyni cür düşündüklərini müşahidə etdim. Meksikalıların hamısında sarsılmaz bir qənaət var: amerikalıların - ölkələrinin iqtisadi cəhətdən inkişaf etməsinə və siyasi baxımdan birləşməsinə qarşı olduqlarına, bu inkişafın qarşısını aldıqlarına inanırlar. Bu, onlarda köklü olaraq yerləşmiş bir qənaətdir." Amerikan şirkətlərinin Meksikadan gözlədikləri diplomatik dəstək geridə qalmış, keçmişə mal olmuşdu. Ruzvelt hökuməti Latın Amerikasına qarşı "yaxşı qonşuluq" siyasəti adı altında yeni bir siyasət aparmağa başlamış və "Yeni Anlaşma" adlı bir müqavilə bağlamışdı. Ancaq bu "Yeni Anlaşma", sanki Meksika hökumətinin vəziyyətini telepatiya yoluyla anlayar kimiydi və bir elə də etibarlı deyildi. Xarici siyasət baxımından, Vaşinqton dünyanın bu yarımkürəsində müdafiə məsələsinin bu dərəcədə əhəmiyyət qazandığı və müharibə ehtimalının yaxınlaşdığı belə bir şəraitdə Meksikadan imtinanın zamansız olduğu və qarşısının alınmasının lazım gəldiyi qənaətindəydi. Bu, sindikatların ifrat tələblərinə qarşı tarazlığı təmin etmə mövzusunda Şimalın çox təzyiq etmədiyi mənasını daşıyırdı.

Meksika Ali Məhkəməsinin şirkətlər üçün verilən qərarı təsdiqləməsi ilə, onsuz da var olan böhran bu dəfə zirvə nöqtəsinə çıxırdı. Bu arada şirkətlər də üstlərinə düşən





vəzifəni yerinə yetirərək, maaşları ikiqat artırmış, ancaq bu belə sindikat liderləri və Meksika hökuməti tərəfindən yetərli qarşılanmamışdı. 8 mart 1938-ci ildə Cardenas, neft şirkətləri təmsilçiləri ilə məxsusi bir görüş gerçəkləşdirir, ancaq maaş problemi bu görüşdə də həll olunmur, əksinə hər şey bir az da bərbad olurdu. Eyni gün, gecənin gec saatlarında Cardenas bu dəfə öz-özünə yeni qərarlar alırdı. Bu "lazım olarsa", şirkətləri bağlama qərarıydı. 16 martda neft şirkətləri rəsmi olaraq "üsyan qaldırmağa" qərar verdilər. Cardenas, vəziyyətin bu hala gəlməsindən sonra da yorulmaq bilmədən uzlaşma yolları axtarmağa davam edirdi. Nəticədə tərəflər bir-birilərinə yaxınlaşmağa başladılar. Nəhayət, şirkətlər 26 milyon pezo maaş ödəməyi qəbul etdilər. Ancaq şirkətlər bir mövzuda güzəştə getmək istəmirdilər. Onların qərar vermə səlahiyyətlərinin və inzibati nəzarətin sindikatlara keçməsinə qətiyyən razı olmayacaqdılar.

18 mart 1938-ci ildə Cardenas Nazirlər Kabinetinin iclasını keçirdi. Niyyətinin neft sənayesini yenidən öz nəzarətinə almaq olduğunu söylədi. Milli inkişaflarına əngəl olmalarındansa, neft yataqlarının məhv edilməsinin daha yerində olacağını bildirdi. Səhər saat 09.45-də "ləğvolma" qərarnaməsini imzaladı və prezident iqamətgahındakı "Sarı Otaqdan" olunan bəyanatla bu tarixi qərar millətə elan olundu. Cardenasın sözləri tam 6 saat davam edən mərasim və yürüşlə Meksika City küçələrində coşğuyla təkrarlanıb, əks-səda verdi. Ölkəni artıq amansız bir mübarizə gözləyirdi. Meksika baxımından, Cardenasın qərarı xarici dövlətlərin ağalığına qarşı yönəldilmiş böyük və müqəddəs bir mübarizə simvolu və vətənpərvərlik nümunəsiydi. Bu da ölkəni bir arada tutan milliləşmə ruhunun ana xəttini təşkil edirdi. Şirkətlərə gəlincə, onlar

ləğv olunmalarının mütləq və mütləq qanundankənar olduğunu, açıq ifadəli müqavilələrin və rəsmi öhdəçiliklərin çiynəndiyi mənasına gəldiyini, sərmayələrini və enerjilərini risqə ataraq, yaratdıqları hər şeyin inkar edildiyi qənaətini daşıyırdılar.

Ləğv olunan şirkətlər birləşərək bir alyans formalaşdırdılar və aralarında anlaşmaq üçün müzakirəyə başladılar. Müzakirələr heç inanmadıqları təzminat üçün deyil, mal varlıqlarını geri almaq üçün aparılırdı. Ancaq bu istiqamətdəki təşəbbüslər də bir xeyir vermədi. Mövzu artıq sadəcə Meksikanı deyil, çox daha geniş bir kəsimi əhatə edən təhlükəli bir problemdi. Bir Shell səlahiyyətlisinin sözləriylə, "ləğvetmə əməliyyatı uğurla nəticələndiyi təqdirdə, bu, bütün dünya üçün nümunə təşkil edəcək, Latın Amerika dövlətləri başda olmaqla, bütün dünya beynəlxalq ticarəti və xarici sərmayə təhlükəsizliyini məhv etməyə yönələcəkdi." Bu düşüncələr içərisində şirkətlərin bir araya gəlib, təzyiqlərə qarşı olan-qalan güclərini səfərbər edərək müqavimət göstərmələri bir məcburi xarakter daşımışdı. Əks-reaksiyalarını - bir araya gəlib dünyanın hər tərəfindən gələn Meksika neftinə embarqo qoyaraq göstərdilər. Meksika qaynaqlı neft məhsulları ixracatının oğurluq mal olduğunu iddia etdilər. Bu əməliyyatlardan ən çox ziyan görən şirkət "Meksika Qartalı" Şirkəti idi. Bu şirkət Hollandiya Kraliyyət/Shell tərəfindən nəzarət olunmasından başqa, hissədarlarının çoxu da ingilisdi. İngiltərə hökuməti praktikada Meksikaya qarşı sərt xətt tutdu və özü kimi zidd görüşdə olanlar içərisində ən qüvvəli müxalif oldu, meksikalılardan əl qoyduqları mal varlıqlarını geri qaytarmalarını tələb etdi. Bu tələb Meksika hökuməti tərəfindən cavaba belə layiq bilinmədi və nəticədə diplomatik münasibətlər kəsildi.





Meksika, Birləşmiş Ştatlara qarşı da oxşar addım atırdı ki, son anda qıl payı vaz keçdi. Meksika da bu ləğvetmə əməliyyatından sonra nələrin baş verə biləcəyini hesablamağa başlamışdı. Gələcəkdəki bir neçə il içərisində Vaşinqton da Meksikaya - başda iqtisadi məsələlər olmaq üzrə bəzi basqılar göstərməyə çalışmışdısa da, bunları elə də könüllü etmədi. Həqiqət budur ki, bu işlərdə Amerikan şirkətləri gözlədikləri və haqları olan dəstəyi ala bilmədiklərini düşünürdülər. Ruzveltin "Yaxşı Qonşuluq Siyasəti"nin önəmli mərhələsiydi və Yeni Anlaşmanın "İqtisad Krallarına" yönəltdiyi tənqidlər işığında xüsusilə, 1930-cu illərin axırlarında Amerikan hökuməti Meksikaya və ləğv qərarlarının hökmdarlıq haqlarına qarşı çox sərt davranmağı təhlükəli hesab edirdi. Hələ bu ölkə Ruzveltin dediyi kimi "ədalətli bir təzminat" ödədiyi müddətcə buna heç yol verə bilməzdi. Bundan başqa, çiyinlərində daşıdığı o qədər problem içərisində, beynəlxalq vəziyyətin bu dərəcədə ağırlaşdığı bir zamanda Ruzvelt Meksikayla və ya dünyanın bu yarımkürəsindəki hər hansı bir ölkəylə olan münasibətləri daha da təhlükəyə məruz qoymağı gözə ala bilməzdi. Gözə alacağı təqdirdə bunun nəticələrinin super güclərin xeyrinə olacağını bilirdi. Zaman Cardenasın dünya siyasətinin oyun qaydalarını çox dəqiq hesabladığını sübut etdi.

Vaşinqton çox keçmədən İngiltərənin liderliyindəki embarqonun və Meksikada ənənəvi hal almış bazarları bağlamaq təşəbbüslərinin mənfi təsirlərini görə bildi. Artıq Nasist Almaniyası Meksikanın bir nömrəli neft alıcısı olmuşdu və bu ölkədən nefti endirimli qiymətlə və uzun vədəyə satın alırdı. İki nömrəli müştəri Faşist İtaliyası idi. Yapon şirkətləri də həm bütün Meksika torpaqlarında neft axtarma işləri ilə məşğul olur, həm də neft yataqlarından Sakit okeana qədər uzanan bir neft kəməri

çəkməyi planlaşdırırdılar. Bütün bunları bilən Ruzvelt hökuməti baxımından, Amerikan hökumətlərindən gələ biləcək əlavə bir təzyiq - tərs təpər, əks-reaksiyaya səbəb olardı ki, bu da Super Güclərin Meksikadakı vəziyyətini sağlamlaşdırmaqdan başqa bir işə yaramazdı.

Meksikaya qarşı Amerikadan da sərt münasibət göstərən İngiltərə belə, get-gedə ticari olmaqdan daha çox, strateji düşüncələrlə siyasətini yumşaltmışdı. Artıq strateji mövzulara başqa eynəklərlə baxırdı. İngiltərənin bir problemi vardı. 1938-ci ilin may ayında Neft Komitəsi və İmperatorluq Müdafiə Komissiyasının xülasə elədiyi kimi, problem bu idi: dünya neft istehsalının 94 faizi sadəcə 8 ölkədən gəlirdi. Birləşmiş Ştatlarda Konqresin qərarına görə, tərəfsizlik məcburiyyəti vardı. Bu tərəfsizlik prinsipinin şərtlərinə görə, bir böhranın baş verdiyi təqdirdə Amerika İngiltərəyə neft nəqlini dayandırmaq məcburiyyətindəydi. Rus neftinə gəlincə, Rusiyadan ixracat çox aşağı səviyyəyə düşmüşdü və bir savaş başlayan kimi bəlkə də bütünüylə kəsiləcəkdi. Şərqi Hind Adalarının Hollandiya kəsiminə, Rumıniya və İraqa isə coğrafi şəraitin əlverişsizliyi səbəbilə bəzi hallarda güvənilir neft qaynaqları olaraq baxıla bilməzdi. Neft idxal edəcək ölkələr kimi, geriyə sadəcə İran, Venesuella və Meksika qalırdı. Ancaq İranı bu qrupdan çıxarmaq lazımdı. Çünki bir neçə il əvvəl Rza Şahla baş verən toqquşma nəticəsində Anqlo-Pers Şirkəti çox dəyərli İran imtiyazını belə itirməyin kandarına qədər gəlmişdi.

Bütün bunların yeganə bir mənası vardı. Bir hərbi böhran vəziyyətində İngiltərənin neft mənbəyi Latın Amerika ölkələri olacaqdı: "Sadəcə istehsal olunan neftin bol olması səbəbilə yox, həm də dəniz yoluyla nəql edilməyə uyğun bir yerdə yerləşdikləri üçün." Bütün bu qayğılarla əldən gələn hər şey olunmalı, "Meksikanın





tətbiq etdiyi siyasətin, digər Latın Amerikası ölkələri tərəfindən də mənimsənilməməsi üçün hər cür təşəbbüs göstərilməliydi." Londonun ən çox narahat olduğu ölkə İngiltərənin toplam neft ehtiyacının 40 faizini təkbaşına qarşılayan Venesuellaydı. Artıq İngiltərinin Xarici İşlər Nazirliyi üçün strateji mövzular - "müdafiə ehtiyacları" və savaş halında neftin necə təmin olunacağı - nazirliyin bütün siyasətinin müəyyənləşməsində ən həyati əhəmiyyətli məsələ halına gəlmişdi. Hərçənd ki, Birləşmiş Ştatlar Meksikanın qonşusuydu və iki ölkə arasında öz həllini gözləyən bir çox vacib problemlər vardı. Ancaq mövzu neftə gələndə, İngiltərə üçün Meksika dövləti Amerika Birləşmiş Ştatlarından çox-çox əhəmiyyətli idi.

## Yuli Sezar qədər cansız...

1939-cu ilin sentyabr ayında Avropada müharibə başladıqdan sonra Amerikan neft şirkətləri ilə Amerika Birləşmiş Ştatları hökumətinin mənafeləri daha gözəgirən xəttlərlə toqquşmağa başlamışdı. Ruzvelt hökumətinin yürütdüyü siyasət baxımından Milli Təhlükəsizlik mövzusu, Standard Oil Nyu Jersey və digər Amerika şirkətlərinin yenidən inkişaf etdirilməsindən daha əhəmiyyətli idi. Vaşinqton, Nasist sualtı qayıqlarının Meksika limanlarından neft daşımasını və ya alman "geoloqların" və "neft mühəndislərinin" Şimali Meksikada, Birləşmiş Ştatların sərhədlərinin yaxınlığında və ya cənubda - Panama kanalı həndəvərində gəzib-dolaşmasını istəmirdi. Bu səbəblərlə Vaşinqton üçün neft mövzusunu mümkün olduğunca sürətlə gündəmdən çıxarmaq ən doğru hərəkət olacaqdı. Bundan başqa, Amerikanın müharibəyə qoşulacağı təqdirdə Birləşmiş Ştatlar, Birinci Dünya Müharibəsində olduğu kimi, Meksikadakı neft yataqlarına girmək

istəyəcəkdi; bu yataqların həqiqi sahibinin kimlər olduğu isə Amerikanı heç maraqlandırmırdı. Amerikan səfiri İosif Danielin 1941-ci ildə Ruzveltə bildirdiyi kimi, məqsəd Meksikayla əməkdaşlıq etməkdi. Ancaq bunun baş əngəli Meksika hökumətinin "ləğvetmə" əməliyyatlarıydı. Böyük elçinin görüşünə görə, "Yuli Sezar qədər cansız olan" bu halı yenidən canlandırmağa çalışmağın heç bir mənası ola bilməzdi.

Strateji düşüncələr 1941-ci ilin payızında, Pearl Harbor basqınından əvvəl Vaşinqtonu bu haqda bir çıxış yolu tapmaq üçün hərəkətə keçməyə məcbur etdi. Artıq problemin əsas nöqtəsi şirkətlərin yenidən qurulması olmaqdan çıxmışdı. İndi əsil problem təzminat problemiydi. Ancaq təzminatın miqdarı nə qədər olacaqdı? Meksikada fəaliyyət göstərən şirkətlərə təzminat üçün biçilən dəyərlər, bir-biriləri ilə müqayisə olunmayacaq qədər ziddiyyətlər içindəydi. Məsələn, Meksikanın 7 milyon dollar dəyər biçdiyi bir şirkətə, qarşı tərəfdən 408 milyon dollar təzminat tələb olunurdu. Şirkətin qiymətini hesablamada ən əhəmiyyətli faktor yeraltı sərvətləriydi. Birləşmiş Ştatlar və Meksika hökûmətlərinin ortaqlaşa seçdiyi təmsilçilərdən bir komissiya quruləraq "təzminat" planı tutmaq məsələsi bu komissiyaya tapşırıldı. Nəticədə komissiya bir plan hazırlasa da, bu plan həqiqətdən çox uzaq idi. Komissiyanın gəldiyi yekun qənaətə görə, şirkətlərə aid torpaqlardakı yeraltı qaynaqlar, hökumətin "ləğv" qərarı verdiyi tarixə qədər artıq çıxarılmışdı və mövcud deyildi. Çox ağıllıca tapılmış və həyata keçirilmiş bu formatdan sonra artıq hansı yeraltı qaynağın kimə aid olduğu və ya dəyərinin nə qədər olduğu haqda danışmağın heç bir xeyri yoxdu. Bu arada neftin çoxunun da əldən çıxdığından heç kim şübhə edə bilməzdi. Buna əsaslanan komissiya yeni bir təzminat tənzimləməsi təklif elədi və təxminən 30 milyon





dollar təzminatın bir neçə ilə bölünərək ödənilməsini təklif elədi. Təzminat üçün ortaya atılan rəqəm şirkətləri məmnun etməmişdi. Hamısı birdən buna qarşı şiddətli bir reaksiya göstərdilər. 1920-ci illərdə - gələcəkdə neft sarıdan ciddi tərəddüdlər keçirən Birləşmiş Ştatların arzusuna uyaraq, əcnəbi neft qaynaqları axtarışına çıxdıqlarını, indi isə eyni hökumət tərəfindən tərk edilib, xəyanətə uğradıqlarını iddia etdilər. Ancaq Dövlət Naziri Cordell Hull tələbində dirənir, şirkətlərin təzminatı qəbul edib etməməkdə sərbəst olduqlarını, ancaq qəbul etməyəcək olarlarsa, Vaşinqtondan artıq heç bir yardım və ya dəstək gözləməmələrini söyləyirdi. Açıq söyləmək lazımdırsa, Vaşinqtonun bu mövzudakı siyasəti "istər al, istər alma" istiqamətindəydi. Nəticədə, 1943-cü ilin oktyabr ayında, dəyərləndirilmə mövzusu ortaya atıldığından bir il yarım sonra, Amerikan şirkətləri təzminat almağı qəbul etdilər.

İş bununla da tamamlanmış sayılmırdı. Meksikaya da bir qiymət ödəmək lazım idi. Aradan keçən zaman içərisində Meksikada, "Petroleos Mexicanos" adlı təxminən bütün neft sənayesinin sahibi olan milli bir neft şirkəti qurulmuşdu. Ancaq bu ölkədə neftçilik artıq xarici ixracata istiqamət götürməkdən çıxmış, bütün diqqətlər ölkədaxili bazara və Meksikanın öz iqtisadi inkişafı üçün lazım olan yanacağın ucuz istehsalına çevrilmişdi. Artıq dünya bazarlarında Meksika nefti çox az yer tuturdu. Üstəgəl, bu sənaye sərmayə yoxluğu səbəbilə və texnoloji bacarıqları olmadığı üçün zəifləmişdi. Ancaq milliləşmə hərəkatı iqtisadi təşəkküllərə mütləq bəzi imtiyazlar verəcəkdi. "Ləğv" qərarının bir daha hesablanması nəticəsində vəd olunan maaşlar sonsuza qədər təxirə salınır və bununla da kifayətlənilməyib, daha da aşağı çəkilirdi.

İngiltərənin öz hesablarını bağlamaq və hətta Meksika ilə diplomatik əlaqələri yenidən qurmaq kimi bir narahat-

çılığı yoxdu. Xarici İşlər nazirliyinin daimi məsləhətçisi Aleksandr Cadoganın sözləriylə, İngiltərə hələ Meksika ilə bir anlaşma halındaydı və bunun İran və Venesuellanın "başına" "bəzi fikirlər" yeridəcəyindən qorxurdu. Cadogan düşüncələrini bu cür ifadə etmişdi: "Şübhəsiz ki, müharibədən sonra bu mövzu bambaşqa bir çalar qazanacaqdır." Olayların gedişatı "Meksika Qartalı" və Shell şirkətlərinin 1947-ci ilə - savaşın qurtarmasından iki il sonraya qədər Meksika ilə işlərini yoluna qoymalarına imkan verməmişdi. Ancaq bu iki şirkət, göstərdikləri səbrin qarşılığını aldılar. "Meksika Qartalı"nın Meksikada fəaliyyət göstərmiş ən böyük xarici şirkət olduğu gerçəyi, bu şirkətə böyüklüyü nisbətində - Amerika şirkətlərindən çox daha yaxşı bir təzminat - yəni tam 130 milyon dollar pul qazandırdı.

"Meksika Qartalı", ən azından İngiltərə hökumətinin onu dəstəklədiyini, onun arxasında olduğunu bilirdi. Amerikan şirkətləri isə tam tərsinə, onlara haqsızlıq edənin Meksikadan çox öz hökumətləri olduğu qənaətini daşıyırdılar. Ancaq həm İngiltərə, həm də Amerikan şirkətlərinin eyni görüşdə olduğu ortaq bir mövzu vardı. Hər ikisi də neftçiliyin, uzun illərdən bəri - Bolşevik İnqilabından bu yana, bəlkə də 1911-ci ildə Standard Oil Tröstünün dağıdılmasından bu dövrə qədər - aldığı ən dərin yara olduğu inancında idilər. Xarici şirkətlərlə işlərini yoluna qoyan Meksika dövləti, nəticədə hədəfində haqlı olduğunu sübut etmişdi. 1938-ci il milliləşmə hərəkatı, inqilabın ən böyük qələbələrindən biri olduğunu göstərmişdi. Artıq Meksika, özünün neft sənayesinin yeganə və mütləq hakimi idi. Bu arada "Petroleos Mexicanos - Pemex" adıyla yeni bir şirkət yaranır, dünyada sahibi dövlətin özü olan ilk və ən önəmli neft şirkəti olaraq inkişaf edib, adını dünyaya eşitdirirdi.

Bu cəhətləri ilə Meksika, həqiqətən də öz gələcəyi üçün bir model təşkil eləmişdi.





# 15

# ƏRƏB İMTİYAZLARI

## Frank Holmesin yaratdığı dünya

Birinci Dünya Müharibəsinin pərişan edib, yaşantılarını başqa yerlərdə davam etdirməyə məhkum etdiyi milyonlarla adamlardan biri də mayor Frank Holmes idi. Ancaq o, hələ müharibə başlamazdan çox əvvəl səfil olmağın nə demək olduğunu öyrənmişdi. Yeni Zellandiyada 1874-cü ildə bir fermer təsərrüfatında dünyaya gələn Holmes ilk iş olaraq, Cənubi Afrikada qızıl mədənlərində çalışmış, daha sonra təxminən 20 il mədən mühəndislərinin işlədiyi işlərdə çalışmaq üçün Avstriya və Malayziyadan Meksikaya, oradan Uruqvaya, Uruqvaydan Rusiya və Nigeriyaya qədər dünyanın hər yanına gedib, oralarda çalışmışdı. Orqanizm etibarilə güclü, qüvvətli və dözümlü, davranış etibarilə isə diqqətli və inadcıldı. Rəqiblərindən biri günlərin bir günündə onu bu sözlərlə xarakterizə etmişdi: "Şəxsi baxımdan çox cazibədar olan, meydan oxumağa meylli, soyuqqanlı, zarafatcıl və kobud xarakterli birisi." Birinci Dünya Müharibəsi zamanında İngiltərə ordusunda iaşə işlərinə baxan məmur vəzifəsində çalışan Holmes, 1918-ci ildə sığır satın almaq üçün getdiyi Həbəşistanın Əddis Əbəbə şəhərində bir ərəb tacirlə tanış olmuş, ondan İran körfəzinin Ərəbistan sahillərində neft sızıntılarına rast gəlindiyini eşitmişdi. Bir mədən mühəndisi olan Holmesi bu xəbər bir xeyli maraqlandırmışdı. Qarşıdakı günlərdə bu gün adı İraq olan bölgənin Bəsrə şəhərində işə başlamışdı. Sərhəddin İran tərəfində Anqlo-

Pers Şirkətinin fəaliyyətini öyrənmək istəyərək, bu mövzu ilə daha yaxından maraqlanmağa can atmışdı. Ərəbistan sahillərində neftə aid işarətlər olduğu haqqında əvvəlcə eşitdikləri də onun marağını özünə çəkmişdi.

Müharibədən sonra Holmes, Orta Şərqdə iş fürsətlərini inkişaf etdirmək üçün qurulan "Şərq Bölgəsi Ümumi Komitəsi" adlı bir şirkətin quruculuğunda iştirak etdi. 1920-ci ildə şirkətin ilk təşəbbüsü olaraq Adendə bir əczaxana açdı. Bir şey vardı ki, onun könlü əczaxanada yox, öz hisslərini davamlı şəkildə məşğul edən, şövq və ehtiraslarını ərşə çəkən neftdəydi. Ərəbistan sahillərinin nəhəng bir neft qaynağı olduğuna inanır, xəyallarını gerçəkləşdirmək üçün bu röyanın ardından sarsılmaz bir iradəylə yürüyürdü. Mükəmməllik axtarışında olan şəxsiyyəti, insanlarda etimad oyandıran qabiliyyəti ilə Körfəzin Ərəbistan hissəsində yuxarıdan-aşağıya gəzib-dolaşmağa başlamış, o günlərdə səfalət içərisində üzən hökmdarların birinin yanından o birinin yanına çaparaq, xəyallarını anlatmağa, gözləri səfalətdən başqa bir şey görməyən bu insanlara sərvətlər vəd etməyə yönəlmişdi. Bu fəaliyyətlər içərisində çabalayarkən, əsil məqsədi şübhəsiz ki, dosyesinə yeni bir imtiyaz əlavə etməkdi.

Holmes bu təşəbbüslərini ətrafda onu maraqla müşahidə edən şübhəçi, tərəddüdlü ingilis məmurlarının maraq dolu baxışları altında yürüdürdü. Bu məmurlar oralarda yerli hökmdarların əcnəbilərlə münasibətlərini müşahidə eləmək və bölgədə ingilis hökumətinin maraqlarını qorumaq üçün çalışırdılar. Holmesə vicdansız adam və problem yaradan birisi kimi yanaşırdılar. Onu "pisliklə ağzına kimi dolu bir qabiliyyət" sayaraq, özünün ucuz və xırda maraqları naminə bölgədə İngiltərənin nüfuzunu sarsıdan biri gözündə görürdülər. Bölgədəki ingilis məmurlardan biri Holmesi qəsd edərək, "dünya neft bazarında bir





sərsəri olmaqdan irəli getməyən biri" demişdir. Əleyhinə söylənən sözlər içində bəlkə də ən pisi bir başqa məmurdan gəlmişdi ki, bu məmur onu "xüsusilə nəzərə çarpan şəxsiyyəti olmayan birisi" olaraq qiymətləndirmişdi. Ancaq bunu da qeyd etmək lazımdır ki, bu, sadəcə ingilislərin fikirləriydi və sahil boyunca yaşayan ərəblər bu fikirlərə şərik deyildi. Onların fikirlərinə görə, Holmes bir gün mütləq hamıdan fərqli olaraq - "Abu Naft", yəni "Neftin Atası" olacaqdı.

Artıq Holmes Adendəki əczaxananı buraxmış, neft kampaniyasını yürütmək üçün Ərəbistan sahillərindən bir az aralıda yerləşən və kiçik bir ada olan Bəhreyndə bir Mərkəzi Ofis açmışdı. Bəhreyni seçməsinin səbəbi burada neft əlamətlərinin olduğu haqda raport almasıydı. Şeyxi neft mövzusu qəti maraqlandırmırdı. Onun sıxıntı çəkdiyi və bu səbəblə də maraqlandığı mövzu su mövzusu idi. Buna görə də Holmes, su üçün qazıntı işləri apardı, su çıxarmağa nail oldu və bundan bir xeyli qazanc əldə etdi. Qazandığı uğurlar bununla da kifayətlənmədi, mükafatlarının sayı artdı. Alicənab Şeyx əvvəlcə vəd etdiyi kimi, 1925-ci ildə ona bir neft axtarma imtiyazı da verdi.

O günə gələnə qədər Holmes, neft üzərində başqa hüquqlar da əldə etmişdi. Bunların sırasında sonradan Səudiyyə Ərəbistanı Krallığının şərq hissəsini təşkil edən Əl-Hasa və ondan bir il sonra Səudiyyə Ərəbistanı ilə Küveyt arasında yerləşən və hər iki ölkənin ortaq nəzarətində olan "Tərəfsiz Bölgə" üçün qazandığı imtiyazlar vardı. Küveyt torpaqları üzərində də imtiyaz almağa çalışdı, amma bu mövzuda uğur qazana bilmədi. İşin maraqlı tərəfi o idi ki, Holmes, sanki bu boyda işlər azmış kimi bu dəfə də Bağdaddan Bəhreynə əmrlər yağdırmağa başladı. Məqsədi İraqda Türkiyə Neft Şirkətinə qarşı rəqabət ab-havası yaratmaq, beləliklə, bir çox hökumət və şirkətin bir-

birilərinə daha da düşmənçilik hissləri bəsləmələrinə nail olmaqdı.

Holmesin fəaliyyəti get-gedə bir çox çevrədə və xüsusilə Anqlo-Pers Şirkətində təlaşla qarşılanmışdı. Anqlo-Pers "özünün nüfuz dairəsində" özündən başqa birisinin əməliyyatlar aparmasını istəmirdi. Bu "başqa birisinin" özünün İrandakı əməliyyatlarına müdaxilə edib, ona başbəlası olacağından qorxurdu. Əslində şirkət Ərəbistanda neft olmadığı qənaətini daşıyırdı. Con Cadmanın dediyi kimi, geoloji raportlar "ümidlənməyə əsas vermirdi." Şirkətin bir başqa təmsilçisi də 1926-cı ildə Səudiyyə Ərəbistanının "hər növ neft ehtiyatlarından məhrum" olduğunu elan edirdi. Bu səlahiyyətli əsil neft vəd edən yerin Albaniya olduğunu söyləyirdi.

Hər cür şübhənin ətrafını bürüdüyü bir atmosferdə Holmes və sindikatı yorulub-bezmədən planlarını gerçəkləşdirmək uğrunda savaşdılar və bunun üçün sıralarına bir də bir isveçrəli məşhur geoloq götürdülər. Bu geoloqun vəzifəsi o idi ki, Şərqi Ərəbistanda vəziyyəti araşdırsın. Ancaq geoloqun bütün cəhdləri əks reaksiya verdi. Məşhur geoloqun ixtisas sahəsi Alp Dağları olduğundan, özünü çətinə salmış, ucsuz-bucaqsız qum çölü üçün hazırladığı raportda bölgənin "neft üçün qazıntı işləri aparılacaq hər hansı imkanının olmadığını" yazmışdı. Məşhur professor yazdığı raportda bunu da bəyan edirdi: "Burada girişiləcək hər hansı bir neft axtarışı düppədüz bir qumar oyunudur." Bu Allahın cəzası raportdakı fikirlər necə olmuşsa, Londona da agah olmuş, bu da şirkətin Holmesi dəstəkləmək üçün lazım olan maliyyəni təmin etməsini zora soxmuşdu. Əgər lazım olan pul tapılsaydı, şirkət bunu yeni imtiyazlar və yeni qazıntılar uğrunda çalışan Holmesi dəstəkləmək üçün ayıracaqdı.





1926-cı ildə artıq sindikat, maliyyə baxımından böyük çətinliklər içinə düşmüşdü. Holmes davamlı olaraq bankdan pul çəkmək məcburiyyətində qalır, səyahət xərcləri, hədiyyələr, ianələr və xüsusi dəvətlər üçün daim pul istəyirdi. Sindikatın maddi vəziyyəti və vəd etdiyi gələcəyi o qədər qaranlıqdı ki, nəticədə imtiyazlarının hamısını birdən Anqlo-Persə satmaq üçün hərəkətə keçərək, şirkətə müraciət etdi, amma bu müraciəti belə Anqlo-Pers şirkəti tərəfindən rədd edildi. Anqlo-Pers Şirkəti "xeyr" demişdi, çünki onların qənaətincə Ərəbistanda neft adlanan şey yoxdu. Holmes pul üçün bir dəfə daha Londonda gəzinti turuna çıxır, ancaq onun bu sərmayə axtarışı da soyuq bir rədd cavabı ilə qarşılanırdı. Holmes inadcıl keyfiyyətlərinə və yaxşı bir satıcı olmasına baxmayaraq, bu mövzuda heç bir uğur qazana bilməmişdi. O dövrdə yaşayan bir ingilis iş adamı sonralar o günləri xatırlayarkən, Holmesi bu sözlərlə dilə gətirmişdi: "Holmes Londonda ən böyük başbəlası kimi qəbul olunur, insanlar onunla qarşılaşdığı zaman yollarını dəyişdirib, o biri tərəflə gedirdilər."

## Bəhreyn və Nyu York Şeyxləri

Artıq İngiltərədə uğur qazanmaq ehtimalı qalmamışdı. Holmes bu dəfə bəxtinin üzünə güləcəyi qənaəti ilə özünün dediyi kimi "həqiqətən böyük Nyu York Şeyxləriylə" dolu Amerikaya getdi. Amma orada da bəxti üzünə gülməmiş, qapılar üzünə bağlanmışdı. Standard Oil Nyu Jerseyin rəhbərlərindən biri Bəhreynin maraqlanılmayacaq qədər kiçik olduğunu, xəritə üzərində qələmin ucu boyda bir yer tutduğunu söyləmişdi. Digər şirkətlərə gəlincə, onlar da bütün işlərini Türkiyə Neft Şirkətinə qatılmaq üçün indekslədiklərindən, mövzuya maraq göstərmədilər.

Nəticədə yeganə Amerikan şirkəti Gulf Oil, Bəhreynə maraq göstərməyə başladı. Şirkətin vəzifəsi, dünyanın dörd bir yanında müxtəlif keyfiyyətdə istehsal olunan nefti işləyərək, müəyyən istehsal bölgələrində rastlanması ehtimal olunan ümumi neft qıtlığında və istehsalın aşağı düşdüyü şəraitlərdə bu məhsullardan istifadə olunmasını təmin etməkdi. Quruluşunun ilk illərində, yəni əsrin əvvəllərində, Spindletopdakı neft fontanları sırasında əməlli-başlı sarsıntı keçirmiş, silinib yox olmanın kandarına qədər gəlmişdi. Şirkətin maraqlanmasından sonra Holmes rəhbərlərə ərazidən alınmış qaya parçalarıyla birlikdə "yağlı bir maddə" və bundan əlavə, Bəhreyndəki su quyularından çıxarılan neft zərrələrinə aid bir də raport təqdim elədi. Bütün bu sənədlər kifayət qədər inandırıcı oldu və "Gulf Oil" 1927-ci ilin noyabr ayında "Şərq Bölgəsi Ümumi Komitəsi"ndən ərəb imtiyazları üzərindəki bütün hüquqları satın aldı. Əlavə olaraq şirkət, Küveytdə bir imtiyaz əldə etmədə Holmes qrupuyla çalışmağı qəbul etdi. Ancaq ortaya bir problem çıxmışdı. 1928-ci ildə "Gulf" Türkiyə Neft Şirkətindəki Amerikan qrupuna qatılmış, bu qrupun bir üzvü olmuşdu. Bağlanan müqavilə, imza atan şirkətlərdən heç birinin xəritədə müəyyən olunmuş sərhədlər daxilində hər hansı bir bölgədə müstəqil olaraq fəaliyyət göstərməsinə icazə vermirdi. Bu maddə açıq-açığına Səudiyyə Ərəbistanı üçün olduğu qədər, Bəhreyn üçün də bağlayıcı idi. Müqavilənin şərtlərinə görə, şirkətlər ya birlikdə hərəkət etmək və ya heç hərəkət etməmək məcburiyyətindəydilər. Gulf Şirkətinin bütün israrlarına baxmayaraq, Türkiyə Neft Şirkətinin İdarə Heyəti Holmesin bütün Ərəbistan paketini qəbul etməyə razılıq vermədi. Beləliklə, Gulf "Qızıl Xətt" sərhədlərinin kənarında qalması səbəbiylə Küveyti əldə edərkən,





Bəhreyn üzərində imtiyaz əldə etmə planından imtina etmək məcburiyyətində qalırdı.

Gulf rəhbərləri Bəhreyn imtiyazı mövzusunu Kaliforniya Standardın diqqətinə təqdim etmək istəyirdi. Kaliforniya Standard sırf Gulf kimi əcnəbi neft yataqları axtarıb tapmaq iddiasındaydı və bunun üçün aqressiv qiymətləndirilə biləcək hərəkətlər edirdi. Ancaq çox böyük pullar xərclədiyi halda, əvəzində bir damla neft tapmamışdı. Bütün bu səbəblərlə Gulfun Bəhreyn üzərindəki neft axtarmaq icazəsi "Socal" adıyla tanınan Standard of Kaliforniya Şirkətinə getdi. Gulfun əksinə, "Socal" Türkiyə Neft Şirkətinin üzvü deyildi və buna görə də "Qızıl Xətt" məhdudlaşdırmasının xaricində qalırdı. İmtiyazı əldə saxlamaq üçün "Socal" Kanada təmsilçisi olaraq "Bəhreyn Neft Şirkəti" adlı bir şirkət yaratdı.

İrəlidəki günlərdə Bəhreyndə "Socal", Küveytdə Gulf şirkətləri İngiltərə hökumətinin divar kimi möhkəm, heç bir güzəşt etməz müxalifətçiliyi ilə qarşılaşacaq, İngiltərə hökumətinin bölgəyə Amerikan şirkətlərinin gəlməsinə şiddətlə etiraz etdiyinin şahidi olacaqdı. Birinci Dünya Müharibəsindən əvvəl İngiltərə, Körfəz bölgəsində artan alman nüfuzunun qarşısını almaq üçün aralarında Küveyt və Bəhreyn şeyxləri də olan bölgə şeyxləri ilə bir müqavilə bağladı. Müqavilədə nəzərdə tutulurdu ki, neft axtarma işlərinin hamısı yalnız ingilislərə əmanət edilsin və başqa dövlətlərin yaranacaq münasibətləri də İngiltərə hökuməti vasitəsilə həyata keçirilsin. Bu müqavilənin şərtlərinə görə, indi İngiltərə, Bəhreyn və ya Küveytdə olsun, bağlanacaq hər imtiyaz müqaviləsində "İngiltərə vətəndaşlığı" olmaq şərtdi. Bu maddənin hökmünə görə, neft çalışmaları ingilislər tərəfindən yerinə yetiriləcək, amerikalılar bunu edə bilməyəcəkdi. Bu maddə o mənaya gəlirdi ki, Gulf və ya "Socal" imtiyazlarını işlədə bilməyəcək.

Vəziyyət qarışmışdı. Birləşmiş Ştatların dəstəklədiyi Socal və Gulf şirkətlərinin bir tərəfi, İngiltərə hökumətinin qarşı tərəfi təşkil etdiyi bir çox cansıxıcı müzakirələr başlamışdı. Amerikan neft şirkətləri "milliyyətçiliklə bağlı maddənin" - onları Körfəzdəki əmirliklər və şeyxliklərdən uzaq tutmaq üçün hiyləgərliklə planlaşdırılmış qəsd olduğu inancındaydılar. Həqiqət budur ki, İngiltərə hökuməti özünü talan olunmuş, küncə sıxışdırılmış hiss edir, gücü özündən böyük Amerikaya çatmır, onun qarşısında müdafiə mövqeyi tutmağa məcbur olur, imperiya üçün həyati əhəmiyyətli saydığı mövqeləri əldə tutma bahasına amansızca cəhdlər göstərirdi.

1929-cu ildə İngiltərə hökuməti vəziyyəti bir daha qiymətləndirdi. Nəticədə qərara gəldi ki, Amerikan sərmayəsinin dövrəyə girəcəyi təqdirdə hər şərt və şəraitdə İngiltərənin nəzarətində olan bölgələrdəki neft çalışmaları bundan xeyir görəcək və işlər sürətlənəcək. Bunun həm hər zaman pula ehtiyacı olan və onu tapa bilmədiyi zaman İngiltərədən istəyən bölgə şeyxləri baxımından, həm də etibarlı neft ehtiyacındakı Kraliyyət Donanmasının yararına olacağı qənaətinə gəlindi. İngiltərə hökumətinin belə qərar qəbul etməsinin bir başqa səbəbi də Amerikadan yağdırılan yoğun diplomatik təzyiqlərdi. Artıq İngiltərə hökuməti ən azından Bəhreyn mövzusunda geri addım atmağa meylliydi. Bu qərar gərəyincə Socal şirkəti ilə bir müqavilə bağlandı. Müqavilənin şərtlərinə görə, Amerikan hökumətinə Bəhreyn imtiyazını işlətmək haqqı tanınır, amma bu da bir şərtə bağlanırdı. Amerika bu işlətmə haqqı sadəcə İngiltərənin mövqeyini və siyasi gücünü qarantiya altına alan müəyyən şərtlər altında istifadə edəcəkdi. Məsələn, şirkətdən Şeyxə göndəriləcək hər cür mesaj və ya yazı İngiltərə hökumətinin yerli təmsilçisi olan siyasi ajan vasitəsilə çatdırılacaqdı.





Bəhreyn Neft Şirkəti qazıntı işlərinə ancaq bir il sonra, 1931-ci ilin oktyabr ayında başlaya bildi və 1932-ci ilin may ayının 31-də ilk neft çıxdı. Artıq Körfəzin ərəblər yaşayan hissəsində neft tapılmışdı. İstehsalın miqdarı az olmaqla bərabər, Bəhreyndəki kəşfin məna yükü böyükdü və bu, çox daha geniş nəticələr verəcək tarixi bir hadisənin ilk əlamətləriydi. Xəbər bütün şirkətlər üzərində bomba təsiri yaratmışdı. Yalan olmasın, bəlkə 10 ildən çoxdur ki, neft haqqındakı sabit fikirləriylə xor görülüb məsxərəyə qoyulan mayor Holmes, indi az da olsa, instinktləri, xəyal gücü sayəsində hörmət qazanmışdı. Əcəba, indiyə qədər etdiklərini indi daha böyük sahələrdə də etsə, yenə də uğur qazana bilərdimi? Nə də olsa, kiçik Bəhreyn adası Ərəb Yarımadasından sadəcə 20 mil uzaqlıqda yerləşirdi və xarici görünüşünə görə, geoloji strukturu da tamamilə eyni idi.

## İbn Səud

1930-cu illərin əvvəllərində İngiltərənin Küveytdəki siyasi təmsilçisi, qonşu Səudiyyə Ərəbistanının hökmdarlarından "hər zaman uzağı görə bilən ağıllı İbn Səud" deyə bəhs edərdi. Əslində, o illərdə İbn Səudun o dərəcədə uzağı görəcək halı yox idi. Bu, onun üçün bir lüks sayılırdı. İbn Səud ciddi bir problemin təzyiqi altındaydı. Maliyyəsi üçün pula ehtiyacı vardı və bunu təcili olaraq tapmağa məcburdu. Onun neft mövzusunda düşünməsinə də bu problem səbəb olmuşdu. Şübhəsiz ki, hələ ölkəsinin gələcəkdəki neft barəsində vəziyyətinin nə olacağını bilmirdi və bu haqda bir xeyli tərəddüdləri vardı. Ayrıca, uzaq bir ehtimalla neftin tapıldığı təqdirdə belə, bu sənaye sahəsindəki inkişafın krallığı üçün hansı mənanı

daşıyacağını düşünür və bundan xeyli narahat olurdu. Əcnəbi sərmayə və texniki mütəxəssislərin ənənəvi dəyərləri və əlaqələri pozub, bəlkə də münasibətləri kəsəcəyindən qorxurdu. Neft axtarmaq üçün imtiyaz bağışlamaqsa, kifayət edəcək qədər maliyyə təmin edəcəyi üçün, onun fikrincə, daha fərqli bir mövzuydu.

Əbdül Əziz bin Abdal Rəhman Əl Faysal Əl Səud 50 yaşına yenicə qədəm qoymuşdu. Avtoritar bir fiziki görüntüsü vardı. 1.90 uzunluğunda, qocaman sinəsi olan bir adamdı. Bu halıyla yurddaşlarının çoxunun başının üstündən aşağı baxırdı. 10 il əvvəl Bəsrəyə ziyarət üçün gələn birisi onun çox dəqiq tərifini vermişdi. O günlərdə Bəsrədə olan bir ingilis məmurun sözləriylə "Kral tipik köçəri şeyxlərindən daha iri bir vücuda sahib olmaqla bərabər, əsilzadə bir ərəbin xüsusiyyətlərini daşıyırdı. Bir qartalı xatırladan profili, yekə burun dəlikləri, qalın dodaqları və sivri bir saqqalın daha da məna verdiyi uzun, dar çənəsiylə diqqət çəkən bir adamdı. Bu xüsusiyyətlərinə həm savaş, həm də dövlət işlərindəki qabiliyyətini də əlavə etməsiylə qəbiləsinin gözündə daha da etibar qazanmışdı." Əbdül Əziz adıyla da tanınan İbn Səudun istər savaşda, istərsə də dövlət işlərində qabiliyyətlərini böyük uğurlarla sübut etdiyi heç bir zaman inkar oluna bilməz. Onun ölkəni yenidən qurmaqda, müasir Səudiyyə Ərəbistanı yaratmaqda fövqəladə xidmətləri olmuşdur. Amma bir şey var ki, hökmdarlığının ilk günlərində bütün milli sərvəti dəvənin belinə yüklədiyi heybə içərisində daşıyan bir hökmdar olaraq ad qazanmışdı.

Səudiyyə xanədanı 1700-cü illərin əvvəllərində Ərəbistanın mərkəzində yerləşən Nejd bölgəsinin Dariya qəsəbəsində Məhəmməd ibn Səud tərəfindən qurulmuşdu. Məhəmməd ibn Səud bu bölgədə ruhani lider olan və İslamiyyətin qatı prinsiplərini mənimsəyən Abdul





Vəhhabın mübarizəsini qəbul etmiş və onun izindən yürümüşdü. İslamiyyətin bu tərəfi gələcək illərdə xanədanın qurulmasında bu quruluşun təməl daşı, dini əsası olmuşdu. Səudiyyə ailəsi Vəhhabilərlə birlikdə, qısa müddətdə gerçəkləşdirmək istədikləri bir qələbə proqramı hazırladılar. Bu proqram yarım əsr müddətində onları Ərəb Yarımadasının əksər yerlərində hakimi mütləqə çevirdi. Ancaq Səudiyyə Krallığının genişləməsi Osmanlı Türklərində panika yaratmış və Osmanlı hökuməti bir səfərbərlik edərək, 1818-ci ildə Səudiyyə Ərəbistanını məğlubiyyətə uğratmışdı. Bu arada Məhəmmədin nəvəsinin nəvəsi Abdullah İstanbula gətirilir, orada onun başı kəsilirdi. Zamanla Abdullahın oğlu Turki bu dəfə Riyadda mərkəzləşən Səudiyyə Krallığını yenidən qursa da, Turkinin iki nəvəsi arasındakı toqquşma səbəbindən bu ilk Səudiyyə hökmdarlığının yenidən canlandırılması uğur qazana bilməmişdir. Sonrakı günlərdə üçüncü nəvə olan Əbdül Rəhman, nifrət etdikləri və rəqibləri olan Əl Rəşid ailəsinin dövründə bir müddət Riyadın valisi oldu. Ancaq 1891-ci ildə Əbdül Rəhmanın ailəsi məiyyətləriylə birlikdə ölkədən qaçıb sürgün həyatı yaşayacaqdı. Sürgünə gedərkən, özüylə birlikdə gələcəyin İbn Səudu olan oğlu Əbdül Əzizi də götürmüşdü. Əbdül Rəhman sürgün yolçuluğunun bir hissəsini bir dəvənin belinə yüklənmiş heybənin içərisində gizlənərək etmişdi. O və məiyyətindəkilər iki il boyu buradan-oraya sürüklənərək, yaşamlarını çölün dərinliklərində davam etdirən köçəri qəbiləsiylə bir yerdə keçirdilər. Nəticədə Küveytdə hökm sürən Sabah ailəsi, onlara dəvət göndərdi və onları İran Körfəzinin yanında yerləşən kiçik bir kənddə yaşamağa dəvət etdi.

Öz baxımından Əbdül Rəhmanın iki ayrı hədəfi vardı. Səud xanədanından istifadə edərək Ərəbistanın hakimi olmaq və Sünni müsəlmanların vəhhabi qanadını

beynəlmiləlləşdirmək. Oğlu İbn Səudu bu iki məqsədin hər ikisində də alət olaraq istifadə etmək istəyirdi. Küveyt Əmiri Mübarək, gənc Səudi şahzadəni qanadları altına alıb, siyasi elmlər və xarici siyasətin ədalətlə müəyyənləşdirilməsi mövzularında tərbiyə etdirdi. Gələcək illərdə İbn Səudun özünün qeyd etdiyi kimi, Mübarək ona "siyasət və diplomatiyanın xeyir və ziyanını necə dəyərləndirə biləcəyini öyrətmiş", bunu başa düşməsi üçün əlindən gələn hər şeyi etmişdi. Bir tərəfdən də qatı bir dini təhsil alır, ispartalılar kimi sərt şərtlər altında həyat tərzi keçirir, daha kiçik yaşlarından savaş və çöldə sağ qala bilmə sənətlərini öyrənirdi. Çox keçmədən türklərin, səudilərin amansız düşməni Rəşidləri o zamanlarda İngiltərənin himayəsindəki Küveytə qarşı qızışdırmaları ilə, bu sənətləri həyata keçirmə imkanı tapacaqdı. İlk tədbir kimi Küveyt Əmiri, o zaman hələ 20 yaşında olan İbn Səudu Riyadı Rəşidlərdən geri almağa göndərdi. Çöl içində kiçik bir qüvvəylə yola çıxan İbn Səudun düşmənə ilk hücumu püskürdülmüşdü. İkinci təşəbbüsündə isə gizlilik və qüvvət faktorlarının hər ikisindən də istifadə edərək, günəş batana qədər şəhər girməyə nail olur, günəş doğularkən isə Rəşidin valisini qılıncdan keçirirdi. 1902-ci ilin yanvar ayında 21 yaşındaykən, atası onu Nejd valisi və vəhhabilərin imamı elan edirdi. Artıq o, Əl-Səud Krallığının ikinci quruluşuna başlamışdı.

Bu tarixdən keçən bir neçə il içərisində İbn Səud mütəmadi olaraq, hərbi əməliyyatlar düzənləyərək, özünü mərkəzi Ərəbistanın hakimi elan etdi və bu ünvanla da məşhurlaşmağa nail oldu. O günə qədər özünü "qardaşlıq" mənasına gələn yeni "ikhvan" hərəkatının da liderinə çevirmişdi. "İkhvan" özlərini dinə həsr etmiş savaşçıların formalaşdırdığı yeni bir hərəkatdı və Ərəbistana sürətlə





yayılır, bu yolla da İbn Səuda bir alay sadiq əsgər yetişdirirdi. 1913-1914-cü illərdə Şərqi Ərəbistanı da nəzarətinə götürdü ki, burada böyük, məskun olmayan Əl-Hasa Vahası da vardı. Səudilər sünni idi və Vəhhabi sülaləsinə mənsubdular. Əl-Hasada yaşayan xalq isə daha çox şiə müsəlmanlardan təşkil olunduğu üçün, İbn Səud Əl-Hasada mülki idarəyə və məktəblərə xüsusi diqqət göstərdi. Beləliklə, şiələrin vəziyyətini sabitləşdirərək, ətrafa zərər vermələrinin qarşısını aldı. Vəhhabizm doktrinasına bağlı olmaqla bərabər, İbn Səud ağıllı bir siyasətçi idi və hər zaman üçün şiələrin damarına basıb, onları narahat etmənin siyasi baxımdan onlara zərər verəcəyini bilirdi. Məqamı düşəndə bunları söyləmişdi: "İçimizdə 30 min şiə var. Bunların hamısı Əl-Hasada sülh və təhlükəsizlik şəraitində yaşayır. Onları heç bir zaman heç kimsə narahat edə bilməz. Yeganə istədiyimiz şey var ki, bayram günlərində xalq içinə çıxıb müxtəlif tədbirlər keçirməsinlər."

Səud imperiyasının müxalifi olan son bölgələr də Birinci Dünya Müharibəsini izləyən bir neçə il içərisində imperiyaya birləşdirilmişdi. Daha sonra, 1922-ci ildə İngiltərənin Ali Təmsilçisi, İbn Səud və Küveyt Əmiri arasındakı anlaşılmazlıqlara əsəbiləşərək, əlinə qırmızı rəngli bir qələm alıb bilavasitə özü xəritə üzərində bu iki ölkənin sərhədlərini çəkib, təyin etdi. Bundan başqa, İbn Səudun sərhədləri boyunca biri Küveytlə, digəri də İraqla paylaşılan iki ayrı "Tərəfsiz Bölgə" müəyyənləşdirdi.

"Tərəfsiz Bölgə" yaradılmasındakı səbəb, buranın Bədəvilərlə ortaq idarə edilişi və Bədəvilərin sürülərini otarmaq üçün zaman-zaman buradan keçmələrini təmin etmək idi. 1925-ci ilin dekabr ayında İbn Səudun qüvvələrinə bağlı olan vəhşi "ikhvan"lar Ərəb yarımadasının qərb hissəsində, Qırmızı dənizin sərhəddində müqəddəs

İslam torpağı Hicazı ələ keçirmişdi. Burada Ciddə limanı və iki müqəddəs şəhər - Məkkə və Mədinə vardı. 1926-ci ilin yanvar ayında Məkkədəki Böyük Məsciddə həcc duaları bitdikdən sonra İbn Səud Hicaz Kralı elan edilir, Səud xanədanı dünya müsəlmanlarının müqəddəs torpaqlarının əmanətçisi olurdu. Beləliklə, 45 yaşlı İbn Səud Ərəbistanın tək hakiminə çevrilirdi. O, 25 illik bir müddət ərzində davam etdirdiyi ustaca savaşlar və sağlam siyasətlə Ərəb Yarımadasının onda doqquzunda Səudiyyə hökmdarlığını yenidən qurmuşdu. Xanədanlığı yenidən qurma hərəkatı bütünüylə tamamlanmışdı.

Ancaq indi də İbn Səudun bölgədə yayılmasında onunla əməkdaşlıq edən "İkhvan" savaşçıları Vəhhabizmdən geri addımlar atdığını əsas gətirərək, İbn Səudu tənqid etməyə başladılar. Telefon, teleqraf, radio, motosiklet kimi ölkəyə sızmaqda olan müasir texnikanın şeytan əməli olduğunu iddia edərək, İbn Səudu amansızcasına ittiham etdilər və ingilislərlə əməkdaşlıq etməkdə günahlandırdılar. Get-gedə İbn Səuda yardımçı olmaqdan qaçındılar və 1927-ci ildə ona qarşı üsyana qalxdılar. Ancaq İbn Səud onları məğlub etdi və 1930-cu ilə qədər "ikhvan" hərəkatını yox edib, qalanları da nəzarətinə götürdü. Qələbə qazanılmışdı. Növbə bunu qoruyub saxlamaq, qurulması üçün həyatının 30 ilini verdiyi ölkənin təhlükəsizliyinə və inkişaf etməsinə nail olmaqdı. 1932-ci ildə birlik və bərabərlik xatirəsini yaşatmaq üçün ölkənin adı dəyişdirildi. Ölkənin əvvəlki adı "Hicaz, Nejd və Bağlı Ölkələr" ikən, indi isə bu günə qədər gələn Səudiyyə Ərəbistanı adını aldı.

Artıq İbn Səudun etdiyi təşəbbüslər müvəffəqiyyətlə nəticələnmiş, İbn Səud qələbə tacını geyinmişdi. Ancaq bu dəfə də başqa bir problem ölkəni təhdid etməyə başladı. İbn Səud pulsuz qalmışdı və sürətlə məhvə doğru





irəliləyirdi. Böyük Böhranın dünyanı başına götürməsiylə müsəlmanların Məkkəyə axını azalmışdı. O günə qədər imkanı olan hər müsəlmanın həyatı boyunca ən azı bir dəfə həcc ziyarəti etməsi gözlənilərkən, böhran səbəbilə bu axın xeyli yavaşlamışdı. Kralın gəlirinin əsil mənbəyi həcc ziyarətlərindən gəldiyi üçün bu, Kral tərəfindən heç arzu olunmaz bir vəziyyət idi. İbn Səudun maliyyə vəziyyəti getdikcə çətinləşirdi. Fakturalar ödənilmir, məmur maaşları 6, bəzən də 8 ay gecikirdi. O günə qədər İbn Səud qəbilələrə "Qəbilə təhsisatı" adıyla bir miqdar pul ödəyir, bu da öz növbəsində müxaliflərlə dolu olan ölkədə adamları bir-birinə bağlayan ən təsirli yapışqan rolunu oynayırdı. Son zamanlarda buna da imkan olmurdu. Krallığın hər yanını qeyri-sabitlik bürümüşdü. Sanki işləri daha da bərbadlaşdırmaq istərcəsinə, Kral o günlərdə maliyyəti çox yüksək olan öhdəçiliklərə imza atmış, ölkədə normal informasiya dolaşımını təmin etmək üçün ölkədaxili radio şəbəkəsi yaratmaqdan Ciddə üçün su şəbəkəsi qurmağa qədər müxtəlif bahalı fəaliyyətlərə yönəlmişdi. Ancaq bunların gəlir qaynağı haradan təmin olunacaqdı? Bu dəfə İbn Səud vergiləri vaxtından bir il əvvəl toplamağa qərar verdi. Oğlu Faysalı yardım və ya sərmayə tapması ümidi ilə Avropaya göndərsə də, heç bir şeyə nail ola bilmədi. Maliyyə problemləri get-gedə artarkən, Kral, haradan yardım istəyəcəyini qarışdırmış, özü də bir xeyli çaşmışdı.

## Ovsunkarın şəyirdliyi

Bəlkə də İbn Səud Krallığının torpaqlarının altında qiyməti ölçüyə gəlməz dəyərlər vardı... Yeri gəlmişkən, bir avtomobil gəzintisi zamanı ona yoldaşlıq edən bir dostu bu ehtimalı 1930-cu ilin payızında ona söyləmişdi. Bu adam bir ingilis olan və əvvəlcə Amerikan Hind Mülki Xidmətində xidmət edən, sonradan Ciddədə tacir kimi çalışmağa başlayan və bir neçə ay əvvəl də dinini dəyişdirib, İbn Səudun qəyyumluğuyla müsəlmanlığı qəbul etmiş birisiydi. İslamiyyəti qəbul edəndən sonra birbaşa Kralın özü tərəfindən adı dəyişdirilmiş, "Abdullah" olmuşdu. Əslində həqiqi adı Harry St.Con Bridger Philby idi. Dostları onu sadəcə "Cek" deyə çağırırdılar. Bu adam XX-ci əsrin ən ad-san çıxarmış "ikili oynayan" agentlərindən Harold Kim Philbynin eksantrik atası olmaqla tanınır. Kim Philby İngiltərə Casusluq Xidmətində Sovet İttifaqına qarşı fəaliyyət göstərmək üçün qurulan "Əks Casusluq Xidməti"ndə xidmət edərkən, eyni zamanda Sovet İttifaqına da casusluq edirdi. Birdən çox rol alma sənətini atasından öyrənmiş olmalıdır ki, illər sonra "ikili casus" olaraq yaşadığı illər haqqındakı xatirələrini oxuyan, sonradan təqaüdə çıxmış bir məhkəmə tərcüməçisi onun tipik "atasının kopyası" olduğunu söyləyəcəkdi.

Atası Cek Philby isə sarsılmaz bir müxalif, avtoritar və inanca hər zaman müqavimət göstərən birisiydi. Bir gün Ciddədə, kiçik avropalı topluluğun insanları olmadan da yaşaya biləcəyini göstərmək üçün xalq içində, hamının gözünün qarşısında oyuncaq meymunlarına "şou" belə təşkil etmişdi. Seylanda yetişmiş, təhsilini Cambridge Trinity Kollecində almış, oradan məzun olduqdan sonra





karyerasına Amerikan Hind Mülki Xidmətində başlamışdı. Birinci Dünya Müharibəsi sırasında İngiltərənin Bağdad və Bəsrədəki siyasi təmsilçiliklərində işləmişdi. Ərəb dünyası ilə tanışlığı da buradan başlamışdı. Tanrı vergisi olan dil öyrənmə qabiliyyəti vardı. Öncə ərəbcə öyrənmək fürsəti tapmış, sonra ərəb qövmləri və hökmdarlarının "geneologiyası"na, yəni məzhəb, soy incələməsinə qədər irəli getmişdi. Bu qabiliyyəti həyatı boyunca onu məşğul etmiş, bəlkə də dövrünün ən güclü hökmdarı İbn Səudla tanış olmasına səbəb olmuşdur. Onunla ilk dəfə 1917-ci ildə, bir məxfi tapşırığın icrası üçün gəldiyi Riyadda, bir toplantı zamanı qarşılaşmışdı. İbn Səudla tam 34 saat davam edən bir müsahibə nəticəsində artıq Philby, həyatının geri qalan illəri üçün taleyini müəyyənləşdirmişdi.

1925-ci ildə İngiltərənin Orta Şərqdə yürütdüyü siyasətə əsəbiləşərək, hələ də üzvü olduğu halda Amerikan Hind Mülki Xidmətindən ayrıldı. O dövrdə İordaniyada işləyirdi. Ciddədə bir ticarət şirkəti qurmaq üçün Səudiyyə Ərəbistanına qayıtdı. Bu ara İbn Səudla olan dostluğunu da təzələmiş, zamanla onun qeyri-rəsmi məsləhətçisi olub Kralla birlikdə səyahətə çıxmış, ov gəzintilərinə qatılmağa, hətta Kralın Özəl Konseyi ilə keçirdiyi gecə toplantılarında belə yer almağa başlamışdı. İbn Səud Philbyyə xüsusi münasibət göstərirdi. 1930-cu ildə müsəlmanlığı qəbul etdiyi günün gecəsi Philbynin xatırladığına görə, Kral ona "keşkə mən də sənin kimi müsəlman olub, yenidən 4 arvad alaydım" demişdi. Təbii ki, müsəlmanlığı qəbul etmədən əvvəl Philby bir xeyli ağrılı olan sünnət əməliyyatından keçmişdi. Bəzilərinin qənaətinə görə, din mövzusunda Philby inancı olan biri deyildi və sadəcə iş müzakirələrində işlərini rahatlaşdırmaq və ölkədə rahatca hərəkət etmək üçün müsəlman olmuşdu. Dinini dəyişdirməsi,

ehtiraslarından ən az birini həyata keçirməyinə yaramışdı ki, bu baxımdan, xüsusilə araşdırmaçı, xəritəçi və Ərəbistan tarixçisi olaraq məşhur olmuşdu. İllər boyu bir çox yorucu səyahətlər etmişdi. Bu səyahətlər daha çox Ərəb Yarımadasının böyük hissəsini əhatə etmişdi. Rubal-Xali kimi Ərəbistanın cənub-şərqindəki səssiz gəzintidən, şimal-qərbi Ərəbistanın qədim yəhudi topluluqlarını axtarmaq üçün etdiyi səyahətlərə qədər bütün bölgəni arayıb-taramışdı. Göstərdiyi bu təşəbbüs və çalışmalara görə, Royal Geographic Society tərəfindən "Quruculara verilən medal" (Founders Medal) ilə mükafatlandırılmışdı.

İngiltərəyə qayıtdığı zamanlar ingilis adətlərinə riayət etməyə çalışar, melon şapka geyinər, imperiya müstəmləkələrində adət olduğu kimi axşam yeməklərində ağ pencək geyinməyi heç nəzərdən qaçırmazdı. Ərəbistanda olduğu zaman belə həmişə beş çayı içər, xəstə kimi bağlı olduğu kriket sahələrindən ayrılmazdı. Amma bütün bunlara baxmayaraq, İngiltərə və ingilis siyasəti ilə heç bir zaman uyğunlaşa bilməmiş, bunları "Şərq dünyasında ənənəvi Qərb üstünlüyü" olaraq görmüşdür. Uyğunlaşmaq bir yana, tam tərsinə, "mən hər cür əcnəbi nəzarətdən özünü xilas edə bilmiş Şərq çempionlarının ilkiyəm" deyə öyünürdü. İngilislərin Philbyni son dərəcə cansıxıcı gördüklərindən şübhə yoxdur. Bir ingilis dövlət adamının sözləriylə "Cənab Philby 5 il əvvəl hökumətdəki işindən ayrılandan bəri hökuməti və hökumətin Orta Şərq siyasətini yerə batırmaq, yanlış şərh etmək üçün qarşısına çıxan heç bir fürsəti qaçırmamışdı. Müraciət etdiyi metodlar mədəniyyətdən uzaq olduğu qədər, həm də diqqətsizdi. Bu adam tam bir xalq düşməniydi və nə yazıq ki, təsiri altındakı İbn Səud sırf onun intriqaları səbəbindən son bir neçə ildə özünə bu dərəcədə əzab-əziyyət vermişdir." Başqa bir





səlahiyyətli isə onu "tam və mükəmməl bir hiyləgər" olaraq qiymətləndirmişdi.

Philbynin Səud üzərindəki nüfuzu nə olursa olsun, bir mövzu çox açıqdır. Philby İbn Səudun qarşı-qarşıya olduğu çox ciddi maliyyə problemlərini və bu problemlərin Krallıq üçün törətdiyi təhlükələri çox yaxşı bilirdi. 1930-cu ilin payızında bir avtomobil gəzintisi sırasında İbn Səudun hər zamankından düşüncəli halını görmüş, əlindən gələn qədər nəşəli bir ədayla Kralın və onun hökumətinin, tipik yerin altına basdırılmış vəziyyətdə olan dəfinələrin üstündə dərin yuxulara dalmış insanlara oxşadığını söyləmişdi. Philby bu səhraların altında çox böyük sərvətlərin yatdığına inanırdı. Ancaq onun qənaətincə, bunların çıxarılması üçün planlama, başqa bir deyişlə, əcnəbi mütəxəssislər və xarici sərmayə lazım idi.

Philbynin sözlərinə Kral bu cavabı vermişdi: "Oh, Philby, biri çıxıb mənə bir milyon pound təklif etsə, ona istədiyi bütün imtiyazları verərəm."

Philby Krala heç kimin bir milyon pound və ya buna yaxın bir məbləği, əvvəlcə bir araşdırma və tarama aparmadan verməyəcəyini söyləmişdi. Kral, əslində neftdən çox su tapmaq istəyir və su üçün araşdırma aparılmasını tələb edirdi. Madam ki, Kralın istədiyi bu idi, Philby də ona bu iş üçün ən uyğun adamı təklif edəcəkdi: Neft axtarma işində məşhur və nüfuzlu bir iş adamı olan Çarlz Crane. Philbynin anlatdığına görə, Crane Ərəb dünyasına qarşı xüsusi münasibət bəsləyən və əlahəzrət Kralla əl verib salamlaşma naminə haradasa gözlərinin birini verməyə razı olan birisiydi. O günlərdə qonşu dövlət Yəmənin inkişaf layihələrinə maddi yardımlar göstərirdi. Philby onun bu sıralar Qahirədə olduğunu söyləyirdi. Kral onu Səudiyyə Ərəbistanına dəvət etsəydi, nə yaxşı olardı!

İbn Səud Philbynin arzusuna müvafiq olaraq Craneyi ölkəsinə dəvət etdi və 25 fevral 1931-ci ildə qonağını Ciddədə qarşıladı. Cranenin gəlişi səbəbilə Kral çox böyük mərasimlər keçirdi və onun şərəfinə çox bahalı və görkəmli şölənlər təşkil etdirdi. Bu şölənlərin birində qonağı əyləndirmək üçün Kralın şəxsi mühafizə dəstəsindən bir neçə yüz nəfər bir araya gələrək, "ovsunlayıcı formada" "qılınc rəqsi" oynadı. Ərməğanlara gəlincə, bunların arasında bir çox kilim və xalça, xəncər, qılınc və bundan başqa, iki soylu Ərəb atı vardı. Cranenin Səudiyyə Ərəbistanında keçirdiyi günlərdə bu iki adam çölün susuzluqdan yarılmış torpaqları və bəlkə də Nejd altında yatan yeraltı çaylardan bəhs edərdilər. Crane Krala qazandığı təcrübələrdən bəhs edirdi. Bir tarixdə Misirdən dəvət alıb ora getdiyini, Misirdə tətbiq olunan sulama sistemini sonradan necə Kaliforniya səhrasındakı İndia qəsəbəsinin əkin torpaqlarına şamil edib uğur qazandığını, ərazini artezian quyularıyla sulaya bildiyini nəql edirdi. İndi də sırf İbn Səudla yeni dostluqları səbəbilə xərcləri özünə aid olmaqla amerikalı mədən mühəndisi Karl Tvitchelli Səudiyyə Krallığının su potensialını araşdırmaq üçün ölkəyə gətirirdi. Tvitchell o sıralar Craneyə aid olan bir layihədə görəvli olaraq Yəməndə idi. Nəticədə Ərəbistan çölündə artezian suyunun olub-olmadığını yerində görüb dəyərləndirmək üçün 1500 millik çox yorucu bir səyahətdən sonra 1931-ci ilin aprel ayında Ciddəyə yetişən Tvitchell, nə yazıqlar ki, bəd xəbərlərlə gəlmişdi. Ərəbistan çöllərində və torpaqlarının altında artezian suyunun olduğuna dair hər hansı bir əlamət yox idi.

Bundan bir il sonra, 1932-ci ilin martında gəlirlərlə gedərlər arasında fərqin, mənfi baxımdan, öz zirvə nöqtəsinə çatdığı zamanda, Kral Riyad şəhərində, onun





problemlərini çox yaxşı bilən Küveyt Əmiri Şeyx Əhmədin ziyarətini qəbul edirdi. Şeyx 300 millik uzaqlıqdan qum və çınqıl dənizini motosikletlə keçmiş, bundan da yaxşıca bir dərs götürmüşdü. Bu səyahət ona bu yolu keçəcək hər avtomobilin ən azı 5 yolçu ilə getməsi gərəkdiyini, çünki "qum dənizində batan bir avtomobilin, ancaq 5 adam tərəfindən çıxarıla biləcəyini" öyrətmişdi.

Bir araya gəldiklərində, ilk olaraq iki hökmdar bir-birilərinə bağlılıq andı içdilər. Şeyx Əhməd İbn Səuda "böyük qardaşı" olduğunu söylədikdə, Kralın gözləri dolu-dolu dolur, qarşılığında isə bunları söyləyirdi: "Son üç il içərisində Əl Səud və Əl Sabah bayraqları hər qələbədə və hər məğlubiyyətdə necə yan-yana dalğalandısa, bu gün və gələcəkdə də eyni şeyin davam etməsi üçün dua edirəm."

Şeyx Əhməd bu dəfəki qarşılaşmalarında İbn Səudun sağlıq vəziyyətinin heç də yaxşı olmadığını, ümumi bir çöküşün əlamətlərini Kralın hər halından başa düşmüş və təsirlənmişdi. Küveytə qayıtdıqdan sonra bu mövzudakı müşahidələrini ingilis siyasi agentinə elan edib, onun da eyni fikirdə olduğunu başa düşdükdən sonra belə deyirdi: "Hey gidi günlər... Bir zaman-lar bu adamın Krallıqda yaşayan ən sərt adam olduğuna, hər hücum və axını onun başlatdığına inanmaq nə qədər çətindir!" Şeyx Əhməd söz arasında Kraldan "pul xərcləmək baxımından qənaətkar olmasını" xahiş etəkdən özünü saxlaya bilməmiş, "əks təqdirdə bir gün mütləq "parçalanmağa" məhkum olacağını" söyləmişdi. Xüsusilə də ölkənin hər tərəfində müşahidə olunan motorlu maşın israfından söz edib, bu mövzuda "dobra-dobra" nitq irad edir, Kralın diqqətini çəkməyə çalışırdı. Amma bir şey də vardı ki, Kral üçün bir neçə lüks avtomobilə birdən sahib olmaq artıq bir ehtirasa çevrilmişdi. Bunu bildiyi halda, Şeyx Əhməd İbn Səuddan

avtomobil sayısını dörddə üç nisbətdə azaltması üçün israr etmiş, "Ford" və "Chevrolet" marka avtomobillərdən istifadə etməyi tövsiyə etmişdi. Nə qəribədir ki, Əhmədin özü səhranı Kral Səudun hədiyyəsi olan son model, səkkiz silindrli bir "Cadillac Limuzin"lə keçmişdi.

İbn Səud və Şeyx Əhməd zaman-zaman neft axtarışı mövzusunda da müzakirələr aparırdılar. Kral o günlərə qədər bəzi ön araşdırmalar aparılmasına icazə verdiyini söyləyir, ancaq əcnəbilərə imtiyaz tanınması mövzusunda heç də həvəsli olmadığını əlavə etməkdən geri qalmırdı. Ancaq artıq vəziyyət tamamən dəyişmiş, Kralın qarşı-qarşıya olduğu maliyyə çətinlikləri bir xeyli artmışdı. Bu şərtlər altında İbn Səuda bir alternativ qalmamış kimiydi. Nə edə bilərdi ki? Amerikalı mühəndis Tvitchell ölkənin şərqində, əl-Hasa bölgəsində bəzi neft əlamətlərinə rast gəldiyini bir raportda bildirmişdi. Bu raportun əsasında Kaliforniya Standard Oil neft axtarması aparıb, 31 may 1932-ci ildə Bəhreyndə neft tapmışdı. Bu kəşf əl-Hasanın mövqeyini bir anda və sürətlə ön plana çıxarır, həm də İbn Səudun Krallığı içində xarici sərmayə qoyulmasına daha ılıq yanaşmasına səbəb olurdu. Tvitchell, israrla mühəndis olduğunu, neftçi olmadığını İbn Səuda başa salmaq və onu inandırmaq istəsə də, nəticədə Kralın tələbi ilə Amerika Birləşmiş Ştatlarında bu işlə maraqlanıb, sərmayə axtarmağı qəbul edirdi.





### Müzakirələr

Bəhreyndə neft tapılmamışdan aylar əvvəl Kaliforniya Standard Oil əl-Hasada imtiyaz əldə etmək istəyərək, bu mövzuda araşdırmalara başlamışdı. İndi isə Socal Tvitchell ilə tanış olmuş, bu tanışlıqdan məmnun qalmış və xoşbəxt halda onu dərhal qəbul etmiş, hətta müqavilələrin hazırlanması üçün müzakirəçi belə təyin etmişdi. Tvitchell 1933-cü ilin fevralında Socalın vəkillərindən Lloyd Hamiltonla birlikdə İbn Səudun Maliyyə Naziri Abdullah Süleymanla bir razılaşmaya gəlmək üçün Səudiyyə Ərəbistanına qayıtdı. İndi artıq qarşılarında hiyləgər və usta bir müxalifət vardı. Süleyman Kralın xüsusi katibinin qardaşıydı. Müqavilədə yer alan idarəçilərin əksəriyyəti suriyalı, misirli və liviyalı olmalarına baxmayaraq, Süleyman anadangəlmə nejdli idi. Süleyman gənc yaşlarında Pompeydə fəaliyyət göstərən bir ərəb tacirinə assistentlik edirdi. Pompeydə keçirdiyi zamanı ticarət və iş həyatını öyrənməklə dəyərləndirmişdi. Kral onu "əsas çiynimi söykədiyim adam" deyə çağırırdı. Həqiqət budur ki, "bu çəlimsiz, yaşı məlum olmayan kiçik adam", əslində İbn Səudun saraydaxili çevrəsində ən güclü olan adamdı. Həm maliyyə mövzusunda, həm də müdafiə və həcc mövzularında bütün məsuliyyət ona verilmişdi. İbn Səudun söylədiyinə görə, "tam mənasında pərdə arxasındakı adam olur, ortalarda heç görünmür, özünü həmişə qapılar arxasında gizlədə bilirdi." Eyni adam bunu da söyləmişdi: "Ancaq güc və nüfuz baxımından, o dərəcədə heybətliydi ki, çox dəfə onu mən özüm belə Ərəbistanın tacsız Kralı kimi görürdüm."

Şübhəsiz ki, Süleyman, Kral ailəsi xaric, Krallığın ən qüdrətli adamı idi. Üstünə müəzzəm bir çalışma yükü

almışdı və bunu özünün kəşfi olan və sadəcə özünün başa düşə bildiyi bir mühasibatlıq sisteminə, dövlət maliyyəsinə əsaslanaraq etmişdi. Gizliliyə son dərəcə əhəmiyyət verir, işlərin axışını özündən başqasının bilməsini istəməzdi. Onun qənaətinə görə, bu şəkildə bir mühasibatlıq, hər hansı bir potensial rəqibin yoluna çıxmasının qarşısını ala bilərdi. Bir mövzuda qərar vermək üçün öz avtoritet və insiativindən istifadə etməklə bərabər, neft mövzusunda Krala məlumat verməyə diqqət göstərir, ona uzun mesajlar yollayardı. Socalla əl-Hasada aparılan imtiyaz müzakirələrində nə istədiyini hamıdan yaxşı bilərək yola çıxmışdı. İstədiyi çox böyük miqdarda pul idi və bunu mümkün olduğu qədər tez və sürətlə tələb edirdi. Bölgədə neftin olub-olmadığı isə o an onun üçün o qədər də əhəmiyyət daşımırdı, bu, sonradan diqqətə alınacaq bir mövzuydu.

Hasaya girmək üçün yarışanlar təkcə Tvitchell və Hamiltondan ibarət deyildi. İraq Neft Şirkəti, yəni daha əvvəlki adıyla Türk Neft Şirkəti də eyni şey üçün əlindən gələni edirdi və Stephen Longringgə təmsilçi olaraq səlahiyyət vermişdi. Daha əvvəl İraqda İngiltərənin təmsilçiliyini edən Longringg, belə olan halda, eyni zamanda Anqlo-Pers Şirkətinin də praktiki olaraq təmsilçiliyini etmiş olurdu. Bunun səbəbi, Anqlo-Pers Şirkətinin İPC (Beynəlxalq Neft Şirkəti) və "Qırmızı Xətt" Müqaviləsindəki qatılımı səbəbilə bu işi özü öz başına görmək səlahiyyətinin olmamasıydı. 1933-cü ilin mart ayında ingilis səfiri Andrey Ryan Londona göndərdiyi raportda bunları yazırdı: "Səhnə hazırdır. Bu səhnədəki baş oyunçu həris Abdullah Süleymandır. Süleyman Hasadakı neftin elə indidən bazarlanmağa hazır olduğu qənaətindədir. O biri oyunçular Tvitchell və Hamilton Kaliforniya Standard Oilu təmsil edirlər. Longringgə gəlincə, o, İraq Neft





Şirkətini təmsil edir." Bir şey var ki, oyunun xarakteri Kralı tamamən kənarlaşdırmış, ondan heç söz edilməmişdi. Bu arada çox böyük bir yanlışa da yol verilmişdi. Harry St.Con Bridger Philbydən "ikinci dərəcəli və əhəmiyyətsiz, yedəkdəki oyunçu" olaraq bəhs etmişdi. Ki, bu, tamamilə səhv qənaətdi.

1932-ci ildəki Bəhreyn tətilində Socal, vəzifə vermək üçün Philbyni aradı. Socaldan bir yetkilinin açıqlamasına görə, "Philbynin əlahəzrət İbn Səudla əlaqə yaratmasını istəyirdi." Ancaq Philby bir müddət Socalın başını qatdı. Müxtəlif neft şirkətlərinin öz aralarında girişəcəkləri amansız rəqabət nəticəsində, dostu Kralın hamıdan daha yaxşı bir təklif alacağının fərqindəydi. Buna görə də Socalın başını qatarkən, eyni zamanda İraq Neft Şirkətiylə də şirkətin baş üzvü Anqlo-Pers vasitəsilə təmasa keçir, şirkət mənsublarını Socalın da əl-Hasaya maraq göstərdiyi mövzusunda xəbərdar edirdi. Bu ara Anqlo-Pers Şirkətinin baş arxeoloquna yazdığı məktubda bunları söyləyirdi: "Mən şəxsən sözü edilən şirkətlə heç bir şəkildə bağlantılı deyiləm. Ancaq ümumən bu mövzularla maraqlanan və hökuməti hərəkətə keçirməyə yararlı ola biləcək hər kəsə yardım etməyə hazıram." Nəticədə Philby Socalın məsləhətçisi təyin olundu və şirkətlə əmək müqaviləsi imzaladı. Bir şey var ki, bu müqavilənin gizli qalmasını istədi və bundan heç kimə də söz etmədi. Socalın müşaviri vəzifəsini yerinə yetirərkən, IPC ilə olan müqaviləsinin də şərtlərinə əməl etmişdi. Bu işi o dərəcədə uğurla həyata keçirirdi ki, IPC təmsilçisi Longringg ona çox böyük etimad göstərir, onu özünə sirdaş hesab edirdi. Həqiqət budur ki, Philbynin əsil sədaqəti yalnız Səudiyyə Ərəbistanının Kralınaydı.

Philby, Socal ilə olan yeni bağlantısından çox

məmnundu. Onun qənaətinə görə, bu yolla bir Amerikan şirkətinin Ərəbistanda uğur qazanmasına yardım edə biləcək, bu uğur sayəsində aslanın quyruğunu çəkmək, yəni bölgədə İngiltərənin maraqlarına son vermək mümkün olacaqdı. Socalla bağladığı müqavilə, şəxsi baxımdan da Philbyni rahatlatmışdı. Çünki ticarət şirkəti ölkə üçün bir çox layihələr istehsal etməsinə baxmayaraq, Kraliyyətlə iş görən hamının paylaşdığı aqibəti paylaşır, yəni maaşını ala bilmirdi. Amma görmək istədiyi bir çox iş üçün və xüsusilə də Cambridge Universitetində təhsil alan oğlu Kimin təhsil məsrəflərini ödəmək üçün pula çox ehtiyacı vardı. Nəticədə Socal, xidmətlərinin qarşılığında Cek Philbyə 6 aylıq bir müddət üçün ayda min dollar maaş və ancaq imtiyaz müqaviləsinin rəsmən imzalanmasından və neft tapılmasından sonra keçərli olmaq üzrə bir də bir miqdar əlavə pul vəd etdi. Beləliklə, nəhayət, Kim Philbynin Cambridge Universitetində təhsilinə davam etməsi mümkün olmuşdu. Amma nə qəribədir ki, Kim Philby təhsilindəki ilk addımı, yaxşı bir Sovet casusu olmaq üçün atacaqdı...

Müzakirələr davam edərkən, bir mövzu bütün şəffaflığı ilə məlum olmuşdu. Səudilər mütləq böyük bir miqdarda ön ödəmə istəyirdilər və əsil məqsədləri bu idi. Philby bunu bildiyi üçün Socala yazdığı məktubda görüşlərini bu sözlərlə izah edirdi: "Siz Səudilərə nəqd olaraq kifayət edəcək miqdarda bir pro quo (qiymət) ödəmədikcə, mənim sizə boş ümidlər verib, imtiyazı alacağınızı söyləməmdə heç bir fayda yoxdur. Həqiqət budur ki, İbn Səud hökuməti borc içindədir və kredit aldığı yerlərə borcunu ödəmədə gecikməkdədir. Bu adamlara borclarını ödəyə bilmələri üçün potensial qaynaqlarını ipoteka etmənin tək yol olduğu inanc və ümidi hakimdir."





Qərb qaynaqlı iki qrup imtiyazlara baxış nöqteyinəzərindən, bir-birilərindən fərqli mövqedə idilər. Socal imtiyaz almağa çox həvəsliydi. İraq Neft Şirkəti isə, arxasında Anqlo-Pers dayandığı üçün tamamən başqa bir düşüncədəydi. Longringg Philbyə bu etirafı etmiş, bunları söyləmişdi: "Daha artıq neftə ehtiyacımız yox. Vəziyyət onu göstərir ki, istədiyimizdən daha artıq neft çıxacaq. Biz bu qədər çox nefti nə edəcəyimizi bilmirik. Bundan başqa, rəqiblərin hamısını da uzaq tutmağı istəyirik və bu, bizim üçün həyati əhəmiyyət daşıyan bir mövzudur." Bu da İPC-nin təşəbbüslərini irəliyə yönəlik planlar üçün deyil, status kvonu qoruyub saxlamaq üçün etdiyini göstərirdi. Üstəgəl, İPC və əslində Anqlo-Pers əl-Hasadakı neft ehtiyatları mövzusunda hələ də şübhə içində olduqlarından, Səudiyyə Ərəbistanına böyük sərmayələr yatırmağı istəmirdilər. Longringg isə hesab edirdi ki, ingilis səfirinə problemli neft çıxarma haqqı üçün böyük pul ödəməyin, öz deyimiylə "pul verib, boynunda vedrəsi asılan donuz satın almağın mənası yox idi."

Müzakirələrin uzanıb süründürülməsindən o biri şirkətlər get-gedə narahat olsalar da, Philby həyatından məmnundu. Əsrarəngiz adam olmaqdan xoşbəxt halda üstləndiyi müxtəlif rolları yerinə yetirməklə məşğuldu - Socalın xeyrinə maaşlı vəzifə daşımaqla bərabər, bir tərəfdən də Səudilərin məsləhətçiliyini, İPC-nin məşqçiliyini, Longringgin sirdaşlığını edir, zaman-zaman da məşhur neftçilərin söhbətlərinə qatılıb, Kralla Məkkəyə etdiyi son avtomobil səyahəti zamanı əlahəzrətlərinin ona söylədiklərini anlatmaqdan geri qalmırdı. Philbynin beynini işğal edən şey, sadəcə neft deyildi. Səudi hökumətinin ehtiyaclarını qarşılamaq və hacı nəqliyyatını həyata keçirən şirkəti üçün mühərrikli vasitə idxalatı üzərində

monopoliya almaq istəyir və bu işlə də məşğul olurdu. Çalışdığı bir başqa iş də ölkədə telsiz sistemi qurmaqdı və Philby bu mövzuyla da maraqlanırdı.

Socal Şirkəti imtiyaz almağa çox istəkli olduğu halda, Səudilərin istədiyi pulun, ancaq beşdə birini təklif edirdi. 1933-cü ilin aprel ayının ilk günlərində Socaldan bir yetkili Philbyyə yazdığı məktubda bunları söyləyirdi: "Müzakirələr tıxanma nöqtəsinə gəlib çıxıb... ölkə potensialı baxımından özünü təsdiqləməyib. Belə olan halda bir neft şirkəti üçün bölgənin geologiyasına nəzər salmadan böyük pullar ödəmək çılğınlığın ən böyüyü olur." Əslində, Socalın İPC və Anqlo-Persi düşünərək narahat olması üçün bir səbəb yoxdu, çünki bu ikisi də istəksizdilər və təklif etsələr belə, Socalın verdiyindən də azını verəcəkdilər. Nəticədə Philby müdaxilə edib Longringgyə bunları söyləyəcəkdi: "Əşyalarınızı toplayıb getsəniz, yaxşı olar. Amerikalılar bu məbləğin çox üstündə, çox daha artıq pul verməyə hazırdırlar." Bu sözü Philbydən eşidən Longringg, ondan tələb olunanı dərhal yerinə yetirdi, apar-topar köçünü yığıb bölgədən ayrıldı və səhnəni Socala tərk etdi. Philby bu arada Socal və Süleymana iltifat etməkdən özünü saxlaya bilmir, "bir yumşalma" mərhələsindən bəhs edir və bu da şübhəsiz, Socaldan çox daha yüksək məbləğli bir təklifin gəlməsilə nəticələnirdi.

1933-cü ilin may ayına gəlindiyində Socal ilə Səudiyyə Ərəbistanı arasındakı imtiyaz sözləşməsinin layihəsi son şəklini almış, tamamlanmış və imzalanmaq üçün Kral həzrətlərinə təqdim olunmuşdu. Artıq lütf edib əlahəzrətin imzalaması gözlənilirdi. Mövzu bir daha Zadəganlar Məclisində müzakirəyə çıxarılıb dartışıldıqdan sonra İbn Səud Abdullah Süleymana belə dedi: "Tanrıya güvən və imzala!" Müqavilə - 35.000 pound (175.000 dollar) dəyərində qızılla ödəmənin həyata keçirilməsini, bunun 30.000 poundunun





borc, 5.000 poundunun da birinci ilin avans olaraq ödənən vergisi şəklində olmasını nəzərdə tuturdu. Bu ödəmədən 18 ay sonra 20.000 poundluq (100.000 dollar) ikinci bir ödəmə də olacaqdı. Toplam pul, ancaq hökumətin neft vergisi ödəmə zamanı gəldiyində ödənəcəkdi. Bütün bunlardan başqa, şirkət, neft tapılacağı təqdirdə 100.000 poundluq (500.000 dollar) əlavə bir ödəmə edəcəyini də öhdəsinə götürürdü. İmtiyaz 60 il müddətinə keçərli olacaq, 360.000 kvadrat mil ərazini əhatə edəcəkdi. Nəhayət, müqavilə 29 may 1933-cü il tarixində imzalandı. İbn Səud beləliklə, uzun zamandan bəri gözlədiyi nəğd pula qovuşmuş olurdu. Kralın və Maliyyə nazirinin imzadan əvvəl üzərində israr etdikləri başqa bir mövzu da neft axtarışının mümkün olduqca sürətlə həyata keçirilməsiydi ki, bu da Socal üçün hərəkətverici bir güc olmuşdu.

Geriyə öz həllini gözləyən yeganə bir problem qalırdı. O da bu qədər çox qızılın necə və haradan tapılacağı idi. Amerika qızıl standartı limitini o günlərdə yenicə aşdığına görə, Socalın, qızılı birbaşa Birləşmiş Ştatlardan götürmə arzusu Maliyyə Naziri Dean Acheson tərəfindən rədd olunurdu. Nəticədə Qaranti Tröstün London şöbəsi Socal adına hərəkət edərək, Royal Mintdən 35 min qızıl sikkə təmin etdi və bunu yeddi qutuya doldurub, "P" və "O" xəttinə aid olan bir gəmiyə yükləyərək, Səudiyyə Ərəbistanına göndərdi. Bunu edərkən, göndərilən sikkələr üzərində Kraliça Viktoriyanın şəklinin olmamasına, kişi hökmdara oxşayan şəkilli sikkə göndərməyə diqqət göstərmişdi. Bunun səbəbi vardı. Kişilərin hakim olduğu Səudiyyə Ərəbistanında Kraliça Viktoriyanın şəklinin yer aldığı pulların işə yaramayacağından çəkinilirdi.

İmtiyazın amerikalı bir şirkət tərəfindən qazanılması, heç şübhəsiz ki, bölgədəki siyasi mənfəət düzənini dəyişdirməyə başladı. Yeri gəlmişkən, Philby İngiltərə

səfiri cənab Andrev Ryana Socalın imtiyazı qazandığını söylədiyi zaman Ryan "ildırım vurmuş kimi olmuş, sifəti hirs və xəyal qırıqlığından qapqara qaralmışdı." Philbyni isə belə bir vəziyyət sonsuz dərəcədə məmnun etmişdi. İngiltərənin itkisi Amerikanın qazancı deməkdi, amma bu gerçəyi Vaşinqton vaxtında qiymətləndirə bilmədi. Socaldan bir-birinin ardınca gələn etirazlara baxmayaraq, Ruzvelt hökuməti diplomatik təmsilçilik yaratmağı rədd edir, bezmiş halda buna ehtiyac olmadığını söyləyirdi. Ancaq 1939-cu ildə Birləşmiş Ştatlar Misirə təyin etdiyi böyük elçini, eyni zamanda Səudiyyə Ərəbistanına da təyin edir, 1942-ci ilə qədər Səudiyyə Ərəbistanında rəsmi təmsilçilik açmağa ehtiyac duymurdu. Nəhayət, 1942-ci ildə Səudiyyə Ərəbistanında daimi fəaliyyət göstərən, amma tək adamdan ibarət olan bir səfarətlik fəaliyyətə başlayırdı.

Anqlo-Pers və İraq Neft Şirkəti həddindən artıq tərəddüdlü və xəsis davranmaqla səhv etdiklərini başa düşmüşdülər. IPC üzvləri öz aralarında dərdləşir, ancaq eyni səhvi yenidən təkrarlamaqdan çəkinmirdilər. Bu qrup 1936-cı ildə Səudiyyə Ərəbistanının Qərb hissəsində, İordaniyadan ta... Yəmənə qədər uzanan Hicazda bir imtiyaz əldə etdi. Bu dəfə irəli sürülən müqavilə şərtləri, üç il əvvəl Socala irəli sürülən şərtlərə nisbətən daha ağır idi. Tək manеə vardı. IPC imtiyazı aldığı halda bir damla neftə rast gəlməmişdi.





**Küveyt**

Ərəb Yarımadasında neft baxımından diqqət çəkən yeganə ölkə Səudiyyə Ərəbistanı deyildi. Son 10 ildir qonşu Küveytdə də imtiyaz əldə etmə təşəbbüsləri və bunun üçün aparılan müzakirələr davam etməkdəydi. Bəhreyndə aparılan neft axtarma təşəbbüslərinin gəlinən nəticəsi Küveyt Əmiri Şeyx Əhmədi bir xeyli narahat etmiş, 1931-ci ildə minbaşı Holmesə bu sözləri söyləməsinə səbəb olmuşdu: "Bəhreyndəki neft axtarışlarının uzun sürən nəticələrini gözləyib, neftdən bir əsər-əlamət olmadığını görəndə, elə bil ürəyimə xəncər sapladılar." 1921-ci ildə Küveyt Əmirliyinə gətirilən Əhməd, ümumən nəşəli əhvali-ruhiyyəsi olan, həmişə müasirliyi ilə öyünən birisiydi. 1920-ci illərdə əbasının altından Qərb tərzi şalvar və dəri ayaqqabı geyinərdi. İngiltərə donanmasıyla xüsusi olaraq maraqlanan Şeyxin iş otağının divarları ingiltərəli zabit və savaş gəmilərinin şəkilləriylə doluydu. Bu fəaliyyətindən başqa, ayrı bir fəaliyyətlə də məşğul olurdu ki - Küveytin o günlərdə içində yer aldığı təhlükəli strateji mövqeyini tarazlaşdırmağa istiqamətlənən bu fəaliyyət, yüksək çinli bir ingilis diplomatının deyimiylə "çox təhlükəli bir siyasətdi." Şeyx "Kral hökumətini, İraq hökumətini və Kral İbn Səudu bir-birilərinə salışdırmaq kimi çox təhlükəli bir siyasətə meyllənmişdi."

Bu tarazlaşdırma mövzusu Küveyt baxımından, hər zaman üçün ölkənin ən əhəmiyyətli mövzusu olaraq qalırdı. Kiçik bir dövlət olaraq Küveyt, keçmişdən bəri özündən güclü ölkələrdən öz müstəqilliyini və azadlığını qorumaq və qarantiya almaq uğrunda mübarizə aparırdı. Strateji baxımdan çox əhəmiyyətli bir məkanda yerləşirdi.

İran Körfəzinin başlanğıcında olduğu üçün Bəsrə ilə Məkkə arasındakı ticarət və köç yolunun üzərində yer tuturdu. Ona görə də uzun illərdən bəri ticari həyatda rolu vardı. Müstəqil bir prinslik olaraq meydana çıxması isə XVIII-ci əsrin ortalarından, Ərəbistan Yarımadası içindən gələn köçəri tayfaların oraya yerləşməsiylə və 1757-ci ildə hökmdar kimi Əl Sabah ailəsindən özlərinə bir Şeyx seçmələri ilə başladı. XIX-cu əsrin əvvəllərində artıq Küveyt, Yuxarı Körfəzdə ticarət mərkəzi halına gəlmişdi. Osmanlı İmperiyasına bir miqdar vergi ödəməklə bərabər, Türk hegemonluğuna qarşı müqavimət göstərirdi. XIX-cu əsrin sonlarında İngiltərə, Berlin-Bağdad dəmir yolunun simvolizə etdiyi alman təsirini və ölkəyə almanların sızmasının qarşısını almaq, Küveyt isə öz növbəsində Osmanlılar qarşısındakı müstəqilliyini davam etdirmək və onu qarantiyalamaq istəyirdi. Nəticədə İngiltərə Küveytin xarici işlərinin aparılmasını üstləndi və daha sonra da əmirlik üzərində "himayəçilik", "qoruyuculuq" vəzifəsini öhdəsinə götürdü.

Vəziyyətin bu yerdə olduğu günlərdə həm Anqlo-Pers, həm də Gulf şirkətləri Şeyx Əhmədə yol axtarmağa başladılar. Minbaşı Holmesin mənalı və olduqca ziddiyyətli imtiyazını alan "Gulf" şirkəti, Holmesdən və onun şirkətindən (ki, Xarici İşlər Nazirliyi bu şirkətə "Gulfun Çaqqalı" adını vermişdi) istifadə edərək işlərini davam etdirirdi. Anqlo-Pers Şirkəti Küveytdə neft tapma ehtimalını hələ də şübhəylə qarşılayırdı. Bundan başqa, ona görə, neft axtarma işi uğurla nəticələnsə belə, buradan çıxacaq neft, onsuz da həddindən çox olan neft problemləriylə əlləşən dünya bazarına bir az daha artıq neft verməkdən ayrı bir işə yaramayacaqdı. Başqa bir problem də Anqlo-Pers rəhbərlərinin duyduqları qorxudan qaynaqlanırdı. Bu rəhbərlər ən qiymətli imtiyazlarının





yerləşdiyi İran torpaqlarında Şahın köhnə ittihamlarını təkrarlamağa başlayacağından çəkinirdilər. Şah Anqlo-Pers şirkətinin rəhbərlərinə irad tuturdu ki, onlar bütün enerjilərini İrana xərcləmək əvəzinə, orada-burada boş-boş işlərlə məşğul olurdular. Belə olduğu halda, "Anqlo-Pers hansı səbəblə Küveytdə imtiyaz həvəsindəydi" sualı ağla gələ bilər. Bunun cavabı çox sadədir. Anqlo-Pers şirkəti, hər hansı bir başqa şirkət Küveytdə imtiyaz ələ keçirərkən, orada - Küveytin yan-yörəsində olduğu halda, heç bir hərəkət etməməkdən özünü saxlaya bilmir, sadə tamaşaçı olmaq istəmirdi. Anqlo-Persin əsil məqsədi özünü müdafiə etməkdi. Başqa bir şirkətin "qanadı altında saydığı Küveytdə" irəliləməsinin qarşısını almaq, İran və İraqdakı mövqeyinin təhlükəyə girməsinə əngəl olmaqdı. Orada çox böyük bir risq vardı. Cənab Con Cadmanın israrla vurğulamaqda davam etdiyi kimi, Küveyt Anqlo-Persin "əhatə dairəsi" içərisindəydi.

Bu məqamda Şeyx Əhməd də maliyyə vəziyyətinin pis olması səbəbilə imtiyaz həvəsində olanlara doğru addım atmaqdan çəkinmirdi. İran körfəzi sahillərindəki digər bütün şeyxliklər kimi, Küveyt də çox ciddi iqtisadi çətinliklərin pəncəsində qıvranırdı. O günə qədər Küveytin bir nömrəli sənayesi və əcnəbi qaynaqlı qazancının ən öndə gələn ünsürü yerli inci ticarəti olmuşdu. O günlərdə isə ortaya Şeyx Əhmədin deyimiylə abdal bir yapon satıcı çıxmış, süni texnika vasitəsilə mədəniyyət incisi düzəltməyə təşəbbüs etmişdi. Miye bölgəsində bir mülki inzibatçı olan Kokichi Mikimoto adındakı bu adam incilərə çox aşiqdi və həyatının bir çox illərini bu işə həsr etmiş, bunun uğrunda bir çox çətinliklərə sinə gərmişdi. Yeri gəlmişkən, Mikimotonun təşəbbüsləri nəticəsiz qalmadı və nəhay[illegible] 1930-cu ildə dünya ləl-cəvahirat bazarlarında böyük y[illegible]

mədəniyyət incisi görülməyə başlandı. Bunlar böyük rəğbət gördüyündən, qısa müddət ərzində texnika vasitəsilə istehsal olunan inciyə tələbat artdı və dalğıcların Küveytdən və İran Körfəzinin digər yerlərindən su altına dalıb, çıxardığı təbii inciyə olan tələb gerilədi, hətta tamamilə sona yetdi. Artıq Küveyt iqtisadiyyatı tam mənasında məhv olmuşdu. İxracatdan gələn gəlir dayanmış, tacirlər müflis olmaq həddinə gəlmiş, gəmilər sahilə çəkilmiş, dalğıclar görəcəkləri bir iş olmadığı üçün bir daha ucsuz-bucaqsız səhralara qayıtmışdı. Şeyx Əhməd və onun əmirliyi üçün artıq yeni gəlir qaynağı axtarıb tapmaq zərurətə çevrilmişdi.

Bu kiçik ölkə daha başqa bir çox iqtisadi çətinliklərlə də qarşı-qarşıya idi. Böyük Böhran Küveyt və digər şeyxliklərin iqtisadiyyatını ümumən, darmadağın etmiş, şikəst qoymuşdu. Şərtlər o dərəcədə əlverişsizdi ki, Ərəbistan sahillərindəki kölə sahibləri, kölələrin xərclərindən xilas olmaq üçün onları yox qiymətinə, hətta ziyanına satırdılar. Şeyx Əhməd bu dəmdə qonşu ölkələr olan Səudiyyə Ərəbistanı və İraqla gərginləşən münasibətlərdə ona kifayət edəcək dəstəyi vermədiyi üçün İngiltərəyə atəş püskürürdü. Bu səbəblə Şeyx Küveytə bir Amerikan neft şirkətinin girməsinin tərəfdarı idi. Ona elə gəlirdi ki, Amerikan siyasi maraqlarının bu bölgəyə çəkilməsi ilə İngiltərəyə və bölgədəki rəqiblərinə qarşı mövqeyi xeyli gücləncək. Yenə də bütün bu söylənənlərə baxmayaraq, İngiltərədən tamamilə imtina etməyin xeyrinə olmayacağını bilir, buna cəsarət etmirdi. Qonşularının hamısının qarşısında - Səudiyyə Ərəbistanı və İraqın qarşısında siyasi və hərbi baxımdan təhlükəsiz yaşaması üçün hələ də ən çox İngiltərənin dəstəyinə ehtiyacı vardı. İraq dövləti öz hüquqlarını qorumaq bəhanəsilə ölkəyə meydan oxumaqda





davam edir, İran isə Küveytin varlığını və mövcudluğunu tanımırdı. Küveyt çox kiçik bir ölkəydi. Körfəzdə isə İngiltərə hegemonluq edirdi. Bunu bilən və fərqində olan Şeyx, Kraliyyət Donanmasının praktik dəyərini başa düşüb, onu qəbul etməyə məcburdu.

İngiltərə hökumətinə gəlincə, o, öz hesabına bölgədəki nüfuz və mövqeyini qoruyub davam etdirmək üçün əlindən gələni etməyə hazır və razıydı. Bunun mənası bu idi: imtiyazlardan hər birinin mütləq və yalnız bir ingilis şirkətinə verilməsini tələb edir, bunun üçün çalışır, bunu qarantiya altına almaq istəyirdi. Ancaq bu, necə həyata keçiriləcəkdi? Bəhreyn hadisəsində İngiltərə vətəndaşlığını daşıma şərti və bu olmadığında cəzalandırma tətbiq olunmamış, bir kənara buraxılmış olduğu halda, bu dəfə bunun Küveytdə həyata keçirilməsi üçün London təzyiq edirdi. Bu qayda qəbul olunarsa, şirkətinin Şərq Şirkətinə qatılımının qarşısı əhəmiyyətli miqdarda alınacaq və nəticədə neft inkişaf etdirmə işinin sadəcə, ingilis nəzarəti altındakı bir firmaya verilməsi labüdləşəcəkdi. Ancaq Gulf Şirkəti bu ikili standartı, imtiyazlı qayda-qanunları dərhal rədd edib, Amerika Birləşmiş Ştatlarının Xarici İşlər Nazirliyinə bildirir. Xarici İşlər Nazirliyi də öhdəsinə düşəni yerinə yetirərək, 1931-ci ilin sonunda mövzunu İngiltərə nəzdində gündəmə gətirib, İngiltərəyə təzyiq göstərirdi.

İngiltərə Admirallığı "vətəndaşlıq məcburiyyətinə" mütləq bağlı qalınmasını istəyir, bu mövzuda inadla israr edirdi. Bu şəkildə hərəkət etməsinin başlıca iki məqsədi vardı: Bilinən strateji və hərbi neft ehtiyatına sahib olma istəyi və hər hansı şəraitdə Küveytin iç bölgələrindəki amerikalı vətəndaşların qorunmasında İngiltərənin qarşılaşa biləcəyi çətinliklər. Belə bir hal, İngiltərənin qənaətinə görə, Amerikan savaş gəmilərinin İngiltərənin təmin edə

bilmədiyi təhlükəsizliyi təmin etmə bəhanəsilə Körfəz işlərinə burnunu soxması ilə nəticələnə bilərdi ki, bu da ən arzuolunmaz şeydi. Ancaq bütün bu səbəblərdən başqa, əsil canalıcı səbəb, bir səlahiyyətlinin də söylədiyi kimi, "ən həyati əhəmiyyətli maraqlarının təhlükədə olduğu bir arenada, İngiltərənin "nüfuzu və mövqeyini" bir başqa ölkəyə, özündən daha zəngin bir ölkəyə tərk etmə" qorxusuydu. Mövzunu bir az daha nəzərdən keçirdikdən sonra, İngiltərə hökumətinin kilid statusdakı nazirlikləri - Xarici İşlər Nazirliyi, Müstəmləkələr Nazirliyi və Neft Departamenti bir araya gələrək, ortaq bir qərara varıb, "vətəndaşlıq məcburiyyətini" bir az xəfifləşdirmək istədilər. Xarici İşlər Nazirliyinin yüksək rütbəli bir məmurunun sözlərilə, "Birləşmiş Ştatlarla başlayacaq bir neft savaşı, ən istəmədikləri şeydi." Həqiqətən də Amerikan sərmayəsinin bölgənin siyasi sabitliyinə və iqtisadi inkişafına təsiri böyükdü və bu da İngiltərənin marağına xidmət edirdi. Nəticədə, 1932-ci ilin aprel ayında İngiltərə hökuməti, "vətəndaşlıq" mövzusunu bir kənara buraxır, ondan imtina edirdi. O zaman mövcud olan şərtlərə görə, bunun hər hansı böyük bir qiyməti yoxdu və bir yana buraxılmaması üçün keçərli bir səbəb də mövcud deyildi. Nəticə etibarilə, Anqlo-Pers Küveytdə neft axtarmağa heç də həvəsli deyildi. Anqlo-Pers Şirkətinin başqanı Con Cadman bu mövzuda Xarici İşlər Nazirliyinə bunları söyləmişdi: "Küveytdə tapılacaq hər hansı miqdarda neft, Anqlo-Pers Şirkətinin heç bir şəkildə marağını çəkməyəcəkdir. Amerikalılar bu ölkədə istədiklərini axtarmaqda sərbəstdir!"

Gulf Şirkəti və Birləşmiş Ştatlar "vətəndaşlıq məcburiyyətinin" bir kənara buraxılmasından çox məmnundular. Ancaq bundan ən çox sevinən adam Minbaşı Holmesdi.





Onun sözlərilə deyilsə, yaxşı tərəfləriylə birlikdə ələ alındığında "bu möhtəşəm qələbənin şərəfi İngiltərənin ən populyar adamına, Amerikan səfiri Andrev Mellona aid idi." Səfir Mellon Amerikanın keçmiş Maliyyə Naziri olub, Körfəz neftini nəzarət altında tutan bir ailənin oğluydu. Səfirlik vəzifəsinə 1932-ci ildə başlayanda 77 yaşı vardı. Bu yaşında belə Andrev Mellon Londonda son dərəcə rahat bir həyat tərzi keçirirdi. O günlərdə Amerikada alkoqollu içkilər qadağan olunmuşdu. Buna görə də İngiltərədə içki mövzusunu rahatlıqla həll edir, istədiyi kimi qanunlara uyğun olaraq içə bilirdi. Bundan da həddindən artıq məmnundu. İngiltərədə evlənmişdi. İngilis dərzilərin tikdiyi geyimləri geyinməyi adət halına gətirmişdi. Və ən önəmlisi, İngiltərədə necə iş qurulacağını da yaxşı bilirdi. Təxminən 30 il əvvəl Shell Şirkətinin yeni doğulmaqda olan Gulf Neft Şirkətindən ayrılması və aradakı müqaviləni pozması üçün Marcus Samueli inandırmaq məqsədilə İngiltərəyə getmiş, Spindletopdakı yeraltı təzyiqin azalması nəticəsində müqavilənin təsirini itirməsi səbəbilə uğur qazanmışdı. Mellon uğurlarını sakit təbiətinə və heç əksik olmayan cazibədarlığına borcluydu.

Amma nə yazıqlar ki, 1932-ci ildə heç gözlənilməz bir anda Mellonun başının üstünü qara buludlar aldı. İddiaya görə, Maliyyə Naziri vəzifəsini daşıdığı günlərdə bir neçə dəfə nəhəng Mellon imperiyasına bağlı şirkətlərə ayrıseçkiliklə yanaşmış, onlara dəstək vermişdi. Bu haqda üst-üstə gələn raportlar səbəbilə Konqres hərəkətə keçmiş, Mellonu Maliyyə Naziri olaraq ittiham edib, onun məhkəməyə verilməsini tələb etmişdi. Elə bu günlərdə Hoover, daha cəld hərəkət edib, Mellonu birdən-birə St.Ceymsə təyin elədi. Mellon bunu etirazsız qəbul etdi. Onun bu davranışı isə bəzi adamlar tərəfindən özünü könüllü olaraq sürgünə göndərmək şəklində yozuldu.

Mellon təkcə ailənin böyüyü və Gulf Şirkətinin sahibi olan Villiam Mellonun əmisi deyildi. Eyni zamanda Gulf Şirkətinə həyat verən və onun birləşmiş bir neft şirkəti olmasını təmin edən adamdı. Maliyyə Naziri vəzifəsindən ayrıldıqdan sonra da Gulf Şirkətini Mellon ailəsinin şirkəti olaraq görmüş və şirkətə qarşı hər zaman çox özəl münasibət göstərmişdi. Gulf Şirkəti, Küveytin qapısını açmaq istəyirdi. Onun bu təşəbbüsündə Mellon, Xarici İşlər Nazirliyindəki nüfuzundan istifadə edərək, işə müdaxilə etmiş və Gulf Şirkətinin bu probleminin həllində ona yardımçı olmağa çalışmışdı. Səfir təyin olunması səbəbilə Londona hərəkət etdiyində (ki, bu vəzifə onu Küveyt çatışmasının ən alovlu mərkəzinə aparırdı) Xarici İşlər Nazirliyinin baş müşaviri, ədalətli olmaq naminə, onun arxasından yeni qaydalar yayınlayır, Londondakı Amerikan Səfirliyinə bu teleqrafı göndərirdi: "Tənqidlərin qarşısını almaq üçün, geriyə doğru baxanda, olub-keçmişlərin hesabını aparanda, asan yolu seçmək daha rahat olur. Atdığımız hər addımda digər şirkətlərə necə münasibət bəsləyiriksə, Gulf Neft Şirkətinə də tamamilə elə münasibət göstərməliyik. Eyni şərtlər altında xoş niyyətli Amerikan şirkətlərinə hansı yardımları göstəririksə, Gulf Şirkətinə də tamamilə eynisini - nə daha azını, nə də daha çoxunu - göstərməliyik." Amma bu, o qədər də asan deyildi. Xarici İşlər Nazirliyinin özündə belə, Gulf Neft Şirkəti "Mellon Şirkəti" deyə xatırlanırdı. İngilislər Gulf Neft Şirkəti ilə "Mellon neft qrupunun" eyni olduğuna inanırdılar. Andrev Mellonun bilavasitə özü də bu iki anlayış arasında bir fərqin olub-olmadığını bilmirmiş kimi davranırdı. Gulf Şirkətindən bəhs edərkən, "mənim şirkətim" ifadəsindən istifadə edir, hərəkətlərini də buna görə tənzimləyirdi.

London, Küveytdə "vətəndaşlıq məcburiyyəti"nin





xəfifləədilməsinə razı olsa da, bəzi mövzularda israrlı hərəkət edirdi. Küveytdə imtiyaz almaq üçün olunan bütün müraciətləri özü nəzərdən keçirəcək və bunlardan hansını qəbul edəcəyi haqqında Küveyt Əmirinə "tövsiyə" verəcəkdi. Anqlo-Pers imtiyaz mövzusuna maraq göstərmirdi və bu, Cadman tərəfindən açıqca söylənmişdi. Ancaq sonra, 1932-ci ilin may ayında Socal Şirkətinin Bəhreyndə neft tapmasıyla vəziyyət birdən-birə dəyişdi. Əslində, bu kəşf bütün Ərəbistan sahillərinin həm vəziyyətini, həm də perspektivini kökündən dəyişdirmişdi. İrəlidəki günlərdə Anqlo-Persin tam mənasında fikir dəyişdirdiyinin şahidi olundu. Bu arada Cadman heç vaxt itirmədən Xarici İşlər Nazirliyinə müraciət edərək, əvvəlcə bildirdiyi bəyanatının keçərsiz sayılmasını xahiş etdi. Çünki artıq Anqlo-Pers, ani bir qərarla Küveytdə imtiyaz əldə etməyə və bunun üçün də müraciət etməyə qərar vermişdi. Anqlo-Persin fikir dəyişdirməsindən ən çox məmnunluq hissi keçirən adam birbaşa Şeyxin özüydü. Bu haqda iş həyatında artıq qanun olan bu sözləri söyləmişdi: "Bəli, indi bir yox, iki ağlım var. Satıcı olaraq bu mənim lehimədir."

Bundan sonrakı mərhələdə artıq işlər İngiltərə hökumətinin boynuna düşürdü. Əvvəlcə Neft Departamentinin hərəkətə keçib, həm Gulf Şirkətinin təklifini, həm də Anqlo-Persdən gələn yeni təklifi nəzərdən keçirərək, Əmirə bir "görüş" bildirməsi lazımdı. Ancaq "nəzərdən keçirmə" əməliyyatı Londonda bir xeyli vaxt aldı və süründürməçiliklə üzləşdi. Buna görə də Holmes və Gulf Şirkəti, üstəgəl Birləşmiş Ştatlar hökuməti işlərin gedişindən şübhələnməyə başladı. Gecikmənin sadəcə bir bəhanə olduğuna, nəticədə Anqlo-Persin arzusu lehində bir tövsiyə ilə bitəcəyinə inanırdılar. Amerikan Xarici İşlər Nazirliyi özünü mövzuyla çox maraqlanmırmış kimi

göstərmək istəyir, "təkcə Mr.Mellonun şəxsi maraqlarını müdafiə edir" kimi görünməmək üçün uzaq durur, ancaq Amerikan səfarəti də problemi yaxından təqib edirdi. Təqvimlər 1932-ci ilin payızını göstərirdi. Ortada hələ "tövsiyə" qərarına oxşayan bir şey görünmürdü. Bunu görən Mellon, səbri daşmış halda, protokol qaydalarına riayət etməyərək, mövzunu birbaşa Xarici İşlər Nazirliyindən öyrənmək istədi. Nə olsa da, bu, bir iş idi. Bu zaman elə də sevilməyən bir siyasətçi olaraq tanınan Herbert Hooverin çox yaxınlarda Ağ Evdən qovulacağı haqqında söz-söhbətlər qulaqdan-qulağa yayılmış, hamı tərəfindən bilinən bir söhbətə çevrilmişdi. Herbert Hooverin kənarlaşdırılması isə Mellon baxımından fövqəladə mənfi çalarlar mənasına gəlirdi. Çünki onun üstün mövqeyi bu halda sona çatacaqdı. Buna görə də söhbət hamı tərəfindən bilinəndən sonra Mellon daha tələşlı və tələskən hərəkətlər etməyə başladı. İngilis Xarici İşlər Nazirliyinin yüksək rütbəli məmurlarından birinin müşahidəsinə görə, "Amerikan səfiri imtiyazı öz qrupunun alması üçün böyük bir canfəşanlıq nümayiş etdirirdi. Səfirlik vəzifəsinin sonu yaxınlaşdığına görə, bu şəxsi təşəbbüslərinin nə üçün olunduğu haqqında lütf edib açıqlama versə, yaxşı olardı!" Həqiqətən də Mellon, bu işi ifrat bir həyəcanla təqib edir, bu da hamının diqqətini çəkirdi. Hətta Amerikan Xarici İşlər Nazirliyindən bir səlahiyyətli, bu mövzuda onu xəbərdar etmək istəmiş, Xarici İşlər Nazirinin "bu mövzuyla maraqlanmaması, işi axarına buraxması üçün" Mellonla danışmasını tələb etdiyini bildirmişdi.

Nəhayət, bir gün Neft Departamenti hər iki müraciət üzərindəki araşdırmasını tamamladı və ingilis siyasi kəşfiyyatının Küveyt təmsilçisi də bu qərarı 1933-cü ilin yanvar ayında Əmirə təqdim etdi. Ancaq bu qərar heç bir





şeyi dəyişdirməmişdi. Etdiyi yeganə şey, Anqlo-Perslə Gulf şirkətləri arasında yeni, daha sərt və amansız bir rəqabət sahəsi yaratmaqdı. Bu səhnə qarşılıqlı ittihamlar və təhdidlərlə doluydu. Ancaq Anqlo-Pers get-gedə zəifləməyə başlayırdı və şirkət də bunun fərqindəydi. Şirkətin gerçək sərvəti sayıla biləcək İrandakı mövqeyi isə, Şahın oradakı imtiyazı 1932-ci ilin noyabr ayında tək tərəfli olaraq rədd etməsi səbəbindən təhlükəyə girmişdi.

Artıq bir tərəfdə imtiyaz uğrunda aparılan savaş, başqa bir tərəfdə isə bunun alternativi olan tək bir şey - əməkdaşlıq etmək istəyi qalmışdı. Şirkətlərin hər biri ayrı-ayrılıqda digər bir şirkətin çətin qərarlılığıyla qarşılaşır, bu qərarlılıqdan və onun arxasındakı güclü qüvvələrdən təsirlənirdi. Anqlo-Pers Şirkəti bütün bunların arxasında Amerikanın sərvətini və sahib olduğu böyük siyasi nüfuzu görürkən, Gulf Şirkəti bölgədə hakim olan ingilis gücünü xəyalına gətirirdi. Bir çıxış yolu kimi Con Cadman Səfir Mellona birləşmə ehtimalından söhbət açsa da, ondan qaneedici cavab ala bilmədi. Mellonun vəzifəsindən ayrılıb, Birləşmiş Ştatlara qayıdışından sonra Cadman, Amerikan neft dairələrində onu qəsd edərək, "Andy Mellon əllərini Küveytdən ayırmamaq qərarıyla vətənə qayıtdı" deyə bəhs edildiyini eşitdi və bundan xeyli təəssüfləndi.

1933-cü ilin mart ayının axırlarında Cadman, Londondan ayrılıb, ləğv edilən imtiyaz haqqında Şahla danışıqlar aparmaq üçün İrana yola çıxdı. Bu ara yolüstü Küveytə də uğrayıb, imtiyazın detallarını Əmirlə müzakirə etmək istədi. Digər tərəfdən, Cadmanın oraya gələcəyini və bunun ən məsələsi olduğunu öyrənən Minbaşı (mayor) Holmes, heç vaxt itirmədən Şeyx Əhmədi görməyə gedir, Cadmanın görüşmə saatından sadəcə bir neçə saat əvvəl onunla danışıb, ağzından söz alırdı. Cadmanın masaya

qoyacağı təklif nə olursa olsun, Şeyx son sözü ona, Holmesə verəcəkdi. Dasman Sarayında Şeyxlə yalnız olaraq qarşılaşdığında, Cadman Şeyxi "büsbütün ingilis olan bir şirkətin" daha faydalı olacağına inandırmağa çalışmış, Şeyx bu təşəbbüsün qarşılığında bu cavabı vermişdi: "Şirkətin vətəndaşlığının mənim üçün heç bir əhəmiyyəti yoxdur." Onun üçün əhəmiyyətli olan müqavilədə nəzərdə tutulan ödəmələrin ödənməsiydi. Bu yerinə yetirildimi, hər şey tamamlanmışdı deməli. Qalan işlərə, o cümlədən şirkətin vətəndaşlıq kimi məsələlərinə Şeyx laqeyddi. Bunun cavabında Cadman öz təklifini ortaya qoyaraq - əvvəldən də hazırlıqlı olduğundan - cibindən qızıl bir dolmaqələm çıxarıb, müqaviləni imzalaması üçün Əmirə uzatdı. Bununla birlikdə Şeyxə də bir xatırlatma edirdi. "Müqaviləni dərhal imzalaması şərtiylə, təklif etdiyi miqdarı iki qat artıracağını" söyləyirdi. Sözlərinin axırında "təklifi iki qatına çıxaracağını, ancaq bunun nə qədər etdiyini hələlik açıqlamayacağını" vurğulayırdı. Nə yazıqlar ki, Şeyx, Cadmanı dinlədikdən sonra ən səmimi təəssüflərini bildirməklə kifayətləndi. Holmesə Cadmanın təqdim edə biləcəyi təklif nə olursa olsun, Gulf qrupunun düzəlməsi üçün bir fürsət tanıyacağına söz vermişdi və indi də bu sözündən dönə bilməzdi.

Cadman bu cavabdan sarsılmış və bir xeyli pəjmürdə olmuşdu. Artıq Gulf Şirkəti ilə ittifaqa getməkdən başqa bir yolun qalmadığına əmin olmuşdu. Nəyin bahasına olursa olsun, Şeyxin "iki alıcısı" mütləq "bir"ə endirilməliydi. Bu edilmədikcə, Şeyx bir qrupu o birinə qarşı istifadə edəcək, bir-birinə qırdıracaq, bu yolla qiymətləri yuxarı çəkəcəkdi. Bundan başqa, təklif yarışında uduzmadığını göstərmək üçün Anqlo-Persin Gulf Şirkəti ilə ortaq bir anlaşma imzalaması lazımdı. İki şirkət arasında keçən çətin müzakirələrdən sonra nəhayət, 1933-cü ilin





dekabr ayında tərəflər konkret şərtləri müəyyənləşdirdilər və 50/50-yə pay şərikliyi ilə yeni bir qurum yaratmaq üçün qərar verdilər. Yeni qurulan şirkətə Küveyt Neft Şirkəti adı verildi. Ancaq İngiltərə Xarici İşlər Nazirliyi Amerikan şirkətlərinin yayılma ehtimalından qorxmaqda davam etdiyi üçün, Küveyt Neft Şirkətinin sahib olduğu torpaqlarda aparılacaq bütün əməliyyatların "ingilislərin əlində" olmasında israr edirdi. Bunun nəticəsində İngiltərə hökuməti ilə Küveyt Neft Şirkəti arasında 1934-cü ilin may ayında əlavə bir müqavilə daha imzalandı. Müqavilənin şərtlərinə görə, ingilis tərəfinə Gulf Şirkətinə verilən 50 faizlik paydan əlavə, ölkədə neft mövzusundakı hər əməliyyat üçün hegemonluq haqqı tanınırdı.

Yeni qurulan Küveyt Neft Şirkətindən imtiyaz qapışdırma müzakirələrinə Şeyx Əhməd, iki sadiq adamını, Gulf Şirkətinin namına Holmesi, Anqlo-Persin adından isə, çox gənc olan Archibald Chisholmu göndərdi. İraqdan Küveytə gələrkən, gömrükdə bir-biriləri ilə qarşılaşan bu iki adamı siyasi təmsilçinin göndərdiyi məktublar gözləyirdi. Təmsilçi məktubda "cənnətdən göndərilən bu iki adama" "xoş gəldin" arzularını bildirirdi. Görünüşə görə, iki şirkət arasında rəqabət dövrü artıq bitmişdi. Küveytə gəldiklərindən çox keçmədi ki, bir bazar sabahı bu iki adam, özlərini bölgənin kiçik bir kilsəsində yan-yana dayanıb, amerikalı papazın idarə etdiyi ayini dinləyən vəziyyətdə gördülər. O günkü ayin İncildəki "xoşbəxtlik" bəhsiydi və papaz tam "qəlbləri təmiz olanları təqdir edirəm" dediyi an, Holmes yerindən qalxdı və Chisholma dirsəyi ilə toxunaraq, "nəhayət, sən və mən qəlbən bir-birimizə qarşı təmizik" deyə pıçıldadı.

Bir şey vardı ki, işlər hələ tamamlanmamışdı. Şeyx Əhməd imtiyaz təklifçilərini bir-birinə qarşı qoymaqda kifayət qədər usta adamdı və bu mövzudakı müzakirələri

uğurla davam etdirirdi. Bundan başqa, İraq, İran və Səudiyyə Ərəbistanındakı siyasi gəlişmələr və imtiyaz şərtlərinin gedişindən əməlli-başlı xəbərlər alırdı. Londonun israrı nəticəsində əldə edilən ingilis hegemonluğu üçün imzalanmış müqavilədən də məmnun qalmamışdı. Ancaq buna baxmayaraq, yenə də Şeyx Əhməd 23 dekabr 1934-cü ildə istədiklərini əldə edərək, Küveyt Neft Şirkətinə 75 il müddətinə imtiyaz tanıyan müqaviləni imzaladı. Müqaviləyə görə, Şeyxə 35.700 pound (179.000 dollar) ön ödəmə nəzərdə tutulurdu. Bundan başqa, ticarətə kifayət edəcək qədər neft tapılana qədər ildə ən azı 7.150 pound (36.000 dollar) da pul alacaqdı. Neft tapıldıqdan sonra ildə ən azı 18.800 pound (94.000 dollar) və ya bir az daha çox pul alacaq, bu miqdar, tapılan neftin həcminə görə müəyyənləşəcəkdi. Londondakı Küveyt Neft Şirkəti təmsilçiliyinə Şeyx, can dostu Frank Holmesi təyin edir, Holmes də öldüyü il olan 1947-ci il tarixinə qədər bu vəzifəsində qalırdı.

## Tam yerində bölgə

Küveyt imtiyazı Səudiyyə imtiyazının imzalanmasından il yarım sonra imzalanmışdı. O günə gələnə qədər Kaliforniya Standard Oil çoxdan Səudiyyə Ərəbistanında fəaliyyətə başlamış, imtiyaz alması üçün Kaliforniya Ərəbistan Standard Oil Şirkəti mənasını verən Casocu yaratmışdı. İnzibati qərargahı isə Ciddə şəhərində balkonlu, öz elektrik generatoru olan yüksək bir binadaydı. Bu yerin mal sahibi H.St.Con B.Philbynin özüydü. 1933-cü ilin sentyabr ayında ölkənin o biri tərəfinə amerikalı geoloqlardan ilk ikisinin gözlənilməz bir səyahəti müşahidə olundu. Bunlar Bəhreyndən motorlu bir avtomobillə gəlib,





Jubail qəsəbəsinə yerləşmişdilər. Bölgənin yerli xalqına yabançı olduqlarını mümkün olduğu qədər hiss etdirməmək üçün saqqal buraxmış, saçlarını ərəblərinki kimi təraş etdirmiş, onlar kimi paltarlar geyinmişdilər. Sabahın erkən saatlarından başlayaraq, axşama qədər çölü gəzib dolaşdılar və ilk araşdırmalarını tamamladılar. Bir neçə gün sonra hələ Bəhreyndə ikən casusluq əməliyyatları nəticəsində müəyyənləşdirdikləri və neft olduğu anlaşılan bir bölgəyə gəldilər. Burası zəngin neft potensialı vəd edən və geoloji abidə sayılan Dammam Qübbəsi idi. Görünüşdə tərk edilmiş bir qum çölünü və çılpaq bir qayanı xatırladan bu yer, Bəhreyndə Socalın neft tapdığı oxşar bir abidəyə sadəcə 25 mil məsafədə yerləşirdi. Geoloqlar buranın "tam yerində neft qaynağı" olduğuna inanaraq, 1934-cü ilin yazında qazıntılara başladılar. Geoloq, mühəndis və inşaat mühəndislərinin ehtiyacları olan hər şey - yeyəcək olsun, ləvazimat olsun - Los Anceles yaxınlarındakı San Pedroya qədər uzanan bir xətt üzərindən gətirilirdi. Bir şey vardı ki, ilk günlərdəki optimistliyə baxmayaraq, Dammam Qübbəsinin "tam yerində qaynaq" olmadığı müşahidə olunacaqdı. İlk qazılan bir neçə quyunun heç birisindən uğurlu nəticə alınmamış - quyular quru çıxmışdı. Ən yaxşı quyu hesab olunan quyulardan belə olsa-olsa çox kiçik neft və hava kütləsi çıxmış, ticari neftə bənzər heç bir şeyə rast gəlinməmişdi.

Bu ili izləyən bir neçə il içərisində bölgəyə daha başqa amerikalı geoloqlar da gəldi. Bunlar ucsuz-bucaqsız çölü didik-didik edərək araşdırmalar aparır, bir yerdən başqa bir yerə gedərkən, nəqliyyat vasitəsi kimi dəvədən istifadə edirdilər. Dəvələrlə edilən bu səyahətlərdə geoloqlara 10 qoruyucu və bundan başqa, bələdçilər də yoldaşlıq edirdilər. Çalışma şərtləri çox çətindi. Hava gündüzləri 45

dərəcəyə qədər artır, gecə olanda da dondurucu soyuqlar baş alıb gedirdi. Bir axtarış gəzintisinə, məsələn, Jubaildən sentyabr ayında çıxılırdısa, oraya qayıdış növbəti ilin iyun ayından əvvəl mümkün olmurdu. İki yer arasındakı məsafənin ölçülməsində "mil" və ya "kilometr" sözcüklərindən istifadə edilməz, ölçülər dəvə günləriylə ifadə edilərdi. Jubaildən üç həftə uzaqlıqda, çölün tam ortasına vardıqlarında, artıq yeyəcək yüklənmiş dəvələrlə birlikdə Qatar quşlarını ovlayıb yeyər, bəzən də oralardan keçən bir bədəviyə 5 riyal (təxminən 1.35 dollar) verib, qarşılığında bir qoyun alıb yeyərdilər. Bu şərtlərə baxmayaraq, seysmologiyanın yeni texnologiyasından yararlanmağı gözardı etməz, təyyarəylə ölkə üzərində hava araşdırması aparardılar. Bu araşdırma uçuşlarında tək motorlu Fairchild-21-dən istifadə olunur, təyyarənin altından açılmış pəncərədən yerin səthinin fotoqrafı çəkilir, çölün istiliyinə dayanıqlı olduğu üçün hər zaman, məxsusən bu tip işlər üçün emal edilmiş Kodak marka filmdən faydalanılırdı. Təyyarələr bir-birindən 6 mil aralıqda, düz xətt şəklində, paralel uçardılar. Bu ara geoloqlar oturduqları pəncərənin kənarından ətrafı seyr edər, üç milə qədər olan məsafə içində görə bildikləri hər şeyin, hər tərəfdən şəklini çəkərdilər. Geoloqlar zaman-zaman neft olduğunu göstərən əlamətlərə rast gəlsələr də, bunlar "əlamət" olmaqdan o tərəfə getməzdi.

Bu araşdırmalar davam edərkən, Socalın San Fransisko təşkilatı layihə haqqında get-gedə daha çox tərəddüd keçirməyə başlayırdı. Səudiyyə imtiyazı mövzusunda çox dəyişik bir ruh halı içərisindəydilər. Belə ki, bir Socal yetkilisinin ifadəsinə görə, zaman-zaman açıqca "əcəba, bu Səudiyyə mövzusundan imtina edib, xərclədiyimiz 10 milyon dolları zərər xanəsinə yazıb, mövzunu unutsaqmı" deyə ciddi-ciddi suallar soruşardılar. İşin maraqlı tərəfi o idi ki, bu da hər şeyin çıxış yolu deyildi. Çünki ortada başqa bir qorxuducu ehtimal daha vardı. Birdən Socal nefti dünyanın neft paylaşımına əlverişli olmayan bir yerində tapıldı? Ya da çıxarılan neft, dünya neft bazarlarının bütün digər qlobal iqtisadi sahələri kimi "ifrat neft"dən dad edib, şikayətləndiyi böhran günlərinə rast gələrsə? Başqa bir deyimlə, Socal, Ərəbistan çöllərində həqiqətən neft tapacaq olsa belə, vəziyyət necə olacaqdı?





## Mavi xətt müqaviləsi

Əslində Socal problemin varlığından xəbərsiz deyildi. Bəhreyndəki əziyyətli uğurlarından sonra, ortaya çıxan problemləri çox yaxşı bilirdi. Bəhreyndə mövcud istehsal gücü gündə 13.000 barrel idi. Potensial istehsal gücünün də gündə 30.000 barrel olacağı təxmin edilirdi. Ancaq böyük bazarlara açılış qapısı olmadığından, 1935-ci ilin ilk yarısında Socal, Bəhreyndəki istehsalını gündə 2.500 barrelə endirmək məcburiyyətində qalmışdı. Avropadakı neftayırma zavodları Bəhreyn xam nefti kimi yüksək sulfat tərkibli nefti işlətməyə uyğun deyildi. Ona görə də Socal, birbaşa Avropa neftayırma zavodlarına xam neft satmaqda çətinlik çəkirdi. Socal, Nyu Jersey Standard Oil, Shell və Anqlo-Pers Şirkətlərinə bazarlama anlaşmaları bağlamaq üçün müraciət etsə də, müraciəti qəbul olunmamışdı. Socala daha başqa, daha istiqrarlı bir müqavilə lazımdı. Bunun özünə aid ortaq bir təşəkkül olduğunu başa düşərək, hərəkətə keçdi.

1936-cı ilin ilk günlərində kefsiz və ümidsiz K.R.Kingsbury, Socal başqanı olaraq Nyu York Cityə gəldi. Dillondakı kredit bankının sahibi Ceyms Forrestal qısaca

"King" deyə çağırılan Kingsbury ilə Texasın da Socal kimi bir problemi olduğunu və bunun ən az Socalınkı qədər ciddi olduğunu fərq etmişdi. Problem bu idi: Socalın Afrika və Asiyada böyük bir bazarlama şəbəkəsi olduğu halda, Şərq Yarımkürəsində də sistemi işlədəcək, eyni zamanda özünə aid olan xam nefti yox idi. Buna görə də məhsulunu Amerikadan gətirirdi. Orta Şərq qaynaqlı neft potensialı tapmadığı müddətcə, Texas, irəlidəki illərdə bazarlarını və pulunu itirməyə məhkumdu. Artıq vəziyyətin bu cür olduğu Forrestala bütün aşkarlığı ilə məlum idi. Ona görə də bunun qarşısının alınmasının yolu Socalın aşağı maliyyətli xam neft potensialını Texasın Şərq Yarımkürəsi dağıtım sisteminə bağlamaqdı. Bu, hər iki şirkət üçün də mütləq faydalı olacaqdı.

Ancaq bu, necə olacaqdı? Forrestal Dillonun və Read Şirkətinin sədr müavini Paul Nitzenin yardımlarını da təmin edərək, böyük, yeni bir təşkilatın yaradılması üçün bir plan hazırladı. Socal və Texas şirkətlərinin hər ikisi də yeni yaradılmaqda olan təşkilat üçün "Süveyş kanalının şərqindəki bütün mal varlıqlarını" səfərbər etməyi qərarlaşdırdılar. Bunun müqabilində yeni qurulan şirkətdə bərabər paya sahib olacaqdılar. Socal, Bəhreyn və Səudiyyə Ərəbistanındakı imtiyazlarıyla kifayətlənməyib, Şərqi Hind Adalarındakı bir imtiyazını da ortaya qoyurdu. Ortaq Şirkət Texasın Afrika və Asiyadakı geniş yayılmış bazarlama sistemini də əhatə edəcəkdi. Bu iki şirkətin kənarında qalan şirkətlər isə, Qırmızı Xətt həndəvərindəki mövqelərini qorumaqda sərbəst idilər. Socal və Texas isə öz birləşmiş bölgələrini "Mavi Xətt" dedikləri xətlə müəyyənləşdirirdilər. Yeni yaradılan ortaq şirkət Caltex (keçmiş Kaliforniya-Texas Şirkəti) həm Bəhreyn istehsalı üçün, həm də Səudiyyə Ərəbistanında tapılacaq hər hansı neft yataqları üçün çıxış qapısı rolunu oynamalıydı.





O günə qədər Bəhreynin neft bazarlarının öldürücü təsirindən şikayətlənən beynəlxalq şirkətlər, Socalın Texasla anlaşmasıyla bu durumdan canlarını qurtarırdılar. IPC isə Socalın Bəhreyndəki fəaliyyətlərinin "can sıxdığını" söyləyərək, şikayətlənməyə davam edir, "onları satın almağa çalışacağını söyləyir", digər təşkilatın bazarçılıq baxımından "çox elə narahatçılıq verməyəcəyini", nəticədə İngiltərənin maraqları baxımından yaxşı son vəd etdiyini qeyd edirdi. Hakim olan qənaətə görə, bu təşkilat "az da olsa, qayda-qanun yaradacaqdı." Caltexin qurulması da yaxşı əlamətdi. Bu, Səudiyyə Ərəbistanında tapılacaq neftin idarə oluna biləcəyini göstərirdi. Yəni bəzilərinin təxmin etdiyi kimi, qiymətlər mütləq alt-üst olmayacaqdı. Qonşu Küveytə gəlincə, o, zatən Anqlo-Pers və Gulf Şirkətlərinin etibarlı əllərindəydi.

## Kəşf

Küveytdə neft axtarışları 1935-ci ildə start götürsə də, seysmoloji çalışmalar ancaq 1936-cı ildə başlamışdı. Küveytin cənub-şərqindəki Burgan ərazisi bölgənin neft baxımından, ən çox qaynaq vəd edən yeri olaraq müəyyən edilmişdi. Yeri gəlmişkən, bu bölgədə 23 fevral 1938-ci ildə heç gözlənilməz bir anda neftə rast gəlinmiş, neft böyük bir güclə fışqırmağa başlamışdı. Nəticədə burada neft tapılmış və neft miqdarının ölçümü üçün neft yatağının bitişiyində bir qum arxı düzəldilmiş, neftin heç aralıqsız bu arxın içi ilə axması təmin olunmuş, sonra da neft atəşə verilmişdi. Alovlar içində yanan neftin çıxardığı istilik o dərəcədə çox idi ki, arxın qum divarları birdən-birə şüşə kimi parıldamağa başladı. Vəziyyəti müşahidə edən Anqlo-Pers və Gulf Şirkətlərinin rəhbərləri işlərin gedişindən çox

rahatlayır, dərin bir nəfəs alırdılar. Mayor Frank Holmes sevincdən uçurdu. Dasman Sarayındakı Şeyx Əhməd isə artıq mədəniyyət incisi mövzusunun iqtisadi təhlükəsindən qurtulur, rahat bir şəkildə hüzura qovuşurdu.

Aradan keçən zaman içərisində Səudiyyə Ərəbistanının torpaqlarında da neft aramaları aparılır, ancaq bu axtarışlar dalbadal xəyal qırıqlığı ilə nəticələnirdi. Bu hal Socal İdarə Heyətini getdikcə daha çox narahat edir, onları daha da ümidsizləşdirirdi. 1937-ci ilin noyabr ayında Socalın əcnəbi istehsala baxan şöbə müdiri Ərəbistana teleqraf göndərərək, qəti bir əmr verdi: İndən sonra heç bir layihə, əvvəlcə detallı bir təkliflə təqdim olunmadan diqqətə alınmayacaqdı. Aradan bir müddət keçir, 1938-ci ilin mart ayında Küveytdəki neft kəşfindən bir neçə həftə sonra, bomba kimi bir xəbər ətrafı bürüyürdü. Dammam bölgəsindəki 7 saylı quyuda, 4727 feet dərinliyində böyük neft potensialına rastlanılmışdı! Nəhayət, gözlənilən an gəlib çatmış, Dammamdakı 1 saylı quyuda qazma işlərinin başlanıldığı tarixdən təxminən 3 il sonra neft kəşfi həyata keçmişdi. Artıq İbn Səud və Səudiyyə Ərəbistanına bəxt qapıları açılmışdı. Krallığın birlik və bütünlüyü bundan sonra Məkkəyə həcc ziyarətinə gələnlərin sayındakı enişçıxışlara bağlı olmayacaq, Krallıq artıq bundan təsirlənməyəcəkdi.

Səudiyyə Ərəbistanındakı neft kəşfi bu ölkədə imtiyaz alma təşəbbüslərini sürətlə artırdı. Başda İraq Neft Şirkəti olmaqla Almaniyanın, Yaponiyanın və İtaliyanın marağını özünə çəkdi. Belə ki, ölkələr imtiyaz mövzusunda İraq Neft Şirkətindən belə daha ehtiraslı idilər. Müşahidəçilərin rəyinə görə, güclü dövlətlər Səudiyyə Ərəbistanında qazıntı haqqı almaq üçün sanki bir-biriləri ilə ittifaq halındaydılar. Bu ara Yaponiya, veriləcək bir imtiyaz və tərəfsiz





bölgə qarşılığında Krala o günün şərtlərinə görə, çox böyük sayıla biləcək pullar vəd edirdi. Səudiyyə Ərəbistanının yüksək çinli bir məmurunun sözlərinə görə, təklif olunan toplam rəqəm "astronomik həddə idi." Yaponlar bu ara İbn Səuda klassik samuray emblemi olan, ancaq böyük cüssəli hökmdarlara xeyli kiçik gələn bir zirehli geyim hədiyyə etmişdi. İmtiyaz yarışına qatılan dövlətlərdən biri də Almaniya idi. Bir qarış böyüklüyündə olsa belə, imtiyaz qoparma ümidiylə almanlar Bağdaddakı səfirlərini Səudiyyə Ərəbistanına təyin edir, burada daimi təmsilçilik yaradırdılar. Onlar Səudilərlə həm də silah anlaşması bağlamaq istəyirdilər. İtaliya da imtiyaz üçün Səudilərə arasıkəsilməz təzyiq kampaniyası tətbiq edirdi. Ancaq 1933-cü il anlaşmasına sonradan əlavə olunan gizli bir maddəylə "Casoc" Şirkəti, Səudi torpaqlarında "seçim" haqqına sahib olur, bu haqqı 31 may 1939-cu ildə uğurla həyata keçirirdi. Bu da bütün imtiyazlı torpaqların toplam sahəsini 440.000 kvadrat milə, başqa bir deyimlə Amerika qitəsinin altıda birinə bərabər səviyyəyə çıxarırdı. Şübhəsiz ki, bu vəfa qarşılığının bir qiyməti olmalıydı. Eyni zamanda Səudilərin pula olan ehtiyacları dağ kimi böyüyür, Socal bir-birinin ardınca Krallığa borc pul verirdi. Zamanla bu borc tutarı bir neçə milyon dollara çatacaqdı.

Bir şey vardı ki, bütün bu pullar bəzi şeylərin gözləntisi içərisində ödənirdi. 1938-ci ilin mart ayında 7 saylı quyuda olunan kəşf yeni bir cığır açmışdı. Dhahran şəhərində ehtiyac duyulan sənaye, inzibati və yerləşmə çalışmalarına yer verilir, bu mövzuda bəzi fəaliyyətlər göstərilirdi. Bu çalışmalar Dhahran şəhərini Amerikan orta təbəqəsinin yaşadığı bər məkana, səhra ortasında münbit bir bölgəyə çevirmişdi. 7 saylı quyuda neft tapıldığı vaxtdan dərhal sonra bir də boru kəməri tikintisinə başlanılmışdı. Boru kəməri neft bölgəsini yükləmə bölgəsi olaraq seçilən

sahilə - Ras Tanuraya bağlayırdı. 1939-cu ilin aprel ayında 400 avtomobildən ibarət olan və içlərində Kralın və onun möhtəşəm əhli-əyalının da yer aldığı böyük bir qafilə səhranı aşaraq Dhahrana yetişir, burada 350 çadırlıq bir kamp qurulurdu. Bütün bunlar Socal tankeri D.G.Scofieldin ilk neft yükünü almaq üçün Ras Tanuraya gəlişi səbəbilə edilirdi. Kral İbn Səud mərasimdə bilavasitə iştirak edərək, pompanın vannasını çevirmiş, beləliklə, Səudiyyə Ərəbistanının sərhədlərindən kənara çıxan ilk neft damlası vannadan axıb ölkədən çıxmışdı.

Socal, etdiyi kəşfin bütün səhraya yayılmasına çalışır və bunun üçün tələsirdi. Bu səbəblə bir-birinin ardınca quyular qazılır, qazılan quyuların birində 10.000 feet dərinlikdə çox böyük neft ehtiyatlarının olduğunu göstərən əlamətlərə rast gəlinirdi. Bu ara 1940-cı ildə neft istehsalı gündə 20.000 barreli keçirdi. Təxminlərə görə, gələcəkdə vəziyyət daha da yaxşı olacaqdı. Amma tam bu zaman İkinci Dünya Müharibəsi başlayır, 1940-cı ilin oktyabr ayında italyanlar Dhahranı bombalayırdı. Sonradan bombalamanın əslində Bəhreyni hədəf aldığı, Dhahranın yanlışlıqla bombalandığı söylənəcəkdi. Bu hadisədən bir neçə ay sonra, 1941-ci ilin yanvar ayında Ras Tanurada yeni, kiçik bir neftayırma zavodunun inşasına başlansa da, iş axıra çatdırılmadı və iyun ayında dayandı. Qonşu Küveyt ölkəsində də müharibə səbəbilə işlər dayandırılmışdı. Quyuların almanların əlinə düşəcəyindən qorxan Müttəfiq hökumətlərinin əmriylə, Küveytdəki bütün quyuların içi sementlə doldurulmuş, quyular işlək vəziyyətdən çıxarılmışdı.

Səudiyyə Ərəbistanında da vəziyyət təxminən eyni idi. Neft əməliyyatlarının əksəriyyəti dayandırılmış, burada işləyən amerikalı fəhlələr evlərinə göndərilmişdi. Bölgədə sadəcə kiçik bir qrup saxlanılmışdı. Bunlar Bəhreyn





neftayırma zavodunu neftlə təmin etmək üçün gündə 12-15 min barrel neft istehsalını həyata keçirməklə məşğul olmalı idilər. Bunun xaricində bütün işlər ertələnmiş, bölgə dərin bir hərəkətsizliyə qərq olmuşdu. Digər yerlərə gəlincə, burada yaşayanlar Səudiyyə Ərəbistanının neft potensialının nə qədər ola biləcəyi, bunun hansı mənanı daşıdığı üzərində hesablar apararkən, ölkənin neft ehtiyatları da siyasi güc oyunlarının əsas hədəfi olurdu. Siyasi üstünlük uğrunda oynanan bu oyunlar Kaliforniya Standardın, Kral İbn Səudun və hətta bir zamanlar Kralın beyninə yeraltı sərvətlər fikrini yeridən Philbynin belə xəyalına gətirə bilməyəcəyi qədər çox və şiddətli intriqalarla doluydu.

1930-cu illərdə Cek Philby Səudiyyə Ərəbistanındakı fəaliyyətlərindən bir xeyli rifaha qovuşmuşdu və bu ölkədəki coğrafi araşdırmalarını da hələ davam etdirirdi. İkinci Dünya Müharibəsi başlayandan sonra İbn Səudla Sionist hərəkatın lideri Chaim Veizmannın arasında Fələstinin bölünməsi mövzusunda vasitəçilik etmək istəsə də, bu təşəbbüsü heç bir nəticə vermədi. Philbynin ingilislərə bəslədiyi nifrət hələ səngiməmişdi. Müttəfiq dövlətləri şiddətli tənqidlərə məruz qoyurdu. Buna görə də Hindistana etdiyi bir səyahətdə həbs olunub İngiltərəyə göndərildi və orada altı ay həbsə məkhum edildi. Savaşın geri qalan illərini şeir və nəşr olunmamış kitablar yazaraq və zaman-zaman da ikinci dərəcəli siyasi oyunlarda iştirak edərək keçirdi. Savaş bitən kimi təkrar Səudiyyə Ərəbistanına qayıtdı və orada Kralın müşaviri oldu. Müşavirliyi zamanı yeni neft axtarışları aparmış, yeni bir çox kitablar yazmış və heç şübhəsiz, savaş sonu qarışıqlığının içində yaxşı pul gətirən ticarətini davam etdirmişdir. Kralın tanış etdiyi gənc bir qadınla evlənmiş, 65 yaşında olmasına baxmayaraq, ondan bir uşaq atası olmuşdu. Kral İbn Səudun

ölümündən sonra Philby, İbn Səudun oğlu Kral Səudu pul xərcləməkdəki israfçılığına görə tənqid etmiş, bu səbəblə də Səudiyyə Ərəbistanından qovulmuşdu. Ancaq bir neçə il sonra yenidən ölkəyə qayıtmasına icazə verilmişdi. 1960-cı ildə oğlu Kimi görmək üçün Beyruta gedərkən, yolda xəstələnib təcili xəstəxanaya qaldırıldı. Həyatı bu dərəcədə maraqlı hadisələrlə dolu və rəngli keçən, cürətli davranışları və dramatik görünümüylə iz buraxan bu adam artıq xəstəxanadakı yatağında şüursuz şəkildə yatırdı. Bir anlıq komadan çıxıb oğluna "çox bezdim" deyə pıçıldayacaq, sonra da əbədiyyətə qovuşacaqdı. Philby Livanda bir müsəlman qəbiristanlığına gömüləcək, oğlu Kim məzar daşına sadə bir yazıyla bunları yazdıracaqdı: "Ərəb Neft Axtaranlarının Ən Böyüyü."

Bu arada Mayor Holmesdən, yəni "Abu əl-Neft" Neftin Atasından da bəhs etmək lazımdır. Əcəba, o nə haldaydı? Mayor Holmesə şübhəsiz ki, "Ərəbistan neft macərasını ilk xəyal edən, onu formalaşdıran və inkişaf etdirən adam" deyilə bilər. 1940-cı illərin ortalarında, Ərəbistan neft ehtiyatlarının dəyərinin hələ yenicə anlaşıldığı günlərdə Holmesdən açıqca bir suala cavab verməsi istənmişdi. O zaman Küveyt neft təmsilçisi olaraq Londonda olan Holmesdən soruşulan sual beləydi:

Necə olmuşdu ki, dünyanın öndə gələn neft geoloqlarının ittifaq halında Ərəbistanın "quru" olduğunu söylədiyi günlərdə, Holmes bu torpaqlarda neft olduğunu bilmişdi? Bundan niyə bu qədər əmin ola bilmişdi? O, bir mədən mühəndisi olaraq, təxminlərində yanılma payının olduğunu bilmək məcburiyyətindəydi axı? Ancaq o, bu ehtimala heç yer verməmiş, iddiasında niyə bu dərəcədə israr etmişdi?

Holmes bu suala çox sadə bir cavab verdi. Barmağının ucuyla burnuna toxunaraq "bax mənim geoloqum bu oldu" dedi.



# ÜÇÜNCÜ BÖLÜM

## SAVAŞ VƏ STRATEGİYA

# 16

# YAPONİYANI SAVAŞA APARAN YOL

18 sentyabr 1931-ci ildə Çinin yarımmüstəqil əyaləti olan Mancuriyada qərargah yaradan Yapon İmperiya Ordusuna bağlı əsgərlər Cənubi Mancuriya dəmiryollarına bombalı hücuma keçdilər. İlk baxışda bombalama əməliyyatı bir elə böyük təxribat etməmişdi. Relslərin sadəcə bir metrlik hissəsi zədələnmişdi. Təxribat həddindən artıq az olduğundan, sürətlə gələn bir qatar zədələnmiş hissədən heç bir çətinliyə düşmədən, sadəcə bir neçə dəqiqə gecikməylə rahatca keçib gedə bilirdi. Bombalama qəsdən bu dərəcədə az zərərlə keçişdirilmişdi. Dəmiryolları təşkilatı yaponların nəzarətində olduğundan, çox zərərdən qaçınılmış, hadisənin bütün məsuliyyəti çinlilərin boynuna yüklənilmişdi. Yapon ordusu Çin Silahlı Qüvvələrinə qarşı hücuma keçmək istəyirdi. Bunun üçün bəhanəyə ehtiyac vardı və bu da günahın çinlilərin boynuna qoyulması ilə əldə olunurdu. Beləcə, Mancuriya hərəkatı başlamış oldu. Bu hərəkat Yaponiya tarixinin yazdığı və müharibədən sonra yaponların "Qaranlıqların Vadisi" deyə xatırladığı dövrə girişi simvolizə edirdi.

Yaponiya Mancuriyada iqtisadi və siyasi sahələrdə bir çox imtiyazlara sahibdi. Bunların arasında 1895-ci ildə Çinin üzərində, 1905-ci ildə də Rusiyaya qarşı qazandığı qələbələr nəticəsində, ona tanınan "hərbi qüvvə saxlama haqqı" da vardı. 1920-ci illərin sonlarına gəlindiyində yaponlar Mancuriyada tam nəzarəti əldə etmək istədilər. Yapon xalqı bu fikri hərarətlə dəstəklədi. Artıq yaponlar,





bir Baş nazirin "yaponun həyat tərzi" dediyi bu əyalətin tam nəzarətini tələb edirdilər. Yapon adaları artıq qələbəlikləşən yapon xalqının ehtiyaclarını ödəmədiyindən, Mancuriya "yeni yerləşmə yeri" olaraq istifadə olunacaq, bundan başqa, lazım olan xam maddəni təmin edəcəkdi. Başqa bir səbəb də burada yapon hərbi qüvvələrinin yerləşdirilmək istənməsiydi. Mancuriyanın coğrafi mövqeyi Yaponiyanın təhlükəsizliyi baxımından tələb edirdi ki, bu əyalət mütləq Yaponiyanın nəzarətində olsun. Bundan başqa, yaponlar artıq Sovet kommunizmindən və Çin nasionalizmindən gələn ikiqat təhlükələrdən qorxurdular. Onların düşüncələrinə görə, super güclər Sakit okean hövzəsi mövzusunda Yaponiyadan get-gedə daha çox şübhələnməyə başlamışdılar və bu da Yaponiyanın 20, 30 il kimi qısa bir müddət ərzində həm hərbi, həm də ticari baxımdan möhtəşəm bir inkişaf yolunda olmasından və parlamasından irəli gəlirdi.

## Yaponlara inanmalıyıqmı?

1923-cü ildə, Birinci Dünya Müharibəsi illərində Donanma Nazirliyinin müavini olan Franklin D.Ruzvelt zamanın tələbinə cavab verərək, "Yaponiyaya inana bilərikmi?" başlıqlı bir məqalə yazmışdı. Məqalənin təqdimatında redaktorlar Ruzvelti "iqtidarda qaldığı müddətcə, əsil vəzifəsi Yaponiya ilə savaşa hazırlaşmaq olan adam" deyə təqdim etmişdilər. Məqalədə Ruzvelt "1914-cü il hadisələrindən çox əvvəl bütün diqqətlərin Amerika ilə Yaponiya arasında ehtimal olunan bir savaşa kilidləndiyini, bunu təxmin etmək üçün münəccim olmağa ehtiyac qalmadığını, savaşın yaxınlaşmaqda olduğuna mütləq gözüylə baxıldığını" söyləmişdi. İndi - 1923-cü ildə

başlayacaq bir savaşın hərbi çıxılmaza girə biləcəyini, daha sonra da "savaşın taleyini təyin edən faktorların iqtisadi şərtlər olacağını" söyləyirdi. Bu düşüncələrinə baxmayaraq, Ruzvelt, "Yaponiyaya inanmalıyıqmı?" sualına yüksək səslə müsbət cavab vermişdi. Onun açıqlamalarına görə, Yaponiya dəyişmişdi. Beynəlxalq arenada üzərinə götürdüyü öhdəliklərə riayət edir, Anqlo-Amerikan alyansının savaş sonu qaydalarına uyğun davranışlar sərgiləyir, bundan əlavə, Sakit okean nəzərdə tutularaq söylənən "Yaponiyaya da, bizə də sonsuza qədər kifayət edəcək qədər bol ticari yer var" sözünü mənimsəmiş kimi görünürdü.

Ruzveltin müəyyənləşdirdiyi prinsiplər 1920-ci illər boyunca doğru çıxdı. Yaponiyanın işlək vəziyyətdə bir parlament sistemi vardı. 1921-ci ildə Vaşinqton Dənizçilik Konseyində Yaponiya, Birləşmiş Ştatlar və İngiltərə arasında bir dənizçilik yarışı təşkil olunması qərarlaşdırıldı və o gündən sonra da Yaponiya öz təhlükəsizliyini Anqlo-Amerikan gücləri ilə birlikdə gerçəkləşdirməyə başladı. Bir şey vardı ki, bu əməkdaşlıq, ancaq 10 il müddətinə qədər yaşaya biləcəkdi. Yapon hərbi gücü, xüsusilə də ordu, hökumət üzərindəki hegemonluğu ələ keçirdi və Yaponiya, Şərqi Asiyada imperiya yaratmaq məqsədilə yayılmağa başladı. Əsas məqsədi də qərbli böyük gücləri, öz deyimiylə, "daha böyük Şərqi Asiya Rifah layihəsi" adlandırdığı layihənin kənarında saxlamaqdı.

Yaponların siyasətindəki bu qəfil dəyişikliyin şübhəsiz ki, bir neçə səbəbi vardı. Bunlardan başlıcaları Böyük Böhranın baş verməsi və dünya ticarət həyatının tənəzzülə uğraması idi. Bu iki faktor Yaponiyaya çox böyük iqtisadi çətinliklər gətirmiş, bundan başqa, xammaddə yoxluğu və beynəlxalq bazarların bağlanmasından ən çox





təsirlənməsinə səbəb olmuşdu. Eyni zamanda ordu və cəmiyyətin əhəmiyyətli təbəqələri ifrat bir nasionalizm, mənəvi narahatçılıq, təcavüzkarlıq kimi duyğulara qapılmışdı. Cəmiyyət yapon mədəniyyətinin və imperialist qurumların üstünlüyü kimi mistik bir inanca qapılmışdı. Özlərindən kənardakı super güclərin Yaponiyanı ikinci kateqoriyalı vəziyyətə endirmək niyyətlərinin olduğuna və onu Asiyadakı hüquqlarından məhrum etməyə çalışdıqlarına inanmışdılar. Qənaətlərinə görə, digər super güclər bunu qəsdən edirdilər. Bu məqamda ölkənin Baş naziri, Amerika ilə İngiltərə arasındakı dənizçilik müqaviləsinin daha da genişləndirilməsi tərəfdarı Osaki Hamaguçi 1930-cu ilin fevral ayında keçirilən seçkilərdə böyük bir qələbə qazandı. Ki, bu da öz növbəsində yaxşılığa doğru bir əlamət sayılırdı. Amma Yaponiyanın Birləşmiş Ştatlar və İngiltərə ilə əməkdaşlıq etməsinə fəvqəladə şəkildə əsəbiləşən bir yapon gənci, Hamaguçini Tokiodakı dəmir yol vağzalında güllələdi və bu hərəkət bir neçə ay sonra Yaponiyada əcnəbilərə qarşı çox güclü bir müxalifətin inkişaf etməsinə yol açdı. Hamaguçi bu sui-qəsddən sonra heç bir zaman yaxşılaşmadı və 1931-ci ildə öldü. Hamaguçinin ölümüylə əməkdaşlıq ruhu da yox olur, onun yerini "sui-qəsd yoluyla hökumət olma" hərəkatının bəslədiyi ifrat milliyyətçilik cərəyanı tuturdu. Daha sonra Yaponiya Mancuriyanı kukla dövlət vəziyyətinə gətirdi və bu kukla imperiyaya da başçı kimi əvvəlcə taxtdan endirilən Puyini təyin etdi. Vəziyyəti müşahidə edən Millətlər Cəmiyyəti Yaponiyanı tənqid atəşinə tutan kimi Yaponiya bu təşkilatdan ayrıldı və irəlidə onu fəlakətə aparacaq olan yolda təkbaşına irəliləməyə başladı.

## Asiyada yeni düzən

İrəlidəki bir neçə ildə Tokio "missiya" və "Şərqi Asiyada özəl məsuliyyətlər" üzərindəki arzu və iddialarını artırarkən, yapon siyasi həyatı da intriqalara, ideoloji hərəkatlara - liberalizm, kapitalizm və demokratiyanı zəiflik və düşkünlük olaraq görən, bunun üçün də bu ideologiyaları qınayıb rədd edən gizli topluluqların mövcudluğuna şahid olurdu. Yapon dünyagörüşünə görə, savaşda imperator uğrunda ölməkdən daha şərəfli heç bir şey ola bilməzdi. Bunlara baxmayaraq, yapon hərbi qüvvələrində, 1930-cu illərin ortalarına doğru başqa cür düşünən bir neçə adama da rastlanmamış deyildi. Bu adamlar hərbi sahədə müasirləşmənin, İmperator uğrunda ölməkdən daha praktik nəticələrinə inanırdılar. Bu səbəblə də "topyekun savaş" doktrinasını elan edib, "milli bir müdafiə sistemi" qurma təşəbbüslərini həyata keçirməyə cəhd etmişdilər. Bu təşəbbüslərdə ölkədə nə qədər sənaye və hərbi qaynaq varsa, hamısı birdən bu çirkin məqsəd naminə istifadə olunmuş və xərclənib bitirilmişdi. Bu zabitlər içində Birinci Dünya Müharibəsində Almaniyanın məğlubiyyətinə yaxından şahid olan və ya bu məğlubiyyəti araşdıranlar - bu ölkənin məğlubiyyətinin səbəblərini qismən xammaddə çatışmazlığına və üstəgəl, Müttəfiq dövlətlərin dənizdən etdikləri mühasirəyə müqavimət göstərməkdəki uğursuzluqlara bağlayırdılar. Özləri isə, kədər içərisində fərqində olduqları kimi, bu mövzularda Almaniyadan da yetərsizdilər. Həqiqətən də Yaponiya, potensial baxımdan, özünəməxsus ciddi bir problemlə qarşı-qarşıyaydı. Neft qaynaqları haradasa yox idi. Neft, Yaponiyanın toplam enerji istehlakının sadəcə 7 faizini təşkil etdiyi





halda, strateji əhəmiyyəti baxımından lazımdı. Mövcud olan neftin əksəriyyəti hərbi qüvvələr tərəfindən və nəqliyyat məqsədilə tükənmişdi. 1930-cu illərin axırlarına doğru, Yaponiya öz istehlak etdiyi neftin sadəcə 7 faizini özü istehsal edirdi. Geri qalan ehtiyac kənardan - 80 faiz Birləşmiş Ştatlardan, 10 faiz də Şərqi Hind Adalarının Hollandiya kəsimindən idxal edilirdi. Ancaq Amerika, Asiyada iqtisadi olduğu qədər siyasi baxımdan da "açıq qapı" siyasəti izlədiyinə görə və bu siyasət Yaponiyanın imperialist ehtirasları ilə tərs mütənasib olduğu üçün Amerika, Sakit okean hövzəsində Yaponiyanın ən çox ehtimal olunan düşməni idi və buna şiddətlə namizəddi. Şərait belə ikən, bir savaş başladığında Yaponiyanın savaş gəmilərini və təyyarələrini yanacaqla təmin edəcək neft ehtiyatları haradan tapılacaqdı?

Bu problem yapon ordusu və donanması arasında ciddi bir bölünmənin ilk qığılcımlarını atəşləndirmiş, bu da yapon siyasətinin müəyyənləşdirilməsində və inkişaf etməsində ən təsirli faktora çevrilmişdir. Yapon ordusu bütün gücünü Mancuriya, Şimali Çin, İç Monqolustan mövzularına ayırmış və Sovet İttifaqından gələn təhlükənin qarşısını almağa yönəltmişdi. Donanma isə "hokushu nanshin" doktrinasının tələblərinə görə, gücünü - "şimalda müdafiə, cənubda hücum" cəhdlərinə ayırmış, gözlərini Şimali Hind Adalarının Hollandiya hissəsinə, Malayziyaya, Çinhindinə və Sakit okean hövzəsindəki bir neçə kiçik adaya dikmişdi. Donanmanın bu cür hərəkətlər etməsinin səbəbi imperiyaya etibarlı təbii qaynaq - xüsusilə də ən təməl və ən vazkeçilməz ehtiyac olan neft təmin etməkdi. Aralarındakı görüş ayrılıqlarına baxmayaraq, ordu və donanma müəyyən bir mövzuda, yəni ən əsas məqsədlərin gerçəkləşməsində fikir birliyinə gəldilər. Bu ən əsas məqsəd - Asiyanı "ortaq rifah" və "ortaq mövcudluq"

ab-havası içində "İmperialist Yolda" yenidən inşa etmək, başqa bir deyişlə, Yaponiyanın nəzarəti altında yeni bir Asiya yaratmaqdı.

1930-cu illərin əvvəllərində Mancuriya olayının arxasınca, yapon hökuməti öz ehtiyaclarını qarşılamaq üçün neft sənayesi üzərində hegemonluq qurmaq istədi. Daxili bazarın 60 faizi iki Qərb şirkəti - "Rising Sun" və "Standard Vacuum" tərəfindən tutulmuşdu. "Rising Sun" Hollandiya Kraliyyət Shellə bağlıydı. Digər adı "Stanvac" olan "Standard Vacuum" isə Jerseyə və Nyu York Standard Şirkətinə bağlıydı və şirkətin Uzaq Şərqdəki əməliyyatlarını idarə edirdi. Daxili bazarların geri qalan hissələri, neftlərini müxtəlif amerikalı istehsalçılardan idxal edən təxminən 30 yapon şirkətinin əlindəydi. Bazardakı mövqelərini inkişaf etdirmək istəyən yapon ticarət firmalarının da dəstəyini alan hərbçilər, 1934-cü ildə Neft Sənayesi haqqında qanuna bir dəyişiklik etməyə nail oldu. Bu dəyişiklik, hökumətə idxalata nəzarət etmə səlahiyyəti vermək, müəyyən şirkətlər üçün bazarda kvota ayırmaq, qiymətləri müəyyənləşdirmək və satın alma məcburiyyəti üçün əlavə səlahiyyətlər vermək deməkdi. Əcnəbi şirkətlərdən normal ticari çalışma şərtləri xaricində 6 aylıq inventar tutmaları tələb olunurdu. Bütün bunları etməkdəki məqsəd apaçıq ortadaydı: Yaponiyanın nəzarətində bir neftayırma sənayesi yaratmaq, xarici şirkətlərin bu işdəki rolunu ən aşağı səviyyəyə endirmək və savaşa hazır olmaq. Bütün bunlar azmış kimi, Yaponiya başqa bir məqsədə daha yol almışdı. Öz müstəmləkəsi olan Manchukuoda neft inhisarı yaratmaq, nəticədə qərbli şirkətləri limon kimi sıxıb məhv eləmək istəyirdi.

Xarici şirkətlər limon kimi sıxılıb məhv olunmaq təhlükəsi ilə qarşılaşdıqlarını fərq etməkdə gecikmədilər. Amerikan və İngiltərə hökumətləri də Yaponiyanın





yürütdüyü yeni, məhdudlaşdırıcı neft siyasətinin əleyhinəydilər. Ancaq buna necə reaksiya veriləcəkdi? Bu sualın cavabını vermək üçün Vaşinqton, Nyu York və London - aralarında müzakirə aparıb, embarqo mövzusunu gündəmə gətirdilər. Yaponiyanın etdiyinin eynisini onun başına gətirməklə - misilləmə yoluyla həyata keçiriləcək bir embarqo - istər tam, istər qismən olsun - Yaponiyaya daha az xam neft verilməsini təmin edəcəkdi. Valter Teagle həm Xarici İşlər Nazirliyinin səlahiyyətliləri ilə, həm də Neft İdarəsinin prezidenti Harold İckeslə mövzunu müzakirə etmək üçün Vaşinqtona getdi. Bir çox təkliflər ortaya atıldı. Neftçilərin irəli sürdüyü təklif, yüngülcə embarqo mövzusunu eyham edərək, yaponları "qorxutmaq" və beləliklə, onları yumşalmağa məcbur etməkdi. Bu müzakirənin olduğu kimi Tokioya yetişməsinə, beləcə, yapon siyasətində bəzi dəyişikliklərin baş verməsinə ümid edirdilər. 1934-cü ilin noyabr ayında İngiltərə Nazirlər Kabineti toplanır, Xarici İşlər Nazirliyinin tövsiyə etdiyi siyasi tutumu, yəni "Yaponiyanın neft siyasətinə qarşı mümkün olan ən sərt müqavimətin göstərilməsi" tutumunu mənimsəyirdi. Bu tutumda qeyri-rəsmi olaraq təşkil olunacaq bir embarqoya hökumətin dəstək verməsi də vardı. Ancaq Xarici İşlər Naziri Cordell Hullun, Birləşmiş Ştatların belə bir hərəkətə dəstək verməyəcəyi haqqında konkret münasibət bildirməsi ilə embarqo söhbətlərinə ən azından o gün üçün son verilirdi. Bu arada neft şirkətləri və Yaponiya hökuməti arasındakı təzyiqlər və gərginliklər gedərək artır, bu hal 1937-ci ilin yaz mövsümünə qədər davam edirdi. Bu tarixdə Yaponiyanın davranışı birdən-birə dəyişdi.

## Qarantin

1937-ci il, iyul ayının 7-dən 8-nə keçən gecə Beijing yaxınlarındakı Marco Polo Körpüsündə yapon və Çin silahlı qüvvələri arasında səbəbi bilinməyən iki toqquşma olmuşdu. Bu tarixdən keçən bir neçə həftə müddətində iki tərəfin bir-birinə bəslədiyi düşmənçilik duyğuları daha da qabarıq formada üzə çıxmışdı. Çin milliyyətçiləri Yaponiyaya daha artıq imtiyaz verilməsinə qarşı çıxıb, müxalifətçilik etməyə başladılar. Milliyyətçilərin lideri Çan Kay Şek bir müsahibəsində "əgər torpaqlarımızdan bir qarış daha versək, hədəfimizə, yaşamımıza qarşı bağışlanmaz günah işlətmiş olarıq" demişdi. Yaponlara gəlincə, onlar öz hesablarınca Çinə yaxşı bir dərs vermək, ordusuna da "ağıllıca bir zərbə endirmək" qərarındaydı. Marco Polo Körpüsündəki çatışmalardan sonra Çin, 14 avqustda Şanxayda yerləşən yapon dəniz limanını bombaladı və bunun arxasınca Yaponiya Çinə müharibə elan elədi.

Yaponiya, öz iqtisadiyyatını tam müharibəyə hazır vəziyyətə gətirmək üçün fəaliyyətlərini birdən-birə sürətləndirmişdi. Yaponiya bu arada əcnəbi neft şirkətləri ilə münasibətlərini yaxşılaşdırmaq üçün də əlindən gələni edirdi. Yapon hökuməti neft rezervlərinin məhv olunması kimi bir risqi gözə almaq istəmirdi. Bundan başqa, "Diet", yəni yapon məclisinin fövqəladə yığıncağında səfərbərlik haqqında qanun da qəbul edilmiş, Sintetik Neft Sənayesi haqqında qanun qüvvəyə minmişdi. Qanun yeddi illik bir müddəti nəzərdə tutaraq hazırlanmış, 1943-cü ilə qədər - əsasən kömürdən alınmış maye yanacaq olmaqla - Yaponiyanın 1937-ci il istehlakının yarısına bərabər süni yanacaq istehsalını hədəf alırdı. Bu hədəf, açıqca





göründüyü kimi həm çox iddialıydı, həm də həqiqətdən ifrat dərəcədə uzaqdı.

Amerikanın rəsmi siyasəti və ictimaiyyəti başından bəri Çini dəstəkləmiş, bu ölkəni Çin-Yapon müharibəsinin bir qurbanı olaraq qəbul etmiş və ona yardım etmişdir. Amerika Birləşmiş Ştatları Yaponiyaya "təcrid olunma" siyasətinin tətbiq olunmasının, ölkənin yalnızlığa tərk olunaraq cəzalandırılmasının tərəfdarıydı. Franklin Ruzveltin Donanma Nazirinin müavini olan zaman yazdığı "Yaponiyaya inanmalıyıqmı?" məqaləsinin üzərindən 14 il keçmişdi. 14 ildən sonra, artıq prezident kreslosunda oturan Ruzvelt, həm ölkə daxilindəki siyasi təzyiqlərdən, həm də ölkə xaricindəki ciddi hadisələrdən bezmiş, yorğun düşmüşdü. 1937-ci ilin oktyabr ayında etdiyi bir çıxışda, dünyada baş alıb gedən qanunsuzluq hərəkətlərinin qarşısını almaq üçün bir "qarantin" siyasətinin vacibliyinə üstü qapalı olaraq toxunurdu. Yengizə çayında dörd Amerikan gəmisinə olunan bir hava hücumu nəticəsində Ruzvelt, Nazirlər Kabinetinə, məxsusən "qarantina"nın nə demək olduğunu açıqlayırdı. "Qarantin" məhfumundan qəsdi savaş elan etməyə ehtiyac qalmadan, Yaponiyaya qarşı iqtisadi sanksiyalar tətbiq etməkdi. Ancaq Amerika prezidenti, "tərəfsizlik" prinsipi və Amerikanın o illərdə mənimsədiyi "izolyasiya" siyasəti səbəbindən, bu fikrini gerçəkləşdirməyə imkan tapmadı.

Digər tərəfdən, yaponların Çinin mülki əhalisinə hücumlarına dair raportlar gündən-günə qabarır, bu, amerikalıların Yaponiyaya olan etimadsızlığını daha da qızışdırırdı. 1938-ci ildə qəzetlər və xəbər agentliklərinin yayınladığı fotoşəkillər Yaponiyanın Kanton bölgəsini necə amansızlıqla bombardman etdiyini gözlər önünə sərdiyində, Amerikan ictimaiyyəti tamamilə Yaponiyanın əleyhinə

çevrildi. Aparılan rəy sorğusunun nəticələrinə görə, Amerikan xalqının böyük əksəriyyəti Yaponiyaya hələ də hərbi silah-sursatın göndərilməsinə qarşı idilər. Amma Ruzvelt hökuməti iki mövzuda çəkinirdi:

1. Çox sərt siyasət izləmək Yaponiyadakı yumşaq siyasət tərəfdarlarını büsbütün təhrik edərdi;

2. Bu cür bir siyasət, daha yaxın və daha ciddi bir təhlükə olan Nasist Almaniyası problemində Amerikanın daha uyğun reaksiya verməsinin qarşısını ala bilərdi.

Amerika bunlardan qorxurdu. Bu narahatçılıq səbəbindən Ruzvelt hökuməti Yaponiyaya ixrac edilən təyyarə və təyyarə mühərrikləri üzərinə "mavi embarqo" qoymaqla kifayətləndi, bundan o tərəfə keçə bilmədi. Heç bir qanuni əsası olmadan, Xarici İşlər Nazirliyi amerikalı istehsalçılara yazılı şəkildə müraciət edib, yaponlara bu tipli mal satmamalarını tələb etdi. Vaşinqtonu həyəcanlandıran səbəblərdən biri də Yaponiya ilə Almaniya arasında son zamanlarda bir yaxınlaşmanın müşahidə olunduğunu və bu yaxınlaşmanın getdikcə gücləndiyini göstərən əlamətlərdi. Görünüşdə Yaponiya və Almaniya Sovetlər Birliyini hədəf götürən 1936-cı il tarixli anti-Kominternlərin Paktına imza atmışdılar. Almaniya, Birləşmiş Ştatlar və İngiltərə İmperiyasına qarşı daha qısa zamanda hərəkətə keçməsi üçün Yaponiyaya təzyiq göstərir, ancaq Tokio, Berlinə də açıqladığı kimi, imtina olunması mümkün olmayan xammaddə və xüsusən, neftə olan ehtiyacı səbəbilə bu iki ölkəyə bağımlı olduğundan, göstərilən təzyiqlərə qarşı müqavimət göstərir, "hələ bu demokratik dövlətlərə qarşı irəli atılmağa hazır olmadığını" söyləyirdi.

Bu mövzuda Yaponiyanın tam bir çaşqınlıq içərisində olduğu görünür. İstehlak etdiyi və böyük bir hissəsi donanmayla hava qüvvə qüvvələrinə gedən neftin əksəriyyətini





Amerikadan təmin edir, amma buna baxmayaraq, Amerikadan olan asılılığını minimuma endirmək istəyirdi. Bu asılılığın hər hansı bir müharibə şəraitində onu zəiflədəcəyindən qorxurdu. Ancaq Tokionun təhlükəsizlik axtarışı və asılı olmamaq üçün atdığı addımlar, bundan başqa, "ortaq rifah planı" üçün həyata keçirdiyi bəzi planlar və sərgilədiyi amansız davranış biçimi, Yaponiyanı gedərək Amerika ilə bir savaşa aparır, bu savaş üçün lazım olan şəraiti yaradırdı. Yeri gəlmişkən, 1930-cu illərin axırlarında Çinlə arasındakı savaş səbəbilə neftə olan ehtiyacı həddindən artıq artmış, buna görə də Amerikadan asılılığı daha da çoxalmışdı. Bundan başqa, vəziyyəti tərs kimi elə bərbad olmuşdu ki, valyuta qıtlığı işini bir az da çətinləşdirmiş, nəticədə Yaponiya idxal etdiyi neftin pulunu ödəməkdə sıxıntıya düşmüşdü. Bu da ölkədaxili iqtisadiyyat üçün vacib olan maddələrdə kəsinti olunmasını məcburiləşdirirdi. Görülən tədbirlər sırasında neft və digər yanacaq növlərinin talona bağlanması da vardı. Bütün bu çətinliklər Yaponiyanın müharibə iqtisadiyyatı yaratma təşəbbüslərini zəiflədirdi. Yaponiyanın əsas qida qaynaqlarından biri olan balıqçılıq sənayesinə olunan neft ayırmaları qaldırıldığı üçün, bu işin davam etdirilməsi də artıq tamamən külək enerjisinin ümidinə qalmışdı

Artıq 1939-cu ildə Amerika Birləşmiş Ştatları Yaponiyanın hərəkətlərinə qarşı tamamən müxalifətə keçmişdi. Yenə də Ruzvelt və Xarici İşlər Naziri Hull, ortaq bir siyasət izləməyi qərarlaşdırmışdılar. Nə Amerikanın ifrat sərt tədbirlər görərək, Sakit okean hövzəsində ciddi siyasi böhran yaratmasına, nə də həddindən artıq yumşaq davranaraq, Yaponiyaya yeni hücum imkanları tanımasına fürsət vermək istəmirdilər. Ən yaxşısı, bu iki variant arasında ortalama bir yol təqib etməkdi. Bir şey vardı ki, Amerikan

ictimaiyyəti eyni görüşdə deyildi. Nəhayət, Yaponiyanın əvvəlcə Çindəki mülki əhalini, sonra da 1939-cu ilin may ayında Chungkingi bombalaması, Amerikan ictimaiyyətində bardağı daşıran son damla oldu. Amerikan xalqı öncə şok oldu, arxasından da böyük reaksiyalar göstərməyə başladı. Time dərgisinin yazarlarından Theodor H.Vhite bu hadisəni dərginin birinci səhifəsinə çıxararaq "hava hücumları tarixində qırılan ən böyük rekord" manşetini qoydu. Bu ara "American Committee for Non-Participation in Japanese Aggression" (Yapon hücumlarına qatılmama tərəfdarı olan Amerikan Cəmiyyəti) kimi dərnəklər Amerikanın Yaponiyaya edilən bütün ixracatı kəsməsi üçün sərt kampaniyalar təşkil etməyə başladılar. Bir dərgi bu olaydan bəhs edərkən, bu dəyərləndirməyi diqqətə gətirmişdi: "Pilotları Yaponiya axtarıb tapır, amma təyyarələri, benzini, nefti və müdafiəsiz Çin şəhərlərinin bombalanmasında istifadə olunan bombaları da təmin edən Amerikadır." 1939-cu ilin iyun ayında bir rəy sorğusu keçirildi. Rəyi soruşulanların 72 faizindən çoxu Yaponiyaya göndərilən silah-sursatın ixracına embarqo qoyulmasını istəyirdilər.

Ruzvelt prezident seçilən kimi, maraqlı dairələrdə ən yaxşı və uyğun reaksiya göstərmə formasının hansı olduğu haqqında sərt və uzun müzakirələr baş alıb getdi. Bunlar arasında hər zaman gündəmdə olan "birbaşa iqtisadi embarqo tətbiq etmək" mövzusu da vardı. Ancaq Amerikanın Yaponiya səfiri İosif Grev buna qarşı idi və doğura biləcəyi mənfi nəticələr barəsində hökumətə xəbərdarlıq edirdi. Tokiodan yazdığı raportda yaponların, qərbli dövlətlər tərəfindən xorlanması və həqarət görməsindənsə, hər cür məhrumiyyətlərə müqavimət göstərməyə hazır olduqlarını bildirirdi. 1939-cu ilin payızında Amerikaya





etdiyi bir ziyarətdə səfir Grev iki dəfə prezident Ruzveltlə görüşdü və bu görüşlər haqqında gündəliyinə bu müşahidələrini yazdı: "Prezidentə fikirlərimi bütün açıqlığı ilə izah etdim. Yaponlara embarqo tətbiq etdiyimiz an, bunu sonuna qədər yerinə yetirməyimizin lazım olacağını söylədim. Bunun axırı böyük bir ehtimalla savaşdır. Prezidentə eyni zamanda bunu da söylədim ki, Yaponiyaya neft göndərməyi dayandırsaq və Yaponiya milli təhlükəsizliyi baxımından kifayət edəcək qədər nefti digər ticari qaynaqlardan təmin edə bilməsə, böyük bir ehtimalla Şərqi Hind Adalarının Hollandiya kəsiminə hücum edəcək, buranı işğal etmək üçün eskadrilyalarını göndərəcəkdir."

Prezidentin cavabı belə oldu: "Elədirsə, biz də asanlıqla bu eskadrilyaların yollarını kəsərik."

Prezidentlə etdiyi söhbətində səfir Grev, 1939-cu ilin payızında gündəmdə olan siyasəti açıqlamaq, gələcək günlərin nə gətirəcəyini bildirmək istəmişdi. Niyyəti bu siyasətə münasibətini bildirmək deyildi. Hələ neft embarqosu haqqında bir plan yox idi. Ruzvelt də səfir Grevə verdiyi cavaba baxmayaraq, bu çatışmanın risqini gözə almaq istəmirdi. Ancaq günlər keçir, neft mövzusu iki ölkə arasında get-gedə daha ciddiləşən bir problemə çevrilirdi.

Bu hadisələrdən bir il əvvəl, 1938-ci ilin sentyabrından Haguedə amerikalı iki iş adamı oturmuş, sifətlərindən zəhrimar yağa-yağa radiodan son xəbərləri dinləyirdilər. Bunların biri Jersey və Nyu York Standardın şərikli firması "Stanvac"ın prezidenti Corc Valten, digəri də "Stanvac"ın Şərqi Hind Adaları Hollandiya kəsimindəki istehsalat bölümünün müdiri Lloyd Shorty Elliot idi. O zaman gündəmdə olan əsas mövzu Münhen böhranı idi. Avropa artıq müharibənin kandarına gəlmişdi. İngiltərə və Fransa Hitlerin Çexoslovakiya üzərindəki tələblərini hələ təzəcə qəbul etmişdi və bu, Baş nazir Neville Çemberlinin "çağımızda

sülh" adını verdiyi şüarı qarantiya altına almaq üçün həyata keçirilmişdi. Bir şey vardı ki, böyük bir diqqətlə radiodan Hitlerin o gün etdiyi çıxışı dinləyən Valden və Elliot, savaşın artıq qaçınılmaz olduğunu, yalnız Avropada deyil, Asiyada da bir savaşın mütləq başlayacağını başa düşmüşdülər. Savaş Asiyada başladığı an, yaponların Şərqi Hind Adalarına hücum edəcəyindən əmin idilər. Elliotun sözləriylə "bu, artıq sadəcə "nə zaman" və "necə" məsələsiydi."

Haguedə keçirdikləri o gecə Valden və Elliot, yapon istilası gəlib çatdığında necə hərəkət edə biləcəklərini planlamağa başladılar. Bu iki adam yeni planlarını həyata keçirməkdə heç vaxt itirmədilər. İlk addım kimi Hind Adalarında sədaqətli olmalarına şübhə edilən nə qədər alman, hollandiyalı və yapon fəhlə varsa, hamısının işlərinə son verildi. "Stanvac" neftayırma zavodu və neft quyularının lazım gəldiyi an partladılması üçün planlar işlənib hazırlandı. Ancaq əsil məqsəd yaponların qarşısını almaqdı. 1940-cı ilin ilk günlərində boşaltma planlarında əməlli-başlı nəticələr əldə olunmuş, iş yerləri əcnəbi fəhlələrdən təmizlənmişdi. Valden, Hind Adalarındakı "Stanvac" təmsilçilərinə, Amerika Yaponiyaya göndərilən neftə embarqo qoyarsa, şirkətin də buna "tamamən riayət və əməkdaşlıq etməsi" və "dünya üzündə nəzarəti altında nə qədər firma varsa, hamısının Yaponiyaya olunan neft ixracını dayandırması" təlimatını verdi. Bu firmaların əksəriyyəti Amerikanın nəzarəti altında deyildi. Amma buna baxmayaraq, onların da təlimata riayət etmələri tələb olunurdu. Valden kifayət qədər açıq mətnlə "Şərqi Hind Adalarının Hollandiya kəsimindən olunan neft ixracının dayandırılması" əmrini vermişdi. Valden bu əmri yapon donanmasının buradakı mal varlıqlarını alıb





aparması ehtimalına baxmayaraq vermişdi. Bundan başqa, o günlərdə Birləşmiş Ştatlarda "Standard Oil naminə işlədiyi" səbəbilə Amerikan hökumətinə qarşı etiraz səsləri yüksəlirdi. Bu səslər səbəbilə hökumət Şərqi Hind Adalarının Hollandiya kəsimindəki Amerikan müəssisələrini qorumaq üçün təşəbbüs göstərməkdən çəkindi. Valden bu ehtimalı təxmin edə bildiyi halda, bu əmri verməkdə zərrə qədər tərəddüd etməmişdi.

## Yaponiya irəliləyir, Amerika kəsintiyə gedirdi (Birinci raund)

Yaponiya, Birləşmiş Ştatlardan gələn neft və digər maddələrin kəsilməsindən gedərək daha çətin vəziyyətə düşmüş, kədərli halda tərəddüdlərə qapılmışdı. Bu vəziyyətdən çıxış yolu tapmaq istəyən Tokio, sənaye baxımından öz-özünə kifayət edəcək və ölkəni Birləşmiş Ştatlardan olan asılılıqdan qurtaracaq bir siyasət izləməyə başladı. Bu siyasət doğrultusunda bir təbliğat kampaniyasına başlayaraq, yapon xalqını - məktəb yaşındakı uşaqlara qədər Amerika, İngiltərə, Çin və Hollandiya güclərinin Yaponiyanı neftsiz qoyub, boğmaq və sonra da məhv etmək üçün necə casusluq fəaliyyətləri həyata keçirdiyinə inandırmağa çalışdı. Ancaq 1939-cu ilin sentyabr ayında Avropada savaşın başlamasından sonra Yaponiyanın mövqeyi bir az daha gücləndi. 1940-cı ilin may-iyun aylarında Almaniyanın Belçika, Hollandiya və Fransada hər cür müqaviməti qıraraq, bu ölkələri bir neçə gün içərisində işğal etməsindən sonra, Yaponiya daha güclü görünməyə başladı. Yaponlar Çində irəliləməyə davam edir, xeyli uğurlara imza atırdılar. Sonra birdən-birə, İngiltərə xaric,

bütün müstəmləkə güclərinin də maraqlarını çeynəyərək, bütün Uzaq Şərq ölkələrini təhdid etməyə başladılar. Sanki bu təhdidin ciddiyyətinin qəbul olunmasını gözə soxarcasına, indi də Londonda sürgün həyatı yaşayan Hollandiya hökumətindən Şərqi Hind Adalarındakı böyük neft ehtiyatlarını tələb etdilər. Bu tələblə əlaqədar olaraq Vaşinqton, gələcəyin taleyini müəyyən edəcək bir qərar aldı. Bu qərar mühasirə altında olan İngiltərənin Uzaq Şərqdəki qüvvələrini geri çəkə biləcəyi qorxusu altında alınmışdı. Vaşinqton, qərara uyaraq Amerikan eskadrilyasını Cənubi Kaliforniyada özünə aid olan bazadan, Havaydakı Oahu Adasındakı Pearl Harbora çəkdi. O günlərdə donanma zatən Havay yaxınlarında manevrdə idi. Ona görə də Pearl Harbora nəql olunmaq böyük sürətlə gerçəkləşdi. Bunu etməkdəki məqsədlərindən biri ingilislərin qəbul etdikləri qərarda israr etmələrini təmin etmək, başqa bir məqsəd də Tokionun qarşısına əngəllər qoymaqdı.

1940-cı ilin yaz ayları çox əhəmiyyətli bir mövzuda dönüm nöqtəsinə gəlindiyinin bir əlamətidir. İyun ayında Yaponiya cənuba doğru irəliləməyə başladı. Fransadakı yeni hökumətdən hərbi bir dəstənin fransız Hind-Çininə göndərilməsinə göz yummasını tələb etdi. Şərqli hindlilərdən ona savaş üçün lazım olan silah-sursat verməsini tələb edirdi. İngiltərəni həm Şanxaydan qüvvələrini çəkməsi, həm də Burmadan Çinə uzanan nəqliyyat yolunu bağlaması üçün təhdid edir, bunu etmədiyi təqdirdə savaş elan edəcəyini söyləyirdi.

Eyni ay içərisində prezident Ruzvelt Henry Stimsonu müharibə naziri təyin etdi. Stimson uzun illərdən bəri Amerikanın Yaponiyaya hər cür ixracatının qarşısında olmuş, bu baxımdan, hökuməti tənqid etmişdi. Bundan





başqa, Birləşmiş Ştatların izlədiyi siyasətdə razılaşmadığı məqamları da həmişə tənqid atəşinə tutmuşdu. 1940-cı ilin iyul ayının 2-də Ruzvelt, Qərbi Avropanın nasistlər tərəfindən istila olunmasından sonra Konqresdən böyük bir sürətlə keçirilən Milli Müdafiə Qanununu imzaladı. Qanunun 6-cı maddəsi prezidentə ixracata nəzarət etmək səlahiyyəti verirdi. Nəzarət etmək səlahiyyəti Yaponiyaya göndərilən neft miqdarının məhdudlaşdırılmasında işə yarayacaqdı.

Tokioda qərbli qüvvələrlə çatışmaqdan qaçınılmasını istəyən lider sayısı gündən-günə azalmaqdaydı. Ölkənin gizli polisi bir plan tərtib edərək, İngiltərə və Birləşmiş Ştatlarla uzlaşma istəyən adamları təsbit edib öldürürdü. Seçilən hədəflər arasında Baş nazir də vardı. Bu fitnə-fəsad planı iyul ayında ortadan qaldırılsa da, verəcəyi mesajı kifayət qədər açıq olaraq elan etmişdi. Elə o ay içərisində yapon kabineti, yenilənmiş yeni Baş nazir Prins Konoya sədrliyində ilk iclasını keçirdi. "Komisori", yəni "Jilet" deyə tanınan General Hideki Tojo müharibə naziri təyin olundu. Yeni Savaş naziri Mancuriyadakı Kvantung Ordusunun Baş Qərargah Rəisi olmuş və 1931-ci ildəki Cənubi Mancuriya dəmir yolları hücumunda ilk əməliyyatı başlatmış adamdı.

1940-cı ilin iyul ayının ikinci yarısında Tokio və Vaşinqtonda eyni günlərdə cərəyan edən hadisələr, bu iki ölkənin artıq çarpışma nöqtəsinə gəldiyini göstərirdi. Ana mövzu neftdi. Yaponlar cənub-şərqi Asiyaya girməkdə mütləq qərarlı idilər. Onların düşüncələrinə görə, cənub-şərqi Asiyaya girməklə Çin savaşını daha sürətlə qazanacaqdılar. Neft ehtiyatlarını sağlama almaq üçün Yaponiya, nəyin bahasına olursa olsun, Şərqi Hind Adalarının Hollandiya kəsimindən əlavə neft əldə etmək qərarındaydı.

Bundan başqa, Birləşmiş Ştatlardan müəyyən olunan miqdardan çox benzin İdxal etmənin yollarını arayırdı. 1940-cı il iyul ayının 19-da Ruzvelt, məsləhətçilərini toplantıya çağırdı. Ruzveltin tam qarşısındakı divarda bir xəritə asılmışdı. Prezident əliylə bu xəritəni göstərərək, günlərdən bəri burada - bu xəritənin qarşısında oturub xəritəni incələdiyini, nəticədə bir qərara gəldiyini söyləyirdi: "Dünyanın içərisində yer aldığı çətinliklərdən çıxmanın yeganə yolu var. Təcavüzkar ölkələrə verilən ləvazimat nəqlini dayandırmaq. Xüsusilə, bu ölkələrin müharibə etmək məqsədilə istifadə etdikləri neft nəqlini dayandırmaq lazımdır." Bu sözlərdən sonrakı müzakirə əsnasında Avropadakı təcavüzkarlara qarşı bu cür bir tədbir görülməsinə heç kim etiraz etmirdi. Ancaq Yaponiya mövzusu çox ciddiydi. Bu mövzuda çox sərt çıxışlar oldu. Bu cür bir tədbirin vəziyyəti daha yaxşı istiqamətəmi, yoxsa daha pis yönəmi aparacağı haqqında heç bir razılaşma əldə olunmadan toplantı sona çatdı.

Bu toplantının sabahısı günü Ruzvelt, iki okeanda birdən seyr edəcək bir donanmanın qurulmasını nəzərdə tutan qanunu imzaladı. Beləliklə, Birləşmiş Ştatlar Atlantik okeanı hövzəsində almanlarla savaşarkən, bir yandan da Sakit okean hövzəsində yapon təhdidinə qarşı müqavimət göstərəcəkdi. Vəziyyət bu cür ikən, hansı səbəblə Yaponiyaya hələ də öz donanmasında istifadə etmək üçün neft verməkdə davam edilirdi? Artıq bir çoxları bu sualı soruşurdu. Bu ara Maliyyə naziri Henry Morgenthau və Savaş naziri Stimson, bir bəyannamə yayınlayaraq, Yaponiyaya olunan neft ixracatına tam embarqo qoyulması çağrısı etdilər. Ancaq Yaponiya ilə bir çatışma ehtimalından hələ də qorxan Xarici İşlər Nazirliyi, bu bəyannaməni təkrar ələ aldı və bəzi maddələri dəyişdirib





yumşaltdı. Embarqo sadəcə 87 oktan və ya daha yüksək dərəcəli təyyarə benzini ilə bəzi dəmir və polad növlərinin məhdudlaşdırılmasını əhatə edəcəkdi. Amerikan təyyarələri 100 oktanlıq yanacaq istifadə etdiyi üçün, bu yolla Birləşmiş Ştatların hərbi kontingentinə lazım olan benzin rezervi qorunmuş olacaqdı. Yapon təyyarələri isə 87 oktan və ya daha aşağı oktanlı yanacaqdan istifadə edirdi. Buna görə də boykot Yaponiyaya təsir edib, onu əməllərindən çəkindirməyəcəkdi. Bundan əlavə, lazım olduğunda bu yanacaq Yaponiyada çox sadə üsullar tətbiq etməklə daha yüksək oktana çevrilə bilirdi. Bunun üçün Amerikadan alınan yanacağa az miqdarda ağır, rəngsiz, zəhərli bir maye olan tetraetil maddə əlavə etmək kifayət idi. Gələcəkdə ortaya çıxdı ki, Yaponiya, 1940-cı ilin iyul bəyannaməsindən sonrakı 5 ay içərisində, bəyannamənin verilməsindən öncə satın aldığı 86 oktanlıq benzin miqdarından 550 dəfə çox benzin satın almışdı. Göründüyü kimi, embarqo nəticəsiz qalmışdı. Buna baxmayaraq yenə də Tokio, tutduğu yolun sonunda onu nəyin gözlədiyini bilmir, bu mövzuda narahatlıq içində gözləyirdi.

Artıq başlayacaq savaşın əlamətləri əməlli-başlı müəyyənləşmişdi. 26 sentyabr 1940-cı ildə yaponların Hindi-Çindəki hərəkətinə, sonra da Almaniya və İtaliya ilə yeni bir müqavilə imzalamasına etiraz olaraq Vaşinqton, dəmir və polad maddələrinin Yaponiyaya ixrac olunmasına embarqo qoydu. Ancaq neftə embarqo qoymadı. Bu qadağanın qoyulduğu gündən bir gün sonra Yaponiyanın Hitler və Mussolini ilə Üçlü bir müqavilə imzaladığı haqqında xəbərlər yayıldı. Bu hərəkəti ilə Yaponiya, Almaniya və İtaliyaya olan bağlılığını daha da möhkəmləndirmək istəmişdi. Ruzvelt belə deyirdi: "Avropa, Afrika və Asiyadakı düşmənçiliklərin hamısı, dünyadakı tək bir

nöqtədən qaynaqlanan anlaşılmazlığın parçalarıdır. Hamısının kökündə tək bu anlaşılmazlıq vardır!" Bunu söyləməsinə baxmayaraq, İngiltərənin mövcudluğunu təhlükə altına atan Avropa savaşının, ən dağıdıcı və hamısından ciddi savaş olduğunu hamıdan yaxşı bilirdi. Bu baxımdan, özünü "əvvəlcə Avropa" strategiyasına həsr etmiş, hər zaman üçün də belə qalmışdı. Ruzveltə görə bu, mümkün olan bütün qaynaqların Avropa üçün səfərbər edilməsi mənasına gəlirdi. Prezident bu mövzuda çox diqqətli və ehtiyatlı idi. Bunun başqa bir səbəbi də prezident seçkilərinin çox yaxınlaşmasıydı. Üç ay sonra keçiriləcək prezident seçkilərində Ruzvelt, rəqibsiz olaraq üçüncü dəfə prezidentliyə namizəd olacaqdı və qarşıdakı üç həftə içində vəziyyəti qarışdıracaq hər hansı bir narazılıq olmasını istəmirdi. Birləşmiş Ştatlar ordusu və donanması o əsnada öz əskiklərini düzəltməklə məşğul olduğu üçün Yaponiya ilə qarşı-qarşıya gəlməkdən çəkinir, bu səbəblə də neft embarqosu tətbiq etmək istəyənlərə qarşı səsini yüksəldirdi. Bu arada Yaponiya da boş dayanmır, ala bildiyi qədər çox neft satın alır, üstəgəl, qazıntı üçün lazım olan vasitələri, depolama tankerləri və daha başqa alətləri alıb, bunları xüsusi ciddi-cəhdlə gizli saxlayırdı. Artıq İngiltərə neft nəqlini dayandırmaq üçün bir yol tapmaq istəyirdi. Yaponlar bu dərəcədə böyük neft ehtiyatı yaratdıqlarına görə, tətbiq olunacaq hər hansı bir iqtisadi sanksiya bir elə də təsirli olmaya bilərdi. Göründüyü kimi, İngiltərə Yaponiyanın bu sanksiyalara qarşı əks-reaksiya verəcəyindən qorxurdu. Ruzvelt və Hull isə neft nəqlinin dayandırılması fikrinə hələ də qarşıydılar.





## Səssiz keçən danışıqlar

Xarici İşlər Naziri Hull, durub-dincəlmədən öz-özünə bir sual soruşa-soruşa qalmışdı: Əcəba, bir "modus vivendi", yəni "müvəqqəti anlaşma" yolu tapa bilməzdimi? Əcəba, bu mövzuda gözdən qaçan heç bir şey yox idimi? Bu suallara cavab tapmaq üçün beynini işlədərkən, bir yandan da yeni yapon Böyük elçisi, keçmiş Xarici İşlər Nazirlərindən Admiral Kichisaluro Nomura ilə özəl danışıqlar aparırdı. Bu iki adam gecələr, sadəcə bir neçə qoruma ilə bərabər Vardman Park Oteldəki Hullun dairəsində görüşürdülər.

Bu görüşlərdə hər iki adam öz ictimaiyyətinin görüşünü qarşı tərəfə bildirirdi. Uzun boylu, ağ saçlı Cordell Hull, dövlət adamlığına odunçuluqdan gəlmişdi. Tennesseedə kasıb bir daxmada doğulmuş, sonradan hakim olmuş, könüllü olaraq İspaniya-Amerika savaşına qatılmış, nəticədə Konqresə seçilmiş və senator olmuşdu. Ehtiyatlı, "çox ciddi bir görüş ayrılığını ən aşağı səviyyəyə qədər endirmək qabiliyyəti olan" bir adamdı. Bundan başqa, özünəməxsus bəzi keyfiyyətləri baxımından, yeri doldurulmayacaq birisiydi. 1933-cü ildə Xarici İşlər Naziri təyin olunduqdan sonra, özünü çox əhəmiyyətli gördüyü tək bircə həfədə həsr etmişdi: dünya barışına da yardımçı olacaq liberal bir iqtisadi düzən qurulması üçün bütün ticari əngəlləri ortadan qaldırmaq. Amma nə yazıqlar ki, indi, 1941-ci ildə o günə qədərki bütün təşəbbüslərinin boşa getdiyini görürdü. Ancaq hələ də pəs etmək niyyətində deyildi. Birləşmiş Ştatlar-Yaponiya münasibətlərində tam bir tənəzzülün qarşısını alacaq bir alternativ tapmaq üçün arası kəsilmədən təşəbbüslərini davam etdirmək istəyirdi. Bunun həyata keçirilməsi üçün bir çox

insanın göstərə biləcəyi səbrin də üstündə səbr və dözüm göstərməyə hazırdı. Bunu edə bilmək üçün zaman qazanmaq və zaman qazanmaq üçün də yollar axtarırdı.

Admiral Nomura da savaş təhlükəsinin uzaqlaşdırılması mövzusunda Hull ilə eyni fikirdəydi. Yumşaq siyasət tərəfdarı olan Admiral Nomuranın yapon siyasi və hərbi çevrələrində böyük hörməti vardı. 1 metr 85 sm-lik boyu və ciddi sifət cizgiləri ilə yurddaşları arasında sevilir, sayılırdı. 1932-ci ildə Şanxayda koreyalı bir milliyyətçinin gerçəkləşdirdiyi bombalı hücumda gözünün birisini itirmişdi. Bu hücumdan sonra topal olmuş, vücudunda sonsuza qədər gəzdirəcəyi güllə yaraları qalmışdı. Birinci Dünya Müharibəsində Vaşinqtonda Dəniz Attaşesi kimi çalışmış, o sırada Donanma Nazirinin müavini olan Franklin Ruzvelti tanımışdı. 1941-ci ilin fevral ayında Nomuranın Böyük elçi olaraq Vaşinqtona gəlməsi ilə yenidən qarşılaşmışdılar. Ruzvelt onu "dostum" deyə qarşılamış, ona "Böyük elçi" yox, "Admiral" deyə müraciət etmişdi. Nomura Amerikada yaşamaqdan məmnundu. Bu ölkədə bir çox dostu vardı və hamısından önəmlisi iki ölkə arasında qətiyyən müharibə olmasını istəmirdi. Amerikan Donanma Nazirinə söylədiyi kimi "dodaqları ilə qəlbi eyni şeyləri söyləmirdi." "Çaşqınlıq" içindəydi. Bir şey vardı ki, özü qərar verən adam deyil, sadəcə bir elçiydi. İllər sonra bir gün, 1941-ci ilin o əsəb pozucu günlərində nələr hiss etdiyi soruşulanda, Nomuranın cavabı belə olmuşdu: "Böyük bir ev yıxıldığı zaman, sadəcə tək bir dirək onu xilas etməyə kifayət etməz."

1941-ci ilin mart ayından başlayaraq, Hull və Nomura bir çox gecələr bəlkə 40, ya da 50 dəfə bir araya gəldilər və olunan təklifləri nəzərdən keçirdilər. "Toqquşmanın qarşısını ala biləcək hər hansı bir addım atıla bilərmi?" deyə araşdırma apardılar. Üzərində dayandıqları ümidsiz,





gələcəksiz zəmində bir çıxış yolu tapmağa çalışırdılar. Bütün bu müzakirələr sırasında Hull, heyranedici metodlardan istifadə edərək, psixoloji cəhətdən Nomuranı üstələdi. "Magic" (sehr) adlanan şifrə çözmə əməliyyatı sayəsində Birləşmiş Ştatlar və İngiltərə, ən gizli diplomatik yapon şifrəsi olan "Purple"nin (əflatun) sirrini açmışdılar. Bu şifrə vasitəsilə Hull, Nomurayla görüşmələrindən əvvəl Tokionun öz səfirinə göndərdiyi təlimatları və səfirin Tokioya göndərdiyi raportları oxumaq imkanı əldə edirdi. Hull öhdəsinə düşən rolu ustalıqla, bilməsi lazım olandan daha artığını bildiyini göstərən hər hansı bir hərəkətə yol vermədən oynamağa nail olmuşdu. 1941-ci ilin may ayında Almaniya Yaponiyaya bildirdi ki, onun diplomatik şifrələri Birləşmiş Ştatlar dövləti tərəfindən aşkarlanır. Ancaq Tokio üçün bu, "əhəmiyyətsiz" bir xəbərdi və doğru olması mümkün deyildi. Çünki yaponların qənaətinə görə, amerikalılar bu səviyyədə bir hiyləgərlik etmək qabiliyyətində deyildilər.

Bəli, Vaşinqtondakı Hull və həmkarları "Magic" sayəsində bir çox şeylər öyrənmişdilər, ancaq bilmədikləri şeylər daha çox idi. Bunlardan biri də yapon donanmasının Havay adalarındakı Amerikan eskadrilyası haqqında ağlından keçirdikləriydi. Yaponlara görə, əgər bu eskadrilya Şərqi Hindistanla Sinqapurun işğal olunmasında ortaya çıxacaq çaşqınlıqda yalnız buraxılsa, yapon donanması ona cinahlardan hücum edə bilərdi. Yeri gəlmişkən, bu düşüncələrlə yapon donanması son dərəcə cəsarətli və böyük risq ehtiva edən bir planla Pearl Harbora sürpriz bir hücum edəcəkdi.

## Yamamotonun oynadığı qumar - "Mütləq öləcəyəm"

Pearl Harbora basqın etmək planı ilk olaraq Admiral İsoroku Yamamoto tərəfindən 1940-cı ilin yazında düşünülmüşdü. Yaponiya Birləşmiş Eskadrilyasının Komandanı olan Yamamoto bu vəhşi, ağılalmaz qumarı elə o gün planlaşdırmağa başlamışdı. Admiral Yamamoto yapon admiralları içərisində ən cəsur, orijinal və müzakirəyə həvəsli olanıydı. Yerini-yurdunu bilmədiyi üçün bəzi adamlar tərəfindən dəstəklənməsə də, fiziki cəsarəti və liderlik qabiliyyəti ilə geniş çevrələr tərəfindən sayılıb-sevilirdi. Qısa boylu, enli kürəkli idi. Üzü və ümumiyyətlə, bütün davranışları əzmli və qərarlı xarakterini əks etdirirdi. İkinci Dünya Müharibəsinin başladığı gecə aktiv iş başında olan bütün şəxsi heyət içərisində, təxminən 40 il əvvəl rus-yapon müharibəsində həqiqətən komando kimi döyüşmüş bircə adam vardı - o da özü idi. Bunun isbatı vardı. Yaponiyanın böyük qələbə qazandığı 1905-ci ilin Tsushima döyüşündə sol əlinin iki barmağını itirmişdi.

Yamamotonun strateji xəyalları vardı. Bu xəyallarını və qumar oynamağa olan ehtirasını bu dəfə Pearl Harbora təşkil olunan hücumu planlamaqla söndürmüşdü. Buna baxmayaraq, yenə də bu hücum təklifinin ondan gəlməsi, ətrafını əməlli-başlı heyrətləndirəcəkdi. 1920-ci illərdə əvvəlcə Harvardda tələbə kimi, sonra da Vaşinqtonda donanma təmsilçisi və attaşe kimi 4 il Amerikada qalmışdı. Abraham Linkoln haqqında yazılmış 4-5 bioqrafiya oxumuşdu. "Life" dərgisinin davamlı və həvəsli oxucusu idi. Bütün Amerikanı gəzib-dolaşmışdı. Ölkəni çox yaxşı tanıyırdı və amerikalıları çox yaxşı anladığını tez-tez





təkrarlayar, bir növ bundan qürur hissi keçirərdi. Yamamoto qaynaq baxımından Amerikanın zəngin, Yaponiyanın isə kasıb olduğunu və Amerikanın səmərəlilik potensialının öz ölkəsinin potensialını qat-qat aşdığını hər zaman söyləmişdi.

Həqiqətən də Pearl Harbor planını tərtib etdiyi günlərdə belə Yamamoto, Amerika ilə müharibəyə girmə fikrinin tam bir qumar olduğunun fərqindəydi. Bu toqquşmanın özləri baxımından ən azından çox risqli olduğunu və nəticə etibarilə məğlubiyyətlə üzləşəcəklərini düşünürdü. Əvvəllər o da başqa bəzi donanma zabitləri kimi Amerika və İngiltərə ilə uzlaşmağa gedilməsinin tərəfdarı idi. Yaponiyanın mülki və ordu mənsubu olan liderlərini tənqid atəşinə məruz qoyur, Birləşmiş Ştatlarla başlanan gərgin münasibətlərdən onları məsul tutardı. 1940-cı ilin dekabr ayında Amerikanın iqtisadi embarqo tətbiq etdiyi haqqındakı şikayət dolu etirazlara bu cavabı vermişdi: "Bu, bir uşağın sırf kaprizlərini təmin etmək üçün girişdiyi məqsədsiz davranışları xatırladır." İfrat milliyyətçilərlə bəzi siyasətçiləri rahat kreslolarda oturub "savaş haqqında kreslo müzakirəsi apardıqları və savaşın nəyə başa gəlib, nə dərəcədə fədakarlıq tələb etdiyini başa düşmədikləri, bəzi mistik fantaziyalarla vaxt itirdikləri" üçün xor görürdü.

Neft faktoru Yamamotonun beynini bir xeyli məşğul etmişdi. Donanmanın və Yaponiyanın neft mövzusundakı həssaslıqlarını çox yaxşı qavramışdı. Yaponiyanın xırda miqyasda yerli neft istehsal edən bölgələrindən biri olan Nigata bölgəsində anadan olmuşdu. Doğulduğu qəsəbə Nagaoka isə lampalar üçün qaz yağı istehsal edən yüzlərlə kiçik fabriklərlə doluydu. Amerikada keçirdiyi illər Yamamotoya sənaye dünyasının kömürdən neftə keçməkdə olduğunu və gələcəyin, hətta donanmalar üçün belə, hava qüvvələrinə bağlı olacağını öyrətmişdi. Yaponiyanın neft

barəsindəki zəif mövqeyini bilirdi. Buna görə də Birləşmiş Eskadrilyalar Komandanı kimi, dünyanın üçüncü ən böyük donanması olan yapon donanmasının, hərbi təlimlərini Yaponiyadan bir az aralıdakı sularda keçirməsinə etiraz edərək, daha irəliyə gedilməməsinə israr etdi. Bunu neftdən qənaət etmək məqsədilə etmişdi. Yaponiyanın neft problemi onu o qədər narahat edirdi ki, nəticədə dənizçi həmkarlarının nə qədər kədərləndiklərini görmüş, bu haqda elmi təcrübələr üçün öncüllük belə etməyə girişmişdi. Adı keçən təcrübə, suyu neftə çevirəcəyini iddia edən bir "elm adamı" tərəfindən "sınaqdan" çıxarılmışdı.

Amerika və öz ölkəsi haqqındakı düşüncələrində dəyişiklik yoxdu. Yaponiyanın Amerikadan zəif olduğunu bilirdi, amma buna baxmayaraq, yenə də Yamamoto, özündə alovlu bir milliyyətçilik qığılcımları daşıyırdı. İmperatoruna və ölkəsinə bağlıydı. Yaponların seçilmiş bir millət olduğuna və Asiyada özəl bir missiya daşıdığına inanırdı. Vəzifəsi nədirsə, onu da yerinə yetirəcəkdi. Söylədiyi söz bu idi: "Etiraz ola bilməz! Birləşmiş Ştatlarla savaşmaq, bütün dünya ilə savaşmaq deməkdir! Amma artıq qərar verilmişdir və mən də əlimdən gələni edəcəyəm! Nəticədə öləcəyimdən əminəm!"

Yamamotonun daşıdığı qənaət belə idi: Madam ki, Yaponiya müharibəyə daxil olur, o zaman "öldürücü zərbəni" də endirməli, özünün cənub-şərqi Asiyadakı vəziyyətini düzəltməyə çalışdığı üçün Birləşmiş Ştatları siyasi tarazlığını pozmağa vadar edəcək addımlara sövq etməli idi. Birləşmiş Ştatlara sillə mütləq vurulmalıydı. Elə Pearl Harbora sürpriz hücumetmə fikri də bu düşüncələr içərisində ortaya çıxmışdı. 1941-ci ilin əvvəllərində Yamamoto bunları söyləyəcəkdi: "Rus-yapon savaşını araşdırdığımda özümə görə bəzi dərslər çıxarmışdım. Bunların arasında bir döyüş vardı ki, mənə çox təsir etmişdi. Bu, donanmamızın





müharibənin lap əvvəlində Port Artura tərtiblədiyi basqın idi. Mənə görə, bu, savaş müddətincə həyata keçirilmiş ən mükəmməl strateji addımdı." Sözlərinin sonuna Yamamoto bunları da əlavə edirdi: "Əməliyyatın ən təəssüf ediləcək yanı isə o idi ki, hücum planı tam anlamı ilə tətbiq olunmamışdı." Savaşın ilk başlarında Pearl Harbora hücum edib, düşmən eskadrilyasına öldürücü zərbə endirmək planı ilk olaraq 1940-cı ilin axırlarında, 1941-ci ilin əvvəllərində düşünülmüşdü. Yamamotonun hədəfi təkcə Amerika Birləşmiş Ştatları eskadrilyasını Sakit okean hövzəsində məğlub edərək, elə ilk gündən müharibənin taleyini həll etmək deyildi. Yamamoto, eyni zamanda Amerikan xalqının kefinə soğan doğrayıb, onu pərişan etmək niyyətindəydi.

Yaponların "Havay əməliyyatı" dedikləri bu hücumun uğur qazanması üçün prinsip olaraq bu şərtlər aranmışdı: Gizlilik, yüksək səviyyəli xəbəralma, mükəmməl koordinasiya, yüksək keyfiyyətli texniki qabiliyyət, yeni hava torpedolarının və dənizdə seyr halında yanacaq nəql edən texnologiyanın inkişaf etdirilməsi, bir çox texnoloji yeniliklər, aparılan mübarizəyə mütləq sədaqət, havadan və dalğalardan ümid etdikləri "əməkdaşlıq". Yaponların gizliliyə son dərəcə diqqət etmələrinə baxmayaraq, yenə də ABŞ səfiri Grev, Perunun Tokio səfirindən yaponların hücum planladıqları söyləntisini eşitmişdi. Grev bu xəbəri Vaşinqtona bildirsə də, oradakı səlahiyyət sahibləri belə bir şeyə ehtimal verməyib, üzərində dayanmadılar. Amerikalı səlahiyyət sahibləri bu dərəcə cəsarətli bir hücumun - nə o gün, nə də irəlidəki aylarda - mümkün ola biləcəyinə ehtimal verməmişdilər. Ehtimal vermək bir tərəfə dursun, donanmadakı və Xarici İşlər Nazirliyindəki yüksək çinli məmurlar Grev səviyyəsində olan böyük elçinin nə səbəbə bu dərəcə gülünc bir söyləntini ciddiyə ala bildiyinə heyrət edirdilər.

## Embarqo

1941-ci ilin aprel ayından iyun ayının sonuna qədər ABŞ hökumətində "Yaponiyaya neft ixracatı dayandırılsınmı, dayandırılmasınmı?" və "Amerika Birləşmiş Ştatlarında neft satınalmasında istifadə olunan yapon fondları dondurulsunmu, dondurulmasınmı?" müzakirələri durmadan davam etmişdir. Müttəfiq dövlətlər və Amerikanın artıq çatışma nöqtəsinə yaxınlaşdıqları qaçınılmazdı. Prezident Ruzvelt 1941-ci il may ayının 27-də bir bəyanat verərək, ölkədə "qeyri-müəyyən müddətə qədər" fövqəladə vəziyyət elan elədi. Müşavirlərindən birinin söylədiyinə görə, prezident bu bəyanatı Müttəfiq qüvvələrin dünya hakimiyyətini ələ keçirmək üçün girişdiyi pisliklərdə xalqın gözünü qorxutmaq, eyni zamanda bu təhlükələrə qarşı xalqı xəbərdar etmək üçün vermişdi. Bu bəyanatın yayınlanmasından dərhal sonra, Neft Koordinatorluğuna yeni təyin olunan Harold İckes nüfuzundan istifadə edərək, Şərq Sahillərində Yaponiyaya olunan neft nəqlini dayandırdı. İckes bu qadağanı Birləşmiş Ştatların şərqində neft ehtiyatlarının azaldığı, bunun da nəqliyyat məsələsində çətinliklər yaratdığı və həm də Şərq Sahilindən xaricə, xüsusilə də Yaponiyaya neft ixrac olunmasının ictimaiyyət tərəfindən etirazla qarşılandığını səbəb gətirərək qoymuşdu. Qoyulan bu qadağanın Körfəzə və Qərb Sahillərinə adiyyatı yox idi. İckes bununla kifayətlənmir, Yaponiyaya olunan hər növ neft ixracatı üzərinə bütünlüklə embarqo qoyulmasına çalışırdı.

Amma bir şey vardı ki, İckesin verdiyi bu əmr prezidenti əsəbiləşdirdi və İckes yeni bir qərarnamə ilə əmrini geri götürdü. Nəticədə prezident və İckes bir-birilərinə





incidici və acı sözlərlə dolu məktublar yazmağa başladılar. Yazdığı bir məktubda İckes, prezidentə qarşı olan görüşlərini bu kəlmələrlə dilə gətirirdi: "İçində yaşadığımız gün, Yaponiyaya olunan neft ixracatını dayandırmaq üçün ən uyğun gündür. Bu dərəcədə uyğun bir günün bir daha qarşımıza çıxacağına inanmıram. Bu günlərdə Yaponiya, Rusiyada baş verən hadisələrlə və Sibirdə baş verəcəklərlə o dərəcədə məşğuldur ki, Şərqi Hind Adalarının Hollandiya kəsiminə qarşı düşməncə bir hərəkata girişməyə riqs etməz. Yaponiyaya göndərdiyimiz neftə embarqo qoysaq, bu, ölkənin hər yerində razılıqla qarşılanacaq, təqdir toplayacaq."

Ruzvelt bu məktuba mütəvazi üslublu bir cavab verir, bunları söyləyirdi: "23 iyun tarixli məktubunuzu aldım. Mənə təklif edirsiniz ki, Yaponiyaya göndərilən neft üzərində embarqo tətbiq edim. İndi sizdən soruşur və cavabınızı gözləyirəm. Neft üzərində embarqo qoymaqla, onsuz da çox həssas məqamda olan tarazlığın büsbütün pozulacağını və Yaponiyanın bu səbəblə Rusiyaya və ya Şərqi Hind Adalarına hücum edəcəyini bilsəniz, qərarınız yenə beləmi olar?" Prezident, bundan başqa məktubunda kiçik bir Konstitusiya dərsi də keçir, İckesə xatırladırdı ki, Yaponiyaya ixracat mövzusu təkcə "neft problemi" ilə bağlı deyil, xarici siyasətlə bağlı məsələdir və tamamən prezidentin və prezidentin əmriylə vəzifəsini icra edən Xarici İşlər Nazirliyinin səlahiyyətinə aiddir.

Prezidentin bu fikirlərinə "son zamanlarda sizdən aldığım məktublarda dostca olmayan bir ton hiss edirəm" deyə reaksiya verən İckes, adəti olduğu kimi dərhal istefa ərizəsini yazdı. İstefa məktubunda təkcə neft koordinatorluğundan ayrıldığını bildirir, Daxili İşlər Nazirliyindən isə istefa vermirdi. İstefa məktubunun təqdim olunmasından

sonra prezident Ruzvelt, o zamana qədər bir neçə dəfə etdiyi kimi istefanı qəbul etməyəcəkdi. 1941-ci il, iyul ayının 1-də İckesə yazdığı bir məktubda "işə davam!" əmrini verir və belə deyirdi: "Məndə sizə qarşı dostca olmayan heç bir duyğu yoxdur. Məktubumda dostca olmayan bir ton hiss etdiyiniz haqqındakı görüşləriniz, hər halda havanın çox isti olmasından qaynaqlanmışdı!" Məktubunun davamında Ruzvelt, bir az daha açıqlama verərək, bunları yazırdı: "Yaponlar indi öz aralarında tam bir çökdürmə və bir-birilərinin axırına çıxma qovğası aparırlar. Çaşqınlıqdan nə edəcəklərini, haraya hücum planlayacaqlarını bilmirlər. Bunu planlaşdırmağa çalışırlar." Son olaraq da bunu əlavə edirdi: "Sizin də bildiyiniz kimi Atlantik okeanı hövzəsində nəzarəti əldə saxlamaq üçün, Sakit okean hövzəsində barışın qorunması lazımdır. Donanmamızın hər tərəfdə düzəni təmin edəcək, nizam-intizamı saxlayacaq gücü yoxdur. Sakit okeanda qarışıqlıqların və toqquşmaların meydana gəlməsi, Atlantik okeanında daha az gəmiyə sahib olacağımız mənasına gəlir."

Ruzveltin toxunduğu "knock-out" qovğası, Almaniyanın 1941-ci ilin iyununda Sovet İttifaqına etdiyi sürpriz hücumun təsiri altında ortaya çıxmışdı. Almaniyanın Sovet İttifaqına hücumu, Tokionu iki təməl strategiyadan birini seçməyə məcbur edirdi. Ya cənubdakı yoluna davam etmək, ya da Hitlerin qazandığı uğurlardan faydalanaraq, şərq cinahından Rusiya hücumunda iştirak etmək və beləliklə, Sibirdən bir pay qoparmaq. Tokiodakı yüksək çinli dövlət məmurları 1941-ci il iyun ayının 25-dən iyul ayının 2-nə qədər bu iki alternativ üzərində düşündülər və alovlu müzakirələr apardılar - nəticədə talelərini müəyyən edəcək qərarı verdilər. Sovet İttifaqına qarşı hər hansı bir hərəkata girişməyəcəkdilər. Bu hərəkatı təxirə salacaq,





bütün diqqətlərini cənub strategiyası üzərində toplayacaqdılar. Xüsusilə də, Şərqi Hindistana girmək üçün gərəkli olan Hindi-Çində nəzarəti ələ keçirməyə çalışacaqdılar. Bu qərarı bilə-bilə vermişdilər. Belə ki, yaponlar dəqiq bilirdilər ki, Cənubi Hindi-Çini işğal etmək Amerikanı təhrik etməyə və topyekun embarqo tətbiq etməsinə səbəb olacaqdı. Əslində bu, Dəniz Qüvvələrinin Baş Qərargah Rəisinin sözləriylə "imperiya üçün bir yaşam və ya ölüm məsələsiydi." Ancaq Yaponiya qərarını vermişdi və İngiltərədən və ya Birləşmiş Ştatlardan gələn savaş təhlükəsi onu əsla yolundan döndərə bilməyəcəkdi.

Başqa bir tərəfdən, Vaşinqton "Magic" proqramının köməkliyi ilə yaponların gizli şifrələrini aşkarlayıb oxuyur, beləliklə, müzakirə olunan tarixi müzakirələr və bir dərəcəyə qədər də varılan qərarlar haqqında məlumat əldə edirdi. Günlərin bir günündə şifrə vasitəsilə göndərilən bu qeydi oxuyacaqdılar: "Fransız Hind-Çinini işğal etdikdən sonra, planımızdakı ikinci hədəf Hollandiya Şərqi Hind Adalarıdır." Bu mesajı öyrəndikdən sonra prezident, 18 iyulda Kabineti toplantıya çağırdı və yaponların bir neçə gün içərisində Cənubi Hindi-Çinə girəcəklərinin məlum olduğunu və bunun mütləq baş verəcəyini bildirdi.

Ruzveltin bu raportunu dinləyən Maliyyə Naziri Morgenthau prezidentdən bu sualların cavabını verməyi tələb edirdi: "Sizdən - icazənizlə bir sual soruşmaq istəyirəm. Cavab verib-verməməkdə sərbəstsiniz. Yaponiya bu hərəkata girişdiyi zaman, buna qarşı nə kimi bir iqtisadi tədbir görəcəksiniz?"

Ruzvelt bu suala belə cavab verəcəkdi: "Əgər neft ixracatını büsbütün dayandırsaq, bu, mütləq yaponları Hollandiya Şərqi Hindistanın içərisinə aparacaqdır ki, bu da Sakit okeanda müharibənin başlaması deməkdir."

Ruzvelt, Maliyyə Nazirinin sualını bu sözlərlə cavablandırsa da, arxasınca bunları əlavə eləmişdi: "Yaponiya həqiqətən hərəkətə keçəcək olarsa, başqa növ bir iqtisadi embarqo tətbiq olunacaq." Yaponiyanın Birləşmiş Ştatlarda mövcud olan bütün maliyyə kanalları dondurulacaq, bu da Yaponiyanın neft satınalma gücünü məhdudlaşdıracaqdı. Mövzuya maraq çox böyük idi. O günə qədər Yaponiya ilə savaş mövzusunda fikir bildirməkdən qaçınan Hull belə, xəstə və kefsiz olduğu üçün müalicə aldığı səhiyyə ocağından prezidentə zəng edərək, daha sərt ixracat şərtləri tətbiq etməsini istədi.

İngiltərə isə Avropadakı qarışıq vəziyyəti göz önünə alaraq hərəkət edirdi. İngiltərə topyekun bir embarqonun Yaponiyanın cənubdakı hərəkatını sürətləndirəcəyini düşünürdü. Bundan başqa, ingilislər, müharibə də daxil olmaqla gözlənilən nəticələr mövzusunda Vaşinqtonun hazırlıqlı olduğundan şübhəli idilər. Vaşinqtonda isə, ordu və donanma xaric olmaqla, hər kəs embarqo tətbiq olunmasını tələb edirdi. Ordu və donanmanın bu görüşü paylaşmasının səbəbi vardı. Hər ikisi də diqqətlərini Atlantik okeanına çevirmişdilər. Güclərini bərpa etmək üçün vaxt və zaman istəyirdilər. Ona görə də bu mərhələdə planlarına əngəl olacaq yeni bir məsuliyyət üstlənmək arzusunda deyildilər.

24 fevral 1941-ci il tarixində radio xəbər bülletenində yapon savaş gəmilərinin Camranh Körfəzi sahillərində olduğu və hərbi qüvvə daşıyan 12 nəqliyyat vasitəsinin də yaponların nəzarəti altındakı Hainan Adasından çıxıb, Cənubi Hindi-Çinin işğal olunmasına kömək etmək məqsədilə cənuba doğru yollandığı xəbərləri yayıldı. Elə həmin gün, günortadan sonra Ruzvelt, iş kabinetində böyük elçi Nomuranı qəbul edəcək, Hindi-Çinin tərəfsiz bölgə elan edilməsi təklifini verəcəkdi. Prezident





Nomuraya başa salmağa çalışdı ki, o günə qədər "amansız və sərt tənqidlərə baxmayaraq", neft ixracatını dayandırmayıb və bunu yaponların Hindi-Çinə hücum etməsinə fürsət və səbəb verməmək üçün edib. Ruzvelt onu da qeyd etdi ki, həyata keçiriləcək bu cür bir hücum enində-sonunda birbaşa Amerikaya müharibə elan etmək demək olacaq. Əlavə olaraq Nomuraya söylədi ki, "Yaponiyanın Hindi-Çinə doğru başlatdığı son hərəkatından sonra", Yaponiyaya neft ixrac olunmasında məhdudiyyət qoyulması üçün ona edilən siyasi təzyiqlərə bəlkə də daha artıq dayana bilməyəcək. Bunu prezident açıqca söylədi.

Bu mövzu onsuz da gündəmdəydi. Şəxsən Ruzveltin özü tam bir embarqo tətbiq olunmasının tərəfdarı deyildi. Embarqonun əvəzinə, ixracata daha sərt nəzarət olunmasını, bunu edərkən, "gündəlik nəzarətlərin" elastiki tutularaq zamanın gündəlik şərtlərinə görə tənzimlənməsini istəyirdi. Məqsədi yaponların qərarsızlıq içində tutulması idi. Buna görə də bütün qapıları bağlamaq tərəfdarı deyildi. Nefti savaşda istifadə olunan silahın tətiyi olaraq yox, siyasətdə istifadə olunacaq bir vasitə olaraq görürdü. İngilis böyük elçisinə söylədiyi kimi, eyni anda iki ayrı savaşa başlamaqdan çəkinirdi. Mövzu üzərində baş sındıran Xarici İşlər Nazirliyinin müavinlərindən olan Sumner Velles bu ara prezidentin hədəfləri ilə tam uyum içərisində görünən bir plan hazırlayıb təklif etmişdi. Bu plana görə, neft ixracatı 1935-36-cı illər səviyyəsində tutulmalı, təyyarə benzininə çevrilməsi mümkün olan hər cür neft və ya neft məhsullarının xarici ölkələrə ixracı qadağan olunmalıydı. Bütün neft ixrac maddələri üçün lisenziya tələb olunacaqdı. İyul ayının 25-də ABŞ hökuməti bir qərarnamə yayınlayaraq, Birləşmiş Ştatlarda yaponlara aid olan nə qədər finans qaynağı varsa, hamısının

dondurulmasını istədi. Neft satınalması da daxil olmaqla, dondurulmuş mal satın alanlardan lisenziya, digər bir deyişlə, hökumətin xüsusi təsdiqi tələb olunacaqdı. İyul ayının 28-də Yaponiya, planlaşdırdığı kimi Cənubi Hindi-Çini işğal planında ilk addım atır, beləliklə, savaşa bir addım daha yaxınlaşırdı.

Yeni Amerikan siyasəti qarşısına neftin bütünlüklə kəsilməsi məqsədini qoymasa da, nəticədə belə olmuş, neftə tam bir embarqo tətbiq olunmuşdu. Bu işdə baş rolu ifa etmək İqtisadi İşlər Nazirinin müavini Dean Acheson və Xarici İşlər Nazirliyinin lap başından bəri embarqo tərəfdarı olan bir neçə yüksək çinli məmurunun boynuna düşdü. Dean Acheson, Maliyyə Nazirliyi ilə məsləhətləşdikdən dərhal sonra, 25 iyul tarixli əmri embarqoya çevirmiş, yaponların neft satınalmasında ehtiyac duyduqları dondurulmuş fondların sərbəst buraxılmasının qarşısını tamamən və mütləq mənada almışdı. Bunu izləyən günlərdə, Dean Acheson bu haqda aşağıdakıları bildirəcəkdi: "Neft mövzusunda bir siyasətimiz var və ya yox, ancaq bir Xarici İşlər Nazirliyimizin olduğundan əmin idim. Embarqo gələcəkdə yeni bir bəyanat yayınlanana qədər davam edəcəkdi." Avqust ayının əvvəllərindən etibarən Birləşmiş Ştatların Yaponiyaya etdiyi neft ixracatı tamamilə dayandırılmışdı. İndi iki yapon tankeri Los Anceles yaxınlarındakı San Pedro limanında boş olaraq gözləyir, daha əvvəl müqavilə bağlandığı halda neft ala bilmirdi.

İngiltərə Xarici İşlər Naziri Anthony Eden "Biz də ABŞ kimi sərt addımlar atmalıyıq" deyirdi. Fəqət həm İngiltərə, həm də sürgündəki Hollandiya hökuməti Amerikanın izlədiyi siyasətdən əməlli-başlı heyrətlənmişdilər. Ancaq Amerika yenə də əvvəlcədən qərarlaşdırdığı kimi





dondurma və embarqo qərarını həyata keçirəcək, Borneo və Şərqi Hind Adalarının Hollandiya kəsimindən etdiyi ixracatı dayandıracaqdı.

1941-ci ilin iyul ayının axırlarında artıq Yaponiya Cənubi Hindi-Çini işğal etmişdi. İyul ayının 31-də Amerikan səlahiyyət sahibləri ilə bir araya gələn böyük elçi Nomura, Tokiodakı yapon Xarici İşlər Nazirliyinə eyni gündə bir raport təqdim edəcək, bunları bildirəcəkdi: "Üzlərindəki sərt ifadədən mənimlə iş haqqında danışmaq istədiklərini anlamışdım. Qənaətimcə hörmətli cənablar bir dəqiqə belə tərəddüd etmədən, xüsusilə bəzi yatışdırma tədbirlərinin alınmasını istəyirlər. Bunu bildiyinizi zənn edirəm." Bir şey var ki, Xarici İşlər Nazirliyi sərt bir davranışla bu xəbərdarlığı nəzərə almadı, ona məhəl qoymadı. Yaponiyanın Hindi-Çinə girməsiylə və onu təqib edən günlərdə yapon fondlarının artıq dondurulmasıyla, neft embarqosu felən həyata keçirilmiş - bu dəfə gerisayım başlamışdı. Nomuranın irəlidəki günlərdə Hulla anlatdığına görə, "yaponların iyulun ikinci yarısında Cənubi Hindi-Çinə qarşı hərəkətə keçmələri "dondurma əməliyyatları ilə* nəticələnmişdi. Bu da öz növbəsində bir "de fakto", yəni "feli embarqo" deməkdi. Embarqonun tətbiqi Yaponiyada gərginliyin çoxalmasına səbəb olmuşdu."

Bir şey vardı ki, yaxınlaşmaqda olan toqquşmanı doğuran tək başına embarqo hadisəsi deyildi. Birləşmiş Ştatlar embarqo qərarını Yaponiyanın təcavüzkarlığına qarşı görüləcək heç bir şey qalmadığı zaman almışdı. Bu, İngiltərə və Hollandiya üçün də eynilə keçərliydi. Bu ölkələr də başqa çıxış yolu tapa bilmədikləri üçün embarqoya qoşulmuşdular. Yaponların cənub-şərqi Asiyadakı hərəkatı və nasistlərin Sovetlər Birliyinə girməsiylə Birləşmiş Ştatlar, müttəfiq dövlətlərin hakimiyyəti

altındakı Avropa və Asiyada qorxunc bir gələcəklə qarşı-qarşıya qalmış, iki güvənilməz dəniz arasında yalnızlığa tərk olunmuş bir ada kimi başlı-başına qoyulmuşdu. Bax, prezidentin neft kartından istifadə etməsi belə bir zamana rastlayır. Yaponlar tərəfindən baxıldığında isə, neft, düşmən güclərin onları "küncə qısnadığı" bu dünyada, onlarla bu güclər arasındakı son bağ idi. Əslində embarqo yaponların dörd ildir Asiyada davam etdirdikləri hərbi təcavüzün bir nəticəsidir. Öz hesablarına görə, yaponların yeganə inandığı neft, öz inventarlarında olan neftdi. Amerikadan və Şərqi Hindistandan gələn neft ixracatı dayandırıldıqdan sonra, yaranan qıtlığı doldurmaq üçün müraciət edəcəkləri hər hansı önəmli bir qaynaqdan da məhrum idilər. Ancaq Yaponiya, savaşın xərclərini ödəməyə məhkum olduğuna görə, savaş riqsini də üstlənməsi qaçınılmazdı.

## Buna dayana bilmərik

Əvvəllər yapon donanmasının liderləri Birləşmiş Ştatlarla toqquşmaya getmə mövzusunda ordu rəhbərliyindən daha ehtiyatlı hərəkət edirdilər. Ancaq indi, "tam embarqo" hadisəsinin baş verdiyi zaman vəziyyət kökündən dəyişmişdi. İrəlidəki günlərdə öndə gedən bir yapon admiralının söylədiyi kimi "neft olmadığı təqdirdə, savaş gəmiləri və bütün digər gəmilər dəmir yığınından başqa bir şey olmayacaq." Bu arada Dəniz Qüvvələri Komandanı, Admiral Osami Nagano imperatora üzərinə basa-basa başa salmağa çalışırdı ki, əlavə neft əldə olunmadığı təqdirdə, yapon neft ehtiyatları ən çox iki ilə bəs edəcək.

Yapon Xarici İşlər Naziri dəyişmiş, onun yerinə Teijiro





Toyoda təyin olunmuşdu. Yeni Xarici İşlər Naziri yapon siyasətindəki qeyri-sağlam vəziyyəti həm Berlin, həm də Amerikadakı yapon səfirlərinə göndərdiyi gizli mesajlarda açıqlamışdı. 31 iyul 1941-ci il tarixli yazısında nazir, bu sözlərə yer vermişdi: "Yaponiya ilə İngiltərə və Amerikanın öndərliyindəki üçüncü dövlətlər arasındakı ticari və iqtisadi əlaqələr getdikcə o dərəcədə pisləşir ki, artıq dözülməz həddə qədər gəlmişik. Nəticə olaraq imperiyamız sırf öz mövcudluğunu qurtarma bahasına olsa da, mütləq bəzi tədbirlər görüb, Cənub Dənizindən xammaddə təmin etməlidir. İmperiyamız bizi əhatə edən və get-gedə qüvvətlənməkdə olan bu mühasirəni yarmaq üçün dərhal bəzi addımlar atmalıdır. Bu mühasirə İngiltərə və Amerikanın öndərliyində və onların iştirakı ilə hörülmüş bir tora oxşayır. Bu iki ölkə özünü yatmış kimi göstərən hiyləgər iki əjdahadan başqa bir şey deyildir."

Cordell Hull isə vəziyyəti nə qədər də fərqli dəyərləndirirdi... Xəstə və yorğun olduğu üçün müalicə məqsədilə getdiyi Vhite Sulphur İstirahət mərkəzindən Xarici İşlər Naziri Vellesi telefonla arayaraq, bunları söyləmişdi: "Yaponlar təxminən dünyanın yarısında hərbi hegemoniya qurmaq həvəsindədirlər. Güc yolundan istifadə etmək yeganə çıxış yoludur. Gücdən başqa bunları heç bir şey dayandıra bilməz." Bu sözlərin qarşılığında Hull yenə də, artıq qaçınılmaz olan şeyi ertələməyə başlayırdı: "Əsil problem, Avropadakı hərbi vəziyyət bir nəticəyə bağlanana qədər şəraitə necə hakim ola biləcəyimizdir."

Amerikanın Tokio böyük elçisi Grev, vəziyyəti bütün açıqlığı ilə qavramış kimiydi. Gündəliyində bunları yazmışdı: "Hamı hərlənib fırlanıb bir-birini cəzalandırır və qarşı tərəf də dərhal artıqlaması ilə qarşılığını verir. "Facilis descensus Averno est" (Cəhənnəmə gedən yol asandır). Dünyada radikal sürprizlər baş vermədikcə bu

aşağılıq hərəkatın öhdəsindən necə gəlinəcəyini və ya haraya qədər gedə biləcəyini anlamaq çox çətindir. Hər şey onu göstərir ki, dəhşətli müharibə olacaq."

Bu sözlərin yazıya alındığı anlarda yaponlar çoxdan əllərinə qazma-kürəklər götürüb, Tokiodakı İmperator Sarayının ətrafında müdafiə xəndəkləri qazmağa başlamışdılar.

Hər iki tərəf də gözlənilən toqquşmanın qarşısının alınması üçün son bir neçə dəqiqədə bəzi diplomatik addımlar atmışdılar. Donanmanın da dəstəyi ilə Yaponiyanın Baş naziri şahzadə Konoye Ruzveltlə son bir görüş istəmişdi. Bəlkə də Amerika prezidenti ilə birbaşa münasibət yaratmaqla son bir təşəbbüs əldə edə biləcəyi ümidini daşıyırdı. Şahzadə Konoye, amerikalılarla bir anlaşma imzalamaq üçün müttəfiq dövlətlərin Hitlerlə bağladıqları ittifaqı belə pozmağa hazırdı. Sarayda böyük kədər içərisində gözləyən işçilər və məmurlar da eyni fikirdə idilər. Bunları öz aralarında müzakirə edir, Yaponiyanın qarşı-qarşıya olduğu problemin səbəbini bəsitə endirərək, bütün problemin tək bir mövzu - neft üzündən meydana gəldiyini düşünürdülər. Sarayın işlər müdiri (Lord Privy Seal) Koishi Kido, Baş nazirə özəl fikirlərini söyləyir, "Yaponiyanın - mütləq Amerikanın qələbəsi ilə nəticələnəcək bir savaşa dayanması mümkün deyildir" deyirdi.

İmperatora gəlincə, Konoyenin fikrinə hörmət göstərmiş, hətta bu fikri şəxsən təqdir etmişdi. İmperator, Konoyeyə bunları söyləyəcəkdi:

**"Donanmadan verilən xəbərlərdən öyrəndim ki, Amerika Yaponiyaya bütün sahələrdə embarqo tətbiq edib. Vəziyyət belə olduğu halda, prezidentlə keçiriləcək bir görüş mümkün olan ən qısa zamanda həyata keçirilməlidir."**

Konoye, Ruzveltlə görüş yeri kimi, ən uyğun yer olaraq





Honolulunu təklif etmişdi. Prezident, başlanğıcda görüşmə təklifini normal qarşılamış, Honolulu yerinə Alyaskanın Juneau şəhərində görüşmələrinin daha yaxşı olacağını bildirmişdi. Amma Hull və Xarici İşlər Nazirliyi diplomatik baxımdan bu görüşmə təklifinə şiddətlə etiraz etdilər. Amerikan xalqı isə başa düşmürdü ki, Konoye ilə görüşmə fikri fəlakətin qarşısını almaq üçün ortaya atılmış son bir qumardır. Bundan başqa, artıq Yaponiyaya inanmaq üçün ortada bir səbəb də qalmamışdı. Üstəgəl, Ruzveltin özü də tərəfləri təskinedici vəziyyətdə görünmək istəmirdi. Bir şey daha vardı. Juneauda bir razılaşma əldə olunarsa, o razılaşmanın "Münhen razılaşması" kimi zay olacağından qorxurdu. Ortada əvvəlcədən lap elə qaba olsa belə təsbit edilmiş bir anlaşma olmadığından, Konoye ilə görüşün heç bir xeyri yox idi. Daha fəlakətlisi o idi ki, Ruzvelt, oxuduğu "Magis" şifrələrindən yaponların daha başqa işğallar planlaşdırdıqlarını öyrənmişdi. Belə olan halda, ən azı o mərhələdə Ruzvelt, məlum olan anlaşılmaz hərəkətləriylə görüş təklifini nə qəbul, nə də rədd etdi.

## Zaman və silah-sursat gündən-günə azalır

5 və 6 sentyabr tarixlərində ən yüksək çinli yapon səlahiyyətliləri İmperatorla toplantı keçirdilər. Yaponlara məxsus izin mərasimini yerinə yetirdikdən sonra, müharibə şəraitinə keçilməsi üçün icazə istədilər. Baxmayaraq ki, hələ savaş qərarı alınmamışdı və savaşın qarşısının alınması üçün diplomatik axtarışlar aranmaqdaydı. Bu toplantıda da ana mövzu neft idi. Vəziyyəti qiymətləndirən səlahiyyətli birisi "indiki halda imperiyamızın milli gücünü və savaş bacarığını zəiflədən yeganə amil neftdir" deyir,

sözlərinə belə davam edirdi: "günlər keçdikcə müharibəyə davam etmək gücümüz azalacaq və imperiyamız hərbi baxımdan mişkin vəziyyətə düşəcəkdir." Həqiqətən də vaxt azalırdı. Hərbi komandanlar bunu imperatorlarının qarşısında dəfələrlə təkrarladılar. Dəniz Qüvvələri Komandanının da söylədiyi kimi, "neft də daxil olmaqla, hərbi silah-sursat gündən-günə azalırdı."

İmperator yapon ordusunun Baş qərargah rəisindən bu sualın cavabını istədi: "Yaponiya ilə Amerika bir-biriləri ilə müharibəyə başlayacaq olarsa, bu savaş nə qədər davam edər?"

Baş qərargahın rəisi cavab verdi: "Sakit okeanın cənub hissəsindəki əməliyyatlar təxminən 3 ay içində başa çata bilər."

İmperator bu cavaba sərt reaksiya göstərdi və incik tonla dedi: "Çin müharibəsi başlayanda bu gün Baş qərargahın rəisi olan hörmətli General Savaş naziriydi. O zaman imperiyaya verdiyi raportda bildirmişdi ki, əməliyyatlar təxminən bir ay içərisində tamamlanacaq. Amma Generalın verdiyi təminatdan düz 4 il keçir və müharibə hələ də davam edir."

General, açıqlama vermək istəyərək "Çindəki əməliyyat sahəsinin çox böyük olduğunu, bunun da əməliyyatların plana uyğun surətdə aparılmasını əngəllədiyini" söylədi.

Bu cavab İmperatoru daha da əsəbiləşdirdi. O, arxasını oturduğu kresloya söykədi və səsini yüksəldərək bu sözləri söylədi: "Çinin əməliyyat sahəsi böyükdür, amma ondan qat-qat böyük olan Sakit okeanın əməliyyat sahəsi də var. Deməli, bu plan hədsiz-hüdudsuz dərəcədə böyük olacaqdır. O halda necə olur ki, bütün planların 3 ay içərisində bitəcəyindən bu qədər əmin danışırsınız?"

Bu sözlərdən sonra Baş qərargahın rəisi başını önünə





əydi və heç bir cavab vermədi. Bu ara Dəniz Qüvvələri Komandanı Admiral Nagano, Baş qərargah rəisinin imdadına yetişdi və bunları söylədi: "Yaponiya o anda ciddi bir xəstəlikdən əziyyət çəkən bir xəstə kimiydi. Bu və ya digər formada mütləq qərar verilməliydi." Toplantı bitmədən əvvəl İmperator yüksək çinli məsləhətçilərinin müharibəyə baxışlarını öyrənmək istədi. "Diplomatiyaya, yoxsa müharibəyəmi öncəlik tanınmalıdır" deyə soruşdu. Amma bu sualına onu qane edəcək bir cavab ala bilmədi.

Bir gün sonra eyni sual bir daha gündəmə gəlirdi. Quru Qoşunları və Dəniz Qüvvələri Komandanları səssiz qalaraq, suala cavab vermədilər. Bunu görən İmperator, cavab verməyin uyğun olmadığını düşündükləri üçün komandanlara təəssüflərini bildirdi. Daha sonra kimanosunun cibindən bir kağız parçası çıxararaq, vaxtilə babası İmperator Meijinin yazdığı bu şeiri oxudu. Şeirdə belə bir beyt vardı:

*Madam ki, bu dünyada insanlar qardaşdır,*
*Onda bu dava-dalaşların mənası nədir?*

Şeir oxunduğu zaman bütün salon tam bir səssizliyə qərq olmuşdu. Orada olanların hamısı sanki bihuş olmuşdular. Elə bu an Admiral Nagano ayağa qalxdı və hərbi qüvvələrin ancaq digər bütün yollar boşa çıxandan sonra dövrəyə girəcəyini söylədi. Toplantı beləcə, misli-bərabəri olmayan gərgin bir hava içində sona çatdı.

Yaxınlaşmaqda olan qış mövsümü və soyuqlar, əməliyyatlar üçün sərfəli olan vaxtı da məhdudlaşdırırdı. Hərbi qüvvələr hücum əməliyyatlarına 1942-ci ilin yazından əvvəl başlamalı olduqları təqdirdə, bunu dekabr ayının əvvəllərində etməliydilər. Bu halda belə Şahzadə Konoye, savaşın bu qədər yaxınlığında olmalarına baxmayaraq, bir alternativ yol tapmaq ümidini itirməmişdi. Sentyabrın 6-

da İmperator taxtının qarşısında keçirilən tarixi toplantıdan sonra, kabinet sintetik neft əldə etmək mövzusunu müzakirəyə başladı. Sintetik neft istehsalının böyük sürətlə və böyük miqdarda artırılmasının mümkün olub-olmadığını sınaqdan çıxarmaq lazımdı. Konoyenin ifadə etdiyinə görə, bu cür bir layihəyə böyük paralarla sərmayə qoymaq, necə nəticələnəcəyi çox şübhəli olan bir savaşa pul yatırmaqdan daha yaxşı olacaqdı. Ancaq Dövlət Planlaşdırma Komitəsinin sədri layihənin çox böyük bir iş olduğunu, dörd illik bir çalışma və milyonlarla yapon yeni tələb etdiyini, bundan başqa, dünyalar boyda polad, boru və dəzgahlara ehtiyac olduğunu bildirərək, bu fikri yaxın buraxmırdı. Açıqladığı kimi, bu iş çox böyük mühəndislik bacarığı və 400 mindən çox kömür işçisinin işə qəbul edilməsini tələb edirdi. Bütün bu xüsusiyyətlər nəzərə alınaraq, Konoyenin təklifi qəbul olunmadı. Sentyabr ayının axırlarında əllərində xəncər və qısa saplı qılınclar olan dörd adam Konoyenin avtomobilinə hücum çəkdi və sui-qəsd təşəbbüsü göstərdi. Sui-qəsdçilərin qarşısı vaxtında alınsa da, bu hadisə Baş naziri həddindən artıq sarsıtmışdı.

Oktyabrın 2-də Amerika Birləşmiş Ştatları Konoye-Ruzvelt görüşünə tərəfdar olmadığını rəsmən elan etdi. Bundan dərhal sonra, savaş ehtimalına qürurlu və şərəfli bir alternativ tapa bilmədiyi səbəbi əsas gətirilərək, Konoye vəzifəsindən uzaqlaşdırıldı. Oktyabrın 18-də Baş nazir olaraq onun yerinə döyüşkənliyi ilə tanınan Savaş Naziri Hideki Tojo gətirildi. Hideki Tojo başından bəri faydasız olduğu səbəbilə işin diplomatiya yoluyla həllinə qarşı çıxmış, Amerika ilə hər hansı bir uzlaşma əldə olunmasını istəməmişdi. Bu ara bir daha Vaşinqtona gələn böyük elçi Nomura çarəsizlik içində özünü "ölü bir atın sümükləri" deyə qiymətləndirməkdən çəkinmirdi. Artıq hər cür diplomatiyanın da öz təsirini itirdiyini görən





Ruzvelt isə, Tokio və Vaşinqtondakılar kimi özünü taleyin axarına buraxmışdı. Bunlara baxmayaraq, yenə də Nomuradan bu iki ölkə arasında açıq bir qapı buraxılması, "son sözün söylənməsi" üçün xahiş edəcəkdi.

Əvvəlcə sözünü etdiyimiz iki yapon tankeri yaz ortalarından bəri Los Anceles yaxınlarındakı gözləyişini sürdürür, müqavilə şərtlərinə görə verilməli olan neftin yüklənməsini ümid edirdi. Nəhayət, noyabr ayının birinci yarısında bir qram belə neft almadan, boş olaraq uzaqlaşdı. Yaponiyanın yüksək vəzifəli məmurları da qarşılıq verərək, yaxınlaşan qış mövsümündə Amerikan və İngiltərə səfirliklərinə verdikləri yanacağı kəsdilər.

Oktyabr ayı boyunca Yaponiyanın yüksək çinli hərbi elitası və siyasət liderləri, İmperator Sarayının kiçik bir otağında tez-tez bir yerə toplaşaraq, müharibə ərəfəsindəki son durumu müzakirə etdilər. Bu müzakirələrdə mövzu dönüb-dolaşıb neftin üstünə gəlirdi. Yaponiyanın neft idxalı 1941-ci ildə böyük bir eniş göstərmişdi. Ehtiyatdakı neft isə getdikcə azalırdı. O günləri araşdıran bir tarixçi, sonradan bu toplantıları qəsd edərək bunları yazmışdı: "İncələnən tarixi sənədlərdən anlaşılır ki, konfrans masasına hakim olan tək faktor neft faktorudur. Neft, sırf bir şeytan kimi masanın üzərində dolanıb dururdu. Sanki savaşı uzaqlaşdırmağın ən asan yolu yenə də "savaş qərarı" verməkdi."

Noyabr ayının 5-də ölkənin ən yüksək çinli vəzifə sahibləri, İmperatorun qarşısında "İmperial Konfrans" dedikləri bir konfrans təşkil etdilər. Bu tip toplantılarda artıq adət olduğu kimi, bu dəfə də İmperator sakit qalmış, müzakirələrdə fikir bildirməmişdi. "Jilet" ləqəbiylə tanınan Baş nazir Tojo, xalqın əksəriyyətinin mövqeyini ifadə edən qısa bir açıqlama verdi. Qısaca bunları söylədi:

"Birləşmiş Ştatlar başından bəri iqtisadi çətinliklər

səbəbilə yaponların geri çəkiləcəyinə inanmaqdadır. Bunun yanlış olduğunu sübut etməyimiz lazımdır. Uzanıb vaxt aparacaq bir savaşa girərsək, çətinliklərlə qarşılaşacağımız mütləqdir. Bu baxımdan, uzanacaq bir savaşdan narahatıq. Amma buna baxmayaraq, yenə də Amerikanın bizimlə istədiyi kimi davranmasına, bu hərəkətlərini davam etdirməsinə necə göz yuma bilərik? İki il keçməz ki, hərbi sahədə istifadə etməyə neft tapmayacağıq. Gəmilərimiz seyr edə bilməyəcək. Amerikan müdafiəsinin Sakit okean hövzəsinin cənub-qərbində güclənməkdə olduğunu, Amerikan eskadrilyasının get-gedə yayıldığını, Çin savaşının hələ də davam etdiyini düşündükcə, qarşımızdakı çətinliklərin heç bitməyəcəyi gerçəyini anlayıram... Heç bir addım atmadan beləcə, yerimizdə oturub gözləyərsək, qorxuram ki, 2-3 ildən sonra üçüncü kateqoriya bir ölkə olmağa məhkum olarıq."

Konfransın irəli sürdüyü bir təklif daha vardı: Birləşmiş Ştatlara son bir çağrı olunsun və Yaponiyanın tələbləri Amerikaya son dəfə çatdırılsın. Tələbləri rədd ediləcək olursa, Yaponiya savaşa qərar verəcəkdi. Tojo, bu qərarı bir daha elan etdikdən sonra, salonda iştirak edənlərdən "söyləmək istədiyiniz başqa bir şey varmı" deyə soruşdu. Hər hansı bir etiraz olunmadığını görüncə də, təklifinin qəbul edildiyini elan etdi.

Noyabr ayının üçüncü həftəsində yaponiyalı bir diplomat "tələblər siyahısını" təqdim etmək üçün Vaşinqtona yollanırdı. Xarici İşlər Naziri Hullun görüşünə görə, siyahı daha çox bir ultimatum mahiyyəti daşıyırdı. Eyni həftə Vaşinqtona yenə yapon qaynaqlı başqa bir mesaj daha çatdırıldı. Bu, 22 noyabr tarixli, faş edilmiş bir "Magic" mesajı idi. Mesaj Nomuraya göndərilmişdi. Tokionun təkliflərinin Amerika tərəfindən qəbul edildiyinin ən gec 29 noyabr tarixinə qədər bildirilməsi tələb olunurdu.





Mesajdakı digər bir ifadəyə görə, bu tələb Nomuranın təxmin edə bilməyəcəyi səbəblərə dayanırdı və çox əhəmiyyətli idi. Çünki o tarixdən sonra hadisələr öz-özünə, avtomatik olaraq inkişaf etməyə başladı.

25 noyabr tarixində Ruzvelt, əmri altındakı yüksək səviyyəli hərbi məsləhətçilərini, savaşın çox yaxında olduğu, bəlkə də bir həftə içərisində başlaya biləcəyi haqqında xəbərdar etdi. Bunun ertəsi günü Hull, yaponlara bir nota verərək, yapon silahlı qüvvələrinin Hindi-Çindən və Çindən çəkilməsini tələb etdi. Bunun qarşılığında Amerika Yaponiya ilə yenidən ticari bağlantı yaratmağa hazır idi. Tokio da bu tələbi Amerikanın bir ultimatumu olaraq qəbul etdi. Həmin gün, 26 noyabrda Kuril adalarında cəm şəkildə gözləyən, yapon bayraqları daşıyan donanma eskadrilyasına seyrə başlaması və bunu böyük bir gizlilik içində etməsi əmri verildi. Eskadrilyanın hədəfi Havay adaları idi.

Amerikalıların bu eskadrilyadan xəbərləri olmasa da, Müharibə naziri Stimson belə bir eskadrilyanın varlığından xəbər tutmuşdu. Yeri gəlmişkən, Ruzveltə bir məxfi raportla bu məlumatı təqdim etmişdi. Raport, yapon kökənli böyük bir kəşf eskadrilyasının Şanxaydan cənub-şərq istiqamətində irəlilədiyini bildirirdi. Bunu öyrənən Ruzvelt, Stimsonun söylədiyinə görə, hirsindən haradasa çılğına dönmüşdü. Prezident o günə qədər belə bir eskadrilyanın varlığından xəbərsiz olduğunu söylədi və bu söz hər şeyin bir anda dəyişməsinə səbəb oldu. Çünki topyekun bir çəkilmə üçün uzlaşma müzakirələrinin aparıldığı bir zamanda, Yaponiyanın oralara qədər bir filo göndərməsi, bu ölkənin xəbis niyyətlərinin olduğunu göstərən bir əlamətdi. Bunu öyrəndikdən sonra prezident, təxminən 20 il əvvəl yazdığı məqalədə soruşduğu sualı, artıq cavablandıracaq vəziyyətə gəlmişdi. Yaponlara etibar

etmək olmazdı! Ertəsi gün, noyabrın 27-də Hull Stimsona Yaponiya ilə anlaşma müzakirəsi aparmaqdan imtina etdiyini söylədi. "Artıq əllərimi bu işdən sıyırdım" deyirdi. Onun sözlərinə görə, artıq iş orduya və donanmaya qalmışdı. Həmin gün Vaşinqton, içlərində Havay adalarında baza qurmuş Sakit okean hövzəsi Eskadrilyası Komandanı Admiral Husmand Kimmelin də yer aldığı Sakit okeandakı amerikalı komandanlara "son hazırlıq" əmrini verdi. Kimmelə göndərilən mesajdakı ilk cümlə beləydi: "Bu yazını bir savaş elanı kimi qəbul edin."

Tokioda son günə qədər bu savaşın məğlubiyyətlə bitəcəyinə inananlar olmuşdu. Noyabrın 29-da ən üst səviyyəli bürokratlar və İmperatorun da iştirak etdiyi bir kabinet toplantısı keçirildi. Yaponiyanın diplomatik çözüm axtarışları üçün xahişlər olundu. Amerikanın qüdrətiylə yarışa girməkdənsə, bunun daha yaxşı olacağı görüşü müdafiə olundu. Baş nazir Tojo, cavab olaraq qopuq vəziyyətdəki iqtisadi əlaqələri davam etdirib, bunlar üzərində israr etmənin Yaponiya baxımından, ölkənin getdikcə zəifləyəcəyi mənasına gəldiyini söylədi. Yapon liderlər bütün araşdırmalarında, bütün müzakirələrində qaynaqları, qabiliyyətləri və dözüb-dayana bilmələri faktorlarını nəzərə alaraq, uzun sürəcək bir savaşda Amerikanın daha üstün durumda olacağını bilirdilər. Süründürmələrlə, candərdi davam edəcək bir savaşın gedərək Amerikanın lehinə çevriləcəyinin fərqindəydilər. Ancaq problemlərin hərb yoluyla həllinə inananlar, özlərini bir eyforiyanın qucağına atdıqları üçün bu fikirləri qəbul etməmiş, bunları əllərinin tərsiylə geri itələmişdilər. Göründüyü qədər, savaş qapının kandarına qədər gəlmişdi və hər şey çox sürətlə cərəyan edəcəkdi.





## Pearl Harbor

Dekabr ayının 1-də yaponların özəl bir hücum eskadrilyası, hələ qarşı tərəfcə yeri müəyyənləşməyən beynəlxalq sulara keçmişdi. Həmin gün yapon təyyarə gəmilərindən birində iş başında olan bir komandan, dekabr ayının 2-də gündəliyinə bunları yazmışdı: "Nə burada, nə orada - nə kədər, nə də sevinc yoxdur." Tokio, şifrələrin məhv edilməsi üçün səfarət və konsulluqlara məhvetmə əmri vermişdi. Bu əməliyyat sırasında iştirak etmək üçün Vaşinqtondakı yapon səfirliyinə gedən amerikalı hərbçi, səfirliyin arxa bağçasında kağız və yazılı sənədlərin yandırıldığının şahidi olmuşdu.

Dekabrın 6-da, şənbə günü Ruzvelt, göy üzünü qalın bir pərdə kimi bürüyən "qara buludları" dağıtmaq ümidiylə doğrudan-doğruya İmperatora xitabən şəxsi bir məktub göndərməyə qərar verirdi. Mesaj həmin günün axşamı, saat 21.00-da göndərilmişdi. Bu yazının göndərilməsindən dərhal sonra Ruzveltin orada olan ziyarətçilərə bu sözləri dediyi məlumdur: "İnsanın oğlu olan - qarşınızdakı mən, Tanrının oğlu olan İmperatora son bir mesaj göndərdim."

Dekabrın 7-də, günortadan sonra Vaşinqton saatı ilə saat 12.30-da Ruzvelt Çin səfirini qəbul edirdi. Səfirə Asiyada "bəzi pis hadisələr" gözlənildiyini söylədi. Bundan başqa, içindən bir səsin 48 saat içərisində yaponların "mənfur" bir hərəkətə girişəcəklərini söylədiyini də sözlərinə əlavə etdi. Vaşinqton saatı ilə gecə yarını keçmişdi. Saat 01.00-da Ruzvelt hələ də Çin səfiri ilə danışırdı. Tam o anda - dekabr ayının 8-də Yaponiya saatı ilə sabaha doğru saat 03.00-da Ruzveltin mesajı nəhayət, şəxsən İmperatora çatırdı. Sakit okeanın ortalarında isə

dekabr ayının 7-i, sabahın erkən saatları idi və yapon eskadrilyası Havay adalarına doğru yol alırdı. Admiral gəmisinin sancağına yapon bayrağı asılmışdı. Bu bayraq 1905-ci ildə yapon eskadrilyasının Tsushima Boğazında rus donanmasını darmadağın etdiyi gün bir yapon savaş gəmisinə asılan bayraqdı. Təyyarə daşıyan gəminin göyərtəsində yerləşən təyyarələr bir-bir gəmini tərk etməyə başladılar. Gəmi heyətinə söyləndiyinə görə, yaponları hiylə yoluyla dünya üzündən silməyə çalışan Amerikanın bu gücünü yox etməyə gedirdilər.

Havay saatları ilə səhər saat 7.55-də Pearl Harbordakı Amerikan eskadrilyası üzərinə bomba yağmağa başladı...

Pearl Harbor basqınının başlamasından bir saat sonra yapon səfiri Nomura, yanındakı başqa bir diplomatla Xarici İşlər Nazirliyinə gəldi. Hull, bu zaman prezidentlə çox təcili bir telefon söhbəti apardığı üçün, iki diplomat bir müddət diplomatlara məxsus olan otaqda gözlədildilər.

Prezidentlə Hull arasındakı danışıq belə olmuşdu. Prezident telefonda tərəddüdsüz, fəqət titrək bir səslə bunları deyirdi: "Yaponların Pearl Harbora hücum etdiklərinə dair bir raport aldıq."

Hullun cavabı belə olmuşdu: "Raport təsdiqləndimi?"

Prezident "xeyr!" dedi.

Ruzvelt və Hullun hər ikisi də böyük ehtimalla bu xəbərin doğru olduğuna inanmışdılar. Yenə də Hull, bir faiz ehtimal da olsa, xəbərin doğru olmaya biləcəyini düşünürdü. Bu ümidlərlə hər iki yapon diplomatını da otağına çağırtdırdı. Hücum xəbərini radio dalğalarından öyrənən Nomura, xəcalətli bir davranışla Amerikanın Xarici İşlər Nazirinə əlindəki uzun siyahını təqdim edirdi. Hull, Tokionun etdiyi hərəkətin əsas səbəbini təşkil edən sənədi oxumağa çalışır, bu ara rəngdən rəngə girirdi. Nəhayət, əsəblərinə hakim ola bilmədi və bunları söylədi:





"Dövlət qulluğunda olduğum bu 50 il içərisində, bu günə qədər, bu dərəcədə yalan və təhriflərlə doldurulmuş bir sənədə rast gəlmədim. Bu sənəd o dərəcədə yalan və iftiralarla doldurulmuşdur ki, bu günə qədər bu kainatda yaşayan və mövcud olan heç bir hökumətin bu sözləri söyləyə biləcəyinə ehtimal belə verməzdim."

İndi Hull, bu iki yapon diplomatını - bir vaxtlar özü də odunçuluqdan dövlət adamlığına gəldiyi üçün - "qoyunlarına hücum edən iki qatil köpək" kimi görürdü. Aylar boyu Nomurayla şəxsi evində bir araya gəlib, özəl müzakirələr aparmaları boşuna getmişdi.

Xarici İşlər Naziri sənədi oxuyub, söyləyəcəyini söylədikdən sonra yaponların ikisi də daha çox şərh vermədən otağı tərk etdilər. Toplantı bitmişdi və yaponlar ayrılırdı. Ancaq bu dəfə kimsə onlara yol göstərib, qapıları açmayacaqdı. Çünki artıq bu ikisi də düşməndilər. Hullun ofisindəki qapıları özləri açaraq, bayıra çıxdılar və onları gözləyən boş liftə minib özlərini küçəyə tulladılar.

O gün axşama qədər Vaşinqtona Pearl Harbordan üst-üstə raport axmağa başladı. Bunlar bir-birindən qopuq, parça-parça və son dərəcə ümidqırıcı xəbərlərdi. O uzun bazar gününün sonunda Stimson gündəliyinə bunları yazacaqdı: "Bizim xalqımız çox əvvəldən müharibə olacağı mövzusunda xəbərdar edilmişdi və bunu gözləyirdi. Buna baxmayaraq, yenə də bu işə heç gözlənilən deyilmiş kimi çaşıb qalmaları doğrusu, heyrətverici..." Bu cür bir bəla necə olmuşdu ki, onları axtarıb tapmışdı?..

Hərçənd yüksək çinli amerikalı dövlət adamları bir yapon hücumunun olacağını çox yaxınlarda gözləyirdilər. Ancaq bu hücumun cənub-şərqi Asiyada olacağını zənn edirdilər. Qətiyyən heç kim Vaşinqtonda və ya Havayda yaponların Amerikan eskadrilyasına qarşı - öz yurdundakı

bazasında belə bir hücum tərtibləyəcəyini ciddi olaraq düşünmür, hətta belə bir şeyi ağlından belə keçirmirdi. General Marşallın 1941-ci ilin may ayında prezident Ruzveltə söylədiyi kimi, Pearl Harborun yerləşdiyi Oahu adasının "dünyadakı ən sağlam qala" olduğuna inanmışdı. Anlaşıldığına görə, amerikalı bürokratların əksəriyyəti önəmli bir gerçəyi unutmuşdular. Rus-yapon savaşında Yaponiyanın qazandığı böyük qələbənin Port Arturda həyata keçirdikləri sürpriz hücumlarla başladığı nəzərdən qaçırılmışdı.

Əsas mahiyyətinə varanda məlum olan odur ki, hər iki tərəf də bir-birinin gücünü hesablaya bilməyib. Necə yaponlar amerikalıların texniki olaraq onların ən gizli şifrələrini aşkarlaya biləcəyinə ehtimal verməmişdilərsə, eləcə də amerikalılar yaponların texniki baxımdan bu dərəcədə kompleks olan bir hərbi əməliyyatı uğurla başa çatdıra biləcəyinə ehtimal verməmişdilər. Hücumdan sonra dərhal toplanan və durum dəyərləndirməsi edən Ruzveltin məsləhətçilərindən bəziləri, hücumun bir "alman hərəkatı" olduğu görüşünü müdafiə etdilər. Yaponların özbaşına bunu edə bilməyəcəyi qənaətini daşıyırdılar. Bu hücumda tərəflərin ikisi də digər tərəfin psixologiyasını yanlış şərh etmişdi. Amerikalılar yaponların bu dərəcədə cürətkar, hətta macəraпərəst bir şey edə biləcəyinə inanmamışdı. Amma yanılmışdılar. Yaponlar da öz görüşlərinə görə, Pearl Harborun amerikalıların əhvali-ruhiyyəsini yerlə yeksan edəcəyinə inanmışdılar ki, bu mövzuda da onlar yanılmışdılar. Çünki bu basqın tam tərsinə, Amerikan millətinin əhvali-ruhiyyəsini yüksəltmiş, ölkənin birlik və bərabərliyini daha da möhkəmləndirmişdi. Yaponlar bu mövzudakı təxminlərində ən böyük yanlışı etmişdilər.

Basqın artıq həqiqətdi. Bu gerçəkdən sonra Birləşmiş





Ştatlar hökumətinə yetişən onlarla gizli xəbərin də yardımıyla - ki, buna Yaponiyanın gizli xəbər şifrələrini aşkarlayan "Magic" də daxil idi - yaponların niyyətləri asanlıqla aydınlaşacaqdı. Hücumdan əvvəlki o gərginlik dolu aylarda isə, siqnallar "gurultu" içində qeyb olur, beyni bulandırıcı, bir-birini təkzib edən, ziddiyyətli və müəmmalı xəbərlər gəlirdi. Üstəgəl, o günlərdə yaponların Sovet İttifaqına hücum etmək üzrə olduğuna dair bəzi əlamətlər də vardı. "Magic"dən zaman-zaman bacarıqsızca istifadə olunması və verdiyi xəbərlərin yanlış anlaşılması bəzən təhlükəli ola bilirdi. Bu xüsus da Amerika baxımından ciddi bir uğursuzluğun, Amerika tərəfdarları arasında ciddi bir xəbərləşmə qopuqluğunun olduğunu göstərirdi. Nəticədə, Pearl Harbor faciəsi kimi bir hücum əməliyyatına inanmamaqdan sonra ən böyük ikinci faktor, "Magic" faktorunun nəzərə alınmaması idi.

### Ən böyük yanlış

Artıq gözləntilər içində keçən günlər arxada qalmışdı. Yaponiya və Birləşmiş Ştatlar indi savaş vəziyyətində idilər. Bir şey vardı ki, Yaponiyanın yeganə hədəfi sadəcə Pearl Harbor deyildi. Havay adaları, Yaponiyanın daha irəli hədəflərə uzanan hücum planlarının parçalarından sadəcə biri idi. Amerika Birləşmiş Ştatlarının Sakit okean hövzəsində yerləşən eskadrilyasına hücum olunduğu anlarda yaponlar Honq-Konqu bombalayıb onu mühasirəyə alır, Sinqapuru bombalayır, Filippinləri bombalayır, Vake və Guam adalarını bombardman edir, Taylandı işğal edir, Sinqapur yolundakı Malayziyanı işğal edir və Şərqi Hind Adalarını işğal etmək üçün hazırlıqlar aparırdı. Əslində Pearl Harbora təşkil olunan hücum,

cinahlardan özünü qorumaq üçün olunmuşdu. Məqsəd Amerikan donanmasını qüvvədən salmaq və Yaponiyanın Şərqi Hind Adaları və Cənub-şərqi Asiyanın geri qalan hissəsinin işğalını qarantiya altına almaqdı. Buna nail olunduqdan sonra dəniz yolları, xüsusilə də Sumatra və Borneodan öz vətənlərinə gedən tanker yollarını təhlükəsiz hala gətirəcəkdilər. Bu nəhəng kampaniyanın ana hədəfi, dönüb-dolaşıb Şərqi Hind Adalarının neft yataqlarına indekslənirdi.

O halda Havay əməliyyatı Yaponiyanın gündəmindəki daha böyük layihələrin gerçəkləşməsi üçün şərtdi. Bu layihənin uğur qazanmasında şans faktoru böyük rol oynamış, son dəqiqəyə qədər daim Yaponiyanın yanında olmuşdur. Yaponlar, bəxtləri sayəsində xəyallarında belə təsəvvür etmədikləri qədər uğurlara imza atmışdılar. Basqın nəticəsində meydana gələn çaşqınlıq və Amerikan müdafiəsinin Pearl Harbordakı gücsüzlüyü yaponların təxmin etdiklərindən də yuxarı olmuşdur. Pearl Harbora etdikləri hücumda dalğalar halında gələn iki yapon təyyarə qafiləsi, səkkiz savaş gəmisi, üç yüngül kravüzor, üç destroyer və dörd nəqletmə gəmisini batırmağa, pərakəndə hala salıb dağıtmağa və ya ağır şəkildə xəsarət yetirməyə nail olmuşdu. Bundan başqa, yüzlərlə Amerikan təyyarəsi xəsarət almış və ya ağır yara almışdı. Ölən əsgər sayı 2335, ölən mülki adam sayı 68 nəfər idi. Bütün bunların Amerikan tarixində ən qəhredici şoku yaratdığı şübhəsizdir. Amerikan təyyarə daşıyan gəmilərinə bir şey olmamasının səbəbi, bu gəmilərin basqın sırasında açıq dənizdə iş başında olmaları idi. Yaponiya isə sadəcə 29 təyyarə itirmişdi. Hər şeydən aydın olurdu ki, bu dəfə Admiral Yamamotonun oynadığı qumar tutmuşdu.

Yamamotonun özünə qalsaydı, bəlkə bir daha bəxtini





sınamaq istərdi. Ancaq özü əməliyyatın baş verdiyi yerdə deyildi. Minlərlə mil uzaqda, Yaponiya sahillərində bir admirallıq gəmisindəydi və hadisələri oradan təqib edirdi. Havay əməliyyatının komandanı olan Chuichi Nayono isə Yamamotoya nisbətən çox daha təmkinliydi. Həqiqətən də başından bəri bütün əməliyyatlara qarşı çıxmışdı. İndi də onu təşfiq edən zabitlərin bütün xahiş-minnətlərinə baxmayaraq, onların üzüldüklərini bilə-bilə bombardman təyyarələrini üçüncü dəfə Havaya - Pearl Harbordakı yanacaq depolarına və neft tankerlərinə hücum etmək üçün göndərmək istəməmişdi. Onsuz da bir dəfə bəxt onun üzünə artıqlaması ilə gülmüşdü. Daha çox risq üstlənərək, bu uğurunu kölgələmək istəməmişdi. Amerikanın bu hücumdakı tək şansı isə, bu fəlakət günündə heç olmasa, öz təyyarə daşıyan gəmilərini xilas etmiş olmasıydı.

Əməliyyatın planlaşdırma mərhələsində Admiral Yamamotonun etdiyi bir müşahidə vardı. Onun qənaətinə görə, 1904-cü ildə Port Arturda Yaponiyanın ruslara etdiyi sürpriz hücumun tam uğurlu olmamasında, Yaponiyanın hərbi əməliyyatları "axıra qədər aparmaması" öz təsirini göstərmişdi. Eyni səhv bu dəfə də Pearl Harborda təkrarlanırdı. Yaponiyanın savaş qərarı verməsində neft əsas faktor olmuşdu. Ancaq ən azından bir əməliyyatda - Havay əməliyyatında yaponlar neft mövzusunu hər nədənsə unutmuşdular. Amerikanın neft sahəsindəki üstünlüyünü silahdaşları ilə dəfələrlə gündəmə çıxarıb müzakirə edən Yamamoto, necə oldusa, Oahu Adasında bol miqdarda mövcud olan neft depolarının önəmi üzərində dayanmamış, bu mövzunu diqqətə almamışdı. Bu səbəblə də tutduqları planda bu adaya hücum təşkil edib, nefti ələ keçirmə mövzusuna yer verməmişdilər. Əsil yanlış olan da bu idi!

Bir şey vardı ki, bu, çox önəmli, son dərəcə həyati əhəmiyyətli hadisələrə səbəb olacaq böyük bir strateji yanlışdı. Havaydakı hər barrel neft, buraya ana qitədən gətirilmişdi. Əgər yapon təyyarələri Sakit okean eskadrilyasının neft ehtiyatlarını və bunların Pearl Harborda yerləşən neft tankerlərini sıradan çıxarsaydılar, sadəcə sıradan çıxardıqları gəmiləri yox, Amerikan Sakit okean Donanmasına aid olan nə qədər gəmi varsa, hamısını birdən "hərəkət edə bilməz" hala gətirmiş olacaqdı. O zaman yenidən neft axtarmaq lazım olacaqdı. Sonradan Sakit okean Donanmasının komandanlığına gətirilən Admiral Chester Nimitz, irəlidəki günlərdə bu haqda belə söyləmişdi: "Hadisənin baş verdiyi günlərdə donanmaya aid neftin hamısı Havayda, torpaq üzərindəki tankerlərdəydi. Neft ehtiyatımızın hamısı təxminən 4.5 milyon barrel idi, amma buna baxmayaraq, bunların hamısı 50 kalibrlik gülləylə məhv ediləcək haldaydı. Əgər yaponlar bu neftimizi sıradan çıxarsaydılar, savaş ən azı iki il daha uzanacaqdı."





# 17

## ALMANİYANIN SAVAŞ FORMULU

1932-ci ilin bir iyun günü idi. Günortadan sonra Münhen otelinin qapısına yanaşan açıq bir avtomobil nəhəng alman kimyəvi quruluşu olan I.G.Farbendən iki nəfəri götürmək üçün gəlmişdi. Açıq avtomobil biri kimyagər, digəri ictimaiyyətlə əlaqələr təmsilçisi olan bu iki adamı Adolf Hitlerin Prinzregentenplatzda yerləşən xüsusi evinə aparırdı. O zaman Hitler hələ Alman Şanşölyesi olaraq iqtidara gəlməmişdi. Ancaq Reyxstaqdakı millət vəkili sayısının təxminən 20 faizinə sahibdi və gələcək seçkilərdə də millət vəkili sayısını yenə xeyli artırmaq ehtimalı olan Nasional Sosialist Partiyasının lideri idi.

I.G.Farbendən gələn bu iki adamın Hitleri görmək istəmələrinin bir səbəbi vardı. Onların məqsədləri Hitlerlə danışıb, nasist mətbuatının şirkətləri əleyhinə başlatdığı və davam etdirdikləri kampaniyanı dayandırmaqdı. Nasistlər I.G.Farben şirkətinin "beynəlxalq maliyyə lordlarının" və "para babası yəhudilərin" əllərində alət olduqlarını əsas gətirərək, onun üstünə gedir və yəhudilərin bəzi yüksək səviyyəli vəzifələri işğal etdikləri səbəbilə şirkətə hücum edirdi. Bu ara "İsadore G.Farben" adı altında şirkətin bir karikaturasını belə çəkmişdilər. Nasistlərin şərkəti tənqid etmələrinin bir səbəbi daha vardı. Şirkət, kömürdən maye yanacaq - başqa bir adıyla sintetik yanacaq - emal etmə məqsədi daşıyırdı və çox bahalıya başa gələcək bu layihə üçün hökumətdən vergi güzəştləri almışdı. Elə nasistlərin tənqid etdikləri məqam da bu idi. Həm də bu problem ikinci bir problemin yaranmasına səbəb olurdu.

I.G.Farben sintetik yanacaq layihəsinə çox böyük yatırım qoymuşdu. Ancaq 1932-ci ildə bu layihənin davamlı olaraq hökumətdən vergi güzəştləri və dəstəyi olmadıqca heç bir zaman qazanc əldə edə bilməyəcəyi anlaşılmışdı. Şirkətin bu mövzudakı müdafiə arqumentləri isə beləydi: Qurulacaq bir sintetik yanacaq sənayesi ilə Almaniyanın xarici ölkələrdən olan neft asılılığı azalacaq və beləliklə, ölkənin üzərində hədsiz səviyyədə olan əcnəbi valyuta asılılığı da dayanacaq. I.G.Farben mənsubu olan bu iki təmsilçi Hitleri bu mövzuda inandırmaq ümidi ilə onun yanına gəlmişdilər.

Hitler o gün seçki kampaniyası üçün getdiyi bir səyahətdən yenicə qayıtmışdı və buna görə də toplantıya bir az gec qatılmışdı. I.G.Farbendən gələn iki təmsilçiyə əvvəlcə sadəcə yarım saat ayırmaq istədiyi halda, çıxışı onu alıb götürmüş, onlarla tam iki saat yarım danışmışdı. Hitler, hər zaman olduğu kimi öz xəyallarının gücüylə gipnoz olmuşcasına dayanmadan danışmış, söhbətin çox hissəsini özü çıxış etmiş, Almaniyanı texniki baxımdan inkişaf etdirmək və yol inşaatında cizdiyi planlar üzərində uzun bir xitabət dərsi keçmişdi. Ancaq bir ara bu iki adamdan sintetik yanacaq mövzusunda bəzi suallar soruşmuş və bu tip bir yanacağın yeni bir Almaniya yaratmaq planlarına tamamən uyğun olduğu haqqında təminat vermişdi. Onlara belə söyləyirdi: "Bu gün siyasi baxımdan müstəqil olmaq istəyən bir Almaniyada neftsiz bir iqtisadiyyat düşünülə bilməz. Bu baxımdan, alman mühərrik yanacağı layihəsi çox böyük fədakarlıqlar lazım olsa belə, mütləq həyata keçirilməlidir. Bu səbəblə kömür hidrogenerasiyasına davam etmə işi təxirə salınmadan ələ alınmalıdır." Hitler sintetik yanacaq layihəsi çalışmalarını ciddi-ciddi dəstəkləməyə başlamışdı. Bundan başqa, gələn adamlara





mətbuatın I.G.Farben əleyhinə başlatdığı kampaniyanı azaldacağına dair söz də vermişdi. Bununla da kifayətlənməyib, nasistlər hakimiyyətə gəldikləri zaman sintetik yanacaq sahəsində tətbiq olunan vergi güzəştlərinin davam edəcəyini də söyləmişdi. Təbii ki, bütün bunların qarşılığında I.G.Farbendən dərhal nasistlərin istədiyi şey - "kampaniyaya bağış" vermək tələb olunurdu. Toplantı bitdi və iki təmsilçi Hitlerlə etdikləri müzakirələrin nəticələri haqqında şirkət sahibinə məlumat verdi. Olan hər şeydən xəbərdar olan şirkət sahibi bunları söylədi: "Deməli, bu adam mənim təsəvvür etdiyimdən də normal və ağıllı adammış."

Həqiqətən də o gün Hitler normal və ağıllı bir adam kimi hərəkət eləmişdi və bunu etmək üçün yaxşı bir səbəbi vardı. Adamların açıqlamalarından məlum olmuşdu ki, uğurlu bir sintetik yanacaq proqramı dirilməkdə olan Almaniyanın topyekun inkişafında çox yararlı, hətta şərtdir. Hitler bunu həmən qavramışdı. Bu hədəfin gerçəkləşməsində ən böyük əngəllərdən biri olaraq Almaniyanın xammaddə, xüsusilə də neft idxalına olan bağlılığını görürdü. Ölkə daxilində istehsal olunan neft az, buna nisbətən idxalat isə çox yüksəkdi. Bundan başqa, idxal edilməkdə olan neftin əksəriyyəti Qərb yarımkürəsindən gəlirdi.

Son 50 il içərisində Almaniya, çox diqqətə dəyər bir iqtisadi böyümə göstərmişdi və bunu da daha çox özündə bol-bol olan bir enerji qaynağına - kömürə - borcluydu. 1930-cu illərin sonunda kömür, Amerikanın toplam enerjisinin təxminən yarısını təşkil edərkən, bu rəqəm Almaniyada istehsal olunan enerjinin 90 faizi qədərdi. Neft isə sadəcə 5 faiz həndəvərində idi. Ancaq hakimiyyətdə olmamasına baxmayaraq, hələ 1932-ci ildən Hitler

gələcəyə istiqamətlənmiş planlarının reallaşdırılmasına başlamışdı və həris əməllərinin gerçəkləşməsi üçün də neftə ehtiyacı vardı. Əvvəlcə 1933-cü ilin yanvar ayında Şanşölye oldu və onu təqib edən il yarım içərisində də Almaniyada bütün iqtidarı ələ keçirdi. İqtidara gəldikdən sonra girişdiyi ilk işlərdən biri "alman mühərrik sənayesində dönüm nöqtəsi" dediyi "mühərrikli maşın" layihəsidir. Layihə gərəyincə ölkə əvvəlcə avtomagistral yollar və sürət limiti olmayan avtomobil yollarıyla dörd bir tərəfdən hörüldü və 1934-cü ildə də yeni bir avtomobil istehsal etmək üçün planlaşdırmalara başladı. Bu, "Volksvagen" adlı "xalq avtomobili" idi.

Ancaq bütün bunların hamısı Hitlerin Avropanın tamamını nasist rejiminə və şəxsən özünə bağlamaq üçün həyata keçirdiyi "böyük plan"da çox kiçik bir yer tutar. Bu hədəfin həyata keçirilməsi üçün Hitler, heç vaxt itirmədən iqtisadiyyatı bir sistemə tabe etdirmək, böyük şirkətləri dövlətə bağlamaq və nasist savaş maşınları inşa etmək üçün hərəkətə keçdi. Bu savaş maşınlarının içində bomba və savaş təyyarələri, tanklar və iri maşınlar istehsalı da vardı ki, bunların hamısı neftə bağlıydı. Hitler bütün bunların hamısını bilirdi. Ona görə də I.G.Farben təmsilçilərinin sintetik yanacaq istehsal etmə layihəsinə fəvqəladə maraq göstərmişdi.

### Kimyəvi sellüziya

Kömürdən sintetik yanacaq əldə etmək üçün aparılan çalışmalar Almaniyada hələ Birinci Dünya Müharibəsindən əvvəl başlamışdı. O günlərdə bu ölkə "kimyada dünya lideri" olaraq qəbul edilirdi. 1913-cü ildə Fridrix Bergius adlı bir alman kimyagər ilk dəfə olaraq sonradan





"hidrogenerasiya" adlandırılan bir əməliyyatla kömürdən maye çıxarmağa nail ola bilmişdi. Hidrogenerasiyada kömürə - yüksək istilik və yüksək təzyiq altında bir sürətləndirici qarışdırılır və böyük miqdarda hidrogen əlavə edilir. Eyni əməliyyatı təxminən 10 il sonra, 1923-cü ilin ortalarında rəqib bir alman kimyagər Fişer-Tropsch da daha detallı formada sınaqdan çıxarmışdı. Fişer-Tropsch metodunda kömür molekulları buxar altında hidrogenə və karbon monoksidə çevrilir və daha sonra da bir arada reaksiyalar həyata keçirilir. Bunun nəticəsində isə sintetik neft istehsal olunmuş olur. Bu iki metoddan ilkinin, Bergiusun hidrogenerasiya əməliyyatının daha uyğun olduğuna qərar verilmişdi. Bu üsul sayəsində bir çox maddəylə birlikdə, Fişer-Tropschun nail ola bilməyəcəyi bir şey, "təyyarə benzini" də istehsal olunacaqdı. Bundan başqa, 1926-cı ildə Bergius əməliyyatı üzərində patent tələbi istəyən I.G.Farben, Fişer-Tropsch metodunu dəstəkləyənlər qarşısında siyasi baxımdan daha da güclüydü.

I.G.Farbenin sintetik neftə maraq göstərməsi 1920-ci illərə təsadüf edər. O illərdə dünyanın öndə gələn neft qaynaqlarının çox yaxında tükənəcəyi mövzusunda yayqın bir qənaət vardı. Bu qənaət insanları dünyanın dörd bir yanında yeni neft qaynaqları axtarmağa doğru istiqamətləndirmişdi. Əcnəbi qaynaqlı neftə olan tələbatın artması, əcnəbilərlə həyata keçirilən müxtəlif mal dəyiş-düyüşünə mənfi yöndə təsir göstərdiyi üçün hökumət də bu axtarışlara dəstək verirdi. I.G.Farbenin Leuna təsislərində sınaq mahiyyətli yeni bir fabrik inşa edilmiş və ilk məhsulunu 1927-ci ildə vermişdi. Bütün bunlar olarkən, I.G.Farben vaxtının bir hissəsini başqa ölkələrdə özünə potensial şəriklər axtarmaqla keçirirdi. I.G.Farbenin öndə gələn ingilis kimya qruplarından biri ilə əldə etdiyi razılaşma

təşəbbüslərinin uğursuzluqla nəticələnməsindən sonra, şirkət özünə daha məşhur olan başqa bir potensial ortaq tapdı. Bu ortaq Standard Oilun Nyu Jersey şöbəsidir.

Həmin günlərdə Standard Oil, neftayırma zavodlarından birləşmiş neft şirkətinə keçid edirdi və bu keçidin uğur qazanması üçün etdiyi təşəbbüslərin ortalarında bir yerdəydi. Bu təşəbbüslərin nəticəsində həm Birləşmiş Ştatlarda, həm də Avropada özünə aid olan bol xammaddəyə sahib olan birləşmiş bir neft şirkətinə çevrilməyə nail oldu. Şirkət, bu təşəbbüsləri edərkən, eyni zamanda maye yanacağın qaynağı kimi xam neftin yerinə keçəcək başqa alternativlərin də arayışı içərisindəydi. Hələ 1921-ci ildə ticari baxımdan neftçıxarmada tətbiq olunacaq uğurlu bir metod əldə edə bilmək məqsədilə Colaradoda 22 hektarlıq bir ərazi satın almışdı. Ancaq maliyyətinin son dərəcə yüksək olması səbəbilə Standard Oil, alınan nəticələrdən məmnun qalmamışdı. Neft yağından bir barrel sintetik yağ əldə etmək üçün bir ton qayaya ehtiyac olurdu ki, bu şərtlər də çəkici olmaqdan çox uzaqdı.

Standardın araşdırma şöbəsində çalışan Frank Hovard, 1926-cı ildə I.G-nin Leuna təsislərini ziyarət etmişdi. Bu ziyarətdən o qədər təsirlənmişdi ki, binanı tərk etdikdən dərhal sonra o günlərdə Parisdə olan Standard şirkətinin başqanı Valter Teagleyə bir teleqraf çəkərək, bunları bildirdi: "Bu gün müşahidə etdiyim müşahidələrin və müzakirələrin işığında bu qənaətə gəldim ki, bu mövzu Standard parçalandıqdan sonra onun qarşılaşdığı mövzular içində ən önəmli olanıdır. Bu, benzin istehsalı mövzusunda mütləq və mütləq Avropanın müstəqil olduğu mənasına gəlir." Teagleyə gəlincə, o, şəxsən Avropa bazarlarını yeni sintetik neftə qapdırma ehtimalından təlaşlanmış, buna görə də dərhal Leunaya qayıtmışdı. İşin vacib etdiyi





araşdırma və istehsal təsisləri yaratmaqdan çəkinirdi. Daha sonra, işə girişildiyində, bu haqda belə söyləyəcəkdi: "Gedib görüşənə qədər araşdırma işinin nə olduğunu, sanki heç bilmirdim. Həyata keçirilən işləri gördükdən sonra, bu işlərdə bir balaca uşaq qədər məlumatsız olduğumu anladım."

Mövzunu müzakirə etmək məqsədilə Teagle, Hovard və Standardın digər rəhbərləri heç vaxt itirmədən I.G.Farben təsislərindən təxminən 10 mil uzaqlıqda yerləşən Heidelberqdə, bir otel otağında bir araya gəldilər. Hovardın sonradan açıqladığına görə, toplantıda "hidrogenerasiya işlərinin o günə qədər neft sənayesində mövcud olmuş bütün texniki faktorlardan daha təsirli ola biləcəyi" nəticəsinə gəlinmişdi. Artıq I.G.Farben laboratoriyalarında təcrübələrə başlanmışdı və anlaşıldığına görə, bu laboratoriyalar Standard baxımından ciddi təhlükə törədirdi. Hovard bu mövzuda bu görüşləri bildirəcəkdi: "Kömürün hidrogenerasiyası iqtisadi bazada götürüldüyündə böyük ehtimalla xam neftlə yarışa girə bilməz. Ancaq "milliyyətçilik faktoru" səbəbilə hidrogenerasiya - qiymətini ödəməyə hazır olan bir çox ölkədə qorunma altında bir emal sənayesinin yaxşıca əsasına çevrilə bilər." Hidrogenerasiyanın işə başlaması ilə bazarların xaricdən idxal olunan xam neftə və neft məhsullarına qapılarını bağlaması da gündəmdəydi. Standard isə bu işdən uzaq tutulmağa əsla dözüm göstərə bilməzdi.

Bütün bu səbəblərlə Standarda Louisianada bir hidrogenerasiya fabriki qurma icazəsi verən I.G.Farbenlə bir ön sözləşmə imzalandı. O günə qədər aradan keçən zaman içində neftdə qıtlıq dövrü qapanmış, ifrat istehsal dövrü isə başlamaq üzrəydi. Amerikan şirkətinin marağı da buna paralel olaraq istiqamət dəyişdirmişdi. Daha çox benzin

əldə etmək üçün hidrogenerasiyanın xam neft üzərində də tətbiq olunması gündəmə gəldi. Nəticədə, Louisianadakı yeni təsisdə bu əməliyyatın kömür üzərində deyil, neft üzərində sınaqdan çıxarılması qərarlaşdırıldı. Bu cür əməliyyatla hər neft barrelindən daha artıq benzin əldə etmək mümkün olacaqdı.

1929-cu ildə bu iki şirkət daha geniş və daha əhatəli olan bir anlaşma da imzaladılar. Anlaşmaya görə, Almaniya xaricindəki hidrogenerasiyalarda patent haqqı Standardın olacaqdı. Bunun qarşılığında I.G.Farben Standard Oilun iki faiz hissəsinə sahib olacaqdı. 546.000 hissənin dəyəri 35 milyon dollar tuturdu. Hər iki şirkət də digərinin ana fəaliyyət sahəsindən uzaq durmağı, bir-birinin işlərinə müdaxilə etməməyi öhdəsinə götürürdü. Bir Standard yetkilisi vəziyyəti bu cür izah etmişdi: "I.G.Farben neft işindən uzaq duracaq, biz də kimyəvi işlərdən uzaq duracağıq." Bundan sonra ikinci addım 1930-cu ildə atılır və "neft-kimya" sahəsindəki gəlişmələri paylaşacaq ortaq bir şirkət qurulurdu. İş bütünüylə götürüldüyündə, Standarda bir xeyli texniki məlumat axışı təmin olunurdu.

1931-ci ildə ən böyük mükafat alman elminə və xüsusilə də hidrogenerasiyaya verilmişdi. Kimya sahəsindəki Nobel mükafatı hidrogenerasiya texnologiyasının icad edəni Bergiusla I.G.Farben şirkətinin sahibi arasında paylaşılmışdı. Yenə də buna baxmayaraq, Leunada bu layihə işi yürümür, gündəlik istehsal 2.000 barrel olduğu halda, neft yaxşı axmırdı. Buna görə də Leuna təsisi ciddi maddi sıxıntı içərisindəydi. İnkişafın zənn edildiyindən daha çətin olacağı, daha bahalıya başa gələcəyi anlaşılmışdı. Bütün bunlardan başqa, Texasdakı yeni neft yataqlarının kəşf olunmasının yaratdığı neft bolluğu, bütün dünyada hiss olunmağa başlamışdı. Neft istehsalındakı çoxalma təbii





olaraq dünya bazarlarında neft qiymətlərinin düşməsiylə nəticələndi ki, bu da Leuna təsislərində sintetik yanacaq istehsalını daha məsrəfli etdi. Belə ki, maliyyətin bu dərəcədə yüksək olması I.G.Farbeni bu layihənin heç bir zaman gəlir gətirməyəcəyi haqqında tərəddüdlərə salmışdı və I.G.Farben rəhbərliyi bundan ciddi şəkildə qorxurdu. Sintetik yanacağa "leunabenzin" deyilirdi. Bir litr leunabenzin istehsalının maliyyəti, Meksika Körfəzində tankerə boşaldılıb Almaniyaya göndərilməyə hazır vəziyyətə gətirilən bir qalon benzin qiymətinin tam 10 qatına başa gəlirdi. Bu məqamı diqqətə alan bəzi I.G.Farben rəhbərləri, layihədən imtina etməyin ən yaxşı yol olduğu qənaətində idilər. Layihəyə davam etmə tərəfdarları isə deyirdilər ki, Leuna təsislərini bağlamağın məsrəfləri, layihəyə davam etmə məsrəflərindən daha çoxdur və buna görə də layihəni davam etdirmək lazımdır.

Böyük Böhranın cövlan etdiyi günlərdə o qədər çətinliklərə baxmayaraq, sintetik yanacaq sənayesinin hələ də ayaqda tutulması, dövlətin layihəyə verdiyi dəstək səbəbindəndi. Hitlerdən əvvəlki Brüning hökuməti zamanında layihəyə kifayət qədər vergi güzəştləri tanınmamışdı. Yeni nasist rejimi isə I.G.Farbenə yetərli miqdarda vergi güzəşti tanımaqla bərabər, daha çox dəstək verməyə, qiymət və bazar qarantiyası təmin etməyə hazırdı. Ancaq bunun üçün bir şərt qoşurdu. I.G.Farben şirkəti sintetik yanacaq istehsalını önəmli ölçüdə artırmalıydı. Digər tərəfdən, hidrogenerasiya hələ iməkləməkdə olan bir texnologiya idi. Belə olduğu üçün də özbaşına fəaliyyət göstərməyə yetərli deyildi və Üçüncü Reyx dövrünün himayəsinə möhtacdı. Yeri gəlmişkən, I.G.Farbenə bir çox çevrələrdən dəstək gəlmişdi. Bunların arasında yüksək keyfiyyətli təyyarə benzini istehsal etməsi şərtilə Hava Qüvvələrinin

verdiyi dəstək və Alman ordusu Vermaxtın ölkədə sintetik sənaye qurmaq üçün girişdiyi dəstək fəaliyyətləri də sayıla bilər. Alman ordusu bu dəstəyi ona görə verməyə hazır idi ki, planlamaqda olduğu yeni tip bir savaşda Almaniyanın mövcud neft ehtiyatları yetərli olmaya bilərdi.

## Savaşa hazırlıq

Daha sonra ortaya çıxan yeni hadisələr Hitler və komandasına bir tərəfdən əcnəbi qaynaqlı neftə güvənməyin təhlükələrini, digər tərəfdən də buna paralel olaraq Almaniyanın öz neftini istehsal etməyə nə qədər möhtac olduğunu göstərmişdi. Bunlardan birincisi, bir nümunə ilə açıqlana bilər. 1935-ci ilin oktyabr ayında İtaliya, o günlərdə daha çox Abyssinia deyə bilinən Həbəşistanı işğal etmişdi. Həbəşistanın bitişiyindəki İtalyan müstəmləkələri ilə olan sərhədləri son dərəcə zəif şəkildə qorunurdu. İtalyan diktator Benito Mussolini qədim Romanı təqlid edərək, böyük bir imperiya yaratmaq xəyalına qapılmış və buna görə də istila hərəkatlarına girişməyi planlaşdırmışdı. İlk olaraq Həbəşistana hücum etdi. Millətlər Cəmiyyəti bu təcavüzü qınadı və bəzi iqtisadi embarqolar tətbiq etdi və İtaliyaya olunan neft ixracatına embarqo qoymağı da düşünməyə başladı. Bu ara Ruzvelt hökuməti də - Amerika Birləşmiş Ştatları da - Millətlər Cəmiyyətinin üzvü olmadığı halda, bir yolunu tapıb bu embarqoya qatıla biləcəyi əlamətlərini verirdi. Mussolini neftin kəsilməsiylə İtalyan hərb maşınının iflic olacağını hamıdan yaxşı bilirdi. Ordular irəliləməyə davam edib, aciz vəziyyətdə qalan həbəşlərə zəhərli qaz atarkən, Mussolini Millətlər Cəmiyyətini qorxutmaq üçün hər cür blef və zorbalığa baş vururdu. Bu arada İtaliyaya qarşı tətbiq olunacaq iqtisadi





embarqoları savaş səbəbi sayacağını açıqladı. İtaliyaya neft embarqosu edilməsi üçün ilk təklifi edən lider, Millətlər Cəmiyyətində ingilis nazir kimi təmsil olunan Antoni Eden, Mussolininin təhdid və hədə-qorxularına qulaq asmırdı. Onun söylədiyinə görə, Mussolini ancaq "çılğın bir köpəyin" edə biləcəyi bir hərəkəti gözə alacaq adam deyildi. Bu mövzudakı başqa bir fikri də bu idi: "Bu adam heç bir zaman mənə intihar edə biləcək bir tip təsiri bağışlamamışdır." Yenə də Mussolini, özünə bir müttəfiq axtarırdı və sonunda bu istəkli müttəfiqi Fransanın Baş naziri, hiyləgər Pierre Lavalın şəxsində tapacaqdı. Laval hiyləgərcə hərəkətlər edərək, bir yolunu tapıb embarqo qərarını - tam uğur qazanılacaq anda rədd etmişdi.

1936-cı ilin yaz aylarında Mussolininin qüvvələri artıq Həbəşistanı fəth etmiş, İtaliya Kralı titullarına birini də əlavə edib, eyni zamanda "Həbəşistan Kralı" olmuşdu. Beləliklə, bütün embarqo hərəkətləri də boşa getmişdi. Neft embarqosu mövzusu isə, o günə qədər heç gündəmə gətirilmədiyindən, nəticəsinin nə olacağı anlaşılmamışdı. Gələcək günlərin birində Mussolini Hitlerə bir sirr açıqlayır, bunları söyləyirdi: "Əgər Millətlər Cəmiyyəti Edenin Həbəşistan məsələsindəki təklifini qəbul edib, onun istədiyi kimi neftə embarqo qoysaydı, mənim bir həftə içərisində Həbəşistandan çıxmam lazım olacaqdı. Bu, mənim üçün əvəzi ödənməyəcək bir fəlakət olurdu!" Hitler, Mussolininin bağımlılıq haqqındakı sözlərini böyük ciddiyyətlə dinləmiş, öz hesabına bu sözlərdən yaxşı bir dərs almışdı.

İkinci dərs, ana yurda daha yaxın bir yerdə verilmişdi. O günə qədər alman bazarı - Standard Oil, Shell və digər xarici şirkətlərdən asılı olduğu halda, indiki nasist rejimi yerli bazarı bu şirkətlərdən xilas etməyə çalışırdı.

Almanlar üçün daha ağır bir şey də vardı. Nifrət etdikləri bolşeviklərin əllərində böyük neft məntəqələri zənciri vardı və almanlara satdıqları neft məhsullarını bu zəncirdən keçirərək satırdılar. Sovet zəncirini ələ keçirmək üçün nasist hökuməti 1935-ci ildə bir alman benzin bazarlamaçısını bu iş üçün ayırdı. Məqsəd, onların deyişləri ilə "bir həşərat yuvası"nı təmizləməkdi. Sovetlər bir müddət istəməyərəkdən də olsa, əvvəlcə öhdələrinə götürdükləri miqdarda nefti bu dağıtım sistemi içindən keçirərək paylamağa davam etdilər. Ancaq sonra, 1936-cı ilin fevral ayında birdən-birə neft nəqlini dayandırdılar. "Əcnəbi qaynaqlı ödəmələrdə qarşıya çıxan çətinliklər" bunun səbəbi olaraq göstərilmişdi. Neft paylanması bir daha təkrarlanmamaq üzrə, müddətsiz olaraq kəsilmişdi. Hitlerin nöqteyi nəzərində sadəcə bu hadisə belə, "asılılığın təhlükələri" haqqında ciddi bir xəbərdarlıqdı.

Tam bu əsnada, 1936-cı ilin fevral ayının ortalarında - Millətlər Cəmiyyətinin neft embarqolarını müzakirə etdiyi sırada Hitler, Berlindəki illik mühərrik nümayişi mərkəzini açırdı. "New York Times" qəzetinin müşahidələrinə görə, Hitlerdən "digər hər hansı bir hökmdar və ya dövlət başçısının edə biləcəyindən daha çox avtomobil səyahəti etməsi gözlənirdi." Bu fürsətdən yararlanan Hitler, "Almaniyanın sintetik benzin istehsal etmə problemini uğurla həll etdiyini" elan edəcəkdi. Üstünü basaraq vurğuladığına görə, "bu uğur siyasi baxımdan çox böyük məna daşıyırdı." Əcnəbi neft və embarqolar mövzusu isə, hər zaman üçün Hitlerin beynini çox məşğul etmişdi. Bunun səbəbi çox kritik bir hərəkatın astanasında olmasıydı. Yeri gəlmişkən, elə bir ay sonra, 1936-cı ilin mart ayında böyük cəsarət göstərərək və aradakı anlaşmaları da çeynəyərək, Fransa ilə olan sərhəddə Rhinelandın (Reyn hövzəsi) hərbi





qüvvəsini artıracaqdı. Bu, onun beynəlxalq cəbhəyə ilk pəncə atışı idi və özünün də sonradan söylədiyi kimi, həyatında yükləndiyi ən qorxunc risq və qarşısındakı 48 saat da həyatında keçirdiyi ən əsəb pozucu saatlardı. Qərbli güclərin onu dayandırmasını gözləyir, amma qarşı tərəf onu dayandırmaq üçün heç bir hərəkət etmirdi. Deməli, oynadığı qumarı qazanmışdı. O halda eyni modellə davam edə bilərdi.

Daha sonra Hitler, 1936-cı ildə - 1940-cı il olaraq müəyyənləşdirdiyi hədəf tarixinə qədər alman dövlətini savaş üçün hazır vəziyyətə gətirmək məqsədilə bəzi yeni addımlar atmağa qərar verəcəkdi. Bu məqsədlə, əvvəlcə yeni texnologiya və kimyadan faydalanaraq, əcnəbi neftdən asılılığı azaltmağa yönəlik 4 illik bir plan hazırladı. Planın təqdimatını edərkən, bu sözləri söylədi: "Almaniyanın yanacaq istehsalı artıq son sürətlə inkişaf etdirilməlidir. Bu vəzifə, eynən savaşın aparılmasında göstərilən diqqət və əzmlə ələ alınıb yürüdülməlidir. Çünki savaşın gələcəkdəki taleyi buna bağlıdır." Bu sözləri söylədikdən sonra bunları da əlavə edəcəkdi: "Bu xammaddələrin istehsal olunma xərci əhəmiyyətli deyildir."

Sintetik neft sənayesinin topyekun inkişaf planının gücünü, dayandığı yerdən tərpətmək üçün təxminən onu altı dəfə artırmaq lazım idi. Bu proqrama böyük maliyyə dəstəyi verilmişdi. Bundan başqa, hərəkətsiz vəziyyətdə olan sənaye qurumlarını hərəkətə gətirmək üçün çox böyük miqdarda polad və əmək gücündən istifadə olunmuşdu. Hər fabrik böyük ərazilərə yayılmış və böyük sənaye şirkətlərinə bağlı olan nəhəng mühəndislik şirkətlərinə çevrilmişdi. Ən əsası da o idi ki, bu şirkətlər nasist dövləti ilə tam bir ortaqlıq formasında çalışırdılar. Bu işdə özünü nasist ideologiyasına uyğunlaşdırmağa çalışan

I.G.Farben, müstəqil bir şirkət olmaqdan çıxmış, daha çox alman alman dövlətinin sənaye qoluna çevrilmiş və tamamən nasistlərə bağlanmışdı. Bu ara iş yerində nə qədər yəhudi məmur varsa, - İdarə Heyətinin üçdə birini təşkil edən yəhudi üzvlər də daxil olmaqla - hamısı birdən işdən çıxarılmışdı. İdarə Heyətinin nasistlərə müxalif olan üzvü Carl Bosch - hansı ki, Standard Oilla bağlanan müqaviləni o imzalamışdı - yəhudi olduğu üçün bir kənara itələnmişdi. İdarə Heyətində hələ nasist partiyasına üzv olmayanların çoxu isə bu arada üzvlüyə qəbul olunmaq üçün bir-biriləri ilə yarışa girmiş, bir-birilərini qabaqlamaq üçün dəridən-qabıqdan çıxmağa başlamışdılar.

Dörd İllik Planın qarşıya qoyduğu böyük və iddialı vədlərin bir az artıq "şişirdilmiş olduğu" aydınlaşmağa başlasa da, Almaniya bu sahədə çox böyük və əhəmiyyətli sayılacaq sintetik yanacaq sənayesi qurmağa nail olmuşdu. Almaniyanın Polşanı işğal edib Avropada İkinci Dünya Müharibəsini başlatdığı 1 sentyabr 1939-cu ilə qədər 14 hidrogenerasiya fabriki yaradılmış və tam gücü ilə süni benzin istehsal etməyə başlamışdı. Bundan başqa, 6 hidrogenerasiya fabriki də tikilməkdəydi. 1940-cı ildə sintetik yanacaq istehsalı çox sürətli bir inkişaf yolu təqib etmiş, gündə 72.000 barrelə çatmışdı. Bu, bütün neft ehtiyaclarının 46 faizi deməkdi. Ancaq hərbi ehtiyaclar nəzərə alındığında, sintetik yanacağın daha əhəmiyyətli olduğu görünürdü. Hidrogenerasiya - Bergius metodunun tətbiqi Almaniyanın təyyarə benzini ehtiyacının 95 faizini qarşılayırdı. Sintetik benzin olmasaydı, Luftwaffe təyyarələrinin havalanması mümkün deyildi.

Hərbi mexanizmin gücünə baxmayaraq, üstəgəl əmrində gündən-günə böyüməkdə olan bir sintetik yanacaq potensialı olduğu halda Hitler, heç cür "neft" mövzusunu





beynindən ata bilmirdi. Həqiqətən də savaşa hazırlıq mərhələsində təməl strategiyasını müəyyənləşdirərkən, bu mövzunu daim diqqətə almış, strategiyasını ona görə tənzimləmişdi. Bu strategiya - "İldırım Sürətli Müharibə", yəni "blitzkrieg" adlandırılan, şiddətli, amma çox qısa müddət davam edəcək və neft ehtiyatlarında problem başlamadan mütləq qələbəyə nail olunacaq böyük mexaniki gücün istifadə olunduğu çarpışmalar deməkdi. Başlanğıcda bu strategiya çox yaxşı nəticələr vermişdi. Sadəcə 1939-cu ildə Polşada yox, 1940-cı ilin yazında da Hitler ordusu Norveç, Belçika, Hollandiya və Fransaya girəndə heyrətverici bir asanlıqla bu strategiya uğurlu nəticələrə səbəb olmuşdu. Alman ordusu işğal etdiyi ölkələrin neft ehtiyatlarını da nəzarətə götürdüyü və işğal müddətində istehlak etdiyindən çox neft əldə etdiyi üçün bu kampaniya, Qərbdə Almaniyanın neft sahəsindəki mövqeyini daha da yaxşılaşdırmışdı. Hitlerin hava bombardmanı yoluyla İngiltərə adalarını cilovlamaq üçün etdiyi ard-arda həmlələr 1940-cı ilin payızına qədər davam etsə də, uğursuzluqla nəticələndi. Amma bütün bunlara baxmayaraq, artıq Almaniya Avropada hakimiyyəti ələ keçirmənin bir addımlığına gəlmişdi. Son günlərdə Hitler, yeni bir vərdiş qazanmışdı. O, artıq qələbələri "ucuz" qiymətləndirməyə başlamışdı. Deməli, Hitler artıq gözlərini Şərqə - gələcəkdəki hədəfinə çevirə bilərdi. Bu zaman o, digər asan başa gələcək bir qələbənin xəyallarını qururdu. İkinci hədəfi Sovet İttifaqı idi.

**Rusiya savaşı: "Generallarım savaşın iqtisadi tərəflərini bilməzlər"**

Almanların Sovet İttifaqı ilə savaşa başlama qərarında bir çox faktor rol oynamışdır. Hitlerin "Bolşevizmi yer üzündən silmənin "həyatının hədəfi" olduğunu" söylədəcək qədər Bolşeviklərə bəslədiyi köklü nifrət, Stalinə qarşı olan şəxsi düşmənçiliyi və "kiçik qurdlar" olaraq gördüyü slavyanlara bəslədiyi aşağılıq münasibət, Avropa torpaqlarına bütünüylə hakim olma arzusu və şan-şərəfə çatma ehtirası bu faktorlar arasında yer alırdı. Bundan başqa, Şərqə baxdığında onu Min İllik Reyx - özünün qurduğu yeni Alman İmperiyası üçün "lebensraum" - "yaşam sahəsi" olaraq görürdü. Stalin, 1939-cu ilin avqust ayında imzalanan Nasist-Sovet Paktına riayət olunması üçün acınacaqlı halda əldən-ayaqdan getdiyi və Hitleri təhrik etməkdən çəkindiyi halda, alman diktator İngiltərə ilə Sovetlər Birliyi arasında gizli bir anlaşma olmasından şübhələnirdi. Belə olmasaydı, heç İngiltərə 1940-cı ildə müharibəni açıq-aşkar şəkildə uduzduğunu bildiyi halda, təslim olmağı rədd edərdimi? Hər şey bir tərəfə. Ortada həm də bir neft problemi vardı.

Hitlerin Rusiyanı istila etməsinin əsas məqsədi Bakı və Qazaxıstanın neft yataqları idi. Bir tarixçinin yazdığına görə "iqtisadi sahədə Hitlerin ən böyük ehtirası neftdi." Hitlerin fikirlərinə görə neft, sənaye dövrü və iqtisadi inkişaf üçün həyati əhəmiyyətli bir maddəydi. Neftə o qədər maraq göstərirdi ki, neft haqqında kitablar oxuyur, neft haqqında müzakirələr aparır, danışır, çıxış edir, dünyanın zəngin neft yataqlarının tarixini araşdırırdı. Onun qənaətinə görə, Qafqazın nefti - Ukraynanın verimli





və bərəkətli "quru torpaqları" da daxil olmaqla - alman imperiyasının tərkibinə daxil edilərsə, o zaman qurduğu Yeni Düzən də təhlükəsiz olar. Bu şərtlər yerinə yetirilərsə, ölkəni "məğlubedilməz" edəcək qaynaqlar da əldə olunmuş olacaqdı. Mövzunun bu şəkildə dəyərləndirilməsi ilə Yaponiyanın Şərqi Hind Adaları və Cənub-şərqi Asiya qaynaqlarını imperiyasının tərkibinə qatma ehtirası arasında çarpıcı bir oxşarlıq var. Albert Speer adlı, o zamanlar Almaniyanın Hərbi Təchizat və Müharibə Naziri olan şəxs, 1945-ci ilin mayındakı istintaqda bu sözləri söyləyəcəkdi: "Rusiyanı işğal qərarı verilməsində neftə olan ehtiyac şübhəsiz ki, əsas təkanverici faktor olmuşdur."

Hitler bundan başqa, Sevet İttifaqı xaricində qalan və Avropanın ən böyük neft qaynağı olan Rumıniyanın Ploesti neft yatırımlarının yeganə sahibi olmaq istəyirdi və Sovetlərin burada gözü olduğunu zənn edərək, özü üçün təhlükə təşkil etdiyinə inanırdı. Artıq Rumıniya Almaniyanın bir müttəfiqi idi və Almaniyanın neft üçün Ploestiyə şiddətlə ehtiyacı vardı. Almaniyanın 1940-cı ildə gerçəkləşdirdiyi toplam neft idxalatının 58 faizi buradan gəlmişdi. 1939-cu ildə Nasist-Sovet Paktının imzalanmasından sonra Sovet İttifaqı yenidən Almaniyaya neft göndərməyə başlamışdı. Göndərilən bu neft, ölkə neft idxalatının üçdə biri səviyyəsində idi. Nasist rəhbərlərindən biri bu miqdarı belə ifadə etmişdi: "Alman savaş iqtisadiyyatına əhəmiyyətli şəkildə sanki qan verildi." 1940-cı ilin iyun ayında Sovet İttifaqı Nasist-Sovet Paktının şərtlərindən yararlanaraq, paktın ona tanıdığı hüquqla Rumıniyanın şimal-şərqində olduqca böyük bir ərazini ələ keçirəcəkdi. Buraları ələ keçirməklə rus hərbi qüvvələri, Hitlerin uzun zamandan bəri göz diktiyi Ploesti neft yataqlarına çox yaxınlaşmış olurdular. Hitler bundan söz edərkən,

Mussoliniyə "müttəfiq ölkələrin həyatı bu neft yataqlarına bağlıdır" demişdi. Hitlerə görə bu məsələ, ancaq Rusiyaya olunacaq şiddətli bir hücumla öz həllini tapa bilərdi. Alman diktator bu cür bir hücumun Ploesti bölgəsinin təhlükəsizliyini qarantiya altına alacağını düşünürdü.

Digər tərəfdən, yenə Hitlerin qənaətinə görə, Rusiyanın fəthi heç şübhəsiz ki, çox böyük, hətta ilk fəthlərlə müqayisə olunmayacaq qədər böyük bir mükafat gətirəcəkdi. Bu mükafat Qafqazın neft yataqları olan Maikop, Qroznı və Bakı şəhərləri idi. Hitler bu mövzuda öz qəribə hesablamalarını aparır, bunlardan bu nəticəni çıxarırdı: Rusiya ilə aparılacaq bir savaşda almanların itki verəcəyi adamların sayı, sintetik sənaye sahəsində çalışan fəhlələrin sayından artıq olmayacaqdı. Belə olan halda, "irəliyə" getməmək üçün heç bir səbəb yoxdu.

1940-cı ilin dekabr ayında Hitler, "İldırım Sürətli Barbarossa Planı" ilə bağlı olan 21 saylı əmrini yayınladı. Direktiv Sovet İttifaqını işğal etmək üçün lazımi hazırlıqların başlanmasını əmr edirdi. Bu ara almanlar rus "dostlarına" məmnuniyyətsizliklərini göstərir, heç bir əlamət verməməyə diqqət göstərirdilər. Hətta o qədər ki, Stalini yatırtmaq üçün bir çox hiyləli taktikalara girişdilər. Məqsəd Stalini, almanların belə bir işğala hazırlaşmadığına inandırmaqdı. Əslində, bir çox qaynaqdan, yaxınlarda belə bir istilanın olacağına dair xəbərlər gəlməkdəydi. Amerikalılar, ingilislər və başqa hökumətlər, Rusiyanın birbaşa öz casusları daxil, bu gizli məlumatları bilirdilər. Ancaq Stalin heç bir halda bu xəbərlərə inanmamış, bu xəbərlərin həqiqət olmadığını söyləyərək rədd etmişdir. Hətta son gün, işğala bir saatdan belə az qaldığı halda, özünü ölkəsinə həsr edən bir alman kommunist, alman ordusundakı birliyindən qaçıb sovet ordusuna pənah





gətirmiş, bir neçə saat sonra olub-bitəcəkləri onlara bildirmişdi. Stalin bu adamın sözlərinə inanmamış, "bu işdə bir fırıldaq var" deyə adamı güllələtmişdi.

22 iyun 1941-ci ildə, sabahın erkən saatlarında rus yük qatarları, Sovet İttifaqındakı dəmir yolları vasitəsilə qərbə doğru hərəkət edir, Almaniyaya neft və daha bir çox başqa xammaddələr daşıyırdı. Gecənin gec saatlarında - saat 03.00-da isə, 3 milyon əsgər, 600.000 mühərrikli vasitə və 625.000 tam təchiz olunmuş alman ordusu gözlənilməz bir halda Sovet İttifaqına basqın etdi. Almanların girişdiyi bu öldürücü basqın Sovetləri qəflətən yaxaladı və Stalini günlərlə davam edən bir sinir böhranına götürdü. Onun əsəb sistemləri pozulmuşdu. Almanların nəzərində bu hücum - əvvəlcə Polşada, Aşağı Avropa ölkələrində, Fransada, Yuqoslaviyada və son zamanlarda Yunanıstanda uğurla tətbiq etdikləri "blitzkrieg"in təkrarıydı. Onların düşüncələrinə görə, bu savaşı 4 və ya 6 həftə içində, ən uzağı 10 həftə içində bitirəcəkdilər.

Rusiyada girişdikləri hərəkatı nəzərdə tutaraq, Hitlerin öyünərək söylədiyi - "qapını təpikləyib açacağıq və evi dərhal yerlə yeksan edəcəyik" fikri, hücumun başlandığı ilk həftələr içində doğru kimi görünmüşdü. Yeri gəlmişkən, əvvəlcə almanların özlərinin də təxmin etdiklərindən sürətli irəliləmiş və darmadağın olan Sovet qüvvələrini geri püskürtməyi bacarmışdılar. Xırda-para bəzi cansıxıcı məqamlar istisna olunarsa, "qələbə" artıq ovuclarının içindəymiş kimi görünürdü. Ancaq bir müddət sonra bəzi xəbərlər gəlməyə başladı. Almanların yavaşladıqları söyləntisi gəzib-dolaşırdı. Həqiqət bu idi ki, almanlar ləvazimat ehtiyaclarını - o cümlədən də neft ehtiyaclarını - hesablayarkən, çox ciddi yanlışlıqlara yol vermişdilər. Rusiyanın dolambaclı və keşməkeşli yollarında, aşılması

çətindən çətin ərazilərində irəliləməyə çalışan maşınlar, əvvəlcə təxmin ediləndən daha çox, hətta bəzən iki dəfə artıq yanacaq istehlak edirdi. Böyük maşınlarsa dolambaclı yollarda torpağa batıb qalır, ona görə də böyük maşınların yerinə, ata qoşularaq hərəkət edən kiçik rus vaqonlarından istifadə olunurdu. Yanacaq sıxıntısı olduğu haqqında olunan xəbərdarlıqlara diqqət yetirilmədi. İlk günlərdə qazanılan qələbənin sərxoşluğu içərisində bu xəbərdarlıqlar qulaqardı edilirdi.

Avqust ayında alman generallar Hitlerlə görüşdülər və ondan ilk hədəf kimi seçdikləri Moskvaya yürümə icazəsi istədilər. Hitler bu təklifi rədd etdi. 21 avqust tarixli direktivində "qış başlamadan əvvəl çatmaq istədiyim məqsəd Moskvanı tutmaq deyildir. Məqsədimiz Krımı və Donetskdəki sənaye və kömür bölgələrini ələ keçirmək və Qafqazdan gələn rus neft nəqlini dayandırmaqdı" deyirdi. Vermaxt Bakını tutmalıydı. Krıma gəlincə, Hitler buranı "Rumın neft yataqlarına hücumda istifadə olunan "təyyarə daşıyan" bölgə" olaraq qiymətləndirirdi. Generallarının etdikləri hər hansı bir etirazı özünün də xoşuna gələn bir fikri ilə cavablandırırdı: "Generallarım savaşın iqtisadi xüsusiyyətlərini bilməzlər." Fəth etmək fikri Hitlerin qanının arasına girmişdi. Hələ o zamanlardan xəyallarını yüksək səslə dilə gətirir, Norveç-Frondheimdən Krıma qədər çəkdirəcəyi avtobandan bəhs edərdi. O günə yetişəndə artıq Krımın Almaniyaya qatılacağından əmindi. Krımdan "Almaniyanın Riviyerası", Volqa çayından da "bizim Missisippimiz" deyə söz edərdi.

İrəlidəki günlərdə Hitler fikrini dəyişdirdi və ilk fəth olunacaq şəhər kimi Moskvanı siyahının başına gətirdi. Amma artıq aradan keçən bu qədər zaman içərisində çox qiymətli vaxtı ziyan olub getmişdi. Bunun nəticəsində





almanlar, Kremlin sadəcə 5 mil uzaqlıqdakı həndəvərinə gəlib çıxsalar da, bunu ancaq xeyli gecikməylə - 1941-ci ilin payızında edə bilmişdilər. İndi bu şəraitdə, sürətlə yaxınlaşmaqda olan qış mövsümündə palçıq və qarla mübarizə etmək məcburiyyətində qalmışdılar. Çox keçmədən neft və digər təməl xammaddələr tükənməyə başladı. 27 noyabrda Qərargah rəisi "işçi və ləvazimat baxımından, bütün ehtiyatlarımızın sonuna gəldik" deyirdi. Sonra günlər keçdi, 5 və 6 dekabr tarixlərində general Yuri Zukov Sovetlərin ilk uğurlu qarşı hücumunu həyata keçirə bilmişdi. Bu qarşı hücumla Zukov Almaniyanın irəliləyişinin qarşısını aldı və onu bütün qış mövsümünü orada qalmağa məhkum etdi.

Alman ordusu Qafqaza girməyə nail ola bilməmişdi. Əvvəlcə verilən 6, 8 və ən çox 10 həftəlik müddətlər indi aylara yayılmışdı. Almanlar artıq o qış mövsümündə hərəkətsiz vəziyyətə salınmışdı. Ləvazimat və onların nəqli yollarının uzunluğunu ilk başdan diqqətə almamış, Sovet hərb maşınının ehtiyat gücləri haqqında təxminlərində yanılmışdılar. Yanıldıqları çox vacib və əhəmiyyətli başqa bir mövzu da vardı. Sovet əsgərləri ilə Sovet xalqının çətinliklərə və yoxluqlara nə dərəcədə dözümlü olduğunu bilmirdilər və heç təxmin etməmişdilər. Savaş, Sovetlərin ağılalmaz bir hərb gücünə sahib olduğunu sübut etmişdi. Savaşın birinci ili içində 6 və ya 8 milyon Sovet əsgəri ölmüş və ya əsir düşmüş olduğu halda, Sovet silahlı birləşmələri savaşa qatılan yeni əsgərlərlə ara vermədən təmin olunmuşdu. Bu arada Yaponiyanın Sovet İttifaqına hücum etməyib, Pearl Harbora hücum etməsi, oradan da Cənub-şərqi Asiyaya keçmə qərarı Stalini məmnun etmiş, beləliklə, Sibirdəki hərbi qüvvələrini qərbə - alman cəbhəsinə çəkməsini mümkünləşdirmişdi.

## Blau əməliyyatı

1942-ci ilin ilk aylarında Berlin, Rusiyaya təşkil edəcəyi "Blau Əməliyyatı" adlandırdığı böyük hücumun planını hazırlayırdı. Planın hədəfində əsasən, Qafqazın neft yataqları dayanırdı. Oradan İran və İraqdakı neft yataqlarına, sonra da Hindistana gediləcəkdi. Hitlerin iqtisadiyyat üzrə mütəxəssisləri rus neftini ələ keçirmədikcə, Almaniyanın savaşa davam edə bilməyəcəyini bildirmiş, Hitler də bu görüşlərə səmimiyyətlə qatılmışdı. Eyni zamanda rus savaş iqtisadiyyatını da can damarından vurmaq istəyirdi. Onun qənaətincə, rus hərbi birləşmələri lazım olan neftdən bir dəfə məhrum edildimi, artıq qətiyyən müharibəyə davam edə bilməzdilər. Hitler, Sovet İttifaqının - ehtiyatda olan son hərbi birləşmələrini də neft yataqlarını qorumaq naminə itirəcəyindən mütləq əmindi və şübhəsiz, bundan sonra da qələbə onun olacaqdı. Buna tamamən inanmışdı. O dərəcədə ki, 15 min güclü-qüvvətli əsgərdən təşkil olunmuş bir Texniki Neft Birləşməsi yaratdı və bu birliyə Rus Neft Sənayesini düzənləmə və işlətmə səlahiyyəti verdi. Artıq Almaniyanın rus neftini işlətməsi üçün qarşısında bircə əngəl qalırdı: o da nefti ələ keçirməkdi.

1942-ci ilin iyul ayının axırlarında alman orduları bu məqsədə doğru bir xeyli yol almış kimi görünürdü. Rostov şəhəri alınmış, Qafqazdan uzanan neft kəməri kəsilmişdi. Avqustun 9-da Qafqaz neft mərkəzlərinin ən qərbdə yerləşəninə, Maiopa yetişdilər. Bu şəhər normal şərtlər altında Bakıdan alınan neftin sadəcə onda birini verən kiçik bir mərkəzdi. Bundan başqa, ruslar buradan çıxmazdan əvvəl, neft yataqlarını, bütün vasitələri və alətləri, atelyelərdəki xırda cihazları belə tamamən sıradan





çıxarmış, şəhəri belə bir vəziyyətə salıb, tərk etmişdilər. Bu səbəblərdən də 1943-cü ilin yanvar ayına qədər almanlar buradan gündə 70 barreldən artıq neft çıxara bilmədilər.

Almanlar yenə də irəliləməyə davam edirdi. Artıq ana yurdlarından və təminat mərkəzlərindən minlərlə mil uzaqdaydılar. Avqust ayının ortalarında alman dağ birlikləri Qafqazda, Avropanın ən yüksək zirvəsi olan Elbrus dağına alman bayrağı sancırdılar. Amma bir şey vardı ki, heç bir məqsədinə yetmədən. Almaniyanın savaş maşını dayanmışdı. Düşmən tərəfindən daha yaxşı nəzarət olunan dağ keçidlərində ordular mühasirəyə alınır, gözlədilir, ləngidilir və yanacaq çatışmazlığı səbəbindən vaxt itirdiyinə görə, çaşqın halda nə etdiklərini bilmirdilər. Alman ordusunun Rusiya ilə savaşmaq üçün böyük miqdarda neft qaynağına ehtiyacı vardı. Ancaq planlaşdırılan miqdarın qat-qat artığını hələ o günlərdən istehlak etdikləri üçün "sürət" və "sürpriz hücum" üstünlüklərindən məhrum qalmışdılar. "Blau Əməliyyatı" məqsəd kimi neft əldə etməyi hədəflədiyi halda, əksinə, ordularının neftsiz qalmasına səbəb olmuşdu.

Hərçənd almanlar, fransız neft depolarını ələ keçirdikləri kimi, rus neft depolarını da ələ keçirməyə nail olmuşdular. Ancaq rus tanklarının dizellə, alman panzerlərinin isə benzinlə çalışması səbəbilə bu, Almaniya baxımından heç bir yararlı nəticə verməmişdi. Panzerlərin zaman-zaman Qafqazda günlərlə hərəkətsiz qalıb, yeni neft gətirilməsini gözlədiyi olurdu. Neft yüklü maşınların özləri də yanacaq azlığı səbəbindən normal sürətlə hərəkət edə bilmədiklərindən, yolda geri qalırdılar. Nəticədə, çarəsizlik içərisində neft və neft məhsullarını dəvələrlə daşımağa başladılar. 1942-ci ilin noyabr ayında almanların dağ keçidlərini aşıb, Qroznı və Bakıya çatmaq üçün cəhd etdikləri son həmlələr də geri püskürdüldü.

Qafqazın şimal-qərbində yerləşən Stalinqrad şəhərini almanlar başından bəri ikinci hədəfləri saymışdılar. Ancaq içində "Stalin" kəlməsi olduğu üçün şəhər ta başından bəri yalnız Almaniya tərəfindən yox, həm də Sovet İttifaqı tərəfindən bir "simvol" olaraq qəbul olunmuşdu. Bu səbəblə də Stalinqrad, 1942-1943-cü illərin qışında insan gücünü aşan çətin toqquşmaların, döyüş səhnələrinin meydanına çevrilmişdi. Bu ara Almaniya, mütəmadi olaraq ləvazimat və xüsusilə də neft yoxluğu ilə qarşı-qarşıya qalmışdı. Əfsanələşdirilmiş qəhrəman kimi qəbul olunan alman Komandanı General Heinz Quderian, o qış Stalinqraddan həyat yoldaşına yazdığı məktubda vəziyyəti belə izah edirdi: "Dondurucu soyuqlar, daldalanacaq yer yoxluğu, geyim-gecimimizin olmaması, həm əsgər, həm də silah-sursat baxımından düçar olduğumuz ağır itkilər, yanacaq ehtiyatımızın çətin vəziyyəti - hamısı bir araya gəlincə, komandanlıq vəzifəm işgəncəyə çevrilirdi."

18 aydan uzun davam edən, insan gücü və material qaynaqların uğradığı ağır itkilərdən sonra, bu dəfə savaşın sərt küləkləri tərs istiqamətdə əsməyə başladı. Almaniya artıq Rusiyada "hücum" deyil, "müdafiə"də oynamağa başlamışdı. Marşal Erix fon Manstein gecə yarısı Hitlerlə bir telefon danışığı həyata keçirdi. Bu telefon danışığında o, Fürerdən Qafqazdakı ordu birliklərini çəkib, onun əmrinə verməsi və beləliklə, Stalinqradda döyüşən Altıncı Orduya yardım etməsi üçün bir növ yalvardı. Ancaq Hitler bu yalvarışları rədd etdi.

Hitler telefonda Marşala bunları söyləmişdi: "Bütün problem Bakını ələ keçirməkdir, hörmətli Marşal. Bakı neftini ələ keçirmədikcə, müharibəni uduzmuş sayılırıq." Daha sonra da neftin savaş sənayesində nə dərəcədə həyati əhəmiyyətə malik olduğu haqda uzun bir nitq irad etdi. Bu





çıxışında Hitler bir dəfə söylədiyini təkrar-təkrar bir də söyləyir, yenə də çıxışını saxlaya bilmirdi. Təyyarəyə nə qədər yanacaq lazımdır, tanka nə qədər yanacaq lazımdır - durub-durub bunları təkrarlayır, sözlərini heç cür bitirə bilmirdi. Nəhayət, son olaraq bunları söylədi: "Əməliyyatlarımız üçün ehtiyacınız olan nefti artıq təmin edə bilməsəm, hörmətli marşal, siz də heç bir şey edə bilməyəcəksiniz."

Yenə də buna baxmayaraq, Manstein bu qanlı hücumları dayandırmaq üçün təşəbbüsünə davam etmiş, ən önəmli strateji problem - Altıncı Ordunun xilas edilməsi mövzusunda Hitleri inandırmağa çalışmışdı. Hitler Marşallı dinləməmiş, dinləmə bir yana, bu dəfə də alman ordularının Orta Şərqdə necə birləşəcəyini anlatmışdı: "...Daha sonra da bütün qüvvələrimizlə cəm şəkildə Hindistana yürüyəcəyik və orada İngiltərə üzərində qazandığımız son qələbəyə möhürümüzü basaraq, dünyaya elan edəcəyik. Gecəniz xeyrə qalsın. "Heil", hörmətli marşal!"

Marşal Manstein bu sözlərin qarşısında yeganə bir cavab verəcəkdi: "Heil, mənim Fürerim."

Hitlerin bütün coşqu və həyəcanına baxmayaraq, yenə də 1943-cü ilin yanvar ayında Qafqazdakı alman əsgərlərinə "çəkil" əmri verildi. Nə yazıqlar ki, bu əmr çox gec verildiyi üçün Stalinqraddakı Altıncı Ordunu xilas etmək mümkün olmadı. Sovet Ordusu tərəfindən mühasirəyə alınan Altıncı Ordu tələyə salınmış, xilas olmağa heç bir ümid yeri qalmamışdı. Qaça bilmək üçün 30 mil uzaqlığındakı bir yolu aşmaları lazım idi. Ancaq tanklarda sadəcə 20 milə yetəcək qədər yanacaq vardı. 30 millik bir yolun 20 millik yanacaqla qət edilməsi isə imkansızdı. Bu səbəblərlə 1943-cü ilin yanvar ayının axırları və fevral ayının

əvvəllərində Stalinqradda mühasirəyə alınmış vəziyyətdəki alman silahlı qüvvələri yıxılmış, hər gücdən düşmüş, donmuş, ac və özlərinə hərəkət imkanı verən maddələrdən məhrum halda təslim oldular.

Stalinqrad Almaniyanın Avropada qarşılaşdığı ilk böyük məğlubiyyətdir. Bu məğlubiyyət Hitleri nəzarət edə bilmədiyi dərəcədə çılğın bir əsəbiliyə sürükləmişdi. Onun qənaətincə, alman əsgərləri təslim olmaq əvəzinə, ölməliydilər. Amma artıq Almaniya "hücum"a oynamırdı. "Blitzkrieg" dövrü arxada qalmışdı. Bundan sonra "ildırım sürətli hücum" deyil, hərbi insan gücü və neft də daxil olmaqla, iqtisadi qaynaqlar əhəmiyyət qazanacaqdı. Şərq cəhbəsində isə bəzən əks əməliyyatlar olsa da, Sovet İttifaqı heç sapmadan irəliyə doğru addımlayır, almanları işğal etdikləri rus torpaqlarından atıb, son hədəfə gedən yolda - yəni Berlin yolunda - amansızcasına irəliləyirdi.

## Rommel və qərargah rəisinin intiqamı

Taleyin Almaniyaya üz çevirməsi sadəcə 1942-ci ilin axırlarında və 1943-cü ilin əvvəllərində Stalinqradda yaşanmadı. Bəxtin Almaniyanın əleyhinə döndüyünü göstərən çox anlamlı bir hadisə də - Şimali Afrikanın qumları və qəhvə rənginə çalan çınqıl və çılpaq qayaları üzərində - Liviya və Misir arasındakı sərhəddə yaxın yerdə yaşanmışdı.

Şimali Afrika - General Ervin Rommelin ifadəsiylə İkinci Dünya Müharibəsinin, hərbi toqquşmaların tam mənasında "tam hərəkətlilik prinsipinə" görə oynandığı yeganə teatr idi. Bu hərəkətliliyi Almaniyanın Şimali Afrikadakı Panzer Ordusu və ən dəyərli ünsürü olan Afrika Gücü təmin edirdi. Bunların hər ikisi də Rommelin





ixtirasıydı. Rommel çox ağıllı, təşəbbüskar, xəyal gücü qüvvətli olan bir adamdı. Tank savaşı və hərəkətliliyə söykənən döyüşlərdə bu qabiliyyətlərini ustaca göstərə bilmişdi. Strateji və taktiki mövzularda risq üstlənməyə hazırdı. Kıçik boylu, sakit, soyuqqanlı olan Rommel, Birinci Dünya Müharibəsinə də qatılmış, bu savaşda "meydan savaşı lideri" olaraq ad çıxarmışdı. Rommelin quru qoşunları haqqında yazdığı kitabı oxuyan Hitler, kitabdan çox təsirlənmiş, 1938-ci ildə Nasist Partiyasının üzvü olmadığı halda, Rommeli Fürerin şəxsi təhlükəsizlik xidmətinin başına gətirmişdi. 1940-cı ildə də Fransa sərhəddində heyrətamiz bir sürətlə irəliləyən panzer qrupunun komandanlığını o etmişdi. Fransa hərəkatı onun qənaətincə, savaşdan çox bir oyun kimiydi. Həyat yoldaşına yazdığı məktubda "Qərbdə olacaq bir savaşın belə nəticələnəcəyini heç təxmin etməmişdik" deyir, sonra da böyük bir rahatlıqla bunları əlavə edirdi: "Bu, sanki Fransaya olunan bir günlük səyahətə oxşayır."

1941-ci ilin fevral ayında Rommel, ingilis silahlı qüvvələri tərəfindən məğlubiyyətin astanasına gətirilmiş İtalyan ordusuna dəstək vermək üçün Şimali Afrikaya göndərilirdi. Buradakı müharibə Rommel üçün "qısa bir gəzinti" olmayacaqdı. Çünki genişliyi sadəcə 70 mil olan savaş bölgəsinin uzunluğu 1000 mil idi və ərazi Liviyada Trablusdan Misirdə Əl Alameinə qədər uzanırdı. Alman qüvvələri bu bölgədə olduqca sürətli irəliləsə də, ortada ildırım savaşına bənzər heç bir şey görünmürdü.

Rommel hərəkət və cürət istəyən savaşlar üçün yaranmışdı. Buna görə də Qərargah Rəisinin tələbinə uyaraq, qələbəyə aparacaq bir yürüşü yarıda kəsən bir komandiri incidəcək hərəkətlər edirdi. Bu mövzudan bəhs edən bir yazısında belə yazmışdı: "Qərargah Rəisinə tabe

olanlar, son günlərdə yeni bir adət etmişdilər. İşləri ilə məşğul olacaqları və yaradıcı güclərindən istifadə edəcəkləri yerdə, qarşılaşdıqları hər çətinlikdə o saatca şikayət etməyə başlayırlar. Bu, həqiqətən arzu olunmayan bir haldır. Düşmənin darmadağın olunmasıyla nəticələnən şanlı bir qələbədən sonra, sırf Qərargah Rəisi belə dedi deyə irəliləməyi dayandırmaq, tarixin özü tərəfindən də səhv kimi qəbul olunacaqdır. Tarix, əldən buraxılan elə fürsətləri bir-bir xatırladacaqdır." Rommelin qərargah zabitlərinə bağlanmağa heç niyyəti yoxdu.

Başlanğıcda Rommel, ingilis silahlı qüvvələrinə qarşı Şimali Afrikada ağılalmaz qələbələr qazanmışdı. Bunlara çox zaman çox məhdud qaynaqlarla və düşməndən ələ keçirilmiş hərbi silah-sursatla nail ola bildi. Bir dəfə istifadə etdiyi mühərrikli maşınların 85 faizi ingilislərdən və amerikanlardan ələ keçirilmiş maşınlar idi. Yeni tapıntılar etməkdə inanılmaz dərəcədə qabiliyyəti və bacarığı vardı. Sadəcə taktika mövzusunda yox, başqa sahələrdə də yoxdan var etməyi bilirdi. Rommel, müharibədə ilk döyüşə başladığı günlərdə Trablus fabriklərində tank maketləri istehsal etmiş, sonra da bu işə yaramayan "tankları" Volksvagenlərə yükləyərək ingilisləri qorxutmaq istəmişdi. Onun bu "tankları" işə yaramışdı. İngilislər bu maketləri zirehli texnika zənn etmişdilər və almanların çoxlu zirehli texnikalarının olduğuna inanmışdılar. Ancaq onun belə inkar edə bilməyəcəyi bir gerçək vardı: Mühərrikli güclərin tamamən bol miqdarda yanacağa bağlı olduğu gerçəyi və hadisələrin sürətli inkişafına ayaq uydurmaq və uzun məsafələri qət etmək üçün lazım olacaq bol neft potensialına möhtac olunan gerçək. Neft Rommel üçün hər zaman üstündə ən inadla dayandığı problemlərdən biri, hətta öz ifadəsinə görə, zaman-zaman ən önəmli yeganə mövzu





olmuşdu. Hələ 1941-ci ilin iyun ayında dəftərinə bunları yazırdı: "Nə yazıq ki, neft ehtiyatlarımız düşmən tərəfindən əməlli-başlı dağıdılıb. Yaxınlaşmaqda olan ingilis hücumunu da bu səbəbdən narahatlıq içində gözləyirik. Çünki bunu çox yaxşı bilirik ki, hərəkatımızın qələbə və ya məğlubiyyətini təyin edən faktor, texniki üstünlüklərdən daha çox, neftdir."

Ancaq Rommelin qüvvələri 1941-ci ilin axırları və 1942-ci ilin ilk yarısında uğurlu bir neft təminatına qovuşmuşdu. Bu səbəblə Rommel, bir daha "hücum" taktikasına keçərək, 1942-ci ilin may ayının sonunda ingilislərə qarşı əsil böyük hücumunu edəcəkdi. Hücum gerçəkdən də yaxşı keçmişdi. İngilislər geri çəkilmişdi və bir həftə içində Rommelin gücləri 300 mil məsafəni qət etmiş, irəliyə doğru hərəkətini davam etdirmişdi. Əldəki plana görə, Liviya ilə Misir arasındakı sərhəddə dayanması lazım ikən, Rommel bunu etməmiş, sərhəddi zorlamışdı. Zorlama yürüşün dayandırıldığı ana qədər davam etdi. Yürüş Əl Alamein adlı kiçik bir qatar stansiyasının yaxınlığında dayandırıldı. Həqiqət budur ki, Rommel plana uyğun hərəkət edərək, əlində mövcud olan ərzaq və ləvazimata uyğun hərəkət edib, onları yaxşı hesablaya bilsəydi və Qərargah Rəisinin təkliflərini dinləsəydi, bəlkə də vəziyyət bambaşqa ola bilərdi. İndi artıq Əl Alameində İskəndəriyyədən 60 mil uzaqlıqdaydı. Qahirə və Süveyş kanalı da bir elə uzaqda deyildi.

Bu ara müttəfiq dövlətlər şahanə bir qələbənin astanasında olduqları inancında idilər. Mussolini təyyarəyə minib Şimali Afrikaya uçmuş, özünü müşayiət etmək üçün də yanına başqa bir təyyarə daha götürmüşdü. İkinci təyyarədə bir "Savaş atı" vardı.

Rommelin məqsədlərinə gəlincə, bunlar Mussolininin

planlarından daha əhatəli idi. Rommel Qahirəni yolunun üzərində dayanan bəsit bir dayanacaq gözündə görürdü. Bu dayanacaqdan keçib Fələstin, İraq və İranı ələ keçirəcək, son olaraq da Bakıya və Bakıdakı neft yataqlarını ələ keçirməyə nail olacaqdı. Qafqazda sadəcə savaşmaqla kifayətlənməyəcək, alman silahlı qüvvələrinin yeni yardımları ilə lazım olan "strateji şərtlər"i yaradaraq, o "əzəmətli Rusiya"nı paramparça edəcəkdi. Rommelin başına girən bu xəyalı Hitler də eynən paylaşırdı. Mussoliniyə yazdığı məktubda bu duyğusunu belə ifadə etmişdi: "Tale bizə bu savaş teatrında bir daha rast gələ bilməyəcəyimiz bir şans vermişdir."

Ancaq Rommel və Hitler bu cür danışmaqda və planlar qurmaqda tələsmişdilər. Sovetlər Qafqazda direnişlərini möhkəmləndirmiş, bundan yararlanan müttəfiq dövlətlər də qorxunc alman hücumlarına qarşı Liviya sahillərində yerləşən və bir Aralıq dənizi adası olan Maltanı geri almağı bacarmışdılar. Bu qüvvələr Şimali Afrikadakı Rommel qüvvələrini dəstəkləmək üçün göndərilən əsgərləri Maltadan çıxardıqları üçün bu, müttəfiqlər baxımından önəmli bir nailiyyətdi. Artıq Malta geri alınmışdı və müttəfiqlər ordunun təminatına buradan, yeni bazaları olan Maltadan başlayacaqdı. Bundan başqa, müttəfiqlər alman və italyan şifrələrini ələ keçirir, bu da onlarin işlərini rahatlaşdırırdı. Bir başqa tərəfdən, Alman Hava Qüvvələri Luftwaffenin yanacaq daşıyan təyyarələri belə benzinsiz qalmağa başlamışdı. İtaliyadan yanacaq gətirən gəmilər də artıq savaş sularından keçib, Şimali Afrikaya yetişə bilmirdi. O günə qədər Rommel, həqiqətən qazandığı böyük qələbəylə Afrika qüvvələrini uzaq, inanılmaz məsafələrə daşımış, bu da ona misli-bərabəri olmayan şöhrət qazandırmışdı. İndi isə bu şan-şöhrət təhlükədəydi.





Əmrindəki yanacaq təmin edən xətlər çox uzaq olduğundan, Trablusdan yanacaq gətirən maşınlar gəliş və dönüş üçün lazım olandan çox benzin istehlak edirdilər. Əməliyyatın çox uzaqlara və çox böyük bir sürətlə yayılması sadəcə Rommelin Qərargah Rəisinə qorxulu röyalar gördürmür, Panzer ordusunu da çox təhlükəli perspektivə sürükləyirdi. Yenə də buna baxmayaraq, Rommel, çox yaxınlarda qələbə qazanacağından əmin idi. 28 iyun 1942-ci ildə həyat yoldaşına yazdığı bir məktubda, İtaliyada birlikdə keçirəcəkləri 1 iyul tətili üçün hazırlıqlara başlamasını istəyir və "pasportlarımızı hazırla!" deyirdi.

Başqa bir tərəfdən baxıldığında, o sıralar Qahirədə böyük bir panikanın yaşandığı müşahidə olunur. Bir tərəfdən ingilislər əllərindəki sənədləri yandırır, o biri tərəfdən müttəfiq qüvvələrin komandirləri Qahirəni yük qatarlarıyla boşaltmağa məcbur edilirdi. Qahirəli tacirlərə gəlincə, onlar böyük bir təlaşla dükanlarının divarlarından asılan Çörçill və Ruzveltin rəsmlərini endirib, onların yerinə Hitler və Mussolininin şəkillərini asırdılar. İngiltərə isə 1942-ci ilin iyun-iyul ayları boyunca müqavimətini davam etdirirdi. Rommelin yenidən hərəkətə keçməsi üçün benzini qalmamışdı. İki tükənmiş ordu "Əl Alamein birinci Meydan Savaşı" deyilən bu savaşda yerindən tərpənməyəcək nöqtəyə gələnə qədər döyüşmüşdülər və indi də elə oradaca - Afrikanın istidən qovrulan səhralarında əlləri-qolları bağlı halda gözləyirdilər.

Avqust ayının ortalarında Rommel, yeni və öhdəsindən gəlinməsi çox çətin olan bir rəqiblə qarşılaşacaqdı. Bu, sərt, amansız, hər zaman öz haqlılığına inanan, heç bir şeydə ikinci olmağa razılaşmayan, ancaq hər şərt altında mütləq çox səbrli olmağa nail olan General Bernard Montgomery idi. Səudi neft məsələsində hər daşın

altından çıxan H.St.Con B.Philbynin yaxın qohumu olan Montgomery, Philby Hindistanda evlənəndə, bəyin sağdışı olmuşdu. Həyata erkən yaşlarında atılan Montgomery, həyatda ən önəmli şeyin insanın özünün-özünə, özünün gücünə güvənmək olduğunu öyrənmişdi. Bir milçək sancması nəticəsində qəribə bir şəkildə ölən həyat yoldaşından sonra, həyatda heç bir hissi bağı, dəyər verdiyi heç bir şey qalmamışdı. Daha sonra Misirdəki Səkkizinci ordunun komandanlığını üstlənmək üçün ani bir qərarla müraciət edəcəkdi. Gələcəkdə niyə bu cür hərəkət etdiyini açıqlayarkən, dəftərinə bu sözləri yazırdı: "Həyatda sahib olduğum hər şeyi 1941-ci ilin yanvar ayında düşmənin bombaladığı Portmouthda itirmişdim. İndi qarşıma almanları əzmək, onlardan qisas almaq üçün bir fürsət çıxmışdı. Mən də bu fürsətdən yararlanmaq istədim." Bəziləri Montgomery qəribə, hətta bir az da ruhi sağlamlığı yerində olmayan bir "paranoyak" olaraq görürdülər. Özü də bunun fərqindəydi. Yeri gəlmişkən, Ruveisat Ridgedə Səkkizinci ordunun bir neçə zabiti qarşısında etdiyi ilk çıxışında bu sözləri söyləmək ehtiyacı hiss eləmişdi: "Sizi əmin edirəm ki, ağlım tamamən başımdadır. Bildiyimə görə, mənim yüngülcə başdan xarab olduğumu zənn edənlər var. Bu, o qədər tez-tez söylənir ki, artıq mən bu sözləri iltifat kimi qəbul edirəm."

Bəlkə bir az qəribə səslənir, amma Montgomery eyni zamanda çox tədbirli, yaxşı bir tərbiyəçi və hərbi sahədə araşdırmaçı bir stratejist idi. Bütün günü tək başına otağına qapanıb keçirdiyi olurdu. Belə zamanlarda öz dediyi kimi, "ağıl gimnastikası" edər, problemlər üzərində düşünər, ana prinsiplər axtarar, planlar qurardı. Evinin divarında Rommeli gəzici çöl qərargahında göstərən bir şəkil asmışdı. Buna baxar, Rommelin hansı şərtlər altında





nə edəcəyini təxmin etmək istərdi. Montgomery, Rommellə üz-üzə gəldiyi zaman müasir bir əfsanə qəhrəmanı ilə, Səkkizinci orduda qorxu və dəhşət yaradan birisiylə qarşılaşacağının fərqindəydi. Ağlında çatmaq istədiyi tək bir hədəf vardı: bir çoxlarının mümkünsüz hesab etdiyi bir şeyi həyata keçirmək, motorlu savaş ustası Rommelin taleyini tərsinə çevirmək və onu mütləq şəkildə məğlub etmək. Montgomery bunu Rommelin məğlubedilməzliyinə inandığı üçün istəyirdi. Onun qənaətincə, Rommel heç bir zaman məğlub olunmamışdı. Sadəcə, bəzən daha çox neft tapmaq üçün geriləmək məcburiyyətində qalmışdı. Montgomery, irəliki zamanlarda - meydan savaşlarında ifrat dərəcədə ehtiyatlı hərəkət etdiyi iddia olunaraq tənqidlərə məruz qalmışdı. Bir şey var ki, həqiqətən də, bir alman generalının da sonradan söylədiyi kimi, Montgomery "bu savaşda girdiyi bütün meydan müharibələrini qazanan" tək marşal idi.

Rommellə get-gedə yaxınlaşmaqda olan çarpışmanı düşünərkən, Montgomery, strategiyasını Səkkizinci orduya görə qurmuşdu. Sherman tankları ilə təchiz olunmuş bu ordudan bütün imkanlarıyla, tam olaraq yararlanmaq istəyirdi. Bundan başqa, öz neft və ərzaq təminat xəttinin qısa, Rommelinkinin isə uzun olduğunun gətirdiyi üstünlüklərdən də yararlanmağı planlaşdırırdı.

1942-ci ilin o isti avqust günlərində iş birdən-birə dəyişmiş, Rommelin neftlə təminat vəziyyətində bir xeyli irəliləyiş olmuşdu. Vəziyyət belə ikən, əcaba, nə etməliydi? Hücuma başlaya bilərdimi?

Rommelin qarşısında iki alternativ vardı. Birincisi, neftdə yaranan sıxıntının və bunun doğuracağı çətinliklərin fərqində olaraq - üstəlik sağlamlığı da əl vermədiyindən - xəstəlik icazəsi alıb Qahirə yürüşünə davam

etməmək. Sağlamlığı həqiqətən də pozulmuşdu. Ciddi bir bağırsaq rahatsızlığı keçirirdi. Buna görə də bir neçə gün əvvəl xəstəlik icazəsi üçün müraciət etmişdi. İkinci alternativ, Qahirə yürüşünə davam etmək, hətta daha da irəliyə getməkdi. Zamanın sürətlə axıb getdiyini, buna görə də Afrika güclərinin əhvali-ruhiyyəsinin də diqqətə alınmasının lazım olduğunu düşünürdü. Bu düşüncələr içərisində "hücum" əmri verdi. Əl Alamein yaxınlarında cərəyan edən bu raunda sonradan "Alam Halfa Meydan Müharibəsi" deyilmişdir.

Bir həftə davam edən bu döyüşdə Afrika qüvvələri ard-arda bir neçə dəfə yanacaq çatışmazlığı səbəbilə dayanmışdılar. Rommel, bunları qeydiyyatlarında göstərmişdi. 31 avqustdakı qeyddə bunlar yazılmışdı: "Ağır hərəkət səbəbindən Afrika qüvvələrinin neft ehtiyatları qısa müddət ərzində bitdi. Buna görə də saat 16.00-da 132 saylı təpədə hücum hərəkatını dayandırdıq." 1 sentyabrdakı qeyddə isə bunlar yazılıb: "Bizə göndərilməsi söz verilən neft, hələ gəlib Afrikaya çatmayıb." Rommelin ehtiyac duyduğu neft heç bir zaman da Afrikaya gəlib çatmayacaqdı... Gəmilərlə çatdırılacaq yanacağın çoxu ya dənizin dibinə tökülmüşdü, ya da hələ İtaliyada yüklənməyi gözləyirdi. Hərçənd benzin daşımağa əlverişli olan kiçik bir dəmiryolu vardı, amma o da sel basqınlarında sıradan çıxmışdı. Bu səbəblərlə də Rommelin qüvvələri taktiki baxımdan yaxşı mövqelərdə yerləşdirilmiş ingilis topçu qüvvələrini yarıb keçə bilmədilər. 1942-ci ilin sentyabr ayının 7-də Alam Halfa Meydan Müharibəsi artıq bitmişdi. Rommelin girişdiyi bu son hücum hərəkatı, hələ yolda ikən darmadağın edilmişdi. Beləliklə, "məğlubedilməzlik" əfsanəsi də artıq bitmişdi.

Bu hadisədən keçən həftələrdə Rommel yalvararaq





Hitlerin qərargahından nəyin bahasına olursa olsun yanacaq istədi. Buna avtomobil vasitələri üçün tələb etdiyi yanacağı da daxil etmişdi. Hər bir vasitə üçün 2.000 mil məsafəyə kifayət edəcək qədər yanacaq tələb edirdi. 23 sentyabr tarixində Rommel, əvvəlcə Romada Mussolinini, sonra da Rusiya sərhədləri yaxınlığında yerləşən qərargahında Hitleri görmək üçün Şimali Afrikadan ayrıldı. Yenə də neft üçün xahiş-minnət edirdi. Amma Hitler ona neft əvəzinə marşallıq nişanəsi olan bir "əsa" verirdi. Üstəlik bu əsa Fürerin birbaşa özü tərəfindən verilirdi. Bu təqdimetmə mərasimində Hitler Rommelə çox comərd davranacaq, heç bir zaman yerinə yetirə bilməyəcəyi bir çox vədlər verəcəkdi.

23 oktyabrda bu dəfə Montgomery həftələr boyu davam edən uzun və diqqətli bir hazırlıq və yanacaqla təminat mərhələsindən keçərək, güclü bir topçu qüvvəsiylə "İkinci Əl Alamein Savaşı" adlanan hərəkata başlayacaq, qarşı tərəfə hücuma keçəcəkdi. Almanlar donub qalmışdılar. Döyüşün birinci günü Rommelin yerinə komandanlıq edən General Corc Stumme ingilis hava bombardmanına düşən avtomobilindən enəndə infarkt keçirib ölmüşdü. Və Hitler o zaman xəstəlik səbəbilə Avstriyanın Alp tərəflərində müalicə götürən Rommelə telefon açıb dərhal Şimali Afrikaya qayıtmasını əmr etdi. Oktyabrın 25-də Rommel bir daha Misirə qayıdırdı. Bir şey vardı ki, bu dəfə uzun müddət davam edəcək bir geri çəkilmə hərəkatına komandanlıq etmək üçün geri gəlirdi.

Almanlar yeni neft daşınması ümidlərini təyyarələrə və Kraliyyət Donanması ilə RAF-ın (Kraliyyət Hava Qüvvələri) sistemli şəkildə sıradan çıxardığı gəmilərə bağlamışdılar. Rommel, əlacsızlıq içində onlara neft gətirəcək dörd gəmini gözlərkən, bu gəmilərin RAF tərəfindən

nisbətən təhlükəsiz bir liman olan Tobrukda batırıldığını öyrəndi. Bu xəbər Rommeli çox sarsıtmışdı. Bütün gecəni heç yatmadan, gözləri açıq keçirmişdi. Rommel bu batırılmanın nə mənaya gəldiyini çox yaxşı bilirdi. Bu hadisəni gündəliklərinə belə keçirmişdi: "Neft daşıyan gəmilərə hücum edən ingilislər bizi can evimizdən vurdular. Bütün mübarizə ruhumuzun davamı bu neftə bağlıydı."

O gündən sonrakı həftələrdə Rommelin əlindən gələn tək şey geri çəkilməkdi. Zaman-zaman içindən toparlanıb düşməninə öldürücü zərbələr endirmək gəlirdi. Ancaq yanacaq olmadığı üçün bunu etməyə cəsarət etmirdi. Hitlerə təkrar-təkrar neft sahəsindəki vəziyyətin nə qədər "fəlakət"li olduğunu bildirirdi. Ancaq taleyində bu fəlakətdən daha böyük başqa bir fəlakətlə daha qarşılaşmaq vardı. Geri çəkilmə prosesi gedərkən, müttəfiq qüvvələr Mərakeş və Əlcəzairi işğal etmişdilər. Artıq afrikalı güclərin işi də bu səbəblərlə yekunlaşmaq üzrəydi. 1942-ci ilin Yeni il axşamı Rommel, qərargahındakı zabitlərin təşkil etdiyi Yeni il mərasiminə qatılmış, mərasimə gedərkən zabitlərinə elə həmin gün avtomobilindən ovladığı bir dağ keçisi götürmüşdü. Zabitlər bunun müqabilində hədiyyə olaraq Rommelə miniatür bir neft barreli içərisində bir kilo qəhvə vermişdilər. Rommel bu hədiyyə üçün belə söyləmişdi: "Bu gündə belə ən ciddi problemimiz bu dərəcədə etibar qazanmış durumdadır!" Artıq Rommel həm şərqdən, həm də qərbdən irəliləməkdə olan qüvvələrin arasında kiçik bir torpaq parçasına sıxışıb qalmışdı. Artıq əfsanə sona çatmışdı. Rommel indi Hitlerin gözündə "məğlub olunmuş bir sərkərdə idi" və Afrika Qüvvələri Komandanlığından azad olunmuşdu. May ayında Şimali Afrikadakı son alman və italyan qüvvələri də təslim oldular.





Ancaq Fürer, Rommeli yenidən iş başına çağırırdı. Rommel də əvvəlcə İtaliyada, sonra da Fransada Hitlerin xidmətində vəzifəsini yerinə yetirdi. Fransada olduğu günlərdə, Normandiya işğalından qısa müddət sonra müttəfiq bombalarına hədəf olan avtomobilində ağır şəkildə yaralandı. Bu hadisədən üç gün sonra ordudan bir qrup zabit Hitlerə sui-qəsd təşəbbüsü göstərdi, ancaq təşəbbüs nəticəsiz qaldı. Bu sui-qəsd təşəbbüsündə Rommelin barmağının olduğundan şübhələnilmişdi. Bundan başqa, qərb cəbhəsində müttəfiqlərlə öz adından sülh danışıqları apardığından da narahatçılıq vardı. Hitler Rommelin öldürülməsini əmr etmişdi, ancaq Rommel çox populyar bir general olduğu üçün bu, açıqca, xalqın gözlərinin qarşısında edilə bilməzdi. Onun öldürülməsi prosesi almanların ümumi əhvali-ruhiyyəsinə pis təsir göstərə bilərdi. Bu səbəblə 1944-cü ilin oktyabr ayında iki SS generalı əllərində bir ultimatum Rommelin evinə gəldilər. Təbii ölüm kimi göstəriləcək bir intihara razı olunması tələb olunurdu. Bunu etməyəcəyi təqdirdə, ailə fərdlərinin hamısı təhlükədəydi. Rommel, əlində iki il əvvəl Hitlerin hədiyyə etdiyi əsa olduğu halda, iki SS zabiti ilə evindən ayrılıb, onlarla birlikdə avtomobilinə mindi. Avtomobil Hitlerin evindən bir neçə yüz metr aralıda, ağaclıqlar arasında, açıq bir yerdə dayandırıldı. Bura Gestapo tərəfindən, əvvəlcədən mühasirəyə alınmış bir yer idi. SS zabitləri Rommelə zəhərli bir həb uzatdılar. Rommel həbi uddu və o an oturduğu yerdə başı önünə düşdü. Həyatını itirərkən, əlində tutduğu marşallıq əsası da yerə düşmüşdü. Rommel ölmüşdü. Ölüm səbəbi beyin qanaması olaraq göstərildi. Cənazəsi üçün görkəmli bir dövlət mərasimi təşkil olundu. Hitler, ailəsinə bir başsağlığı mesajı göndərdi. Cənazə mərasimində rəsmi çıxış edən bir natiq "Rommelin qəlbi Fürerə aiddi" dedi.

Ölümündən sonra toplanan sənədləri arasında "neft təminatı" mövzusunun və xüsusilə də neftin mühərrikli savaş dövründəki rolunu əks etdirən emosional bir yazı tapılmışdı. Bu yazısında Rommel, Əl Alamein Meydan Müharibəsini nəzərdə tutaraq "müharibənin taleyini hələ müharibə başlamamışdan əvvəl Qərargah rəisləri həll edər" deyə yazmışdı. Bir neçə il əvvələ qədər özü də bu fikirləri qətiyyətlə rədd edərdi. Ancaq bu xatirəni yazdığı günlər artıq Şimali Afrikanın çöllərindən acı dərsini almışdı: "Ən cəsur insan belə, silahı olmadan heç bir şey edə bilməz. Silahlar da bol-bol mərmilər olmadan heç bir şey edə bilməz. Bundan əlavə, mühərrikli savaşda nə insan, nə silah, nə də mərmi - kifayət qədər neft olmadıqca, heç bir şey ifadə etməz." Əl Alameindəki İkinci Meydan Müharibəsindən iki həftə sonra, başçılıq etdiyi qüvvələr Montgomerynin qüvvələri qarşısında geri çəkilərkən, Rommel həyat yoldaşına yazdığı məktubda bunları söyləyirdi: "Neft yoxdur! Bu, insanı ağlatmaq üçün kifayətdir!"

## Diqtə və fəlakət

1943-cü ilin ortalarına gələndə Hitler koalisiyası həm Rusiyada, həm də Şimali Afrikada məğlub olmuşdu. Alman ordularının Bakıda və ya Orta Asiyanın neft bölgələrində görüşmə xəyalı, artıq fantaziya dünyasının dərinliklərinə gömülmüşdü. Almaniya yenidən öz qaynaqlarına qayıtmaq məcburiyyətindəydi. Bu mövzuda artıq başqa bir alternativ yoxdu. Hitler savaş maşınlarını yenidən istifadə oluna bilən vəziyyətə gətirmək üçün çılğınca bir çalışma içinə girmişdi və bu arada sintetik yanacaq mövzusu da savaşın can damarı olaraq müzakirə olunmağa





başlamışdı. Bax, bütün bunlar bir tərəfdən Hitler Reyxinin texnoloji dühasını, o biri tərəfdən isə alman millətinin mənəvi baxımdan "tam müflis" olduğu vəziyyəti göz önünə gətirirdi.

Gec də olsa, nəhayət, Nasist rejimi alman iqtisadiyyatını yenidən təşkil etməyə başlamışdı. Bu arada çox uzun bir mübarizəyə hazırlıq mərhələsi kimi, sintetik yanacaq və digər əsas maddələrin istehsalını artırmaq üçün böyük əmək sərf olunurdu. Bu işin başında Hitlerin şəxsi memarı Albert Speer dayanırdı. İfrat dərəcədə həris adam olan Speer, bu mövqeyə gəlmədən çox əvvəl Hitlerin "ən çox sevdiyi insanlardan" biri olaraq sıyrılıb çıxmışdı. Təxminən 10 il bundan əvvəl, 1933-cü ildə, Nürnberqdə keçirilən Nasist Partiyasının qurultayında - salonu bayraqlarla, 30 metrlik nəhəng qartal heykəlləri ilə bəzəyərək, Hitlerin diqqətini çəkməyi bacarmışdı. Hitler özünü də həyəcanlı bir sənətçi saydığından, Speerin fikirlərinin və şəxsiyyətinin təsirində qalmış, onu dövlətin qoyacağı və tikəcəyi bütün böyük abidələrdən məsul olan bir vəzifənin başına gətirmişdi. Bundan başqa, Reyxin yeni Baş nazirliyinin binasını inşa etməsi və yeni bir Berlin şəhəri tikməsi və yaratması üçün örtülü büdcəsindən kifayət edəcək qədər pul da ayırmışdı. 1942-ci ildə Fürer Speeri Abidələr və Müharibə İstehsalı naziri vəzifəsinə təyin etdi. 1943-cü ilin əvvəllərində də Rusiya və Şimali Afrikada yaşanan yanlışlıqlar və uğursuzluqların nə dərəcədə böyük olduğu artıq anlaşıldığından, bu dəfə ona Abidələr nazirliyi kimi kiçik bir nazirliyin malik olduğu səlahiyyətlərdən daha çox səlahiyyətlər verdi. Speer artıq alman iqtisadiyyatına hər baxımdan nəzarət edirdi və mütləq bir gücə sahibdi. Lazım gələrsə, sahib olduğu bu gücə ortalığı yerlə yeksan etməyə qadirdi. Speer bu səlahiyyətlərindən

istifadə edərək, həqiqətən də iqtisadi həyatın hər mərhələsini nəzarət altında saxlamış, heç olmasa hər şeyə öz təsirini göstərmişdi.

Əvvəlcə sıradan bir memar idi. Təkcə ən azı 1000 il yaşayacaq Reyxin əbədi şan və şərəfi adına tikiləcək daş abidələrdən məsuldu. Amma Speer qısa zamanda Reyxin ən önəmli və vacib problemi sayılan sənayedə səfərbərlik mövzusunda da özünü sübut edəcəkdi. Speer "durğunluq" deyilən anlayışı alman iqtisadiyyatının içindən söküb atmışdı. Təyin olunduğu gündən iki il yarım sonra ölkənin iqtisadi mənzərəsi artıq tamamən dəyişmişdi. Təyyarə sənayesində, silah-sursat və hərbi ləvazimatda istehsal 3 dəfədən artıq artmış, tanklarda isə bu göstərici haradasa 6 dəfəni keçmişdi. Bu fövqəladə istehsal rekordlarının hamısı müttəfiq qüvvələrin - havaçılıq sənayesi, dəmiryol depoları və top emalatxanaları kimi müxtəlif alman hədəflərinə istiqamətləndirdiyi əhatəli, bəzən də o qədər uğurlu olmayan strateji bombalama kampaniyası sırasında qırılmışdı. Məğlubiyyətə baxmayaraq, alman sənayesi yüksəlməkdə davam edirdi. Bütün savaş müddətində ən yüksək istehsal səviyyəsinə 1944-cü ilin iyun ayında nail olunmuşdur. Bir şey vardı ki, strateji planlaşdırmaları hazırlayan yetkililər, ən önəmli strateji məhsul olan neftin üzərində heç durmurdular. İngilis tarixçi Basil Liddell Hart, mövzunu araşdırarkən, "Almaniyanın ən zəif nöqtəsi olan neft istehsal potensialına heç toxunulmadı" demişdi. Buna baxmayaraq, istər alman hərbi elitası, istərsə də Speer böyük narahatçılıqlar içindəydilər. Birdən müttəfiq dövlətlər sintetik yanacaq sənayesinin sıradan çıxarılmasını əsas hədəf olaraq müəyyənləşdirsələr necə? Belə düşünməkdə haqlıydılar, çünki sintetik yanacaq sənayesi digər sənaye fəaliyyətlərinin tərsinə, kritik, yoğun və





emosional bir hədəf seçilmişdi. Bu səbəblə də sintetik yanacağa yönələcək bir kampaniyanın bütün alman savaş iqtisadiyyatının sonunu gətirəcəyindən qorxurdular.

Sintetik yanacaq sənayesi də savaş iqtisadiyyatındakı digər sənayelər kimi yüksəliş təmayülü göstərirdi. 1942-ci ildə alman sənayesi bu sahədə - 1930-cu illərə nisbətən çox böyük irəliləyişlər əldə etmişdi. Yeni istehsal texnologiyaları və sürətli işləyən texnika ilə daha keyfiyyətli məhsul əldə olunur və xammaddə olaraq çox daha müxtəlif kömür növlərindən istifadə olunurdu. İstehsal da böyük bir sürətlə artmaqda idi. 1940-1943-cü illərdə sintetik yanacaq istehsalı təxminən iki dəfə artmış, gündə 72.000 barreldən 124.000 barrelə yüksəlmişdi. Yanacaq sistemində sintetik yanacaq fabrikləri kritik vəziyyətdəydi. 1944-cü ilin ilk üç ayında sintetik yanacaq fabrikləri toplam istehsalın 57 faizini, təyyarə benzini istehsalının isə 92 faizini istehsal etmişdi. Artıq yol açıqdı. 1944-cü ilin ilk üç ayında istehsalda müşahidə olunan artım, ilin geri qalan qismində artımın daha da böyüyəcəyini göstərirdi. Sözün qısası, İkinci Dünya Müharibəsi müddətində sintetik yanacaq istehsalı, tək başına Almaniyanın neft istehsalının yarısı qədər idi.

Şübhəsiz ki, bu uğur nəhəng bir çalışma əzminin nəticəsində əldə olunurdu. Nasist savaş iqtisadiyyatının bütün normal vasitə və texniki göstəriciləri, bundan başqa, hərbi əsirlər bu iqtisadi həmləyə səfərbər edilməsəydi, bu cür bir inkişaf əsla gerçəkləşə bilməzdi. Hitler gəncliyində Vyananın hər günc-bucağında rastlanan anti-semitizm cərəyanını şeytani bir ideologiyaya çevirmişdi. İndi bu ideologiyanın can damarında yəhudi qətliamı və yəhudi irqinin yer üzündən silinməsi dayanırdı. Bu "son həll qərarı" 1942-ci ilin yanvar ayında Vyana Konfransında sadəcə 2 saatlıq

müzakirədən sonra alınmışdı. Əlavə olaraq, "son həll"ə nail olma mexanizminin toplama kampları - əsir düşərgələri olduğuna da qərar verilmişdi. "Son həll" qərarının həyata keçirilib nəticələnməsinə qədər sağlamlığı yerində olan yəhudilər haqqında - slavyan irqindən olanlar və başqa əsirlərlə bərabər - elə həmin gündən ölüm fərmanı verilmiş, Reyxin məqsədlərinə xidmət etmək üçün çalışmağa göndərilmişdilər.

Son günlərdə İ.G.Farben şirkətinin hirdogenerasiya müəssisələrinə və sintetik məhsullar fabriklərinə çox sayda həbs olunan yəhudi göndərilirdi. İ.G.Farben şirkəti, əslində Polşada yerləşən Auschwitz Əsir Düşərgələrinin yanında qurduğu şöbələrində sintetik yanacaq və başqa məhsullar emal edirdi. Nasistlərin kütləvi soyqırım həyata keçirdikləri fabriklərin içində ən böyük müəssisə Auschwitz müəssisəsi idi. Bu müəssisələrdə - əksəriyyəti yəhudi olmaqla iki milyondan artıq insan, İ.G.Farben məhsulu olan zəhərli qazla öldürülmüşdü. İ.G.Farbenin bu müəssisələrinin yerini soruşanlara, buralar "böyük kömür ehtiyatları olan və bir çox fəhlə çalışdıran, eyni zamanda çox uyğun yerdə yaradılan bir şirkət" olaraq tərif edilirdi. Auschwitz sintetik yanacaq müəssisəsi - 1932-ci ilin iyun ayında Hitlerin də qatıldığı Münhen toplantısında şirkəti təmsil edən kimyagər tərəfindən idarə olunurdu.

İ.G.Farben firmalarında həm "azad" fəhlələr, həm də əsirlər işlədilirdi. Kimya sahəsində fəaliyyət göstərən bu şirkət, əsir fəhlələrin hər birinə böyüklər üçün gündə üç və ya dörd marka, kiçiklər üçün isə bunun yarısı qədər maaş ödəyirdi. Maaşlar fəhlənin bacarığına görə müəyyənləşdirilirdi. Bir şey vardı ki, bu pullar heç bir zaman fəhlələrə ödənməmiş, SS zabitlərinin, Hitlerin "elitar" əsgərlərinin ciblərinə getmişdi. Əsir fəhlələr gündə ən çox min kalori





hesabına qidalanır, taxta çarpayılarda yatırdılar. Bunlar bir neçə ay bu şəkildə işləyir, sonra da qorxunc yaşama səbəblərindən və ya döyüldükləri üçün bu ölüm düşərgələrində ölüb dünyadan gedirdilər. Onların yerinə durmadan gələn və dolu-dolu qatarlardan boşalan başqa əsirlər gətirülürdü.

İ.G.Farben, işlərini ortağı olan SS-in arzularına görə tənzimləməyə nail olmuşdu. Hətta bir dəfə SS, əsirlərin növbətçilər tərəfindən "Sərbəst Bölgə" yaxınlarında və alman xalqının gözlərinin qarşısında qamçılanmasının dayandırılmasını tələb etmiş, İ.G.Farben də bu tələbi dərhal yerinə yetirmişdi. SS bu tələbini aşağıdakı əsasa dayandırmışdı: "İfrat dərəcədə dadsız səhnələr olurdu. Bu da əhvali-ruhiyyəyə mənfi təsir göstərirdi. Buna görə də qamçılama işini inşaat yerində etmələrini dayandırılmalarını, bu işi əsir düşərgələrinin dörd divarı arasında etmələrini tələb etdik." Bundan bir neçə ay sonra İ.G.Farben İdarə Heyəti SS metodları ilə tam razılaşacaq, bu fikri səsləndirəcəkdi: "Bu günə qədərki təcrübələrimiz, bu insanlar üzərində sadəcə qaba qüvvətin təsirli olduğunu göstərmişdir."

İ.G.Farben get-gedə Auschwitz Mərkəzi Əsir Düşərgələrindəki əsir fəhlələrin iş prinsipindən məmnuniyyətsizlik göstərməyə başlayırdı. Hər gün iki dəfə təkrarlanan dörd millik yürüyüş əsirləri həddindən artıq yorur, düşərgədə baş alıb gedən yoluxucu xəstəliklərə qarşı olan-qalan müqavimətlərini də yox edirdi. Bunun qarşısını almaq üçün şirkət, Mərkəzi Əsir Düşərgələrinin bir "şöbəsi" olaraq, yalnız özünə aid olan özəl bir əsir düşərgəsi - Monowitzi qurdu. Bu düşərgə də Mərkəzi Əsir Düşərgəsi modelində inşa edilmişdi. O gündən bu günə əldə qalan qeydlər Auschwitz İ.G.Farben qapılarından tam üç yüz

min əsirin keçdiyini göstərir. Təsislərin çox böyük olması səbəbilə burada istehlak olunan elektrik enerjisi Berlin şəhərinin toplam elektrik enerjisi istehlakından daha çox idi.

Bu əsirlərdən biri 174, 517 saylı Primo Levi adında gənc bir italyandı. O günə qədər yaşamını sürdürməsini tək bir səbəbə - litsey illərindən xatırladığı orqanik kimya bilgisinə borcluydu. Primo Levi Turində orqanik kimyadan xüsusi təlim keçmişdi. Primo Levi İ.G.Farben sənaye kompleksi haqqında fikrini sonradan belə açıqlamışdı: "Dəmir, beton, palçıq və duman birləşməsindən ibarət olan bu nəhəng quruluş, sanki gözəlliyi rədd edən bir abidə kimi idi. Bu boyda kompleksin sərhədləri daxilində tək bircə dənə yaşıl ot görə bilməzdiniz. Səthi çat-çat olan torpaq isə kömür və neft artıqları ilə mikrob püskürən əlavə fabrik kimi idi. Ətrafda canlı olaraq yalnız makinalar və əsirlər vardı və bunların birincisi ikincisinə nisbətən bir az daha canlı idi. Monowitz bir ölüm fabriki idi. Ölüm fabriki olduğu qədər də bir iş yeri idi. Çünki düşərgədə çalışan inzibatçılar Monowitzdə ölənlərin geyimlərini və ayaqqabılarını yaxınlıqda yerləşən bazarda satar, bundan pul qazanardılar. Ölənlər çırıl-çılpaq soyundurulur, sonra yandırılmaq üçün qonşu düşərgələrin fırınlarına göndərilirdi. Auschwitz və Birkenau fırınlarından yayılan pis qoxular, Monowitz düşərgəsinə qədər gəlir və havayı kirləndirirdi." Levinin sözləriylə desək, "burası ölüm və xəyalətlərin dolaşdığı yerdi. Bu təsislərdə ən kiçik bir mədəniyyət əlamətlərinə rast gələ bilməzdiniz."

Bəzi təxmini hesablamalara görə, 1944-cü ilə qədər alman sintetik yanacaq sənayesində işlədilən insan gücünün üçdə biri əsirlərdən ibarət idi. İ.G.Farben Auschwitzdə SS-lə şərikinə idarə etdiyi işə ürəkdən bağlanmış, çox istəkli bir ortaq olduğunu sübuta yetirmişdi.





Və təbii ki, bu iki ortaq, sosial yaşamlarında da əməllibaşlı bir bərabərlik içərisindəydilər və belə demək mümkünsə, yeyib-içməkləri də bir yerdəydi. Yeni ildən bir az əvvəl Auschwitzdə yaşayan İ.G.Farben rəhbərləri, SS-lərin Yeni il münasibətilə tərtib etdiyi ov mərasiminə qatılıb, onlarla birlikdə ov ovlamağa getdilər. Ovdan 203 dovşan, bir tülkü, bir də çöl pişiyi ilə qayıtdılar. İçlərindən İ.G.Farben kompleksinin inşaat müdiri olan bir şəxs tək başına bir tülkü və 10 dovşan vurub rekord qırdığı üçün onu "çempion ovçu" elan etdilər. Bu ov mərasimi ilə bağlı qeydlər "hər kəsin çox yaxşı vaxt keçirdiyini" yazar. Bir başqa qeyddə də bu sətirlər yer alırdı: "Nəticədə, bu ov mərasimində bu il ən yaxşı nəticənin bu bölgədə alındığını söyləyə bilərik. Böyük ehtimalla bu rekord, ancaq əsir düşərgəsinin yaxında keçirəcəyi növbəti ov mərasimində qırıla bilər."

## Əsas strateji hədəf

Almaniyaya yönələn müttəfiq qüvvələrin strateji bombalamaları sistemsiz idi və buna görə də təsirsiz qalırdı. Bu səbəblə də Birləşmiş Ştatların Avropada yerləşən Strateji Hava Qüvvələri Komandanı General Carl Spaatz bu barədə bir yenilik etmənin şərt olduğuna qərar vermişdi. 5 mart 1944-cü ildə, o zamanlar Normandiya işğalının hazırlıqları ilə məşğul olan General Dwight Eizenhowerə, hücum üçün öncəlik veriləcək hədəfin müəyyənləşdirilməsi təklifini etdi. Bu hədəf mütləq alman sintetik yanacaq sənayesi olmalıydı. General Spaatz, Eizenhowerə altı ay içərisində bu təsislərin istehsalını yarıya endirəcəyinə söz verirdi. Bundan başqa, özlərinin lehinə olan bəzi hadisələrin onları gözlədiyini də Eizenhowerin diqqətinə

təqdim etmişdi. Onun qənaətinə görə, sintetik yanacaq sənayesi təsisləri almanların gözündə həyati əhəmiyyət daşıyan məsələydi. Belə olduğu üçün də oraya yönələcək hücumlar Lutwaffedə böyük həyəcan yaradacaq, milləti ayağa qaldıracaqdı. Üstəgəl, böyük ehtimalla düşmənin pilot və təyyarələri də işğalın hədəfi olan Fransadan kənara atılacaqdı.

İngilislərə gəlincə, onlar bu fikrə etiraz etdilər və israrla hədəf olaraq fransız dəmiryolu şəbəkəsinin seçilməsini istədilər. Ancaq nəticədə Spaatzın dediyi oldu və Eizenhower könülsüz də olsa, hücum xətti olaraq sintetik yanacaq sənayesini müəyyən edən qərar verdi. 12 mart 1944-cü ildə 935 bombardman, ayrıca ovçu yan təyyarələr də qarışıq bir təyyarə filosu Leunadakı İ.G.Farben təsisləri də daxil olmaqla, bütün sintetik yanacaq fabriklərinə hücum edib bombaladı. Albert Speer olub-bitənləri öyrənər-öyrənməz heç vaxt itirmədən baş verən zərər-ziyanı təsbit etmək üçün təyyarə ilə Leunaya hərəkət etdi. Sonradan yazmışdı: "12 mart tarixini həyatımın sonuna qədər unutmayacağam. Bu, texnologiya savaşının qələbə qazandığı gündür." Düşmənin təşkil etdiyi hücum dalğasının nəticələri və müəssisədə zərər-ziyan təsbiti üçün keçirdiyi gəzintidə qarşılaşdığı əzik-üzük boru şəbəkələri "iki ildən bəri kabus həyatı yaşadıb, yuxularını qaçıran şeyin" artıq gerçək olduğunu sübut etmişdi. Hücumdan bir həftə sonra Fürerə şəxsən raport vermək üçün təyyarəyə minib onu görməyə getdi. Hitlerə bunları söylədi: "Düşmən bizi ən zəif yerimizdən vurdu. Eyni şeyi bir daha təkrarlayarlarsa, bundan sonra artıq heç neft istehsal edə bilməyəcəyimizdən qorxuram. Bir ümidimiz qalır... Düşmənin Hava Qüvvələri Komandanının başı da bizim komandanınkı qədər qarmaqarışıq olsun!"





Yenə də bu ilk hücumun əvvəlcə zənn edildiyi kimi zərər vermədiyi məlum olmuşdu. Müttəfiq qüvvələr İtaliyanı savaşdan çıxmağa məcbur etmişdilər. Amma bundan az əvvəl alman əsgərləri bu ölkənin neft ehtiyatlarını ələ keçirməyə nail olmuş və bu səbəblə özlərinin neft ehtiyatlarını önəmli miqdarda artırmışdılar. Bu, onlara rahat bir nəfəs aldırmışdı. Bir-iki həftə ərzində dağıdılmış yanacaq istehsal sahəsinin çox sürətli bir çalışma ilə təmir olunması nəticəsində, sintetik yanacaq istehsalı artacaq, təkrar əski normal səviyyəsinə çatacaqdı. Ancaq sonradan müttəfiqlər, 28-29 may tarixlərində alman neft sahələrini bir daha bombaladılar. Eyni saatlarda buradakı hücum hərəkatına qatılmayan müttəfiq bombardman qüvvələri də Rumıniyadakı Ploesti neft təsislərini bombalayırdı. İyun ayının 6-da müttəfiqlər, bu dəfə uzun zamandır düşünülən Qərbi Avropa hərəkatına başladılar. Bu hərəkat nəticəsində Normandiya sahillərində son dərəcə əhəmiyyətli sayılan kiçik bir torpaq parçasını ələ keçirəcəkdilər. İndi artıq almanların yanacaq ehtiyatları üzərinə gedib, bu ehtiyatları məhv eləmək müttəfiqlər üçün hər zamankından daha önəmli idi. Buna görə də iyun ayının 8-də General Spaatz rəsmi bir bəyanat yayınladı. "Birləşmiş Ştatlar Strateji Hava Qüvvələrinin ana hədəfinin düşmənin silahlı qüvvələrini neftdən məhrum etmək olduğunu" elan etdi. Dərhal bu bəyanatın arxasından da sintetik yanacaq təsisləri yenidən bombalanmağa başladı.

Bunun qarşılığında Speer sintetik yanacaq təsisləri və digər neft müəssisələrinin təcili olaraq təmir olunması və ya mümkünsə daha kiçik, daha yaxşı qoruna bilən gizli yerlərdə saxlanması üçün əmr verdi. Bu yerlər dağıdılmış fabrik xarabalıqları, daş karxanaları və ya yeraltı mədən yerləri ola bilərdi. Bu ara pivə fabrikləri belə neft emal edən zavodlara çevrilirdi. Əvvəlcədən 1944-cü il üçün

sintetik yanacaq sahəsində ciddi bir artım planlaşdırılmışdısa da, bu iş üçün ayrılan dəzgahlar mövcud təsislərin təmirində istifadə olunmaq üçün demontaj olunduğundan, bu planı tutdurmaq mümkün olmadı. Çılğınca bir sürətlə təmir işində, əksəriyyəti əsirlər olmaqla 350.000-dən artıq fəhlə işə cəlb edilmişdi. Əvvəllər təmir işləri sürətlə aparılır, çox vaxt almırdı. Ancaq zaman keçdikcə, buralar təkrar-təkrar hava hücumlarına məruz qalınca, bu iş daha da çətinləşdi. Dəzgahlar hava hücumlarında parçalandıqları üçün bunları yenidən işlətməyə qaytarmaq xeyli çətinləşirdi. Nəticədə istehsal sürətlə aşağı düşməyə başladı. İlk hücumun keçirildiyi 1944-cü ilin may ayından əvvəl, hidrogenerasiya ilə əldə olunan sintetik yanacaq sənayesi gündə ortalama 92.000 barrel ikən, sentyabr ayında bu, gündə 5.000 barrelə düşmüşdü. O ay havaçılıqda istifadə olunan benzin istehsalı gündə sadəcə 3.000 barreldə qalmışdı. Bu, 1944-cü ilin ilk dörd ayı içərisində əldə edilən ortalama istehsalın yalnızca 6 faizinə bərabər idi. Bu ara, Rumıniyadakı neft yataqları da rusların əlinə keçdiyi üçün Hitler, sahib olduğu başlıca xammaddə qaynaqlarından birini daha itirirdi.

Alman təyyarə istehsalı hələ də zirvədəydi. Bir şey vardı ki, yanacaq olmadığı üçün təyyarələr uça bilmir, yerdə saxlanılırdı. Yeni bir alman kəşfi olan və işlədilsəydi, Luftwaffeyə böyük üstünlüklər qazandıracaq olan jet bombardman təyyarələri 1944-cü ilin payızında xüsusi mərasimlə hərbi hava qüvvələrinə daxil edilmişdi. Ancaq bunun üçün lazım olan pilotlara təlim vermək, hətta havalanmaq üçün belə lazım olan yanacaq tapılmadığından, bu təyyarələr hərəkətsizliyə tərk edilmişdi. Artıq Luftwaffe ona lazım olan minimum benzin səviyyəsinin sadəcə onda biri ilə işləməyə məcburdu. Alman hava gücü öldürücü bir vəziyyətə salınmışdı. Yanacaq istehsal edən fabrikləri





qorumaq üçün saxlanılan savaş təyyarələri vəzifələrini yerinə yetirə bilmədiyi üçün, artıq müttəfiq qüvvələri keçmişdəkindən çox təsirli və dağıdıcı hücumlar edirdi. Bunun nəticəsində Luftwaffeyə verilməli olan havaçılıq benzini önəmli ölçüdə azalmışdı. Pilotların "havada təlim" proqramı həftədə bir saata endirilmişdi. Müharibə qurtarandan sonra o günə aid xatirələrini qələmə alan alman Savaş Qüvvələri Generalı Adolf Galland bu barədə aşağıdakıları yazırdı: "Bu, həqiqətən Luftwaffeyə öldürücü zərbəni endirdi! Sentyabr ayından etibarən yanacaq sıxıntısı dözülməz dərəcədə pisləşmişdi. Buna görə də hava əməliyyatları keçirmək həqiqətən mümkün deyildi."

1944-cü ilin payız mövsümündə, pis hava şəraiti səbəbindən müttəfiq hücumları yavaşlamışdı. Bundan istifadə edən almanlar sintetik yanacaq istehsalını artırmağa nail oldular. Amma dekabr ayında istehsal yenidən aşağı düşdü. Bu əsnada Speer qatıldığı bir silahlanma konfransında vəziyyəti bu cür dəyərləndirirdi: "Bunu beynimizə yaxşıca yerləşdirməliyik ki, düşmən tərəfindən iqtisadiyyatımıza yönələn hava hücumlarını təşkil edənlər alman iqtisadiyyatı haqqında xeyli məlumatlıdırlar. Çox şükür ki, düşmən bu strategiyaya son zamanlarda, bu ilin son altı, səkkiz ayı içində başladı... Amma ən azından öz vəziyyətləri baxımından da kifayət qədər ağılsızca hərəkət etmişlər." Nəticədə strateji bombalama hərəkatı, sintetik yanacaq sənayesinə etdiyi hücumlarla alman savaş mexanizminin həyati əhəmiyyətli parçalarını bir-bir iflic etdi. Ancaq savaş hələ sona çatmamışdı!

## Bulge meydan savaşı - Avropanın ən böyük neft stansiyası

1944-cü ilin payız mövsümünə qədər Normandiya işğalında bir xeyli məsafə qət edilmişdi. Bu hadisələr almanları Fransadan qovub çıxarmaq üçün ağır itkilər hesabına əldə olunmuşdur. Normandiya hərəkatının başladığı günlərdə, eyni zamanda Sovet hərbi qüvvələri şərq cəbhəsindən Almaniyanı sıxışdırırdı. Hitlerin görüşlərinə görə, bütün bunlar savaşın bitməkdə olduğu mənasına gəlməzdi. Onun Reyxi əsla yıxılmaz, məğlub olunmazdı. Dekabrın 16-da Belçikanın və Lüksemburqun şərqində yerləşən ağaclıq və təpələrlə dolu Ardennes meşəliklərində çox böyük bir qarşı hücuma keçdi. Sonradan Bulge Meydan Savaşı adlanan bu qarşı hücum, Almaniyanın girişdiyi ən son böyük hücum və ya Blitzkriegin finalı olmuşdu. Savaşın planını birbaşa Hitlerin özü cızmışdı və hər kəsin və hər şeyin bu meydan savaşına qatılmasını tələb etmişdi. Almaniyanın daxilindən, digər birliklərdən gətirilən hər damla yanacaq bu hücum üçün səfərbər edilmişdi. Hədəf müttəfiqləri geri püskürtmək, ordularını mühasirəyə almaq, üstünlüyü yenidən nəzarətə götürmək və müttəfiqlərin əsgər və sivil xalqına qarşı yeni və daha öldürücü silahlar istehsal etmək üçün vaxt qazanmaqdı. Yeri gəlmişkən, bu meydan savaşında almanlar müttəfiq qüvvələri heç gözlənilməz bir anda tələyə salıb, qəfildən ovlamağı, cəbhə xətlərinin arxasında böyük panika yaradıb, düşmən səflərini yarmağı bacarmışdılar.

Bu meydan savaşında almanlar "çaşdırma" texnikasından istifadə etmişdilər. Bir şey vardı ki, hücuma son dərəcə yetərsiz qaynaqlarla girmişdilər. Qüvvələri kağız üzərində





göstəriləndən daha az idi. Meydan savaşını konkret nəticəyə bağlayacaq, savaşın taleyini almanların lehinə çevirəcək insan gücü ehtiyatları ön cəbhəyə yetişə bilməmişdi. Bir alman generalının sonradan söylədiyi kimi "hərəkət edə bilmirdilər. Neftsizlik səbəbindən tam hərəkətsiz qalmışdılar. Onlara ən ehtiyac hiss edildiyi bir anda, yüz mil uzaqlıqda gözləməyə məhkum edilmişdilər."

Eyni mövqedə, 1940-cı ildə girişdikləri İldırım Sürətli Müharibədə isə neft yetərsizliyi o qədər böyük bir problem olmamışdı. O zaman düşməndən özlərinin istifadə etdikləri benzindən daha çox benzin əldə etmişdilər. İndi aradan dörd il yarım keçdikdən sonra belə bir şansa sahib deyildilər. Ancaq yenə də ümid vardı. Benzin qaynağının yerləşdiyi yerə təhlükəli deyəcək qədər yaxınlıqda idilər. Müttəfiqlərin ən böyük neft ehtiyatları Şərqi Belçikanın Stavelot civarındakı bir yerdə idi. Burası həqiqətən Avropadakı ən böyük benzin stansiyası idi. Müttəfiqlər burada öz qüvvələri üçün 10 milyon litr yanacaq saxlamışdılar. Bundan başqa, Avropanın yollarını göstərən təxminən iki milyon da yol xəritəsi vardı. Bölgə içindəki bütün yollara 20 litrlik neft çənləri düzülmüşdü. Müttəfiq qüvvələr yollarda dayanır, hansı yanacağa ehtiyacları varsa, maşınlarını doldurur, sonra yola davam edirdilər.

Dekabr ayının 17-də, səhər çağları, alman hücumunun ikinci günündə unudulmayacaq bir hadisə yaşandı. O gün, adı Jochem Peiper olan qəssabaoxşar bir mayor, rəhbərlik etdiyi panzer birliyi ilə ətrafdakı kiçik bir neft stansiyasını ələ keçirmişdi. Burada əsir götürdüyü əlli amerikan əsgərinə şiddətə baş vuraraq əmrindəki vasitələri benzinlə doldurtdu və sonra da böyük bir soyuqqanlılıqla əsirlərin öldürülməsini əmr etdi. Malmedy toplu qətliamı deyə bilinən bu hadisədə böyük sayda amerikalı əsir də

öldürülmüşdü. Eyni günün axşamı Peiper ikinci bir yerə yaxınlaşdı və komandanlıq etdiyi qüvvəylə sabah ələ keçirdiyi stansiyadan 50 dəfə böyük olan Stavelot stansiyasının 300 metrliyinə qədər gəlib çıxdı. Burada müttəfiqlərin müdafiəsi zəif və dağınıq idi. Peiperin qüvvələri körpünü keçərək şimala doğru irəlilədi və Ansleve çayı üzərindən Stavelota girdi. Müttəfiqlərin müdafiəçilərdən kiçik bir qrup ələcsiz qalaraq tapa bildikləri bir neçə tənəkə qutu mayeni oradakı neftin üzərinə boşaltdılar və sonra da buraları atəşə verib özlərini xilas etdilər. İndi bütün ətraf yerlər sanki alovdan bir divarla əhatə olunmuşdu. Peiper əlindəki xəritələri diqqətlə incələyir, amma xəritələr çox əski olduğundan neft stansiyasının böyüdülmüş şəklini doğru olaraq görə bilmirdi. Ovcunun içində olan xəzinənin nə dərəcədə comərd bir qaynaq olduğunu hələ də başa düşmürdü. Buna görə də əmrində olan qüvvələrinə alovdan ucaldılan nazik divarı yarıb qarşı tərəfə keçməyə əmr verəcəyi halda, geri qayıdaraq körpünü keçib qərb istiqamətinə yürüməyə əmr verdi. Beləliklə, neft stansiyasını sapsağlam arxada qoyub, oranı tərk etmişdi. Qısa zaman içində Peiper qüvvələrinin bütün yanacaq ehtiyatı tükəndi və tanklar qalın başına sadəcə yarım mil irəliləyə bildilər. Luftwaffedən də neft gəlməyincə, Peiperin birliyi düşmənlərə təslim oldu.

Peiper bu hərəkatda U dönüşü etmişdi. Bu dönüş meydan savaşlarında zaman-zaman rastlanan qəzalardandı. Bir şey vardı ki, bu dəfə nəticələr çox müdhiş olmuşdu. Stavelot yanacaq ehtiyatları ələ keçirilmiş olsaydı, Almaniyanın bütün Ardennes hücumunda ilk on günlük ehtiyacı qarşılanmış olacaqdı. Stansiyanın alınması müttəfiq qüvvələrin hələ dağınıq və çaşqın olduğu o günlərdə Almaniyanın Antwrepə və Manş dənizinə irəliləmək üçün





möhtac olduğu yanacağı təmin etmiş olacaqdı. O şərtlər altında belə 1944-cü ilin Yeni il axşamına qədər, yəni almanların hücuma başladıqlarından sonra 10 gün daha müqavimət göstərmişdilər. Nəhayət, Yeni il günü dayandırıldılar və geri püskürdüldülər.

## Tanrıların alatoranlığı

Daha çox yanacağa sahib olsaydılar, almanlar daha çox vaxt qazanmış olacaqdılar. Ardennes hücum hərəkatının uğursuzluğa düçar olmasıyla Almaniyanın savaş gücü strateji baxımdan yox olmuşdu. 1945-ci ilin fevral ayında Almaniyanın havaçılıq benzin istehsalı sadəcə min ton idi ki, bu da 1944-cü ilin ilk dörd ayında istehsal olunan benzinin yüzdə birinin belə yarısı qədər idi. Bu tarixdən sonra artıq istehsal olunmamışdı. Amma qələbə xəyalları hələ də canlı və dipdiri qalmaqda davam edirdi. Speerin anlatdığına görə, "Hitlerin əhatəsindəkilər böyük bir huş içində, o bitməz-tükənməz ümidsiz vəziyyətdə belə Hitleri dinləməkdə davam etdilər. Onun, artıq mövcud olmayan birliklərə, neft çatışmazlığından uça bilməyən təyyarələrə əmr verərkən belə yanından ayrılmadılar."

Vəziyyət belə olarkən də qərb və şərq cəbhələrinin hər ikisində qanlı savaş aylar boyunca davam etmişdi. Bu ara Hitler və yaxın ətrafı hər gün bir az daha fantaziyalar istehsal edir, onun xəyalları ilə yaşayırdılar. Fürer dünyanı atəşə vermə çağrısı edəcək dərəcədə irəli getmişdi. Generallarından birinin ifadəsi ilə artıq "son çılğın əmrlərini" verirdi. Sonun bu dərəcədə yaxın olduğu o günlərdə belə, hələ də 35 milyon insanın həyatına mal olan çılğınlığının, qorxunc xəyallarının pəncəsindəydi. Qramofonda Vaqnerin Götterdammerung (Tanrıların

alatoranlığı) musiqisini dinləyir, sehirli bir qurtuluş gözləyir, taleyinin düzələcəyi ümidi ilə adətən ehtirasla ulduz falına baxırdı. Hitler son günlərini belə keçirmişdi. Ancaq rus zabitlərinin - yerləşdiyi yeraltı sığınacağın üstünə gəlib çıxmasından sonra intihar etmişdi. Hansı ki, bu sığınacağı Speer bir zamanlar özü üçün tikdirmişdi. Burası indi yıxılmış alman Şanşölyesinin ümid qapısına çevrilmişdi. Hitler ölməmişdən əvvəl cəsədinin benzinlə yandırılmasını əmr etmişdi. Cansız vücudunun nifrət etdiyi slavyanların əlinə keçməsini istəmirdi. Nə də olsa, əldə bu son əmri yerinə yetirəcək qədər neft qalmışdı.

Bunu qeyd etmək lazımdır ki, nasist fantaziyalarından və vəhşətlərindən qaynaqlanan fəlakətin gəlməkdə olduğunu Hitlerin ətrafındakıların əksəriyyəti hələ aylar öncəsindən başa düşmüşdülər. Almaniyanın can üstündə olan İtaliyadakı Onuncu Ordusuna etdiyi bir gecə səyahətində, Speer qarşısında gördüyü mənzərədən min il yaşayacağı söylənilən Reyxin, sadəcə bir neçə həftəlik ömrünün qaldığını açıqca anlamışdı. Bu qənaətə gəlməsinə, qarşılaşdığı 150 alman maşını səbəb olmuşdu. Maşın-kamyonların hər birinə dörd öküz bağlanmışdı və maşınlar bu öküzlərlə irəliyə gedirdi. Alman maşınını öküzlər irəli aparırdı. Maşınları hərəkətə gətirməyin yeganə yolu bu idi, başqa yol yox idi. Neftləri yoxdu, qurtarmışdı.





# 18

## YAPONİYANIN GÜCLÜ TOPUĞU

1941-ci ilin dekabr ayının ilk həftəsində bir Amerikan Dəniz Filosu, İngiltərənin Şərqi Hind Adaları kəsimində yerləşən böyük və görkəmli Borneo Balikpapan limanına bir nəzakət ziyarəti gerçəkləşdirmişdi. XIX-cu əsrdən XX-ci əsrə keçmə mərhələsində Marcus Samuel yaxın qohumunu o zaman xəritədə adı belə tapılmayan bu yerdə, balta girməmiş bu meşələrdə bir neftayırma kompleksi qurmaqla təlimatlandırmışdı. Bu təşəbbüsdən keçən 40 il ərzində Samuelin çılğın və ipə-sapa yatmayan bu xəyalları gerçəkləşmiş, Balikpapan, neft istehsalında böyük bir neftayırma mərkəzinə çevrilmişdi. Balikpapan bununla da kifayətlənməmiş, Hollandiya Kraliyyət/Shell qrupunun ən qiymətli incisi və dünya neft sənayesinin ən təməl istehsal mərkəzi olmuşdu.

1941-ci ilin dekabr ayında təsisdəki yetkililər, adanı ziyarət etməkdə olan Amerikan dənizçilərinin şərəfinə bir ziyafət vermişdilər. Amerikalılar da bu ziyafətin müqabilində, sahildəki yerli klubda neftayırmaçılara bir ziyafət vermə hazırlıqlarına başlamışdılar. Ziyafət günü gənc zabitlər əllərində içki şüşələri kluba daxil olduqdan bir neçə dəqiqə keçməmiş, heç gözlənilməz bir anda yüksək rütbəli bir zabit kluba daxil olmuş, ziyafətə qatılan gənc zabitlərə dərhal gəmiyə qayıtmaq əmri vermişdi. Bu hadisədən dərhal sonra da gəmilər hərəkətlənməyə başlamış və gecə yarısına qədər limandan uzaqlaşmışdı. Bax, Balikpapandakı ingilis və hollandiyalı neftçilərin Pearl Harbordakı basqını öyrənmələri bu cür olmuşdu. Uzun

zamandır gözlədikləri və bunun üçün hazırlıq işləri gördükləri savaş, nəhayət başlamışdı.

Bu tarixdən bir il əvvəl - 1940-cı ildə Shelldən H.C.Jansen adlı bir yetkili Balikpapana gəlib bəzi araşdırmalar aparmışdı. O, araşdırmalar əsnasında neftçilərin burada hava hücumlarından qorunmaq üçün sığınacaqlar tikdiklərini və lazım olduğu anda adanın boşaldılması üçün planlar hazırladıqlarını görmüşdü. Bundan sonrakı bir neçə həftə içərisində də limana giriş yerləri minalanmış və 120 nəfər lazım olanda hər şeyi partlatmaq üçün hazırlıqlara başlamışdı. Neftçilərin hamısı fərqində idilər ki, Yaponiyanın savaş açmasına səbəb Balikpapan və ətrafındakı neft yataqlarıdır. Yaponlar bu nefti "qənimət" olaraq əldə etmək istəyirdilər. İndi bu neftçilərin əsas vəzifəsi yaponları həsrətini çəkdikləri bu "qənimət"dən məhrum etməkdi.

Pearl Harbor basqınından dərhal sonra neftçilərin ailə üzvləri və uşaqları Balikpapandan çıxarılmışdı. Bundan sonrakı gecələr artıq adada subaylıq həyatı yaşayan Jansen və silahdaşları Jansenin bağçasında toplanıb stullarda oturar, qaranlıqlara gömülən zavodu və onun arxasınca uzanan ucsuz-bucaqsız okeanı seyr edərdilər. Ay, gec saatlara qədər çıxmadığı üçün saatlarla əsəbpozucu radio xəbərləri, yəni yaponların Cənub-şərqi Asiyadakı irəliləyişlərindən söz edən xəbərləri dinləyərdilər. Əcəba, amerikalılar nə edəcəkdilər? Yaponlar Balikpapana nə zaman gələcəkdilər? Bu böyük sənaye müəssisəsinin gələcəyi necə olacaqdı? Bunları düşünərkən, yaxın gələcəkdə taleyin onların başına nələr gətirəcəyini də müzakirə edirdilər. Başqa bir problem haqqında da fikirləşirdilər. Nə etmək ki, Balikpapanın müdafiə sistemini daha effektiv vəziyyətə gətirmək. Gecələrini bu mövzular haqqında düşünüb-





müzakirə etməklə keçirən neftçilər, gündüzlər hər hansı bir şey düşünməyəcək qədər məşğul olurdular. Yorulub əldən düşənə qədər işləyirdilər. Mümkün olduğu qədər çox neft istehsal etməyə çalışırdılar. Bu işləri görərkən, ürəklərində arzu tuturdular. Ki, istehsal etdikləri bu məhsullar savaşda müttəfiqlər tərəfindən istifadə olunsun və buna da ümid edirdilər.

1942-ci ilin yanvar ayının ortalarında yaponların gedərək yaxınlaşmasıyla, Şərqi Hind Adalarının digər yerlərində olduğu kimi, əsas neft yataqlarının yerləşdiyi yerlərdə də işçi heyəti quyuları dağıtmağa başlayırdı. Əvvəlcə quyunun dərinliyi ilə olan bağlantı çıxarılır, kəsilir, sonra da ələ keçirdikləri nə qədər pompa, dəmir borular, metal qırıntıları və qazma aləti varsa, hamısı birlikdə quyulara atılırdı. Bununla birlikdə hər quyunun içinə bir qutu da TNT atılırdı. Sonra da quyular havaya uçurulurdu. İşçi heyəti quyu uçurma işinə səmərəsi ən az quyularla başlasalar da, nəticədə bütün quyular dağıdılmışdı.

Bir tərəfdən də Balikpapan neftayırma kompleksini uçurub yox etmə fəaliyyətləri davam edirdi. Damcılatma təchizatı və buxar qazanlarının vannaları sonuna qədər - quruyub məhv olana qədər açıq buraxılırdı. Bunun nə qədər zaman alacağını isə heç kimsə bilmirdi. Nəhayət, 30 saat keçdikdən sonra ilk damcılatma otağı parçalara ayrılmağa başlandı və arxasından da o birilərinə eyni şey oldu. 20 yanvarda neftayırma kompleksinin işçiləri uzun zamandan bəridir ki, qorxduqları xəbəri alırdılar. Yaponiyaya aid olan bir eskadrilya adaya sadəcə 24 saatlıq bir məsafədə idi. Bunun məlum olmasından dərhal sonra yaponlar əsir aldıqları iki hollandiyalı vasitəsilə bir ultimatum göndərdilər. Ya dərhal təslim olacaqdılar, ya da hamısı birdən süngüdən keçiriləcəkdilər. Bu ultimatumu

aldıqdan sonra neftayırma kompleksindən məsul olan zabit, əmrindəkilərə adanı yerlə yeksan etmə əmri verdi.

Jansen və silahdaşları ilk olaraq mədən yataqlarını dağıtmaqla işə başladılar. Yandırılan mədənlərdən yüksələn qorxunc gurultu bölgədəki bütün binaların pəncərəsini qırmışdı. Bu iş tamamlandıqdan sonra, sıra taxtadan düzəldilmiş buruqların yandırılmasına gəldi. Bu buruqlar benzinlə və ya qazyağı-mühərrik yağı birləşməsindən meydana gəlmiş bir yanacaq növü ilə tamamən yandırıldı. Günorta saatlarına qədər artıq quyuların hamısında atəşləmə işləri tamamlanmışdı. Bu ara neftçilər texniki maraqları səbəbi ilə başa düşmədikləri bir hadisənin şahidi olmuşdular. Benzinlə yandırılan buruqlardan çıxan duman, qazyağı və ya yağlayıcı neftlə yandırılan buruqlardan çıxan dumanla birləşdiyində qəribə bir şeylər olur, göy üzünün parlaq mavi olduğu dəqiqələrdə belə iki dumanın kəsişdiyi nöqtədə şimşəklər çaxırdı.

Beləliklə, qosqoca neft kompleksi bir-birinin ardınca gələn partlamalarla havaya uçurulub qaya parçalarına çevrildi. Eyni dağıtma və yandırma işləri duzlu su stansiyası, tənəkə və qalay atelyeləri, neftayırma təsisləri, enerji istehsal yeri və daha bir çox binalarda da tətbiq olununca, alovlar göy üzündə 50 metrə qədər yüksəlmişdi. Üzləri tər və his-pasla örtülmüş adamlar, əvvəlcədən hazırlanan plana uyğun olaraq bir neçə dəfə məşq edib sınaqdan çıxardıqları alovlar içində oradan-buraya qaçıb dururdular. Bu dəfə neftin ehtiyat depolarda saxlandığı yerə gəldilər. Hər neft tankerinə 15 çubuq TNT bağlanmışdı. Ancaq bunların bəziləri nəm çəkdiyi üçün alovlanmadı. Bundan başqa, neftçilər yorğunluqdan tükənmə nöqtəsinə gəlmişdilər. Baş-beyinlərini hələ də yeganə bir şey məşğul edirdi. Əcəba, tankerləri yandırmağın bir yolunu tapa biləcəkdilərmi? Bu dəfə aralarına sonradan





qatılan gənc bir könüllü qrupu tankerləri tüfəng atəşi ilə - güllə ilə yandırmağa çalışsa da, heç bir nəticə alınmadı. Bir yol qalmışdı; vannaları açmaq. Bunu sınaqdan çıxarmaq istədilər. Nə yazıq ki, vannaların açarı tanker sahəsindəki ofislərdə qalmışdı və həmin ofis bir neçə dəqiqə əvvəl havaya uçurulmuşdu.

Nəticədə uzun əzab-əziyyətdən sonra yuxarıdakı tankerlər açıldı və bunlardan aşağıya doğru, aşağı tərəfdəki tankerlərin üstünə neft axmağa başladı. Dörd-beş ədəd tankeri partlatmaq üçün elektrikli alışdırma metodundan istifadə edildi. Bu metoda müraciət etmənin də səbəbi vardı. Alovlar içindəki neftin digər tankerlərə sıçrayaraq, onları da dağıtması ümid edilirdi. Yanğın başlar-başlamaz Jansen və digərləri boş bir tankeri sipər alaraq özlərini qorumağa başladılar. O anda birdən-birə alovlar içində qocaman bir topun göy üzünə yüksəldiyi göründü. Bunu qorxunc bir partlayış izlədi və sonunda müdhiş bir qasırğa ortalığı bürüdü. Alovlar içindəki neft dənizi təpədən aşağıya, digər tankerlərin üzərinə doğru axdıqca, tankerlərin yerləşdiyi sahə artıq cəhənnəmə bənzər bir mənzərəyə çevrilmişdi.

Artıq görüləcək başqa bir iş qalmamışdı. Jansen və digərləri təpədən aşağıya, teleqraf stansiyasına doğru qaçdılar. Oradakı yerli uniformalı növbətçilər onları salamladılar. Neftçilərin boğazları susuzluqdan qurumuşdu. Sümüklərinin içinə qədər yorulmuşdular. Yorğun və bitkin halda "proas" deyilən bölgəyə məxsus olan qayıqlara atladılar. Çevrələrini aşan dəniz böyük bir alov sütunlarının suya inikası ilə qıpqırmızı bir rəng almışdı. Yenə də partlayışlar bir-birinin arxasınca aralıqsız olaraq davam edirdi. İndi sıra planın başqa bir mərhələsindəydi. Ancaq bunun əvvəlcədən məşqi keçirilmişdi. Bu, qaçış planı idi.

Qayıqdakı adamlar sonra Riko çayının yanına gəldilər.

Bu istiqamətdə irəliləyərək, adanı tərk etmək üçün hazırlanmış düşərgəyə getdilər. Nəticədə neftayırma mərkəzindəki qorxunc mənzərə arxada qalmış, tünd yaşıl rəngli meşə Foliaji gecənin qaranlığında gözdən itmişdi. Partlayış səsləri də avqust böcəklərinin bitməz-tükənməz xorunun içində eşidilməz olmuşdu. Beləliklə, saatlar boyu yola davam etdilər. Balikpapandan çıxan qırmızı alovların göylərə doğru yüksəlişini artıq çox az və zaman-zaman görürdülər. Üzərlərinə düşən vəzifəni çox yaxşı yerinə yetirmişdilər. 40 il müddətində yaradılan sənaye möcüzəsi bir gündən daha az bir zaman içərisində yerlə yeksan edilmişdi. Nəhayət, meşələrin səssizliyində gizlənən Riko çayına bağlı bir yer olan, adanı tərk etmə düşərgəsinə gəlib çatmışdılar. Saatlar boyu yorulmadan onları xilas etmək üçün gələcək təyyarə səsini eşitmək üçün həyəcanla gözlədilər. Amma bu təyyarə heç bir zaman gəlmədi.

Bir gün sonra, gecə saatlarında Jansen və kiçik bir neftçi qrupu təkrar qayıqla gəldikləri yerdən ayrılıb, çayın Riko ilə birləşdiyi yerə doğru yol aldılar. O gecəni qayıqda, xilasetmə qrupunun yetişməsi ümidi ilə qulaqlarını şəkləyib, bir təyyarə və ya gəmi səsi gözləməklə keçirdilər. Özlərini xilas etməyə gələcək səsi gözləyərkən, başqa bir şeydən də qorxurdular; bu səs yaponlara da aid ola bilərdi. Bu ara içlərindən birini yuxu tutduğu üçün dənizə düşdü. Silahdaşları onu sudan çıxara bildilər. Bu prosesdə də timsahları qorxutmaq üçün bir xeyli gurultu qoparmağa məcbur olmuşdular. Milçək və ağcaqanadlardan qurtulmanın çarəsini isə, pipo və puro-siqar çəkməkdə tapmışdılar. Jansenə görə saatlar keçmək bilmirdi. Günəş doğmuş, dan yeri ağarmışdı. Onlar hələ də gözləyirdilər.

Günortadan sonra saat 13.00 radələrində üfüqdə şirkətə aid bir dəniz təyyarəsi göründü və təyyarə çayın üzərinə





endi. Təyyarənin pilotu başqa bir yerdə yaralı olan bir adamı götürməyə gedirdi. Ancaq neftçilərə təkrar qayıdacağını söz verdi. Sözündə də durdu. Aralarından dördünü götürüb, oradan ayrıldı. Jansen təyyarəyə minənlər arasında deyildi. Daha sonra Jansen və digər silahdaşları təkrar Balikpapana qayıtmaq üçün bir əmr aldılar və çay boyunca yenidən geri qayıtmağa başladılar. O gecə iki təyyarə gəldi və bir çoxunu götürdü. Jansen bu iki təyyarənin ikincisinin içindəydi. Təyyarədə çox qələbəlik idi. Ona görə də nəfəs almaq belə çətinləşmişdi və təyyarə belə halda uçurdu. Ancaq yenə də təyyarəyə götürüldükdən sonra bayırdan kabinəyə sızan sərin küləklə bir dərəcəyə qədər rahatlamış, hətta aralarından bəziləri təyyarənin döşəməsinə sərilib yatmışdı.

Xilas olunan bu qrup Java Adasının şimal sahillərində yerləşən Surabaya çatdırıldı və oradakı hava qüvvələri bazasının komandanı tərəfindən qarşılandı. Komandan onlara "artıq təyyarələri Balikpapana göndərmə imkanlarımız yoxdur, indi oralar yaponların əlinə keçib. Pilotların təkrar qayıtmasına icazə vermədim" dedi. Balikpapanda sıraya düzülüb gözləyən 75 adam qalmışdı. Onlar üçün artıq çox gecdi. Yaponlar çoxdan adanın cənub tərəfindən içəri girmişdilər. 24 yanvar gecəsi, gecənin gec saatlarında xüsusi rənglə qaraldılmış 4 Amerikan destroyeri, hələ də yanmaqda olan neftayırma kompleksi içində qaraltı kimi dayanan 12 yapon nəqliyyat gəmisinə hücum etdi. "Balikpapan çatışması" adlanan bu döyüşdə amerikalılar nəqliyyat gəmilərindən dördünü və bundan başqa, bir də qoruma gəmisini batırdılar. Ancaq səhv seyr edən torpedolar səbəbindən daha çoxunu batıra bilmədilər. Bu, amerikalıların yaponlarla dənizdə girişdikləri ilk çatışma idi. Əslində, bu, Amerikan donanmasının "Admiral Devey 1898-ci il qələbəsi"ndən sonra girdiyi ilk suüstü döyüşdü.

Gəmilərin batırılması yaponların Balikpapana çıxmasını yavaşlatmışdı. Sahildə gözləyən neftçilərin qarşısında artıq heç bir alternativ qalmamışdı. Yeganə yol meşənin dərinliklərinə çəkilməkdi. Meşənin dərinliklərinə gedəcək bir yol axtarıb tapmaq ümidi ilə əvvəlcə kiçik qruplara ayrılaraq, böyük cəhdlər edib meşənin içərilərinə sığınmaq istədilər. Bu, həqiqətən müdhiş bir mübarizəydi. Aclıq, yorğunluq, istilik, dezinfeksiya və qorxunun pəncəsində, piyada olaraq və ya qayıqlar içində yollarına davam etdilər. Xəstəlik və ölüm saylarını get-gedə azaltmışdı. Qarşılaşdıqları yerlilərdən yaponların Borneonun hər yerini işğal etdiklərini öyrənmişdilər. Artıq özlərini meşədə küncə qısdırılmış siçan kimi görürdülər. Sonunda hər necə oldusa, bir neçəsi adadan qaçmağı bacardı. Geridə qalan 75 nəfərdən, yalnızca 35 nəfəri vəhşi meşələrə, yapon eskadrilyasının güllələrinə və yapon həbsxanalarının ağır şərtlərinə dözə bilmişdi.

## Qələbədən baş gicəllənməsi

Neft komplekslərinin dağıdılması üçün əvvəlcədən hazırlanan planlar Balikpapanda olduğu kimi, Şərqi Hind Adalarının digər yerlərində də eynilə həyata keçirilmişdi. Ancaq bu, Cənub-şərqi Asiya və Sakit okeanda bir rüzgar kimi əsən yaponlara bir elə də təsir göstərməmişdi. 1942-ci ilin mart ayının ortalarında Yaponiya Şərqi Hind Adalarında nəzarəti tamamilə ələ keçirmiş, hərəkatı tamamlamışdı. O biri fəthləri də nəzərə alanda, bu, Yaponiyanın üç ay kimi çox qısa bir müddətdə Cənub-şərqi Asiyanın bütün zəngin qaynaqlarını və xüsusilə də uğrunda savaşa girdiyi neft yataqlarını ələ keçirdiyi mənasına gəlirdi. Bununla bərabər, yapon savaş maşınının çarxı dönməkdə





davam edirdi. Tokioda Baş nazir Tojo, Hong Kongun 18, Manilanın 26, Sinqapurun isə 70 gündə ələ keçirildiyini söyləyərək öyünürdü. Bütün ölkəni bir "qələbə sərxoşluğu" başına götürmüşdü. Hərbi sahədə əldə olunan ağılalmaz uğurlar 1942-ci ilin ilk yarısında hissə sənədi birjasında elə böyük bir qiymət partlamasına səbəb oldu ki, nəticədə hökumət, qiymətləri aşağı endirmək üçün müdaxilə etməyə məcbur oldu. Bəziləri bunu ölkənin "qələbədən başının gicəlləndiyi" kimi şərh edirdi. Çox az adam vardı ki, bu sərxoşluğun axırının yaxşı olmayacağı ehtimalını irəli sürüb, sabah nə baş verəcəyi haqqında xəbərdarlıqlar edirdi.

Yaponların hiss elədiyi sevinc və coşqu, amerikalıların hiss elədiyi şok və acıdan qat-qat üstün idi. 1941-ci ilin Yeni il günü, ABŞ Sakit okean hövzəsi eskadrilyasına yenicə təyin olunmuş Admiral Chester Nimitz təyyarə ilə Pearl Harbora gəlmişdi. Məqsədi vəziyyəti yerində qiymətləndirib, ortalığı mümkün olduğu qədər tez toparlamaqdı. Gəmi ilə limandan keçib dənizdəki gəmilərin yanına hərəkət edərkən, yolda cəsəd aramaqda olan kiçik qayıqlara rast gəlmişdi. Hücumun üzərindən iki həftə yarım keçdiyi halda, cəsədlər hələ də suyun üstündə qalmışdı. Havayda yaşanan bu çox həzin tablo, ABŞ-ı gözləyən daha böyük, daha həzin savaş yollarında, hər iki yarımkürədə də həqiqi qlobal bir qarmaqarışıqlığın içində onu necə bir gələcəyin gözlədiyini göstərirdi. Pearl Harbor Amerikan tarixində yaşanan o qədər faciələrin içində ən etibarqırıcı olanı idi. Bu, mütləqdi. Bütün ölkəni qorxu və panika bürümüşdü. Xalq, nəhayət uzun zamandan bəri qorxduğu və gözlədiyi savaşın gəldiyini hiss eləmişdi. Ölkə bu hadisələrin fərqində olaraq, almanlar və yaponlara qarşı girişiləcək uzun və çətin bir savaş üçün hazırlanmağa başlayırdı.

İndi artıq bu sual gündəmdəydi: Amerikanın Sakit okeanda başlayacağı savaşı kim idarə edəcəkdi? Ordumu, donanmamı? Hər iki qüvvə də bütün gücün yalnızca Sakit okeana səfərbər edilməsinə qarşı idi. Bu bürokratik yarışmada şəxsi rəqabətlər və paxıllıq hissləri də bir xeyli təsirli olmuşdu. Bunun da nəticəsində iki komandanlığa tabe olan iki ayrı "güc" formalaşdırıldı. Ordunun və donanmanın baş komandanları arasında fövqəladə bir görüş ayrılığı mövcuddu. General Mac Artur çox yaxşı strateq və üstün zəkalı bir komandan olmaqla bərabər, eyni zamanda mənəm-mənəm deyən, tez parlayan, qəribə bir adamdı. Savaşın müzakirə olunduğu bir toplantıda Ruzvelt, Mac Arturu tam üç saat dinlədikdən sonra yavərinə bunları söylədi: "Mənə dərhal bir aspirin gətir. Hətta sabah da atmam üçün iki aspirin gətir. Bütün həyatım boyunca, bu günə qədər heç kimsə mənimlə Mac Arturun danışdığı kimi danışmadı." Donanma komandanı Admiral Chester Nimitz isə tam əksinə, yumşaq xasiyyətli, iddiasız bir adamdı. Savaşın bitməsini bildirəcək bir xəbəri gözləyərkən, tapançası ilə atış təlimləri keçən və ya ofisinin yanı-başında atlarını sakitləşdirib, onlarla günlərini keçirən bir komanda oyunçusu kimi idi. Bir qəzet müxbirinin yazdığı kimi "insanları sürükləyib ardınca aparan bəyanatlar verəcək və ya rəngli reportajlara mövzu olacaq xarakterdə deyildi."

Səlahiyyətlərin bu iki komandan arasında bölüşdürülməsi, sadəcə hərbi liderlik metodlarında təzad yaratmırdı, eyni zamanda bəzi ciddi mövzularda amansız və lazımsız mübahisələrə də səbəb olurdu. İşin daha pis yanı var idi. Bu səlahiyyət bölüşümü, çox uzaqlarda baş verən döyüş əməliyyatlarında koordinasiya qopuqluğuna da yol açırdı. Amerikan silahlı qüvvələri yaponların öz yurdlarındakı





adalara hücum edə bilmək üçün çox böyük məsafə qət etmək məcburiyyətində idilər. O günə qədər heç bir müharibə, bu dərəcədə böyük bir sahədə aparılmamışdı. Qaynaq baxımından isə Amerika daha üstün durumda idi. Ancaq bu da hər şeyi həll eləməyə kifayət etmirdi. Amerikan silahlı qüvvələrinin təminat məsələsi necə həll olunacaqdı? Yaponların ələ keçirdiyi zəngin qaynaqlar necə geri alına bilərdi? Bu iki suala veriləcək cavab, təqib olunacaq strategiyanın da təsbitinə yarayacaq və Sakit okeanın çox uzaqlarında cərəyan edən savaşın taleyini həll edəcəkdi. Nimitz hələ ilk günlərdən strategiyasını müəyyənləşdirmişdi və beyninin içində bu mövzuya aid tək bircə xırda tərəddüd belə yoxdu. Nimitzin bioqrafiyasını yazan yazıçının sözləri ilə Nimitz və Donanma əməliyyatları komandanı Admiral Ernest King bir mövzuda tamamən həmfikir idilər: "Müttəfiq silahlı qüvvələrin birinci hədəfi öz təminat xəttlərinin təhlükəsizliyini təmin etmək və sonra da yaponların ən önəmli "neft xəttini" iflic edəcək bazaları ələ keçirmək üçün qərb istiqamətində irəliləməkdi."

## İndi dövran böyüklərindir

1942-ci ilin ilk aylarında amerikalılar gec də olsa, savaş üçün səfərbərlik başladarkən, yaponlar da boş dayanmır, bir-birinin arxasınca qazandıqları inanılmaz qələbələrin verdiyi qürurla daha başqa hərəkatlara istiqamət götürürdülər. Özlərinə güvənləri həddindən artıq çoxalmışdı. O qədər ki, ölkənin hərbi liderləri Hind okeanını aşaraq, qərbə yayılmağı belə düşünməyə başlamışdılar. Məqsəd Orta Şərqdə və ya Rusiyada alman qüvvələrlə birləşib, müttəfiqləri Bakı və ya İrandan gələn neftdən məhrum

etməkdi. Yaponlar arasında bu dərəcədə "qələbə sərxoşluğu" içində olmayanlar da vardı. Bunlardan biri də Admiral İsoroku Yamamoto idi. Pearl Harbor hücumunun memarlığını edən Yamamoto, 1942-ci ilin aprelində ən çox sevdiyi bir dostuna göndərdiyi məktubda bu sətirlərə yer vermişdi: "Hərəkatın ilk mərhələsində bir növ uşaq oyunu oynayırdıq. Bu mərhələ yaxınlarda sona çatacaq. Sıra böyüklərin oyununa gəldi. Artıq tənbəlliyi buraxıb, silkinsəm yaxşı olar."

Yamamoto və yapon dəniz qüvvələrinin digər irəli gələnləri "mütləq savaş" aparmaqda qərarlı və həmrəydilər. "Mütləq bir savaş" aparaaraq düşməni müharibə meydanlarından silib süpürəcəkdilər. Yamamoto ABŞ-da keçirdiyi illərdə bu ölkə haqqında bir çox məlumatlar əldə etmişdi. Amerikanın neft və digər qaynaqlar baxımından nə qədər zəngin olduğunu və sənaye gücünün böyüklüyünü öyrənmişdi. Bu etibarla Amerika ilə savaşda "sürətli qələbə" strategiyasının tərəfdarı idi. Bu faktorları nəzərdə tutaraq, yaponlar Havaydan sadəcə 1.100 mil uzaqlıqdakı Midvay adasına böyük bir hücum təşkil etdilər. Yaponların Midvaya hücum etmələrinin səbəbi ən azından müdafiə imkanlarını genişləndirmək üçündü. Bundan sonra da Amerikan eskadrilyasını savaş meydanlarına çəkməyə nail ola bilsələr, artıq geriyə yaponlar üçün bunu "mütləq savaş"a çevirmək və Pearl Harborda başlatdıqları işi sona çatdırmaq qalırdı. Beləliklə, ABŞ donanması Sakit okeanda mütləq şəkildə darmadağın olunacaqdı.

1942-ci ilin iyun ayının əvvəllərində başladılan Midvay müharibəsi Yamamotonun söylədiyi kimi "mütləq nəticə" ilə bitmişdi. Ancaq bu nəticə heç də yaponların gözlədiyi mənada deyildi. Nəticə, Yamamotonun bəhs etdiyi "böyüklərin oyunu" şəklində olmuşdu. Əvvəlcə yaşadığı





Pearl Harbor məğlubiyyətinin ardından fəvqəladə bir təşəbbüslə özünü toparlayan Birləşmiş Ştatlar donanması, düşmən şifrələrinin də aşkarlamasının gətirdiyi üstünlüklər içərisində (qüvvələr səpələndiyi üçün yaponlar kodlarını hələ dəyişdirməmişdilər) özünü bəyənən yaponları - əks-sədası illərlə davam edəcək bir məğlubiyyətə uğratdılar Bu döyüşdə Birləşmiş Ştatlar donanması Yaponiyanın Kraliyyət eskadrilyasından 4 təyyarə gəmisini dənizin dibinə göndərmişdi. Öz itirdiyi isə sadəcə bir təyyarə gəmisi idi.

Midvay müharibəsi Sakit okean savaşının həqiqi bir dönüş nöqtəsi və yapon hücum əməliyyatlarının sonuncu mərhələsi olmuşdur. O gündən başlayaraq, tərəzinin gözü amerikalıların lehinə dəyişdi. Amerika o gündən sonra insan gücü, qaynaq, texnologiya və təşkilatçılıq qabiliyyətindəki üstünlüyü ilə və heyrətamiz əzmi nəticəsində ağırlığını qoyub, tarazlığı öz lehinə çevirdi və bir-birinin ardınca gələn qanlı müharibələrlə yaponları Sakit okeanda geri çəkilməyə məcbur etdi. Yaponlar bir də qarşı hücuma bundan iki ay sonra, Amerikan qüvvələrinin Guadalcanal Adasına ayaq basmasıyla başladılar. Altı ay davam edən amansız bir çatışma nəticəsində ABŞ adanı ələ keçirməyə nail oldu. Bu çatışma Amerikan-yapon savaş tarixində amerikalıların girişdiyi ilk "hücum" hərəkatıdır. Bu döyüşlə o günə qədər Yapon Ordusunu bürüyən sirli toxunulmazlıq pərdəsi də qalxmış olurdu. Bir şey var ki, bu, amansız bir düşmənin əzmini olmasa da, qaynaqlarını məhv etmək üçün girişilmiş uzun bir savaşda, savaşın sadəcə kiçik, bahalıya başa gəlmiş bir halqəsini təşkil edər.

Yaponları Hind Adaları neftindən məhrum etmə təşəbbüsləri ilk mərhələdə bir elə təsirli olmamışdır. Yaponlar uzun zamandır ki, bu cür bir təşəbbüsü gözləyirdilər və bunun əlamətlərini də hiss etmişdilər. Ancaq

nəticədə bu həmlənin nə Balikpapanda, nə də Sumatrada gözlədikləri qədər qorxunc və yayqın olmadığını müşahidə etmişdilər. Bir şey vardı ki, Balikpapanda Shell, Sumatrada da Stanvac təşəbbüsü dəstəkləmişdilər. Bundan sonra yaponlar heç vaxt itirmədən Hind Adaları neft sənayesini yenidən canlandırma təşəbbüslərinə başladılar. Dərhal buraya qazma qrupları, neftayırma zavodlarında çalışan fəhlələr, lazım olan ləvazimatlar gətirildi. Qısa müddətdə 4.000 fəhlə, yəni ölkə daxilində bu iş sahəsində çalışan toplam işçi sayının 70 faizi cənuba, Hind Adalarına göndərildi.

Nəticə həqiqətən heyrətamizdi. Savaşdan əvvəl yapon hərbi qüvvələri - o zaman cənub bölgəsi adlanan - Hind Adalarından neft ehtiyacını qarşılayacaq qədər neft ala bilməyi planlaşdırdıqları halda, indi savaş içində bundan çox daha artıq neft istehsal edirdilər. 1940-cı ildə Cənub bölgəsi neft istehsalı 65.1 milyon barrel idi. 1942-ci ildə isə yaponlar yalnızca 25.9 milyon barrel neft istehsal edə bilmişdilər. Ancaq 1943-cü ildə istehsal yenidən keçmişdəki səviyyəyə qayıtmış, 49.6 milyon barrelə, yəni 1940-cı il neft istehsalının 75 faizinə gəlib çatmışdı. 1943-cü ilin ilk üç ayı içində yaponların neft idxalı, 1941-ci ilin eyni müddətində amerikalıların, ingilislərin və hollandiyalıların tətbiq etdiyi 1941-ci il neft embarqosundan əvvəlki miqdarın 80 faizinə çatmışdı. Əvvəlki planlarına uyğun olaraq, yaponlar ələ keçirdikləri Cənub bölgəsini neft təminat yeri olaraq istifadə etmişdilər. Bundan başqa, Cənub bölgəsində hazır neft də vardı. Yapon eskadrilyası nə zaman istəsə, gəlib buradan neft götürə bilərdi.

O zamanlar yaponlar Caltex Şirkətinin xidmətlərindən də istifadə etmişdilər. Bu şirkət Şərq Yarımkürəsində Kaliforniya Standard və Texaco şirkətləriylə ortaq çalışırdı.





Savaşdan bir az əvvəl Caltex Sumatranın mərkəzindəki Minasda çox şey vəd edən bir neft yatağı tapmış və dərhal lazım olan vasitələri işə salıb qazma işlərinə başlamışdı. Sonradan yaponlar bu işi öz üzərlərinə götürdülər. Amma Caltexin texniki avadanlıqlarından istifadə edərək quyunu qazdılar. Bu quyu yaponların ikinci dünya müharibəsində kəşf edib işlətdiyi yeganə quyudur. Bu qazıntıda Kaliforniya Standardla birlikdə Orta Şərqdə son dərəcə səmərəli bir quyuya rast gəlmişdilər. Cənub bölgəsində girişilən bu topyekun hərəkat o dərəcədə uğurlu olmuşdu ki, 1943-cü ildə Baş nazir Tojo - əslində Yaponiyanın tətiyi çəkməsinə səbəb olan adam - neft probleminin artıq həll olunduğunu xalqına elan etmişdi. Bir şey vardı ki, Tojo çox tələsmişdi.

## Marus müharibəsi: sinir savaşı

Hərbi strategiyalarını müəyyənləşdirərkən, yaponlar bu versiyadan çıxış etmişdilər: Cənub bölgəsindəki nefti, digər xammaddələri və başqa qida maddələri kimi zəngin qaynaqları öz yurdlarındakı səmərəsiz adaların iqtisadiyyatı və ehtiyacları üçün etibarlı şəkildə istifadə edəcəkdilər. Bu da yaponlara "Sakit okeanda bir divar" çəkmə və bu divarı qoruma gücü verəcəkdi. Bu plan həyata keçdikdən sonra artıq amerikalılar və ingilislərlə məşğul ola bilər, onların müqavimətlərini qırıb, yorğun düşənə və sülh istəyənə qədər savaşı davam etdirə bilərdilər. Müttəfiq qüvvələr nəticədə dayana bilməyəcək, Asiyanı və Sakit okeanı Yapon İmperiyasına tərk edəcəkdilər. Bu strategiya əslində tam bir qumardı və uğur qazanması da sadəcə düşmənin əzmini yerlə bir etməyə yox, eyni zamanda və tam mənada Yaponiyanın özünün daşınma sisteminin necə koordinasiya olunmasına bağlıydı. Yaponlar elə düşünmüşdülər

ki, savaş iki il çəkəcək və öz düşüncələrinə görə, iki illik neft ehtiyatı ilə də müharibəyə başlamışdılar. İki ilin tamamında neft üçün yaponlar Şərqi Hind Adalarına gedəcəkdilər. Bu plan və yaponların neftdən asılı olması, Birləşmiş Ştatlar Strateji Bombalama Servisi tərəfindən "pis nəticə verən zəif bir nöqtə" kimi sübut olunmuşdu. Bundan başqa, yapon hərbi əməliyyatları tarixində bu məqam, "maye yanacaq yetərsizliyi yaponların zəif tərəfiydi" deyə öz əksini tapır.

Yaponların əsas zəif nöqtəsi, dənizdə Amerikan sualtı qayıqlarına müqavimət göstərə bilməmələri idi. Hərbi planlarını hazırlayarkən, yaponlar bu risqi heç nəzərə almamış, Amerikan sualtı qayıqlarını və sualtı hərbi gücünü ciddi qiymətləndirməmişdilər. Yaponlar amerikalıların nazlı və lüks həyat düşkünü olduqlarını, buna görə də dənizaltı həyat və savaş şərtlərinə dözə bilməyəcəklərini ehtimal etmişdilər. Amma bir şey vardı ki, Amerikan sualtı qayıqları dünyada mövcud olan gəmilərin ən yaxşılarıydı. Bundan başqa, inkişaf etdirilmiş torpedolarla da təchiz olunduğundan, öldürücü bir silah halında Cənub bölgəsi ilə yapon adaları arasındakı çox həyati dənizçilik bağlantılarını zəiflədib, aranı kəsirdi. Uzun müddət davam edən və acı bağırsaq kimi uzanan bu döyüş dənizçilik tarixində "Marus Döyüşü" olaraq qalıb. "Marus" kəlməsi yaponların bütün tacirləri qəsd edərək işlətdiyi bir termindir. Yaponlar bu savaşda əvvəllər bir elə diqqətli davranmasalar da, 1943-cü ilin axırlarında Amerikan sualtı qayıqlarına qarşı ciddi müdafiə tədbirləri görməyə və müdafiə səddləri-konvoylar yaratmağa başlamışdılar. Amma bu təşəbbüsləri də yetərsiz və natamamdı. Bu mövzuda bir yapon Konvoy Komandanı bunları söyləmişdi: "Biz hava qoruması tələb etdiyimiz zaman qarşımıza Amerikan





təyyarələri çıxırdı." Beləliklə, yaponların dənizdəki itkiləri artmaqda davam etdi.

Konvoylar da Yaponiyaya problem yaradır, bu problemlər müttəfiqlərə yardımçı olurdu. Konvoy hərəkatının vahid mərkəzdən idarə olunması üçün "mövqeləri" tam olaraq müəyyən edən bir simsiz siqnal şəbəkəsinə ehtiyac vardı. Bu mesajların yapon gizli şifrələrini aşkarlayan amerikalılar tərəfindən aşkarlanması, sualtı qayıqlara və onun heyətinə həyati əhəmiyyətli məlumatlar təmin edirdi. Hansı tərəfdən baxılırsa baxılsın, Yaponiyanın halı həqiqətən fəlakətdi. Bu döyüşdə yaponlara aid sac gövdəli nəqliyyat gəmilərinin toplam sayının 86 faizi batırılmışdı. Bundan başqa, qalan 6 faizlik gəmilər də müharibə sona çatanda, işə yaramayacaq formada ağır şəkildə dağıdılmışdı. Yaponiyanın bu itkiləri - 55 faizlik Amerikan dəniz gücünün cəmi iki faizini təşkil edən sualtı dənizçilər tərəfindən həyata keçirilmişdi. Yaponiyanın uğradığı itkilərin 5 faizi isə müttəfiq dövlətlərin payına düşür. Bu təşəbbüsün uğuru orasında idi ki, savaş uzun müddətli olmuş, yapon gücləri sərt mühasirəyə salınmış və yorucu bir sinir savaşı sürüb getmişdir. Gələcəkdə bir iqtisadçı yapon qrupunun da dəyərləndirdiyi kimi, bu döyüş "Yaponiyanın savaş iqtisadiyyatına vurulan öldürücü bir yumruq" olmuşdur.

Bu döyüşdə Amerikan sualtı qayıqları ən çox neft tankerlərini hədəf götürmüşdülər. Bu səbəblə də 1933-cü ildən başlayaraq, get-gedə daha çox tanker batırılmağa başlandı. 1944-cü ilə qədər batırılan tanker sayısı, yenidən inşa edilən yapon tanker sayısını qat-qat keçmişdi. Yaponiyanın etdiyi neft idxalatı 1943-cü ilin ilk üç ayı ərzində zirvə nöqtəsinə çıxmışdı. Amma bir il sonra, 1944-cü ilin ilk üç ayı içində 1943-cü il rəqəmlərinin yarısından da aşağı səviyyəyə düşmüşdü. 1945-ci ilin ilk üç ayına

gəlindiyində isə, idxalat artıq tamamilə dayanmışdı. Bir yapon komandanı mövzunu bu sözlərlə xülasə edirdi: "Savaşın sonlarına doğru elə bir vəziyyətə düşmüşdük ki, limandan ayrılar-ayrılmaz mütləq bir tankerimizin batırılacağından əmindik. Tankerin Yaponiyaya gedib çatmayacağına adımız kimi inanırdıq." Neft ehtiyatları tükəndikcə, yaponlar yeni-yeni yollar axtarmağa, yeni-yeni kəşflər etməyə başladılar. Artıq imkan olduğu hər yerdə - hər şeyə, müxtəlif böyüklükdəki silindirlərə, hətta yük gəmilərinin göyərtələrindəki qutulara belə neft doldururdular. Bu arada böyük plastik torbalara yerləşdirdikləri 300, 500 barrel nefti dəniz vasitəsilə Yaponiyaya çatdırmağı belə sınaqdan çıxardılar. Bəlkə də bu dahiyanə bir fikirdi, amma bir çox səbəblərdən heç bir nəticə vermədi. Bu səbəblər aşağıdakılardı.

Benzin plastik materialı aşındırıb yeyirdi. Bundan başqa, torbalara neft doldurma və boşaltma işi çox çətin idi. Torbalar onları daşıyan üzmə vasitəsinin manevretmə imkanlarını məhdudlaşdırırdı. Bu da bu üzmə vasitələrini hava hücumları üçün daha yaxşı hədəfə çevirirdi. Əlacsızlıq içindəki yaponlar, öz sualtı qayıqlarında belə neft daşımağı sınaqdan çıxarmışdılar. Alınmamışdı. Ayrıca, alman sualtı qayıqlarını onlara neft daşımaq üçün məcbur etmək də istəmişdilər. Bunun qarşılığında yaponlar, alman sualtı qayıqlarının təmiri üçün onlara Yaponiyaya girmə icazəsi verəcəkdilər.

Neft idxalı dayanandan sonra ölkə daxilində vəziyyət gərginləşir, yapon xalqı hər gün bir az daha artıq neft sıxıntısı çəkirdi. 1944-cü ildə mülki benzin istehlakı sadəcə 257.000 barrelə düşmüşdü ki, bu da 1940-cı il səviyyəsinin 4 faizi qədərdi. Benzinlə işləyən vasitələr, yenidən dəyişdirilib, kömürlə və ya odunla çalışa biləcək hala salınırdı. Sənayedə istifadə olunan neft, artıq soya lobyasından, yer





fıstığından və Hindistan cevizindən əldə olunurdu. Sivil vətəndaşların topladığı kartof, şəkər və düyü şərabı kimi maddələr - pərakəndə satılan və yaponların "sake" dediyi rakısına qədər - toplanıb, yanacaq yerinə istifadə olunmaq üçün alkoqola çevrilirdi.

Yaponların 1937-ci ildə sintetik yanacaq mövzusuna nə qədər ehtiras və hikkəylə bağlandığını xatırlamaq lazımdır. Pearl Harbor hadisəsindən bir müddət əvvəl, Tokioda sintetik yanacağı savaşın bir alternativi kimi təklif edənlər belə olmuşdu. Bir şey var ki, bu mövzuda savaş əsnasında göstərilən bütün təşəbbüslər kədərli bir şəkildə uğursuz olmuş, polad çatışmazlığı və digər təchizat natamamlığı baxımından əngəllənmişdi. Bu uğursuzluqda bitib-tükənməək bilməyən bir çox texniki, mühəndislik, mexaniki və şəxsi problemlərin də payı vardı. 1943-cü ildə yaponların sintetik yanacaq istehsalı cəmi bir milyon barrel idi. Bu miqdar daha əvvəl bu il üçün planlaşdırılan 14 milyonluq hədəfin sadəcə 8 faizidir. Daha sonra da bu yanacaq növü heç bir zaman neft ehtiyacı toplamının 5 faizindən artığını qarşılamamışdı. Bundan başqa, mövcud neft ehtiyatının yarısından çoxu Mancuriyada idi. Bu neft ehtiyatı da 1944-1945-ci illərdəki mühasirə səbəbilə işə yaramaz olacaqdı. Qısaca, sintetik yanacaq layihəsi tam fiasko ilə nəticələnmişdi - həm də qaynaqlara, gücünə və hökumətə etdiyi o qədər zorlama səbəbindən çox bahalıya mal olan bir fiasko! Bir araşdırmaçı-yazar bu mövzuda görüşlərini bu cür ifadə etmişdi: "Yaponiyada girişilən sintetik yanacaq sənayesi, bu sənaye sahəsinə qoyulan o qədər material və insan gücünün boşuna getməsi və nəticədə alınan məhsulun son dərəcə qısır və səmərəsiz olması səbəbindən, Yaponiya üçün savaşda bir dəyər olmaqdan çox, lazımsız bir məsuliyyətə çevrilmişdir."

## Eskadrilyanı xilas etməyin bir mənası qalmadı

Gedərək artan neft sıxıntısı Yaponiyanın hərbi qabiliyyətlərini məhdudlaşdırır və hər gün bir az daha çətinləşdirirdi. Bu faktor bir çox döyüşün seyrini birbaşa dəyişdirmişdi. İlk sıxıntı hələ 1942-ci ilin iyun ayında, Midvay döyüşünün gəlməsi ilə hiss olunmağa başlamışdı. Bu döyüşdə iştirak edən bir yapon admiralı neft sıxıntısı mövzusunda bunları söyləmişdi: "O günlərdə həddindən artıq çox neft istehlak etmişdik. Sərf etdiyimiz neft miqdarı, əvvəlcə müəyyənləşdirdiyimiz təxminlərimizi xeyli aşmışdı. Bunun təsiri çox sürətlə, Midvay döyüşünün bitməsindən dərhal sonra hiss olunmuşdu." Midvay döyüşündən sonra müttəfiq dövlətlər yeni hücum əməliyyatlarına başlamış, dənizdən və qurudan etdiyi əməliyyatlarla qərb istiqamətində sürətlə irəliləyib, Yaponiyaya hər gün bir az daha yaxınlaşmışdılar. Beləliklə, Gilbert adalarında Tarava və Makinə, Marshall adalarında Kvajalein və Enivetoka, Marianasda Saipan və Guama artıq çox yaxın idilər. Hər iki tərəf üçün də hər qumsalda mövcud olan hər qarış torpaq, yüzlərlə adamın həyatı deməkdi. Ancaq amerikalılar bu hücum əməliyyatına həqiqətən də çox yaxşı hazırlaşmışdılar və eləcə də yola çıxmışdılar. Dəniz və quru savaşı üçün lazım olan bütün təchizat var idi. Təyyarə gəmiləri və sənaye gücləri bütünlüklə savaşın ixtiyarına verilmişdi. Yaponiyanın isə bu dərəcədə böyük bir qaynaq ayırması və onu xərcləməsinə imkan yoxdu. Amerikalılar bu döyüş üçün çox yaxşı hazırlaşmışdılar. O dərəcədə ki, Pearl Harborun intiqamını alacaqları tarixə qədər hər detalı müəyyənləşdirmişdilər. Bu tarix, Pearl Harbora öldürücü basqını planlaşdıran Admiral Yamamotonun Yeni Gine yaxınlarındakı





Bougainville Adasını ziyarət edəcəyi 1943-cü ilin aprel tarixi idi. Bu tarixi Amerikan xəfiyyəsi öyrənib xəbər vermişdi. Nəticədə Amerikan savaş təyyarələri pusqu qurduqları buludlardan sıyrılıb, Admiralı alovlar içində yerin dərinliklərindəki meşəyə - ölümə yolladılar.

Bütün bunlara baxmayaraq, sualtı qayıqların apardığı böyük kampaniya yaponları o qədər də neft sıxıntısına salıb, "fövqəladə vəziyyət" halına gətirməmişdi. Yaponların neft baxımından tam tükənməsi, 1944-cü ilin əvvəllərinə qədər baş vermədi. Yaponların bitməkdə olan neft ehtiyatları həm də strateji qərarlarda öz təsirini göstərməyə başlamışdı. Gedərək daha pərişanedici vəziyyət yaranırdı. Yapon savaş eskadrilyası, neft ehtiyatları yetərsiz olduğu üçün, 1944-cü ilin iyun ayındakı Marianas döyüşünə qatılmamışdı. Bundan başqa, təyyarə gəmiləri də neftə qənaət etmək üçün amerikalılara dairəvi hücum taktikası ilə yox, birbaşa-düzünə planlaşdırılmış bir hücumla yaxınlaşmışdı. Yapon komandanının sonradan söylədiyi kimi "dairəvi hərəkat strategiyası ilə yaxınlaşmış olsaydıq, yol uzanacaqdı və bu səbəblə də daha çox neft istehlak olunacaqdı." Əslində, birbaşa hücum yaponlara çox bahalıya mal olmuş, adı savaş tarixində "Böyük Marianas Kəklik Ovu" kimi qalan bir nəticəylə bitmişdi. "Marianas Kəklik Ovu" əməliyyatında yaponlar Amerikanın itirdiyi 29 savaş təyyarəsi qarşılığında, 273 təyyarə itirmişdilər. Marianasda qazandığı qələbəylə, artıq amerikalılar yapon müdafiə dairəsinin içinə qədər sızmışdılar.

Bu müharibənin dəyərləndirilməsi aparıldığında, görünür ki, əgər yaponlar İmperiya donanmasına bağlı olan iki savaş qrupu ilə öz sularında müdafiə təşkil etsəydilər, bu, strateji baxımdan daha məntiqli davranış olacaqdı. Bu yolu seçsəydilər, savaş qruplarını Okinavada və ya birbaşa

öz torpaqlarındakı adalarda yerləşdirsəydilər, hər istiqamətə doğru hücum etməyə hazır olacaqdılar. Amma öz hakimiyyətlərindəki adalara gedən neft xəttinin dağıdılmasından sonra və yanacaq ehtiyatlarının da gündən-günə azalması səbəbindən bunu etməyə vaxt tapa bilməmişdilər. Buna görə də eskadrilyanın bir hissəsi savaş təyyarələri ilə birlikdə, yeni təyyarələrin və pilotların gəlməsini gözləmək üçün Yaponiyada yerləşdirilmişdi. Bu ara, təbii olaraq, mazot ehtiyatları da son damlasına qədər tükənmişdi. Ağır savaş gəmiləri isə, Şərqi Hind Adaları neftinə yaxın olsun deyə, Sinqapur yaxınlarında saxlanılırdı. Ancaq bir əməliyyat keçirildimi, yenidən yanacaq təmin etmək lazım olanda, buna fürsət tapmadıqlarından təkrar yanacaq doldurmaq və əməliyyata hazırlanmaq üçün təxminən bir ay vaxt lazım olurdu. Neft çatışmazlığı yapon donanması üzərində dəhşətli təsirlər göstərdi və nəticədə donanma bölündü. Yaponiyanın müttəfiq hücumlarının qarşısını almaq və onu geri püskürtmək üçün güclü və birləşmiş bir donanmaya möhtac olduğu günlərdə yapon dəniz gücü tam iki yerə parçalandı.

Yaponların hava hücumları da neft çatışmazlığı səbəbindən ciddi şəkildə azalmışdı. 1944-cü ildə "pilot təlim saatı" həftədə 30 saata endirilmişdi ki, bu da "mütləq zəruri olan" təlim saatlarının sadəcə yarısı qədər idi. 1945-ci ildə neft sıxıntısı gedərək pisləşdi. Bu da donanma heyətinin təliminin tamamilə dayandırılması ilə nəticələndi. Pilotlardan artıq sadəcə hədəfə doğru gedən liderlərini təqib etmələri gözlənilirdi. Gedənlərin geri qayıtmasından ümidlər kəsilirdi. Sadəcə bir neçəsinin geri qayıtması böyük nailiyyət hesab olunurdu. Təyyarə benzini artıq bu işə əlverişli olan bəzi maddələrin çox miqdarda alkoqolla qarışdırılması ilə əldə olunurdu. Aşağı keyfiyyətli





yanacaqların bir-biri ilə qarışdırılması, pilotların yetərincə təlim görməməsi, təyyarələrin yaxşı test edilməməsi öldürücü nəticələr doğururdu. Yaponlar bu müharibədə yalnızca hədəflərinə doğru irəliləyərkən, hava qüvvələrinin 40 faizini itirmişdilər.

Neft ehtiyatlarını bir azca olsun artıra bilmək üçün yapon gəmiləri neftayırmaya məruz qalmayan Borneo xam neftindən istifadə etmək qərarına gəldilər. Bu neft, Marcus Samuelin bir çox illər əvvəl iddia etdiyi kimi, yanacaq şəklində istifadə olunmağa əlverişli idi. Ancaq əlverişli olduğu qədər, alovlanma gücü də yüksək olduğu üçün, bu yanacaq onu istifadə edən gəmilər üçün təhlükəli olmağa başlamışdı. Çox sıxışmışdılar. Ona görə də yaponlar, dənizçilikdə qədimdən bəri tətbiq etdikləri və tarixdə çox məşhur olan seyr ənənələrini də dəyişdirdilər. Lazım olanda hətta kömürlə işləyəcək yeni gəmilər inşa etdilər. İnşa halındakı gəmilərin özlərini də səfərə çıxmadan əvvəl kömürlə işləyəcək şəkildə dəyişdirirdilər. Bu dəyişikliklər neft ehtiyatları baxımından, bir az rahatlama və təhlükəsizlik gətirsə də, sürət və elastiklik baxımından, bir itki deməkdi.

Yapon imperiya donanmasını 1944-cü ilin oktyabr ayında bütün olan-qalan gücüylə Filippin sahillərində yerləşən "Leyte Körfəzi" müharibəsinə çəkən faktor, neftin olmaması idi. Bu tarixə qədər Yaponiyanın boynundakı ilmək artıq həddindən artıq sıxılmağa başlamışdı. 1944-cü ilin avqust ayında Guam adasının geri alınması, yapon adalarında B-29 tipli bombardman təyyarələrinin istifadə olunmasını gündəmə gətirmişdi. Cənuba doğru yürüyən Mac Arturun komandanlığındakı qüvvələr, sentyabrın 15-də Filippin sahillərindən sadəcə 300 mil uzaqlıqdakı Molluccasdakı Morotaiyə ayaq basdı. Mac Artur burada

cənuba doğru baxaraq, bunları söyləmişdi: "Orada məni gözləyirlər!" Artıq yaponların başqa yolları qalmamışdı. Atacaqları tək addım amerikalıların Filippini geri almalarına maneə olmaq üçün əllərindəki bütün imkanları səfərbər etməkdi. Filippin adaları Yaponiyanın öz adalarına havadan hücum edə biləcək bir məsafədə idi və Yaponiya ilə, Yaponiyanın Şərqi Asiyada ələ keçirdiyi torpaqlar arasında yerləşirdi. Nəticədə yapon dəniz qüvvələri Komandanı Admiral Soemu Toyona, dənizçilik müharibəsi tarixində dünyanın ən böyük savaşına yol açan əmri verirdi. Admiral Toyona sonradan bu əmrin verilmə səbəblərini belə izah etmişdi: "Filippin hərəkatında uduzsaydıq, eskadrilyanı oradaca buraxmaq məcburiyyətində qalsaydıq, bu hallarda belə cənuba gedən dəniz yollarımız tamamilə kəsilmiş olacaqdı. Buna görə də eskadrilya, Yapon sularına girsə belə neftlə təmin olunmayacaqdı. Əgər eskadrilya cənub-şərq sularında qalsaydı, bu dəfə də ləvazimat və silah-sursat təminatında problemlər yaranacaqdı. Buna görə də Filippini itirmək bahasına, eskadrilyanı xilas etməyin heç bir məntiqi yox idi."

Bir şey var ki, neft sıxıntısı yaponları Filippin müharibəsində bir neçə dəfə çətinliyə məruz qoymuşdu. Silahlı qüvvələrin pərakəndəliyi səbəbi ilə Yapon Donanması bütün gücünü bir nöqtəyə cəmləməyə təşəbbüs elədi. Neft qıtlığı səbəbi ilə yapon savaş gəmilərindən ikisi böyük müharibəyə qatılmamışdı. Savaşmaq əvəzinə, neft gətirmək üçün Sinqapura getmiş və qayıtmışdılar. O biri gəmilər isə, yanacağa qənaət etmək üçün yavaş hərəkət etdiklərindən, lazım olan yerə gəlib çatmaq üçün bir neçə saat gecikmişdilər. Bu bir neçə saatlıq gecikmə isə, yaponlar baxımından fövqəladə əhəmiyyətli idi. 1944-cü ilin oktyabr ayının 25-də İkinci Donanma Komandanı





Admiral Takeo Kurita "Leyte Körfəzi"nə girəcək mövqedə idi. Leyte Körfəzinə girməklə, Kurita, general Mac Arturun o qədər də yaxşı müdafiə mövqelərində olmayan işğal qüvvələrini məhv etmək və bəlkə də müharibənin taleyini öz lehinə dəyişdirmək imkanına qovuşmuş olacaqdı. Ancaq işğal ediləcək qumsallığa sadəcə 40 mil məsafə qalmışkən, Kurita nədənsə birdən-birə çəkilmiş, gəmilərini də götürüb aradan çıxmışdı. Savaş bitdikdən sonra bunun səbəbini soranlara yapon admirallarından biri bu cavabı verəcəkdi: "Geri çəkilmənin bir səbəbi vardı: neft yoxluğu!"

Üç gün davam edən Leyte Körfəzi müharibəsi yaponlar üçün tam bir fəlakətlə nəticələnmişdi. Bu döyüşdə yaponlar 3 savaş gəmisi, 4 təyyarə gəmisinin hamısını, 10 kravüzör və 13 destroyer itirmişdi. Əlacsızlıqları səbəbi ilə yaponlar bu müharibədə dünyaya yepyeni bir silah daha tanıdacaqdılar. Bunlar "kamikadze" adlanan intihar pilotları idi. Bu kəlmə "ilahi rüzgar" - "Tanrı küləyi" deməkdir və III əsrdə Kubilay xanın böyük işğal donanmasını Yaponiyaya ayaq basmadan yerlə-yeksan edən qasırğaya verilən addır. Bu intihar pilotlarının əsas vəzifəsi öz təyyarələrini Amerika gəmilərinə çırparaq parçalamaqdı. Sadəcə bu belə yaponların xarakterini və ruhlarını anlatmaq üçün kifayət edir. Bunu etməklə yaponlar, Vətənini sevən hər bir yaponu "tam və qarşılıqsız fədakarlığa" çağırmışdır. Məqsəd yapon millətini "intihar pilotları" vasitəsilə bu hərəkata təşfiq etməkdir. Əsas məqsəd bu olmaqla bərabər, bunun arxasında ikinci və Yaponiya kimi neft, təyyarə və təlim görmüş pilot baxımından son dərəcə yetərsiz bir ölkə üçün çox əhəmiyyətli sayılacaq bir məqsəd daha vardı. Yaponlar praktik və metodlu bir hesablama ilə, bir Amerika təyyarəsini və ya savaş

gəmisini batırmaq üçün 8 bombardmançı və 16 döyüşçü lazım olduğu halda, eyni nəticənin bir və ya üç intihar pilotu ilə alına biləcəyini başa düşmüşdülər. Yaponlar öz təyyarəsini şüurlu olaraq parçalayan bir pilotun düşmən təyyarə və ya gəmisində daha çox ziyan törədəcəyindən əmin idilər. Bu cür bir hərəkatdakı məntiqi başa düşə bilməyən düşmənin, yaponların özlərini ölümə atdıqlarını anlaya bilməyəcəklərini və beləliklə, panikaya qapılacaqlarını ümid etmişdilər. Bir başqa səbəb də vardı. İntihar pilotu geri dönməyəcəkdi. Deməli, yanacaq da yarıya qədər doldurulacaqdı.

## İmperator Ordusunun sonu

Sakit okeanda yerləşən Amerikan qüvvələrinə qaynaqlar nə qədər uzaqda olsa da, neft bol idi. Yaponlar isə, bunu görür, amma qarşısını almaq üçün çox az şey, hətta heç bir şey edə bilmirdilər. Amerikalılar çox böyük miqdarda inkişaf etdirilmiş üzən bazalar düzəltmişdilər. Birləşmiş Ştatların Donanmasına Sakit okeanda "geniş addımlar" atmaq imkanı verən bu üzən bazalarda yanacaq doldurma məntəqələri, təmiretmə gəmiləri, yardım qayıqları, üzən gəmilər, xilasetmə gəmiləri və neft nəqletmə gəmiləri vardı. Böyük tonnajlı iki və ya üç tanker, onları müşayiət edən destroyerlərlə birlikdə əvvəlcədən müəyyənləşdirilmiş yerlərdə stansiya qurmuşdular. Hər biri arasında 25 mil genişlik və 75 mil uzunluq olan bu tanker bazaları, Amerikan gəmilərini neft doldurmaq üçün gözlədiyi və əvvəlcə müəyyənləşmiş yerlərdə yerləşdirilmişdi. 1944-cü ilin ikinci yarısında Guam, yaponları bombalamaq üçün ən əhəmiyyətli Amerikan bazası halına gətirildi. Buraya hər gün 120.000 barrel təyyarə benzini daşınırdı.





Amma eyni müddətdə sərhədlərin hamısında birdən bütün yapon hava qüvvələrinin istehlak etdiyi neft gündə cəmicümlətanı 21.000 barreldən ibarətdi. Bu, amerikalıların sadəcə Guamda istehlak etdiyi neftin altıda biri qədərdi.

Artıq yaponlar hər tərəfdən sıxışdırılırdılar. 1945-ci ilin əvvəllərində amerikalılar Filippinlərdə Manillanı, bundan başqa, böyük itkilər bahasına olsa da, İvo Jimanı geri almışdılar. Amerikalılar bu döyüşlərdə 6.800, yaponlar isə 21.000 əsgər itirmişdilər. Bundan başqa, 4,5 mil uzunu, 2,5 mil eni olan kiçik bir ada uğrunda döyüşdə amerikalıların yaralı əsgərlərinin sayı 20.000 nəfəri keçmişdi. Cənubi Asiyada ingilislər son hücumlarını Burmaya etmişdilər. Yaponlar Balikpapanda və Şərqi Hind Adalarındakı digər önəmli limanlardan da çıxarılmışdılar. Öz adalarındakı neftayırma zavodları da artıq tamamən neftsiz qalmışdı. 1945-ci ilin mart ayında Yaponiyanın son neft tanker konvoyu Sinqapurdan ayrılıb, Yaponiyaya doğru yola çıxsa da, batırıldığı üçün gedib çatmadı.

Yaponiyada neft və bir çox əsas maddələrlə birlikdə ölkə iqtisadiyyatı tamamilə nəzarətdən çıxmışdı. Qaz, elektrik və kömür kimi maddələr inanılmaz şəkildə azalmışdı. Artıq evlərdə xüsusi hamam tikmək tarixə qarışmış, hamıya açıq hamamlar isə qələbəlikdən girilməz olmuşdu. Hamamlar küçələrdən odun parçaları toplayaraq qızdırılırdı. Buralarda çimməyə də xalq arasında "qazanda kartof yuma" deyilirdi. Bir azca qızına bilmək üçün bir çox yapon, kitabxanasındakı kitabları yandırmış, onun oduna qızınmışdı. Bunu da yəqin ki, növbəti hava hücularında onsuz da kitabların məhv olacağını düşündüklərindən edirdilər. Tokioda yanacaq paylama işinə 1944-1945-ci il qışının soyuq günləri bitənə qədər başlanılmadı. Yeni paylaşdırma formasına keçilməsi, ancaq 21 may 1945-ci ildə

gerçəkləşdi. O günə qədər Tokio xalqının əksəriyyəti, bombalanmış bir şəhərin küçələrindən odun toplayıb yemək bişirməyin nə demək olduğunu çoxdan öyrənmişdi. Adam başına gündə 1.800 kalori düşən xalqın minimum kalori ehtiyacı 2.160 kalori idi.

Yanacaqda yaşanan sıxıntının hərbi qüvvələr baxımından son dərəcə ciddiyyət qazanması, donanmanı kamikadze uçuşlarına bənzər, başqa bir dramatik qərar almağa sövq edəcəkdi. Bu, dünyanın ən böyük savaş gəmisi və yapon eskadrilyasının qüruru olan Yamatonu qurban etmə qərarıydı. Plana görə Yamato, Okinava işğalını dəstəkləyən Amerikan gəmilərinin səfini yaracaq olan Xüsusi Hücum Dəstəsinin əsas vurucu gücünü üstlənəcək, mümkün olduğu qədər çox ziyan verəcək, sonra da özünü qumsala çəkib 18 inçlik nəhəng silahları ilə adanı müdafiə etməyə başlayacaqdı. Admiral Toyoto bu mövzuda belə söyləmişdi: "Böyük miqyasda girişiləcək hər hansı əməliyyat üçün həddindən çox neftə ehtiyac vardı. Ona görə də bu cür bir əməliyyat heç düşünülmürdü də. Eskadrilyanı toparlamaq üçün belə, lazım olan 2.500 ton yanacağı tapmaqda çətinlik çəkmişdik. Ancaq belə bir ümumi qənaət vardı: qazanma şansı yarı yarıya olmasa belə, bu gəmiləri heç bir şey etmədən yurd sularında tənbəl-tənbəl saxlamaqdan bir şey çıxmazdı. Bundan başqa, bu gəmilərin 50 faiz belə savaş gücünün olmadığını bildiyimiz halda, onları döyüşə göndərməmək yapon donanma ənənəsinə tərs düşəcəkdi. Bax, yanacaq çatışmazlığı bu dərəcədə kritik mərhələdəydi."

Açıqca göründüyü kimi, bu, Yamatoya verilən bir intihar vəzifəsi idi. Səfərə çıxarkən, Yamatoya sadəcə gedişə bəs edəcək qədər yanacaq yüklənmişdi. Bu böyük savaş gəmisini heç bir bombardman təyyarələri müşayiət





etmirdi. Onu müşayiət edəcək bütün təyyarələr kamikadzelik edirdilər. Ona görə də bu nəhəng gəmini yalnız donanmaya məxsus bəzi kiçik gəmi və qayıqlar müşayiət edirdi. Elə beləcə də Yamato, aprelin 6-da səhər-səhər Tokuyamaya girmişdi. Aprelin 7-də, günorta saatlarında, alçaqdan uçuşlar keçirən 300 Amerikan təyyarəsi bombardmana başladılar. Günortadan sonra Yamato və o biri gəmilərin əksəriyyəti artıq batırılmışdı. Bir çox hərbçilərin şərhinə görə, intihar etməyə belə vaxtı olmayan və darmadağın dağıdılan Yamatonun batırılması, "İmperiya və imperator donanmasının sonunun çatdığının əlaməti idi." Bir zamanlar bütün Sakit okeanın Qərb istiqamətinin komandasını əlində tutmaqla öyünən yapon donanması, indi artıq öz Vətəninə yaxın olan dənizlərdən belə qovulmuşdu.

## Sonuna qədər müharibəmi?

Beləliklə, Yaponiyanın vəziyyəti getdikcə ağırlaşmağa başlamışdı. Benzin çatışmazlığı səbəbindən artıq təyyarələr iki saatdan çox uça bilmirdi. İndi ağıllarda yalnız bir sual vardı: Əcəba, neft tapmanın, kəşf etmənin, icad etmənin hər hansı başqa bir yolu yoxdumu? Benzin sıxıntısından əlacsızlıq içərisində qıvranan donanma, axır ki, bir qərara gəldi. Yanacaq kimi istifadə etmək üçün çox fantaziyalı bir yol olan "şam kökü" kampaniyasına başladı. Bu arada "iki yüz şam kökü bir təyyarəni bir saat müddətinə havada tutar" şüarları ilə bütün yapon adalarında yaşayan insanlar, əllərində qazma kürəkləri şam köklərini çıxarmağa başladılar. Bu şam kökləri 12 saat qaynadılır, bu üsulla bir növ xammaddə əldə edilirdi. Bu arada hər birinin gündə 3-4 qalon neft istehsal etməsi

məqsədilə lazımi yerlərə 34 min qazan, damcılatma yeri və kiçik miqyasda neftayırma dəzgahları yerləşdirildi. Ancaq bütün bu çəkilən zəhmətlər, çox sayda insan gücü lazım olduğundan, boşuna getməyə məhkumdu. Bir qalon neft əldə edə bilmək üçün 2.5 günlük insan çalışması lazım idi. Rəsmi hədəf kimi müəyyənləşdirilən - gündə 12 min barrel neft istehsalı üçün hər gün 1.5 milyon fəhlənin yalnız və yalnız bu işdə işləməsi lazımdı!

"Şam kökü" kampaniyası gözlə görünər şəkildə bəzi nəticələr vermişdi. Bölgədə nə qədər şam ağacı varsa, hamısı kökündən qazılıb çıxarılmış, böyük ağac gövdələri və kökləri yolu-izi bürümüşdü. 1945-ci ilin iyun ayına qədər "şam kökü yağı" istehsalı ayda 70 min barrelə çatsa da, şam kökünün kimyəvi proseslərdəki ayırma işləri bəzi çətinliklər səbəbindən öz həllini tapmamışdı. Həqiqət budur ki, müharibə sona çatdığı günə qədər "şam kökü yağı"ndan toplam olaraq, təyyarədə istifadə olunmaq üçün sadəcə 3.000 barrel benzin istehsal olunmuşdu və bu benzinin hər hansı bir hissəsinin həqiqətən də, təyyarədə istifadə olunub-olunmadığını göstərən hər hansı bir fakt da yoxdu.

Artıq Yaponiya, qaçınılmaz nəticəyə və sona hər gün bir az daha yaxınlaşırdı. Amerikan təyyarələrinin aman verməyən bombardmanı altında ölkənin keyfiyyətsiz materiallardan inşa edilmiş binaları yerlə-yeksan olur, qapqara qaralmış skeletlərə çevrilirdi. Milli iqtisadiyyat isə - bəlkə bir az daha yavaş, amma mütləq şəkildə parçalanmaqdaydı. Artıq Yaponiyanın baş verən hücumlara qarşılıq vermə gücü tamamilə məhv olmuşdu. "Jilet" ləqəbi ilə tanınan Hideki Tojo, bir il əvvəl iyul ayında zorla Baş nazir vəzifəsinə təyin olunduğu halda, indi, 1945-ci ilin yazında ölkəni idarə etmək üçün yeni bir hökumət iş başına gətirilirdi. Bu yeni hökumətdə heç olmasa, kabinet





üzvlərindən bəzilərinin müharibəni bitirmə tərəfdarı olmasına diqqət göstərilmişdi. Keçmişdə olduğunun tərsinə, "düşməni tamamilə məhv etmə" tərəfdarı olan nazirlər, kabinetdən kənarda buraxılmışdılar. Bir nazir "Artıq hər şey ən son mərhələyə gəlmişdi. Hansı tərəfə baxarsaq baxaq, yoluna sonuna gəldiyimizi görürdük" deyirdi. Yeni hökumətin başına gətirilən Baş nazir, 80 yaşlı, təqaüddə olan bir admiral idi. O, yurddaşlar üzərində hələ də nüfuzu və hörməti olan, eyni zamanda yumşaq diplomatiya və siyasət tərəfdarı olan Kantaro Suzuki idi. Ancaq Suzukinin Baş nazir təyin olunmasından sonra, savaşa davam etmə tərəfdarları ilə, savaşı bitirmənin bir yolunu axtaranlar arasındakı qarşıdurma daha da şiddətləndi. İkinci qrupda təmsil olunan dövlət məmurları, daha ehtiyatlı hərəkət edən, sərt çıxışlar etməkdən çəkinən adamlar idi. Ancaq bu qrupa daxil olanlar, hərbi çevriliş olmasından və ya bir sui-qəsdə qurban getməkdən ölümünə qorxurdular.

1945-ci il aprel ayının 5-də Sovet İttifaqı Yaponiya ilə qüvvədə olan tərəfsizlik haqqındakı paktı tanımadığını bəyan etdi. Ancaq nəzərdə tutulan şərtlərə görə, pakt 1946-cı ilin aprel ayına qədər qüvvədə qalmalıydı. Bundan istifadə etmək istəyən yapon donanması bu dəfə, ən azı "şam kökü" kampaniyası qədər qəribə, amma yeni bir fikrə düşdü - Sovet İttifaqına doğrudan-doğruya yaxınlaşıb, Tokio ilə Vaşinqton və London arasında vasitəçilik etməsini və Cənub Bölgəsinin qaynaqlarından istifadə edərək, Sovet İttifaqının neft sənayesi və ticarətini daha da inkişaf etdirməsini istəyəcəkdi. Bu tapşırıq keçmiş Baş nazirlərdən Yaponiyanın Moskva səfiri Koki Hirotaya verildi və səfirə Sovet İttifaqının Yaponiya səfiri ilə ünsiyyətə girmək tapşırığı verildi. Ancaq yaponlar bir məqamı diqqətdən qaçırmışdılar, çünki bu mövzuda məlumatları olmamışdı.

Bir il əvvəl fevral ayında keçirilən Yalta konfransında Stalin, Ruzvelt və Çörçillə söz vermişdi ki, Avropada müharibənin bitməsindən sonrakı 90 gün ərzində Sovet İttifaqı Yaponiya ilə müharibəyə başlayacaq. Yaponiyanın bundan xəbəri yox idi. Bundan başqa, Stalin, təkcə xammaddə mövzusu ilə məhdud olmayan və bundan daha cazibədar başqa bir dəyiş-düyüş planı da hazırlamışdı. Sovet İttifaqının müharibəyə başlamasının qarşılığı olaraq, Sovet diktatoru Stalin, zəngin torpaq imtiyazları əldə edəcəkdi. Mancuriyada Rusiyanın hakimiyyətini yenidən qurmaq, Saxalin adalarının cənub hissəsini geri qaytarmaq və Kuril adalarına sahib olmaq - bu imtiyazların ən əhəmiyyətli olanları idi. Etnik baxımdan gürcü əsilli olmasına baxmayaraq, Stalin tam mənasında bir rus milliyyətçisi idi və bu imtiyazlı mükafatları almaqla, öz qənaətinə görə, Çar Rusiyasının 1905-ci ildən bəri yaponların əlindən çəkdiyi əzab-əziyyətlərin əvəzini çıxmış olurdu. Bu səbəblərə görə də, Sovet səfiri iyun ayının axırlarında bir araya gəldikləri zaman Hirotanın etdiyi bütün siyasi təklifləri olduğu kimi rədd etdi. Bundan əlavə, səfir bir şeyi də əlavə edirdi: Yaponiyaya neft ixracı mümkün deyildi. Çünki Sovet İttifaqının özü də neft sıxıntısı içərisində idi.

Nəticədə, Baş nazir Suzuki yeni bir qərar alaraq, Yaponiyanın savaşma qabiliyyətinin müəyyən edilməsi və savaşa davam etmək üçün gücün kifayət edib-etmədiyinin ortaya çıxması məqsədilə bir araşdırma aparılmasını əmr etdi. 1945-ci il iyun ayının ortalarında gələn nəticələr tam bir fəlakətdi. Yapon savaş iqtisadiyyatının yanacaq yoxluğu onu məhvə aparırdı və Amerikan hava hücumlarının ağır və amansızlığı Yaponiyanı haradasa iflic etmişdi. Araşdırma nəticəsində ortaya çıxan rəqəmlər də Yaponiyanın nə dərəcədə çarəsiz olduğunu aydınca sübut edirdi. 1937-ci ilin aprel ayında 229.6 milyon barrel olan





mazot ehtiyatı, 1945-ci ilin iyul ayının 1-də 0.8 milyon barrelə düşmüşdü. Ehtiyatlar bir milyon barreldən aşağı düşdüyündə, onsuz da donanma əməliyyata girə bilməzdi. Nəticələrin göstərdiyi kimi, hansı tərəfdən baxılırsa baxılsın, artıq donanmanın fəaliyyət göstərməsi üçün lazım olan neft tamamən tükənmişdi. Yapon hökumətinin yüksək çinli bəzi məmurlarının ifadə etdiyi kimi "vəziyyət son dərəcə ümidsizdi." Ancaq bu görüşü hökumətin hər bir üzvünün eynən paylaşdığını söyləmək yanlış olur. Yapon hökumətinin ən üst səviyyəli səlahiyyət sahibləri "təslim olma" ehtimalını hələ də qəbul etmir, hətta aralarından bir neçəsi bu sözün tələffüz edilməsinə belə qarşı çıxırdı. Ortada fırlanan və hökumətin də dəstəklədiyi əsas şüar bu idi: "100 milyon insan bir bütün halında millət uğrunda ölməyi gözləyir." Bu arada ordu və donanma rəhbərliyi də Suzuki hökumətini savaşa zorlama və acı sona götürmə təşəbbüslərindən geri qalmırdı.

Sanki beyinlərinin içindəkiləri göstərməkdən zövq alırdı yaponlar. 1945-ci ilin aprel ayında Amerikanın Okinavayı işğalında, yaponların işğala qarşı göstərdiyi müqavimət son dərəcə şiddətli və fanatik səviyyədə olmuş və yaxşı təşkil edilmişdi. Bu səbəbdən də 1945-ci il iyun ayının 21-dən əvvəl amerikalılar adanı ala bilməmişdilər. Okinava adasının alınmasında Amerika öz qüvvələrinin 35 faizini itirmişdi. Amerikan qüvvələrinin komandan heyəti yapon adalarının işğalı müddətində təxminən eyni sayda itki verəcəklərini ehtimal etdiklərindən, hücumun ilk mərhələsində itkilərinin ölü və yaralı olaraq, ən az 268.000 nəfər olacağını hesablamışdılar. Bu cür böyük bir savaşda öz tərəflərindən toplam olaraq 1 milyon əsgər itirəcəklərini, yaponların itkilərinin də təxminən o qədər əsgər olacağını, ancaq mülki insanlar arasındakı ölü sayının qat-qat artıq olub, milyonları keçəcəyini ehtimal edirdilər.

"Okinava müharibəsi" son dərəcə qanlı olmuş və böyük bir inadla davam etdirilmişdi. Bu, amerikalıların hələ sınaqdan çıxarılmasa da, yaxınlarda Birləşmiş Ştatların hərbi təchizat deposuna girəcək yeni silahını istifadə etmək qərarlılığını da möhkəmləndirən vasitələrdən biri olmuşdu. Bu yeni silahın adı atom bombası idi. Amerikalı liderlər yaponların savaşma gücünün gedərək yox olmaqda olduğunu görürdülər, ancaq savaşma istəklərinin söndüyünü göstərən hər hansı bir əlamətə rast gəlinmirdi. Hətta o qədər ki, sanki Yaponiyada yaşayan bütün millət son fərdinə qədər ölümünə davam edəcək bir intihar savaşına hazırlanırdı. Məktəb yaşlarındakı uşaqlara belə, bambu ağacından düzəldilmiş silahlarla nişan almağı öyrənmələri əmr edilmişdi. Bu ara Tokio ilə Moskva arasında gizli mesajlar alış-verişi davam edir, amerikalılar tərəfindən aşkarlanan bu mesajlarda Yaponiyanın sülh istəyəcəyinə dair heç bir əlamətə rast gəlinmirdi. Çünki Yaponiya sülh istəmirdi.

Vəziyyət getdikcə pisləşirdi. Buna baxmayaraq, yapon hökuməti anlaşılmaz və təslim olmaq haqqında ciddiyyətdən uzaq davranışlarını sürdürürdü. Bu da yaponların öz aralarında ağızbirlik olmadıqlarını və üstəgəl, müharibə tərəfdarlarının üstünlük təşkil etdiyinin bir göstəricisi idi. Tokio, müttəfiq dövlətlərə bəslədiyi kin səbəbilə, onların təklif etdiyi Potsdam Deklorasiyasını rədd etmişdi. Ancaq səhv etmişdi. Çünki əgər Deklorasiyanı qəbul etsəydi, savaşı nisbətən uyğun şərtlərlə tərk etmiş olacaqdı ki, bunların içində imperatorlarını qorumaq səlahiyyəti də vardı. Yapon liderlərindən bir çoxu, əsgər və mülki olmaqla bütün yapon xalqını - o günə qədər çılğın bir milliyyətçilik və dönməz militarizm naminə çəkdikləri dözülməz əzab-əziyyətlərdən xilas edəcək addımı atmadılar. Bu yöndə istəksiz davrandılar. Müttəfiqlər baxımından da bir





şey dəyişmirdi. Tokiodan, savaşı sonuna qədər davam etmək əzmi və iradəsini bildirən əlamətlər xaricində heç bir xəbər gəlmirdi.

İlk atom bombası 1945-ci ilin 6 avqustunda Xerosimaya atıldı. Avqustun 8-də Sovet İttifaqı Yaponiyaya müharibə elan elədi və heç vaxt itirmədən əvvəlcə planlaşdırılan tarixdən bir həftə əvvəl qüvvələrini Mancuriyaya yeridib, buranı işğal etdi. Tarixin bir həftə əvvələ alınmasının səbəbi vardı: Sovet Ordusu Mancuriyaya girmədən əvvəl savaşın bitməməsini qarantiya altına almaq istəyirdi. Avqustun 9-da ikinci atom bombası bu dəfə Naqasakiyə atıldı. Maraqlısı budur ki, Xerosimanın bombalanmasından sonra və Naqasakinin bombalanmasına qədər yapon ordusunun Baş Qərargah rəisi, yüksək çinli zabitlərə hələ də yapon əsgər və gəmiçilərinin hər nə şərt altında olursa olsun təslim olmamaları əmrini xatırladırdı. Onun qənaətinə görə, bu işdən qurtulmanın tək yanı "intihar" ola bilərdi. Avqustun 13-də, Naqasakinin bombalanmasından 4 gün sonra belə, Kamikadze cərəyanının yaradıcısı, admiral köməkçisi Takijiro Onishi hökumətin təslim olma təklifini rədd etməsi istiqamətində bütün gücü ilə mübarizə aparırdı. Onun fikirlərinə görə, təslim olmaqdansa, yapon xalqı ən ağır nəticəyə qədər savaşmağa davam etməli, içərisindən 20 milyon nəfəri işğalçı qüvvələrə qarşı intihar hücumuna girişərək, özlərini qurban verməliydilər.

Ancaq yapon şərtləri son dərəcə çarəsizdi. Atom bombalarının yaratdığı şokun qorxuncluğu, yeni meydana çıxan Sovet təhlükəsiylə birləşincə, işlər tamam dəyişmişdi. Savaşı sona qədər davam etdirmək tərəfdarı olan hərbçilərin bütün etirazlarına baxmayaraq, savaşı bitirmək tərəfdarı olanlar üstünlük təşkil etməyə başlamışdılar. Nəticədə, avqustun 14-ü gecəsi imperator təslim olmaq

haqqında bəyanat yaydı. Bu bəyanat ertəsi gün yayınlanacaqdı ki, elə həmin gecə üsyankar zabitlər imperatorun cangüdənlərini öldürərək, İmperatorluq Sarayına girdilər və bəyanatın yayınlanmasının qarşısını almaq üçün onu ələ keçirməyə çalışdıqları zaman Baş nazir Suzukini də qətlə yetirdilər. Üsyankar zabitlər məqsədlərinə çatmadan yaxalanmışdılar. Bu gecənin səhərisi günü radioların başındakı yapon xalqı, radiodan gələn yavaş və kəsik bir səs eşidirdilər. Zaman-zaman alçalıb-yüksələn bu səs, o günə qədər heç eşitmədikləri imperatorlarının səsi idi. Bu səs onları təslim olmağa çağıran imperatorlarının səsi idi. Artıq Sakit okeanda savaş bitmişdi.

Yenə də imperatorun təslim olma çağırışına müqavimət göstərənlər olmuşdu. İmperatorun təslim bəyanatı yayınlandığı günün səhərisi, mesaj hələ ictimaiyyətə elan olunmamışdan, Müharibə naziri Korechika Arami xarakiri etdi. Ondan sonrakı gün də Admiral Onishi xarakiri etdi. Bu xarakiridən sonra Onishinin planlaşdırdığı son Kamikadze hücumu üçün yaponların xeyli hazırlıq gördüyü ortaya çıxdı. Təslimdən və Birləşmiş Ştatlar işğalının tamamlanmasından sonra, amerikalı səlahiyyətlilər gizli yerlərdə gizlədilmiş 316.000 barrel neft tapdılar. Bu neft imperiyanın ordu və donanması tərəfindən çox uzaqlarda yerləşən qayalıqlarda və daha başqa yerlərdə tapılmışdı. Bunlar işğalçılara qarşı təşkil olunacaq intihar uçuşları üçün ayrılan neftdi. Təslim olandan sonra, yaponların son dirənmə ümidlərindən biri olan "şam kökü" benzin ehtiyatları da axtarılıb aşkarlanmışdı. "Şam kökü" benzini Amerikan hərbi "cip"ləri üzərində sınaqdan çıxarıldı və bərbad bir yanacaq növü olduğu məlum oldu. Bu benzin maşın və mühərrikləri istifadə olunmaz hala gətirəcək qədər qatı tərkibli idi. İçində başqa maddələr vardı.





## Təcili yardım maşını

İşğalın ilk dəqiqələrindən etibarən Yaponiyada neft qıtlığı öz təsirini göstərməyə başlamışdı. Avqust ayının 30-da Baş Komandan General Douglas Mac Artur, Atsugi hava limanından Yaponiyaya ayaq basdı. O saatlarda hava limanında yerləşən yapon təyyarələrinin pərvanələri Kamikadze hücumları etməmək üçün çıxarılmışdı. General heç vaxt itirmədən tez-tələsik təşkil olunmuş bir avtomobil karvanı ilə hava limanından ayrıldı. Bu avtomobil karvanına Toorneville Troleyini xatırladan qırmızı rəngli yanğınsöndürmə maşını yol göstərmişdi. General Mac Arturun getməkdə olduğu yer Yokohamada 3 gün sonra imzalanacaq təslim müqaviləsinə ev sahibliyi etmək üçün limanda onu gözləyən "Missouri" savaş gəmisiydi. Avtomobil karvanının keçdiyi prospektin hər iki tərəfində yapon əsgərləri sıralanmışdı və keçmişdə eynilə imperatorlarına göstərdikləri sayqı və təzimlə, arxaları Mac Artura çevrili olaraq Generalı salamlayırdılar. Hava limanı ilə gediləcək məsafə arasındaki məsafə sadəcə 20 mil idi. Amma buna baxmayaraq, avtomobil karvanının hədəfə yetişməsi 2 saat kimi çox uzun bir zaman almışdı. Yaponlar bu məqsəd üçün tapa bildikləri ən yaxşı avtomobilləri ayırmışdılar, ancaq bu avtomobillər son dərəcə aşınmışdı və benzinsizlik səbəbindən kömürlə işləyirdilər. Bu 20 mili başa vurana qədər hətta bir çoxları xarab olub yolda qalmışdı.

Bu tarixdən 12 gün sonra, 11 sentyabr 1945-ci ildə Tokioda olan amerikalı səlahiyyətlilər, əkilmiş tarlaların yanında yerləşən bir mərtəbəli sadə bir evin qarşısında bir araya gəldilər. Bura "Jilet" ləqəbi ilə tanınan, savaş

dövrünün Baş naziri General Hideki Tojonun eviydi. Tojo açıq bir pəncərənin qarşısında dayanmışdı. Ona həbs olunacağı, amerikalılarla birlikdə gedəcəyi və bunun üçün dərhal hazırlanması bildirildi. General heç bir etiraz etmədi və qəbul əlaməti olaraq, işarə verdi, sonra da pəncərəni bağladı. Dərhal ardından isə silah səsi eşidildi. Amerikalılar qaçaraq evə girdilər. Tojo böyük bir kresloda oturmuş, düz ürəyinin altından özünü güllələmişdi. Qan içində qıvrılırdı.

Bu hadisədən 4 il əvvəl, 1941-ci ildə, əvvəlcə Müharibə naziri kimi, sonra da Baş nazir olaraq Tojo Amerikaya müharibə elan etmək üçün Yaponiyaya təzyiq göstərənlərdən biri idi. O günlərdə Tojo, yapon imperiyasının sırf neft qıtlığı səbəbindən Amerika ilə müqayisədə zəif olduğunu irəli sürmüşdü. Bunun əvəzini isə, Tojo və onun kimi düşünənlər indi çox ağır şəkildə ödəyirdilər. Bütünlüylə ələ alındığında, Sakit okean hövzəsi savaşında 20 milyondan artıq insan həyatını itirmişdi. Bunların təxminən 2.5 milyonu yapon idi. İndi 1945-ci il idi və zəif mövqedə olan da Tojonun öz həyatı idi. Bunun səbəbi, öz silahı ilə açdığı yaranın həyati əhəmiyyət daşıdığı qədər ağır olmasından irəli gəlmirdi. Çünki o dərəcədə ağır yaralı deyildi. Səbəb çox sadə idi. Əvvəla, normal bir həkimin tapılması müşkül idi, sonra da çənində bir az da olsun benzin olan bir təcili yardım maşını tapmaq imkansızdı. Artıq yanacaq qıtlığı o dərəcədə kütləvi bir hal almışdı ki, nəticədə həkim tapılsa da, təcili yardım maşını tapılmadı. Axırda nəhayət, kifayət qədər yanacağı olan bir avtomobil tapılsa da, Tojonun evinə gəlib çatması üçün düz iki saat vaxt lazım oldu. Beləliklə, Tojo, xəstəxanaya çatdırılıb müalicə edildi və sağlamlığına qovuşdu. Bir il sonra müharibə cinayəti törətdiyinə görə, məhkəməyə verildi və cəzasını aldı. Vaxtı çatan kimi də edam edildi.



**Daniel Yergin**

**«Neft fəlsəfəsi»**

Bakı, «Zəkioğlu» nəşriyyatı – 2006, 865 səh.

Çapa imzalanmışdır:15.12.2006
Kağız formatı: 84x108 1/16
Çap vərəqi: 54
Sayı: 300

*Kitab «MM-S» Müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən istifadə olunmaqla ofset üsulu ilə çap olunmuşdur.*

Ünvan: A.Məhərrəmov 13, tel: 431-11-00,
Mob: (050) 314-09-37